AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
HÜQUQ FAKÜLTƏSİ

BEYNƏLXALQ PUBLİK HÜQUQ KURSU

DƏRSLİK

I CİLD
ÜMUMİ HİSSƏ

(yenidən işlənilmiş və təkmilləşdirilmiş ikinci nəşr)

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodiki Şuranın «Dövlət və Hüquq» Bölməsi tərəfindən təsdiq edilmişdir (protokol № 41, 10 noyabr 2011-ci il). Tədris proqramı – yenidən işlənilmiş və təkmilləşdirilmiş ikinci nəşr – 31 may 2018-ci il.

BAKI – 2023

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin 95 illiyinə həsr olunur.

Müəlliflər:

Əliyev Etibar Əli oğlu,
Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü, Bakı Dövlət Universitetinin Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq üzrə elmlər doktoru;

Hüseynova Fatimə Etibar qızı,
Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası"nın dosenti, hüquq üzrə fəlsəfə doktoru.

E 1957

Beynəlxalq publik hüquq kursu. Dərslik / Z.H.Əliyevin ümumi redaktəsi ilə. I cild. Ümumi hissə. Yenidən işlənilmiş və təkmilləşdirilmiş ikinci nəşr. "Bakı Universiteti" nəşriyyatı, 2023, 752 səh.

İSBN

© E.Ə.Əliyev, F.E.Hüseynova, 2023

Baş redaktor:

Əliyev Zaur Hümbət oğlu,
Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru.

Elmi redaktor:

Əliyev Əmir İbrahim oğlu,
Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müdiri, professor,
hüquq üzrə elmlər doktoru.

Rəyçilər:

Hüseynov Lətif Hüseyn oğlu,
professor, hüquq üzrə elmlər doktoru;

Timçenko Leonid Dmitriyeviç,
professor, hüquq üzrə elmlər doktoru;

Məmmədov Rüstəm Fəxrəddin oğlu,
professor, hüquq üzrə elmlər doktoru;

Hüseynov Turqay İmamqulu oğlu,
dosent, hüquq üzrə elmlər doktoru;

Vəliyev İsaxan Veysəl oğlu,
professor, hüquq üzrə elmlər doktoru;

Məmmədov Əlizadə Qurbanəli oğlu,
dosent, hüquq üzrə fəlsəfə doktoru.

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Hümbət oğlu Əliyevin ümumi redaktəsi ilə yenidən işlənilmiş və təkmilləşdirilmiş bu dərslikdə beynəlxalq publik hüquqa doktrinal anlayış verilir, onun nizamasalma predmeti, prinsipləri, mənbələri, subyektləri, beynəlxalq mübahisələrin həlli, beynəlxalq-hüquqi məsuliyyət və s. məsələlərə ətraflı şəkildə toxunulur və onların mahiyyətinə aydınlıq gətirilir. Əsərdə beynəlxalq publik hüquqa dair ümumi müddəalar nəzərdən keçirilərək, onun sistemi tədqiq edilir, eləcə də ayrı-ayrı institutlar fərqləndirilir, hər bir fəsil üzrə əyani sxem və tövsiyə edilən əlavə ədəbiyyat siyahısı verilir.

Müasir dövrdə beynəlxalq publik hüquq kursu beynəlxalq müqavilələr hüququ, xarici əlaqələr hüququ, beynəlxalq təşkilatlar hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq iqtisadi hüquq və s. bu kimi müstəqil publik hüquq sahələrini əhatə edir; hər bir müstəqil hüquq sahəsinə dair məsələlər elmi-nəzəri cəhətdən beynəlxalq-hüquqi kontekstdə işıqlandırılır.

Sözügedən dərslik müasir beynəlxalq publik hüquq elmində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, habelə beynəlxalq hüquq elmi sahəsində çalışan mütəxəssislər, vəkillər və digər praktik işçilər faydalana bilərlər.

ÖN SÖZ

Beynəlxalq publik hüquq dünyada mövcud olan müstəqil hüquq sistemlərindən biri kimi tanınır. Müasir dövrdə beynəlxalq aləmdə baş verən qlobal proseslərin idarə olunmasında, eləcə də ədalətli, təhlükəsiz və dayanıqlı beynəlxalq münasibətlər sisteminin formalaşmasında beynəlxalq publik hüquq əhəmiyyətli rol oynayır; şübhəsiz ki, beynəlxalq publik hüquq olmadan təhlükəsiz həyat və sülh, sabit beynəlxalq ictimai qayda-qanun təmin edilə bilməz. Dövlətlərin yürütdükləri xarici siyasətin hüquqi bazası sayılan beynəlxalq publik hüquq beynəlxalq münasibətlərdə hüquqi əsasları möhkəmləndirir ki, bu da, onların həyata keçirdikləri xarici siyasət prioritetlərindən biridir. Təqdim olunan bu dərslik də məhz müasir beynəlxalq publik hüquq kursu haqqında olub, ona həsr edilmişdir.

Planetdə yaşayan bütün xalqların və dövlətlərin təhlükəsizliyinin təmin edilməsində, həmçinin beynəlxalq sülhün qorunub saxlanılmasında əvəzedilməz və misilsiz rola malik olan müasir beynəlxalq publik hüquq BMT Nizamnaməsi kimi təmələ söykənir ki, bu da zamanəmizin ən vacib beynəlxalq hüquqi-siyasi sənədi sayılır.

Müasir dövrdə beynəlxalq publik hüquq vasitəsilə dövlətlərarası münasibətlərin, praktiki olaraq, bütün sahələrinin hüquqi tənzimlənməsi həyata keçirilir. Beynəlxalq publik hüquq subyektlərinin beynəlxalq-hüquqi statusu, funksiyaları, əsas beynəlxalq hüquq və vəzifələri, mübahisə və münaqişələrin həllinin tənzimlənməsi, eləcə də məsuliyyət məsələləri beynəlxalq publik hüquqla müəyyən edilir.

Beynəlxalq-hüquqi tənzimetmə funksiyasını həyata keçirərkən beynəlxalq publik hüquq hamılıqla qəbul edilmiş öz prinsiplərinə əsaslanır ki, imperativ xarakter və normativ əhəmiyyət daşıyan bu prinsiplər də iki yerə bölünür: əsas prinsiplər, sahəvi (xüsusi) prinsiplər. Beynəlxalq publik hüququn əsas

prinsipləri (dövlətlərin suveren bərabərliyi prinsipi, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, dövlətlərin ərazi bütövlüyü prinsipi və s.) beynəlxalq dövlətlərarası münasibətlərin bütün sferalarında tətbiq olunur. Normativ məzmunu olan və vacib beynəlxalq-hüquqi sənədlərdə öz ifadəsini tapan həmin prinsiplər dövlətlərarası münasibətlərin tənzimlənməsi sistemində mühüm rol oynayır. Universallıq beynəlxalq publik hüququn əsas prinsiplərinin xarakterik xüsusiyyəti olub, bunu ifadə edir ki, beynəlxalq publik hüququn bütün subyektləri məcburən həmin prinsiplərə əməl etməli və onları lazımınca yerinə yetirməlidirlər.

Beynəlxalq publik hüququn sahəvi (xüsusi) prinsipləri isə beynəlxalq publik hüququn tərkibində müstəqil hüquq sahəsi kimi tanınan hüquqi qurumlara xas olan əsas normativ ideyalardır. Belə prinsiplər beynəlxalq publik hüququn bu və ya digər konkret sahəsində tətbiq edilir.

Beynəlxalq publik hüququn təşəkkül tapması, formalaşması və inkişafı beynəlxalq birliyin üzvü olan müstəqil və suveren dövlətlərin fəaliyyəti ilə birbaşa bağlıdır. Müasir dövrdə bu məsələ daha aktual görünür və qeyd etməliyik ki, beynəlxalq publik hüquq dövlətlərarası hüquqdur.

Azərbaycan Respublikası da öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş, bir sıra qlobal layihələr gerçəkləşərək, ənənəvi təsərrüfat və idarəetmə mexanizmlərində ciddi dəyişikliklər baş verməklə ölkədə yeni infrastruktur sahələri yaranmış, beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi və sosial-iqtisadi sferalarda çoxaspektli inkişaf kursu bazar iqtisa-

diyyatına keçid və dünyada baş verən qloballaşma prosesləri fonunda ölkə Prezidenti İlham Əliyev tərəfindən zənginləşdirilərək, yeni çalarlarla və uğurla davam etdirilir; gələcəyə istiqamətlənmiş bu sosial-iqtisadi və hüquqi islahatlar bütün sahələrdə, o cümlədən beynəlxalq təhlükəsizlik sektorunda öz müsbət nəticələrini verməkdədir. Buna parlaq nümunə kimi göstərə bilərik ki, məhz müzəffər Ali Baş Komandan İlham Əliyevin «Dəmir Yumruq» əməliyyatı nəticəsində otuz ilə yaxın işğal altında olan torpaqlarımız erməni qəsbkarlarından azad edildi, 44 günlük Vətən Müharibəsində Qələbə Zəfəri çalındı.

Azərbaycanın xarici əlaqələrində beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən sayılır. Məhz bu istiqamətdə yürüdülən siyasətin nəticəsi olaraq, Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının – BMT, BƏT, ÜST, BMAT, BDT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, TDT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumların üzvü kimi, onların işində yaxından iştirak edir.

Azərbaycan həm də Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. bu kimi təşkilatlarla fəal əməkdaşlıq edir. İndiyədək bu təşkilatlar tərəfindən ölkəmizdə çoxsaylı iqtisadi və sosialyönümlü proqram və layihələr həyata keçirilmişdir. Son dövrlərdə Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi bütün bu beynəlxalq təşkilatlarla əlaqələri daha da genişlənmiş, dərinləşmiş və möhkəmlənmişdir. BMT Təhlükəsizlik Şurasına Azərbaycanın qeyridaimi üzv seçilməsi (2011-ci il), Qoşulmama Hərəkatına sədrlik etməsi (2019–2023-cü illər) və s. tədbirdər ölkəmizin beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığının bariz nümunəsidir.

Azərbaycanın xarici siyasət sahəsində beynəlxalq təhlükəsizlik strukturları ilə əməkdaşlığı da aparıcı xətt təşkil edir. Bu istiqamətdə NATO ilə əlaqələr xüsusilə qeyd edilməlidir. Azərbaycan – NATO əlaqələri ölkəmizin Avratlantik strukturlara inteqrasiyasının tərkib hissələrindən biridir. Bu əməkdaşlıq Azərbaycanın 1994-cü ildə «Sülh Naminə Tərəfdaşlıq» Proqra-

mına qoşulması ilə başlandı. Bununla, Azərbaycan NATO hərbi strukturları ilə əməkdaşlıq etmək, birgə təlimlər keçirmək, hərbi kadrlar hazırlanmasında blokun təcrübəsindən bəhrələnmək imkanları qazanmışdır.

Ölkəmiz Avropa ilə Asiyanı, eləcə də Şimalla Cənubu birbirinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. TRASEKA, BTC, BTƏ, TANAP, TAP və digər qlobal ticarət layihələri də daxil olmaqla, zəngin karbo-hidrat ehtiyatlarımızın dünya bazarlarına çıxarılması, beynəlxalq idman oyunlarının keçirilməsi, genişmiqyaslı turizm, iqtisadi, səhiyyə, tibbi-innovativ, elmi-texniki, mədəni və digər multikultural tədbirlərin gerçəkləşdirilməsi Azərbaycanın beynəlxalq aləmdəki rolunu artıraraq, onun gələcək inkişafı üçün daha yeni perspektivlərin açılmasına zəmin yaradır, habelə beynəlxalq ictimaiyyətdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin dərinləşməsi işinə öz töhfələrini verir.

Məhz bu cür vəziyyət Azərbaycanın da iştirakçısı olduğu dövlətlərarası beynəlxalq münasibətlər sisteminin daha yüksək səviyyədə və etibarlı şəkildə müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənməsini şərtləndirir; həmin normaların məcmusu isə beynəlxalq publik hüquq adlanır. Sözügedən dərslik, hesab edirik ki, Azərbaycan Respublikasının müasir dövrdə beynəlxalq strukturlara inteqrasiyası şəraitində olduqca aktualdır.

Beynəlxalq publik hüquq kursu iki bölmədən ibarət olmaqla özündə beynəlxalq publik hüquqa dair ümumi müddəaları (I bölmə) və xüsusi hissəni (II bölmə) ehtiva edərək, bu sferada ən aktual məsələləri əhatə edir.

Azərbaycan Respublikasında geniş formatda və təhsil standartlarına uyğun yazılmış bu əsərdə beynəlxalq publik hüquqa doktrinal anlayış verilir, onun nizamasalma predmeti, prinsipləri, mənbələri, subyektləri və s. məsələlərə ətraflı şəkildə toxunulur və onların mahiyyətinə aydınlıq gətirilir. Müasir beynəlxalq publik hüququn sistemi təqdim edilərək, beynəlxalq

təşkilatlar hüququ, xarici əlaqələr hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq insan haqları hüququ, beynəlxalq cinayət hüququ, beynəlxalq humanitar hüquq və s. bu kimi müstəqil hüquq sahələri fərqləndirilir.

Sözügedən dərslik, ilk növbədə, tələbə-oxucu auditoriyasını müasir beynəlxalq publik hüququn ibarət olduğu müvafiq hüquq normaları və beynəlxalq publik hüquq doktrinası haqqında zəruri elmi biliklərlə təmin edir. Belə biliklərə yiyələnmək və onları mənimsəmək olduqca vacib məsələdir. Axı, Azərbaycan Respublikasının məqsədlərindən biri dünya birliyinə tam inteqrasiya olunmaqdan ibarətdir; inteqrasiya həm iqtisadi, həm sosial, həm humanitar, həm də insan hüquqları, ekologiya, kosmos və s. bu kimi sahələri əhatə edir.

Dərsliyi fərqləndirən məziyyətlərdən biri də odur ki, onun struktur tərkibinə daxil olan hər bir fəsil üzrə əyani sxemlər tərtib olunmuş, eləcə də tövsiyə edilən elmi, xüsusi əlavə ədəbiyyat siyahısı verilmişdir.

Ən yeni normativ hüquqi sənədlər, çoxsaylı xarici elmi mənbələr və elektron informasiya resursları əsasında hazırlanmış bu kitab müasir beynəlxalq publik hüquq elmində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və hüquqi nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir. Fikrimizcə, qlobal inteqrasiya prosesləri şəraitində hüquqi maarifləmə baxımından da dərslik mühüm əhəmiyyətə malikdir.

Deyilənlər onu göstərir ki, müasir dövrdə beynəlxalq publik hüquq dövlətlərarası münasibətlər sistemində böyük əhəmiyyətə malik olan və mühüm rol oynayan siyasi-hüquqi fenomendir. Belə fenomenə dair elmi bilikləri təsbit edən bu dərslikdə həm də beynəlxalq publik hüquq normaları Azərbaycan Respublikasının qanunvericilik sistemi ilə qarşılıqlı əlaqə kontekstində nəzərdən keçirilir. Unutmaq olmaz ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, beynəlxalq publik hüququn norma və hamılıqla qəbul edilmiş prinsipləri Azərbaycanın qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

Tələbələr tərəfindən beynəlxalq publik hüquq elminin öyrənilməsi isə mühüm və zəruri olan aktual vəzifələrdəndir.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, tədqiqatçılar, beynəlxalq hüquq elmi sahəsində çalışan mütəxəssislər, vəkillər və digər praktik işçilər faydalana bilər. Hesab edirik ki, sözügedən əsər diplomatların praktik fəaliyyəti istiqamətində də faydalı ola bilər. Zənnimizcə, öz beynəlxalq-hüquqi mövqelərini əsaslandırmaq üçün dərslikdən həm də siyasətçilərin istifadə etmələri mümkündür; bu sıraya beynəlxalq həyat və dövlətlərarası münasibətlər sahəsinə aid məsələləri işıqlandıran jurnalistlər də daxil ola bilər. Dərslikdən beynəlxalq qanunvericiliyi inkişaf etdirmək və təkmilləşdirmək, beynəlxalq müqavilələri ratifikasiya etmək üçün həm də qanunverici orqan istifadə edə bilər.

Fərhad ABDULLAYEV,
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru.

I BÖLMƏ.
ÜMUMİ HİSSƏ

BEYNƏLXALQ PUBLİK HÜQUQA DAİR ÜMUMİ MÜDDƏALAR

I FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN HÜQUQİ MƏKANDA YERİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

1.1. Beynəlxalq publik hüququn anlayışı və predmeti

1.1.1. Beynəlxalq publik hüquq müstəqil hüquq sistemi kimi

Sosial tənzimləyici rolunda çıxış edən hüququn yerinə yetirdiyi əsas funksiyalardan biri cəmiyyətdəki ictimai münasibətləri nizamlamaq və qaydaya salmaqdan ibarətdir.

Hələ Qədim Roma hüququnda hüququn ümumi hüquq (jus publicum) və xüsusi hüquq (jus privatum) adlı iki sahəsi fərqləndirilirdi. Publik hüquq dövlət işləri sahəsinə aid hakimiyyət münasibətlərinin, xüsusi hüquq isə hakimiyyət səlahiyyətlərinə malik olmayan şəxslərlə bağlı münasibətləri nizama salır.[1]

Son dövrlərdə Azərbaycan hüquq elminə və qanunvericilik dövriyyəsinə «publik hüquq» anlayışı daxil edilmişdir. «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikasının Qanununa görə (2015-ci il), **publik hüquq** ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur.[2]

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild. Ümumi hissə (III nəşr). Bakı, 2018, s.10.

[2] Adıçəkilən qanun (29.12.2015-ci il, № 97-VQ) Azərbaycan Respublikası Prezidentinin 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir // AR QT. Bakı, 2016, № 2.

Qeyd etməliyik ki, hüququn tənzimetmə obyekti olan ictimai münasibətlər isə təkcə dövlət ərazisi daxilində əmələ gəlmir. Belə ki, həmin münasibətlərin müəyyən hissəsi dövlətlərin sərhədlərindən kənarda da yaranır; onların məcmusuna beynəlxalq münasibətlər deyilir.

Beynəlxalq münasibətlər dedikdə dövlətlərin sərhədlərindən kənara çıxan bütün ictimai münasibətlərin məcmusu başa düşülür.[1]

Bildiyimiz kimi, dövlətlərin sərhədləri daxilində yaranan ictimai münasibətlər, yəni konstitusiya, inzibati, cinayət və digər münasibətlər milli hüququn ayrı-ayrı müstəqil sahələri (məsələn, konstitusiya hüququ, inzibati hüquq, cinayət hüququ və s.) tərəfindən tənzimlənir; həmin müstəqil hüquq sahələri birləşərək hər bir dövlətin milli hüquq sistemini formalaşdırır.

Dövlətin milli hüquq sistemi dedikdə onun daxili hüquq sistemi başa düşülür. Buna görə də, dövlətin milli hüquq sisteminə **dövlətdaxili hüquq sistemi** də deyilir; o, eyni zamanda **milli hüquq** və ya **dövlətdaxili hüquq** adlanır.

Hər bir dövlətin ayrıca olaraq, özünəməxsus daxili (milli) hüquq sistemi vardır. Buna görə də, daxili (milli) hüquq sistemlərinin sayı Yer kürəsində mövcud olan dövlətlərin sayına bərabərdir: nə qədər dövlət varsa, bir o qədər də daxili (milli) hüquq sistemləri mövcuddur. Hal-hazırda dünyada dövlətlərin və dövlətəoxşar qurumların sayı 220-yə yaxındır.[2]

Beynəlxalq münasibətlərə gəldikdə, qeyd etmək lazımdır ki, bu münasibətlər, bir qayda olaraq, daxili (milli) hüquqla tənzimlənmir. Belə ki, beynəlxalq münasibətlər dövlətlərin sərhədlərindən kənara çıxan əlaqələr olduğuna görə daxili (milli) hüquq onları tənzimləmək iqtidarında deyildir.

---

[1] *Beynəlxalq münasibətlərin növləri və səviyyələri barədə ətraflı bax: məsələn,* Abbasbəyli A.N. Beynəlxalq münasibətlər: nəzəri və konseptual yanaşmalar. Bakı, 2006, 194 s.; Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. Bakı, 2014, s.157-159 və s.

[2] URL:http://ru.m.wikipedia.org/wiki / (18.04.2018-ci il).

Beynəlxalq münasibətlər geniş və əhatəli anlayışdır; bu münasibətlər özündə həm dövlətlərarası, həm də qeyri-dövlətlərarası beynəlxalq münasibətləri birləşdirir. Dövlətlərarası beynəlxalq münasibətlər, hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, beynəlxalq münasibətlərin vacib hissəsini təşkil edir.[1]

Dövlətlərarası beynəlxalq münasibətlərin əsas və başlıca iştirakçıları hakimiyyət subyekti olan dövlətlərdir. Belə münasibətlər iqtisadi, xarici əlaqələr, insan hüquqları, humanitar, ekologiya, dənizdən, hava məkanından və kosmik fəzadan istifadə olunması, həmçinin cinayətkarlıqla mübarizə və digər sahələrdə yaranır. Göstərilən bu və digər kompleks münasibətlər, şübhəsiz, müəyyən hüquq sistemi vasitəsilə tənzimlənir; ona **beynəlxalq publik hüquq deyilir**.

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüquq hər hansı hüquq sisteminin tərkib hissəsi kimi və bu sistemə daxil olan müstəqil hüquq sahəsi deyildir. Məsələn, mülki, konstitusiya, maliyyə, inzibati, cinayət, əmək və digərləri müstəqil hüquq sahələri olmaqla dövlətdaxili (milli) hüquq sisteminə daxildirlər. Lakin beynəlxalq publik hüquq özü ayrıca və müstəqil hüquq sistemi olub, bir neçə müstəqil publik hüquq sahəsindən (məsələn, beynəlxalq iqtisadi hüquq, beynəlxalq müqavilələr hüququ, xarici əlaqələr hüququ və s.) ibarətdir və bu barədə dərsliyin növbəti yarımbaşlıqlarının birində elmi söhbət aparılacaqdır. Belə ki, alimlərdən A.P.Movçanın haqlı və düzgün mövqeyinə görə, müasir dünyada yalnız iki növ hüquq sistemi mövcuddur; həmin sistemlərdən biri beynəlxalq publik hüquq (beynəlxalq publik hüquq sistemi), digəri isə milli (dövlətdaxili) hüquq (milli hüquq sistemi) adlanır.[2]

---

[1] Поздняков Э.А. Системный подход и международные отношения. М., 1976, с.36-37.

[2] Мовчан А.П. Международное воздушное право. Книга 1. М., 1980, с.15-16.

Qeyd etmək lazımdır ki, doktrinada beynəlxalq publik hüququn müstəqil hüquq sistemi olması barədə iki cür müxtəlif fikir söylənilir. Bir qrup alim belə hesab edir ki, beynəlxalq publik hüquq dövlətdaxili (milli) hüquqla birlikdə vahid hüquq sistemini yaradır; onların fikrincə, dünyada bir hüquq sistemi mövcuddur ki, həmin sistem özündə həm beynəlxalq publik hüququ, həm də dövlətdaxili hüququ birləşdirir. Söylənilmiş bu fikir beynəlxalq publik hüquqla dövlətdaxili hüquq arasındakı münasibət məsələsi barədə mövcud olan **monizm nəzəriyyəsinin (konsepsiyasının)**[1] mahiyyətini təşkil edir.

İkinci qrup müəlliflərin yanaşmasına görə, beynəlxalq publik hüquq və dövlətdaxili (milli) hüquq iki müxtəlif hüquq sistemləridir. Söylənilmiş bu fikir isə beynəlxalq publik hüquqla dövlətdaxili (milli) hüquq arasındakı münasibətə dair mövcud olan **dualizm nəzəriyyəsinin (konsepsiyasının)**[2] əsasını təşkil edir.

Tam əminliklə deyə bilərik ki, dualizm nəzəriyyəsi həqiqətə daha yaxındır. Doğrudan da, beynəlxalq publik hüquq müxtəlif ölkələrin dövlətdaxili (milli) hüquq sistemləri ilə paralel və mövcud olan **ayrıca, xüsusi və müstəqil hüquq sistemidir.** Təsadüfi deyil ki, xarici ölkələrin beynəlxalq publik hüquq doktrinası məsələyə bu cür yanaşaraq, beynəlxalq publik hüququn hüquqi məkanda tutduğu yeri məhz belə müəyyənləşdirir. Bu, beynəlxalq hüquq elmində hamılıqla qəbul olunmuş və geniş yayılmış fikirdir.

Qeyd etmək vacibdir ki, «**hüquq sistemi**» beynəlxalq və milli (dövlətdaxili) hüquq sistemlərindən başqa[3] həm də digər

[1] URL:http://www.lawstate.ru (19.04.2018-ci il).
[2] URL:http:// www.lawstate.ru (19.04.2018-ci il).
[3] Göstərilən hüquq sistemləri arasındakı münasibət və əlaqəyə dünya elmi xüsusi diqqət yetirir. *Bu barədə daha ətraflı:* Ануфриева Л.П. Соотношение международного публичного и международного частного права: правовые категории. М., 2002, с.321-365.

mənada işlədilir. Belə ki, digər mənada hüquq sistemi dedikdə hüquq ailəsi başa düşülür.[1]

Hüquq ailəsi dedikdə ayrı-ayrı ölkələrin milli (dövlətdaxili) hüquq sistemlərinin elə qrupu başa düşülür ki, bu qrupa daxil olan milli hüquq sistemləri bir-birinə yaxın olub, ümumi əlamətlərlə xarakterizə olunur.

Hüquq ədəbiyyatı səhifələrində hüquq ailəsinin müxtəlif tipoloji bölgüsünə rast gəlinir: roman-german, ingilis-amerikan (və ya ingilis-sakson), skandinaviya, indus, müsəlman, slavyan, sosialist və digər qarışıq hüquq ailəsi.[2] Lakin, ənənəvi olaraq, hüququn mənbələrinin iyerarxiyası (hüququn formaları) baxımından, müasir dövrdə dünyada, əsasən, iki hüquq ailəsi fərqləndirilir:

- roman-german hüquq ailəsi (bu ailəyə kontinental Avropa ölkələrinin, Türkiyənin və digər ölkələrin milli hüquq sistemləri daxildir);
- ingilis-amerikan hüquq ailəsi (bu ailəyə ABŞ, İngiltərə, Kanada, Avstraliya və digər ölkələrin milli hüquq sistemləri daxildir).

1.1.2. Beynəlxalq publik hüquq dövlətlərarası hüquqdur

Beynəlxalq publik hüquq daxili (milli) hüquq sistemindən bununla fərqlənir ki, o, **dövlətlərarası hüquqdur**. Hətta hüquq doktrinasında dəfələrlə qeyd edilmişdir ki, beynəlxalq hüququ «dövlətlərarası hüquq» adlandırmaq daha düzgün olardı. Beynəlxalq publik hüquqa dair ədəbiyyat səhifələrində beynəlxalq hüquq, haqlı olaraq, «dövlətlərarası hüquq» kimi xarakterizə

[1] *Məsələn, bax:* Правовые системы стран мира / Отв. ред. А.Я.Сухарев. М., 2001; Рене Давид, Камилла Жоффре-Спинози. Основные правовые системы современности. М., 1999; Марченко М.Н. Правовые системы современного мира. М., 2001.

[2] *Hüquq ailəsi barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.671.

edilir. Bunun bir neçə səbəbi vardır. Birinci səbəb ondan ibarətdir ki, beynəlxalq publik hüquq, əsasən və başlıca olaraq, dövlətlər tərəfindən yaradılır. Dövlətdaxili (milli) hüquq isə səlahiyyətli dövlət orqanlarının hakimiyyət xarakterli qərarları nəticəsində formalaşır. Beynəlxalq publik hüquqa gəldikdə isə, qeyd etməliyik ki, o, dövlətlərin öz **iradə ifadələri barədə razılığa gəlmələri yolu** ilə yaradılır; bu yol beynəlxalq hüquq yaradıcılığı prosesinin mahiyyətini təşkil edir və həmin proses **beynəlxalq müqavilələr** vasitəsi ilə həyata keçirilir. Buna görə də, beynəlxalq publik hüquq bilavasitə dövlətlərin iradəsini ifadə edir. Bununla yanaşı, qeyd etməliyik ki, beynəlxalq publik hüquq həm də **dövlətlərarası beynəlxalq təşkilatlar** tərəfindən yaranır.[1]

İkinci, beynəlxalq publik hüquqla **dövlətlərarası münasibətlər tənzimlənir**. Belə ki, beynəlxalq publik hüquq ayrı-ayrı hüquq normalarından ibarətdir; bu normalar, başlıca olaraq, dövlətlər arasındakı münasibətləri tənzimləyir.[2] Xüsusilə qeyd etməliyik ki, beynəlxalq publik hüququn dövlətlərarası münasibətləri tənzimləməsi barədə fikir sovet dövrünə aid bütün dərsliklərində öz təsdiqini tapmışdır.[3] Müasir dövrdə bu fikir həm də yaxın qonşumuz olan Rusiya Federasiyasında yazılan dərsliklərdə geniş yayılmışdır.[4] Azərbaycanlı alim L.H.Hüseynov, haqlı olaraq, göstərir ki, beynəlxalq publik hüquq dövlətlərarası

---

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 1998, с.6.

[2] Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1974, с.46-47; Международное право. Учебник / Под ред. Г.И.Тункина. М., 1982, с.44-45.

[3] M*əsələn, bax:* Международное право / Под ред. Ф.И.Кожевникова. М., 1957; Лисовский В.И. Международное право. Киев, 1955; Международное право. Учебник / Отв. ред. Е.А.Коровин. М., 1951; Международное право. Учебник / Под ред. Н.Т.Блатовой. М., 1987; Международное право / Под ред. Г.И.Тункина. М., 1982 və b.

[4] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003, с.17.

münasibətləri nizama salmaq üçündür.[1] Qərb hüquq ədəbiyyatı səhifələrində də göstərilir ki, beynəlxalq publik hüquq dövlətlərin davranışını (amerikalı hüquqşünas R.Vallas),[2] onlar arasındakı münasibətləri qaydaya salan normalardan ibarətdir (polşalı professor A.Klafkovski,[3] ingilis professoru C.Obrayen[4]). Deməli, bütün bunlar belə bir fikir söyləməyə imkan verir ki, beynəlxalq publik hüquq, hər şeydən əvvəl, dövlətlərarası münasibətlərin tənzimlənməsinə yönəlmişdir.

Üçüncü, beynəlxalq publik hüquq, əsasən və başlıca olaraq, **dövlətlərin öz səyləri hesabına təmin edilir**. Belə ki, beynəlxalq publik hüquq, məlum olduğu kimi, müxtəlif və çoxsaylı hüquq normalarından ibarətdir; bu normalara əməl olunması və riayət edilməsi, əgər lazım gələrsə, bu və ya digər **məcburiyyət tədbiri** vasitəsi ilə təmin edilir; həmin tədbirləri isə dövlətlər, habelə dövlətlərarası beynəlxalq təşkilatlar həyata keçirirlər.[5]

Göstərdiyimiz səbəblərə görə beynəlxalq publik hüquqa həm də dövlətlərarası hüquq deyilir. Hətta bir sıra xarici ölkədə «beynəlxalq publik hüquq» termininin qarşılıqlı ekvivalenti kimi işlədilən anlayışlarda beynəlxalq publik hüququn dövlətlərarası hüquq olması öz əksini tapır. Məsələn, «beynəlxalq hüquq» terminini ifadə etmək üçün ingiliscə **«international law»,** fransızca **«droit international»,** ispanca **«gerecho internacional»,** italyanca **«diritto internazionale»** və s. anlayışlarından istifadə olunur; həmin anlayışlarda işlədilən «nation» ifadəsi həm də «dövlət», «ölkə» kimi mənaları bildirir. Buna

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.6.
[2] Wallace R. International Law. London, 2005, p. 1-2.
[3] Klafkowski A. Prawo miedzynarodowe publiczne. Warszawa, 1970, c.18.
[4] O'Brien J. International Law. London / Sydney, 2001, p.1.
[5] Курс международного права. Том 1. М., 1989, с.29; Международное право. Учебник / Пред. ред. кол. Г.И.Тункин. М., 1999, с.10; Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005, с.17.

görə də, göstərilən xarici anlayışlar eynən «dövlətlərarası hüquq» mənasını ifadə edir.[1]

Bəzi ölkələrdə isə, əksinə, «beynəlxalq publik hüquq» terminin qarşılıqlı əvəzi və ekvivalenti kimi işlədilən anlayışlarda həmin terminin hərfən dövlətlərarası hüquq mənasını bildirməsi öz əksini tapmır. Məsələn, beynəlxalq hüquqa rusca «**международное право**», ukrayna dilində «**міжнародне право**», bolqarca «**международно право**», serb dilində «**медународне право**», polşa dilində «**prawo miedzynarodowe**» və s. deyilir. Həmin anlayışlar hərfi mənada azərbaycan dilinə «dövlətlərarası hüquq» kimi deyil, «xalqlararası hüquq» kimi tərcümə olunur. Türkiyədə beynəlxalq hüquq «**milletlerarası hukuk**» kimi terminlə ifadə olunur ki, həmin termin dövlətlərarası hüquq deyil, millətlərarası hüquq mənasını ifadə edir. Almaniyada «beynəlxalq hüquq» terminin qarşılıqlı ekvivalenti kimi «**Völkerrecht**» anlayışı işlədilir ki, həmin anlayış «xalqlar hüququ» mənasını bildirir.

Nə «xalqlararası hüquq», nə «millətlərarası hüquq», nə də «xalqlar hüququ» və s. bu kimi terminlər «beynəlxalq publik hüquq» anlayışının əsl və həqiqi mənasına uyğun gəlir; həmin terminlər beynəlxalq publik hüququn real məzmununu və onun funksiyasını tam şəkildə açıqlamır. Unutmaq olmaz ki, «beynəlxalq publik hüquq» termininin kəsb etdiyi obyektiv məna bundan ibarətdir: o, real surətdə mövcud olan dövlətlərarası hüquqdur.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində «beynəlxalq publik hüquq» termini ilə yanaşı, həm də «beynəlxalq ümumi hüquq» anlayışı işlədilir. «Beynəlxalq publik hüquq» anlayışından istifadə olunması barədə ilk təklif ingilis filosofu və hüquqşünası İ.Bentama məxsusdur; xatırladaq ki, o, 1789-cu ildə nəşr etdirdiyi məşhur traktatda

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.4.

(«Beynəlxalq hüququn və sülhün prinsipləri»)[1] birinci dəfə olaraq, «beynəlxalq hüquq» terminini işlətmək haqqında təkliflə çıxış etmişdir. Həmin traktatda o, Roma hüququ dövründən bəri işlədilən «xalqlar hüququ» (jus gentium) terminini «international law» («beynəlxalq hüquq») termini ilə əvəz etmişdir. 1802-ci ildə yeni termin Fransada işlədilməyə başladı; XIX əsrin ortalarından etibarən isə «beynəlxalq ümumi hüquq» termini tətbiq olundu.

İnqilabaqədərki Rusiya hüquq ədəbiyyatı səhifələrində, bir qayda olaraq, «beynəlxalq hüquq» termini işlədilmişdir;[2] həmin dövrdə «beynəlxalq ümumi hüquq» kimi anlayışdan istifadəyə, demək olar ki, təsadüf edilmir.

Sovet dövrünün hüquq ədəbiyyatı səhifələrində, əsasən, «beynəlxalq publik hüquq» termini işlədilmişdir;[3] bu termindən istifadə olunması müqayisəedilməz dərəcədə üstünlük təşkil edir. Bununla yanaşı, sovet dövründə müəyyən hallarda həm də «beynəlxalq ümumi hüquq» anlayışı işlədilirdi.[4]

«Beynəlxalq ümumi (və ya publik) hüquq» terminindən, əsasən, Qərb hüquq ədəbiyyatında istifadə olunur; bu termin dəbdə olub, Avropa müəllifləri tərəfindən tez-tez hallarda işlədilir.[5] Rusiya Federasiyası və MDB üzvü olan digər ölkələrdə

---

[1] URL:http://www.uchebnik - besplatno.com (27.07.2022-ci il).

[2] *Məsələn bax:* Капустин М.Н. Международное право. Ярославль, 1872; Каченовский Д.И. Курс международного права. Харьков, 1863; Коркунов Н.М. Лекции по международному праву. СПб., 1883-1884; Камаровский Л.А. Международное право. М., 1905; Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Том 1-2. СПб., 1904-1905; Уляницкий В.А. Международное право. Томск, 1911 və s.

[3] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Б.А.Коровин. М., 1951; Международное право. М., 1960; Международное право. Учебник / Отв. ред. Н.Г.Блатова. М., 1987; Курс международного права. М., 1972; Курс международного права. М., 1989; Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1974 və s.

[4] Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.3.

[5] *Məsələn, bax:* Daillier P., Pellet A. Droit International Public. P., 2002; Rousseau Ch. Droit International Public. P., 1970 və s.

hansı termindən istifadə olunmasına üstünlük verilməsinə gəldikdə isə, qeyd etməliyik ki, bu ölkələrin hüquq ədəbiyyatında çox nadir hallarda «beynəlxalq ümumi hüquq» termini işlədilir;[1] həmin ölkələrin həm tədris, həm də monoqrafiya ədəbiyyatında «beynəlxalq hüquq» anlayışından istifadə olunması son dərəcə geniş yayılmışdır.[2] Təsadüfi deyil ki, son zamanlar Rusiya Federasiyasında yazılan xeyli sayda dərslik «beynəlxalq hüquq» («международное право») adlanır.[3]

Beynəlxalq-hüquqi sənədlərdə hansı termindən istifadə edilməsi ilə bağlı qeyd etməliyik ki, bu sənədlərdə hər iki termin işlədilir. Məsələn, BMT Nizamnaməsində (13-cü maddə) «beynəlxalq hüquq» terminindən istifadə olunur; BMT Baş Assambleyasının 11 dekabr 1946-cı il tarixli Beynəlxalq hüququn proqressiv inkişafı və kodifikasiya olunması haqqında Qətnaməsində, habelə Beynəlxalq Hüquq Komissiyası haqqında Əsasnamədə «beynəlxalq ümumi hüquq» termini işlədilir.

Beləliklə, müasir dövrdə «beynəlxalq ümumi hüquq» və yaxud «beynəlxalq publik hüquq» terminləri epizodik və nadir hallarda tətbiq olunur. Hansı termindən istifadə edilməsinin məqsədəuyğun və üstün olmasına gəldikdə, qeyd etməliyik ki,

---

[1] *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.19; Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı, 2004 və b.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Пред. ред. кол. Г.И.Тункин. М., 1999; Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003; Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007; Международное право. Учебник / Отв. ред. Г.И.Курдюков. Казань, 2004; Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004; Шумилов В.М. Международное право. М., 2008 və b.

[3] *Bax, məsələn:* Международное право. Учебник / Отв. ред. Г.С.Стародубцев М., 2015; Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015 və b.

bunun heç bir hüquqi əhəmiyyəti və mənası yoxdur. Belə ki, onlar məzmunca üst-üstə düşən, mənaca sinonim terminlərdir; həm beynəlxalq publik hüquq, həm də beynəlxalq ümumi hüquq dövlətlərarası hüquqdur.

Beynəlxalq publik hüququn dövlətlərarası hüquq olması o deməkdir ki, beynəlxalq publik hüquq yalnız ayrıca və konkret dövlətlə deyil, dünyada mövcud olan bütün dövlətlərlə bağlıdır. Buna görə də, o, hər hansı dövlətin hüququ kimi deyil, müstəqil və suveren dövlətlər arasındakı münasibətləri tənzimləyən hüquq kimi çıxış edir. Təsadüfi deyil ki, beynəlxalq publik hüquq tarixən dövlətlərarası hüquq kimi, yəni yalnız dövlətlər arasındakı münasibətləri tənzimləyən hüquq kimi yaranmışdır.

1.1.3. Beynəlxalq publik hüququn doktrinal (elmi) anlayışı

Beynəlxalq hüquqa dair normativ material və qanunvericilik aktlarında beynəlxalq publik hüquqa leqal (normativ) anlayış verilmir; odur ki, müvafiq anlayışı beynəlxalq hüquq elmi (doktrina) formalaşdıraraq, onun hüquqi mahiyyətini və sosial təyinatını müəyyənləşdirir. Bu zaman söhbət beynəlxalq publik hüquqa verilən definisiyadan gedir. Belə ki, beynəlxalq publik hüquq çoxaspektli anlayışdır və aşağıda göstərilən dörd əsas mənada işlədilir:

- obyektiv mənada beynəlxalq hüquq;
- qanunvericilik mənasında beynəlxalq hüquq;
- elmi mənada beynəlxalq hüquq;
- tədris kursu mənasında beynəlxalq hüquq.

Hüquq ədəbiyyatı səhifələrində obyektiv mənada beynəlxalq publik hüququn çoxsaylı, bir-birindən fərqli və müxtəlif doktrinal tərifi formulə olunur. Həm inqilabaqədərki rusiyalı alimlər, həm sovet dövrünün müəllifləri, həm də tanınmış hüquqşünaslar tərəfindən beynəlxalq hüquqa müxtəlif elmi anlayışlar ve-

rilir; bu anlayışların üstün və fərqli cəhətləri vardır. Alimlər tərəfindən beynəlxalq hüquqa verilən anlayışlara ətraflı şəkildə toxunmağa müəlliflərdən K.A.Bekyaşev təşəbbüs göstərmişdir.[1]

Nəzəri ədəbiyyatda obyektiv mənada beynəlxalq publik hüquqa «ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi (məcmusu)» kimi anlayış verilir. Obyektiv mənada beynəlxalq publik hüququn tərifini formulə edərkən, aydın məsələdir ki, həmin anlayışı nəzərə almalıyıq. Buna görə də, ilk növbədə, müəyyənləşdirməliyik ki, obyektiv mənada beynəlxalq publik hüquqla hansı növ beynəlxalq ictimai münasibətlər tənzimlənir.

Obyektiv mənada beynəlxalq publik hüquqla, hər şeydən əvvəl, suveren, müstəqil və hakimiyyət daşıyıcısı olan **dövlətlər arasında yaranan münasibətlər** tənzimlənir. Buna baxmayaraq, beynəlxalq publik hüquqa dair iki cür anlayış fərqləndirilir; bunlardan biri klassik (ənənəvi), digəri isə müasir anlayış sayılır.

Beynəlxalq hüququn klassik (ənənəvi) anlayışı hələ XIX əsrdə formulə edilmişdir; bu anlayışa görə, beynəlxalq hüquq dedikdə dövlətlərarası münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Beynəlxalq hüquqa belə anlayış verilməsi bununla izah olunur ki, o zamanlar beynəlxalq hüququn subyekti kimi yalnız suveren və müstəqil dövlətlər tanınırdı. Qeyd etməliyik ki, beynəlxalq hüquqa verilən klassik (ənənəvi) anlayış öz aktuallığını yalnız keçən yüzilliyin ortalarına (II Dünya Müharibəsi dövrünə) kimi saxlaya bilmişdir. Belə ki, həmin dövrdə beynəlxalq publik hüququn yeni subyektləri (məsələn, dövlətlərarası beynəlxalq təşkilatlar və s.) yarandı; bu subyektlərlə dövlətlər, eləcə də onların özləri arasında əmələ gələn müxtəlif məzmunlu beynəlxalq münasibətlər də beynəlxalq publik hüquqla tənzimlənir. Əlbəttə, belə halda beynəlxalq

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 12-19.

hüququn klassik (ənənəvi) anlayışı tədricən öz əhəmiyyətini itirməyə başladı.

Deməli, beynəlxalq publik hüquq vasitəsi ilə həm də **hakimiyyət (dövlət) xarakterli digər beynəlxalq münasibətlər** nizamlanır və qaydaya salınır ki, həmin münasibətlər dövlətlərarası beynəlxalq təşkilatların, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqların (millətlərin), habelə dövlətəoxşar qurumların (məsələn, Vatikan) iştirakı ilə yaranır. Nəzərə almaq lazımdır ki, suveren və müstəqil dövlətlər arasında yaranan münasibətlər də hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətlərdir.

Beləliklə, beynəlxalq publik hüquqla həm suveren və müstəqil dövlətlər arasında yaranan, həm də hakimiyyət xarakterli digər beynəlxalq münasibətlər tənzimlənir. Klassik (ənənəvi) anlayışdan fərqli olaraq, **beynəlxalq hüququn müasir anlayışına** görə, beynəlxalq publik hüquq, hər şeydən əvvəl və başlıca olaraq, dövlətlər, eləcə də onların birlikləri arasında yaranan beynəlxalq münasibətləri tənzimləyir.

Digər tərəfdən, beynəlxalq publik hüququn tənzimlədiyi hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətlər həyata keçirilən beynəlxalq əməkdaşlığın, əsasən, aşağıdakı sahələrini əhatə edir: siyasi, iqtisadi, elmi-texniki və mədəni, ekologiya, cinayətkarlıqla mübarizə, xarici əlaqələr, insan hüquqları, habelə kosmos, dəniz və hava məkanından istifadə və s.

Göstərilən sahələrdə yaranan hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin üç əsas məqsədi vardır.[1]

- beynəlxalq sülhü möhkəmləndirmək;
- beynəlxalq təhlükəsizliyi təmin etmək;
- beynəlxalq əməkdaşlığı inkişaf etdirmək.

[1] Курс международного права. М., 1972, с.16-17; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.1; Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003, с.17 və b.

Hesab edirik ki, yuxarıda şərh olunanlar obyektiv mənada beynəlxalq publik hüquqa lakonik, hərtərəfli və əhatəli doktrinal anlayış verilməsi üçün kifayətdir.

Obyektiv mənada beynəlxalq publik hüquq dedikdə müasir dünyada sülhün möhkəmləndirilməsi, təhlükəsizliyin təmin olunması və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə suveren dövlətlər və onların birlikləri arasında siyasi, iqtisadi, elmi-texniki və mədəni, xarici əlaqələr, ekologiya, cinayətkarlıqla mübarizə, kosmik fəza, dəniz və hava məkanından istifadə, insan hüquqları və s. sahələrdə əmələ gələn və digər hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Bu, tərəfimizdən müasir beynəlxalq publik hüquqa verilən doktrinal anlayışdır. Zənn edirik ki, bu anlayış reallığa və həqiqətə daha uyğundur.

Beynəlxalq publik hüquq obyektiv mənadan başqa, həm də beynəlxalq qanunvericilik mənasında işlədilir. **Qanunvericilik mənasında beynəlxalq publik hüquq** dedikdə beynəlxalq-hüquqi aktların elə məcmusu başa düşülür ki, həmin aktlar vasitəsilə hakimiyyət xarakterli beynəlxalq münasibətlərin, yəni beynəlxalq publik hüquqla nizamlanan və qaydaya salınan beynəlxalq münasibətlərin tənzimlənməsi həyata keçirilir. Beynəlxalq-hüquqi aktlar dedikdə, ilk növbədə, **beynəlxalq müqavilələr** başa düşülür. Beynəlxalq müqavilələr hakimiyyət xarakterli beynəlxalq münasibətləri tənzimləyən müvafiq beynəlxalq publik hüquq normaları müəyyənləşdirir. «Beynəlxalq qanunvericilik» terminindən Qərb hüquq ədəbiyyatında istifadə edilir; bu terminlə bütün beynəlxalq müqavilələrin məcmusu əhatə olunur.

Elmi mənada beynəlxalq publik hüquq dedikdə beynəlxalq-hüquqi məsələlər (beynəlxalq-hüquqi normalar, beynəlxalq-hüquqi aktlar, yəni beynəlxalq qanunvericilik aktları, hakimiyyət xarakterli beynəlxalq münasibətlər və s. barədə beynəlxalq hüquq üzrə mütəxəssis alimlərin irəli sürdükləri ideya, fikir, konsepsiya, nəzəriyyə, postulat, anlayış, təlim və fərziyyələrin sistemi başa düşülür. Söhbət **beynəlxalq publik hüquq**

elmindən gedir; ona **beynəlxalq publik hüquq doktrinası** da deyilir.

Hakimiyyət xarakterli beynəlxalq münasibətləri hüquqi cəhətdən tənzimləmək obyektiv mənada beynəlxalq publik hüququn vəzifəsi sayılır. Beynəlxalq hüquq elminin əsas işi isə hakimiyyət xarakterli beynəlxalq münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin qanunauyğunluqlarını öyrənməkdən ibarətdir.

Nəhayət, **tədris kursu mənasında beynəlxalq publik hüquq** dedikdə beynəlxalq hüquqa dair tədris fənni başa düşülür. Söhbət **beynəlxalq publik hüquq dərsliyindən** gedir. Beynəlxalq publik hüquq dərsliyi isə oxucu kütləsinə üç əsas və başlıca məsələni öyrədir, onları həmin məsələlər barədə elmi biliklərlə təmin edir (göstərilən məsələlərə obyektiv mənada beynəlxalq publik hüquq, qanunvericilik mənasında beynəlxalq publik hüquq və beynəlxalq publik hüquq elmi – doktrina aiddir).

Beynəlxalq hüquq dərsliyinin yazılması işinə başlanması Rusiyada inqilabaqədərki dövrə təsadüf edir.[1] Sovet dövründə bu iş xeyli genişlənmişdir. Belə ki, XX əsrin ikinci yarısında SSRİ-də,[2] sonra isə Rusiya Federasiyasında 30-dan çox beynəlxalq hüquq dərsliyi yazılmışdır.[3]

Sovet dövründə Azərbaycanda Ə.Əsgərovun müəllifliyi ilə 1979-cu ildə «Beynəlxalq hüquq» adlı dərs vəsaiti nəşr olun-

[1] *Məsələn, bax:* Казанский П.Е.Учебник международного права, публичного и гражданского. Одесса, 1902, с.6.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Е.А.Коровин. М., 1951; Международное право. М., 1957; Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1974; Международное право. Учебник / Отв. ред. Н.Т.Блатова. М., 1987; Международное право. Учебник. М., 1987 və b.

[3] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Л.Н.Шестакова. М., 2005; Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003 və s.

muşdur.[1] Respublikamız öz tarixi müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlı alimlər tərəfindən müxtəlif beynəlxalq hüquq dərslikləri çap edilmişdir.[2]

Beynəlxalq publik hüquq dərsliyi Avropa ölkələrində də yazılmışdır. Belə ki, keçən yüzilliyin 70–80-ci illərində bir sıra Avropa ölkəsində beynəlxalq ümumi (publik) hüquq dərsliyi nəşr olunmuşdur.[3]

Lakin, qeyd etmək lazımdır ki, beynəlxalq hüquq dərsliklərinin hamısında, bir qayda olaraq, müəlliflər yalnız «beynəlxalq hüquq elmi»[4], habelə «tədris fənni kimi beynəlxalq hüquq»[5] terminlərini işlətməklə kifayətlənirlər, digər məsələlərə isə geniş yer ayrılmır.

1.1.4. Beynəlxalq publik hüququn nizamasalma predmeti

Beynəlxalq publik hüquqla tənzimlənən bütün növ ictimai münasibətlər qrupu onun **nizamasalma predmetini** təşkil edir. Nizamasalma predmeti elə bir meyardır ki, həmin meyar beynəlxalq publik hüququ dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir. Məlum olduğu kimi, milli hüququn nizamasalma predmetini ayrıca, konkret bir dövlətin daxilində yaranan ictimai münasibətlər təşkil edir. Beynəlxalq publik hüququn nizamasalma predmeti rolunda isə dövlətlərin sərhədləri çərçivəsindən kənara çıxan münasibətlər çıxış edir.

---

[1] Əsgərov Ə. Beynəlxalq hüquq. Dərs vəsaiti. Bakı, 1979.

[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000; Beynəlxalq hüquq /Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002; Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı, 2004 və s.

[3] *Məsələn, bax:* Manyal of Public International Law / Ed. by M. Sorensen. London, 1978; Encyclopedia of Public International Law. Vol.7. Amsterdam, 1984 və s.

[4] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 1999, с.17.

[5] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.17.

Dövlət sərhədlərindən kənara çıxan ictimai münasibətlərə, əvvəllərdə göstərdiyimiz kimi, beynəlxalq münasibətlər deyilir.[1] Lakin bütün beynəlxalq münasibətlər beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olmur. Belə ki, beynəlxalq münasibətlər iki yerə bölünür:

- hakimiyyət xarakterli beynəlxalq münasibətlər;
- qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlər.

Hakimiyyət xarakterli beynəlxalq münasibətlər dedikdə dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar arasında yaranan beynəlxalq münasibətlər başa düşülür; onlara həm də **hakimiyyətlərarası beynəlxalq münasibətlər**[2] və ya **dövlət xarakterli beynəlxalq münasibətlər**[3] deyilir. Beynəlxalq publik hüququn nizamasalma predmetini də məhz hakimiyyət xarakterli münasibətlər və ya hakimiyyətlərarası beynəlxalq münasibətlər, yaxud dövlət xarakterli beynəlxalq münasibətlər təşkil edir. Bu terminlər – «hakimiyyət xarakterli beynəlxalq münasibətlər», «hakimiyyətlərarası beynəlxalq münasibətlər» və «dövlət xarakterli beynəlxalq münasibətlər» ifadələri terminoloji baxımdan, fərqli olsalar da, məzmunca, tam üst-üstə düşən, sinonim (eynimənalı) anlayışlardır.

Dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar dedikdə aşağıdakılar başa düşülür:

- suveren dövlətlər;
- öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər);
- dövlətəoxşar qurumlar (məsələn, Vatikan);

---

[1] Усенко Е.Т. Теоретические проблемы соотношения международного и внутригосударственного права // Советский ежогодник международного права, 1977. М., 1978, с.57-86.

[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.8.

[3] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.29.

– dövlətlərarası beynəlxalq təşkilatlar.

Əgər göstərilən qurumlar siyasi, iqtisadi, elmi-texniki və digər sahələrdə öz aralarında bu və ya digər münasibətə daxil olarsa, onlar hakimiyyət xarakterli beynəlxalq münasibətlər hesab ediləcəkdir. Hakimiyyət xarakterli beynəlxalq münasibətlər geniş anlayışdır. Belə ki, onları bu və ya digər meyara görə müxtəlif növlərə bölmək olar. **Məzmun** baxımından, hakimiyyət xarakterli beynəlxalq münasibətlərin bir neçə növü fərqləndirilir: siyasi xarakterli beynəlxalq münasibətlər, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq ekoloji münasibətlər, xarici əlaqələr sahəsində beynəlxaq münasibətlər və s.

Hansı qurumlar arasında yaranmasından asılı olaraq, hakimiyyət xarakterli beynəlxalq münasibətlərin aşağıdakı növləri mövcuddur:

– dövlətlər arasındakı beynəlxalq münasibətlər;
– dövlətlərlə dövlətlərarası beynəlxalq təşkilatlar arasında yaranan münasibətlər;
– dövlətlərarası beynəlxalq təşkilatların öz aralarında yaranan münasibətlər;
– dövlətlərlə öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) arasında yaranan beynəlxalq münasibətlər;
– dövlətlərlə dövlətəoxşar qurumlar arasında yaranan beynəlxalq münasibətlər;
– dövlətlərarası beynəlxalq təşkilatlarla öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) arasında yaranan beynəlxalq münasibətlər və s.

Göstərilən bütün növ beynəlxalq münasibətlər üçün belə bir ümumi cəhət xarakterikdir ki, onlar **dövlətlərarası beynəlxalq münasibətlərdir**. Belə fikir söyləmək üçün kifayət qədər əsas vardır. Hər şeydən əvvəl, qeyd edək ki, iki dövlət bir-biri ilə bu və ya digər sahədə əlaqəyə girərsə, belə əlaqə dövlətlərarası beynəlxalq münasibət deməkdir. Dövlətlərlə dövlətlərarası

beynəlxalq təşkilatlar arasındakı münasibətlərə gəldikdə, qeyd etməliyik ki, bu münasibətlər də dövlətlərarası beynəlxalq münasibətlər kateqoriyasına aiddir. Ona görə ki, dövlətlərarası beynəlxalq təşkilatları dövlətlər yaradırlar; onların üzvləri ayrı-ayrı dövlətlərdən ibarətdir. Buna görə də, dövlətlərarası beynəlxalq təşkilatlar dövlətlərin birlik formasıdır. Məlum məsələdir ki, əgər dövlətlər belə təşkilatlarla əlaqəyə girərsə, belə əlaqə dövlətlərarası münasibət deməkdir.

Dövlətəoxşar qurumlar da dövlətlərə xas olan bir sıra əlamətə malikdir. Təbii ki, belə qurumlarla dövlətlər arasında yaranan əlaqələr dövlətlərarası beynəlxalq münasibətlər hesab ediləcəkdir.

Öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalq (millət) formalaşmaqda və yaranmaqda olan dövlət kimi hərəkət edir. Başqa sözlə, belə xalq (millət) yaranma prosesində olan dövlət deməkdir. Aydın məsələdir ki, onunla dövlət arasındakı müvafiq əlaqə də, faktiki olaraq, dövlətlərarası münasibət kimi tanınır.

Dövlətlərarası beynəlxalq münasibətlər iki mənada işlədilir: məhdud və geniş mənada. **Məhdud mənada dövlətlərarası beynəlxalq münasibətlər** yalnız suveren və müstəqil dövlətlər arasında yaranan münasibətlərə deyilir; belə münasibətlər **klassik beynəlxalq hüququn nizamasalma predmetini** təşkil edir.

Geniş mənada dövlətlərarası beynəlxalq münasibətlər dedikdə suveren dövlətlərin, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqların, millətlərin (məsələn, Fələstin xalqının və s.), dövlətəoxşar qurumların və dövlətlərarası beynəlxalq təşkilatların (məsələn, BMT, BVF, ÜTT, BMAT və s.) iştirakı ilə yaranan münasibətlər başa düşülür; belə münasibətlər isə **müasir beynəlxalq publik hüququn nizamasalma predmeti** sayılır. Müəlliflərin əksəriyyəti, məsələn, S.V.Çerniçenko[1],

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.25.

İ.İ.Lukaşuk[1], A.Y.Kapustin[2], Q.V.İqnatenko[3] və digərləri «dövlətlərarası beynəlxalq münasibətlər» anlayışının məhdud və geniş mənalarda işlədilməsini fərqləndirməsələr də, belə hesab edirlər ki, beynəlxalq hüququn predmeti rolunda məhz dövlətlərarası beynəlxalq münasibətlər çıxış edir. Bu fikri tamamlayaraq göstəririk ki, müasir beynəlxalq publik hüququn nizamasalma predmetini, sadəcə olaraq, bütövlükdə geniş mənada dövlətlərarası münasibətlər təşkil edir.

Beynəlxalq münasibətlərin digər növünə, yəni **qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlərə** gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq səviyyədə belə münasibətlər dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar arasında deyil, müxtəlif fiziki və hüquqi şəxslərin, dövlətlərin və qeyri-hökumət beynəlxalq təşkilatların iştirakı ilə yaranır; həmin münasibətlərə hüquq ədəbiyyatı səhifələrində **qeyri-dövlətlərarası beynəlxalq münasibətlər**[4] və ya **qeyri-dövlət xarakterli beynəlxalq münasibətlər**[5] də deyilir. Beynəlxalq xüsusi hüquq elmində isə qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlər «**xarici elementli beynəlxalq mülki münasibətlər**» adlanır.[6] Göstərilən anlayışlar arasında heç bir fərq yoxdur və onlar eyni mənanı ifadə edir.

Qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlərin hansı hüquqla tənzimlənməsinə gəldikdə isə, qeyd etməliyik ki, həmin münasibətlər **beynəlxalq xüsusi hüquqla (international private law)** tənzimlənir; onun köməyi və vasitəsi ilə həmin

---

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.1.

[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.21.

[3] Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.29.

[4] Богуславский М.М. Международное экономическое право. М., 1986, с.5.

[5] Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.29.

[6] Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007.

münasibətlərin iştirakçıları arasındakı qarşılıqlı münasibətlər qaydaya salınır.

Beynəlxalq publik hüquq və beynəlxalq xüsusi hüquq bir-birilə sıx surətdə bağlıdır. Hakimiyyət xarakterli (dövlətlərarası) beynəlxalq münasibətlərin beynəlxalq publik hüquqla, qeyri-hakimiyyət xarakterli (qeyri-dövlətlərarası) beynəlxalq münasibətlərin isə beynəlxalq xüsusi hüquqla tənzimlənməsinə baxmayaraq, həmin münasibətlər bir-biri ilə qarşılıqlı əlaqəlidirlər; lakin, nə qədər qarşılıqlı əlaqədə olsalar da, onlar vahid sistem halında birləşmirlər. Qeyd etməliyik ki, sistem halında yalnız hakimiyyət xarakterli (dövlətlərarası) beynəlxalq münasibətlər birləşir; ona **dövlətlərarası münasibətlər sistemi** deyilir. «Dövlətlərarası münasibətlər sistemi» anlayışı müasir beynəlxalq publik hüquq elmində, ilk dəfə olaraq, sovet dövrünün tanınmış alimi Q.İ.Tunkin tərəfindən işlədilmişdir.[1] Alimin fikrincə, dövlət hakimiyyətinə malik olan qurumlar arasındakı dövlətlərarası münasibətlər müəyyən bir sistem təşkil edir. Bu sistemdə iştirak edən subyektlərə gəldikdə isə, qeyd etməliyik ki, dövlətlər, dövlətlərarası beynəlxalq təşkilatlar, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millətlər (xalqlar) və dövlətəoxşar qurumlar **dövlətlərarası sistemin iştirakçılarıdır.** Beynəlxalq publik hüququn nizamasalma predmeti rolunda da məhz həmin iştirakçılar arasında **dövlətlərarası sistemdə yaranan münasibətlər** çıxış edir.

Beləliklə, müasir beynəlxalq publik hüququn **nizamasalma predmetini** yalnız aşağıdakı münasibətlər təşkil edir ki, həmin münasibətlər mənaca eyni olub, bir bərabərdə tutulur:

- hakimiyyət xarakterli beynəlxalq münasibətlər;
- dövlət xarakterli beynəlxalq münasibətlər;
- dövlətlərarası beynəlxalq münasibətlər;
- hakimiyyətlərarası beynəlxalq münasibətlər;
- dövlətlərarası sistemdə yaranan münasibətlər.

[1] Тункин Г.И. Право и сила в международной системе. М., 1983,с.10.

1.2. Beynəlxalq publik hüququn funksiyaları, əhəmiyyəti və əsas xüsusiyyətləri

1.2.1. Beynəlxalq publik hüququn funksiyaları

Beynəlxalq publik hüququn mahiyyəti və sosial təyinatı onun yerinə yetirdiyi funksiyalarda ifadə edilir. Belə ki, funksiyalar beynəlxalq publik hüququn mahiyyətini, eləcə də sosial təyinatını müəyyənləşdirməyə imkan verən məsələlərdən biri hesab olunur; funksiyalar həm də beynəlxalq ictimai həyatda beynəlxalq publik hüququn hansı rol oynamasını ifadə edir.

Beynəlxalq publik hüququn funksiyaları dedikdə onun özünün tənzimlədiyi geniş mənada dövlətlərarası münasibətlərə, dövlətlərarası sistem iştirakçılarının (dövlətlərin, dövlətlərarası beynəlxalq təşkilatların və s.) davranışına göstərdiyi təsirin əsas istiqamətləri başa düşülür.

Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində beynəlxalq publik hüququn bir neçə funksiyası göstərilir. Lakin, qeyd etməliyik ki, beynəlxalq publik hüququn hansı funksiyaları yerinə yetirməsi məsələsində müəlliflərin mövqeləri üst-üstə düşmür. Məsələn, Y.M.Kolosov beynəlxalq publik hüququn dörd[1] (əlaqələndirmə funksiyası, tənzimetmə funksiyası, təminetmə funksiyası, mühafizəetmə funksiyası), K.A.Bekyaşev iki[2] (əlaqələndirmə funksiyası, idarəetmə funksiyası), İ.İ.Lukaşuk dörd funksiya[3] (tənzimetmə funksiyası, beynəlxalq hüququn məqsəd və prinsiplərinə zidd olan yeni münasibət və institutların yaranması ilə mübarizə aparmaq funksiyası, internasionalizm – beynəlmiləlləşdirmək funksiyası, informasiya-tərbiyə funksiyası) və s. yerinə yetirilməsini göstərirlər. Bir sıra dərslikdə isə

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.3.
[2] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 18-19.
[3] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.23-24.

«beynəlxalq publik hüququn funksiyaları» mövzusuna ümumiyyətlə toxunulmur və ya yer ayrılmır.[1]

Hüquq ədəbiyyatında söylənilən fikirləri nəzərə alaraq, deyə bilərik ki, beynəlxalq publik hüquq ümumilikdə üç əsas funksiya yerinə yetirir:

– əlaqələndirmə (koordinasiya) funksiyası;

– tənzimetmə funksiyası;

– mühafizəetmə funksiyası.

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüquq beynəlxalq münasibətlərdə əlaqələndirmə (koordinasiya) funksiyasını yerinə yetirir. Buna görə də, beynəlxalq publik hüquq **koordinasiya hüququ** kimi tanınır.[2]

Əlaqələndirmə funksiyasının mahiyyəti beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş bir sıra standartı nəzərdə tutmasından, bu yolla onun dövlətlərin davranışını (beynəlxalq fəaliyyətini) uzlaşdırmasından və əlaqələndirməsindən ibarətdir. Məsələn, beynəlxalq publik hüquq radiotezlik spektrindən istifadənin qaydalarını müəyyən edir ki, bu qaydalar elektron rabitədən istifadə zamanı qarşılıqlı maneəni aradan qaldırır.

Beynəlxalq publik hüququn beynəlxalq münasibətlərdə əlaqələndirmə funksiyasını yerinə yetirməsi sovet hüquq ədəbiyyatında göstərilmişdir;[3] həm də sovet hüquq ədəbiyyatı həmin funksiyanı beynəlxalq publik hüququn yeganə funksiyası sayırdı.

Beynəlxalq publik hüququn **tənzimetmə funksiyası** onun geniş mənada dövlətlərarası münasibətləri nizamlamasında və

---

[1] *Məsələn, bax:* Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов, М., 2009; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 və s.

[2] Государство и право. М., 2006, № 4, с.72.

[3] Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.11; Василенко В.А. Основы теории международного права. Киев, 1988, с.120 və b.

qaydaya salmasında ifadə olunur. Qeyd etmək lazımdır ki, İ.İ.Lukaşuk çox düzgün olaraq, dövlətlərarası münasibətləri tənzimetməni beynəlxalq publik hüququn başlıca funksiyası hesab edir.[1]

Beynəlxalq publik hüququn tənzimetmə funksiyasını yerinə yetirməsi ona bir az əvvəldə verdiyimiz doktrinal anlayışdan irəli gəlir. Belə ki, bu anlayışa görə, beynəlxalq publik hüquq hakimiyyət xarakterli beynəlxalq münasibətləri, əsasən də, dövlətlər arasında yaranan beynəlxalq münasibətləri tənzimləyir.

Tənzimetmə elə müəyyənetmə deməkdir. Buna görə də, beynəlxalq publik hüququn tənzimetmə funksiyasının mahiyyəti onun dövlətlərarası sistem iştirakçıları üçün (xüsusən də dövlətlər üçün) hüquq və vəzifələr, davranış qaydaları müəyyənləşdirməsindən ibarətdir. Belə müəyyənetmə sayəsində yalnız dövlətlərarası sistemdə deyil, ümumiyyətlə, bütövlükdə qlobal beynəlxalq münasibətlər sistemində qayda-qanun yaradılır. Bunun nəticəsində isə beynəlxalq əməkdaşlığın və münasibətlərin, habelə müasir beynəlxalq publik hüququn özünün proqressiv inkişafı üçün əlverişli şərait təmin olunur.

Beynəlxalq publik hüququn tənzimetmə funksiyası həm də bununla ifadə olunur ki, o, beynəlxalq fəaliyyəti, dövlətlərarası əməkdaşlıq və əlaqələri, eləcə də bütövlükdə müxtəlif sahələrdə beynəlxalq münasibətləri idarə edir. Bu kontekstdə bir sıra müəllif beynəlxalq publik hüququn ayrıca olaraq, idarəetmə funksiyasını yerinə yetirməsi barədə fikir söyləyir: məsələn, inqilabaqədərki rusiyalı alimlərdən F.F.Martens qeyd edir ki, beynəlxalq publik hüquq dövlətlərin beynəlxalq fəaliyyətini idarə edir,[2] tanınmış fransalı professor G.Agnel göstərir ki, beynəlxalq publik hüquq dünya birliyini idarə etmək üçün nəzərdə

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 2000, 432 с.

[2] Мартенс Ф.Ф.Современное международное право цивилизованных народов. Том 1. СПб., 1882, с.25.

tutulan norma və institutlardan ibarətdir.[1] Söylənilən bu fikirlərdən belə çıxır ki, beynəlxalq publik hüquq idarəetmə funksiyasını yerinə yetirir.

Müəlliflərdən K.A.Bekyaşevə görə, subyektlərin beynəlxalq münasibət-lərin müvafiq sahələrində fəaliyyətini idarə etmək beynəlxalq publik hüququn əsas funksiyası sayılır; alim belə hesab edir ki, müasir hüququn funksiyasına beynəlxalq münasibətləri tənzimetmə ilə bərabər, onları idarə etmək də daxildir.[2]

Doğrudan da, nəzərə almaq lazımdır ki, beynəlxalq publik hüquq dövlətlərarası beynəlxalq münasibətləri idarə edir və bunu inkar etmək olmaz. Digər tərəfdən, unutmamalıyıq ki, beynəlxalq publik hüquq qlobal xarakter almış beynəlxalq münasibətləri idarəetmə sisteminin vacib elementidir. Lakin bunlar heç də belə bir fikir söyləməyə əsas vermir ki, beynəlxalq publik hüquq ayrıca olaraq və müstəqil surətdə idarəetmə funksiyasını yerinə yetirir. Məsələ burasındadır ki, beynəlxalq münasibətləri idarəetmə beynəlxalq publik hüququn tənzimetmə funksiyasına daxildir. Başqa sözlə, beynəlxalq publik hüququn idarəetmə funksiyası elə onun tənzimetmə funksiyası ilə əhatə olunur. Ona görə ki, idarəetmə tənzimetmənin formalarından biridir; əgər dövlətlərarası beynəlxalq münasibətlər idarə olunursa, deməli, həmin münasibətlər tənzimlənir.

Beynəlxalq publik hüququn **mühafizəetmə funksiyası** dövlətlərarası sistem iştirakçılarının, xüsusən də dövlətlərin qanuni hüquq və mənafelərinin qorunmasında, onlar pozulduqda isə müdafiə edilməsində ifadə olunur; həmin funksiya dövlətlərarası sistem iştirakçıları tərəfindən hüquqazidd davranışa yol verilməsinin qarşısının alınmasına və belə davranışın aradan qaldırılmasına yönəlmişdir.

Beynəlxalq publik hüquq özünün mühafizəetmə funksiyasını, əsasən, iki üsulla həyata keçirir. **Qadağan etmə** həmin üsullar-

[1] Agniel G. Droit International Public. Paris, 1998, p.8.
[2] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.17-18.

dan biridir (məsələn, dövlətlərarası mübahisələrin zorla həll olunmasını qadağan etmək və s.); göstəriən üsulun mahiyyəti bu və ya digər hüquqazidd hərəkətin edilməsini yasaqlamaqdan ibarətdir (məsələn, bəzi silah növlərini, təcavüzkar müharibəni və s. qadağan etmək).

İkinci üsulun mahiyyəti hüquqazidd hərəkətlərə görə **beynəlxalq-hüquqi sanksiyalar müəyyən edilməsindən** ibarətdir. Beynəlxalq-hüquqi sanksiyalar dedikdə hüquq pozuntusu törədən dövlətə qarşı tətbiq edilən hüquqauyğun məcburiyyət tədbirləri başa düşülür.[1]

Beynəlxalq-hüquqi sanksiyalar BMT-nin Nizamnaməsində nəzərdə tutulmuş və müəyyən edilmişdir. Belə ki, BMT Nizamnaməsinin 39, 41 və 42-ci maddələrinə görə, Təhlükəsizlik Şurası üç halda hərbi və qeyri-hərbi xarakterli məcburiyyət tədbiri (yəni beynəlxalq sanksiya) tətbiq edə bilər. Həmin hallara aşağıdakılar aiddir: sülh üçün təhlükə yarandıqda, sülh pozulduqda, təcavüzkar akt həyata keçirildikdə.

Beynəlxalq publik hüququn mühafizəetmə funksiyası nəinki beynəlxalq-hüquqi sanksiyaların müəyyən edilməsi, həmçinin beynəlxalq publik hüquq pozuntusu törətmiş subyektə qarşı belə **sanksiyaların bilavasitə tətbiq olunması** yolu ilə yerinə yetirilir; bunun nəticəsində subyektlərin qanuni hüquqları müdafiə edilir, zərərçəkən subyektin pozulmuş hüquqları bərpa olunur və hüquq pozuntusu törədən subyekt tərəfindən öz üzərinə düşən vəzifələrin icra edilməsi təmin olunur. Beynəlxalq-hüquqi sanksiyalar üçün tipik cəhət ondan ibarətdir ki, **onlar yalnız beynəlxalq publik hüquq pozuntusuna cavab olaraq tətbiq edilir.**[2]

Göstərilənlərdən başqa, beynəlxalq publik hüquq aşağıda göstərilən daha **iki funksiya** yerinə yetirir:

- kompensasiya funksiyası;
- restitusiya funksiyası.

[1] Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.217.
[2] Василенко В.А. Международно-правовые санкции. Киев, 1982, с.38.

Beynəlxalq publik hüququn **kompensasiya funksiyası** özünün hüquqazidd beynəlxalq-hüquqi əməli nəticəsində başqa dövlətə zərər vuran dövlətin bu zərərin əvəzini tam həcmdə ödəməsində ifadə olunur. Hüquqazidd beynəlxalq-hüquqi əməl törədən dövlət həm maddi (əmlak), həm də mənəvi (qeyri-əmlak) zərəri kompensasiya etməlidir.

Beynəlxalq publik hüququn **restitusiya funksiyası** isə hüquqazidd beynəlxalq-hüquqi əməl törədilməsinə kimi mövcud olan vəziyyətin bərpa edilməsində ifadə olunur. Bir qayda olaraq, qeyri-maddi (qeyri-əmlak) hüquqlar bərpa olunur: məsələn, qanunsuz işğala son qoyulur, qanunvericilik aktı ləğv olunur və s. Bununla yanaşı, maddi restitusiya (bərpa olunma) da həyata keçirilə bilər. Söhbət, hər şeydən əvvəl, hər hansı maddi obyektin əvvəlki vəziyyətinin hüquq pozuntusu törədən dövlət tərəfindən bərpa edilməsindən gedir. Misal üçün, dövlət öz təqsiri üzündən çirkləndirdiyi suyun keyfiyyətini bərpa edir; yaxud da dövlət digər dövlətdən qanunsuz ələ keçirdiyi əmlakı (məsələn, dəniz gəmisini və s.) onun özünə qaytarır.

Beynəlxalq publik hüququn funksiyaları hüquq doktrinasında kifayət qədər tədqiq olunmayan və öyrənilməyən məsələlərdən biri sayılır. Ona görə də, ümid edirik ki, beynəlxalq hüquqşünaslar tərəfindən gələcəkdə bu məsələnin hərtərəfli işıqlandırılmasına lazımi diqqət yetiriləcəkdir.

1.2.2. Beynəlxalq publik hüququn rolu və əhəmiyyəti

Beynəlxalq publik hüquq böyük əhəmiyyətə malik olan sosial hadisədir. Belə ki, o, iqtisadi-sosial proseslərin qloballaşması dövründə beynəlxalq ictimai həyatda vacib rol oynayır.

Dövlətlərin normal fəaliyyət göstərmələri, eləcə də müasir dövrdə qlobal xarakter alan beynəlxalq münasibətlər sisteminin mövcudluğu üçün **sabit beynəlxalq qayda-qanun** lazımdır. Beynəlxalq münasibətlərin tarixi göstərir ki, sabit beynəlxalq qayda-qanunun əsasını məhz beynəlxalq publik hüquq təşkil

edir; yalnız onun köməyi və vasitəsi ilə qaydaya salınmış və nizamlanmış sabit beynəlxalq birlik yaratmaq mümkündür.

Beynəlxalq publik hüququn rolu və əhəmiyyəti həm də bununla müəyyən olunur ki, o, əvvəllərdə qeyd etdiyimiz kimi, **beynəlxalq münasibətləri idarəetmə sisteminin vacib elementidir.** Belə ki, beynəlxalq publik hüquq sayəsində təkcə dövlətlərarası əlaqələr deyil, bütövlükdə beynəlxalq münasibətlər idarə olunur; əks təqdirdə beynəlxalq münasibətlər sistemsiz, xaotik və qarma-qarışıq xarakter daşıyardı. Məhz beynəlxalq publik hüquq əsasında beynəlxalq münasibətlər sistemli şəkildə idarə olunur və onun praktik rolu günbəgün artır.

Beynəlxalq publik hüquq bir dövlətin başqa dövlətə təcavüz etməsini, işğalçı müharibələr aparılmasını və dövlətlərarası mübahisələrin zorla həll olunmasını qadağan edir; o, belə hərəkətləri sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə törədilən cinayət hesab edir. Hərbi münaqişələr, beynəlxalq terrorizmə qarşı mübarizə, ətraf mühitin qorunması, Dünya okeanının zəngin resurslarının mənimsənilməsi, kosmik fəzadan dinc məqsədlər üçün istifadə olunması, nüvə silahının yayılmasının qarşısının alınması və digər məsələlər beynəlxalq publik hüququn köməyi ilə həll olunur; həmin məsələlər, qeyd etməliyik ki, beynəlxalq publik hüququn tənzimetmə obyektinə daxildir. Beynəlxalq publik hüquq vasitəsi ilə dənizdən və hava məkanından istifadə, beynəlxalq turizm, insan hüquqlarının beynəlxalq müdafiəsi, beynəlxalq telekommunikasiyalar, iqtisadi-təsərrüfat əhəmiyyətli yüklərin və poçtun xaricə daşınması, beynəlxalq nəqliyyatın fəaliyyəti, cinayətkarlıqla beynəlxalq mübarizə və digər vacib məsələlər tənzimlənir.[1]

Beynəlxalq publik hüquq, istisnasız olaraq, **bütün dövlətlərin suveren hüquqlarını** qoruyur; bu hüquqlar pozulduqda isə onları müdafiə və bərpa edir.

Beynəlxalq publik hüquq hər bir ölkənin **dövlət suverenliyini** qoruyur. Təsadüfi deyil ki, o, suverenliyin mühafizə vasitəsi

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.5.

hesab edilir. Buna görə də, beynəlxalq publik hüquq sayəsində hər bir ölkə dünyada özünü təhlükəsiz hesab edir.

Beynəlxalq publik hüquqla hər bir dövlətin qanuni hüquq və maraqları müdafiə olunur. İstənilən dövlət başqa dövlətlərlə qarşılıqlı münasibətlərini vahid beynəlxalq birlik çərçivəsində inkişaf etdirir. Buna görə də, beynəlxalq publik hüquq yalnız ayrı-ayrı dövlətlərin deyil, həm də bütövlükdə **beynəlxalq birliyin mənafelərini** müdafiə edir, qoruyur.

Beynəlxalq publik hüquq gələcək nəsilləri **müharibə təhlükəsindən xilas etmək** məqsədinə xidmət edir; bu məqsədə çatmaq üçün onun öhdəsində və sərəncamında kifayət dərəcədə beynəlxalq-hüquqi vasitələr mövcuddur. Beynəlxalq publik hüquq əsasında dünyada sülh möhkəmləndirilir, beynəlxalq təhlükəsizlik təmin olunur və ayrı-ayrı sahələrdə beynəlxalq əməkdaşlıq inkişaf edir. Təsadüfi deyil ki, bunlar **beynəlxalq hüququn əsas məqsədləri** sayılır.

Beynəlxalq publik hüquq sosial proqresə və dünya xalqlarının həyat səviyyəsinin yaxşılaşdırılmasına kömək edir. Beynəlxalq publik hüquq vasitəsilə dövlətlər arasında dostluq münasibətləri, onların sosial, siyasi və iqtisadi sistemindən, habelə inkişaf səviyyəsindən asılı olmayaraq inkişaf edir.

Beynəlxalq publik hüquq təkcə dövlətlərarası münasibətlərin tənzimlənməsinə həsr olunan normalardan ibarət deyildir; o, həm də dövlətlərin ümumi mənafelərinə uyğun olaraq, digər subyektlərin status və fəaliyyətinə aid müvafiq normalar nəzərdə tutur. Qeyd etməliyik ki, beynəlxalq publik hüquqda həm də elə normalar vardır ki, onlar insan hüquq və azadlıqlarına toxunur.

Beynəlxalq publik hüquq imkan verir ki, hər bir xalq öz inkişaf yolunu seçsin, iqtisadi, siyasi və hərbi təhlükəsizliyini təmin etsin; o, istənilən dövlətin milli mənafelərinə, ümumiyyətlə, bütövlükdə bəşəriyyətin maraqlarına cavab verən hüquq kimi tanınır.

Beynəlxalq publik hüququn nizamasalma predmeti daim genişlənir; buraya beynəlxalq münasibətlərin yeni sahələri daxil olur. Hətta, ənənəvi olaraq, dövlətdaxili (milli) hüquq çərçivəsində tənzimlənən bir sıra məsələ (məsələn, insan hüquqları, dövlət ərazisindən təsərrüfat məqsədləri üçün istifadə və s.) artıq beynəlxalq publik hüquq müstəvisində və kontekstində həll olunur.

Beynəlxalq publik hüququn köməyi ilə, əsasən, ciddi xarakterli qlobal beynəlxalq problemlər (təhlükəsizlik məsələləri, narkobiznes və terrorizmlə mübarizə, iqtisadi əhəmiyyətli məsələlər, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə, beynəlxalq münaqişələr, maliyyə böhranı və s.) həll edilir.

1995-ci ildə Nyu-York şəhərində keçirilən **birinci ümumdünya beynəlxalq hüquq konfransı**[1] beynəlxalq publik hüququn rolu və əhəmiyyəti barədə mövqeni belə müəyyən etmişdir: beynəlxalq publik hüquq beynəlxalq ünsiyyət dilidir.

1.2.3. Beynəlxalq publik hüququn əsas xüsusiyyətləri

Beynəlxalq publik hüququn əsas xüsusiyyətləri dedikdə onun xarakterik cəhətləri başa düşülür. Başqa sözlə, beynəlxalq publik hüququ xarakterizə edən əlamətlər onun **əsas xüsusiyyətləri** hesab olunur; spesifik xarakterə malik olan həmin əlamətlər məhz beynəlxalq publik hüquqa xasdır. Odur ki, belə əlamətlər beynəlxalq publik hüququ dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir.

Beynəlxalq publik hüququn **birinci əsas xüsusiyyəti** ondan ibarətdir ki, o, **bütün dövlətlər üçün ümumidir**. Belə ki, beynəlxalq publik hüququn tərkibinə elə hüquq normaları daxildir ki, bu normalar bütün dövlətlər üçün vahid olub, məcburi xarakter daşıyır. Buna görə onlar **hamılıqla qəbul olumuş və ya universal hüquq normaları** adlanır. Digər tərəfdən, beynəl-

[1] URL:https://ru.wikipedia.org>wiki>1995 (21.04.2018-ci il).

xalq publik hüquq bir sıra **ümumtanınmış prinsipə** malikdir ki, həmin prinsiplərə də bütün dünya dövlətləri riayət etməlidirlər. Qeyd etməliyik ki, beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş prinsipləri – ümumtanınmış prinsipləri universal hüquq normaları ilə birlikdə onun **əsas məzmununu** xarakterizə edir. Bu mənada, beynəlxalq publik hüquq bütün dünya dövlətləri üçün ümumi olub, **«universal (ümumi, publik) beynəlxalq hüquq»** anlayışı ilə əhatə edilir. Bununla beynəlxalq publik hüquq dövlətdaxili (milli) hüquqdan fərqlənir.

Beynəlxalq publik hüququn bütün dünya dövlətləri üçün ümumi olması ilə bağlı qeyd edə bilərik ki, beynəlxalq publik hüquq tarixinin klassik dövründə «sivil xalqların beynəlxalq hüququ» kimi diskriminasiya xarakterli konsepsiya irəli sürülmüşdü. Həmin konsepsiyaya görə, yalnız «sivil xalqlar» beynəlxalq birliyə aid ola bilərdilər; zəif inkişaf etmiş ölkələr isə bərabərhüquqlu qarşılıqlı münasibətlərdən təcrid olunmuşdu. Müasir dövrdə isə göstərilən konsepsiyadan tam imtina olunmuşdur. Belə ki, müasir beynəlxalq publik hüquq bütün dövlətlər üçün ümumi hüquqdur. Deyilənləri bununla təsdiq edə bilərik ki, BMT-nin Nizamnaməsi beynəlxalq publik hüququn əsası sayılır; həmin sənədə görə, bütün sülhsevər dövlətlər BMT-nin üzvü ola bilər. Bu gün dünyanın istənilən müstəqil dövlətinin beynəlxalq birlikdə iştirak etməsi mümkündür; müasir dövrdə bütün maraqlı dövlətlər beynəlxalq əməkdaşlığın həyata keçirilməsində, eləcə də beynəlxalq müqavilələrin bağlanmasında iştirak edə bilərlər.

Universal (ümumi) beynəlxalq hüququ partikulyar beynəlxalq hüquqdan fərqləndirmək lazımdır. Beynəlxalq publik hüquq universal normalardan başqa, həm də lokal normalardan ibarətdir. **Lokal normalar** dedikdə müəyyən qrup dövlətlərə və yaxud iki və ya daha artıq dövlətə aid olan, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə nəzərdə tutulan normalar başa düşülür. Məhz belə normaların sisteminə **partikulyar beynəlxalq hüquq** deyilir.

Beynəlxalq publik hüququn **ikinci əsas xüsusiyyəti** ondan ibarətdir ki, o, **yalnız hakimiyyət xarakterli, yəni dövlətlərarası (hakimiyyətlərarası) beynəlxalq münasibətləri tənzimləyir**. Bu xüsusiyyəti ilə də o, dövlətdaxili (milli) hüquqdan fərqlənir.

Beynəlxalq publik hüququn **üçüncü əsas xüsusiyyəti** bundan ibarətdir ki, onun subyekti qismində yalnız **dövlətlərarası beynəlxalq münasibətlər sisteminin iştirakçıları,** başqa sözlə, hakimiyyət xarakterli beynəlxalq münasibətlərin iştirakçıları çıxış edə bilərlər; hansı qurum belə münasibətlərdə iştirak edə bilərsə, o, beynəlxalq publik hüququn subyekti sayılır.

Beynəlxalq publik hüququn **yaradılma prosesi** onun **dördüncü əsas xüsusiyyəti** hesab olunur; bu xüsusiyyət də onu dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir. Beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibətlər sisteminin əsas iştirakçılarının **iradə ifadəsi əsasında** yaradılır. Belə ki, beynəlxalq publik hüquq normalarını, əsasən, dövlətlər və onların birlik forması olan beynəlxalq təşkilatlar işləyib hazırlayır və qəbul edirlər; həmin normalar müvafiq **beynəlxalq müqavilələr** vasitəsi ilə yaradılır.

Beynəlxalq publik hüququn **beşinci əsas xüsusiyyəti** onun **mənbəyinə** aiddir. Beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlər onun əsas mənbə növləridir. Dövlətdaxili (milli) qanunvericilik aktları isə beynəlxalq hüququn mənbəyi ola bilməz.

Beynəlxalq publik hüququn **altıncı əsas xüsusiyyəti** bundan ibarətdir ki, beynəlxalq publik hüquq ona əməl olunmasını təmin edən **beynəlxalq-hüquqi məcburetməyə** malikdir.

Beynəlxalq-hüquqi məcburetmə hüquq pozuntusu törədən subyektə beynəlxalq-hüquqi sanksiyalar tətbiq edilməsini nəzərdə tutur; bu sanksiyalar vasitəsi ilə beynəlxalq publik hüquq subyektləri törədilmiş beynəlxalq hüquq pozuntusuna cavab verirlər.[1] Dövlət beynəlxalq-hüquqi sanksiyanı fərdi və ya kollektiv surətdə tətbiq edə bilər; belə sanksiyaların tətbiqi BMT-

[1] Василенко В.А. Международно-правовые санкции. Киев, 1982, с.38.

nin Təhlükəsizlik Şurasının və ya Baş Assambleyasının qərarlarında da nəzərdə tutula bilər.

1.3.Beynəlxalq publik hüququn sistemi

1.3.1. Beynəlxalq publik hüququn sistemi anlayışı

Obyektiv mənada beynəlxalq publik hüquq çoxsaylı, məzmunca müxtəlif beynəlxalq-hüquqi normalardan ibarətdir; belə normalar vasitəsilə beynəlxalq publik hüquq öz nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyir.

Beynəlxalq publik hüquq normaları xaotik və qarma-qarışıq şəkildə yerləşmirlər, əksinə, onlar nizamla, qaydaya salınmış şəkildə və müəyyən ardıcıllıqla düzlənirlər. Beynəlxalq publik hüquq normalarının bu cür düzümünə hüquq elmində beynəlxalq publik hüququn sistemi deyilir. Beynəlxalq publik hüququn sistemi onu ifadə edir ki, beynəlxalq publik hüquq özündə daxilən vəhdətdə və bir-biri ilə qarşılıqlı dialektik əlaqədə olan çoxsaylı və müxtəlif beynəlxalq-hüquqi normaları birləşdirir.

Beynəlxalq publik hüququn sistemi dedikdə beynəlxalq-hüquqi normaların vəhdətində və qarşılıqlı dialektik əlaqəsində, həmin normaların hüquq institutları, yarımsahələr və müstəqil hüquq sahələri üzrə nizamla düzlənməsində ifadələnən daxili quruluşu başa düşülür.

«Beynəlxalq publik hüququn sistemi» tematikası beynəlxalq hüquq doktrinasında az tədqiq olunmuş mövzulardan biridir.[1] Müasir dərsliklərdə bu mövzunun geniş və əhatəli şəkildə

[1] *Bu mövzuya toxunan əsər barədə bax:* Фельдман Д.И. Система международного права. Казань, 1983, 120 с.

işıqlandırılmasına, demək olar ki, rast gəlmirik;[1] bəzi dərsliklərdə isə həmin mövzuya ümumiyyətlə toxunulmur.[2]

Beynəlxalq publik hüququn sistemini xarakterizə etməyə imkan verən bir neçə səciyyəvi əlamət mövcuddur.

Birinci, beynəlxalq publik hüququn sistemi **obyektiv mövcud olan mürəkkəb xarakterli sosial-hüquqi hadisədir** və buna görə də, o, obyektivliyi ilə xarakterizə edilir. Bu o deməkdir ki, beynəlxalq publik hüququn sistemi ayrı-ayrı fiziki şəxslərin subyektiv mülahizəsi, şəxsi istəyi, fərdi düşüncəsi və şüuru əsasında formalaşmır; əksinə, beynəlxalq publik hüququn sistemi real surətdə mövcud olan gerçək dövlətlərarası beynəlxalq münasibətlər sistemi ilə müəyyən edilir və şərtlənir. Belə ki, məhz həmin sistemin obyektiv qanunauyğunluqları əsasında və təsiri altında beynəlxalq publik hüququn sistemi yaranır. Buna görə də, beynəlxalq publik hüququn sistemi obyektiv əsasa, təmələ malikdir və obyektiv qanunauyğunluqları normativ formada ifadə edir. Bunu nəzərə alaraq, bir sıra müəllif düzgün olaraq göstərir ki, beynəlxalq publik hüququn sistemi obyektiv xarakter daşıyır.[3]

İkinci, beynəlxalq publik hüququn sistemi **vahid, tam və bütöv sosial-hüquqi hadisədir**. Belə ki, beynəlxalq publik hüquq daxilən, üzvi cəhətdən vahid, tam və bütöv olması ilə xarakterizə edilir. Ona görə ki, o, bir-biri ilə qarşılıqlı dialektik əlaqədə və vəhdətdə olan beynəlxalq publik hüquq normalarından təşkil olunmuşdur. Təsadüfi deyil ki, beynəlxalq publik hüququn sistemi üçün beynəlxalq-hüquqi normaların vəhdəti və

---

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.44; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.30-33, Международное право. Учебник / Отв. ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.14-15 və s.

[2] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 və b.

[3] *Məsələn, bax:* Курс международного права. Том 1. М., 1989, с.242.

qarşılıqlı əlaqəsi xarakterikdir; həmin normalar eyni təyinata malik olub, vahid məqsədə, yəni dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək məqsədinə xidmət edir.

Üçüncü, beynəlxalq publik hüququn sistemi özündə **beynəlxalq publik hüququn müxtəlif struktur elementlərini birləşdirən sosial-hüquqi hadisədir**. Belə ki, beynəlxalq publik hüququn sistemi belə bir suala cavab verir: tam və bütöv olan beynəlxalq publik hüquq hansı struktur elementlərdən təşkil olunmuşdur və bu elementlər arasında qarşılıqlı əlaqə necədir?

Beynəlxalq publik hüququn **struktur elementləri** dedikdə, onun daxili quruluşuna aid olan tərkib hissələri başa düşülür. Həmin elementlər bunlardan ibarətdir: hüquq sahəsi, hüquq yarımsahəsi, hüquq institutu, beynəlxalq-hüquqi normalar.

Beynəlxalq publik hüquq müstəqil hüquq sahələrinə, hüquq sahələri yarımsahələrə, yarımsahələr institutlara, institutlar isə, öz növbəsində, beynəlxalq-hüquqi normalara bölünür. Buna görə də, beynəlxalq publik hüquq ayrı-ayrı sahələrdən, yarımsahələrdən, hüquq institutlarından və hüquq normalarından təşkil olunmuşdur.

Beynəlxalq publik hüququn struktur elementləri onun ayrılmaz tərkib hissəsidir. Beynəlxalq publik hüquqla onun struktur elementləri arasındakı münasibət fəlsəfi planda «tam» və onun «hissələri» arasındakı əlaqə kimidir, yəni beynəlxalq publik hüquq «tam»dırsa, onu təşkil edən struktur elementlər isə «hissələr»dir.

Beynəlxalq-hüquqi norma beynəlxalq publik hüquq sisteminin ilkin struktur elementi sayılır; onlar eyninövlü dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyir. Eyninövlü münasibətləri tənzimləyən beynəlxalq publik hüquq normaları birləşərək hüquq institutlarını, hüquq institutları birləşərək yarımsahələri, yarımsahələr isə birləşərək hüquq sahələrini formalaşdırır.

Beynəlxalq publik hüququn sistemi onun bir-biri ilə daxilən qarşılıqlı əlaqədə olan struktur elementlərinin bütövlüyü deməkdir; obyektiv xarakter daşıyan bu bütövlüyün əsasında bey-

nəlxalq publik hüquq normalarının nizamla, qaydaya salınmış halda və sistemli şəkildə yerləşməsi durur. Beynəlxalq publik hüquq normalarının sistemli şəkildə düzlənməsinin isə, ilk növbədə, **nəzəri əhəmiyyəti** vardır. Sistemli şəkildə yerləşmənin həm də beynəlxalq publik hüquq normayaradıcılığı, habelə hüquqtətbiqetmə prosesi üçün **praktik əhəmiyyəti** vardır. Belə ki, əgər beynəlxalq publik hüquq normaları müəyyən sistem üzrə yerləşərsə, praktikada tətbiq edilməli olan normaları seçmək və müəyyənləşdirmək, təbii ki, asandır; əksinə, beynəlxalq publik hüquq normaları xaotik halda yerləşərsə, onda tətbiq edilməli olan normaları müəyyənləşdirmək son dərəcə çətinlik yaradacaqdır.

«Beynəlxalq publik hüququn sistemi» anlayışını «beynəlxalq publik hüquq müstəqil hüquq sistemi kimi» anlayışı ilə qarışdırmaq olmaz; onları bir-birindən fərqləndirmək lazımdır. Belə ki, birinci halda söhbət beynəlxalq publik hüquq normalarının sistemli şəkildə yerləşməsindən, ikinci halda isə dünyada mövcud olan üç müstəqil hüquq [müxtəlif ölkələrin daxili (milli) hüququ, Avropa hüququ və beynəlxalq publik hüquq] sistemlərinin birindən, yəni beynəlxalq publik hüquqdan gedir.

Beynəlxalq publik hüququn sistemi **daim inkişafda olması** cəhəti ilə xarakterizə edilir. Belə ki, beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq dövlətlərarası münasibətlər genişləndikcə, beynəlxalq publik hüququn sistemi də inkişaf edir. Xüsusən də BMT Nizamnaməsinin qəbul edilməsindən sonra (XX əsrin ortaları) beynəlxalq publik hüququn yeni müasir sistemi formalaşmışdır. Belə ki, əvvəlki dövrlərdə beynəlxalq publik hüquq ənənəvi olaraq aşağıdakı sahələrə bölünürdü: sülh hüququ, müharibə və neytralitet hüququ, səfirlik və konsulluq hüququ. BMT Nizamnaməsinin qəbul edilməsilə bu kimi ənənəvi bölgüdən imtina olundu, beynəlxalq publik hüququn yeni struktur elementləri, xüsusilə də yeni sahələri yaranmağa başladı.

Bu gün müasir beynəlxalq publik hüququn sisteminin qəti surətdə formalaşması prosesi barədə birmənalı fikir söyləmək

olmaz. Belə ki, bu proses hələ başa çatmamışdır və davam etməkdədir. Bu onunla izah edilir ki, beynəlxalq publik hüququn özü qanunauyğun obyektiv proses kimi inkişaf edir və bu prosesin dayandırılması qeyri-mümkündür. Beynəlxalq publik hüququn sistemi qurularkən məhz beynəlxalq publik hüququn proqressiv inkişafı nəzərə alınır.[1]

1.3.2. Beynəlxalq publik hüququn ümumi hissəsi

Beynəlxalq publik hüququn ibarət olduğu və onu təşkil edən normalar xarakter, məzmun, eləcə də əhəmiyyət baxımından eyni deyildir. Belə ki, beynəlxalq-hüquqi normalardan bəziləri (məsələn, subyektlərə dair normalar, beynəlxalq-hüquqi məsuliyyət barədə normalar və s.) beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan bütün münasibətləri və ya onların əksəriyyətini tənzimləmək xüsusiyyətinə malikdir. Ona görə ki, beynəlxalq publik hüququn nizamasalma predmetini təşkil edən münasibətlər eynicinslidir. Beynəlxalq publik hüquq normaları arasında həm də elə normalar mövcuddur ki, onlar beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan münasibətlərin yalnız ayrı-ayrı növlərini (məsələn, dövlətlərarası beynəlxalq iqtisadi münasibətləri, diplomatiya və konsulluq münasibətlərini və s.) tənzimləmək məqsədinə xidmət edir. Bu baxımdan, beynəlxalq publik hüququ iki hissəyə bölmək məqsədəuyğundur: ümumi hissə, xüsusi hissə.

Beynəlxalq publik hüququn ümumi hissəsi dedikdə istənilən dövlətlərarası beynəlxalq münasibət tənzimlənərkən tətbiq oluna bilən beynəlxalq-hüquqi normaların sistemi başa düşülür; beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan bütün münasibətlərə «ümumi hissə» normalarının tətbiqi mümkündür. Belə ki, ümumi hissəyə aid edilən normalar

[1] Левин Д.Б. Актуальные проблемы теории международного права. М., 1974, с.79.

beynəlxalq publik hüququn bütün struktur elementləri (sahələri, yarımsahələri və institutları) üçün ümumi əhəmiyyətə malikdir.

Beynəlxalq publik hüququn ümumi hissəsi müvafiq hüquq institutlarından ibarətdir; onlar beynəlxalq publik hüquq üçün ümumi institut sayılır. Belə ki, beynəlxalq publik hüququn ümumi hissəsinin institutları bütövlükdə beynəlxalq-hüquqi tənzimetmə mexanizmi üçün əhəmiyyətlidir. Həmin institutlar bunlardan ibarətdir:

- beynəlxalq publik hüququn əsas prinsipləri institutu;
- beynəlxalq publik hüquq subyektliyi institutu;
- beynəlxalq-hüquqi məsuliyyət institutu;
- beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutu və s.

Beynəlxalq publik hüquq institutu dedikdə beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq münasibətlərin bu və ya digər sahəsini tənzimləyən eyninövlü hüquq normalarının qrupu (kompleksi) başa düşülür. Beynəlxalq publik hüququn bu struktur elementi özündə beynəlxalq münasibətlərin müəyyən növünün yalnız bir hissəsini nizama salan hüquq normalarını birləşdirir.

Beynəlxalq publik hüququn əsas prinsipləri institutu dedikdə beynəlxalq publik hüquq normalarının elə qrupu (kompleksi) başa düşülür ki, bu normalarda beynəlxalq publik hüququn əsas prinsipləri hüquqi cəhətdən təsbit olunur və formulə edilir; həmin normalar ümumi məzmuna malik olub bütövlükdə beynəlxalq publik hüquq üçün əsas ideyalar və rəhbər başlanğıclar müəyyənləşdirir. Buna görə də, onlar beynəlxalq-hüquqi tənzimetmə mexanizmində vacib rol oynayır.

Göstərilən beynəlxalq publik hüquq institutunun böyük əhəmiyyəti vardır. Belə ki, həmin institut beynəlxalq publik hüququn təməli və özəyi sayılan əsas prinsipləri tənzimləyir;

beynəlxalq publik hüququn əsas prinsipləri isə beynəlxalq münasibətlərin ən vacib, həyati və taleyüklü məsələlərinə aiddir.[1]

Beynəlxalq publik hüquq subyektliyi institutu dedikdə elə normalar qrupu (kompleksi) başa düşülür ki, bu normalar beynəlxalq publik hüquq subyektlərinin hüquqi vəziyyətini və beynəlxalq statusunu, onların dövlətlərarası beynəlxalq münasibətlərin iştirakçısı olmaq qabiliyyətini tənzimləyir. Beynəlxalq publik hüququn subyektləri beynəlxalq publik hüquqla tənzimlənən ictimai münasibətlərin tərəfləridir.[2] Sözügedən beynəlxalq publik hüquq institutu bütövlükdə subyektləri bu münasibətlərdə tərəf kimi iştirak etmək üçün beynəlxalq publik hüquq subyektliyi ilə təmin edir.[3]

Beynəlxalq-hüquqi məsuliyyət institutu dedikdə elə normalar qrupu (kompleksi) başa düşülür ki, bu normalar beynəlxalq publik hüquq subyektlərinin məsuliyyət daşımaları ilə bağlı yaranan beynəlxalq məsuliyyət münasibətlərini tənzimləyir. Beynəlxalq publik hüququn ümumi hissəsinə aid olan bu institut böyük əhəmiyyətə malikdir. Təkcə bunu demək kifayətdir ki, beynəlxalq publik hüquq məsuliyyəti beynəlxalq publik hüquq normalarına əməl olunmasını təmin edən və pozulmuş beynəlxalq münasibətləri bərpa edən zəruri hüquqi vasitədir; o, beynəlxalq publik hüququn öz funksiyasını lazımınca yerinə yetirməsinin qarantı, beynəlxalq münasibətləri hüquqi tənzimetmənin xüsusi aləti sayılır.

Göstərilən institut beynəlxalq-hüquqi məsuliyyətin əsasını və şərtlərini, onun forma və növlərini, hüquqauyğun fəaliyyətə görə məsuliyyəti, beynəlxalq publik hüquq məsuliyyətinin hə-

[1] Де Аречага Э.Х. Современное международное право / Пер. с исп. М., 1983, с.135.
[2] Курс международного права. Том 1. М., 1989, с.159.
[3] Фельдман Д.И., Курдюков Г.И. Основные тенденции развития международной правосубъектности. Казань, 1974.

yata keçirilməsini və digər məsələləri tənzim edir; ona həm də **beynəlxalq məsuliyyət hüquq institutu** deyilir.[1]

Beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutu dedikdə beynəlxalq-hüquqi normaların elə bir qrupu (kompleksi) başa düşülür ki, bu normalar beynəlxalq münaqişə və ixtilafların həlli qaydalarını müəyyənləşdirir; bu instituta görə, hər bir dövlət və beynəlxalq publik hüququn digər subyektləri öz aralarında yaranan mübahisələri dinc xarakterli beynəlxalq-hüquqi vasitələrin köməyi ilə elə həll etməlidirlər ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət üçün təhlükə yaranmasın; həm də onlar mübahisələri mahiyyəti üzrə və vaxtında həll etməlidirlər.[2]

Beynəlxalq publik hüququn ümumi hissəsi vacib hüquqi əhəmiyyətə malikdir; o, beynəlxalq publik hüququn nizamasalma predmetinin eyniliyini əks etdirir, beynəlxalq publik hüquqa aid bütün normaları birləşdirən halqa rolunu oynayır. Bunun nəticəsində isə, hüquqi məzmunca, həmin normaların ümumiliyi təmin olunur.

Beynəlxalq publik hüququn ümumi hissəsi bir tərəfdən imkan verir ki, beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan və öz təbiətinə görə bir-birinə oxşayan beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsindəki müxtəliflik və uyğunsuzluq aradan qaldırılsın. Digər tərəfdən, ümumi hissə dövlətlərarası beynəlxalq əməkdaşlığın ayrı-ayrı istiqamətlərində (məsələn, iqtisadi, kosmos, hava və dəniz məkanı, xarici əlaqələr və digər sahələrdə) yaranan beynəlxalq münasibətlərin eyni cür hüquqi tənzimlənməsini təmin edir. Buna görə beynəlxalq publik hüququn ümumi hissəsinə, obrazlı şəkildə necə deyərlər, «minnətdarlıqla» yanaşılmalıdır.

---

[1] *Daha ətraflı:* Лукашук И.И. Право международной ответственности. М., 2004.

[2] Пушмин Э.А. Мирное разрешение международных споров. М., 1974, с.10-11.

Beynəlxalq publik hüququn ümumi hissəsinin əhəmiyyəti həm də bundan ibarətdir ki, o, beynəlxalq publik hüququn xüsusi hissəsinin ayrı-ayrı struktur elementlərində (hissələrində) hüquq normalarının lüzumsuz təkrarlanmasının qarşısını alır. Belə ki, beynəlxalq publik hüququn xüsusi hissəsinin ayrı-ayrı struktur elementləri (hissələri) ilə tənzimlənən beynəlxalq münasibətlərin bu və ya digər növünün pozulmasına görə subyektlərin beynəlxalq-hüquqi məsuliyyətinə dair xüsusi hissədə ayrıca normaların nəzərdə tutulması lazım gəlmir. Çünki, beynəlxalq publik hüququn ümumi hissəsinin «beynəlxalq publik hüquq məsuliyyəti» kimi institutu vardır və o, özündə beynəlxalq publik hüququn bütün struktur elementləri (hissələri) üçün ümumi əhəmiyyətə malik olan normaları birləşdirir. Qeyd edilənlərlə yanaşı, beynəlxalq publik hüququn ümumi hissəsi beynəlxalq qanunvericiliyin (beynəlxalq normativ hüquqi materialın) həcmini xeyli dərəcədə azaldır, onun praktiki istifadəsini asanlaşdırır və texniki-hüquqi üstünlüklə xarakterizə olunur.

1.3.3. Beynəlxalq publik hüququn xüsusi hissəsi

Beynəlxalq publik hüquq normaları arasında elələri vardır ki, onlar beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərin yalnız ayrı-ayrı, konkret növlərini tənzimləmək məqsədinə xidmət edir; belə normaların məcmusu (sistemi) hüquq doktrinasında beynəlxalq publik hüququn xüsusi hissəsi adlanır.

Beynəlxalq publik hüququn xüsusi hissəsi dedikdə dövlətlərarası beynəlxalq münasibətlərin ayrı-ayrı növlərini tənzimləməkdən ötrü tətbiq edilən beynəlxalq-hüquqi normaların sistemi başa düşülür; «xüsusi hissə»yə dair normaların köməyi və vasitəsi ilə beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan müxtəlif növ beynəlxalq münasibətlərin (məsələn, beynəlxalq kosmos münasibətləri, beynəlxalq dəniz münasibətləri və s.) hüquqi tənzimlənməsi həyata keçirilir.

Beynəlxalq publik hüququn xüsusi hissəsi **ayrı-ayrı müxtəlif sahələrdən** ibarətdir. Hüquq ədəbiyyatı səhifələrində, bir qayda olaraq, «beynəlxalq publik hüququn xüsusi hissəsi» terminin əvəzinə, adətən, «beynəlxalq publik hüququn sahələri» anlayışı işlədilir.

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlər məzmunca müxtəlif növlərə bölünür: beynəlxalq müqavilə münasibətləri, xarici əlaqələr üzrə münasibətlər, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq təhlükəsizlik münasibətləri, beynəlxalq humanitar münasibətlər, beynəlxalq cinayət münasibətləri, beynəlxalq kosmos münasibətləri və s. Göstərdiyimiz bu və digər beynəlxalq münasibət növləri dövlətlərarası beynəlxalq əməkdaşlığın ayrı-ayrı sahələrində (məsələn, xarici əlaqələr, iqtisadi, humanitar, cinayətkarlıqla mübarizə və s.) yaranır.

Beynəlxalq publik hüququn sahəsi dedikdə beynəlxalq publik hüquq sisteminin müstəqil əhəmiyyətə və rola malik olan elə bir struktur elementi (hissəsi) başa düşülür ki, bu element (hissə) özündə dövlətlərarası beynəlxalq münasibətlərin müəyyən növünü tənzimləyən hüquq normalarını birləşdirir. Məsələn, xarici əlaqələr üzrə münasibətlər dövlətlərarası beynəlxalq münasibət növlərindən biridir; bu münasibətləri tənzimləyən beynəlxalq publik hüquq normalarının sistemi xarici publik əlaqələr hüququ adlanır; xarici publik əlaqələr hüququ isə beynəlxalq publik hüququn müstəqil sahələrindən biridir. Dövlətlərarası beynəlxalq iqtisadi münasibətlər də dövlətlərarası beynəlxalq münasibətlərin bir növüdür; həmin münasibətləri tənzimləyən beynəlxalq publik hüquq normalarının qrupu (məcmusu) beynəlxalq publik iqtisadi hüquq adlanır; beynəlxalq publik iqtisadi hüquq isə beynəlxalq publik hüququn müstəqil sahəsi sayılır və s.

Hüquq sahəsi beynəlxalq publik hüquq sisteminin vacib struktur elementidir; beynəlxalq publik hüququn digər struktur elementlərindən fərqli olaraq, o, öz funksiyasını müstəqil surət-

də yerinə yetirə bilir. Bu onunla izah edilir ki, beynəlxalq publik hüququn sahəsi beynəlxalq münasibətlərin müəyyən növünü az və ya çox «muxtar» şəkildə tənzimləyən hüquq normalarının məcmusudur.[1]

Beynəlxalq publik hüquq sistemində bu və ya digər sahənin ayrılmasına, başqa sözlə, beynəlxalq publik hüququn sahələrə bölünməsinə gəldikdə isə, qeyd etməliyik ki, bunun üçün müəyyən meyarların olması tələb edilir. Dövlətdaxili (milli) hüquq sisteminin sahələrə bölünməsi üçün iki əsas meyarın mövcud olması vacibdir. Həmin meyarlara aşağıdakılar aiddir:[2]

– hüquqi nizamasalma predmeti;

– hüquqi nizamasalma metodu.

Lakin bu meyarlar beynəlxalq publik hüququn tərkibində müxtəlif sahələrin ayrılması üçün kifayət etmir; çünki beynəlxalq-hüquqi tənzimetmə mexanizmi, ümumiyyətlə, bütövlükdə beynəlxalq publik hüququn özü spesifik əlamətlərlə xarakterizə olunur; bunun üçün Rusiya və digər ölkələrin beynəlxalq hüquqa dair elmi ədəbiyyat səhifələrində digər meyarların da mövcud olması göstərilir.[3] Beynəlxalq publik hüquq sistemində bu və ya digər sahənin mövcud olub-olmaması məhz həmin meyarlar vasitəsi ilə müəyyənləşdirilir. Gəlin, həmin meyarlarla tanış olaq.

---

[1] Фельдман Д.И. Система международного права. Казань, 1983, с.47.

[2] Xropanyuk V.P. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik / Rus dilindən tərcümə. Bakı, 1995, s.144.

[3] *Məsələn, bax:* Фельдман Д.И. О системе международного права // Советский ежегодник международного права, 1977. М., 1978, с.107-108; Фельдман Д.И. Система международного права. Казань, 1983, с.46-47; Богуславский М.М. Международное экономическое право. М., 1986, с. 30-31; Борисов К.Г. Международное таможенное право. М., 1997, с.10-11; Шумилов В.М. Международное экономическое право в эпоху глобализации. М., 2003, с.94; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36-37; Ашавский Б.М. К вопросу о международном экономическом праве // В книге: XXVIII ежегодное собрание Советской ассоциации международного права. Тезисы докладов. М., 1985, с. 18-27 və b.

Beynəlxalq publik hüquq sistemində bu və ya digər sahənin ayrılmasına səbəb olan **əsas meyar** hüquqi nizamasalma predmeti sayılır. Təsadüfi deyil ki, sovet dövrünün hüquq doktrinası beynəlxalq publik hüququn sahələrə bölünməsinin ən vacib və mühüm meyarı kimi məhz nizamasalma predmetini tanıyırdı.

Doğrudan da, beynəlxalq publik hüququn sistemində bu və ya digər sahənin fərqləndirilməsi üçün həmin sahənin **özünəməxsus nizamasalma predmeti**, yəni tənzimlədiyi dövlətlərarası beynəlxalq münasibətlərin müəyyən konkret növü olmalıdır; həmin növ münasibət bu və ya digər hüquq sahəsinin mövcud olmasını şərtləndirən obyektiv meyardır. Belə ki, dövlətlərarası beynəlxalq münasibətlərin bu və ya digər növü obyektiv surətdə hüquqi tənzimlənməyi tələb edir; əks halda beynəlxalq münasibətlər sistemində qayda-qanun olmazdı və xaos-anarxiya kimi arzuolunmaz vəziyyət yaranardı. Həmin növ münasibət isə, təbii ki, müvafiq hüquq normaları ilə tənzimlənir; bu normalar birləşərək beynəlxalq publik hüququn bu və ya digər sahəsini yaradır. Deməli, beynəlxalq publik hüququn sahəsi obyektiv surətdə hüquqi cəhətdən tənzimlənməyi tələb edən dövlətlərarası beynəlxalq münasibətlərin müəyyən növünü nizama salan hüquq normalarının birləşməsidir. Lakin bu birləşmə hüquqyaratma subyektlərinin mülahizəsindən asılı olmayaraq, obyektiv xarakter daşıyır.

Qeyd etməliyik ki, beynəlxalq publik hüququn sahələrini bir-birindən ayırmağa imkan verən başlıca amil həmin sahələrin tənzimlədiyi dövlətlərarası beynəlxalq münasibətlərin özünəməxsusluğudur. Belə ki, beynəlxalq publik hüququn ayrı-ayrı sahələri tərəfindən tənzimlənən həmin münasibətlər öz məzmununa, konkret məqsəd və vəzifələrinə görə fərqlənirlər.

Beynəlxalq publik hüquq sistemində bu və ya digər sahənin ayrılmasının əsas səbəbi olan dövlətlərarası münasibətlər beynəlxalq münasibətlər sisteminin vacib və mühüm hissəsi sayılır. Həmin münasibətlər beynəlxalq ictimai həyatın təşkilində son dərəcə əhəmiyyətli rol oynayaraq, beynəlxalq publik hüququn sahələrə bölünməsinin başlıca obyektiv əsası kimi çıxış

edir. Bax, buna görə də, «sahələr» digər struktur elementlərlə müqayisədə beynəlxalq publik hüquq sistemində üstün yer tutur.

Hüquqi nizamasalma metodu kimi meyara gəldikdə, qeyd etməliyik ki, bu meyar dövlətdaxili (milli) hüquq sisteminin sahələrə bölünməsi üçün mühüm əhəmiyyət kəsb edir. Lakin, beynəlxalq publik hüquq ədəbiyyatında çox düzgün olaraq göstərilir ki, «hüquqi nizamasalma metodu» kimi meyardan beynəlxalq publik hüququn sahələrə ayrılması üçün istifadə etmək qeyri-mümkündür.[1] Başqa sözlə, beynəlxalq publik hüququn sahələrə bölünməsi məsələsində «hüquqi nizamasalma metodu» kimi meyarın heç bir rolu və əhəmiyyəti yoxdur. Belə ki, beynəlxalq müqavilə-tənzimetmə üsulu beynəlxalq publik hüququn əsas nizamasalma metodu sayılır; həmin üsul isə beynəlxalq publik hüququn istənilən sahəsi üçün xarakterikdir. Beynəlxalq publik hüquqda bundan başqa, digər ümumi tənzimetmə metodlarından da (məsələn, beynəlxalq-hüquqi məcburetmə metodu, beynəlxalq mübahisələrin dinc yolla həlli metodu və s.) istifadə edilir ki, onlar, demək olar, beynəlxalq hüququn bütün sahələrində tətbiq olunur. Nəzərə almalıyıq ki, beynəlxalq hüquq sahələrinin deyil, dövlətdaxili (milli) hüquq sahələrinin spesifik, özünəməxsus konkret nizamasalma metodu vardır.[2]

Beynəlxalq publik hüququn sahələrə bölünməsinə səbəb olan **əlavə (yardımçı) meyarlar** da mövcuddur. Qeyd etməliyik ki, dövlətlərarası münasibətlərin tənzimlənməyi tələb edən növünün **böyük beynəlxalq ictimai əhəmiyyətə malik olması** həmin meyarlardan **biridir**. Əgər müvafiq növ münasibət beynəlxalq əlaqələr sistemində vacib rol oynayarsa, habelə beynəlxalq sülhün möhkəmləndirilməsinin, beynəlxalq təhlükəsizliyin təmin edilməsinin və beynəlxalq əməkdaşlığın proqressiv inki-

[1] Фельдман Д.И. Система международного права. Казань, 1983, с.46-47.

[2] Müəlliflərdən K.A.Bekyaşev belə güman edir ki, beynəlxalq hüququn hər bir sahəsi öz nizamasalma metoduna malikdir *(bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.23).

şafının əsası olarsa, bu o deməkdir ki, həmin münasibət böyük beynəlxalq ictimai əhəmiyyətə malikdir; şübhəsiz, belə müvafiq münasibət növünü tənzimləyən beynəlxalq publik hüquq normalarının sistemi beynəlxalq publik hüququn sahəsi kimi tanınmalıdır. Məsələn, beynəlxalq iqtisadi münasibətlərin böyük beynəlxalq ictimai əhəmiyyətə malik olması şəksizdir və bu səbəbdən həmin münasibətləri tənzimləyən beynəlxalq publik hüquq normalarının sistemi beynəlxalq publik hüququn tərkibində beynəlxalq publik iqtisadi hüquq sahəsini yaradır və s.

Beynəlxalq publik hüquq sistemində hüquq sahəsinin ayrılmasını şərtləndirən **ikinci əlavə (yardımçı) meyar** ondan ibarətdir ki, dövlətlər, ümumiyyətlə beynəlxalq birlik böyük beynəlxalq ictimai əhəmiyyətə malik olan **müvafiq münasibət növünün müstəqil surətdə hüquqi tənzimlənməsində maraqlı olmalıdır;** çünki müstəqil hüquqi tənzimetmə beynəlxalq münasibətlərin tam, hərtərəfli və effektli şəkildə nizama salınmasını təmin edir. Müstəqil hüquqi tənzimetmə isə hüquq institutunun köməyi ilə deyil, məhz hüquq sahəsi vasitəsilə həyata keçirilə bilər. Buna görə də, beynəlxalq publik hüquq sistemində yeni hüquq sahəsinin ayrılması və formalaşması obyektiv zərurətə çevrilir.

Kodifikasiya fəaliyyəti beynəlxalq publik hüququn sistemində bu və ya digər sahənin ayrılmasına səbəb olan **üçüncü əlavə (yardımçı) meyar** hesab edilir; kodifikasiya fəaliyyəti hüquq normalarının sistemləşdirilməsi üzrə fəaliyyət deməkdir. Kodifikasiyanın özü isə hüquq normalarının sistem halına salınmasıdır.

Kodifikasiya dedikdə beynəlxalq publik hüququn hər hansı sahəsini təşkil edən əsas hüquq normalarının vahid beynəlxalq-hüquqi aktda birləşməsi başa düşülür; belə akta **kodifikasiya aktı** deyilir. Beynəlxalq publik hüquq sistemində sahənin ayrılması üçün geniş və universal xarakterli kodifikasiya aktı qəbul olunmalıdır. Söhbət, ilk növbədə, beynəlxalq müqavilələr-

dən gedir. **Beynəlxalq müqavilə** kodifikasiya fəaliyyətinin, beynəlxalq-hüquqi aktların əsas və başlıca formasıdır.[1]

Beynəlxalq publik hüquq sistemində müəyyən sahənin ayrılması üçün tələb edilir ki, həmin sahənin nizamasalma predmetinə daxil olan müvafiq növ beynəlxalq münasibətləri tənzimləyən **beynəlxalq publik hüquq normalarının sayı kifayət dərəcədə olmalıdır**; bu, **dördüncü əlavə (yardımçı) meyardır**. Ona görə ki, beynəlxalq publik hüququn sahələri müvafiq beynəlxalq publik hüquq normalarının sistemi olub, həmin normalar əsasında formalaşır. Qeyd etməliyik ki, beynəlxalq münasibətlər sahəsində və dövlətlərarası sistemdə ümumi normativ-hüquqi səlahiyyətə malik olan qanunvericilik hakimiyyəti və xüsusi hüquqyaratma orqanı yoxdur. Buna görə də, beynəlxalq publik hüquq normaları beynəlxalq publik hüquq subyektlərinin özləri (hər şeydən əvvəl – dövlətlər) tərəfindən yaradılır; bu normaların yaradılmasında həm də beynəlxalq təşkilatlar iştirak edir.[2] Əgər beynəlxalq publik hüquq subyektləri tərəfindən müvafiq münasibət növünü tənzimləməkdən ötrü yaradılan beynəlxalq publik hüquq normalarının həcmi kifayət dərəcədə geniş olarsa, bu, beynəlxalq publik hüquq sistemində müəyyən sahənin ayrılması üçün lazımi əsasın olmasını göstərir.

Nəhayət, beynəlxalq publik hüququn sistemində bu və ya digər sahənin ayrılması üçün onun **özünəməxsus sahəvi (xüsusi) prinsiplərə malik olması** tələb edilir; bu, **beşinci əlavə (yardımçı) meyardır**. Sahəvi (xüsusi) prinsiplər odur ki, onlar yalnız müvafiq hüquq sahəsini xarakterizə edir və onun hüquqi mahiyyətini müəyyənləşdirir; əgər belə prinsiplər varsa, onda

[1] *Daha ətraflı:* Мовчан А.П. Кодификация и прогрессивное развитие международного права. М., 1972.
[2] *Daha ətraflı:* Морозов Г.И. Международные организации. М., 1969, с.44 və b.

müvafiq hüquqi qurum beynəlxalq publik hüququn sahəsi sayılır.[1]

Beynəlxalq publik hüququn konkret olaraq, hansı sahələrdən ibarət olmasına gəldikdə, qeyd etməliyik ki, bu, hüquq ədəbiyyatı səhifələrində elmi mübahisəyə səbəb olan məsələlərdən biridir. Belə ki, bu məsələdə müəlliflərin mövqeləri üst-üstə düşmür. Digər tərəfdən, beynəlxalq publik hüquq normativ qaydada özünün ibarət olduğu hüquq sahələrinin dəqiq və dürüst, hamılıqla qəbul edilmiş rəsmi siyahısını vermir. Buna görə də, beynəlxalq publik hüququn hansı sahələrə ayrılması məsələsini beynəlxalq publik hüquq doktrinası həll etməlidir. Lakin, beynəlxalq publik hüquq doktrinası beynəlxalq publik hüquq sisteminə daxil olan sahələrin hamılıqla qəbul edilmiş konkret siyahısını hələ də müəyyənləşdirməmişdir. Odur ki, beynəlxalq publik hüququn hansı sahələrdən ibarət olması barədə elmi polemika və diskussiya alimlər arasında bu gün də davam edir.

Beynəlxalq publik hüququn sahələrə bölünməsi ilə bağlı qeyd etməliyik ki, klassik beynəlxalq hüquq tarixən çoxdan yaranmışdır. Lakin müasir beynəlxalq publik hüququn sahələrə bölünməsi tarixi, əsasən, XIX – XX əsrlərə təsadüf edir. Belə ki, BMT-nin Nizamnaməsi qəbul edildikdən sonra (1945-ci il) beynəlxalq publik hüququn sahələri, əsasən, beynəlxalq publik dəniz hüququ, beynəlxalq publik hava hüququ, diplomatiya və konsul hüququndan ibarət olmaqla, onun yeni müstəqil sahələri yaranmağa başladı (məsələn, beynəlxalq publik insan haqları hüququ, beynəlxalq publik ekologiya hüququ, beynəlxalq publik kosmos hüququ və s.).

[1] K.A.Bekyaşev beynəlxalq hüququn sahələrə bölünməsinin üç meyarını göstərir: hüquqi nizamasalma predmeti, hüquqi nizamasalma metodu, sahəvi (xüsusi) prinsiplər *(bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.22-23). Zənnimizcə, hüquqi nizamasalma metodu kimi meyar yalnız dövlətdaxili (milli) hüquqda müvafiq sahələrin ayrılmasında əsas rol oynayır.

Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində göstərilənləri nəzərə alaraq, qeyd edirik ki, müasir beynəlxalq publik hüquq hal-hazırda **aşağıdakı sahələrdən** ibarətdir:[1]

- beynəlxalq publik müqavilələr hüququ;
- xarici publik əlaqələr hüququ;[2]
- beynəlxalq publik təşkilatlar hüququ;
- beynəlxalq publik humanitar hüquq;
- beynəlxalq publik insan haqları hüququ;
- beynəlxalq publik təhlükəsizlik hüququ;
- beynəlxalq publik dəniz hüququ;
- beynəlxalq publik hava hüququ;
- beynəlxalq publik kosmos hüququ;
- beynəlxalq publik cinayət hüququ;
- beynəlxalq publik iqtisadi hüquq;
- beynəlxalq publik ekologiya hüququ;
- beynəlxalq publik əmək hüququ və s.

Beynəlxalq publik hüququn bəzi sahələri barədə, qısaca da olsa, məlumat verək. **Beynəlxalq publik müqavilə hüququ** dedikdə beynəlxalq müqavilələrin bağlanma, qüvvədə olma və ləğv edilmə qaydalarını müəyyənləşdirən hüquq normalarının sistemi başa düşülür; bu sahə beynəlxalq publik hüququn sistemində əsas və mərkəzi yer tutur.[3]

---

[1] Beynəlxalq hüququn sistemində göstərilən sahələrin mövcud olması, demək olar ki, bütün alimlər tərəfindən tanınır və hər hansı elmi diskussiyaya səbəb olmur.

[2] Beynəlxalq publik hüququn sözügedən sahəsini həm də «diplomatiya və konsul hüququ» və ya «səfirlik və konsulluq hüququ» adlandırırlar *(bax:* Блищенко И.П. Дипломатическое право. М., 1990; Сабинин А.В.Посольское и консулское право. М., 1934 və b.).

[3] *Daha ətraflı:* Лукашук И.И. Современное право международных договоров. Том 1, 2. М., 2004.

Xarici publik əlaqələr hüququ beynəlxalq publik hüququn elə bir sahəsidir ki, o, özündə dövlət və beynəlxalq təşkilatların iştirak etdikləri rəsmi nümayəndəlik münasibətlərini tənzimləyən hüquq normalarını birləşdirir; beynəlxalq publik hüququn bu sahəsi, əsasən, diplomatiya və konsulluq münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir.[1]

Beynəlxalq publik təşkilatlar hüququ beynəlxalq publik hüququn subyektlərindən biri olan dövlətlərarası beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarından ibarət olan hüquq sahəsidir; beynəlxalq publik hüququn bu sahəsi dövlətlərarası beynəlxalq münasibətlər sistemində vacib rol oynayır. Ona görə ki, beynəlxalq təşkilatlar dövlətlərarası ünsiyyət və əlaqənin əsas təşkilatçılarıdır.[2]

Beynəlxalq publik humanitar hüquq dedikdə beynəlxalq hərbi münaqişələrlə bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür;[3] ona həm də beynəlxalq hərbi münaqişələr hüququ da deyilir.[4] Beynəlxalq publik hüququn bu sahəsinin əsas məqsədi beynəlxalq hərbi münaqişələrlə bağlı yaranan humanitar məsələləri həll etməkdən ibarətdir.

Beynəlxalq publik insan haqları hüququ dedikdə beynəlxalq publik hüququn elə bir sahəsi başa düşülür ki, bu sahə özündə insan hüquqlarını qoruyan, müdafiə və təmin edən hüquq normalarını birləşdirir;[5] onu ayrı-ayrı müəlliflər «beynəl-

---

[1] *Daha ətraflı:* Сандровский К.К. Право внешних сношений. Киев, 1986; Гулиев А.Д. Право внешних сношений. Учебник. Киев, 2012 və b.

[2] *Daha ətraflı:* Шибаева Е.А. Право международных организаций. М., 1986; Зайцева О.Г. Международные межправительственные организации. М., 1983.

[3] *Daha ətraflı:* Батырь В.А. Международное гуманитарное право. М., 2006; İbayev V.Ə. Beynəlxalq humanitar hüquq. Dərslik. Bakı, 2001, 496 s. və b.

[4] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.824; Международное право. Учебник / Отв. ред. Ю.М. Колосов, Э.С.Кривчикова, М., 2000, с.397.

[5] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, 2019, 352 s. və b.

xalq humanitar hüquq»,[1] «insan hüquqlarının beynəlxalq müdafiəsi»[2] və s. adlandırırlar. Hansı terminlə əhatə və ifadə olunmasından asılı olmayaraq, beynəlxalq publik hüququn bu sahəsinin mühüm əhəmiyyəti vardır. Belə ki, onun köməyi və vasitəsi ilə insan hüquq və azadlıqları beynəlxalq səviyyədə təmin olunur. Beynəlxalq publik insan haqları hüququ müasir beynəlxalq publik hüququn yeni sahəsidir.

Beynəlxalq publik təhlükəsizlik hüququ dedikdə hərbi-siyasi sahədə dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür; onun əsas məqsədi sülhü möhkəmləndirmək, sanksiyalaşdırılmamış hərbi güc tətbiq edilməsinin qarşısını almaq, beynəlxalq terrorizmlə mübarizə aparmaq, silahların məhdudlaşdırılması və azaldılması sahəsində dövlətlərarası beynəlxalq əməkdaşlığı təmin etməkdən ibarətdir.[3] Beynəlxalq publik təhlükəsizlik hüququ beynəlxalq publik hüququn yeni sahələrindən sayılır.

Beynəlxalq publik dəniz hüququ dedikdə Dünya okeanından istifadə sahəsində beynəlxalq publik hüquq subyektlərinin fəaliyyətini tənzimləyən hüquq normalarının kompleksi başa düşülür. Dünya okeanından müxtəlif məqsədlər (ticarət gəmiçiliyi, balıqçılıq, elmi-tədqiqat və s.) üçün istifadə edilməsi ilə bağlı yaranan münasibətləri hüquqi tənzimləmək zərurəti beynəlxalq publik hüququn bu sahəsinin yaranmasına səbəb olmuşdur.[4]

---

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.276; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2003, с. 378-419.

[2] Карташкин В.А. Международная защита прав человека. М., 1976; Даниленко Г.М. Международная защита прав человека. М., 2000 və b.

[3] *Bax:* Малинин С.А. Право международной безопасности // В книге: Курс международного права. Том IV. М., 1989, с.167.

[4] *Daha ətraflı:* Молодцов С.В. Международное морское право. М., 1987; Международное морское право. Учебное пособие/Под ред.С.А. Гуреева. М., 2003 və b.

Beynəlxalq publik hava hüququ hava məkanından istifadə sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemidir; beynəlxalq publik hüququn bu sahəsi öz quru və su əraziləri üzərindəki hava məkanına münasibətdə tam və müstəsna dövlət suverenliyini, açıq hava məkanında beynəlxalq uçuşların sərbəst həyata keçirilməsini, habelə beynəlxalq mülki aviasiyanın təhlükəsizliyini təmin edir.[1]

Beynəlxalq publik kosmos hüququ dedikdə kosmik fəzadan, habelə kosmik texnikadan istifadə sahəsində dövlətlərarası münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.[2] Beynəlxalq publik hüququn bu sahəsi kosmik fəaliyyətin həyata keçirilməsi sferasında dövlətlərin hüquq və vəzifələrini tənzimləyir, kosmosun hüququ rejimini müəyyənləşdirir. O, həm də kosmosdan hərbi məqsədlər üçün istifadə edilməsini məhdudlaşdıran müvafiq beynəlxalq-hüquqi tədbirlər nəzərdə tutur.

Beynəlxalq publik cinayət hüququ beynəlxalq publik hüquq sisteminin elə bir tərkib hissəsidir ki, o, özündə cinayətkarlıqla mübarizə sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının məcmusunu birləşdirir. Beynəlxalq publik hüququn bu sahəsi cinayətkarlıqla mübarizədə dövlətlərin beynəlxalq əməkdaşlığının inkişafını iki əsas istiqamətdə həyata keçirir: beynəlxalq müqavilə bağlamaq yolu ilə əməkdaşlıq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq[3].

Beynəlxalq publik iqtisadi hüquq dedikdə iqtisadi sahədə dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür; onun köməyi və vasitəsi ilə

---

[1] *Daha ətraflı:* Малеев Ю.М. Международное воздушное право. М., 1986.

[2] *Daha ətraflı:* Международное космическое право / Отв.ред. Г.П.Жуков, Ю.М.Колосов. М., 1999.

[3] *Daha ətraflı:* Панов В.П. Международное уголовное право. М., 1997; Лукашук И.И. Наумов А.В. Международное уголовное право. Учебник. М., 1999; Иногамова-Хегай Л.В. Международное уголовное право. СПб., 2003.

qlobal xarakter alan beynəlxalq iqtisadi münasibətlər sistemində qayda-qanun yaradılır.[1]

Beynəlxalq publik ekologiya hüququ dedikdə təbii resurslardan istifadə edilməsi və ətraf mühitin mühafizəsi sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür; onun sayəsində təbii resurslardan səmərəli istifadə olunması, eləcə də ətraf mühitin çirklənmədən qorunması təmin edilir. Beynəlxalq publik ekologiya hüququ həm də «ətraf mühiti beynəlxalq mühafizə hüququ» adlanır.[2]

Beynəlxalq publik əmək hüququ isə beynəlxalq publik hüquq subyektləri arasında əməklə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normaları sistemindən ibarətdir; onun əmək şəraiti hüquq institutu, sosial təminat hüquq institutu, əmək haqqı hüquq institutu və s. tərkib hissələri fərqləndirilir.[3]

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, müasir beynəlxalq publik hüquq hələlik formalaşma mərhələsindədir. Belə ki, beynəlxalq publik hüququn bu və digər sahəsinin formalaşması uzunmüddətli mürəkkəb bir ictimai proses deməkdir və o, bu gün də davam edir. Söhbət müasir beynəlxalq publik hüququn formalaşmaqda olan bu kimi sahələrindən gedir: beynəlxalq publik idman hüququ, beynəlxalq publik tibb hüququ və s. Bəzi müəlliflər hesab edirlər ki, beynəlxalq publik hüququn tərkibində beynəlxalq tibb hüququ, beynəlxalq atom hüququ kimi müstəqil sahələr artıq formalaşmışdır.[4]

---

[1] *Daha ətraflı:* Вельяминов Г.М. Международное экономическое право и процесс. М., 2004; Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr. Bakı, 2016, 690 s. və b.

[2] *Daha ətraflı:* Тимошенко А.С. Формирование и развитие международного права окружающей среды. М., 1985; Məhərrəmov A. A. Ekoloji təhlükəsizlik sferasında beynəlxalq mexanizmlər. Bakı, 2009 və s.

[3] Бекяшев Д.К. Международное трудовое право. Учебное пособие. М., 2008, 336 с.

[4] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 32; Трунцевский Ю.В. др. Международное право. Учебное пособие. М., 2010, с. 406-412.

Bir qrup alim tərəfindən beynəlxalq publik hüquq sistemində beynəlxalq antiterror hüququ və beynəlxalq prosessual hüquq,[1] beynəlxalq hərbi münaqişə hüququ və beynəlxalq məhkəmə hüququ,[2] mübahisələrin dinc həlli hüququ,[3] beynəlxalq hüquq-mühafizə hüququ[4] və s. müstəqil sahələr ayrılır; digər müəlliflər isə beynəlxalq kütləvi informasiya hüququnu, habelə beynəlxalq nüvə hüququnu da beynəlxalq hüququn sahəsi hesab edirlər.[5]

Xüsusilə qeyd etmək istərdik ki, beynəlxalq publik hüquq sistemində hər hansı bir hüquq sahəsinin ayrılması beynəlxalq publik hüquq üzrə mütəxəssis alimlərin düşüncəsinin və subyektiv mülahizəsinin nəticəsi olmamalı, obyektiv gerçəkliyə və reallığa söykənməlidir. Başqa sözlə, beynəlxalq publik hüququn bu və ya digər sahəsinin formalaşmasının obyektiv əsası olmalıdır. Belə ki, dövlətlərarası münasibətlərin inkişaf dinamikası beynəlxalq publik hüququn nizamasalma predmetinin genişlənməsinə, tənzimlənməyi tələb edən yeni münasibət növlərinin yaranmasına səbəb olur. Təbii ki, yaranmış yeni münasibət növünü tənzimləmək üçün beynəlxalq publik hüquq sistemində bu və ya digər sahə ayrılmalıdır.

Beynəlxalq publik hüququn formalaşmaqda olan sahələrindən biri bəzi müəlliflər tərəfindən beynəlxalq publik enerji hüququ hesab edilir. **Beynəlxalq publik enerji hüququ** dedikdə beynəlxalq publik hüququn elə bir müstəqil sahəsi başa düşülür

---

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.818, 883, 943.

[2] Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2009, с. 420, 544; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.778.

[3] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.121.

[4] Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015, с.487; Ромашев Ю.С. Международное правоохранительное право. М., 2010, 368 с.

[5] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.488, 622.

ki, bu sahə özündə energetika sahəsində beynəlxalq hüquq subyektləri, xüsusilə də dövlətlər arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir.[1] Onun nizamasalma predmeti energetika sahəsində yaranan beynəlxalq dövlətlərarası münasibətlərdən ibarətdir.

Dövlətlərarası beynəlxalq əməkdaşlıq həm də idman sahəsində həyata keçirilir. Müasir dövrdə bu istiqamətdə mövcud olan belə əməkdaşlığa əsasən və ona uyğun olaraq, beynəlxalq publik hüququn tərkibində beynəlxalq publik idman hüququ kimi müstəqil sahə formalaşmaqdadır. **Beynəlxalq publik idman hüququ** dedikdə dövlətlər arasında idman sahəsində yaranan beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Məhz həmin normalar vasitəsilə idman sahəsində beynəlxalq əməkdaşlıq münasibətlərinin hüquqi tənzimlənməsi həyata keçirilir. Beynəlxalq idman münasibətləri, yəni idman sahəsində yaranan beynəlxalq münasibətlər beynəlxalq publik idman hüququnun nizamasalma predmetini təşkil edir.

Beynəlxalq publik hüququn formalaşmaqda olan müstəqil sahələrindən biri də beynəlxalq publik prosessual hüquq adlanır.[2] **Beynəlxalq publik prosessual hüquq** dedikdə beynəlxalq prosessual münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür ki, bu münasibətlər beynəlxalq publik hüquq subyektləri arasında əmələ gəlir. Məhz həmin münasibətlər beynəlxalq publik prosessual huququn nizamasalma predmetini təşkil edir. Beynəlxalq prosessual münasibətlər dövlətlər, beynəlxalq orqanlar və beynəlxaq məhkəmə təsisatları tərəfindən maddi hüququn tətbiqi sferasında əmələ gəlir.

Beynəlxalq publik tibb hüququ beynəlxalq publik hüququn formalaşmaqda olan elə bir sahəsidir ki, bu sahə özündə dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri ara-

[1] *Ətraflı bax:* Sadıqov Ə.İ. Beynəlxalq enerji hüququ. Dərslik. Bakı, 2013, 312 s.
[2] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.703; Международное право. Учебник / Отв.ред. Г.С.Стародубцев. М., 2015, с. 375 və b.

sında yaranan beynəlxalq tibb münasibətlərini tənzimləyən hüquq normalarını birləşdirir. Məhz bu münasibətlər beynəlxalq publik tibb hüququnun nizamasalma predmetini təşkil edir. Bu münasibətlər tibb-səhiyyə sahəsində dövlətlərarası beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı yaranır.[1]

Beynəlxalq publik antiterror hüququ beynəlxalq publik hüququn formalaşmaqda olan elə bir sahəsidir ki, bu sahə terrorla mübarizə sferasında dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarından ibarətdir. Onun nizamasalma predmetini terrorçluqla mübarizə sahəsində yaranan beynəlxalq münasibətlər təşkil edir. Bu münasibətlər isə terrorçuluqla mübarizə aparılmasında dövlətlərin və beynəlxalq publik hüququn digər subyektlərinin əməkdaşlıq etmələri ilə bağlı yaranır.

Kütləvi informasiya beynəlxalq münasibətlərdə vacib rol oynayır. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, kütləvi informasiya beynəlxalq ictimai fikrin formalaşmasının mühüm vasitəsidir. Digər tərəfdən, kütləvi informasiya xarici siyasətin həyata keçirilməsinin ayrılmaz elementi kimi tanınır. Belə ki, beynəlxalq publik hüquq subyektləri arasında münasibətlər həm də kütləvi informasiya vasitələrindən istifadə ilə bağlı olaraq yaranır. Məhz həmin münasibətləri tənzimləyən beynəlxalq publik hüquq normalarının sistemi beynəlxalq publik kütləvi informasiya hüququ adlanır və o, beynəlxalq publik hüququn formalaşmaqda olan müstəqil sahələrindən biridir. **Beynəlxalq publik kütləvi informasiya hüququ** dedikdə beynəlxalq publik hüququn elə bir sahəsi başa düşülür ki, bu sahə özündə beynəlxalq publik hüquq subyektləri arasında kütləvi informasiya vasitələrindən istifadə ilə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir.

Qeyd etmək lazımdır ki, əgər beynəlxalq publik hüququn xüsusi hissəsi müstəqil hüquq sahələrinə ayrılırsa, müstəqil hüquq sahələrinin özü yarımsahələrə bölünür. Yarımsahələr

[1] Mustafazadə A.İ., Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. Bakı, 2017, 204 s.

beynəlxalq publik hüquq sahəsinin tərkibinə daxil olan struktur elementlərdən (hissələrdən) biridir.

Beynəlxalq publik hüququn yarımsahəsi dedikdə beynəlxalq publik hüquq sahəsi çərçivəsində mövcud olan və bir-birinə oxşar eyninövlü hüquq institutlarının məcmusu başa düşülür. Məsələn, beynəlxalq publik əqli mülkiyyət hüququ beynəlxalq publik hüququn müstəqil sahələrindən biri olan beynəlxalq publik iqtisadi hüququn yarımsahəsidir; bu yarımsahə özündə bir-birinə oxşar və yaxın olan eyninövlü iki hüquq institutunu birləşdirir: beynəlxalq müəlliflik hüquq institutu, beynəlxalq patent hüquq institutu. Başqa bir misalda, beynəlxalq publik nəqliyyat hüququ beynəlxalq publik hüququn müstəqil sahələrindən biri olan beynəlxalq publik iqtisadi hüququn yarımsahəsi sayılır; bu yarımsahənin tərkibində bir neçə hüquq institutu mövcuddur:[1] beynəlxalq dəniz nəqliyyat daşımaları institutu, beynəlxalq dəmir yol nəqliyyat daşımaları institutu, beynəlxalq hava nəqliyyat daşımaları institutu, beynəlxalq avtomobil nəqliyyat daşımaları institutu, beynəlxalq su (çay) nəqliyyat daşımaları institutu, beynəlxalq boru kəmər nəqliyyat daşımaları institutu və s.

Beləliklə, müasir beynəlxalq publik hüququn xüsusi hissəsi müstəqil hüquq sahələrindən, hüquq sahələri isə hüquq yarımsahələrindən və hüquq institutlarından ibarətdir.

1.4. Beynəlxalq publik hüququn nizamasalma metodu

1.4.1. Beynəlxalq publik hüququn nizamasalma metodu anlayışı

Beynəlxalq publik hüququn əsas anlayışlarından biri onun nizamasalma metodu hesab edilir. Lakin, buna baxmayaraq, beynəlxalq hüquq doktrinasında o, kifayət dərəcədə öyrənilmə-

[1] *Bax:* Əliyev E.Ə.Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2009, s.76-537; Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s.514-542 və b.

miş və demək olar ki, ümumiyyətlə ətraflı tədqiq edilməmişdir. Müasir dövrün beynəlxalq hüquq ədəbiyyatında da həmin mövzuya geniş formatda toxunulmur ki, bu cəhəti ayrıca fərqləndirmək lazımdır.[1] Ümid edirik ki, yaxın perspektivdə beynəlxalq hüquqa dair yazılan əsərlərdə (monoqrafiya, dərslik və s.) «beynəlxalq publik hüququn nizamasalma metodu» kimi aktual mövzu əhatəli şəkildə işıqlandırılacaqdır.

Beynəlxalq publik hüququn nizamasalma metodu onun nizamasalma predmeti ilə sıx surətdə bağlıdır; onlar arasında qarşılıqlı dialektik əlaqə mövcuddur. Belə ki, beynəlxalq publik hüququn nizamasalma metodu onun nizamasalma predmeti ilə şərtlənir; məhz beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərin konkret məzmunu beynəlxalq publik hüququn nizamasalma metodunu müəyyən edir.

Bildiyimiz kimi, beynəlxalq publik hüququn nizamasalma predmetini beynəlxalq publik hüquqla tənzimlənən ictimai münasibətlər təşkil edir. Beynəlxalq publik hüququn nizamasalma metodu anlayışına gəldikdə isə, qeyd etməliyik ki, bu anlayış belə bir suala cavab verir: beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlər beynəlxalq publik hüquqla necə tənzimlənir? Beynəlxalq-hüquqi tənzimetmənin necə həyata keçirilməsi, tənzimetmə zamanı hansı üsullardan, hüquqi vasitələrdən istifadə edilməsi və lazımi hüquqi nəticənin necə əldə olunması beynəlxalq publik hüququn nizamasalma metodu anlayışının mahiyyətini təşkil edir.

Beləliklə, beynəlxalq publik hüququn **nizamasalma metodu** dedikdə beynəlxalq publik hüququn tənzimetmə predmetinə

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000; Шумилов В.М. Международное право. Учебник. М., 2008; Международное право. Учебник / Отв. ред. В.И. Кузнецев, Б.Р.Тузмухамедов. М., 2007; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 və b.

daxil olan dövlətlərarası beynəlxalq münasibətlərə onun göstərdiyi təsir üsulları (vasitələri) başa düşülür.

1.4.2. Beynəlxalq publik hüququn nizamasalma metodunun növləri

Beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir; bu münasibətlər dövlətlərarası beynəlxalq əməkdaşlığın ayrı-ayrı istiqamətlərində (xarici əlaqələr, iqtisadi, ekologiya, təhlükəsizlik, humanitar, cinayətkarlıqla mübarizə, insan hüquqlarının qorunması və s.) yaranır. Məzmunca müxtəlif olduğuna görə həmin münasibətlərə, təbii ki, hüquqi nizamasalma metodunun müxtəlif növləri tətbiq edilir; həm də ona görə ki, dövlətlərarası beynəlxalq sistem iştirakçıları arasındakı qarşılıqlı münasibətlər mürəkkəb xarakterə malikdir. Odur ki, dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək üçün beynəlxalq publik hüququn nizamasalma metodunu müxtəlif əsaslara görə təsnifləşdirmək olar.

Dövlətlərarası münasibət iştirakçıları üçün **hüquq və vəzifələr müəyyənləşdirmək** üsuluna görə beynəlxalq publik hüquqda nizamasalma metodunun iki növü fərqləndirilir:

– saziş metodu;

– adət metodu.

Beynəlxalq müqavilə vasitəsi ilə dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün müvafiq hüquq və vəzifələrin müəyyənləşdirilməsi **saziş metodunun** mahiyyətini təşkil edir. Əgər münasibət iştirakçıları üçün hüquq və vəzifələr müəyyənləşdirilərsə, deməli, həmin münasibət hüquqi cəhətdən tənzimlənir. Bu zaman beynəlxalq müqavilə sözügedən münasibət iştirakçıları üçün müvafiq münasibətləri hüquqi tənzimetmənin üsulu (metodu) kimi çıxış edir. Bu, beynəlxalq hüququn nizamasalma metodunun əsas növü sayılır.

Adət metodunun mahiyyəti beynəlxalq-hüquqi adətlər vasitəsi ilə dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün hüquq və vəzifələrin müəyyənləşdirilməsindən ibarətdir. Belə ki, beynəlxalq-hüquqi adət beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan münasibətləri tənzimləməkdən ötrü tətbiq edilən üsuldur. Elə münasibət növləri vardır ki, beynəlxalq publik hüquq onlara məhz beynəlxalq-hüquqi adətlər vasitəsilə təsir göstərə bilir.

Beynəlxalq publik hüquq normalarında əks olunmasından asılı olaraq, beynəlxalq publik hüququn nizamasalma metodunun üç növü vardır:

- icazə metodu;
- məcburetmə metodu;
- qadağanetmə metodu.

Qeyd edək ki, beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində tənzimetmə üsuluna (metoduna) görə, beynəlxalq publik hüquq normaları müəyyənləşdirdiyi hüquq və vəzifələrin xarakterindən asılı olaraq, üç növə bölünür:[1]

- səlahiyyətverici beynəlxalq publik hüquq normaları;
- məcburedici beynəlxalq publik hüquq normaları;
- qadağanedici beynəlxalq publik hüquq normaları.

Səlahiyyətverici beynəlxalq publik hüquq normaları dedikdə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etmək hüququ verən normalar başa düşülür. Məsələn, dövlətlərə kosmik fəzanı tədqiq və ondan istifadə etmək hüququ verən norma səlahiyyətverici beynəlxalq publik hüquq normasıdır. **İcazə metodu** da məhz səlahiyyətverici beynəlxalq publik hüquq normaları vasitəsi ilə tətbiq edilir. Qeyd etməliyik ki, icazə, mahiyyətcə, ictimai münasibətləri tənzimet-

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.112; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2009, с.129 və b.

mə üsullarından (metodlarından) biridir. Belə ki, beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etməyə icazə vermək yolu ilə beynəlxalq publik hüquq həmin münasibətləri tənzimləyir.

Məcburedici beynəlxalq publik hüquq normaları dedikdə müəyyən hərəkətlərin edilməsinə yönəlmiş vəzifələr müəyyənləşdirən hüquq normaları başa düşülür; belə normalar göstərir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları necə davranmalı və qarşıya qoyulan məqsədə çatmaq üçün hansı hərəkətləri etməlidirlər. Məsələn, nüvə qəzası barədə xəbər verilməsi haqqında norma məcburedici beynəlxalq publik hüquq normasıdır. **Məcburetmə metodu** da məhz məcburedici beynəlxalq publik hüquq normaları vasitəsi ilə tətbiq olunur. Təsadüfi deyil ki, məcburetmə, mahiyyətcə, tənzimetmənin metodlarından (üsullarından) biri sayılır.

Qadağanedici beynəlxalq publik hüquq normaları dedikdə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etməyi yasaqlayan normalar başa düşülür. Məsələn, hərbi güc tətbiq edilməsini, başqa dövlətlərin daxili işlərinə qarışmağı, bakterioloji silahın istehsal olunmasını və s. halları yasaq edən normalar qadağanedici beynəlxalq publik hüquq normalarına aiddir. **Qadağanetmə metodu** da məhz qadağanedici beynəlxalq publik hüquq normalarının tətbiq olunmasını nəzərdə tutur. Qadağanetmə də, mahiyyətcə, tənzimetmə üsullarına (metodlarına) daxildir.

Qeyd etmək vacibdir ki, beynəlxalq publik hüquq qadağanetmə, icazə və məcburetmə kimi tənzimetmə metodlarının sistemidir; bu sistem dövlətlərarası münasibət iştirakçılarının iradə ifadəsi olub, onlar tərəfindən həmin münasibətləri tənzimləmək üçün yaradılmışdır. Həmin metodlar isə, müvafiq olaraq, qadağanedici, səlahiyyətverici və məcburedici beynəlxalq publik hüquq normalarında əks olunur.[1]

[1] *Bax:* Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.45.

Normativ tənzimetmənin qətiliyi baxımından, beynəlxalq nizamasalma metodunun iki növü fərqləndirilir:

– imperativ metod;
– dispozitiv metod.

İmperativ tənzimetmə metodu dedikdə beynəlxalq imperativ hüquq normaları vasitəsilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; **beynəlxalq imperativ hüquq normaları** isə dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün dəqiq və dürüst davranış qaydaları müəyyən edir; onlar bu qaydalardan kənara çıxa bilməzlər. Məsələn, dövlətlər üçün kimyəvi silahları və onları istehsal edən obyektləri məhv etmək barədə öhdəlik müəyyənləşdirən norma beynəlxalq imperativ hüquq normasıdır.

Dispozitiv tənzimetmə metodu dedikdə beynəlxalq dispozitiv hüquq normalarının köməyi ilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; **beynəlxalq dispozitiv hüquq normaları** isə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına konkret haldan asılı olaraq, istədikləri davranış variantını seçmək, özləri üçün qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirmək imkanı verir.

Dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının **maraq və məqsədi** baxımından, iki növ nizamasalma metodu tətbiq edilə bilər:

– subordinasiya tənzimetmə metodu;
– əlaqələndirmə (koordinasiya) tənzimetmə metodu.

Subordinasiya tənzimetmə metodu beynəlxalq hüquq üçün tipik və xarakterik olan nizamasalma üsulu deyildir. Ona görə ki, subordinasiya tənzimetmə metodu hakimiyyət xarakterli məcburiyyət-tabeçilik nizamasalma üsuludur; bu üsul aralarında hakimiyyət-tabeçilik və iyerarxiya asılılığı olan münasibətləri tənzimləmək üçün tətbiq edilir (məsələn, bu metoddan konstitusiya, inzibati, maliyyə, cinayət və digər milli hüquq sahələrində istifadə olunur). Beynəlxalq publik hüquqla tənzimlənən dövlətlərarası beynəlxalq münasibətlərin iştirakçıları arasında isə nə asılılıq, nə də tabeçilik vardır; həmin münasibətlər hüquqca bərabər olan iştirakçılar arasında yaranır. Buna görə də, beynəlxalq publik hüquq üçün əlaqələndirmə (koordinasiya)

tənzimetmə metodu xarakterikdir; həm də ona görə ki, beynəlxalq publik hüquq **koordinasiya xarakterli hüquqdur**. Digər tərəfdən, beynəlxalq publik hüquq həm də əlaqələndirmə (koordinasiya) funksiyasını yerinə yetirir. Lakin, bunlara baxmayaraq, müəyyən hallarda beynəlxalq publik hüquqda subordinasiya tənzimetmə metodu tətbiq olunur. Məsələn, bu metod beynəlxalq publik hüququn institutlarından biri olan iqtisadi inteqrasiya hüququnun başlıca metodu sayılır.[1] Belə ki, iqtisadi inteqrasiya birlikləri (məsələn, Avropa İttifaqı) ilə üzv-dövlətlər arasında münasibətlərə subordinasiya tənzimetmə metodu tətbiq olunur; üzv-dövlətlər öz hakimiyyət səlahiyyətlərinin müəyyən hissəsini həmin birliklərə verirlər.

Məlum olduğu kimi, beynəlxalq publik hüquqda elə normalar vardır ki, onlar dövlətlər üçün hamılıqla qəbul olunmuş davranış standartlarını müəyyən edir; məhz həmin normalar vasitəsilə **koordinasiya tənzimetmə metodu** tətbiq olunur. Bu metod suveren dövlətlərin **özünütənzimetmə, özünüidarəetmə metodudur**. Subordinasiya metodu isə bu xüsusiyyətdən məhrumdur. Lakin, buna baxmayaraq, beynəlxalq publik hüquqda subordinasiya tənzimetmə metodunun tətbiq dairəsinin genişlənməsi tendensiyası müşahidə olunur. Belə ki, BMT Təhlükəsizlik Şurasının, BMT Beynəlxalq Məhkəməsinin, BMT-nin ixtisaslaşdırılmış təşkilatlarının və s. orqanların fəaliyyətində məhz belə elementlərə rast gəlmək mümkündür.

Göstərilənlərdən başqa, beynəlxalq publik hüquqda tənzimetmə metodunun **aşağıdakı növlərindən** də istifadə oluna bilər:

- birtərəfli tənzimetmə metodu;
- ikitərəfli tənzimetmə metodu;
- çoxtərəfli tənzimetmə metodu.

[1] Шумилов В.М.Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.200; Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s. 172-178 və b.

Birtərəfli tənzimetmə metodunun mahiyyəti bundan ibarətdir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları birtərəfli qaydada öz üzərlərinə hər hansı beynəlxalq-hüquqi öhdəlik götürürlər. Beynəlxalq publik hüquq praktikası göstərir ki, bu metodu, əsasən, dövlətlər tətbiq edirlər. Məsələn, hər hansı dövlət birtərəfli qaydada öz üzərinə nüvə sınağı (partlayışı) keçirməmək barədə öhdəlik götürür.

Birtərəfli tənzimetmə metodu həm də **dövlətlərin birtərəfli aktı** formasında tətbiq oluna bilər.[1] Belə aktlar məcburi davranış qaydaları müəyyən edir və buna görə onlar beynəlxalq-hüquqi əhəmiyyətə malik olur. Məsələn, dövlət tərəfindən hər hansı digər dövlətin tanınması barədə verilən bəyanat məhz bu cür xüsusiyyətə malikdir[2] və ona görə də, birtərəfli tənzimetmə metodu sayılır. Lakin, dövlətlərin elə birtərəfli aktları vardır ki, belə aktlar məcburi davranış qaydalarını müəyyənləşdirmir; bu səbəbdən də, onları birtərəfli tənzimetmə metodu hesab etmək olmaz. Məsələn, dövlət hər hansı xarici dövlətin hərəkətlərinə etiraz etmək barədə bəyanat verir və s.

İkitərəfli tənzimetmə metodu dövlətlərarası beynəlxalq münasibətlərin iki iştirakçısı arasındakı qarşılıqlı əlaqələrə tətbiq olunur; bu metod beynəlxalq publik iqtisadi hüququn yarımsahələrindən biri olan beynəlxalq publik investisiya hüququnun başlıca tənzimetmə metodu sayılır.

Çoxtərəfli tənzimetmə metodu dövlətlərarası beynəlxalq münasibətlərin çoxsaylı iştirakçıları arasında qarşılıqlı münasibətlərə tətbiq edilir. Bu növ tənzimetmə metodu, əsasən, beynəlxalq təşkilatlar (məsələn, BMT, BVF, ÜTT, BYİB və s.) və yaxud regional inteqrasiya birlikləri (məsələn, Avropa İttifaqı və s.) çərçivəsində həyata keçirilir; həmin metod ya universal səviyyədə (universal çoxtərəfli tənzimetmə metodu), ya da regional səviyyədə (regional çoxtərəfli tənzimetmə metodu) tət-

[1] *Daha ətraflı:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.123-128.
[2] Cassese A. International Law. Oxford, 2001, p.150-151.

biq oluna bilər. Çoxtərəfli tənzimetmə metodu universal səviyyədə, xüsusən də ÜTT sistemində tətbiq edilir; sözügedən universal beynəlxalq təşkilatın yaradılmasından sonra dövlətlərarası ticarət münasibətlərinin ikitərəfli tənzimetmə metodu çoxtərəfli tənzimetmə metodu ilə əvəz olunmuşdur.

Beynəlxalq publik hüquqa həm də fövqəlmilli tənzimetmə metodu məlumdur.[1] **Fövqəlmilli tənzimetmə metodu** dedikdə fövqəlmilli hüquq vasitəsi ilə tətbiq edilən nizamasalma üsulu başa düşülür. **Fövqəlmilli hüquq** isə dövlətdaxili (milli) hüquqlardan üstün olan hüquqdur.

Bildiyimiz kimi, dövlətlərarası beynəlxalq təşkilatların üzvləri dövlətlərdən ibarətdir; üzv olmaqla dövlətlər öz hakimiyyət səlahiyyətlərinin bir hissəsini həmin təşkilatlara vermiş olurlar. Buna görə də, beynəlxalq təşkilatlar onların üzvü olan suveren dövlətlərə münasibətdə müstəqil sərəncam səlahiyyətlərinə malik olurlar. Xüsusilə qeyd etməliyik ki, beynəlxalq təşkilatların qəbul etdikləri normativ hüquqi aktların üzv-dövlətlər üçün məcburi hüquqi qüvvəsi vardır; həmin aktlar əsasında onların ayrıca hüququ formalaşır (məsələn, ÜTT hüququ, BVF hüququ və s.). Məhz belə hüquq fövqəlmilli hüquq adlanır. Məsələn, BVF hüququna aid çoxsaylı normalar fövqəlmilli xarakterə malikdir və BVF-nin qəbul etdiyi qərarları üzv-dövlətlər məcburi olaraq icra etməlidirlər. Buna görə də, BVF hüququna fövqəlmilli tənzimetmə metodu xasdır.

Fövqəlmilli tənzimetmə metodu həm də inteqrasiya birliklərinin hüquqi nizamasalma mexanizmində tətbiq olunur. Söhbət, hər şeydən əvvəl, Avropa İttifaqı kimi inteqrasiya birliyinin fəaliyyətindən gedir.[2] Bu birliyin orqanları üzv-dövlətlər üçün məcburi olan və birbaşa tətbiq edilən hakimiyyət xarakterli aktlar qəbul etmək səlahiyyətinə malikdir; bu aktların hüquqi qüvvəsi üzv-dövlətlərin daxili (milli) hüququndan üstündür; həmin

[1] Шумилов В.М. Международное экономическое право в эпоху глобализации. М., 2003, с. 22.

[2] *Bu barədə ətraflı bax:* Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, §6.2.

aktlar vasitəsi ilə həyata keçirilən nizamasalma üsulu fövqəlmilli tənzimetmə metodu sayılır. Bu metoddan, bir qayda olaraq, beynəlxalq iqtisadi inteqrasiya münasibətlərinin tənzimlənməsində istifadə olunur. Buna görə də, fövqəlmilli tənzimetmə metodu beynəlxalq publik iqtisadi hüququn əsas nizamasalma üsulu sayılır[1].

Hansı normaların köməyi ilə nizamlamasından asılı olaraq, beynəlxalq publik hüquqda tənzimetmə metodunun iki növü fərqləndirilir:

– beynəlxalq-hüquqi tənzimetmə metodu;
– siyasi-mənəvi tənzimetmə metodu.

Beynəlxalq-hüquqi tənzimetmə metodu dedikdə beynəlxalq publik hüquq normaları vasitəsilə tətbiq olunan nizamasalma üsulu başa düşülür. Beynəlxalq publik hüquq öz tənzimlədiyi dövlətlərarası münasibətlərə beynəlxalq müqavilə normaları vasitəsilə tətbiq olunan tənzimetmə metodu ilə xüsusilə təsir göstərir. Bununla yanaşı, dövlətlərarası münasibətlərin hüquqi tənzimetmə mexanizmində beynəlxalq-adət hüquq normaları da mühüm yer tutur.

Siyasi-mənəvi tənzimetmə metodu dedikdə beynəlxalq publik hüquq normaları sayılmayan davranış qaydaları vasitəsilə həyata keçirilən nizamasalma üsulu başa düşülür. **Beynəlxalq publik hüquq normaları sayılmayan davranış qaydalarına** isə, ilk növbədə, siyasi-mənəvi normalar aiddir. Siyasi-mənəvi normalar dedikdə «mülayim hüquq» normaları başa düşülür. Təbii ki, öncə «mülayim hüquq nədir?» sualına cavab verməliyik.

Qeyd etmək lazımdır ki, son zamanlar «mülayim hüquq» kimi konsepsiya inkişaf etmişdir. **«Mülayim hüquq»**[2] dedikdə məcburi hüquqi qüvvəsi olmayan və beynəlxalq müqavilə sayılmayan tövsiyə xarakterli beynəlxalq aktlar (beynəlxalq təşkilat və orqanların qətnamələri, birgə bəyanatlar, konfransların

[1] Əliyev E. Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, 690 s.
[2] URL:http://www.enc-dic.com (22.04.2018-ci il).

qərarları, rəsmi məlumatlar və s.) başa düşülür. Belə sənədlər beynəlxalq-normativ hüquqi aktlar hesab edilmir; həmin sənədlərdə beynəlxalq hüquq normaları deyil, siyasi-mənəvi normalar ifadə olunur. Buna görə də, onların məcburi hüquqi qüvvəsi yoxdur. Lakin, buna baxmayaraq, «mülayim hüquq» normalarının böyük mənəvi-siyasi əhəmiyyəti və qüvvəsi vardır. Belə ki, həmin normalar məcburi hüquqi qüvvəsi olan beynəlxalq publik hüquq normaları ilə eyni dərəcədə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına siyasi-mənəvi təsir etmək xüsusiyyətinə malikdir. Digər tərəfdən, «mülayim hüquq» normaları əsasında dövlətlərin praktikası vasitəsilə beynəlxalq-adət hüquq normaları yarana bilər.[1]

«Mülayim hüquq» normalarının, xüsusilə, beynəlxalq təşkilat və orqanların fəaliyyəti üçün vacib əhəmiyyəti vardır; beynəlxalq təşkilat və orqanların fəaliyyəti sayəsində isə beynəlxalq münasibətlərin geniş dairəsi tənzimlənir.

«Böyük Səkkizlik» (ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Kanada, Yaponiya, İtaliya və Rusiya Federasiyası)[2] çərçivəsində qəbul olunan sənədlərdə də «mülayim hüquq» normaları ifadə edilir; bu normalar məcburi-hüquqi əhəmiyyətə malik olmasa da, dövlətlərarası beynəlxalq münasibətlər sistemində böyük rol oynayır. Belə ki, «Böyük Səkkizlik» beynəlxalq təhlükəsizlik, iqtisadi, maliyyə, beynəlxalq mübahisələrin həlli, beynəlxalq cinayətkarlıqla mübarizə və başqa sahələrdə vacib beynəlxalq məsələlər barədə müvafiq qərarlar qəbul edir; həmin qərarlar məcburi hüquqi qüvvəyə malik olmasa da, beynəlxalq münasibətlərin tənzimlənməsinə əhəmiyyətli təsir göstərir.

«Mülayim hüquq» normaları vasitəsilə həyata keçirilən tənzimetmə metodu **tövsiyə xarakterli nizamasalma üsuludur;** o,

[1] Shelton D. Normative Hierarchy in International Law // American Journal of International Law. Vol.100, 2006, № 2, p.292; həmçinin URL:http://www.en.m.wikipedia.org (08.05.2018-ci il).

[2] Lakin, məlumat üçün qeyd edək ki, Rusiya Federasiyası 2014-cü ildə bu klubdan xaric edildikdən sonra onun adı "Böyük Yeddilik"ə çevrilmişdir// m.azvision.az/news/187965 (29.07.2022-ci il).

siyasi-mənəvi nizamasalma metodu hesab edilir. Buna görə də, həmin metod beynəlxalq-hüquqi tənzimetmə vasitəsi sayılmır.

«Mülayim hüquq» normalarının hüquqi təbiəti və xarakteri barədə alimlərin baxışları müxtəlifdir. Bu, beynəlxalq hüquq doktrinasında mübahisəyə səbəb olan məsələlərdən biridir[1].

Bəzi müəlliflər hesab edirlər ki, beynəlxalq publik hüquqa, eyni zamanda, **transmilli hüquq vasitəsilə tənzimetmə metodu** xasdır.[2] Transmilli hüquq konsepsiyasının əsasını keçən yüzilliyin 50-ci illərində amerikalı alim F.S.Cessun qoymuşdur. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, beynəlxalq münasibət iştirakçılarının özləri hüquq normaları müəyyənləşdirirlər və bu normalar nə daxili hüquq, nə də beynəlxalq hüquq normalarıdır; onlar xüsusi normalar olub, transmilli hüququ əmələ gətirir. Transmilli hüquq isə beynəlxalq və daxili hüquqi tənzimetmə sistemlərindən ayrıca mövcud olan yeni «muxtar» tənzimetmə sistemidir.[3]

Dünyada hüquqi tənzimetmə sistemi kimi beynəlxalq publik hüquq, Avropa hüququ və milli (dövlətdaxili) hüquq sistemləri mövcuddur. «Transmilli hüquq» qismində sistemləşdirilməyən və hüquqi cəhətdən təsbit olunmayan ayrıca («muxtar») hüquq sisteminin mövcudluğundan söhbət gedə bilməz. Ona görə ki, transmilli hüquq, əsasən, milli (dövlətdaxili) hüquq sistemlərinin beynəlxalq ticarət (kommersiya) əqdlərini və xarici iqtisadi əməliyyatları tənzimləyən ayrıca normalar kompleksidir. Buna görə də, zənnimizcə, transmilli hüquq beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası tənzimetmə mexanizmində metod kimi tətbiq edilə bilməz[4].

---

[1] Növbəti fəsillərdə həmin məsələyə ətraflı şəkildə toxunulacaqdır.

[2] Шумилов В.М. Международное экономическое право.Учебник. Ростов-на Дону, 2003, с.20.

[3] Шумилов В.М. Глобализация мировой экономики и глобальная провавая система // Внешнеэкономический бюллетень. 2003, № 8, с.78.

[4] Transmilli hüququn xarakteri və hüquqi təbiəti məsələsinə dərsliyin «Beynəlxalq publik hüququn mənbələri» adlı V fəslində aydınlıq gətirilmişdir. Buna görə də, həmin məsələyə burada əvvəlcədən toxunmağı məqsədəuyğun saymırıq.

I FƏSİL ÜZRƏ ƏYANİ SXEM



I FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild. Ümumi hissə (III nəşr). Bakı , 2018 (I fəsil).
2. Beynəlxalq hüquq Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002 (I fəsil).
3. Əliyev E.Ə. Beynəlxalq hüquq: anlayışı, hüquq doktrinası və tədris kursu. Bakı, 2016, 100 s.
4. Əsgərov Ə. Beynəlxalq hüquq. Dərslik. Bakı, 1979 (I fəsil).
5. Hüseynov L.H.Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008 (I fəsil).
6. Курс международного права: в 7 т. Том 1. Понятие, предмет и система международного права /Гл. ред. В.Н.Кудрявцев. М., 1989.
7. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 (гл.I , IV).
8. Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл.2).
9. Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Т.Тузмухамедов. М., 2007 (гл.II).
10. Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009 (гл.I).
11. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл. I).
12. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл.II, III).
13. Международное публичное право. Учебник/ Отв.ред. К.А.Бекяшев. М., 2009 (гл.1).
14. Mustafazadə A.İ., Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. Bakı, 2017, 204 s.
15. Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004 (гл. 1).

II FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQ – ELMİ MƏNADA VƏ TƏDRİS KURSU KİMİ

2.1. Elmi mənada beynəlxalq publik hüququn anlayışı, predmeti və sistemi

2.1.1. Elmi mənada beynəlxalq publik hüququn anlayışı

Beynəlxalq publik hüquq, I fəsildə qeyd etdiyimiz kimi, obyektiv mənadan başqa, həm də elmi və tədris kursu mənalarında işlədilir. Müasir dərsliklərdə «elmi mənada beynəlxalq hüquq» və «tədris kursu (fənni) mənasında beynəlxalq hüquq» anlayışları işlədilsə də, onların mahiyyətinə aydınlıq gətirilmir[1]. Buna görə də, hər şeydən əvvəl, elmi mənada beynəlxalq hüquqa, başqa sözlə, beynəlxalq hüquq elminə, yəni beynəlxalq hüquq doktrinasına anlayış verməliyik. Eyni zamanda, nəzərə almalıyıq ki, «beynəlxalq hüquq elmi» və «beynəlxalq hüquq doktrinası» eynimənalı (sinonim), mənaca bir-birilə üst-üstə düşən anlayışlardır.

Qeyd etmək lazımdır ki, obyektiv mənada beynəlxalq publik hüququn öz nizamasalma predmetinə daxil olan dövlətlərarası münasibətləri hüquqi cəhətdən tənzimləməsi bütöv bir mexanizm deməkdir; ona beynəlxalq-hüquqi tənzimetmə mexanizmi deyilir. **Beynəlxalq-hüquqi tənzimetmə mexanizmi** dedikdə dövlətlərarası münasibətlərə göstərilən təsirin beynəlxalq-hüquqi üsul və vasitələrinin məcmusu başa düşülür. Belə ki, dövlətlərarası münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin öz obyektiv qanunauyğunluqları vardır. Şübhəsiz, həmin qanunauyğunluqlar alimlərin və praktik işçilərin fikirləri əsasında öyrə-

[1] *Məsələn, bax:* Шумилов В. М. Международное право.Учебник. М., 2008, с.163-164.

nilir, tədqiq olunur; belə fikirlərin sistemi beynəlxalq publik hüquq elmi və ya beynəlxalq publik hüquq doktrinası adlanır.

Beynəlxalq publik hüquq elmi (doktrina) dedikdə dövlətlərarası münasibətləri beynəlxalq-hüquqi tənzimetmə mexanizminin obyektiv qanunauyğunluqlarını öyrənən fikirlərin məcmusu başa düşülür.

Beynəlxalq hüquq elmini obyektiv mənada beynəlxalq publik hüquqdan ayırmaq lazımdır. Bir neçə əlamət əsasında onların fərqləndirilməsi, aralarında hədd qoyulması mümkündür.

Birinci, obyektiv mənada beynəlxalq publik hüquq və beynəlxalq publik hüquq elmi bir-birindən **predmetlərinə** görə fərqlənir. Belə ki, bildiyimiz kimi, obyektiv mənada beynəlxalq publik hüququn predmetini onunla tənzimlənən beynəlxalq münasibətlər qrupu təşkil edir. Beynəlxalq hüquq elminin predmetinə gəldikdə isə, qeyd etməliyik ki, onun predmeti belə bir suala cavab verir: beynəlxalq hüquq elmi nəyi öyrənir, hansı məsələni tədqiq edir? Əgər obyektiv mənada beynəlxalq publik hüquq **nizamasalma (tənzimetmə) predmetinə** malikdirsə, beynəlxalq publik hüquq elminin də **tədqiqetmə (öyrənmə) predmeti** vardır. Obyektiv mənada beynəlxalq publik hüququn nizamasalma (tənzimetmə) predmeti, məlum olduğu kimi, dövlətlərarası beynəlxalq münasibətlərdən ibarətdir; beynəlxalq hüquq elminin isə tədqiqetmə predmetini beynəlxalq-hüquqi tənzimetmə mexanizminin obyektiv qanunauyğunluqları təşkil edir.

İkinci, onlar bir-birindən **öz funksiyalarına** görə fərqlənirlər. Belə ki, qeyd etdiyimiz kimi, obyektiv mənada beynəlxalq publik hüququn başlıca funksiyası dövlətlərarası münasibətləri tənzimləməkdən ibarətdir.[1] Beynəlxalq publik hüquq elmi isə beynəlxalq-hüquqi tənzimetmə mexanizmini tədqiq etmək (öyrənmək) kimi əsas funksiyanı yerinə yetirir. Əgər obyektiv mənada beynəlxalq publik hüquq dövlətlərarası münasibətləri tən-

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.1.

zimləyirsə, beynəlxalq publik hüquq elmi həmin münasibətləri beynəlxalq-hüquqi tənzimetmə mexanizmini tədqiq edir, öyrənir.

Üçüncü, onlar bir-birindən **sisteminə görə** fərqlənir. Bildiyimiz kimi, obyektiv mənada beynəlxalq publik hüququn sistemi **obyektiv xarakter** daşıyır. Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində obyektiv mənada beynəlxalq publik hüququn məhz bu cəhətinə xüsusi diqqət yetirilmişdir.[1] Beynəlxalq hüquq barədə yazan bütün müəlliflər, demək olar ki, birmənalı şəkildə göstərirlər ki, beynəlxalq publik hüququn sistemi obyektiv əsasa malikdir.[2]

Beynəlxalq publik hüquq elminin sisteminə gəldikdə, qeyd etməliyik ki, o, beynəlxalq hüquq üzrə mütəxəssis alimlərin, ümumiyyətlə, beynəlxalq hüquq haqqında yazan müəlliflərin elmi fikirlərinin nəticəsidir. Deməli, beynəlxalq publik hüquq elminin sistemi, obyektiv mənada beynəlxalq publik hüququn sistemindən fərqli olaraq, **subyektiv xarakter** daşıyır. Başqa sözlə, beynəlxalq hüquq elmi müəlliflərin (hüquqşünasların) subyektiv mülahizələri əsasında obyektiv mənada beynəlxalq publik hüququn şərh olunması və izah edilməsidir. Buna görə də, ayrı-ayrı alimlər beynəlxalq hüquq elminin bir-birindən fərqli, müxtəlif sistemlərini təklif edə bilərlər. Lakin, buna baxmayaraq, necə olsa da, beynəlxalq hüquq elminin sistemi obyektiv mənada beynəlxalq publik hüququn sisteminə əsaslanır və onunla müəyyən olunur.[3] Amma «beynəlxalq hüquq elminin sistemi» və «obyektiv mənada beynəlxalq publik hüququn sistemi» kimi iki anlayışı eyniləşdirmək olmaz.

---

[1] Курс международного права /Глав. ред. В.Н.Кудрявцев. М., 1989, Том 1, с.242; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.32; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.31.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв.ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.15.

[3] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.31.

Dördüncü, onlar bir-birindən **tərkibinə** görə fərqlənirlər. Belə ki, qeyd etdiyimiz kimi, obyektiv mənada beynəlxalq publik hüquq beynəlxalq publik hüquq normalarından ibarətdir. Beynəlxalq hüquq elmi isə müvafiq elmi-nəzəri fikirlərin məcmusudur və o, beynəlxalq-hüquqi tənzimetmənin qanunauyğunluqlarını öyrəndiyinə görə belə öyrənmə nəticəsində obyektiv mənada beynəlxalq publik hüquq haqqında nəzəriyyə – beynəlxalq hüquq nəzəriyyəsi formalaşır.[1] **Beynəlxalq hüquq nəzəriyyəsi** isə bir-biri ilə qarşılıqlı əlaqədə olan anlayışların, elmi mühakimə, mülahizə, nəticə, baxış, şərh, postulat, hipoteza, tezis, müddəa, aksiom, fərziyyə və konsepsiyaların sistemidir.

Beşinci, onlar bir-birindən **bütün dövlətlər üçün ümumi və vahid olmaq** baxımından fərqlənir. Belə ki, bütün dövlətlər üçün ümumi və vahid olan beynəlxalq hüquq elmi yoxdur; hər bir dövlətdə ayrıca beynəlxalq hüquq elmi mövcuddur. Məsələn, Rusiyanın beynəlxalq hüquq elmi, Almaniyanın beynəlxalq hüquq elmi, Fransanın beynəlxalq hüquq elmi, Azərbaycanın beynəlxalq hüquq elmi və s. Bu gün dünyada təxminən 220-yə yaxın dövlət və dövlətəoxşar qurumlar vardır və onların hər birində beynəlxalq hüquq elmi formalaşmışdır.

Obyektiv mənada beynəlxalq publik hüquqa gəldikdə isə, qeyd etməliyik ki, o, bütün dövlətlər üçün ümumi və vahiddir. Belə ki, dünyada mövcud olan bütün dövlətlər üçün yalnız bir universal dövlətlərarası hüquq sistemi vardır; o, obyektiv mənada beynəlxalq publik hüquq və ya sadəcə olaraq, beynəlxalq publik hüquq adlanır.

Beynəlxalq hüquq elminin, ilk növbədə, böyük **nəzəri əhəmiyyəti** vardır; çünki beynəlxalq hüquq, hər şeydən əvvəl, **nəzəri elmdir**. Belə ki, o, beynəlxalq-hüquqi tənzimetmə mexanizminin qanunauyğunluqlarını izah edir, obyektiv mənada beynəlxalq publik hüququn bütün anlayışlarına (məsələn, beynəlxalq hüquq subyektliyi, beynəlxalq hüququn mənbələri, beynəl-

[1] *Məsələn, bax:* Тункин Г.И. Теория международного права. М., 1970; Черниченко С.В. Теория международного права. В 2-х томах. М., 1999.

xalq-hüquqi məsuliyyət, beynəlxalq hüququn əsas prinsipləri, beynəlxalq hüququn sahələri və s.). şərh verir və onların mahiyyətinə aydınlıq gətirir. İnqilabaqədərki rusiyalı alim, Sankt-Peterburq Universitetinin professoru F.F.Martensin haqlı mövqeyinə görə, beynəlxalq hüquq elmi həmişə beynəlxalq adətlərin əsl və həqiqi mənasını müəyyənləşdirməyin, aydınlaşdırmağın vacib vasitəsi olmuşdur; buna görə də, o, mübahisəsiz olaraq, beynəlxalq publik hüququn mənbələri sırasına aiddir.[1]

Beynəlxalq hüquq elmi həm də **praktik əhəmiyyətə** malikdir. Belə ki, o, nəzəri elm olmaqdan savayı, həm də tətbiqi elm kimi tanınır. Nəzərə almalıyıq ki, beynəlxalq hüquq elmi beynəlxalq hüquq normalarının praktikada necə tətbiq olunmasını da öyrənir və ümumiləşdirmələr aparır.[2]

Hüquqtətbiqetmə orqanları öz fəaliyyətlərində müəyyən hallarda beynəlxalq hüquq elminin köməyinə arxalanır və güvənir. Qeyd etməliyik ki, beynəlxalq məhkəmə və tribunalların qərarlarında, habelə BMT-nin Beynəlxalq Hüquq Komissiyasının sənədlərində tanınmış alimlərin elmi əsərlərinə istinad etmək praktikası geniş yayılmışdır. Təsadüfi deyil ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi beynəlxalq hüquq elmini beynəlxalq hüququn mənbə növlərindən biri kimi nəzərdə tutur. Belə ki, həmin maddəyə görə, Beynəlxalq Məhkəmə mübahisələrə baxarkən beynəlxalq hüquq doktrinasını (elmini) tətbiq edə bilər. Məhkəmə qərarlarında doktrinadan istifadə olunması bu və ya digər hüququn mövcudluğunu sübut etmək məqsədinə xidmət edir.[3]

---

[1] Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Том 1. М., 1996, с.151 (bu əsərin 1-ci cildi ilk dəfə 1882-ci ildə Sankt-Peterburqda nəşr olunmuşdur).

[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.163.

[3] Оппенгейм Л. Международное право. Том 1. Полутом 1. Пер. с анг. М., 1948. с.52.

2.1.2. Beynəlxalq publik hüquq elminin tədqiqetmə (öyrənmə) predmeti və onun əsas vəzifələri

Qeyd etdik ki, beynəlxalq publik hüquq elmi beynəlxalq-hüquqi tənzimetmə mexanizminin qanunauyğunluqlarını öyrənir və tədqiq edir. Geniş və ümumiləşdirilmiş anlayış olan beynəlxalq-hüquqi tənzimetmə mexanizminin tərkibi isə **ayrı-ayrı elementlərdən ibarətdir**. Buna görə də, təbii ki, beynəlxalq publik hüquq elmi həmin elementləri öyrənir; məhz həmin elementlər onun **tədqiqetmə (öyrənmə) predmetini** təşkil edir. Beynəlxalq-hüquqi tənzimetmə mexanizminin tərkibinə isə aşağıdakı elementlər daxildir:[1]

- beynəlxalq publik hüquq norması;
- beynəlxalq publik hüquq münasibəti;
- hüquqi fakt.

Beynəlxalq publik hüquq norması beynəlxalq-hüquqi tənzimetmə mexanizminin tərkibinə daxil olan **ilkin elementdir;** o, həm də **əsas element** sayılır. Ona görə ki, obyektiv mənada beynəlxalq publik hüquq məhz beynəlxalq hüquq normalarından təşkil olunmuşdur; həmin normalar vasitəsilə beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası münasibətlər tənzimlənir, başqa sözlə, beynəlxalq-hüquqi tənzimetmə mexanizmi həyata keçirilir. Məhz bu səbəbdən beynəlxalq hüquq elminin tədqiqetmə (öyrənmə) predmetini, hər şeydən əvvəl, beynəlxalq publik hüquq normaları təşkil edir. Qeyd etməliyik ki, beynəlxalq hüquq normalarının məzmununu hərtərəfli, əsaslı, mükəmməl və dərindən öyrənmək beynəlxalq publik hüquq elminin üzərinə düşən birinci növbəli aktual vəzifədir. Bu vəzifənin lazımınca yerinə yetirilməsi isə, əlbəttə, beynəlxalq hüquq normalarının düzgün və bir cür başa düşülməsini, eləcə də onların beynəlxalq hüquq praktikasında bu və ya digər orqan (hüquqtətbiqetmə orqanı, xüsusən də

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.160-162; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.162.

məhkəmələr) tərəfindən eyni şəkildə tətbiq olunmasını təmin edir.

Beynəlxalq publik hüquq elmi beynəlxalq publik hüquq normalarının anlayışını verir və onları xarakterizə edən ayrı-ayrı hüquqi əlamətləri müəyyənləşdirir; o, həm də beynəlxalq hüquq normalarının yaradılması prosesini və struktur elementlərini izah edir. Bunlardan başqa, beynəlxalq publik hüquq elmi öz məzmun və formaları baxımından eyni olmayan beynəlxalq publik hüquq normalarının müxtəlif meyarlara görə elmi cəhətdən əsaslandırılmış geniş hüquqi təsnifini verir; belə təsnifin isə, sözsüz, həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır.

Beynəlxalq publik hüquq elminin tədqiqetmə predmetinə həm də **beynəlxalq-normativ hüquqi aktlar** daxildir ki, belə aktların (beynəlxalq müqavilələrin) məcmusu, əvvəllərdə qeyd etdiyimiz kimi, Qərb hüquq ədəbiyyatında **«beynəlxalq qanunvericilik»** adlanır. Belə ki, beynəlxalq hüquq elminin tədqiqat predmetinə daxil olan beynəlxalq hüquq normaları öz normativ ifadəsini ayrı-ayrı, müxtəlif beynəlxalq qanunvericilik aktlarında tapır. Buna görə də, beynəlxalq hüquq elmi beynəlxalq hüquq normaları ilə yanaşı, həm də onların ifadələndiyi və əks olunduğu beynəlxalq qanunvericiliyi öyrənir; bu, onun qarşısında duran ümdə vəzifələrdən biridir. Beynəlxalq hüquq elmi beynəlxalq müqavilələrə anlayış verir və onların tərəflərini (subyekt tərkibini) müəyyənləşdirir; o, həm də beynəlxalq müqavilələrin bağlanma, qüvvədə olma və xitam olunma qaydalarını izah edir.

Beynəlxalq publik hüquq münasibəti beynəlxalq hüquq elminin tədqiqat predmetinə daxil olan məsələlərdən digəridir; o da beynəlxalq-hüquqi tənzimetmə mexanizminin digər əsas elementlərindən biri sayılır. Buna görə də, beynəlxalq hüquq münasibətini öyrənmək beynəlxalq hüquq elminin vacib vəzifəsidir.

Beynəlxalq publik hüquq elmi beynəlxalq publik hüquq münasibətlərinə anlayış verir, bu münasibətlərin iştirakçılarını (subyekt tərkibini) müəyyən edir və onları ayrı-ayrı növlərə bölərək hüquqi cəhətdən təsnifləşdirir. Beynəlxalq publik hü-

quq münasibətlərinin strukturunu təşkil edən komponentlər də beynəlxalq hüquq elmi tərəfindən izah edilir.

Beynəlxalq publik hüquq münasibəti dövlətlərarası münasibətin **hüquqi formasıdır**. Belə ki, dövlətlərarası münasibətlərin beynəlxalq publik hüquq normaları ilə tənzimlənməsi nəticəsində onlar «beynəlxalq publik hüquq münasibətləri» kimi hüquqi forma alır. Fəlsəfi baxımdan, onlar arasında əlaqə «məzmun» və «forma» kimi kateqoriyalar arasındakı münasibətin eynidir. Belə ki, əgər dövlətlərarası münasibətlər məzmundursa, beynəlxalq hüquq münasibətləri formadır. Məzmun və forma daxili vəhdətdə, bir-birilə qarşılıqlı dialektik əlaqədə olan fəlsəfi kateqoriyalardır. Buna görə də, dövlətlərarası münasibətləri öyrənmədən beynəlxalq hüquq münasibətlərinin mahiyyətinə aydınlıq gətirmək qeyri-mümkündür. Odur ki, beynəlxalq publik hüquq elminin tədqiqat predmetinə həm də **dövlətlərarası münasibətlər** daxildir. Spesifikliyi, özünəməxsusluğu ilə fərqlənən həmin münasibətləri beynəlxalq hüquq elmi obyektiv mənada beynəlxalq publik hüququn nizamasalma predmeti kimi müəyyən edir. Beynəlxalq publik hüquq elmi dövlətlərarası münasibətlərə anlayış verir və həmin münasibətlərdə iştirak etmək qabiliyyətinə malik olan subyektlərin, yəni dövlətlərarası münasibət iştirakçılarının dairəsini müəyyənləşdirir. Beynəlxalq publik hüquq elmi əsaslandırır ki, dövlətlərarası münasibətlərdə yalnız beynəlxalq publik hüquq subyektliyinə malik olan subyektlər iştirak edə bilərlər; o, «beynəlxalq hüquq subyektliyi nədir?» sualına da cavab verir.

Beynəlxalq publik hüquq elminin tədqiqat predmetinə nəinki dövlətlərarası münasibətlər, həmçinin **beynəlxalq publik hüquq normalarının həmin münasibətlərə təsir göstərmək mexanizmi** daxildir. Bildiyimiz kimi, beynəlxalq publik hüquq normaları və bu normaların tənzimlədiyi dövlətlərarası münasibətlər arasında qarşılıqlı əlaqə mövcuddur; həmin əlaqənin qanunauyğunluqlarını öyrənmək və müəyyənləşdirmək (aydınlaşdırmaq) beynəlxalq publik hüquq elminin başlıca vəzifələrindən biridir.

Beynəlxalq publik hüquq elminin tədqiqat predmetinə həm də **hüquqi faktlar** daxildir; hüquqi faktları öyrənmək onun vəzifələrindən biri sayılır. Ona görə ki, beynəlxalq dövlətlərarası hüquq münasibətlərinin mahiyyətini başa düşmək üçün hüquqi faktlar mühüm əhəmiyyət kəsb edir; həmin münasibətlər məhz onların əsasında əmələ gəlir. Başqa sözlə, hüquqi faktlar dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin yaranma əsaslarından biridir. Bu səbəbdən beynəlxalq hüquq elmi onları tədqiq edir, öyrənir. Bunun nəticəsində o, hüquqi faktların elmi cəhətdən əsaslandırılmış təsnifini verir ki, belə təsnifin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Həmin təsnif, xüsusən də beynəlxalq publik hüququn, eləcə də beynəlxalq qanunvericiliyin təkmilləşdirilməsi və inkişafı kontekstində əhəmiyyətlidir.

Nəhayət, beynəlxalq publik hüquq elminin tədqiqat predmetinə **beynəlxalq publik hüquq normalarının tətbiq praktikası** daxildir. Belə ki, bu praktikanın öyrənilməsi nəticəsində beynəlxalq qanunvericilikdə mövcud olan hüquqi boşluq və alqoritm təzahürləri üzə çıxır, müəyyən olunur; bu problemlərin aradan qaldırılması məqsədilə beynəlxalq publik hüquq elmi beynəlxalq qanunvericiliyin və onun tətbiqi praktikasının təkmilləşdirilməsinə yönələn lazımi elmi təkliflərlə müvafiq beynəlxalq qurumlar qarşısında çıxış edir. Buna görə də, beynəlxalq publik hüquq normalarının tətbiq praktikasını öyrənmək beynəlxalq hüquq elminin üzərinə düşən vacib vəzifələrdən biridir; həm də ona görə ki, hüquq normalarının tətbiqi praktikasını öyrənmək beynəlxalq publik hüquq normaları və onların tənzimlədiyi dövlətlərarası münasibətlər arasında mövcud olan qarşılıqlı əlaqənin qanunauyğunluqlarının aydınlaşdırılmasına imkan verir.

Beynəlxalq publik hüquq elminin tədqiqat predmetinə həm də **başqa ölkələrin beynəlxalq hüquq elmi** daxildir. Şübhəsiz, ayrı-ayrı ölkələrdə (Almaniya, İtaliya, ABŞ, Türkiyə və s.) formalaşmış beynəlxalq hüquq konsepsiyaları barədə təsəvvürə

malik olmağın yalnız əhəmiyyəti və faydası ola bilər.[1] İstənilən ölkənin beynəlxalq hüquq elmi, aydın məsələdir ki, digər ölkələrin beynəlxalq hüquq elminin qabaqcıl təcrübəsini və nailiyyətlərini nəzərə almadan inkişaf edə bilməz.

Beynəlxalq publik hüquq elmi göstərilənlərdən başqa, həm də **beynəlxalq publik hüququn tarixini**, habelə onun inkişaf perspektivini öyrənir. Buna görə onun tədqiqat predmetinə beynəlxalq publik hüququn oçerki və gələcək inkişaf istiqamətləri də daxildir.

2.1.3. Beynəlxalq publik hüquq elminin sistemi

Beynəlxalq publik hüquq elmi beynəlxalq-hüquqi tənzimetmə mexanizmi barədə, başqa sözlə, obyektiv mənada beynəlxalq publik hüquqa dair elmi məlumatların məcmusudur; həmin məlumatlara **beynəlxalq-hüquqi biliklər** deyilir.

Beynəlxalq-hüquqi biliklər qarma-qarışıq şəkildə deyil, müəyyən ardıcıllıqla yerləşir. Belə yerləşmə beynəlxalq hüquq elminin sistemi adlanır.

Beynəlxalq publik hüquq elminin sistemi dedikdə obyektiv mənada beynəlxalq publik hüquq barədə beynəlxalq-hüquqi biliklərin müəyyən ardıcıllıqla yerləşməsi başa düşülür. Bu biliklər beynəlxalq publik hüququn ya ümumi (məsələn, beynəlxalq publik hüquq subyektliyi, beynəlxalq publik hüququn mənbələri və s.), ya da xüsusi məsələlərinə (məsələn, beynəlxalq publik hüququn sahələri və s.) aid olur. Bu baxımdan, beynəlxalq publik hüquq elmi iki hissədən ibarətdir:

– ümumi hissə;
– xüsusi hissə.

---

[1] *Ayrı-ayrı ölkələrin beynəlxalq hüquq konsepsiyaları barədə bax:* Антонов И.П. Германская концепция международного права. Воронеж, 2006; Лукашук И.И. Международное право. Особенная часть. Учебник. М., 1998, с.321-327; Шумилов В.М. Международное право. Учебник. М., 2008 (IV раздел, гл. 11-13).

Belə bölgü obyektiv mənada beynəlxalq publik hüququn ümumi və xüsusi hissə kimi iki yerə bölünməsinə uyğundur. Axı, beynəlxalq publik hüquq elminin sistemi obyektiv mənada beynəlxalq publik hüququn sistemi ilə müəyyən edilir.

Beynəlxalq publik hüquq elminin ümumi hissəsi dedikdə obyektiv mənada beynəlxalq publik hüququn ümumi məsələləri barədə beynəlxalq-hüquqi biliklərin məcmusu başa düşülür. Həmin məsələlərə aiddir:

- obyektiv mənada beynəlxalq publik hüququn nizamasalma predmeti və metodu;
- obyektiv mənada beynəlxalq publik hüququn funksiyaları və sistemi;
- obyektiv mənada beynəlxalq publik hüququn əsas prinsipləri;
- obyektiv mənada beynəlxalq publik hüququn subyektləri;
- obyektiv mənada beynəlxalq publik hüququn mənbələri;
- obyektiv mənada beynəlxalq publik hüquq və dövlətdaxili (milli) hüquq arasında qarşılıqlı əlaqə;
- beynəlxalq-hüquqi publik məsuliyyət;
- beynəlxalq publik mübahisələrin həlli;
- beynəlxalq publik hüquq normaları və onların tətbiqi;
- beynəlxalq publik hüquq münasibətləri;
- beynəlxalq-normativ publik hüquqi aktlar (beynəlxalq qanunvericilik aktları);
- beynəlxalq publik hüquqi faktlar və s.

Beynəlxalq publik hüquq elminin xüsusi hissəsi dedikdə obyektiv mənada beynəlxalq publik hüququn sahələrinə aid olan beynəlxalq-hüquqi biliklərin məcmusu başa düşülür. Belə ki, beynəlxalq publik hüquq elminin beynəlxalq publik hüququn ayrı-ayrı sahələrini (onların ibarət olduğu yarımsahələri, hüquq institutlarını və beynəlxalq hüquq normalarını) öyrənməsi nəticəsində elmi biliklər formalaşır; bu biliklərin məcmusu beynəlxalq publik hüquq elminin xüsusi hissəsi adlanır.

Beynəlxalq publik hüququn həm ümumi, həm də xüsusi hissəsinə aid olan beynəlxalq-hüquqi biliklər, bir qayda olaraq, adətən, «beynəlxalq publik hüquq kursu» kimi tədqiqat işində sistemləşdirilir, yəni sistem halına salınır.[1] «**Beynəlxalq publik hüquq kursu**» bütövlükdə obyektiv mənada beynəlxalq publik hüququn öyrənilməsinə həsr olunan və onun barəsində elmi biliklər verən əsərdir; onun tədris kursunu beynəlxalq publik hüquqdan fərqləndirmək lazımdır. Tədris kursu mənasında beynəlxalq publik hüquq fənni (beynəlxalq publik hüquq dərsliyi) deməkdir.

Beynəlxalq publik hüquq kursu ümumi və xüsusi hissələrdən ibarətdir: onlar isə, öz növbəsində, fəsillərə, fəsillər paraqraflara bölünür və hər bir paraqrafda müəyyən konkret mövzu tədqiq olunur.

2.2. Tədris kursu mənasında beynəlxalq publik hüquq – beynəlxalq publik hüquq fənni

2.2.1. Beynəlxalq publik hüquq fənninin anlayışı

Beynəlxalq hüquq ixtisası üzrə ali təhsil alan istənilən tələbə, habelə beynəlxalq hüquq sahəsində özünü gələcəkdə yüksək səviyyəli, savadlı və bilikli mütəxəssis kimi görmək istəyən hər kəs obyektiv mənada beynəlxalq publik hüququ, qanunvericilik mənasında beynəlxalq publik hüququ, eləcə də beynəlxalq publik hüquq elmini dərindən bilməlidir. Məlum məsələdir ki, xarici əlaqələr sahəsində çalışan işçilərin, xüsusilə də diplomat və konsulların, öz fəaliyyətlərində beynəlxalq hüquqla əlaqəsi olan praktiki işçilərin, xarici siyasət sferasında çalışanların, dünya iqtisadiyyatı və siyasəti ilə təmasda olan şəxslərin, beynəlxalq münasibət iştirakçılarının və digər kateqoriya subyektlərin həm obyektiv mənada beynəlxalq publik hüququ, həm də beynəlxalq publik hüquq elmini bilməsi vacib-

[1] *Məsələn, bax:* Курс международного права. М., 1972; Курс международного права. В 7 т. / Глав. ред. Н.В.Кудрявцев. М., 1989-1993.

dir. Şübhəsiz, onları bilmək xarici siyasi və beynəlxalq-hüquqi mövqelərin formalaşmasında böyük rol oynayır.

Qeyd etmək vacibdir ki, obyektiv mənada beynəlxalq publik hüququ, qanunvericilik mənasında beynəlxalq publik hüququ, habelə beynəlxalq publik hüquq elmini bu və ya digər mənbə vasitəsilə öyrənmək mümkündür. Beynəlxalq publik hüquq fənni məhz həmin mənbələrdən biridir və o da, beynəlxalq publik hüquq dərsliyi adlanır.

Beynəlxalq publik hüquq fənni – beynəlxalq publik hüquq dərsliyi dedikdə obyektiv mənada beynəlxalq publik hüququ, qanunvericilik mənasında beynəlxalq publik hüququ, eləcə də beynəlxalq publik hüquq elmini tələbələrə öyrədən mənbə başa düşülür. Bu mənbə vasitəsilə həm obyektiv, həm beynəlxalq qanunvericilik, həm də elmi mənada beynəlxalq publik hüquqa dair biliklərə yiyələnmək mümkün olur.

Beynəlxalq publik hüquq fənni həm obyektiv mənada beynəlxalq publik hüquqdan, həm də beynəlxalq publik hüquq elmindən fərqlənir; onlar arasında, əsasən, yerinə yetirdikləri vəzifəyə (funksiyaya) görə həd qoyulur. Belə ki, obyektiv mənada beynəlxalq publik hüququn əsas funksiyası dövlətlərarası münasibətləri tənzimləməkdən ibarətdir; obyektiv mənada beynəlxalq publik hüququ (beynəlxalq-hüquqi tənzimetmə mexanizminin elementlərini) tədqiq etmək və öyrənmək isə beynəlxalq publik hüquq elminin əsas vəzifəsi sayılır. Beynəlxalq publik hüquq fənninin əsas vəzifəsi isə iki məsələni öyrətməkdən ibarətdir: bu məsələlərdən biri obyektiv mənada beynəlxalq publik hüquq, digəri isə beynəlxalq publik hüquq elmidir. Belə ki, obyektiv mənada beynəlxalq publik hüququ oxucu auditoriyasına (tələbələrə, praktik işçilərə və s.) dərindən öyrətmək, hər şeydən əvvəl, onun beynəlxalq publik hüquq elminin nəticələri ilə tanış olması tələb edilir; yalnız beynəlxalq-hüquqi elmi biliklərə yiyələnməklə obyektiv mənada beynəlxalq publik hüququ hərtərəfli, tam və əsaslı surətdə bilmək olar.

Beynəlxalq publik hüquq fənni həm də qanunvericilik mənasında beynəlxalq publik hüquqla əlaqəlidir. Bildiyimiz kimi, beynəlxalq qanunvericiliyin beynəlxalq ictimai həyatda yaranmış ayrı-ayrı hallara düzgün tətbiq olunmasının vacib əhəmiyyəti vardır. Buna görə də, beynəlxalq hüquq ixtisası üzrə təhsil alan tələbələr **qanunvericilik mənasında beynəlxalq publik hüququ öyrənməli,** beynəlxalq qanunvericiliyin tətbiq praktikasını bilməli, praktiki işləmək və fəaliyyət göstərmək vərdişlərinə malik olmalıdırlar. Belə vərdiş və bilikləri tələbələr məhz beynəlxalq publik hüquq fənninin köməyi ilə əldə edir, beynəlxalq qanunvericiliyin tətbiq praktikası ilə tanış olurlar.

Beləliklə, obyektiv mənada beynəlxalq publik hüquq və qanunvericilik mənasında beynəlxalq hüquq yalnız tənzimləyir; beynəlxalq hüquq elmi öyrənir və tədqiq edir; beynəlxalq hüquq fənni isə öyrədir.

2.2.2. Beynəlxalq publik hüquq fənninin sistemi

Beynəlxalq publik hüquq fənninin (dərsliyinin) sistemi obyektiv mənada beynəlxalq publik hüququn sistemi ilə müəyyən olunur. Bu səbəbdən beynəlxalq publik hüquq dərsliyi də iki hissəyə bölünür:[1] ümumi hissə; xüsusi hissə.

Beynəlxalq publik hüquq dərsliyinin ümumi hissəsi obyektiv mənada beynəlxalq publik hüququn, qanunvericilik mənasında beynəlxalq publik hüququn və beynəlxalq publik hüquq elminin ümumi məsələlərini öyrədir. Beynəlxalq publik hüququn (obyektiv mənada) sahələrinə, beynəlxalq qanunvericiliyə, habelə beynəlxalq publik hüquq doktrinasına dair bi-

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.31; Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.19.

likləri, yəni xüsusi hissəyə aid məsələləri öyrədən bölmə isə **beynəlxalq publik hüquq dərsliyinin xüsusi hissəsi** adlanır.[1]

Hal-hazırda Rusiya Federasiyasında yazılan beynəlxalq hüquq dərsliklərinin sayı 20-dən çoxdur.[2] Onların əksəriyyəti məhz ümumi və xüsusi hissələrə bölünür;[3] bəzi dərsliklərdə isə belə bölgüyə rast gəlmirik.[4]

Beynəlxalq publik hüquq dərsliyi ayrı-ayrı müxtəlif mövzulardan ibarətdir; bir-birinə yaxın və oxşar olan eyni predmetli mövzular **paraqraflarda**, paraqraflar da, öz növbəsində, **yarımbaşlıq** və **başlıqlarda**, bunlar isə **fəsillərdə** birləşir; onların məcmusuna bütövlükdə **tədris (dərslik) materialı** deyilir. Ayrı-ayrı mövzuların məhz bu cür ardıcıllıqla düzlənməsi və yerləşməsi **beynəlxalq publik hüquq fənninin (dərsliyinin) sistemi** adlanır.

Obyektiv mənada beynəlxalq publik hüquq sistemini beynəlxalq publik hüquq dərsliyinin sistemi ilə eyniləşdirmək olmaz. Belə ki, beynəlxalq publik hüquq dərsliyinin nəzərdən keçirdiyi və öyrətdiyi bəzi məsələlər vardır ki, bu məsələlər obyektiv mənada beynəlxalq publik hüququn sistemindən kənarda qalır. Həmin məsələlərə aşağıdakılar aiddir:

---

[1] İ.İ.Lukaşukun müəllifliyi ilə yazılan beynəlxalq hüquq dərsliyi iki hissədən ibarətdir: onun birinci hissəsi ümumi, digəri isə xüsusi hissə adlanır *(bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. 1997; Особенная часть. Учебник. 1998).

[2] *Məsələn, bax:* Мигачев Ю.М. Международное право. Учебник. М., 2004; Ушаков Н.А. Международное право. Учебник. М., 2000; Бирюков П.Н. Международное право. Учебник. М., 2006; Международное право. Учебник / Отв. ред. В.Н.Кузнецов. М., 2001; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005 və başqaları.

[3] Bəzən, «Beynəlxalq müqavilə hüququ» və «Beynəlxalq təşkilatlar hüququ» kimi mövzular beynəlxalq hüquq dərsliyinin xüsusi hissəsində deyil, ümumi hissəsində nəzərdən keçirilir *(bax:* Международное право. Учебник /Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000).

[4] *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 və s.

– beynəlxalq publik hüququn anlayışı, predmeti və metodu;
– beynəlxalq publik hüququn funksiyaları, sistemi və mənbələri;
– beynəlxalq publik hüququn tarixi və digər məsələlər.

Buna görə də, «obyektiv mənada beynəlxalq publik hüququn sistemi» «beynəlxalq publik hüquq dərsliyinin sistemi» ilə üst-üstə düşmür. Beynəlxalq publik hüquq dərsliyinin sistemi obyektiv mənada beynəlxalq publik hüququn sistemi ilə müəyyən edilsə də, həmin sistemin qurulmasında, əsasən, beynəlxalq publik hüquq elminin sistemi nəzərə alınır.

II MÖVZU ÜZRƏ ƏYANİ SXEM



II FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Əliyev E. Ə. Beynəlxalq hüquq: anlayışı, hüquq doktrinası və tədris kursu. Bakı, 2016, 100 s.
2. Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (с.31).
3. Шумилов В.М. Международное право. Учебник. М., 2008 (с. 163-164).

III FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN OÇERKİ

3.1. Beynəlxalq publik hüququn təşəkkül tapması və onun tarixi inkişaf mərhələləri

3.1.1. Beynəlxalq publik hüququn yaranması

Müstəqil hüquq sistemi olan beynəlxalq publik hüququn yaranma tarixi haqqında müəlliflər tərəfindən bir-birindən fərqli, müxtəlif fikirlər söylənilir. Belə ki, tanınmış rusiyalı hüquqşünas və diplomat F.F.Martensin fikrincə, beynəlxalq hüquq qədim dövrlərdə yaranmışdır.[1] Britaniyalı beynəlxalq hüquqşünas L.Oppengeym isə, əksinə, belə hesab edir ki, qədim dövrlərdə, eləcə də orta əsrlərin ilkin vaxtlarında beynəlxalq hüquq mövcud olmamışdır; müəllifin fikrincə, beynəlxalq hüququn yaranması yalnız XV–XVI əsrlərə təsadüf edir.[2] Müəlliflərdən İ.İ.Lukaşuk yazır ki, beynəlxalq hüquq orta əsrlərin sonunda Avropada suveren dövlətlərin yarandığı zaman formalaşmışdır[3] və s.

Beynəlxalq publik hüququn təşəkkül tapması tarixini düzgün müəyyən etmək üçün, ilk növbədə, onun mahiyyətinə aydınlıq gətirməliyik. Bildiyimiz kimi, beynəlxalq publik hüquq dövlətlərarası münasibətləri tənzimləyən hüquq normalarından iba-

---

[1] Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Том 1. М., 1996, с.27.

[2] Оппенгейм Л. Международное право. Том 1. Полутом 1/ Пер. с англ. М., 1948, параграф 37-53.

[3] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М.. 1996, с.40-41.

rətdir. Buna görə də o, dövlətlər arasında yaranan ictimai münasibətləri nizamlayan və qaydaya salan hüquqi vasitədir. Dövlətlər arasındakı münasibətləri tənzimləməsi səbəbindən hətta XIX və XX əsrlərdə ayrı-ayrı müəlliflər tərəfindən dəfələrlə təklif olunmuşdu ki, beynəlxalq hüquq «dövlətlərarası hüquq» adlandırılsın. Yeri gəlmişkən qeyd edək ki, dövlətlərarası münasibətləri tənzimləyən hüquq sahəsi XVIII əsrə kimi «xalqlar hüququ» termini ilə ifadə olunurdu; «xalqlar hüququ» termini Qədim Roma hüququnda işlədilən latınca «jus gentium» anlayışından götürülmüşdür.

Dövlətlərarası münasibətləri tənzimləyən hüquq normalarından ibarət olan beynəlxalq publik hüququn formalaşması üçün, təbii ki, dövlətlərin özləri yaranmalıdır. Tarixən ilk dövlətlər isə təxminən bizim eradan əvvəl IV minillikdə meydana gəlmişdir. Məhz həmin vaxtlar Qədim Şərqin ilk dövlətləri (məsələn, Babilistan, Misir, Assuriya, İran, Hindistan, Çin və s.) yaranmışdır. Beləliklə, beynəlxalq publik hüququn yaranması dövlətlərin meydana gəlməsi dövrünə təsadüf edir. Belə ki, **beynəlxalq publik hüquq dövlətlərin meydana gəldiyi zaman yaranmışdır;** həmin zamanlar isə quldarlıq quruluşunun ilkin dövrlərini əhatə edir. Deməli, beynəlxalq publik hüquq quldarlıq quruluşunun erkən dövrlərində Qədim Şərqdə yaranmışdır.[1] Lakin dövlətlərin meydana gəldiyi anda dərhal beynəlxalq publik hüququn yaranması barədə düşünmək yanlış fikir olardı. Məsələ burasındadır ki, təkcə dövlətlərin meydana gəlməsi özlüyündə beynəlxalq publik hüququn formalaşması üçün kifayət etmir; bundan otrü, eyni zamanda, **dövlətlərarası münasibətlərin yaranması və inkişaf etməsi** tələb olunur. Başqa sözlə, beynəlxalq publik hüququn yaranması dövlətlərarası münasibətlərin tarixən təşəkkül tapdığı dövrü ehtiva edir. Belə ki, beynəlxalq publik hüququn tarixi dövlətlərarası münasibətlərin öz tarixi ilə bilavasitə sıx bağlıdır.

---

[1] *Daha ətraflı:* Межгосударственные отношения и дипломатия на Древнем Востоке / Отв. ред. И.А.Стручевский М., «Международные отношения», 1987.

Qədim zamanlarda dövlətlərarası münasibətlər bu və ya digər sahədə, məsələn, ticarət, dövlət sərhədlərinin müəyyən edilməsi, daxili kütləvi iğtişaşların yatırılması, dövlət əleyhinə qiyamda iştirak edən şəxslərin təslim edilməsi, müharibədən sonra sülh barədə saziş bağlanması və dostluq münasibətlərinin yaradılması, habelə digər sahələrdə yarana bilərdi; həmin münasibətlər isə özlərinin tənzimlənməsini tələb edirdi. Ona görə də, dövlətlər bu məqsədlə **beynəlxalq müqavilə** bağlamaq yolu ilə hüquq normaları yaradırdılar. Belə ki, dövlətlərarası münasibətləri tənzimləmək məqsədi ilə bağlanan beynəlxalq müqavilələrdə müvafiq beynəlxalq-hüquqi normalar ehtiva edilirdi; məhz həmin normalar əsasında tədricən beynəlxalq publik hüququn özü yaranmağa başladı.

Qədim dövrlərə aid olan ilk beynəlxalq müqavilələrdən biri təxminən eramızdan əvvəl 3100-cü ildə bağlanmışdır. Cənubi Mesopotamiyada (Fərat və Dəclə çayları arasında) yerləşən iki şəhər-dövlət, yəni Laqaş və Umma kimi şəhər-dövlətlərin hökmdarları arasında imzalanmış həmin müqavilə tərəflər arasında mövcud olan dövlət sərhədini təsdiqləyirdi.[1]

Bizim eradan əvvəl 1280-ci ildə Misir fironu II Ramzes ilə Hetlərin hökmdarı III Xattusilinin imzaladığı sazişi beynəlxalq müqavilə nümunələrindən biri saymaq olar[2]. Həmin sülh müqaviləsi uzun müddət davam edən müharibədən sonra dostluq münasibətlərini bərpa edir, tərəflər arasında müdafiə və hərbi ittifaq yaradır, daxili iğtişaşlar zamanı yardım göstərilməsini və iğtişaş törədənlərin qarşılıqlı surətdə təslim edilməsini nəzərdə tuturdu. Qədim Misir xarici dövlətlərlə digər məsələlərə dair

[1] URL:http://www.ru.m.wikipedia.org (24.04.2018-ci il); *bu barədə həmçinin bax:* Международное право. Учебник /Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 51.

[2] Bu saziş qədim zamanlarda bağlanılmış və onun mətni indiyə kimi saxlanılmışdır. *Ətraflı bax:* История Древнего Востока. Учебник/ Под ред. В.И.Кузищина. М., 1979, с.202; Редер Д.Г., Черкасова Е.А. История древнего мира. В двух частях. Часть I. Первобытное общество и Древний Восток. Учебное пособие. М., 1985, с.173-174; Qədim dünya tarixi. Dərslik / Elmi redaktoru: V.Əliyev. Bakı, 2010, s.43 və b.

beynəlxalq müqavilələr bağlayırdı (məsələn, ticarət, dövlət sərhədi və s.).

Qədim Hindistan dövlətində də beynəlxalq müqavilə bağlamaq praktikasından istifadə edilirdi. Bu dövlət başqa ölkələrlə mal ticarəti, dövlət sərhədi və digər məsələlər barədə beynəlxalq müqavilələr bağlayırdı. Bu kimi oxşar və analoji beynəlxalq müqavilələri həm Qədim Yunanıstan, həm də Qədim Roma dövlətləri bağlayırdılar.

Beynəlxalq müqavilələrin predmetini sülh, dövlət sərhədinin müəyyən edilməsi, hərbi və müdafiə ittifaqlarının yaradılması kimi vacib məsələlərlə yanaşı, həm də dövlətlərarası mübahisələrin həll olunması, qoşunların xarici ölkə ərazisindən keçməsi və digər məsələlər təşkil edirdi.

Dövlətlər inkişaf etdikcə onların arasında yaranan beynəlxalq (dövlətlərarası) münasibətlərin məzmunu da tədricən daha müxtəlif olmağa və geniş xarakter almağa başladı. Bu da, öz növbəsində, dövlətlər tərəfindən daha çox beynəlxalq müqavilə bağlanılmasını və çoxsaylı beynəlxalq-hüquqi normalar müəyyənləşdirilməsini tələb edirdi.

Dövlətlərarası beynəlxalq münasibətlərin tənzimlənməsindən ötrü çoxsaylı beynəlxalq müqavilə bağlanılmasına və müvafiq hüquq normaları müəyyən edilməsinə baxmayaraq, beynəlxalq publik hüququn yaranmasında həlledici və əsas rolu **adət hüququ** oynamışdır. Belə ki, beynəlxalq publik hüquq tarixən adət hüququ kimi formalaşmışdır. Təsadüfi deyil ki, alimlər beynəlxalq publik hüququn tarixən formalaşma prosesini, düzgün olaraq, adət hüququnun yaranması ilə bağlayır və əlaqələndirirlər. Adət hüququnun əsasını isə tayfalar arasında yaranan münasibətləri tənzimləyən davranış qaydaları təşkil edirdi; onlara **tayfalararası davranış qaydaları** və ya **tayfalararası hüquq** deyilirdi. **İbtidai-icma quruluşu** dövründə həmin qaydalar tayfalar arasında birgə ovçuluq, yaşayış rayonlarını bir-birindən ayırmaq, sülh, müharibə, əmtəə mübadiləsi və həyat üçün zəruri olan digər vacib məsələləri tənzimləyirdi. Adət hüququnda təsbit olunan tayfalararası davranış qaydaları inkişaf

edərək sonra beynəlxalq publik hüquqa çevrildi. Dövlətlərin məcburetmə qüvvəsi ilə təmin edilən həmin qaydalar beynəlxalq hüququn ilk normaları idi. Deməli, beynəlxalq publik hüquq özünün yaranma tarixinin ilkin dövrlərində adət hüququ xarakteri daşıyaraq, mövcud olmuşdur. Qeyd etməliyik ki, adət hüququ erkən dövrlərdə **beynəlxalq publik hüququn nəinki əsas, həmçinin yeganə mənbəyi** sayılırdı. Belə ki, beynəlxalq publik hüququn özünün yaranma prosesi vaxtlarında adət hüququndan savayı başqa mənbə növü yox idi.

Yaradılan beynəlxalq hüquq normaları dövlətlərin qarşılıqlı münasibətlərində onların davranışını tənzimləmək məqsədinə xidmət edirdi. Lakin həmin normalar universal deyil, lokal xarakter daşıyırdı. Belə ki, beynəlxalq hüquq yarandığı ilkin dövrlərdə, əsasən, **lokal hüquq** normalarından ibarət idi. Məlum olduğu kimi, universal normalar bütün dövlətlər və ya dövlətlərin əksəriyyəti, lokal normalar isə, adətən, iki dövlət arasında münasibətləri nizama salır.

Orta əsrlərdən beynəlxalq publik hüquq özündə həm də **regional hüquq** normalarını birləşdirməyə başlamışdı; o dövrlərdə regional hüquq normaları Şərq və Qərbin bir neçə bölgə dövlətləri arasında yaranan qarşılıqlı münasibətləri tənzimləmək funksiyasını yerinə yetirirdi. Göründüyü kimi, ilkin dövrlərdə və orta əsrlər zamanı lokal və regional beynəlxalq hüquq mövcud olmuşdur. Universal beynəlxalq hüquqa gəldikdə isə, qeyd etməliyik ki, həmin zamanlarda universal beynəlxalq hüquq hələ formalaşmamışdı.

Beynəlxalq publik hüququn yaranma tarixində dövlətlər həlledici rol oynamışdır. Belə ki, o, yalnız dövlətlərin iradəsi ilə formalaşmışdır.[1] Axı, beynəlxalq publik hüququn ibarət olduğu hüquq normalarının yaradıcısı dövlətlərin özləridir; bu da, beynəlxalq publik hüquqa xas olan xüsusiyyətlərdən biridir. Məhz özlərinin yaratdıqları beynəlxalq hüquq normaları vasitə-

[1] Международное право. Учебник / Под ред. В.И.Кузнецова. М., 2001, с.11-16.

si ilə dövlətlər aralarındakı qarşılıqlı münasibətləri tənzimləyir və qaydaya salırlar. Şübhəsiz, qədim dünya dövlətləri də öz beynəlxalq əlaqələrini tənzimləmək üçün beynəlxalq hüquq normaları yaradır, habelə onları tətbiq edirdilər və ona görə də, beynəlxalq publik hüququn həyatı, necə deyərlər, beynəlxalq publik hüquq aləmi dövlətlər və onların arasındakı münasibətlərin yaranması ilə bilavasitə bağlıdır. Belə ki, dövlətlərarası beynəlxalq əlaqələr formalaşdığı andan beynəlxalq hüququn rüşeymi, genezis əlaməti meydana gəlmiş və o, təşəkkül tapmağa başlamışdır. Bu səbəbdən, beynəlxalq publik hüququn tarixi dövlətlərin, eləcə də onların arasındakı münasibətlərin tarixi ilə bilavasitə bağlı və əlaqəlidir. O, insan cəmiyyətinin müəyyən tarixi inkişaf dövründə yaranmışdır.

3.1.2. Beynəlxalq publik hüququn tarixi inkişaf dövrləri

Obyektiv və real surətdə mövcud olan, ictimai proseslərin təbii məhsulu sayılan beynəlxalq publik hüquq ayrı-ayrı mərhələlərdən ibarət uzun tarixi inkişaf yolu keçmişdir; həmin mərhələlər beynəlxalq publik hüququn tarixi inkişaf dövrləri adlanır.

Beynəlxalq publik hüququn **tarixi inkişaf dövrləri** dedikdə beynəlxalq publik hüquq tarixinin bölündüyü və ibarət olduğu ayrı-ayrı mərhələlər başa düşülür.

Beynəlxalq publik hüququn tarixi inkişaf dövrləri beynəlxalq hüquq elmində (doktrinada) diskussiya doğuran ən mübahisəli məsələlərdən biri sayılır və bu barədə müəlliflərin fikirləri üst-üstə düşmür.[1] Odur ki, beynəlxalq publik hüququn hamılıqla qəbul edilmiş konkret inkişaf dövrləri mövcud deyildir; həm də müəlliflər beynəlxalq publik hüququn tarixini təsnifləşdirərkən

[1] *Məsələn, bax:* Международное право. Учебник /Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.48; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.72; Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.11 və b.

müxtəlif meyarlara əsaslanır və istinad edirlər. Məsələn, sovet alimləri ictimai-iqtisadi formasiyanın və dövlətlərin tipindən asılı olaraq, beynəlxalq publik hüquq tarixini aşağıdakı inkişaf dövrlərinə bölürdülər:[1] quldarlıq quruluşunun beynəlxalq hüququ, feodalizm dövrünün beynəlxalq hüququ, kapitalizm dövrünün beynəlxalq hüququ, sosializm dövrünün beynəlxalq hüququ. Göründüyü kimi, sovet müəllifləri tərəfindən beynəlxalq hüququn ayrı-ayrı tarixi inkişaf mərhələləri fərqləndirilərkən, müvafiq dövrdə mövcud olan konkret ictimai-iqtisadi münasibətlərin xarakteri əsas tutulmuşdur.

Bəzi müəlliflər tərəfindən isə beynəlxalq publik hüququn formalaşması və inkişafı mərhələlərə bölünərkən müvafiq dövrün ayrı-ayrı tarixi xüsusiyyətləri nəzərə alınmışdır. Məsələn, Hollandiyada nəşr olunan «Beynəlxalq Hüquq Ensiklopediyası»[2] kimi nüfuzlu jurnalda beynəlxalq hüquq tarixində onun «İspan erası» adlı ayrıca inkişaf dövrü (1500–1648-ci illər) fərqləndirilir;[3] bu zaman XVI–XVII əsrlərdə İspaniyanın beynəlxalq münasibətlərə göstərdiyi təsir nəzərə alınmışdır.

Elə müəlliflər də vardır ki, onlar vaxtilə müvafiq dövrün beynəlxalq münasibətlərinə mühüm təsir göstərən konkret beynəlxalq hadisələrə əsaslanmaqla beynəlxalq publik hüquq tarixini müxtəlif inkişaf mərhələlərinə bölürlər. Söhbət cəmiyyətin inkişaf tarixində baş vermiş nisbətən əhəmiyyətli və seçilən hadisələrdən gedir. Belə ki, beynəlxalq həyatda və cəmiyyətdə baş verən bu və ya digər hadisə ilə bağlı olan konkret tarix əsas götürülür. Həmin tarixi hadisələr nəzərə alınmaqla, beynəlxalq publik hüququn inkişaf tarixinin müəyyən dövrü digərindən ayrılır və fərqləndirilir.[4]

---

[1] Международное право. Учебник / Отв. ред. Н.Т.Блатова и др. М., 1970, с.3.

[2] URL:http://www.istorja.ru (24.04.2018-ci il).

[3] Encyclopedia of Public International Law / Published under the direction of R. Bernhardt.Vol. II, Amsterdam, № 4, 1995, p.716-859.

[4] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.24.

Qeyd etməliyik ki, beynəlxalq publik hüququn tarixi **cəmiyyətin ümumi inkişaf tarixinin ayrılmaz tərkib hissəsidir**. Buna görə də, beynəlxalq publik hüquq tarixi ayrı-ayrı inkişaf dövrlərinə bölünərkən cəmiyyətin ümumi inkişaf tarixi mütləq nəzərə alınmalıdır. Beynəlxalq hüquq ədəbiyyatı səhifələrində bəzi müəlliflər tərəfindən irəli sürülən bu fikir ağlabatandır.[1] Odur ki, cəmiyyətin ümumi inkişaf tarixini əldə əsas tutaraq, beynəlxalq publik hüququn tarixini aşağıda göstərilən **dörd inkişaf dövrü (mərhələsi)** üzrə fərqləndirmək olar:

- qədim dünyanın beynəlxalq hüququ;
- orta əsrlərin beynəlxalq hüququ;
- yeni dövrün beynəlxalq hüququ;
- ən yeni (müasir) dövrün beynəlxalq hüququ.

Beynəlxalq publik hüququn göstərilən inkişaf dövrləri ümumi tarixin dörd inkişaf dövrünə uyğundur; həmin dövrlərə aiddir: qədim dünya tarixi, orta əsrlər tarixi, yeni tarix, ən yeni tarix.

Qədim dünyanın beynəlxalq hüququ təxminən bizim eradan əvvəl IV minillikdə yaranmağa başlamışdır. O vaxtdan etibarən ibtidai-icma quruluşu dağılır, quldarlıq dövlətləri formalaşır, cəmiyyət siniflərə bölünür və ilk beynəlxalq hüquq normaları yaranır. Beynəlxalq hüququn bu tarixi dövrü bizim eranın 476-cı ilinə kimi davam edir; həm də sözügedən dövr quldarlıq ictimai-iqtisadi formasiyasına, quldarlıq münasibətlərinə uyğun gəlir. Məlum olduğu kimi, 476-cı ildə Qərbi Roma quldar imperiyası süqut edərək dağılmışdır. Həmin il «Qərbi Roma quldar imperiyasının süqut etməsi» kimi mühüm hadisə ilə bağlı konkret tarix olub, beynəlxalq hüququn birinci və ikinci inkişaf dövrlərini bir-birindən ayırmağa imkan verən meyar rolunu oynayır. Beynəlxalq hüququn **birinci tarixi inkişaf dövrü**

[1] Международное право. Учебник / Отв.ред. Г.М.Мелков. М., 2011, с.49; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.47.

– **quldarlıq dövrünün beynəlxalq hüququ** (qədim dünyanın beynəlxalq hüququ) məhz 476-cı ilə kimi davam etmişdir.

Dünyada cəmiyyətin inkişaf tarixində, eləcə də beynəlxalq publik hüquq tarixində vacib rol oynayan «476-cı il» dönüş anı sayılır. Belə ki, həmin ildən etibarən feodalizm ictimai-iqtisadi quruluşu formalaşmağa, feodalizm münasibətləri isə inkişaf etməyə başlamışdır. Bunun da nəticəsində **feodalizm dövrünün beynəlxalq hüququ** yaranmışdır ki, bu da beynəlxalq hüququn ikinci inkişaf dövrünü, yəni **orta əsrlər tarixi mərhələsini** təşkil edir. Odur ki, beynəlxalq hüquq tarixinin ikinci dövrü feodalizm quruluşuna (ictimai-iqtisadi formasiyasına) uyğundur.

Beynəlxalq publik hüququn **ikinci tarixi inkişaf dövrü** 1648-ci ilə qədər davam etmişdir. Tarixdən bildiyimiz kimi, 1648-ci ildə o dövrün beynəlxalq münasibətlərinə mühüm təsir göstərən beynəlxalq hadisə baş vermişdir. Söhbət 1648-ci ildə Vestfal Sülh Müqaviləsinin bağlanmasından gedir ki, bu Müqavilə ilə Avropada 30 illik müharibəyə (1618–1648-ci illər) son qoyulmuş və «dövlətlərin suveren bərabərliyi» kimi vacib prinsip formulə edilmişdir. Həmin Müqavilənin əhəmiyyəti həm də bundan ibarət idi ki, o, suveren bərabərlik prinsipi əsasında Avropanın dövlət quruluşunu təsbit edirdi. Bu səbəbdən, Vestfal Sülh Müqaviləsi beynəlxalq publik hüquq tarixində yeni dövrün – üçüncü dövrün başlanğıcını qoyan əlamətdar beynəlxalq hadisə sayılır. Odur ki, beynəlxalq hüququn üçüncü tarixi inkişaf dövrü 1648-ci ildən başlayır; həm də ona görə ki, o zamanlarda (1642–1649-cu illər) İngiltərə Burjua İnqilabı baş vermişdir. Burjua münasibətlərinin inkişafına təkan verən həmin inqilab dünyada kapitalist istehsal üsulunun formalaşmasına gətirib çıxarmışdır. Buna görə də, beynəlxalq publik hüquq tarixinin üçüncü dövrü kapitalist istehsal üsulunun formalaşmasına uyğun gələn tarixi mərhələ kimi xarakterizə olunur.[1] Orta əsrləri yeni dövrdən 1640–1660-cı illərdə baş vermiş hadisələr,

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.47.

xüsusən də İngiltərə Burjua İnqilabı ayırır. Ümumavropa əhəmiyyətli bu hadisədən sonra kapitalizm formasiyasının hökm sürdüyü dövr başlayır.[1]

Beynəlxalq publik hüquq tarixinin **üçüncü inkişaf dövrü**, yəni yeni dövrün beynəlxalq hüququ 1919-cu ilə kimi davam etmişdir. Həmin il Versal Sülh Müqaviləsinin imzalanması ilə əlamətdardır və bu Müqavilə I Dünya Müharibəsinin nəticələrini hüquqi cəhətdən rəsmiləşdirirdi; həmin vaxtlarda Millətlər Liqası da yaradıldı. Deməli, «I Dünya Müharibəsinin qurtarması» və «Millətlər Liqasının yaradılması» kimi ümumi tarixi hadisələrin baş verməsi ilə beynəlxalq hüquq tarixinin üçüncü inkişaf dövrü – **yeni dövrün beynəlxalq hüququ** sona yetir.

Beynəlxalq publik hüququn üçüncü tarixi inkişaf dövrünə (yeni tarixi dövrün beynəlxalq hüququna) həm də **klassik beynəlxalq hüquq** deyilir. Klassik beynəlxalq hüquq dedikdə müasir dövrdən əvvəlki ənənəvi beynəlxalq hüquq başa düşülür. «Ənənəvi beynəlxalq hüquq» termini müasir beynəlxalq publik hüquqa rəğmən işlədilən anlayışdır.

Beynəlxalq publik hüquq tarixinin növbəti inkişaf mərhələsi isə **ən yeni tarixin (dövrün) beynəlxalq hüququ** adlanır; ona **müasir beynəlxalq hüquq** da deyilir. Müasir beynəlxalq hüquq isə II Dünya Müharibəsindən sonra BMT-nin yaradılması ilə (1945-ci il) formalaşmağa başlamışdır.[2] Təsadüfi deyildir ki, BMT Nizamnaməsi müasir beynəlxalq hüququn əsası kimi tanınır. Düzdür, bəzi müəlliflər «müasir beynəlxalq hüquq» anlayışının işlədilməsinə üstünlük vermirlər; onlar, sadəcə olaraq, «XX–XXI əsrlərin beynəlxalq hüququ»[3] və ya «1919-cu ildən

---

[1] *Bax:* Mahmudov Y.M. Orta əsrlər tarixi (erkən feodalizm dövrü). Dərslik. Bakı, 1989, s.6.

[2] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.15; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.46.

[3] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.47; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.72.

XXI yüzilliyin başlanğıcını əhatə edən dövrün beynəlxalq hüququ»[1] kimi anlayışlardan istifadə etməyə üstünlük verirlər.

Hesab edirik ki, beynəlxalq publik hüququn sözügedən növbəti inkişaf tarixini «müasir beynəlxalq hüquq» adlandırmaq üçün kifayət dərəcədə əsaslar vardır. Belə ki, beynəlxalq siyasi sistemdə, eləcə də beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi işində olduqca vacib rol oynayan BMT-nin yaradılması və onun Nizamnaməsinin qəbul edilməsi ilə beynəlxalq hüquqda köklü dəyişikliklər baş vermişdir. Nəzərə almalıyıq ki, BMT-nin Nizamnaməsi qloballaşan müasir dünyanın əsas beynəlxalq-hüquqi aktı sayılır. Məhz həmin dövrdən (1945-ci il) başlayaraq formalaşan yeni beynəlxalq hüquq klassik beynəlxalq hüquqdan mühüm dərəcədə fərqlənmək səviyyəsində inkişaf etmiş, onun yeni sahələri (məsələn, beynəlxalq kosmos hüququ, beynəlxalq ekologiya hüququ, beynəlxalq insan haqları hüququ və s.) formalaşmış, dövlətlər arasında qarşıdurmanı azaltmağa yönələn bir sıra yeni beynəlxalq hüquq norması (məsələn, tərksilah, kimyəvi və bakterioloji silahların istehsalının qadağan edilməsi, nüvə silahının yayılmaması, dövlətlərin bir-birinə inam-etimad göstərməsi və s.) qəbul olunmuş, habelə beynəlxalq praktikada tətbiq olunan mühüm prinsiplər formulə edilmişdir. Məhz bu kimi cəhətlər imkan və əsas verir ki, beynəlxalq hüququn göstərilən inkişaf tarixi «müasir beynəlxalq publik hüquq» kimi xarakterizə olunsun.

Beynəlxalq publik hüququn tarixi inkişaf dövrləri (mərhələləri) barədə danışdığımız zaman ortaya belə bir sual çıxır: 1919-cu ildən 1945-ci ilə kimi mövcud olan beynəlxalq hüquq hansı tarixi inkişaf dövrünə aid olunur?

Bildiyimiz kimi, 1917-ci ildə Rusiyada baş vermiş Böyük Oktyabr Sosialist İnqilabı cəmiyyətin və beynəlxalq həyatın inkişafına ciddi təsir göstərmişdir. Bu inqilab nəticəsində dövlətlərin qarşılıqlı münasibətlərində yeni prinsiplər müəyyən edildi, kapitalist və sosialist ölkələri arasında əlaqələri tənzimlə-

[1] Международное право. Учебник / Отв.ред. Г.М.Мелков. М., 2011, с.50.

məyə imkan verən yeni beynəlxalq hüquq normaları yaradıldı. Qeyd etdiyimiz kimi, 1919-cu ildə «Millətlər Liqası» kimi universal beynəlxalq təşkilat təsis edildi ki, onun statutu Versal Sülh Müqaviləsinin tərkib hissəsi sayılırdı. Versal Sülh Müqaviləsinin imzalandığı 1919-cu il beynəlxalq hüquq tarixinə «I Dünya Müharibəsinin qurtarması ili» kimi daxil olmuşdur. Versal Sülh Müqaviləsi Sen-Jermen Müqaviləsi (1919-cu il)[1] və digər beynəlxalq sazişlərlə birlikdə müharibədən sonrakı rejimi müəyyən edirdi; həmin rejim Avropada yeni müstəqil dövlətlərin yaranmasının əsası olmuşdur.

Formal olsa da, 1946-cı ilə kimi fəaliyyət göstərən Millətlər Liqası nə İtaliyanın Həbəşistana hücumunun (1935–1936-cı illər), nə Fin savaşının, nə də II Dünya Müharibəsinin qarşısını ala bildi. Lakin, buna baxmayaraq, Millətlər Liqasının təsis edilməsi I Dünya Müharibəsindən sonra beynəlxalq münasibətləri tənzimləmək üçün yeni mexanizm yaradılması sahəsində irəliyə doğru atılmış bir addım idi. Onun fəaliyyət göstərdiyi müddət (1919–1946-cı illər) tam əsasla **klassik beynəlxalq hüquqdan müasir beynəlxalq hüquqa «keçid dövrü»** hesab edilməlidir. Təsadüfi deyil ki, bəzi müəlliflər tərəfindən həmin dövr beynəlxalq hüququn ayrıca tarixi inkişaf mərhələlərindən biri kimi xarakterizə olunur.[2]

Beləliklə, beynəlxalq publik hüququn tarixi ayrı-ayrı **beş inkişaf dövrünü** əhatə edir ki, həmin dövrlər aşağıdakı mərhələlərdən ibarətdir:

1. Qədim dünya tarixinin beynəlxalq hüququ (təxminən eramızdan əvvəl IV minillikdən bizim eranın 476-cı ilinə kimi);
2. Orta əsrlər dövrünün beynəlxalq hüququ (476 – 1648-cı illər);

[1] URL:http://ru.wikipedia. org/wiki/ (30.07.2022-ci il). *Ətraflı bax: məsələn,* Международное публичное право. Учебник /Отв. ред. К. А. Бекяшев. М., 2009, с. 82.

[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.30-31.

3. Klassik beynəlxalq hüquq (1648–1919-cu illər);
4. Klassik beynəlxalq hüquqdan müasir beynəlxalq hüquqa keçid dövrü (1919–1945-ci illər);
5. Müasir beynəlxalq hüquq (1945-ci ildən hal-hazıradək).

Göründüyü kimi, beynəlxalq publik hüququn təşəkkül tapması və inkişaf prosesi tarixin əlamətdar və əhəmiyyətli dönüş anları ilə sıx surətdə bağlıdır; hər bir dönüş anı isə nəinki beynəlxalq münasibətlərin, həmçinin beynəlxalq hüququn tarixində dərin, özünəməxsus izlər qoymuşdur. Belə ki, hər bir tarixi dövr həm beynəlxalq münasibətlərin, həm də beynəlxalq publik hüququn özünün inkişaf tarixinə ciddi və əsaslı təsir göstərmişdir.

3.2. Beynəlxalq publik hüququn ayrı-ayrı tarixi inkişaf mərhələlərinin qısa xarakteristikası

3.2.1. Qədim dünyanın beynəlxalq publik hüququ

Qeyd etmək lazımdır ki, **qədim dünyanın beynəlxalq publik hüququ** dedikdə eramızdan əvvəl IV minillikdən bizim eranın 476-cı ilinə kimi yaranmış və həmin dövrdə dövlətlər arasında əmələ gəlmiş münasibətləri tənzimləyən beynəlxalq (dövlətlərarası) hüquq normalarının sistemi başa düşülür. Belə ki, əvvəllərdə göstərdiyimiz kimi, ilk dövlətlər eramızdan əvvəl IV minillikdə Qədim Şərqdə quldarlıq quruluşunun erkən dövrlərində yaranmışdır.[1] İlk dövlətlərin bir-biri ilə qarşılıqlı əlaqədə olmaları və onların öz aralarında münasibətə girmələri beynəlxalq hüquq normalarının yaranmasına gətirib çıxardı. Bunun nəticəsində dövlətlər arasında əmələ gələn münasibətləri tənzimləyən dövlətlərarası hüquq normalarının məcmusu kimi

[1] *Daha ətraflı:* История государства и права зарубежных стран. Учебник. Часть 1 /Под ред. О.А.Жидкова и Н.А.Кращенинниковой. М., 2003, с.14.

beynəlxalq publik hüquq təşəkkül tapmağa başladı; həmin normaların özü isə bir sıra əlamətlə xarakterizə olunurdu.[1]

O dövrün beynəlxalq hüquq normalarının **birinci əlaməti** bundan ibarət idi ki, həmin normalar dövlətlərin yaranmasına kimi mövcud olan dövrdə **tayfalar arasındakı münasibətləri tənzimləyən davranış qaydalarından əmələ gəlmişdi;** bu qaydaların məcmusu **«tayfalararası hüquq»** adlanırdı. Həmin qaydalar ibtidai icma quruluşunda (dövlətlərin yaranmasına kimi mövcud olan dövrdə) tayfalar arasında birgə ov etmək, yaşayış rayonlarını bir-birindən ayırmaq, müharibə etmək, sülh bağlamaq, malları (əmtəələri) mübadilə etmək və digər məsələlər barədə yaranan münasibətləri tənzimləyirdi. O dövrdə dövlətlər tayfalararası davranış qaydalarından öz aralarındakı münasibətləri tənzimləmək üçün istifadə edirdilər; bu qaydalar ya hüquqi adətlərdə, ya da beynəlxalq müqavilələrdə təsbit olunurdu. Tayfalararası qaydalar həm də tayfalarla dövlətlər arasındakı münasibətləri tənzimləyirdi.

İkinci, qədim dünya dövrünün beynəlxalq hüquq normaları belə bir əlamətlə xarakterizə olunurdu ki, həmin normalar **regional xarakterə malik idi**. Belə ki, onlar Qədim Şərqin region dövlətləri (Babilistan, Assuriya, Misir, Hindistan, Çin, İran, Yunanıstan, Roma və s.) arasında yaranan beynəlxalq münasibətləri tənzimləmək funksiyasını yerinə yetirirdi. Təsadüfi deyil ki, beynəlxalq hüquq normalarının (həm də beynəlxalq hüququn) vətəni Yaxın Şərq – Dəclə, Fərat və Nil çaylarının vadisi hesab edilir. O dövrdə yalnız bəzi coğrafi rayonlar beynəlxalq həyatın mərkəzi sayılırdı. İbtidai icma quruluşu zamanı əhali yaşayan, lakin hələ ki, avropalılara məlum olmayan bir sıra coğrafi məkan (Amerika, Avstraliya, Afrikanın çox hissəsi) dövlətlərarası beynəlxalq münasibətlərdə iştirak etməkdən kənarda qalmışdı; beynəlxalq münasibətlərdə öz aralarında az və ya çox davamlı – sabit əlaqə saxlayan bəzi bölgə dövlətləri iştirak edirdilər.

---

[1] *Həmin əlamətlər barədə bax:* Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.48.

Üçüncü, o dövrün beynəlxalq hüquq normalarına belə bir əlamət xas idi ki, **həmin normalar dini xarakter daşıyırdı**. Bu əlamət, xüsusən də, müharibə qanun və adətlərinə aid olan hüquq normaları üçün xarakterik idi. İlk növbədə, müharibə elan etmək proseduru və müharibə aparmaq qaydaları dini xarakterə malik idi. Romada bütün müharibələr ədalətli iş sayılırdı, çünki romalıların fikrincə, müharibə «Allah-Taala»nın iradəsi ilə aparılırdı. Bu səbəbdən müharibələr hər hansı hüquqi məhdudiyyətlə bağlı deyildi.

Beynəlxalq müqavilələrə dair normalar da dini xarakter daşıyırdı; dini andiçmə proseduru beynəlxalq müqavilə bağlamağın vacib elementi sayılırdı. Həmin prosedura görə, beynəlxalq müqavilənin yerinə yetirilməsi üçün təntənəli surətdə vəd verilirdi, müqəddəs öhdəlik götürülürdü və onun pozulduğu halda müdaxilə etmək üçün «Allah-Taala»ya müraciət olunması nəzərdə tutulurdu. Beynəlxalq müqavilənin bağlanması zamanı həm də «qurban» kəsilirdi ki, bu da, dini adət sayılırdı.

O dövrün beynəlxalq hüquq normalarına belə bir əlamət də xas idi ki, onlar **adət xarakterli normalar** idi. Bu, qədim zamanlarda yaranan beynəlxalq (dövlətlərarası) hüquq normalarını xarakterizə edən **dördüncü əlamətdir**. Təsadüfi deyil ki, beynəlxalq hüquqda normayaratma təmayülü, tendensiyası beynəlxalq-hüquqi adətlərin formalaşmasından başlamışdır. Adətlər beynəlxalq hüququn əsas və başlıca mənbəyi sayılırdı. Bu səbəbdən, əvvəllərdə qeyd etdiyimiz kimi, qədim dövrlər tarixinin beynəlxalq hüququ özünün yarandığı zaman, mahiyyətcə, **adət hüququ** hesab edilirdi.

Beynəlxalq publik hüququn bir sıra vacib məsələsi **adətlər** vasitəsi ilə həll olunurdu. Söhbət, hər şeydən əvvəl, **müharibə** məsələsindən gedir. Belə ki, dövlətlərin aralarında müharibənin elan edilməsi və aparılması ilə bağlı yaranan münasibətlər adətlərin köməyi ilə tənzimlənirdi; müharibəni uduzanların qalib gələnlərdən tam asılı olmaları və kölələk altına düşmələri, əsir olmaq istəməyənlərin öldürülməsi, onların əmlakının zorla

ələ keçirilməsi, dinc əhalinin bac-xərac və ya kontribusiya[1] ödəmələri adət normaları kimi tanınırdı. Assuriyalılarda və Hetlərin hökmdarlığı dövründə (Hetlər Şimali Qafqazda abxaz-adıgey xalqlarının əcdadları sayılır[2]) belə adət normaları formalaşmışdı ki, məğlub olmuş dövlətin dinc əhalisi kütləvi surətdə qırılır, yaşayış məntəqələri vəhşicəsinə dağıdılır, insanlar zorla başqa yerlərə köçürülürdü. Müharibə zamanı bitərəflik barədə norma da adət norması sayılırdı.

Beynəlxalq publik hüququn həm də **digər məsələləri** barədə normalar adət normaları hesab edilirdi ki, həmin məsələlərə, xüsusən, aşağıdakılar aid idi:

- beynəlxalq müqavilələrin bağlanması, qüvvədə olması, təmin edilməsi və onlara xitam verilməsi;
- səfirlər (elçilər) göndərilməsi;
- əcnəbilərin hüquqi rejiminin müəyyən edilməsi;
- dövlətlərin öz aralarında ittifaq yaratmaları və s.

Danışıqlar aparmaq geniş yayılmış adət norması idi. Belə ki, beynəlxalq hüququn əsas məsələlərini həll etmək üçün əvvəlcə danışıqlar aparılırdı. **Danışıqlar aparmaq** üçün səfirlər (nümayəndələr) göndərilirdi. Danışıqlar aparmaq üsulundan müharibənin başa çatdırılması, beynəlxalq müqavilə bağlanması, dövlətlər arasında ittifaq münasibətlərinin rəsmiləşdirilməsi və digər məsələlərin həlli zamanı, xüsusilə, istifadə edilirdi.[3]

O dövrün beynəlxalq hüquq normaları həm də **beynəlxalq müqavilələr bağlamaq** yolu ilə müəyyən edilirdi. Belə ki, dövlətlər öz aralarındakı qarşılıqlı münasibətləri tənzimləməkdən ötrü təkcə beynəlxalq-hüquqi adətlərdən istifadə etmirdi-

---

[1] «*Kontribusiya» (lat. contributio – haqq, ödəniş) anlayışı barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.437.

[2] *Bax: məsələn,* Редер Д.Г., Черкасова Е.А. История древного мира. В 2-х ч. Ч. I. Учебное пособие. М., 1985, с.188; История Древного Востока. Учебник / Под ред. В.И. Кузищина. М., 1979, с.192.

[3] *Bu barədə bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.18.

lər; onlar bunun üçün həm də beynəlxalq müqavilə bağlayırdılar. Beynəlxalq müqavilə bağlamaq isə beynəlxalq hüquq normasının yaratmağın əsas vasitələrindən biri sayılır.

Beynəlxalq müqavilə əvvəllər şifahi formada bağlanırdı. Sonralar isə dövlətlər arasındakı beynəlxalq müqavilələr yazılı formada bağlanmağa başladı. O dövrün dövlətlərarası beynəlxalq praktikasında beynəlxalq müqavilələr məzmunca aşağıda göstərilən müxtəlif tipdə (növdə) bağlanırdı: sülh haqqında beynəlxalq müqavilə, ittifaq yaratmaq barədə beynəlxalq müqavilə, qarşılıqlı yardım göstərilməsi haqqında beynəlxalq müqavilə, sərhədlərin müəyyən edilməsi barədə beynəlxalq müqavilə, ticarətə dair beynəlxalq müqavilə, arbitraj barədə beynəlxalq müqavilə, bitərəflik haqqında beynəlxalq müqavilə, əcnəbilərlə nigah bağlamaq barədə beynəlxalq müqavilə və s.

Tarixi mənbələr göstərir ki, məsələn, hələ eramızdan əvvəl təxminən 3100-cü ildə Cənubi Mesopotamiyada Laqaş və Umma şəhər-dövlətləri arasında, eramızdan əvvəl 1280-ci ildə Hetlərin çarı III Xattusili və Misir fironu II Ramzes arasında, eramızdan əvvəl II minillikdə Misir fironları, Assuriya və Babilistan çarları, Fələstin və Suriya knyazları arasında müvafiq beynəlxalq müqavilələr bağlanılmışdır.[1]

Müharibə o dövrdə qədim dövlətlərin öz xarici siyasətini həyata keçirməyin əsas və başlıca vasitəsi sayılırdı. Qeyd etməliyik ki, qədim zamanlarda, habelə sonrakı dövrlərdə müharibə beynəlxalq hüququn inkişafına böyük təsir göstərmişdir. Qədim dünyanın beynəlxalq hüququ, mahiyyətcə, sözün həqiqi mənasında, **müharibə hüququ** idi. Bu isə təsadüfi xarakter daşımırdı. Məsələ burasındadır ki, müharibə qədim zamanlarda dövlətlərin öz xarici siyasətini həyata keçirməyin başlıca vasitəsi sayılırdı. Qədim Çində və Hindistanda, eləcə də dünyanın digər regionlarında müharibə əsas məsələ hesab edilirdi, müha-

[1] *Daha ətraflı:* Кожевников Ф.И. Учебное пособие по международному публичному праву. М., 1945, с. 4; Коровин Е.А. История международного права. М., 1946, с.7 və b.

ribə aparmaq qaydalarına xüsusi əhəmiyyət verilirdi. Müharibə hüquqauyğun hərəkət hesab edilsə də, ona arzuolunmaz hadisə kimi baxılırdı. Romada bütün müharibələr ədalətli iş hesab edilirdi və bu səbəbdən də, aparılan müharibələrə hər hansı hüquqi məhdudiyyət qoyulmurdu. Bunun nəticəsində Roma ordusu hücum etdiyi ölkələrin qoşunları və əhalisi ilə olduqca qəddarcasına rəftar edir, onlara aman verməyərək rəhm etmirdi, hətta müharibə zamanı Roma ordusu xalqların müqəddəs saydıqları yerləri – xramları da dağıdırdılar.

O zamanlar müharibə elan etmək proseduru, eləcə də müharibə aparmaq qaydaları müfəssəl şəkildə, necə deyərlər, geniş təfsilatı ilə tənzimlənirdi. Məsələn, beynəlxalq hüququn «tarixi abidəsi» sayılan və Qədim Hindistanda tətbiq edilən **Manu qanunları** (b.e. əvvəl II əsr – b.e. I əsri)[1] müharibə aparmaq qaydalarını hərtərəfli, geniş səviyyədə tənzimləyirdi.

Müharibə nəinki quru ərazilərdə, həmçinin dənizdə də aparılırdı. Dənizdə müharibə aparmağa dair hüquq normaları (qaydaları) ilk dəfə Qədim Hindistanda formulə edilmişdi. Eramızdan əvvəl II – I minilliklərdə Qədim Çində də analoji normalar yaranmışdı. Qədim Çin dövlətləri eramızdan əvvəl 546-cı ildə müharibə etməmək (hücum etməmək) barədə müqavilə bağlamışdılar ki, bu, tarixən bizə məlum olan ilk beynəlxalq müqavilələrdən biri sayılır [2].

Qədim Yunanıstanda müharibələr eramızdan əvvəl VIII əsrdə yaradılan polislər arasında aparılırdı.[3] **Polislər** dedikdə şəhər-dövlətlər başa düşülürdü. Müharibənin nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, o dövrdə müharibə dedikdə hər hansı polisin vətəndaşlarının başqa polisin bütün vətəndaşları ilə mübarizəsi başa düşülürdü. Yunan polisləri öz aralarında tez-tez müharibələr apardıqlarına görə bu məsələyə dair müəyyən qaydalar işlənib hazırlanmışdı. Düzdür, həmin qaydalar, ilk növbədə, yalnız yunan polisləri arasında tətbiq edilirdi.

[1] URL:http: //www.philosophy.ru (24.04.2018-ci il).
[2] URL:http: //www.diplomat-ceremonial.ru (24.04.2018-ci il).
[3] URL:http: //www.gendocs.ru (24.04.2018-ci il).

Amma, buna baxmayaraq, **müharibəyə aid qaydalar** beynəlxalq-hüquqi əhəmiyyətə malik idi.[1]

Müharibəyə aid qaydalara görə, müharibə rəsmən elan olunmaqla başlanırdı. İşğal olunmuş düşmən şəhərlərdə əhalinin – uşaq, qadın və qocaların öldürülməsi hüquqauyğun hərəkət hesab edilirdi; əsir düşən şəxslər ya öldürülür, ya da qul olurdular; dini yerlərdə (xramlarda) qaçıb gizlənənlərin öldürülməsinə yol verilmirdi.

Qədim Yunanıstanda müharibə, bir qayda olaraq, ortaya çıxan məsələləri həll etməyin və yoluna qoymağın son vasitəsi sayılırdı; həm də aparılan müharibələr iki cür olurdu: qanuni müharibələr, qanunsuz müharibələr. Qanuni müharibələrin aparılması üçün əsaslı səbəb olmalı idi. Məsələn, hücumdan müdafiə olunmaq, basqının qarşısını almaq, öz müttəfiqlik borcunu, yəni üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək və s. üçün dövlət müharibəyə başlaya bilərdi. Bu kimi hallarda müharibə qanuni sayılırdı. Əgər müharibənin başlanmasının səbəbi əsassız olardısa, belə müharibə qanunsuz sayılırdı.

Yunan şəhər-dövlətləri (polisləri) arasında əlaqələrin genişlənməsi, ticarətin inkişafı və miqrasiyanın güclənməsi beynəlxalq hüququn bir sıra institutunun formalaşmasına gətirib çıxartdı. Söhbət, ilk növbədə, **diplomatiya hüququ** kimi institutun inkişafından gedir. Belə ki, o dövrlərdə şəhər-dövlətlər səfirliklər vasitəsi ilə öz aralarında diplomatik əlaqə saxlayırdılar. Səfirlik birdəfəlik xarakter daşıyırdı. Səfirliyin başında duran şəxsə **səfir** deyilirdi. Səfirə sənəd verilirdi və həmin sənəd onun rəsmi statusunu, danışıqlar aparmaq səlahiyyətinə malik olmasını təsdiqləyirdi. Səfirə verilən sənədə **«diplom»** deyilirdi. «Diplomatiya» sözü məhz həmin sənədin adından yaranmışdır. Səfirlər toxunulmazlıq hüququna malik idilər; onların toxunulmazlıq hüququna malik olmaları ümumtanınmış norma sayı-

[1] Qədim Yunan tarixçisi Herodotun «Tarix» adlı əsəri Yunan-İran müharibələrinə həsr olunmuşdur (e.ə. 500 – 449-cu illər). *Bax:* Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi / Tərtib edən: A.M.Babayev. Bakı, 1993, s.246.

lırdı. Bu normanın pozulması isə, öz növbəsində, müharibəyə səbəb ola bilərdi.

Romada da səfirlər toxunulmaz hesab edilirdilər. Danışıqlar aparmaq, sülh bağlamaq, hərbi ittifaq yaratmaq və yardım göstərmək, habelə digər məsələlər barədə beynəlxalq müqavilələr bağlamaq üçün səfirlərdən böyük məharət tələb edilirdi. Səfirlərin köməyi ilə Qədim Roma xarici dövlətlərlə əlaqə saxlayırdı; səfirlər danışıqlar aparır, beynəlxalq müqavilələri imzalayır, arbitraj mübahisələrini həll edir, sülh bağlayırdılar və onların vasitəsi ilə xarici siyasi vəzifələr həll olunurdu.

Qədim Yunanıstana həm də **arbitraj (münsiflər məhkəməsi)** kimi institut məlum idi. Bu institut beynəlxalq hüququn bir sıra vacib məsələsini (məsələn, müharibənin başa çatmasını, dövlət sərhədlərinin müəyyən edilməsini və digər məsələləri) tənzimləyirdi. Arbitrajda (münsiflər məhkəməsində), əsasən və başlıca olaraq, sərhədlər barədə məsələyə baxılırdı.

Qədim dövrlərdə Yunanıstanda yaranan və formalaşan institutlardan biri **«prokseniy» institutu** adlanırdı. Bu institut şəhər-dövlətlərdə (polislərdə) olan əcnəbilərin statusunu müəyyən edirdi. Məlum olduğu kimi, Qədim Yunan şəhər-dövlətlərinin (polislərin) ərazilərində əcnəbilər hüquqsuz sayılırdılar; onlar, demək olar ki, heç bir hüquqa malik deyildilər. Belə hallar da, təbii ki, ticarət münasibətlərinin inkişafına mane olurdu.

Prokseniy institutuna görə, hər hansı yunan vətəndaşı **himayəçi – proksen** təyin olunurdu və onun əsas və başlıca funksiyası əcnəbilərə himayəçilik etməkdən ibarət idi (təsadüfi deyil ki, «prokseniy» ifadəsi himayəçilik mənasını bildirir). Proksen yaşadığı şəhər-dövlətdə (polisdə) əcnəbilərin müdafiəçisi hesab olunurdu. Bundan başqa, proksen xarici dövlətin maraqlarını müdafiə edirdi; o, həm də xarici dövlətlə şəhər-dövlətlər arasında vasitəçi rolunu oynayırdı.

Göstərilən institut ilkin yaranma dövrlərində şəxsi xarakter daşıyırdı. Sonralar o, tədricən inkişaf edərək, dövlət (qeyri-şəxsi) məsələsi hesab edilməyə başladı.

Proksenlər təkcə toxunulmazlıq hüququ ilə təmin edilməmişdilər; onlar həm də təhlükəsizlik hüququna malik idilər. Müharibə zamanı proksenlərin əmlakı qorunub müdafiə edilirdi.

Prokseniy institutunun əsas məqsədi əcnəbiləri müdafiə etməkdən ibarət idi. Bu səbəbdən o, bəzən, «**xariciləri müdafiə etmək hüquq institutu**» adlanırdı. Xariciləri müdafiə etdiyinə görə bəzi müəlliflər prokseniy institutunda müasir konsul hüququnun izlərini görürlər. Göstərilən institutun formalaşmasında və inkişafında beynəlxalq müqavilələrin rolunu da qeyd etmək lazımdır. Belə ki, o zamanlar beynəlxalq müqavilələrin predmetini həm də əcnəbilərin hüquqları və onların müdafiəsi təşkil edirdi. Əcnəbilərin hüquqi müdafiəsi məhz beynəlxalq müqavilələr vasitəsi ilə həyata keçirilirdi.

Prokseniy institutu sonralar inkişaf edərək bəzi ölkələrin, xüsusən də, Qədim Romanın praktikasına böyük təsir göstərdi. Qədim Roma ərazilərində olan əcnəbilər xüsusi olaraq təyin edilmiş vəzifəli şəxs – **pereqrin pretoru** («praetor peregrinus») tərəfindən müdafiə olunurdu; onun əsas funksiyası əcnəbilərin hüquqi müdafiəsini həyata keçirməkdən ibarət idi. Həmin vəzifəli şəxs həm də əcnəbilərin statusunu müəyyənləşdirən norma və prinsipləri formulə edirdi. Bundan başqa, pereqrin pretorları əcnəbilər arasında yaranan mübahisələrə də baxıb onları həll edirdilər. Sonralar pereqrin pretorlarının fəaliyyəti nəticəsində **konsul hüquq institutu** formalaşdı. Xeyli müddətdən sonra Qədim Romada **«xalqlar hüququ» (jus gentium)** yarandı. Xalqlar hüququ dedikdə romalılarla əcnəbilər arasında münasibətləri tənzimləyən hüquq başa düşülürdü. Bu hüquq həm romalılara, həm də əcnəbilərə tətbiq olunurdu. Sonralar, Roma hüququnun resepsiyası (assimilyasiyası, mənimsənilməsi) dövründə «xalqlar hüququ» Avropada **«beynəlxalq hüquq»** anlayışının yaranmasına səbəb oldu. Təsadüfi deyil ki, bəzi müəlliflər (məsələn, XIX əsr alman hüquqşünası İyerinq)[1] «xalqlar

[1] URL:http:// www.kursach.com (08.05.2018-ci il).

hüququ»nu beynəlxalq hüququn bir növ «proobrazı» hesab edirdilər.

3.2.2. Orta əsrlərin beynəlxalq publik hüququ

Orta əsrlərin beynəlxalq publik hüququ dedikdə V əsrdən (476-cı ildən) XVII əsrə kimi (1648-ci ilə qədər) mövcud olan tarixi dövrdə beynəlxalq (dövlətlərarası) münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Belə ki, bizim eranın 476-cı ilində Qərbi Roma quldar imperiyasının süquta uğraması ilə feodalizm ictimai-iqtisadi formasiyası formalaşmağa başladı.[1] Feodalizm ictimai-iqtisadi formasiyası isə XVII əsrin ortalarına qədər (1648-ci ilədək), yəni kapitalist istehsal üsulunun yaranmasına kimi mövcud olmuşdur; orta əsrlər tarixi feodalizm formasiyasının tarixidir. Bu səbəbdən orta əsrlərin beynəlxalq hüququ feodalizm ictimai-iqtisadi formasiyasına uyğundur. Odur ki, **orta əsrlərin beynəlxalq publik hüququ** feodalizm quruluşunun (ictimai-iqtisadi formasiyasının) beynəlxalq publik hüququ adlanır; bəzən, ona **feodalizm tipli beynəlxalq hüquq** da deyilir.

Orta əsrlərin beynəlxalq publik hüququ Qərbi Roma imperiyasını əvəz edən və Avropada yaranan yeni feodal dövlətləri (frankların, germanların, saksların dövləti və s.) arasındakı beynəlxalq münasibətləri tənzimləmək məqsədinə xidmət edirdi. Bəzi Avropa dövlətləri hələ Romanın süqutuna kimi yaranmağa başlamışdı. Qeyd etməliyik ki, Roma imperiyasının ərazilərində meydana gələn Avropa dövlətlərinin formalaşma prosesi IX əsrdə başa çatmışdır. Avropa dövlətlərindən başqa, Roma imperiyasının ərazilərində Yaxın və Orta Şərqdə Ərəb Xilafəti yarandı.[2] Orta əsrlərin beynəlxalq publik hüququ həm də Ərəb

[1] *Ətraflı bax: məsələn,* Mahmudov Y.M. Orta əsrlər tarixi (erkən feodalizm dövrü). Dərslik. Bakı, 1989, s.5.

[2] *Bu barədə bax:* Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.57.

Xilafətinin iştirak etdiyi beynəlxalq (dövlətlərarası) münasibətləri tənzimləyərək, qaydaya salırdı.

Orta əsrlərin beynəlxalq publik hüququ (feodalizm dövrünün beynəlxalq hüququ) özünəməxsus bir sıra **spesifik cəhətlə** xarakterizə olunurdu. **Regionalizm** onu xarakterizə edən cəhətlərdən biri sayılırdı. Belə ki, orta əsrlər dövründə bütün dövlətlər üçün ümumi və vahid olan beynəlxalq hüquq (universal beynəlxalq hüquq) hələ formalaşmamışdı. Həmin dövrdə mövcud olan beynəlxalq hüquq regional xarakterli hüquq idi. Ona görə ki, orta əsrlər dövründə beynəlxalq publik hüquq Qərbi Avropa, Vizantiya (Bizans), Ərəb Şərqi, Hindistan, Çin, Kiyev Rus dövləti, sonralar isə Moskva dövlətinin əraziləri kimi bir neçə regionda tətbiq edilirdi. Həmin regionlar beynəlxalq həyatın siyasi-iqtisadi mərkəzləri sayılırdı.[1]

Orta əsrlərin beynəlxalq publik hüququ üçün belə bir cəhət də xarakterik idi ki, o, qədim dünyanın beynəlxalq hüququna xas olan «**adət hüququ» kimi qalmaqda davam edirdi**. Belə ki, orta əsrlərdə dövlətlərarası münasibətlərə tətbiq olunan ümumi beynəlxalq hüquq normaları yaranmışdı və dövlətlər belə ümumi normaları öz qarşılıqlı əlaqələrində rəhbər tuturdular. Lakin həmin normalar adət normaları kimi qalmışdı. Məsələn, «müqaviləyə əməl olunmalıdır», «səfirlər toxunulmazdır», «özünün bitərəf qalmasını bəyan edən dövlət müharibə edən tərəflərə yardım göstərməməlidir» və s. bu kimi qaydalar beynəlxalq-adət hüquq normaları sayılırdı.

Düzdür, orta əsrlərdə **beynəlxalq müqavilələr hüquq institutu** geniş səviyyədə inkişaf etmişdi. Onun səbəbi bundan ibarət idi ki, dövlətlər öz aralarında həmin dövrdə çoxsaylı beynəlxalq müqavilələr bağlayırdılar. Bağlanan beynəlxalq müqavilələrin predmetini müharibəni başa çatdırmaq və sülh bağlamaq, ticarət münasibətlərini inkişaf etdirmək, siyasi əlaqələri möhkəmləndirmək, ərazi sahələrini müəyyənləşdirmək və di-

[1] *Ətraflı bax:* Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.15-17.

gər vacib məsələlər təşkil edirdi. Beynəlxalq müqavilələr həm də su (çay) ticarət gəmiçiliyi, konsul əlaqələri, valyuta münasibətləri və digər məsələlər barədə də bağlana bilərdi.

Orta əsrlərin erkən dövrlərində beynəlxalq müqavilələr, bir qayda olaraq, şifahi formada bağlansa da, sonralar beynəlxalq müqavilələrin yazılı formada bağlanmasına üstünlük verildi. O dövrdə, əsasən, ikitərəfli beynəlxalq müqavilələr bağlanırdı; bununla yanaşı, müəyyən hallarda çoxtərəfli beynəlxalq müqavilələr də bağlana bilərdi. Məsələn, otuzillik müharibənin (1618–1648-ci illər) başa çatmasını hüquqi cəhətdən rəsmiləşdirən Vestfal Sülh Müqaviləsi (1648-ci il) və ya Vestfal Traktatı çoxtərəfli beynəlxalq müqavilə sayılırdı.

O dövrdə bağlanan beynəlxalq müqavilələr beynəlxalq hüquq normalarının yaradılmasında böyük rol oynayırdı. Lakin, buna baxmayaraq, **beynəlxalq-adət hüquq normaları beynəlxalq-müqavilə hüquq normaları ilə müqayisədə üstünlük təşkil edirdi**. Bu isə o demək idi ki, orta əsrlər dövründə beynəlxalq hüquq öz xarakterinə görə «adət hüququ» kimi qalmışdı.

Orta əsrlərin beynəlxalq publik hüququ həm də belə bir cəhətlə xarakterizə olunurdu ki, onun **formalaşma prosesinə Katolik kilsə mühüm dərəcədə təsir göstərmişdi**.[1] Katolik kilsəsi (Qərb) Xristian kilsəsinin növlərindən biri sayılır; Pravoslav kilsəsi isə (Şərq, Yunan) onun digər növüdür. Qeyd etməliyik ki, orta əsrlərdə Avropada böyük rol oynayan Xristian kilsəsi (xüsusən də Katolik kilsəsi) beynəlxalq hüququn formalaşmasına mühüm təsir göstərmişdir. Xristianlıq IV əsrdən etibarən, mahiyyətcə, dövlət dini kimi tanınmağa başlamışdır. Məlum olduğu kimi, o dövrlərdə kəskin və sərt xarakterə malik olan beynəlxalq münasibətlərdə özbaşınalıq hökm sürürdü. Beynəlxalq münasibətlərə, necə deyərlər, yüngülləşdirici təsir göstərən xristianlıq belə özbaşınalığı məhdudlaşdırdı. Buna gö-

[1] *Bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.77.

rə də, beynəlxalq hüquq orta əsrlərdə öz dini xüsusiyyət və çalarlarını itirməmişdi. Bu səbəbdən orta əsrlərin beynəlxalq publik hüququ da **dini xarakterə malik idi.**[1]

Qeyd etməliyik ki, **Katolik kilsəsi** orta əsrlərin beynəlxalq publik hüququna ciddi təsir göstərirdi. Bu, orta əsrlərin beynəlxalq publik hüququnu xarakterizə edən digər cəhətdir. Katolik kilsəsi başda Roma Papası olmaqla, dövlət işlərinə qarışır, beynəlxalq (dövlətlərarası) mübahisələri həll edirdi. Roma Papası VII Qriqori (XI əsr), ilk dəfə olaraq, öz hakimiyyəti altında «dünya dövləti» yaratmağa təşəbbüs göstərdi. Roma Papasının himayəsi altında vahid dövlət yaratmaq əsas və başlıca ideya sayılırdı. Roma ərazisində yerləşən Vatikan şəhəri 1377-ci ildən Roma Katolik kilsəsinin mərkəzi oldu. Bir sözlə, Roma Papası başda olmaqla, Katolik kilsəsi beynəlxalq münasibətlərdə aktiv rol oynamağa başladı. Kilsə yığıncaqlarında, bir qayda olaraq, dini və ya kilsə məsələləri müzakirə edilirdi. Bununla yanaşı, beynəlxalq hüquqa aid məsələlər də kilsə yığıncaqlarının müzakirə predmeti ola bilərdi; xüsusən, kilsə yığıncaqlarında sülh, barışıq, xristianlar arasında bəzi silah növlərinin işlədilməsinin qadağan edilməsi və beynəlxalq hüquqa aid digər məsələlər də müzakirə edilirdi. Belə məsələləri müzakirə etmək üçün kilsə yığıncaqlarına nəinki ali din xadimləri, həmçinin universitet nümayəndələri, ilahiyyatçılar, hüquqşünaslar, dövlət başçıları və səfirlər dəvət olunurdu. Məsələn, Konstans yığıncağında (1414–1418-ci illər)[2] müzakirə predmeti yüzillik müharibəni təzələyən İngiltərə və Fransanı bir-biri ilə barışdırmaq məsələsi idi. Hətta Roma Papası arbitr rolunda da çıxış edə bilərdi. Belə ki, o dövrlərdə beynəlxalq mübahisələr, adətən, arbitrajın köməyi və ya münsiflər məhkəməsi vasitəsi ilə həll edilirdi. Bu kimi halda arbitr funksiyasını Roma Papası həyata keçirə bilərdi.

---

[1] *Daha ətraflı:* Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.51.

[2] URL:http: // www.ru.m.wikipedia.org (08.05.2018-ci il).

Roma Papasının dövlətlərarası münasibətlərə, beynəlxalq hüquqa təsiri güclü idi. Roma Papası bu zaman kanonik hüquqa[1] istinad edir və əsaslanırdı. **Kanonik hüquq** isə Roma Papasının göstərişlərindən (sərəncamlarından) və kilsə yığıncaqlarının qərarlarından ibarət idi.

Kilsə yığıncaqları vaxtaşırı keçirilirdi; onlar beynəlxalq-adət hüquq normalarının kodifikasiya olunmasında, sistem halına salınmasında vacib rol oynayırdı. Məsələn, Karfagen yığıncağında (438-ci il) beynəlxalq publik hüququn belə bir vacib prinsipi formulə edilmişdi ki, **beynəlxalq öhdəlik vicdanla yerinə yetirilməlidir** (pacta sunt servanda).[2]

Beynəlxalq publik hüquqa müəyyən dərəcədə **Pravoslav kilsəsi** də təsir göstərmişdir ki, o da, xristianlığın ikinci qolu sayılır. Tarixdən bildiyimiz kimi, XI əsrdə Roma və Konstantinopol kilsələri arasında yaşanan ixtilaf pravoslav dininin yaranmasına səbəb oldu. Nikeya yığıncağından sonra Xristian kilsəsi parçalandı (1054-cü il) və bunun nəticəsində Katolik kilsəsi ilə yanaşı, Pravoslav kilsəsi də fəaliyyət göstərməyə başladı.

Beynəlxalq publik hüquqa həm də **islam (müsəlman) dini** təsir göstərmişdir. Belə ki, Ərəb dövlətləri arasındakı münasibətlərdə (dövlətlərarası qarşılıqlı əlaqələrdə) islam dini nəzərəçarpacaq dərəcədə vacib rol oynamışdır. Hətta şəriətin bir çox qaydaları (məsələn, müharibəyə aid qaydalar və s.) Ərəb dünyasından kənarda geniş yayılmışdı.

Orta əsrlərin beynəlxalq publik hüququnun dini xarakterə malik olması özünü həm də bunda büruzə verirdi ki, beynəlxalq müqavilələrin bağlanması **dini elementlərini** saxlayaraq, itirməmişdi. Belə ki, o dövrün müqavilə praktikasında dövlətlər beynəlxalq müqavilələrin icrasının təmin olunması məsələsinə xüsusi diqqət yetirirdilər. Bundan ötrü bir sıra təminat vasitələrindən istifadə olunurdu. Əsas təminat vasitəsi **təntənəli dini**

[1] Kanonik hüquq (jus canonicum, canon law) barədə bax: məsələn, Юридическая энциклопедия / Под ред. Ю.М.Тихомирова. М., 2005, с.396.
[2] URL:http: // www.dic.academic.ru (08.05.2018-ci il).

andiçmə hesab olunurdu (həmin vasitədən istifadə edilməsi Xaçın və Yevangeliyanın öpülməsi ilə müşayiət edilirdi). Çox vaxt beynəlxalq müqavilələrin icrası Roma Papası vasitəsi ilə təmin olunurdu. Məsələn, Roma Papası İspaniya və Portuqaliya arasında 1494-cü ildə bağlanmış beynəlxalq müqavilənin (Tordesillas Müqaviləsi) icrasına təminat vermişdi.[1]

Beynəlxalq müqaviləni pozan şəxs interdiktə məruz qalırdı. **İnterdikt** dedikdə dini ayinləri icra etməyin və dini işlərlə məşğul olmağın tam, qismən və ya müvəqqəti qadağan edilməsi başa düşülürdü.

Dövlətlər və monarxlar o dövrün beynəlxalq hüququnun əsas subyekti sayılırdılar. Bununla yanaşı, Roma Papası, Roma kilsəsi, rıtsar (cəngavər) ordenləri (Tevton[2] və Livon[3] ordenləri), habelə bəzi azad şəhərlər və onların ittifaqları (məsələn, Visbi, Venesiya şəhərləri, Hanzey ittifaqı və s.) beynəlxalq hüququn subyekti kimi tanınırdılar.[4]

O dövrdə beynəlxalq publik hüququn inkişafına **beynəlxalq müqavilələr** vacib təsir göstərirdi. Belə ki, orta əsrlərdə beynəlxalq müqavilələr bağlamaq praktikasından geniş səviyyədə istifadə edilirdi. Bu da, öz növbəsində, beynəlxalq hüququn normativ materialının genişlənməsinə səbəb olurdu.

Orta əsrlərin ilkin dövrlərində beynəlxalq müqavilələr, adətən, **şifahi formada** bağlanırdı. Lakin, tədricən, beynəlxalq müqavilələr **yazılı formada** bağlanmağa başladı. Feodalizm dövründə beynəlxalq müqavilələr, əsasən, yazılı formada bağlanırdı və onların mətni çox vaxt latın dilində tərtib olunurdu. Bununla bərabər, beynəlxalq müqavilələr onları bağlayan dövlətlərin (tərəflərin) də dilində tərtib oluna bilərdi.

Beynəlxalq müqavilə **şəxsi xarakter** daşıyırdı. Belə ki, onlar dövlət başçısının (hökmdarın) adından bağlanırdı. Sonralar bey-

[1] URL:http: // www.ru.m.wikipedia.org (08.05.2018-ci il).
[2] URL:http: // www.ru.m.wikipedia.org/wiki/ (08.05.2018-ci il).
[3] URL:http: // www.hrono.ru (08.05.2018-ci il).
[4] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.54.

nəlxalq müqavilələr hökmdarın (monarxın) vərəsələri tərəfindən bağlanmağa başladı; vərəsələrin beynəlxalq müqavilələri imzalamaq hüququ var idi.

Feodalizm dövrünün beynəlxalq müqavilələri müəyyən müddətə bağlanırdı və onların qüvvədəolma müddəti müxtəlif idi. Belə ki, o dövrdə bağlanan beynəlxalq müqavilələr bir ildən əlli ilə qədər qüvvədə ola bilərdi; bəzən, beynəlxalq müqavilələr əlli ildən də çox müddətə bağlanırdı.

Beynəlxalq müqavilələrin icrası aşağıda göstərilən müxtəlif üsullar vasitəsi ilə təmin olunurdu: zaminlik (zamin durmaq), üçüncü tərəfin təminatı (üçüncü tərəf qismində çox vaxt Roma Papası və Müqəddəs Roma dövlətinin imperatoru çıxış edirdi), insanların girov qoyulması (adətən, monarxın ailə üzvləri girov qoyulurdu), qiymətli əşyaların girov qoyulması, ərazinin girov qoyulması və s. Məsələn, respublika tipli şəhər-dövlət Genuya özünə məxsus olan Korsika adasını Fransaya girov qoymuşdu; Genuya Fransa qarşısında öz müqavilə öhdəliklərini yerinə yetirmədiyinə görə Korsika Fransanın sahibliyinə keçdi.[1]

Orta əsrlər dövründə torpaq mülkiyyətçisi olan feodallar sərbəst şəkildə beynəlxalq müqavilələr bağlayırdılar. Bu onunla izah edilirdi ki, onlar çox vaxt diplomatik münasibətləri müstəqil surətdə yaradırdılar.

Roma hüququ orta əsrlər dövründə beynəlxalq publik hüquqa təsir etməkdə davam edirdi. Məlum olduğu kimi, XII əsrdən etibarən, **Roma hüququnun resepsiyası** (mənimsənilməsi) kimi tarixi proses başlamışdır. Avropa dövlətləri tərəfindən «qüvvədə olan hüquq» kimi qəbul edilən Roma hüququ həm də beynəlxalq publik hüququn inkişafında böyük rol oynamışdır. Belə ki, XII əsrdən başlayaraq, Roma hüququ beynəlxalq publik hüququn bir sıra institutunun inkişafını şərtləndirdi. Məsələn, beynəlxalq müqavilələrin icrasının təminat üsulları (vasitələri) olan girov və zaminlik, həmçinin dövlət ərazisinin əldə

[1] URL:http: // www.bibliotekar.ru/mezhdunarodnoe-pravo-2/9.htm (09.05.2018-ci il).

edilməsi kimi beynəlxalq hüquq institutlarının əsasını Roma hüququ təşkil edirdi; həmin bu institutlar da mülki-hüquqi xarakterə malik idi. Bu onunla izah edilir ki, Roma hüququ, başlıca olaraq, mülki hüquq (sivilistika) kimi tanınırdı.

Orta əsrlərdə **diplomatiya hüququ** da inkişaf edirdi; xüsusən də, **səfirlik hüququnun** inkişafından danışmaq lazımdır ki, bu, diplomatiya hüququnun əsas struktur elementi sayılır. Bildiyimiz kimi, nə beynəlxalq publik hüququn yarandığı vaxtlarda, nə də orta əsrlər dövründə xarici əlaqələr praktikasına **daimi səfirlik və ya diplomatik nümayəndəlik institutu** məlum idi; yalnız XV əsrdən etibarən həmin institut formalaşmağa başlamışdır. Səfirlik institutuna görə, səfirlər **toxunulmazlıq hüququna** malik idilər. Səfirlərin toxunulmazlıq hüququna qəsd edən və onu pozan şəxslər ağır formada cəzalandırılırdı, belə şəxslər hətta kilsədən kənarlaşdırılırdı. Səfirlərin toxunulmazlıq hüququnun, habelə digər hüquqlarının, eləcə də imtiyaz və üstünlüklərinin əsasını səfirin mənsub olduğu dövlətin suverenliyi təşkil edirdi. Səfirliyin yerləşdiyi bina da toxunulmaz sayılırdı. Toxunulmazlıq prinsipinin möhkəmləndirilməsində kilsə böyük rol oynayırdı. Təsadüfi deyil ki, səfirlərə kilsənin himayəçiliyi altında olan şəxslər kimi baxılırdı.

Səfirlər akkreditə olunduğu ölkəyə gələn zaman müvafiq sənəd – etimadnamə təqdim edirdilər (ona rus dilində «верительная грамота» deyilir)[1] və həmin sənəd səfirlərin statusunu təsdiqləyirdi.

Səfirlər gömrük nəzarətindən azad edilmişdi və onlardan rüsum da tutulmurdu. Hakimiyyət orqanları səfirliyin üzvlərinin mühafizə olunmasını və qorunmasını təmin edirdilər ki, bu, onların üzərinə düşən vəzifələrdən biri sayılırdı; səfirlərin əmlakına həbs qoyula bilməzdi və onların hakimiyyət tərəfindən tutulmasına da yol verilmirdi.

[1] *Bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.119.

Səfirlərin üzərinə bir sıra vəzifə qoyulmuşdu – danışıqlar aparmaq, akkreditə olunduğu ölkədə baş verən hadisələri öyrənmək və həmin hadisələr barədə öz hökumətinə məlumat vermək səfirlərin daşıdığı vacib vəzifələr hesab edilirdi. XIII əsrdə Venesiyada səfirlər üçün ilk **rəsmi təlimat** işlənib hazırlandı.[1]

Orta əsrlər dövründə diplomatiya hüququnun tərkib elementlərindən biri olan **konsul hüququ** da inkişaf edirdi. Bunun nəticəsində **konsul institutu** yarandı; bu da X əsrə təsadüf edir. Konsullar əvvəlcə xarici tacirlər və dəniz ticarətçiləri sırasından seçilirdi; onların əsas vəzifəsi tacirlərin və dəniz ticarətçilərinin maraqlarını yerli hakimiyyət qarşısında müdafiə etməkdən ibarət idi. XIII əsrdən etibarən İtaliya şəhər-respublikaların praktikasında konsulların fəaliyyət göstərmələri ilə bağlı olaraq, onlar həm də məhkəmə funksiyasını həyata keçirməyə başladılar. Belə ki, onlar xarici dövlət ərazisində şəxslər arasında yaranan mübahisələrə baxıb həll edirdilər. Konsullar da müəyyən hüquqlara və immunitet imkanına malik idilər. Sonralar konsul institutunun Avropada inkişaf etməsi buna səbəb oldu ki, konsulluq dövlət orqanı kimi yarandı. Belə ki, könüllülük əsasında fəaliyyət göstərən fakultativ orqan akkreditə olunmuş dövlətin rəsmi orqanına çevrildi; bağlanan sazişlər gələcək konsul konvensiyalarının proobrazı hesab edilirdi.

Əcnəbilərin statusu orta əsrlərin beynəlxalq hüququ ilə müəyyənləşdirilən əsas məsələlərdən biri sayılırdı. O dövrün beynəlxalq hüququ, qeyd etməliyik ki, əcnəbilərin hüquqi rejimini daha aydın şəkildə müəyyənləşdirirdi. Təsadüfi deyil ki, o zamanlar bağlanan beynəlxalq müqavilələrdə əcnəbilərin hüquqi vəziyyətinə aid normalar nəzərdə tutulmağa başladı və bu məsələ beynəlxalq müqavilələrin predmetinə çevrildi; həmin müqavilələr əcnəbilərin himayə olunmasının hüquqi bazası sayılırdı.

[1] URL:http: // www.bibliotekar.ru/mezhdunarodnoe-pravo-2/9.htm (09.05.2018-ci il).

Lakin orta əsrlər dövründə əcnəbilərin statusu çox ağır idi və onlar feodaldan tam asılı vəziyyətdə idilər; əcnəbilərin nə şəxsi təhlükəsizliyi, nə də onların əmlakının toxunulmazlığı təmin edilirdi. Bundan ötrü hər hansı təminat vasitəsi mövcud deyildi. Vəfat etmiş əcnəbinin əmlakı onun vərəsələrinə deyil, torpağında həmin əcnəbinin yaşadığı feodala keçirdi. Amma sonralar bağlanan beynəlxalq müqavilələr bu qaydanı dəyişdirdi. Belə ki, həmin müqavilələrdə tərəflərin üzərinə ölmüş əcnəbinin əmlakının feodala deyil, onun vərəsələrinə keçməsini təmin etmək öhdəliyi qoyulurdu.

O dövrdə **sahil hüququ** kimi rejim tətbiq edilirdi. Həmin rejimə görə, gəmi qəzaya uğrayaraq batan zaman sahilə atılmış əmlak feodalın mülkiyyətinə keçirdi; zaman keçdikcə həmin rejim dəyişdirildi.[1]

İcazə olmadan ölkəyə gələn əcnəbiyə münasibət olduqca kəskin idi. Belə ki, o, təhkimli şəxs olurdu, yəni feodal torpağına təhkim edilirdi və ölkədən gedən zaman ondan vergi tutulurdu. Əcnəbilərə münasibətdə görünməmiş feodal özbaşınalığına yol verilirdi. Lakin silki monarxiya dövründə belə özbaşınalığın məhdudlaşdırılmasına cəhd edildi.

Orta əsrlərin beynəlxalq publik hüququnun əsas sahəsi (elementi) olan **müharibə hüququna** gəldikdə isə, qeyd etməliyik ki, orta əsrlər dövründə müharibə dövlətlərin xarici siyasətinin həyata keçirilməsinin təbii vasitəsi kimi qalmaqda davam edirdi. Hər şeydən əvvəl, deməliyik ki, müharibə-hüquq normaları, əvvəlki dövrlərdə olduğu kimi, çox ağır idi: məğlub olanın əmlakı qalib gələn tərəfin mülkiyyətinə keçirdi, döyüşən ordu heyəti ilə (hərbçilərlə) dinc əhali arasında fərq qoyulmurdu, hərbçilər tərəfindən ələ keçirilmiş və işğal olunmuş şəhərlər (kənd və yaşayış məntəqələri) soyğunçuluğa məruz qalırdı, əsir düşənlər kölə olurdular, yaralılar taleyin hökmünə buraxılırdı və s. Çox vaxt müharibə məhkəmə prosesi kimi

[1] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.51; Международное право. Учебник /Отв. ред. Г.М.Мелков. М., 2011, с.55 və s.

izah edilirdi və bu prosesdə qalib məğlubun hüquqi statusunu müəyyənləşdirirdi.

Lakin, müharibə qayda-qanunlarının və adətlərin olduqca sərt mövqeyinə baxmayaraq, bu və ya digər qayda hamılıqla qəbul edilmişdi; onlar dövlətlər üçün məcburi xarakter daşıyırdı. Belə ki, dövlətlər müharibəyə aid müəyyən qaydalara məcburi surətdə əməl etməli idilər. Məsələn, müharibə elan etməyin məcburi olması barədə qayda hamılıqla qəbul edilmişdi. Başlanmamışdan əvvəl müharibə rəsmi surətdə elan edilməli idi, həm də müharibə monarxın adından elan olunur və onun da adından aparılırdı. O dövrdə müharibələrin iki növü bir-birindən fərqləndirilməyə başladı: qanuni müharibələr, qanunsuz müharibələr. Elan edilməsi məcburi olan müharibələr qanuni müharibələr hesab edilirdi və onların aparılması, eyni zamanda, əsaslandırılmalı idi.

O dövrlərdə kilsə tərəfindən müharibə qayda və adətlərinin yüngülləşdirilməsinə təşəbbüs göstərilirdi. Belə ki, X–XI əsrlərdə Katolik kilsəsinin yığıncaqlarında müharibə aparmağın vasitə və üsullarının məhdudlaşdırılmasına yönələn qərarlar qəbul edildi. Həmin qərarlara görə, din xadimləri, zəvvarlar, dul qadınlar, tacirlər və 12 yaşa kimi uşaqlar hərbi əməliyyatlarda iştirak edə bilməzdilər. Bundan əlavə, kilsə və din xadimlərinin evləri hərbi əməliyyatlar sferasından çıxarıldı. 1139-cu ildə II Lateran kilsə yığıncağında bəzi silah növlərinin qadağan edilməsi barədə qərar qəbul edilmişdi.[1] Hətta elə bir gün müəyyən edilmişdi ki, həmin gün hərbi əməliyyatların aparılması qadağan olunurdu və ona Allah-Taalanın «**Sülh günü**» deyilirdi.

Orta əsrlərdə dəniz müharibəsinin aparılmasına aid xüsusi normalar yarandı. Belə normaların yaranması o dövrdə dəniz ticarətinin inkişafı ilə bağlı idi.

Orta əsrlər dövrünə «**hərbi əsir» rejimi**, demək olar ki, məlum deyildi. Əsirlərin öldürülməsi qadağan olunmurdu, yaralıla-

[1] URL:http: // www.ruclass.ru /node/926 (10.05.2018-ci il).

rın da həyatdan məhrum edilməsi yasaqlanmırdı. Avropa dövlətlərində əsirlər ya satın alınır, ya da dəyişdirilirdilər. Bu onunla izah edilirdi ki, Avropa dövlətlərində kölələk mövcud deyildi; silahsız və aman diləyən şəxslərin öldürülməsi kilsə yığıncağının qərarı ilə qadağan olunmuşdu. Bu barədə XI əsrdə Vselen Katolik kilsəsinin yığıncağı müvafiq qərar qəbul etmişdi.[1]

Orta əsrlərdə Qərbi Avropada **dəniz hüququnun bəzi institutları** formalaşmağa başladı. Dünya okeanından, sahilyanı sulardan və bitişik dəniz zonalarından istifadə ilə bağlı olaraq, dövlətlər arasında yaranan münasibətləri tənzimləmək o dövrün əsas məsələlərindən biri sayılırdı. Bu məsələ barədə iki yanaşma mövcud idi. Bir sıra güclü dəniz dövləti (İspaniya, Portuqaliya və s.) sahilyanı ərazilər və Dünya okeanının hissələri üzərində öz dəniz suverenliyini həyata keçirmək niyyətində idilər; onlar öz dəniz sahillərinə bitişik olan su ərazilərinə iddia edirdilər.

Hollandiya və Fransa kimi dövlətlər isə məsələyə, yəni dəniz məkanından istifadə məsələsinə başqa cür yanaşırdılar; belə yanaşmanın əsasını **açıq dənizin sərbəstliyi** kimi vacib prinsip təşkil edirdi. Həmin prinsipə görə, açıq dənizlər ticarət gəmiçiliyi və balıqçılıq üçün sərbəst olmalı idi. Göstərilən prinsipin əsasında həm də belə bir fikir dururdu ki, Dünya okeanı ümumi mülkiyyət sayılır və buna görə də, o, bütün dövlətlər üçün sərbəst olmalıdır.

Orta əsrlərdə həm də dəniz hüququnun **ərazi suları** kimi vacib institutu formalaşdı. Bu institutun formalaşmasında belə bir adət-hüquq norması böyük rol oynamışdır ki, sahilyanı dövlətlər ərazi sularına malikdir.

Dəniz ticarətinin və gəmiçiliyin inkişafı orta əsrlərdə nəinki beynəlxalq münasibətlərə, həmçinin beynəlxalq publik hüququn özünə böyük təsir göstərdi. Bunun nəticəsində orta əsrlə-

[1] URL:http: // www.ru.m.wikipedia.org (10.05.2018-ci il).

rin beynəlxalq publik hüququnda Dünya okeanından istifadə etmək barədə dövlətlər arasında yaranan münasibətləri tənzimləyən hüquq normaları yarandı.

Orta əsrlərdə həm də **beynəlxalq mübahisələrin həll olunması institutu** işkişaf etmişdir. Həmin instituta görə, yaranmış beynəlxalq mübahisələr dinc üsullarla həll edilməli idi. O dövrün beynəlxalq publik hüququna mübahisələri həll etməyin aşağıda göstərilən iki əsas dinc üsulu məlum idi: vasitəçilik, arbitraj (münsiflər məhkəməsi). Vasitəçilik dövlətlər arasında yaranmış mübahisəni həll etməyin əsas üsullarından biri sayılırdı. Bu üsula görə, hər hansı şəxs üçüncü tərəf kimi vasitəçilik funksiyasını həyata keçirərək, mübahisə edən dövlətləri barışdırır, onlar arasında yaranan ixtilafı aradan qaldırırdı.

Dövlətlər öz aralarında yaranmış beynəlxalq mübahisəni arbitraj (münsiflər məhkəməsi) vasitəsi ilə də həll edirdilər. Belə ki, münsiflər məhkəməsində arbitr rolunda monarxlar, dünyəvi feodallar, Roma Papası və digər kateqoriyalı şəxslər çıxış edə bilərdilər. Bəzən, arbitrajda mübahisəyə baxılması üçün kollegiya yaradılırdı; kollegiya isə bərabər sayda üzvlərdən (iştirakçılardan) ibarət idi ki, onları mübahisə edən tərəflər müəyyənləşdirirdilər. O dövrlərdə, əsasən, arbitraj müqaviləsi bağlamaq praktikasından istifadə olunurdu. Belə müqavilələr müəyyən edirdi ki, mübahisə edən tərəflərdən hər biri arbitr qismində müəyyən şəxslərin adlarını çəkməlidir.

Orta əsrlər dövrünün axırlarında **suverenlik** anlayışı işlənib hazırlandı; suverenlik dövlətə xas olan əlamət sayılırdı. Dövlət suverenliyi dedikdə isə monarxın monarx suverenliyi başa düşülürdü. Belə ki, suverenliyin yeganə daşıyıcısı monarx hesab edilirdi. Monarx suverenliyi monarxın ölkə daxilində feodal hökmdarlar üzərində ali siyasi və hüquqi hakimiyyətə malik olmasını, eləcə də beynəlxalq münasibətlərdə onun heç kəsdən, o cümlədən Roma kilsəsindən asılı olmamasını və müstəqilliyini ifadə edirdi.

Orta əsrlər dövrünün axırlarında həm də **dövlətlərin hüquq bərabərliyi ideyası** formalaşmağa başladı ki, bu ideya beynəl-

xalq (dövlətlərarası) münasibətlər praktikasında vacib əhəmiyyətə malik idi. Dövlətlərin hüquq bərabərliyi dedikdə monarxların hüquq bərabərliyi başa düşülürdü.

Orta əsrlərin beynəlxalq publik hüququndan danışakrən **Vestfal Sülh Müqaviləsinin (Vestfal Traktatının)**[1] böyük rol oynamasına da toxunmalıyıq. Unutmaq olmaz ki, Avropada otuzillik müharibənin başa çatmasını hüquqi cəhətdən rəsmiləşdirən həmin müqavilə beynəlxalq publik hüququn inkişafına mühüm dərəcədə təsir göstərmişdir. Vestfal Sülh Müqaviləsinin əhəmiyyəti, ilk növbədə, bundan ibarət idi ki, o, əvvəlki dövrə məlum olmayan bir neçə vacib **yeni beynəlxalq-hüquqi prinsip** formulə etmişdi. Söhbət siyasi bərabərlik, dünyəvi hakimiyyətin dini hakimiyyətdən asılı olmaması və dövlətlərin hüquq bərabərliyi kimi prinsiplərdən gedir. Qeyd etməliyik ki, həmin prinsiplər 18-ci və 19-cu yüzilliklərdə üstün mövqe tutmuşdur. Vestfal Sülh Müqaviləsi (1648-ci il) Avropa dövlətlərinin sistemini və onların sərhədlərini müəyyənləşdirdi. Burada, ilk dəfə olaraq, deklorativ tanıma nəzəriyyəsi formulə edildi, təcavüzkara qarşı kollektiv sanksiya tətbiq edilməsi və beynəlxalq mübahisələrin dinc vasitələrlə həll olunması nəzərdə tutuldu, habelə İsveçrə və Hollandiya müstəqil dövlətlər kimi tanındı. Vestfal Sülh Müqaviləsinin Avropa dövlətlərinin öz quruluş və dinindən asılı olmayaraq, bərabərlik hüququna malik olmalarını təsbit etməsi, xüsusilə, əhəmiyyətli idi; sözügedən müqavilənin əhəmiyyəti həm də bundan ibarət idi ki, o, beynəlxalq-hüquqi təminat institutunun inkişafının hüquqi əsası rolunu oynadı.

Orta əsrlər dövrünün axırlarında, yəni XVII əsrdə müstəqil **beynəlxalq hüquq elmi (doktrina)** formalaşdı. Düzdür, həmin vaxta qədər beynəlxalq hüququn ayrı-ayrı məsələlərinə dair söylənilən müxtəlif fikirlərə rast gəlmək olardı; xüsusən də, müharibə hüququna aid nəzəri-elmi fikirlər geniş yayılmışdı ki, bu fikirlər beynəlxalq hüquq üçün əhəmiyyətli idi. Söhbət, ilk

[1] URL:http: // www.wikipedia.org (11.05.2018-ci il).

növbədə, ilahiyyatçı alim Foma Akvinskinin (1225–1274-cü illər)[1] müharibə barədə söylədiyi fikirlərdən gedir. O, müharibəni iki yerə bölürdü: ədalətli müharibə, ədalətsiz müharibə. Foma Akvinskinin baxışları hüquqi konsepsiyaların, o cümlədən beynəlxalq-hüquqi konsepsiyaların sonrakı inkişafına böyük təsir göstərdi.

Beynəlxalq hüquqa aid məsələlər barədə nəinki ilahiyyatçı alimlər, həmçinin filosof, hüquqşünas və siyasətşünaslar (dövlətşünaslar) da elmi-nəzəri fikirlər söyləyirdilər. Məsələn, orta əsrlər dövrünün italiyalı hüquqşünasları olan B.Baldo (1327–1400-cü illər)[2] və S.Bartolo (1314–1357-ci illər)[3] monarxların bağladıqları beynəlxalq müqavilələri öz əsərlərində beynəlxalq hüquq kontekstində təhlil edərək, elmi-nəzəri ideyalar formulə edirdilər. XVI əsrdə Fransa siyasətşünası Jan Boden tərəfindən irəli sürülən dövlət suverenliyi nəzəriyyəsinin əhəmiyyəti, xüsusilə, böyük idi. Belə ki, həmin nəzəriyyənin dövlətə, beynəlxalq (dövlətlərarası) münasitbətlərə və beynəlxalq hüquqa dair baxışların inkişafında prinsipial əhəmiyyəti var idi. Dövlət suverenliyi nəzəriyyəsi isə J.Bodenin «Respublika barədə altı kitab» adlı əsərində (1576-cı il) əsaslandırılmışdı.[4]

Lakin, bu kimi işlərin mövcud olmasına baxmayaraq, müstəqil beynəlxalq hüquq elmi (doktrina) yalnız XVII əsrdə yarana bildi. Görkəmli və tanınmış Hollandiya hüquqşünası **Hüqo Qrotsi** (1583–1645-ci illər) onun əsasını qoyan şəxs hesab edilirdi. Başqa sözlə, H.Qrotsi müstəqil elm kimi beynəlxalq hüququn təməlini qoyan şəxs idi. Təsadüfi deyil ki, o, obrazlı şəkildə desək, **«beynəlxalq hüququn atası»** sayılır. 1625-ci ildə H.Qrotsinin müəllifliyi ilə «Müharibə və sülh hüququ haqqında üç kitab» («de Jure Belli ac Pacis Libri Tres»)[5] adlı əsər nəşr

[1] URL:http: // www.wikipedia.org (11.05.2018-ci il).
[2] URL:http: // www.dic.academic.ru (11.05.2018-ci il).
[3] URL:http: // www.wikipedia.org (11.05.2018-ci il).
[4] URL:http: // www.wikipedia.org (12.05.2018-ci il).
[5] URL:http: // www.dic.academic.ru (12.05.2018-ci il); Международное право. Учебник /Отв.ред. Г.М.Мелков. М., 2011, с. 56.

edildi ki, bu da beynəlxalq hüquqa dair ilk hərtərəfli və əhatəli nəzəri iş idi. Bu iş, demək olar ki, beynəlxalq hüququn bütün əsas məsələlərini əhatə edir və işıqlandırırdı. Məhz həmin əsər sayəsində H.Qrotsi, haqlı və düzgün olaraq, müstəqil beynəlxalq hüquq elminin əsasını və təməlini qoyan şəxs kimi tanınmağa başladı. Adıçəkilən əsər, sözün həqiqi mənasında, uzun müddət, bir neçə nəsil hüquqşünaslar, siyasətşünaslar və diplomatlar üçün beynəlxalq hüquq dərsliyi oldu. Hələ həmin əsər işıq üzü görənə kimi, 1609-cu ildə görkəmli alimin «Sərbəst dəniz» («Mare liberum»)[1] adlı kitabı nəşr olunmuşdu və bu əsərdə **açıq dənizlərin sərbəst olması barədə tezis** əsaslandırılırdı. Başqa sözlə, həmin əsərdə nəzəri-hüquqi cəhətdən belə bir vacib prinsip əsaslandırılırdı ki, açıq dənizlərdə bütün gəmilər məhdudlaşdırılmaya yol verilmədən sərbəst şəkildə hərəkət etməlidir. Məqsəd Hollandiyanın dəniz gəmilərinin açıq dənizlər vasitəsi ilə sərbəst şəkildə Şərqi Hindistana doğru üzməsini təmin etməkdən ibarət idi ki, məlum olduğu kimi, İspaniya o vaxtları buna mane olurdu.

3.2.3. Klassik beynəlxalq publik hüquq

Klassik beynəlxalq publik hüquq və ya yeni dövrün beynəlxalq publik hüququ dedikdə Vestfal Sülh Müqaviləsi bağlandıqdan (1648-ci il) və İngiltərə Burjua İnqilabı baş verdikdən sonra I Dünya Müharibəsi qurtarana (1919-cu il) kimi mövcud olan dövrdə dövlətlərarası münasibətləri tənzimləyən beynəlxalq hüquq başa düşülür. Yeni dövrün beynəlxalq publik hüququ dövlətlərarası münasibətlər tarixində irəliyə doğru atılmış bir addım oldu. Qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq tarixinin bu inkişaf mərhələsinin ayrılmasına iki tarixi hadisə mühüm təsir göstərmişdir ki, həmin tarixi hadisələrdən

[1] URL:http: //www.en.m.wikipedia.org (12.05.2018-ci il).

biri Vestfal Sülh Müqaviləsinin bağlanması, digəri isə İngiltərə Burjua İnqilabının baş verməsi idi.

Avropada otuzillik qanlı müharibəyə son qoyan Vestfal Sülh Müqaviləsi problemlərin dini deyil, dünyəvi əsaslarla həll edilməsinin başlanğıcını qoydu. Onun sayəsində Avropa dövlətlərinin sabit və dəyişməz sistemi yaradıldı.[1] Həmin müqaviləyə görə, Avropada ərazi dəyişikliyi yalnız təbii sərhədlər prinsipi əsasında həyata keçirilə bilərdi; burada, həm də katolik və protestant dini etiqadlarının bərabər olması barədə norma nəzərdə tutulmuşdu.

Əvvəllərdə qeyd etdiyimiz kimi, Vestfal Sülh Müqaviləsi Avropada otuzillik müharibənin (1618–1648-ci illər) başa çatmasını və qurtarmasını hüquqi cəhətdən rəsmiləşdirən regional beynəlxalq-hüquqi akt idi. Olduqca amansız və qanlı olan həmin müharibənin başlanmasının əsas səbəbi dini mülahizələrlə bağlı idi. Belə ki, XVI əsrdə Avropada **protestant hərəkatı** geniş xarakter aldı və dini xarakter daşıyan bu hərəkat Avropa dövlətlərini iki yerə parçaladı. Roma Katolik kilsəsinin rəsmi doktrinasının «çatışmazlıqlarını» aradan qaldırmaq, kilsə təşkilatlarının yenidən qurulmasını təmin etmək, kilsə və dövlət arasında mövcud olan qarşılıqlı münasibətləri dəyişmək protestant hərəkatının əsas məqsədləri sayılırdı. Bu da, öz növbəsində, Avropada bir sıra dini müharibənin baş verməsinə səbəb oldu. Barəsində danışdığımız otuzillik müharibə, əsasən, mahiyyət etibarilə, dini xarakter daşıyırdı. Bu müharibədə bir tərəfdə İspaniya, Avstriya və Almaniya katolik knyazları (bu tərəfi Roma Papası dəstəkləyirdi), digər tərəfdə Fransa, İsveç, Danimarka və Almaniya protestant knyazları (bu tərəfi isə Hollandiya və İngiltərə dəstəkləyirdi) iştirak edirdilər. Müharibə edən tərəflər öz aralarında 24 oktyabr 1648-ci ildə Vestfal Sülh Müqaviləsi imzaladılar ki, bu müqavilə bir-biri ilə

[1] *Yeni dövrün tarixi barədə ətraflı bax: məsələn,* Новая история. Первый период. Учебное пособие /Под ред. Е.Е.Юровской и др. М., 1983, 399 с.; Второй период. М., 1984, 359 с. və b.

bağlı və əlaqəli olan iki müqavilədən ibarət idi: Osnabryuk Müqaviləsi, Münster Müqaviləsi.[1]

İngiltərə Burjua İnqilabına (1642–1649-cu illər) gəldikdə isə, qeyd etməliyik ki, vətəndaş müharibəsi ilə müşayiət olunan həmin inqilab Qərbi Avropada və Şimali Amerikada digər burjua inqilablarının baş verməsinə səbəb oldu. Bunun nəticəsində cəmiyyətdə keyfiyyətcə yeni sosial əlaqələr, yəni burjua ictimai münasibətləri yarandı. Kapitalist istehsal üsulu ilə şərtlənən həmin münasibətlər də, öz növbəsində, beynəlxalq hüququn keyfiyyətcə yenidən qurulmasına, yəni yeni dövrün beynəlxalq hüququnun formalaşmasına təkan verdi; ona **klassik beynəlxalq publik hüquq** deyilir.[2]

Yeni dövrün beynəlxalq publik hüququ bir sıra **əlamətlə** xarakterizə olunur.[3] **Birinci**, yeni dövrün beynəlxalq publik hüququ üçün belə bir əlamət xarakterik idi ki, o, əsasən, **müqavilə hüququ kimi tanınırdı**. Belə ki, beynəlxalq müqavilə beynəlxalq publik hüququn başlıca mənbəyi hesab edilirdi. Ona görə ki, yeni dövrdə beynəlxalq-hüquqi adətlər böyük rol oynasa da, beynəlxalq (dövlətlərarası) münasibətlərin çoxsaylı məsələləri beynəlxalq müqavilələr vasitəsi ilə tənzimlənirdi. Beynəlxalq müqavilələr müxtəlif məsələlər barədə bağlanırdı. Hansı məsələ barədə bağlanmasından asılı olaraq, yəni məzmununa görə beynəlxalq müqavilələr ayrı-ayrı növlərə bölünürdü: məsələn, ticarət barədə beynəlxalq müqavilələr, dəniz gəmiçiliyi sahəsində beynəlxalq müqavilələr, əcnəbilərin hüquqi vəziyyətinə dair beynəlxalq müqavilələr və s. Beynəlxalq müqavilələrin predmetini həm də vacib dəniz kanallarının və boğazlarının hüquqi rejiminin müəyyənləşdirilməsi məsələsi təşkil edirdi. Məsələn, 1850-ci ildə ABŞ və Böyük Britaniya arasında

[1] *Bu barədə bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с 27.
[2] Шумилов В.М.Международное право. Учебник. М., 2008, с.22.
[3] *Həmin əlamətlər barədə bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.57.

Kleyton-Bulver Müqaviləsi[1] imzalanmışdı ki, bu sənəd Panama kanalının hüquqi rejimini müəyyənləşdirirdi; 1888-ci ildə imzalanan Konstantinopol Konvensiyası Süveyş kanalının rejiminə həsr olunmuşdu;[2] 1881-ci ildə Argentina və Çili arasında bağlanmış beynəlxalq müqavilənin[3] predmetini Magellan boğazından sərbəst hərəkət etmək barədə məsələ təşkil edirdi. Belə müqavilələr hüquq ədəbiyyatında vacib dəniz kanal və boğazlarının hüquqi rejimini müəyyənləşdirməyə imkan verən xüsusi müqavilələr kimi xarakterizə olunur.[4]

Yeni dövr adlanan tarixi mərhələdə bağlanan beynəlxalq müqavilələrin sayı **kifayət qədər** çox idi. Bu onunla izah olunurdu ki, həmin dövrdə kapitalist dünya bazarı yaranmış, ticarət münasibətləri geniş səviyyədə inkişaf etmiş, qlobal dünya təsərrüfat əlaqələri formalaşmışdı.

Beynəlxalq müqavilələr həm **ikitərəfli**, həm də **çoxtərəfli** səviyyədə bağlanırdı. İkitərəfli müqavilələrin mətni onları bağlayan dövlətlərin dilində tərtib olunurdu. Çoxtərəfli beynəlxalq müqavilələrə gəldikdə isə, qeyd etməliyik ki, onlar əvvəlcə fransız, sonralar isə ingilis dilində bağlanılırdı.[5]

Beynəlxalq müqavilələr müəyyən **quruluşda** tərtib edilirdi. Belə ki, o dövrdə bağlanan beynəlxalq müqavilələr struktur baxımından, üç hissədən ibarət idi: giriş hissəsi (preambula), əsas hissə, nəticə (yekun) hissəsi.

Beynəlxalq müqavilələr müəyyən **müddətə** bağlanırdı; müddət isə müxtəlif ola bilərdi. Beynəlxalq müqavilələrin müddəti dedikdə onların qüvvədəolma vaxtı başa düşülürdü. Adətən, müddət başa çatdıqda beynəlxalq müqavilələr qüvvədən düşürdü və onlara xitam verilirdi. Bununla bərabər, beynəlxalq mü-

[1] URL:http: // www.wikipedia.org (25.04.2018-ci il).
[2] URL:http: // www.yachtrus.com (25.04.2018-ci il).
[3] URL:http: // www.wikipedia.org /wiki/ (25.04.2018-ci il).
[4] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.53-54.
[5] Международное право. Учебник / Отв. ред. Г. С. Стародубцев. М., 2015, с. 48

qavilələrin qüvvədəolma müddətinin uzadılmasına yol verilirdi və buna da **prolonqasiya** deyilirdi.

Yeni dövrün beynəlxalq publik hüququ **demokratik xarakter** daşıyırdı ki, bu da, onu xarakterizə edən **ikinci əlamət** sayılır. Beynəlxalq publik hüququn demokratikləşməsi dedikdə onun demokratik prinsiplərə əsaslanması başa düşülür. Belə ki, yeni dövrün beynəlxalq publik hüququna dövlətlərin daxili işlərinə qarışmamaq, ticarət gəmiçiliyinin sərbəst həyata keçirilməsi, dövlət ərazilərinin toxunulmazlığı, dövlətlərin suveren bərabərliyi və xalq suverenliyi kimi müvafiq demokratik prinsiplər məlum idi. Belə prinsipləri nə quldarlıq dövrünün, nə də orta əsrlərin beynəlxalq publik hüququ tanıyırdı. Həmin prinsiplərin hüquqi cəhətdən təsbit olunmasına gəldikdə isə, qeyd etməliyik ki, o dövrdə qəbul edilən bir sıra vacib sənəd sadaladığımız demokratik prinsipləri formulə edirdi. Söhbət aşağıdakı sənədlərdən gedir: ABŞ-ın müstəqilliyi haqqında Bəyannamə (1776-cı il), ABŞ-ın Konstitusiyası (1787-ci il), 1789-cu il Fransa inqilabının aktları, yəni insan və vətəndaş hüquqları haqqında müvafiq Bəyannamə (1789-cu il), Beynəlxalq hüquq Bəyannaməsi (1795-ci il), Fransanın konstitusiyaları (1791-ci il və 1793-cü illər). Göstərilən sənədlər arasında Beynəlxalq hüquq Bəyannaməsi, xüsusilə, böyük əhəmiyyətə malik idi və həmin sənəd təsdiqlənmək üçün abbat[1] Qrequar tərəfindən Fransa Konventinə təqdim olunmuşdu. Düzdür, abbat Qrequarın hazırladığı bəyannamə Konvent tərəfindən təsdiqlənmədi; lakin, buna baxmayaraq, o, beynəlxalq publik hüququn ümumi prinsiplərinin formalaşması prosesinə böyük təsir göstərdi.[2]

Göstərilən sənədlər sayəsində beynəlxalq publik hüquqda əhali və ərazi məsələləri **yeni kontekstdə** həll olunmağa başladı; onlar həm də beynəlxalq hüququn subyekti kimi dövlətin hüquqi vəziyyətinə, eləcə də beynəlxalq müqavilə hüququna

[1] Abbat – Katolik kilsəsinin fəxri tituluna malik olan şəxsdir (URL:http: // www.wikipedia.org) – 25.04.2018-ci il.

[2] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.57.

böyük təsir göstərdi. Həmin sənədlər, mahiyyətcə, beynəlxalq publik hüququn demokratikləşməsinə yönəlmişdi. Monarxın suverenliyi prinsipi əvəzinə xalq suverenliyi prinsipi formulə edildi. Məsələn, Beynəlxalq hüquq Bəyannaməsinin 6-cı maddəsində deyilirdi ki, bir-birinə münasibətdə xalqlar müstəqil və suverendirlər. Fransanın 1791 və 1793-cü il konstitusiyaları siyasi emiqrantları və azadlıq uğrunda mübarizə aparan şəxsləri sığınacaq hüququ ilə təmin etmişdi. Fransa Burjua İnqilabının (1789-cu il) rolunu, xüsusi olaraq, qeyd etmək lazımdır. Məlum olduğu kimi, bu inqilab ümumi sülh, ədalət, işğalçılıq müharibələrinə son qoyulması, hakimiyyətin seçki yolu ilə formalaşması, dövlətlərin hüquq bərabərliyi, konstitusiya quruluşu və digər mütərəqqi ideyaların əsasını qoydu.

Müstəmləkəçilik klassik beynəlxalq publik hüquq üçün xarakterik olan **üçüncü əlamət** sayılır. Qeyd etməliyik ki, nəzərdən keçirilən dövr həm də genişmiqyaslı müstəmləkə işğalları ilə əlamətdar idi. Böyük coğrafi kəşflər nəinki dünya əmtəə bazarının yaranmasına, həmçinin Şimali və Cənubi Amerikanın, Afrikanın, Asiyanın müstəmləkə altına salınmalarına səbəb oldu. Dünya təsərrüfat əlaqələri həm də başqa ərazi və xalqların müstəmləkə altına salınması yolu ilə genişlənirdi. Bildiyimiz kimi, o zamanlar ərazi **sessiya** əsasında əldə olunurdu; sessiya isə dəyişmə, alqı-satqı, bağışlama və digər formalarda həyata keçirilə bilərdi. Yeni torpaqların müstəmləkə altına salınması isə **«ilkin ələ keçirmə»** kimi institutun yaranmasına səbəb oldu. Həmin instituta görə, heç kəsə məxsus olmayan bu və ya digər ərazini birinci olaraq ələ keçirən həmin ərazinin qanuni sahibi sayılırdı.

Dünyanın müxtəlif yerlərində müstəmləkə rejimləri mövcud idi. Çin, Türkiyə, İran, Misir, Tunis və digər ölkələrdə yarımmüstəmləkə rejimləri müəyyən edilmişdi[1].

Dördüncü, yeni dövrün beynəlxalq publik hüququ, yəni klassik beynəlxalq publik hüquq belə bir əlamətlə də xarakteri-

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.57.

zə olunurdu ki, o vaxtlar **müharibə dövlətlərarası ixtilafları həll etməyin qanuni vasitəsi sayılırdı.** Əvvəlki dövrlərdə olduğu kimi, XVII–XVIII əsrlərdə də müharibə beynəlxalq məsələləri həll etməyin zəruri üsulu hesab edilirdi; hətta dövlətlərin müharibə etmək hüququna onların beynəlxalq publik hüquq subyektliyinin vacib elementi kimi baxılırdı. Əgər beynəlxalq ixtilaf, mübahisə və digər məsələləri dinc vasitələrlə həll etmək mümkün olmasaydı, onda dövlətlər müharibə etmək vasitəsindən istifadə edə bilərdi. O dövrün beynəlxalq sazişləri nəzərdə tuturdu ki, dövlətlər müharibəyə başlamazdan əvvəl mübahisə və ixtilafları həll etməyin dinc vasitələrini tətbiq etməlidir; onların üzərinə belə bir vəzifə qoyulurdu ki, öz aralarında yaranmış qarşılıqlı mübahisələri həll etmək üçün imkan dairəsində, mümkün dərəcədə dinc vasitələrdən istifadə olunsun. Əgər dinc vasitələrdən istifadə etmək nəticə verməzdisə, onda dövlətlər müharibə edə bilərdilər.[1]

O dövrdə müharibəni yasaq edən hər hansı normativ-hüquqi sənəd mövcud deyildi. Belə ki, müharibə etmək hüquqi cəhətdən qadağan olunmamışdı. Lakin, buna baxmayaraq, müharibə dövlətlər tərəfindən arzuolunmaz tədbir hesab edilirdi; yalnız müdafiə olunmaq məqsədi güdən müharibə ədalətli müharibə sayılırdı. Hesab edilirdi ki, müharibə dinc əhali arasında deyil, dövlətlər arasında aparılır. Bu səbəbdən hərbçilər (döyüşçülər) və dinc əhali bir-birindən fərqləndirilirdi.

Nəzərdən keçirilən dövrdə müharibə adət və qayda-qanunları **humanist xarakter** aldı. Belə ki, müharibə qanunlarının humanistləşməsinə yönələn bir sıra beynəlxalq sənəd qəbul edildi. Söhbət, ilk növbədə, xəstələr və yaralılar barədə müvafiq Cenevrə Konvensiyasından gedir ki, həmin sənəd 1864-cü ildə qəbul edilmişdi. Sözügedən konvensiyaya görə, hərbi zorakılıq dinc əhaliyə tətbiq oluna bilməzdi, hərbi əməliyyatlar yalnız döyüşçülərə (hərbçilərə) qarşı həyata keçirilirdi və s.

---

[1] *Bu barədə bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.80.

Yaralı və xəstə döyüşçülər haqqında Cenevrə Konvensiyası (1864-cü il), Partlayıcı və yandırıcı güllələrdən istifadənin ləğv edilməsi haqqında Peterburq Bəyannaməsi (1868-ci il), habelə müharibə qanun və adətlərinə həsr olunmuş müvafiq Haaqa konvensiyaları da (1899 və 1907-ci illər) hərbi əməliyyatların aparılmasının humanistləşdirilməsinə yönəlmişdi. Həmin sənədlərdə göstərilirdi ki, hərbi əməliyyatlar yalnız döyüşçülərə (hərbçilərə) qarşı aparıla bilər; müharibə aparanlar qarşı tərəfin xəstə və yaralılarına qayğı göstərmək vəzifəsi daşıyırdılar. Ordunun tərkibində döyüşçülər və döyüşməyən şəxslər bir-birindən fərqləndirilməyə başladı. Hərbi əməliyyatlarda iştirak etməyən şəxslər dinc əhali sayılırdı. Praktikada belə bir qaydadan istifadə olunmağa başlandı ki, müharibə elan etmək və sülh bağlamaq qanunvericilik hakimiyyətinin ali orqanının müstəsna səlahiyyətinə aiddir. XVIII əsrin ikinci yarısında bir sıra beynəlxalq saziş qəbul edildi ki, bu sazişlərə görə, dinc əhalinin (uşaq, qadın və digər şəxslərin) toxunulmazlığı təmin edildi, əsir götürülmüş xəstə və yaralılara yardım göstərildi, hərbi hospitallar toxunulmaz hesab olundu.

Müharibə vaxtı **dinc əhalinin** mülkiyyətinin müdafiə olunmasının və qorunmasının hüquqi tənzimlənməsinə də xüsusi diqqət verilirdi. Bu məsələni tənzimləmək üçün 1713-cü ildə Utrext Sülh Traktatı (müqavilələri)[1] qəbul edilmişdi. Həmin sənədə görə, işğal-anneksiyaya, yəni işğal olunmuş ərazinin ələ keçirilməsinə (tutulmasına) və ilhaq olunmasına, habelə həmin əraziyə işğalçı dövlətin suverenliyinin şamil edilməsinə yol verilmirdi, hərbi işğal müvəqqəti xarakter daşıyırdı, yəni qarşı tərəfin (dövlətin) ərazisinin müvəqqəti tutulması demək idi. Bunun nəticəsində nə əhalinin əmlakı müsadirə oluna, nə də yerli idarəetmə dəyişdirilə bilərdi.

Dəniz müharibəsinə dair qaydaların müəyyənləşdirilməsi də diqqətdən kənarda qalmırdı. 1856-cı ildə Paris Konqresində

[1] *Toxunulmuş məsələlər barədə ətraflı bax:* İbayev V.Ə. Beynəlxalq humanitar hüquq. Dərslik. Bakı, 2001, 496 s.

dəniz müharibəsinə aid müvafiq normalar işlənib hazırlandı.[1] Həmin sənəd dəniz müharibəsi qanun və adətlərinin inkişafında vacib rol oynadı, beynəlxalq dəniz hüququnun aşağıda göstərilən prinsipləri formulə edildi: bitərəf gəmilərin (hərbi və mülki gəmilərin) müharibə aparan dövlətlərin sahillərində sərbəst üzməsi, bitərəf sularda düşmən dövlətin təbəələrinə məxsus əmlakın ələ keçirilməsinin qadağan olunması, hərbi qaçaqmalçılığın obyekti olan predmetlərin müəyyənləşdirilməsi, yalnız effektiv blokadaya yol verilməsi (belə blokadanın şərtləri bəyannamə ilə müəyyən edilirdi).[2]

Beynəlxalq müqavilələrin **təmin olunmasının müxtəlif üsullarından** istifadə edilirdi. Belə ki, o dövrdə beynəlxalq müqavilənin icrası beynəlxalq qarantiya və zaminlik kimi üsulların köməyi ilə təmin olunurdu. Bu üsullar əvvəlki dövrlərdə istifadə olunan andiçmə, girovqoyma və Roma Papasının zamin durması kimi vasitələrdən fərqlənirdi.

Nəzərdən keçirilən dövrdə **qeyd-şərt institutu** yarandı. Bu instituta görə, çoxtərəfli beynəlxalq müqavilələr bağlanan zaman müvafiq tərəf öz qeyd-şərtini edə bilərdi. Qeyd-şərtin həmçinin beynəlxalq müqavilənin ratifikasiyası zamanı edilməsi də mümkün idi; həm də qeyd-şərt birtərəfli xarakter daşıyırdı.

Qeyd etməliyik ki, XVIII əsrdə bitərəf dövlətlərin hüquqi statusu müəyənləşdirildi. **Bitərəflik** dedikdə bitərəf dövlətin müharibədə iştirak etməməsi və onun müharibə aparan dövlətlərdən hər hansı birinə yardım göstərməkdən imtina etməsi başa düşülürdü.

Sözügedən dövrdə tədricən əcnəbilərin hüquqi vəziyyəti mühüm dərəcədə yaxşılaşdırıldı. Hər şeydən əvvəl, qeyd edək ki, əcnəbilərə münasibətdə bir sıra ölkədə **milli rejim prinsipi**

---

[1] *Bu barədə bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.47.

[2] *Ətraflı bax:* Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004, с. 19.

tətbiq olunmağa başladı. Bu prinsipə əsasən, əcnəbilər mülki hüquqlardan dövlətin vətəndaşları kimi bərabər surətdə istifadə edirdilər.

XVIII əsrdə hələ əvvəllər (XV əsrdə) formulə olunmuş **ən əlverişli şərait yaratmaq prinsipi** müqavilə praktikasında geniş səviyyədə istifadə olunmağa başladı. Bu prinsipə görə, beynəlxalq müqavilə bağlayan dövlətin təbəələrinə üçüncü dövlətin təbəələrinin istifadə etdiyi hüquq və güzəştlər təqdim olunurdu.

Nəzərdən keçirilən dövrdə təbəəlik anlayışının əvəzinə **vətəndaşlıq institutu** yarandı. Bu instituta görə, vətəndaş anlayışı formalaşdı; həmin anlayış isə fərdlərin dövlət qarşısında nəinki vəzifələr daşımalarını, həmçinin onların dövlətə münasibətdə hüquqlara malik olmalarını nəzərdə tuturdu. Bundan fərqli olaraq, əvvəllər təbəələr, əsasən, vəzifələr daşıyırdılar; onlar dövlətə münasibətdə hüquqlara, demək olar ki, malik deyildi.

Klassik beynəlxalq publik hüquq dövründə **arbitraj** dövlətlər arasında yaranan beynəlxalq mübahisələri həll etməyin əsas vasitələrindən biri sayılmaqda davam edirdi. Həmin dövrdə praktikada arbitraj haqqında müqavilədən geniş səviyyədə istifadə olunurdu; bu müqavilə dövlətlər arasında bağlanırdı və onun predmetini həm ümumi, həm də ayrı-ayrı beynəlxalq mübahisələrə baxmaq məsələsi təşkil edə bilərdi. Barəsində danışdığımız dövrdə bir sıra beynəlxalq arbitraj prosesi təşkil olundu və həyata keçirildi.

Beynəlxalq konqress və konfransların beynəlxalq publik hüququn inkişaf tarixində oynadığı rol barədə, xüsusilə, danışmaq lazımdır. Söhbət XIX əsrdə keçirilən və bir sıra beynəlxalq məsələnin həllinə yönələn beynəlxalq konqreslərdən (konfranslardan) gedir. Onlar arasında Vyana Konqresi[1] beynəlxalq publik hüququn inkişaf tarixində vacib rol oynamışdır; 1814–1815-ci illərdə keçirilən bu konqres «Napoleon Fransası»nın müharibədə darmadağın edilməsi ilə bağlı olaraq çağrıl-

[1] URL:http: // www.wikipedia.org (25.04.2018-ci il).

mışdı. Vyana Konqresi böyük Avropa dövlətlərinin antinapoleon əməkaşlığının nəticələrini rəsmiləşdirirdi. O dövrün beynəlxalq publik hüququna mühüm dərəcədə təsir göstərən sözügedən konqresin əsas qərarları aşağıdakılardan ibarət idi:

- müharibə başa çatdığı anda Aropada mövcud olan dövlət sərhədlərinin tanınması;
- İsveçrənin statusunun «daimi bitərəf dövlət» kimi müəyyən edilməsi (bununla «daimi bitərəflik» - «neytralitet» kimi beynəlxalq hüquq institutunun başlanğıcı qoyuldu);
- beynəlxalq çayların hüquqi statusunun müəyyən edilməsi, yəni Reyn, Maas, Şelda və Mozel çayları üçün sərbəst ticarət gəmiçiliyinin həyata keçirilməsi prinsipinin müəyyən edilməsi;
- zənci ticarətinin, yəni zəncilərin alınıb-satılmasının qadağan edilməsi.[1]

Vyana Konqresində bir neçə akt qəbul edildi ki, onlar da beynəlxalq publik hüququn inkişafında vacib rol oynadılar. Həmin aktlar bunlardan ibarət idi:

- Müqəddəs İttifaq barədə Akt (Parisdə 1815-ci ildə Rusiya, Avstriya və Prussiyanın imzaladığı həmin akt müharibədən sonra Avropa sərhədlərini saxlamaq, inqilabi təbədüllatlardan daxili sabitliyi və hüquq qaydasını təmin etmək məqsədi güdürdü);
- İsveçrənin daimi bitərəf olması haqqında Saziş (bu sənəd 1815-ci ilin noyabrında Avstriya, Rusiya, Böyük Britaniya, Fransa, Portuqaliya və Prussiyanın nümayəndələri tərəfindən imzalanmışdı);
- Zəncilərlə ticarət etməyin ləğv olunması haqqında Bəyannamə (8 fevral 1815-ci ildə qəbul olunan bu Bəyannamə qanunlara və əxlaqa zidd olması, insanlıq üçün təhqir-

[1] Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004, с. 18-19.

edici hal sayılması səbəbindən zənci alverini qadağan edirdi);

- beynəlxalq çayların rejiminin müəyyən edilməsi barədə sənəd (bu sənədə görə, Reyn, Maas, Mozel və Şelda çaylarında ticarət gəmiləri sərbəst hərəkət edə bilərdi);
- Vyana Reqlamenti (bu sənəd müxtəlif diplomatik nümayəndələrin ranqlarında eynilik yaratdı).

Beynəlxaq publik hüququn inkişafında həm də Paris və Berlin konqresləri vacib rol oynadı. **Paris Konqresinin** (1856-cı il) əsas qərarları bunlardan ibarət idi:

- müharibə edən dövlətin gəmilərinin açıq dənizdə zorla ələ keçirilməsinin, tutulmasının və talan edilməsinin qadağan olunması;
- qarşı tərəf (dövlət) üçün yük daşıyan bitərəf dövlətin gəmilərinin açıq dənizdə zorla ələ keçirilməsinin, tutulmasının və talan edilməsinin qadağan olunması;
- Dunay çayına Vyana Konqresi ilə müəyyən edilən qaydanın tətbiq olunması (üzməyə görə ödənişin həyata keçirilməməsi və gəmi ilə daşınan mallara görə rüsum alınmaması);
- Qara dənizin bitərəf elan edilməsi və s.

Berlin Konqresi (1878-ci il) Serbiyanın, Çernoqoriyanın və Bolqarıstanın müstəqilliyini tanıdı və bu konqresdə siyasi və mülki hüquqlardan istifadə məsələsində ayrı-seçkiliyə yol verilməməsi prinsipi formulə edildi.

Beynəlxalq publik hüququn inkişafında **Haaqa konfranslarının** (1899-cu il və 1907-ci illər) oynadığı vacib rol barədə, xüsusilə, danışmaq lazımdır. 1899-cu il Konfransında silahlanma məsələsi müzakirə edildi; 1907-ci il Konfransında isə qəbul edilən sənədlər aşağıdakı məsələləri əhatə edirdi:

- beynəlxalq mübahisələrin dinc yolla həlli;
- müqavilədən yaranan borc öhdəliklərinə görə güc tətbiq edilməsinin məhdudlaşdırılması;

– quruda aparılan müharibələrə aid qanun və adətlər;
– quruda və dənizdə aparılan müharibələr zamanı bitərəflik;
– hərbi əməliyyatlara başlamaq qaydaları;
– digər məsələlər[1].

Qeyd etməliyik ki, nəzərdən keçirilən dövrdə formalaşan klassik beynəlxalq publik hüququn subyekt kimi yalnız sivil Avropa dövlətləri (xalqları) tanınırdı. Lakin klassik beynəlxalq publik hüquq orta əsrlərin (feodalizm dövrünün) beynəlxalq publik hüququnun bir sıra institutundan (məsələn, müharibə hüququ və s.) tam azad olunmamışdı.

Nəzərdən keçirilən dövrdə həm də **beynəlxalq publik hüquq elmi (doktrina)** inkişaf edirdi. XIX əsrdə beynəlxalq publik hüquq elmi qəti olaraq formalaşdı.

3.2.4. Klassik beynəlxalq publik hüquqdan müasir beynəlxalq publik hüquqa keçid dövrü

Beynəlxalq hüquq tarixinin üçüncü inkişaf mərhələsi, yəni klassik beynəlxalq publik hüquq dövrü I Dünya Müharibəsinin başa çatması və «Versal-Vaşinqton Sistemi» adlı hüquqi rejimin müəyyən edilməsi ilə sona yetir. Bu hüquqi rejim isə I Dünya Müharibəsində qalib çıxan Antanta ölkələrinin Almaniya və onun müttəfiqləri ilə bağladıqları beynəlxalq müqavilələr əsasında müəyyən edilmişdi. **Versal-Vaşinqton Sisteminə** aşağıdakı sənədlər daxil idi: Versal Sülh Müşqaviləsi (1919-cu il), Sen-Jermen Sülh Müqaviləsi (1919-cu il), Neyi Sülh Müqaviləsi (1919-cu il), Trianon Sülh Müqaviləsi (1919-cu il), Sevr Sülh Müqaviləsi (1920-ci il), 1921–1922-ci il Vaşinqton

[1] *Paris Konqresi (1856-cı il), Berlin Konqresi (1878-cı il) və Haaqa konfransları (1899-cu il və 1907-ci illər) barədə bax: məsələn,* Тимченко Л. Д. Международное право.Учебник. Харьков, 2004, с. 19-20.

konfransında bağlanmış sazişlər.[1] Qeyd etməliyik ki, həm I Dünya Müharibəsi, həm də Versal-Vaşinqton Sistemi beynəlxalq publik hüququn inkişafına və məzmununa vacib təsir göstərdi. Hətta həmin tarixi hadisələr beynəlxalq publik hüququn dördüncü inkişaf mərhələsinin başlanğıcını qoydu ki, ona klassik beynəlxalq publik hüquqdan müasir beynəlxalq publik hüquqa keçid dövrü deyilir. Sözügedən dövrün (mərhələnin) formalaşmasına həm də yeni beynəlxalq təşkilat olan Millətlər Liqasının təsis edilməsi (1919-cu il) əhəmiyyətli təsir göstərdi.[2]

Millətlər Liqası Versal-Vaşinqton Sisteminin vacib halqası oldu; o, həm də adıçəkilən sistemin təminatçısı funksiyasını yerinə yetirirdi. Millətlər Liqasının Statutu onun fəaliyyətinin hüquqi əsasını təşkil edirdi ki, o, Versal Sülh Müqaviləsinin tərkib hissəsinə çevrildi.

I Dünya Müharibəsindən sonra beynəlxalq sülhü təmin etmək beynəlxalq birliyin üzərinə düşən mühüm vəzifələrdən biri kimi hesab edilməyə başladı. Bu vəzifəni yerinə yetirməyin əsas vasitəsi **Millətlər Liqası** oldu. I Dünya Müharibəsindən sonra həm də məlum oldu ki, milli siyasət vasitəsi olan müharibələri məhdudlaşdırmaq lazımdır. İlk siyasi dövlətlərarası beynəlxalq təşkilat olan Millətlər Liqası da məhz müharibələri məhdudlaşdırmaq məqsədilə yaranmışdı; müharibələrin məhdudlaşdırılması isə dövlətlərarası əməkdaşlığın inkişafına, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması niyyətinə xidmət edirdi.

Qeyd etməliyik ki, o dövrdə mübahisələrin həlli vasitəsi kimi müharibədən istifadə edilirdi. Millətlər Liqasının Statutu müharibələrin qarşısını almaq üçün üzv-dövlətlər arasında mübahisələrin həll olunması prosedurlarını nəzərdə tuturdu. Müəyyən edilirdi ki, mübahisə ya arbitrajda (münsiflər məhkəməsində), ya məhkəmədə həll olunana, ya da Millətlər Liqasının

[1] URL:http: // www.wikipedia.org (25.04.2018-ci il).

[2] *Ətraflı bax:* Международное право. Учебник/Отв. ред. Г. М. Мелков. М., 2011, с.60.

Şurasında baxılana kimi üzv-dövlətlər müharibə aparmamalıdır. Bu, onların üzərinə qoyulan vəzifə (öhdəlik) hesab edilirdi və əgər üzv-dövlət həmin vəzifəni (öhdəliyi) pozardısa, qalan üzv-dövlətlər ona qarşı sanksiya tətbiq etməli idilər (xüsusən də, onunla ticarət və maliyyə münasibətləri kəsilirdi). Nəzərdə tutulurdu ki, hər hansı üzv-dövlətin başladığı müharibə bütün digər üzv-dövlətlərin əleyhinə müharibə aktıdır. Düzdür, Millətlər Liqasının Statutu beynəlxalq münasibətlərin ədalət və haqqa əsaslanması prinsipindən çıxış edirdi; lakin o, müharibəni qadağan etmirdi. Amma, buna baxmayaraq, Millətlər Liqasının Statutunun məzmunu müharibələrin məhdudlaşdırılması işində irəliyə doğru atılan vacib addım idi.

27 avqust 1928-ci il tarixdə 15 dövlət tərəfindən Paris şəhərində milli siyasət aləti kimi müharibədən imtina barədə müvafiq beynəlxalq müqavilə imzalandı. Adətən, «**Brian-Kelloq Paktı»** adı ilə tanınan həmin müqavilə müharibəni milli siyasət aləti kimi qadağan edirdi.[1] Bu, beynəlxalq publik hüquq tarixində vacib mərhələ oldu. Paktın 2-ci maddəsində deyilirdi ki, dövlətlər arasında yaranan mübahisə və ya ixtilaflar yalnız dinc vasitələrin köməyi ilə həll oluna, tənzimlənə bilər.

Lakin Millətlər Liqası təcavüzkar müharibələrin qarşısını ala bilmədi. Tarixdən məlumdur ki, Efiopiya 1935–1936-cı illərdə İtaliyanın hərbi təcavüzünə məruz qaldı, habelə 1939–1940-cı illərdə Sovet–Fin müharibəsi baş verdi, 1936-cı ildə İspaniyaya Almaniya və İtaliyanın müdaxiləsi həyata keçirildi, 1939-cu ildə II Dünya Müharibəsi başlandı.[2] Bu kimi hallarda kömək göstərmək və yardım etmək iqtidarında olmayan Millətlər Liqası təcavüzün qarşısını almaq üçün heç bir effektiv qərar qəbul edə bilmədi.[3] Lakin, o zamanlar müharibələrin qarşısını ala

[1] URL:https: //ru.m.wikipedia.org/wiki/ (25.04.2018-ci il).

[2] *Bu dövrün tarixi hadisələri barədə ətraflı bax:* Новейшая история зарубежных стран: Европа и Америка, 1917-1945. Учебник / Под ред. В.К.Фураева. М., 1989, 448 с.

[3] *Bu barədə bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.38.

bilməsə də, Millətlər Liqası beynəlxalq münasibətlər praktikasında, dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi işində müəyyən rol oynadı. Xüsusilə də, bunu deməliyik ki, o, Birləşmiş Millətlər Təşkilatı (BMT) kimi daha nüfuzlu, mötəbər və effektiv beynəlxalq dövlətlərarası siyasi təsisatın yaradılmasında vacib mərhələ oldu.

Beləliklə, I Dünya Müharibəsinin qurtarması və onun hüquqi cəhətdən Versal-Vaşinqton Sistemi (1919–1923-cü illər) ilə rəsmiləşdirilməsi, habelə Millətlər Liqasının yaradılması nəinki dünyanın siyasi xəritəsini dəyişdirdi, həmçinin beynəlxalq publik hüququn inkişafına mühüm dərəcədə təsir göstərdi. Beynəlxalq publik hüququn inkişafında 1917-ci ildə Rusiyada baş verən Böyük Oktyabr Sosialist İnqilabı da vacib rol oynadı. Məlum olduğu kimi, həmin inqilab nəticəsində Sovet Rusiyası yarandı ki, o, özünün mövcud olduğu ilk günlərdə siyasi və beynəlxalq-hüquqi ideyalar irəli sürdü; məhz həmin ideyalar beynəlxalq publik hüququn inkişafına müsbət təsir göstərdi. Söhbət, hər şeydən əvvəl, **Sülh haqqında Dekretdən** gedir. Sovet dövlətinin qəbul etdiyi ilk akt olan həmin dekret beynəlxalq münasibətlər praktikasına böyük təsir göstərən yeni ideyalar formulə etdi; burada təcavüzkar müharibə qadağan olundu, təcavüzkar müharibə beynəlxalq cinayət elan edildi və s. Dekretdə Sovet Rusiyası tərəfindən ədalətli və demokratik sülh bağlamaq üçün danışıqlara başlanılması təklif olunurdu; ədalətli və demokratik sülh isə zorakılıqla, təcavüzkar müharibə, anneksiya (ilhaq) və kontribusiya ilə bağlı olmayan sülh kimi müəyyən olunurdu. Dekretdə həm də dövlətlərin öz iqtisadi, siyasi və sosial sistemlərindən asılı olmayaraq, dinc yanaşı yaşamaları barədə ideya öz əksini tapmışdı. Burada həmçinin dövlətlərin mehriban qonşuluq münasibətlərində olmalarına yönələn çağırış da ifadə olunmuşdu.

Sovet dövlətinin xarici siyasi aksiyaları da beynəlxalq publik hüququn inkişafına vacib təsir göstərdi. Sovet dövləti, hər şeydən əvvəl, təcavüzkar müharibənin hamılıqla qəbul olunmuş

anlayışının formulə edilməsinə səy göstərirdi. Məhz onun təşəbbüsü ilə 1933-cü ildə təcavüzkarın müəyyən edilməsi barədə müvafiq konvensiya qəbul edildi[1]; burada təcavüzkarlıq sayılan hərəkətlər sadalanırdı ki, onlardan birini edən dövlət təcavüzkar sayılırdı.

Söhbət açdığımız dövrdə **beynəlxalq müqavilə hüququ** da inkişaf edirdi. Belə ki, həmin vaxtlarda müxtəlif məsələlərə dair beynəlxalq müqavilələr bağlanmışdı. Beynəlxalq müqavilələr həm ikitərəfli, həm də çoxtərəfli formada olurdu. Bağlanmış beynəlxalq müqavilələr Millətlər Liqasının Katibliyində qeydiyyata alınırdı və yalnız bundan sonra beynəlxalq müqavilələr qüvvəyə minirdi. Digər tərəfdən, qeydiyyata alınan beynəlxalq müqavilələr müvafiq qaydada nəşr olunurdu.

Nəzərdən keçirilən dövrdə **beynəlxalq (dövlətlərarası) mübahisələrin həll olunması** məsələsinə xüsusi əhəmiyyət verilirdi və bu məsələdə Millətlər Liqasının rolu böyük idi. Belə ki, Millətlər Liqasının Statutu dövlətlər arasında yaranan beynəlxalq mübahisələrin dinc yolla həll olunmasını müəyyən edirdi. Digər tərəfdən, Millətlər Liqası öz Statutuna uyğun olaraq, daimi məhkəmə orqanı – **Beynəlxalq Ədalət Mühakiməsi üzrə Daimi Palata** təsis etdi ki, bu orqan beynəlxalq mübahisələri effektiv həll etmək iqtidarında idi; hətta Daimi Palata özünün mövcud olduğu dövrdə dövlətlər arasında yaranan bir sıra mübahisəli məsələyə baxıb onları həll edirdi.

Sözügedən dövrdə **beynəlxalq publik hüququn kodifikasiyasına və ya sistemləşdirilməsinə** təşəbbüs göstərildi.[2] 1927-ci ildə Millətlər Liqasının Baş Məclisi kodifikasiyaya dair birinci konfransın çağırılması haqqında müvafiq qətnamə qəbul etdi (beynəlxalq publik hüququn proqressiv kodifikasiya olunması həmin konfransın məqsədi kimi müəyyən edilmişdi). Beynəlxalq publik hüququn kodifikasiya olunmasına dair müvafiq kon-

[1] *Bu konvensiya barədə daha ətraflı:* Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.79.

[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.35.

frans 1930-cu ilin mart və aprel aylarında çağırıldı. Lakin, təəssüflə qeyd olunmalıdır ki, çağırılmış konfrans beynəlxalq publik hüququn kodifikasiyası üçün hər hansı əməli iş görmədi və uğursuzluqla nəticələndi.

Beynəlxalq publik hüquq tarixinin dördüncü inkişaf dövründə **insan hüquqlarının qorunması sahəsində** də müəyyən işlər görüldü. Belə ki, həmin dövrdə qəbul olunan iki konvensiya insan hüquqlarının qorunmasında vacib rol oynadı: 1926-cı ildə qəbul olunan müvafiq konvensiya **köləliyin qadağan edilməsinə** həsr olunmuşdu,[1] 1928-ci ildə qəbul edilən konvensiya isə **siyasi qaçqınların hüquqi vəziyyətini** müəyyənləşdirirdi.

O dövrdə həm də **beynəlxalq publik hüquq elmi (doktrina)** inkişaf edirdi. Beynəlxalq publik hüquq elmi (doktrina) beynəlxalq publik hüququn ən vacib məsələlərinin öyrənilməsi, araşdırılması və tədqiq edilməsini həyata keçirirdi; o, xüsusən də, Millətlər Liqasının hüquqi təbiətinin müəyyənləşdiril-məsinə mühüm diqqət yetirirdi. Bəzi alimlər Millətlər Liqasını federasiya, digərləri isə beynəlxalq publik hüquq subyektliyinə malik olan dövlətlərarası təşkilat hesab edirdilər.

3.2.5. Müasir beynəlxalq publik hüquq

1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılması ilə beynəlxalq publik hüquq tarixinin dördüncü inkişaf dövrü (klassik beynəlxalq publik hüquqdan müasir beynəlxalq publik hüquqa keçid mərhələsi) başa çatır. Bununla, həm də beynəlxalq publik hüquq tarixinin növbəti beşinci inkişaf dövrü – **müasir beynəlxalq publik hüquq,** ən yeni dövrün beynəlxalq publik hüququ mərhələsi başlayır. Xaricdə nəşr olunan nüfuzlu Beynəlxalq Hüquq Ensiklopediyasında həmin dövr «**II Dünya Müharibəsindən sonrakı beynəlxalq hüquq**» adlanır[2].

[1] URL:http: // www.un.org (25.04.2018-ci il).

[2] Encyclopedia of Public International Law / Bt. under the direction of R. Bernhardt (URL:http://www.opil.ouplaw.com (12.05.2018-ci il).

Bildiyimiz kimi, Millətlər Liqasının təsis edilməsi, sözün əsl və həqiqi mənasında, universal kollektiv beynəlxalq təhlükəsizlik sisteminin yaradılmasına gətirib çıxarmadı; xüsusən də, II Dünya Müharibəsindən sonra belə sistemin mövcudluğu vacib və aktual məsələyə çevrildi. Bu məsələni həll etmək üçün 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı yaradıldı ki, həmin təşkilat dünyada beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək funksiyasını həyata keçirir.[1] Məlum olduğu kimi, Dumbarton-Oksda (1944-cü il) və San-Fransiskoda (1945-ci il) keçirilən konfranslarda BMT Nizamnaməsinin əsas müddəaları işlənib hazırlandı və o, 26 iyun 1945-ci il tarixdə qəbul edildi. Bu andan beynəlxalq publik hüquq BMT-nin Nizamnaməsi ətrafında formalaşdı.[2] Məhz bu səbəbdən hüquq ədəbiyyatında müasir beynəlxalq publik hüquq mərhələsinə həm də **«BMT Nizamnaməsi dövrü»** deyilir[3]. Bu isə təsadüfi xarakter daşımır. Belə ki, müasir beynəlxalq publik hüququn mahiyyəti, yerinə yetirdiyi funksiyalar və sosial təyinatı onun əsas prinsiplərində təzahür edir; həmin prinsiplərin yeddisi məhz BMT-nin Nizamnaməsində öz hüquqi təsbitini tapmışdır. Digər tərəfdən, BMT-nin Nizamnaməsi universal kollektiv beynəlxalq təhlükəsizlik sisteminin təşkilati-hüquqi mexanizmini yaratmışdır.[4] Beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək onun başlıca vəzifəsi sayılır; BMT-nin həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını isə onun Nizamnaməsi təşkil edir.

Müasir beynəlxalq publik hüquq bir sıra **əlamətlə** xarakterizə olunur ki, həmin əlamətlər onu klassik beynəlxalq publik hüquqdan fərqləndirməyə imkan verir. **Birinci**, müasir beynəl-

---

[1] *O dövrün tarixi barədə bax: məsələn,* Новейшая история зарубежных страх. Европа и Америка. 1939 – 1975. Учебное пособие / Под ред. С.М.Стецкевича. М., 1978, 576 с.

[2] Международное право. Учебник / Отв. ред. В.И. Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.24.

[3] Международное право. Учебник /Отв. ред. А.Н. Вылегжанин. М., 2009, с.80.

[4] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.49.

xalq publik hüquq **antimüharibə yönümlü hüquqdur**. Belə ki, müasir beynəlxalq publik hüquq hərbi güc tətbiq etməyi (müharibəni) qadağan edir – bu, onun əsas prinsiplərindən biridir. Düzdür, dünyanın müxtəlif yerlərində hələ də hərbi münaqişələrə rast gəlmək mümkündür. Amma hərbi münaqişələrə (müharibələrə) yol verilməməsində müasir beynəlxalq publik hüquq vacib rol oynayır; bu sahədə müasir beynəlxalq publik hüququn əsas subyekti sayılan BMT-nin xidmətləri, xüsusilə, böyükdür.

İkinci, müasir beynəlxalq publik hüquq belə bir əlamətlə xarakterizə olunur ki, o, **antimüstəmləkə yönümlü hüquqdur**. Belə ki, keçən yüzilliyin ikinci yarısında BMT-nin Nizamnaməsi əsasında müasir beynəlxalq publik hüquq formalaşmağa başladı və onun inkişafına bir sıra hadisə vacib və əhəmiyyətli dərəcədə təsir göstərdi. Müstəmləkə sisteminin dağılması həmin hadisələrdən biridir və bunun nəticəsində dünyanın siyasi xəritəsində onlarla yeni müstəqil dövlət yarandı.

Üçüncü, müasir beynəlxalq publik hüquq **universal (ümumi) hüquqdur**. Belə ki, XX əsrin ortalarından etibarən bütün dünya dövlətləri üçün vahid beynəlxalq publik hüquq yaranmağa başladı; onun ibarət olduğu normaların bütün dünya dövlətləri, eləcə də dövlətlərarası sistemin digər iştirakçıları üçün məcburi hüquqi qüvvəsi vardır. Bununla yanaşı, müasir dövrdə regional (lokal) beynəlxalq hüquq da inkişaf edir. Belə ki, universal (ümumi) beynəlxalq hüquq normaları, bəzən, iki və daha çox dövlət arasında münasibətləri tənzimləmək üçün kifayət etmir; həmin münasibətlərdə spesifik problemlər yaranır. Odur ki, onların hüquqi cəhətdən müstəqil tənzimlənməsi tələb edilir və bundan ötrü regional (lokal) beynəlxalq hüquq normalarından istifadə olunur.[1]

Dördüncü, müasir beynəlxalq publik hüquq **müqavilə hüququdur**. Belə ki, beynəlxalq müqavilə müasir dövrdə bey-

[1] *Müasir dövrdə beynəlxalq hüququn regional (lokal) səviyyədə inkişafı barədə bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.47.

nəlxalq publik hüquq normaları yaratmağın əsas üsulu saylır; həm də beynəlxalq müqavilələr bu gün beynəlxalq publik hüququn başlıca mənbəyi hesab edilir. Heç də sirr deyil ki, müasir zamanda beynəlxalq müqavilələrin rolu və əhəmiyyəti müqayisəedilməz dərəcədə artmışdır. Lakin, buna baxmayaraq, beynəlxalq-hüquqi adətlər də beynəlxalq (dövlətlərarası) münasibətlərdə vacib və əhəmiyyətli yer tumaqda davam edir.

Beşinci, müasir beynəlxalq publik hüquq **yeni prinsiplərin yaranması ilə xarakterizə** olunur. Belə ki, keçən yüzilliyin ortalarından başlayaraq, müasir beynəlxalq publik hüququn əsas prinsipləri formalaşdı. Söhbət güc tətbiq etməmək və ya güclə hədələməmək, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə, dövlət sərhədlərinin pozulmazlığı, dövlətlərin ərazi bütövlüyü, beynəlxalq mübahisələri dinc yolla həll etmək, dövlətlərin əməkdaşlıq etməsi, əsas insan hüquq və azadlıqlarına hörmət etmək kimi prinsiplərin formulə olunmasından gedir. Eyni zamanda əvvəlki demokratik prinsiplərdən (dövlətlərin suveren bərabərliyi, dövlətlərin daxili işlərinə qarışmamaq və beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsiplərindən) istifadə olunması davam etdirildi.[1]

Altıncı, müasir beynəlxalq publik hüquq **yeni müstəqil hüquq sahələrinin formalaşması** ilə xarakterizə olunur. Belə ki, beynəlxalq publik hüququn tərkibində yeni hüquq sahələri (beynəlxalq təhlükəsizlik hüququ, beynəlxalq ekologiya hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq kosmos hüququ, beynəlxalq insan haqları hüququ və s.) yarandı. Bildiyimiz kimi, bu sahələr klassik beynəlxalq publik hüquqa məlum deyildi.

Yeddinci, müasir beynəlxalq publik hüquq bununla xarakterizə olunur ki, o, mahiyyət etibarilə, **kodifikasiya olunmuş (sistemləşdirilmiş) hüquqdur.** XX əsrin ortalarından etibarən beynəlxalq publik hüququn bir sıra sahəsinin (xarici əlaqələr hüququ, beynəlxalq müqavilələr hüququ, beynəlxalq dəniz hü-

[1] *Bu barədə bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А. Бекяшев. М., 2009,с.86.

ququ, beynəlxalq kosmos hüququ və s.) kodifikasiyası həyata keçirilməyə başlandı. Onlar beynəlxalq müqavilələr vasitəsilə kodifikasiya olundu, yəni müqavilə kodifikasiyası həyata keçirildi[1]. Belə ki, həmin sahələrə aid olan beynəlxalq publik hüquq normaları sistemləşdirildi, sistem halına salındı.

Səkkizinci, müasir beynəlxalq publik hüquq belə bir spesifik əlamətlə xarakterizə olunur ki, o da, **dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilatları beynəlxalq publik hüququn subyekti kimi tanıyır**. Beynəlxalq publik hüququn yeni subyekti kimi meydana gələn həmin təşkilatlar dövlətlərarası beynəlxalq münasibətlər sistemində son dərəcə vacib rol oynayır. Qeyd etməliyik ki, hal-hazırda dünyada 300-ə yaxın dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilat mövcuddur.[2]

Doqquzuncu, müasir beynəlxalq publik hüquq üçün həm də belə bir əlamət xarakterikdir ki, o, dünyada mövcud olan **bütün dövlətləri subyekt kimi tanıyır;** bu əlaməti ilə o, klassik beynəlxalq publik hüquqdan fərqlənir. Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, klassik beynəlxalq publik hüquq yalnız sivil dövlətləri beynəlxalq publik hüququn subyekti hesab edirdi.[3] Müasir beynəlxalq publik hüquqa görə isə, bütün dövlətlər, istisnasız olaraq, beynəlxalq publik hüququn subyekti sayılır. Yeri gəlmişkən qeyd edək ki, bu gün dünyada mövcud olan dövlətlərin və dövlətəoxşar qurumların sayı təxminən 220-yə yaxındır.[4]

Müasir beynəlxalq publik hüquq **geniş sərhədlərə malikdir**. Bu, onu xarakterizə edən **onuncu əlamətdir**. Belə ki, o, təkcə dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar üçün nəzərdə tutulmamışdır. Müasir beynəlxalq publik hüquq həm də fiziki və hüquqi şəxslər üçün, necə deyərlər, «hesablanmış» hüquqdur. Düzdür, fiziki və hüquqi şəxslər beynəlxalq publik

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.61.
[2] URL:https: // www.wikipedia.org /wiki/ (25.04.2018-ci il).
[3] Международное право. Учебник/ Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.36.
[4] URL:http: // www.bibliotekar.ru (25.04.2018-ci il).

hüququn subyekti sayılmırlar. Ancaq, unutmaq olmaz ki, fiziki şəxslərin malik olduqları əsas insan hüquq və azadlıqları beynəlxalq hüquqla qorunur, müdafiə olunur. Əsas insan hüquqlarının qorunması bu gün yalnız dövlətlərin milli qanunvericiliyi ilə tənzimlənən məsələ sayılmır. Təsadüfi deyil ki, keçən yüzilliyin ortalarından başlayaraq, beynəlxalq publik hüququn tərkibində insan hüquq və azadlıqlarının beynəlxalq müdafiəsinə xidmət edən yeni müstəqil hüquq sahəsi – «beynəlxalq publik insan haqları hüququ» adlı sahə formalaşmışdır. Bu yeni sahənin formalaşmasında bir sıra vacib beynəlxalq akt – İnsan hüquqları haqqında Ümumi Bəyannamə (1948-ci il), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı il), Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı il) və digər sənədlər vacib rol oynamışdır.

Qeyd etməliyik ki, müasir beynəlxalq publik hüquq insan hüquqlarının beynəlxalq səviyyədə qorunmasına və müdafiə olunmasına xüsusi əhəmiyyət verir. Təsadüfi deyil ki, o, insan hüquqlarını dövlətlərarası əməkdaşlığın əsası hesab edir. Dövlətlərin bağladıqları beynəlxalq müqavilələr onların üzərinə belə bir vacib vəzifə qoyur ki, onlar öz vətəndaşlarını insan hüquqları ilə təmin etsinlər. Müasir beynəlxalq publik hüquq həm də insan haqları sahəsində müqavilə öhdəliklərinin yerinə yetirilmə mexanizmi yaratmışdır ki, bu mexanizm beynəlxalq xarakterlidir.[1]

Hüquqi şəxslər (transmilli korporasiyalar–TMK) beynəlxalq publik hüququn subyekti sayılmasalar da, onların fəaliyyəti beynəlxalq hüquqla tənzimlənir. Belə ki, güclü iqtisadi-maliyyə imkanlarına malik olan TMK beynəlxalq-hüquqi tənzimetmənin obyektidir. Bu səbəbdən onlara beynəlxalq hüququn **destinatoru** (tənzimetmə obyekti) deyilir.

Digər tərəfdən, beynəlxalq publik hüququn sərhədləri ona görə genişdir ki, o, müxtəlif məzmunlu və çoxnövlü bey-

[1] *Bu barədə bax:* Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.81.

nəlxalq münasibətləri tənzimləmək funksiyasını yerinə yetirir. Bu gün beynəlxalq publik hüquqla tənzimlənən dövlətlərarası münasibətlər daha da genişlənir. Nəzərə almalıyıq ki, müasir dövrdə elm və texnikanın inkişafı, idman, turizm, sağlamlıq və digər amillər ictimai həyatın müxtəlif sahələrində dövlətlərin bir-biri ilə əməkdaşlıq etmələrinə səbəb olmuşdur; bunun nəticəsində, təbii ki, beynəlxalq publik hüquqla tənzimlənən yeni münasibətlər yaranır.

Keçən yüzilliyin ortalarından etibarən baş verən bir sıra hadisə müasir beynəlxalq publik hüquqa vacib təsir göstərmişdir. Hər şeydən əvvəl, qeyd edək ki, SSRİ-nin mövcudluğu dövründə, onun himayəsi altında sosialist dövlətləri düşərgəsi yarandı və bununla da, dünya sosializm sistemi formalaşdı. Bunun nəticəsində dünya iki ictimai-siyasi sistemə bölündü: sosialist və kapitalist sistemi. Tarix onların qarşıdurmasının şahidi oldu; belə qarşıdurma əsasında dünyada əks-qüvvələr balansı yarandı və bu da, öz növbəsində, müasir beynəlxalq publik hüquqa nüfuz etməyə bilməzdi. Dünyada iki güc mərkəzi yarandı ki, onlardan biri SSRİ və Şərqi Avropanın bir sıra sosialist ölkəsi sayılırdı; ABŞ və Qərbi Avropa ölkələri isə ikinci güc mərkəzi hesab edilirdi. Dünya, necə deyərlər, ikiqütblü olmuşdu.

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süqutu ilə əlaqədar beynəlxalq aləmdə mövcud qüvvələr nisbəti dəyişdi və nəticədə dünya birliyi nisbətən birqütblü oldu; bu gün də belə mövcudolma davam edir. Baş verən bütün bu və digər ictimai-siyasi proseslər, təbii ki, müasir beynəlxalq publik hüquqa təsir etməyə bilməz.[1]

[1] *Daha ətraflı:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.48.

III MÖVZU ÜZRƏ ƏYANİ SXEM



III FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Баскин Ю.А., Фельдман Д.И. История международного права. М., 1990.
2. Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл.1).
3. Международное право. Учебник /Отв. ред. А.Н. Вылегжанин. М., 2009 (гл.2).
4. Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015 (гл.1).
5. Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010 (гл.2).
6. Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011 (гл.2).
7. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.2).
8. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл.4).
9. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл.2).
10. Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015 (гл.2).
11. Шумилов В.М. Международное право. Учебник. М., 2008 (гл.2).

IV FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQ NORMALARI VƏ DÖVLƏTLƏRARASI BEYNƏLXALQ HÜQUQ MÜNASİBƏTLƏRİ

4.1. Beynəlxalq publik hüquq normalarının anlayışı və hüquqi təbiəti

4.1.1. Beynəlxalq publik hüquq normaları anlayışı

Obyektiv mənada beynəlxalq publik hüquqa (bundan sonra – «beynəlxalq publik hüquq») verdiyimiz doktrinal anlayışdan bəlli olur ki, o, beynəlxalq hüquq normalarından ibarətdir. Həm sovet dönəminin[1], həm də müasir dövrün[2] hüquq ədəbiyyatı səhifələrində birmənalı şəkildə göstərilir ki, beynəlxalq publik hüquq müxtəlif beynəlxalq-hüquqi normaların məcmusudur. Bu, beynəlxalq hüquqa verilən bütün elmi (doktrinal) təriflər üçün ümumi olan cəhətdir. Həmin cəhətə Qərb hüquq ədəbiyyatı səhifələrində ayrı-ayrı müəlliflər tərəfindən beynəlxalq hüquqa dair formulə olunan elmi anlayışlarda da rast gəlinir.[3]

---

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.44-45; Международное право. Учебник / Отв. ред. Н.Т.Блатова. М., 1987, с.7; Курс международного права. Том 1. М., 1989, с.29 və s.

[2] Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005, с.17; Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003, с.17; Международное право. Учебник /Отв. ред. Г. С. Стародубцев. М., 2015, с. 31; Международное право. Учебник /Отв. ред. Б.Р. Тузмухамедов. М., 2015, с. 53; Федощева Н. Н. Международное право. Учебное пособие. М., 2015, с. 6.

[3] Klafkowski A. Prawo miedzynarodowe publiczne. Warszawa. 1970, s.18; Agniel G. Droit International Public. Paris, 1998, p.8; Wallace R. International Law. London, 2005, p. 1-2; O'Brien J.International Law. London-Sidney, 2001, p.1. və s.

Beynəlxalq publik hüquqda, qeyd etməliyik ki, beynəlxalq-hüquqi normalar son dərəcə böyük rol oynayır. Beynəlxalq-hüquqi normaların beynəlxalq əlaqələr sistemində qlobal və mühüm əhəmiyyətə malik olması bununla müəyyən edilir ki, beynəlxalq publik hüquq öz əsas və başlıca funksiyasını, yəni dövlətlərarası münasibətləri tənzimləmək funksiyasını məhz onların köməyi və vasitəsi ilə həyata keçirir. Təkcə bunu qeyd etmək kifayətdir ki, əgər obrazlı şəkildə beynəlxalq hüququ «canlı insan orqanizminə» bənzətsək, beynəlxalq-hüquqi normaları isə bu orqanizmin «hüceyrələri» hesab etmək olar. Tam əminliklə deyə bilərik ki, beynəlxalq-hüquqi normalar beynəlxalq hüquq sisteminin özəyidir. Beynəlxalq publik hüquq normalarını dövlətdaxili (milli) hüquq normalarından fərqləndirmək üçün onları xarakterizə edən **hüquqi əlamətləri** müəyyənləşdirməliyik.

Beynəlxalq publik hüquq normalarının **birinci hüquqi əlaməti** ondan ibarətdir ki, onlar dövlətlərarası münasibət iştirakçılarının, hər şeydən əvvəl, dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin **öz iradələrini qarşılıqlı ifadə etmələrinin məhsuludur;** çünki belə normalar, ilk növbədə, dövlətlərin özləri tərəfindən yaradılır və bu da, beynəlxalq publik hüququn vacib xüsusiyyətlərindən biridir.[1]

Qeyd etmək lazımdır ki, dövlətlərarası münasibət iştirakçılarının, xüsusən də, dövlətlərin **qarşılıqlı iradə ifadəsi** beynəlxalq publik hüquq normaları yaratmağın yeganə yoludur. Özü də beynəlxalq publik hüquq normaları yaratmaq üçün bir dövlətin iradə ifadəsi kifayət etmir; bundan ötrü ən azı iki dövlətin qarşılıqlı iradə ifadəsi tələb olunur. Buna görə də, beynəlxalq publik hüquq normalarında iki və daha çox dövlətin iradəsi qarşılıqlı surətdə ifadə edilməlidir. Əgər bu və ya digər hüquq normasında yalnız konkret bir dövlətin iradəsi ifadə olunarsa, o, beynəlxalq hüquq norması deyil, dövlətdaxili (milli) hüquq norması sayılır. Beynəlxalq-hüquqi norma yaratmaq – **beynəl-**

[1] Тункин Г.И. Теория международного права. М., 1970, с.101.

xalq publik hüquq yaradıcılığı prosesi kifayət qədər mürəkkəb bir proses deməkdir.

Dövlətlərarası münasibətləri tənzimləmək beynəlxalq publik hüquq normalarının **ikinci hüquqi əlaməti** sayılır. Belə ki, beynəlxalq publik hüquq normaları dövlətlərarası münasibətləri tənzimləməkdən ötrü yaradılan hüquqi cəhətdən məcburi davranış qaydalarıdır[1]. Dövlətdaxili (milli) hüquq normaları isə dövlətlərarası münasibətləri tənzimləmək qabiliyyətinə malik deyildir, çünki onlarda yalnız təkcə bir dövlətin iradəsi ifadə olunur. Buna görə də, dövlətdaxili (milli) hüquq normaları ancaq ayrı-ayrı ölkələrin daxilində yaranan ictimai münasibətləri tənzimləyir; onların bir hissəsi qeyri-hakimiyyət (qeyri-dövlət) xarakterli beynəlxalq münasibətləri (məsələn, iki ölkənin müəssisələri arasında yaranan münasibətləri və s.) tənzimləyir. Həmin münasibətlər beynəlxalq xüsusi (mülki) münasibətlər adlanır və beynəlxalq publik hüquq normaları ilə deyil, beynəlxalq xüsusi hüquq normaları ilə tənzimlənir; beynəlxalq xüsusi hüquq isə dövlətdaxili hüququn tərkib hissəsidir.

Beynəlxalq publik hüquq normaları iki və daha artıq dövlət tərəfindən yaradıldığına görə dövlətlərarası xarakterə malikdir. Bu səbəbdən də, onlar nə dövlətdaxili münasibətləri, nə də qeyri-hakimiyyət (qeyri-dövlət) xarakterli beynəlxalq münasibətləri tənzimləmək iqtidarındadır.

Beynəlxalq publik hüquq normalarının **üçüncü hüquqi əlaməti** ondan ibarətdir ki, onlar özlərinin yaradıcısı olan dövlətlərarası münasibət iştirakçıları, xüsusən də, dövlətlər üçün **qarşılıqlı hüquq və vəzifələr müəyyən edir**.[2] Dövlətdaxili (milli) hüquq normaları isə belə hüquqi əlamətdən məhrumdur. Belə ki, dövlətdaxili (milli) hüquq normalarının yaradıcısı konkret bir dövlətdir; həmin normalar milli (daxili) hüququn ayrı-ayrı

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с. 53; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008, s. 17 və b.
[2] Международное право. Учебник / Отв.ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.11.

subyektləri (dövlət orqanları, bələdiyyələr, vətəndaşlar, hüquqi şəxslər və s.) üçün hüquq və vəzifələr müəyyənləşdirir.

Qeyd etməliyik ki, dövlətlərarası münasibət iştirakçıları beynəlxalq publik hüquq normalarını öz aralarında əmələ gələn həmin münasibətləri tənzimləmək üçün yaradırlar; tənzimləmək isə müvafiq münasibət iştirakçıları üçün qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirilməsini nəzərdə tutur. Bax, subyektlər yaratdıqları beynəlxalq hüquq normalarında özləri üçün qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirirlər ki, aralarındakı dövlətlərarası münasibətləri hüquqi cəhətdən tənzimləyə bilsinlər.

Beynəlxalq publik hüquq normalarının **dördüncü hüquqi əlaməti** ondan ibarətdir ki, beynəlxalq-hüquqi normaların həyata keçirilməsi bu normaları yaradan subyektlərin, xüsusən də, dövlətlərin özləri tərəfindən **fərdi və ya kollektiv surətdə, o cümlədən onların təsis etdikləri beynəlxalq təşkilat və orqanlar vasitəsilə** təmin edilir. Bu o deməkdir ki, beynəlxalq publik hüquq normalarının realizə olunması xüsusi xarakterli hüquqi mexanizm vasitəsilə təmin edilir. Dövlətdaxili (milli) hüquq normalarının həyata keçirilməsi isə dövlət məcburiyyət tədbirləri vasitəsilə təmin edilir.

Beynəlxalq publik hüquq normalarını xarakterizə edən və onları dövlətdaxili (milli) hüquq normalarından fərqləndirməyə imkan verən dörd hüquqi əlaməti müəyyənləşdirdikdən sonra, zənnimizcə, onlara dair aşağıdakı kimi elmi (doktrinal) anlayış formulə edə bilərik:

– **beynəlxalq publik hüquq normaları** dedikdə dövlətlərarası münasibətlər sistemində iştirak edən subyektlərin, ilk növbədə, dövlətlərin özləri tərəfindən qarşılıqlı razılıq əsasında yaradılan, ən azı iki subyektin iradəsini ifadə edən, həmin subyektlər üçün hüquq və vəzifələr müəyyənləşdirən və dövlətlərarası münasibətləri tənzimləyən elə məcburi normativ-hüquqi davranış qaydaları başa düşülür ki, bu qaydaların həyata keçirilməsi onların yaradıcısı olan dövlətlərin özləri tərəfindən fərdi və ya kollek-

tiv surətdə, o cümlədən dövlətlərin təsis etdikləri beynəlxalq təşkilat və orqanlar vasitəsilə təmin olunur.

Beynəlxalq publik hüquq normaları onları xarakterizə edən özünəməxsus hüquqi əlamətlərdən başqa **digər hüquqi əlamətlərə** də malikdir. Lakin onları beynəlxalq hüquq normalarının özünəxas hüquqi əlamətləri hesab etmək olmaz; çünki həmin əlamətlər həm də daxili (milli) hüquq normaları üçün xarakterikdir.

Məcburilik kimi xüsusiyyət həmin əlamətlərdən biridir; bu əlamət həm beynəlxalq, həm də daxili (milli) hüquq normalarına xasdır. Göstərdiyimiz hüquqi əlamətin mahiyyəti bundan ibarətdir ki, bütün beynəlxalq publik hüquq normalarının məcburi hüquqi qüvvəsi vardır. Belə ki, beynəlxalq publik hüquq normaları dövlətlərarası münasibətlər sistemində iştirak edən subyektlər üçün hüquqi cəhətdən məcburi olan davranış qaydalarıdır.

Ümumilik kimi xüsusiyyət beynəlxalq publik hüquq normalarına aid olan hüquqi əlamət sayılır; bu əlamət də həm beynəlxalq, həm də daxili (milli) hüquq normaları üçün xarakterikdir. Belə ki, beynəlxalq publik hüquq, eləcə də daxili (milli) hüquq normaları **ümumi xarakter daşıyır**. Bu isə o deməkdir ki, istənilən hüquq norması, istər beynəlxalq publik hüquq norması olsun, istərsə də daxili (milli) hüquq norması, fərqi yoxdur, birdəfəlik və ayrı-ayrı konkret hala tətbiq olunmaq üçün müəyyənləşdirilmir; əksinə, beynəlxalq publik hüquq normaları, daxili (milli) hüquq normaları kimi, dəfələrlə, çoxsaylı hallara tətbiq olunmaq üçün yaradılır. Buna görə də, təbii ki, onlar konkret bir məsələni tənzimləmək məqsədilə müəyyənləşdirilmir. Hüquq ədəbiyyatında düzgün olaraq göstərilir ki, beynəlxalq publik hüquq normaları, əsasən, dəfələrlə tətbiq edilmək üçün hesablanmış ümumi xarakterli qaydalardır.[1]

[1] Международное право. Учебник/ Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.123; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 22; Международное право. Учебник / Под общ. ред. А.Я. Капустина. М., 2008, с. 35.

Beynəlxalq publik hüquq normaları üçün, daxili (milli) hüquq normaları kimi, həm də belə bir cəhət xarakterikdir ki, **onlar bilavasitə dövlətlə bağlıdır**. Belə ki, bildiyimiz kimi, beynəlxalq-hüquqi normalar, əsasən, dövlətlərin qarşılıqlı razılığı əsasında yaradılır. Beynəlxalq hüquq normalarının yaradılmasında dövlətlərarası beynəlxalq təşkilatların da rolu vardır; belə təşkilatlar isə dövlətlərin birlik formasıdır.

Beynəlxalq publik hüquq normalarının bir növü sayılan beynəlxalq-hüquqi adət normaları da bilavasitə dövlətlə bağlıdır. Belə ki, onlar dövlətlər tərəfindən sanksiyalaşdırıldığı halda hüquqi qüvvəyə malik olur və tətbiq edilir.

Bunlardan başqa, beynəlxalq publik hüquq normaları üçün **aşağıdakı əlamətlər** də xarakterikdir (bu əlamətlər həm də dövlətdaxili-milli hüquq normalarına xasdır):

- hüquqi cəhətdən məcburi olan beynəlxalq publik hüquq normalarının pozulması məsuliyyətə və müvafiq sanksiyaların tətbiq edilməsinə səbəb olur;
- beynəlxalq publik hüquq normaları uzun müddət ərzində qüvvədə olur;
- beynəlxalq publik hüquq normaları dövlətlər tərəfindən qorunur, pozulduqda isə müdafiə edilir;
- beynəlxalq publik hüquq normaları rəsmi hüquqi sənədlərdə müəyyən olunur.

Beynəlxalq publik hüquq normalarını beynəlxalq adət qaydalarından fərqləndirmək lazımdır. **Beynəlxalq adət qaydaları** dedikdə elə bir beynəlxalq praktika başa düşülür ki, bu praktikaya dövlətlərarası münasibətlərin iştirakçıları öz qarşılıqlı əlaqələrində ədəb-nəzakət normalarının təminatı üçün əməl edirlər; onlara həm də **beynəlxalq nəzakət normaları** deyilir.[1] Məsələn, dövlət başçılarının başqa ölkələrə rəsmi səfəri müəyyən mərasim qaydaları əsasında həyata keçirilir ki, həmin qay-

[1] URL:http: // www. law today.ru (27.04.2018-ci il).

dalar da beynəlxalq adət qaydaları (beynəlxalq nəzakət normaları) hesab edilir.

Beynəlxalq-hüquqi normalardan fərqli olaraq, beynəlxalq adət qaydalarının məcburi hüquqi qüvvəsi yoxdur və buna görə də, onların pozulması beynəlxalq-hüquqi məsuliyyətə səbəb olmur. Lakin, dövlətlər arasındakı qarşılıqlı münasibətlərdə beynəlxalq ədəb-nəzakət normalarını təmin etmək baxımından, beynəlxalq adət qaydalarının vacib əhəmiyyətə malik olması şəksizdir.

Beynəlxalq-hüquqi normalar beynəlxalq publik hüququn əsasıdır, onun ilkin elementidir. Əgər beynəlxalq publik hüququ, obrazlı şəkildə, «inşa edilmiş uca və yaraşıqlı bina»ya oxşatsaq, beynəlxalq-hüquqi normalar bu binanın tikilməsində istifadə olunan «kərpicciklər» hesab edilməlidir.[1] Beynəlxalq-hüquqi normaların bu kimi əhəmiyyətli xüsusiyyətlərə malik olması və beynəlxalq hüququn vacib elementi sayılması onunla izah edilir ki, onlar dövlətlərarası münasibətlərdə iştirak edən subyektlər üçün qarşılıqlı hüquq və vəzifələr müəyyən edir; həmin hüquq və vəzifələrin məcmusuna isə **beynəlxalq publik hüquq normalarının məzmunu** deyilir. Buna görə də, beynəlxalq hüquq normalarının məzmunu aşağıda göstərilən iki vacib elementdən ibarətdir:

– beynəlxalq subyektiv hüquq;

– beynəlxalq-hüquqi vəzifə.

Bu barədə növbəti paraqrafların birində danışacağıq.

4.1.2. Beynəlxalq publik hüquq normalarının daxili strukturu

Hüquq norması sosial normaların digər növlərindən (məsələn, əxlaq normasından və s.) fərqli olaraq, xarakterik daxili

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.101.

struktura və ya quruluşa malikdir. Hüquq normasının daxili quruluşu belə bir suala cavab verir: hüquq norması hansı elementlərdən (tərkib hissələrdən) ibarətdir və bu elementlər bir-birilə necə əlaqədədir? Beynəlxalq publik hüquq norması da hüquq normasıdır. Buna görə də, deyilən sözləri eynilə, həm də beynəlxalq publik hüquq normasına şamil etmək olar. Belə ki, istənilən hüquq norması kimi beynəlxalq publik hüquq norması da daxili struktura (quruluşa) malikdir. Amma beynəlxalq hüquq dərsliklərində bu məsələyə az müəllif tərəfindən diqqət yetirilir.[1]

Nəzərə almaq lazımdır ki, beynəlxalq publik hüquq normasının daxili strukturu özünəxas xüsusiyyətlərə malikdir. Bu onunla bağlıdır ki, beynəlxalq publik hüquq normaları öz nizamasalma predmetindən irəli gələn özünəməxsus əlamətlərlə xarakterizə edilir. Əlbəttə, bu əlamətlər beynəlxalq publik hüquq normasının daxili strukturuna təsir etməyə bilməz.

Beynəlxalq publik hüquq normasının **daxili strukturu** dedikdə onun ayrı-ayrı elementlərdən ibarət olması başa düşülür. Bu elementlər birləşərək beynəlxalq publik hüquq normasının daxili quruluşunu təşkil edir. Həmin elementlərə aşağıdakılar aiddir:[2] hipoteza; dispozisiya; sanksiya.

Hipoteza beynəlxalq publik hüquq normasının elə bir struktur elementidir ki, bu element beynəlxalq publik hüquq normasının tətbiq olunma şərtlərini müəyyən edir.

Dispozisiya dedikdə beynəlxalq publik hüquq normasının elə bir struktur elementi başa düşülür ki, bu element həmin normanın hipotezasında göstərilən şərtlər mövcud olduqda dövlətlərarası münasibət iştirakçılarının davranış qaydasını müəyyən edir.

---

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.101; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 35-37 və s.

[2] URL:http: // www. bibliotekar.ru / teoria-gosudarstva-i-prava-1/58/ htm (27.04.2018-ci il).

Sanksiya beynəlxalq publik hüquq normasının elə bir struktur elementidir ki, bu element həmin normanın dispozisiyasında göstərilən davranış qaydasını pozan subyektə (dövlətlərarası münasibət iştirakçısına) tətbiq ediləcək beynəlxalq-hüquqi məsuliyyət tədbirini müəyyən edir. Məsələn, «Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında» Konvensiyanın (1972-ci il)[1] 2-ci maddəsində deyilir: «dövlət kosmosa buraxılan öz kosmik obyektlərinin Yer səthinə və ya uçan hava gəmilərinə vurduğu zərərə görə kompensasiya ödəmək formasında mütləq məsuliyyət daşıyır». Bu maddədə konkret beynəlxalq publik hüquq norması ifadə olunmuşdur: «dövlətin kosmik obyektlərinin Yer səthinə və ya uçan hava gəmilərinə zərər vurması» bu maddənin hipotezası sayılır; «dövlətin öz kosmik obyektlərini kosmosa buraxması» həmin maddənin dispozisiyasıdır; «kompensasiya ödəmək» isə onun sanksiyasıdır.

Bununla bərabər, elə beynəlxalq publik hüquq normalarına da rast gəlinir ki, onlarda heç də hər üç elementi görə bilmirik. Belə ki, beynəlxalq publik hüquq normalarının çoxunda yalnız dispozisiya ifadə olunur, hipoteza və sanksiya kimi elementlər öz əksini tapmır. Belə normaların hipotezasını onların hüquqi mənasını təhlil etməklə müəyyənləşdirmək olar, onların sanksiyası isə beynəlxalq-hüquqi məsuliyyət institutu (beynəlxalq-məsuliyyət hüquq normalarının sistemi) ilə müəyyən olunur ki, o, beynəlxalq publik hüququn ümumi hissəsinin əsas institutlarından biri hesab edilir. Həmin instituta daxil olan beynəlxalq publik hüquq normaları dövlətlərarası praktikanın yüzillik inkişaf dövrü prosesində işlənib hazırlanmışdır. Buna görə də, beynəlxalq-hüquqi məsuliyyət normaları, əsasən, beynəlxalq-adət hüquq normalarından ibarətdir.[2] Beynəlxalq publik hüquq normalarının sanksiyaları da məhz beynəlxalq-adət hüquq normalarında əks olunur. Beynəlxalq publik hüquq normaların-

[1] URL:http: // www. un.org (27.04.2018-ci il).

[2] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.353.

da fərdi sanksiyalar olmadığına görə beynəlxalq publik hüquq məsuliyyəti həmin adət normaları əsasında müəyyənləşdirilir və realizə olunur; onlar vurulmuş zərərin əvəzinin ödənilməsi qaydasını tənzimləyir. Lakin beynəlxalq-adət hüquq normalarında əks olunan sanksiyalar konkret deyil, qeyri-müəyyən xarakter daşıyır.[1] Buna görə də, konkret sanksiyalar dövlətlərarası münasibət iştirakçılarının razılığı əsasında müəyyən olunur. Deyilənlər onu göstərir ki, beynəlxalq publik hüquqda onun ibarət olduğu beynəlxalq-hüquqi normaların öz konkret fərdi sanksiyasını formulə etmək və qəti olaraq müəyyənləşdirmək ənənəsi mövcud deyildir.

Konkret fərdi sanksiyası olmayan elə beynəlxalq-hüquqi normalar vardır ki, onlarda, eyni zamanda, həm dispozisiya, həm də hipoteza ifadə edilir. Bəzən, beynəlxalq publik hüquq normasının hipoteza və dispozisiyası öz ifadəsini beynəlxalq-hüquqi sənədin müxtəlif, ayrı-ayrı maddələrində tapır. Başqa sözlə, elə beynəlxalq publik hüquq normalarına təsadüf olunur ki, həmin normaların hipoteza və dispozisiyası beynəlxalq-hüquqi sənədin eyni maddəsində ifadə olunmur. Məsələn, «Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında» Konvensiyanın (1972-ci il) 22-ci maddəsində göstərilir ki, əgər beynəlxalq hökumətlərarası təşkilat Konvensiyada nəzərdə tutulan hüquq və vəzifələri qəbul edərsə və ya bu təşkilatda iştirak edən dövlətlərin əksəriyyəti Konvensiyaya qoşularsa, o, məsuliyyət daşıyır; bu maddədə ifadə olunan beynəlxalq publik hüquq normasında yalnız onun hipotezası («əgər beynəlxalq hökumətlərarası təşkilat Konvensiyada nəzərdə tutulan hüquq və vəzifələri qəbul edərsə və ya bu təşkilatda iştirak edən dövlətlərin əksəriyyəti Konvensiyaya qoşularsa») ifadə edilir; həmin normanın dispozisiyası isə («kosmik obyektlərin kosmosa buraxılması») Konvensiyanın 2-ci maddəsində təsbit edilir.

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В. Черниченко. М., 2008, с. 36.

4.1.3. Beynəlxalq publik hüquq normasının məzmunu

Beynəlxalq-hüquqi normalar daxili struktura malik olmaqla yanaşı, həm də müəyyən məzmuna malikdir. Əvvəldə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq normasının məzmunu onun dövlətlərarası münasibət iştirakçıları üçün müəyyənləşdirdiyi beynəlxalq subyektiv hüquq və beynəlxalq-hüquqi vəzifələrin məcmusundan ibarətdir.[1] Dövlətlərarası münasibət iştirakçısının **beynəlxalq subyektiv hüququ** dedikdə onun mümkün, **beynəlxalq-hüquqi vəzifəsi** dedikdə isə zəruri davranış ölçüsü başa düşülür; onlara beynəlxalq publik hüquq üzrə hüquq və vəzifələr deyilir.[2]

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüquq normaları dövlətlərarası münasibətləri tənzimləməlidir; onlar dövlətlərarası münasibətlərin iştirakçıları tərəfindən məhz bundan ötrü yaradılır. Tənzimləmək üçün isə beynəlxalq publik hüquq normaları dövlətlərarası münasibət iştirakçıları üçün müvafiq hüquq və vəzifələr müəyyənləşdirir. Bu iştirakçılar yalnız o halda həmin hüquq və vəzifələrin daşıyıcısı (subyekti) ola bilərlər ki, onlar öz aralarında dövlətlərarası münasibətə girsinlər; öz aralarında dövlətlərarası münasibətə girməklə onlar hüquqlarını həyata keçirir, vəzifələrini yerinə yetirir və icra edirlər. Buna görə də, dövlətlərarası münasibətlər çərçivəsindən kənarda nə hüquq, nə də vəzifə mövcud ola bilər. Deməli, dövlətlərarası münasibətlər beynəlxalq publik hüquq üzrə hüquq və vəzifələrin mövcudolma formasıdır.

---

[1] Международное право. Учебник / Отв.ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.38; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.12.

[2] Müəlliflərdən S.V.Çerniçenko belə bir fikir söyləyir ki, beynəlxalq hüquq normasının məzmununu yalnız beynəlxalq-hüquqi vəzifə (öhdəlik) təşkil edir (Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В. Черниченко. М., 2008, с. 38). Lakin, nəzərə almaq lazımdır ki, beynəlxalq subyektiv hüquqlar da beynəlxalq hüquq normasının məzmununa daxildir.

Beynəlxalq publik hüquq üzrə hüquq və vəzifələr korrelyativ anlayışlardır. **Korrelyativ anlayışlar** dedikdə bir-birindən asılı və aralarında qarşılıqlı əlaqə olan anlayışlar başa düşülür. Belə ki, əgər dövlətlərarası münasibət iştirakçılarından biri beynəlxalq publik hüquq normasında nəzərdə tutulan hər hansı hüquqa malik olarsa, digər iştirakçı bu hüquqa uyğun gələn vəzifəni icra etməlidir. Ona görə ki, harada hüquq varsa, orada ona uyğun gələn vəzifə də yaranır və yaxud da, əksinə, harada vəzifə varsa, orada ona uyğun gələn hüquq da əmələ gəlir. Nəzərə almalıyıq ki, hüquqsuz vəzifə olmadığı kimi, vəzifəsiz də hüquq yoxdur (K.Marks).[1] Odur ki, dövlətlərarası münasibət iştirakçıları qarşılıqlı hüquq və vəzifələr daşıyırlar. Bu səbəbdən əgər dövlətlərarası münasibətdə iştirak edən subyektin hər hansı hüququ varsa, onda digər subyektin üzərinə həmin hüquqa uyğun gələn vəzifə düşür. Məsələn, beynəlxalq publik hüquq norması sahilboyu dövlət üçün belə bir suveren hüquq müəyyən edir ki, o, öz kontinental şelfinin təbii resurlarını sərbəst şəkildə tədqiq edə bilər. Bununla bağlı olaraq, həmin dövlətlə digər sahilboyu dövlətlər arasında dövlətlərarası münasibət yaranır ki, bu dövlətlərin üzərinə həmin dövlətin öz kontinental şelfinin təbii resurslarını tədqiq etməsinə mane olmamaq kimi vəzifə düşür. Əgər beynəlxalq publik hüquq norması dövlətlərarası münasibət iştirakçısının üzərinə hər hansı vəzifə qoyarsa, onda həmin münasibətin digər iştirakçısı bu vəzifəyə uyğun gələn hüquqa malik olacaqdır. Məsələn, beynəlxalq publik hüquq norması dövlətin üzərinə xarici diplomatik nümayəndəliklərin yerləşdiyi binanın lazımi qaydada qorunmasını təmin etmək kimi vəzifə qoyur. Xarici ölkə ilə həmin dövlət arasında bu məsələ barəsində müvafiq dövlətlərarası münasibət yaranır. Bu münasibətin iştirakçısı olan xarici ölkənin belə bir hüququ vardır ki, o, dövlətin göstərdiyimiz vəzifəsinə uyğun gəlir: dövlətdən öz diplomatik nümayəndəliklərinin yerləşdiyi binanın lazımi qaydada qorunmasını tələb etmək hüququ.

[1] URL:http: // www. ozon.ru/contekxt/detal (27.04.2018-ci il).

Elə beynəlxalq-hüquqi normalar vardır ki, onlar dövlətlərarası münasibət iştirakçısı üçün **yalnız hüquq** müəyyən edir. Məsələn, beynəlxalq publik hüquq norması müəyyən edir ki, hər bir dövlətin kosmik fəzanı tədqiq və ondan istifadə etmək hüququ vardır.

Beynəlxalq-hüquqi normalar arasında elələrinə də təsadüf olunur ki, onlar dövlətlərarası münasibət iştirakçısı üçün **yalnız vəzifə** müəyyən edir. Məsələn, beynəlxalq publik hüquq norması dövlətin üzərinə belə bir vəzifə qoyur ki, o, başqa dövlətin daxili səlahiyyətlərinə aid olan işlərə qarışmamalıdır.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq norması üzrə (onun hüquq və ya vəzifə müəyyən etməsindən asılı olmayaraq) dövlətlərarası münasibət iştirakçılarından biri hüquqa malik olur, digəri isə vəzifə daşıyır. Bu, məlum məsələdir. Əgər hüquqdan istifadə dövlətlərarası münasibət iştirakçısının istək və iradəsindən asılıdırsa, vəzifəni yerinə yetirmək hüquqi cəhətdən məcburidir.

4.1.4. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri

«Dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri» beynəlxalq publik hüquq normaları ilə sıx surətdə bağlı və qarşılıqlı əlaqədə olan anlayış-dır. Belə ki, həmin münasibətlər beynəlxalq publik hüquq normaları əsasında əmələ gəlir; əgər beynəlxalq-hüquqi normalar olmazsa, onda dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri də yaranmaz. Təsadüfi deyil ki, beynəlxalq publik hüquq normaları dövlətlərarası hüquq münasibətlərinin yaranmasının **normativ-hüquqi əsası** sayılır. Yeri gəlmişkən, qeyd edək ki, dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri beynəlxalq hüquq dərsliklərində nadir

hallarda işıqlandırılan və az tədqiq olunan mövzulardan biri sayılır.[1]

Bildiyimiz kimi, dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında siyasi, iqtisadi, xarici əlaqələr, ekologiya və s. sahələrdə müxtəlif məzmunlu əlaqələr yaranır ki, həmin əlaqələr «geniş mənada dövlətlərarası münasibətlər» kimi ümumiləşdirilmiş anlayışla əhatə edilir. Bu münasibətlər isə beynəlxalq publik hüquq normaları ilə tənzimlənir. Tənzimlənmə nəticəsində dövlətlərarası münasibətlər hüquqi forma alır. Məhz bu forma dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri adlanır.

Dövlətlərarası publik beynəlxalq hüquq münasibətləri dedikdə beynəlxalq-hüquqi normalar ilə tənzimlənən elə əlaqələr başa düşülür ki, bu əlaqələr dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında yaranır.

Əgər ayrı-ayrı sahələrdə (siyasi-hərbi, iqtisadi-ticarət və s.) dövlətlərin və digər subyektlərin iştirakı ilə əmələ gələn beynəlxalq əlaqələr beynəlxalq publik hüquq normalarının köməyi ilə nizama salınarsa, belə əlaqələr dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri adlanır. Beynəlxalq-hüquqi normalar ilə dövlətlərarası hüquq münasibətləri arasında mövcud olan qarşılıqlı əlaqə özünü, ilk növbədə, məhz bunda büruzə verir. Belə ki, dövlətlərarası hüquq münasibətləri beynəlxalq publik hüquq normaları vasitəsi ilə tənzimlənən real (faktiki) dövlətlərarası münasibətlərin hüquqi formasıdır.

Beynəlxalq-hüquqi normalar ilə dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri arasındakı qarşılıqlı əlaqə özünü həm də bunda göstərir ki, dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin yaranması beynəlxalq-hüquqi normaların **realizə olunmasının, həyata keçirilməsinin** nəticəsidir. Belə ki, dövlətlər və digər subyektlər yalnız öz aralarında beynəl-

[1] *Məsələn, bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 81-84; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.161-162 və s.

xalq publik hüquq münasibətlərinə daxil olduqları halda müvafiq beynəlxalq publik hüquq normaları realizə olunur.

Qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq normaları subyektlər (dövlətlər və s.) üçün beynəlxalq subyektiv hüquqlar və beynəlxalq-hüquqi vəzifələr müəyyənləşdirir. Subyektlər dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinə daxil olduqda onlar beynəlxalq publik hüquq normalarında nəzərdə tutulmuş müvafiq hüquq və vəzifələr əldə edirlər. Bu isə o deməkdir ki, bu və ya digər dövlətlərarası beynəlxalq publik hüquq münasibətinə daxil olmaqla, subyektlər beynəlxalq publik hüquq normalarında onlar üçün müəyyənləşdirilmiş hüquq və vəzifələri realizə edirlər.[1] Məhz həmin hüquq və vəzifələr vasitəsi ilə subyektlər dövlətlərarası hüquq münasibəti çərçivəsində əlaqəyə girir, bir-biri ilə bağlı olurlar. Buna görə də, dövlətlərarası hüquq münasibətlərinə öz hüquq və vəzifələrini realizə edən (həyata keçirən) subyektlər arasındakı hüquqi əlaqələr kimi baxmaq lazımdır. Odur ki, dövlətlərarası hüquq münasibəti subyektlərin realizə etdikləri hüquq və vəzifələr arasındakı qarşılıqlı əlaqəni ifadə edir.

Dövlətlərarası hüquq münasibətləri anlayışının məna yükü dövlətlərin və digər subyektlərin müvafiq hüquq və vəzifələr vasitəsilə bir-biri ilə əlaqədə olduqları beynəlxalq publik münasibətləri ehtiva edir.

Dövlətlərarası hüquq münasibəti, qeyd etməliyik ki, hüquq münasibəti növlərindən biridir. Buna görə də, istənilən hüquq münasibəti kimi, onun da öz daxili quruluşu vardır.

Dövlətlərarası beynəlxalq hüquq münasibətinin **daxili quruluşu** dedikdə onun ibarət olduğu elementlər (tərkib hissələr) başa düşülür. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin tərkibi özündə məhz aşağıdakı elementləri birləşdirir: subyektlər; məzmun; obyekt.

[1] Международное право. Учебник / Отв.ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с. 39.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin subyektləri dedikdə həmin münasibətin iştirakçıları başa düşülür ki, onlar beynəlxalq subyektiv hüquqlara malik olub, beynəlxalq-hüquqi vəzifələr daşıyırlar. Yalnız dövlətlərarası sistem iştirakçıları (məsələn, dövlətlər, dövlətlərarası beynəlxalq təşkilatlar və s.) dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin subyektləri ola bilərlər. **Dövlətlərarası sistem iştirakçıları** isə, əvvəllərdə qeyd etdiyimiz kimi, dövlət hakimiyyətinin daşıyıcılarıdır. Başqa sözlə, dövlətlərarası sistem iştirakçıları dövlət hakimiyyəti səlahiyyətlərini (funksiyalarını) həyata keçirən qurumlardır və dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri də məhz onlar arasında yaranır. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərində subyekt qismində çıxış etmələri üçün həmin qurumlar **beynəlxalq publik hüquq subyektliyinə** malik olmalıdırlar.[1] Əgər beynəlxalq publik hüquq subyektliyi yoxdursa, onlar dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin subyekti ola bilməzlər. Beynəlxalq publik hüquq subyektliyinə malik olmadıqlarına görə nə bələdiyyələr, nə hüquqi şəxslər, nə də fiziki şəxslər (vətəndaşlar, əcnəbilər, ikiqat vətəndaşlığı olan şəxslər və s.) dövlətlərarası beynəlxalq hüquq münasibətlərində subyekt kimi iştirak edə bilərlər;[2] onlar yalnız qeyri-hakimiyyət xarakterli (qeyri-dövlətlərarası) beynəlxalq münasibətlərin subyekti ola bilərlər. Nəzərə almaq lazımdır ki, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin davranışı beynəlxalq publik hüquqla tənzimlənmir, çünki beynəlxalq publik hüquq dövlətlərarası hüquqdur. Bu səbəbdən onların davranışının beynəlxalq publik hüquqla tənzimlənməsi və dövlətlərarası beynəlxalq publik hüquq mü-

[1] Beynəlxalq hüquq subyektliyi barədə dərsliyin «Beynəlxalq hüququn subyektləri» adlı fəslinə ətraflı baxın.

[2] Müəlliflərdən P.N.Biryukov beynəlxalq (dövlətlərarası) hüquq münasibətlərinin subyektləri sırasında bələdiyyə, fiziki və hüquqi şəxslərin də adını çəkir *(bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 81). Lakin, nəzərə almaq lazımdır ki, belə şəxslər qeyri-hakimiyyət xarakterli beynəlxalq (qeyri-dövlətlərarası) münasibətlərin subyekti kimi çıxış edə bilərlər.

nasibətlərinin subyekti olmaları qeyri-mümkündür. Bu kateqoriyalı subyektlər yalnız beynəlxalq xüsusi, yəni qeyri-dövlətlərarası hüquq münasibətlərinin subyekti ola bilərlər. Ona görə ki, onların davranışı beynəlxalq xüsusi hüquqla tənzimlənir.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin məzmunu dedikdə bu münasibətdə iştirak edən subyektlərin beynəlxalq subyektiv hüquqları və beynəlxalq-hüquqi vəzifələri başa düşülür. Buna görə də, dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin məzmunu aşağıda göstərilən **iki elementdən** ibarətdir:

- beynəlxalq subyektiv hüquq;
- beynəlxalq-hüquqi vəzifə.

Qeyd etmək vacibdir ki, dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri, istənilən hüquq münasibəti kimi, ən azı iki tərəf (iki subyekt) arasında yaranır. Məlum məsələdir ki, əgər tərəflərdən (subyektlərdən) biri olmazsa, onda dövlətlərarası beynəlxalq publik hüquq münasibəti də yaranmaz. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətində iştirak edən tərəflərdən biri beynəlxalq subyektiv hüquqa malik olur – həmin tərəfə **səlahiyyətli subyekt (tərəf)** deyilir. Özünə məxsus olan beynəlxalq subyektiv hüquqdan istifadə etmək və onu həyata keçirmək səlahiyyətli subyektin iradəsindən asılıdır. Buna görə də, beynəlxalq subyektiv hüququ həyata keçirmək və ondan istifadə etmək səlahiyyətli subyektin vəzifəsi (borcu) sayılmır.

Beynəlxalq subyektiv hüquq dedikdə dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin tərəflərindən biri olan səlahiyyətli şəxsə verilən hüquqi imkan başa düşülür. Səlahiyyətli subyektin mümkün davranış ölçüsü olan beynəlxalq subyektiv hüquq başqa tərəfin, yəni dövlətlərarası beynəlxalq publik hüquq münasibətində iştirak edən ikinci (qarşı) tərəfin müvafiq vəzifəsi ilə təmin olunur – həmin tərəfə **borclu subyekt** deyilir; beynəlxalq-hüquqi vəzifə məhz onun üzərinə düşür. Başqa sözlə, beynəlxalq-hüquqi vəzifəni dövlətlərarası beynəlxalq

publik hüquq münasibətinin digər tərəfi olan borclu subyekt daşıyır. Səlahiyyətli tərəf ona məxsus olan beynəlxalq subyektiv hüquqdan istifadədən imtina etdiyi halda, borclu subyekt beynəlxalq-hüquqi vəzifədən imtina edə bilməz. Ona görə ki, beynəlxalq-hüquqi vəzifənin borclu subyekt tərəfindən yerinə yetirilməsi məcburidir, yəni o, öz üzərinə düşən beynəlxalq-hüquqi vəzifəni məcburi surətdə icra etməlidir.

Beynəlxalq-hüquqi vəzifə dedikdə dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin tərəflərindən biri olan borclu subyektin zəruri və lazımi davranış ölçüsü başa düşülür. Onun aşağıda göstərilən **iki əsas forması** vardır:

– aktiv beynəlxalq-hüquqi vəzifə;

– passiv beynəlxalq- hüquqi vəzifə.

Aktiv beynəlxalq-hüquqi vəzifə dedikdə borclu subyektin səlahiyyətli subyektin xeyrinə etməyə borclu olduğu hərəkət başa düşülür. Bu formada vəzifə borclu subyektin bu və ya digər hərəkəti etmək öhdəliyini ifadə edir. Məsələn, dövlət öz ərazisində yerləşən xarici diplomatik nümayəndəliklərin binalarının lazımi qaydada qorunmasını təmin etməlidir.

Passiv beynəlxalq-hüquqi vəzifə dedikdə borclu subyektin bu və ya digər hərəkəti etməkdən çəkinmək öhdəliyi başa düşülür (məsələn, dövlətin başqa dövlətin daxili işlərinə qarışmamaq vəzifəsi və s.). Əgər borclu subyekt öz üzərinə hər hansı hərəkəti etməmək öhdəliyi götürərsə, bu, passiv formada beynəlxalq-hüquqi vəzifəyə misaldır.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin məzmununu təşkil edən elementlər (beynəlxalq subyektiv hüquq və beynəlxalq-hüquqi vəzifələr) bir-biri ilə qarşılıqlı surətdə əlaqədədir. Belə ki, borclu subyekt səlahiyyətli subyektin malik olduğu hüquqa uyğun olan və müvafiq gələn vəzifə daşıyır. Nəzərə almalıyıq ki, beynəlxalq publik hüquq normasının məzmununu təşkil edən beynəlxalq-hüquqi vəzifə və beynəlxalq subyektiv hüquq həm də dövlətlərarası beynəlxalq hüquq münasibətinin məzmununa daxil olan elementlərdir. Ona görə

ki, beynəlxalq publik hüquq normasında nəzərdə tutulan müvafiq hüquq və vəzifələr dövlətlərarası beynəlxalq publik hüquq münasibəti çərçivəsində realizə olunur, həyata keçirilir. Realizə olunan (həyata keçirilən) həmin hüquq və vəzifələr də məhz dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin məzmununu təşkil edir.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin obyekti dedikdə elə bir predmet başa düşülür ki, subyektlərin beynəlxalq subyektiv hüquqları və beynəlxalq-hüquqi vəzifələri həmin predmetə yönəlir və məhz həmin predmet barəsində onlar öz aralarında dövlətlərarası beynəlxalq publik hüquq münasibətinə girirlər. Obyektsiz hər hansı hüquq münasibətinin, o cümlədən dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin yaranması və mövcud olması qeyri-mümkündür.[1]

Qeyd etməliyik ki, dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri kifayət dərəcədə müxtəlifdir və onların obyektlərini **üç növə** bölmək olar:

- subyektlərin davranışı;
- maddi nemətlər;
- qeyri-maddi nemətlər.

Subyektlərin davranışı dedikdə onların hərəkət və ya hərəkətsizliyi başa düşülür. Əgər hər hansı əməl (hərəkət və ya hərəkətsizlik) barəsində subyektlər arasında bu və ya digər beynəlxalq publik hüquq münasibəti yaranarsa, davranış bu münasibətin obyekti hesab ediləcəkdir. Məsələn, iki dövlət öz aralarında hücum etməmək barədə beynəlxalq müqavilə bağlayır və belə halda yaranmış dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin obyekti qismində dövlətlərin hərəkətsizliyi (davranışı) çıxış edir; başqa bir misalda, əgər iki dövlət öz aralarında bu və ya digər sahədə beynəlxalq əməkdaşlığı həyata

[1] İ.İ.Lukaşuk güman edir ki, hüquq münasibətinin elementləri subyektlərdən, habelə hüquq və vəzifələrdən ibarətdir. Bu isə o deməkdir ki, müəllif obyekti hüquq münasibətinin elementi hesab etmir *(bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.161).

keçirərlərsə, belə halda yaranmış dövlətlərarası hüquq münasibətinin obyektini hərəkət təşkil edir.

Maddi nemətlər dedikdə, əsasən, əmlak xarakterli predmetlər (məsələn, əmlak, ərazi və s.) başa düşülür və bu predmetlərin iqtisadi məzmunu vardır. Məsələn, iki dövlət arasında ərazi barədə beynəlxalq müqavilə bağlanır və ərazi bu zaman yaranmış dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin obyekti sayılır. Hər hansı əmlakın (məsələn, texnikanın) müəyyən bir dövlət tərəfindən digər dövlətə verilməsi zamanı da dövlətlərarası beynəlxalq publik hüquq münasibəti yaranır; bu münasibətin obyektini isə həmin əmlak təşkil edir.

Qeyri-maddi nemətlərə gəldikdə isə, qeyd etməliyik ki, belə nemətlərin iqtisadi məzmunu yoxdur. Buna görə də, onlar qeyri-əmlak xarakterli nemətlər hesab edilir. Məsələn, fiziki şəxslərin həyatı, sağlamlığı və s. qeyri-maddi nemətlərdir. Əgər fiziki şəxslərin həyat və sağlamlığının beynəlxalq səviyyədə qorunması barədə dövlətlərarası hüquq münasibəti yaranarsa, həmin münasibətin obyekti qismində qeyri-maddi nemət çıxış edir.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin obyektini beynəlxalq publik hüququn obyektindən fərqləndirmək lazımdır. **Beynəlxalq publik hüququn obyekti** dedikdə obyektiv mənada beynəlxalq publik hüququn nizamasalma predmeti, yəni tənzimlədiyi dövlətlərarası ictimai münasibətlər başa düşülür.[1] Buna görə də, «beynəlxalq publik hüququn obyekti» və «beynəlxalq publik hüququn nizamasalma predmeti» eynimənalı, məzmunca üst-üstə düşən anlayışlardır.[2]

---

[1] Bəzi müəlliflər göstərirlər ki, beynəlxalq hüququn obyektini maddi və qeyri-maddi nemətlər təşkil edir *(məsələn, bax:* Международное право. Учебник / Под ред. А.И. Микульшина. М., 2005, с.14).

[2] *Bəzən həmin anlayışları bir-birindən fərqləndirən müəlliflərə də rast gəlinir: məsələn,* A.N.Talalayev yazır ki, beynəlxalq hüququn obyektini hərəkət, maddi və qeyri-maddi nemətlər təşkil edir; subyektlər onlarla bağlı olaraq hüquq münasibətinə girirlər *(bax:* Талалаев А.Н. Право международных договоров. М., 1980, с.106-107).

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin elementlərini aydın şəkildə başa düşmək üçün misala müraciət edək. Məsələn, hər hansı dövlət öz hava məkanından başqa dövlətin istifadə etməsi barədə onunla beynəlxalq müqavilə bağlayır və belə halda dövlətlərarası beynəlxalq publik hüquq münasibəti yaranır; müqavilə bağlayan dövlətlər həmin münasibətin subyektləri (tərəfləri) sayılır: öz hava məkanından başqa dövlətin istifadə etməsinə icazə verən dövlət borclu subyekt, istifadəçi dövlət isə səlahiyyətli subyekt sayılır. Onların müvafiq hüquq və vəzifəsi yaranmış dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin məzmununu təşkil edir. Borclu subyektin üzərinə öz hava məkanından səlahiyyətli subyektin istifadə etməsinə imkan vermək kimi vəzifə düşür; səlahiyyətli subyekt isə borclu subyektdən hava məkanından istifadə olunmasına imkan verməyi tələb etmək kimi hüquqa malikdir. Hava məkanından istifadə etmək kimi hərəkət (davranış) göstərdiyimiz beynəlxalq publik hüquq münasibətinin obyektidir.

Qeyd etmək lazımdır ki, istənilən hüquq münasibəti kimi, dövlətlərarası beynəlxalq publik hüquq münasibəti də bu və ya digər hüquqi fakt olmadan yarana bilməz. Belə ki, beynəlxalq-hüquqi normalar özlüyündə dövlətlərarası beynəlxalq publik hüquq münasibətini əmələ gətirmir. Bundan ötrü beynəlxalq publik hüquq normalarında nəzərdə tutulan halların olması tələb edilir; həmin hallar «hüquqi faktlar» adlanır.

Beynəlxalq publik hüquqda hüquqi faktlar dedikdə beynəlxalq-hüquqi normalarda nəzərdə tutulan elə hallar başa düşülür ki, həmin hallar dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin yaranmasına, dəyişilməsinə və ya ləğv edilməsinə səbəb olur. Məsələn, beynəlxalq publik hüquq normalarında dövlətlərin öz aralarında beynəlxalq ticarət münasibətinə daxil olmaq imkanı nəzərdə tutulur. Lakin bu, özlüyündə heç də dövlətlərarası beynəlxalq ticarət münasibətinin yaranmasına səbəb olmur. Bundan ötrü, yəni belə münasibətin yaranması üçün dövlətlərin bir-birilə beynəlxalq ticarət sazişi bağlamaları lazımdır. Dövlətlərin öz aralarında beynəlxalq tica-

rət sazişi bağlamaları hüquqi faktdır. Beynəlxalq müqavilələri ratifikasiya etmək, beynəlxalq konvensiyaya qoşulmaq, dövlətlərarası beynəlxalq təşkilatlara üzv olmaq və digər məsələlər barədə qərarlar qəbul edilməsi də hüquqi fakt sayılır. Məsələn, dövlətlərarası beynəlxalq nəqliyyat-hüquq münasibətlərinin yaranması üçün bu və ya digər dövlətin beynəlxalq nəqliyyat konvensiyasına qoşulmaq barədə müvafiq qərar qəbul etməsi gərəkdir. Göstərdiklərimiz (beynəlxalq müqavilə bağlamaq, beynəlxalq konvensiyaya qoşulmaq və s.) hüquqi faktların hərəkət növünə aid edilir. **Beynəlxalq publik hüquqda hərəkət** dedikdə elə hüquqi fakt başa düşülür ki, həmin fakt dövlətlərarası beynəlxalq publik hüquq münasibəti iştirakçılarının iradəsi ilə baş verir. Hərəkət (daha doğrusu, «hüquqi hərəkət»), xüsusən də, beynəlxalq müqavilə bağlamaq beynəlxalq-hüquqi faktların ən geniş yayılmış növüdür. Bu, beynəlxalq publik hüququn koordinasiya xarakterli hüquq olmasından irəli gəlir. Qeyd etmək lazımdır ki, müasir dövrdə beynəlxalq orqanların (məsələn, BMT Təhlükəsizlik Şurasının) müvafiq qərar qəbul etməsi kimi hüquqi faktların rolu artmışdır. Beynəlxalq-hüquqi hərəkət həm hüquqauyğun (məsələn, beynəlxalq müqavilə bağlamaq və s.), həm də hüquqazidd formada (məsələn, zərər vurmaq) ola bilər.

Hadisələr (hüquqi hadisələr) beynəlxalq hüquqi faktların digər növü sayılır. **Beynəlxalq publik hüquqda hadisə** dedikdə dövlətlərarası beynəlxalq publik hüquq münasibəti iştirakçılarının iradəsindən asılı olmadan baş verən hüquqi faktlar başa düşülür (məsələn, təbii fəlakət, torpaq-yer sürüşməsi və s.). Qeyri-iradi hüquqi fakt olan hadisə də müəyyən hallarda dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin yaranmasına səbəb ola bilər.

Göründüyü kimi, dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin yaranması üçün təkcə beynəlxalq publik hüquq normalarının mövcudluğu kifayət etmir; bunun üçün həm də beynəlxalq-hüquqi faktların olması zəruridir. Bu səbəbdən **beynəlxalq publik hüquq normaları** və **beynəlxalq-hüquqi fakt-**

lar dövlətlərarası beynəlxalq hüquq münasibətlərinin **ilkin şərtləridir;** belə şərtlər sırasına həm də **beynəlxalq publik hüquq subyektliyi** aiddir. Yalnız göstərdiyimiz bütün ilkin şərtlərin hamısı (beynəlxalq publik hüquq norması, beynəlxalq-hüquqi fakt, beynəlxalq publik hüquq subyektliyi) mövcud olduqda dövlətlərarası publik hüquq münasibətləri yaranır.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinə, yəni beynəlxalq publik hüquq normaları ilə tənzimlənən və dövlətlərarası münasibətlər sistemində çıxış edən subyektlərin iştirakı ilə yaranan hüquq münasibətlərinə beynəlxalq-öhdəlik hüquq münasibətləri və ya sadəcə olaraq, beynəlxalq-hüquqi öhdəliklər deyilir.[1] Beynəlxalq-hüquqi öhdəliklər dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərini ifadə və əhatə etmək üçün işlədilən anlayışdır. Belə ki, dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərində iştirak edən subyektlər beynəlxalq-hüquqi vəzifə daşıyırlar; həmin vəzifəyə beynəlxalq-hüquqi öhdəlik də deyilir. Beynəlxalq-hüquqi vəzifənin (öhdəliyin) mahiyyəti isə iki müxtəlif formada ifadə olunur: **birinci**, borclu subyektin səlahiyyətli subyektin xeyrinə aktiv və müsbət hərəkətlər etmək zərurətində [məsələn, hər hansı ölkə (borclu subyekt) xarici dövlətin (səlahiyyətli subyektin) diplomatik nümayəndəliyinin mühafizəsini təmin edən aktiv və müsbət hərəkətlər edir]; **ikinci**, beynəlxalq-hüquqi vəzifə (öhdəlik) borclu subyektin beynəlxalq publik hüquq normaları ilə qadağan olunmuş hərəkətləri etməkdən çəkinməsində ifadə olunur [məsələn, müəyyən bir ölkə (borclu subyekt) xarici dövlətin (səlahiyyətli subyektin) daxili işlərinə qarışmaqdan çəkinir].

Beynəlxalq-hüquqi öhdəlik dedikdə dövlətlər arasında yaranan elə bir beynəlxalq publik hüquq münasibəti başa düşülür ki, bu münasibətin iştirakçısı olan bir tərəf (borclu subyekt) başqa tərəfin (səlahiyyətli subyektin) xeyrinə aktiv və müsbət hərəkətlər edir, ya da beynəlxalq publik hüquq normaları ilə

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В. Черниченко. М., 2008, с. 38.

qadağan edilmiş müəyyən hərəkətləri etməkdən çəkinir, səlahiyyətli subyekt isə borclu subyektdən həmin vəzifənin icrasını tələb edir.

Bəzən, hər hansı subyekt, xüsusilə də, dövlətlər birtərəfli qaydada öz üzərlərinə bu və ya digər beynəlxalq-hüquqi öhdəlik götürürlər (məsələn, nüvə sınağı keçirməmək barədə öhdəlik və s.); belə halda, öhdəlik götürülməsinə baxmayaraq, beynəlxalq-öhdəlik hüquq münasibəti yaranmır. Belə ki, istənilən hüquq münasibəti kimi, dövlətlərarası beynəlxalq publik hüquq münasibəti də yalnız ən azı iki tərəf (subyekt) arasında yarana bilər. Bu, aydın məsələdir. Ona görə də, hər hansı bir subyekt öz üzərinə birtərəfli qaydada bu və ya digər öhdəlik götürəndə beynəlxalq-öhdəlik hüquq münasibəti əmələ gələ bilməz.

4.1.5. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin növləri

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri ayrı-ayrı əlamətlərə görə müxtəlif növlərə bölünür. **Məzmun əlamətinə** görə, onların aşağıdakı növləri fərqləndirilir:

- dövlətlərarası beynəlxalq-iqtisadi publik hüquq münasibətləri;
- dövlətlərarası beynəlxalq-ekoloji publik hüquq münasibətləri;
- dövlətlərarası beynəlxalq-kosmos publik hüquq münasibətləri;
- dövlətlərarası beynəlxalq-humanitar publik hüquq münasibətləri;
- dövlətlərarası beynəlxalq-dəniz publik hüquq münasibətləri;
- dövlətlərarası beynəlxalq-hava publik hüquq münasibətləri;

– dövlətlərarası beynəlxalq-cinayət publik hüquq münasibətləri;
– xarici əlaqələr üzrə dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri;
– digər növ beynəlxalq hüquq münasibətləri.

Yaranma (əmələgəlmə) əlamətindən asılı olaraq dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri iki növə bölünür:
– tənzimləyici dövlətlərarası beynəlxalq publik hüquq münasibəti;
– mühafizəedici dövlətlərarası beynəlxalq publik hüquq münasibəti.

Hüquq nəzəriyyəsində, məlum olduğu kimi, hərəkətlər iki cür olur:[1] hüquqauyğun hərəkətlər, hüquqazidd hərəkətlər. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin yuxarıdakı növləri də bir-birindən məhz buna uyğun olaraq fərqləndirilir.

Tənzimləyici dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri dedikdə subyektlərin hüquqauyğun hərəkətlərindən yaranan beynəlxalq münasibətlər başa düşülür. Həmin münasibətlərin əsasında subyektlər üçün davranış qaydaları müəyyənləşdirən beynəlxalq publik hüquq normaları durur və bu normalara əsasən də, tənzimləyici hüquq münasibətləri yaranır. Məsələn, iki dövlət öz aralarında beynəlxalq müqavilə bağlayırlar; dövlət hər hansı beynəlxalq konvensiyaya qoşulmaq barədə qərar qəbul edir; dövlətin hər hansı hökumətlərarası beynəlxalq təşkilata üzv qəbul olunması barədə qərar çıxarılır və s. Göstərilən hallarda tənzimləyici beynəlxalq publik hüquq münasibətləri yaranır ki, onların əmələgəlmə əsasını beynəlxalq müqavilə bağlamaq, beynəlxalq konvensiyaya qoşulmaq və digər hüquqauyğun hərəkətlər təşkil edir.

Mühafizəedici dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri dedikdə subyektlərin hüquqazidd hərəkətlərin-

[1] Xropanyuk N.V. Dövlət və hüquq nəzəriyyəsi. Bakı, 1995, s.157.

dən əmələ gələn beynəlxalq münasibətlər başa düşülür. Əgər beynəlxalq münasibət subyektləri (məsələn, dövlət və s.) beynəlxalq publik hüquq normaları ilə onların üzərinə qoyulmuş beynəlxalq-hüquqi öhdəlikləri pozarlarsa, hüquqazidd hərəkətə yol vermiş olarlar. Buna görə də, **beynəlxalq publik hüquqda hüquqazidd hərəkət** dedikdə subyektlər üçün beynəlxalq-hüquqi öhdəlik müəyyənləşdirən beynəlxalq publik hüquq normaları və həmin subyektlərin etdikləri hərəkətlər arasında ziddiyyətin olması başa düşülür. Məsələn, hər hansı dövlət başqa dövlətin ərazisinin bir hissəsini işğal edir; bununla həmin dövlət beynəlxalq-hüquqazidd hərəkətə yol verir. Bu baxımdan, göstərilən halda iki dövlət arasında mühafizəedici beynəlxalq publik hüquq münasibəti yaranır.

Mühafizəedici beynəlxalq publik hüquq münasibətləri subyektlərin **hüquqazidd hərəkətsizliyindən** də yarana bilər; həm hüquqazidd hərəkətə, həm də hüquqazidd hərəkətsizliyə **beynəlxalq-hüquqazidd əməl** deyilir. Beynəlxalq-hüquqazidd əməl, qeyd etməliyik ki, subyektlərin öz beynəlxalq-hüquqi öhdəliklərinə zidd olan hərəkət və ya hərəkətsizliyidir.[1] Buna görə də, mühafizəedici dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri subyektlərin təkcə hüquqazidd hərəkətlərindən deyil, həm də hüquqazidd hərəkətsizliyindən, bir sözlə, beynəlxalq-hüquqazidd əməldən (davranışdan) yaranır.

Mühafizəedici dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri beynəlxalq-hüquqazidd əməl törədən subyekt üçün arzuolunmaz mənfi hüquqi nəticələrə səbəb olur. Həmin subyekt vurduğu zərərin əvəzini ödəməli və ya beynəlxalq-hüquqazidd əməlinin nəticələrini digər üsullarla aradan qaldırmalıdır.[2]

Subyektlər törətdikləri beynəlxalq-hüquqazidd əmələ görə beynəlxalq-hüquqi məsuliyyət daşıyırlar. Buna görə də, müha-

[1] Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.84.
[2] Тункин Г.И. Теория международного права. М., 2000, с.339.

fizəedici beynəlxalq publik hüquq münasibəti beynəlxalq-məsuliyyət hüquq münasibətidir;[1] həm də ona görə ki, mühafizəedici beynəlxalq publik hüquq münasibəti beynəlxalq-hüquqi məsuliyyətə səbəb olur.

Subyekt tərkibi kimi əlamətə görə, yəni hansı kateqoriya subyektlərin iştirakı ilə yaranmasından asılı olaraq, dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri bir neçə növə bölünür:

- dövlətlər arasında yaranan beynəlxalq publik hüquq münasibətləri;
- dövlətlər və hökumətlərarası/dövlətlərarası beynəlxalq təşkilatların iştirakı ilə yaranan beynəlxalq publik hüquq münasibətləri;
- dövlətlər və dövlətəoxşar qurumlar (məsələn, Vatikan) arasındakı beynəlxalq publik hüquq münasibətləri;
- hökumətlərarası/dövlətlərarası beynəlxalq təşkilatların özlərinin iştirakı ilə yaranan beynəlxalq publik hüquq münasibətləri;
- dövlətlər və öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millətlər (xalqlar) və ya milli siyasi təşkilatlar (məsələn, Fələstin Azadlıq Təşkilatı) arasındakı beynəlxalq publik hüquq münasibətləri;
- öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millətlərlə (xalqlarla) və ya milli siyasi təşkilatlarla hökumətlərarasıdövlətlərarası beynəlxalq təşkilatlar arasındakı beynəlxalq publik hüquq münasibətləri və s.

Göstərilən siyahıya hökumətlərarasıdövlətlərarası beynəlxalq təşkilatların (məsələn, Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Ticarət Təşkilatının və s.) öz daxilində yaranan hüquq münasibətlərini də əlavə etmək olar ki, onlara **hökumətlərarası/dövlətlərarası beynəlxalq təşkilatların daxili hüquq müna-**

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.162.

sibətləri deyilir; çünki belə təşkilatların üzvləri ayrı-ayrı, müxtəlif dövlətlərdən ibarətdir. Təbii ki, iştirakçı-dövlətlərin üzv olduqları beynəlxalq təşkilatlar daxilindəki hüquq münasibətlərində olmaları mümkündür. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, beynəlxalq publik hüquq həm də beynəlxalq təşkilatların daxili münasibətlərini tənzimləyir;[1] tənzimlənmə nəticəsində onlar təşkilatdaxili hüquq münasibətləri kimi hüquqi forma alır.

Beynəlxalq subyektiv hüquq və beynəlxalq-hüquqi vəzifələrin **tərəflər arasında bölünməsinə** görə, dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin iki növü fərqləndirilir:

- birtərəfli dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri;
- ikitərəfli dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri.

Əgər dövlətlərarası beynəlxalq publik hüquq münasibətində tərəflərdən biri yalnız beynəlxalq-hüquqi vəzifə daşıyarsa, digər tərəf isə yalnız bu vəzifəyə uyğun gələn beynəlxalq subyektiv hüquqa malik olarsa, o, **birtərəfli dövlətlərarası publik hüquq münasibəti** hesab edilir. Məsələn, iki dövlət öz aralarında müəyyən əmlakın verilməsi barədə beynəlxalq müqavilə bağlayır. Bu zaman yaranmış dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin tərəflərindən biri yalnız vəzifə (əmlakı qarşı tərəfə vermək vəzifəsi) daşıyır, digər tərəf isə bu vəzifəyə uyğun gələn hüquqa (əmlakın verilməsini qarşı tərəfdən tələb etmək hüququna) malik olur.

İkitərəfli dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri dedikdə elə hüquq münasibətləri başa düşülür ki, bu münasibətlərdə iştirak edən tərəflərdən hər biri eyni vaxtda həm beynəlxalq subyektiv hüquqlara malik olur, həm də beynəlxalq-hüquqi vəzifələr daşıyır. Başqa sözlə, bu növ hüquq münasibətləri tərəflər üçün qarşılıqlı beynəlxalq subyektiv hüquq və beynəlxalq-hüquqi vəzifələr yaradır. Buna görə də, on-

[1] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 9.

lara həm də **qarşılıqlı dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri** deyilir. Bu növ beynəlxalq publik hüquq münasibətinin hər bir tərəfi, eyni zamanda, həm borclu, həm də səlahiyyətli subyekt hesab olunur. Məsələn, iki dövlət öz aralarında hücum etməmək barədə beynəlxalq müqavilə bağlayır və bu zaman yaranmış dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin hər bir tərəfi həm vəzifə (hücum etməmək vəzifəsi) daşıyır, həm də müvafiq hüquqa (hücum etməməyi tələb etmək hüququna) malik olur. Buna görə də, tərəflərdən hər biri eyni vaxtda həm borclu, həm də səlahiyyətli subyektdir.

Dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri, adətən, ikitərəfli (qarşılıqlı) hüquq münasibəti növündə yaranır ki, bu növ beynəlxalq publik hüquq münasibəti müqayisəedilməz dərəcədə üstünlük təşkil edir.

İştirakçıların sayından asılı olaraq, dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri iki növə bölünür:

- sadə dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri;
- mürəkkəb dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri.

Sadə dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri dedikdə iki tərəf (dövlətlərarası münasibətlərin iki iştirakçısı) arasında yaranan beynəlxalq publik hüquq münasibətləri başa düşülür; bu növ hüquq münasibətində yalnız iki tərəf iştirak edir. Məsələn, iki dövlət tərəfindən ərazi, əməkdaşlıq, hücum etməmək, investisiya, nəqliyyat və digər sahələrdə beynəlxalq müqavilə bağlanması nəticəsində ikitərəfli dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri yaranır.

Əgər dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri ikidən çox tərəf arasında yaranarsa, belə münasibətlər **mürəkkəb dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri** adlanır. Məsələn, çoxtərəfli beynəlxalq müqavilə iştirakçıları

arasında yaranan beynəlxalq publik hüquq münasibətləri bu növ hüquq münasibətinə misaldır.

Mürəkkəb dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin hər bir iştirakçısı bu münasibətin bütün digər iştirakçıları qarşısında beynəlxalq-hüquqi vəzifə (beynəlxalq hüquq öhdəliyi) daşıyır; onun üzərinə iştirakçılardan hər birinə münasibətdə, ayrıca olaraq, bəzi vəzifələr qoyula bilər.

«Erga omnes»[1] mürəkkəb (çoxtərəfli) dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin xüsusi növüdür. Bu növ beynəlxalq publik hüquq münasibətinin hər bir iştirakçısı dünya birliyinin bütün üzvlərinə münasibətdə, onların qarşısında beynəlxalq-hüquqi vəzifə daşıyır. Məsələn, beynəlxalq münasibətlərdə güc tətbiq edilməməsi ilə bağlı yaranan beynəlxalq publik hüquq münasibəti «erga omnes» hüquq münasibətinə misaldır.

Mövcudolma müddətinə görə, dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin iki növü vardır:

- müddətli dövlətlərarası beynəlxalq publik hüquq münasibəti;
- müddətsiz dövlətlərarası beynəlxalq publik hüquq münasibəti.

Müddətli dövlətlərarası beynəlxalq publik hüquq münasibəti konkret müəyyənləşdirilmiş vaxt ərzində mövcud olan beynəlxalq hüquq münasibətinə deyilir. Müəyyən edilmiş vaxt başa çatdıqda bu növ münasibət qüvvədən düşür. Məsələn, iki dövlət öz aralarında hücum etməmək barədə 20 il müddətinə beynəlxalq müqavilə bağlayırlar. İnvestisiyaların müdafiəsi ilə bağlı yaranan ikitərəfli dövlətlərarası hüquq münasibətləri də müddətli beynəlxalq publik hüquq münasibətinə misaldır, çünki həmin hüquq münasibətlərinin yaranmasına səbəb olan ikitərəfli investisiya sazişləri, bir qayda olaraq, 5-10 il, bəzi hallarda isə 15-20 il müddətinə bağlanır.

---

[1] *Bu barədə bax:* Словарь международного права / Бацанов С.Б. и др. М., 1986, с.425.

Müddətsiz dövlətlərarası beynəlxalq publik hüquq münasibətinin mövcud olması hər hansı vaxtla məhdudlaşdırılmır. Bu növ beynəlxalq publik hüquq münasibəti qeyri-müəyyən müddətə qüvvədə olur. Başqa sözlə, bu növ beynəlxalq publik hüquq münasibəti əmələ gələn zaman onun hansı vaxta kimi qüvvədə olması müəyyən edilmir. Məsələn, dövlətlərin qeyri-müəyyən müddətə beynəlxalq müqavilə bağlamaları nəticəsində müddətsiz beynəlxalq publik hüquq münasibəti yaranır.

4.2. Beynəlxalq publik hüquq normalarının yaradılma qaydası və xüsusiyyətləri

4.2.1. Beynəlxalq hüquqyaradıcılıq prosesi anlayışı

Beynəlxalq publik hüquq normalarının yaradılması məsələsinə xüsusi və ayrıca olaraq toxunmağımız təsadüfi xarakter daşımır. Əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq-hüquqi normaların yaradılması prosesi beynəlxalq publik hüququ xarakterizə edən əsas hüquqi xüsusiyyətlərdən biri olub, onu dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir. Belə ki, beynəlxalq publik hüquqda normalar xüsusi qaydada yaradılır.

Məlum olduğu kimi, dövlətdaxili (milli) hüquq normaları mərkəzləşdirilmiş qanunvericilik hakimiyyəti, daha dəqiq desək, bu hakimiyyəti həyata keçirməkdən ötrü xüsusi təsis edilmiş qanunvericilik orqanı (parlament) tərəfindən (məsələn, ABŞ-da Konqres, Türkiyə Respublikasında Böyük Millət Məclisi, Polşa Respublikasında Seym, Rusiya Federasiyasında Dövlət Duması, Azərbaycan Respublikasında Milli Məclis və s. tərəfindən) yaradılır; həmin orqan ümumi normativ-hüquqi səlahiyyətə malik olduğuna görə hüquq normaları yaradır.

Dövlətlərarası sistemə gəldikdə isə, qeyd etməliyik ki, bu sistemdə nə ümumi normativ-hüquqi səlahiyyətə malik olan mərkəzləşdirilmiş qanunvericilik hakimiyyəti mövcuddur, nə də qanunvericilik funksiyasını yerinə yetirən və normayaradıcılıq fəaliyyəti ilə məşğul olan xüsusi orqan (parlament) vardır.

Buna görə də, beynəlxalq publik hüquq normaları dövlətlərarası münasibət iştirakçılarının (subyektlərin), ilk növbədə, dövlətlərin özləri tərəfindən qarşılıqlı razılaşma yolu ilə yaradılır.

Beynəlxalq publik hüquq normalarının yaradılmasına yönələn fəaliyyətə **beynəlxalq publik hüquqda norma yaradıcılığı** və yaxud da, sadəcə olaraq, **beynəlxalq hüquq yaradıcılığı** deyilir ki, həmin fəaliyyət bilavasitə dövlətlərarası münasibət iştirakçıları (subyektləri) tərəfindən həyata keçirilir.

Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində göstərilir ki, beynəlxalq publik hüquqda normayaradıcılıq prosesinin həyata keçirilməsinin aşağıdakı əsas üsulları vardır:[1]

- beynəlxalq müqavilə;
- beynəlxalq adət;
- beynəlxalq (dövlətlərarası) təşkilatların qərarları[2].

Beynəlxalq müqavilə yolu ilə yaradılan davranış qaydalarına **beynəlxalq-müqavilə hüquq normaları** deyilir. Qeyd etməliyik ki, bütün beynəlxalq müqavilələr hüquq norması müəyyənləşdirmək və yaratmaq xüsusiyyətinə malikdir. Bununla yanaşı, bəzi müəlliflər göstərirlər ki, beynəlxalq müqavilələrin heç də hamısı hüquq norması yaratmır və müəyyənləşdirmir.[3] Lakin, tam əminliklə deyə bilərik ki, istənilən beynəlxalq müqavilə müəyyən hüquq norması yaradır. Belə ki, beynəlxalq müqavilələr dövlətlərarası münasibət iştirakçıları üçün davranış qaydaları müəyyənləşdirir və onlar həmin qaydalara əməl etməlidir-

[1] Тункин Г.И. Теория международного права. М., 1970, с.101, 162 и 188; Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005, с.53.

[2] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с. 129; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.78.

[3] *Məsələn, bax:* Фердросс А. Международное право / Пер. с нем. М., 1959; Хименес де Аречага Э. Современное международное право / Пер. с исп. М., 1983; Коркунов Н.М. Лекции по международному праву. СПб., 1883-1884 и др.

lər.[1] Dövlətlərarası münasibət iştirakçıları üçün müəyyən olunan davranış qaydalarına isə, bildiyimiz kimi, **beynəlxalq publik hüquq normaları** deyilir.[2]

Bütün beynəlxalq müqavilələrin hüquq norması yaratmasını həm də bununla təsdiq edə bilərik ki, istənilən beynəlxalq müqavilə dövlətlər arasında beynəlxalq-öhdəlik hüquq münasibəti əmələ gətirir.[3] Əvvəllərdə göstərdiyimiz kimi (§4.1.4), dövlətlərarası beynəlxalq-öhdəlik hüquq münasibətinin bir tərəfi beynəlxalq-hüquqi vəzifə daşıyır, digər tərəf isə bu vəzifəyə uyğun gələn beynəlxalq subyektiv hüquqa malik olur. Beynəlxalq-hüquqi vəzifə və beynəlxalq subyektiv hüquq müəyyənləşdirən davranış qaydaları isə beynəlxalq publik hüquq normaları adlanır; onlar birlikdə beynəlxalq publik hüquq normalarının məzmununu təşkil edir. Deməli, istənilən beynəlxalq müqavilə hüquq norması yaratmaq əhəmiyyətinə malikdir.

Beynəlxalq adətlər vasitəsilə yaradılan davranış qaydalarına isə **beynəlxalq-adət hüquq normaları** və ya beynəlxalq-hüquqi adət normaları deyilir. Beynəlxalq publik hüquq norması yaratmağın üsulu kimi beynəlxalq adətlər beynəlxalq münasibətlər sistemində vacib rol oynayır. Lakin, buna baxmayaraq, müasir dövrdə beynəlxalq publik hüquq normaları yaratmağın əsas və başlıca üsulu (yolu) beynəlxalq müqavilə hesab edilir. Buna görə də, beynəlxalq publik hüquq normalarının əksəriyyətini beynəlxalq-müqavilə hüquq normaları təşkil edir.

Beynəlxalq müqavilə və beynəlxalq adət üsulları beynəlxalq hüquq sistemində hüquq norması yaratmağın **ənənəvi üsulları** sayılır. Lakin müasir dövrdə beynəlxalq hüquq norması **qeyri-ənənəvi üsullarla** da yaradılır. Söhbət **dövlətlərarası beynəl-**

---

[1] Кожевников Ф.И. Международное публичное право. Учебное пособие. М., 1947, с.117.

[2] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.25; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 35.

[3] Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. М., 1996, с.393.

xalq təşkilatların beynəlxalq publik hüquq normaları yaratmaq qabiliyyətindən gedir. Demək olar ki, müasir şəraitdə beynəlxalq publik hüquq normalarının yaradılmasında onların rolu getdikcə daha da artır. Belə ki, dövlətlərarası beynəlxalq təşkilatların normativ xarakterli qərarlar qəbul etmək səlahiyyəti vardır; bu qərarlarda beynəlxalq publik hüquq normaları müəyyən olunur.

Qeyd etməliyik ki, həm beynəlxalq-müqavilə hüquq, həm də beynəlxalq-adət hüquq normalarının yaradılmasının özünəməxsus xüsusiyyətləri vardır. Ümumi xüsusiyyət ondan ibarətdir ki, bütün beynəlxalq publik hüquq normaları yalnız dövlətlərarası münasibət iştirakçılarının qarşılıqlı razılığı (iradəsi) əsasında yaradılır. Beynəlxalq-müqavilə hüquq normaları müəyyənləşdirilən zaman iştirakçıların razılığı (iradəsi) açıq şəkildə ifadə olunur. Beynəlxalq-adət hüquq normaları yaradıldıqda isə razılıq (iradə) susmaq yolu ilə bildirilir[1] (buna dinməz razılıq deyilir); çünki susmaq razılıq əlamətidir. Başqa sözlə, susmaq (dinməz razılıq) öz-özlüyündə razılığı (iradəni) ifadəetmə və bildirmə vasitəsidir.

4.2.2. Beynəlxalq-müqavilə hüquq normalarının yaradılmasının xüsusiyyətləri

Beynəlxalq-müqavilə hüquq normalarının yaradılması mürəkkəb prosesdir. Bu proses, beynəlxalq hüquq dərsliklərində göstərildiyi kimi, iki mərhələdən ibarətdir.[2] **Birinci mərhələ** dövlətlərarası münasibət iştirakçılarının, məsələn, dövlətlərin

[1] Международное право. Учебник / Отв.ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.39; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 26.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.122-123; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 72.

və digər subyektlərin **davranış qaydalarının məzmunu barədə razılığa nail olmaq mərhələsi** adlanır. Sözügedən mərhələdə dövlətlər öz iradələrini bildirərək qarşılıqlı razılıq əldə edirlər. Belə ki, davranış qaydaları kimi müəyyənləşdirilən istənilən hüquq normasında, o cümlədən beynəlxalq publik hüquq normalarında dövlət iradəsi ifadə olunmalıdır.[1]

Bildiyimiz kimi, dövlətlərin ehtiyac, mənafe və maraqları tələb edir ki, onlar beynəlxalq münasibətlərə girsinlər. **Beynəlxalq münasibətlər** dedikdə dövlətlərin elə bir qarşılıqlı fəaliyyəti başa düşülür ki, bu fəaliyyət onların tələbat və ehtiyaclarının ödənilməsinə, mənafe və maraqlarının təmin edilməsinə yönəlir. Dövlətlərin qarşılıqlı fəaliyyətini, yəni beynəlxalq münasibətləri tənzimləmək üçün isə, təbii ki, beynəlxalq müqavilələr bağlanılmaqla müvafiq davranış qaydaları müəyyən edilməlidir. Davranış qaydalarında dövlətlər üçün hüquq və vəzifələr nəzərdə tutulur ki, bu yolla onlar öz aralarındakı qarşılıqlı münasibətləri tənzimləyirlər; məhz həmin qaydalara beynəlxalq publik hüquq normaları deyilir. Deməli, dövlətlər öz aralarında o məqsədlə beynəlxalq müqavilə bağlayırlar ki, beynəlxalq publik hüquq normaları müəyyənləşdirsinlər və onların köməyi ilə beynəlxalq (dövlətlərarası) münasibətləri tənzimləsinlər. Bu, beynəlxalq müqavilə bağlamağın **hüquqi məqsədidir.** Qeyd etməliyik ki, hüquqi məqsəd həyata keçiriləndə dövlətlər üçün beynəlxalq publik hüquq normalarında nəzərdə tutulan beynəlxalq subyektiv hüquq və beynəlxalq-hüquqi vəzifə yaranır, yəni beynəlxalq-hüquqi nəticə əldə olunur. Beynəlxalq müqavilə bağlamaq həm də siyasi və sosial-iqtisadi məqsəd güdür. Siyasi və sosial-iqtisadi məqsəd isə dövlətlərin siyasi, iqtisadi, ticarət, nəqliyyat, ekologiya, humanitar, cinayətkarlıqla mübarizə, insan hüquqlarının qorunması və beynəlxalq əməkdaşlığın digər sahələrində öz ehtiyac və tələbatını təmin etməkdən ibarətdir.

[1] Марченко М.Н. Теория государства и права. М., 2004, с.569-570.

Məlum məsələdir ki, hər hansı dövlətlə beynəlxalq müqavilə bağlamaq niyyətində olan dövlətin buna, necə deyərlər, istəyi (arzusu) olmalıdır. Belə istək (arzu) **daxili iradə** adlanır. Lakin beynəlxalq müqavilə bağlamaq üçün təkcə daxili iradə kifayət etmir. Bunun üçün dövlətin daxili iradəsi digər dövlətə çatdırılmalı, ona bildirilməlidir. **İradəni bildirmə** (iradəni ifadəetmə) dedikdə daxili iradənin zahirən ifadə olunması başa düşülür. İradələrində deyil, iradələrini bildirmələrində dövlətlərin razılığa gəlmələri beynəlxalq publik hüquq normaları yaratmaq prosesinin mahiyyətini təşkil edir.[1] Ona görə iradə, qeyd etdiyimiz kimi, daxili istək və arzudan başqa ayrı bir şey deyildir. İradəni bildirmə isə hərəkət və ya hərəkətsizlik deməkdir. Hüquq normalarının yaranması üçün məhz iradəni bildirmənin əhəmiyyəti vardır; lakin iradəni bildirmə daxili iradəni düzgün əks etdirməlidir.

Əgər dövlətlər iradəni bildirmə məsələsində razılığa gələrlərsə, bu o deməkdir ki, yaradılan davranış qaydalarının məzmunu (beynəlxalq publik hüquq normalarının məzmunu) barədə razılığa nail olunmuşdur. Bax, odur ki, iradəni bildirmə beynəlxalq publik hüquq yaradıcılığı prosesinin mahiyyətini təşkil edir.[2] Bu səbəbdən beynəlxalq publik hüquq normaları dövlətlərin iradəni bildirmədə razılığa nail olmalarının məhsuludur.[3]

---

[1] Bəzi müəlliflər göstərirlər ki, iradələrində razılığa gəlmə beynəlxalq hüquq normaları yaratmaq prosesinin mahiyyətini təşkil edir *(məsələn, bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 72; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.122; Тункин Г.И. Теория международного права. М., 1970, с.110). Şübhəmiz yoxdur ki, əksinə, iradəni bildirmədə dövlətlərin razılığa nail olmaları vacib məsələdir.

[2] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 27.

[3] K.A.Bekyaşev belə güman edir ki, beynəlxalq hüquq normaları dövlətlərin iradədə razılığa gəlmələrinin məhsuludur *(bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 33). Əslində, bu, iradə deyil, iradənin bildirilməsi ilə bağlı olan məsələdir.

Əgər iradəni bildirmədə razılıq əldə olunarsa, belə halda, aydın məsələdir ki, hər hansı **güzəştdən və kompromisdən** söhbət gedə bilməz. Buna görə də, dövlətlərin iradə ifadəsi (iradələrini bildirmələri) davranış qaydaları (hüquq normaları) şəklində formulə edilir və beynəlxalq müqavilədə yazılıb təsbit olunur.

Əgər iradəni ifadə (bildirmə) məsələsində dövlətlər razılığa nail olmazlarsa, onda güzəştə və kompromisə yol verilir; güzəştə və kompromisə getməklə razılıq əldə edilir. Dövlətlərin razılıq əldə etmələri beynəlxalq publik hüquq normalarının əsası olub, onların yaradılmasının yeganə üsulu sayılır. Belə ki, onların öz iradələrini bildirmələrində nail olduqları razılıq beynəlxalq müqavilə normalarında ifadə olunur və real bir şəkil alır.[1] Beynəlxalq-müqavilə hüquq normaları bu səbəbdən dövlətlər tərəfindən razılaşdırılmış davranış qaydaları olub, beynəlxalq müqavilələrdə aydın şəkildə yazılı formada formulə edilir. Lakin əldə olunmuş razılıq heç də beynəlxalq publik hüquq normaları yaratmaq prosesinin başa çatması demək deyildir. Bu, həmin prosesin yalnız birinci mərhələsinin sona çatmasını ifadə edir. Belə ki, davranış qaydalarının məzmunu barədə razılıq əldə olunması ilə beynəlxalq publik hüquq normalarının yaradılması prosesinin birinci mərhələsi qurtarır və onun ikinci mərhələsi başlayır.

Beynəlxalq-müqavilə hüquq normaları yaratmaq prosesinin **ikinci mərhələsi** dövlətlərin müəyyənləşdirdikləri **davranış qaydalarının hüquqi cəhətdən məcburi olmasına razılıq vermələri** mərhələsi adlanır. Əgər onların belə razılığı olmazsa, beynəlxalq publik hüquq normaları yaradılmamış hesab edilir.

Davranış qaydalarının hüquqi cəhətdən məcburi olmasına razılıq verilməsi bunda ifadə olunur ki, beynəlxalq müqavilə onu bağlayan dövlətlər tərəfindən imzalanır, ratifikasiya olunur və qüvvəyə minir. Beynəlxalq müqavilə məhz qüvvəyə mindiyi

[1] Тункин Г.И. Теория международного права. М., 1970, с.110.

andan dövlətlər həmin müqavilədə müəyyənləşdirilən davranış qaydalarının məcburi olmasına razılıq vermiş olurlar.

Bəzən, beynəlxalq müqavilə dövlət tərəfindən imzalandığı andan qüvvəyə minir. Bu kimi hallarda beynəlxalq publik hüquq normaları yaratmaq prosesinin iki mərhələsi müddət baxımından üst-üstə düşür, yəni mərhələlər arasında zaman kəsiyi olmur. Belə ki, beynəlxalq müqavilənin imzalanması ilə qüvvəyə minməsi tərəflərin eyni vaxtda həm müqavilədə müəyyənləşdirilən davranış qaydalarının məzmunu barədə razılığa nail olmalarını (bu, birinci mərhələ hesab olunur), həm də bu qaydaların məcburi olmasına razılıq vermələrini (bu isə ikinci mərhələ sayılır) ifadə edir.

Əksər hallarda isə beynəlxalq publik hüquq normaları yaratmaq prosesinin mərhələləri zaman baxımından üst-üstə düşmür, yəni onlar arasında vaxt axını müddəti olur. Belə ki, beynəlxalq müqavilə dövlətlər tərəfindən imzalandığı andan qüvvəyə minmir; beynəlxalq müqavilənin qüvvəyə minməsi üçün onun ratifikasiya olunması (qoşulma) tələb edilir. Yalnız ratifikasiya olunduqdan sonra beynəlxalq müqavilə qüvvəyə minir. Əgər beynəlxalq müqavilənin imzalanması beynəlxalq publik hüquq normaları yaradılmasının birinci mərhələsi sayılırsa (çünki beynəlxalq müqavilənin imzalanması orada müəyyənləşdirilən davranış qaydalarının məzmunu barədə dövlətlərin razılıq əldə etmələrini bildirir), onda onun ratifikasiyası həmin prosesin ikinci mərhələsi hesab edilir (ratifikasiya davranış qaydalarının hüquqi cəhətdən məcburi olmasına dövlətlərin razılıq vermələrini ifadə edir). Məsələn, Dəniz hüququna dair BMT Konvensiyası 1982-ci ildə imzalanmış (I mərəhələ), 1994-cü ildə isə ratifikasiya olunaraq qüvvəyə minmişdir (II mərhələ).[1]

[1] URL: http: // www. wikipedia. org

4.2.3. Beynəlxalq-adət hüquq normaları yaradılmasının xüsusiyyətləri

Beynəlxalq-adət hüquq norması da beynəlxalq publik hüquq normasıdır. Belə ki, beynəlxalq-adət hüquq normaları da, beynəlxalq-müqavilə hüquq normaları kimi, hüquqi qüvvəyə malikdir və onların hüquqi qüvvəsi eyni bərabərdə tanınır. Buna görə beynəlxalq-hüquqi adət normaları dövlətlərarası münasibətlərin tənzimlənməsində heç də az rol oynamır və onlar da davranış qaydalarıdır.

Beynəlxalq-adət hüquq normalarının yaranması prosesi də iki mərhələdən ibarətdir. **Birinci mərhələ** dövlətin davranış qaydasının məzmununu müəyyənləşdirən, birtərəfli və təkrarlanan eyni cür hərəkət etməsi mərhələsi adlanır. Belə hərəkətetmə nəticəsində **praktika** yaranır. Davranış qaydaları, yəni beynəlxalq-hüquqi adət normaları da dövlətlərin praktikasını əks etdirir. Məhz dövlətlərin praktikası nəticəsində davranış qaydaları yaranır. Müəlliflərdən İ.İ.Lukaşuk çox düzgün qeyd edir ki, dövlətlərarası praktika beynəlxalq-adət hüquq normalarının yaranma prosesinin əsas anlayışlarından biri sayılır.[1]

Praktikanın formalaşdırılmasına yönələn hərəkət **birtərəfli** olmalıdır. Belə ki, bu və ya digər hərəkəti edərkən dövlətin başqa dövlətlərdən razılıq alması tələb edilmir, həm də dövlətin birtərəfli hərəkəti **dəfələrlə edilməlidir**. Lakin hərəkətin dəfələrlə edilməsi davranış qaydasının formalaşması üçün həlledici əhəmiyyət kəsb etmir. Məsələ burasındadır ki, bu və ya digər adət normasının yaranması üçün dövlətin birdəfəlik hərəkəti də kifayət edər. Başqa sözlə, dövlətin bir dəfə etdiyi hərəkətdə də davranış qaydası (adət norması) ifadə oluna bilər. Məsələn, 1957-ci ildə keçmiş SSRİ dövləti kosmosa Yerin ilk süni peykini buraxmışdır. Onun bu kimi birdəfəlik birtərəfli hərəkət etməsi ilə dövlətlərin kosmik fəzadan sərbəst istifadə və

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.74.

onu tədqiq etmək hüququna malik olmaları kimi beynəlxalq davranış qaydası (beynəlxalq-adət hüquq norması) formalaşmışdır.

Praktikanın formalaşmasına yönələn hərəkətin dəfələrlə edilməsi onun təkrarlanması deməkdir. **Hərəkətin təkrarlanması** isə müəyyən vaxt müddəti tələb edir. Lakin müasir beynəlxalq publik hüquq beynəlxalq-hüquqi adətlərin formalaşması üçün lazım olan hər hansı konkret müddət müəyyənləşdirmir. Əvvəllər, klassik beynəlxalq publik hüquq qüvvədə olan zaman beynəlxalq adət normalarının yaranması üçün 50, 100 və daha çox illər tələb edilirdi.[1] Müasir dövrdə isə belə müddətlər tətbiq edilmir. Belə ki, keçmiş zamanlardan fərqli olaraq, müasir dövrdə müddət amili beynəlxalq-adət hüquq normalarının yaradılmasında vacib rol oynamır və həlledici əhəmiyyət kəsb etmir.

Bir qayda olaraq, beynəlxalq-hüquqi adətlər **uzun müddət ərzində** formalaşır. Başqa sözlə, beynəlxalq-adət hüquq normalarının yaranması üçün uzunmüddətli praktika tələb edilir. Bununla yanaşı, beynəlxalq-adət hüquq normaları **qısa müddət ərzində**, yəni qısamüddətli praktika ilə də formalaşa bilər. Qeyd etdiyimiz kimi, praktikanın müddəti adət normalarının yaranması üçün həlledici əhəmiyyət kəsb etmir. Bu səbəbdən hətta adət norması konkret hal və vəziyyətdən asılı olaraq, tez bir zamanda yarana bilər.[2] Məsələn, bir az əvvəldə çəkdiyimiz misalda, SSRİ tərəfindən Yerin ilk süni peykinin buraxılması nəticəsində tez bir zamanda dövlətlərin kosmosda uçuş həyata keçirmək hüququ barədə beynəlxalq-hüquqi adət norması yarandı.

Xüsusilə, qeyd etməliyik ki, qısa vaxt müddəti özlüyündə yeni beynəlxalq-hüquqi adət normasının yaranmasına mane ola bilməz. Bu isə o deməkdir ki, adət normasının formalaşması

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 40.

[2] Фердросс А. Международное право. М., 1959, с.154 (Пер.с нем; под ред. Г.И. Тункина).

üçün uzun müddət tələb edilmir və bu, məcburi deyildir. Belə ki, adət norması konkret haldan və şəraitdən asılı olaraq, çox qısa müddət ərzində də yarana bilər; bu da nəqliyyat, eləcə də rabitə texnologiyaları vasitələrinin müasir inkişaf səviyyəsi şəraitində mümkündür. Nəzərə almalıyıq ki, nəqliyyat-kommunikasiya və rabitə-informasiya vasitələrinin müasir inkişafı müəyyən bir dövlətin bu və ya digər hərəkəti nəticəsində formalaşan praktikadan qısa müddət ərzində başqa dövlətlərin xəbər tutmasına imkan verir. Məhz əksər dövlətlərin praktikası yeni adət normasının yaranmasında həlledici rol oynayır.[1]

Bəzən, elə bir beynəlxalq-hüquqi məsələ yaranır ki, həmin məsələ özünün təxirəsalınmadan hüquqi tənzimlənməsini tələb edir. Bu kimi hallarda qısa müddət ərzində, özü də çox vaxt dövlətlərin birgə hərəkəti ilə yeni beynəlxalq- adət hüquq norması yaradılır.

Qeyd etməliyik ki, hər hansı dövlətin bu və ya digər hərəkət etməsi (praktikası) ilə beynəlxalq-hüquqi adət normasının yaranması prosesi başa çatmır. Dövlətin hərəkəti (praktika) yalnız davranış qaydasının məzmununu müəyyən edir və bununla da bu prosesin birinci mərhələsi başa çatır.

Beynəlxalq-hüquqi adət normasının yaranması üçün həm də **ikinci mərhələnin** həyata keçirilməsi tələb edilir; ikinci mərhələ hər hansı dövlətin bu və ya digər hərəkəti (praktika) ilə formalaşmış və məzmunu müəyyən edilmiş davranış qaydasının **sanksiyalaşdırılması (tanınması) mərhələsi** adlanır. Məhz bu mərhələdə beynəlxalq-adət hüquq normasının yaranması prosesi başa çatır.

Davranış qaydasının sanksiyalaşdırılması dedikdə dövlətlərin onu hüquqi cəhətdən məcburi qüvvəsi olan beynəlxalq publik hüquq norması kimi qəbul etməsi başa düşülür. Qeyd etmək lazımdır ki, hər hansı dövlətin hərəkəti (praktika) ilə yaranmış bu və ya digər davranış qaydası məcburi hüquqi qüvvə-

[1] Higgins R. Problems and Process: International Law and How We Use It. UK, Clarendon Press, 1995, p.22.

si olmayan beynəlxalq adətdir. Əgər davranış qaydası dövlətlər tərəfindən sanksiyalaşdırılarsa (tanınarsa), o, məcburi hüquqi qüvvəsi olan beynəlxalq-hüquqi adətə çevrilir **(opinio juris vel necessitatis).**[1] Beynəlxalq-hüquqi adət isə beynəlxalq publik hüquq norması deməkdir.

Dövlətlər tərəfindən sanksiyalaşdırılmamış davranış qaydası **beynəlxalq adət norması** adlanır. Beynəlxalq adət normasının isə, beynəlxalq publik hüquq normasından fərqli olaraq, məcburi hüquqi qüvvəsi yoxdur. Dövlətlər tərəfindən sanksiyalaşdırılmış (tanınmış) beynəlxalq davranış qaydasına isə **beynəlxalq-hüquqi adət norması** (və ya beynəlxalq-adət hüquq norması) deyilir. Beynəlxalq-adət hüquq norması isə beynəlxalq publik hüquq normasının bir növüdür; buna görə də, o, məcburi hüquqi qüvvəyə malikdir. Beynəlxalq-adət hüquq norması yaratmaq prosesinin ikinci mərhələsinin mahiyyətini də məhz davranış qaydasının dövlətlər tərəfindən sanksiyalaşdırılması (tanınması) təşkil edir. Amma bu və ya digər beynəlxalq davranış qaydasının – beynəlxalq adət normasının hansı sayda dövlət tərəfindən sanksiyalaşdırılmasını (tanınmasını) riyazi dəqiqliklə müəyyənləşdirmək həmişə mümkün olmur.[2]

Hər hansı beynəlxalq davranış qaydasının (beynəlxalq adət normasının) sanksiyalaşdırılaraq məcburi hüquqi qüvvəyə malik olmasına «opinio juris» deyilir. «Opinio juris» elə bir hüquqi prinsipdir ki, həmin prinsipə görə, bu və ya digər beynəlxalq davranış qaydası (beynəlxalq adət norması) dövlətlər tərəfindən məcburi hüquqi qüvvəsi olan beynəlxalq publik hüquq norması kimi tanınır. Yeni beynəlxalq-adət hüquq norması əvvəlcə praktikada tanınır, sonra isə «opinio juris» olur.[3] Əvvəllər beynəlxalq-hüquqi adət normalarının yaradılmasında praktika (müəyyən hərəkətin təkrarlanması) həlledici əhəmiyyətə malik idi;

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 40.
[2] Тункин Г.И. Теория международного права. М., 1970, с.149.
[3] Higgins R. Op. cit, p.32.

müasir dövrdə isə belə normaların yaradılmasında «opinio juris» əsas və başlıca rol oynayır.

Beynəlxalq-müqavilə hüquq normalarının yaradılmasının əsasını **dövlətlərin razılaşması (sazişi)** təşkil edir. Başqa sözlə, istənilən beynəlxalq-müqavilə hüquq norması dövlətlərin razılığa gəlmələrinin nəticəsidir. Təbii ki, bu zaman belə bir sual ortaya çıxır: beynəlxalq-hüquqi adət normalarının da yaranmasını dövlətlərin razılığının (sazişinin) məhsulu hesab etmək olarmı?

Qeyd etmək lazımdır ki, bu, beynəlxalq publik hüquq elmində (doktrinada) ən çox müzakirə olunan və polemika, mübahisə doğuran məsələlərdən biridir. Beynəlxalq hüquq üzrə bəzi alimlər göstərirlər ki, razılaşma (saziş) əsasında yaradılan beynəlxalq-müqavilə hüquq normalarından fərqli olaraq, beynəlxalq-adət hüquq normalarının formalaşmasında həlledici rolu müəyyən hərəkətin təkrarlanması, yəni bir sıra eyni birtərəfli hərəkətin edilməsi amili oynayır; onlar razılıq (saziş) əsasında yaradılmır. Həmin alimlərin fikrincə, beynəlxalq-hüquqi adət normaları beynəlxalq-müqavilə hüquq normalarından bununla fərqlənir ki, onlar dövlətlərin qarşılıqlı iradə ifadələrinin (iradələrini bildirmələrinin) nəticəsi deyildir.[1] Hesab edirik ki, məsələyə bu cür yanaşmanın elə bir elmi zəmini yoxdur. Belə ki, beynəlxalq-adət hüquq normaları yaratmaq prosesinin də hər iki mərhələsində dövlətlərin razılığı (sazişi), onların qarşılıqlı iradə ifadələri əks olunur.

Məlum olduğu kimi, beynəlxalq-hüquqi adət norması, bir qayda olaraq, müəyyən hərəkətin təkrarlanması nəticəsində yaranır. Hər dəfə bu və ya digər hərəkət təkrarlanan zaman dövlətlər susur və bu yolla onlar həmin hərəkətin edilməsinə öz razılığını (buna dinməz razılıq deyilir) bildirərək iradələrini ifadə edirlər. Başqa sözlə, susursa və hərəkətin edilməsinə öz etirazını bildirmirsə, deməli, dövlətlər yeni beynəlxalq davranış

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.38.

qaydası (beynəlxalq adət norması) ilə razıdırlar. Hətta dövlətin hər hansı bircə hərəkəti (məsələn, 1957-ci ildə SSRİ-nin Yerin ilk süni peykini buraxması və s.) nəticəsində beynəlxalq adət norması yaranan zaman da xarici dövlətlərin susması onların həmin norma ilə razı olmasını, öz iradələrini ifadə etməsini bildirir. Nəzərə almaq lazımdır ki, iradə ifadəsinin iki üsulu vardır; bunlardan biri birbaşa, digəri isə susmaq yolu ilə iradəni ifadəetmə adlanır. Beynəlxalq-müqavilə hüquq normaları yaradılan zaman dövlətlər öz iradələrini birbaşa, beynəlxalq-adət hüquq normaları formalaşarkən isə susmaq yolu ilə ifadə edirlər.

Beynəlxalq-adət hüquq normalarının yaradılmasının ikinci mərhələsi də dövlətlərin razılığına və öz iradələrini ifadə etmələrinə əsaslanır. Belə ki, əgər hər hansı dövlətin müəyyən hərəkəti nəticəsində formalaşan beynəlxalq davranış qaydasının məcburi hüquqi qüvvəsi olan beynəlxalq publik hüquq norması kimi tanınmasına («opinio juris») xarici ölkələr etiraz etmirlərsə və susurlarsa, bu, onların həmin davranış qaydası ilə razı olmalarını, öz iradələrini bildirmələrini ifadə edir. Buna görə də, beynəlxalq- adət hüquq normaları, beynəlxalq müqavilə hüquq normaları kimi, dövlətlərin razılığa gəlmələrinin nəticəsi, yəni onların öz iradələrini ifadə etmələrinin nəticəsidir.

4.2.4. Beynəlxalq dövlətlərarası təşkilatlar tərəfindən beynəlxalq publik hüquq normaları yaradılmasının xüsusiyyətləri

Beynəlxalq publik hüquq normaları təkcə beynəlxalq müqavilə və beynəlxalq adətlərin köməyi ilə deyil, həm də dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilatların qərarları əsasında yarana bilər. Beynəlxalq publik hüquq normalarının formalaşmasında həmin qərarların mühüm əhəmiyyəti vardır.

Dövlətlərarası beynəlxalq təşkilatlar təsis sənədinə (nizamnaməsinə) uyğun olaraq, normativ xarakterli aktlar (qətnamə,

qərar və s.) qəbul edə bilərlər. Həmin aktlarda beynəlxalq publik hüquq normaları müəyyən olunur ki, onların üzv-dövlətlər üçün məcburi hüquqi qüvvəsi vardır.

Dövlətlərarası beynəlxalq təşkilatların qəbul etdikləri normativ xarakterli hüquqi aktlarda müəyyənləşdirilən beynəlxalq publik hüquq normalarında da dövlət iradəsi ifadə olunmuşdur. Belə ki, həmin təşkilatların tərkibi üzv-dövlətlərdən ibarət olub, onların beynəlxalq əməkdaşlıq və birlik formasıdır. Dövlətlərarası beynəlxalq təşkilatlar öz üzvlərinin (dövlətlərin) iradələrini ortaya qoyur və onların iradə ifadələri barədə razılığa nail olurlar ki, belə razılıq həmin təşkilatların qəbul etdikləri aktlarda öz əksini tapır.[1] Təbii ki, bu aktlarda müəyyənləşdirilən beynəlxalq publik hüquq normaları da üzv-dövlətlərin qarşılıqlı iradə ifadələrini əks etdirir; qəbul etdikləri aktlar, eyni zamanda, dövlətlərarası beynəlxalq təşkilatların özlərinin iradələrini ifadə edir.[2] Belə ki, dövlətlər kimi, dövlətlərarası beynəlxalq təşkilatlar da beynəlxalq (dövlətlərarası) münasibətlərdə iştirak edən subyekt hesab edilir və buna görə də, onların beynəlxalq publik hüquq norması yaratmaq səlahiyyəti vardır. Axı, beynəlxalq publik hüquq normaları dövlətlərarası münasibətlərdə iştirak edən subyektlərin özləri tərəfindən yaradılır ki, biz, bunu əvvəlki mövzuların birində vurğulamışıq.

Deyilənlər onu göstərir ki, beynəlxalq-müqavilə və beynəlxalq-adət hüquq normaları kimi, beynəlxalq (dövlətlərarası) təşkilatların müəyyənləşdirdiyi beynəlxalq publik hüquq normaları da dövlətlərin qarşılıqlı iradə ifadələrinin məhsulu və nəticəsidir. Bu normaların yaranma prosesi də iki mərhələdən keçir. Birinci mərhələdə normanın məzmunu müəyyənləşdirilir, ikinci mərhələdə isə normanı özündə əks etdirən normativ hüquqi akt (qərar, qətnamə və s.) qəbul olunur.

---

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.129.

[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.78.

4.3. Beynəlxalq publik hüquq normalarının növləri

4.3.1. Beynəlxalq publik hüquq normalarının elmi-hüquqi təsnifinin əhəmiyyəti

Beynəlxalq publik hüquqla tənzimlənən və onun nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlər spektri kifayət qədər genişdir. Bu onunla izah olunur ki, həmin münasibətlər dövlətlərarası beynəlxalq əməkdaşlığın müxtəlif sahələrdə həyata keçirilməsi prosesində yaranır (məsələn, xarici əlaqələr, kosmosdan istifadə, iqtisadi, ekologiya, insan hüquqları, dənizdən istifadə və digər sahələrdə).

Dövlətlərarası beynəlxalq münasibətlərin cürbəcürlüyü, öz növbəsində, beynəlxalq publik hüquq normalarının müxtəlifliyinə səbəb olur. Belə ki, dövlətlərarası beynəlxalq münasibətlər beynəlxalq publik hüquq normaları ilə tənzimlənir. Dövlətlərarası beynəlxalq münasibətlərin müxtəlif və cürbəcür olması, təbii ki, onların ayrı-ayrı beynəlxalq publik hüquq normaları ilə tənzimlənməsini şərtləndirir. Məhz bu səbəbdən beynəlxalq publik hüquq normaları yekcins olmayıb, müxtəlif növlərə bölünür və onlar bir-birindən, hər şeydən əvvəl, **rəsmiləşdirmə formasına** görə fərqlənirlər. Digər tərəfdən, beynəlxalq publik hüquq normaları bir-birindən **hamılıqla qəbul olunması** amilinə görə fərqlənirlər. Belə ki, onlar həm universal, həm də regional xarakterdə ola bilərlər. Şübhəsiz, beynəlxalq publik hüquq normalarında ifadə olunan hüquqi göstəriş eyni deyildir. Elə normalar vardır ki, onlar subyektə müəyyən hərəkəti etmək səlahiyyətinin verilməsi haqqında və ya hər hansı hərəkəti etməyi yasaqlamaq (qadağan etmək) barədə hüquqi göstəriş ifadə edir. Bu baxımdan, yəni ifadə etdiyi **hüquqi göstərişə** görə də, beynəlxalq publik hüquq normaları bir-birindən fərqlənirlər. Digər meyarlara (əsaslara) görə də, beynəlxalq publik hüquq normaları arasında hədd qoymaq, onları bir-birindən fərqləndirmək olar. Odur ki, beynəlxalq publik hüquq normalarının müxtəlif meyarlara (əsaslara) görə elmi cəhətdən əsaslandırılmış təsnifini vermək olar. Başqa sözlə, beynəlxalq publik

hüquq normaları ayrı-ayrı meyarlardan (əsaslardan) asılı olaraq təsnif edilir.

Beynəlxalq publik hüquq normalarının elmi cəhətdən əsaslandırılmış təsnifinin, hər şeydən əvvəl, **nəzəri əhəmiyyəti** vardır. Belə ki, o, beynəlxalq publik hüquq normaları haqqında elmi fikirlərin inkişafına səbəb olur. Beynəlxalq publik hüquq normalarının elmi-hüquqi təsnifi həm də **praktiki əhəmiyyətə** malikdir. Belə ki, o, beynəlxalq publik hüquq normalarının praktikada düzgün tətbiq edilməsində vacib rol oynayır.

Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində ayrı-ayrı müəlliflər tərəfindən beynəlxalq publik hüquq normalarının təsnifi verilir.[1] Müxtəlif və bir-birindən fərqli variantlarda verilsə də, həmin təsniflər, mahiyyətcə, üst-üstə düşür; onlar arasında elə bir prinsipial fərq yoxdur.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq normalarının müxtəlif variantlarda edilən təsnifləri hüquq nəzəriyyəsində hüquq normalarının bu və ya digər variantda verilən təsnifatına, əsasən, uyğun gəlir. Lakin beynəlxalq publik hüquq normalarının təsnifinin özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, obyektiv mənada beynəlxalq publik hüquq xüsusi hüquq sistemi kimi, özünəxas (spesifik) cəhətlərlə xarakterizə olunur; əlbəttə, bu, beynəlxalq publik hüquq normalarının elmi-hüquqi təsnifinə təsir göstərməyə bilməz.

---

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.102-132; Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 40-42; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.13-16; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.28-30; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 41-45; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 77-79; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.56-63; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.34-35; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2008, с.125-130; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.35-36 və b.

4.3.2. Beynəlxalq publik hüquq normalarının xarakteristikası

Beynəlxalq publik hüququn **müstəqil hüquq sahələrinə bölünməsindən** asılı olaraq, beynəlxalq-hüquqi normaların aşağıdakı növləri fərqləndirilir:

- beynəlxalq-müqavilə hüquq normaları;
- beynəlxalq-təşkilat hüquq normaları;
- beynəlxalq-xarici əlaqə hüquq normaları;
- beynəlxalq-insan haqları hüquq normaları;
- beynəlxalq-iqtisadi hüquq normaları;
- beynəlxalq-ekologiya hüquq normaları;
- beynəlxalq-humanitar hüquq normaları;
- beynəlxalq-kosmos hüquq normaları;
- beynəlxalq-cinayət hüquq normaları və s.

Beynəlxalq-müqavilə hüquq normaları beynəlxalq müqavilələrin bağlanması, qüvvədə olması və ləğv edilməsi qaydalarını müəyyənləşdirir. **Beynəlxalq-təşkilat hüquq normaları** dedikdə dövlətlərarası təşkilatların yaradılması və onların fəaliyyətini tənzimləyən davranış qaydaları başa düşülür. **Beynəlxalq-xarici əlaqə hüquq normalarının** əsas məqsədi diplomatiya və konsulluq münasibətlərini tənzimləməkdən ibarətdir. **Beynəlxalq-insan haqları hüquq normaları** əsas insan hüquq və azadlıqlarının beynəlxalq səviyyədə qorunmasını və müdafiə olunmasını təmin edən davranış qaydalarına deyilir. **Beynəlxalq-iqtisadi hüquq normaları** iqtisadi sahədə (ticarət, maliyyə-valyuta, investisiya, vergi, gömrük, turizm, nəqliyyat və s.) dövlətlərarası əməkdaşlığın həyata keçirilməsi prosesində yaranan beynəlxalq münasibətləri qaydaya salır. **Beynəlxalq-ekologiya hüquq normaları** ətraf mühitin mühafizəsi və ondan istifadə olunması sahəsində dövlətlərarası beynəlxalq münasibətləri nizama salır. **Beynəlxalq-humanitar hüquq normaları** hərbi

münaqişələrin doğurduğu nəticələrin məhdudlaşdırılmasına yönələn davranış qaydalarıdır. **Beynəlxalq-kosmos hüquq normaları** kosmik fəzadan istifadə sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyir. **Beynəlxalq-cinayət hüquq normaları** cinayətkarlıqla beynəlxalq mübarizə məsələlərini qaydaya salır və s.

Beynəlxalq publik hüququn **hansı hissəsinə aid edilməsindən** asılı olaraq, beynəlxalq-hüquqi normalar iki növə bölünür:

– ümumi normalar;

– xüsusi normalar.

Ümumi normalar beynəlxalq publik hüququn ümumi hissəsinə aiddir və ümumi xarakterli məsələləri tənzimlədiyinə görə onlar beynəlxalq publik hüququn xüsusi hissəsini təşkil edən ayrı-ayrı müstəqil hüquq sahələrində tətbiq edilir. Məsələn, beynəlxalq publik hüquq subyektliyi barədə və ya beynəlxalq məsuliyyət haqqında, yaxud da mübahisələrin dinc vasitələrlə həlli qaydasına aid normalar ümumi normalar sayılır. Buna görə də, onlar həm beynəlxalq publik iqtisadi hüquqda, həm beynəlxalq publik ekologiya hüququnda, həm beynəlxalq publik kosmos hüququnda, həm də beynəlxalq publik hüququn digər sahələrində tətbiq olunur.

Xüsusi normalar dedikdə beynəlxalq publik hüququn xüsusi hissəsinə aid olan normalar başa düşülür. Bu növ normalar dövlətlərarası əməkdaşlığın ayrı-ayrı konkret sahələrində yaranan beynəlxalq münasibətləri tənzimləyir. Məsələn, həm beynəlxalq-iqtisadi, beynəlxalq-dəniz, beynəlxalq-hava, beynəlxalq-müqavilə, həm də beynəlxalq-kosmos və s. bu kimi hüquq normaları xüsusi normalar hesab edilir.

Yerinə yetirdiyi funksiyadan asılı olaraq, beynəlxalq (publik) hüquq normalarının iki növü vardır:

– tənzimləyici beynəlxalq publik hüquq normaları;

– mühafizəedici beynəlxalq publik hüquq normaları.

Tənzimləyici beynəlxalq publik hüquq normaları dedikdə dövlətlərarası beynəlxalq münasibətləri nizamlamaq və qaydaya salmaq məqsədinə xidmət edən normalar başa düşülür; onların əsas və başlıca funksional təyinatı dövlətlərarası beynəlxalq münasibətləri tənzimləməkdən ibarətdir. Əvvəllər qeyd etdiyimiz kimi, tənzimləmək elə müəyyən etmək deməkdir. Bu səbəbdən əgər beynəlxalq publik hüquq normaları subyektlər (dövlətlərarası beynəlxalq münasibət iştirakçıları) üçün hüquq və vəzifələr müəyyən edərsə, deməli, onlar tənzimləyici beynəlxalq publik hüquq normaları hesab edilir. Məsələn, Dəniz hüququna dair BMT Konvensiyası (1982-ci il) sahilyanı dövlətlər üçün belə bir vəzifə müəyyən edir: əgər sahilyanı dövlətlərə öz ərazi sularında (ərazi dəniz-lərində)[1] gəmiçilik üçün təhlükə yaranması bəlli olarsa, onlar bu barədə məlumat verməlidirlər. Həmin konvensiya sahilyanı dövlətlər üçün həm də belə bir hüquq müəyyən edir: sahilyanı dövlətlər gəmilərin dinc üzüb keçməsi sayılmayan hallara yol verməmək üçün öz ərazi sularında lazımi tədbirlər görə bilərlər.

Mühafizəedici beynəlxalq publik hüquq normaları dedikdə məqsədi dövlətlərarası beynəlxalq münasibətləri qorumaqdan ibarət olan normalar başa düşülür. Bu növ normaların əsas və başlıca funksiyası dövlətlərarası beynəlxalq münasibətləri qorumaqdan və müdafiə etməkdən ibarətdir. Məsələn, BMT Nizamnaməsinin məcburi tədbirlərə (belə tədbirlər BMT Təhlükəsizlik Şurasının qərarı ilə tətbiq olunur) dair 41 və 42-ci maddələrində ifadə edilən normalar mühafizəedici normalar sayılır.

Mühafizəedici beynəlxalq publik hüquq normaları məsuliyyət tədbirləri (beynəlxalq-hüquqi sanksiyalar) müəyyən etməklə subyektləri hüquq pozuntusu törətməkdən çəkindirir və bu yolla onlar beynəlxalq qayda-qanunu hüquq pozuntularından qoruyur, mühafizə edir. Buna görə də, beynəlxalq məsuliyyətə

[1] Ərazi dənizləri (və ya ərazi suları) dedikdə sahilyanı dövlətin quru ərazisinə və daxili sularına bitişik olan dəniz zolağı başa düşülür *(bu barədə dərsliyin «Beynəlxalq dəniz hüququ» fəslinə baxın).*

aid hüquq normaları mühafizəedici beynəlxalq publik hüquq normaları hesab edilir.

Əgər dövlətlərarası münasibət iştirakçılarının hüquq və mənafeləri pozularsa, pozulmuş hüquq və mənafelər mühafizəedici hüquq normalarının köməyi ilə müdafiə edilir. Belə halda həmin normalar müdafiə etmək funksiyasını yerinə yetirir.

Mühafizəedici beynəlxalq publik hüquq normaları vasitəsi ilə tənzimləyici beynəlxalq publik hüquq normalarının həyata keçirilməsi (realizasiyası) təmin edilir. Buna görə həmin normalara həm də **təminedici beynəlxalq publik hüquq normaları** deyilir.[1]

Tənzimləyici beynəlxalq publik hüquq normaları beynəlxalq-hüquqi tənzimetmə mexanizmində nizamlayıcı rol oynayır. Beynəlxalq publik hüquq yerinə yetirdiyi öz başlıca funksiyasını (tənzimetmə funksiyasını) məhz həmin normalar vasitəsi ilə həyata keçirir. Mühafizəedici beynəlxalq publik hüquq normalarına gəldikdə isə, qeyd etməliyik ki, bu növ normalar beynəlxalq-hüquqi tənzimetmə mexanizmində qoruyucu rol yerinə yetirir. Beynəlxalq publik hüquq həmin normalar vasitəsi ilə öz mühafizəedici funksiyasını həyata keçirir.

Rəsmiləşdirilmə formasından asılı olaraq, beynəlxalq publik hüquq normaları iki növə bölünür:

– sənədləşdirilmiş beynəlxalq publik hüquq normaları;

– sənədləşdirilməmiş beynəlxalq publik hüquq normaları.

Sənədləşdirilmiş beynəlxalq publik hüquq normaları dedikdə hər hansı beynəlxalq-hüquqi akt vasitəsi ilə yazılı formada rəsmiləşdirilən davranış qaydaları başa düşülür. Həmin növ normalar bu və ya digər beynəlxalq-hüquqi sənəddə (məsələn, beynəlxalq müqavilələrdə, beynəlxalq təşkilatların qərarlarında və s.) yazılaraq ifadə olunur. Beynəlxalq-hüquqi sənəd onların mövcudolma formasıdır. Bunlara görə də, sənədləşdirilmiş bey-

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.129.

nəlxalq publik hüquq normalarına **sənəddə təsbit olunan normalar** da deyilir. Bu növ normalara beynəlxalq müqavilələrdə ifadə edilən, habelə beynəlxalq təşkilatların qərarlarında müəyyənləşdirilən normaları misal göstərmək olar.

Sənədləşdirilməmiş beynəlxalq publik hüquq normaları dedikdə hər hansı beynəlxalq-hüquqi akt vasitəsi ilə yazılı formada rəsmiləşdirilməyən normalar başa düşülür. Məsələn, beynəlxalq-adət hüquq normaları sənədləşdirilməmiş beynəlxalq publik hüquq normalarıdır. Ona görə ki, onlar beynəlxalq-hüquqi sənəd şəklində yazılı formada rəsmiləşdirilmir. Başqa sözlə, beynəlxalq-adət hüquq normaları dövlətlərin praktikasında formalaşan və belə praktikanı əks etdirən **yazılmamış normalardır**.[1] Buna görə də, bu növ beynəlxalq publik hüquq normalarının mövcudolma forması sənəd deyil, praktikadır; onlar praktikada formalaşmaqdan və mövcud olmaqdan başqa, həm də məcburi hüquqi qüvvəsi olan davranış qaydaları kimi tanınır və təsdiqlənir. Bu səbəbdən beynəlxalq-adət hüquq normalarına **sənəddə təsbit olunmamış normalar** da deyilir.

Mənbəyinə (yaradılma üsuluna) görə, beynəlxalq publik hüquq normalarının üç növü fərqləndirilir:

- beynəlxalq-müqavilə publik hüquq normaları;
- beynəlxalq-adət publik hüquq normaları;
- beynəlxalq dövlətlərarası/hökumətlərarası təşkilatların müəyyənləşdirdiyi publik hüquq normaları.

Beynəlxalq-müqavilə publik hüquq normalarının mənbəyi beynəlxalq müqavilələrdir. Belə ki, bu növ normalar beynəlxalq müqavilələrdə müəyyən olunur.

Beynəlxalq-adət publik hüquq normalarının mənbəyi beynəlxalq adətlərdir. Belə ki, dövlətlər tərəfindən müəyyən hərəkətin dəfələrlə, uzun müddət və eyni cür təkrarlanması, yəni

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.15; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.24.

praktika nəticəsində beynəlxalq adətlər formalaşır. Məhz beynəlxalq adətlər əsasında beynəlxalq-adət hüquq normaları yaranır.

Beynəlxalq dövlətlərarası/hökumətlərarası təşkilatların müəyyənləşdirdiyi publik hüquq normalarının mənbəyi həmin təşkilatların qətnamələridir. Belə ki, beynəlxalq dövlətlərarası/hökumətlərarası təşkilatlar öz nizamnaməsinə (təsis sənədinə) uyğun olaraq, məcburi xarakterli və ümumi davranış qaydaları müəyyənləşdirən qətnamələr qəbul edə bilər. Həmin qaydalar beynəlxalq publik hüquq normaları hesab edilir.

Hüquqi tənzimetmə (nizamasalma) üsuluna görə, beynəlxalq publik hüquq normalarının iki növü vardır:

– dispozitiv beynəlxalq publik hüquq normaları;

– imperativ beynəlxalq publik hüquq normaları.

Dispozitiv beynəlxalq publik hüquq normaları o normalara deyilir ki, həmin normalardan dövlətlərarası beynəlxalq münasibət iştirakçıları qarşılıqlı razılıq əsasında kənara çıxaraq, özləri üçün fərqli beynəlxalq subyektiv hüquq və hüquqi vəzifələr müəyyənləşdirə bilərlər.

Dispozitiv beynəlxalq publik hüquq norması imkan verir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları müvafiq davranış qaydalarını konkret hal və vəziyyətdən asılı olaraq, özləri müəyyənləşdirsinlər. Belə ki, beynəlxalq dispozitiv publik hüquq norması dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına öz istək və mülahizələrinə görə mümkün olan davranış variantlarını seçmək ixtiyarı verir. Məsələn, Beynəlxalq mülki aviasiya haqqında Çikaqo Konvensiyası (1944-cü il) belə bir norma nəzərdə tutur ki, dövlətin quru və su əraziləri üzərində hava məkanından həmin dövlətin razılığı olmadan uçub keçilməsinə yol verilmir (çünki hava məkanı dövlətin tam və müstəsna suverenliyi altındadır). Lakin, buna baxmayaraq, bir dövlət razılıq əsasında öz hava məkanından başqa dövlətin istifadə etməsinə icazə verir. Deməli, barəsində danışdığımız norma dispozitiv beynəlxalq publik hüquq normasıdır. Ona görə

ki, həmin norma dövlətlərə mümkün olan davranış variantlarından hər hansı birini seçməyə imkan verir.

Beynəlxalq publik hüquq normaları arasında say baxımından dispozitiv normalar çoxluq təşkil edir. Həmin normalar məcmu (sistem) halında birləşir ki, ona **dispozitiv hüquq (jus dispositivum)** deyilir.

İmperativ beynəlxalq publik hüquq normaları dedikdə elə normalar başa düşülür ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları həmin normalarda ifadə olunan hüquqi göstərişdən heç cür kənara çıxa bilməzlər. Hətta onlar qarşılıqlı razılıq əsasında həmin göstərişdən kənara çıxsalar, belə razılaşma etibarsız hesab ediləcəkdir. Belə ki, imperativ beynəlxalq publik hüquq normalarında ifadə edilən hüquqi göstəriş qətidir və buna görə də, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları həmin göstərişi, istəsələr belə, dəyişdirə bilməzlər. İmperativ beynəlxalq publik hüquq normaları yalnız sonradan qəbul olunmuş eyni xarakterli universal (lokal və ya regional deyil) beynəlxalq publik hüquq normaları ilə dəyişdirilə bilər. Məsələn, güc tətbiq etmək və ya güc tətbiq etməklə hədələmək, kölə ticarəti, nüvə silahının yayılması, piratçılıq, təcavüzkarlıq, genosidin həyata keçirilməsi və s. bu kimi əməlləri qadağan edən normalar imperativ beynəlxalq publik hüquq normasına nümunədir. Əgər dövlətlərarası beynəlxalq münasibətlərin iki iştirakçısı razılığa gəlməklə (hətta beynəlxalq müqavilə bağlamaqla), həmin normalardan kənara çıxsalar, belə razılaşmanın hüquqi əhəmiyyəti olmayacaqdır. Belə ki, imperativ beynəlxalq publik hüquq normasına zidd olduğuna görə, həmin razılaşma etibarsız sayılır.

Beynəlxalq publik hüququn əsas prinsipləri də imperativ beynəlxalq publik hüquq normaları sayılır.[1] Lakin beynəlxalq publik hüququn əsas prinsipləri arasında elələri vardır ki, onlar imperativ xarakter daşımır. Buna görə də, beynəlxalq publik

[1] Курс международного права. Том 1 / Гл. ред. В.Н.Кудрявцев. М., 1989, с.28; Международное право. Учебник/Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 41.

hüququn bütün əsas prinsiplərini imperativ norma hesab etmək olmaz. Bu səbəbdən «beynəlxalq hüququn əsas prinsipləri» və «beynəlxalq imperativ hüquq normaları» anlayışları eyniləşdirilməməlidir.

Beynəlxalq imperativ hüquq normaları, qeyd etməliyik ki, xüsusi hüquqi qüvvəyə malikdir. Belə ki, onların **ən yüksək hüquqi qüvvəsi vardır**. Buna görə də, qalan bütün normalar imperativ beynəlxalq publik hüquq normalarına zidd olmamalı və onlara uyğun gəlməlidir. Məsələ burasındadır ki, imperativ normaların bütün digər beynəlxalq publik hüquq normalarına nisbətən üstün hüquqi qüvvəsi vardır. Bu səbəbdən onlara zidd olan istənilən norma hüquqi mənada etibarsızdır.

Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində beynəlxalq imperativ publik hüquq normalarına həm də **«jus cogens» normaları** deyilir.[1] Buna görə də, «imperativ beynəlxalq publik hüquq normaları» və «jus cogens» normaları eynimənalı anlayışlardır.[2] Belə ki, onları eyni hüquqi əlamətlər xarakterizə edir. Başqa sözlə, imperativ beynəlxalq publik hüquq normaları və «jus cogens» normalarının hüquqi əlamətləri eynidir. «Jus cogens» normalarının hüquqi əlamətləri isə Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 53-cü maddəsində göstərilir. Həmin əlamətlər bunlardan ibarətdir:

– bütövlükdə dövlətlərin beynəlxalq birliyi tərəfindən qəbul edilir və tanınır;

---

[1] *Məsələn, bax:* Алексидзе Л.А. Некоторые вопросы теории международного права: императивные нормы (jus cogens). Тбилиси, 1982; Тункин Г.И. Теория международного права. М., 1970, с.181; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.13; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.59; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.34 və b.

[2] Bəzi müəlliflər onları eynimənalı anlayışlar kimi nəzərdə tutmurlar; bu müəlliflərə görə, «jus cogens» norması imperativ normadan fərqli cəhətə malikdir; bu cəhət isə ondan ibarətdir ki, dövlətlərin «jus cogens» normasından kənara çıxan hərəkəti hüquqi əhəmiyyət kəsb etmir və etibarsız sayılır (bax: Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 41).

– «jus cogens» normasından kənara çıxmağa yol verilmir;

– «jus cogens» norması yalnız beynəlxalq (ümumi) hüququn eynilə bu xarakterdə olan yeni bir norması (yəni yeni universal beynəlxalq publik hüquq norması) ilə dəyişdirilə bilər;

– «jus cogens» normasına zidd olan beynəlxalq müqavilə etibarsızdır.

İmperativ beynəlxalq publik hüquq normaları kimi «jus cogens» normaları da ən yüksək hüquqi qüvvəyə malikdir və bu normalar bütün dövlətlər, hətta onlara qarşı çıxan dövlətlər üçün məcburidir.[1]

İmperativ beynəlxalq publik hüquq normalarının məcmusuna (sisteminə) **imperativ hüquq** və ya **«jus cogens»** deyilir. Lakin həmin normaların rəsmi surətdə tanınmış dəqiq və qəti siyahısı mövcud deyildir.

İmperativ beynəlxalq publik hüquq normasının əsas və başlıca xüsusiyyəti ondan ibarətdir ki, bu normadan kənara çıxmaq olmaz. Başlıca hüquqi əlamət ondan ibarətdir ki, imperativ norma dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirmək məsələsinin özləri tərəfindən həll olunmasına ixtiyar vermir.

İmperativ publik hüquq normaları **beynəlxalq hüquq qaydasının** (beynəlxalq qayda-qanunun) əsasını təşkil edir. Beynəlxalq hüquq qaydası məhz bu növ normalardan formalaşmışdır. Buna görə də, onların pozulması **beynəlxalq cinayət** hesab olunur. Beynəlxalq cinayətə görə isə, imperativ normanı pozan dövlət məsuliyyət daşıyır. Məsuliyyət barədə məsələni istənilən dövlət (o cümlədən zərərçəkən dövlət) qaldıra bilər.

Beynəlxalq publik hüquq normalarında ifadə olunan **hüquqi göstərişin xarakterindən** asılı olaraq, onların üç növü fərqləndirilir:

[1] Shelton D. Normative Hiearchy in International Law // American Journal of International Law. Vol.100, 2006, № 2, p.292.

– səlahiyyətverici normalar;

– məcburedici normalar;

– qadağanedici normalar.

Səlahiyyətverici beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına bu və ya digər hərəkəti etmək hüququ verən normalara deyilir. Bu növ normalar dövlətlərarası münasibət iştirakçılarına öz maraq və mənafelərinin təmin edilməsinə yönələn müsbət hərəkətlər etmək imkanı verir. Səlahiyyətverici hüquq normalarında aksent bu və ya digər hərəkəti etmək hüququna edilir. Məsələn, beynəlxalq hüquq norması sahilyanı dövlətlərə hüquq verir ki, həmin dövlətlər kontinental şelf üzərində suveren hüquqlarını həyata keçirərək, onun təbii resurslarından istifadə etsinlər; başqa bir beynəlxalq publik hüquq norması dövlətləri belə bir hüquqla təmin edir ki, onlar kosmik fəzanı tədqiq və ondan istifadə etsinlər və s.

Məcburedici beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının üzərinə hər hansı müsbət hərəkətin edilməsinə yönəlmiş vəzifələr qoyur. Başqa sözlə, əgər norma dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün bu və ya digər hərəkətin edilməsi barədə vəzifə müəyyənləşdirərsə, o, məcburedici beynəlxalq publik hüquq norması hesab edilir. Bu növ normalarda aksent müəyyən hərəkəti yerinə yetirmək vəzifəsinə edilir (bu cəhəti ilə onlar səlahiyyətverici beynəlxalq publik hüquq normalarından fərqlənir). Məsələn, beynəlxalq publik hüquq norması dövlətlərin üzərinə belə bir vəzifə qoyur ki, onlar xarici diplomatik nümayəndəliklərin binalarını lazımi qaydada qorumalıdır; başqa bir beynəlxalq publik hüquq normasına görə, nüvə avariyası (qəzası) barədə xəbər verilməlidir və s.

Qadağanedici beynəlxalq publik hüquq normaları dedikdə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkəti etməyi yasaq edən normalar başa düşülür. Başqa sözlə, əgər beynəlxalq publik hüquq norması bu və ya digər hə-

rəkəti etməkdən çəkinmək barədə hüquqi göstəriş ifadə edərsə, o, qadağanedici beynəlxalq publik hüquq norması hesab edilir. Məsələn, təcavüz, başqa dövlətin daxili səlahiyyətinə aid olan işlərə qarışmaq, bakterioloji silah istehsal etmək, başqa dövlətin sərhədlərini pozmaq və bu kimi digər hərəkətləri yasaq edən normalar qadağanedici beynəlxalq publik hüquq norması sayılır.

Qadağanedici beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının üzərinə hər hansı hərəkəti etməmək vəzifəsi qoyur. Odur ki, bu növ beynəlxalq publik hüquq normalarında aksent bu və ya digər hərəkəti etməmək vəzifəsinə olunur. Bu cəhəti ilə qadağanedici beynəlxalq publik hüquq normaları səlahiyyətverici və məcburedici beynəlxalq publik hüquq normalarından fərqlənir.

Qeyd etmək vacibdir ki, qadağanedici beynəlxalq publik hüquq normaları, əsasən, imperativ normalardır. Lakin qadağanedici normalar arasında elələri vardır ki, onlar imperativ deyil, dispozitiv normalar hesab edilir. Bu o deməkdir ki, qadağanedici normaların hamısı imperativ xarakter daşımır. Məsələn, diplomatik nümayəndəliyin binasında siyasi sığınacaq verilməsini qadağan edən beynəlxalq publik hüquq norması qadağanedici normadır. Lakin o, imperativ deyil, dispozitiv norma sayılır. Ona görə ki, iki dövlət, bir az əvvəldə qeyd etdiyimiz kimi, müvafiq beynəlxalq müqavilə bağlamaqla həmin normadan kənara çıxa bilər.

Hansı sahədə qüvvədə olmasından asılı olaraq, beynəlxalq publik hüquq normalarının üç növü fərqləndirilir:

– universal beynəlxalq publik hüquq normaları;

– regional beynəlxalq publik hüquq normaları;

– lokal beynəlxalq publik hüquq normaları.

Universal beynəlxalq publik hüquq normaları odur ki, bu növ normalar dövlətlərarası sistem iştirakçılarının hamısına şamil olunur və onlar arasında yaranan beynəlxalq münasibətləri tənzimləmək məqsədinə xidmət edir. Universal beynəlxalq

publik hüquq normaları bütün dövlətlər və dövlətlərarası sistemin digər iştirakçıları üçün məcburidir. Beynəlxalq (dövlətlərarası) birliyin, praktiki olaraq, bütün üzvləri həmin normaların onlar üçün məcburi olmasına birbaşa və ya dolayı yolla öz razılıqlarını vermişdir. Buna görə də, universal beynəlxalq publik hüquq normalarına həm də **«hamılıqla qəbul olunmuş normalar**» və ya «**ümumi normalar**» da deyilir; onların məcmusuna (sisteminə) «universal beynəlxalq publik hüquq» və yaxud «beynəlxalq ümumi hüquq» deyilir.[1]

Universal beynəlxalq publik hüquq normasına misal kimi aşağıdakıları göstərmək olar: diplomatik nümayəndənin şəxsiyyət toxunulmazlığı barədə norma, açıq dənizdə sərbəst gəmiçilik haqqında norma, hər bir dövlətin öz öhdəliklərini vicdanla yerinə yetirməsi barədə norma və s. Universal beynəlxalq publik hüquq normaları bir sıra mühüm beynəlxalq-hüquqi sənəddə öz əksini tapmışdır. Belə sənədlərə:

- BMT-nin Nizamnaməsi;
- Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası;
- Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt;
- Dəniz və okeanlarda nüvə silahının qadağan edilməsi barədə Konvensiya;
- Dəniz hüququna dair BMT Konvensiyası və s. aiddir.

Universal beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibətlərin vacib sahəsini tənzimləyir; belə tənzimetmədə hər bir dövlət maraqlıdır. Buna görə də, həmin normalar beynəlxalq publik hüququn əsasını təşkil edir. Hətta bəzi müəlliflər, obrazlı şəkildə desək, universal normaları **beynəlxalq publik hüququn «karkası»**[2] hesab edirlər;[3] ona görə

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.20.

[2] «Karkas» bir şeyin gövdəsi, skeleti və əsası deməkdir.

[3] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 42.

ki, universal normaların bir hissəsi «jus cogens» normalarından (imperativ normalardan) ibarətdir. «Jus cogens» normaları, qeyd etməliyik ki, universal normalar arasında xüsusi yer tutur.

Universal normalar arasında elələri də vardır ki, onlar dispozitiv normalar sayılır. Belə ki, universal normaların bir hissəsi dispozitiv normalardan ibarətdir.

Regional beynəlxalq publik hüquq normaları dedikdə müəyyən bir bölgə dövlətləri arasında münasibətləri tənzimləyən və ya hər hansı beynəlxalq təşkilat çərçivəsində qüvvədə olan normalar başa düşülür. Məsələn, Latın Amerikasında nüvə silahının qadağan olunması haqqında Müqavilədə, Korrupsiya ilə mübarizə haqqında Afrika İttifaqı Konvensiyasında və digər regional xarakterli sənədlərdə nəzərdə tutulan normalar bu növ beynəlxalq publik hüquq normalarına misaldır; Latın Amerikası ölkələrində diplomatik sığınacaq hüququ verilməsi barədə norma da regional norma sayılır.

Regional beynəlxalq publik hüquq normaları həm də dövlətlərarası beynəlxalq inteqrasiya birlikləri çərçivəsində qüvvədə olur. Məsələn, Avropa İttifaqı çərçivəsində tətbiq edilən müvafiq normalar regional normalar sayılır.

Lokal beynəlxalq publik hüquq normaları iki və ya bir neçə dövlət arasında qarşılıqlı münasibətləri tənzimləyir.[1] Məsələn, Azərbaycan Respublikasının başqa dövlətlərlə bağladığı ikitərəfli beynəlxalq müqavilələrdə təsbit edilən normalar bu növ beynəlxalq publik hüquq normasına misal ola bilər.

Qeyd etməliyik ki, universal normaların tənzimlədiyi münasibətlərin obyektini bütün dövlətlərin (və ya onların böyük əksəriyyətinin) mənafeyi təşkil edir. Lokal normaların tənzimlədi-

[1] Bəzi müəlliflər lokal normaları iki yerə bölürlər: regional normalar (bu normalar bir coğrafi rayonda yerləşən dövlətlərə aiddir), qeyri-regional normalar (bu normalar müxtəlif coğrafi rayonlarda yerləşən bir neçə dövlətə aiddir). Zənnimizcə, belə bölgünün aparılmasına elə bir zərurət yoxdur *(bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.128).

yi münasibətlərin obyekti qismində isə iki və daha artıq dövlətin mənafeyi çıxış edir.

Regional və lokal beynəlxalq publik hüquq normalarının məcmusuna **beynəlxalq publik partikulyar hüquq** deyilir.[1] Beynəlxalq partikulyar publik hüquqa müəyyən regionda və iki dövlət arasında qüvvədə olan normalar daxildir.[2] Buna görə də, həm regional, həm də lokal normaya partikulyar norma deyilir. Təsadüfi deyil ki, partikulyar norma həm də regional və ya lokal norma adlanır.[3]

Təyinat, məqsəd və xarakter baxımından, beynəlxalq publik hüquq normaları üç növə bölünür:[4]

- prinsip normaları;
- definitiv normalar;
- təyinat normaları.

Prinsip normaları dedikdə beynəlxalq publik hüququn əsas prinsiplərini formulə edən və onları hüquqi cəhətdən möhkəmləndirən normalar başa düşülür. Məsələn, BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində beynəlxalq publik hüququn bir neçə əsas prinsipi formulə edilmişdir.

Definitiv normalar dedikdə beynəlxalq-hüquqi anlayışlara tərif verən normalar başa düşülür. Məsələn, Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 53-cü maddəsi «jus cogens» normalarına (imperativ normalara) tərif verir.

---

[1] V.M.Şumilov partikulyar hüquq normasına belə anlayış verir: partikulyar hüquq norması dedikdə coğrafi baxımdan əlaqəsi olmayan iki və daha artıq dövlət arasında qüvvədə olan norma başa düşülür. O, regional normanı partikulyar norma hesab etmir *(bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.59).

[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.8.

[3] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 41.

[4] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.35.

Təyinat normaları dedikdə dövlətlərarası münasibət iştirakçılarının fəaliyyət məqsədini və vəzifələrini müəyyənləşdirən normalar başa düşülür. Məsələn, dövlətlərarası beynəlxalq təşkilatların təsis sənədində (BMT–nin Nizamnaməsində, Beynəlxalq Valyuta Fondunun yaradılması haqqında Sazişdə və s.) elə normalar nəzərdə tutulmuşdur ki, onlar həmin təşkilatların fəaliyyət məqsədini və vəzifələrini müəyyənləşdirir.

4.3.3. Beynəlxalq publik hüquq normalarının iyerarxiyası

Məlum olduğu kimi, beynəlxalq publik hüquq çoxsaylı hüquq normalarından ibarətdir və həmin normalar bir-biri ilə qarşılıqlı dialektik əlaqədə olub, sistem halında birləşmişdir. Sistem halında birləşən bütün beynəlxalq publik hüquq normaları iyerarxiya prinsipinə uyğun olaraq düzlənir, yerləşir və necə deyərlər, bir-birinə tabe olurlar. Belə ki, malik olduqları hüquqi qüvvə baxımından, beynəlxalq publik hüquq normaları eyni deyildir. Elə növ beynəlxalq publik hüquq normaları vardır ki, onlar ən yüksək hüquqi qüvvəyə malikdir və digər beynəlxalq publik hüquq normaları belə normalara uyğun olmalı, onlar arasında kolliziya (ziddiyyət) yaranmamalıdır. Bu cür uyğungəlmə halına beynəlxalq publik hüquq normalarının iyerarxiyası deyilir.

Beynəlxalq publik hüquq normalarının iyerarxiyası dedikdə onlar arasında tabeçilik və uyğunluq əlaqəsinin müəyyənləşdirilməsi başa düşülür. Qeyd etməliyik ki, beynəlxalq publik hüquq normalarının iyerarxiyası heç də onların bəzilərinin məcburi olması, digərlərinin isə məcburi olmaması demək deyildir. Yaddan çıxarmamalıyıq ki, beynəlxalq publik hüquq normalarının hamısının məcburi hüquqi qüvvəsi vardır və onlar istisnasız olaraq, beynəlxalq publik hüququn bütün subyektləri üçün mütləqdir. Beynəlxalq publik hüquq normalarının iyerarxiyası o deməkdir ki, beynəlxalq publik hüquq normaları arasında tabeçilik əlaqəsi mövcuddur. Tabeçilik əlaqəsi isə bunu

ifadə edir ki, hüquq normaları özündən yüksək hüquqi qüvvəyə malik olan normalara uyğun gəlməlidir.

Hüquqi qüvvə baxımından, beynəlxalq publik hüquq normalarının düzənlənməsini onların iyerarxiya «nərdivan»ında yerləşməsinə oxşatmaq olar. Bu «nərdivan»ın, necə deyərlər, yuxarı hissəsində ən yüksək hüquqi qüvvəyə malik olan beynəlxalq publik hüquq normaları yerləşir və bundan sonra ardıcıllıqla digər hüquq normaları düzlənir. Məsələn, bildiyimiz kimi, beynəlxalq publik hüquq normaları hüquqi qüvvə baxımından, üç növə (qrupa) bölünür: universal beynəlxalq publik hüquq normaları; regional beynəlxalq publik hüquq normaları; lokal (partikulyar) beynəlxalq publik hüquq normaları. Universal beynəlxalq publik hüquq normaları ən yüksək hüquqi qüvvəyə malik olduğu üçün iyerarxiya «nərdivan»ında ən yuxarı yerdə durur və həmin normalar bütün dövlətlər üçün məcburidir. Odur ki, həm regional, həm də lokal beynəlxalq publik hüquq normları onlara uyğun gəlməlidir.

Beynəlxalq publik hüquq normalarının iyerarxiyasının vacib **praktiki əhəmiyyəti** vardır. Belə ki, beynəlxalq publik hüquq normalarının iyerarxiyası, birinci, onların beynəlxalq hüquq sistemində yerini və rolunu müəyyənləşdirməyə imkan verir; ikinci, o, beynəlxalq publik hüquq normaları yaratmaq prosesində dövlətlərin qarşılıqlı razılıq əldə etmələri məsələsini asanlaşdırır; üçüncü, beynəlxalq publik hüquq normalarının iyerarxiyası onlar arasında kolliziyanın aradan qaldırılmasını təmin edir. Nəzərdən qaçırmaq olmaz ki, bunun beynəlxalq publik hüququn öz funksiyasını yerinə yetirməsi üçün mühüm əhəmiyyəti vardır.

IV MÖVZU ÜZRƏ ƏYANİ SXEM



IV FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008 (II fəsil).
2. Алексидзе Л.А. Некоторые вопросы теории международного права: императивные нормы (jus cogens). Тбилиси, 1982.
3. Аречага Э.Х.Современное международное право. М., 1983 (с.20-58).
4. Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2005 (гл. 4).
5. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 (гл. 4).
6. Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл.3).
7. Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009 (гл.4, с.122-130).
8. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.3, с.38-42).
9. Международное право. Учебник/ Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл.3, с.34-36).
10. Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009 (гл.1, § 3).
11. Черниченко С.В. Теория международного права. Том 1. М., 1999 (с. 17-48).
12. Шумилов В.М. Международное право. Учебник. М., 2008 (с. 56-64).

V FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN MƏNBƏLƏRİ

5.1. Beynəlxalq publik hüququn mənbələrinin anlayışı, ümumi xarakteristikası və növləri

5.1.1. Beynəlxalq publik hüququn mənbələrinin anlayışı və əhəmiyyəti

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq normalarının yaranmasına yönələn fəaliyyətin nəticəsini zahirən ifadə edən formalar beynəlxalq publik hüquq elmində (doktrinada), eləcə də beynəlxalq hüquqa dair dərsliklərdə «beynəlxalq publik hüququn mənbələri» adlanır; bu termin həm də beynəlxalq hüquq praktikasında işlədilir və ondan bəzi beynəlxalq-hüquqi sənədlərdə istifadə olunur. Məsələn, BMT–nin Nizamnaməsində, Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında və digər sənədlərdə «beynəlxalq hüququn mənbələri» termininin işlədilməsinə rast gəlirik. Bu, elə bir termindir ki, onda beynəlxalq hüquq yaradıcılığı prosesinin nəticəsi öz əksini tapır. Belə ki, beynəlxalq publik hüquq normaları zahirən müəyyən formada mövcud olur; bu formaların köməyi ilə onlar ifadə edilir və yaranır. Məhz həmin formalar beynəlxalq publik hüququn mənbələri adlanır. Buna görə də, beynəlxalq publik hüququn mənbələrinə həm də «beynəlxalq publik hüququn formaları» demək olar.[1] Təsadüfi deyil ki, nəzəri ədəbiyyatda «hüququn mənbələri» və «hüququn formaları» eynimənalı anlayışlar kimi işlədilir.[2]

Beynəlxalq publik hüququn mənbələri dedikdə beynəlxalq publik hüquq normalarının zahirən ifadələnmə, yaranma və mövcudolma formaları başa düşülür.

---

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.65.

[2] Xropanyuk V. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Bakı, 1995, s.94 (rus dilindən tərcümə).

Beynəlxalq publik hüququn mənbələrinə verdiyimiz elmi anlayışdan görünür ki, beynəlxalq publik hüququn mənbələri özündə aşağıdakıları ehtiva edir:

- birinci, beynəlxalq publik hüquq normalarının ifadələnmə formasını;
- ikinci, beynəlxalq publik hüquq normalarının yaranma formasını;
- üçüncü, beynəlxalq publik hüquq normalarının mövcudolma formasını.

Məsələn, beynəlxalq publik hüququn mənbələrindən biri olan beynəlxalq müqavilə elə formadır ki, bu formanın köməyi ilə beynəlxalq publik hüquq normaları həm ifadə edilir, həm yaranır, həm də mövcud olur.

Beynəlxalq publik hüququn mənbələri anlayışı beynəlxalq publik hüquq normalarının öz əksini tapdığı, təsbit olunduğu və ifadə edildiyi beynəlxalq xarakterli rəsmi dövlət sənədlərini əhatə edir. Məsələn, dövlətlərin öz aralarında bağladıqları beynəlxalq müqavilələr, dövlətlərin birlik forması olan beynəlxalq təşkilatların normativ qərarları və s. beynəlxalq xarakterli rəsmi dövlət sənədləridir. Bu sənədlərdə dövlətlərin müəyyən etdikləri davranış qaydaları, yəni beynəlxalq publik hüquq normaları ifadə edilir. Belə ki, müəyyən olunan davranış qaydalarının özü beynəlxalq publik hüquq normalarının hüquqi məzmununu təşkil edir.[1] Beynəlxalq publik hüquq normalarının isə, məlum olduğu kimi, məcburi hüquqi qüvvəsi vardır. Məhz bu səbəbdən beynəlxalq publik hüququn mənbələri rəsmi və məcburi xarakter daşıyır; həm də ona görə ki, beynəlxalq publik hüququn mənbələri dedikdə beynəlxalq-hüquqi aktlar başa düşülür (beynəlxalq-hüquqi akt isə hüquqi aktın bir növüdür). Hüquqi akt özündə hüquq norması müəyyənləşdirdiyinə görə hüququn mənbəyi sayılır; həm də o, hüququn müasir mənbələri arasında əsas yer tutur.

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.7.

Beynəlxalq-hüquqi aktlar dedikdə beynəlxalq publik hüquq normaları müəyyənləşdirən aktlar başa düşülür. Belə aktlar bütün hallarda dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının razılaşmasını (sazişini) ifadə edir. Dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının razılaşması (sazişi) isə, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq normaları yaratmağın (müəyyənləşdirməyin) yeganə üsuludur. Bu səbəbdən beynəlxalq-hüquqi aktlar beynəlxalq publik hüququn mənbəyi sayılır.[1] Məsələn, beynəlxalq müqavilələr, beynəlxalq təşkilatların məcburi hüquqi qüvvəsi olan qərarları və s. beynəlxalq-hüquqi aktlara misal ola bilər.

Beynəlxalq publik hüququn mənbələrinin, ilk növbədə, **praktiki əhəmiyyəti** vardır. Belə ki, öz əsas və başlıca funksiyasını, yəni dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək funksiyasını həyata keçirməkdən ötrü beynəlxalq publik hüquq normaları praktikada tətbiq edilməlidir. Beynəlxalq publik hüququn mənbələri məhz beynəlxalq publik hüquq normalarının praktiki tətbiqi üçün vacib əhəmiyyət kəsb edir. Aydın məsələdir ki, beynəlxalq hüququn mənbələrində ifadə olunmayan və öz əksini tapmayan beynəlxalq hüquq normalarının məcburi hüquqi qüvvəsi yoxdur və onlar dövlətlərarası beynəlxalq münasibətləri tənzimləməkdən ötrü praktikada tətbiq edilə bilməz.

Məlum olduğu kimi, beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının davranışına təsir etmək və həmin münasibətləri tənzimləmək üçündür; bundan ötrü beynəlxalq publik hüquq normaları realizə olunmalıdır, yəni tətbiq edilməlidir. Beynəlxalq publik hüquq normaları bilavasitə özlüyündə realizə olunmur; onlar yalnız o zaman realizə edilə bilər ki, beynəlxalq publik hüququn bu və ya digər mənbə növündə ifadələnsin. Beynəlxalq publik hüquq normaları məhz beynəlxalq publik hüququn mənbələri vasitəsilə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının dav-

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 63.

ranışına aktiv formada təsir edərək, ona hüquqi cəhətdən məna verir,[1] eləcə də həmin münasibətləri tənzimləyir.

Beynəlxalq publik hüququn mənbələrinin əhəmiyyəti təkcə bunlarla bitmir və məhdudlaşmır; onlar həm də dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının **hüquqauyğun davranışını təmin edir**. Hüquqauyğun davranış odur ki, həmin davranış beynəlxalq publik hüququn mənbələrində öz əksini tapan, ifadə edilən və mövcud olan beynəlxalq publik hüquq normalarının tələbləri ilə ziddiyyət təşkil etməsin; əgər zidd olarsa, belə davranış hüquqauyğun deyil, hüquqazidd davranış sayılır. Deməli, dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının hüquqauyğun davranışı beynəlxalq publik hüququn mənbələrində öz əksini tapan beynəlxalq publik hüquq normaları əsasında müəyyən edilir. Başqa sözlə, beynəlxalq publik hüququn mənbələrində ifadə olunan beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının hər hansı davranışının hüquqauyğun olub-olmamasını müəyyənləşdirmək üçün istifadə edilən meyardır. Dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının hüquqauyğun davranmalarını həmin meyar əsasında müəyyənləşdirmək olur.

5.1.2. Beynəlxalq publik hüququn mənbə növləri

Beynəlxalq publik hüququn mənbələri geniş və ümumiləşdirilmiş anlayışdır və özündə ayrı-ayrı növləri birləşdirir. Bu onunla bağlıdır ki, beynəlxalq publik hüquq normalarının rəsmi mövcudolma, yaranma və ifadələnmə formaları eyni deyil, müxtəlifdir. Beynəlxalq publik hüquq normaları hansı formada ifadə olunursa, həmin forma beynəlxalq publik hüququn mənbə növü sayılır. BMT-nin Nizamnaməsində hətta beynəlxalq publik hüququn çoxnövlü mənbəyə malik olması göstərilir. Belə ki, onun preambulasında «beynəlxalq müqavilə və beynəlxalq hüququn digər mənbələri» anlayışı işlədilir. Bu isə

[1] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 87.

onu ifadə edir ki, beynəlxalq publik hüququn bir neçə mənbə növü vardır.

Beynəlxalq publik hüququn mənbə növləri dedikdə beynəlxalq publik hüquq normalarının ayrı-ayrı ifadələnmə və mövcudolma formaları başa düşülür.

Beynəlxalq publik hüquqda dövlətdaxili (milli) hüquqdan fərqli olaraq, beynəlxalq publik hüququn mənbə növlərinin qəti və dəqiq siyahısını müəyyənləşdirən hamılıqla qəbul edilmiş konkret bir akt mövcud deyildir Düzdür, beynəlxalq publik hüququn mənbə növləri barədə beynəlxalq saziş mövcuddur ki, praktiki olaraq, bütün dünya dövlətləri həmin sazişin iştirakçısıdırlar. Söhbət **Beynəlxalq Məhkəmənin Statutundan** gedir (Beynəlxalq Məhkəmə BMT-nin əsas məhkəmə orqanıdır)[1]. Belə ki, həmin sənədin 38-ci maddəsi beynəlxalq publik hüququn mənbə növlərini sadalayaraq, onların siyahısını verir. Bu maddədə deyilir ki, mübahisələri beynəlxalq publik hüquq əsasında həll etməyə borclu olan Beynəlxalq Məhkəmə aşağıdakıları tətbiq edə bilər:

- beynəlxalq konvensiyalar (müqavilələr);
- beynəlxalq-hüquqi adətlər;
- hüququn ümumi prinsipləri;
- məhkəmə qərarları;
- beynəlxalq hüquq doktrinası (beynəlxalq hüquq üzrə daha təcrübəli mütəxəssislərin elmi fikirləri).

Şübhəsiz, beynəlxalq publik hüququn mənbə növlərinə dair göstərilən siyahı tam xarakter daşımır ki, bu, beynəlxalq hüquq ədəbiyyatı səhifələrində düzgün olaraq qeyd edilmiş, nəzərə çatdırılmışdır.[2] Belə ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində dövlətlərarası beynəlxalq təşkilatların normativ

[1] URL:http://www.un.org (28.04.2018-ci il).

[2] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.8; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.19; Международное право. Учебник / Отв. ред. В.И. Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.111; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.88 və b.

qərarları kimi mənbə növü göstərilmir. Məsələ burasındadır ki, sözügedən 38-ci maddə I Dünya Müharibəsindən sonrakı dövrdə Beynəlxalq Ədalət Mühakiməsinin Daimi Palatası üçün formulə edilmişdi. Dövlətlərarası beynəlxalq təşkilatların yaranması isə II Dünya Müharibəsindən sonrakı dövrlərə, yəni XX əsrin ortalarına təsadüf edir ki, onların da beynəlxalq publik hüquq normaları yaratmaq səlahiyyəti vardır. Həmin normalar dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarlarında ifadə edilir; məhz bu qərarlar müasir beynəlxalq publik hüququn mənbə növlərindən biridir.

Qeyd etmək lazımdır ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi beynəlxalq hüquq üzrə mütəxəssis alimlər tərəfindən eyni cür şərh olunmur. Bəzi müəlliflər göstərirlər ki, 38-ci maddədə söhbət beynəlxalq publik hüququn mənbələrindən deyil, mübahisələri həlletmə vasitələrindən gedir.[1] Bir sıra müəllif belə hesab edir ki, 38-ci maddədə göstərilənlərdən məhkəmə qərarları və beynəlxalq hüquq doktrinası beynəlxalq publik hüququn mənbəyi sayılmır.[2] Digər müəlliflərə görə isə, beynəlxalq publik hüququn mənbə növlərini müəyyənləşdirmək üçün Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsinə əsaslanmaq və istinad etmək lazımdır;[3] onların fikrincə, 38-ci maddədə beynəlxalq publik hüququn mənbə növlərinin tam olmayan siyahısı verilmişdir.

---

[1] *Məsələn, bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.109.

[2] *Məsələn, bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 88; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.139 və s.

[3] *Məsələn, bax:* Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.10; Международное право. Учебник / Отв ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.112; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.25; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.8; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 88; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.19 və s.

Zənnimizcə, sonuncu müəlliflərin mövqeyi həqiqətə daha uyğundur. Hesab edirik ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində beynəlxalq publik hüququn ayrı-ayrı mənbə növləri göstərilmişdir. Belə ki, məlum olduğu kimi, dövlətlər özləri razılığa gəlməklə beynəlxalq publik hüquq normalarının məzmununu (davranış qaydaları) müəyyən edir, həm də beynəlxalq publik hüquq normalarının zahirən mövcudolma və ifadələnmə formalarını, yəni beynəlxalq publik hüququn mənbələrini müəyyənləşdirirlər. Başqa sözlə, beynəlxalq publik hüququn mənbələri dövlətlərin razılığı əsasında müəyyən olunur. Odur ki, hansı hüquqi formanın beynəlxalq publik hüququn mənbəyi olması məsələsi qəti olaraq yalnız dövlətlərin özləri tərəfindən həll edilir. BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində müxtəlif hüquqi formaların (beynəlxalq müqavilə, beynəlxalq-hüquqi adət və s.) göstərilməsi məhz onu ifadə edir ki, dövlətlər həmin formaların beynəlxalq publik hüququn mənbəyi kimi tanınması barədə razılığa gəlmişlər. Belə ki, BMT Nizamnaməsinin ayrılmaz hissəsi sayılan Beynəlxalq Məhkəmə Statutu beynəlxalq müqavilə olub, demək olar ki, dünya dövlətlərinin əksəriyyəti tərəfindən imzalanmışdır. Buna görə də, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində sadalanan hüquqi formalar iştirakçı-dövlətlər tərəfindən beynəlxalq publik hüququn mənbəyi kimi tanınır. Digər tərəfdən, həmin maddədə göstərilir ki, Beynəlxalq Məhkəmə dövlətlər arasında yaranan mübahisəni beynəlxalq publik hüquq, yəni beynəlxalq publik hüquq normaları əsasında həll edir. Sonra isə 38-ci maddə həmin normaların yaranma və ifadələnmə formalarını (beynəlxalq müqavilə, beynəlxaq-hüquqi adət, məhkəmə qərarları, beynəlxalq hüquq doktrinası və s.) göstərir. Beynəlxalq publik hüquq normalarının yaranma və ifadələnmə formaları isə, bildiyimiz kimi, beynəlxalq publik hüququn mənbəyidir. Deməli, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində sadalanan hüquqi formaların hamısı beynəlxalq publik hüququn mənbəyi sayılır.

Beləliklə, Beynəlxalq Məhkəmə Statutunda onun 38-ci maddəsinə istinadən aşağıdakılar **beynəlxalq publik hüququn mənbə növləri** kimi göstərilir: beynəlxalq müqavilələr, beynəlxalq-hüquqi adətlər, hüququn ümumi prinsipləri, beynəlxalq məhkəmə qərarları, beynəlxalq hüquq doktrinası. Lakin göstərilənlər beynəlxalq hüququn mənbə növlərinin tam və qəti siyahısı deyildir; burada aşağıdakılar da **nəzərə alınmalıdır**: dövlətlərarası beynəlxalq təşkilatların qərarları, dövlətlərarası beynəlxalq konfransların normativ qərarları, dövlətlərin birtərəfli aktları.

Qeyd etməliyik ki, beynəlxalq publik hüququn mənbə növlərini düzgün müəyyənləşdirməyin vacib hüquqi əhəmiyyəti vardır. Belə ki, beynəlxalq publik hüququn özü beynəlxalq publik hüquq normalarından təşkil olunaraq, onların hesabına formalaşmışdır; o, yerinə yetirdiyi funksiyaları (məsələn, tənzimetmə, qoruma, restitusiya və digər funksiyaları) məhz beynəlxalq publik hüquq normaları vasitəsilə həyata keçirir. Beynəlxalq publik hüququn mənbə növləri isə təkcə beynəlxalq publik hüquq normalarının mövcudolma formaları deyil, həm də beynəlxalq publik hüquq normalarının yaradılması metodu sayılır.[1]

Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində beynəlxalq publik hüququn mənbələrini bəzi müəlliflər dörd (beynəlxalq müqavilə, beynəlxalq-hüquqi adət, beynəlxalq təşkilatların aktları, beynəlxalq konfransların aktları),[2] digərləri iki (əsas mənbə, əlavə və ya törəmə mənbə),[3] alimlərin bir qismi isə üç növə (əsas növ, törəmə növ, yardımçı növ)[4] bölürlər.

---

[1] Международное право. Учебник / Отв ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.110.

[2] *Məsələn, bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 90.

[3] *Məsələn, bax:* Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.10; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.69.

[4] *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.25.

Fikrimizcə, üçnövlü təsnifata üstünlük verilməsi daha məqsədəmüvafiqdir. Bu kontekstdə beynəlxalq publik hüquq mənbələrinin aşağıda göstərilən **üç növü** fərqləndirilir:

– əsas mənbə;
– törəmə mənbə;
– yardımçı (əlavə) mənbə.

Beynəlxalq publik hüququn əsas mənbəyi dedikdə beynəlxalq müqavilə, habelə beynəlxalq-hüquqi adət başa düşülür; ədəbiyyat səhifələrində o, bəzən, **beynəlxalq publik hüququn başlıca mənbəyi** də adlanır. Belə ki, beynəlxalq publik hüququn ibarət olduğu beynəlxalq publik hüquq normaları, əsasən və başlıca olaraq, beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət kimi hüquqi formalarda ifadə olunur. Başqa sözlə, beynəlxalq müqavilə və beynəlxalq adətlər beynəlxalq publik hüquq normaları yaratmağın əsas vasitəsi, başlıca metodu sayılır. Beynəlxalq publik hüququn əsas mənbəyi dedikdə həm də **hüquqi prinsiplər** başa düşülür ki, onlar hüquq sisteminin əsasını və fundamentini təşkil edir.

Beynəlxalq publik hüququn törəmə mənbəyi dedikdə dövlətlərarası beynəlxalq təşkilatların, habelə dövlətlərarası beynəlxalq konfransların normativ qərarları başa düşülür. Məlum olduğu kimi, dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək üçün, hər şeydən əvvəl, beynəlxalq publik hüququn əsas mənbələrində (beynəlxalq müqavilədə, beynəlxalq-hüquqi adətdə) ifadə olunan normalar tətbiq edilir. Bu səbəbdən beynəlxalq publik hüququn əsas mənbəyi həm də **ilkin mənbə** adlanır; həm də ona görə belə adlanır ki, beynəlxalq-müqavilə, eləcə də beynəlxalq-adət hüquq normaları dövlətlərin razılığı (birbaşa razılıq və ya dinməz razılıq, yəni susmaq yolu ilə razılıq) əsasında yaradılır. Dövlət isə beynəlxalq (dövlətlərarası) münasibətlərdə iştirak edən ilkin subyektdir.

Təbii ki, beynəlxalq publik hüququn ilkin mənbəyinə münasibətdə dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarları (o cümlədən dövlətlərarası beynəlxalq konfransların normativ qərarları) törəmə mənbə kimi tanınmalıdır; həm də ona görə ki,

dövlətlərarası təşkilatlar beynəlxalq münasibətlərdə iştirak edən törəmə subyektdir. Məlum məsələdir ki, törəmə subyekt tərəfindən yaradılan beynəlxalq publik hüquq normalarının ifadə olunduğu mənbə törəmə mənbə hesab edilməlidir. Beynəlxalq publik hüququn törəmə mənbəyinə həm də **ikinci dərəcəli mənbə** deyilir.

Beynəlxalq publik hüququn yardımçı (əlavə) mənbəyi dedikdə məhkəmə qərarı, beynəlxalq publik hüquq doktrinası və dövlətlərin birtərəfli aktı başa düşülür. Əgər dövlətlərarası beynəlxalq münasibətləri tənzimləməkdən ötrü tələb edilən və lazım olan beynəlxalq publik hüquq normaları əsas və törəmə mənbə növlərində ifadə edilmirsə, onda məsələ beynəlxalq publik hüququn yardımçı (əlavə) mənbəyi ilə həll edilir.

Dövlətdaxili qanunvericiliyə (ayrı-ayrı dövlətlərin milli qanunvericiliyinə), yəni dövlətdaxili (milli) hüquqa gəldikdə isə, qeyd etmək lazımdır ki, o, beynəlxalq publik hüququn mənbəyi kimi tanınmır. Ona görə ki, dövlətdaxili (milli) hüquq ayrı-ayrı müxtəlif və çoxsaylı hüquq normalarından ibarətdir; bu normalar isə öz əksini qanunlarda, Dövlət Başçısının fərmanlarında, Hökumət qərarlarında və digər mənbə növlərində tapır. Onlar dövlətdaxili (milli) hüququn mənbələri olub, iyerarxiya prinsipi əsasında düzlənirlər.

Dövlətdaxili (milli) hüquq normalarında yalnız bircə dövlətin iradəsi ifadə olunur. Başqa sözlə, əgər bu və ya digər hüquq normasında təkcə bir dövlətin iradəsi ifadə olunarsa, həmin norma dövlətdaxili hüquq norması hesab olunur.[1] Belə normalar müəyyən bir dövlət tərəfindən qəbul olunduğuna görə, onlar, təbii ki, həmin dövlətin ərazisində qüvvədə olur və tətbiq edilir. Məhz bu səbəbdən dövlətdaxili hüquq normaları dövlətlərarası beynəlxalq münasibətləri tənzim etmək iqtidarında deyildir. Odur ki, **dövlətdaxili hüquq beynəlxalq publik hüququn mənbəyi ola bilməz;** həm də ona görə ola bilməz

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 35.

ki, dövlətdaxili hüquq **subordinasiya hüququdur**. Beynəlxalq publik hüquq isə, bundan fərqli olaraq, əvvəllərdə qeyd etdiyimiz kimi, **koordinasiya hüququdur.** Belə ki, beynəlxalq publik hüquq normaları dövlətlərarası beynəlxalq münasibətlərin ən azı iki iştirakçısının (bu iştirakçılar hüquqi cəhətdən bir-birinə tabe deyil, yəni onların bir-birindən asılılığı yoxdur) qarşılıqlı razılığı ilə yaradılır.

5.2. Beynəlxalq publik hüququn əsas mənbələri

5.2.1. Beynəlxalq müqavilə beynəlxalq publik hüququn əsas mənbəyi kimi

Beynəlxalq hüquq elmində bəzi mütəxəssis alimlərin fikrincə, beynəlxalq publik hüququn mənbələri sırasında beynəlxalq-hüquqi adətlər birinci, beynəlxalq müqavilələr isə ikinci yer tutur.[1] Lakin, güman edirik ki, beynəlxalq müqavilələr beynəlxalq publik hüququn mənbələri sırasında birinci yer tutur və bu cür fikir söyləmək üçün kifayət qədər tutarlı **dəlil və arqumentlər** mövcuddur.

Birinci, beynəlxalq müqavilələrin bağlanması və icrası beynəlxalq-hüquqi aktların köməyi ilə müfəssəl şəkildə tənzimlənir. Söhbət aşağıda göstərilən iki aktdan gedir:

- Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyası (23.05.1969-cu il);
- Dövlətlər və beynəlxalq təşkilatlar arasında və ya beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında Vyana Konvensiyası (21.03.1986-cı il).

Beynəlxalq-hüquqi adətlərin yaranmasını tənzimləyən hər hansı beynəlxalq-hüquqi akt mövcud deyil; onlar dövlətlərarası praktika vasitəsi ilə formalaşır.

---

[1] *Məsələn, bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.109; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 88; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.112 və s.

İkinci, beynəlxalq müqavilələr, bir qayda olaraq, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları arasında yazılı formada bağlanır. Bu isə həmin müqavilələrdə formulə edilən beynəlxalq-müqavilə hüquq normalarının aydın və konkret şəkildə müəyyən olunmasına imkan verir. Yazılı forma həm də beynəlxalq müqavilə bağlayan tərəflərin qarşılıqlı hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsini təmin edir.

Beynəlxalq-hüquqi adətlərə gəldikdə isə, qeyd etməliyik ki, onlar dövlətlərin praktikası sayəsində yaranaraq beynəlxalq publik hüquq normaları şəklində mövcud olur; belə normalara, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq-adət hüquq normaları deyilir. Beynəlxalq-adət hüquq normaları isə yazılı formada hər hansı beynəlxalq-hüquqi aktda ifadə edilmir. Yazılı formada ifadə edilməməsi beynəlxalq-adət hüquq normalarının mövcud olmasını şübhə altına alır; bu, həm də onların dəqiq və konkret məzmununun müəyyənləşdirilməsini çətin məsələyə çevirir; həmin məsələ hətta, bəzən, dövlətlər arasında mübahisənin və fikir ayrılığının yaranmasına səbəb olur. Buna görə də, bu və ya digər beynəlxalq-adət hüquq normasının mövcudluğunu, habelə onun konkret və dəqiq məzmununu müəyyənləşdirmək üçün dövlətlərin praktikasını (fəaliyyətini, yəni hərəkətini) öyrənmək lazım gəlir. Bu da ki, sözsüz, müəyyən çətinliklərlə bağlıdır.[1] Dövlətlərin praktikası beynəlxalq-adət hüquq normasının mövcud olmasını təsdiq edir. Beynəlxalq-adət hüquq normalarının mövcudluğu, habelə onların konkret və dəqiq məzmunu həm də aşağıdakı kimi müəyyən olunur:

- məhkəmə qərarı əsasında;
- beynəlxalq publik hüquq doktrinasından istifadə etməklə;
- beynəlxalq təşkilat və konfransların qərarlarının köməyi ilə.

Beləliklə, beynəlxalq-adət hüquq normalarının dəqiq və konkret məzmununu müəyyənləşdirmək bəzi hallarda çətinlə-

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.125.

şir. Çox vaxt isə onların məzmununu öyrənmək yalnız beynəlxalq adətlərin özünün yaranma prosesini analiz etməklə mümkün olur.[1]

Üçüncü, həm beynəlxalq-müqavilə, həm də beynəlxalq-adət hüquq normaları dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının razılığı əsasında yaranır. Əvvəllərdə qeyd etdiyimiz kimi, razılıq istər beynəlxalq-müqavilə hüquq normaları, istərsə də beynəlxalq-adət hüquq normaları olsun, fərqi yoxdur, beynəlxalq publik hüquq normaları yaratmağın yeganə üsuludur. Beynəlxalq-müqavilə hüquq normaları müəyyən edilərkən dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının razılığı açıq-aydın şəkildə ifadə olunur. Beynəlxalq-adət hüquq normaları yaradıldığı halda isə onlar öz razılığını susmaq yolu ilə bildirir.

Dördüncü, beynəlxalq-müqavilə hüquq normalarının yaradılması elə də mürəkkəb məsələ sayılmır və uzun müddət tələb etmir. Belə ki, dövlətlər və digər subyektlər öz aralarındakı münasibətləri tənzimləməkdən ötrü beynəlxalq publik hüquq normaları yaratmaq məqsədilə beynəlxalq müqavilə bağlaya bilərlər. Beynəlxalq-adət hüquq normalarına gəldikdə isə, qeyd etməliyik ki, onların yaradılması mürəkkəb məsələ sayılır; həm də dövlətlərin praktikasında formalaşan hər hansı davranış qaydasının beynəlxalq-adət hüquq norması kimi tanınması müəyyən vaxt tələb edir. Buna görə də, beynəlxalq-adət hüquq normaları yaratmaq uzunmüddətli prosesdir.

Beşinci, beynəlxalq müqavilə dövlətlərə və digər subyektlərə öz iradələrini ifadə etmələrinə, onların razılığa nail olmalarına imkan verən əlverişli formadır. Beynəlxalq-hüquqi adətlər isə bu xüsusiyyətdən məhrumdur.

Altıncı, beynəlxalq müqavilə dövlətlərarası beynəlxalq münasibətlərin müasir inkişaf xarakterinə daha yaxşı cavab verir. Belə ki, beynəlxalq müqavilə beynəlxalq-hüquqi tənzimetmənin operativliyini, onun optimal surətdə, yəni ən əlverişli və

[1] Даниленко Г.М. Обычай в современном международном праве. М., 1988, с.9.

münasib şəkildə həyata keçirilməsini təmin edir. Digər tərəfdən, beynəlxalq müqavilə mümkün olan maksimum dərəcədə imkan verir ki, beynəlxalq publik hüquq normaları dürüst və dəqiq şəkildə formulə edilsin. Beynəlxalq-adət hüquq normaları isə dürüst və dəqiq şəkildə yazılıb qeyd olunmur, bu normaların köməyi ilə çevik və optimal beynəlxalq-hüquqi tənzimetmənin həyata keçirilməsi qeyri-mümkündür.

Yeddinci, dövlətlərarası beynəlxalq münasibətlərin müasir dövrdə hüquqi tənzimlənməsi, əsasən və başlıca olaraq, beynəlxalq müqavilələr vasitəsilə həyata keçirilir; təkcə BMT çərçivəsində 300-dən çox beynəlxalq müqavilə bağlanmışdır. Qeyd etməliyik ki, XX əsrə kimi beynəlxalq publik hüquqda beynəlxalq-hüquqi adətlər vacib rol oynayırdı və təsadüfi deyil ki, həmin dövrə qədər, əsasən, beynəlxalq-adət hüquq normaları üstünlük təşkil edirdi. Müasir dövrdə isə beynəlxalq publik hüquqda əsas yeri beynəlxalq-müqavilə hüquq normaları tutur.

Qloballaşma dövründə beynəlxalq müqavilələrin rolu durmadan artır; hətta son onilliklər ərzində onların sayəsində beynəlxalq publik hüququn əsas məzmunu kökündən dəyişmiş, yeni müstəqil hüquq sahələri yaranmışdır. Əsas mənbələrdən biri kimi beynəlxalq adətlər beynəlxalq-hüquqi tənzimetmə prosesində əhəmiyyətli və vacib yer tutsa da, müasir beynəlxalq publik hüquq, əsasən, daha çox müqavilə hüququ kimi tanınır.

Səkkizinci, beynəlxalq müqavilələr vasitəsilə hüquqi tənzimetmə dövlətlərarası beynəlxalq münasibətlərin, demək olar ki, bütün sahələrini əhatə edir. Bu gün həmin münasibətlərin inkişaf tempi o dərəcədə yüksəkdir ki, onları beynəlxalq-hüquqi adətlərin köməyi ilə tənzimləmək qeyri-mümkündür. Belə ki, dövlətlərarası beynəlxalq münasibətlərin yeni sahəsini tənzimləmək üçün dərhal beynəlxalq-hüquqi adətlərin formalaşdırılması imkan xaricindədir.[1]

Müasir beynəlxalq publik hüququn mənbələri sırasında beynəlxalq müqavilələrin birinci yer tutmasını həm də əksər mü-

[1] Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.10.

əlliflər təsdiqləyirlər. Belə ki, onlar beynəlxalq publik hüququn mənbələrini sadalayarkən, birinci olaraq, beynəlxalq müqavilənin adını çəkirlər.[1]

Müasir beynəlxalq publik hüququn mənbələri sırasında beynəlxalq müqavilələrə ilkin yeri həm də bəzi rəsmi beynəlxalq sənədlər verir. Belə ki, BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsinin ehtiva etdiyi siyahıda beynəlxalq müqavilələrin adı birinci çəkilir. Bundan əlavə, BMT-nin Nizamnaməsində işlədilən «beynəlxalq müqavilələr və beynəlxalq hüququn digər mənbələri» kimi ifadələrdən beynəlxalq müqavilələrə birinci dərəcəli əhəmiyyət verilməsi məlum olur.

Doğrudan da, beynəlxalq müqavilələr müasir beynəlxalq publik hüququn əsas mənbəyi sayılır. Təsadüfi deyil ki, rusiyalı alim N.M.Korkunov onları hələ XIX əsrin sonlarında beynəlxalq hüququn başlıca mənbəyi hesab etmişdir.[2] Xüsusi olaraq, qeyd etməliyik ki, hal-hazırda kəmiyyət və say baxımından beynəlxalq müqavilələr beynəlxalq publik hüququn əsas mənbələri sırasında birinci yer tutur. Dövlətlərarası beynəlxalq münasibət iştirakçıları, hər şeydən əvvəl, beynəlxalq publik hüquq normaları yaratmaq üçün beynəlxalq müqavilə bağlayırlar. Hazırda bu normalar öz «xüsusi çəkisi»nə görə beynəlxalq publik hüquqda əsas yer tutur. Buna görə də, beynəlxalq müqavilə beynəlxalq publik hüquq normaları müəyyənləşdirməyin

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.141; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.25; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.70; Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 42; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.10; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 64; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.15; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 90 və b.

[2] Коркунов Н.М. Лекции по международному праву // В книге: Золотой Фонд Российской науки международного права. Том 1. М., 2007, с.323.

əsas üsulu və beynəlxalq publik hüquq yaradıcılığı prosesinin vacib vasitələrindən biridir.

Beynəlxalq müqavilələrin yaratdığı beynəlxalq publik hüquq normaları müqavilə iştirakçıları üçün qarşılıqlı beynəlxalq subyektiv hüquqlar, habelə beynəlxalq-hüquqi vəzifələr müəyyənləşdirir. Beynəlxalq müqavilələrin **əsas məqsədi** də məhz bundan, yəni müqavilə iştirakçıları üçün qarşılıqlı beynəlxalq hüquq və vəzifələr müəyyən etməkdən ibarətdir.

Beynəlxalq müqavilə, bir qayda olaraq, yalnız onun tərəfləri (iştirakçıları) üçün məcburidir. Dövlətlərarası beynəlxalq münasibətlərin digər iştirakçıları, yəni beynəlxalq müqavilənin bağlanmasında iştirak etməyən və ya ona qoşulmayan tərəflər üçün onun məcburi hüquqi qüvvəsi yoxdur.

Beynəlxalq müqavilələr, adətən, **dövlətlər arasında** bağlanır. Bununla bərabər, dövlətlər və beynəlxalq (dövlətlərarası) təşkilatlar arasında da beynəlxalq müqavilələrin bağlanması mümkündür. Beynəlxalq müqavilələr beynəlxalq (dövlətlərarası) təşkilatların öz aralarında da bağlana bilər. Buna görə də, beynəlxalq müqavilə:

- dövlətlər arasında;
- dövlətlərlə beynəlxalq (dövlətlərarası) təşkilatlar arasında;
- beynəlxalq (dövlətlərarası) təşkilatların öz aralarında bağlanır.

Əvvəllər, yəni klassik beynəlxalq publik hüquq dövründə yalnız dövlətlərin bir-biri ilə bağladıqları müqavilə beynəlxalq müqavilə sayılırdı. Müasir dövrdə isə beynəlxalq publik hüququn mənbəyi kimi beynəlxalq müqaviləni həm də beynəlxalq (dövlətlərarası) təşkilatlar bağlaya bilərlər. Belə ki, dövlətlərlə bərabər, beynəlxalq (dövlətlərarası) təşkilatların da **beynəlxalq müqavilə bağlamaq qabiliyyəti** vardır. Bu qabiliyyətdən məhrum olunduğuna görə nə transmilli korporasiyalar (TMK), nə də müəssisələr (firmalar, kompaniyalar) beynəlxalq müqavilənin tərəfi (iştirakçısı) ola bilərlər. İstənilən beynəlxalq

müqavilənin tərəfi qismində yalnız dövlətlər və beynəlxalq (dövlətlərarası) təşkilatlar çıxış edir. Hər hansı razılaşmanın (sazişin) beynəlxalq müqavilə hesab edilməsinə onun predmet və məzmunu təsir göstərmir.[1] Başqa sözlə, dövlətlər arasında istənilən razılaşmanın (sazişin) beynəlxalq müqavilə kimi tanınması həmin razılaşmanın (sazişin) predmet və məzmunundan asılı deyildir.

Dövlətlə xarici müəssisə (firma, kompaniya) arasında bağlanan hər hansı müqavilə (məsələn, konsessiya müqaviləsi, yəni uzunmüddətli icarə müqaviləsi, kredit müqaviləsi, investisiya sazişi və s.) beynəlxalq müqavilə sayılmır. Ona görə ki, beynəlxalq müqavilənin tərəfləri yalnız dövlətlərdən, eləcə də beynəlxalq (dövlətlərarası) təşkilatlardan ibarət olmalıdır. Bu meyara cavab verməyən istənilən müqavilə beynəlxalq müqavilə deyil, **beynəlxalq xarakterdə olan xarici elementli müqavilə** adlanır. Beynəlxalq Məhkəmə 1933-cü ildə İran dövləti (hökuməti) və İngilis-İran Neft Şirkəti arasında bağlanmış konsessiya müqaviləsini beynəlxalq müqavilə deyil, məhz belə müqavilə hesab etmişdir.[2] Beynəlxalq xarakterdə olan xarici elementli müqavilələrə həm də diaqonal müqavilələr (və ya diaqonal sazişlər) deyilir. **Diaqonal müqavilələrin** bir tərəfində dövlət, digər tərəfində isə xarici müəssisə çıxış edir.[3]

Məlum məsələdir ki, müəyyən bir dövlət özünün ehtiyacını ödəmək və tələbatını təmin etmək üçün digər dövlətdən (xarici şirkətdən) mal (məsələn, taxıl, səfirlik üçün torpaq sahəsi və ya bina, ərzaq məhsulları, təyyarə, vertolyot, gəmi və s.) ala bilər. Təbii ki, bu zaman dövlətlər arasında yaranmış münasibətlər müvafiq müqavilə ilə rəsmiləşdirilir. Sual olunur: belə müqavilələri beynəlxalq müqavilə hesab etmək olarmı?

---

[1] Völkerrecht. Lehrbuch. Bd.1.B., 1981, s.31, 181 (URL:http://www.zaoerv.de) – 28.01.2018-ci il.

[2] International Court of Justice (ICJ). Reports, 1952, p.112, 330, 332 (URL:http://www.icj-cij.org) – 28.04.2018-ci il.

[3] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с. 53.

Qeyd etməliyik ki, bu kimi müqavilələr beynəlxalq hüquqla deyil, bu və ya digər dövlətin daxili (milli) hüququ ilə tənzimlənir. Bu səbəbdən iki dövlət arasında bağlanmasına, yəni tərəfləri iki dövlətdən ibarət olmasına baxmayaraq, onlar beynəlxalq müqavilə deyil, beynəlxalq xarakterdə olan xarici müqavilə hesab edilir.[1] Məsələ burasındadır ki, dövlətlər arasında razılaşma yalnız **beynəlxalq publik hüquqla tənzimləndikdə** beynəlxalq müqavilə hesab edilir. Bu, beynəlxalq müqavilələri xarakterizə edən əsas əlamətlərdən biridir ki, həmin əlamət Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında (1969-cu il) göstərilmişdir. Həmin Konvensiyanın 2-ci maddəsində deyilir ki, beynəlxalq müqavilə beynəlxalq hüquqla tənzimlənən sazişdir. Məhz beynəlxalq publik hüquqla tənzimlənmədiyinə görə Böyük Britaniya dövlətinin Argentina dövlətindən min ton dondurulmuş ət alması barədə vaxtilə bağlanmış müqavilə beynəlxalq müqavilə deyil, beynəlxalq xarakterdə olan xarici elementli müqavilə sayılırdı. Belə ki, həmin müqavilə ət ticarətində tətbiq edilən adi qaydalara, yəni daxili (milli) hüquqa uyğun bağlanmışdı.[2]

Nəticədə belə bir fikir formalaşır ki, beynəlxalq müqavilələrin iki əsas **xarakterik əlaməti** vardır: **birinci**, beynəlxalq müqavilələrin tərəfləri yalnız dövlətlərdən və beynəlxalq (dövlətlərarası) təşkilatlardan ibarətdir (bəzən, beynəlxalq müqavilə tərəfləri qismində dövlətlərarası münasibətlərin digər iştirakçıları da, yəni öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millət və xalqlar, dövlətəoxşar qurumlar da çıxış edə bilərlər);[3] **ikinci**, beynəlxalq müqavilələr beynəlxalq publik hüquqla tənzimlənir. Bu iki əlamətə cavab verməyən hər hansı razılaşmanı (sazişi) beynəlxalq hüququn mənbəyi kimi beynəlxalq müqavilə hesab etmək olmaz.

---

[1] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 115.
[2] Аречага Э. Современное международное право. М., 1983, с. 59-61.
[3] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 37-38.

Beynəlxalq müqavilələr, adətən, **yazılı formada** bağlanır. Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında (1969-cu il) göstərilir ki, beynəlxalq müqavilə dövlətlər arasında yazılı formada bağlanan sazişdir (razılaşmadır). Bununla bərabər, beynəlxalq müqavilələr həm də **şifahi formada** bağlana bilər. Belə ki, adıçəkilən Vyana Konvensiyası (1969-cu il) beynəlxalq müqavilələrin şifahi formada bağlanmasına yol verir. Lakin, buna baxmayaraq, şifahi formada beynəlxalq müqavilə bağlanmasına son dərəcə, çox nadir hallarda təsadüf olunur. Beynəlxalq müqavilələr müqayisəedilməz dərəcədə, əsasən və başlıca olaraq, yazılı formada bağlanır; bu forma beynəlxalq müqaviləni yazılı hüququn (jus scriptum) üstünlükləri ilə təmin edir və buna görə də, o, beynəlxalq-hüquqi tənzimetmənin əvəzedilməz vasitəsi kimi çıxış edir.[1]

Beynəlxalq hüquq ədəbiyyatı səhifələrində **«centlmen sazişləri»** şifahi formalı beynəlxalq müqavilələrə misal göstərilir;[2] hətta bəzi müəlliflər onları eyniləşdirirlər.[3] Lakin, qeyd etmək lazımdır ki, beynəlxalq müqavilə istənilən formada bağlanan, **hüquqi nəticəyə**, yəni münasibətlərin müəyyən sahəsində dövlətlər arasında qarşılıqlı beynəlxalq hüquq və vəzifələrin yaranmasına, dəyişməsinə və ya xitam edilməsinə **səbəb olan razılaşmadır**. Digər tərəfdən, yazılı formalı beynəlxalq müqavilələr kimi şifahi formada bağlanan beynəlxalq müqavilələr hüquqi cəhətdən məcburidir. Centlmen sazişlərinə gəldikdə isə, qeyd etməliyik ki, onlar, birinci, beynəlxalq publik hüquqla tənzimlənmir; ikinci, centlmen sazişləri hüquqi nəticəyə səbəb olmur və yalnız mənəvi vəzifələr (öhdəliklər) müəyyənləşdirirlər. Buna görə də, onlar rəsmi məlumatlar (kommyunike), bəyannamələr və siyasi xarakterli digər sənədlər kimi beynəlxalq

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Т.Тузмухамедов. М., 2007, с. 124.
[2] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s. 20-21.
[3] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с. 141.

müqavilə sayılmır; həm də ona görə ki, centlmen sazişləri beynəlxalq-hüquqi xarakterli sənəd (razılaşma) sayılmır və bu səbəbdən, təbii ki, onların məcburi hüquqi qüvvəsi ola bilməz.

Beynəlxalq publik hüququn mənbəyi rolunda, əsasən və başlıca olaraq, normativ beynəlxalq müqavilələr çıxış edir. **Normativ beynəlxalq müqavilələr** dedikdə normativ məzmuna malik olan, dəfələrlə tətbiq olunmaq üçün beynəlxalq publik hüquq normaları müəyyənləşdirən müqavilələr başa düşülür; belə müqavilələrə həm də «norma yaradan beynəlxalq müqavilələr» və yaxud «qanun qüvvəli beynəlxalq müqavilələr» deyilir.

Normativ beynəlxalq müqavilə dedikdə, hər şeydən əvvəl, ümumi beynəlxalq konvensiyalar başa düşülür; **ümumi beynəlxalq konvensiyalar** isə bütün dövlətlərin (və ya əksər dövlətlərin) iştirak etdikləri və ya iştirak edə biləcəkləri beynəlxalq müqavilələrdir; bu konvensiyalarda müəyyənləşdirilən normalar ümumi (universal) beynəlxalq publik hüquq normalarıdır[1] ki, həmin normalar bütün dövlətlər və dövlətlərarası sistemin digər iştirakçıları üçün məcburidir.[2] Bunu nəzərə alaraq, bəzi müəlliflər (məsələn, Böyük Britaniya alimi C.Fismoris və s.) göstərirlər ki, yalnız normativ beynəlxalq müqavilələr beynəlxalq publik hüququn mənbəyi ola bilər.[3] Onlar həm də belə hesab edirlər ki, fərdi beynəlxalq müqavilələr normativ beynəlxalq müqavilələrdən fərqli olaraq, beynəlxalq publik hüququn mənbəyi kimi çıxış edə bilməz.

Lakin, qeyd etməliyik ki, **fərdi beynəlxalq müqavilələr** dedikdə dəfələrlə deyil, bir dəfə tətbiq olunmaq üçün nəzərdə tutulan beynəlxalq müqavilələr başa düşülür; onlara həm də «hüquqtətbiqetmə müqavilələri», «müqavilə-əqdlər» və ya «mü-

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 42.
[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 20.
[3] URL:http://www.justicemaker.ru (02.08.2022-ci il).

qavilə-kontraktlar» da deyilir. Məsələn, ikitərəfli dövlətlərarası müqavilə fərdi beynəlxalq müqaviləyə misal ola bilər.

Fərdi beynəlxalq müqavilələr lokal münasibətləri tənzimləyir. Lokal münasibətlərin tənzimlənməsi isə, məlum məsələdir ki, hüquq normaları vasitəsilə həyata keçirilir; onlara lokal (partikulyar) normalar deyilir. Bu normalar normativ məzmundan məhrum olub, birdəfəlik tətbiq olunmaq üçün nəzərdə tutulmuşdur. Lakin, buna baxmayaraq, onlar beynəlxalq publik hüquq normaları hesab edilir. Deməli, fərdi beynəlxalq müqavilələr lokal (partikulyar) beynəlxalq hüquq normaları müəyyənləşdirir. Buna görə də, belə müqavilələr də normativ beynəlxalq müqavilələr kimi beynəlxalq publik hüququn mənbəyi sayılır.

Qeyd etmək lazımdır ki, istənilən beynəlxalq müqavilə (istər normativ, istərsə də fərdi beynəlxalq müqavilə) müəyyən hüquq və vəzifələrin mənbəyidir.[1] Digər tərəfdən, onlar dövlətlərarası qarşılıqlı münasibətləri tənzimləmək məqsədinə xidmət edir. Əgər hər hansı beynəlxalq müqaviləni nəzərdən keçirsək, görərik ki, o, hüquqi nəticə əldə olunmasına yönəlir. Hüquqi nəticə dedikdə aşağıdakılar başa düşülür:

- beynəlxalq publik hüquq normalarının müəyyən edilməsi (yaradılması);
- beynəlxalq publik hüquq normalarının dəyişdirilməsi;
- beynəlxalq publik hüquq normalarının ləğv edilməsi.

Qeyd etməliyik ki, istənilən beynəlxalq müqavilə qüvvədə olan beynəlxalq publik hüquq normalarını əks etdirir və təsdiqləyir, beynəlxalq publik hüquq normalarını konkretləşdirir və inkişaf etdirir, yenilərini yaradır və köhnələri ləğv edir.[2] Odur ki, bütün beynəlxalq müqavilələr hüquq normaları yaratmaq xüsusiyyətinə malikdir. Bu səbəbdən istənilən beynəlxalq müqavilə öz növündən, predmetindən və məzmunundan asılı olmayaraq, beynəlxalq publik hüququn mənbəyi sayılır.

[1] Ляхс М. Многосторонние договоры. М., 1960, с.263.
[2] Тункин Г.И. Теория международного права. М., 1970, с.108.

Hesab edirik ki, deyilənlər beynəlxalq müqavilələrə elmi (doktrinal) anlayış verməyimiz üçün kifayət edər; bu tərifdə, zənnimizcə, beynəlxalq müqavilələrin əsas xüsusiyyət və cəhətləri öz əksini tapır:

beynəlxalq müqavilə dedikdə dövlətlərarası sistem iştirakçılarının, xüsusən də, dövlətlərin yazılı formada nail olduqları elə bir razılaşma başa düşülür ki, belə razılaşma beynəlxalq münasibətlərin bu və ya digər sahəsində beynəlxalq publik hüquq normalarının müəyyənləşdirilməsinə, dəyişdirilməsinə və ya ləğv olunmasına səbəb olur.

Beynəlxalq müqavilənin həm də normativ (leqal) formada beynəlxalq-hüquqi tərifi formulə edilmişdir. Belə ki, yuxarıda adını çəkdiyimiz Vyana konvensiyaları (1969, 1986-cı illər) beynəlxalq müqaviləyə normativ (leqal) anlayış verir. Bu anlayış və digər məsələlər barədə dərsliyin «Beynəlxalq publik müqavilələr hüququ» adlı fəslində geniş söhbət açılır.

5.2.2. Beynəlxalq-hüquqi adətlər beynəlxalq publik hüququn əsas mənbəyi kimi

Beynəlxalq-hüquqi adətlər beynəlxalq publik hüququn əsas mənbələrindən biri sayılır. Bu onunla izah edilir ki, beynəlxalq publik hüquq normaları iki əsas üsulla yaradılır; bu üsullardan biri beynəlxalq müqavilə, digəri isə beynəlxalq-hüquqi adətlərdir.[1] Digər tərəfdən, Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında (1969-cu il) göstərildiyi kimi, beynəlxalq-adət hüquq normaları, klassik dövrdə olduğu kimi, yenə də beynəlxalq münasibətlərin vacib məsələlərini tənzimləyir. Təsadüfi deyil ki, BMT-nin Beynəlxalq Məhkəməsi konkret qərarlar qəbul edərkən beynəlxalq-müqavilə deyil, məhz beynəlxalq-adət hüquq normalarına birinci dərəcəli əhəmiyyət vermişdir.

[1] Тункин Г.И. Теория международного права. М., 1970, с.101, 162 и 188.

Beynəlxalq-hüquqi adətlər beynəlxalq publik hüququn nəinki əsas, həmçinin universal mənbəyi sayılır.[1] Belə ki, universal beynəlxalq publik hüquq normaları, əsasən, beynəlxalq adət formasında yaranır.[2] Universal beynəlxalq publik hüquq normaları isə, bildiyimiz kimi, dövlətlərin əksəriyyəti və ya bütün dövlətlər tərəfindən qəbul edilmiş normalar olub, beynəlxalq publik hüququn əsasını təşkil edir və beynəlxalq münasibətlərin vacib sahələrini tənzimləyir. Buna görə də, beynəlxalq-hüquqi adət beynəlxalq publik hüququn universal mənbəyi hesab edilir; onların hüquqi qüvvəsi universal (ümumi) hüquq normalarının məcmusu olan beynəlxalq universal publik hüquqdan irəli gəlir. Axı, beynəlxalq universal (ümumi) hüquq həm də beynəlxalq-adət hüquq normalarından ibarətdir. Təsadüfi deyildir ki, **beynəlxalq universal (ümumi) hüquq beynəlxalq-adət hüququ kimi xarakterizə olunur.** Hətta bəzi alimlər belə hesab edirlər ki, beynəlxalq universal (ümumi) hüququn mənbəyi ancaq beynəlxalq adətlər sayılır, beynəlxalq müqavilə isə beynəlxalq universal (ümumi) hüququn birbaşa mənbəyi hesab edilmir; həmin alimlərin fikrincə, beynəlxalq müqavilə yalnız beynəlxalq-adət hüquq normalarının yaradılmasına kömək edir.[3] Güman edirik ki, bir sıra müəllifin dedikləri bu sözlərdə müəyyən dərəcədə həqiqət vardır.

Beynəlxalq-hüquqi adətin normativ (leqal) anlayışı Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində verilmişdir. Həmin maddəyə görə, beynəlxalq adət dedikdə hüquq norması kimi tanınan praktika başa düşülür. Bəzi beynəlxalq hüquq dərsliklərində düzgün olaraq göstərildiyi kimi, beynəlxalq-hüquqi adətlərə verilən bu anlayış qüsursuz deyildir.[4] Doğrudan da,

---

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с. 111.

[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 58.

[3] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.114.

[4] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 71.

hər şeydən əvvəl, qeyd etməliyik ki, göstərilən anlayışda beynəlxalq-hüquqi adətləri xarakterizə edən cəhətlər, yəni onların xarakterik əlamətləri əhatəli və dolğun şəkildə əks olunmur. Digər tərəfdən, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində «beynəlxalq-hüquqi adət» anlayışı əvəzinə «beynəlxalq adət» anlayışı işlədilir. Məsələ burasındadır ki, «beynəlxalq-hüquqi adət» və «beynəlxalq adət» anlayışları arasında prinsipial fərq vardır. Belə ki, beynəlxalq adətin məcburi hüquqi qüvvəsi yoxdur, çünki o, dövlətlər tərəfindən tanınmamışdır (başqa sözlə, sanksiyalaşdırılmamışdır). Beynəlxalq adət məcburi hüquqi qüvvəsi olmayan davranış qaydasıdır və buna görə də, o, beynəlxalq publik hüququn mənbəyi sayılmır; əgər beynəlxalq adət dövlətlər tərəfindən hüquqi cəhətdən məcburi qayda kimi tanınarsa (sanksiyalaşdırılarsa), o, beynəlxalq-hüquqi adət hesab edilir. Beynəlxalq-hüquqi adətin isə məcburi hüquqi qüvvəsi dövlətlər tərəfindən tanınır və bu səbəbdən o, beynəlxalq publik hüququn mənbəyi sayılır.

Bu kimi cəhətlərə baxmayaraq, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində beynəlxalq-hüquqi adətlərə verilən tərif, onların hüquqi əlamətlərini (elementlərini) müəyyənləşdirmək baxımından, əhəmiyyətlidir. Belə ki, burada beynəlxalq-hüquqi adətlərin **iki əsas və başlıca əlaməti (elementi)** göstərilmişdir:

– obyektiv əlamət (element);
– subyektiv əlamət (element).

Beynəlxalq-hüquqi adətlərin obyektiv əlaməti (elementi) dedikdə dövlətlərarası beynəlxalq praktika və ya sadəcə olaraq, dövlətlərin praktikası başa düşülür; ona **maddi əlamət (element)** də deyilir.

Dövlətlərarası beynəlxalq praktika dedikdə dövlətlərarası sistem iştirakçılarının, xüsusən də, dövlətlərin hərəkəti və ya hərəkətsizliyi (hərəkətdən çəkinməyi) başa düşülür. Lakin praktika, bir qayda olaraq, dövlətlərin hərəkətsizliyi ilə deyil, onların hərəkəti əsasında formalaşır. Başqa sözlə, beynəlxalq dövlətlərarası praktika, əsasən, dövlətlərin müvafiq hərəkətləri nəticəsində yaranır. Təbii ki, dövlətlərin hərəkəti (praktika) ol-

mazsa, beynəlxalq-hüquqi adətlərin formalaşması qeyri-mümkündür. Amma dövlətlərin hərəkəti (praktika) yalnız o halda beynəlxalq-hüquqi adətlərin yaranmasına səbəb ola bilər ki, aşağıda göstərdiyimiz bir neçə şərtə (tələbə) cavab versin.

Birinci şərt (tələb) ondan ibarətdir ki, **dövlətin hərəkəti (praktika) ümumi olmalıdır**. Əgər hər hansı dövlətin bu və ya digər hərəkəti (praktika) dövlətlərin əksəriyyəti və ya hətta bir neçə dövlət tərəfindən davranış qaydası kimi tətbiq olunarsa və qəbul edilərsə, bu o deməkdir ki, həmin hərəkət (praktika) ümumidir; qalan dövlətlər isə susmaqla (dinməz razılıq əsasında) belə hərəkətin (praktikanın) davranış qaydası kimi tanınması ilə razılaşırlar. Başqa sözlə, bu və ya digər dövlətin hərəkəti (praktika) nəticəsində yaranan davranış qaydası dövlətlərin əksəriyyətinə yaxşı məlum olmalı və onlar tərəfindən həmin qayda qəbul edilməlidir (açıq şəkildə və ya susmaqla). Dövlətlərin əksəriyyəti qəti surətdə inanmalıdırlar ki, bu qaydanın mövcud olması düzgündür; onun düzgün qayda olmasına şübhə yeri qalmamalıdır.

Qeyd etməliyik ki, hər hansı dövlətin bu və digər hərəkətinin (praktikanın) davranış qaydası kimi ümumən tanınmasında dövlətlərin susması böyük rol oynayır. Belə ki, dövlətlərin susması (etiraz etməməsi) həmin hərəkətin (praktikanın) mövcud olmasına onların razılıq verməsini ifadə edir, çünki susmaq razılıq əlamətidir. Məhz müəyyən bir dövlətin etdiyi hərəkətə (praktikaya) münasibətdə dövlətlərin susması həmin hərəkətin (praktikanın) ümumi olmasını şərtləndirir. Başqa sözlə, bu və ya digər dövlətin hərəkətinə (praktikaya) münasibətdə qalan dövlətlər susarlarsa, bu o deməkdir ki, həmin hərəkət (praktika) davranış qaydası kimi hamılıqla (ümumən) qəbul edilmişdir. Məsələn, SSRİ tərəfindən 1957-ci ildə ilk süni peykin kosmosa buraxması kimi hərəkətə (praktikaya) münasibətdə dövlətlər susmuşlar. Bu isə onu ifadə edir ki, həmin hərəkət nəticəsində yaranmış davranış qaydası – beynəlxalq-hüquqi adət (xarici dövlətlərin ərazisi üzərində kosmosda uçmaq adəti) hamılıqla qəbul edilmişdir. Əgər hər hansı dövlət müvafiq hərə-

kətin (praktikanın) tətbiqinə etiraz edərsə, bu hərəkət (praktika) nəticəsində yaranan davranış qaydasının həmin dövlətə münasibətdə qüvvəsi yoxdur. Belə ki, beynəlxalq publik hüquqa **«qətiyyətlə etiraz edən dövlət»** haqqında qayda məlumdur. Bu qaydaya görə, hər bir dövlətin beynəlxalq adət kimi yaranmış bu və ya digər davranış qaydasını tanımamaq hüququ vardır. O, bu hüququnu birmənalı və aydın ifadə edilmiş şəkildə həyata keçirməlidir.

İkinci şərtə (tələbə) görə, **dövlətin hərəkəti (praktika) eyni şəkildə dəfələrlə təkrarlanmalıdır**. Beynəlxalq adət kimi tanınan davranış qaydası məhz dövlətlərin eyni bir hərəkətinin dəfələrlə eyni cür təkrarlanması nəticəsində yaranır. Məsələn, «ərazi dənizinin eninin 12 dəniz mili ilə müəyyənləşdirilməsi» kimi hərəkəti sahilyanı dövlətlərin, demək olar ki, hamısı öz daxili qanunvericiliyində nəzərdə tutaraq, onu təkrarlamışdır. Bununla yanaşı, bəzən, beynəlxalq adətlərin yaranması üçün hərəkətin dəfələrlə təkrarlanması tələb edilmir. Belə ki, beynəlxalq adət müəyyən hallarda dövlətin bircə hərəkəti nəticəsində də formalaşa bilər. Məsələn, SSRİ-nin 1957-ci ildə kosmosa süni peyk buraxması kimi hərəkəti kosmik fəzanın sərbəst tədqiq edilməsi adətinin yaranmasına gətirib çıxarmışdır.

Üçüncü şərt bundan ibarətdir ki, **dövlətlərin hərəkətləri (praktika) eyni cür olmalıdır;** əgər dövlətlərin hərəkətləri (praktika) bir-birindən fərqli olarsa, təbii ki, belə halda beynəlxalq adət yarana bilməz.

Dördüncü, **dövlətin hərəkətləri (praktika) uzunmüddətli** olmalıdır. Belə ki, dövlətlərin hərəkəti (praktika) nəticəsində formalaşan davranış qaydasının beynəlxalq adət kimi tanınması üçün müəyyən zaman dövrünün keçməsi lazımdır. Başqa sözlə, beynəlxalq adət kifayət qədər uzunmüddətli proses nəticəsində yaranır. Qeyd etdiyimiz kimi, beynəlxalq adətlər dövlətlərin dəfələrlə təkrarlanan hərəkəti nəticəsində formalaşır. Hərəkətin dəfələrlə təkrarlanması isə, aydın məsələdir ki, xeyli zaman müddətinin keçməsini tələb edir. Məhz müəyyən vaxt müddətinin keçməsi imkan verir ki, dövlətlərarası praktika formalaş-

sın və beynəlxalq adətə çevrilsin. Lakin beynəlxalq adətlərin hansı müddət ərzində formalaşması sualına beynəlxalq publik hüquqda cavab verilmir. Keçmiş zamanlarda beynəlxalq adətlərin formalaşması üçün 30, 40, 50 və hətta 100 ilin keçməsi tələb edilirdi. Beynəlxalq publik hüququn bütün əsas məsələlərini tədqiq edən tanınmış alim Hüqo Qrotsi 1625-ci ildə nəşr olunmuş «Müharibə və sülh hüququ haqqında üç kitab» adlı əsərində yazırdı ki, beynəlxalq adətlər 100 ildən çox vaxt müddəti ərzində formalaşır.[1]

Keçmiş zamanlardan fərqli olaraq, müasir şəraitdə beynəlxalq adətlərin formalaşmasında müddət amili vacib rol oynamır. Belə ki, müasir dövrdə nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları və rabitə vasitələri kifayət qədər yüksək səviyyədə inkişaf etmişdir; əlbəttə, belə şəraitdə müddət beynəlxalq adətlərin formalaşmasında həlledici rol oynaya bilməz. Hətta indiki dövrdə beynəlxalq adətlər çox qısa müddət ərzində, ani bir anda da yarana bilər.[2] Məsələn, SSRİ-nin 1957-ci ildə kosmosa ilk süni peyk buraxması tez bir zamanda aşağıdakı beynəlxalq adətlərin yaranmasına səbəb oldu: kosmos məkanından dövlətlərin sərbəst istifadə etməsi, dövlətlərin kosmik fəzanı sərbəst tədqiq etməsi və öyrənməsi, dövlətin süni peykinin xarici ölkələrin ərazisi üzərində kosmosda uçması. Bu kimi halları nəzərə alaraq, beynəlxalq hüquq doktrinası (elmi) belə nəticəyə gəlmişdir ki, beynəlxalq adətlərin adi bir anda, çox qısa müddət ərzində formalaşması mümkündür.[3]

Beynəlxalq adətlərin əsas xüsusiyyətlərindən (əlamətlərindən) biri ondan ibarətdir ki, onlar hər hansı bir hüquqi sənəddə

---

[1] URL:http://www.az.m.wikipedia.org (28.04.2018-ci il).

[2] Bəzi müəlliflər göstərirlər ki, beynəlxalq adətlərin qısa müddət ərzində yaranması mümkün deyil *(məsələn, bax:* Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.11.).

[3] *Məsələn, bax:* Фердросс А. Международное право. М., 1959, с.154; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.77; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.22; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.111 və b.

ifadə edilmir. Buna görə də, beynəlxalq adətlər yazılı formada olmayan, yəni **yazılmamış davranış qaydalarıdır**. Bəzi müəlliflər yazılı formanın olmamasını beynəlxalq adətlərin əlaməti hesab etmirlər.[1] Onlar belə fikir söyləyərkən, buna əsaslanırlar ki, beynəlxalq müqavilələr, bəzən, yazılı deyil, şifahi formada da bağlana bilər. Düzdür, şifahi (qeyri-yazılı) formada beynəlxalq müqavilələrin olmasının mümkünlüyünü inkar etmək olmaz. Əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq sənədlər beynəlxalq müqavilələrin şifahi formada bağlanmasına yol verir. Lakin şifahi forma beynəlxalq müqavilələlərin bağlanması üçün tipik və xarakterik olmayan haldır. Belə ki, beynəlxalq müqavilələr çox az-az, son dərəcə nadir hallarda şifahi formada bağlana bilər. Aydındır ki, beynəlxalq müqavilə, bir qayda olaraq, «yazılı», beynəlxalq adət isə «qeyri-yazılı» formadır.[2]

Deyilənləri əldə əsas tutmaq və onları nəzərə almaqla beynəlxalq adətlərə elmi (doktrinal) anlayış verə bilərik:

beynəlxalq adətlər dedikdə qeyri-yazılı formada olan elə davranış qaydaları başa düşülür ki, bu qaydalar hər hansı dövlətin etdiyi müəyyən hərəkətin (praktikanın) dəfələrlə, uzun müddət ərzində və eyni cür təkrarlanması nəticəsində yaranır.

Lakin beynəlxalq adətlər, yəni dövlətin etdiyi hərəkətin (praktikanın) dəfələrlə uzun müddət ərzində və eyni cür təkrarlanması özlüyündə beynəlxalq publik hüquq normaları (beynəlxalq-adət hüquq normaları) – beynəlxalq-hüquqi adətlər yaratmır; bu səbəbdən onlar beynəlxalq publik hüququn mənbəyi sayılmır. Beynəlxalq adətlər, sadəcə olaraq, məcburi hüquqi qüvvəsi olmayan davranış qaydalarıdır; bu qaydalar isə məcburi hüquqi qüvvəyə malik olmadığına görə beynəlxalq publik hüquq normaları, yəni beynəlxalq-adət hüquq normaları hesab

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 67.

[2] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.73.

edilmir («beynəlxalq adətə» rus dilində «международное обыкновение» deyilir).[1]

Beynəlxalq adətlərin beynəlxalq publik hüququn mənbəyi olması üçün onların beynəlxalq-hüquqi adətlər kimi qəbul olunması tələb edilir. Bundan ötrü yuxarıda göstərdiyimiz **ikinci əlamətin (elementin)** olması vacibdir. Söhbət beynəlxalq-hüquqi adətlərin subyektiv əlamətinin (elementinin) mövcudluğundan gedir; ona qeyri-maddi əlamət (element) də deyilir. Qeyd etməliyik ki, beynəlxalq-hüquqi adətlərin yaranması üçün təkcə obyektiv əlamət (element) kifayət etmir; bunun üçün həm də subyektiv əlamət (element) lazımdır. Belə ki, obyektiv əlamət (element) yalnız beynəlxalq adətlərin formalaşmasına səbəb olur. Beynəlxalq-hüquqi adətlərin yaranması üçün isə hər iki əlamətin (elementin) olması tələb edilir.

Beynəlxalq-hüquqi adətlərin subyektiv və ya qeyri-maddi əlaməti (elementi) dedikdə elə bir meyar başa düşülür ki, bu meyar əsasında beynəlxalq adətlər beynəlxalq-hüquqi adətlər kimi qəbul olunur. Bəs, beynəlxalq adətlərin beynəlxalq-hüquqi adətlər kimi qəbul edilməsi dedikdə nə başa düşülür?

Beynəlxalq adətin beynəlxalq-hüquqi adət kimi qəbul edilməsi dedikdə dövlətlərin hər hansı dövlətin müəyyən hərəkətinin (praktikanın) dəfələrlə, uzun müddət ərzində və eynilə təkrarlanması nəticəsində formalaşmış beynəlxalq adətə (beynəlxalq davranış qaydasına) məcburi hüquqi qüvvəsi olan beynəlxalq publik hüquq norması kimi baxmaları başa düşülür. Əgər bu və ya digər beynəlxalq adət (qayda) dövlətlər tərəfindən məcburi hüquqi qüvvəsi olan beynəlxalq publik hüquq norması kimi tanınarsa, bu, həmin adətin (qaydanın) beynəlxalq-hüquqi adət kimi qəbul olunmasını nümayiş etdirir.[2] Məsələn,

---

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.15.

[2] Bəzi müəlliflər göstərirlər ki, beynəlxalq qaydanın (adətin) beynəlxalq hüquq norması kimi tanınması həmin qaydanın beynəlxalq adətə çevrilməsinə səbəb olur *(məsələn, bax:* Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 68); həmin müəlliflər «beynəlxalq adət» və «beynəlxalq-hüquqi adət» anlayışlarını eyniləşdirirlər.

1957-ci ildə SSRİ dövlətinin ilk süni peyki kosmosa buraxmaq hərəkəti nəticəsində «kosmos məkanından dövlətlərin sərbəst istifadə etmələri və həmin məkanı öyrənmələri» kimi beynəlxalq adət (qayda) yarandı; bu adəti (qaydanı) dünya dövlətləri susmaq yolu ilə beynəlxalq hüquq norması (hüquqi cəhətdən məcburi davranış qaydası) kimi tanıdılar. Bunun nəticəsində həmin beynəlxalq adət beynəlxalq-hüquqi adət kimi qəbul olundu.

Qeyd etmək lazımdır ki, beynəlxalq adətlərin beynəlxalq-hüquqi adətlər kimi qəbul olunmasının və tanınmasının əsasını **«opinio juris»** kimi vacib hüquqi prinsip təşkil edir. Buna görə də, beynəlxalq-hüquqi adətlərin subyektiv əlamətinin (elementinin) mahiyyəti həmin prinsipdən ibarətdir.[1] Belə ki, «opinio juris» kimi hüquqi prinsipə görə, dövlətlər müəyyən bir hərəkətin (praktikanın) dəfələrlə, uzunmüddətli və eyni cür təkrarlanması nəticəsində yaranmış beynəlxalq adəti (qaydanı) beynəlxalq publik hüquq norması kimi qəbul edirlər. Əgər həmin hərəkətin (praktikanın) hüquqauyğun və hüquqi cəhətdən məcburi olmasına dövlətlərdə qəti inam yaranarsa, bu hərəkət (praktika) nəticəsində formalaşan beynəlxalq adət (qayda) beynəlxalq publik hüquq norması kimi tanınır; «opinio juris» prinsipinin də mahiyyəti məhz bundan ibarətdir. Odur ki, dövlətlərin hərəkəti (praktika) ilə yanaşı və bərabər, «opinio juris» beynəlxalq-hüquqi adətlərin mühüm əlaməti (elementi) hesab edilir.[2] Təsadüfi deyil ki, BMT-nin Beynəlxalq Məhkəməsi özünün iki müvafiq qərarında həmin əlamətləri (elementləri), xüsusi olaraq, göstərmişdir.

Hər hansı beynəlxalq adətin (qaydanın) dövlətlər tərəfindən beynəlxalq publik hüquq norması kimi tanınması (qəbul edilməsi) çox vaxt **susmaq yolu ilə** (dinməz razılıq əsasında) həyata keçirilir. Belə ki, dövlətlər formalaşmış bu və ya digər

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.144.

[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.74.

beynəlxalq adətə (qaydaya) qarşı etiraz etmirlər, susurlar. Bu isə onu ifadə edir ki, dövlətlər həmin adəti (qaydanı) beynəlxalq publik hüquq norması kimi tanıyır, onun hüquqi cəhətdən məcburi olmasına qəti surətdə inanırlar. Bununla onlar göstərilən adətin (qaydanın) beynəlxalq-hüquqi adət kimi qəbul olunmasını nümayiş etdirirlər.[1] Başqa sözlə, dövlətlər susmaqla həmin adət qaydasının beynəlxalq publik hüquq norması kimi tanınmasına razılıq verirlər. Belə ki, beynəlxalq publik hüquq normaları dövlətlərin və digər subyektlərin razılığı (razılaşması) əsasında yaranır.[2] Əgər dövlətlər öz razılığını açıqcasına (yazılı formada) ifadə edərlərsə, belə razılaşmaya beynəlxalq müqavilə deyilir; dövlətlər özlərinin razılığını həm də susmaq yolu ilə (yazılmamış formada) bildirirlər; onların susmasından bəlli olur ki, beynəlxalq publik hüquq normasının yaranması ilə razılaşırlar. Belə razılaşma isə beynəlxalq-hüquqi adət adlanır.[3] Buna görə də, beynəlxalq-hüquqi adətlər (beynəlxalq-adət hüquq normaları), beynəlxalq-müqavilə hüquq normaları kimi, dövlətlərin razılığı ilə yaranır. Bu səbəbdən beynəlxalq hüquqa dair xarici ədəbiyyat səhifələrində söylənilən beynəlxalq-adət hüquq normalarının guya dövlətlərin iradəsi (razılığı) olmadan, öz-özünə əmələ gəlməsi fikri ilə razılaşmaq mümkün olmur.[4]

Bu və ya digər beynəlxalq qayda (adət) dövlətlər tərəfindən beynəlxalq publik hüquq norması kimi həm də açıq şəkildə qəbul oluna bilər **(expressis verbis)**. Bundan ötrü dövlətlərin **aktiv hərəkətlər etmələri** tələb olunur; belə hərəkətlər vasitəsi ilə onlar açıq-aşkar həmin qaydanı (adəti) hüquqi cəhətdən məcburi davranış qaydası (norması) kimi tanıyırlar. Bu kimi hərəkətlərə aşağıdakılar aiddir:

---

[1] *Daha ətraflı:* Тункин Г.И. Теория международного права. М., 1970, с.152; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.73.

[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008, s.17.

[3] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 39.

[4] Virally M. Panorama du droit international contemporain. RdC. 1983, Vol, 183, p.182.

– dövlətlərin rəsmi bəyanat vermələri;
– qanunvericilik və məhkəmə orqanlarının qərar qəbul etmələri;
– dövlətlərin daxili qanun qəbul etmələri;
– dövlətlərin BMT Baş Assambleyasının qətnamələrinə əsaslanmaları və istinad etmələri;
– dövlətlərin beynəlxalq konfransda çıxış etmələri;
– dövlətlərin beynəlxalq müqavilələrin layihəsi üzrə çıxış etmələri və səs vermələri;
– dövlətlərin öz pretenziyalarını (tələblərini) əsaslandırmaq üçün çıxış etmələri;
– dövlətlərin başqa dövlətin bu və ya digər beynəlxalq qaydanı beynəlxalq-hüquqi adət kimi tanımamasına etiraz (protest) etməsi.

Müəyyən beynəlxalq qaydanı (adəti) dövlətlər beynəlxalq publik hüquq norması kimi həm də **hərəkətdən çəkinmə (hərəkətsizlik)** yolu ilə tanıya bilərlər.[1] Məsələn, hər hansı dövlət bu və ya digər beynəlxalq qaydanın beynəlxalq-hüquqi adət kimi tanınmasına qarşı protest verməkdən çəkinir, hərəkətsizlik göstərir; bununla o, həmin qaydanı beynəlxalq-hüquqi adət kimi tanıyır və qəbul edir.

Biz beynəlxalq-hüquqi adətlərin iki əsas xarakterik əlamətini (elementini) müəyyənləşdirdik. Zənnimizcə, məhz həmin əlamətlər (elementlər) beynəlxalq-hüquqi adətlərə elmi (doktrinal) tərif verməyimiz üçün kifayət edər:

beynəlxalq-hüquqi adətlər dedikdə dövlətlər tərəfindən «məcburi hüquqi qüvvəsi olan və beynəlxalq publik hüquq norması» kimi tanınan elə beynəlxalq davranış qaydaları (adətləri) başa düşülür ki, bu qaydalar da (adətlər) hər hansı dövlətin dəfələrlə, uzunmüddətli və eyni cür təkrarlanan müəyyən hərəkətləri (praktika) nəticəsində yaranır.

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 93.

Əgər hər hansı beynəlxalq qayda (davranış qaydası) beynəlxalq publik hüquq norması kimi tanınarsa və qəbul edilərsə, belə qayda beynəlxalq-hüquqi adət hesab edilir; əks halda, həmin qayda beynəlxalq adət sayılmır. Beləliklə, bir daha təkrar edərək göstəririk ki, beynəlxalq publik hüququn mənbəyi beynəlxalq adətlər deyil, beynəlxalq-hüquqi adətlər hesab olunur. Belə ki, beynəlxalq adətləri xarakterizə edən iki əsas əlamət vardır:

- ümumi (qlobal) tanınma, yəni əksər dövlətlər tərəfindən tanınma (dövlətlərin hamısı tərəfindən tanınma tələb edilmir və bu, vacib deyildir);
- eyni şəkildə tətbiq olunma.

Beynəlxalq-hüquqi adətlərə gəldikdə isə, qeyd etməliyik ki, onları xarakterizə edən üç əlamət mövcuddur:

- ümumi (qlobal) tanınma;
- eyni cür tətbiq edilmə;
- beynəlxalq publik hüquq norması (hüquqi cəhətdən məcburi qayda) kimi tanınma (opinio juris).

Beynəlxalq adətlər göstərdiyimiz üçüncü əlamətdən (beynəlxalq publik hüquq norması kimi tanınma əlamətindən) məhrumdur və buna görə də, onlar beynəlxalq publik hüququn mənbəyi sayılmır.[1]

Beynəlxalq adətlər rahatlıq, məqsədəuyğunluq və digər mülahizələrə görə dövlətlərarası münasibətlər praktikasında tətbiq edilən beynəlxalq qaydalardır; onların məcburi hüquqi qüvvəsi

[1] Bəzi müəlliflər beynəlxalq-hüquqi adətləri deyil, beynəlxalq adətləri beynəlxalq hüququn mənbəyi hesab edirlər *(məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.71; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 88; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 66; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.11; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.15; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.143; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.109).

yoxdur. Buna görə beynəlxalq adətlərdən (qaydalardan) kənaraçıxma, habelə onların pozulması beynəlxalq publik hüquq pozuntusu hesab edilmir və bu səbəbdən də beynəlxalq-hüquqi məsuliyyətə səbəb olmur. Beynəlxalq adətlərin (qaydaların) pozulması və onlardan kənara çıxılması yalnız dövlətlərarası qarşılıqlı münasibətlərə mənfi təsir göstərə bilər. Bu, dövlətlərarası dostluq münasibətlərinə qarşı olan hərəkət (akt) sayılır.

Beynəlxalq adətlərə, hər şeydən əvvəl, **diplomatik protokol (etiket) və təşrifat (mərasim) qaydaları** aiddir. Məsələn, xarici ölkələrin rəsmi nümayəndələri başqa ölkəyə səfər edərkən onların qarşılanma və yola salınma, yeni təyin olunmuş səfirin etimadnamə təqdim etməsi və digər məsələlər barədə qaydalar buna misal ola bilər. Bir qayda olaraq, yeni xarici səfir təyin olunduğu ölkəyə gələrkən onu həmin ölkənin Xarici İşlər Nazirliyinin protokol xidmətinin rəhbəri aeroportda və ya vağzalda qarşılayır. Bu, diplomatik protokol qaydasıdır.

Beynəlxalq adətlər dedikdə, digər tərəfdən, **beynəlxalq ədəb-nəzakət qaydaları** başa düşülür. Məsələn, dənizdə iki ölkənin gəmiləri qarşılaşanda bayraqlar qısa müddətə bir az aşağı salınır və bununla onlar bir-birini «salamlayırlar»; dövlət başçıları xarici ölkəyə rəsmi səfər edərkən onlar qarşılanır və yola salınırlar; aralarında hüquqi yardım haqqında beynəlxalq saziş olmayan dövlətlərin bir-birinin xahişi ilə cinayət törətmiş şəxsi verməsi də beynəlxalq ədəb-nəzakət qaydası sayılır; keçmiş Prezidentin müəyyən bir ölkəyə gəlməsi zamanı ona xüsusi diqqət yetirmək də beynəlxalq ədəb-nəzakət qaydasıdır. Ümumiyyətlə, diplomatik protokol (etiket) və təşrifat (mərasim) qaydalarının çoxu beynəlxalq ədəb-nəzakət qaydaları kimi tanınır.

Beynəlxalq-hüquqi adətlərə gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq adətlərdən fərqli olaraq, onların hüquqi cəhətdən məcburi hüquqi qüvvəsi vardır. Bu səbəbdən beynəlxalq-hüquqi adətlərin pozulması beynəlxalq hüquq pozuntusu hesab edilir və **beynəlxalq-hüquqi məsuliyyət barədə məsələnin yaranması ilə nəticələnir**.

Beynəlxalq-hüquqi adətlər müəyyən növ beynəlxalq publik hüquq normalarının mövcudolma forması olub, onların mənbəyidir. Belə normalara **beynəlxalq-adət hüquq normaları** deyilir; bu normalar **beynəlxalq-hüquqi adətlərin məzmununu** təşkil edir. Beynəlxalq-adət hüquq normalarının məcmusu (sistemi) isə **beynəlxalq-adət hüququ** adlanır.

Beynəlxalq-hüquqi adətlərin yaranmasını dövlətlər, xüsusi olaraq, öz qarşılarına məqsəd kimi qoymurlar. Bu baxımdan, onlar qeyri-mütəşəkkil surətdə, necə deyərlər, özbaşına formalaşır. Belə ki, beynəlxalq müqavilə bağlanmasından fərqli olaraq, beynəlxalq-hüquqi adətlər məqsədyönlü hüquq yaradıcılığı prosesi nəticəsində əmələ gəlmir. Lakin, bu o demək deyildir ki, beynəlxalq-hüquqi adətlərin yaranmasında dövlətlərin iradəsi (razılığı) iştirak etmir, əksinə, onların formalaşması iki mərhələdən keçir:[1] birinci mərhələdə dövlətlər beynəlxalq adət qaydasının məzmununa münasibətdə razılığa nail olurlar, ikinci mərhələdə onlar həmin qaydanı beynəlxalq publik hüquq norması kimi tanıyır və qəbul edirlər (opinio juris).

Beynəlxalq-hüquqi adətlərin **üç növü** fərqləndirilir:[2]

- universal beynəlxalq-hüquqi adətlər;
- lokal beynəlxalq-hüquqi adətlər;
- sahəvi beynəlxalq-hüquqi adətlər.

Universal beynəlxalq-hüquqi adətlər dedikdə əksər dünya dövlətləri tərəfindən qəbul olunan və tanınan adətlər başa düşülür; bu növ adətlərə hamılıqla qəbul olunmuş «beynəlxalq-hüquqi adətlər» də deyilir. Belə beynəlxalq-hüquqi adətlər universal (hamılıqla qəbul olunmuş) normalar müəyyənləşdirir. Məsələn, hər bir dövlət tərəfindən beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş prinsiplərindən və normalarından irəli gələn öz öhdəliklərinin vicdanla yerinə yetirilməsi universal

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 92.
[2] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.38.

normaya misaldır. Deməli, o, universal beynəlxalq-hüquqi adət sayılır.

Lokal beynəlxalq-hüquqi adətlər dedikdə iki və daha artıq dövlət tərəfindən tanınan və qəbul edilən adətlər başa düşülür; onlara həm də regional və ya partikulyar beynəlxalq-hüquqi adətlər də deyilir. Lokal beynəlxalq-hüquqi adətlər lokal beynəlxalq hüquq normalarının mövcudolma formasıdır; belə normaların yaranması üçün iki və daha çox dövlətin praktikası kifayətdir. Həm Beynəlxalq Ədalət Mühakiməsinin Beynəlxalq Palatası, həm də BMT-nin Beynəlxalq Məhkəməsi öz qərarlarında göstərmişdir ki, lokal normaların beynəlxalq-hüquqi adət formasında mövcud olması mümkündür.[1] Məsələn, BMT-nin Beynəlxalq Məhkəməsi Hindistan ərazisindən keçmək hüququ barədə məsələyə baxaraq müəyyən etmişdir ki, iki dövlət arasında hüquq və vəzifələrin yaranma əsası kimi lokal beynəlxalq-hüquqi adətlərin mövcud olması mümkündür.

Sahəvi beynəlxalq-hüquqi adətlər dedikdə dövlətlərarası beynəlxalq münasibətlərin bu və ya digər sahəsində formalaşan adətlər başa düşülür. Xarici əlaqələr, dövlətlərarası iqtisadi münasibətlər, humanitar, dövləti tanıma və hüquqi varislik və digər sahələrdə mövcud olan adətlər sahəvi beynəlxalq-hüquqi adətlər sayılır. Məsələn, səfirlərin himayə olunması və onların toxunulmazlığının təmin edilməsi sahəvi beynəlxalq-hüquqi adət hesab olunur; belə ki, həmin adət xarici əlaqələr sahəsinə aiddir.

[1] P.C.I.J. Ser B. 1930, № 18, p.13; P.C.I.J. Ser B. 1927, № 14, p.17; ICJ. Reports, 1950, p.276 ; ICJ. Reports, 1952, p.200 (URL:http://www.icj-cij.org-02.08.2022-ci il).

5.2.3. Beynəlxalq müqavilələr və beynəlxalq-hüquqi adətlər arasında qarşılıqlı əlaqə

Beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət beynəlxalq publik hüququn əsas (universal) mənbəyi sayılır. Həmin mənbələr arasında qarşılıqlı əlaqə və bağlılıq mövcuddur ki, bu, özünü bir neçə formada göstərir.

Birinci, beynəlxalq-hüquqi adətlər müəyyən hallarda **beynəlxalq müqavilələrdə təsbit olunur və özlərinin təsdiqini tapır**. Belə ki, hal-hazırda qüvvədə olan bir sıra beynəlxalq-müqavilə hüquq norması zamanın sınağından keçmiş, çoxillik tarixə malik olan və kodifikasiya edilmiş beynəlxalq-hüquqi adətlərdir. Beynəlxalq publik hüququn kodifikasiyası prosesində, eləcə də müvafiq kodifikasiya konvensiyası qəbul olunan zaman beynəlxalq-hüquqi adətlər beynəlxalq müqavilələrdə birləşərək sistem halına salınır, sistemləşdirilir. Belə halda, beynəlxalq müqavilə imkan verir ki, beynəlxalq-adət hüquq normaları yazılı formada, yazılmış qaydalar şəklində formulə edilsin. Məsələn, BMT-nin Beynəlxalq Hüquq Komissiyası Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyası (1969-cu il) vasitəsilə beynəlxalq müqavilələrə aid, Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası (1961-ci il) vasitəsi ilə isə diplomatiya hüququ sahəsində mövcud olan beynəlxalq-adət hüquq normalarını kodifikasiya etmişdir, yəni sistem halına salmışdır. Kodifikasiya zamanı, əslində, faktiki olaraq, beynəlxalq-adət hüquq normaları beynəlxalq-müqavilə hüquq normaları ilə əvəz olunur; bu, onların beynəlxalq-müqavilə hüquq norması şəklində yazılı formada rəsmiləşdirilməsidir. Təsadüfi deyil ki, müasir beynəlxalq müqavilələr hüququnun xeyli hissəsini əvvəllər beynəlxalq-adət hüquq normaları kimi tanınan davranış qaydaları təşkil edir.[1]

Qeyd etmək lazımdır ki, beynəlxalq-müqavilə hüquq normaları bir sıra halda beynəlxalq-adət hüquq normaları əsasında ya-

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 68.

ranır. Məsələn, Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası (1961-ci il) belə bir hüquq norması nəzərdə tutur ki, diplomatik nümayəndəliyin binası toxunulmazdır; bu, çoxillik tarixi olan beynəlxalq-adət hüquq normasıdır.

Beynəlxalq-adət hüquq normaları təkcə beynəlxalq müqavilədə təsbit olunmur. Beynəlxalq müqavilə həm də onların **mövcud olmasını sübut edir və təsdiqləyir**. Bildiyimiz kimi, bu və digər beynəlxalq-adət hüquq normasının mövcudluğu dövlətlərin rəsmi bəyanatı, məhkəmə qərarları, dövlətlərarası beynəlxalq praktika və digər vasitələrin köməyi ilə təsdiq olunur; beynəlxalq müqavilə həmin vasitələrdən biridir.

İkinci, bəzən, beynəlxalq müqavilə beynəlxalq-hüquqi adətə çevrilir. Düzdür, beynəlxalq müqavilənin beynəlxalq-hüquqi adətlərə çevrilməsi çox nadir hallarda təsadüf olunan və rast gəlinən hadisədir. Lakin, buna baxmayaraq, bu, mümkün olan məsələdir. Məsələn, müharibə qurbanlarının müdafiəsi barədə müvafiq Cenevrə Konvensiyasının (1949-cu il) bir sıra norması hamılıqla qəbul olunmuş beynəlxalq-hüquqi adətə çevrilmişdir.

Üçüncü, beynəlxalq-hüquqi adətlərin köməyi ilə beynəlxalq müqavilənin ayrı-ayrı normaları **dəyişdirilə, ləğv edilə və ya onlara əlavələr oluna bilər.** Bunun əksi də mümkündür, yəni beynəlxalq müqavilə vasitəsilə beynəlxalq-hüquqi adətlər dəyişdirilə, ləğv oluna və ya onlara əlavələr oluna bilər. Məsələn, Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının (1944-cü il) 5-ci maddəsində göstərilir ki, hava gəmisinin xarici dövlətin hava məkanında kommersiya məqsədləri olmadan qeyri-müntəzəm uçuşlar həyata keçirməsi üçün qabaqcadan icazə alınması tələb edilmir. Lakin, beynəlxalq praktikada belə bir beynəlxalq-hüquqi adət formalaşmışdır ki, göstərilən halda qabaqcadan icazə alınmalıdır. Bu adət Çikaqo Konvensiyasının həmin maddəsini, faktiki olaraq, ləğv edir,[1] yəni onu əvəz edir.

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2005, с. 55; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.115.

Beynəlxalq-adət hüquq normasının beynəlxalq müqaviləni əvəz etməsinin mümkünlüyü həm də Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 64-cü maddəsindən irəli gəlir. Həmin maddədə deyilir ki, əgər yeni universal (ümumi) imperativ beynəlxalq publik hüquq norması (jus cogens) yaranarsa, bu normaya zidd olaraq qüvvədə olan istənilən beynəlxalq müqavilə etibarsız hesab olunur və ləğv edilir. Məlum məsələdir ki, universal (ümumi) imperativ beynəlxalq publik hüquq normaları həm də beynəlxalq-hüquqi adət formasında mövcud ola bilər.

Qeyd etməliyik ki, praktikada belə bir beynəlxalq-hüquqi adət formalaşmışdır: BMT Təhlükəsizlik Şurasının daimi üzvü səsvermə zamanı bitərəf qalarsa, bu, «veto» hüququnun tətbiq olunmasını ifadə etmir. Belə adətin köməyi ilə BMT Nizamnaməsi kimi beynəlxalq müqaviləyə müvafiq əlavə artırılmış olur.[1] BMT Təhlükəsizlik Şurasının sülhməramlı əməliyyatlar haqqında, beynəlxalq cinayət tribunalları barədə və digər məsələlərə dair qərar qəbul etməsi də beynəlxalq-hüquqi adət hesab edilir; bununla BMT Nizamnaməsinə əlavələr olunur.

Eyni zamanda, beynəlxalq müqavilənin köməyi və vasitəsi ilə beynəlxalq hüquqi adətlərə əlavələr etmək mümkündür. Buna görə də, demək olar ki, beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət qarşılıqlı surətdə bir-birinə əlavələr etmək vasitəsidir.[2] Beynəlxalq müqavilənin və beynəlxalq-hüquqi adətlərin belə vasitə olması bununla izah edilir ki, onlar **bərabər hüquqi qüvvəyə malikdirlər**. Başqa sözlə, beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətin hüquqi qüvvəsi eynidir. Belə ki, beynəlxalq publik hüquq onlardan heç birinə hüquqi qüvvə baxımından üstünlük vermir. Beynəlxalq hüquq yalnız imperativ xarakterli universal (ümumi) beynəlxalq publik hüquq

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 69; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.115.

[2] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.146.

normalarını (jus cogens) yüksək və üstün hüquqi qüvvə ilə təmin edir; belə normalar isə, qeyd etdiyimiz kimi, həm beynəlxalq müqavilə, həm də beynəlxalq-hüquqi adət formasında mövcud ola bilər.

Düzdür, bundan əvvəlki yarımbaşlıqda müəyyən və ayrı-ayrı parametrlər baxımından, biz, beynəlxalq publik hüququn mənbələri arasında beynəlxalq müqaviləyə birinci, beynəlxalq-hüquqi adətə isə ikinci yer vermişik. Amma, buna baxmayaraq, beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətdən hansının daha vacib mənbə növü olması barədə mübahisə etməyin mənası yoxdur.[1] Hamılıqla qəbul edilmiş elə universal beynəlxalq-hüquqi adətlər vardır ki, onların beynəlxalq əhəmiyyətini heç cür azaltmaq olmaz. Məsələn, təcavüzkarlığı, genosidi, köləliyi, nüvə silahının sinağını, irqi ayrı-seçkiliyi, bəşəriyyət əleyhinə cinayətləri və digərlərini qadağan edən beynəlxalq-hüquqi adətlərin böyük rol oynaması şəksizdir.

Beynəlxalq publik hüququn əsas (universal) mənbələrindən biri sayılan beynəlxalq-hüquqi adətlər dövlətlərarası münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsində vacib rol oynayır. Belə ki, beynəlxalq müqavilə normalarının xeyli hissəsi beynəlxalq-adət hüquq normalarından ibarətdir. Təbii ki, beynəlxalq müqavilədə iştirak edən dövlətlər tərəfindən həmin normalar beynəlxalq-müqavilə hüquq normaları kimi tətbiq olunur. Şübhəsiz, beynəlxalq müqavilələrdə bütün dünya dövlətləri iştirak etmirlər. Belə ki, elə beynəlxalq müqavilələr vardır ki, onlarda bu və ya digər dövlətlər iştirak etmirlər; belə dövlətlər isə beynəlxalq-müqavilə hüquq normalarından beynəlxalq-adət hüquq normaları kimi istifadə edirlər. Məsələn, Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası belə bir norma müəyyən edir ki, diplomatik nümayəndə immunitet (diplomatik immunitet) hüququna malikdir. Bu, Vyana Konvensiyasında iştirak edən dövlətlər üçün beynəlxalq-müqavilə hüquq normasıdır; Konvensiya iştirakçısı olmayan dövlətlər üçün

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.124.

isə, o, beynəlxalq-adət hüquq norması hesab edilir. Həmin dövlətlər onu beynəlxalq-müqavilə hüquq norması kimi deyil, beynəlxalq-adət hüquq norması kimi tətbiq edirlər. Kimyəvi və bakterioloji silahların tətbiqinin qadağan edilməsi haqqında Cenevrə Protokolunun (1925-ci il)[1] normaları da onda iştirak etməyən dövlətlər tərəfindən beynəlxalq-hüquqi adət normaları kimi tanınır.

Beynəlxalq-hüquqi adətlərin əhəmiyyəti həm də bundan ibarətdir ki, onlar beynəlxalq müqavilələrin tənzimetmə sferasını genişləndirməyə imkan verir. Bir çox beynəlxalq müqavilədə göstərilir ki, beynəlxalq müqavilələrin həll etmədiyi məsələlər beynəlxalq-hüquqi adətlər vasitəsi ilə tənzimlənir. Məsələn, Diplomatik münasibətlər haqqında Vyana Konvensiyasında deyilir ki, bu konvensiya ilə tənzimlənməyən məsələlər beynəlxalq-adət hüquq normaları ilə tənzimlənir.

Bəzən, bu və ya digər beynəlxalq müqavilədə iştirak etməyən dövlət öz praktikasında həmin müqavilənin tətbiq olunmasını vacib sayır. Bundan ötrü dövlət beynəlxalq-müqavilə publik hüquq normalarını onun üçün məcburi olan qaydalar kimi tanıyır və qəbul edir; beynəlxalq müqavilə, beləliklə, adət yolu ilə onun üçün məcburi olur. Buna görə də, dövlət beynəlxalq müqaviləni beynəlxalq-hüquqi adət formasında tətbiq edir.[2]

Qeyd etmək lazımdır ki, eyni dövlətlərarası münasibəti tənzimləyən həm beynəlxalq müqavilənin, həm də beynəlxalq-hüquqi adətin mövcud olması mümkündür. Başqa sözlə, dövlətlər arasında yaranan hər hansı münasibət növü həm beynəlxalq müqavilə, həm də beynəlxalq-hüquqi adətlə tənzimlənə bilər. Bu halda, təbii ki, ortaya belə bir sual çıxır: əgər beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət arasında ziddiyyət olarsa, onlardan hansı tətbiq edilməlidir – beynəlxalq müqavilə, yoxsa beynəlxalq-hüquqi adət? Bu zaman məsələ «vaxt müddəti» ki-

[1] URL:http://www.wikipedia.org (28.04.2018-ci il).
[2] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.146.

mi əlamətdən asılı olaraq həll edilməlidir. Belə ki, beynəlxalq-müqavilə hüquq normasının müəyyənləşdirilməsindən və yaranmasından sonra formalaşan beynəlxalq-adət hüquq norması, əgər ziddiyyət olarsa, həmin normanın ləğv edilməsinə səbəb olur; bu şərtlə ki, beynəlxalq-müqavilə hüquq norması «jus cogens» norması olmasın.[1] Belə ki, «jus cogens» normaları yüksək hüquqi qüvvəyə malikdir; ona zidd olan istənilən beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət etibarsızdır. Əgər yeni «jus cogens» norması yaranarsa, ona zidd olan beynəlxalq müqavilə (beynəlxalq-hüquqi adət) ləğv edilir; bu növ beynəlxalq publik hüquq normasının beynəlxalq-hüquqi adət formasında yaranması mümkündür.

Beynəlxalq-hüquqi adətlərin əhəmiyyəti həm də bununla şərtlənir ki, onlar beynəlxalq hüquq yaradıcılığı prosesində iştirak edir. Belə ki, onlar hüquq yaradır,[2] yəni beynəlxalq publik hüquq normaları müəyyənləşdirir. Təsadüfi deyil ki, beynəlxalq-hüquqi adətlər beynəlxalq publik hüquq norması yaratmağın əsas üsullarından biri sayılır.[3] Beynəlxalq-adət hüquq norması yaradıcılığının əsas üstünlüyü bundan ibarətdir ki, beynəlxalq adət normalarının formalaşması və yaranması dövlətlərarası beynəlxalq praktika tərəfindən sınanılır.

5.2.4. Hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn mənbəyi kimi

Hüququn ümumi prinsiplərinin beynəlxalq publik hüququn mənbəyi kimi tanınması beynəlxalq hüquq doktrinasında (elmində) mübahisə doğuran məsələlərdən biri sayılır. Belə ki, bəzi alimlər beynəlxalq publik hüququn mənbələri sırasında hüququn ümumi prinsiplərinin adını çəkmirlər və bununla onlar hüququn ümumi prinsiplərini beynəlxalq publik hüququn mən-

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.24.
[2] Kelsen H. Principles of International Law. New York: Holt, 1967, p.441.
[3] Тункин Г.И. Теория международного права. М., 1970, с.188.

bəyi kimi tanımadıqlarını nümayiş etdirirlər;[1] həm də belə müəlliflərin sayı az deyildir.

Bir sıra alim isə, əksinə, beynəlxalq publik hüququn mənbələri sırasına həm də hüququn əsas prinsiplərini aid edir. Belə fikir söyləyən müəlliflərin sayı da kifayət qədərdir.[2]

Zənnimizcə, hüququn ümumi prinsiplərini beynəlxalq publik hüququn mənbəyi hesab edən müəlliflər haqlıdırlar. Belə ki, hüququn ümumi prinsipləri hüquqi tənzimetmənin (həm beynəlxalq, həm də daxili-hüquqi tənzimetmənin) əsasıdır; buna görə də, onları beynəlxalq publik hüququn mənbəyi hesab etmək zəruridir. Qeyd etmək lazımdır ki, hüququn ümumi prinsipləri ayrı-ayrı hüquq normalarında təsbit olunur və ya hüquq normalarının mahiyyətindən irəli gəlir. Buna görə də, onların ümumməcburi hüquqi qüvvəsi vardır. Ümumməcburi qüvvəsi olduğuna görə hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn mənbəyi hesab edilməlidir. Təsadüfi deyildir ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi onları beynəlxalq publik hüququn mənbələrinin siyahısına daxil edir.

Hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn əsas mənbələrindən biridir. Belə ki, onlar da, beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət kimi beynəlxalq publik hüququn əsas mənbəyi hesab edilir; həm də hüququn əsas prinsipləri beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adət kimi mənbə

---

[1] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я. Капустина. М., 2008, с.69; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 63; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.109; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.139; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 89; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.15 və b.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 92; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.10; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.27; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.126 və b.

növlərindən asılı deyildir.[1] Odur ki, onlar beynəlxalq publik hüququn müstəqil mənbə növü hesab edilir.

Hüququn ümumi prinsiplərinin təkcə beynəlxalq publik hüququn mənbəyi hesab edilib-edilməməsi məsələsi mübahisə predmetinə çevrilməmişdir. Hüququn ümumi prinsipləri anlayışı da mübahisə yaranmasına səbəb olur.

Beynəlxalq hüquq nəzəriyyəsində bu suala birmənalı şəkildə cavab verilmir.[2] Belə ki, hüququn ümumi prinsipləri barədə müxtəlif fikirlər söylənilir. Bu haqda üç əsas konsepsiya yaranmışdır.[3] **Birinci konsepsiya** tərəfdarları belə hesab edirlər ki, hüququn ümumi prinsipləri milli hüquq sistemləri üçün ümumi olan prinsiplərdir. Bu konsepsiya, xüsusən də, Qərb hüquq ədəbiyyatı səhifələrində geniş yayılmışdır. **İkinci konsepsiya** tərəfdarlarına görə, hüququn ümumi prinsipləri dedikdə beynəlxalq publik hüququn əsas prinsipləri başa düşülür.[4] **Üçüncü konsepsiya** tərəfdarları isə belə hesab edirlər ki, hüququn ümumi prinsipləri təbii hüququn prinsipləridir.

Hesab edirik ki, bu konsepsiyaların hər hansı biri ilə tamamilə razılaşmaq düzgün olmazdı. Ona görə ki, onlar «hüququn ümumi prinsipləri dedikdə nə başa düşülür?» sualına dəqiq və əhatəli cavab vermir. Hüququn ümumi prinsipləri dedikdə ümumiyyətlə hüququn prinsipləri başa düşülür. Hüquq dedikdə isə həm beynəlxalq hüquq, həm də ayrı-ayrı dövlətlərin daxili (milli) hüquqları anlaşılır. Deməli, hüququn ümumi prinsipləri həm beynəlxalq publik hüquq, həm də milli (dövlətdaxili) hüquq sistemləri üçün ümumi olan əsas ideyalar və rəhbər başlanğıclardır. Buna görə də, onlar həm beynəlxalq publik

---

[1] Оппенгейм П. Международное право / Пер. с анг. Том 1. Полутом 1. М., 1948, с.49.

[2] *Daha ətraflı:* Курс международного права. Том 1. М., 1989, с.208-211.

[3] *Bu konsepsiyalar barədə bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.126-127.

[4] *Məsələn, bax:* Международное право. Учебник / Под ред. Д.Б.Левина, Г.П.Калюжной. М., 1960, с. 31-32.

hüquqda, həm də milli (dövlətdaxili) hüquqda tətbiq olunur. Belə **prinsiplərə** aşağıdakılar aiddir:

- vicdanlı olmaq prinsipi;
- təqsirə görə məsuliyyət prinsipi;
- ədalət prinsipi;
- demokratizm prinsipi;
- sosial azadlıq prinsipi;
- qanunçuluq prinsipi;
- insan hüquqlarını qorumaq prinsipi;
- müqaviləyə əməl etmək prinsipi;
- hüquq və vəzifələrin uyğunluğu prinsipi və s.

Həm beynəlxalq publik hüquq sistemi, həm də ayrı-ayrı dövlətlərin milli (daxili) hüquq sistemləri öz funksiyasını məhz hüququn ümumi prinsipləri əsasında həyata keçirirlər. Hüququn ümumi prinsipləri müstəqil və paralel şəkildə mövcud olan hər iki hüquq sisteminin mahiyyətini, eləcə də sosial təyinatını əks etdirir. Buna görə də, onlar universal səviyyədə tətbiq olunur.

Hüququn ümumi prinsipləri daxili aktlarda (konstitusiyalarda, qanunlarda, məcəllələrdə və s.), habelə beynəlxalq müqavilələrdə birbaşa təsbit edilir və ya onların mahiyyətindən irəli gəlir. Buna görə də, onlar normativ keyfiyyətə və bu səbəbdən məcburi hüquqi qüvvəyə malikdirlər. Odur ki, hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn mənbəyi kimi tanınır. Bəzi müəlliflər onları beynəlxalq publik hüququn üçüncü mənbəyi hesab edirlər.[1] Lakin, əvvəllərdə qeyd etdiyimiz kimi, onlar beynəlxalq publik hüququn əsas mənbələrinə aiddir.

[1] Оппенгейм П. Международное право / Пер. с анг. Том 1. Полутом 1. М., 1948. с.49.

5.3. Beynəlxalq publik hüququn törəmə mənbələri

5.3.1. Beynəlxalq təşkilatların normativ qərarları beynəlxalq publik hüququn mənbəyi kimi

Beynəlxalq təşkilatların normativ qərarları beynəlxalq publik hüququn törəmə mənbələrinə aiddir. Qeyd etməliyik ki, söhbət dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilatların normativ qərarlarından gedir; bu təşkilatların qeyri-normativ qərarları isə beynəlxalq hüquq norması müəyyənləşdirmək və yaratmaq keyfiyyətindən məhrum olduğu üçün beynəlxalq hüququn mənbəyi hesab edilmir. Beynəlxalq publik hüququn istənilən mənbə növü normativ xarakterə malik olmalıdır.

Qeyd etməliyik ki, dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarları müasir beynəlxalq publik hüququn yeni mənbəyi sayılır. Belə ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi beynəlxalq publik hüququn mənbələrini sadalayan siyahı verir ki, bu siyahıda dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarlarının adı çəkilmir. Bu onunla izah edilir ki, Beynəlxalq Məhkəmə Statutunun həmin maddəsi I Dünya Müharibəsindən sonrakı dövrdə formulə olunmuşdur. Dövlətlərarası beynəlxalq təşkilatların yaranma prosesi isə, əsasən və başlıca olaraq, II Dünya Müharibəsindən sonra başlayır (məsələn, BMT-nin təsis edilməsi).

Beynəlxalq hüquq dərsliklərində dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarlarının beynəlxalq hüququn hansı mənbə növünə aid edilməsi məsələsi birmənalı şəkildə həll olunmur. Bəzi müəlliflər onları beynəlxalq hüququn xüsusi,[1] digərləri əlavə,[2] üçüncü qrup alimlər isə yardımçı[3] mənbə növü

---

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с. 8; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.111.

[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.69.

[3] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.27; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 97; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.10.

hesab edirlər. Şübhəsiz, deyilənlərin hamısında bu və ya digər dərəcədə həqiqət vardır. Zənn edirik ki, dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarlarının beynəlxalq publik hüququn hansı mənbə növünə aid edilməsinin elə də prinsipial əhəmiyyəti və mənası yoxdur. Biz isə, onların beynəlxalq publik hüququn **törəmə mənbə** növünə aid edilməsi variantına üstünlük veririk. Belə ki, dövlətlərarası təşkilatlar beynəlxalq münasibətlərdə törəmə subyekt kimi iştirak edirlər. Təbii ki, onların normativ qərarları beynəlxalq publik hüququn törəmə mənbəyi kimi tanınmalıdır. Bəzi müəlliflər dövlətlərarası təşkilatların normativ qərarlarını məhz törəmə mənbə hesab edirlər.[1]

Elə müəlliflər də vardır ki, onlar dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarlarını beynəlxalq publik hüququn mənbəyi kimi tanımırlar. Məsələn, V.V.Alyoşin belə hesab edir ki, beynəlxalq hüququn iki mənbəyi vardır:[2] beynəlxalq müqavilə, beynəlxalq-hüquqi adət. Bununla o, dolayı yolla dövlətlərarası təşkilatların normativ qərarlarını beynəlxalq hüququn mənbəyi hesab etməməsini nümayiş etdirir; bəzi beynəlxalq hüquq dərsliklərində beynəlxalq hüququn mənbələri sırasında onların adı ümumiyyətlə çəkilmir.[3]

Bildiyimiz kimi, beynəlxalq publik hüquq normaları iki əsas üsulla (metodla) yaradılır ki, həmin üsullardan biri beynəlxalq müqavilə, digəri isə beynəlxalq-hüquqi adət hesab edilir.

XX əsrin ortalarında BMT-nin və digər dövlətlərarası beynəlxalq təşkilatların təsis olunması (fəaliyyətə başlaması) beynəlxalq publik hüquq normaları yaratmağın üçüncü üsulunu (metodunu) formalaşdırdı. Belə ki, dövlətlərarası sistemin müstəqil iştirakçısı (subyekti) kimi tanınan həmin təşkilatlar öz səlahiyyətləri çərçivəsində və öz adından qətnamə formasında

---

[1] *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.29.

[2] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.15.

[3] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 42-44.

normativ qərarlar qəbul etmək hüququ əldə etdilər; bu qərarlarda üzv-dövlətlər üçün məcburi olan davranış qaydaları, yəni beynəlxalq publik hüquq normaları müəyyən olunur. Beləliklə, beynəlxalq publik hüquqda beynəlxalq publik hüquq normaları yaratmağın üçüncü üsulu (metodu) əmələ gəldi. Buna görə də, hal-hazırda beynəlxalq-müqavilə və beynəlxalq-adət hüquq normaları formalaşdırmaq prosesi ilə yanaşı, dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarlar qəbul etmək yolu ilə beynəlxalq publik hüquq normaları yaratmaq metodu (üsulu) da mövcuddur. Odur ki, beynəlxalq (dövlətlərarası) təşkilatların normativ qərarları beynəlxalq publik hüquq normaları yaratmağın yeni metodu (üsulu) sayılır; bu səbəbdən onlar beynəlxalq publik hüququn yeni mənbəyidir.[1] Axı, beynəlxalq publik hüququn mənbəyi təkcə beynəlxalq publik hüquq normalarının mövcudolma forması deyil, həm də onların yaradılma metodu (üsulu) hesab edilir.

Dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarları beynəlxalq publik hüququn mənbələrini xarakterizə edən **bütün əlamətlərə** cavab verir:

- birinci, onlar beynəlxalq publik hüquq normaları yaratmaq üsuludur (metodudur);
- ikinci, onlar beynəlxalq publik hüquq normalarının mövcudolma formasıdır;
- üçüncü, onlar dövlətlərarası münasibətlərdə müstəqil subyekt kimi iştirak edən beynəlxalq təşkilatların iradəsini ifadə edir;
- dördüncü, onlar yazılı formada qəbul olunur;
- beşinci, onların məcburi hüquqi qüvvəsi vardır.

Beynəlxalq (dövlətlərarası) təşkilatların normativ qərarları dedikdə yazılı formada qəbul edilən, məcburi hüquqi qüvvəsi olan və dəfələrlə tətbiq edilmək üçün nəzərdə tutulan qətnamələr başa düşülür.

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.94.

Məlum olduğu kimi, hər bir dövlətlərarası beynəlxalq təşkilatın səlahiyyəti vardır ki, bu və ya digər məsələ barəsində qətnamə formasında qərar qəbul etsin. Qəbul olunan qərarların (qətnamələrin) hüquqi qüvvəsi dövlətlərarası beynəlxalq təşkilatların təsis aktı (sənədi) ilə müəyyən olunur. Təsis aktı dedikdə onların nizamnaməsi (məsələn, BMT-nin Nizamnaməsi) və ya dövlətlərarası beynəlxalq təşkilatın təsis olunması barədə saziş (məsələn, Beynəlxalq Valyuta Fondunun yaradılması haqqında Saziş, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının yaradılması haqqında Saziş və s.) və digər sənədlər başa düşülür. Bildiyimiz kimi, dövlətlərarası beynəlxalq təşkilatlar öz təsis aktına (sənədinə) uyğun olaraq **iki növ** qərar (qətnamə) qəbul edə bilər:

– qeyri-normativ qərarlar (qətnamələr);

– normativ qərarlar (qətnamələr).

Qeyri-normativ qərarlar (qətnamələr) dedikdə tövsiyə xarakterli aktlar başa düşülür; onların məcburi hüquqi qüvvəsi yoxdur və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmur. Başqa sözlə, qeyri-normativ qərarlar (qətnamələr) məcburi deyil, tövsiyə xarakterli aktlardır. Bu səbəbdən onlar beynəlxalq publik hüququn mənbəyi kimi çıxış edə bilmir. Qeyd etməliyik ki, dövlətlərarası beynəlxalq təşkilatların çoxunun təsis sənədinə (aktına) uyğun olaraq, onların qərarları (qətnamələri) tövsiyə (qeyri-normativ) xarakteri daşıyır. Odur ki, bu növ qərar (qətnamə) beynəlxalq publik hüquq norması yaratmır və müəyyənləşdirmir.

Normativ qərarlar (qətnamələr) isə məcburi xarakter daşıyan, yəni məcburi hüquqi qüvvəsi olan və beynəlxalq publik hüquq norması müəyyənləşdirən hüquqi aktlardır. Odur ki, dövlətlərarası təşkilatların normativ qərarı (qətnaməsi) hüquq ədəbiyyatında «normativ beynəlxalq-hüquqi akt»[1] və ya «məc-

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 69.

buri beynəlxalq-hüquqi akt»[1] və yaxud «hüquq-yaradıcılıq qərarı»[2] hesab olunur. Beynəlxalq publik hüququn mənbəyi rolunda dövlətlərarası təşkilatların məhz normativ qərarları (qətnamələri) çıxış edir. Belə ki, əgər dövlətlərarası təşkilat öz təsis aktına (sənədinə) əsasən və ona uyğun olaraq, məcburi hüquqi qüvvəsi olan, dəfələrlə tətbiq olunmaq üçün davranış qaydası (beynəlxalq publik hüquq norması) müəyyənləşdirən qərar (qətnamə) qəbul edərsə, həmin qərar beynəlxalq publik hüququn mənbəyi sayılır. Belə qərarların məcburi hüquqi qüvvəyə malik olması beynəlxalq (dövlətlərarası) təşkilatların üzvü olan dövlətlərin razılığı ilə müəyyən edilir. Dövlətlərin razılığı isə dövlətlərarası təşkilatın təsis sənədində (məsələn, nizamnaməsində və yaxud onun yaradılması barədə sazişdə) ifadə olunur. Belə ki, üzv-dövlətlər təsis sənədini (aktını) imzalamaqla qərarların məcburi hüquqi qüvvəyə malik olmasına razılıq verirlər. Təsis sənədi (aktı) isə öz hüquqi təbiətinə görə beynəlxalq müqavilədir. Deməli, dövlətlərarası təşkilatların qəbul etdikləri qərarların məcburi hüquqi qüvvəyə malik olması beynəlxalq müqavilədən (təsis sənədindən) törəyir. Bu baxımdan, **dövlətlərarası beynəlxalq təşkilatların** normativ qərarları beynəlxalq publik hüququn törəmə mənbəyi sayılır.

Dövlətlərarası təşkilatların normativ qərarlarının (qətnamələrinin), hər şeydən əvvəl, üzv-dövlətlər üçün məcburi hüquqi qüvvəsi vardır. Qeyd etməliyik ki, praktiki olaraq, bütün dövlətlərarası beynəlxalq təşkilatlarda üzv-dövlətlər üçün məcburi olan qərarlar (qətnamələr) qəbul etmək səlahiyyətinə malik olan orqanlar vardır. Məsələn, BMT Nizamnaməsinin 25-ci maddəsinə uyğun olaraq, onun «Təhlükəsizlik Şurası» kimi orqanı BMT-nin üzvü olan bütun dövlətlər üçün məcburi olan qərarlar qəbul edir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT – İKAO), Beynəlxalq Dəniz Təşkilatı (BDT – İMO)

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.68.
[2] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.7

və digər dövlətlərarası beynəlxalq təşkilatlar da üzv-dövlətlər üçün məcburi olan normativ qərarlar qəbul edirlər. Dövlətlərarası beynəlxalq təşkilatların əksəriyyətinin büdcə məsələlərinə dair qəbul etdikləri qərarlar üzv-dövlətlər üçün məcburidir.

Dövlətlərarası beynəlxalq təşkilatların elə normativ qərarları da vardır ki, onlar təşkilatdaxili münasibətləri tənzimləyən normalar müəyyənləşdirir. Söhbət dövlətlərarası beynəlxalq təşkilatların fəaliyyət qaydasını, onların büdcəsinin formalaşdırılmasını, orqanlarının öz funksiyasını yerinə yetirmə formalarını və digər məsələləri tənzimləyən normalardan gedir; bu normalar beynəlxalq publik hüquq normaları olub, dövlətlərarası beynəlxalq təşkilatların orqanları üçün məcburidir. Onların məcmusuna **dövlətlərarası beynəlxalq təşkilatların daxili hüququ** (məsələn, Ümumdünya Ticarət Təşkilatının daxili hüququ, Beynəlxalq Valyuta Fondunun daxili hüququ və s.) deyilir. Dövlətlərarası beynəlxalq təşkilatların daxili hüquq normalarının məcburi hüquqi qüvvəsi vardır; əgər onlar pozularsa, onda bu və ya digər sanksiya tətbiq olunur.[1]

Dövlətlərarası beynəlxalq təşkilatların bəzi normativ qərarları **daxili sferada,** yəni onların öz çərçivəsində tətbiq olunur. Söhbət təşkilatdaxili münasibətləri tənzimləyən normativ qərarlardan gedir. Dövlətlərarası beynəlxalq təşkilatların elə normativ qərarları da vardır ki, onlar **xarici sferada**, yəni dövlətlərarası sistemdə tətbiq edilir. Söhbət xarici münasibətləri tənzimləyən normativ qərarlardan gedir ki, həmin münasibətlər üzv-dövlətlər arasında yaranır.

Dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarları **hüquqyaradıcı və ya hüquqmüəyyənedici aktlardır**. Belə aktlar qəbul etmək səlahiyyətinə malik olmaları bundan irəli gəlir ki, onların beynəlxalq publik hüquq subyektliyi vardır. Beynəlxalq publik hüquq subyektliyi isə özünü daha çox norma yaratmaq imkanında (qabiliyyətində) büruzə verir. Dövlətlərarası beynəlxalq təşkilatlar hüquq yaratmaq qabiliyyətinə həm də ona

[1] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.117.

görə malikdirlər ki, onların üzvləri dövlətlərdən ibarətdir. Dövlətlər isə beynəlxalq publik hüquq normalarının əsas yaradıcılarıdır. Dövlətlərarası beynəlxalq təşkilatlara üzv olmaqla dövlətlər onları hüquq yaratmaq qabiliyyəti ilə təmin etmiş olurlar. Bu səbəbdən dövlətlərarası təşkilatlar beynəlxalq hüquq yaradıcılığı prosesində iştirak edirlər. Son zamanlar onların beynəlxalq hüquq yaradıcılığında iştirak etmək formaları mühüm dərəcədə genişlənmişdir. Bu onunla izah edilir ki, əvvəlki illərdən fərqli olaraq, beynəlxalq (dövlətlərarası) təşkilatlar dövlətlər arasında yaranan münasibətlərin tənzimlənməsində böyük rol oynayır, dünya siyasətində daha aktiv iştirak edir. Müasir dövrdə onların beynəlxalq hüququn tətbiqinə və inkişafına müsbət təsiri şəksizdir.

Normativ qərarlar (qətnamələr) bu qərarları qəbul edən müvafiq dövlətlərarası beynəlxalq təşkilat çərçivəsində qüvvədə olur. Başqa sözlə, normativ qərarların (qətnamələrin) məcburi hüquqi qüvvəsi müvafiq dövlətlərarası beynəlxalq təşkilatın çərçivəsi ilə məhdudlaşır. Buna görə də, onların tətbiqi geniş xarakter daşımır. Lakin, buna baxmayaraq, dövlətlərarası beynəlxalq təşkilatların normativ qərarları həm onların özü üçün, həm də üzv-dövlətlər üçün qaydalar müəyyənləşdirir.[1]

Qeyri-hökumət beynəlxalq təşkilatlara gəldikdə isə, qeyd etmək lazımdır ki, dövlətlərarası təşkilatlardan fərqli olaraq, onların üzvləri ayrı-ayrı ölkələrin şəxslərindən (müəssisə, şirkət və digər təsərrüfat subyektlərindən) ibarətdir. Məsələn, beynəlxalq qeyri-hökumət təşkilatı olan Beynəlxalq Ticarət Palatasının tərkibinə ayrı-ayrı dövlətlərin 1500 milli ticarət-sənaye palatası və 6000-dən çox təsərrüfat şirkəti daxildir.[2] Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (BHNA – İATA) da qeyri-hökumət beynəlxalq təşkilatıdır; onun üzvləri 130 dövlətdən olan 230 aviaşirkətdən ibarətdir.[3] Bu kimi qeyri-hökumət

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, 129.
[2] URL:http://www.books.google.ru (03.08.2022-ci il).
[3] URL:http://www.tourlib.net (03.08.2022-ci il).

beynəlxalq təşkilatlar dövlətlərin birlik (dövlətlərarası əməkdaşlıq) forması sayılmır. Bu səbəbdən öz statusuna görə onlar dövlətlərarası münasibətləri tənzimləmək iqtidarında deyildir. Odur ki, qeyri-hökumət beynəlxalq təşkilatların qərarları heç bir halda beynəlxalq hüququn mənbəyi ola bilməz.

Sual olunur: universal təşkilat olan BMT-nin əsas orqanları sayılan **Təhlükəsizlik Şurasının** və **Baş Assambleyasının** qərarları beynəlxalq publik hüququn mənbəyi sayılırmı? Qeyd etməliyik ki, beynəlxalq hüquq üzrə mütəxəssis alimlər bu suala birmənalı şəkildə cavab vermirlər. Belə ki, bəzi alimlərə görə, BMT Təhlükəsizlik Şurasının məcburi qərarları fərdi aktlardır; onlar BMT Nizamnaməsinin bu və ya digər müddəasının tətbiqinə aiddir. Həmin alimlərin fikrincə, buna görə də, göstərilən qərarlar hüquqtətbiqetmə aktları olduğu üçün beynəlxalq publik hüququn mənbəyi kimi tanına bilməz.

Digər müəlliflər belə hesab edirlər ki, Təhlükəsizlik Şurası BMT-nin Nizamnaməsinə uyğun olaraq, yeni beynəlxalq publik hüquq norması yaratmaq səlahiyyətinə malik deyildir;[1] Təhlükəsizlik Şurasının qərarları yalnız beynəlxalq publik hüquq normalarının həyata keçirilməsinə xidmət edir. Beləliklə, həmin müəlliflər BMT Təhlükəsizlik Şurasının qərarlarını beynəlxalq publik hüququn mənbəyi saymırlar.

Bir qrup alim isə hesab edir ki, BMT-nin Nizamnaməsi Təhlükəsizlik Şurası tərəfindən normativ xarakterli və məcburi hüquqi qüvvəsi olan qərarlar qəbul edilməsini yasaqlayan (qadağan edən) heç bir göstəriş ifadə etmir. Onların fikrincə, buna görə də, Təhlükəsizlik Şurası məcburi xarakterli normativ qərarlar qəbul edə bilər.[2] Zənnimizcə, söylənilmiş bu fikir həqiqətə daha yaxındır. Belə ki, BMT-nin Təhlükəsizlik Şurası dünyada beynəlxalq sülh və təhlükəsizliyə görə məsuliyyət daşıyan başlıca orqandır. Belə bir orqanın qəbul etdiyi qərarlar

[1] Международное право. Учебник / Отв ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.132.

[2] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 70.

«imperativ» olması ilə fərqlənir; onun həm də normativ xarakterli məcburi qərarlar qəbul edə bilməsi şəksizdir. Məhz belə qərarlar beynəlxalq publik hüququn mənbəyi hesab edilir.[1] Məsələn, Təhlükəsizlik Şurası BMT Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq, keçmiş Yuqoslaviya və Ruanda üzrə beynəlxalq cinayət tribunallarının yaradılması barədə müvafiq qərarlar qəbul etmişdir; bu tribunalların nizamnaməsi (statutu) hüquqyaradıcı xarakter daşıyır. Buna görə də, həmin qərarlar **beynəlxalq publik hüququn mənbəyi sayılır**.

BMT Baş Assambleyasının qərarlarına (qətnamələrinə) gəldikdə isə, qeyd etməliyik ki, BMT Nizamnaməsinin 10, 11 və 18-ci maddələrinə görə, belə qərarlar **tövsiyə xarakterli aktlardır;** normativ keyfiyyətdən məhrum olan belə aktların məcburi hüquqi qüvvəsi yoxdur. Buna görə də, onlar beynəlxalq publik hüququn mənbəyi kimi tanına bilməz. Düzdür, bir sıra alim göstərir ki, BMT Baş Assambleyasının müəyyən qətnamələri (məsələn, müstəmləkə ölkələrinə müstəqillik verilməsi barədə 1960-cı il tarixli Bəyannamə, beynəlxalq hüququn prinsipləri barədə müvafiq 1970-ci il Bəyannaməsi və s.) hüquqi cəhətdən məcburi olub, hüquqyaradıcı elementə malikdir.[2] Onların fikrincə, bəzi qətnamələr yeni beynəlxalq publik hüquq normaları yaradır[3] və bu səbəbdən belə qətnamələr beynəlxalq publik hüququn mənbəyi kimi tanınır.[4]

Qeyd etmək lazımdır ki, nə qədər beynəlxalq əhəmiyyətə malik olsalar da, BMT Baş Assambleyasının qərarlarını (qətnamələrini) beynəlxalq publik hüququn mənbəyi hesab etmək üçün elə bir tutarlı zəmin yoxdur. Əvvəla, ona görə ki, yuxarıda qeyd etdiyimiz kimi, BMT Baş Assambleyasının qərarları

---

[1] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.116.

[2] Аречага Э. Современное международное право / Пер. с исп. М., 1983, с.53-54.

[3] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.29.

[4] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2003, с.118-120.

normativ xarakterli məcburi aktlar sayılmır; onlar tövsiyə xarakteri daşıyır. İkinci, BMT Baş Assambleyasının beynəlxalq publik hüquq norması yaratmaq səlahiyyəti yoxdur; BMT–nin Nizamnaməsi ona belə səlahiyyət vermir. Lakin, BMT Baş Assambleyasının tövsiyə xarakterli qərarları (qətnamələri) beynəlxalq publik hüququn mənbəyi olmasa da, vacib əhəmiyyət kəsb edir:

- birinci, onlar beynəlxalq publik hüquq normalarını konkretləşdirir;
- ikinci, onlar beynəlxalq-adət publik hüquq normalarının mövcud olmasını təsdiq edir;
- üçüncü, onlar beynəlxalq publik hüquq norması yaradıcılığının vacib mərhələsi (başlanğıc mərhələsi) sayılır,[1] yəni yeni beynəlxalq-adət və ya beynəlxalq-müqavilə hüquq normalarının yaradılması üçün zəmin hesab edilir.

5.3.2. Dövlətlərarası beynəlxalq konfransların qərarları beynəlxalq publik hüququn mənbəyi kimi

Beynəlxalq publik hüququn törəmə mənbələrinə həm də dövlətlərarası beynəlxalq konfransların qəbul etdikləri qərarlar daxildir. Konfrans dedikdə, həm də müşavirə, görüş və konqres başa düşülür; onlar dövlətlərarası beynəlxalq forumlardır. Məsələn, 1945-ci ildə ABŞ-ın San-Fransisko şəhərində BMT Konfransı keçirilmişdir; həmin ildə üç dövlət (SSRİ, ABŞ və Böyük Britaniya) rəhbərlərinin Potsdam (Berlin) Konfransı keçirilmişdir; 1975-ci ildən 1990-cı ilə kimi Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə (ATƏM) keçirilmişdir.

Keçirilən bu və ya digər beynəlxalq (dövlətlərarası) konfranslarda və müşavirələrdə müvafiq qərarlar qəbul olunur. Bu

[1] Актуальные проблемы деятельности международных организаций: теория и практика / Под ред. Г.И.Морозова. М., 1982, с.60.

qərarlar müxtəlif adlarda ola bilər: məsələn, yekun bəyannaməsi, protokol, yekun aktı, yekun sənədi və s. Misal üçün, yuxarıda adını çəkdiyimiz Potsdam Konfransında (Berlin, 1945-ci il) müvafiq Protokol imzalanmışdır; 1975-ci ilin avqust ayında Helsinkidə keçirilən ATƏM müvafiq Yekun Aktı qəbul etməklə öz işini başa çatdırmışdır. Beynəlxalq hüquq ədəbiyyatı səhifələrində beynəlxalq dövlətlərarası konfrans və müşavirələrin qəbul etdiyi sənədlər ya «**qərarlar**»[1], ya da «**aktlar**» kimi[2] ümumiləşdirilmiş anlayışlarla əhatə olunur.

Beynəlxalq konfrans və müşavirələrin qərarlarının hüquqi təbiəti, eləcə də onların beynəlxalq publik hüququn mənbəyi kimi tanınması müəlliflər arasında mübahisə doğuran məsələlərdən biri hesab edilir; bu mübahisə hazırda da davam edir. Bir qrup alim (Q.İ.Tunkin və başqaları) göstərir ki, beynəlxalq konfrans və müşavirələrin qərarları dövlətlərin siyasi-normativ razılaşmasıdır; onlar siyasi normalar müəyyənləşdirdiyinə görə beynəlxalq publik hüququn mənbəyi hesab edilə bilməz.[3] Həmin alimlər, xüsusən də, ATƏM-in qərarlarını (aktlarını) beynəlxalq publik hüququn mənbəyi kimi tanımırlar; onların fikrincə, ATƏM-in ayrı-ayrı qərarlarının özündə göstərilir ki, həmin qərarlarda nəzərdə tutulan normalar siyasi cəhətdən məcburidir.

Alimlərin bir qismi isə hesab edir ki, beynəlxalq (dövlətlərarası) konfrans və müşavirələrin qərarları (aktları) beynəlxalq publik hüququn mənbəyi sayılır.[4] Bu fikrə tərəfdar çıxaraq, ey-

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 63.

[2] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 90.

[3] Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005, с. 83.

[4] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.147; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 70; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 97; Игнатенко Г.В. Малинин С.А. Новые тенденции в международном нормотворчестве // СЕМП. 1986, М., 1987, с.32-46.

ni zamanda, qeyd edirik ki, beynəlxalq konfrans və müşavirələrin bütün qərarlarını (aktlarını), istisnasız olaraq, beynəlxalq publik hüququn mənbəyi kimi tanımaq olmaz; yalnız o qərarlar (aktlar) **beynəlxalq publik hüququn mənbəyi** sayıla bilər ki, onlar aşağıda göstərilən şərtlərə (tələblərə) cavab versin.

Birinci, beynəlxalq konfrans və müşavirələrin qərarları (aktları) **beynəlxalq publik hüquq normaları müəyyən etməli,** onların mövcudolma forması olmalıdır. Beynəlxalq publik hüquq normalarının müəyyən edilmə (yaranma) və mövcudolma forması isə beynəlxalq publik hüququn mənbəyi deməkdir.

İkinci, beynəlxalq konfrans və müşavirələrin qərarları (aktları) **hüquqi cəhətdən məcburi olmalıdır**. Belə ki, həmin qərarlar dövlətlər üzərinə beynəlxalq-hüquqi öhdəliklər qoyur. Məsələn, sülhün bərpası haqqında müvafiq Cenevrə Konfransının (1954-cü il) Yekun Bəyannaməsi Fransa üçün Kamboca, Laos və Vyetnamın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü tanımaq öhdəliyi müəyyənləşdirir; Potsdam Konfransında (Berlin 1945-ci il) qəbul olunan Protokol ərazi məsələsi və əsas hərbi cinayətkarların verilməsi barədə Almaniyanın üzərinə müvafiq öhdəliklər qoyur; ATƏM-in qəbul etdiyi bir sıra qərarın üzv-dövlətlər üçün hüquqi cəhətdən məcburi olması şəksizdir.

Üçüncü, beynəlxalq konfrans və müşavirələrin qərarları **beynəlxalq-hüquqi normativ əhəmiyyətə malik olmalıdır**. Belə ki, onlar normativ xarakter daşımalıdır. Düzdür, bəzi qərarlar fərdi beynəlxalq-hüquqi göstərişlər (məsələn, qadağanedici, məcburedici və səlahiyyətverici göstərişlər) ifadə edə bilər ki, bu göstərişlər bir dəfə tətbiq olunmaq üçün nəzərdə tutulur. Belə qərarlar (aktlar) da beynəlxalq publik hüququn mənbəyi sayılır.

Lakin, beynəlxalq konfrans və müşavirələrin qərarlarında (aktlarında) beynəlxalq publik hüquq normalarından başqa, siyasi normalar və mənəvi öhdəliklər də nəzərdə tutulur. Bu, heç də həmin qərarların (aktların) beynəlxalq publik hüququn

mənbəyi kimi tanınmasına mane olmur.[1] Təkcə normativ və məcburi hüquqi göstəriş ifadə etməsi belə qərarların (aktların) beynəlxalq publik hüququn mənbəyi hesab olunması üçün kifayətdir.[2]

5.3.3. «Mülayim hüquq»

Son zamanlar ədəbiyyat səhifələrində «mülayim hüquq» terminin işlədilməsi dəbdə olub, geniş yayılmışdır. Hətta Qərb hüquq doktrinası onu Avropa hüququnun mənbələrindən biri hesab edir.[3]

Qeyd etməliyik ki, **«mülayim hüquq»** (мягкое право, soft law) hüquq ədəbiyyatı səhifələrində ən çox müzakirə olunan və mübahisə doğuran məsələlərdən biridir. Bu məsələ barədə müəlliflər yekdil fikir söyləmirlər. Bəzi müəlliflərə görə, «mülayim hüquq» dedikdə siyasi və tövsiyə xarakterli normaların məcmusu başa düşülür.[4] Digər alimlər hesab edirlər ki, «mülayim hüquq» ümumməcburi qüvvəsi olmayan fərdi, tövsiyə və siyasi xarakterli aktların məcmusudur.[5]

Bir sıra alim göstərir ki, «mülayim hüquq» beynəlxalq publik hüququnun **mənbə növüdür**. Belə ki, onların fikrincə, «mülayim hüquq»da xüsusi növ beynəlxalq publik hüquq nor-

---

[1] Şumilov V.M. belə bir mübahisəli fikir söyləyir ki, beynəlxalq konfrans, müşavirə və görüşlərin qərarları sırf siyasi sənədlərdir və bu səbəbdən onlar beynəlxalq hüququn mənbələrinə aid deyildir (Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.117).

[2] *Daha ətraflı:* Смирнов И.А. Юридическая квалификация документов Совещания по безопасности и сотрудничеству в Европе // СЕМП. 1991, №2.

[3] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s.106.

[4] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.116.

[5] Право Европейского Союза. Учебник / Под ред. С.Ю.Кашкина. М., 2003, с.123.

maları ifadə olunur. Lakin söylənilən bu fikirlə çətin ki, razılaşmaq olar. Məsələ burasındadır ki, beynəlxalq publik hüquq normaları subyektlər üçün konkret hüquq və vəzifələr müəyyənləşdirir. «Mülayim hüquq» normaları isə subyektlər arasındakı qarşılıqlı fəaliyyətin ümumi istiqamətlərini müəyyənləşdirir. Bu cəhəti ilə «mülayim hüquq», necə deyərlər, «sərt hüquq»dan fərqlənir. **«Sərt hüquq»** (твердое право, hard law) ənənəvi hüquq olub, subyektlər üçün konkret (aydın) hüquq və vəzifələr müəyyənləşdirir.

Elə alimlər də vardır ki, onların fikrincə, «mülayim hüquq» normaları hüquqi cəhətdən məcburi olmayan sənədlərdə – **qeyri-normativ aktlarda** (məsələn, dövlətlərin birgə qəbul etdikləri bəyannamədə, kommyunikedə, beynəlxalq təşkilatların qətnamələrində və s.) ifadə olunur və bu səbəbdən onlar normativ xarakter daşımır. Belə normalar hüquqi deyil, mənəvi-siyasi normalardır.

Bəzi müəlliflər «mülayim hüquq»u **«kvazi-hüquq»** hesab edirlər. Onların mövqeyinə görə, «mülayim hüquq», sözün əsl mənasında, hüquq sayılmır; lakin o, hüquqa oxşayır və bənzəyir.

Fikrimizcə, «mülayim hüquq» beynəlxalq hüququn **mənbə növü hesab edilmir**. Lakin onun rolunu və əhəmiyyətini heç cür inkar edə bilmərik. Nəzərdən qaçırmaq olmaz ki, «mülayim hüquq» beynəlxalq publik hüquq subyektlərinə, hüquqi cəhətdən məcburi olan sənədlər kimi, eyni dərəcədə siyasi təsir göstərir. Digər tərəfdən, «mülayim hüquq» yeni beynəlxalq-adət hüquq normalarının yaranmasına kömək edir, zəmin yaradır. Belə ki, «mülayim hüquq» normaları dövlətlərin praktikasında təkrarlanmaqla beynəlxalq-adət hüquq norması kimi tanınır. Hətta hüquqi cəhətdən məcburi olmayan sənədlərdə ifadə edilməsinə baxmayaraq, «mülayim hüquq» beynəlxalq publik hüquq üçün normativ xarakterli qaydalar müəyyənləşdirir[1].

[1] Shelton D. Normative Hieararchy in International Law // American Journal of International Law. Vol.100, 2006, № 2.

5.4. Beynəlxalq publik hüququn yardımçı (əlavə) mənbələri

5.4.1. Məhkəmə qərarları (aktları)

Bəzən, Beynəlxalq Məhkəmə yaranmış dövlətlərarası beynəlxalq-hüquqi məsələni (münasibəti) beynəlxalq-müqavilə, eləcə də beynəlxalq-adət hüquq normalarının və yaxud da hüququn ümumi prinsiplərinin köməyi ilə həll edə bilmir. Ona görə ki, həmin məsələni tənzimləyən nə konkret beynəlxalq-müqavilə, nə də beynəlxalq-adət hüquq norması mövcud olur; yaranmış məsələnin həlli beynəlxalq təşkilat və konfransların normativ qərarları vasitəsi ilə də mümkün olmur. Bəs, nə etməli? Axı, ortaya çıxmış dövlətlərarası beynəlxalq-hüquqi məsələ özünün təxirəsalınmadan həllini və tənzimlənməsini tələb edir. Məsələ, yəni iki dövlət arasında yaranan beynəlxalq-hüquqi mübahisə isə yalnız məcburi beynəlxalq publik hüquq normasının köməyi ilə həll oluna bilər. Təbii ki, belə bir sual ortaya çıxır: Beynəlxalq Məhkəmə baxdığı dövlətlərarası beynəlxalq-hüquqi mübahisəni həll etmək üçün yeni, məcburi beynəlxalq publik hüquq norması müəyyənləşdirə (yarada) bilərmi? Axı, Beynəlxalq Məhkəmə beynəlxalq publik hüquq norması yaratmaq səlahiyyətinə malik olmayan orqandır. Lakin, buna baxmayaraq, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi hüquq verir ki, Beynəlxalq Məhkəmə mübahisəni həll etməkdən ötrü beynəlxalq publik hüquq norması müəyyənləşdirən qərar qəbul etsin. Məhz bu qərarlar beynəlxalq publik hüququn mənbəyi hesab edilir. Amma alimlərin heç də hamısı BMT Beynəlxalq Məhkəməsinin, o cümlədən digər beynəlxalq məhkəmələrin qərarlarını beynəlxalq publik hüququn mənbəyi kimi tanımırlar. Belə ki, alimlərin bir qismi beynəlxalq məhkəmə qərarlarının (BMT Beynəlxalq Məhkəməsinin

qərarlarının) beynəlxalq publik hüququn mənbəyi olması fikrini qəbul etmirlər.[1]

Bir sıra alim isə, əksinə, belə hesab edir ki, BMT Beynəlxalq Məhkəməsinin, habelə digər beynəlxalq məhkəmələrin aktları beynəlxalq publik hüququn mənbəyidir.[2] Sovet dövrünün beynəlxalq hüquq doktrinası BMT Beynəlxalq Məhkəməsinin hüquqyaratma rolunu (beynəlxalq publik hüququn mənbəyi olmasını) tam inkar edirdi.[3] Güman edirik ki, BMT Beynəlxalq Məhkəməsinin qərarları beynəlxalq publik hüququn mənbəyi kimi müəyyən hallarda çıxış edə bilər. Belə ki, iki dövlət arasında beynəlxalq-hüquqi mübahisəyə baxan zaman Beynəlxalq Məhkəmə müəyyənləşdirir ki, həmin mübahisəni həll etməyə imkan verən lazımi və zəruri beynəlxalq publik hüquq norması yoxdur. Belə halda beynəlxalq publik hüquq normaları ilə tənzimlənməyən vəziyyət yaranır. Başqa sözlə, Beynəlxalq Məhkəmə **beynəlxalq hüquqda boşluq** kimi vəziyyətlə qarşılaşır. Belə vəziyyətdən çıxmaq, yəni beynəlxalq-hüquqi mübahisəni həll etmək üçün o, təbii ki, yeni beynəlxalq publik hüquq norması yaratmalı və müəyyənləşdirməlidir. Bu zaman Beynəlxalq Məhkəmə beynəlxalq publik hüququ (beynəlxalq publik hüququn ümumi normalarını və prinsiplərini) əldə əsas tutmalıdır. Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində deyilir ki, Beynəlxalq Məhkəmə mübahisəni beynəlxalq publik hüquq əsasında həll etməlidir. Buna görə də,

---

[1] *Məsələn, bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 89; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.69; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.111; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 62.

[2] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.25-26; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.30; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.157; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.116 və s.

[3] Курс международного права. Том 1. М., 1989, с.217.

Beynəlxalq Məhkəmənin yaratdığı (müəyyənləşdirdiyi) beynəlxalq publik hüquq norması:

- birinci, o, beynəlxalq publik hüququn universal (ümumi) normalarına zidd olmamalıdır;
- ikinci, o, beynəlxalq publik hüququn universal (ümumi) normalarını dəyişdirməməlidir;
- üçüncü, o, beynəlxalq publik hüququn universal (ümumi) normalarına əlavə etməməlidir;
- dördüncü, o, hüququn ümumi prinsiplərinə, eləcə də beynəlxalq publik hüququn prinsiplərinə zidd olmamalıdır;
- beşinci, o, beynəlxalq publik hüququn universal (ümumi) normalarını konkretləşdirməli və inkişaf etdirməlidir.

Beynəlxalq Məhkəmənin yaratdığı yeni norma universal (ümumi) beynəlxalq hüquq norması hesab edilmir. Ona görə ki, dünyanın əksər dövlətləri üçün onun məcburi hüquqi qüvvəsi yoxdur. Həmin norma yalnız mübahisə edən iki dövlət (tərəf) arasındakı münasibəti tənzimləyir. Buna görə də, onun ancaq iki dövlət (tərəf) üçün məcburi hüquqi qüvvəsi vardır. Odur ki, Beynəlxalq Məhkəmənin yaratdığı (müəyyənləşdirdiyi) norma universal (ümumi) deyil, **partikulyar (ikitərəfli) norma** hesab edilir. Beynəlxalq Məhkəmə Statutunun 59-cu maddəsində göstərilir ki, Beynəlxalq Məhkəmənin qərarı yalnız işdə iştirak edən tərəflər və yalnız həmin iş üzrə məcburidir. Başqa sözlə, Beynəlxalq Məhkəmənin bu və ya digər iş üzrə çıxardığı qərar başqa iş üzrə oxşar məzmunlu analoji qərar qəbul edilməsi üçün əsas ola bilməz. Buna görə də, Beynəlxalq Məhkəmənin qərarı **presedent xarakteri** daşımır. Bu səbəbdən İngiltərə presedent hüququ üçün xarakterik olan «stare decisis» prinsipi Beynəlxalq Məhkəmə tərəfindən tətbiq olunmur.[1]

Beynəlxalq publik hüququn mənbəyi qismində təkcə Beynəlxalq Məhkəmənin qərarları çıxış etmir. Beynəlxalq publik

[1] URL:http://www.Lib.csu.ru (03.08.2022-ci il).

hüququn mənbəyi həm də aşağıda göstərilən digər beynəlxalq məhkəmələrin qərarları ola bilər:

- İnsan Hüquqlarına dair Avropa Məhkəməsi;
- Avropa İttifaqı Məhkəməsi;
- MDB-nin İqtisad Məhkəməsi;
- BMT-nin Beynəlxalq Cinayət Məhkəməsi və s.

Təkcə bunların deyil, həm də beynəlxalq arbitraj məhkəmələrinin (beynəlxalq arbitraj orqanlarının) qərarları beynəlxalq publik hüququn mənbəyi ola bilər.[1] Bəzi müəlliflər beynəlxalq publik hüququn mənbəyinə həm də milli (dövlətdaxili) məhkəmələrin qərarlarını aid edirlər.[2] Xüsusən də, beynəlxalq hüquq üzrə Qərb (ABŞ, Böyük Britaniya və s.) mütəxəssisləri belə hesab edirlər ki, milli məhkəmə qərarları beynəlxalq publik hüququn mənbəyidir. Bu fikirlə razılaşmaq çətindir. Belə ki, milli məhkəmə qərarı yalnız həmin məhkəmənin fəaliyyət göstərdiyi dövlət ərazisində qüvvədə olur və buna görə də, milli məhkəmələr dövlətlərarası beynəlxalq-hüquqi mübahisələri həll etmək iqtidarında deyil. Digər tərəfdən, ayrı-ayrı ölkələrdə hakimlərin ixtisası, peşəkarlığı və iş keyfiyyətləri eyni deyildir; bu da, əlbəttə, əsaslı məhkəmə qərarı çıxarılmasına təsir göstərməyə bilməz. Aydın məsələdir ki, ayrı-ayrı ölkələrin milli məhkəmələri eyni bir məsələ barəsində müxtəlif qərarlar çıxara bilərlər. Digər tərəfdən, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi əsas vermir ki,

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.43; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.12.

[2] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 31; Блищенко И.П. Обычное оружие и международное право. М., 1984, с.81; Higgins R. Problems and Process: International Law and How We Use It. UK, Clarendon Press, 1995, p.81-83.

ayrı-ayrı dövlətlərin milli məhkəmə aktları beynəlxalq publik hüququn mənbəyi kimi tanınsın.[1]

BMT Beynəlxalq Məhkəməsinin, o cümlədən digər beynəlxalq məhkəmə-lərin qərarlarının əhəmiyyəti təkcə bununla məhdudlaşmır ki, belə aktlar müəyyən hallarda, yəni beynəlxalq hüquqda boşluq olduqda beynəlxalq publik hüquq norması yaratmaq xüsusiyyətinə malikdir. Bundan başqa, beynəlxalq məhkəmə qərarları qüvvədə olan beynəlxalq publik hüquq normalarını inkişaf etdirir, dəqiqləşdirir və konkretləşdirir; onlar həm də beynəlxalq publik hüquq normalarının məna və məzmununun izah (şərh) edilməsində vacib rol oynayır. Təsadüfi deyil ki, beynəlxalq publik hüquq normalarının izahı (şərh edilməsi) beynəlxalq məhkəmə və arbitraj orqanlarının qəbul etdikləri qərarların bir hissəsini təşkil edir.[2]

Deyilənlərdən başqa, beynəlxalq məhkəmə aktları, ayrı-ayrı beynəlxalq-adət hüquq normalarının mövcud olmasını və onların konkret məzmununu təsdiqləyir, sübut edir. Beynəlxalq-adət hüquq normalarının mövcudluğu və hansı məzmunda olması dövlətlər arasında mübahisəyə və fikir ayrılığına səbəb olan məsələdir. Belə hallarda beynəlxalq məhkəmə qərarlarının köməyindən istifadə olunur.

Beynəlxalq məhkəmə qərarlarının əhəmiyyəti həm də bununla şərtlənir ki, onlar (xüsusən də BMT Beynəlxalq Məhkəməsinin qərarları) beynəlxalq publik hüquq normalarının formalaşması prosesinə effektli təsir göstərir.[3] Hətta, bəzən, beynəlxalq məhkəmə qərarları beynəlxalq-adət hüquq normalarının yaranmasının başlanğıcını və əsasını qoyur. Bunlar onu göstərir ki, beynəlxalq hüququn inkişafında beynəlxalq məhkəmə qərarları vacib rol oynayır.

---

[1] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 97.

[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 11.

[3] Курс международного права. Том 1. М., 1989, с.217.

5.4.2. Beynəlxalq publik hüquq doktrinası

Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində həm də göstərilir ki, Beynəlxalq Məhkəmə mübahisəni həll edərkən müxtəlif millətlərin beynəlxalq (ümumi) hüquq üzrə daha təcrübəli mütəxəssislərinin doktrinasını hüquq normaları müəyyənləşdirmək üçün yardımçı vasitə kimi tətbiq edir. Bu göstəriş beynəlxalq hüquq ədəbiyyatı səhifələrində müəlliflər tərəfindən birmənalı şəkildə deyil, müxtəlif cür izah edilir. Belə ki, bəzi alimlərin fikrincə, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi daha təcrübəli mütəxəssislərin doktrinasını yalnız hüquq normalarının məzmununu (mənasını) müəyyənləşdirmək və dəqiqləşdirmək üçün nəzərdə tutur. Bunu əldə əsas tutaraq, həmin alimlər belə hesab edirlər ki, beynəlxalq hüquq doktrinası beynəlxalq publik hüququn mənbəyi sayılmır.[1] Məsələn, İ.İ.Lukaşuk yazır ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi doktrinaya beynəlxalq publik hüququn mənbəyi kimi baxmağa heç də əsas vermir.[2] Digər alimlər isə məsələyə başqa cür yanaşırlar. Belə ki, onların fikrincə, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində ifadə olunan göstəriş beynəlxalq hüquq doktrinasını beynəlxalq publik hüququn yardımçı mənbəyi kimi tanıyır.[3]

Zənnimizcə, beynəlxalq hüquq doktrinasını beynəlxalq publik hüququn yardımçı mənbəyi hesab edən müəlliflərin mövqeyi həqiqətə daha yaxındır. Belə ki, BMT Beynəlxalq

---

[1] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.85; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 71; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.156-157 və s.

[2] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с. 86.

[3] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s. 26; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.12; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 31-32.

Məhkəmə Statutunun 38-ci maddəsi Beynəlxalq Ədalət Məhkəməsinin Daimi Palatası Statutunun müvafiq maddəsini, praktiki olaraq, olduğu kimi eyni ilə təkrarlayır. Beynəlxalq Ədalət Məhkəməsinin Daimi Palatası Statutunun 38-ci maddəsi isə, əvvəllərdə qeyd etdiyimiz kimi, I Dünya Müharibəsindən sonra məhz həmin Palata üçün formulə edilmişdi. O dövrdə mövcud olan beynəlxalq publik hüquq normalarının həcmi xeyli dərəcədə az idi və onlar bu səbəbdən dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək üçün kifayət edə bilməzdi. Buna görə də, Beynəlxalq Ədalət Məhkəməsi Daimi Palata Statutunun 38-ci maddəsi hüququn ümumi prinsiplərindən, məhkəmə qərarlarından, o cümlədən beynəlxalq hüquq doktrinasından istifadə olunmasının mümkünlüyü haqqında göstəriş ifadə edir.[1] Odur ki, hüququn ümumi prinsipləri və məhkəmə qərarları kimi, beynəlxalq publik hüquq doktrinası da beynəlxalq publik hüququn mənbəyi qismində tanınmalıdır.

Beynəlxalq hüquq doktrinası beynəlxalq publik hüququn spesifik xarakterli mənbəyidir. Belə ki, beynəlxalq hüquq doktrinasının bilavasitə beynəlxalq publik hüquq normaları yaratmaq səlahiyyəti (funksiyası) yoxdur. Aydın məsələdir ki, beynəlxalq hüquq doktrinası heç vaxt «beynəlxalq qanunverici» rolunda çıxış edə bilməz. Qeyd etməliyik ki, beynəlxalq hüquq doktrinası yalnız mövcud olan beynəlxalq publik hüquq normalarının məzmununa aydınlıq gətirə, onların mənasını şərh və izah edə bilər. Bu zaman faktiki (real) olaraq yeni beynəlxalq hüquq norması yaranır. Bu baxımdan, beynəlxalq hüquq doktrinası beynəlxalq publik hüquq yaradıcılığı prosesində iştirak edərək, ona bilavasitə olmasa da, dolayı yolla təsir göstərir.[2] Odur ki, beynəlxalq hüquq doktrinasına beynəlxalq publik hü-

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с. 8.

[2] Müəlliflərdən L.Oppenqeym isə belə bir fikir irəli sürür ki, beynəlxalq hüquq doktrinasından hüquqyaradıcı amil kimi istifadə edilməsinə yol verilir *(bax:* Оппенгейм Л. Международное право / Пер. с анг. Том 1. Полутом 1. М., 1948, с.52).

qugun xüsusi xarakterə malik olan mənbəyi kimi baxmaq lazımdır. Lakin beynəlxalq publik hüququn əsas mənbələri ilə müqayisədə o, ikinci dərəcəli rol oynayır. Buna görə də, beynəlxalq publik hüquq doktrinası beynəlxalq hüququn əlavə, yardımçı (köməkçi) mənbə növü sayılır və ondan mənbə kimi yalnız o halda istifadə edilə bilər ki, yaranmış beynəlxalq-hüquqi məsələni beynəlxalq müqavilənin və digər vasitələrin köməyi ilə tənzimləmək mümkün olmasın.

Beynəlxalq hüquq doktrinası dedikdə beynəlxalq hüquq üzrə hüquqşünas alimlərin və mütəxəssislərin beynəlxalq-hüquqi məsələlər barədə elmi fikirlərinin, baxışlarının, ideyalarının, yaratdıqları konsepsiya, postulat və nəzəriyyələrin, irəli sürdükləri fərziyyələrin sistemi başa düşülür ki, həmin fikirlər və s. öz əksini elmi işlərdə (əsərlərdə) tapır. Beynəlxalq hüquq doktrinasına **beynəlxalq hüquq elmi** də deyilir; onlar eynimənalı, məzmunca üst-üstə düşən anlayışlardır.

Beynəlxalq məhkəmələr bu və ya digər beynəlxalq-hüquqi məsələni həll etmək (tənzimləmək) üçün, hər şeydən əvvəl, tətbiq edilməli olan müvafiq beynəlxalq publik hüquq normasını seçməlidir. Başqa sözlə, beynəlxalq məhkəmələr, ilk növbədə, müəyyən etməlidirlər ki, öz icraatında olan beynəlxalq-hüquqi məsələnin həlli üçün hansı beynəlxalq publik hüquq norması tətbiq edilməlidir. Bundan sonra onlar dəqiq məzmununu müəyyənləşdirmək üçün beynəlxalq publik hüquq normasını şərh və izah etməlidirlər. Bu zaman, məlum məsələdir ki, mübahisəyə (məsələyə) baxan beynəlxalq məhkəmə çətinliklə üzləşə bilər. Yaranmış çətinliyi aradan qaldırmaq üçün o, ayrı-ayrı dövlətlərin beynəlxalq hüquq üzrə ən təcrübəli mütəxəssislərinin (beynəlxalq hüquq sahəsində nüfuzlu, tanınmış və görkəmli nəzəriyyəçi alimlərin) elmi fikirlərinə (elmi əsərlərinə), yəni beynəlxalq hüquq doktrinasına müraciət edir. Bu fikirlərdə beynəlxalq məhkəmənin baxdığı müvafiq beynəlxalq-hüquqi mübahisənin (məsələnin) həlli yolu göstərilir. İstənilən hüquqi məsələ isə yalnız bu və ya digər hüquq normasının köməyi ilə həll edilə, tənzimlənə bilər. Deməli, alimlərin və mü-

təxəssislərin elmi fikirləri, əslində, beynəlxalq-hüquqi məsələləri həll etməyə imkan verən yeni beynəlxalq hüquq norması yaradır. Beynəlxalq məhkəmələr həmin normadan praktik istifadə edərək, baxdıqları bu və ya digər beynəlxalq-hüquqi məsələni həll edirlər. Odur ki, beynəlxalq hüquq doktrinasına beynəlxalq publik hüququn mənbəyi kimi baxmaq lazımdır. Təsadüfi deyil ki, inqilabaqədərki Rusiya alimi F.F.Martens beynəlxalq publik hüquq doktrinasını, mübahisəsiz olaraq, beynəlxalq hüququn mənbələrinə aid edirdi.[1] Qeyd etməliyik ki, əvvəllər beynəlxalq publik hüquq sahəsində tanınmış alimlərin əsərləri beynəlxalq hüququn mənbəyi hesab olunurdu. Hətta XX əsrə kimi beynəlxalq hüquq «alimlərin hüququ», «doktrinal hüquq» kimi tanınırdı; alimlərin əsərləri «beynəlxalq hüququn surroqatı» sayılırdı.[2]

Müasir dövrdə beynəlxalq hüquq doktrinasının vacib rol oynaması şəksizdir; indiki şəraitdə onun rolunu və əhəmiyyətini qiymətləndirməmək olmaz. Belə ki, hal-hazırda da beynəlxalq hüquq doktrinasının beynəlxalq hüquq yaradıcılığı prosesində iştirak etmək imkanı vardır. Məhz belə imkan sayəsində o, beynəlxalq publik hüququn əlavə, yardımçı mənbəyi hesab edilir.

Bundan başqa, beynəlxalq hüquq doktrinası **beynəlxalq publik hüquq normalarının izah və şərh edilməsində** vacib rol oynayır. Beynəlxalq məhkəmə praktikası göstərir ki, bir sıra halda beynəlxalq publik hüquq normalarının mahiyyətinə yalnız beynəlxalq hüquq doktrinası vasitəsi ilə aydınlıq gətirmək mümkün olur. Beynəlxalq hüquq doktrinası beynəlxalq məhkəmələr tərəfindən tətbiq olunan beynəlxalq publik hüquq normalarının şərh və izah edilməsi üçün ən effektli vasitədir; BMT-nin Beynəlxalq Məhkəməsi, o cümlədən digər beynəlxalq məhkəmələr, habelə arbitraj beynəlxalq publik hüquq normalarını (xüsusən də, beynəlxalq-adət hüquq normalarını)

[1] *Bax:* Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Том. 1. М., 1996, с.151.

[2] «Surroqat» bir şeyi əvəz edə bilən başqa hər hansı şeyə deyilir.

şərh (izah) etmək üçün beynəlxalq hüquq sahəsində tanınmış və nüfuzlu alimlərin elmi əsərlərinə müraciət edir, onların həmin əsərlərdə öz əksini tapan elmi fikirlərindən sitat gətirirlər. Beynəlxalq məhkəmə qərarlarında beynəlxalq aləmdə ad çıxarmış və şöhrət qazanmış belə alimlərin elmi maraq doğuran əsərlərinə istinad edilməsi hallarına heç də az-az hallarda rast gəlinmir. Təkcə bunu demək kifayətdir ki, 1992-ci ildə BMT-nin Beynəlxalq Məhkəməsi öz qərarlarında dəfələrlə L.Oppenqeym, X.Lauterpaxt və J.Gidel kimi tanınmış alimlərin elmi əsərlərinə istinad etmişdir. Alimlərin əsərləri bundan sonra da beynəlxalq hüquq sahəsində qərarlar qəbul olunmasında əhəmiyyətli rol oynamaqda davam edir.[1]

Beynəlxalq hüquq sahəsində görkəmli alimlərin (hüquqşünasların) elmi işlərinə həm də **ayrı-ayrı ölkələrin milli (dövlətdaxili) məhkəmələri** istinad edir; bu yolla onlar öz qəbul etdikləri qərarlarını əsaslandırırlar. Məsələn, vaxtilə (XVIII əsrin axırları – XIX əsrin əvvəlləri) ABŞ məhkəmələri çıxardıqları qərarlarda tanınmış hüquqşünas alim E.Vattelin elmi fikirlərinə dəfələrlə istinad etmişdir.[2]

Qeyd etməliyik ki, tanınmış alimlərin elmi fikirlərinə istinad etməyə təkcə beynəlxalq məhkəmə praktikasında rast gəlinmir. Onların elmi işlərinə istinad olunması hallarına, eyni zamanda, **müasir diplomatiya praktikasında** təsadüf edilir. Belə ki, xarici siyasət məsələlərinin həllində, bəzən, beynəlxalq hüquq doktrinasından istifadə etmək lazım gəlir.

Beynəlxalq publik hüquq doktrinasının əhəmiyyəti həm də bundan ibarətdir ki, o, birinci, **beynəlxalq-adət hüquq normalarının mövcudluğunu** təsdiqləyir, ikinci, belə normaların **konkret məzmununu müəyyənləşdirir**. Belə ki, bəzən, hər hansı beynəlxalq-adət hüquq normasının mövcudluğunu və onun konkret (dəqiq) məzmununu müəyyənləşdirmək mümkün olmur və

[1] Оппенгейм Л. Международное право. Том.1. Полутом I . Пер. с анг. М., 1948, с.52.
[2] URL:http://www.america ru.com (30.04.2018-ci il).

ya çətin məsələyə çevrilir. Bu kimi hallarda beynəlxalq publik hüquq doktrinasından istifadə olunur.[1] Təsadüfi deyil ki, beynəlxalq publik hüquq doktrinası beynəlxalq-adət hüquq normalarının mövcudluğunu, eləcə də onların konkret və dəqiq məzmununu təsdiqləyən vacib vasitələrdən biri hesab edilir. Beynəlxalq publik hüquq doktrinası elə bir vasitədir ki, bu vasitənin köməyi ilə beynəlxalq-hüquqi adətlərin əsl və həqiqi mənası aydınlaşır, müəyyən olunur.[2]

Beynəlxalq publik hüquq döktrinası həm də **dövlətlərin öz beynəlxalq-hüquqi mövqeyini müəyyən etməyə imkan verən vasitədir**. Belə ki, bəzən, dövlətlər arasında hər hansı sahədə beynəlxalq-hüquqi mübahisə yaranır. Məlum məsələdir ki, belə mübahisəyə beynəlxalq məhkəmə orqanları baxır; mübahisə edən tərəflər öz mövqeyini əsaslandırmaq üçün məhkəməyə lazımi sənədlər təqdim edirlər; bu zaman beynəlxalq hüquq sahəsində tanınmış alimlərin elmi fikirlərinə istinad oluna bilər. Məhz alimlərin elmi fikirləri yüksək səviyyəli, düzgün və əsaslı qərar qəbul olunmasını təmin edir.

Beynəlxalq publik hüquq doktrinası **xarici siyasətə dair məsələlərin** həllində də vacib rol oynayır. Belə ki, xarici siyasət haqqında bu və ya digər qərarın qəbul olunmasında, bəzən, beynəlxalq publik hüquq döktrinasının köməyindən istifadə edilir.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq doktrinasının köməyinə **BMT-nin Beynəlxalq Hüquq Komissiyası** da «bel bağlayır», güvənir. Belə ki, həmin Komissiyanın əsas və başlıca funksiyası beynəlxalq müqavilə layihələrini hazırlamaqdan ibarətdir. Bu proses zamanı beynəlxalq hüquq doktrinasının köməyindən istifadə olunur. Bu isə o deməkdir ki, beynəlxalq publik hüquq doktrinası beynəlxalq-müqavilə hüquq normaları yaratmaq (beynəlxalq publik hüquq yaradıcılığı) prosesində, do-

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 11.

[2] Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Том 1. М., 1996, с.151.

layı yolla olsa da, iştirak edir.[1] Müasir dövrdə BMT Beynəlxalq Hüquq Komissiyasının məruzələrində tanınmış alimlərin elmi fikirlərindən sitat gətirmək və onlara istinad etmək praktikasına rast gəlmək mümkündür. Belə ki, öz mövqeyini əsaslandırmaq üçün məruzəçilər müəyyən hallarda elmi işlərə istinad edirlər. Buna görə də, beynəlxalq publik hüquq doktrinası, bilavasitə olmasa da, beynəlxalq publik hüquq yaradıcılığı prosesinə təsir göstərir.

5.4.3. Dövlətlərin birtərəfli aktları beynəlxalq publik hüququn mənbəyi kimi

BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində beynəlxalq publik hüququn mənbələrinə dair verilən siyahıda dövlətlərin birtərəfli aktlarının (hərəkətlərinin) adı çəkilmir. Lakin, buna baxmayaraq, dövlətlərin birtərəfli hərəkətləri (aktları) hüquq ədəbiyyatı səhifələrində beynəlxalq publik hüququn mənbələrindən biri kimi göstərilir. Belə ki, onlara bir sıra alim beynəlxalq publik hüququn yardımçı mənbəyi kimi baxır.[2] Bəzi müəlliflər isə beynəlxalq publik hüququn mənbələri haqqında danışarkən dövlətlərin birtərəfli hərəkəti (aktları) kimi mənbə növünün adını ümumiyyətlə çəkmirlər.[3]

Qeyd etməliyik ki, dövlətlərin birtərəfli aktlarının (hərəkətlərinin) beynəlxalq publik hüququn mənbəyi sayılması hüquq elmində mübahisəli məsələlərdən sayılır. Belə ki, bir qrup ali-

---

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.83-84.

[2] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.32; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.118.

[3] *Məsələn, bax:* Международное право. Учебник / Под ред. А.И.Микулшина, М., 2005, с.40; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.12-14; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.90; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 62-64 və s.

mə görə, dövlətlərin birtərəfli aktları (hərəkətləri) beynəlxalq hüquq norması yaratmır, çünki belə aktlarda (hərəkətlərdə) dövlətlərin razılığı ifadə olunmur. Beynəlxalq hüquq sahəsində mütəxəssis alimlərin əksəriyyəti məsələyə məhz bu cür yanaşırlar.

Bəzi alimlər isə, əksinə, belə hesab edirlər ki, dövlətlərin birtərəfli aktları (hərəkətləri) beynəlxalq publik hüquq norması yaratmaq qabiliyyətinə malik olduğundan beynəlxalq publik hüququn mənbəyi sayılır; beynəlxalq publik hüquq normasının yaranmasına dövlətlər susmaq yolu ilə razılıq verirlər.[1] Hesab edirik ki, söylənilmiş bu fikir həqiqətə daha yaxındır. Belə ki, dövlətlərin birtərəfli aktlarını (hərəkətlərini) beynəlxalq publik hüququn mənbəyi hesab etməyə əsas verən kifayət qədər dəlil və arqumentlər vardır. Şübhəsiz, dövlətlərin birtərəfli aktlarının (hərəkətlərinin) hamısını, istisnasız olaraq, beynəlxalq publik hüququn mənbəyi hesab etmək olmaz. Dövlətlərin yalnız elə birtərəfli aktları (hərəkətləri) beynəlxalq publik hüququn mənbəyi sayıla bilər ki, onlar **beynəlxalq-hüquqi nəticəyə,** yəni məcburi davranış qaydasının (beynəlxalq publik hüquq normasının) yaranmasına səbəb olsun. Məcburi davranış qaydası (beynəlxalq publik hüquq norması) yaratmaq dedikdə isə dövlətlər üçün qarşılıqlı beynəlxalq-hüquqi vəzifə (öhdəlik) və müvafiq hüquqların müəyyənləşdirilməsi başa düşülür. Məhz müəyyən edilmiş beynəlxalq-hüquqi vəzifə (öhdəlik) və hüquqlar həmin davranış qaydasının (beynəlxalq hüquq normasının) məzmununu təşkil edir. Məsələn, hər hansı dövlət birtərəfli qaydada özü üçün belə bir beynəlxalq-hüquqi vəzifə müəyyənləşdirir ki, nüvə silahının sınağını keçirməsin. Bununla bağlı olaraq, həmin dövlətlə başqa dövlətlər arasında qarşılıqlı beynəlxalq publik hüquq münasibəti yaranır; həmin münasibətə görə, öz üzərinə birtərəfli qaydada öhdəlik götürən dövlət belə bir beynəlxalq-hüquqi vəzifə (öhdəlik) daşıyır: nüvə sınağı keçirməmək. Yaranmış hüquq münasibətində iştirak edən qarşı

[1] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 99.

tərəfin (qalan dövlətlərin) belə hüququ vardır: nüvə silahı sınağının keçirilməməsini həmin dövlətdən tələb etmək. Göründüyü kimi, dövlətin birtərəfli hərəkəti (aktı) nəticəsində həm beynəlxalq-hüquqi vəzifə (öhdəlik), həm də hüquq yaranır. Bu isə o deməkdir ki, göstərilən halda dövlətlər üçün məcburi davranış qaydası (beynəlxalq publik hüquq norması) müəyyən edilmişdir. Dövlətlər həmin davranış qaydasının yaranmasına susmaq yolu ilə razılıq verirlər. Odur ki, dövlətlərin bu kimi birtərəfli hərəkətləri (aktları) beynəlxalq publik hüququn mənbəyi sayılır.

Dövlətin öz birtərəfli hərəkətini hansı formada ifadə etməsinə gəldikdə isə, qeyd etməliyik ki, belə formanın heç bir hüquqi əhəmiyyəti yoxdur. Başqa sözlə, dövlətin birtərəfli hərəkətinin ifadə formalarının məsələnin mahiyyətinə qətiyyən dəxli yoxdur. Odur ki, dövlət öz birtərəfli hərəkətini istənilən mümkün formada həyata keçirə bilər. Belə formalara aşağıdakılar aiddir: bəyanat, nota, bəyannamə, dövlət başçısının və xarici siyasət idarəsinin rəsmi çıxışı və s. Məsələn, hər hansı bir dövlət yeni dövlətin yaranmasını tanımaq barədə bəyanat verir. Belə halda tanıma aydın və açıq şəkildə ifadə olunur. Tanınma həm də konklyudent hərəkət[1] (konkret davranış aktı) etməklə həyata keçirilə bilər. Məsələn, diplomatik münasibətlər belə hərəkətlərə misal ola bilər.

Beləliklə, dövlətlərin bəzi birtərəfli aktları (hərəkətləri) müəyyən hallarda beynəlxalq-hüquqi vəzifə (öhdəlik) yaradır. İstənilən beynəlxalq publik hüquq normasının məzmunu isə, hər şeydən əvvəl, beynəlxalq-hüquqi vəzifədən (öhdəlikdən) ibarətdir.[2] Buna görə də, əgər dövlətin birtərəfli hərəkəti (aktı) beynəlxalq-hüquqi vəzifə (öhdəlik) müəyyənləşdirilməsinə səbəb olarsa, deməli, həmin hərəkət (akt) beynəlxalq publik hü-

[1] *Konklyudent hərəkət (latınca – concludo, ingiliscə – conclude acts) anlayışı barədə ətraflı bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.424.

[2] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 38.

quq norması yaradır. Dövlətin birtərəfli hərəkəti (aktı) yalnız onun özü üçün beynəlxalq-hüquqi vəzifə (öhdəlik) əmələ gətirir; başqa dövlətlər üçün o, beynəlxalq-hüquqi vəzifə (öhdəlik) yaratmır. Dövlətin birtərəfli hərəkəti (aktı) başqa dövlətlər üçün ancaq hüquq əmələ gətirir ki, bu hüquq dövlətin birtərəfli hərəkəti (aktı) ilə özü üçün müəyyənləşdirdiyi vəzifəyə uyğun gəlir. Deyilənlər belə bir fikir söyləməyə əsas verir ki, dövlətin birtərəfli hərəkəti (aktı) nəticəsində **sadə beynəlxalq (dövlətlərarası) hüquq münasibəti** əmələ gəlir (ona sadə beynəlxalq-öhdəlik hüquq münasibəti də deyilir). Sadə beynəlxalq (dövlətlərarası) hüquq münasibətinə görə, əvvəllərdə qeyd etdiyimiz kimi, tərəflərdən birinin üzərinə beynəlxalq-hüquqi vəzifə (öhdəlik) düşür, digər tərəf isə bu vəzifəyə uyğun gələn müvafiq hüquqa malik olur.

Birtərəfli hərəkəti (aktı) ilə dövlət öz üzərinə qoyduğu beynəlxalq-hüquqi vəzifəni (öhdəliyi) vicdanla (lazımınca) icra etməlidir. Əgər həmin dövlət bunu etməzsə, onun üçün beynəlxalq-hüquqi məsuliyyət yaranır. Ona görə ki, **birinci**, beynəlxalq hüquqa «beynəlxalq-hüquqi vəzifənin (öhdəliyin) vicdanla yerinə yetirilməsi» kimi **vacib prinsip** məlumdur; bu prinsipə görə, əgər dövlət öz üzərinə düşən beynəlxalq-hüquqi vəzifəni (öhdəliyi) yerinə yetirməzsə, beynəlxalq-hüquqi məsuliyyət daşıyır.

İkinci, dövlətin beynəlxalq-hüquqi məsuliyyət daşıması **estoppel** kimi anlayışdan irəli gəlir. Estoppel dedikdə elə bir norma başa düşülür ki, bu normaya görə, dövlət birtərəfli qaydada öz üzərinə hər hansı beynəlxalq-hüquqi öhdəlik (vəzifə) götürərsə, həmin öhdəlikdən (vəzifədən) kənara çıxa bilməz.[1] Əgər dövlət birtərəfli qaydada öz üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəlikdən (vəzifədən) imtina etmək istəsə, o, bunu əvvəlcədən rəsmi surətdə bildirməlidir.

[1] Estoppel həm də ikinci mənada işlədilir; bu mənada o, «beynəlxalq publik müqavilələr hüququ» kimi sahənin anlayışı hesab edilir.

Üçüncü, birtərəfli hərəkət (akt) ilə dövlətin öz üzərinə götürdüyü hər hansı beynəlxalq-hüquqi vəzifə (öhdəlik) bu və ya digər beynəlxalq publik hüquq normasının məzmununu təşkil edir. Beynəlxalq publik hüquq normasının pozulması isə beynəlxalq-hüquqi məsuliyyət üçün əsasdır;[1] bu zaman beynəlxalq-hüquqi vəzifəni (öhdəliyi) pozan dövlətə beynəlxalq-hüquqi məcburiyyət tədbirləri tətbiq olunur. İstənilən beynəlxalq-hüquqi vəzifəyə (öhdəliyə) əməl edilməsi beynəlxalq-hüquqi məcburiyyət tədbirləri ilə təmin olunur.

Bəzən, dövlət birtərəfli qaydada öz üzərinə hər hansı beynəlxalq öhdəlik (vəzifə) götürür. Beynəlxalq öhdəliyi (vəzifəni) beynəlxalq-hüquqi öhdəlikdən (vəzifədən) fərqləndirmək lazımdır. Beynəlxalq öhdəlik hüquqi xarakter daşımır. Belə ki, o, beynəlxalq publik hüquq norması müəyyənləşdirmir. Bu səbəbdən beynəlxalq öhdəliyin pozulması beynəlxalq-hüquqi məsuliyyətin yaranmasına və pozuntu törədən dövlətə beynəlxalq-hüquqi məcburiyyət tədbirlərinin tətbiq edilməsinə səbəb olmur.

Bu baxımdan**, beynəlxalq öhdəlik** dedikdə siyasi öhdəlik başa düşülür; siyasi öhdəlik isə mənəvi öhdəlik növlərindən biridir. Dövlət çox vaxt birtərəfli hərəkət (akt) ilə öz üzərinə mənəvi (siyasi) öhdəlik götürür; mənəvi (siyasi) öhdəlik hüquqi elementdən məhrumdur. Belə ki, mənəvi (siyasi) öhdəlik beynəlxalq-hüquqi vəzifə (öhdəlik) yaranmasına səbəb olmur. Buna görə də, dövlətin mənəvi (siyasi) öhdəlik müəyyənləşdirən birtərəfli hərəkətləri (aktları) beynəlxalq hüququn mənbəyi sayılmır.

Dövlətin birtərəfli hərəkətinin (aktının) əhəmiyyəti həm də bundan ibarətdir ki, belə hərəkətlər vasitəsilə bu və ya digər beynəlxalq-adət hüquq normasının tanınması və qəbul edilməsi təsdiqlənir, sübut olunur. Söhbət dövlətin milli (dövlətdaxili) hüquq kimi birtərəfli aktından (hərəkətindən) gedir. Qeyd et-

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 38.

məliyik ki, beynəlxalq məhkəmə orqanları müəyyən hallarda hər hansı beynəlxalq-adət hüquq normasının mövcudluğunu müəyyənləşdirmək üçün milli (dövlətdaxili) hüquqa müraciət edir. Milli (dövlətdaxili) hüquq beynəlxalq publik hüquq normalarının mövcud olmasını sübut edən vasitələrdən biridir.[1]

5.5. Beynəlxalq publik hüququn kodifikasiyası və inkişafı

5.5.1. Beynəlxalq publik hüququn kodifikasiyası

Qeyd etmək lazımdır ki, artıq çoxdan bəri qüvvədə olan və tətbiq edilən mövcud beynəlxalq publik hüquq normalarının (həm beynəlxalq-müqavilə, həm də beynəlxalq-adət hüquq normalarının) məzmununun dəqiq müəyyənləşdirilməsinə, onların aydın və dürüst formulə edilməsinə həmişə ehtiyac və zərurət olmuşdur. Məlum məsələdir ki, zaman keçdikcə beynəlxalq publik hüquq normaları köhnəlir, korroziyaya uğrayır. Belə halda, əlbəttə, köhnəlmiş normalara yenidən baxılmasına və onların dəyişdirilməsinə, yaxud yeni normalarla əvəz edilməsinə tələbat yaranır. Praktikada tətbiq edilməyən köhnəlmiş beynəlxalq publik hüquq normaları beynəlxalq normativ-hüquqi materialdan çıxarılmalı, tətbiq edilən beynəlxalq publik hüquq normaları arasında mövcud olan daxili ziddiyyət və uyğunsuzluqlar aradan qaldırılmalıdır. Bunlardan başqa, yeni beynəlxalq publik hüquq normaları yaradılmalıdır, çünki dövlətlərarası münasibətlər həmişə dinamik surətdə inkişaf edir və bunun nəticəsində beynəlxalq münasibətlərdə yeni-yeni sahələr yaranır. Təbii ki, həmin sahələri tənzimləməkdən ötrü yeni beynəlxalq publik hüquq normaları yaradılmalıdır. Digər tərəfdən, qüvvədə olan beynəlxalq publik hüquq normaları təkmilləşdirilməli və inkişaf etdirilməlidir; əks halda beynəlxalq hüquq inkişaf edə bilməz. Bildiyimiz kimi, elə beynəlxalq mü-

[1] Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005, с.69.

nasibətlər vardır ki, onları tənzimləyən müvafiq beynəlxalq publik hüquq normaları mövcud deyildir. Belə hal isə beynəlxalq hüquqda boşluğun (hüquqi boşluğun) mövcud olmasından xəbər verir; şübhəsiz, beynəlxalq-hüquqi boşluq aradan qaldırılmalıdır.

Göstərdiyimiz məsələləri həll etmək üçün qüvvədə olan beynəlxalq publik hüquq normaları qaydaya salınmalıdır, yəni sistemləşdirilməlidir. Bu prosesə beynəlxalq-hüquqi sənədlərdə və hüquq doktrinasında (elmində) beynəlxalq publik hüququn kodifikasiyası deyilir.

Beynəlxalq publik hüququn kodifikasiyası dedikdə dövlətlərarası münasibətləri tənzimləyən beynəlxalq publik hüquq normalarının sistem halına salınması (sistemləşdirilməsi) başa düşülür.

Beynəlxalq publik hüququn kodifikasiyasının böyük əhəmiyyəti vardır. Belə ki, o, beynəlxalq-hüquqi yaradıcılıq prosesinin bir hissəsi deməkdir. Beynəlxalq publik hüququn kodifikasiyası beynəlxalq-hüquqi əhəmiyyəti olan elə bir prosesdir ki, onun sayəsində beynəlxalq-hüquqi adətlər yazılı formada qeyd olunur, beynəlxalq publik hüquqdakı boşluqlar doldurulur, beynəlxalq publik hüquq normaları arasında mövcud olan ziddiyyətlər, hüquqi alqoritm və hüquqi nihilizm təzahürləri aradan qaldırılır, köhnəlmiş və praktikada tətbiq edilməyən normalar normativ-hüquqi materialdan çıxarılır, yeni normalar yaradılır, qüvvədə olan normaların dəqiq məzmunu müəyyənləşdirilir, onlar konkret və aydın şəkildə formulə olunur. Nəticədə beynəlxalq publik hüquq təkmilləşir və inkişaf edir.

Beynəlxalq publik hüququn kodifikasiyasının əhəmiyyəti həm də bundan ibarətdir ki, o, qüvvədə olan beynəlxalq publik hüquq normalarından dövlətlərin və dövlətlərarası münasibətlərin digər iştirakçılarının istifadə etmələrini asanlaşdırır, onların praktikada rahat və eyni qaydada tətbiqini təmin edir. Aydın məsələdir ki, beynəlxalq publik hüquq normalarının sistemləşdirilməməsi onlardan istifadəni xeyli dərəcədə çətinləşdirərdi.

Hüquqi əhəmiyyətə malik olmasını nəzərə alaraq, BMT-nin Nizamnaməsi beynəlxalq publik hüququn kodifikasiyasını, yəni beynəlxalq-hüquqi kodifikasiyanı vacib və aktual vəzifə kimi müəyyənləşdirir. Belə ki, BMT Nizamnaməsinin 13-cü maddəsi BMT Baş Assambleyasının üzərinə beynəlxalq publik hüququn kodifikasiyasına yardım etmək kimi mühüm vəzifə qoyur; bu vəzifəni həm də BMT Baş Assambleyasının yardımçı orqanı olan Beynəlxalq Hüquq Komissiyası (1947-ci il) daşıyır.

Beynəlxalq-hüquqi kodifikasiya nəticəsində beynəlxalq publik hüquq normaları vahid beynəlxalq-hüquqi aktda birləşir; ona **beynəlxalq-hüquqi kodifikasiya aktı** deyilir (məsələn, kodifikasiya konvensiyası, kodifikasiya məcəlləsi və s.).

Beynəlxalq hüquq ədəbiyyatında beynəlxalq-hüquqi kodifikasiyanın **iki növü** fərqləndirilir:

– rəsmi beynəlxalq-hüquqi kodifikasiya;
– doktrinal beynəlxalq-hüquqi kodifikasiya.

Rəsmi beynəlxalq-hüquqi kodifikasiya dedikdə dövlətlər və ya dövlətlərarası beynəlxalq təşkilatlar tərəfindən beynəlxalq səviyyədə rəsmi həyata keçirilən kodifikasiya başa düşülür; beynəlxalq-hüquqi kodifikasiyanın bu növü, ilk növbədə, dövlətlər tərəfindən rəsmi səviyyədə həyata keçirilir. Bundan ötrü xüsusi beynəlxalq konfrans və ya konqres çağrılır. Əvvəllər rəsmi kodifikasiya işi məhz konqres və konfranslar vasitəsi ilə görülmüşdür. Məsələn, Vyana Konqresi (1814–1815-ci illər), Paris Konqresi (1856-cı il), Haaqa konfransları (1899-cu il; 1907-ci il) və s.[1]

Rəsmi beynəlxalq-hüquqi kodifikasiya XX əsrdən etibarən, əsasən, dövlətlərarası beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilməyə başlamışdır. Rəsmi kodifikasiya işinin yerinə yetirilməsində BMT kimi universal dövlətlərarası beynəlxalq təşkilatın, habelə onun ixtisaslaşmış təşkilat və digər yardımçı orqanlarının rolu, xüsusilə, qeyd edilməlidir; bu qurum həmin işin görülməsində xüsusi yer tutur. Belə ki, BMT çərçivəsində

[1] *Bu barədə daha ətraflı:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 46-51.

Beynəlxalq Hüquq Komissiyası (BHK) fəaliyyət göstərir. BHK 1947-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən yaradılmışdır; o, Baş Assambleya tərəfindən 5 illik müddətə seçilən 34 üzvdən ibarətdir[1]. BHK çoxsaylı beynəlxalq konvensiyaların (kodifikasiya konvensiyalarının) qəbul edilməsində vacib rol oynamışdır. Belə konvensiyalara aiddir: Dəniz hüququna dair Cenevrə konvensiyaları (1958-ci il),[2] Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası (1961-ci il), Konsulluq münasibətləri haqqında Vyana Konvensiyası (1963-cü il) və s.

Rəsmi beynəlxalq-hüquqi kodifikasiya işi, bir qayda olaraq, **beynəlxalq müqavilə vasitəsi ilə** yerinə yetirilir. Buna görə beynəlxalq müqavilə rəsmi kodifikasiya işinin əsas və başlıca hüquqi forması sayılır. Əgər beynəlxalq publik hüquq normaları beynəlxalq müqavilələrdə birləşdirilərək sistem halına salınarsa, bu rəsmi beynəlxalq-hüquqi kodifikasiya adlanır.

Doktrinal beynəlxalq-hüquqi kodifikasiya dedikdə qeyri-rəsmi səviyyədə həyata keçirilən kodifikasiya başa düşülür; ona həm də **qeyri-rəsmi beynəlxalq-hüquqi kodifikasiya** deyilir. Kodifikasiyanın bu növü aşağıdakılar tərəfindən həyata keçirilir:

- ayrı-ayrı alimlər;
- müxtəlif növ ictimai təşkilatlar;
- milli institutlar;
- qeyri-hökumət beynəlxalq təşkilatları və s.[3]

Qeyri-rəsmi (doktrinal) kodifikasiya işinin görülməsində qeyri-hökumət beynəlxalq təşkilatları, xüsusilə, vacib rol oynayır. Söhbət, ilk növbədə, aşağıda göstərilən iki təşkilatdan gedir:

---

[1] Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004, с.58.

[2] URL:http://www.Jurisprudence.Club (20.04.2018-ci il).

[3] Beynəlxalq hüquq dərsliklərində belə bir fikir söylənilir ki, guya beynəlxalq-hüquqi kodifikasiya beynəlxalq hüququn subyektləri tərəfindən və rəsmi səviyyədə həyata keçirilir *(bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 44; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.135).

– Beynəlxalq Hüquq Assosiasiyası;

– Amerika Beynəlxalq Hüquq İnstitutu.

Hər iki təşkilat 1873-cü ildən fəaliyyət göstərir; onların fəaliyyəti beynəlxalq hüququn kodifikasiya prosesinə vacib təsir göstərmişdir. Bu təşkilatlar beynəlxalq münasibətlərin ayrı-ayrı sahələrini tənzimləyən bir sıra konvensiya layihələrinin hazırlanmasında yaxından iştirak etmiş, müəyyən tədqiqatlar aparmışlar.

Qeyri-rəsmi beynəlxalq-hüquqi kodifikasiya işinə, əsasən, XIX əsrdə başlanılmışdır. Məsələn, avstriyalı hüquqşünas A.Domin-Petruşeviç 1861-ci ildə «Qısa beynəlxalq hüquq Məcəlləsi» adlı külliyyat nəşr etdirmişdir; 1863-cü ildə Kolumbiya kollecinin professoru F.Liber «Müharibə qanunları»nın layihəsini tərtib etmişdir; 1868-ci ildə İsveçrə hüquqşünası (beynəlxalq hüquq üzrə mütəxəssis) Blyunçli «Sivil xalqların müasir beynəlxalq hüququ» adlı elmi işini çap etdirmişdir (o, «Blyunçli Məcəlləsi» adı ilə tanınır və sözügedən həmin elmi iş qeyri-rəsmi səviyyədə məcəllə formasında beynəlxalq hüququn kodifikasiyasını həyata keçirmişdir) və s.[1]

5.5.2. Beynəlxalq publik hüququn proqressiv inkişafı

Beynəlxalq publik hüququn kodifikasiyası və beynəlxalq publik hüququn proqressiv inkişafı bir-biri ilə sıx surətdə bağlı olan proseslərdir. Buna görə də, həmin prosesləri bir-birindən ayırmaq olmaz. Belə ki, beynəlxalq-hüquqi kodifikasiya prosesi mütləq beynəlxalq publik hüququn proqressiv inkişafı ilə müşayiət olunur.[2] Təsadüfi deyil ki, beynəlxalq publik hüququn kodifikasiyasının həyata keçirilməsi onun proqressiv inkişafı

[1] *Daha ətraflı:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.51-52; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.119 və b.

[2] URL:http://www.bibliotekar.ru (01.05.2018-ci il).

olmadan qeyri-mümkündür. Odur ki, BMT Nizamnaməsinin 13-cü maddəsi nəinki beynəlxalq publik hüququn kodifikasiyasını, həmçinin onun proqressiv inkişafını aktual vəzifə kimi müəyyənləşdirir. Bu maddə BMT Baş Assambleyasının üzərinə belə bir vəzifə qoyur ki, o, həm beynəlxalq publik hüququn kodifikasiyasına, həm də beynəlxalq publik hüququn proqressiv inkişafına yardım etməlidir.

Beynəlxalq publik hüququn proqressiv inkişafının anlayışı BMT Baş Assambleyasının yardımçı orqanı olan Beynəlxalq Hüquq Komissiyasının əsasnaməsində verilmişdir. Həmin əsasnaməyə görə, **beynəlxalq publik hüququn proqressiv inkişafı** dedikdə beynəlxalq hüquqla hələ tənzimlənməyən və ya dövlətlərarası praktikada barəsində hüququn kifayət qədər inkişaf etmədiyi mövcud məsələlər üzrə konvensiya layihələrinin hazırlanması başa düşülür. Beynəlxalq-hüquqi kodifikasiya və beynəlxalq publik hüququn proqressiv inkişafı hüquqi məzmun baxımından, bir-birinə nə qədər yaxın anlayışlar olsalar da, onları bir-birindən fərqləndirmək lazımdır. Belə ki, beynəlxalq publik hüququn proqressiv inkişafı yeni, daha mütərəqqi beynəlxalq publik hüquq normalarının işlənib hazırlanmasını nəzərdə tutur. Beynəlxalq-hüquqi kodifikasiya isə artıq dövlətlərarası praktikada tətbiq edilən mövcud beynəlxalq publik hüquq normalarının sistemləşdirilməsi və onların daha dəqiq formulə edilməsidir. Təsadüfi deyil ki, BHK-nın əsasnaməsində (15-ci maddə) beynəlxalq-hüquqi kodifikasiyaya belə anlayış verilir: kodifikasiya dövlətlərin praktikası, presedent və doktrina ilə müəyyənləşdirilən normaların olduğu sahələrdə hüququn sistemləşdirilməsi və daha dəqiq formulə edilməsidir.

V MÖVZU ÜZRƏ ƏYANİ SXEM



V FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s.106.
2. Beynəlxalq hüquq. Azərbaycan dilində / Məsul redaktor və tərcüməçi – R.F.Məmmədov. Bakı, 2002 (III fəsil).
3. Əliyev E.Ə., Hüseynova F.E. Beynəlxalq hüququn mənbələri: anlayışı və ümumi xarakteristikası. Bakı, 2017, 96 s.
4. Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı, 2004, 208 s.
5. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008 (III fəsil).
6. Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2005 (гл.2).
7. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 (гл 1, § 2; гл.3).
8. Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл.4).
9. Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009 (гл.3).
10. Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007 (гл. 4).
11. Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009 (гл.5).
12. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.3).
13. Международное право. Учебник/ Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл.5).
14. Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005 (гл. 3).
15. Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008 (гл.1, § 2).
16. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл. 1, § 2, § 4).
17. Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004 (гл. 3).

VI FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN PRİNSİPLƏRİ

6.1. Beynəlxalq publik hüququn prinsiplərinin anlayışı və sistemi

6.1.1. Beynəlxalq publik hüququn prinsipləri anlayışı

Beynəlxalq publik hüquqda, ilk növbədə, **hüququn ümumi prinsipləri** tətbiq edilir. Əvvəllər qeyd etdiyimiz kimi, hüququn ümumi prinsipləri dedikdə həm milli (dövlətdaxili) hüquq sistemləri, həm də beynəlxalq publik hüquq sistemi üçün eyni olan prinsiplər başa düşülür (ədalət prinsipi, qanunçuluq prinsipi, təqsirə görə məsuliyyət prinsipi, vicdanlı olmaq prinsipi, insan hüquqlarını qorumaq prinsipi, hüquqdan sui-istifadə etməmək prinsipi, azadlıq prinsipi, demokratizm prinsipi, hüququn aliliyi prinsipi və s.).

Hüququn ümumi prinsipləri ya beynəlxalq müqavilələrdə, ya da dövlətlərin daxili (milli) qanunvericiliyində təsbit olunaraq formulə edilir və yaxud onlar beynəlxalq publik hüququn, eləcə də dövlətdaxili (milli) hüquq sistemlərinin mahiyyətindən irəli gəlir. Buna görə də, hüququn ümumi prinsipləri həm dövlətdaxili (milli) hüquq sistemlərində, həm də beynəlxalq publik hüquq sistemində tətbiq olunur.

Qeyd etməliyik ki, hüququn ümumi prinsipləri alimlər arasında diskussiya doğuran məsələdir. Qərb ölkələrinin beynəlxalq hüquq elmində hüququn ümumi prinsiplərinə iki cür yanaşma mövcuddur. Bir sıra alimin fikrincə, hüququn ümumi prinsipləri dedikdə dövlətdaxili (milli) hüquq sistemləri üçün ümumi olan prinsiplər, habelə beynəlxalq publik hüququn prinsipləri başa düşülür. Digər Qərb alimləri isə belə hesab edirlər ki, hüququn ümumi prinsipləri bütün dövlətlərin daxili hüquq sistemləri (hüquq qaydaları) üçün ümumi olan prinsiplərdir.

Sovet dövrünün bəzi müəlliflərinə görə (məsələn, V.M.Koretski, F.İ.Kojevnikov və b.), hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn əsas prinsipləridir.

Bəzi müəlliflər (məsələn, Q.İ.Tunkin və b.) hesab edirlər ki, hüququn ümumi prinsipləri dedikdə hüquqi aksiomlar, hüquqi postulatlar, hüquqi-məntiqi və hüquqi-texniki qaydalar başa düşülür; onların çoxu Roma hüququndan qaynaqlanır. Bu səbəbdən beynəlxalq publik hüquqda tətbiq edilən ümumi-hüquqi prinsiplərə həmin müəlliflər tərəfindən aşağıdakılar aid edilir:[1]

- **«lex prospicit non respicit»** («qanunun geriyə qüvvəsi yoxdur»);
- «**nemo in alium potest transferre plus juris quam ipse habet»** («heç kəs başqasına özünün malik olduğundan çox hüquq verə bilməz»);
- **«res judicata»** («məhkəmə tərəfindən qəti olaraq həll olunmuş işə həmin məhkəmə və ya paralel yurisdiksiya məhkəməsi tərəfindən yenidən baxıla bilməz»);
- **«non bis in idem»** («eyni əmələ görə şəxsi iki dəfə məsuliyyətə cəlb etmək olmaz»);
- **«audiatur et altera pars»** («ikinci tərəf də dinlənilməlidir»);
- **«nullum crimen sine lege»** («qanunda nəzərdə tutulmayan cinayət yoxdur»).

Düzdür, göstərilənlərin hamısı beynəlxalq publik hüquqda tətbiq olunur. Lakin onları konkret "hüquqi prinsip" anlayışı kimi deyil, "hüququn ümumi prinsipləri" anlayışı kimi qəbul etmək lazımdır. Ona görə ki, hüquqi prinsiplər hüquq normalarında təsbit olunur. Digər tərəfdən, hüquqi prinsiplər sosial ha-

[1] Курс международного права. Том 1. М., 1989, с.210, 211; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.139; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.82.

disə olan hüququn mahiyyətini müəyyənləşdirir. Yuxarıda sadalananlar isə hüquqi postulat, hüquqi aksiom, hüquqi-məntiqi və hüquqi-texniki qaydalar olub, hüququn ümumi prinsiplərini xarakterizə edən əlamətlərə cavab verirlər.

Qeyd etməliyik ki, hüququn ümumi prinsiplərinin beynəlxalq publik hüquqda tətbiq olunmasının səbəbi onların beynəlxalq publik hüququn mənbəyi kimi tanınmasından ibarətdir. Belə ki, məlum olduğu kimi, BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi hüququn ümumi prinsiplərini beynəlxalq publik hüququn mənbələri sırasına aid edir. Hüquq doktrinası da onlara beynəlxalq publik hüququn əsas mənbə növlərindən biri kimi yanaşır;[1] həm də hüququn ümumi prinsipləri müstəqil əhəmiyyətə malik olan mənbə növüdür.

Hüququn ümumi prinsiplərinin beynəlxalq publik hüquqda tətbiq olunması bununla təsdiqlənir ki, BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən bir sıra halda bu və ya digər beynəlxalq-hüquqi məsələnin həlli barədə qərar çıxarılarkən məhz hüququn ümumi prinsiplərindən istifadə olunmuş, onlara istinad edilmişdir; təsadüfi deyil ki, onlar BMT Beynəlxalq Məhkəməsinin qəbul etdiyi bəzi qərarların əsasını təşkil edir. Hətta «hüququn ümumi prinsipləri» termininin özü XIX əsr beynəlxalq məhkəmə (arbitraj) praktikasından yaranmışdır. Belə ki, o dövrün məhkəmə praktikası hüququn ümumi prinsiplərini geniş səviyyədə tətbiq etmişdir.

Hüququn ümumi prinsipləri Avropa İttifaqı Məhkəməsinin praktikasında daha geniş şəkildə tətbiq olunur. Qeyd etmək lazımdır ki, o, qərar qəbul edən zaman hüququn ümumi prinsiplərinə kifayət qədər tez-tez müraciət edir.

Beynəlxalq publik hüquqda hüququn ümumi prinsiplərindən başqa, həm də onun özünəməxsus prinsipləri tətbiq edilir ki,

[1] Bəzi müəlliflər isə hüququn ümumi prinsiplərinə beynəlxalq publik hüququn əsas mənbəyi kimi baxmırlar. Onlar belə bir fikir söyləyirlər ki, guya hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn əsas mənbələrinə münasibətdə ikinci dərəcəlidir *(məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.81).

onlara beynəlxalq publik hüququn prinsipləri deyilir. Beynəlxalq publik hüququn prinsipləri dövlətlərarası münasibətlərin tənzimlənməsində böyük rol oynayır. Beynəlxalq publik hüquq, necə deyərlər, məhz həmin prinsiplər əsasında qurulur, formalaşır və öz funksiyasını yerinə yetirir.

Beynəlxalq publik hüququn prinsipləri dedikdə beynəlxalq publik hüquq normalarında ifadə edilən elə rəhbər başlanğıclar və əsas ideyalar başa düşülür ki, həmin başlanğıc və ideyalar beynəlxalq publik hüququn məzmununu xarakterizə edir.

Beynəlxalq publik hüququn prinsipləri özündə beynəlxalq publik hüququn ən xarakterik cəhətlərini akkumulyasiya edərək onun hüquqi təbiətini və xarakterini müəyyənləşdirir; onlar hüquq normalarında əks olunmaqla bütövlükdə beynəlxalq publik hüququn təməli və əsası sayılır. Odur ki, beynəlxalq publik hüququn prinsipləri dövlətlərarası münasibətlərin tənzimlənməsi, eləcə də beynəlxalq publik hüquq praktikası üçün həlledici əhəmiyyətə malikdir. Nəzərə almalıyıq ki, beynəlxalq publik hüququn tələblərini dəqiq və düzgün yerinə yetirməkdən ötrü, hər şeydən əvvəl, beynəlxalq publik hüququn prinsiplərini həyata keçirmək lazımdır. Buna görə də, konkret beynəlxalq-hüquqi məsələləri həll edən zaman və dövlətlərarası münasibətləri tənzimləyərkən, ilk növbədə, beynəlxalq publik hüququn prinsipləri rəhbər tutulmalıdır. Bu, beynəlxalq publik hüquq normalarının dövlətlərarası beynəlxalq praktikada düzgün tətbiq edilməsinin, əsaslı və qanuni beynəlxalq qərarlar qəbul olunmasının özəyi, vacib şərtidir.

6.1.2. Beynəlxalq publik hüququn prinsiplərinin sistemi

Beynəlxalq publik hüququn prinsipləri geniş və ümumiləşdirilmiş anlayışdır. Belə ki, həmin anlayış özündə **üç növ prinsipi** birləşdirir. Söhbət aşağıdakı prinsiplərdən gedir:

– beynəlxalq publik hüququn əsas prinsipləri;

– beynəlxalq publik hüququn sahəvi prinsipləri;

– beynəlxalq publik hüququn sahədaxili prinsipləri.

Göstərilən prinsiplərdən dövlətlərarası beynəlxalq praktikada geniş istifadə olunur. Ona görə ki, hər üç növ prinsip beynəlxalq publik hüquq sistemi çərçivəsində mövcud olan prinsiplərdir. Bir-birinə yaxın olsalar da, onların beynəlxalq publik hüquq sistemində tutduqları yer və oynadıqları rol eyni deyildir və onlar bir-birindən həm də öz xarakter və təbiəti ilə fərqlənir. Bu səbəbdən «beynəlxalq publik hüququn əsas prinsipləri», «beynəlxalq publik hüququn sahəvi prinsipləri» və «beynəlxalq publik hüququn sahədaxili prinsipləri» kimi üç anlayış tam üst-üstə düşmür. Onlar, birinci – **təyinatına,** ikinci – **məzmununa,** üçüncü – **tətbiq sferasına** görə bir-birindən fərqlənirlər. Lakin, bunlara baxmayaraq, beynəlxalq publik hüququn prinsipləri eyni və ümumi **məqsədə**, yəni dövlətlərarası münasibətləri tənzimləmək məqsədinə xidmət edirlər. Bu isə, qeyd etdiyimiz kimi, beynəlxalq publik hüququn əsas və başlıca funksiyası (vəzifəsi) sayılır.

Beynəlxalq publik hüququn əsas prinsipləri dedikdə bütövlükdə beynəlxalq publik hüquq sisteminin stabil və effektiv fəaliyyət göstərməsinin təminə yönəlmiş ümumi fundamental prinsiplər başa düşülür[1]. Buna görə də, onlar beynəlxalq publik hüquq sisteminə daxil olan bütün müstəqil hüquq sahələrində (məsələn, xarici əlaqələr hüququ, beynəlxalq kosmos hüququ, beynəlxalq iqtisadi hüquq və s.) tətbiq edilir. Misal üçün, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi və ya dövlətlərin süveren bərabərliyi prinsipi və s. beynəlxalq publik hüququn əsas prinsipləri sırasına daxildir.

Beynəlxalq publik hüququn sahəvi prinsipləri dedikdə beynəlxalq publik hüquq sisteminə daxil edilən konkret hüquq sahələrinə aid və xas olan prinsiplər başa düşülür; onlar yalnız məxsus olduğu konkret hüquq sahələrində tətbiq edilir. Əgər beynəlxalq publik hüququn əsas prinsipləri dövlətlərarası mü-

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с. 59.

nasibətlərin bütün sahələrində tətbiq olunursa, beynəlxalq publik hüququn sahəvi prinsiplərindən ancaq dövlətlərarası münasibətlərin ayrı-ayrı növlərində, bu və ya digər konkret istiqamətdə istifadə edilir. Məsələn, iqtisadi sfera dövlətlərarası münasibətlərin müstəqil sahələrindən (növlərindən) biridir və bu sahədə, yəni dövlətlərarası iqtisadi münasibətlər sferasında milli rejim, ən əlverişli şərait yaratmaq, qarşılıqlı fayda, iqtisadi cəhətdən diskriminasiya etməmək və s. prinsiplər tətbiq edilir. Buna görə də, onlar beynəlxalq publik hüququn sahəvi prinsiplərinə aiddir; həm də ona görə ki, onlar beynəlxalq publik hüquq sisteminin konkret, müstəqil hüquq sahələrindən biri olan beynəlxalq publik iqtisadi hüquqa xas və aiddir. Başqa bir misal çəkək: diplomatik nümayəndələrin toxunulmazlığı prinsipi xarici publik əlaqələr hüququna məxsusdur; xarici əlaqələr hüququ isə beynəlxalq publik hüquq sisteminə daxil olan konkret, müstəqil hüquq sahələrindən biridir. Buna görə də, həmin prinsip beynəlxalq publik hüququn sahəvi prinsipi sayılır; həm də ona görə ki, diplomatik nümayəndələrin toxunulmazlığı prinsipi dövlətlərarası münasibətlərin yalnız bir sahəsində, yəni xarici əlaqələr sferasında tətbiq edilir.

Qeyd etməliyik ki, beynəlxalq publik hüququn hər bir konkret müstəqil hüquq sahəsinin özünəməxsus prinsipləri vardır. Əvvəllərdə qeyd etdiyimiz kimi, belə prinsiplər beynəlxalq publik hüququn tərkibində ayrı-ayrı konkret, müstəqil hüquq sahələrinin ayrılmasını şərtləndirən meyarlardan biridir;[1] onlar mövcud olmazsa, təbii ki, bu və ya digər hüquqi qurum beynəlxalq publik hüququn tərkibində müstəqil hüquq sahəsi kimi tanına bilməz.

Beynəlxalq publik hüququn sahəvi prinsipləri, xüsusi olaraq, onun ayrı-ayrı müstəqil və konkret sahələrinin (məsələn, beynəlxalq müqavilələr hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq dəniz hüququ, beynəlxalq iqtisadi hüquq və s.) məzmununu xarakterizə etmək məqsədinə xidmət edir. Bu baxım-

[1] Фельдман Д.И. Система международного права. Казань, 1983, с.46-47.

dan, onlara beynəlxalq publik hüququn xüsusi prinsipləri də deyilir.[1] Beynəlxalq publik hüququn sahəvi prinsipləri bu və ya digər müstəqil hüquq sahəsində (məsələn, xarici əlaqələr hüququ, beynəlxalq cinayət hüququ və s.) subyektlərin fəaliyyətinin hüquqi əsasını təşkil edir.

Beynəlxalq publik hüququn əsas prinsipləri onun tərkibinə daxil olan bütün hüquq sahələrində istifadə edildiyi üçün ümumi əhəmiyyətə malik olub, ümumi xarakter daşıyır. Buna görə də, onlara **beynəlxalq publik hüququn ümumi prinsipləri** də deyilir. Beynəlxalq publik hüququn ümumi prinsiplərinə münasibətdə onun sahəvi prinsipləri xüsusi xarakterə malikdir. Odur ki, sahəvi prinsiplər həm də **beynəlxalq publik hüququn xüsusi prinsipləri** adlanır. Qeyd etmək vacibdir ki, fəlsəfi baxımdan, «beynəlxalq publik hüququn ümumi (əsas) prinsipləri» və «beynəlxalq publik hüququn xüsusi (sahəvi) prinsipləri» arasında mövcud olan əlaqə «ümumi» və «təkcə» kimi fəlsəfi kateqoriyalar arasındakı münasibətin eynidir.

Beynəlxalq publik hüququn sahəvi (xüsusi) prinsipləri onun əsas (ümumi) prinsiplərini daha da konkretləşdirir. Buna görə də, onlar beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin məntiqi davamı hesab edilir.

Beynəlxalq publik hüququn sahədaxili prinsipləri dedikdə onun bu və ya digər sahəsinə aid olan hər hansı yarımsahənin və yaxud institutun məzmununu xarakterizə edən prinsiplər başa düşülür. Bildiyimiz kimi, beynəlxalq publik hüququn müstəqil sahələri ayrı-ayrı yarımsahələrə, onlar da, öz növbəsində, müxtəlif hüquq institutlarına bölünür. Əgər hər hansı prinsip həmin yarımsahələrə və ya institutlara aid olarsa, o, beynəlxalq publik hüququn sahədaxili prinsipi hesab edilir. Məsələn, beynəlxalq publik hüququn müstəqil sahələrindən biri olan

[1] *Məsələn, bax:* Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.45; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.30; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.65; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.36.

beynəlxalq publik iqtisadi hüququn tərkibində beynəlxalq ticarət hüququ kimi yarımsahə ayrılır. Beynəlxalq ticarət hüququnun isə bir sıra özünəməxsus prinsipi vardır: ticarət azadlığı prinsipi, milli bazarın qorunması prinsipi, liberallaşdırma prinsipi və s. Göstərilən prinsiplər beynəlxalq publik hüququn sahədaxili prinsipləri sayılır.

Beynəlxalq publik hüququn sahədaxili prinsipləri həm də onun öz institutlarına xas olan prinsiplərdir. Məsələn, beynəlxalq hüquq subyektliyi beynəlxalq publik hüququn institutlarından biridir və həmin instituta «dövlət immuniteti» kimi prinsip xasdır. Deməli, o, beynəlxalq publik hüququn sahədaxili prinsipidir.

Beynəlxalq publik hüququn sahədaxili prinsipləri ayrı-ayrı yarımsahələr və ya institutlar çərçivəsində tətbiq olunur; onlar hər hansı yarımsahənin və ya institutun mövcud olmasını şərtləndirən vacib əlamət, zəruri meyardır.

Beləliklə, beynəlxalq publik hüququn prinsipləri öz hüquqi təbiətinə görə **üçpilləlidir** (beynəlxalq publik hüququn əsas prinsipləri, beynəlxalq publik hüququn sahəvi prinsipləri, beynəlxalq publik hüququn sahədaxili prinsipləri).[1] Yuxarı pillədə beynəlxalq publik hüququn əsas (ümumi), orta pillədə sahəvi (xüsusi), aşağı pillədə isə sahədaxili prinsipləri durur. Həmin prinsiplər arasında **iyerarxiya qaydası** mövcuddur. İyerarxiya qaydasına görə, beynəlxalq publik hüququn aşağı pillədə duran prinsipləri özündən yuxarı pillədə yerləşən prinsiplərə zidd olmamalı, onlara uyğun gəlməlidir. Belə ki, beynəlxalq publik hüququn prinsiplərinin səviyyəsi onların hüquqi qüvvəsi baxımından, eyni deyildir: yuxarı pillədə duran prinsiplərin özündən aşağı pillədə yerləşən prinsiplərə nisbətən daha yüksək hüquqi qüvvəsi vardır. Bütün bunlar onu göstərir ki, beynəlxalq

[1] Bəzi müəlliflər belə bir fikir yürüdürlər ki, guya beynəlxalq publik hüququn prinsipləri dedikdə onun əsas prinsipləri başa düşülür *(məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.130).

publik hüquq öz prinsiplərinin **üçpilləli iyerarxiyası** ilə xarakterizə olunur.

Beynəlxalq publik hüququn prinsipləri sistem halında birləşərək bir-birilə sıx bağlıdır. Buna görə də, onlar ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş şəkildə mövcud ola bilməz.

6.2. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin anlayışı və xüsusiyyətləri

6.2.1. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsipləri anlayışı

Beynəlxalq publik hüququn prinsipləri iyerarxiyasında və sistemində onun əsas (ümumi) prinsipləri mühüm rol oynayır, vacib yer tutur. Bu prinsiplər beynəlxalq publik hüququn başlıca məzmununu müəyyənləşdirir.[1] Təsadüfi deyil ki, onlar beynəlxalq publik hüququn, necə deyərlər, **«konstitusiyası»** hesab edilir. Bu prinsiplərin nəinki hüquqi, həmçinin xüsusi siyasi və mənəvi qüvvəsi vardır. Odur ki, onları diplomatik praktikada, adətən, «**beynəlxalq münasibətlərin prinsipləri**» adlandırırlar.[2]

Beynəlxalq publik hüququn əsas prinsipləri hüquq doktrinasında, beynəlxalq publik hüquq dərsliklərində müxtəlif cür adlandırılır. Hər şeydən əvvəl, qeyd edək ki, Qərb hüquq ədəbiyyatı səhifələrində beynəlxalq publik hüququn əsas prinsiplərini ifadə etmək üçün bir-birindən fərqli adlara rast gəlirik:[3] məsələn, «beynəlxalq hüququn öz subyektlərinin davranışını tənzimləyən ümumi prinsipləri» (uruqvaylı alim E.X. De Areça-

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.121.
[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.35.
[3] *Bu barədə bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.94.

qa),[1] «beynəlxalq hüququn ümumi prinsipləri» (ispaniyalı hüquqşünas A.R. Karrion, rusiyalı alim B.M.Şumilov), «beynəlxalq münasibətləri tənzimləyən fundamental prinsiplər» (italiyalı hüquqşünas A.Kassese), «müasir beynəlxalq hüququn konstitusion prinsipləri» (ispaniyalı hüquqşünas M.D. De Velasko) və s.

Rusiya beynəlxalq publik hüquq elmində beynəlxalq hüququn əsas prinsiplərini ifadə etmək üçün, bəzən, «beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri» və ya «beynəlxalq hüququn ümumtanınmış prinsipləri» kimi termindən də istifadə olunur.[2] BMT Beynəlxalq Məhkəməsinin mövqeyinə görə, beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş (ümumtanınmış) prinsipləri elə beynəlxalq hüququn əsas prinsiplərinin özüdür. Azərbaycan Respublikasının, Rusiya Federasiyasının və digər ölkələrin qanunvericiliyində məhz «beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri» terminindən istifadə edilir. Həmin ölkələrin konstitusiyalarında göstərilir ki, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri onların qanunvericilik sisteminin (hüquq sisteminin) tərkib hissəsidir. Şübhəsiz, burada «beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri» adı altında «beynəlxalq hüququn əsas prinsipləri» nəzərdə tutulmuşdur.

Qərb ölkələrində yazılan beynəlxalq publik hüquq kurslarında «beynəlxalq hüququn əsas prinsipləri» və «beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri» bir-biri ilə üst-üstə düşən, eynimənalı terminlər kimi işlədilmir. Həmin kurslarda «beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri» termindən daha geniş mənada istifadə olunur. Belə ki, bu terminlə beynəlxalq publik hüququn həm əsas, həm də sahəvi prinsipləri əhatə olunur.[3] Başqa sözlə, Qərb hüquq ədəbiyyatın-

[1] Аречага Э. Современное международное право / Пер. с исп. М., 1983, с.135.
[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.65.
[3] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.107.

da beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə onun həm əsas, həm də sahəvi prinsipləri daxildir. Rusiyada beynəlxalq hüquqa dair yazılan bəzi dərsliklərdə də bu cür fikir söylənilir:[1] məsələn, müəlliflərdən Y.M.Kolosov yazır ki, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri özündə həm onun əsas, həm də sahəvi prinsiplərini birləşdirir;[2] A.Y.Kapustin belə hesab edir ki, beynəlxalq hüququn bütün əsas prinsipləri beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə aiddir; lakin onun fikrincə, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş elə prinsipləri də vardır ki, onlar beynəlxalq hüququn əsas prinsipi sayılmır (məsələn, «açıq dənizlərin sərbəstliyi» kimi sahəvi prinsip; o, beynəlxalq dəniz hüququnun prinsipidir).[3]

Bəzi müəlliflər beynəlxalq publik hüququn əsas prinsiplərini ifadə etmək üçün **«jus cogens» prinsipləri** kimi termin işlədirlər.[4] Alimlər arasında elələri də vardır ki, onlar, sadəcə olaraq, «beynəlxalq hüququn prinsipləri» kimi termindən istifadə edirlər.[5] Ancaq, bir az əvvəldə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüququn prinsipləri geniş anlayış olub, özündə beynəlxalq publik hüququn həm əsas, həm sahəvi, həm də sahədaxili prinsiplərini birləşdirir.

Zənnimizcə, beynəlxalq publik hüququn əsas prinsiplərini ifadə etmək üçün əgər aşağıda göstərilən terminlərdən də istifadə etmiş olsaq, yanılmarıq: məsələn, beynəlxalq publik hüqu-

---

[1] Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.30; Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.45; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.190-191.

[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 47.

[3] *Bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.99.

[4] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 47.

[5] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.130.

qun ümumi prinsipləri, beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş (ümumtanınmış) prinsipləri, beynəlxalq publik hüququn imperativ prinsipləri, beynəlxalq publik hüququn fundamental prinsipləri, beynəlxalq publik hüququn konstitusion prinsipləri, beynəlxalq publik hüququn universal prinsipləri və s. Hesab edirik ki, göstərilənlərin hamısı sinonim (eynimənalı) terminlər olub, «beynəlxalq publik hüququn əsas prinsipləri» anlayışını kifayət qədər düzgün ifadə edir. Buna görə də, həmin terminlər «beynəlxalq publik hüququn əsas prinsipləri» termini ilə bir bərabərdə, eyni səviyyədə tanınmalıdır.

Amma biz **«beynəlxalq publik hüququn əsas prinsipləri»** terminindən istifadə olunmasına daha çox üstünlük veririk. Ona görə ki, beynəlxalq hüquq ədəbiyyatında, beynəlxalq-hüquqi mənbələrdə və beynəlxalq sənədlərdə çox vaxt «beynəlxalq publik hüququn əsas prinsipləri» termini işlədilir. Beynəlxalq hüquq kurslarında,[1] eləcə də beynəlxalq hüquq dərsliklərində,[2] bir qayda olaraq, məhz həmin termindən istifadə edilir. Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində də (bundan sonra–1970-ci il Bəyannaməsi) «beynəlxalq hüququn əsas prinsipləri» termini işlədilir.[3]

Beynəlxalq publik hüququn əsas prinsipləri dedikdə beynəlxalq-hüquqi tənzimetmənin normativ xarakterli elə rəhbər və fundamental ideyaları başa düşülür ki, bütövlükdə beynəl-

---

[1] *Məsələn, bax:* Курс международного права. Том 2. М., 1989 (qeyd etməliyik ki, 7 cilddən ibarət olan həmin kursun 2-ci cildi «Beynəlxalq hüququn əsas prinsipləri» adlanır).

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.77; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.30; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.17; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 55; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s. 29 və s.

[3] Bu sənədin əsl adı belədir: «BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə» (URL:http://www.bibliofond.ru). – 10.05.2018-ci il.

xalq publik hüquq sisteminin başlıca məzmununu müəyyənləşdirən həmin ideyalar konkret hüquq normalarında ifadə olunduğuna görə dövlətlərarası münasibətlərdə iştirak edən subyektlərin hamısı üçün məcburi olub, bu münasibətlərin bütün sahələrində tətbiq edilir.

Beynəlxalq hüquq haqqında yazan müəlliflərin, demək olar ki, əksəriyyəti beynəlxalq publik hüququn əsas prinsiplərinə doktrinal anlayış verərkən həmin prinsiplərin hüquq normaları olması fikrini söyləyirlər ki, bu, həm məntiqi cəhətdən, həm də hüquqi baxımdan mübahisə doğuran məsələdir. Belə ki, əgər «prinsip» termininin etimologiyasına diqqət yetirsək, həmin terminin «əsas ideya», «başlanğıc müddəa», «rəhbər başlanğıc», «əsas» və s. mənalar ehtiva etməsini müəyyənləşdirə bilərik.[1] Çoxaspektli və müxtəlif variantlı anlayış olan «prinsip» həm də hüquqi mənada işlədilir; hüquqi mənada prinsip «hüquqi prinsip» adlanır. Hüquqi prinsip isə mütləq bu və ya digər hüquq normasında ifadə edilməli, təsbit olunmalıdır; hüquq norması hüquqi prinsipin normativ məzmununu müəyyənləşdirən vasitədir. Əgər hər hansı əsas ideyanın məzmunu hüquqi cəhətdən öz əksini müəyyən hüquq normasında taparsa, həmin ideya «hüquqi prinsip» sayılır. Beynəlxalq publik hüququn prinsipləri konkret hüquq normalarında ifadə edilmiş, təsbit olunmuşdur.[2] Deməli, hüquq normaları beynəlxalq publik hüququn prinsiplərini və onların normativ məzmununu formulə edir. Beynəlxalq publik hüququn prinsipləri isə dövlətlərarası münasibətləri hüquqi-tənzimetmənin **normativ xarakterli əsas ideyalarıdır**. Buna görə də, zənnimizcə, beynəlxalq publik hüququn prinsiplərini beynəlxalq hüquq normaları hesab etmək uğurlu variant deyildir. Beynəlxalq publik hüququn hər hansı

[1] *Məsələn, bax:* Советский энциклопедический словарь. М., 1988, с.1061; Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. М., 1999, с.595; Толковый словарь живого великорусского языка / Изданий В.И.Даля и И.А.Бодуэна де Куртенэ в современном написании. Том 3. М., 2002, с.351.

[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.37.

prinsipini, sadəcə olaraq, norma (qayda) kimi tanımaq mümkündür. Təsadüfi deyil ki, latınca «norma» azərbaycan dilinə «qayda», «nümunə» və «rəhbər başlanğıc» kimi mənalarda tərcümə edilir. Buna görə də, beynəlxalq publik hüququn istənilən prinsipini hüquq norması kimi deyil, sadəcə norma və davranış qaydası kimi qəbul etmək məqsədəuyğundur.

Qeyd etməliyik ki, beynəlxalq publik hüququn prinsiplərini beynəlxalq publik hüquq normaları ilə eyniləşdirmək tendensiyasına həm də beynəlxalq məhkəmə praktikasında rast gəlinir. Belə ki, BMT–nin Beynəlxalq Məhkəməsi ABŞ və Kanada arasında yaranan mübahisəyə (mübahisə həmin dövlətlərin sərhədlərinin Men körfəzi və boğazında haradan keçməsi ilə bağlı idi) baxaraq, 12 oktyabr 1984-cü il tarixli qərarında[1] göstərmişdir: «beynəlxalq hüququn prinsipləri» və «beynəlxalq hüquq normaları» eyni ideyanı ifadə edir; bununla o, «hüquqi prinsip» və «hüquq norması» terminlərini, mahiyyətcə, eyniləşdirir.

6.2.2. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin əhəmiyyəti

Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin son dərəcə böyük əhəmiyyəti vardır; mübaliğəsiz deyə bilərik ki, Yer kürəsində dövlətlər məhz onların sayəsində mövcud olaraq fəaliyyət göstərirlər. Əgər beynəlxalq publik hüququn əsas prinsipləri olmazsa, dövlətlərarası beynəlxalq münasibətlər xaotik və qarışıq xarakter alar, hərcmərclik vəziyyəti yarana bilər; onlar nəinki dövlətlərin, həmçinin dövlətlərarası beynəlxalq münasibətlərdə iştirak edən subyektlərin davranışını və fəaliyyətini tənzimləyir. Dövlətlərarası münasibətlərin bütün iştirakçılarının etdiyi hərəkətlər beynəlxalq publik hüququn əsas prinsiplərinə uyğun olmalıdır; əgər uyğun olmazsa, belə hərəkətlər beynəlxalq hüquqazidd davranış sayılır. Ona görə ki, beynəlxalq publik hüququn əsas prinsipləri dövlətlərarası mü-

[1] ICJ. Reports, 1984, p. 288-290 (URL:http://www.icj-cij.org). – 10.05.2018-ci il.

nasibət iştirakçılarının davranış, fəaliyyət və hərəkətlərinin hüquqauyğun («qanuni») olmasını müəyyənləşdirməyin bir növ meyarı rolunu oynayır. Beynəlxalq publik hüququn əsas prinsipləri həm də elə bir meyardır ki, bu meyar əsasında dövlətlərarası münasibət iştirakçılarının qəbul etdiyi hüquqi aktların hüquqauyğun («qanuni») olub-olmaması müəyyənləşdirilir. Bunlar onu göstərir ki, beynəlxalq publik hüququn əsas prinsipləri beynəlxalq-hüquqi qaydaları və beynəlxalq qanunçuluğu möhkəmləndirir. Aydın bir həqiqətdir ki, əgər beynəlxalq publik hüququn əsas prinsipləri pozularsa, bu, beynəlxalq publik hüququn pozulmasını ifadə edir. Buna görə də, onlar **beynəlxalq-hüquqi qaydaların və beynəlxalq qanunçuluğun əsası, təməli, özəyi və ya fundamentidir**. Ümumiyyətlə, beynəlxalq publik hüququn əsas prinsipləri beynəlxalq publik hüquq sistemində fundament, təməl və ya əsas, zəmin rolunu oynayır və onlar dövlətlərarası münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin mahiyyətini, əsasını, istiqamətini və həcmini müəyyən edir. Bu səbəbdən beynəlxalq publik hüququn əsas (ümumi) prinsipləri beynəlxalq publik hüquq sistemində çox vacib, olduqca xüsusi yer tutur.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin əhəmiyyəti təkcə bunlarla bitmir və məhdudlaşmır. Beynəlxalq publik hüququn əsas prinsipləri həm də **beynəlxalq publik hüququn bütün hüquqi norma, institut və sahələrini birləşdirmək funksiyasını** yerinə yetirir. Bu yolla beynəlxalq publik hüququn tərkib hissələri (beynəlxalq hüquq normaları, beynəlxalq hüquq institutları, beynəlxalq hüquq sahələri), yəni struktur elementləri sistem halında birləşir. Nəticədə beynəlxalq publik hüququn əsas prinsipləri sayəsində beynəlxalq publik hüquq sisteminin tamlığı, bütövlüyü və vahidliyi təmin olunur.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin əhəmiyyəti həm də bundan ibarətdir ki, onlar, bir tərəfdən, **beynəlxalq publik hüquq yaradıcılığı prosesinin normativ əsası** sayılır. Belə ki, dövlətlər və beynəlxalq münasibətlərin digər iştirakçıları beynəlxalq hüquq normaları yaradarkən beynəlxalq publik

hüququn əsas prinsiplərinə söykənirlər. Digər tərəfdən, beynəlxalq publik hüququn əsas prinsipləri **beynəlxalq publik hüququn realizə prosesinin normativ əsasıdır**. Belə ki, beynəlxalq publik hüquq normaları əsas prinsiplər sayəsində həyata keçirilir, realizə olunur.

Beynəlxalq publik hüququn əsas prinsipləri subyektlər arasında yaranan dövlətlərarası münasibətlərin, qarşılıqlı fəaliyyətin bazisidir; onlar dövlətlərin əsas beynəlxalq hüquq və vəzifələrini müəyyənləşdirir, təsbit edir. Yalnız beynəlxalq publik hüququn əsas prinsiplərinə uyğun gələn siyasi qərarlar etibarlı və dayanıqlı sayıla bilər. Başqa sözlə, siyasi qərarlar ancaq beynəlxalq publik hüququn əsas prinsiplərinə uyğun qəbul olunduqda, etibarlı və möhkəm sayılır.

6.2.3. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin xüsusiyyətləri

Beynəlxalq publik hüququn əsas prinsipləri bir sıra xüsusiyyətlə (əlamətlə) xarakterizə olunur ki, həmin xüsusiyyətlər (əlamətlər) onların beynəlxalq publik hüquq sistemində xüsusi yer tutmasını şərtləndirir. Məhz bu xüsusiyyətlər sayəsində onlar «əsas prinsiplər» adlanır. «Beynəlxalq publik hüququn əsas prinsipləri» terminindəki «əsas» sözünün işlədilməsi də həmin xüsusiyyətlərlə bağlıdır.

Beynəlxalq publik hüququn əsas prinsiplərini xarakterizə edən xüsusiyyətlər (əlamətlər) dedikdə onların xarakterik cəhətləri başa düşülür. Belə xarakterik cəhətlərin müəyyənləşdirilməsinə beynəlxalq hüquq ədəbiyyatında xüsusi diqqət yetirilir.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin **birinci xüsusiyyəti** ondan ibarətdir ki, onların **ən yüksək hüquqi qüvvəsi** vardır. Buna görə də, beynəlxalq publik hüquq normalarının hamısı beynəlxalq publik hüququn əsas prinsiplərinə uyğun olmalıdır. Beynəlxalq publik hüququn əsas prinsiplərinə həm

də dövlətlərarası münasibət iştirakçılarının, xüsusən də, dövlətlərin beynəlxalq əhəmiyyətli hərəkətləri, habelə onların qəbul etdikləri beynəlxalq-hüquqi aktlar zidd ola bilməz. Bunlar, öz növbəsində, imkan verir ki, beynəlxalq sülh, təhlükəsizlik və beynəlxalq-hüquqi qaydaların sabitliyi təmin olunsun.

İmperativ (jus cogens) olması beynəlxalq publik hüququn əsas prinsiplərinin **ikinci xüsusiyyəti** sayılır ki, o da, birinci xüsusiyyətdən irəli gəlir. İkinci xüsusiyyətin mahiyyəti bundan ibarətdir ki, dövlətlərarası münasibət iştirakçıları özlərinin istək və mülahizəsi əsasında beynəlxalq publik hüququn əsas prinsiplərinin normativ məzmununu dəyişdirə, həmin prinsiplərdən kənara çıxa bilməzlər. Əgər dövlətlərarası münasibət iştirakçıları öz hərəkətləri ilə beynəlxalq publik hüququn prinsiplərindən kənara çıxaraq onları pozarlarsa, belə hərəkətlər hüquqazidd («qanunsuz») sayılır və buna görə də, beynəlxalq-hüquqi məsuliyyətə səbəb olur. Bu kimi xüsusiyyətinə görə beynəlxalq publik hüququn əsas prinsipləri beynəlxalq hüquq dərsliklərində «**beynəlxalq publik hüququn imperativ prinsipləri**» və ya «**jus cogens» prinsiplər**» adlanır.[1]

Beynəlxalq publik hüququn əsas prinsipləri konkret beynəlxalq publik hüquq normalarında təsbit olunur; onlar ya beynəlxalq-müqavilə, ya da beynəlxalq-adət hüquq normalarında ifadə edilir.[2] Bildiyimiz kimi, beynəlxalq publik hüquq normaları məcburi hüquqi qüvvəyə malikdir. Beynəlxalq publik hüquq normalarında ifadə edildiyinə görə beynəlxalq publik hüququn əsas prinsiplərinin də **məcburi hüquqi qüvvəsi** vardır; onlar **bütün dövlətlər və digər subyektlər üçün ümumməcburidir**. Bu, beynəlxalq publik hüququn əsas prinsiplərinin **üçüncü xüsusiyyətidir**. Ümumməcburi olması üçün beynəlxalq publik hüququn əsas prinsiplərinin dünya birliyi, yəni bütün

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 47; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.131; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.65.

[2] Федощева Н.Н.Международное право. Учебное пособие. М., 2010, с.37.

dövlətlər tərəfindən qəbul edilməsi və tanınması tələb olunur. Dünya dövlətləri BMT-nin Nizamnaməsini imzalamaqla beynəlxalq publik hüququn əsas prinsiplərini tanımış və qəbul etmişlər. Qeyd etməliyik ki, beynəlxalq publik hüququn bütün əsas prinsipləri, praktiki olaraq, birbaşa və ya dolayı şəkildə BMT-nin Nizamnaməsində ifadə edilmiş, təsbit olunmuşdur.[1] Həmin sənədin 2-ci maddəsində BMT üzvü olan dövlətlər üçün məcburi olan prinsiplər göstərilmişdir. Digər tərəfdən, sözügedən maddənin 6-cı bəndi BMT-nin üzərinə belə bir vəzifə qoyur ki, o, BMT üzvü olmayan dövlətlərin də həmin prinsiplərə uyğun olaraq hərəkət etmələrini və fəaliyyət göstərmələrini təmin etsin.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin bütün dövlətlər üçün məcburi hüquqi qüvvəyə malik olması həm də bununla bağlıdır ki, BMT Nizamnaməsinin beynəlxalq publik hüququn əsas prinsiplərini formulə edən normaları imperativ normalardır (jus cogens). Dövlətlər imperativ normalara uyğun olaraq hərəkət etməyə borcludurlar; onların hüququ yoxdur ki, həmin normalardan kənara çıxsınlar. İmperativ normalar həm də **«erga omnes» öhdəliyi** yaradır ki, bu öhdəliyi dünya birliyinin bütün üzvlərinin, yəni dövlətlərin hamısının yerinə yetirməsi məcburidir. «Erga omnes» öhdəliyi bütün dövlətlər üçün məcburi olan öhdəlikdir.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, onlar **hamılıqla qəbul olunmuş normativ ideyalardır** və bu səbəbdən onlara həm də beynəlxalq publik hüququn **«hamılıqla qəbul olunmuş prinsipləri»** deyilir.[2] Bildiyimiz kimi, BMT-nin Nizamnaməsində nəzərdə tutulan normalar, o cümlədən onun beynəlxalq publik hüququn əsas prinsiplərini ifadə edən normalar universal normalardır.[3]

[1] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.48.
[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.65.
[3] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.127.

Universal normalar isə hamılıqla qəbul olunmuş, yəni bütün dövlətlər və ya dövlətlərin böyük əksəriyyəti tərəfindən tanınan normalar hesab olunur. Buna görə də, beynəlxalq publik hüququn əsas prinsipləri bütün dövlətlər tərəfindən qəbul olunmuş, ümumtanınmış ideyalar sayılır.

Beynəlxalq publik hüququn əsas prinsipləri **universal ideyalardır**. Bu, onların **beşinci xüsusiyyəti** sayılır. Belə ki, onlar dövlətlərarası münasibətlərin bütün sahələrində tətbiq edilir. Beynəlxalq publik hüququn əsas prinsiplərindən, adətən, dövlətlərarası münasibətlərin ənənəvi sahələrində (məsələn, xarici əlaqələr, beynəlxalq müqavilələr və s.) istifadə olunur. Beynəlxalq publik hüququn əsas prinsipləri həm də dövlətlərarası münasibətlərin yeni sahələrində (məsələn, kosmik fəzanın tədqiq olunmasında və ondan istifadə edilməsində, nüvə enerjisindən dinc məqsədlər üçün istifadə olunmasında, yaxud digər yeni sahələrdə) tətbiq edilir; onlar dövlətlərarası beynəlxalq münasibətlərin kifayət qədər müxtəlif növlərinin hüquqi əsası sayılır.

Beynəlxalq publik hüququn əsas prinsipləri **«erga omnes» münasibətlərini** tənzim edir; «erga omnes» münasibətləri universal münasibətlər olmaqla, bütün dövlətlər arasında yaranır. Məhz bu cəhət beynəlxalq publik hüququn əsas prinsiplərinin universal olmasını şərtləndirir.

Beynəlxalq publik hüququn əsas prinsipləri həm də ona görə universaldır ki, onların əsasında həm beynəlxalq, həm də milli (dövlətdaxili) **aktların hüquqauyğun olması** müəyyən edilir; nə beynəlxalq-hüquqi aktlar (beynəlxalq müqavilə, beynəlxalq konvensiya, beynəlxalq saziş və s.), nə də milli (dövlətdaxili) aktlar (qanunlar, Prezident fərmanları, hökumət qərarları və s.) beynəlxalq publik hüququn əsas prinsiplərindən hər hansı birinə zidd ola bilər.[1]

Beynəlxalq publik hüququn əsas prinsipləri **kompleks xarakterə malikdir;** bu, onların **altıncı xüsusiyyətidir**. Beynəl-

[1] Международное право. Учебник / Отв. ред. Г.М. Мелков. М., 2011, с.77-78.

xalq publik hüququn əsas prinsiplərinin kompleks xarakterə malik olması özünü o halda büruzə verir ki, onlar arasında **qarşılıqlı əlaqə və asılılıq mövcuddur**. Belə ki, beynəlxalq publik hüququn əsas prinsipləri tətbiq olunan zaman onlar bir-birini şərtləndirir; beynəlxalq publik hüququn hər hansı əsas prinsipi yalnız digərləri nəzərə alınmaqla tətbiq oluna bilər. Məsələn, millətlərin (xalqların) öz müqəddəratını təyinetmə prinsipi tətbiq edilərkən dövlətlərin ərazi bütövlüyü prinsipi mütləq nəzərə alınmalıdır.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin kompleks xarakterdə olması bunda ifadə edilir ki, onlardan birinin pozulması digərlərinin də pozulmasına gətirib çıxarır. Məsələn, dövlətlərin ərazi bütövlüyü prinsipinin pozulması, eyni zamanda, beynəlxalq publik hüququn aşağıdakı əsas prinsiplərinin pozulmasına səbəb olur: dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi, dövlətlərin suveren bərabərliyi prinsipi və s.; həmçinin güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin pozulması, yəni təcavüzkarlıq aktının həyata keçirilməsi dövlətlərin daxili işlərinə qarışmamaq, dövlətlərin suveren bərabərliyi, dövlətlərin ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı (pozulmazlığı), beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi və digər prinsiplərin pozulmasına gətirib çıxarır.

Beynəlxalq publik hüququn əsas prinsipləri öz funksiyalarını yalnız qarşılıqlı əlaqədə olmaqla həyata keçirə bilərlər. Təsadüfi deyil ki, onlar arasında mövcud olan qarşılıqlı əlaqəyə Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində xüsusi əhəmiyyət verilmişdir. Burada deyilir ki, beynəlxalq publik hüququn əsas prinsipləri onlar arasında mövcud olan qarşılıqlı əlaqə nəzərə alınmaqla izah və tətbiq oluna bilər; hər bir prinsip bütün digər prinsiplər kontekstində nəzərdən keçirilməlidir[1]. Beynəlxalq publik hüququn hər hansı prin-

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с. 60.

sipi tətbiq olunarkən, habelə izah edilərkən (interpretasiya[1] – hüquqi təfsir zamanı) başqa prinsiplər nəzərə alınmalıdır.

Beynəlxalq publik hüququn əsas prinsipləri onun digər anlayışlarına münasibətdə birinci dərəcəli əhəmiyyətə malikdir. Çünki, məlum olduğu kimi, beynəlxalq publik hüququn əsas prinsipləri onun məğzi və mahiyyəti sayılır. Lakin, təbii ki, onlar beynəlxalq publik hüquq sistemində bir bərabərdə rol oynamır. Başqa sözlə, beynəlxalq publik hüququn əsas prinsipləri beynəlxalq publik hüquq üçün eyni dərəcədə əhəmiyyətli deyildir. Belə ki, bəzi prinsiplərin real əhəmiyyəti beynəlxalq publik hüquq üçün daha çoxdur. Bu baxımdan, beynəlxalq publik hüququn əsas prinsipləri kompleksi **iyerarxiya tabeçiliyi** (beynəlxalq publik hüququn əsas prinsiplərinin iyerarxiyası) kimi cəhətlə xarakterizə olunur;[2] bu, beynəlxalq publik hüququn əsas prinsiplərinin **yeddinci xüsusiyyətidir.** Həmin xüsusiyyətə görə, beynəlxalq publik hüququn əsas prinsipləri arasında eləsi vardır ki, o, beynəlxalq publik hüququn əsas məsələsinin həllində başlıca rol oynayır. Bildiyimiz kimi, beynəlxalq publik hüququn əsas və başlıca məsələsi beynəlxalq sülhü və təhlükəsizliyi təmin etməkdən ibarətdir ki, bu, həm də beynəlxalq publik hüququn əsas məqsədi sayılır. Söhbət beynəlxalq publik hüququn «güc tətbiq etməmək və ya güclə hədələməmək» kimi əsas prinsipindən gedir; məhz bu prinsip sayəsində beynəlxalq sülh və təhlükəsizlik təmin olunur, beynəlxalq publik hüququn əsas və başlıca məsələsi həll edilir. Buna görə də, həmin prinsip beynəlxalq publik hüququn əsas prinsipləri iyerarxiyasında birinci yer tutur; beynəlxalq publik hüququn digər əsas prinsipləri isə ona tabe olmalıdır. Ona görə ki, beynəlxalq publik hüququn digər əsas prinsipləri bu və ya

[1] *İnterpretasiya aktları (ingiliscə – acts of interpretation law) anlayışı barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.28.

[2] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.123; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.36 və b.

digər dərəcədə beynəlxalq publik hüququn əsas məqsədinə – beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək məqsədinə xidmət edir. Belə məqsədə nail olunmasında həm də beynəlxalq publik hüququn «beynəlxalq mübahisələri dinc yolla həll etmək» kimi əsas prinsipi vacib rol oynayır. Buna görə də, o, beynəlxalq publik hüququn əsas prinsipləri iyerarxiyasında ön yerlərdən birini tutur. Sonrakı yer isə insan hüquqlarına hörmət etmək prinsipinə verilməlidir. Belə ki, insan amili beynəlxalq publik hüquq üçün önəmli və əhəmiyyətli məsələ sayılır.[1]

Düzdür, beynəlxalq publik hüquq rəsmi surətdə və ya formal olaraq müəyyən etmir ki, beynəlxalq publik hüququn əsas prinsiplərindən hansı «prinsiplər iyerarxiyası»nda birinci yer tutur və ona tabe olan prinsiplərin sırasına nələrin daxil edilməsini müəyyənləşdirmir. Lakin, real fakt bundan ibarətdir ki, beynəlxalq publik hüququn əsas prinsiplərindən bəziləri başlıca rol oynayır, digərləri isə onlara tabe olur.[2]

Beynəlxalq publik hüququn əsas prinsiplərinin **səkkizinci xüsusiyyəti** ondan ibarətdir ki, onlara **məcburi surətdə** əməl olunmalıdır. Beynəlxalq publik hüququn əsas prinsiplərinə əhəmiyyət verməmək, məhəl qoymamaq və etinasızlıq göstərmək, onları saymamaq və nəzərə almamaq, Qərbi Avropa hüquq ədəbiyyatında göstərildiyi kimi, müasir beynəlxalq publik hüquq üçün təhlükədir.[3] Buna görə də, dövlətlərarası münasibətlərin bütün iştirakçıları beynəlxalq publik hüququn əsas prinsiplərini lazımınca yerinə yetirməli, onları pozmamalıdır; əks halda beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək, beynəl-

[1] ABŞ və Böyük Britaniya alimləri isə birinci yeri əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipinə verirlər.

[2] Bu barədə başqa fikir də söylənilir. Bir sıra alim belə hesab edir ki, beynəlxalq publik hüququn əsas prinsiplərindən hər hansınısa birinci yerə qoymaq olmaz *(məsələn, bax:* Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.5; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.47).

[3] Schwarzenberger G. and Brown E. A manual of international law. Sixth ed. Professional books, 1976, p.35-36; URL:http://www.dissercat.com (12.05. 2018-ci il).

xalq əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq-hüquqi qaydaları sabitləşdirmək, beynəlxalq qanunçuluğu bərqərar etmək və beynəlxalq əhəmiyyətli bir sıra məsələni həll etmək mümkün olmazdı.

Qeyd etdik ki, beynəlxalq publik hüququn əsas prinsipləri öz normativ ifadəsini ayrı-ayrı konkret beynəlxalq publik hüquq normalarında taparaq, onlarda təsbit edilmişdir. Həmin normaların məcmusu **beynəlxalq publik hüququn əsas prinsipləri institutunu** əmələ gətirir. O, son dərəcə vacib beynəlxalq publik hüquq institutu olub, beynəlxalq publik hüququn ümumi hissəsinə aiddir; həmin institutun böyük nəzəri və praktiki əhəmiyyətə malik olması şəksizdir.[1] Təsadüfi deyil ki, onu, bəzən, «zəruri hüquq» (jus necessitatis») və ya «mübahisə edilməyən hüquq» adlandırırlar.[2]

6.2.4. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin formalaşma və inkişaf tarixi

Beynəlxalq publik hüququn özünün və onun əsas prinsiplərinin təşəkkül tapması tarixləri üst-üstə düşmür. Başqa sözlə, beynəlxalq publik hüququn əsas prinsipləri və beynəlxalq publik hüquq eyni vaxtda formalaşmamışdır. Qeyd etməliyik ki, beynəlxalq publik hüququn yaranma tarixi antik və qədim dövrlərə təsadüf edir. Belə ki, əvvəlcə beynəlxalq publik hüququn özü təşəkkül tapmış, sonralar isə beynəlxalq publik hüququn əsas prinsipləri yaranmağa başlamışdır. Buna görə də, beynəlxalq publik hüququn əsas prinsipləri tarixi xarakter daşıyır; onların yaranmasını ayrı-ayrı dövrlərdə tarixi şərait şərtlən-

[1] Bəzi müəlliflərə görə, beynəlxalq publik hüququn əsas prinsipləri beynəlxalq publik hüququn müstəqil sahəsini əmələ gətirir (bax: Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.24). Müəlliflərdən V.M.Şumilov isə güman edir ki, beynəlxalq publik hüququn əsas prinsiplərindən hər biri müstəqil beynəlxalq publik hüquq institutudur (bax: Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.64).

[2] URL:http://www.legalcrystal.com (12.05.2018-ci il).

dirmişdir. Eyni zamanda, beynəlxalq publik hüququn əsas prinsiplərinin tarixən formalaşması həm qanunauyğun, həm də obyektiv proses idi.

Qədim zamanlardan bəri beynəlxalq publik hüququn öz funksiyalarını yerinə yetirməsinin təmin edilməsinə həmişə ehtiyac olmuşdur. Bildiyimiz kimi, tarixin ayrı-ayrı dövrlərində beynəlxalq publik hüququn tərkibinə çoxsaylı, müxtəlif normalar daxil edilmişdir; həmin normaları uyğunlaşdırmaq və onları əlaqələndirmək, bu yolla beynəlxalq publik hüquq sisteminin vahidliyini təmin etmək tələb olunurdu. Beynəlxalq publik hüququn özünün maraq və mənafeyi tələb edirdi ki, onun əsası, təməli, məğzi və mahiyyəti rolunu oynayan hamılıqla qəbul edilən normativ ideyalar yaransın. Elə ideyaların yaranması tələb edilirdi ki, onlar beynəlxalq publik hüququn başlıca məzmununu müəyyənləşdirə, dövlətlərin qarşılıqlı beynəlxalq fəaliyyət göstərmələrinin əsasını təşkil edə, eləcə də onların əsas hüquq və vəzifələrini təsbit edə biləydi. Bu kimi ideyalar ictimai inkişaf prosesləri kontekstində məhz dövlətlərarası beynəlxalq praktikada yarandı; onların uzun müddət beynəlxalq praktikada tanınması və tətbiqi nəticəsində beynəlxalq publik hüququn əsas prinsipləri formalaşmağa başladı.[1]

Beynəlxalq publik hüququn əsas prinsiplərinin yaranmağa başlaması, əsasən, feodalizm dövrünə (orta əsrlərin beynəlxalq publik hüquq dövrünə) təsadüf edir; həmin dövrdə dövlətlərarası beynəlxalq münasibətlərdə dövlətlərin suverenliyinə hörmət etmək, dövlətlərin hüquq bərabərliyi, daxili işlərə qarışmamaq, beynəlxalq öhdəliyi yerinə yetirmək, habelə müharibə qanunlarını və adətlərini gözləmək kimi prinsiplər tətbiq edilirdi ki, onlar tez bir zamanda universal, hamılıqla qəbul olunmuş və icrası məcburi olan normativ ideyalar kimi tanınmağa başladı.

XIX əsrin axırlarında birinci (1899-cu il), XX əsrin əvvəllərində isə ikinci sülh konfransı (1907-ci il) keçirildi ki, bu kon-

[1] *Bu barədə bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.189.

franslar klassik beynəlxalq publik hüququn yeni əsas prinsiplərinin formalaşmasına əhəmiyyətli təsir göstərdi. 1917-ci ildə dünyada ilk sosialist dövlətinin (sovet Rusiyasının) yaranması, onun qəbul etdiyi birinci dekretlər və öz qonşuları (Baltikyanı ölkələr, Türkiyə və s.) ilə bağladığı beynəlxalq müqavilələr, SSRİ-nin təşkili və 1919-cu ildə Millətlər Liqasının təsis edilməsi beynəlxalq publik hüququn bir sıra əsas prinsipinin formulə edilməsinə səbəb oldu. Həmin prinsiplərə aşağıdakılar aiddir: beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipi, hücum etməmək prinsipi, millət və xalqların öz müqəddəratını təyin etmək prinsipi, milli siyasət vasitəsi kimi müharibənin qadağan edilməsi. Həm də onlar beynəlxalq müqavilələrdə öz normativ ifadəsini tapmış və təsbit edilmişdi.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin formalaşmasında müasir beynəlxalq publik hüququn yaranmasının əsası sayılan **1945-ci ildə BMT-nin təsis edilməsi** kimi tarixi hadisənin rolu, xüsusilə, qeyd edilməlidir. Bildiyimiz kimi, öz hüquqi statusuna görə, universal dövlətlərarası beynəlxalq təşkilat olan BMT özünün Nizamnaməsi əsasında fəaliyyət göstərir; 26 iyun 1945-ci ildə qəbul olunan və BMT-nin fəaliyyətinin hüquqi əsasını təşkil edən həmin sənəd dövlətlərarası sistemdə yaranan qarşılıqlı münasibətləri tənzimləyən nüfuzlu, vacib və hamılıqla tanınmış beynəlxalq-hüquqi aktdır; onun 2-ci maddəsində beynəlxalq publik hüququn **yeddi əsas prinsipinin** adı çəkilir. Həmin prinsiplərə aşağıdakılar aiddir:

- dövlətlərin suveren bərabərliyi prinsipi;
- güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi;
- beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi;
- dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi;
- xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi;
- dövlətlərin əməkdaşlıq etməsi prinsipi;

– beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi.[1]

Qeyd etdiyimiz prinsiplərin beynəlxalq publik hüququn əsas prinsipləri olması barədə BMT–nin Nizamnaməsində heç nə qeyd olunmur. Belə ki, göstərilən prinsipləri sadalayan BMT Nizamnaməsinin 2-ci maddəsinin mətnində «əsas» termini işlədilmir. Burada, sadəcə olaraq, qeyd edilir ki, Nizamnamənin 1-ci maddəsində göstərilən məqsədlərə nail olmaq üçün BMT və BMT-yə üzv olan dövlətlər onun 2-ci maddəsində sadalanan prinsiplərə uyğun fəaliyyət göstərməlidirlər.

«Əsas» terminini işlətməməsinə baxmayaraq, müasir dövrün mühüm sənədi olan BMT Nizamnaməsi özünün 2-ci maddəsində sadaladığı yeddi prinsipə böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, yeddi prinsipin adları Nizamnamənin əvvəlində çəkilir. Bu isə ondan xəbər verir ki, BMT-nin Nizamnaməsi yeddi prinsipə beynəlxalq publik hüquq sistemində xüsusi yer tutan və sabit beynəlxalq-hüquqi qaydaları, beynəlxalq sülhü, eləcə də beynəlxalq təhlükəsizliyi təmin edən prinsiplər kimi baxır, əhəmiyyət verir. Bu isə onların beynəlxalq publik hüququn əsas prinsipləri sayılması və hesab olunmasını ifadə edir. Beynəlxalq hüquq dərsliklərində bütün müəlliflər tərəfindən birmənalı şəkildə göstərilir ki, BMT Nizamnaməsinin 2-ci maddəsində sadalanan prinsiplər beynəlxalq publik hüququn əsas prinsipləridir.[2] Lakin onları təkcə BMT-nin üzvlərinə aid olan prinsiplər və ya BMT Nizamnaməsinin prinsipləri hesab etmək olmaz. Düzdür, həmin prinsiplər, əsasən və başlıca olaraq, BMT üzvləri üçün formulə edilmişdir. Lakin, real vəziyyət

[1] Bəzi müəlliflər göstərirlər ki, sadalananlardan yalnız beşi beynəlxalq publik hüququn əsas prinsipi hesab edilir; onların fikrincə, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə, habelə dövlətlərin əməkdaşlıq etməsi prinsipləri isə beynəlxalq publik hüququn əsas prinsipi sayılmır *(bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.95).

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 48; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 55; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.18; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.5 və s.

bundan ibarətdir ki, BMT-nin Nizamnaməsində formulə olunan prinsiplərin əhəmiyyəti yalnız BMT ilə məhdudlaşmır; onlar həm də BMT çərçivəsindən kənarda tətbiq edilir. Belə ki, BMT Nizamnaməsinin 2-ci maddəsinin 6-cı bəndində göstərilir ki, BMT üzvü olmayan dövlətlər də sadalanan prinsiplərə uyğun fəaliyyət göstərməlidir; bu, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi üçün zəruri olan vacib məsələdir. Digər tərəfdən, BMT qurumunun təsisçiləri əvvəlcədən hesab edirdilər ki, onun Nizamnaməsində təsbit edilən prinsiplər bütün dövlətlər tərəfindən tanınacaq və qəbul ediləcəkdir.

Bunlardan əlavə, BMT-nin Nizamnaməsində sadalanan bəzi prinsiplər (məsələn, dövlətlərin suveren bərabərliyi prinsipi, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi) hələ sözügedən Nizamnamə qəbul edilənə kimi mövcud idi və dövlətlərarası beynəlxalq praktikada tətbiq olunurdu. II Dünya Müharibəsinə kimi yaranan «güc tətbiq etməmək» prinsipini isə BMT-nin Nizamnaməsi təsbit etməklə, onu beynəlxalq publik hüququn əsas prinsipi səviyyəsinə qaldırdı. Məhz bunlara görə, BMT-nin Nizamnaməsində sadalanan prinsiplər təkcə BMT Nizamnaməsinin prinsipləri deyildir; onlar yalnız BMT üzvü olan dövlətlər üçün deyil, ümumiyyətlə butun dövlətlər üçün formulə edilmişdir.

BMT-nin Nizamnaməsi qəbul olunduqdan sonra həmin sənəddə sadalanan prinsiplərə dövlətlər məhəl qoymur və onlara əhəmiyyət vermirdilər. Hətta beynəlxalq münasibətlər praktikasında bu prinsiplər ayrı-ayrı dövlətlər tərəfindən tez-tez pozulurdu; həmin dövlətlər əllərində bunu əsas tuturdular ki, Nizamnamə sadaladığı prinsipləri dürüst və aydın şəkildə formulə etmir, eləcə də onların məzmununu açıqlamır. Odur ki, BMT qarşısında bəzi dövlətlər (sosialist dövlətləri) prinsiplərin kodifikasiyası barədə məsələ qaldırdı. Bu məsələnin mahiyyəti isə BMT üzvü olan bütün dövlətlərin iştirakı ilə müasir beynəlxalq

publik hüququn universal və hamılıqla qəbul olunmuş əsas prinsiplərini elan edən, dürüst şəkildə müəyyənləşdirən beynəlxalq aktın hazırlanmasından və qəbul edilməsindən ibarət idi. Həmin məsələni həll etmək üçün BMT-nin Baş Assambleyası 1962-ci ildə xüsusi kodifikasiya komitəsi yaratdı ki, bu komitənin tərkibinə 31 dövlətin nümayəndəsi daxil idi. Xüsusi kodifikasiya komitəsi vahid bir sənəd hazırladı və BMT-nin Nizamnaməsində göstərilən yeddi prinsip bu sənədə daxil edildi;[1] həmin sənəd BMT Baş Assambleyasının 24 oktyabr 1970-ci il tarixli qətnaməsi ilə qəbul olundu. Bu sənəd qısaca olaraq – **«Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi»** adlanır.

1970-ci il Bəyannaməsinin əhəmiyyəti bundan ibarətdir ki, o, BMT Nizamnaməsinin 2-ci maddəsində təsbit olunan yeddi prinsipi beynəlxalq publik hüququn əsas prinsipləri kimi elan edir. Bəyannamənin 3-cü bölməsində aydın şəkildə təsdiq olunur ki, **həmin prinsiplər beynəlxalq hüququn əsas prinsipləridir**. Düzdür, 1970-ci il Bəyannaməsinin məcburi hüquqi qüvvəsi yoxdur; BMT Baş Assambleyasının qətnaməsi ilə qəbul edildiyinə görə o, tövsiyə xarakterli sənəddir; lakin 1970-ci il Bəyannaməsində göstərilən prinsiplər bir sıra beynəlxalq müqavilədə (həm universal, həm də regional beynəlxalq müqavilədə) təsbit olunmuşdur. Buna görə də, onlar beynəlxalq publik hüququn mənbəyi hesab edilir; həm də ona görə ki, 1970-ci il Bəyannaməsində adları çəkilən prinsiplər BMT-nin Nizamnaməsində təsbit olunmuşdur; BMT-nin Nizamnaməsi isə, öz hüquqi təbiətinə görə beynəlxalq müqavilədir (onu dünyanın, demək olar ki, bütün dövlətləri imzalamışdır). Odur ki,

[1] Bu barədə başqa fikir də söylənilir. Müəlliflərdən A.Y.Kapustin belə hesab edir ki, 1970-ci il Bəyannaməsi iki prinsipi BMT–nin Nizamnaməsində sadalanan beş prinsipə əlavə edir: xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi, dövlətlərin əməkdaşlıq etməsi prinsipi. Bununla müəllif göstərmək istəyir ki, BMT-nin Nizamnaməsində yeddi deyil, beş prinsip təsbit olunur *(bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.94).

1970-ci il Bəyannaməsində adları çəkilən yeddi prinsip **məcburi hüquqi qüvvəyə malik olmaqla, beynəlxalq publik hüququn mənbəyi sayılır**.

BMT-nin Nizamnaməsində yeddi prinsipin yalnız adları çəkilir; burada onların hüquqi məzmunu tam müəyyənləşdirilmir; bu işi 1970-ci il Bəyannaməsi yerinə yetirir. Belə ki, bu sənəddə nəinki yeddi prinsipin adları sadalanır, həmçinin onların müfəssəl şəkildə hüquqi-normativ məzmunu açıqlanır. Həmin sənəd BMT-nin Nizamnaməsində ümumi şəkildə formulə edilən beynəlxalq publik hüququn əsas prinsiplərini bütün təfərrüatı və təfsilatı ilə göstərərək onları konkretləşdirir.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin formalaşmasında və inkişafında **ATƏM-in** (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin) də rolu qeyd edilməlidir. Bildiyimiz kimi, 1 avqust 1975-ci il tarixdə 33 Avropa dövləti, o cümlədən SSRİ, habelə ABŞ və Kanada (cəmi 35 dövlət) ATƏM-in Helsinki Yekun Aktını imzalamışlar. Bu sənədin 1-ci hissəsində (bundan sonra – 1975-ci il Bəyannaməsi)[1] on prinsipin adı çəkilir. Belə ki, burada BMT-nin Nizamnaməsində təsbit edilən yeddi prinsipə daha **üç yeni prinsip** əlavə olunmuşdur. Həmin prinsiplərə aşağıdakılar aiddir:[2]

- dövlət sərhədlərinin toxunulmazlığı (pozulmazlığı) prinsipi;
- dövlətlərin ərazi bütövlüyü prinsipi;
- əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi.

Helsinki Yekun Aktında göstərilən üç prinsipin beynəlxalq publik hüququn yeddi əsas prinsipinə əlavə edilməsi dövlətlərarası beynəlxalq praktikanın inkişafından irəli gəlir. Dövlətlərarası beynəlxalq praktika inkişaf etdikcə, təbii ki, beynəlxalq publik hüququn əsas prinsipləri də təkmilləşir, yeni prinsiplər

[1] Sənəd belə adlanır: «İştirakçı dövlətlərin öz qarşılıqlı münasibətlərində rəhbər tutmalı olduqları prinsiplər haqqında» Bəyannamə.

[2] Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007, s.106.

yaranır. Göstərilən üç yeni prinsip, bir tərəfdən, beynəlxalq publik hüququn humanist xarakter almasını, digər tərəfdən, Avropa hüquq qaydasının təmin olunmasını əks etdirir.

Helsinki Yekun Aktının qəbul edilməsi beynəlxalq publik hüququn əsas prinsiplərinin normativ məzmununun və hüquqi əhəmiyyətinin müəyyənləşdirilməsində vacib hadisə sayılır; bu Aktın beynəlxalq publik hüququn əsas prinsiplərinin kodifikasiyası məsələsinin həllində müəyyən, bu və ya digər dərəcədə rol oynaması şəksizdir.[1]

Göstərilən üç prinsipi Helsinki Yekun Aktı beynəlxalq publik hüququn əsas prinsipləri adlandırmır. Əgər həmin Aktın mətnini nəzərdən keçirsək görərik ki, onun heç bir yerində adlarını çəkdiyimiz üç prinsipin beynəlxalq publik hüququn əsas prinsipi olması barədə hər hansı göstərişə rast gəlmirik; digər tərəfdən, üç prinsipin adı universal deyil, regional xarakterli beynəlxalq sənəddə çəkilir. Nəzərə almaq lazımdır ki, Helsinki Yekun Aktı 33 Avropa dövlətinin imzaladığı və regional beynəlxalq müşavirənin qəbul etdiyi sənəddir.[2] Bunlardan əlavə, nə qədər böyük siyasi və hüquqi əhəmiyyətə malik olmasına baxmayaraq, Helsinki Yekun Aktı beynəlxalq müqavilə sayılmır; buna görə də, onun məcburi hüquqi qüvvəsi yoxdur. Bu yerdə, təbii olaraq, iki sual ortaya çıxır: birinci, Helsinki Yekun Aktında göstərilən üç prinsipi beynəlxalq publik hüququn əsas prinsipləri sırasına aid etmək olarmı? ikinci, həmin üç prinsip beynəlxalq publik hüququn mənbəyi hesab edilirmi?

Qeyd etməliyik ki, bu suallara beynəlxalq hüquq ədəbiyyatı səhifələrində birmənalı şəkildə cavab verilmir.[3] Fikrimizcə, göstərilən prinsipləri beynəlxalq publik hüququn əsas prinsipləri sırasına aid etmək üçün zəruri əsaslar kifayət qədərdir. Belə ki, onlar beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığın təmin

[1] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.36.
[2] URL:http://www.ru.m.wikipedia.org (17.05.2018-ci il).
[3] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.246; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.96.

edilməsində heç də az rol oynamır. Hər üç prinsipin dinc əməkdaşlıq və inkişaf üçün bu və ya digər dərəcədə əhəmiyyəti vardır; hər hansı prinsipin əsas prinsip olması da məhz bunlarla müəyyən edilir. Helsinki Yekun Aktında deyilir ki, on prinsipin hamısı, o cümlədən əlavə edilən üç prinsip birinci dərəcəli əhəmiyyətə malikdir. Ona görə ki, onlar dövlətlər üçün ümumi xarakterli beynəlxalq öhdəlik yaradır;[1] hüquq ədəbiyyatı səhifələrində belə öhdəliyə «**erga omnes**» deyilir. «Erga omnes» elə bir öhdəlikdir ki, bu öhdəliyə görə, hər bir dövlət beynəlxalq publik hüququnun əsas prinsiplərinin pozulmasına qarşı yönələn tədbirlər görməyə borcludur; o, müvafiq tədbirləri beynəlxalq publik hüququn əsas prinsiplərinin pozulması hallarının onun mənafe və maraqlarına bilavasitə toxunub-toxunmamasından asılı olmayaraq görməlidir. Buna görə də, «erga omnes» dövlətin bütövlükdə dünya birliyi qarşısında olan öhdəliyidir.

Sözügedən hər üç prinsip BMT-nin Nizamnaməsində və 1970-ci il Bəyannaməsində dolayı yolla formulə edilmişdir; lakin bu sənədlərdə həmin prinsiplərin hərfən, birbaşa və bilavasitə təsbit olunmaması onların beynəlxalq publik hüququn əsas prinsipi kimi tanınmasına heç cür əks-təsir göstərə bilməz. Belə ki, BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndi əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipindən çıxış edir; BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndi isə dövlətlərin ərazi bütövlüyünə qarşı güc tətbiq olunmasını qadağan edir. Bu isə o deməkdir ki, həmin bənd dolayı yolla dövlətlərin ərazi bütövlüyü prinsipini təsbit edir.

1970-ci il Bəyannaməsində deyilir ki, hər bir dövlət başqa dövlətin mövcud beynəlxalq sərhədini pozmaq üçün güc ilə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinməlidir; burada beynəlxalq publik hüququn əsas prinsiplərindən biri olan güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi çərçivəsin-

[1] Курс международного права. Том 2. М., 1989, с.8.

də sərhədlərin pozulmazlığı (toxunulmazlığı) prinsipi formulə edilmişdir.

Göstərilənlərdən başqa, böyük siyasi-hüquqi əhəmiyyətə malik olan Helsinki Yekun Aktı yüksək səviyyədə dövlət və hökumət başçıları tərəfindən imzalanmışdır. Bu sənəd nəinki Avropa dövlətlərinin, ABŞ-ın və Kanadanın, həmçinin bütün dünya dövlətlərinin beynəlxalq əməkdaşlığına aiddir. Bütün dünya dövlətləri həmin Yekun Aktını müsbət hadisə kimi qarşılamış, onun formulə etdiyi on prinsipdən hər hansı birinə etiraz etməmişdir. Helsinki Yekun Aktında deyilir ki, on prinsip müşavirə iştirakçısı olan dövlətlər tərəfindən şərtsiz, sözsüz, məcburi və hökmən tətbiq edilməlidir; iştirakçı-dövlətlərlə başqa dövlətlər arasında münasibətlər məhz həmin prinsiplər əsasında qurulmalıdır. Bunlara görə, Helsinki Yekun Aktında sadalanan on prinsip, o cümlədən əlavə edilmiş üç prinsip beynəlxalq publik hüququn mənbəyidir. Təsadüfi deyil ki, həmin akt beynəlxalq publik hüququn əsas prinsiplərini inkişaf etdirən sənəd kimi xarakterizə olunur.[1] Burada göstərilən prinsiplərin məcburi hüquqi qüvvəyə malik olması kifayət qədər əsaslandırılmışdır;[2] onların Helsinki Yekun Aktından asılı olmayaraq, məcburi hüquqi qüvvəsi vardır. Ona görə ki, həmin prinsiplər ya BMT-nin Nizamnaməsində təsbit olunmuşdur, ya da BMT Nizamnaməsinin məqsəd və məramlarına əsaslanır.

Düzdür, Helsinki Yekun Aktında nəzərdə tutulan üç yeni prinsip regional (Avropa) səviyyədə tətbiq edilmək üçün təsbit olunmuşdur. Lakin, buna baxmayaraq, onlar həm minlərlə universal və regional xarakterli beynəlxalq müqavilələrdə normativ-hüquqi cəhətdən təsbit olunmuş, həm də bütün qitələrdən

---

[1] *Daha ətraflı:* Ушаков Н.А. Развитие основных принципов международного права в Хельсинском заключительном акте // В книге: Ушаков Н.А. Проблемы теории международного права. М., 1988 с.81-103.

[2] *Məsələn, bax:* Во имя мира: международно-правовые проблемы Европейской безопасности. М., 1977; Талалаев А.Н. Хельсинки: принципы и реальность. М., 1985, с.20; Международно-правовые формы сотрудничества государств в Европе. М., 1977 və b.

olan dövlətlərin beynəlxalq praktikasında tanınmışdır.[1] Bu səbəbdən onlar beynəlxalq publik hüququn əsas prinsipləri sırasına aid edilmişdir.

6.2.5. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin sistemi

Beynəlxalq publik hüququn əsas prinsiplərinin sayı ilə bağlı məsələ üzrə müəlliflərin fikirləri üst-üstə düşmür. Belə ki, beynəlxalq publik hüququn əsas prinsiplərinin siyahısı barədə onların mövqeləri bir-birindən fərqlənir. Məsələn, müəlliflərdən N.N.Fedoşyeva beynəlxalq publik hüququn on əsas prinsipinə ikisini də əlavə edir:[2] tərksilah prinsipi, kollektiv təhlükəsizlik və məsuliyyət prinsipi.

Q.M.Melkov beynəlxalq publik hüququn əsas prinsiplərinin sayının on dörd olmasını göstərir; o, on prinsipə dörd prinsip də əlavə edir:[3] ətraf mühitin qorunması prinsipi, dövlətlərin məsuliyyəti prinsipi, tərksilah prinsipi, müharibə qanun və adətlərinə əməl etmək prinsipi.

İ.İ.Lukaşuka görə, iki prinsip də beynəlxalq publik hüququn əsas prinsipləri sırasına daxil edilməlidir;[4] həmin prinsiplərə aşağıdakılar aiddir: demokratiya prinsipi, dinc-yanaşı yaşama prinsipi.

Ayrı-ayrı müəlliflər digər prinsiplərin də beynəlxalq publik hüququn əsas prinsipi kimi tanınmasını təklif edirlər.[5] Belə prinsiplər aşağıdakıları əhatə edir: suverenlik prinsipi, ədalət

[1] Международное право. Учебник/ Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с. 193.
[2] Федощева.Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.38.
[3] Международное право. Учебник/ Отв. ред. Г.М.Мелков. М., 2011, с.76-77.
[4] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 2005, с.299.
[5] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.66; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, 194.

prinsipi, qarşılıqlı olma prinsipi, vicdanlı olmaq prinsipi, müharibəni təbliğ etməyin qadağan olunması prinsipi, müstəmləkəçiliyin qadağan edilməsi prinsipi, tərk-silah və silahların məhdudlaşdırılması prinsipi, beynəlxalq münasibətlərdə hüququn aliliyi prinsipi, sabit inkişaf prinsipi, beynəlxalq publik hüquq məsuliyyəti prinsipi və s.

Göründüyü kimi, müxtəlif müəlliflər tərəfindən beynəlxalq publik hüququn əsas prinsiplərinə dair verilən siyahı eyni deyildir. Fikrimizcə, həmin prinsiplərin dəqiq, dürüst və tam siyahısını vermək üçün BMT-nin Nizamnaməsi (1945-ci il), 1970-ci il Bəyannaməsi və Helsinki Yekun Aktı (1975-ci il) kimi vacib beynəlxalq sənədlərə əsaslanmaq kifayətdir. Məhz bu sənədlərdə rəsmi surətdə beynəlxalq publik hüququn əsas prinsiplərinin siyahısı verilmişdir ki, bu rəsmi siyahıya, əvvəllərdə qeyd etdiyimiz kimi, on prinsip daxildir; onlar **beynəlxalq səviyyədə kodifikasiya olunmuş** və təsbit edilmişdir.

Beynəlxalq publik hüququn əsas prinsipləri ayrı-ayrılıqda mövcud olmur və tətbiq edilmir. Qeyd etməliyik ki, onlar birbiri ilə qarşılıqlı surətdə əlaqədə olub, tam, bütöv və vahid halda birləşmişdir. Belə birləşməyə **beynəlxalq publik hüququn əsas prinsiplərinin sistemi** deyilir.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin sistem halında birləşməsinin əsasını onların hamısı üçün ümumi olan əlamətlər (xüsusiyyətlər) təşkil edir. Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüququn əsas prinsipləri, birinci, **normativ prinsiplərdir** (ona görə ki, onlar beynəlxalq publik hüququn bütün subyektləri üçün bilavasitə hüquq və vəzifələr yaradır); ikinci, **imperativ (jus cogens) prinsiplərdir** (çünki dövlətlər və digər subyektlər heç bir halda onlardan kənara çıxa bilməzlər); üçüncü, **ən yüksək hüquqi qüvvəyə malik olan prinsiplərdir** (çünki beynəlxalq publik hüquq normalarının hamısı onlara uyğun olmalıdır); dördüncü, **universal prinsiplərdir** (çünki onlar beynəlxalq publik hüquq subyektlərinin iştirak etdikləri bütün əlaqələrdə, eləcə də dövlətlərarası münasibətlərin bütün sahələrində tətbiq olunur) və s. Məhz bu

kimi əlamətlər (xüsusiyyətlər) sayəsində beynəlxalq publik hüququn əsas prinsipləri sistem şəklində mövcud olur, tətbiq edilir və qüvvədə olur. Beynəlxalq publik hüququn əsas prinsipləri sisteminin əhəmiyyəti bundan ibarətdir ki, onun əsasında əvvəllər dağınıq, pərakəndə və səpələnmiş halda olan beynəlxalq publik hüquq normalarının məcmusu kimi beynəlxalq publik hüquq vahid, daxilən vəhdətdə olan və qaydaya salınmış normativ sistemə çevrilmişdir.

Bildiyimiz kimi, beynəlxalq publik hüququn ibarət olduğu çoxsaylı müxtəlif hüquq normaları xaotik və qarmaqarışıq halda deyil, müəyyən ardıcıllıqla düzlənirlər ki, belə düzümə beynəlxalq publik hüququn sistemi deyilir. Beynəlxalq publik hüququn sistemi isə bütövlükdə bir neçə yarımsistemdən (tərkib sistemlərdən və yaxud alt sistemlərdən) ibarətdir. Belə yarımsistemlərdən biri məhz beynəlxalq publik hüququn əsas prinsiplərinin təsnifatı hesab olunur; həm də o, beynəlxalq publik hüququn sistemində tərkib hissə kimi ən mühüm və əsas yarımsistem sayılır. Belə ki, beynəlxalq publik hüququn əsas prinsiplərinin sistemi universal (ümumi) beynəlxalq publik hüququn məğzi (mahiyyəti) hesab olunur və bu səbəbdən müasir beynəlxalq publik hüququn sistemi bütövlükdə ona əsaslanır.

6.2.6. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin təsnifi

Hüquq ədəbiyyatında beynəlxalq publik hüququn əsas prinsipləri müxtəlif meyarlara görə təsnif edilir.[1] Belə ki, ayrı-ayrı müəlliflər beynəlxalq publik hüququn əsas prinsiplərinin təs-

[1] Блатова Н.Т. Международное право. Учебник. М., 1987, с. 55; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.78; Федоща.Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.39; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.32; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 48; Международное право. Учебник /Под ред. К.К.Гасанова. М., 2008, с.18.

nifini verərkən müxtəlif təsnifat meyarlarından istifadə edirlər: məsələn, hüquqi məzmun, yanaşma üsulu, yaranma vaxtı, tarixi-siyasi əlamət, hüquqi tənzimetmə predmeti, hüquqi tənzimetmə metodu, əməkdaşlığın obyekti, beynəlxalq-hüquqi nizamlama və digər təsnifat meyarları.

Bir sıra müəllif (məsələn, N.T.Blatova, N.N.Fedoşyeva, K.K.Həsənov, A.Y.Kapustin və b.) beynəlxalq publik hüququn əsas prinsiplərinin təsnifini verərkən «hüquqi tənzimetmə predmeti» və ya «əməkdaşlığın obyekti» kimi meyarı əsas götürürlər. Bu meyarlara görə, onlar beynəlxalq publik hüququn əsas prinsiplərini üç və ya dörd növə (qrupa) bölürlər:[1] **1) beynəlxalq sülh və təhlükəsizliyi təmin edən əsas prinsiplər** [güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, dövlətlərin ərazi bütövlüyü prinsipi, dövlət sərhədlərinin pozulmazlığı (toxunulmazlığı) prinsipi], **2) dövlətlərin müstəqil surətdə mövcud olmasını təmin edən əsas prinsiplər** (dövlətlərin suveren bərabərliyi prinsipi, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi), **3) xalqların, millətlərin və insan hüquqlarının müdafiəsini təmin edən əsas prinsiplər** (xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi), **4) dövlətlər arasında beynəlxalq əməkdaşlığın inkişafını təmin edən əsas prinsiplər** (dövlətlərin əməkdaşlıq etməsi prinsipi, beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi).

Müəlliflərdən S.V.Çerniçenko beynəlxalq publik hüququn əsas prinsiplərinin təsnifini «hüquqi tənzimetmə metodu» kimi meyara əsasən aparır.[2] Bu baxımdan, o, beynəlxalq publik hüququn əsas prinsiplərini üç növə (qrupa) bölür: **1) səlahiyyət-**

[1] A.Y.Kapustin beynəlxalq publik hüququn əsas prinsiplərini dörd növə (qrupa) bölür; *bu barədə bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.100.

[2] Международное право. Учебник / Под ред. А.И.Микульшина, М., 2005, с.32; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 48.

verici prinsiplər (dövlətlərin suveren bərabərliyi prinsipi), **2) qadağanedici prinsiplər** (güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi), **3) məcburedici prinsiplər** (beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, dövlətlərin ərazi bütövlüyü prinsipi, dövlət sərhədlərinin pozulmazlığı prinsipi, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi, dövlətlərin əməkdaşlıq etməsi prinsipi, beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi).

Qeyd etməliyik ki, bu və ya digər alimin beynəlxalq publik hüququn əsas prinsiplərini ayrı-ayrı növlərə bölməsi beynəlxalq publik hüququn əsas prinsiplərinin doktrinal (elmi) təsnifidir. Şübhəsiz, hər bir alimin təklif etdiyi elmi təsnif beynəlxalq publik hüququn əsas prinsiplərinin məna və mahiyyətini başa düşmək baxımından əhəmiyyətlidir. Lakin, unutmaq olmaz ki, beynəlxalq publik hüququn əsas prinsiplərinin doktrinal təsnifi ayrı-ayrı alimlərin subyektiv düşüncəsinin məhsulu və nəticəsidir. Bu səbəbdən beynəlxalq publik hüququn əsas prinsiplərinə alimlərin verdikləri hər bir elmi təsnif müəyyən dərəcədə onların subyektiv baxışlarını əks etdirir.

Beynəlxalq publik hüququn əsas prinsiplərinin obyektiv təsnifini vermək isə həddən ziyadə çətin məsələdir. Bunun iki əsas və başlıca səbəbi vardır. **Birinci səbəb** ondan ibarətdir ki, beynəlxalq publik hüququn hər bir əsas prinsipinin məzmunu kifayət qədər geniş olub, özündə beynəlxalq publik hüququn digər əsas prinsiplərinə xas olan elementləri birləşdirir. Məsələn, dövlətlərin suveren bərabərliyi prinsipi səlahiyyətverici prinsipdir və bu prinsipin məzmununa həm də məcburedici prinsiplərə xas olan element daxildir. Başqa bir misalda – dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi özündə xalqların, millətlərin və insan hüquqlarının müdafiəsini təmin edən prinsiplərin elementlərini birləşdirir.

İkinci səbəb isə bundan ibarətdir ki, beynəlxalq publik hüququn əsas prinsiplərinin öz tənzimetmə predmeti vardır. Belə

ki, onların hər biri bu və ya digər məsələni tənzimləyir. Qeyd etməliyik ki, hər hansı prinsipin tənzimetmə predmetinə daxil olan məsələ beynəlxalq publik hüququn digər əsas prinsipi ilə tənzimlənə bilər. Məsələn, dövlətlər arasında beynəlxalq əməkdaşlığın inkişafını təmin edən əsas prinsiplərin nizamasalma predmetinə hansı məsələnin aid olması hamıya bəllidir; bu məsələ (dövlətlərarası beynəlxalq əməkdaşlığı inkişaf etdirmək məsələsi) həm də beynəlxalq publik hüququn digər növ əsas prinsipləri (beynəlxalq sülh və təhlükəsizliyi təmin edən əsas prinsiplər, xalqların, millətlərin və insan hüquqlarının müdafiəsini təmin edən əsas prinsiplər) tərəfindən tənzimlənir. Təbii ki, dövlətlərarası əməkdaşlıq beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması, habelə insan hüquqlarının müdafiəsi sahəsində də həyata keçirilir, inkişaf edir.

Lakin, beynəlxalq publik hüququn əsas prinsiplərinin obyektiv təsnifinin verilməsinin qeyri-mümkünlüyünə baxmayaraq, necə olursa olsun, hər halda bu və ya digər meyar əsasında onları ayrı-ayrı növlərə (qruplara) bölməyi məqsədəuyğun hesab edirik. Fikrimizcə, müəyyən dərəcədə obyektiv reallığı əks etdirdiyinə görə A.Y.Kapustinin təklif etdiyi dördnövlü təsnifat daha üstündür.[1]

6.3. Beynəlxalq publik hüququn beynəlxalq sülh və təhlükəsizliyi təmin edən əsas prinsipləri

6.3.1. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi

Beynəlxalq publik hüququn güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin formalaşması keçən yüzilliyə, yəni XX əsrə təsadüf edir. Beynəlxalq hüquq ədəbiyyatı səhifələrində çox düzgün olaraq, göstərilən prinsipin formalaşmasına dünya birliyinin böyük nailiyyət və uğuru, müasir beynəlxalq

[1] *Bax:* Международное право. Учебник/ Под общ. ред. А.Я.Капустина. М., 2008, с.100.

publik hüququn faydalı yeniliyi kimi qiymət verilir.[1] Həmin prinsipə belə qiymət verilməsi isə təbiidir. Belə ki, klassik beynəlxalq publik hüquq dövlətlərin müharibə etmələrinə onların təbii funksiyası, ayrılmaz hüququ kimi baxırdı; müharibəni dövlətlər öz xarici siyasətini həyata keçirməyin hüquqauyğun vasitəsi, beynəlxalq mübahisələri və ixtilafları həll etməyin qanuni üsulu sayırdılar. Müharibə etmək hər bir dövlətin qeyri-məhdud hüququ sayılırdı **(jus ad bellum)**. Beynəlxalq publik hüquq müharibəyə nəinki dövlətlərin təbii funksiyası, həmçinin onun heç nə ilə məhdudlaşdırılmayan suverenliyinin başlıca elementi kimi baxırdı. Məhz belə şəraitdə güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin formalaşmasına ehtiyac və zərurət yarandı.

Qeyd etməliyik ki, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi tədricən, necə deyərlər, mərhələ-mərhələ yaranmışdır; onun formalaşması üçün 50 illik tarixi dövr lazım olmuşdur. Belə ki, həmin prinsip XX əsrin əvvəllərindən tanınmağa başlamış, yalnız BMT-nin Nizamnaməsində hüquqi cəhətdən təsbit olunduqdan sonra qəti olaraq formalaşmışdır.[2]

Göstərilən prinsipin tanınmağa başlanmasında XX əsrin əvvəllərində qəbul olunan iki beynəlxalq-hüquqi aktın rolu, xüsusi olaraq, qeyd edilməlidir ki, həmin aktlara 1907-ci il tarixli Haaqa konvensiyaları deyilir: 1) Beynəlxalq toqquşmaların dinc həlli haqqında Haaqa Konvensiyası; 2) Müqavilələrdən irəli gələn borcların alınması zamanı güc tətbiq etməyin məhdudlaşdırılması haqqında Haaqa Konvensiyası. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi formalaşmağa məhz sözügedən bu iki konvensiyanın qəbul edilməsindən başlamışdır.[3]

---

[1] Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015, с.154.

[2] Bəzi müəlliflər göstərirlər ki, sözügedən prinsip XIX əsrin axırlarından tanınmağa başlamışdır *(bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А. Бекяшев. М., 2009, с.119).

[3] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.162.

Beynəlxalq toqquşmaların dinc həlli haqqında Haaqa Konvensiyasında (1907-ci il) göstərilir ki, dövlətlər arasında münasibətlərdə mümkün qədər güc tətbiqinin qarşısını almaq məqsədilə, onlar beynəlxalq ixtilafların dinc yolla həllinin təmin olunmasına səy göstərməlidirlər; beynəlxalq ixtilaf və ya toqquşma zamanı dövlətlər silaha əl atmamışdan əvvəl, yaranmış vəziyyətdən asılı olaraq, bir və ya bir neçə dost ölkənin xoşməramlı xidmətindən və yaxud vasitəçiliyindən istifadə etməlidir.

Müqavilələrdən irəli gələn borcların alınması zamanı güc tətbiq etməyin məhdudlaşdırılması haqqında Haaqa Konvensiyası da (1907-ci il) məsələyə eyni cür yanaşır. Burada göstərilir ki, yaranmış vəziyyət nə dərəcədə imkan verərsə, dövlətlər güc tətbiq etməkdən mümkün qədər çəkinməlidir.

Hər iki konvensiyada birmənalı şəkildə belə bir çağırış ifadə olunur ki, dövlətlər öz aralarındakı münasibətlərdə gücdən istifadə etməməli, beynəlxalq toqquşma, ixtilaf və mübahisələri, ilk növbədə, dinc yolla həll etməyə çalışmalıdır. Amma həmin konvensiyalar dövlətlərin müharibə etmək hüququnu (jus ad bellum) ləğv etmir.

Göstərilən prinsipin tanınmasında Böyük Oktyabr Sosialist İnqilabının vacib əhəmiyyəti olmuşdur. Belə ki, bildiyimiz kimi, 8 noyabr 1917-ci il tarixdə II Ümumrusiya Sovetlər Qurultayında «Sülh haqqında» Dekret qəbul edilmişdir. Həmin dekret, ilk dəfə olaraq, elan etdi ki, təcavüzkar müharibə (işğalçılıq) bəşəriyyətə qarşı edilən ən böyük cinayətdir. Burada, mahiyyətcə, təcavüzkar müharibənin qadağan olunması prinsipi müəyyən edilmişdi ki, həmin prinsip güc tətbiq etməmək prinsipinin formalaşmasına böyük təsir göstərdi. Təsadüfi deyil ki, göstərilən prinsipin formalaşması, əsasən, məhz təcavüzkar müharibələrin qadağan olunması prinsipindən başlamışdır.[1] I Dünya Müharibəsi dövründə hərbi əməliyyatların əvvəllər görünməmiş miqyas alması və böyük insan itkisinə səbəb olması

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 49.

dünya birliyi qarşısında təcavüzkar müharibələrin qadağan edilməsini zərurətə çevirdi. 1919-cu ildə yaradılan və beynəlxalq sülhü təmin etmək sahəsində ilk təşkilat olan Millətlər Liqasının fəaliyyəti məhz belə müharibələrin qadağan edilməsinə yönəldi. Bu təşkilatın 1919-cu ildə qəbul olunan nizamnaməsi (ona Millətlər Liqasının Statutu da deyilir) dövlətlərin müharibə etmək hüququnu müəyyən dərəcədə məhdudlaşdırdı. Həmin sənədin 12-ci maddəsi dövlətlərin üzərinə belə bir vəzifə qoydu ki, müəyyən dinc vasitələrdən istifadə edilməyənədək onlar müharibəyə əl atmamalıdır. Belə ki, mübahisə yarandığı hallarda dövlətlər əvvəlcə onun həlli üçün dinc prosedurlardan (mübahisənin Millətlər Liqasının Şurasında, Beynəlxalq Məhkəməsinin Daimi Palatasında və ya Münsiflər Məhkəməsində baxılması) istifadə etməlidir; onlar qərar qəbul olunduğu vaxtdan üç ay ərzində mübahisəni müharibənin köməyi ilə həll edə bilməzdilər.

Millətlər Liqası təcavüzkar müharibələri qadağan edən və pisləyən bir sıra sənəd qəbul etdi. Söhbət, hər şeydən əvvəl, **Təcavüzkar müharibələr haqqında Bəyannamənin** (1927-ci il) qəbul olunmasından gedir. Bundan başqa, Millətlər Liqası çərçivəsində 27 avqust 1928-ci il tarixində **Milli siyasət aləti kimi müharibədən imtina haqqında Paris Müqaviləsi** imzalandı ki, o, 24 iyul 1929-cu ildə qüvvəyə mindi. Keçmiş SSRİ dövləti 1929-cu ildən Paris Müqaviləsinin iştirakçısı idi; həmin sənəd beynəlxalq publik hüquqda **Brian-Kelloq Paktı** və ya sadəcə olaraq, **Paris Paktı** kimi də tanınır. Paris Paktı tarixdə müharibəni qadağan edən ilk çoxtərəfli beynəlxalq müqavilə sayılır; tarixən, o, elə beynəlxalq-hüquqi akt hesab olunur ki, dövlətlərin üzərinə öz xarici siyasi problemlərini həll etməkdən ötrü müharibədən istifadə etməmək barədə öhdəlik qoyur. Belə ki, Paris Paktının 1-ci maddəsi beynəlxalq mübahisələri müharibə vasitəsi ilə həll etməyi qəti olaraq pisləyir; həmin maddədə həm də göstərilir ki, dövlətlər öz aralarındakı qarşılıqlı münasibətlərdə milli siyasət aləti kimi müharibədən imtina etməlidir.

Paris Paktının 2-ci maddəsi beynəlxalq mübahisə və münaqişələrin dinc vasitələrlə həll olunmasını nəzərdə tutur. Bu isə, əlbəttə, onun, mahiyyətcə, təcavüzkar müharibələrin qadağan olunması prinsipindən çıxış etməsini göstərir.

Paris Paktının əhəmiyyəti bundan ibarət idi ki, o, ilk dəfə olaraq, beynəlxalq mübahisə, ixtilaf və münaqişələri həll etmək üçün gücün yalnız hüquqi çərçivədə tətbiq olunmasının əsasını və başlanğıcını qoydu; o, güc tətbiq olunmasının məhdudlaşdırılması üçün hüquqi əsas yaradan sənəddir. Lakin, bunlara baxmayaraq, Paris Paktı güc tətbiq olunmasını qadağan etmir. Belə şəraitdə dövlətlər bir-birinə hücum etməmək barədə ikitərəfli beynəlxalq müqavilə bağlamaq praktikasından istifadə etməyə başladılar. Xüsusən də, keçmiş SSRİ dövləti bu müqavilə praktikasından daha tez-tez hallarda istifadə edirdi. Təsadüfi deyil ki, II Dünya Müharibəsi başlananadək SSRİ 11 dövlətlə (Əfqanıstan, İran, Türkiyə, Çin, Yuqoslaviya, Polşa, İtaliya, Almaniya, Litva və s.) hücum etməmək barədə ikitərəfli beynəlxalq müqavilə bağlamışdı. Bu müqavilələr hücum etməmək prinsipindən çıxış edirdi ki, həmin prinsip güc tətbiq etməmək prinsipinin formalaşmasında böyük rol oynadı. Hətta bir sıra müəllif göstərir ki, II Dünya Müharibəsinə kimi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi hücum etməmək prinsipi adlanırdı; BMT Nizamnaməsinin imzalanması ilə hücum etməmək prinsipi hüquqi cəhətdən təsbit edilərək, «güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi» adlanmağa başladı.[1] Düzdür, söylənilən bu fikirlərdə müəyyən dərəcədə həqiqət vardır. Şübhəsiz, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin formalaşmasında hücum etməmək prinsipi, habelə təcavüzkar müharibənin qadağan edilməsi prinsipinin böyük rol oynamalarını inkar etmək olmaz. Lakin, unutmaq olmaz ki, güc tətbiq etməmək prinsipi həm hücum etməmək, həm də təcavüzkar müharibənin qadağan olunması prinsipindən daha geniş anlayışdır. Belə ki, hücum etməmək, habelə təcavüzkar müharibənin qadağan olunması prinsipi güc tətbiq etmə-

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.81.

mək və ya güclə hədələməmək prinsipinin yalnız tərkib elementlərindən, təzahür formalarından biridir.

Bir az əvvəldə qeyd etdiyimiz kimi, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin qəti olaraq formalaşması BMT Nizamnaməsinin qəbul edilməsi ilə bağlıdır. Bu sənədin 2-ci maddəsinin 4-cü bəndində göstərilir ki, BMT-nin üzvləri öz aralarındakı beynəlxalq münasibətlərdə hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və güc tətbiqindən çəkinirlər. Bu göstərişdə birbaşa məhz güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi formulə edilmişdir.

BMT Nizamnaməsinin qəbul edilməsinə (daha doğrusu II Dünya Müharibəsinə) kimi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin beynəlxalq sənədlərdə birbaşa təsbit olunmaması bununla bağlı idi ki, Qərbin əsas məqsədi SSRİ-də sovet hakimiyyətini güc, o cümlədən hərbi güc tətbiq etməklə devirməkdən ibarət idi. II Dünya Müharibəsinin sonuna yaxın bəlli oldu ki, zəifləməyən, əksinə güclənən SSRİ-də sovet hakimiyyətini güc tətbiq etməklə devirmək qeyri-mümkündür. Buna görə də, BMT-nin Nizamnaməsində güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi hüquqi kontekstdə təsbit olundu.[1]

Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinə görə, dövlətlərin üzərinə belə bir öhdəlik düşür ki, bu öhdəliyə əsasən, hər hansı beynəlxalq mübahisə, toqquşma, ixtilaf və münaqişəni həll etmək üçün, ümumiyyətlə, münaqişəli beynəlxalq vəziyyəti aradan qaldırmaq məqsədi ilə onların gücdən istifadə etməsinə və ya güclə hədələməsinə yol verilmir.

BMT-nin Nizamnaməsi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipini formulə edir, hüquqi cəhətdən təsbit edir, lakin onun normativ məzmununu açıqlamır. Həmin prinsi-

[1] Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.33.

pin **normativ məzmunu** digər sənədlərdə müəyyən olunur. Belə sənədlərə aşağıdakılar aiddir:

- Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi;
- 1975-ci il Bəyannaməsi (ATƏM-in 1975-ci il Helsinki Yekun Aktı);
- Təcavüzün anlayışı haqqında BMT Baş Assambleyasının 1974-cü il Qətnaməsi;
- 1987-ci il Bəyannaməsi (Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin effektliliyinin artırılması haqqında 1987-ci il Bəyannaməsi).

Göstərilən sənədlər güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin normativ məzmununu konkretləşdirir, həmin prinsipi daha da inkişaf etdirir; barəsində danışdığımız prinsipin məna və mahiyyətinə aydınlıq gətirilməsi baxımından, həmin sənədlər əhəmiyyətlidir. Aydınlıq gətirməkdən ötrü isə, hər şeydən əvvəl, «güc» anlayışının hüquqi mənası izah edilməlidir. «Güc» geniş anlayış olub, özündə aşağıdakıları birləşdirir:

- hərbi güc;
- qeyri-hərbi güc.

Hərbi güc dedikdə silahdan istifadə olunmasını nəzərdə tutan hərəkət başa düşülür. Əgər hər hansı bir dövlət başqa dövlətə münasibətdə silahdan istifadə edərsə (məsələn, silahlı müdaxilə və s.), bu, həmin dövlətin hərbi güc tətbiq etməsini bildirir; buna görə hərbi gücə həm də **silahlı güc** deyilir. Müharibə etmək hərbi (silahlı) güc tətbiq etməyin əsas və başlıca formasıdır. Məsələn, Sovet qoşunlarının Əfqanıstana (1979-cu il), ABŞ qoşunlarının Kambocaya (1970-ci il), Qrenada və Liviyaya (1983-ci il), Panamaya (1989-cu il) yeridilməsi və s. hərəkətlər müharibə formasında hərbi güc tətbiq edilməsinə misal ola bilər; buna həm də ABŞ və digər Qərb ölkələrinin İraqa

hücum etməsi (2003-cü il), ABŞ və NATO-nun Yuqoslaviyaya müdaxiləsi (1999-cu il) və digər hadisələr misaldır; ABŞ özünün mövcud olduğu müddət ərzində 234 dəfə başqa ölkələrlə müharibə aparmışdır.[1]

Qeyri-hərbi güc dedikdə silahdan istifadə olunmasını nəzərdə tutmayan hərəkət başa düşülür, buna görə də, ona **qeyri-silahlı güc** də deyilir. Gücün bu növü hərbi (silahlı) xarakter daşımır. Məsələn, dövlətin iqtisadi təhlükəsizliyinə qəsd edən hərəkətlər, dövlətin iqtisadi suverenliyini və müstəqilliyini pozan iqtisadi təzyiqetmə tədbirləri, iqtisadi blokada və s.

Qeyd etməliyik ki, bəzi müəlliflər (məsələn, L.Hüseynov və b.)[2] «güc» anlayışına yalnız «hərbi (silahlı) gücü» daxil edirlər. Bu, beynəlxalq hüquq ədəbiyyatı səhifələrində mübahisəyə səbəb olan məsələlərdən biri sayılır. Bir sıra alimin haqlı mövqeyinə görə, güc dedikdə həm hərbi (silahlı), həm də qeyri-hərbi (qeyri-silahlı) güc başa düşülür.[3] Doğrudan da, bəzi beynəlxalq sənədləri nəzərdən keçirsək, görərik ki, bu sənədlər istənilən formada gücün tətbiqini yolverilməz hesab edir. BMT-nin Nizamnaməsi nəinki silahlı gücün, həmçinin qeyri-hərbi zorakılığın tətbiqini qadağan edir. Lakin BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində söhbət, ilk növbədə, silahlı (hərbi) gücün tətbiqinin qadağan edilməsindən gedir. Ona görə ki, silahlı (hərbi) güc beynəlxalq sülh işi üçün daha çox təhlükə törədir.

1975-ci il Helsinki Yekun Aktında (1975-ci il Bəyannaməsində) deyilir ki, dövlət başqa iştirakçı-dövləti məcbur etmək

---

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.107.

[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.35.

[3] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.101; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.70-71; Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.54; Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 50; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.34 və s.

məqsədi ilə bütün güc (zor) təzahürlərindən (formalarından) çəkinməli, istənilən iqtisadi təzyiq aktına yol verməməlidir. Buradan görünür ki, həmin sənəd müəyyən bir dövlətin başqa dövlətə qarşı güc tətbiq etməsinə və ya onu güclə hədələməsinə yönələn istənilən hərəkəti qadağan edir; «istənilən hərəkət» dedikdə həm silahlı gücün, həm də qeyri-silahlı zorakılığın tətbiqi başa düşülür. Bütün bunlar, mübahisəsiz olaraq, təsdiqləyir ki, beynəlxalq publik hüquq gücün istənilən formasının (həm hərbi, həm də qeyri-hərbi gücün) tətbiqini qadağan edir.[1]

Hər bir dövlət güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinə lazımınca əməl etməlidir; bu, onların üzərinə düşən əsas öhdəliklərdən biridir. Bəzən, bu və ya digər dövlət müəyyən bəhanələrlə (məsələn, beynəlmiləl borcu yerinə yetirmək, insan hüquqlarını müdafiə etmək və s.) güc tətbiq edərək öz üzərinə düşən öhdəliyi yerinə yetirmir (məsələn, dövlətin silahlı qüvvələri başqa dövlətin ərazisinə yeridilir və s.). Bu kimi hərəkətlər güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin pozulmasını ifadə edir. Həmin prinsipin pozulmasına beynəlxalq publik hüquq praktikasında, eləcə də beynəlxalq publik hüquq elmində təcavüz (təcavüzkar akt) deyilir. Təcavüz (təcavüzkar akt) isə, barəsində danışdığımız prinsipin açıq şəkildə, həm də ən ağır formada pozulmasını ifadə edir.

Təcavüzün (təcavüzkar aktın) beynəlxalq-hüquqi tərifi BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli 3314 saylı Qətnaməsində (bu sənəd BMT Baş Assambleyasının XXIX Sessiyasında qəbul olunmuşdur) verilmişdir. Bu qətnamənin («Təcavüzün anlayışı»nın) 1-ci maddəsinə uyğun olaraq, **təcavüz** (təcavüz aktı) dedikdə hər hansı dövlət tərəfindən birinci olaraq başqa dövlətin suverenliyinə, ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə və yaxud BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə bir araya sığmayan digər şəkildə silahlı güc tətbiq etməsi başa düşülür.

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.119.

Göstərilən qətnamənin («Təcavüzün anlayışı»nın) 3-cü maddəsi yeddi növ hərəkət sadalayır ki, həmin hərəkətlər təcavüz (təcavüz aktı) sayılır. Bu hərəkətlərə aşağıdakılar aiddir:

1) müəyyən bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə basqın etməsi, yaxud hər hansı hərbi işğal;
2) müəyyən bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardman etməsi və ya onun ərazisinə qarşı hər hansı silah tətbiq etməsi;
3) müəyyən bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin liman və ya sahillərini blokadaya alması;
4) müəyyən bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dəniz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etməsi;
5) müəyyən bir dövlətin başqa bir dövlətin ərazisində müqavilə əsasında yerləşən silahlı qüvvələrindən həmin müqavilənin şərtlərini pozmaqla istifadə edilməsi və yaxud həmin silahlı qüvvələrin bu müqavilənin ləğvindən sonra göstərilən ərazidə hər hansı formada qalmaqda davam etməsi;
6) dövlətin öz ərazisini üçüncü bir dövlətə qarşı təcavüz aktı törətmək üçün istifadə edən başqa bir dövlətin sərəncamına verməsi;
7) müəyyən bir dövlət tərəfindən və ya həmin dövlətin adından başqa bir dövlətə qarşı hərbi əməliyyatlar həyata keçirən silahlı bandaların (dəstələrin), qrupların, qeyri-nizami qüvvələrin və ya muzdluların göndərilməsi.

Əgər hər hansı dövlət yuxarıda göstərilən yeddi növ hərəkətlərdən birini edərsə, bu hərəkət təcavüz (təcavüz aktı) hesab ediləcəkdir. Özü də BMT Baş Assambleyasının təcavüzə anlayış verən qətnaməsinin 1-ci maddəsi **birincilik prinsipindən** çıxış edir. Bu prinsipə görə, göstərilən hərəkətləri birinci edən dövlətin əməli təcavüz (təcavüzkar akt) hesab edilir. Lakin birincilik prinsipi, bəzən, tətbiq edilmir və həmin prinsipdən kənara çıxmaq mümkündür. Belə ki, BMT-nin Təhlükəsiz-

lik Şurası bu və ya digər vəziyyətə əsasən, o cümlədən ciddi nəticənin olmamasına görə hər hansı hərəkəti təcavüz aktı hesab etməyə bilər.

Təcavüzə verilən beynəlxalq-hüquqi tərifin böyük siyasi-hüquqi əhəmiyyəti vardır. Belə ki, BMT Təhlükəsizlik Şurasının hər hansı dövlətin etdiyi bu və ya digər əməlin təcavüz aktı hesab edilməsi barədə qərar çıxarmaq hüququ vardır; hüquqi əhəmiyyəti olan həmin qərar ümumməcburi qüvvəyə malikdir. Həm də hər hansı əməlin təcavüz aktı hesab edilməsi barədə qərar çıxarmaq BMT Təhlükəsizlik Şurasının müstəsna (inhisarçı) hüququdur (BMT Nizamnaməsinin 39-cu maddəsi). Bu o deməkdir ki, belə qərarı yalnız BMT-nin Təhlükəsizlik Şurası qəbul edə bilər; hər hansı başqa qurumun dövlətlərin etdiyi əməlin təcavüz aktı kimi qiymətləndirilməsi və tanınması barədə qərar çıxarmaq hüququ yoxdur. BMT-nin Təhlükəsizlik Şurası belə hüquqa malik olan yeganə orqandır; o, həmin hüquqdan istifadə edərək bu və ya digər əməlin təcavüz aktı hesab edilməsinə dair qərar qəbul edərkən məhz göstərdiyimiz yeddi növ hərəkəti nəzərə alır. Lakin yeddi növ hərəkəti nəzərdə tutan siyahı qəti və dəqiq deyil, təxmini xarakter daşıyır. Başqa sözlə, BMT Baş Assambleyasının 1974-cü il Qətnaməsində («Təcavüzün anlayışı»nda) təcavüz aktı kimi qiymətləndirilən və tanınan hərəkətlərin qəti və dəqiq siyahısı verilmir. Eyni zamanda, həmin siyahıda göstərilməyən hərəkətlər də təcavüz aktı sayıla bilər. Belə ki, BMT-nin Təhlükəsizlik Şurası göstərilən siyahıda adı çəkilməyən digər hərəkətləri də BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, təcavüz aktı hesab etmək hüququna malikdir. BMT-nin Təhlükəsizlik Şurası bu hüquqla BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli Qətnaməsi ilə təmin olunmuşdur.

Təcavüzün (təcavüzkar aktın) ən təhlükəli forması (növü) təcavüzkar müharibə hesab edilir. 1970-ci il Bəyannaməsinə görə, **təcavüzkar müharibə** dedikdə beynəlxalq sülh əleyhinə olan elə cinayət başa düşülür ki, bu cinayət beynəlxalq-hüquqi məsuliyyətə səbəb olur. Təcavüzkar müharibə nəinki sülh əley-

hinə, həmçinin insanlıq, bəşəriyyət və beynəlxalq təhlükəsizliyə qarşı olan cinayətdir. Buna görə də, beynəlxalq publik hüquq təcavüzkar müharibələri birmənalı şəkildə qadağan edir. Belə müharibələrin törədilməsində təqsirli olan şəxslər isə Beynəlxalq Cinayət Məhkəmə kürsüsü qarşısında dayanır (Beynəlxalq Cinayət Məhkəmə Statutunun 5-ci maddəsi).[1]

«Təcavüz» geniş anlayışdır. Bu anlayışa, ilk növbədə, silahlı təcavüz aiddir. **Silahlı təcavüz** dedikdə müəyyən bir dövlətin başqa bir dövlətin suverenliyi, siyasi müstəqilliyi və s. qarşı hərbi (silahlı) güc tətbiq etməsi başa düşülür. BMT Baş Assambleyasının 1974-cü il Qətnaməsində məhz silahlı təcavüzün anlayışı verilir.

Təcavüz təkcə hərbi (silahlı) təcavüzlə məhdudlaşmır. Təcavüz dedikdə həm də aşağıdakılar başa düşülür:

– iqtisadi təcavüz;
– ideoloji təcavüz.

İqtisadi təcavüz dedikdə iqtisadi xarakterli elə təzyiq tədbirləri başa düşülür ki, bu tədbirlər dövlətin iqtisadi suverenliyini (müstəqilliyini) pozur, dövlətin iqtisadi təhlükəsizliyinə qəsd edir, dövlətin iqtisadi-təsərrüfat həyatı üçün təhlükə törədir, onun təbii sərvətlərindən istifadə edilməsinə mane olur və digər mənfi nəticələrə gətirib çıxarır. Məsələn, iqtisadi blokada bu növ təcavüzə misal ola bilər.

İdeoloji təcavüz dedikdə təcavüzkar müharibələrin, kütləvi qırğın silahlarının və s. təbliği başa düşülür. Keçmiş SSRİ dövləti təcavüz anlayışına geniş mənada baxaraq, buraya silahlı (hərbi) təcavüzdən başqa, həm də iqtisadi və ideoloji təcavüzləri daxil edirdi. 1987-ci il Bəyannaməsi də təcavüzü məhz geniş mənada işlədir; bu sənəd **geniş mənada təcavüzə yol verilməməsi** konsepsiyasından çıxış edir.

Təcavüzkar müharibələrin təbliği (ideoloji təcavüz) güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin pozulması deməkdir. Bu səbəbdən 1970-ci il Bəyannaməsi dövlətlərin

[1] URL:http://www.un.org (18.05.2018-ci il).

üzərinə təcavüzkar müharibələri təbliğ etməkdən çəkinmək kimi vacib öhdəlik qoyur.

Şübhəsiz, beynəlxalq sülh üçün hərbi (silahlı) təcavüz daha təhlükəlidir. Hərbi (silahlı) təcavüzün isə iki forması vardır: **birbaşa hərbi təcavüz** (məsələn, bir dövlətin nizamlı ordu hissələrinin başqa dövlətin ərazisinə yeridilməsi, hərbi işğalçılıq və s.), **dolayı hərbi təcavüz** (məsələn, bir dövlətin başqa dövlət ərazisində terror aktlarını təşkil etməsi, bir dövlətin başqa dövlət ərazisində baş verən vətəndaş müharibəsində iştirak etməsi, bir dövlətin başqa dövlət ərazisinə silahlı banda, muzdlular və s. göndərməsi, dövlətin başqa dövlət ərazisində vətəndaş müharibəsinin tərəflərindən birinə kömək etməsi və s.).

Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi mütləq xarakter daşımır və bu səbəbdən həmin prinsipdən kənara çıxmaq mümkündür. Belə ki, beynəlxalq publik hüquqda nəzərdə tutulan hallarda güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipindən istisnaya yol verilir; əgər belə hallar mövcud olarsa, silahlı (hərbi) güc tətbiq etmək mümkündür. Bu cür tətbiqə hərbi (silahlı) gücün qanuni (hüquqauyğun) tətbiqi deyilir.

Hərbi (silahlı) gücün qanuni (hüquqauyğun) tətbiqi dedikdə silahlı gücdən elə bir istifadə başa düşülür ki, belə istifadə güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin pozulması, yəni beynəlxalq publik hüquq pozuntusu sayılmır və buna görə də, beynəlxalq-hüquqi məsuliyyətə səbəb olmur. Beynəlxalq publik hüquq yol (icazə) verdiyinə görə belə istifadə qanuni (hüquqauyğun) sayılır.

BMT-nin Nizamnaməsi hərbi gücün qanuni (hüquqauyğun) tətbiqinin iki halını nəzərdə tutur. Birinci hal ondan ibarətdir ki, **sülh üçün təhlükə yaransın, sülh istənilən şəkildə pozulsun və ya təcavüz aktı həyata keçirilsin**. Bu hal BMT Nizamnaməsinin 42-ci maddəsində göstərilmişdir. Həmin maddəyə uyğun olaraq, BMT-nin Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələrinin köməyi ilə beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması və ya bərpası üçün zəruri olan təd-

birlər görə bilər. Deməli, sülh üçün təhlükə yarandığı, sülh pozulduğu və ya təcavüz aktı həyata keçirildiyi halda BMT-nin öz əsas orqanı olan Təhlükəsizlik Şurasının qərarına (sanksiyasına) əsasən, hərbi (silahlı) güc tətbiq etmək hüququ vardır. Hərbi (silahlı) güc yalnız BMT-nin adından və onun rəhbərliyi altında birləşmiş silahlı qüvvələr tərəfindən beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması məqsədilə tətbiq edilə bilər.

BMT-nin Nizamnaməsi hərbi (silahlı) gücün hüquqauyğun tətbiqinin həm də ikinci halını nəzərdə tutur ki, bu hala **özünümüdafiə** deyilir. BMT Nizamnaməsinin 51-ci maddəsi məhz həmin halın, yəni özünümüdafiə formasında hərbi (silahlı) gücün tətbiqinin tənzimlənməsinə həsr edilmişdir. Bu maddə hər hansı dövlətin silahlı hücumuna məruz qalmış BMT üzvü olan dövləti fərdi və ya kollektiv şəkildə (başqa dövlətlərlə birlikdə) özünümüdafiə hüququ ilə təmin edir. Belə ki, silahlı hücuma məruz qalmış dövlət silahlı hücumdan özünü müdafiə etmək üçün fərdi və ya kollektiv şəkildə hərbi güc tətbiq edə bilər. Bu zaman mütənasiblik (uyğunluq) prinsipinə əməl olunmalıdır. Silahlı hücuma məruz qalmış dövlət hərbi gücü o vaxta kimi tətbiq edir ki, BMT-nin Təhlükəsizlik Şurası beynəlxalq sülh və təhlükəsizliyin bərpası, qorunub saxlanması üçün zəruri tədbirlər görsün.

Dövlət fərdi və ya kollektiv özünümüdafiə hüququndan hərbi güc tətbiq etməklə yalnız o halda istifadə edə bilər ki, ona silahlı hücum (basqın) edilsin. Əgər dövlətə silahlı hücum edilməmişsə, o, həmin hüququ həyata keçirə bilməz. Buna görə də, yalnız silahlı basqın (hücum) olduğu halda dövlətin özünümüdafiə formasında hərbi güc tətbiq etməsi hüquqauyğundur.

«Silahlı hücum» anlayışının nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, bu anlayış yaxın vaxtlara kimi müəyyən bir dövlətin (dövlətlərin) başqa dövlətə (dövlətlərə) hərbi basqın etməsini ifadə edirdi. «Əl-Qaidə» terrorçu təşkilatının 11 sentyabr 2001-ci il tarixdə ABŞ-ın bir sıra vacib obyektinə hücum etməsindən sonra həmin anlayış daha geniş şəkildə izah olunmağa başladı. Belə ki, BMT-nin Təhlükəsizlik Şurası özünün 12 sentyabr 2001-ci il tarixli 1368-ci Qətnaməsində bey-

nəlxalq sülh və təhlükəsizlik üçün xətərli olan hərəkət kimi terror aktlarını da «silahlı hücüm (basqın)» anlayışına daxil etdi.[1] Buna görə də, BMT-nin Nizamnaməsinə uyğun olaraq, istənilən dövlətin terror aktlarından fərdi və ya kollektiv özünümüdafiə hüququ vardır.

Bəzən, hər hansı dövlətin üzərinə başqa dövlətin (dövlətlərin) real, açıq-açığına silahlı hücum etmək təhlükəsi yaranır. Bu kimi hallarda dövlətin **preventiv özünümüdafiə hüququ** (ona qabaqlayıcı müdafiə hüququ da deyilir) yaranır ki, bu hüquqa görə, özü üçün real (açıqdan-açığa) silahlı hücum təhlükəsi yaranan dövlət preventiv (qabaqlayıcı) xarakterli tədbirlər görə bilər.[2] Belə tədbirlər yalnız o halda həyata keçirilə bilər ki, BMT-nin Təhlükəsizlik Şurası bunu öz qərarı ilə qabaqcadan sanksiyalaşdırsın (BMT Nizamnaməsinin 39-cu maddəsi). Bəzən, BMT Nizamnaməsinin 51-ci maddəsi (bu maddə, bir az öncə qeyd etdiyimiz kimi, dövlətləri özünümüdafiə hüququ ilə təmin edir) elə izah edilir ki, o, dövlətlərə onların üzərinə real və açıqdan-açığa silahlı hücum təhlükəsi yarandığı halda preventiv qaydada güc tətbiq etmək hüququ verir.

Qeyd etməliyik ki, silahlı hücuma məruz qalan istənilən dövlətin **BMT Təhlükəsizlik Şurasının qabaqcadan qərarı olmadan özünümüdafiə hüququ** vardır. Dövlətlər BMT Nizamnaməsindən asılı olmayaraq, tarixən lap əvvəllərdən özünümüdafiə hüququna malikdir. Lakin BMT üzvü olan dövlət özünümüdafiə hüququnu həyata keçirən zaman gördüyü tədbirlər barədə BMT-nin Təhlükəsizlik Şurasına dərhal məlumat verməlidir.[3] Ona görə ki, beynəlxalq sülh və təhlükəsizliyin bərpası, təmin edilməsi və qorunub saxlanılması üçün lazımi tədbirləri görmək məsələsi BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə aiddir.

---

[1] URL:http://www.un.org (18.05.2018-ci il); Международное право. Учебник/Отв. ред. Б.Р. Тузмухамедов. М., 2015, с. 154.

[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.40.

[3] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 111.

BMT Təhlükəsizlik Şurasının qərarı əsasında həm də regional saziş iştirakçıları regional səviyyədə güc tətbiq edə bilərlər (BMT Nizamnaməsinin 53-cü maddəsi). Məsələn, NATO, Ərəb Dövlətləri Liqası, Amerika Dövlətləri Təşkilatı və s. regionda beynəlxalq sülh və təhlükəsizliyin bərpası üçün güc tətbiq edə bilərlər. Bildiyimiz kimi, NATO 1991-ci ildə İraqa, 1998-1999-cu illərdə Yuqoslaviyaya, 2001-ci ildə Əfqanıstana, 2003-cü ildə yenidən İraqa qarşı hərbi güc tətbiq etmişdir; NATO-nun 2011-ci ildən başlayaraq Liviya, Suriya, Yəmən və avtoritar-antidemokratik totalitar rejimlərin hökm sürdüyü digər ölkələrə qarşı hərbi güc tətbiq etməsi də hüquqauyğun hərəkət hesab olunmalıdır. Ona görə ki, NATO həm hüquqi, həm də faktiki cəhətdən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsi əsasında və ona uyğun olaraq hərəkət edir, onun güc tətbiq etməsi hüquqauyğundur.

Son zamanlar ciddi beynəlxalq problemə çevrilmiş **«humanitar müdaxilə» məsələsini** hərbi gücün hüquqauyğun (qanuni) tətbiqi kimi qiymətləndirilməsi mümkündür. Belə ki, hər hansı dövlətdə insan hüquqları kütləvi şəkildə, geniş miqyasda və müntəzəm surətdə pozula bilər. Bu kimi hallarda, təbii ki, insan hüquqlarının müdafiəsi tələb edilir. Bundan ötrü, yəni insan hüquqlarını müdafiə etmək üçün həmin dövlətə qarşı hərbi güc tətbiq edilir ki, buna beynəlxalq publik hüquq doktrinasında, eləcə də dövlətlərarası praktikada «humanitar müdaxilə» deyilir. Məsələn, keçən yüzilliyin axırlarında Yuqoslaviyada Kosovo albanlarının hüquqlarının kütləvi surətdə pozulması, yəqin ki, hamıya məlumdur. Kosovo albanlarının pozulmuş hüquqlarını müdafiə etmək üçün NATO Yuqoslaviyaya qarşı hərbi güc tətbiq etdi. Bir sıra Rusiya alimindən (məsələn, Q.M.Melkov,[1] Y.D.İlin[2] və başqalarından[3]) fərqli olaraq, bu kimi «humanitar müdaxilə»ni güc tətbiq etməmək və ya güclə

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.85.
[2] Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.35.
[3] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.221.

hədələməmək prinsipinin pozulması halı hesab etmirik. NATO tərəfindən «humanitar müdaxilə» həm də Dağlıq Qarabağda həyata keçirilə bilərdi. Belə ki, burada da Ermənistan işğalçıları tərəfindən insan hüquqları kütləvi şəkildə, ağlasığmayan dərəcədə pozulmuş, təcavüz aktı həyata keçirilmişdi. Ümumiyyətlə, hər hansı dövlətdə əhalinin müəyyən qrupuna qarşı genosid (soyqırımı) və etnik təmizləmə siyasəti həyata keçirilərsə, habelə hərbi və bəşəriyyət (insanlıq) əleyhinə olan cinayətlər törədilərsə, həmin dövlətə qarşı silahlı güc tətbiq edilməlidir, bu şərtlə ki:

– dinc vasitələr kifayət etməsin və hər hansı nəticə verməsin;
– milli hakimiyyət orqanları genosidə və s. məruz qalmış əhalini müdafiə etmək iqtidarında olmasın.

Silahlı gücü həm də müstəmləkə və asılı ölkələr öz dövlət müstəqilliyi uğrunda mübarizə zamanı, öz müqəddəratını təyinetmə hüququnu həyata keçirərkən tətbiq edir.[1] Digər tərəfdən, öz müqəddaratını təyinetmə hüququnu reallaşdırmaq üçün bu və ya digər xalq həmin hüququn həyata keçirilməsinə mane olan qüvvələrə qarşı silahlı mübarizə apara bilər.[2]

Bəzən, hər hansı dövlət başqa bir dövlətə münasibətdə qeyri-səmimi davranışa və yaxud beynəlxalq xarakterli cinayət sayılmayan hüquq pozuntusuna yol verir. Buna cavab olaraq həmin dövlət retorsiya və ya repressaliya qaydasında **hərbi gücdən istifadə ilə bağlı olmayan tədbirlər** (qeyri-silahlı tədbirlər) görə bilər; belə hallarda dövlət cavab tədbiri kimi hərbi (silahlı) güc tətbiq edə bilməz. Hərbi gücdən istifadə ilə bağlı olmayan tədbirlərə (qeyri-silahlı tədbirlərə) gəldikdə isə, qeyd etməliyik ki, belə tədbirlərin siyahısı BMT Nizamnaməsinin

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 53.
[2] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.55.

41-ci maddəsində verilmişdir. Həmin siyahıya aşağıdakılar daxildir:

- iqtisadi münasibətlərin tam kəsilməsi;
- iqtisadi münasibətlərin qismən kəsilməsi (iqtisadi münasibətlərin tam və ya qismən kəsilməsi, mahiyyətcə, embarqo, blokada və boykot formasında ifadə oluna bilər)[1];
- dəmir yolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin kəsilməsi;
- diplomatik əlaqələrin kəsilməsi.

Məsələn, hər hansı dövlət başqa dövlətə qarşı beynəlxalq publik hüquq pozuntusu törədir. Buna cavab olaraq zərərçəkən dövlət beynəlxalq publik hüquq pozuntusu törədən dövlətə qarşı cavab tədbiri görür ki, buna **repressaliya** deyilir. Əgər cavab tədbiri hərbi gücdən istifadə ilə bağlı olarsa, buna **hərbi** və yaxud **silahlı repressaliya** deyilir.[2] Beynəlxalq publik hüquq hərbi (silahlı) repressaliyanı qadağan edir. 1970-ci il Bəyannaməsinə uyğun olaraq, hərbi (silahlı) repressaliyadan istifadə etmək yolverilməz hal hesab olunur.

Qeyd etməliyik ki, cavab tədbiri kimi yalnız qeyri-silahlı repressaliyadan istifadə edilə bilər. Məsələn, hər hansı dövlət başqa dövlətin diplomatlarını qanunsuz və əsassız olaraq tutub saxlayır. Belə halda həmin dövlət cavab tədbiri kimi silahlı güc tətbiq edə bilməz; o, yalnız hərbi (silahlı) gücdən istifadə ilə bağlı olmayan tədbirlər görə bilər (məsələn, diplomatik münasibətləri kəsə bilər və s.).

Məqsəd və təyinat baxımından, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi beynəlxalq sülh və təhlükəsizliyi təmin edən prinsiplər sırasına daxildir. İfadə etdiyi hüquqi göstəriş nöqteyi-nəzərindən isə, o, beynəlxalq publik hüququn **qadağanedici prinsiplərindən** biri sayılır.

---

[1] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с. 307.

[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.69.

6.3.2. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinin əsas məqsəd və təyinatı beynəlxalq sülh və təhlükəsizliyi təmin etməkdən ibarətdir. Özündə əks etdirdiyi hüquqi göstəriş baxımından, o, beynəlxalq publik hüququn **məcburedici prinsiplərinə** aiddir.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi dövlətlərin üzərinə elə bir öhdəlik qoyur ki, bu öhdəliyə görə, onlar beynəlxalq (dövlətlərarası) münasibətlərin bu və ya digər sahəsində öz aralarında yaranmış ixtilafları (fikir ayrılığını) güc, o cümlədən hərbi (silahlı) güc tətbiq etmədən yalnız dinc vasitələrin köməyi ilə tənzimləməlidirlər. Bu prinsip onu ifadə edir ki, dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında yaranan beynəlxalq mübahisə xarakterindən və əmələgəlmə səbəbindən asılı olmayaraq, yalnız qeyri-güc (dinc) metodlar vasitəsilə həll edilməlidir. Məlum olduğu kimi, tarixən dövlətlər öz aralarında yaranmış beynəlxalq mübahisələri iki alternativ metodun köməyi ilə həll etmişlər. Bunlardan biri güc (hərbi), digəri isə dinc (qeyri-hərbi) metoddur. Barəsində danışdığımız prinsip məhz beynəlxalq mübahisələrin yalnız dinc (qeyri-hərbi) metodla tənzimlənməsini və həll olunmasını nəzərdə tutur.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinin ilkin formalaşma mərhələsi XIX əsrin axırlarına və XX əsrin əvvəllərinə təsadüf edir. Belə ki, 1899 və 1907-ci illərdə beynəlxalq toqquşmaların tənzimlənməsi haqqında iki **Haaqa Konvensiyası** qəbul edildi. Bu konvensiyalar beynəlxalq fikir ayrılığı, münaqişə, ixtilaf və toqquşmaların dinc yolla həll olunması ideyasından çıxış edir. Lakin həmin beynəlxalq konvensiyalar beynəlxalq mübahisələri dinc yolla həll etmək ideyasını hü-

quqi prinsip kimi formulə və təsbit etmirdi.[1] Ona görə ki, istənilən hüquqi prinsipin, o cümlədən beynəlxalq publik hüququn əsas prinsipinin məcburi hüquqi qüvvəsi olmalıdır. Haaqa konvensiyaları isə beynəlxalq mübahisələri dinc yolla həll etməyi dövlətlərin hüquqi vəzifəsi (öhdəliyi) kimi müəyyənləşdirmirdi və bu səbəbdən, əlbəttə, onun məcburi hüquqi qüvvəsi ola bilməzdi. Müharibəni qadağan etməyən həmin konvensiyalar beynəlxalq mübahisələri həll etmək üçün dinc vasitələrdən istifadə olunmasını dövlətlərə yalnız tövsiyyə edirdi.

Haaqa konvensiyaları həm də beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrini (üsullarını) müəyyənləşdirirdi. Belə vasitələrə (üsullara) aşağıdakılar aiddir: xoşməramlı xidmət, vasitəçilik, beynəlxalq istintaq komissiyası yaratmaq, beynəlxalq barışdırıcı komissiya yaratmaq, bilavasitə danışıqlar aparmaq, beynəlxalq münsiflər məhkəməsi yaratmaq və s.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək ideyasından həm də **Millətlər Liqasının Statutu** çıxış edirdi. Bu sənəd, mahiyyətcə, müharibəni, yəni dövlətlər arasında mübahisəni həll etmək vasitəsi (üsulu) kimi müharibəni qadağan etmir. Lakin, buna baxmayaraq, sözügedən beynəlxalq-hüquqi sənəd üzv-dövlətlərin üzərinə belə bir vəzifə qoyur ki, onlar öz aralarında yaranan mübahisələri tənzimləmək üçün dinc vasitələrdən başlasınlar. Onun 12-ci maddəsi mübahisəni həll etmək üçün lazım olan bir neçə dinc vasitə müəyyən edirdi: mübahisəyə beynəlxalq münsiflər məhkəməsində baxmaq, mübahisəyə Millətlər Liqasının Şurasında baxmaq və s.

Millətlər Liqasının Nizamnaməsi (Statutu) beynəlxalq mübahisələrin dinc yolla həll edilməsinə hüquqi cəhətdən məcburi xarakter verməyə təşəbbüs göstərirdi. Lakin bu, heç də həmin sənəddə beynəlxalq mübahisələrin dinc yolla həll edilməsinin hüquqi prinsip kimi təsbit olunmasını ifadə etmirdi. Ona görə ki, həmin sənəd, indicə qeyd etdiyimiz kimi, müharibəni qada-

[1] Bəzi müəlliflər göstərilən prinsipin yaranmasını Haaqa konvensiyaları ilə bağlayır və əlaqələndirirlər *(məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.85.).

ğan etmirdi. O, əvvəlcə mübahisələrin dinc vasitələrlə həll olunmasını nəzərdə tuturdu; bu, mümkün olmazsa və yalnız bundan sonra məsələ müharibə yolu ilə həll oluna bilərdi.[1]

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinin formalaşmasında **Paris Paktının,** yəni Milli siyasət aləti kimi müharibədən imtina haqqında 1928-ci il tarixli Paris Müqaviləsinin (Brian-Kelloq Paktı) rolunu, xüsusi olaraq, qeyd etmək lazımdır. Məlum olduğu kimi, Paris Paktı milli siyasət vasitəsi kimi müharibədən imtina olunması barədə birmənalı göstəriş ifadə edir; həmin Pakt imzalanana kimi dinc vasitələr beynəlxalq mübahisələri həll etməyin alternativ, mümkün variantlarından yalnız biri sayılırdı; onun qəbulundan sonra isə vəziyyət tam dəyişdi. Belə ki, Paris Paktının imzalandığı vaxtdan etibarən istənilən beynəlxalq mübahisə, ixtilaf, münaqişə və fikir ayrılığı yalnız dinc vasitələrin köməyi ilə həll oluna bilərdi. Təcavüzkar müharibəni beynəlxalq-hüquqi baxımından, qadağan edən Paris Paktı dövlətlər arasında yaranan mübahisələrin yalnız dinc vasitələrlə həll olunması kimi vacib vəzifə müəyyən edirdi;[2] onun 2-ci maddəsində göstərilirdi ki, dövlətlər öz aralarında yaranan fikir ayrılığını və ya münaqişələrin tənzimlənməsini, yaxud həll olunmasını yalnız dinc vasitələrlə həyata keçirməlidirlər. Beynəlxalq mübahisələrin dinc yolla həll olunması məcburi hüquqi qüvvəsi olan imperativ hüquqi prinsip kimi məhz Paris Paktının (Paris Müqaviləsinin) imzalandığı vaxtdan formalaşmağa başlamışdır.[3] Lakin Paris Paktı beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipini qəti olaraq

[1] Alimlərdən V.M.Şumilov belə bir fikir irəli sürür ki, Millətlər Liqasının Nizamnaməsinin (Statutunun) 12-ci maddəsi beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipini təsbit edir *(bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.101); L.H. Hüseynov da belə bir fikir söyləyir ki, Millətlər Liqasının Statutu həmin prinsipi məhdud çərçivədə təsbit edir *(bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.38).

[2] *Bu barədə bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 55.

[3] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.223.

təsbit etmirdi; həmin prinsipin qəti surətdə təsbit olunması BMT Nizamnaməsinin qəbul olunması ilə bağlıdır. Belə ki, BMT-nin Nizamnaməsi beynəlxalq mübahisələrin dinc yolla həll olunmasını qəti formada beynəlxalq publik hüququn əsas prinsiplərindən biri kimi təsbit edir və tanıyır.[1] Həmin sənədin 2-ci maddəsinin 3-cü bəndində göstərilir ki, BMT-nin bütün üzvləri öz aralarında yaranmış beynəlxalq mübahisələri beynəlxalq sülhü, təhlükəsizliyi və ədaləti təhlükəyə məruz qoymamaq əsasında dinc vasitələrlə həll etməlidirlər. Burada məhz qəti formada beynəlxalq publik hüququn əsas prinsiplərindən biri olan beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi formulə edilmişdir.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi həmçinin bir sıra **beynəlxalq-hüquqi sənəddə** də təsbit olunmuşdur: məsələn, 1970-ci il Bəyannaməsi, 1975-ci il Helsinki Yekun Aktı (1975-ci il Bəyannaməsi), 1982-ci il Manila Bəyannaməsi (Beynəlxalq mübahisələri dinc yolla həll etmək haqqında Manila Bəyannaməsi), BMT Baş Assambleyasının bir sıra qərarı və s.

Göstərilən prinsip öz normativ ifadəsini həm də bir sıra **beynəlxalq regional müqavilədə** tapmışdır. Söhbət, ilk növbədə, beynəlxalq regional təşkilatların nizamnamələrindən gedir. Bildiyimiz kimi, hər hansı dövlətlərarası təşkilatın nizamnaməsi beynəlxalq müqavilə sayılır. Məsələn, Ərəb Dövlətləri Liqası Paktı, Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi, Afrika İttifaqının Təsis Aktı, NATO-nun yaradılması haqqında Saziş (Şimali Atlantika Təşkilatı Müqaviləsi) və digər regional beynəlxalq aktlar beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipindən çıxış edir.

Göstərilən prinsip habelə **MDB Nizamnaməsində** də formulə edilmişdir. Bu sənəd həmin prinsipin BMT Nizamnaməsindəki formulunu eyni ilə, olduğu kimi təkrarlayır: beynəlxalq

[1] *Daha ətraflı:* Левин Д.Б. Принцип мирного разрешения международных споров. М., 1977, с.19-21.

mübahisələr dinc vasitələrlə elə həll edilməlidir ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmasın.

Göstərilən beynəlxalq-hüquqi aktlardan başqa, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi bir sıra çoxtərəfli və ikitərəfli beynəlxalq müqavilədə də təsbit olunmuşdur. Çoxtərəfli və ikitərəfli beynəlxalq müqavilələrin əksəriyyəti ya həmin prinsipə istinad olunması barədə göstəriş ifadə edir, ya da onu təsbit edən norma nəzərdə tutur.

Göstərilən prinsipin adından, eləcə də formulundan belə görünür ki, o, dövlətlərarası münasibətlərdə yaranan **beynəlxalq mübahisələrə** tətbiq edilir. Lakin, həqiqətdə və əslində, o, təkcə beynəlxalq mübahisələrə şamil olunmur; bu prinsip daha geniş məzmuna malik olub, beynəlxalq mübahisələrdən başqa, həm də **beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyətə aiddir**. «Beynəlxalq mübahisə» və «beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyət» kimi iki anlayış isə, bir-birinə nə qədər yaxın olsalar da məzmunca üst-üstə düşmür. Təsadüfi deyil ki, BMT-nin Nizamnaməsi həmin anlayışları bir-birindən fərqləndirir; lakin onların arasında hansı meyarlar əsasında hədd qoyulması sualına burada cavab verilmir. Başqa sözlə, BMT-nin Nizamnaməsi «beynəlxalq mübahisə» və «beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyət» anlayışlarını bir-birindən fərqləndirməyə imkan verən meyarları müəyyənləşdirmir.

Dövlətlərarası münasibətlər sahəsində yaranan bu və ya digər məsələnin beynəlxalq mübahisə və yaxud beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyət kimi qiymətləndirilməsi BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə aiddir. Təhlükəsizlik Şurasının praktikasında hər hansı aydın, dəqiq və dürüst meyar yaranmadığından bu problem hər dəfə konkret hal nəzərə alınmaqla həll olunur.[1]

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüquq beynəlxalq mübahisənin hamılıqla qəbul edilmiş və ümumtanınmış

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 56.

normativ (leqal) anlayışını vermir. Ancaq beynəlxalq publik hüquq doktrinası onun elmi tərifinin formulə edilməsinə təşəbbüs göstərir. Bunu nəzərə alaraq, beynəlxalq mübahisəyə elmi anlayış vermək mümkündür.

Beynəlxalq mübahisə dedikdə dövlətlərarası münasibətlərdə bir-birinə qarşılıqlı tələblər irəli sürən tərəflər arasında ortaya çıxan, tənzimlənməyən və həll olunmayan elə bir məsələ (fikir ayrılığı) başa düşülür ki, bu məsələnin dəqiq predmeti vardır. Zənnimizcə, verdiyimiz bu anlayış beynəlxalq mübahisəni xarakterizə edən meyarları (xarakterik əlamətləri) müəyyənləşdirməyə imkan verir. **Birinci meyar** ondan ibarətdir ki, beynəlxalq mübahisənin dəqiq və dürüst, aydın şəkildə ifadə edilmiş **predmeti (mübahisə predmeti)** olmalıdır. **İkinci,** beynəlxalq mübahisənin tərəfləri olmalıdır; başqa sözlə, beynəlxalq mübahisə **iki tərəf arasında** yaranmalıdır. Belə ki, dövlətlər arasında tənzimlənməsi və həll olunması tələb edilən hər hansı beynəlxalq məsələ (fikir ayrılığı) ortaya çıxa bilər. Məhz belə beynəlxalq məsələ (fikir ayrılığı) beynəlxalq mübahisə adlanır. Beynəlxalq mübahisələrdə tərəf qismində çox vaxt və əksər hallarda dövlətlər çıxış edir. Bununla bərabər, dövlətlərarası sistemin digər iştirakçıları da (məsələn, dövlətəoxşar qurumlar, dövlətlərarası beynəlxalq təşkilatlar və s.) beynəlxalq mübahisənin tərəfi ola bilər; həm də beynəlxalq mübahisə dövlətlərarası münasibətlərdə yaranmalıdır.[1] Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi məhz dövlətlərarası münasibətlərdə yaranan mübahisələrə şamil olunur. Bu səbəbdən beynəlxalq mübahisəyə «**dövlətlərarası mübahisə»** deyilsə, daha dəqiq olardı.[2] Məsələ burasındadır ki, geniş mənada işlədilən beynəlxalq mübahisə anlayışına dövlətlərarası mübahisədən başqa, qeyri-dövlətlərarası mübahisədə də daxildir. **Qeyri-dövlətlərarası mübahisə** isə müxtəlif dövlətlərin ayrı-ayrı fiziki

[1] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.56.
[2] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.255.

və hüquqi şəxsləri arasında yaranır, yəni qeyri-dövlətlərarası münasibətlərdə ortaya çıxır. Təbii ki, dövlətlərarası hüquq sayılan beynəlxalq publik hüququn əsas prinsiplərindən biri kimi beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi ayrı-ayrı dövlətlərin fiziki və hüquqi şəxsləri arasında yaranan beynəlxalq mübahisələrə tətbiq oluna bilməz. Ona görə ki, belə mübahisələr dövlətlərin daxili səlahiyyətinə aid olan işlərlə bağlıdır və beynəlxalq xüsusi hüquqla tənzimlənir. Eyni zamanda, əgər göstərilən prinsip həmin mübahisələrə şamil olunsa, bu, beynəlxalq publik hüququn digər əsas prinsiplərindən birinin – dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin pozulması demək olardı. Qeyd etməliyik ki, qeyri-dövlətlərarası mübahisələr dövlətlərin daxili (milli) yurisdiksiyası çərçivəsində həll olunur.

Beynəlxalq mübahisələrin **üçüncü** xarakterik əlaməti ondan ibarətdir ki, **mübahisə edən tərəflər bir-birinə qarşılıqlı tələblər** irəli sürməlidirlər. Əgər tərəflər bir-birinə qarşılıqlı tələblər irəli sürərlərsə, bu o deməkdir ki, onlar arasında beynəlxalq mübahisə yaranmışdır; əksinə, əgər tərəflər bir-birinə qarşılıqlı tələblər irəli sürməzlərsə, istər-istəməz onlar arasında beynəlxalq mübahisə yaranmamış olur.[1]

Beynəlxalq mübahisələrin **iki əsas növü** fərqləndirilir ki, həmin növlər bunlardan ibarətdir:

– hüquqi mübahisələr;

– siyasi mübahisələr.

Hüquqi mübahisələr odur ki, onların predmetini beynəlxalq-hüquqi məsələlər təşkil edir. Misal üçün, müəyyən əmlaka (torpaq sahəsinə) hansının mülkiyyət hüququnun olması barədə iki dövlət arasında yaranan məsələ beynəlxalq-hüquqi mübahisə sayılır; dövlətin başqa dövlətdən aldığı borcu qaytar-

[1] Müəlliflərdən S.V.Çerniçenko qeyd edir ki, maraqlı dövlətlər, bəzən, bir-birinə qarşılıqlı tələblər irəli sürdüklərinə baxmayaraq, onlar heç də öz aralarında beynəlxalq mübahisə yaranmasını qəbul etmirlər (bax: Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.56).

maması ilə bağlı olaraq ortaya çıxan məsələ də beynəlxalq-hüquqi mübahisəyə nümunədir və s.

Qeyd etmək vacibdir ki, beynəlxalq-hüquqi mübahisələrdə hüquqi elementlər üstünlük təşkil edir. Belə ki, hər hansı mübahisəni, əsasən və başlıca olaraq, hüquqi elementlər xarakterizə edərsə, belə mübahisə hüquqi mübahisə sayılır. Hüquqi elementlər üstünlük təşkil etdiyinə görə, beynəlxalq mübahisələrin bu növü, adətən, hüquqi prosedurlar vasitəsi ilə həll olunur. Məsələn, BMT-nin Beynəlxalq Məhkəməsi və ya MDB-nin İqtisad Məhkəməsi, yaxud Ümumdünya Ticarət Təşkilatının Mübahisələrin həlli üzrə Orqanı və s. vasitəsi ilə məsələni tənzimləmək hüquqi prosedura misaldır.

Siyasi mübahisələr odur ki, onların predmetini siyasi məsələlər (məsələn, iki dövlət arasında hərbi münaqişənin davam etməsi ilə bağlı məsələ və s.) təşkil edir; bu növ mübahisədə siyasi elementlər üstünlük təşkil edir. Ona görə də, siyasi mübahisələr siyasi prosedurlar (məsələn, danışıqlar, vasitəçilik və s.) vasitəsi ilə həll olunur. Məsələn, siyasi orqan olan BMT-nin Təhlükəsizlik Şurası və s. siyasi prosedurlara misaldır. Müəyyən hallarda siyasi prosedurların köməyi ilə həm də beynəlxalq-hüquqi mübahisələr həll olunur. Ona görə ki, istənilən beynəlxalq mübahisədə, praktiki olaraq, həm siyasi, həm də hüquqi elementlər mövcuddur.

Beynəlxalq-hüquqi mübahisələri siyasi mübahisələrdən fərqləndirməyin və ayırmağın vacib praktiki əhəmiyyəti vardır; məhz onun əsasında BMT Təhlükəsizlik Şurasının və BMT Beynəlxalq Məhkəməsinin səlahiyyətləri arasında həddqoymaq, onları bir-birindən ayırmaq mümkün olur. Belə ki, siyasi mübahisələrə baxmaq BMT Təhlükəsizlik Şurasının, hüquqi mübahisələrə baxmaq isə BMT Beynəlxalq Məhkəməsinin səlahiyyətinə aiddir.

Beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyət odur ki, mənafe və maraqların toqquşması nəticəsində əmələ gələn bu vəziyyət dövlətlərarası münasibətlər sahəsində beynəlxalq gərginlik yaradır. Həmin vəziyyət beynəlxalq durumu kəskinləşdirə (ağır-

laşdıra) bilər və bu səbəbdən dinc tənzimetmə vasitələrinin tətbiq olunmasını tələb edir. Odur ki, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi həm də beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyətlərə şamil olunur.[1] Belə ki, elə beynəlxalq ixtilaflı (münaqişəli) vəziyyətlər vardır ki, onlar beynəlxalq təhlükəsizlik və sülh üçün təhlükə törədir. Bu cür vəziyyətlər beynəlxalq təhlükəsizlik və sülhün pozulmasına səbəb ola bilər; buna görə də, onlara beynəlxalq hüquq ədəbiyyatı səhifələrində, bəzən, beynəlxalq təhlükəli vəziyyətlər deyilir.[2]

Beynəlxalq təhlükəli vəziyyətlər bir sıra əlamətə görə beynəlxalq mübahisələrdən fərqlənir. **Birinci**, beynəlxalq təhlükəli vəziyyətlərin **konkret mübahisə** predmeti yoxdur. Ona görə ki, beynəlxalq təhlükəli vəziyyət hələ mübahisə kimi rəsmiləşdirilməyən durumdur.[3] **İkinci**, beynəlxalq təhlükəli vəziyyətlər bir-biri ilə **mübahisə edən tərəflərin iştirakı olmadan yaranır**. Başqa sözlə, beynəlxalq təhlükəli vəziyyətlər əmələ gələn zaman tərəflər olmur. Məsələn, hər hansı dövlət əsaslı olmayan birtərəfli tələb (məsələn, ərazi iddiası və s.) irəli sürür ki, bunun nəticəsində beynəlxalq təhlükəli vəziyyət yaranır; burada, göründüyü kimi, bir-biri ilə mübahisə edən tərəflər iştirak etmir. **Üçüncü**, beynəlxalq təhlükəli vəziyyət **qarşılıqlı tələblərin irəli sürülməsi nəticəsində yaranmır**. Başqa sözlə, beynəlxalq təhlükəli vəziyyət qarşılıqlı tələblər irəli sürülmədən əmələ gəlir; çünki qarşılıqlı tələbləri yalnız bir-biri ilə mübahisə edən tərəflər irəli sürə bilərlər.[4] İndicə qeyd etdiyimiz kimi, beynəlxalq təhlükəli vəziyyətlər bir-biri ilə mübahisə edən tərəflər olmadan yaranır. Məsələn, hər hansı dövlət birtərəfli

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.40.
[2] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.255.
[3] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 113.
[4] S.V.Çerniçenko belə bir fikir söyləyir ki, beynəlxalq təhlükəli vəziyyət qarşılıqlı tələblər olsa da yarana bilər *(bax:* Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.56).

qaydada elə bir hərəkət edir ki, bu hərəkət güc tətbiq olunmaqla mövcud durumun onun öz xeyrinə dəyişdirilməsinə yönəlir; həmin hərəkət nəticəsində beynəlxalq təhlükəli vəziyyət yaranır. Başqa bir misalda, dövlətlərin mənafe və maraqlarının konkret tələblər irəli sürülməklə bağlı olmayan toqquşması nəticəsində siyasi durum pisləşir; bunun nəticəsində beynəlxalq təhlükəli vəziyyət yaranır.

Beynəlxalq təhlükəli vəziyyətləri, eləcə də beynəlxalq mübahisələri BMT-nin Nizamnaməsi **iki yerə** bölür:

- davam etməsi sülh və təhlükəsizliyi təhdid edən (təhlükə yaradan) mübahisə və vəziyyət;
- davam etməsi sülh və təhlükəsizliyi təhdid etməyən (təhlükə yaratmayan) mübahisə və vəziyyət.

Qeyd etməliyik ki, BMT Nizamnaməsinin beynəlxalq mübahisə və vəziyyətləri bu kimi iki yerə bölməsinin vacib siyasi əhəmiyyəti vardır. Belə ki, dövlətlər, ilk növbədə, davam etməsi sülh və təhlükəsizliyi təhdid edən mübahisə və vəziyyətləri həll etməlidirlər. BMT-nin Nizamnaməsi dövlətlərin üzərinə, hər şeydən əvvəl, onları tənzimləmək vəzifəsi qoyur. Davam etməsi sülh və təhlükəsizliyi təhdid etməyən mübahisələrə və vəziyyətlərə gəldikdə isə, qeyd etməliyik ki, maraqlı dövlətlər onların da dinc yolla tənzim edilməsinə çalışmalıdırlar. Belə ki, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi göstərilən növlər (davam etməsi sülh və təhlükəsizliyi həm təhdid edən, həm də təhdid etməyən mübahisə və vəziyyətlər) də daxil olmaqla bütün növ mübahisə və vəziyyət hallarına şamil olunur.[1] Müəyyən mübahisə və vəziyyətin hansı konkret növə aid edilməsi məsələsinə gəldikdə isə, bildirməliyik ki, bu məsələ BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə aiddir.

BMT-nin Təhlükəsizlik Şurası, əvvəldə göstərdiyimiz kimi, hər hansı problemi «**mübahisə**» və yaxud «**vəziyyət**» kimi qiy-

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.223.

mətləndirmək səlahiyyətinə malikdir. Bu, kifayət qədər vacib məsələdir. Belə ki, beynəlxalq mübahisələri beynəlxalq təhlükəli vəziyyətlərdən ayırmağın və fərqləndirməyin həm praktiki, həm də hüquqi əhəmiyyəti vardır. Əgər BMT-nin Təhlükəsizlik Şurası bu və ya digər problemi **beynəlxalq mübahisə** hesab edərsə, həmin problem BMT Beynəlxalq Məhkəməsinin köməyi ilə həll olunur. **BMT-nin Beynəlxalq Məhkəməsi** elə bir orqandır ki, o, yalnız beynəlxalq mübahisələrə baxır; beynəlxalq təhlükəli vəziyyətləri isə, o, baxıb həll etmir.

Beynəlxalq mübahisələrə BMT-nin Beynəlxalq Məhkəməsində baxılması məcburi deyildir. Düzdür, bəzi Qərb ölkələri çalışırlar ki, beynəlxalq mübahisələrə BMT-nin Beynəlxalq Məhkəməsində baxılması məcburi olsun. Ancaq unutmaq olmaz ki, yalnız o dövlətlər üçün BMT Beynəlxalq Məhkəməsinin yurisdiksiyası məcburi ola bilər ki, həmin dövlətlər yazılı formada bildirsinlər (BMT Beynəlxalq Məhkəmə Statutunun 36-cı maddəsi). Lakin bu, onların vəzifəsi deyil, hüququdur. Buna görə də, dövlətlər BMT Beynəlxalq Məhkəməsinin yurisdiksiyasını özləri üçün məcburi hesab edə və ya etməyə də bilərlər. Dövlətlərin böyük əksəriyyəti indiyə kimi qəbul etməmişlər ki, BMT Beynəlxalq Məhkəməsinin yurisdiksiyası onlar üçün məcburidir; bununla həmin dövlətlər göstərmək istəyirlər ki, onlar üçün BMT Beynəlxalq Məhkəməsinin yurisdiksiyası fakultativdir, yəni məcburi deyildir.

BMT-nin Beynəlxalq Məhkəməsi tərəflər arasında yaranan hüquqi mübahisələrə (hüquqi xarakterli mübahisələrə) baxır. BMT-nin Nizamnaməsinə görə, belə mübahisələr baxılmaq üçün BMT-nin Beynəlxalq Məhkəməsinə verilir (36-cı maddənin 3-cü bəndi). BMT Beynəlxalq Məhkəməsinin Statutuna görə, **hüquqi mübahisələr** aşağıdakı məsələlərə aiddir (36-cı maddənin 3-cü bəndi):

– beynəlxalq müqavilələrin şərhinə;
– istənilən beynəlxalq-hüquqi məsələyə;

– beynəlxalq öhdəliyin pozulmasına səbəb olan faktın müəyyənləşdirilməsinə;

– beynəlxalq öhdəliyin pozulmasına görə zərərin əvəzinin ödənilməsinin xarakter və miqdarına.

Məsələn, BMT-nin Beynəlxalq Məhkəməsi 1999-cu ildə ABŞ-ın Yuqoslaviyaya qarşı güc tətbiq etməsinin hüquqauyğun olması barədə mübahisəyə baxmışdır.[1] Beynəlxalq Məhkəmə qeyd etmişdir ki, tərəflər (Yuqoslaviya və ABŞ) arasında mübahisə yaranmışdır; mübahisə həll olunan zaman onlar mübahisəni kəskinləşdirməməli və ya genişləndirməməlidirlər.

Beynəlxalq təhlükəli vəziyyətlərə gəldikdə isə, qeyd etməliyik ki, onlar, əsasən, **BMT Təhlükəsizlik Şurasının** köməyi ilə tənzimlənir; belə vəziyyətlərə baxılmasında başlıca rol BMT-nin bu əsas orqanına məxsusdur. BMT-nin Təhlükəsizlik Şurası müxtəlif illərdə bu və ya digər beynəlxalq təhlükəli vəziyyətlərə dəfələrlə baxaraq, müvafiq qətnamələr qəbul etmişdir.

BMT-nin Təhlükəsizlik Şurası həm də beynəlxalq mübahisələrə baxa bilər; lakin o, bütün beynəlxalq mübahisələrə baxmır. BMT-nin Təhlükəsizlik Şurası **yalnız beynəlxalq sülhün pozulmasına səbəb ola bilən mübahisələrə** baxa bilər. Bu cür mübahisələrin baxılıb həll olunmasını BMT-nin Nizamnaməsi məhz onun səlahiyyətinə aid edir. BMT-nin Təhlükəsizlik Şurası belə mübahisələrə baxmaqda geniş səlahiyyətə malikdir.

Hüquqi mübahisələrə gəldikdə isə, qeyd etdiyimiz kimi, belə mübahisələrə BMT-nin Təhlükəsizlik Şurası baxmır. Bu ümumi qaydadır[2].

BMT-nin Təhlükəsizlik Şurası mübahisəyə baxan zaman əgər Təhlükəsizlik Şurasının üzvü olan dövlət həmin mübahi-

[1] *Bax:* ICJ. Reports, 1999, p.10, 13 (URL:http://www.icj-cij.org – 18.05.2018-ci il).

[2] Tərəflər hüquqi mübahisələri baxılıb həll olunmaq üçün BMT-nin Beynəlxalq Məhkəməsinə verirlər. *Bu barədə bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 62.

sənin tərəfi hesab edilərsə, o, səsvermədə iştirak etmir; belə ki, o, mübahisə həll olunarkən səsvermədən çəkinməlidir (BMT Nizamnaməsinin 27-ci maddəsinin 3-cü bəndi). Bu qayda BMT-nin Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq təhlükəli vəziyyətlərə baxılan zaman tətbiq olunmur. Başqa sözlə, beynəlxalq təhlükəli vəziyyətlər həll olunarkən Təhlükəsizlik Şurasının üzvləri səsvermədə iştirak edirlər.

Beynəlxalq mübahisələr, eləcə də beynəlxalq təhlükəli vəziyyətlər **dinc tənzimetmə vasitələrinin köməyi** ilə həll olunmalıdır. Dinc tənzimetmə vasitələrinin qəti və dəqiq olmayan siyahısı isə BMT Nizamnaməsinin 33-cü maddəsi, habelə Helsinki Yekun Aktı (1975-ci il Bəyannaməsi) ilə müəyyən edilir. Həmin siyahıya aşağıdakılar daxildir:

- danışıqlar aparmaq;
- yoxlamaq və müayinə etmək;
- vasitəçilik;
- barışıq;
- arbitraj (Beynəlxalq Arbitraj Məhkəməsi);
- məhkəmədə (BMT-nin Beynəlxalq Məhkəməsində, MDB-nin İqtisad Məhkəməsində, Beynəlxalq Dəniz Tribunalı və digər məhkəmələrdə) işə baxılma;
- universal və regional orqan və təşkilatlara müraciət etmək;
- digər dinc vasitələr.

Digər dinc vasitələr dedikdə xoşməramlı xidmət, məsləhətləşmə, istintaq komissiyası yaratma və s. başa düşülür. Məsələn, 1966-cı ildə SSRİ-nin xoşməramlı xidməti nəticəsində Hindistan–Pakistan münaqişəsi dinc yolla tənzimlənmişdir (həmin ilin yanvar ayında SSRİ-nin təşəbbüsü ilə Daşkənd şəhərində çağırılan konfransda münaqişə tərəfləri müvafiq Daşkənd Bəyannaməsini imzaladılar).[1]

[1] URL:http://www.ru.m.wikipedia.org (18.05.2018-ci il).

1970-ci il Bəyannaməsində, eləcə də 1975-ci il Helsinki Yekun Aktında göstərilir ki, dövlətlər sərbəst şəkildə istənilən dinc tənzimetmə vasitəsini seçə bilərlər; onlar, bir qayda olaraq, daha münasib, uyğun gələn və əlverişli dinc tənzimetmə vasitəsindən istifadə edirlər. Dövlətlərarası beynəlxalq münasibətlər praktikası göstərir ki, dövlətlərin əksəriyyəti dinc tənzimetmə vasitələrindən danışıq (birbaşa və ya üçüncü tərəfin iştirakı ilə danışıq) aparılmasına daha çox üstünlük verirlər;[1] mübahisələrin çoxu məhz onun köməyi ilə həll olunur. Təbii ki, dövlətlərin seçdikləri dinc tənzimetmə vasitələri yaranmış vəziyyətə və mübahisənin xarakterinə uyğun olmalıdır.[2]

Bəzən, vəziyyət və mübahisəni seçilmiş tənzimetmə vasitəsinin köməyi ilə həll etmək mümkün olmur. Belə halda dövlətlər digər dinc tənzimetmə vasitələri axtarıb, yaranmış vəziyyət və mübahisəni həll etməlidir. Vəziyyət və mübahisəni həll edərkən onlar durumun tənzimlənməsini çətinləşdirən, ixtilafı kəskinləşdirən, təhlükəsizlik və sülhün qorunub saxlanmasını təhdidə məruz qoyan hərəkətlərdən çəkinməlidir. Başqa sözlə, dövlətlər vəziyyəti pisləşdirən, beynəlxalq sülh və təhlükəsizliyi təhdid edən hərəkətlərə yol verməməlidirlər. Dövlətlər həm də çalışmalıdırlar ki, yaranmış vəziyyət və mübahisə beynəlxalq hərbi münaqişəyə (silahlı toqquşmaya) çevrilməsin. Bundan başqa, onlar yaranmış vəziyyət və mübahisənin tezliklə tənzimlənməsinə səy göstərməlidirlər. Lakin beynəlxalq publik hüquq onların hansı müddət ərzində tənzim olunmasını müəyyənləşdirmir. Buna baxmayaraq, necə olursa olsun, istənilən halda beynəlxalq sülh və təhlükəsizliyi təhdid etdiyinə görə yaranmış vəziyyət və mübahisə mümkün qədər tez bir zamanda həll edilməlidir; onlar tənzimlənməmiş və həll edilməmiş halda qala bilməz. 1975-ci il Helsinki Yekun Aktı beynəlxalq mübahisə və vəziyyətin qısa müddət ərzində həll olunmasını tələb edir. Təbii ki, mübahisə və vəziyyətin qısa müddət ərzində

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.223

[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 103.

tənzimlənməsi sülh və təhlükəsizliyin qorunub saxlanmasının təhlükəyə məruz qalmasını aradan qaldırır.

Beynəlxalq mübahisə və vəziyyət beynəlxalq publik hüquq əsasında tənzimlənməlidir; bu zaman, ilk növbədə, **ədalət prinsipi** tətbiq olunmalıdır ki, o, əvvəllərdə göstərdiyimiz kimi, hüququn ümumi prinsiplərinə aiddir. BMT-nin Nizamnaməsi beynəlxalq mübahisə və vəziyyətlərin nəinki beynəlxalq publik hüquq əsasında, həmçinin ədalət prinsipinə uyğun olaraq həll olunmasını tələb edir.[1] Bunu həmin sənəd BMT-nin məqsədlərindən biri sayır (BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndi). BMT-nin Beynəlxalq Məhkəmə Statutu da nəzərdə tutur ki, işə ədalət və vicdanla (ex aequo et bono) baxılmalıdır.

Təkcə ədalət prinsipi deyil, həm də **dövlətlərin suveren bərabərliyi prinsipi** beynəlxalq mübahisələrin dinc yolla həll olunmasının vacib elementi sayılır.[2] Belə ki, yaranmış vəziyyət və mübahisə dövlətlərin suveren bərabərliyi prinsipi əsasında həll edilməlidir. Bu, 1970-ci il Bəyannaməsində, xüsusi olaraq, göstərilir, nəzərə çatdırılır. Burada həm də qeyd olunur ki, beynəlxalq mübahisələr **dinc tənzimetmə vasitələrini sərbəst şəkildə seçmək prinsipinə** uyğun olaraq həll edilməlidir. Bu prinsip də beynəlxalq mübahisələrin dinc yolla həll olunmasının zəruri elementi sayılır. Eyni zamanda, sözügedən prinsip imkan verir ki, dövlətlər dinc tənzimetmə vasitələrindən bir-biri ilə kombinasiya edilmiş şəkildə istifadə etsinlər;[3] bu zaman onlar bir-birinə uyğun gələn iki və daha çox tənzimetmə vasitəsi seçirlər.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi ilə **sıx surətdə** bağlıdır. Tarixən, demək olar ki, eyni vaxtda, bir-birinə

---

[1] *Daha ətraflı:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 106.

[2] *Daha ətraflı:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.86.

[3] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.56.

paralel olaraq formalaşmağa başlayan həmin prinsiplər arasında qarşılıqlı əlaqə mövcuddur. Belə ki, onlar bir-birini tamamlayır və şərtləndirir. Əgər güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi pozularsa, bu, həm də onu ifadə edir ki, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinə əməl olunmamışdır; beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, həmçinin o halda pozulmuş sayılır ki, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinə əməl edilməsin.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi **tələb edir** ki, yaranmış mübahisə və təhlükəli vəziyyətlər güc tətbiq edilmədən həll olunmalıdır; güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi də, öz növbəsində, yaranmış mübahisə və təhlükəli vəziyyətlərin yalnız dinc vasitələr köməyi ilə həll olunmasını tələb edir.

Əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüququn ümumi hissəsi bir neçə hüquq institutundan ibarətdir ki, **beynəlxalq mübahisələrin həll olunması institutu** onlardan biridir. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi məhz həmin institutun mahiyyətini və əsasını təşkil edir.

6.3.3. Dövlət sərhədlərinin pozulmazlığı prinsipi

Dövlət sərhədlərinin pozulmazlığı prinsipi beynəlxalq publik hüququn əsas prinsiplərindən biri olub, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsinə, onların qorunub saxlanılmasına yönəlmişdir. Həmin prinsip dövlətlərin üzərinə belə bir məcburi vəzifə qoyur ki, dövlətlər bir-birinin mövcud beynəlxalq sərhədlərini poza bilməzlər. Buna görə də, dövlət sərhədlərinin pozulmazlığı prinsipi beynəlxalq publik hüququn **məcburedici prinsipləri** sırasına aid edilir.

Qeyd etməliyik ki, dövlət sərhədlərinin pozulmazlığı prinsipi BMT-nin Nizamnaməsində birbaşa formulə edilməmiş, müstəqil və ayrıca prinsip kimi təsbit olunmamışdır. Başqa sözlə, BMT-nin Nizamnaməsi onu beynəlxalq publik hüququn

əsas prinsipləri sırasına daxil etməmişdir; bu sənəddə həmin prinsipin adı ümumiyyətlə çəkilmir.

1970-ci il Bəyannaməsinə gəldikdə, göstərmək lazımdır ki, burada da, o, müstəqil və ayrıca prinsip kimi formulə edilmir. Lakin 1970-ci il Bəyannaməsində dövlət sərhədlərinin pozulmazlığı haqqında norma nəzərdə tutulur. Həmin normaya görə, dövlətlər başqa dövlətlərin mövcud beynəlxalq sərhədlərini pozmaq məqsədilə güc tətbiq etməkdən və ya güclə hədələməkdən çəkinməlidirlər. Bu isə o deməkdir ki, həmin sənəd dövlət sərhədlərinin pozulmazlığı prinsipini güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin elementi, onun normativ məzmununun tərkib hissəsi kimi nəzərdə tutur. Buna görə də, dövlət sərhədlərinin pozulmazlığı prinsipinin 1970-ci il Bəyannaməsində müstəqil və ayrıca prinsip kimi birbaşa formulə edilməsindən danışmaq olmaz. 1970-ci il Bəyannaməsi, sadəcə olaraq, göstərir ki, dövlətlər **dövlət sərhədlərinə aid beynəlxalq mübahisələri həll etmək vasitəsi kimi güc tətbiq etməkdən** çəkinməlidirlər.

Beynəlxalq publik hüququn müstəqil və ayrıca əsas prinsipi kimi dövlət sərhədlərinin pozulmazlığı prinsipi ATƏM-in (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin) Helsinki Yekun Aktında **(1975-ci il Bəyannaməsində)** formulə edilmişdir. Bu sənəddə deyilir ki, iştirakçı-dövlətlər, o cümlədən bütün Avropa dövlətləri bir-birlərinə sərhədləri pozulmaz olan dövlətlər kimi baxır və buna görə də, onlar hazırda və gələcəkdə bu sərhədlərə edilən istənilən qəsddən çəkinəcəklər. Burada birbaşa məhz «dövlət sərhədlərinin pozulmazlığı» kimi müstəqil və ayrıca prinsip formulə edilmişdir.

Dövlət sərhədlərinin pozulmazlığı prinsipinin formalaşmasında keçən yüzilliyin 70-ci illərinin əvvəllərində bağlanmış bir sıra **ikitərəfli beynəlxalq müqavilənin** vacib rolu olmuşdur. Söhbət, ilk növbədə, SSRİ və AFR arasında bağlanmış 1972-ci il tarixli ikitərəfli beynəlxalq müqavilədən gedir. Beynəlxalq hüquq ədəbiyyatında dövlət sərhədlərinin pozulmazlığı prinsipi-

nin ilk dəfə bu müqavilədə təsbit olunması göstərilir.[1] 1970–1973-cü illərdə AFR tərəfindən bir neçə Avropa dövləti ilə (PXR, ADR və ÇSSR ilə) bağlanılmış ikitərəfli beynəlxalq müqavilələr də məhz həmin prinsipdən çıxış edirdi; bu prinsip öz normativ ifadəsini həm də 30 noyabr 1971-ci il tarixli Sovet–Fransa sənədində[2] tapmışdır. Lakin, deməliyik ki, dövlət sərhədlərinin pozulmazlığı prinsipi aydın və konkret şəkildə ilk dəfə 1975-ci il Helsinki Yekun Aktında təsbit olunmuşdur.

MDB çərçivəsində qəbul olunan bir sıra sənəd də dövlət sərhədlərinin pozulmazlığı prinsipindən çıxış edir. Həmin sənədlərə aşağıdakılar aiddir: MDB-nin yaradılması haqqında Saziş (1991-ci il), MDB-yə birləşmək barədə Protokol və Alma-Ata Bəyannaməsi (1991-ci il), MDB-nin Nizamnaməsi (1993-cü il), MDB üzvü olan dövlətlərin xarici sərhədlərində sabit vəziyyətin təmin edilməsi haqqında Saziş (1992-ci il), Sərhədlərin toxunulmazlığı barədə MDB Bəyannaməsi (1993-cü il), MDB iştirakçısı olan dövlətlərin dövlət suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qorunub saxlanılması haqqında Bəyannamə (1994-cü il) və s. Göstərilən prinsipin normativ-hüquqi təsbitinə, eyni zamanda, müxtəlif **çoxtərəfli beynəlxalq müqavilələrdə** rast gəlmək mümkündür.

Müasir dünyada dövlətlər arasında çoxsaylı ikitərəfli beynəlxalq müqavilələr qəbul olunmuşdur ki, həmin müqavilələr də dövlət sərhədlərinin pozulmazlığı prinsipindən çıxış edir. Belə müqavilələr təsdiq edir ki, sərhədlərin pozulmazlığı prinsipi beynəlxalq publik hüququn digər əsas prinsipləri ilə birlikdə dövlətlərarası qarşılıqlı münasibətlərin əsasını təşkil edir. Azərbaycan Respublikası tərəfindən bir sıra dövlətlə bağlanılmış ikitərəfli beynəlxalq müqavilələr də sərhədlərin pozulmazlığı

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.206; Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 206; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 102.

[2] Bu sənəd belə adlanır: SSRİ və Fransa arasında əməkdaşlığın Prinsipləri (URL:http://www.audiOsam. Livejournal.com. –18.05.2018-ci il).

prinsipindən çıxış edir. Məsələn, 1996-cı ilin may ayında Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında sərhəd məsələlərinə dair əməkdaşlıq haqqında Saziş bağlanmışdır;[1] bu dövlətlər 3 iyul 1997-ci il tarixdə öz aralarında dostluq, əməkdaşlıq və təhlükəsizlik barədə müvafiq müqavilə imzalamışdır. Hər iki sazişdə dövlət sərhədlərinin pozulmazlığı prinsipi ifadə olunmuşdur. Bu prinsip öz normativ ifadəsini Azərbaycan Respublikasının başqa dövlətlərlə bağladığı digər ikitərəfli beynəlxalq müqavilələrdə də tapmışdır. Məsələn, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi (2021-ci il); Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə (2022-ci il) və s.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq dərsliklərində, beynəlxalq sənədlərdə və digər müqavilələrdə barəsində danışdığımız prinsipi ifadə etmək üçün aşağıda göstərilən üç terminдən istifadə olunur:

- dövlət sərhədlərinin toxunulmazlığı prinsipi;
- dövlət sərhədlərinin pozulmazlığı prinsipi;
- dövlət sərhədlərinin toxunulmazlığı və pozulmazlığı prinsipi.

Məsələn, V.M.Şumilov sözügedən prinsipi ifadə etmək üçün «sərhədlərin toxunulmazlığı və pozulmazlığı prinsipi» kimi termin işlədir;[2] bu terminдən V.S.İvanenko və V.İ.Kuznetsov da istifadə edirlər.[3] Müəlliflərdən N.N.Fedoşyeva «dövlət sərhədlərinin toxunulmazlığı» anlayışının işlədilməsinə üstünlük verir.[4] Beynəlxalq hüquq üzrə mütəxəssis alimlərin əksəriyyəti «dövlət sərhədlərinin pozulmazlığı» terminindən istifadə edir-

[1] URL:http://www.mid.ru (18.05.2018-ci il).
[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 78.
[3] *Bax bu kitabda:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.204.
[4] Федощева Н.Н.Международное право. Учебное пособие. М., 2010, с.47.

lər.[1] Elə müəlliflər də vardır ki, onlar beynəlxalq publik hüququn əsas prinsipləri arasında sərhədlərin pozulmazlığı prinsipinin adını ümumiyyətlə çəkmirlər.[2]

Nəzərdən keçirilən prinsip Helsinki Yekun Aktında (1975-ci il) «sərhədlərin pozulmazlığı prinsipi» adlanır. MDB iştirakçısı olan dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qorunub saxlanması haqqında Bəyannamədə[3] (1994-cü il) «sərhədlərin toxunulmazlığı» və «sərhədlərin pozulmazlığı» eynimənalı anlayışlar kimi işlədilir. Belə ki, Bəyannamənin rəsmi adında «sərhədlərin toxunulmazlığı», onun daxili mətnində isə «sərhədlərin pozulmazlığı» terminindən istifadə edilir.

Qeyd etməliyik ki, nə qədər bir-birinə yaxın olsalar da, «sərhədlərin toxunulmazlığı» və «sərhədlərin pozulmazlığı» eynimənalı anlayışlar deyildir. Buna görə də, təbii ki, sərhədlərin toxunulmazlığı prinsipini sərhədlərin pozulmazlığı prinsipi ilə eyniləşdirmək olmaz;[4] onlar müxtəlif normativ-hüquqi məzmuna malik olmaları səbəbindən bir-birindən fərqlənir.

Sərhədlərin toxunulmazlığı prinsipi iki mənada işlədilir: geniş və məhdud mənada.

Geniş mənada sərhədlərin toxunulmazlığı prinsipinin normativ-hüquqi məzmunu iki əsas elementdən ibarətdir. **Birinci**

---

[1] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.41; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.248; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.18; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 60; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.96; Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.35; Международное публичное право / Отв.ред. К.А. Бекяшев. М., 2009, с.126 və b.

[2] *Məsələn, bax:* Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.32; Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.49.

[3] URL:http://www.zaki.ru (18.05.2018-ci il).

[4] Международное публичное право. Учебник. / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.127.

elementə görə, hər bir dövlət başqa dövlətin mövcud sərhəd rejiminə hörmət və əməl etməli, həmin rejimi pozmamalıdır; hər bir dövlətin öz sərhədlərindən fiziki şəxslərin və nəqliyyat vasitələrinin keçmə rejimini müəyyənləşdirmək, habelə bu prosesə nəzarət etmək hüququ vardır; hamı dövlət sərhədlərindən keçmə qaydalarına riayət etməli və bu qaydalardan kənar (müvafiq icazə olmadan) dövlət sərhədlərindən keçməməlidir.

Qeyd etməliyik ki, göstərilən elementin mahiyyəti dövlətin başqa **dövlətin sərhəd rejiminə əməl etməsindən və sərhəddən keçmə qaydalarını gözləməsindən** ibarətdir; bu element dövlət sərhədlərinin dəyişdirilməsinə və onların pozulmasına səbəb ola biləcək ərazi iddialarına yol verilməməsini nəzərdə tutmur. Bu, geniş mənada sərhədlərin toxunulmazlığı prinsipinin normativ-hüquqi məzmununa daxil olan **ikinci elementin** mahiyyətini təşkil edir. İkinci elementə görə, hər bir dövlət istənilən xarici dövlətin beynəlxalq publik hüquqa uyğun olaraq, müəyyənləşdirilmiş mövcud sərhədlərini tanımalı, ərazi iddialarından çəkinməlidir; mövcud dövlət sərhədlərinin dəyişdirilməsinə və yenidən müəyyənləşdirilməsinə yol verilmir.

Geniş mənada sərhədlərin toxunulmazlığı prinsipinə görə, hər bir dövlət başqa dövlətin mövcud sərhəd rejiminə hörmət və əməl etməli, habelə onun beynəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmiş mövcud sərhədlərini tanımalı, sərhədlərin pozulmasına gətirib çıxara biləcək hər cür ərazi iddiasından çəkinməlidir.

Məhdud mənada sərhədlərin toxunulmazlığı prinsipi dedikdə sərhədlərin pozulmazlığı prinsipi başa düşülür. Düzgün olaraq belə təsəvvür yaranır ki, «məhdud mənada sərhədlərin toxunulmazlığı prinsipi» və «sərhədlərin pozulmazlığı prinsipi» eynimənalıdır. Belə ki, «sərhədlərin pozulmazlığı prinsipi» «məhdud mənada sərhədlərin toxunulmazlığı prinsipi»ni ifadə və əhatə etmək üçün işlədilən termindir.

Sərhədlərin pozulmazlığı prinsipinə (məhdud mənada sərhədlərin toxunulmazlığı prinsipinə) görə, hər bir dövlət başqa dövlətin beynəlxalq publik hüquqa uyğun olaraq müəy-

yənləşdirilmiş mövcud sərhədlərini tanımalı, onların dəyişdirilməsinə yönələn hərəkətlərdən çəkinməlidir.

Sərhədlərin pozulmazlığı prinsipi normativ-hüquqi məzmuna malikdir; onun normativ-hüquqi məzmunu ATƏM-in Helsinki Yekun Aktında (1975-ci il), dövlətlərin bir-biri ilə bağladıqları müxtəlif ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə açıqlanır. Həmin beynəlxalq sənədlərə əsasən, müəyyən edə bilərik ki, sərhədlərin pozulmazlığı prinsipinin normativ-hüquqi məzmunu **üç elementdən** ibarətdir.

Bildiyimiz kimi, hər bir dövlətin tarixən formalaşmış və və ya beynəlxalq müqavilə ilə müəyyənləşdirilmiş sərhədi vardır ki, ona dövlətin mövcud beynəlxalq sərhədi deyilir.

Dövlətlərin mövcud beynəlxalq sərhədi dedikdə beynəlxalq publik hüquqa uyğun olaraq müəyyən edilmiş sərhəd başa düşülür. Bütün dövlətlər başqa dövlətlərin **beynəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmiş sərhədlərini tanımalı və ona hörmətlə yanaşmalıdır.** Bu, sərhədlərin pozulmazlığı prinsipinin normativ-hüquqi məzmununu təşkil edən **birinci elementdir**; həmin elementin mahiyyəti isə bundan ibarətdir ki, dövlətlərin mövcud sərhədləri beynəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmiş sayılır və hesab edilir.

Sərhədlərin pozulmazlığı prinsipinin normativ-hüquqi məzmununa daxil olan **ikinci element** bundan ibarətdir ki, **dövlət başqa bir dövlətə qarşı ərazi iddiası (tələbi) irəli sürməməlidir.** Şübhəsiz, belə tələbin (iddianın) irəli sürülməsi dövlətin beynəlxalq sərhədinin pozulmasına gətirib çıxarır. Odur ki, halhazırda və ya gələcəkdə dövlət hər hansı ərazi tələbindən (iddiasından) imtina etməlidir. Dövlətlərin bir-birinə hər hansı ərazi tələbi (iddiası) irəli sürməsi hüquqaziddir.

Dövlətlər həmçinin bir-birinin **sərhədlərinə bu və ya digər formada qəsd etməkdən çəkinməli, onlardan imtina etməlidirlər.** Bu, sərhədlərin pozulmazlığı prinsipinin normativ-hüquqi məzmununu təşkil edən **üçüncü elementdir**. **Sərhədə qəsd etmək** dedikdə dövlətin başqa dövlətin sərhədinin hüquqi rəs-

miləşdirilməsinin və ya onun faktiki vəziyyətinin dəyişdirilməsinə yönələn birtərəfli hərəkətləri və ya tələbləri başa düşülür. Əgər belə birtərəfli hərəkətlər və ya tələblər sərhəd xətlərinin dəyişdirilməsinə yönələrsə, onlar da sərhədə qəsd etmək sayılır. Belə ki, bu və ya digər dövlətin mövcud sərhəd xətləri vardır; mövcud sərhəd xətləri beynəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmişdir və bu səbəbdən onlar hamılıqla tanınır. Buna görə də, sərhəd xətlərinin dəyişdirilməsinə yönələn birtərəfli hərəkətlərdən və ya tələblərdən imtina olunmalıdır; sərhəd xətlərinin yerinin özbaşına dəyişdirilməsinə yol verilmir.

Sərhədə qəsd etmək keçmiş zamanlarda zərərçəkən dövlətin qəsd-edən xarici dövlətlə müharibə aparmasının qanuni (hüquqauyğun) əsası sayılırdı **(casus belli)**. Tarixən, həmişə belə hesab edilmişdir ki, xarici dövlət tərəfindən sərhədin pozulması müharibə etmək üçün bəhanədir. Müharibə yolu ilə dövlət öz sərhədinin təhlükəsizliyini təmin edirdi; beynəlxalq-hüquqi baxımdan, hər hansı dövlətin sərhədinə qəsd etmək hüquqazidd əməl sayılırdı.

Müasir dövrdə də istənilən dövlətin sərhədinə, xüsusən də, güc tətbiq etmək və ya güclə hədələmək yolu ilə qəsd etmək hüquqauyğun hərəkət hesab edilmir. Müasir beynəlxalq publik hüquq tələb edir ki, dövlət sərhədlərinə qəsd etmək olmaz. Bununla yanaşı, beynəlxalq publik hüquq dövlət sərhədlərinin dəyişdirilməsinə yol verir; beynəlxalq publik hüquqa zidd olmadığına görə, buna **dövlət sərhədlərinin hüquqauyğun dəyişdirilməsi** deyilir; həm də dövlət sərhədləri dinc yolla, hərbi (silahlı) gücdən istifadə olunmadan, yalnız beynəlxalq müqavilə əsasında dəyişdirilə bilər.[1] Məsələn, vahid Almaniyanın bərpa edilməsi barədə 1990-cı ildə bağlanmış beynəlxalq müqavilə AFR və ADR kimi iki dövlətin sərhədini dəyişdirmiş, AFR-in sərhədini yenidən nəzərdən keçirmiş, bunun nəticəsində ADR-

[1] Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.279; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.42.

in mövcudluğuna son qoyulmuşdur; onun ərazisi AFR-in dövlət sərhədləri ilə əhatə olundu.[1] Helsinki Yekun Aktında (1975-ci il) göstərilir ki, **dövlət sərhədləri beynəlxalq publik hüquqa uyğun olaraq, dinc yolla və müqavilə əsasında dəyişdirilə bilər.**

Bundan başqa, BMT Təhlükəsizlik Şurasının sanksiyası əsasında müəyyən hər hansı ərazi hissəsi təcavüzkar dövlətdən zorla ayrıla bilər. Bu da, əlbəttə, dövlət sərhəd xətlərinin keçdiyi yerin dəyişməsinə səbəb olur; belə dəyişmə də hüquqauyğundur.[2]

Qeyd etməliyik ki, istənilən ölkənin dövlət sərhədləri yalnız hüquqi çərçivədə dəyişdirilə bilər; bu zaman dövlətlərin qanuni hüquq və maraqları, sərhəd bölgəsində yaşayan əhalinin mənafeyi nəzərə alınmalıdır. Belə dəyişdirilmə dövlət sərhədlərinin pozulmazlığı prinsipinə zidd deyildir.

«Sərhədlərin pozulmazlığı» və «sərhədlərin toxunulmazlığı» kimi iki prinsip arasında münasibət məsələsinə gəldikdə, qeyd etmək lazımdır ki, bu məsələ beynəlxalq hüquq dərsliklərində aydın şəkildə izah olunmur. Məsələn, müəlliflərdən A.Y.Kapustin yazır ki, hal-hazırda hüquqi məzmun baxımından, müxtəlif olan iki prinsip mövcuddur ki, bunlardan biri sərhədlərin pozulmazlığı, digəri isə sərhədlərin toxunulmazlığı prinsipidir; amma alim həmin prinsiplərin bir-birindən hansı əlamətlərə görə fərqləndirilməsi məsələsinə toxunmur.[3] Y.M.Kolosov göstərir ki, dövlət sərhədlərinin pozulmazlığı prinsipini ifadə etmək üçün üç termindən istifadə olunur (sərhədlərin pozulmaması prinsipi, sərhədlərin toxunulmazlığı prinsipi, sərhədlərin pozulmazlığı və toxunulmazlığı prinsipi).[4] Göstərilən fikir

[1] URL:http://www.ru.m.wikipedia.org (18.05.2018-ci il).
[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с. 96-97.
[3] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 103.
[4] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 120.

Y.M.Maleyev tərəfindən də söylənilir.[1] Ancaq müəlliflər həmin üç terminin bir-birindən nə ilə, hansı meyara görə fərqlənməsi məsələsinə yer ayırmırlar. Bəzi müəlliflər isə «sərhədlərin pozulmazlığı prinsipi» və «sərhədlərin toxunulmazlığı prinsipi» arasında münasibət məsələsinə toxunmurlar.[2] Buna görə də, biz həmin münasibətə aydınlıq gətirməyə çalışaq. Bundan ötrü, ilk növbədə, «sərhədlərin pozulmazlığı və toxunulmazlığı prinsipi» izah edilməlidir.

Sərhədlərin pozulmazlığı və toxunulmazlığı prinsipi dedikdə geniş mənada sərhədlərin toxunulmazlığı başa düşülür. Geniş mənada sərhədlərin toxunulmazlığının nə demək olduğuna gəldikdə isə, bir az əvvəldə ona anlayış vermişik. Bu anlayışdan görünür ki, «sərhədlərin pozulmazlığı və toxunulmazlığı prinsipi» ilə «geniş mənada sərhədlərin toxunulmazlığı prinsipi» eynimənalı (sinonim) anlayışlardır.

Bildiyimiz kimi, beynəlxalq publik hüquq mövcud dövlət sərhədlərinin tanınması, qorunması, müdafiə edilməsi və onların təhlükəsizliyinin təmin edilməsi məsələsinə xüsusi önəm verir. Ona görə ki, beynəlxalq təhlükəsizliyin və sülhün qorunub saxlanması, habelə dövlətlərarası beynəlxalq əməkdaşlığın inkişafı məhz bu məsələdən çox asılıdır. Həmin məsələyə münasibətdə beynəlxalq publik hüquq sərhədlərin pozulmazlığı və toxunulmazlığı, yəni geniş mənada sərhədlərin toxunulmazlığı prinsipindən çıxış edir. Sərhədlərin pozulmazlığı və toxunulmazlığı prinsipi isə özündə aşağıda göstərilən **iki prinsipi** birləşdirir:

– sərhədlərin pozulmazlığı prinsipi;
– sərhədlərin toxunulmazlığı prinsipi.

---

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 74.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.165-166; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.35; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 78-80; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 60 və s.

Sərhədlərin pozulmazlığı prinsipi haqqında bir az əvvəldə danışdıq. Bir daha təkrar edərək göstəririk ki, bu prinsipinə görə, dövlətlərin beynəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmiş sərhədləri tanınmalı, mövcud sərhədləri tam və ya qismən dəyişdirmək məqsədilə onlara qəsd edilməməlidir. **Sərhədlərin toxunulmazlığı prinsipinə** gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq publik hüquqa çoxdan məlum olan bu prinsipə görə, hər hansı bir dövlət başqa dövlətin sərhədlərini qanunsuz keçməkdən çəkinmək vəzifəsi daşıyır, habelə öz sərhədlərindən keçid prosesinə nəzarət etmək hüququna malikdir.[1] Həmin prinsipin mahiyyətini **iki əsas məsələ** təşkil edir ki, onlara aşağıdakılar aiddir:

- dövlət sərhədlərindən keçmə qaydalarına, mövcud sərhəd rejiminə əməl olunmalıdır;
- dövlət sərhədlərindən qanunsuz olaraq keçilməsinə yol verilmir.

Qeyd etməliyik ki, sərhədlərin pozulmazlığı və sərhədlərin toxunulmazlığı kimi iki prinsip bir-birilə bağlı olan prinsiplərdir. Hər iki prinsip mövcud dövlət sərhədlərinin tanınması, qorunması və müdafiə olunması, habelə onların təhlükəsizliyinin təmin olunması məqsədinə xidmət edir. Təsadüfi deyil ki, Rusiya beynəlxalq publik hüquq doktrinası sərhədlərin pozulmazlığı prinsipini sərhədlərin toxunulmazlığı prinsipinin inkişafı və modifikasiya olunmuş növü kimi hesab edir.[2] Nə qədər bir-birinə yaxın olsalar da göstərilən prinsiplər arasında həddi qoyulmalıdır. Onlar, hər şeydən əvvəl, öz **əsas normativ-hüquqi məzmununa** görə bir-birindən fərqlənir. Belə ki, bir az əvvəldə qeyd etdiyimiz kimi, sərhədlərin pozulmazlığı prinsipinin normativ-hüquqi məzmununu üç element (dövlətlərin bey-

[1] *Bu prinsip barədə daha ətraflı:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.279; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 78; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.47.

[2] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.35.

nəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmiş mövcud sərhədlərinin tanınması, ərazi iddialarından imtina olunması, dövlət sərhədlərinə qəsd edilməməsi) təşkil edir. Sərhədlərin toxunulmazlığı prinsipinə gəldikdə, qeyd etməliyik ki, bu prinsipin əsas normativ-hüquqi məzmunu mövcud sərhəd rejiminə (dövlət sərhədindən keçmə qaydalarına) əməl etmək və dövlət sərhədindən qanunsuz olaraq keçilməsinə yol verməmək kimi vacib elementdən ibarətdir.

İkinci, sözügedən prinsiplər bir-birindən **beynəlxalq publik hüququn prinsipləri sistemində tutduqları yerə** görə fərqlənir. Qeyd etməliyik ki, bu məsələ barədə müəlliflərin söylədikləri fikirlər üst-üstə düşmür. Bir sıra alim (məsələn, İ.İ. Lukaşuk,[1] V.M.Şumilov,[2] Y.M.Kolosov,[3] Y.N.Maleyev[4] və s.) göstərir ki, regional xarakterli ATƏM-in Helsinki Yekun Aktında (1975-ci il) təsbit və formulə olunduğundan sərhədlərin pozulmazlığı prinsipi Avropada tanınır; bu səbəbdən onun tətbiq sferası məhduddur. Buna görə də, həmin müəlliflər sərhədlərin pozulmazlığı prinsipini regional xarakterli prinsip hesab edərək, onu hələlik beynəlxalq publik (universal) hüququn prinsipi kimi tanımırlar; sərhədlərin toxunulmazlığı prinsipini isə, onlar beynəlxalq publik (universal) hüququn prinsipi, yəni universal tətbiq sferasına malik olan prinsip kimi tanıyırlar.

Lakin, hesab edirik ki, məsələyə bu cür yanaşma reallığa söykənmir. Məsələ bundan ibarətdir ki, sərhədlərin pozulmazlığı prinsipi təkcə regional səviyyədə (Avropa qitəsi çərçivəsində) tətbiq olunmaq üçün formulə edilməmişdir. Deyə bilərik ki, bütün qitələrin dövlətləri tərəfindən bağlanılan kifayət sayda həm çoxtərəfli, həm də ikitərəfli beynəlxalq müqavilələr

[1] Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.247.
[2] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 78.
[3] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 118.
[4] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 72.

məhz bu prinsipdən çıxış edir. Digər tərəfdən, dünyanın bütün qitələrindən olan dövlətlərin beynəlxalq praktikası (dövlətlərarası praktika) həmin prinsipi tanıyır. Bunlardan başqa, ATƏM-in Helsinki Yekun Aktında (1975-ci il) Avropa dövlətlərindən savayı, həmçinin ABŞ və Kanada kimi qeyri-Avropa dövlətləri də iştirak etmişdir. Buna görə də, sərhədlərin pozulmazlığı prinsipi Avropa çərçivəsindən kənara çıxır. Bu səbəblərdən o, beynəlxalq publik hüququn müasir dünyanın hər yerində tanınan əsas prinsiplərindən biri sayılır.[1]

Sərhədlərin toxunulmazlığı prinsipinə gəldikdə isə, qeyd etməliyik ki, bu prinsip də beynəlxalq hüququn hamılıqla qəbul olunmuş, ümumi, universal və imperativ **(jus cogens)** prinsipi sayılır;[2] beynəlxalq publik (universal) hüququn normativ sisteminə daxil olan həmin prinsip BMT-nin Nizamnaməsində və 1970-ci il Bəyannaməsində təsbit olunan prinsiplərdən irəli gəlir. Buna görə sərhədlərin toxunulmazlığı prinsipi konkret dövlətlər arasında mövcud sərhəd rejiminə əməl olunması məsələsi barədə beynəlxalq müqavilə bağlanıb-bağlanmamasından asılı olmayaraq, qüvvədə olub, tətbiq edilir. Lakin beynəlxalq publik hüquq elmində, eləcə də beynəlxalq-hüquqi sənədlərdə o, sərhədlərin pozulmazlığı prinsipindən fərqli olaraq, beynəlxalq publik hüququn on əsas prinsipləri sırasına aid olunmur.

Beynəlxalq publik hüquq nəinki sərhədlərin pozulmazlığı prinsipini təsbit edir, həmçinin onun təmin olunmasına xüsusi əhəmiyyət verir. Belə ki, beynəlxalq publik hüquq sərhədlərin pozulmazlığı prinsipini təmin etmək üçün **iki vacib qayda** müəyyən edir. **Birinci qaydanın** mahiyyəti bundan ibarətdir ki, dövlətlər arasında sərhədlərin müəyyənləşdirilməsi barədə beynəlxalq müqavilə bağlana bilər; sərhədlərin müəyyənləşdirilməsi vəziyyətin köklü surətdə dəyişməsi hesab edilmir (vəziy-

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.206.

[2] Международное публичное право / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.127.

yətin köklü surətdə dəyişməsi isə beynəlxalq müqavilənin ləğvinin əsaslarından biridir)[1].

İkinci qaydanın mahiyyəti isə bundan ibarətdir ki, hüquqi varislik özlüyündə beynəlxalq müqavilə ilə müəyyənləşdirilmiş sərhədlərə toxunmur və aid edilmir (Dövlətlərin müqavilələrə münasibətdə hüquqi varisliyi haqqında 1978-ci il tarixli Vyana Konvensiyasının 11-ci maddəsi).[2]

Yeni yaranmış müstəqil dövlət, əslində, sərhədlərin varisliyi məsələsi ilə bağlıdır. Belə ki, həmin dövlət ona çatmış və qalmış sərhədlər daxilində yerləşməlidir. Beynəlxalq publik hüquqda formalaşmış bu qaydaya «**uti possidetis**» deyilir.[3]

6.3.4. Dövlətlərin ərazi bütövlüyü prinsipi

Qeyd etməliyik ki, dünyada beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması dövlətlərin ərazi bütövlüyü kimi vacib məsələdən çox asılıdır. Bunu nəzərə alaraq, beynəlxalq publik hüquq «dövlətlərin ərazi bütövlüyü» kimi zəruri prinsipdən çıxış edir; bu, beynəlxalq publik hüququn **məcburedici prinsipi** kimi dünyada beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılmasının təmini sahəsində mühüm rol oynayır. Dövlətlərin ərazi bütövlüyü prinsipi həm də suveren dövlətlərin mövcudluğunun vacib şərti olub, onu təmin edir.[4] Nəzərdən keçirdiyimiz prinsipi ifadə etmək üçün beynəlxalq hüquq dərsliklərində müxtəlif terminlərdən istifadə edilir. Belə ki, bəzi mü-

[1] *Bax:* Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il tarixli Vyana Konvensiyasının 62-ci maddəsinin 2-ci hissəsi.

[2] *Bax*: www.un.org (18.05.2018-ci il).

[3] *Bax:* Словарь международного права / Бацанов С.В. и др. М., 1986, с.432.

[4] *Daha ətraflı:* Волова Л.И. Принцип территориальной целостности и неприкосновенности в современном международном праве. Ростов, 1981, с. 5; Караев Р. М. Соотношение принципов территориальной целостности и самоопределения народов в теории и практике международного права. Баку, 2009, с. 304.

əlliflər, sadəcə olaraq, «ərazi bütövlüyü prinsipi»,[1] digərləri «dövlətlərin ərazi toxunulmazlığı və bütövlüyü prinsipi[2] və ya «dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı prinsipi»,[3] başqaları isə «dövlətlərin ərazi bütövlüyü prinsipi»[4] kimi termin işlədirlər. Deməliyik ki, axırıncı termindən hüquq ədəbiyyatında daha çox istifadə olunur; bu termini işlədən müəlliflərin sayı üstünlük təşkil edir. Şübhəsiz, barəsində danışdığımız prinsipi ifadə etmək üçün hansı terminin işlədilməsinə üstünlük verilməsi onun beynəlxalq-hüquqi mahiyyətini və normativ məzmununu dəyişdirə, eləcə də dövlətlərarası beynəlxalq praktikada əhəmiyyətinə və oynadığı rola qətiyyən təsir göstərə bilməz.

Dövlətlərin ərazi bütövlüyü prinsipi ilk dəfə XVIII əsrin axırlarında **«Fransa İnqilabı»** tərəfindən elan olunmuşdur; lakin o, beynəlxalq publik hüququn əsas prinsiplərindən biri kimi yalnız XX əsrin ortalarından formalaşmağa başlamışdır. Belə ki, **BMT-nin Nizamnaməsi** (1945-ci il) birbaşa olmasa da, dolayı yolla həmin prinsipi təsbit edir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində ərazi bütövlüyü məsələsi barədə

---

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.275; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.42; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.18; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.46.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.201.

[3] *Məsələn, bax:* Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.56; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.35; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 71.

[4] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 73; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 59; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.103; Международное публичное право / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.127; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 118; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.95; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.166.

deyilir ki, BMT üzvü olan dövlətlər özlərinin beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi toxunulmazlığına qarşı güclə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinmək vəzifəsi daşıyırlar; bu göstərişdən məlum və bəlli olur ki, dövlətlərin ərazi toxunulmazlığı prinsipi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin elementi kimi təsbit edilir. Bu isə o deməkdir ki, dövlətlərin ərazi bütövlüyü prinsipi BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində dolayı yolla[1], müstəqil olmayan prinsip kimi formulə edilmişdir.[2]

Qeyd etmək vacibdir ki, göstərilən məsələni ifadə etmək üçün BMT Nizamnaməsinin rus mətnində «ərazi toxunulmazlığı», ingilis mətnində isə «ərazi bütövlüyü» kimi terminlər işlədilir. Bu səbəbdən sözügedən prinsipi beynəlxalq publik hüquq doktrinasında «dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı prinsipi» adlandırırlar; son zamanlar diplomatik praktikada məhz bu termindən daha tez-tez istifadə olunur. Düzdür, BMT-nin Nizamnaməsi «dövlət ərazisinin toxunulmazlığı» və «dövlət ərazisinin bütövlüyü» ifadələrini eynimənalı anlayışlar kimi işlədir. Lakin, əslində, bir-birinə yaxın olsalar da, onlar mənaca üst-üstə düşmürlər. Bu barədə bir az sonra danışacağıq.

1970-ci il Bəyannaməsi də dolayı yolla dövlətlərin ərazi bütövlüyü prinsipini təsbit edir. Burada dövlətlərin ərazi bütövlüyü prinsipi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi ilə bağlı olaraq, həmin prinsipin obyekti kimi konkretləşdirilir, məzmun baxımından açıqlanır. Lakin 1970-ci il Bəyannaməsi BMT-nin Nizamnaməsi kimi bilavasitə açıqcasına, necə deyərlər, aydın şəkildə dövlətlərin ərazi bütövlüyünü for-

[1] Müəlliflərdən L.H.Hüseynov və Y.D.İlin, çox düzgün olaraq, göstərirlər ki, BMT–nin Nizamnaməsində dövlətlərin ərazi bütövlüyü prinsipi dolayı yolla ifadə olunmuşdur *(bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.42; Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.37).

[2] Müəlliflərdən Y.N.Maleyev belə güman edir ki, BMT-nin Nizamnaməsində ərazi bütövlüyü prinsipi müəyyən olunmamışdır *(bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 73).

mal baxımdan beynəlxalq publik hüququn əsas prinsiplərindən biri kimi formulə etmir. Bu sənəddə həm də dövlətlərin ərazi bütövlüyü prinsipi müstəqil prinsip kimi nəzərdə tutulmur.

Müstəqil prinsip kimi dövlətlərin ərazi bütövlüyü prinsipi ATƏM-in **Helsinki Yekun Aktında** (1975-ci il) təsbit olunmuşdur; Helsinki Yekun Aktı bu prinsipin inkişafında vacib mərhələ sayılır. Belə ki, göstərilən akt dövlətlərin ərazi bütövlüyü prinsipini nəinki müstəqil prinsip kimi ayırır, həmçinin onun konkret normativ-hüquqi məzmununu müəyyənləşdirir; burada o, həm də açıq şəkildə təsbit olunur. Regional xarakterli sənəd olan Helsinki Yekun Aktında təsbit edilməsinə baxmayaraq, dövlətlərin ərazi bütövlüyü prinsipi universal prinsipdir. Belə ki, bu prinsip bütün qitələrdən olan dövlətlərin iştirak etdiyi çoxsaylı universal və regional xarakterli beynəlxalq müqavilələrdə təsbit olunmuşdur.

Regional xarakterli elə bir beynəlxalq sənədə rast gəlinmir ki, o, dövlətlərin ərazi bütövlüyü prinsipindən çıxış etməsin. Məsələn, **Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi** özündə, mahiyyətcə, həmin prinsipi əks etdirir; belə ki, bu nizamnamə, eyni zamanda, iştirakçı (üzv)-dövlətlərin ərazi bütövlüyünü qorumaq məqsədinə xidmət edir.

Afrika Birliyi Təşkilatının Xartiyası dövlətlərin ərazi bütövlüyünün təmin olunmasını və qorunmasını özünün əsas məqsədlərindən biri kimi müəyyənləşdirir. Bu isə həmin sənədin dövlətlərin ərazi bütövlüyü prinsipini dolayı yolla formulə etməsini göstərir.

MDB kimi regional xarakterli qurum çərçivəsində bir sıra beynəlxalq sənəd qəbul olunmuşdur ki, həmin sənədlər də dövlətlərin ərazi bütövlüyü prinsipindən çıxış edir. Məsələn, MDB-nin Nizamnaməsində (1993-cü il) həmin prinsipin adı çəkilir və dövlətlərin üzərinə özgə ərazilərinin parçalanmasına (tərkib hissələrinə ayrılmasına) yönələn istənilən hərəkətdən çəkinmək kimi vacib vəzifə qoyulur. Bildiyimiz kimi, MDB iştirakçısı olan dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının qorunub saxlanmasına dair 15 aprel

1994-cü il tarixdə müvafiq Bəyannamə qəbul edilmişdir;[1] bu bəyannamə də dövlətlərin ərazi bütövlüyü prinsipindən çıxış edir.

Asiya Qarşılıqlı Əlaqə və Etimad Tədbirləri Müşavirəsi, məlum olduğu kimi, 14 sentyabr 1999-cu il tarixdə müvafiq sənəd (üzv-dövlətlər arasında münasibətləri tənzimləyən prinsiplərə dair müvafiq bəyannamə) qəbul etmişdir; regional xarakterli bu sənəddə göstərilir ki, üzv-dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşmalı, ərazini hərbi işğal obyektinə çevirməkdən çəkinməlidirlər. Bu isə həmin sənədin dövlətlərin ərazi bütövlüyü prinsipindən çıxış etməsini göstərir.

Ərazi bütövlüyü prinsipi öz hüquqi-normativ təsbitini həm də **Ərəb Dövlətləri Liqası** kimi regional beynəlxalq təşkilatın Nizamnaməsində (maddə 5) tapmışdır.

Bunlardan başqa, ərazi bütövlüyü prinsipi bütün qitələrdən olan dövlətlərin beynəlxalq praktikasında tanınır. Buna görə də, regional xarakterli ATƏM çərçivəsində qəbul olunmuş Helsinki Yekun Aktında (1975-ci il) ilk dəfə müstəqil prinsip kimi təsbit olunan «ərazi bütövlüyü prinsipi» beynəlxalq publik hüququn əsas prinsipləri sırasına daxil edilir.

Dövlətlərin ərazi bütövlüyü prinsipinə görə, tam, bölünməz, toxunulmaz, vahid və ayrılmaz olan dövlət ərazisinin qanunsuz olaraq ayrı-ayrı tərkib hissələrə parçalanmasına, hərbi işğal obyektinə çevrilməsinə, silahlı basqına (hücuma) məruz qalmasına, beynəlxalq publik hüquqa zidd şəkildə dəyişdirilməsinə, zəbt olunmasına, zorla tutulmasına və digər hər hansı yolla ona qəsd olunmasına yol verilmir.

Dövlətlərin ərazi bütövlüyü prinsipi tələb edir ki, dünyada mövcud olan bütün dövlətlər bir-birinin ərazi bütövlüyünə, eləcə də ərazi toxunulmazlığına hörmətlə yanaşmalıdır. Hər bir dövlətin ərazisi hüquqi cəhətdən bütövdür. Coğrafi-fiziki cəhətdən dövlət ərazisinin bütövlüyünə gəldikdə isə, nəzərdən keçirdiyimiz prinsip heç də tələb etmir ki, coğrafi-fiziki cəhətdən

[1] URL: http: // www.zaki.ru (19.05.2018-ci il).

dövlət ərazisi bütöv olmalıdır. Belə ki, dövlət ərazisinin ayrı-ayrı hissələri coğrafi-fiziki cəhətdən heç də bir-biri ilə bitişik və bağlı olmaya da bilər. Məsələn, Naxçıvan Muxtar Respublikasının ərazisi coğrafi-fiziki cəhətdən Azərbaycan Respublikasının dövlət ərazisinə bitişik olmayıb, onunla bağlı deyildir. Lakin belə vəziyyət, əlbəttə, Azərbaycan Respublikasının dövlət ərazisinin hüquqi cəhətdən bütöv olmasına qətiyyən təsir göstərmir. Buna görə də, dövlətlərin ərazi bütövlüyü dedikdə dövlət ərazisinin coğrafi-fiziki cəhətdən deyil, **hüquqi nöqteyi-nəzərdən vahid (bütöv) və tam olması** başa düşülür.[1]

Qeyd etmək lazımdır ki, hər bir dövlətin öz ərazisi olmalıdır. Ərazi istənilən dövlətin mövcud olmasının təbii şərti, atributiv (konstitutiv) əlamətlərindən biri, onun maddi əsası sayılır. Dövlət malik olduğu ərazidə öz suveren hakimiyyətini həyata keçirir. Dövlət ərazisində ölkə əhalisi yaşayır və məskən salır, subyektlər iqtisadi-təsərrüfat fəaliyyətini həyata keçirirlər. Dövlət ərizisi həm də istənilən ölkənin siyasi müstəqilliyinin vacib şərti və əsası sayılır. Bunlara görə, dövlət ərazisi həyati əhəmiyyəti olan prioritet məsələdir. Şübhəsiz, istənilən dövlət ərazisinin tam, toxunulmaz və vahid olmasının, eləcə də onun müdafiə edilməsinin (qorunmasının) təmin edilməsi son dərəcə aktual bir məsələ hesab edilir. Qeyd etməliyik ki, dövlətlərin ərazi bütövlüyü prinsipi bu məsələnin həllində mühüm və vacib rol oynayır. Hətta, deyə bilərik ki, dövlət ərazisini hər cür qəsdlərdən müdafiə etmək və qorumaq **həmin prinsipin məqsədi (təyinatı) sayılır**.[2] Belə qəsdlərə yol verilməməsi **dövlətlərin ərazi bütövlüyü prinsipinin əsas normativ-hüquqi məzmununu təşkil edən başlıca element** hesab olunur. Əgər BMT-nin Nizamnaməsini, 1970-ci il Bəyannaməsini, BMT Baş Assambleyasının Təcavüzün anlayışı haqqında 1974-cü il Qətnaməsini, 1975-ci il Helsinki Yekun Aktını və digər beynəlxalq

[1] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.57.

[2] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.201.

sənədləri nəzərdən keçirsək, görərik ki, həqiqətən də belə bir element mövcuddur. Həmin sənədlər birmənalı şəkildə göstərir ki, hər bir dövlət başqa dövlətin ərazisinə qəsd etməkdən çəkinməli, ona yol verməməlidir.

Dövlət ərazisinə qəsd edən hərəkətlər **iki cür** olur:

– dövlətin ərazi toxunulmazlığına qəsd edən hərəkətlər;

– dövlətin ərazi bütövlüyünə qəsd edən hərəkətlər.

Göstərilən hərəkətlər bir-birindən **qəsdin obyektinə** görə fərqlənir. Belə ki, birinci növ hərəkətlər dövlətin ərazi toxunulmazlığına, ikinci növ hərəkətlər isə dövlətin ərazi bütövlüyünə qəsd edir. Bir-birinə nə qədər yaxın olsalar da, ərazi toxunulmazlığı və ərazi bütövlüyü kimi anlayışlar mənaca üst-üstə düşmürlər. Buna görə də, beynəlxalq hüquq ədəbiyyatında, çox düzgün olaraq, həmin anlayışlar arasında hədd qoyulur və bir-birindən fərqləndirilir.[1] Belə ki, «ərazi toxunulmazlığı» anlayışı «ərazi bütövlüyü» anlayışı ilə müqayisədə daha genişdir. Bunu belə təsdiqləyə bilərik ki, bəzi hərəkətlər dövlətin ərazi toxunulmazlığına qəsd etsə də, onun ərazi bütövlüyünü pozmur. Məsələn, xarici dövlətə məxsus olan hava gəmisi icazə olmadan dövlətin hava məkanına (dövlətin ərazi anlayışına həm də hava məkanı aiddir) daxil olur. Bu kimi halda dövlətin ərazi bütövlüyü deyil, ərazi toxunulmazlığı pozulur. Başqa misallar da çəkmək olar: məsələn, dövlət ərazisinin bir hissəsi işğal edilir və yaxud hər hansı dövlət başqa dövlətin ərazisini ələ keçirmək və tutmaq məqsədi olmadan ona silahlı basqın edir. Belə hallarda da, məlum məsələdir ki, dövlətin ərazi bütövlüyünə deyil, onun ərazi toxunulmazlığına qəsd olunur. Əgər hər hansı dövlətin torpağı zorla başqa dövlətin torpağına qatılarsa, bu hal həm ərazi toxunulmazlığına, həm də ərazi bütövlüyünə qəsd hesab edilir. Göründüyü kimi, «ərazi toxunulmazlığı» və «ərazi bütövlüyü» kimi iki anlayış eynimənalı (sinonim) anlayışlar deyildir.

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.276;Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.72 və b.

Dövlətin ərazi toxunulmazlığı dedikdə dövlətin razılığı olmadan onun quru, dəniz və ya hava məkanına daxil olmağa, habelə tam və ya qismən tutmaq və işğal etmək məqsədilə dövlət ərazisinə qəsd etməyə yönələn hərəkətlərə yol verilməməsi başa düşülür. Belə hərəkətlərə yol verilməməsi dövlət ərazisinin qorunması, mühafizə edilməsi və müdafiə ilə təmin olunması deməkdir; bu isə, əlbəttə, dövlət ərazisinin toxunulmazlığını ifadə edir.

Dövlətin ərazi bütövlüyü dedikdə dövlət ərazisinin hüquqi cəhətdən tam, vahid, ayrılmaz və bölünməz olması başa düşülür. Əgər hər hansı dövlətin ərazisinin hüquqi tamlığına, vahidliyinə, ayrılmazlığına və bölünməzliyinə qəsd olunarsa, bu, həmin dövlətin ərazi bütövlüyünün pozulmasını ifadə edir. Aşağıdakılar dövlət ərazisinin hüquqi cəhətdən tamlığına və vahidliyinə qəsd edən hərəkətlər sayılır: dövlət ərazisini (və ya onun bir hissəsini) qanunsuz olaraq tərkib hissələrinə ayırmaq və parçalamaq, dövlət ərazisini (və ya onun bir hissəsini) qanunsuz olaraq başqa dövlətin ərazisinə birləşdirmək, hər hansı dövlətə məxsus olan torpaqları onun razılığı olmadan başqa dövlətin sahibliyinə vermək, dövlətin ərazisinin bir hissəsini zorla almaq və qəsb etmək, hər hansı dövlətin bu və ya digər dövlətə məxsus olan torpaq sahəsini öz ərazisinə qatmaq məqsədilə onu zəbt etməsi, dövlətin ərazisinin bir hissəsini başqa dövlətin öz ərazisinə birləşdirmək və qatmaq üçün onu işğal etməsi və s.

Bu kimi hərəkətlər edilərsə, dövlətin ərazi bütövlüyünün pozulması və ona qəsd olunması göz qabağındadır. Belə hərəkətlər həm də dövlətin ərazi toxunulmazlığına qəsd etmiş olur. Belə ki, adətən, dövlətin ərazi bütövlüyünə qəsd edən hərəkətlər, eyni zamanda, onun ərazi toxunulmazlığını pozur. Məsələn, Ermənistan Respublikası silahlı güc tətbiq etməklə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi olan Dağlıq Qarabağı zorla ondan ayırmışdı; qəsbkar Ermənistanın bu hərəkəti Azərbaycanın həm ərazi bütövlüyünə, həm də onun ərazisi toxunulmazlığına qəsd edən əməl sayılır. Ermənistan Respublika-

sı tərəfindən Azərbaycan Respublikasının dövlət ərazisinin bir hissəsinin hərbi yolla işğal olunması beynəlxalq publik hüququn nəinki güc tətbiq etməmək, həmçinin ərazi bütövlüyü kimi əsas prinsipinin pozulması deməkdir.

Dövlətlərin ərazi bütövlüyü prinsipi **güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi ilə sıx surətdə bağlıdır**. Belə ki, sözügedən prinsiplər arasında qırılmaz qarşılıqlı əlaqə mövcuddur. Təsadüfi deyildir ki, məhz buna görə beynəlxalq hüquq ədəbiyyatında dövlətlərin ərazi bütövlüyü prinsipi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin bir növ davamı hesab edilir.[1] Göstərilən prinsiplər arasında əlaqə özünü, ilk növbədə, bunda ifadə edir ki, güc tətbiq etməklə və ya güclə hədələməklə dövlətlərin ərazi bütövlüyünə qəsd etmək qadağandır və ona yol verilmir. Digər tərəfdən, dövlət ərazisi güc tətbiq olunmaq və ya güclə hədələmək yolu ilə başqa dövlət tərəfindən zorla alına, zəbt oluna, tutula, hərbi işğal edilə və digər qəsdlərə məruz qala bilməz; xüsusən də, ilhaqa (qəsbkarlığa), yəni müəyyən bir dövlətə məxsus olan torpağın hərbi gücdən istifadə etməklə və ya güclə hədələməklə başqa dövlətin torpağına qatılmasına yol verilmir. Hər hansı dövlətin ərazisini və ya onun bir hissəsini başqa dövlət güc tətbiq etmək və ya güclə hədələmək yolu ilə əldə edə bilməz. Müəyyən ərazinin bu yoldan istifadə etmək nəticəsində əldə olunması hüquqazidd (qanunsuz) əməl olub, etibarsız sayılır.[2]

Göstərilən prinsiplərin bir-biri ilə sıx bağlı olması həm də bunda ifadə edilir ki, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi dövlətlərin üzərinə başqa dövlətin ərazi bütövlüyünə və ərazi toxunulmazlığına qarşı güc tətbiq etməmək və ya güclə hədələməmək vəzifəsi qoyur. Onlar həm də başqa dövlətin ərazi bütövlüyü və ərazi toxunulmazlığı əleyhinə hərbi (silahlı) xarakterdə olmayan hər hansı formada təzyiq göstərməkdən (məsələn, siyasi, iqtisadi və digər formalarda təzyiq

[1] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.72.
[2] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.35.

göstərməkdən) çəkinmək vəzifəsi daşıyarlar; xüsusən də, hərbi formada təzyiqdən istifadə olunmasına yol verilmir.[1]

Dövlətlərin ərazi bütövlüyü prinsipi həm də **dövlət sərhədlərinin pozulmazlığı (toxunulmazlığı) prinsipi** ilə sıx surətdə bağlıdır. Görünür ki, bu səbəbdən bəzi müəlliflər sərhədlərin pozulmazlığı prinsipini dövlətlərin ərazi bütövlüyü prinsipinin davamı hesab edirlər.[2] Doğrudan da, dövlətlərin ərazi bütövlüyü prinsipinə əməl olunmaması, adətən, sərhədlərin pozulmazlığı prinsipinin pozulmasına gətirib çıxarır. Belə ki, dövlət sərhədlərinin qanunsuz olaraq dəyişdirilməsi (bu zaman sərhədlərin pozulmazlığı prinsipi pozulur) istər-istəməz dövlət ərazisinin hüquqazidd şəkildə (qanunsuz) dəyişdirilməsinə (belə halda isə dövlətlərin ərazi bütövlüyü prinsipi pozulur) səbəb olur və yaxud əksinə. Bunlardan başqa, dövlətlərin ərazi bütövlüyü prinsipindən dövlət sərhədlərinin pozulmazlığı prinsipinə əməl etmək, yəni dövlətlərin beynəlxalq publik hüquqa uyğun olaraq müəyyənləşdirilmiş sərhədlərini tanımaq, ərazi iddiasından və digər qəsdlərdən imtina etmək öhdəliyi irəli gəlir. Təsadüfi deyil ki, BMT Baş Assambleyasının 1998-ci il tarixli Qətnaməsində beynəlxalq təhlükəsizliyi qoruyub saxlamaq və dövlətlərin zorla hissələrə ayrılmasının (parçalanmasının) qarşısını almaq üçün beynəlxalq publik hüququn barəsində danışdığımız iki vacib əsas prinsipinə, yəni dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsiplərinə əməl olunmasının zəruriliyi göstərilir. Ona görə ki, həmin prinsiplər bir-birini tamamlayır və şərtləndirir.

Qeyd etməliyik ki, nəinki beynəlxalq sərhədlərə, həmçinin dövlət ərazisinə qəsd edən istənilən hərəkət, hüquqazidd (qanunsuz) əməl müəyyən hallarda cinayət sayılır. Belə ki, dövlət ərazisinə edilən istənilən qəsd onun suveren hakimiyyətini (ərazi suverenliyini) pozur; xüsusən də, hərbi güc tətbiq etmək yolu ilə dövlət ərazisinə edilən qəsd daha təhlükəli xarakter

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 59.
[2] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.57.

daşıyır. Belə hallar isə zərərçəkən dövlətə əsas verir ki, o, özünümüdafiə qaydasında güc tətbiq etsin. Bu səbəbdən, məsələn, Azərbaycan Respublikası öz işğal olunmuş ərazisini erməni qəsbkarlarından azad etmək məqsədilə hərbi (silahlı) güc tətbiq etmişdir və bu, dövlətimizin hərbi (silahlı) gücdən hüquqauyğun (qanuni) şəkildə istifadə etməsi deməkdir.[1]

Dövlətlərin ərazi bütövlüyü prinsipindən irəli gəlir ki, onlar istənilən digər dövlətin ərazi bütövlüyünün tam və ya qismən pozulmasına yönələn hərəkətlərdən çəkinməlidir; dövlətlərin ərazi bütövlüyü toxunulmazdır, pozula bilməz. Odur ki, hər hansı dövlətin ərazisi dəyişdirilə bilməz.

Bununla yanaşı, beynəlxalq publik hüququn yol verdiyi və nəzərdə tutduğu müəyyən hallarda dövlət ərazisinin dəyişdirilməsi mümkündür; buna **dövlət ərazisinin hüquqauyğun (qanuni) şəkildə dəyişdirilməsi** deyilir.[2] Hüquqauyğun (qanuni) olduğuna görə, həmin hallarda dövlət ərazisinin dəyişdirilməsi onun ərazi bütövlüyü prinsipinin pozulması hesab edilmir.

Dövlət ərazisinin hüquqauyğun (qanuni) şəkildə dəyişdirilməsinə əsas olan hallardan biri, ilk növbədə, könüllü razılıq əsasında maraqlı dövlətlərin öz aralarında **beynəlxalq müqavilə bağlamasıdır**. Qeyd etməliyik ki, beynəlxalq publik hüquq beynəlxalq müqavilə bağlamaq yolu ilə hüquqauyğun ərazi dəyişikliyinə yol verir. Heç bir dövlətin ərazisi onun könüllü razılığı olmadan, iradəsinin ziddinə olaraq dəyişdirilə bilməz; könüllü razılıq olmadan dövlət ərazisinin dəyişdirilməsi hüquqaziddir, qanunsuzdur.

İkinci hal **təcavüzkar dövlətin ərazisinin bir hissəsinin zorla ayrılmasından (alınmasından) ibarətdir**; bu zaman, təbii ki, dövlət ərazisi dəyişikliyə məruz qalır. Beynəlxalq publik

[1] *Məsələn,* 2017-ci ilin aprel ayında Azərbaycan silahlı qüvvələri tərəfindən işğal altında olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin, eləcə də, 2020-ci ilin sentyabr-noyabr aylarında həyata keçirilmiş 44 günlük Vətən Müharibəsi nəticəsində torpaqlarımızın bütövlükdə erməni qəsbkarlarından azad olunması tam hüquqauyğun hərəkətdir.

[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.47.

hüquq belə hala yol verir. Lakin təcavüzkar dövlətin ərazisinin bir hissəsinin zorla ayrılması (alınması) üçün **BMT Təhlükəsizlik Şurasının sanksiyası (icazəsi)** olmalıdır. Yalnız BMT Təhlükəsizlik Şurasının sanksiyası (icazəsi) olarsa, ərazi dəyişikliyi hüquqauyğun (qanuni) sayıla bilər.[1]

Dövlət ərazisinin hüquqauyğun dəyişikliyini şərtləndirən üçüncü hal **xalqların öz müqəddəratını təyinetmə hüququnu həyata keçirməsindən** ibarətdir. Belə ki, hər bir xalqın öz müqəddəratını təyinetmə hüququ vardır; istənilən xalq bu hüquqdan istifadə edərək hər hansı müstəqil dövlətin tərkibinə daxil olaraq ona birləşə və ya öz müstəqil dövlətini yarada bilər. Həmin hüququ həyata keçirərək bu və ya digər xalq öz taleyinə sərəncam verir, müəyyən dövlətin tərkibində qalması və ya onun tərkibindən çıxması məsələsini həll edir. Məlum məsələdir ki, bu kimi hallarda dövlətin ərazisi dəyişikliyə məruz qalır. Beynəlxalq publik hüquq xalqların öz müqəddəratını təyinetmə hüququnu həyata keçirmək yolu ilə dövlət ərazisinin dəyişdirilməsinə yol verir. Təsadüfi deyil ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə hüququna malik olmaları beynəlxalq publik hüququn əsas prinsiplərindən biri sayılır (növbəti yarımbaşlıqların birində həmin prinsip barədə danışılacaqdır).

Söhbət beynəlxalq publik hüququn iki əsas prinsipindən, yəni dövlətlərin ərazi bütövlüyü və xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə hüququna malik olmaları barədə prinsiplərdən getdiyi zaman ortaya, təbii ki, belə bir maraqlı sual çıxır: Azərbaycanın Dağlıq Qarabağ hissəsində yaşayan ermənilər öz müqəddəratını təyinetmə hüququndan istifadə edərək müstəqil dövlət yarada bilərmi?

Hər şeydən əvvəl, qeyd etməliyik ki, Dağlıq Qarabağ məsələsinin mahiyyəti təcavüzkar və işğalçı Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının dövlət ərazisinin bir hissəsini (Dağlıq Qarabağı) zorla öz tərkibinə birləşdirməkdən

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.96.

(ilhaq etməkdən) başqa bir şey deyildir[1]. Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyinetmə hüququnu həyata keçirərək müstəqil dövlət yaratmaq fikrinə gəldikdə isə, deyə bilərik ki, əslində, bu, onların öz seperatçı hüquqazidd hərəkətlərinə beynəlxalq publik hüququn «xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə» kimi prinsipi zəminində «don» geydirmək məsələsidir. Digər tərəfdən, Dağlıq Qarabağda yaşayan ermənilərin belə bir hüququ yoxdur. Məsələ burasındadır ki, erməni xalqı tarixdə artıq bir dəfə öz müqəddəratını təyinetmə hüququnu həyata keçirərək, həmin hüquqdan istifadə etmişdir. Belə ki, həmin xalq hələ XX əsrin 20-ci illərində tarixən Azərbaycana məxsus olan ərazidə öz müstəqil dövlətini yaratmışdır. Bunlardan əlavə, Dağlıq Qarabağda yaşayan ermənilərin «öz müqəddəratını təyinetmə hüququ»nu həyata keçirərək Azərbaycan Respublikası ərazisində müstəqil dövlət yaratmaları, təbii ki, bizim ölkəmizin dövlət sərhədlərinin dəyişməsinə gətirib çıxaran məsələdir; bu səbəbdən həmin məsələnin həlli məhz Azərbaycan Respublikasının daxili işidir. Buna görə də, o, yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nizama salınmalıdır. Azərbaycan Respublikasının qanunvericiliyi isə müəyyən edir ki, Azərbaycan Respublikasının dövlət sərhədləri referendumla (ümumxalq səsverməsi) ilə dəyişdirilə bilər (Konstitusiyanın 3-cü maddəsinin 2-ci hissəsi). Düzdür, süni surətdə yaradılmış «qondarma Dağlıq Qarabağ problemi» Azərbaycan Respublikasının dövlətdaxili işi olsa da, həmin problem beynəlxalq publik hüququn müddəaları nəzərə alınmaqla həll olunmalıdır. Lakin, unutmaq olmaz ki, Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq publik hüquq arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının Konstitusiyası tətbiq edilir (Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi).

[1] *Ətraflı bax:* Qarayev R.M. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq. Bakı, 2012, 344 s.

1970-ci il Bəyannaməsində deyilir ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi dövlətlərin ərazi bütövlüyünün pozulmasını, onların parçalanmasını sanksiyalaşdıran və ya həvəsləndirən əsas kimi izah edilməməlidir; bu prinsip dövlətlərin üzərinə istənilən başqa dövlətin ərazi bütövlüyünün pozulmasına yönələn hərəkətlərdən çəkinmək öhdəliyi qoyur. Həmin prinsipə görə, dövlətlər həm də separatçıları dəstəkləməmək, habelə ərazi bütövlüyünə qarşı separatizmdən istifadə etməmək kimi vəzifələr daşıyırlar.

Beynəlxalq publik hüquq nəzəriyyəsində formalaşmış fikrə görə, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi yalnız dövlətlərin ərazi bütövlüyü prinsipi nəzərə alınmaqla tətbiq edilə bilər.[1] Hesab edirik ki, söylənilən bu fikir Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan erməni seperatçıları tərəfindən Azərbaycan ərazisində «öz müqəddəratını təyinetmə hüququ»nun həyata keçirilməsinin qeyri-mümkünlüyü barədə nəzəri əsas sayılır.

6.4. Beynəlxalq publik hüququn dövlətlərin müstəqil surətdə mövcud olmasını təmin edən əsas prinsipləri

6.4.1. Dövlətlərin suveren bərabərliyi prinsipi

Dövlətlərin suveren bərabərliyi prinsipi onların müstəqil surətdə mövcud olmalarının təmin edilməsində vacib rola malikdir; beynəlxalq publik hüququn **səlahiyyətverici prinsipi** kimi onun əhəmiyyəti təkcə bununla məhdudlaşmır. Dövlətlərin suveren bərabərliyi prinsipinin əhəmiyyəti həm də bundan ibarətdir ki, sözügedən prinsip, bir tərəfdən, beynəlxalq publik hüququn digər əsas prinsiplərinin formalaşması, digər tərəfdən isə, onların öz funksiyasını (təyinatını) normal surətdə yerinə yetirməsi üçün münasib və əlverişli hüquqi əsas yaradır. Nəzərə almaq lazımdır ki, dövlətlərin suveren bərabərliyi prinsipinin

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.123.

köməyi ilə beynəlxalq publik hüququn bir sıra əsas prinsipi qorunur və müdafiə olunur. Məsələn, məhz dövlətlərin suveren bərabərliyi prinsipinə uyğun olaraq, dövlətlərin ərazi bütövlüyü toxunulmaz, sərhədləri pozulmazdır. Dövlətlərin suveren bərabərliyi prinsipinə əsasən, özlərinin hüquqi statusuna görə bərabər olan dövlətlər bir-birinin daxili işlərinə qarışa bilməzlər; dövlətlərin daxili işlərinə qarışmamaq isə beynəlxalq publik hüququn əsas prinsiplərindən biridir.

Qeyd etməliyik ki, dövlətlərarası beynəlxalq əməkdaşlığın təmin edilməsi, eləcə də beynəlxalq publik hüquq qaydasının qorunub saxlanması kifayət qədər vacib məsələdir. Bu məsələnin həllində dövlətlərin suveren bərabərliyi prinsipi mühüm rol oynayır. Təsadüfi deyil ki, dövlətlərin suveren bərabərliyi prinsipi müasir dövlətlərarası beynəlxalq münasibətlərin əsası sayılır. Belə ki, bu münasibətlərdə dünyanın bütün dövlətləri iştirak etməlidir. Söhbət dövlətlərarası beynəlxalq münasibətlərdə **bütün ölkələrin hüquqi cəhətdən bərabər iştirak etmələrindən** gedir. Bu, yəni hüquqi cəhətdən bərabər iştirak etmək isə dövlətlərin suveren bərabərliyi prinsipinin köməyi ilə təmin olunur; həmin prinsipin **əsas sosial təyinatı** da məhz bundan ibarətdir.[1]

Dövlətlərin suveren bərabərliyi prinsipi ümumi şəkildə BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində formulə edilmişdir. Burada deyilir ki, BMT özünün bütün üzvlərinin suveren bərabərliyi prinsipi əsasında fəaliyyət göstərir. Bu isə BMT Nizamnaməsinin dövlətlərin suveren bərabərliyi prinsipini təsbit etməsini bildirir.

Dövlətlərin suveren bərabərliyi prinsipi nisbətən tam və dolğun şəkildə öz normativ-hüquqi ifadəsini 1970-ci il Bəyannaməsində tapmışdır; bu sənəd həmin prinsipin normativ-hüquqi məzmununu açıqlayır və onun xarakterisikasını verir.

Dövlətlərin suveren bərabərliyi prinsipi Helsinki Yekun Aktında da (1975-ci il) formulə edilmişdir. Burada həmin prinsi-

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2008, с.196.

pin hüquqi məzmunu genişləndirilir və o, daha konkret xarakter alır. Bir sıra beynəlxalq sənəddə (ATƏM-in 1989-cu il tarixli Vyana Yekun Aktında, Yeni Avropa üçün 1990-cı il tarixli Paris Xartiyasında, üzv-dövlətlər arasında münasibətləri tənzimləyən prinsiplərə dair 1999-cu il Bəyannaməsində və s.) dövlətlərin suveren bərabərliyi prinsipi daha da inkişaf etdirilir. BMT sisteminə daxil olan beynəlxalq təşkilatların, regional beynəlxalq təşkilatların nizamnamələri, habelə çoxsaylı beynəlxalq müqavilələr də həmin prinsipdən çıxış edir. Bəs, dövlətlərin suveren bərabərliyi prinsipinin mahiyyəti nədən ibarətdir?

Qeyd etmək vacibdir ki, dünyada mövcud olan dövlətlərin ərazisinin həcmi, əhalisinin sayı, coğrafi vəziyyəti, təbii resurslarının tərkibi və xarakteri, siyasi nüfuzu, iqtisadi durumu, hərbi gücü, inkişaf səviyyəsi və digər amillər baxımından, eyni olmayıb, bir-birindən fərqlənirlər. Bu səbəbdən, təbii ki, onlar faktiki cəhətdən göstərilən amillər kontekstində qeyri-bərabərdirlər. Lakin, buna baxmayaraq, dövlətlər hüquqi cəhətdən bərabər olub, bir-birinə tabe deyillər. Başqa sözlə, faktiki cəhətdən bərabər olmayan bütün dövlətlər hüquqi baxımdan, bərabərdirlər ki, bu da məhz dövlətlərin suveren bərabərliyi prinsipi sayəsində mümkün olur; həmin prinsipin mahiyyəti məhz bundan ibarətdir. Lakin göstərilən prinsip heç də onu ifadə etmir ki, bütün dövlətlər real həyatda konkret bərabər hüquqlara malikdirlər.[1] Başqa sözlə, dövlətlərin suveren bərabərliyi prinsipi o demək deyildir ki, dünyada mövcud olan dövlətlərin praktikada malik olduqları konkret hüquqların həcmi eyni olub, bərabərdir. Heç də sirr deyil ki, bu, yəni dövlətlərin praktikada malik olduqları konkret hüquqların həcminin eyni və bərabər olması mümkün deyildir. Məlum məsələdir ki, dövlətlərin praktikada malik olduğu konkret hüquqların həcmi onların potensial imkanından asılıdır. Belə ki, bu və ya digər dövlətin başqa dövlətlə müqayisədə beynəlxalq münasibətlərdə iştirak etmək imkanı daha çoxdur; müəyyən bir dövlət başqasına nisbətən daha çox sayda beynəlxalq müqavilə bağlaya bilər və s.

[1] Фердросс А. Международное право. Пер.с нем. М., 1959, с.209.

Təbii ki, belə hallarda dövlətin praktikada malik olduğu konkret hüquqların həcmi daha geniş olur. Təsadüfi deyil ki, BMT-nin Beynəlxalq Məhkəməsi dövlətlərin öz malik olduğu konkret hüquqların həcminə görə eyni olmamasını, xüsusilə, qeyd etmişdir.[1] Məlum məsələdir ki, bitərəf dövlətin beynəlxalq münasibətlər sahəsində hüquqları nisbətən məhduddur; BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər BMT üzvü olan dövlətlərdən daha geniş hüquqlara malikdir və s.

Dövlətlərin suveren bərabərliyi prinsipi yalnız bunu ifadə edir ki, **bütün dövlətlər hüquqi cəhətdən bərabərdirlər,** yəni hüquq bərabərliyinə malikdirlər; bu səbəbdən həmin prinsip beynəlxalq hüquq ədəbiyyatında «**dövlətlərin suveren bərabərliyi prinsipi**» termini ilə əhatə edilir.[2] Beynəlxalq hüquq dərsliklərinin hamısında, demək olar ki, məhz həmin termindən istifadə olunur.

Dövlətlərin hüquqi cəhətdən bərabər olmaları məsələsinə gəldikdə, qeyd etməliyik ki, dövlətlərin hüquq bərabərliyi onlara müvafiq hüquqlara malik olmaqda (hüquqlar əldə etməkdə) eyni hüquqi imkanların verilməsini ifadə edir. Başqa sözlə, özləri üçün hüquq yaratmaqda əgər dövlətlər eyni hüquqi imkana və bərabər qabiliyyətə malik olarlarsa, bu, onların bərabərhüquqlu olması deməkdir; ona həm də **dövlətlərin suveren bərabərliyi** deyilir. Dövlətlərin suveren bərabərliyi (hüquqi bərabərliyi) isə onların faktiki bərabərliyini ifadə etmir.[3] Aydın məsələdir ki, dövlətlər **faktiki bərabərliyə** malik deyillər; onlar iqtisadi cəhətdən, inkişaf səviyyəsi baxımından, sənaye potensialı nöqteyi-nəzərindən, beynəlxalq həyatda oynadığı siyasi,

[1] ICJ. Reports, 1949, p.178 (URL:http://www.icj-cij.org) –19.05.2018-ci il.

[2] *Məsələn, bax:* Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004, с.60; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.18; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.117; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.32 və s.

[3] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 109.

iqtisadi və digər rollara görə bir-birindən fərqlənirlər. Dövlətlərdən bəziləri böyük, digərləri isə kiçik dövlət hesab edilir; müəyyən dövlətlər iqtisadi cəhətdən güclü, digərləri isə zəif dövlət sayılır; bəzi dövlətlərin bağladıqları beynəlxalq müqavilələrin sayı çoxdur; elə dövlətlər də vardır ki, onlar məhdud sayda beynəlxalq müqavilələrdə iştirak edirlər və s. Lakin, bu cür faktiki bərabərsizliyə baxmayaraq, bütün dövlətlər hüquq bərabərliyinə (suveren bərabərliyə) malikdirlər. Məhz hüquq bərabərliyi dövlətlərin suveren bərabərliyi prinsipinin mahiyyətini təşkil edən əsas elementlərdən biridir. Hüquq bərabərliyi həm də bunu ifadə edir ki, dövlətlər hüquqi cəhətdən bir-birindən asılı deyillər; heç bir suveren dövlət başqa dövlətə tabe deyildir.[1]

Dövlətlərin suveren bərabərliyi prinsipinə görə, dünyada mövcud olan bütün dövlətlər suveren olduqları üçün hüquq bərabərliyinə malik olub, hüquqi cəhətdən bir-birindən asılı deyillər və bu səbəbdən onlar arasında tabeçilik münasibəti yoxdur.

Dövlətlərin suveren bərabərliyi prinsipinə verdiyimiz elmi anlayışdan görürük ki, həmin prinsipin mahiyyətini, eyni zamanda, «dövlət suverenliyi» kimi digər əsas element təşkil edir. Qeyd etmək lazımdır ki, «dövlət suverenliyi» və «dövlətlərin hüquq bərabərliyi» kimi iki element arasında üzvi surətdə qarşılıqlı əlaqə (bağlılıq) vardır. Belə ki, dövlətlərin hüquq bərabərliyi onların suveren olmalarını tələb edir; dövlətlərin suveren kimi qalmaları üçün onların hüquq bərabərliyinə malik olmaları vacibdir.[2] Deməli, «dövlətlərin suverenliyi» və «dövlətlərin hüquq bərabərliyi» bir-birini şərtləndirən anlayışlardır. Dövlətlərin suveren bərabərliyi də məhz həmin anlayışlar vasitəsilə xarakterizə olunur.

Dövlət suverenliyi dövlətin elə bir ayrılmaz siyasi-hüquqi xüsusiyyətidir ki, bu xüsusiyyətə görə, o, müstəqil olub, öz

[1] Фердросс А. Международное право. Пер. с нем. М., 1959, с.209.
[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 67.

ərazisi daxilində tam hakimiyyətə malikdir və başqa dövlətlərdən asılı deyildir. Əgər hər hansı dövlət ölkə daxilində tam hakimiyyətə malik olarsa, habelə xarici əlaqələr sahəsində müstəqil olub, heç bir dövlətdən asılı olmazsa, bu o deməkdir ki, həmin dövlət suverendir. Suverenlik onu ifadə edir ki, hər bir dövlət öz ərazisində qanunvericilik, icra və məhkəmə hakimiyyətini kənardan hər hansı müdaxilə olmadan həyata keçirir, habelə müstəqil surətdə xarici siyasət yürüdür.

Bütün dövlətlər suverenliyə aid hüquqlardan (ona suveren hüquqlar da deyilir)[1] istifadə etməlidir. **Suverenliyə aid hüquqlar** və ya **suveren hüquqlar** dedikdə dövlətin aşağıdakı hüquqi imkanları başa düşülür:

- siyasi müstəqilliyə malik olmaq hüququ;
- azad olmaq hüququ (azadlıq hüququ);
- öz qanunlarını və inzibati qaydalarını müəyyənləşdirmək hüququ;
- başqa dövlətlərlə beynəlxalq publik hüquqa uyğun münasibətlər (dövlətlərarası beynəlxalq münasibətlər) yaratmaq və onları həyata keçirmək hüququ;
- beynəlxalq təşkilatlarda iştirak etmək və onların üzvü olmaq hüququ;
- öz siyasi, sosial, iqtisadi və mədəni sistemini sərbəst şəkildə seçmək və inkişaf etdirmək hüququ;
- beynəlxalq müqavilələr bağlamaq və onların iştirakçısı olmaq hüququ;
- ittifaq müqaviləsində iştirak etmək hüququ;
- bitərəf olmaq hüququ.

Dövlətlərin suveren bərabərliyi prinsipi bütün dövlətlərin üzərinə bir-birinin **suveren hüquqlarına hörmət etmək öhdəliyi** qoyur. Helsinki Yekun Aktında (1975-ci il) deyilir ki, dövlətlər bir-birinin suverenliyə aid hüquqlarına hörmət etməlidirlər. Bu səbəbdən həmin aktda barəsində danışdığımız prinsip

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.268.

«suveren bərabərlik və suverenliyə aid hüquqlara hörmət etmək prinsipi» kimi terminlə əhatə olunur; bəzən, ədəbiyyatda da bu termindən istifadə edilir.[1]

Dövlətlərin suveren bərabərliyi prinsipi həm də bunda ifadə olunur ki, onlar immunitetdən istifadə edirlər. **İmmunitet** həmin prinsipin vacib tərkib hissəsi olub, hər hansı dövlətin digər dövlətin yurisdiksiyasına, başqa sözlə, xarici dövlətin hakimiyyətinə (hakimiyyət xarakterli aksiyasına) tabe olmamaq hüququdur.

Suveren bərabərlik prinsipindən təkcə bu irəli gəlmir ki, dövlətlər özləri üçün hüquqlar yaratmaqda bərabər qabiliyyətə malikdirlər; suveren bərabərlik prinsipi həm də müvafiq vəzifələr müəyyənləşdirilməsində (yaradılmasında) dövlətləri bərabər qabiliyyətlə təmin edir. Başqa sözlə, suveren bərabərlik prinsipi dövlətlərə elə bərabər imkan verir ki, onlar özləri üçün həm hüquqlar, həm də vəzifələr müəyyənləşdirsinlər. Deməli, beynəlxalq publik hüquq qabiliyyəti, yəni beynəlxalq hüquqlara malik olmaq və vəzifələr daşımaq qabiliyyəti kontekstində bütün dövlətlər bərabərdir.

Dövlətlərin suveren bərabərliyi prinsipi onları nə qədər geniş hüquqi imkanla (qabiliyyətlə) təmin etsə də, o, heç nə ilə məhdudlaşdırılmayan mütləq prinsip sayılmır. Belə ki, müəyyən hallarda **dövlətlərin suveren bərabərliyi prinsipi məhdudlaşır**[2] və ondan kənara çıxılmasına[3] yol verilir. Bu cür

---

[1] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с. 100; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 55 və b.

[2] Müəlliflərdən V.S.İvanenko və V.İ.Kuznetsov belə bir fikir söyləyirlər ki, dövlətlərin suveren bərabərliyi prinsipinin məhdudlaşdırılması mümkün deyil *(bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2008, с.198). Lakin, unutmaq olmaz ki, beynəlxalq publik hüquq həmin prinsipin tətbiqinin məhdudlaşdırılması hallarını nəzərdə tutur.

[3] Bəzi alimlər söyləyirlər ki, dövlətlərin suveren bərabərliyi prinsipindən kənara çıxılmasına yol verilmir *(bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 198). Lakin, nəzərə almaq lazımdır ki, beynəlxalq publik hüququn müəyyənləşdirdiyi bəzi məqamlarda sözügedən prinsipdən kənara çıxmaq mümkündür.

məhdudlaşdırma və kənaraçıxma halları olmadan normal dövlətlərarası beynəlxalq münasibətlər yarana bilməz. Belə halların olmasını sülhün qorunub saxlanmasının vacibliyi, inteqrasiya prosesinin məntiqi və digər beynəlxalq məsələlərin həlli tələb edir. Buna görə də, dövlətlərin suveren bərabərliyi prinsipini məhdudlaşdırma və ondan kənaraçıxma hallarına beynəlxalq publik hüquq yol verir. Belə ki, bu hallar beynəlxalq publik hüquq normalarında nəzərdə tutulmuşdur; elə bu səbəbdən onları dövlətlərin suveren bərabərliyi prinsipinin pozulma halları hesab etmək olmaz.

İlk növbədə, qeyd etmək vacibdir ki, dövlətlərin suveren bərabərliyi prinsipi səsvermə məsələsində, bəzən, məhdudlaşır və ondan kənara çıxılmasına yol verilir. Bildiyimiz kimi, beynəlxalq (dövlətlərarası) təşkilatların müvafiq qərarlar qəbul etməsinin əsas metodu səsvermədir. BMT də daxil olmaqla, ümumiyyətlə, bütün beynəlxalq (dövlətlərarası) təşkilatlarda səsvermə zamanı **«bir dövlət – bir səs»** kimi klassik prinsipindən istifadə olunur. MDB, ÜTT, NAFTA, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında, habelə digər təşkilatlarda səsvermə prosesində məhz bu prinsip tətbiq edilir. Lakin 1944-cü ildə Beynəlxalq Valyuta Fondunun, eləcə də Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının yaradılması ilə bağlı olaraq, praktikada **«ölçülüb-biçilmiş səsvermə»** prinsipindən istifadə olunmağa başlandı; bu prinsipə görə, hər bir dövlətin əhalisinin sayından, beynəlxalq təşkilatın büdcəsinə ödənilən üzvlük haqqının məbləğindən, qarşılıqlı ticarətdəki payından, ümumi məcmu məhsulun həcmindən və digər hallardan asılı olaraq, müxtəlif sayda səsi vardır.[1] «Ölçülüb-biçilmiş səsvermə» prinsipinin tətbiq edilməsi dövlətlərin suveren bərabərliyi prinsipini məhdudlaşdıran və həmin prinsipdən kənara çıxan haldır; lakin həmin hal dövlətlərin suveren bərabərliyinin pozulması kimi sayılmır.

[1] Göstərilən prinsip, əsasən, beynəlxalq maliyyə-valyuta və kredit təşkilatlarında tətbiq olunur. *Bu barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s.285.

Məlum olduğu kimi, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvünün (ABŞ, Böyük Britaniya, Rusiya Federasiyası, Fransa və Çin) qərar qəbul olunan zaman **«veto» hüququ** vardır; onlar (daimi üzvlər) buna görə də, xüsusi hüquqi statusa malikdir. Belə statusa malik olmaq bundan ötrüdür ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri dünyada beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması, təcavüzkarlıq aktlarının qarşısının alınması, BMT-nin Nizamnaməsinə uyğun olaraq, dünyada sülh və təhlükəsizliyin bərpa olunması üçün beynəlxalq məsuliyyət daşıyır, həmin məsələlərin həllində başlıca rol oynayır. Odur ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin heç də «veto» hüququna malik olmaları dövlətlərin suveren bərabərliyi prinsipinin pozulması halı sayılmır; o, həmin prinsipi məhdudlaşdıran, bu prinsipdən kənara çıxan haldır. Eyni zamanda, nüvə silahına malik olan dövlətlərin xüsusi statusa malik olmalarını, habelə beynəlxalq ticarətdə inkişaf etməkdə olan dövlətlərin preferensiya rejimi ilə təmin olunmasını (güzəşt və üstünlüklər verilməsini) belə hallardan hesab etmək olar.

6.4.2. Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi

«Qarışmamaq» prinsipi beynəlxalq publik hüququn əsas prinsiplərindən birini ifadə etmək üçün işlədilən qısaldılmış termindir. Bəzi müəlliflər beynəlxalq hüquq dərsliklərində məhz belə qısaldılmış termindən istifadə edirlər.[1] Bir sıra alim isə «dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi» kimi for-

[1] *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.131; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.39; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.33 və s.

malaşmış termin işlədir.[1] Elə müəlliflər də vardır ki, onlar «dövlətlərin daxili səlahiyyətinə aid edilən işlərə qarışmamaq prinsipi» terminindən istifadə etməyə üstünlük verirlər.[2]

Hesab edirik ki, axırıncı termin, yəni «dövlətlərin daxili səlahiyyətinə aid edilən işlərə qarışmamaq prinsipi» termini daha əhatəlidir. Məsələ burasındadır ki, «qarışmamaq» prinsipi istənilən dövlətin nəinki daxili, həmçinin xarici işlərinə müdaxilə olunmasını qadağan edir.[3] Bəzi beynəlxalq sənədlərdə, məsələn, 1970-ci il Bəyannaməsində göstərilir ki, heç bir dövlətin digər dövlətin daxili və ya xarici işlərinə müdaxilə etmək (qarışmaq) hüququ yoxdur; MDB-nin Nizamnaməsinə görə də, üzv-dövlətlərin bir-birinin daxili və xarici işlərinə qarışmasına yol verilmir. Görünür ki, bu səbəbdən hətta bəzi müəlliflər «qarışmamaq» prinsipini «dövlətlərin daxili və xarici işlərinə qarışmamaq prinsipi» kimi terminlə əhatə edirlər.[4]

Qeyd etməliyik ki, bu və ya digər məsələ (misal üçün, hər hansı çoxtərəfli beynəlxalq müqavilədə iştirak etmək və s.) dövlətin sərhədindən kənara çıxdığına görə, təbii ki, daxili deyil, xarici iş sayılır; barəsində danışdığımız qarışmamaq prinsipi həm də belə işlərə, yəni xarici işlərə şamil olunur. Ona görə ki, bu kimi **xarici işlərin həlli dövlətin daxili səlahiyyətinə**

---

[1] *Məsələn, bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 58; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.103; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.160; Ильин Ю.Д.Международное публичное право. Лекции. М., 2008, с.41; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.18; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.86; Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с. 69 və s.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 57; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 113 və s.

[3] Международное публичное право / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.131; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.86.

[4] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 81.

aid olan məsələdir. Odur ki, «dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi» kimi məhdud termin işlədilməsi məqbul variant deyildir. «Dövlətlərin daxili səlahiyyətinə aid edilən işlərə qarışmamaq prinsipi» termininə gəldikdə isə, qeyd etməliyik ki, həmin termin əhatəli olub, barəsində danışdığımız prinsipin həm daxili, həm də xarici işlərə aid olunmasını bildirir.

Qarışmamaq prinsipinə görə, hər hansı dövlətin və digər subyektin istənilən başqa dövlətin daxili səlahiyyətinə aid edilən işlərə birbaşa və ya dolayı yola müdaxilə etməsi qadağan olunur, buna yol verilmir. Bu prinsip beynəlxalq publik hüququn **qadağanedici prinsipləri** sırasına daxildir.

Qarışmamaq prinsipinin əsasını müdaxilə etməmək ideyası (ona həm də müdaxilə etməmək doktrinası deyilir) təşkil edir ki, həmin ideya müəyyən tarixi mərhələdə yaranmışdır. Bildiyimiz kimi, Avropada otuzillik müharibənin qurtarması ilə bağlı olaraq, 24 oktyabr 1648-ci il tarixdə Almaniyanın Münster şəhərində müvafiq sülh müqaviləsi bağlandı ki, bu müqavilə, ilk dəfə olaraq, müdaxilə etməmək ideyasından çıxış etdi. Sonralar həmin ideya XVIII əsrin axırlarında Böyük Fransa İnqilabı dövründə inkişaf etdirilmişdir. Fransanın o dövrdə qəbul olunmuş Konstitusiyası (1793-cü il), eləcə də Beynəlxalq hüquq Bəyannaməsi (1795-ci il) müdaxilə etməmək ideyasını formulə edirdi. Həmin ideya XIX əsrin əvvəllərində ABŞ-ın milli doktrinasına çevrildi; ona «Amerika qitəsində ABŞ-ın işlərinə Avropanın qarışmaması doktrinası» deyilirdi ki, bu doktrinanın formalaşması o dövrün ABŞ prezidenti D.Monro ilə bağlı idi. Belə ki, 1823-cü ildə prezident D.Monronun ABŞ konqresinə göndərdiyi müraciətdə deyilirdi ki, Amerika qitəsinin işlərinə Avropa dövlətlərinin müdaxilə etməsi yolverilməzdir.[1]

XX əsrin 20–30-cu illərində qəbul olunan bir sıra beynəlxalq sənəd də müdaxilə etməmək ideyasından çıxış edirdi. Millətlər Liqasının Statutu (1919-cu il) müdaxilə etməmək ideyası-

[1] *Bu barədə bax:* Хайд Ч.Ч. Международное право, его понимание и применение Соединенными Штатами Америки. Том 1 / Пер. с анг. М., 1950, s.436-487.

nı tanıyaraq, ona vacib əhəmiyyət verirdi. 1933-cü il dekabrın 26-da Montovideo şəhərində Amerika dövlətlərinin VII Panamerika konfransı keçirildi ki, bu konfransda dövlətlərin hüquq və vəzifələrinə dair müvafiq konvensiya qəbul olundu.[1] Həmin konvensiyada deyilirdi ki, heç bir dövlət başqa dövlətlərin daxili və xarici işlərinə qarışmaq hüququna malik deyildir.

II Dünya Müharibəsi zamanı təcavüzkar dövlətlərin darmadağın edilməsi, çoxtərəfli beynəlxalq münasibətlərin inkişafı və dövlətlərarası əlaqələrin demokratik xarakter alması müdaxilə etməmək ideyasının beynəlxalq normativ-hüquqi təsbitini tələb edirdi. Bundan ötrü BMT Nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndində belə bir hüquq norması nəzərdə tutuldu ki, bu normaya görə, istənilən dövlətin, mahiyyətcə, daxili səlahiyyətinə aid olunan işlərə müdaxilə edilməsinə yol verilmir. Həmin normada məhz beynəlxalq publik hüququn əsas prinsiplərindən biri olan qarışmamaq prinsipi (dövlətlərin daxili səlahiyyətinə aid olan işlərə qarışmamaq prinsipi) təsbit olunmuşdur; bununla da, o, beynəlxalq publik hüquqda vacib prinsip kimi tanınmışdır.[2]

BMT Nizamnaməsinin qüvvəyə minməsindən sonra bir sıra beynəlxalq sənəd qəbul edilmişdir ki, həmin sənədlər qarışmamaq prinsipinin məzmununu dəqiqləşdirmiş, tamamlamış, konkretləşdirmiş və daha da inkişaf etdirmişdir. Söhbət aşağıdakı sənədlərdən gedir: Dövlətlərin daxili işlərinə qarışmağa yol verilməməsi, onların müstəqillik və suverenliyinin qorunması haqqında BMT Bəyannaməsi (1965-ci il), Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə (1970-ci il), Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası (1974-cü il), Helsinki Yekun Aktı (1975-ci il), Dövlətlərin daxili işlərinə qarışmağa və müdaxilə etməyə yol verilməməsi haqqında BMT Bəyannaməsi (1981-ci il) və s.

Qarışmamaq prinsipi həm də regional xarakterli bəzi sənədlərdə təsbit olunmuşdur. Belə sənədlərə MDB-nin Nizamnamə-

[1] URL:http://www.ru.m.wikipedia.org (19.05.2018-ci il).

[2] *Daha ətraflı:* Ушаков Н.А. Невмешательство во внутренние дела государств. М., 1971, с.11.

si (1993-cü il), Asiyada üzv-dövlətlər arasında münasibətləri tənzimləyən prinsiplərə dair Bəyannamə (1999-cu il), Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi (1948-ci il), Afrika İttifaqının təsis Aktı (2002-ci il) və s. aiddir.

Qarışmamaq prinsipinin mahiyyəti bundan ibarətdir ki, o, dövlətlərin daxili səlahiyyətinə aid edilən işlərə müdaxiləni qadağan edir. Bəs, müdaxilə (müdaxilə etmək) dedikdə nə başa düşülür? Hər şeydən əvvəl, qeyd etməliyik ki, bir sıra beynəlxalq sənəd, məsələn, Helsinki Yekun Aktı (1975-ci il) «müdaxilə etmək» və «qarışmaq» kimi iki anlayışı sinonim (eynimənalı) terminlər hesab edir; doğrudan da, mənaca həmin anlayışlar arasında heç bir fərq yoxdur.

Müdaxilə (müdaxilə etmək) dedikdə dövlətin (və ya beynəlxalq təşkilatın) elə bir hərəkəti başa düşülür ki, bu hərəkət vasitəsi ilə o, başqa dövlətin öz daxili səlahiyyətinə aid edilən işləri həll etməsinə mane olur. Müdaxilə iki cür olur: birbaşa müdaxilə, dolayı müdaxilə. 1970-ci il Bəyannaməsində deyilir ki, heç bir dövlət başqa dövlətin daxili və xarici işlərinə nə birbaşa, nə də dolayı yolla müdaxilə edə bilər. Başqa sözlə, qarışmamaq prinsipi istənilən müdaxiləni, yəni həm birbaşa, həm də dolayı müdaxiləni qadağan edir.

Birbaşa müdaxilə dedikdə hər hansı dövlətin başqa dövlətin daxili səlahiyyətinə aid olan işlərə bilavasitə qarışması başa düşülür (məsələn, hərbi müdaxilə birbaşa müdaxiləyə misaldır). Birbaşa müdaxilə zamanı, adətən, hərbi vasitələrdən istifadə edilir. Bununla yanaşı, siyasi, iqtisadi, maliyyə və digər vasitələr də tətbiq oluna bilər. Əgər bu kimi vasitələri dövlətin özü və ya onun orqanı tətbiq edərsə, belə müdaxilə birbaşa müdaxilə hesab edilir (məsələn, hər hansı dövlət başqa dövlətlə iqtisadi-ticarət münasibətlərini kəsir və bu zaman iqtisadi vasitədən istifadə olunur).

Birbaşa müdaxilə bilavasitə dövlətin özü və yaxud onun orqanları tərəfindən həyata keçirilir.[1] Belə ki, əgər dövlətin özü və onun orqanları hərbi, siyasi, iqtisadi və digər vasitələrdən istifadə etməklə başqa dövlətin daxili səlahiyyətinə aid olan işlərə qarışarsa, bu, birbaşa müdaxilə sayılır. Birbaşa müdaxilə dövlətin nəzarəti altında olan ayrı-ayrı təşkilat və ya şəxslər tərəfindən həyata keçirilmir. Başqa sözlə, digər dövlətin daxili işlərinə birbaşa müdaxilə zamanı üçüncü şəxslərin kömək və vasitəçiliyindən istifadə olunmur.

Dolayı müdaxilə dedikdə dövlətin nəzarəti altında olan şəxslər və ya təşkilatlar (məsələn, transmilli korporasiyalar) tərəfindən başqa dövlətin daxili səlahiyyətinə aid edilən işlərə qarışmaq başa düşülür; müdaxilənin bu növü bilavasitə dövlətin özü və ya onun orqanları tərəfindən həyata keçirilmir. Məsələn, hər hansı dövlətin tapşırığı ilə müəyyən şəxslər başqa dövlətin quruluşunu zorla dəyişdirmək üçün onun ərazisində hərbi iğtişaşlar törədir və ya terrorizm fəaliyyəti ilə məşğul olurlar; başqa bir misalda, dövlət transmilli korporasiyaların köməyindən istifadə etməklə başqa dövlətdə hakimiyyət dəyişikliyi edir. Qeyd etməliyik ki, transmilli korporasiyalar tərəfindən həyata keçirilən dolayı müdaxilə, xüsusilə, təhlükəlidir.

Bəzən, hüquq ədəbiyyatında rast gəlirik ki, hərbi vasitələrdən istifadə olunması birbaşa və dolayı müdaxiləsi bir-birindən ayırmağa imkan verən əsas meyar kimi götürülür. Lakin, unutmaq olmaz ki, həm birbaşa, həm də dolayı müdaxilə hərbi vasitələrdən istifadə edilməklə həyata keçirilə bilər. Müdaxilənin həmin növlərini bir-birindən yalnız belə bir meyar əsasında fərqləndirmək olar ki, xarici dövlətin daxili səlahiyyətinə aid olan işlərə dövlətin özü və onun orqanı, yoxsa onun nəzarəti altında olan şəxslərmi və ya təşkilatmı qarışır.

Müdaxilənin həyata keçirilmə forması baxımından, iki növü fərqləndirilir: gizli forma, qeyri-gizli forma. **Gizli formada**

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.272.

müdaxilə zamanı hərbi, iqtisadi, siyasi və digər vasitələrdən üstüörtülü şəkildə istifadə edilir. Məsələn, hər hansı dövlət zorla başqa dövlətin quruluşunu dəyişdirmək üçün turist adı ilə bir qrup şəxs göndərir ki, onlar həmin dövlət ərizisində gizli şəkildə pozuculuq fəaliyyəti ilə məşğul olurlar. **Qeyri-gizli müdaxilə forması** dedikdə müəyyən bir dövlətin başqa dövlətin daxili səlahiyyətinə aid olan işlərə açıq-aşkar (açıqcasına) qarışması başa düşülür. Məsələn, açıq şəkildə hərbi müdaxilə və s. buna misal ola bilər. Qeyd etməliyik ki, həm birbaşa, həm də dolayı müdaxilənin gizli və ya açıq formada həyata keçirilməsi mümkündür.[1]

Müdaxilənin məzmun baxımından, üç əsas forması vardır:

– siyasi müdaxilə;

– hərbi müdaxilə;

– iqtisadi müdaxilə.

Siyasi müdaxilə dedikdə siyasi vasitələrdən istifadə etməklə həyata keçirilən müdaxilə başa düşülür; müdaxilənin bu forması dövlətin siyasi təsisat və institutlarına qəsd edir.

Hərbi müdaxilə dedikdə silahlı (hərbi) vasitələrdən istifadə etməklə həyata keçirilən müdaxilə başa düşülür; müdaxilənin bu növü hərbi tədbirlərin tətbiqini nəzərdə tutur. Məsələn, müəyyən bir dövlətin nizami silahlı qüvvələri başqa dövlətin ərazisinə soxularaq orada hərbi əməliyyatlar həyata keçirir.

İqtisadi müdaxilə dedikdə iqtisadi vasitələrdən istifadə etməklə həyata keçirilən müdaxilə başa düşülür. Məsələn, iqtisadi və texniki kömək proqramının həyata keçirilməsindən imtina etmək, iqtisadi blokada, ticarət münasibətlərinin kəsilməsi və s. tədbirlər belə vasitələrə misal ola bilər.

---

[1] Bəzi müəlliflər belə bir fikir söyləyirlər ki, birbaşa müdaxilə açıq şəkildə həyata keçirilən müdaxilədir *(bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.200). Lakin, nəzərə almaq lazımdır ki, birbaşa müdaxilənin gizli formada da həyata keçirilməsi mümkündür.

Bəzi beynəlxalq sənədlərə görə, **məcburetmə** müdaxiləni xarakterizə edən əsas və başlıca əlamət sayılır. Belə ki, 1975-ci il Helsinki Yekun Aktına görə, dövlətin bu və ya digər hərəkətinin müdaxilə hesab edilməsi üçün o, başqa dövlətə qarşı **məcburetmə məqsədi** güdməlidir. Söhbət hərbi, siyasi, iqtisadi və digər məcburetmədən gedir. Dövlət başqa dövləti məcbur etməklə onun suveren iradəsinə təsir göstərir, həmin dövlətin malik olduğu suveren hüquqların həyata keçirilməsini öz maraqlarına tabe etdirir və bununla da, o, hər hansı üstünlüyə nail olur, bu və ya digər fayda əldə edir. Hətta bəzi regional xarakterli beynəlxalq sənədlərdə də (məsələn, Amerika Dövlətləri Təşkilatının Nizamnaməsində), məcburetmə müdaxilənin vacib əlaməti kimi nəzərdə tutulur.

Əgər bir dövlətin başqa dövlət barəsində etdiyi hər hansı hərəkət məcburetmə əlamətindən məhrum olarsa, belə hərəkət müdaxilə sayılmır. Məhz məcburetmə əlamətindən məhrum olması səbəbindən hər hansı dövlətin belə bir hərəkəti müdaxilə hesab olunmur və o, başqa dövlətdə qanuni (legitim) yolla formalaşmış hakimiyyəti güc tətbiq etməklə devirmə zamanı həmin dövlətə kömək edir, o cümlədən hərbi yardım göstərir. Əgər müəyyən dövlətdə qanuni (legitim) yolla təşkil olunmuş hakimiyyəti güc tətbiq edilməklə devirmək təhlükəsi yaranarsa, belə halda həmin dövlət ona köməklik göstərilməsi (o cümlədən hərbi yardım edilməsi) barədə xarici dövlətə müraciət edə bilər. Belə məqamlarda xarici dövlətin müraciətedən-dövlətə köməklik göstərməsi müdaxilə sayılmır.

Məcburetmə əlaməti ilə xarakterizə olunan müdaxilə elə bir hərəkətdir ki, həmin hərəkət başqa dövlətin öz daxili səlahiyyətinə aid olan işləri həll etməsinə mane olur. Barəsində danışdığımız prinsipin, yəni qarışmamaq prinsipinin **sosial təyinatı** da, dövlətlərin daxili səlahiyyətinə aid olan işlərə müdaxilə olunmamasını təmin etməkdən ibarətdir. «Dövlətlərin daxili səlahiyyətinə aid olan işlər» anlayışına gəldikdə, qeyd etməliyik ki, beynəlxalq normativ hüquqi aktlar (beynəlxalq qanunvericilik) həmin anlayışa leqal (normativ) tərif vermir. Beynəlxalq

publik hüquq doktrinasına gəldikdə isə, demək lazımdır ki, bəzi müəlliflər həmin anlayışa elmi tərif verilməsinə təşəbbüs göstərirlər.[1]

Dövlətin daxili səlahiyyətinə aid olan işlər dedikdə elə məsələlər başa düşülür ki, həmin məsələlər dövlətdaxili-hüquqi tənzimetmənin obyekti olub, dövlətin özü tərəfindən milli səviyyədə müstəqil surətdə həll olunur; belə işlər beynəlxalq publik hüquqla tənzimlənmir. Başqa sözlə, dövlətin daxili səlahiyyətinə aid edilən işlər beynəlxalq-hüquqi tənzimetmənin obyektinə (predmetinə) daxil deyildir və bu səbəbdən onlar beynəlxalq səviyyədə həll olunmur. Belə işləri dövlət özü müstəqil surətdə, başqa dövlətin iştirakı olmadan və razılığını almadan həll edir. Nəzərə almaq lazımdır ki, dövlətin daxili səlahiyyətinə aid olan işlərə nə beynəlxalq səviyyədə baxılır, nə də belə işlərin baxılmasına hər hansı xarici dövlət cəlb edilir.

Dövlətin daxili səlahiyyətinə aid olan işləri iki qrupa (növə) bölmək olar:

– daxili işlər;
– xarici işlər.

Daxili işlər dedikdə dövlətin öz daxili funksiyasını yerinə yetirməsi və sərhədləri daxilində fəaliyyətini həyata keçirməsi ilə bağlı yaranan məsələlər başa düşülür; onlar dövlət sərhədləri daxilində olan məsələlərə aiddir. Bu səbəbdən «daxili işlər» təmiz «dövlətdaxili ərazi» kateqoriyası sayılır.[2] Əgər hər hansı iş dövlət sərhədlərindən kənara çıxan məsələyə aid olarsa, o, daxili iş hesab olunmur. Məsələn, beynəlxalq müqavilə bağlamaq dövlət sərhədlərindən kənara çıxan məsələdir və buna görə də, o, dövlətin daxili işi sayılmır.

---

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.273; Hüseynov L.H.Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.33; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.52. və s.

[2] Bəzi müəlliflər isə «daxili işləri» təmiz «dövlətdaxili ərazi» kateqoriyası hesab etmirlər *(məsələn, bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.201).

Dövlətin daxili işlərinin əhatə dairəsi kifayət dərəcədə genişdir. Belə işlərə aşağıdakılar aiddir:

- dövlətin öz daxili (milli) hüququnu yaratması (Konstitusiya, qanun və digər normativ hüquqi aktların qəbul edilməsi);
- dövlətin öz sosial, iqtisadi və siyasi sistemini müəyyənləşdirməsi;
- dövlət hakimiyyətinin təşkil olunması;
- dövlətin öz idarəetmə formasını müəyyənləşdirməsi;
- dövlət hakimiyyət orqanlarının strukturunun müəyyənləşdirilməsi;
- siyasi sistemin funksiyası;
- vəzifəli şəxslərin təyin olunma qaydalarının müəyyənləşdirilməsi;
- vergilərin müəyyənləşdirilməsi;
- konstitusion quruluşun təşkili;
- öz təbii resurslarından istifadə olunması və ona sərəncam verilməsi;
- parlamentin təşkili və ona seçkilər təyin olunması, seçkilərin keçirilməsi;
- referendum (ümumxalq səsverməsi) keçirilməsi;
- plebisit keçirmə (əhalinin, yəni ölkə vətəndaşlarının ümumi rəyini öyrənmə və soruşma);
- digər işlər.[1]

Xarici işlər dedikdə dövlət sərhədlərindən kənara çıxan məsələlərə aid olan işlər başa düşülür; belə işlər dövlət sərhədlərindən kənara çıxan məsələlərlə bağlı yaransa da, həmin

[1] Alimlərdən V.M.Şumilov belə fikir söyləyir ki, guya seçkilərin keçirilməsi, konstitusion quruluşun təşkili və siyasi sistemin funksiyası kimi məsələlər beynəlxalq publik hüququn tənzimetmə mexanizminə aiddir *(bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 63).

dövlətin daxili səlahiyyətinə aid olan işlər sayılır; onlar dövlətin öz xarici funksiyasını yerinə yetirməsi sahəsində ortaya çıxan məsələlərdir. Buna görə də, dövlətin xarici işləri milli (dövlətdaxili) səviyyədə tənzimlənir və həll olunur.

Xarici işlərə aşağıdakılar aiddir:

- dövlətin xarici siyasət kursunun müəyyən edilməsi;
- xarici ölkə ilə diplomatik və konsulluq münasibətinin yaradılması;
- yeni yaradılmış bu və digər xarici dövlətin tanınması;
- hər hansı beynəlxalq müqaviləyə qoşulması və onda iştirak etmək məsələsinin həll olunması;
- beynəlxalq təşkilatda iştirak etmək;
- xarici ticarət qaydalarının müəyyənləşdirilməsi;
- gömrük tənzimlənməsi;
- dövlət sərhədlərinin dəyişdirilməsi;
- digər məsələlər.

«Xarici işlər» anlayışındakı «xarici» kimi terminin işlədilməsi, heç də, onların «beynəlxalq işlər» olması demək deyildir. «Xarici işlər» və «beynəlxalq işlər» eynimənalı (sinonim) deyil, bir-birindən fərqli anlayışlardır.[1] Məsələ burasındadır ki, xarici işlərdən fərqli olaraq, beynəlxalq işlər beynəlxalq publik hüquq vasitəsi ilə, yəni beynəlxalq publik hüquq normaları əsasında həll olunur; buna görə də, onlar beynəlxalq publik hüququn nizamasalma predmetinə aiddir. Xarici işlər dövlətdaxili (milli), beynəlxalq işlər isə beynəlxalq məsələlərdir. Bu səbəbdən xarici işlər bu və ya digər dövlətə məxsus hakimiyyət orqanında (məsələn, Parlamentdə, Xarici İşlər Nazirliyində, Gömrük Komitəsində və s.), beynəlxalq işlər isə dövlətlərarası

[1] Müəlliflərdən İ.İ.Lukaşuk «beynəlxalq işlər» anlayışı əvəzinə «xarici işlər» anlayışı işlədir və bununla o, həmin anlayışları eyniləşdirir *(bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.274).

beynəlxalq təşkilat və orqanlarda (məsələn, BMT, MDB, ÜTT, BVF, AŞ, Aİ və s.) baxılıb həll olunur.

Beynəlxalq işlər dedikdə elə məsələlər başa düşülür ki, həmin məsələlər beynəlxalq (dövlətlərarası) səviyyədə müzakirə olunub, həll edilir; belə işlər beynəlxalq-hüquqi tənzimetmənin obyektidir. Beynəlxalq işlərə aşağıdakılar aiddir:

- beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması;
- beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi;
- insan hüquqlarının qorunmasına və həyata keçirilməsinə aid bir sıra məsələlər;
- ekologiyanın qorunması;
- Dünya okeanının tədqiqi və ondan istifadə edilməsi;
- kosmosun öyrənilməsi;
- qloballaşmış və transmilli xarakter almış cinayətkarlıqla mübarizə;
- dövlətin öz daxili sərhədlərində həyata keçirdiyi və onlardan kənar zərər (transmilli zərər) vurulması ilə nəticələnən fəaliyyət və s.

Beynəlxalq işləri dövlətlərin daxili səlahiyyətinə aid olan işlərdən ayırmaq lazımdır; bunun həm hüquqi, həm də praktiki əhəmiyyəti vardır. Belə ki, qarışmamaq prinsipi beynəlxalq işlərə deyil, ancaq dövlətin daxili səlahiyyətinə aid olan işlərə şamil olunur. Beynəlxalq işlərin dövlətlərin daxili səlahiyyətinə aid olan işlərdən hansı meyarlar əsasında ayrılmasına gəldikdə, qeyd etmək lazımdır ki, bundan ötrü bir sıra meyardan istifadə etmək olar. **Birinci**, beynəlxalq işlər odur ki, onların **hamılıqla qəbul olunmuş beynəlxalq əhəmiyyəti** vardır; dövlətin daxili səlahiyyətinə aid olan işlər isə **milli əhəmiyyətə** malik olan məsələlərdir. **İkinci**, beynəlxalq işlər **iki və daha artıq dövlətin mənafe və maraqlarına** aid olan məsələlərdir; daxili səlahiyyətə aid olan işlər isə **yalnız bir dövlətin mənafe və maraqlarına** toxunur. **Üçüncü**, beynəlxalq işlər **beynəlxalq-hüquqi tənzimetmənin predmeti** olan məsələlərdir; daxili səlahiy-

yətə aid olan işlər isə milli-hüquqi tənzimetmənin predmetinə aid olan məsələdir. Əgər hər hansı məsələ beynəlxalq-hüquqi tənzimetmənin predmeti olarsa, o, beynəlxalq iş sayılır. Hər hansı məsələnin beynəlxalq-hüquqi tənzimetmənin predmeti olmasına gəldikdə isə, qeyd etməliyik ki, bu, beynəlxalq sənədlə müəyyənləşdirilir. Müəyyən bir məsələnin beynəlxalq iş sayılması üçün həmin məsələnin hər hansı beynəlxalq sənədin predmeti olması kifayətdir.[1] **Dördüncü**, dövlətlərin öz üzərlərinə götürdükləri **beynəlxalq öhdəliklərlə**, o cümlədən onların BMT Nizamnaməsindən irəli gələn öhdəlikləri ilə bağlı istənilən məsələ beynəlxalq iş sayılır.

Qeyd etmək lazımdır ki, göstərdiyimiz meyarlar əsasında beynəlxalq işlər sırasına aid olan məsələləri müəyyənləşdirmək olar. Təbii ki, beynəlxalq işlər sayılmayan məsələlər dövlətin daxili səlahiyyətinə aid olan işlərdir. Buna görə də, dövlətin özü istənilən məsələni, necə deyərlər, özbaşına daxili səlahiyyətinə aid olan iş hesab edə bilməz. Odur ki, hər bir dövlət müstəqil surətdə, özbaşına olaraq, müəyyənləşdirə bilməz ki, bu və ya digər hərəkət onun daxili səlahiyyətinə aid olan işlərə qarışır və ya qarışmır.[2] Belə hallarda əsas məsələ, yuxarıda göstərdiyimiz meyarlara uyğun olaraq, beynəlxalq işləri dövlətin daxili səlahiyyətinə aid olan işlərdən düzgün ayırmaqdan ibarətdir. Yalnız bundan sonra müəyyən etmək olar ki, bu və ya digər hərəkət dövlətin daxili səlahiyyətinə aid olan işlərə qarışan hərəkətdirmi, yoxsa, əksinə.

Dövlətlərin ixtiyarı çatmır ki, onlar özlərinin daxili səlahiyyətinə aid olan istənilən işi beynəlxalq-hüquqi tənzimetmənin

[1] ICLQ, 1980. Part 4.P.565 (URL:http://www.kref.ru) –19.05.2018-ci il.

[2] Müəlliflərdən S.V.Çerniçenko belə bir fikir yürüdür ki, bu və ya digər hərəkətin dövlətin daxili səlahiyyətinə aid olan işlərə qarışıb-qarışmaması məsələsini hər bir dövlətin özü müstəqil surətdə müəyyənləşdirir *(bax:* Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.53).

obyektinə (predmetinə) daxil etsinlər.[1] Belə ki, dövlətlərin daxili səlahiyyətinə aid olan elə işlər vardır ki, onları beynəlxalq-hüquqi tənzimetmənin obyekti (predmeti) hesab etmək qeyri-mümkündür. Ona görə ki, belə işlər dövlət suverenliyi ilə sıx və qırılmaz surətdə bağlıdır. Əgər həmin işlər beynəlxalq (dövlətlərarası) səviyyədə həll olunarsa, bu, dövlətlərin suveren bərabərliyi prinsipinin pozulması demək olardı. Məsələn, dövlətin öz siyasi, sosial və iqtisadi sistemini müəyyənləşdirmək, beynəlxalq müqavilələrdə iştirak etmək, beynəlxalq təşkilatlara üzv olmaq, milli (dövlət-daxili) hüququnu yaratmaq və digər məsələləri həll etmək onun dövlət suverenliyi ilə bilavasitə bağlıdır. Buna görə də, həmin məsələləri beynəlxalq-hüquqi tənzimetmənin obyektinə (predmetinə) daxil etmək olmaz.

Lakin, unutmaq olmaz ki, xarakterinə görə «dövlətlərin daxili səlahiyyətinə aid olan işlər» mütləq deyil, nisbi anlayışdır. Belə ki, dövlətlərin daxili səlahiyyətinə aid olan elə işlər vardır ki, onlar beynəlxalq münasibətlərin inkişafı, dövlətlərarası əməkdaşlığın genişlənməsi, sosial-iqtisadi və siyasi proseslərin qloballaşması ilə bağlı olaraq, dövlətlər həmin işləri beynəlxalq-hüquqi tənzimetmənin obyekti (predmeti) edə, beynəlxalq işlər sırasına aid edə bilərlər. Bu o deməkdir ki, dövlətlərin könüllü razılıq əsasında bu və ya digər daxili məsələnin beynəlxalq səviyyədə həll olunması barədə razılığa gələ bilmələri mümkündür. Məsələn, dövlətlər vətəndaşlıq kimi daxili məsələnin (şəxsin ikiqat vətəndaşlığının və ya vətəndaşlığın olmamasının aradan qaldırılması və digər məsələlərin) beynəlxalq publik hüquq normaları ilə tənzimlənməsi barədə öz aralarında beynəlxalq müqavilə bağlayırlar.

Qeyd etməliyik ki, bu və ya digər məsələnin dövlətlərin daxili səlahiyyət sferasından çıxarılıb beynəlxalq-hüquqi tənzimetmənin predmetinə (obyektinə) daxil edilməsi mümkündür. Lakin bu, avtomatik surətdə həyata keçirilmir. Bundan ötrü

[1] A.N.Talalayev göstərir ki, istənilən daxili məsələ beynəlxalq-hüquqi tənzimetmənin predmeti ola bilər *(bax:* Талалаев А.Н. Право международных договоров. М., 1985, с.107).

müvafiq beynəlxalq publik hüquq norması olmalıdır. Məsələn, dövlət sərhədlərini dəyişmək hər bir dövlətin daxili işidir. Bir neçə dövlət öz aralarında beynəlxalq müqavilə bağlayaraq, həmin işi beynəlxalq-hüquqi tənzimetmənin predmeti (obyekti) edirlər.

Qarışmamaq prinsipi **mütləq prinsip** sayılmır. Belə ki, beynəlxalq sənədlərdə nəzərdə tutulan hallarda həmin prinsipdən kənara çıxmaq mümkündür. Lakin bu, qarışmamaq prinsipinin pozulması hesab edilmir. BMT-nin Nizamnaməsinə görə, hər hansı dövlət təcavüzə yol verərsə, sülhü pozarsa və ya sülh üçün təhlükə yaradarsa, bu məsələ artıq həmin dövlətin daxili işi sayılmır və beynəlxalq iş hesab edilir. Aydın məsələdir ki, təcavüzə yol verən, sülhü pozan və ya sülh üçün təhlükə yaradan dövlət barəsində BMT müəyyən hərəkətlər etməlidir; həmin hərəkətlər onun daxili işinə qarışmaq demək deyildir.

Məlum olduğu kimi, **BMT-nin Təhlükəsizlik Şurası** BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, hər hansı dövlətin ərazisində yaranmış vəziyyətə görə məcburi tədbirlər tətbiq olunması barədə müvafiq qərar qəbul edə bilər; həmin qərarın həyata keçirilməsi, heç də, qarışmamaq prinsipinin pozulmasını ifadə etmir.

Bəzən, hər hansı beynəlxalq mübahisənin və ya vəziyyətin davam etməsi beynəlxalq sülh və təhlükəsizliyi təhdid edə bilər. Bunu müəyyən etmək üçün, bildiyimiz kimi, BMT-nin Təhlükəsizlik Şurası **araşdırma** aparmalıdır. Aparılan belə araşdırma da qarışmamaq prinsipinin pozulması hesab edilmir. Ona görə ki, beynəlxalq mübahisə və ya vəziyyətin davam etməsi, beynəlxalq sülh və təhlükəsizliyi təhdidetmə artıq dövlətin daxili işi deyil, beynəlxalq məsələ sayılır. Beynəlxalq məsələyə isə qarışmamaq prinsipi şamil olunmur.

Bir sıra beynəlxalq saziş, xüsusən də, tərk-silah məsələləri barədə sazişlər zəruri olduqda müəyyən dövlətin ərazisində **təftiş, nəzarət və yoxlama** işlərinin aparılmasını nəzərdə tutur. Məsələn, Kimyəvi silahların qadağan olunması haqqında Konvensiya (1993-cü il), Nüvə sınaqlarının hərtərəfli qadağan edil-

məsi haqqında Müqavilə (1996-cı il)[1] və s. nəzarət, təftiş və yoxlama işlərinin aparılmasına yol verir. Belə işlərin aparılması da qarışmamaq prinsipinin pozulmasına səbəb olmur.

Elə daxili məsələlər vardır ki, onlar (məsələn, hər hansı dövlətin terrorizmi dəstəkləməsi, dövlətin insanlıq əleyhinə olan metodlarla ölkəni idarə etməsi, dövlətin ölkə əhalisinə güc tətbiq etməsi, dövlətin öz xalqına qarşı zorakılıq etməsi, dövlətin antidemokratik siyasi rejim və totalitar monarxiya üsul-idarə sistemi yaratması və s.) artıq dövlətlərin daxili səlahiyyət sferasından çıxaraq beynəlxalq-hüquqi tənzimetmənin predmeti olur və beynəlxalq məsələyə çevrilir. Belə hallarda, dövlətə qarşı edilən hər hansı hərəkət onun daxili işlərinə qarışmamaq prinsipinin pozulması demək deyildir. Ona görə ki, istənilən beynəlxalq məsələyə münasibətdə qarışmamaq prinsipi şamil olunmur və tətbiq edilmir. Məsələn, Liviyada keçmiş dövlət başçısı Qəddafi ölkədə anti-demokratik siyasi rejim yaratmış, avtoritar-totalitar sistem təsis etmişdi və buna görə də, BMT-nin Təhlükəsizlik Şurası həmin ölkə barədə müvafiq qərar qəbul etdi.

Qərb hüquq doktrinası və praktikasında formalaşmış fikrə görə, **«qeyri-diktator müdaxiləsi»** qarışmamaq prinsipinin pozulmasını ifadə etmir. Qərb hüquq doktrinası və praktikası belə hesab edir ki, yalnız «diktator müdaxiləsi» həmin prinsipin pozulmasına səbəb olur. «Qeyri-diktator müdaxiləsi» dedikdə bir dövlətin güc tətbiq etməməklə və ya güclə hədələməməklə başqa bir dövlətin daxili işlərinə qarışması başa düşülür. Əgər bir dövlət zorla, güc tətbiq etməklə və ya güclə hədələməklə başqa bir dövlətin daxili işlərinə qarışarsa, buna «diktator müdaxiləsi» deyilir. Qərb hüquq doktrinasına və praktikasına görə, yalnız «diktator müdaxiləsi» qarışmamaq prinsipinin pozulmasına gətirib çıxarır.

Lakin, toxunulmuş məsələ ilə əlaqədar qeyd etmək lazımdır ki, beynəlxalq sənədlər (1970-ci il Bəyannaməsi, 1975-ci il Helsinki Yekun Aktı, Dövlətlərin daxili işlərinə qarışmamaq və

[1] URL: http: // www.ru.m.wikipedia.org (20.05.2018-ci il).

müdaxilənin yolverilməzliyi haqqında BMT Baş Assambleyasının 1982-ci il Bəyannaməsi) Qərb hüquq doktrinası və praktikasının mövqeyinə əks tərəfdə durur. Həmin sənədlərə görə, müdaxilə istər güc tətbiq etməklə bağlı olsun, istərsə də bağlı olmasın, qarışmamaq prinsipinin pozulmasına səbəb olur; hansı formada həyata keçirilməsindən asılı olmayaraq, istənilən müdaxilə qadağan edilir.

Qarışmamaq prinsipi beynəlxalq publik hüququn digər əsas, xüsusən də, dövlətlərin suveren bərabərliyi və güc tətbiq etməmək və ya güclə hədələməmək kimi prinsipləri ilə sıx surətdə bağlıdır. Belə ki, dövlətlərin suveren bərabərliyi prinsipi dövlətlərin daxili işlərinə qarışmağı qadağan edir. Qarışmamaq prinsipindən isə dövlətlərin suveren bərabərliyə malik olmaları irəli gəlir.

Həm güc tətbiq etməmək və ya güclə hədələməmək, həm də qarışmamaq prinsipi hərbi müdaxiləni qadağan edir; hərbi müdaxilə hər iki prinsipin pozulmasına səbəb olur. Qarışmamaq prinsipinə görə, güc tətbiq etməklə dövlətlərin daxili işlərinə müdaxiləyə yol verilmir; güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinə görə isə, gücdən istifadə etməklə dövlətlərin daxili işlərinə qarışmaq yolverilməzdir.

6.5. Beynəlxalq publik hüququn xalqların, millətlərin və insan hüquqlarının müdafiəsini təmin edən əsas prinsipləri

6.5.1. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi

Göstərilən prinsip beynəlxalq publik hüququn əsas prinsiplərindən biri olub, xalqların malik olduqları hüquqların qorunması və müdafiə olunması işinin təmin edilməsi məqsədinə xidmət edir. Dövlətlərarası beynəlxalq münasibətlərin inkişafında bu **məcburedici prinsip** vacib rol oynayır.

Qeyd etməliyik ki, göstərilən prinsip qəti olaraq XX əsrin ortalarında, **BMT-nin Nizamnaməsi** qəbul olunduğu vaxt formalaşmışdır. Amma xalqların hüquq bərabərliyi və öz müqəd-

dəratını təyinetmə prinsipinin formalaşmasına kimi beynəlxalq publik hüquqda (XVII–XIX əsrlərdə) «millət prinsipi» tətbiq olunurdu; bu prinsipə görə, hər bir millətin öz milli dövlətini yaratmaq hüququ var idi («bir millət – bir dövlət»). Lakin o dövrdə «millət prinsipi» beynəlxalq hüquqda geniş səviyyədə tanınmadı. Əvvəla, ona görə ki, həmin prinsip öz müqəddəratını təyinetmənin yalnız milli əlamətə görə həyata keçirilməsini nəzərdə tuturdu. Digər tərəfdən, «millət prinsipi» yalnız «sivil Avropa millətlərinə» şamil olunurdu. Bundan başqa, Avropa güclü müstəmləkə sisteminə malik idi; bu səbəbdən Avropa dövlətləri «millət prinsipinin» hamılıqla qəbul olunmasında maraqlı deyildilər. Lakin, bunlara baxmayaraq, «millət prinsipi», öz növbəsində, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin formalaşmasına hər halda, necə olursa olsun, müəyyən təsir göstərmişdir. Göstərilən prinsipin təsbit olunmasına həm də xalqların hüquq bərabərliyinə və öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşmaq ideyası təsir etmişdir; həmin ideya isə, ilk dəfə olaraq, ABŞ-ın müstəqilliyi haqqında Bəyannamədə (1776-cı il) ifadə olunmuşdur.

Sözügedən prinsipin formalaşmasında milli-azadlıq hərəkatlarının, Avropada milli dövlətlərin yaranmasının, habelə baş vermiş burjua-demokratik inqilablarının rolu da qeyd edilməlidir. Bu məsələyə, xüsusən də, Böyük Oktyabr Sosialist İnqilabı böyük təsir göstərmişdir. Əvvəlcə Sovet Rusiyasının, sonra isə SSRİ-nin həmin prinsipin formalaşmasında müəyyən rolu olmuşdur. Belə ki, Sovet hökumətinin qəbul etdiyi Sülh haqqında Dekret (8 noyabr 1917-ci il) və Rusiya xalqlarının hüquqlarına dair Bəyannamə (15 noyabr 1917-ci il) məhz xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipindən çıxış edirdi. Sovet Rusiyasının bir sıra dövlətlə (məsələn, Türkiyə, Polşa, Latviya, Estoniya və s.) bağladığı ikitərəfli beynəlxalq müqavilələrdə də həmin prinsip öz hüquqi ifadəsini tapmışdır.

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin **universal səviyyədə** beynəlxalq-hüquqi tanınması BMT Nizamnaməsinin qəbul olunması ilə bağlıdır. Belə ki, hə-

min prinsip BMT Nizamnaməsinin qəbul edildiyi vaxtdan etibarən beynəlxalq universal publik hüququn prinsipi hesab olunmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, göstərilən prinsip keçmiş SSRİ dövlətinin təklifi ilə BMT-nin Nizamnaməsinə daxil edilmişdir. BMT Nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndində deyilir ki, BMT millətlər arasında dostluq münasibətlərini xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə hörmət etmək əsasında inkişaf etdirmək məqsədi güdür; burada məhz beynəlxalq publik hüququn barəsində danışdığımız prinsipi təsbit olunmuşdur. Lakin BMT-nin Nizamnaməsi sözügedən prinsipin normativ-hüquqi məzmununu açıqlamır. Təhlil etdiyimiz prinsipin normativ-hüquqi məzmununu ilk dəfə **«Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında» Bəyannamə** müəyyənləşdirir ki, həmin bəyannamə SSRİ-nin təşəbbüsü ilə 14 dekabr 1960-cı il tarixdə BMT Baş Assambleyasının qətnaməsi ilə qəbul olunmuşdur.[1]

Sonralar göstərilən prinsip **BMT səviyyəsində** qəbul olunan bir sıra sənəddə də təsbit olunmuş, daha da inkişaf etdirilmişdir. Söhbət, ilk növbədə, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı il) və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı il) kimi iki vacib sənəddən gedir. Bu sənədlərdə, ilk dəfə olaraq, nəzərdən keçirdiyimiz prinsipin beynəlxalq-hüquqi məzmunu konvension qaydada izah və şərh olunur.

Göstərilən prinsip öz beynəlxalq normativ-hüquqi təsbitini həm də **1970-ci il Bəyannaməsində** tapır. Burada həmin prinsipin normativ məzmunu konkretləşdirilir.

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi həm də **ATƏM-in Helsinki Yekun Aktında** (1975-ci il) formulə olunur. Düzdür, burada göstərilən prinsipi ifadə etmək üçün başqa termin, yəni «xalqların hüquq bərabərliyi və öz taleyinə sərəncam vermək hüququ prinsipi» termini işlədilir. Hesab edirik ki, Helsinki Yekun Aktında təhlil etdiyimiz prinsi-

[1] URL:http://www.un.org (20.05.2018-ci il).

pin adının belə terminlə əhatə edilməsi heç də həmin prinsipin mahiyyətinə, oynadığı rola və əhəmiyyətinə təsir göstərmir.

Göstərilənlərdən başqa, **bir sıra sənəd** də xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipini müəyyən dərəcədə inkişaf etdirmişdir. Belə sənədlərə aşağıdakılar aiddir: BMT Baş Assambleyasının Təbii resurslar üzərində ayrılmaz suverenlik barədə Qətnaməsi (1962-ci il), Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası (1974-cü il), Milli, etnik, dil və ya dini azlıqlara aid olan şəxslərin hüquqları haqqında Bəyannamə (1992-ci ildə BMT Baş Assambleyasının Qətnaməsi ilə qəbul edilmişdir), BMT Baş Assambleyasının Xalqların öz müqəddəratını təyinetmə hüququnu ümumən həyata keçirməsi barədə Qətnaməsi (1998-ci il), BMT Baş Assambleyasının Qətnaməsi ilə qəbul edilmiş Minilliyin Bəyannaməsi (2000-ci il), insan hüquqlarına həsr olunmuş ümumdünya konfransında qəbul olunmuş Vyana Bəyannaməsi və Fəaliyyət Poqramı (1993-cü il)[1] və s.

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə görə, bütün xalqlar hüquqi cəhətdən bərabər olub, öz siyasi statusunu kənardan müdaxilə olmadan müstəqil surətdə müəyyən edə, habelə öz iqtisadi, sosial və mədəni inkişafını sərbəst şəkildə həyata keçirə bilərlər.

Verdiyimiz anlayışdan, eləcə də təhlil etdiyimiz prinsipin adından görünür ki, həmin prinsipin normativ məzmunu **iki əsas** elementdən ibarətdir. Bu elementlərə aiddir:[2]

– xalqların hüquq bərabərliyi;

– xalqların öz müqəddəratını təyin etməsi.

Xalqların hüquq bərabərliyi dedikdə müəyyən bir dövlətin ərazisində yaşayan xalqların hüquqi cəhətdən bərabər olması

[1] *Bu sənədlər barədə bax:* URL:http://www.un.org və http://www.zaki.ru (20.05.2018-ci il).

[2] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с. 210; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.91.

başa düşülür. Hüquqlara malik olmaq məsələsində bütün xalqlar eyni qabiliyyətlidir və bu məsələdə heç bir xalqa üstünlük verilmir; həmin məsələdə ayrı-seçkilik yolverilməzdir. Bütün xalqlar müvafiq hüquqlara malik olmaq qabiliyyətindən (imkanından) heç nədən asılı olmadan, bərabər surətdə istifadə edirlər.

Xalqların öz müqəddəratını təyin etməsi dedikdə bütün xalqlara verilən elə bir hüquq başa düşülür ki, onlar bu hüquqdan istifadə edərək müstəqil surətdə, sərbəst şəkildə siyasi statusunu müəyyənləşdirə, eləcə də iqtisadi, sosial və mədəni inkişaf yolunu seçə bilərlər. Belə ki, hər bir xalqın öz müqəddəratını təyinetmə hüququ vardır; istənilən xalq həmin hüququ sərbəst şəkildə həyata keçirə bilər. Xalqların öz müqəddəratını təyinetmə hüququnu hansı forma və üsullarla həyata keçirmələrinə gəldikdə isə, qeyd etməliyik ki, bunun üçün beynəlxalq publik hüquq bir neçə forma (üsul) nəzərdə tutur. Belə ki, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsinə görə, xalqlar öz müqəddəratını təyinetmə hüququnu aşağıdakı formalarda (üsullarla) həyata keçirə bilər:

– suveren və müstəqil dövlət yaratmaq;
– hər hansı müstəqil dövlətə qoşulmaq;
– hər hansı müstəqil dövlətə birləşmək;
– istənilən digər siyasi status müəyyənləşdirmək.

Öz müqəddəratını təyinetmə hüququnu yalnız xalq həyata keçirə bilər. Ona görə ki, ancaq xalq öz müqəddəratını təyinetmə hüququnun subyekti sayılır. Başqa sözlə, öz müqəddəratını təyinetmə hüququnun yeganə subyekti xalqdır. Məhz bu səbəbdən təhlil etdiyimiz prinsip yalnız xalqlara aiddir. «Xalq» anlayışının nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, bu, «millət» anlayışından daha geniş anlayışdır. Belə ki, «**xalq»** dedikdə müəyyən bir dövlətin ərazisində və ondan kənarda yaşayan, həmin dövlətin vətəndaşı sayılan və onun qanunlarına tabe olan ayrı-ayrı millətlərin məcmusu başa düşülür. Başqa sözlə, milliyətindən asılı olmayaraq, dövlətin vətəndaşlarının məcmusuna – əhalisinə xalq deyilir. «Xalq» anlayışına müxtəlif dillər-

də danışan bir neçə millət daxildir. Məsələn, Azərbaycan xalqı milliyyətcə azərbaycanlı, türk, rus, kürd, talış, ləzgi, gürcü və s. millətdən olan respublika vətəndaşlarından ibarətdir.[1]

Beləliklə, dövlətin müxtəlif millətlərdən ibarət olan əhalisi bilavasitə xalq deməkdir. Öz müqəddəratını təyinetmə hüququ bütövlükdə əhalinin hamısına, yəni xalqa məxsusdur.

«Millət» anlayışına gəldikdə isə, qeyd etməliyik ki, dil ümumiliyi həmin anlayışı – milləti xarakterizə edən əsas əlamətdir. Millətin öz müqəddəratını təyinetmə hüququndan yalnız o halda danışmaq olar ki, bu və ya digər ərazidə yalnız bircə millət yaşasın.[2] Deyilənlər onu göstərir ki, «xalqın öz müqəddəratını təyinetmə hüququ» və «millətin öz müqəddəratını təyinetmə hüququ» anlayışları eynimənalı deyildir.[3]

Ayrılma, yəni yaşadığı dövlətin tərkibindən çıxma xalqların öz müqəddəratını təyinetmə hüququnu həyata keçirmə formalarından biridir. Bu forma Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə (1970-ci il) nəzərdə tutulmur. Lakin, buna baxmayaraq, xalqların öz müqəddəratını təyinetmə hüququnu ayrılma (ayrılma aktı) formasında həyata keçirməsi mümkündür. Məsələn, 1980-ci ilə Sinqapur Malaziyadan, 2006-cı ildə Çernoqoriya Serbiyadan ayrılmışdır.

Qeyd etmək lazımdır ki, **birinci**, ayrılma hüququnu müstəmləkə və asılı xalqlar (qeyri-müstəqil ərazilərdə yaşayan xalqlar) həyata keçirə bilərlər; belə xalqlar müstəmləkəçilikdən və asılılıqdan xilas olmaq üçün öz müqəddəratını təyin edirlər.

İkinci, ayrılma hüququndan o xalqlar istifadə edə bilərlər ki, onlar antidemokratik, yəni demokratizmin səviyyəsi aşağı olan dövlətlərdə yaşasınlar. Söhbət xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə əməl edilməyən, xalqla-

---

[1] *Daha ətraflı:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2009, s.20-21.

[2] Старущенко Г.Б. Самоопределение – без сепаратизма // Международная жизнь. 1993, № 11, с.130.

[3] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.36.

rın hüquqları təmin olunmayan dövlətlərdən gedir; belə dövlətlərin hakimiyyət orqanlarında bütün xalq təmsil olunmur, onların ayrı-ayrı etnosların yaşadıqları ərazi hissələri ayrı-seçkiliyə məruz qalır. Lakin, əgər xalq demokratik yolla legitim dövlət hakimiyyət orqanları (qanunvericilik və icra hakimiyyəti orqanları və s.) yaradarsa və bu orqanlar bütün xalqı təmsil edərsə, habelə insan hüquqları təmin olunarsa, belə dövlətin tərkibindən çıxmaq (ayrılmaq) hüquqaziddir.[1] Təsadüfi deyil ki, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi bütün xalqı təmsil edən hökumətə malik olan suveren və müstəqil dövlətlərin, yəni demokratik dövlətlərin tərkibindən çıxmağı yolverilməz hal hesab edir.

Üçüncü, ayrılma hüququna o xalqlar malikdirlər ki, onların yaşadıqları ərazilər BMT-nin Nizamnaməsi qəbul olunduqdan sonra işğala məruz qalsın. Təbii ki, belə xalqlar öz müqəddəratını təyinetmə hüququndan istifadə edə bilərlər.

Dördüncü, ayrılma hüququnu o xalqlar həyata keçirə bilərlər ki, onların ərazisində yaşadığı və tərkibindən çıxdığı dövlətin Konstitusiyası buna yol versin. Başqa sözlə, əgər Konstitusiya dövlətin ərazisində yaşayan xalqlara ayrılmaq hüququ verərsə, onlar bu hüququ həyata keçirə bilərlər. Qeyd etməliyik ki, dünyada heç bir dövlətin Konstitusiyası öz ərazisində yaşayan xalqları belə hüquqla təmin etmir. İndiyə kimi yalnız SSRİ və Yuqoslaviya dövlətlərinin konstitusiyaları xalqlara ayrılmaq hüququ vermişdi.

SSRİ dağıldıqdan sonra artıq formalaşmış bu və ya digər dövlətin tərkibində yaşayan xalqlar (məsələn, Gürcüstan dövlətinin ərazisində yaşayan abxaz və osetinlər, Azərbaycan Respublikasının Dağlıq Qarabağ hissəsində yaşayan ermənilər, Moldova Respublikasının Dnestrətrafı regionunun ruslardan ibarət əhalisi və s.) ayrılmaq formasında öz müqəddəratını təyin-

[1] Решетов Ю. Право на самоопределение и отделение // Московский журнал международного права. 1994, № 1; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.281; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.43.

etmə hüququnu praktikada həyata keçirmək, təhlil etdiyimiz sözügedən prinsipi realizə etmək istəyirlər. Başqa sözlə, müəyyən xalqlar yaşadıqları dövlətlərin tərkibindən çıxmağa təşəbbüs göstərirlər. Təbii ki, bu zaman belə bir sual meydana çıxır: məsələn, Azərbaycan Respublikasının Dağlıq Qarabağ hissəsində yaşayan ermənilərin Azərbaycan dövlətinin tərkibindən yaşadıqları ərazi ilə birlikdə çıxmaq (ayrılmaq) hüququ vardırmı və onların bu hüququ həyata keçirmələri hüquqauyğundurmu? Elə buradaca, dərhal suala cavab verərək göstəririk ki, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan Respublikasının tərkibindən çıxmaq (ayrılmaq) hüququndan istifadə etməsi hüquqaziddir. Nə üçün? Belə ki, bunun bir neçə **əsaslı səbəbi və fundamental arqumenti** vardır.

Birinci səbəb və arqument ondan ibarətdir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyin etmək məqsədilə Azərbaycan dövlətinin tərkibindən çıxması onun ərazi bütövlüyünə zərər vurur. Başqa sözlə, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan Respublikasından ayrılmaq hüququnu həyata keçirməsi beynəlxalq publik hüququn əsas imperativ və hamılıqla qəbul edilmiş prinsiplərindən biri olan «dövlətlərin ərazi bütövlüyü» prinsipini pozur. Artıq formalaşmış müstəqil Azərbaycan dövlətinin tərkibinə daxil olan Dağlıq Qarabağda yaşayan ermənilərin praktikada öz müqəddəratını təyinetmə hüququnu həyata keçirməsi, şübhəsiz, bir sıra siyasi-hüquqi problemlər doğurur. Həmin problemlər beynəlxalq publik hüququn iki əsas (imperativ) prinsipi, yəni xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi ilə dövlətlərin ərazi bütövlüyü prinsipi arasında yaranan ziddiyyətdən irəli gəlir. Dağlıq Qarabağda yaşayan ermənilər iddia edirlər ki, onlar ayrılmaqla (Azərbaycan Respublikasının tərkibindən çıxmaqla) öz müqəddəratını təyinetmə hüququnu həyata keçirirlər. Azərbaycan Respublikasının mərkəzi dövlət hakimiyyəti isə belə hesab edir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin ayrılması dövlətlərin ərazi bütövlüyü prinsipini poz-

duğuna və Azərbaycan Respublikasının vahidliyi üçün təhlükə törədiyinə görə hüquqaziddir.

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə və dövlətlərin ərazi bütövlüyü prinsiplərindən hansının üstün olmasına gəldikdə, qeyd etmək lazımdır ki, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi həmin prinsiplərdən **dövlətlərin ərazi bütövlüyü prinsipinə üstünlük (prioritet)** verir. Beynəlxalq publik hüquq doktrinası da məsələyə bu cür yanaşır. Məsələn, müəlliflərdən V.M.Şumilov düzgün olaraq yazır ki, dövlətlərin ərazi bütövlüyü prinsipi xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi qarşısında prioritetə malikdir.[1] Düzdür, bəzi müəlliflər əks mövqedən çıxış edirlər ki, bu mövqe də beynəlxalq publik hüquqa ziddir. Məsələn, Q.M.Melkov yazır ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi birincidir;[2] Y.D.İlin də bu prinsipə, mahiyyətcə, üstünlük verir.[3]

Beynəlxaq hüququn prinsipləri haqqında Bəyannamə (1970-ci il) dövlətlərin ərazi bütövlüyü prinsipinin xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipindən üstün olmasından yalnız bircə halda istisna müəyyən edir. Belə ki, bütöv xalqı təmsil etməyən hakimiyyətə malik olan, yəni demokratik olmayan dövlətin tərkibindən çıxmaq mümkündür. Bu isə, dolayı yolla o deməkdir ki, demokratik dövlətin tərkibindən onun ərazisində yaşayan bu və ya digər xalqın çıxmasına beynəlxalq publik hüquq yol vermir. Odur ki, beynəlxalq hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, dövlətlərin ərazi bütövlüyü prinsipi ilə xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi arasındakı münasibət bu və ya digər xalqın yaşadığı dövlətin demokratik olması ilə şərtlənir, müəyyən edilir.

Azərbaycan Respublikasının demokratik dövlət olmasına gəldikdə isə, qeyd etməliyik ki, ölkə Konstitusiyasının 7-ci

[1] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.92.
[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.92.
[3] Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.48.

maddəsinin I hissəsinə görə, Azərbaycan dövləti demokratik respublikadır. Kifayət qədər əsas (hakimiyyətin xalqa məxsus olması, dövlət hakimiyyətini həyata keçirən orqanların xalq tərəfindən seçilməsi, dövlət və ictimai həyatın ən vacib məsələlərinə dair müvafiq qərarların çoxluq tərəfindən qəbul olunması və s.) vardır ki, bu da, Azərbaycan Respublikasını demokratik dövlət kimi xarakterizə etməyə imkan verir.[1] Bundan başqa, Azərbaycan Respublikasında beynəlxalq publik hüququn xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə əməl olunur, burada yaşayan millətlərin hüquqları təmin edilir, heç bir millətə münasibətdə ayrı-seçkiliyə yol verilmir, insan hüquqlarına hörmətlə yanaşılır.

İkinci, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi (xalqların öz müqəddəratını təyinetmə hüququ) **mütləq prinsip (hüquq) sayılmır**.[2] Belə ki, dövlətlərin ərazi bütövlüyü prinsipini pozmamağın vacibliyi və həmin prinsipə əməl olunmasının zəruriliyi xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipini məhdudlaşdırır. Rusiya Federasiyasının Konstitusiya Məhkəməsi özünün 13 mart 1992-ci il tarixli qərarında düzgün olaraq göstərir ki, dövlətlərin ərazi bütövlüyü prinsipinə əməl etmək zərurəti xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə hüququnu məhdudlaşdıran haldır. Beynəlxalq publik hüquq da məsələyə, mahiyyətcə, belə baxır. Təsadüfi deyil ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi istənilən dövlətin ərazi bütövlüyünü və milli birliyini pozan hərəkətlərdən çəkinmək vəzifəsi müəyyənləşdirir.[3]

---

[1] *Bu əsaslar barədə daha ətraflı:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2009, s.23-24.

[2] Müəlliflərdən Q.M.Melkov güman edir ki, xalqların öz müqəddəratını təyinetmə hüququ mütləq hüquqdur *(bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.92).

[3] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.167.

Üçüncü, qeyd etdiyimiz kimi, hər bir xalqın öz müqəddəratını təyinetmə hüququ vardır, xalqların belə hüquqa malik olmalarını əsla və qətiyyən inkar etmək olmaz. Həm də bunu, xüsusilə, qeyd etmək lazımdır ki, hər bir dövlət xalqların öz müqəddəratını təyinetmə hüququnu həyata keçirmələrinə mane olan zorakılıq hərəkətlərindən çəkinmək vəzifəsi daşıyır. Lakin, unutmaq olmaz ki, ərazisində yaşadığı **dövlətin tərkibindən çıxmaq heç də xalqların öz müqəddəratını təyinetmə hüququnun məcburi və labüd elementi deyildir**. Beynəlxalq sənədlərdə göstərilir ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin məzmunu dövlətlərin ərazi bütövlüyünü pozan hərəkətləri sanksiyalaşdırmaq və ya həvəsləndirmək kimi izah edilməməlidir. Belə ki, əgər hər hansı dövlət irqinə, milliyyətinə, dininə, dilinə, və s. fərq qoymadan əhalisinin bütün təbəqələrinin öz hakimiyyət orqanlarında təmsil olunmasını təmin edərsə, beynəlxalq publik hüquq həmin dövlətin tərkibindən bu və ya digər xalqın çıxmasını yolverilməz hal hesab edir.[1]

Dördüncü, hər bir xalqın öz dövlətçiliyini yaratmaq, başqa sözlə, öz dövlətçilik formasını seçmək (müəyyənləşdirmək) hüququ vardır. Dövlətçiliyin formaları isə müxtəlif ola bilər: məsələn, respublika, muxtar vilayət, muxtar mahal və s. formalar.[2] Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan Respublikası çərçivəsində vaxtilə keçmiş SSRİ hakimiyyətinin təsiri altında, qeyri-təbii olsa da, muxtar vilayət statusunda dövlətçiliyini yaratmaqla öz müqəddəratını təyinetmə hüququndan artıq istifadə etmişdi. Lakin sonralar bu qeyri-qanuni qurum-status ləğv olundu və tarixə qovuşdu.

Beşinci, bəzi xarici ölkələrin (məsələn, Rusiyanın və s.) beynəlxalq publik hüquq doktrinasında formalaşmış fikrə görə, xalqların öz müqəddəratını təyinetmə hüququ o xalqlara şamil

---

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.34.

[2] *Respublikanın, muxtar vilayətin və s. qurumların dövlətçilik formaları olması barədə bax:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.216.

olunmur ki, onlar artıq bir dəfə öz müqəddəratını təyin etmişlər; erməni xalqı məhz belə xalqlardandır. Belə ki, erməni xalqı hələ XX əsrin 20-ci illərində Azərbaycanın tarixi torpaq ərazisində müstəqil respublika formasında öz dövlətçiliyini yaratmışdır. Bu səbəbdən Azərbaycanın Dağlıq Qarabağ hissəsində yaşayan ermənilərin ikinci dəfə yenidən öz müqəddəratını təyin etməyə təşəbbüs göstərmələrinin heç bir hüquqi əsası yoxdur. Lakin sonralar bu qeyri-qanuni status ləğv olundu və tarixə qovuşdu.

Altıncı, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan Respublikasının tərkibindən yalnız Azərbaycan xalqının sərbəst iradə ifadəsi əsasında, dinc və demokratik üsulla çıxa bilər. Bunun üçün Azərbaycan Respublikasında referendum (ümumxalq səsverməsi) və ya plebissit (xalqın ümumi rəyini öyrənmə və soruşma) keçirilməlidir. Bunun nəticəsində məlum olacaqdır ki, Dağlıq Qarabağda yaşayan ermənilərin yaşadıqları ərazi ilə birlikdə Azərbaycan Respublikasının tərkibindən çıxmaq fərziyyəsi həll edilir və ya həll edilmir. Heç bir şübhə ola bilməz ki, Azərbaycan xalqı həmin məsələnin müsbət həllini rədd edəcəkdir. Bu, isbata və sübuta ehtiyacı olmayan aydın məsələdir.

Yeddinci, hər hansı dövlətin tərkibindən bu və ya digər xalqın çıxması yalnız həmin dövlətin öz iradəsini sərbəst şəkildə ifadə etməsi nəticəsində həyata keçirilə bilər. Azərbaycan dövləti, təbii olaraq, heç vaxt razı ola bilməz ki, Dağlıq Qarabağda ermənilərin yaşadıqları ərazi onun tərkibindən ayrılsın; buna Azərbaycan dövlətinin imkan verməsi qeyri-mümkündür.

Səkkizinci, bu və ya digər xalqın öz yaşadıqları dövlətin ərazisindən ayrılması son vasitədir. Son vasitə kimi ayrılma isə yalnız maraqlı tərəflərin (ayrılan əhalinin və dövlətin) qarşılıqlı razılığa gəlmələri əsasında həyata keçirilə bilər.[1] Azərbaycan dövləti isə, məlum məsələdir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan Respublikasının tərkibindən çıxmasına heç vaxt razılıq verə bilməz.

Doqquzuncu, təbii ki, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan Respublikasının tərkibindən öz yaşadıqları ərazi ilə

[1] Josipovic´ I. Jugoslovenska revija za medunarodno pravo. 1994. Br.1-2 (URL:http://www.scindeks.ceon.rs) – 20.05.2018-ci il.

birlikdə ayrılmaq istəyirlər (dövlətdən müəyyən ərazinin ayrılması **sesessiya** adlanır). Bu, əlbəttə, Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsinə gətirib çıxarardı. Əsas qanun – Konstitusiyaya görə, Azərbaycan Respublikasının dövlət sərhədləri yalnız referendum (ümumxalq səsverməsi) yolu ilə dəyişdirilə bilər (Konstitusiyanın 3-cü maddəsinin II hissəsi). Məlum məsələdir ki, Azərbaycan xalqı heç vaxt Azərbaycan Respublikasının dövlət ərazilərinin dəyişdirilməsinə səs verməz.

Onuncu, beynəlxalq publik hüquq doktrinasında formalaşmış fikrə görə, xalqların öz müqəddəratını təyinetmə, o cümlədən ayrılma məsələsi həmin xalqların yalnız ərazisində yaşadıqları **dövlətin hüququ əsasında həll edilə bilər**.[1] Məhz belə halda öz müqəddəratını təyinetmə (ayrılma) həm dövlətdaxili (milli), həm də beynəlxalq publik hüquq baxımından, hüquqauyğun hesab edilə bilər. Azərbaycan Respublikasının Konstitusiyasına və milli hüququna gəldikdə isə, qeyd etməliyik ki, Konstitusiya da daxil olmaqla dövlətdaxili hüquq müəyyən əhali qrupunun Azərbaycan Respublikasından ayrılmasına və onun tərkibindən çıxmasına yol vermir; əksinə, Azərbaycan Respublikasının Konstutusiyası **Azərbaycan xalqının vahidliyi prinsipindən** çıxış edir (Konstitusiyanın 5-ci maddəsinin I hissəsi).

Onbirinci, əvvəllərdə qeyd etdik ki, **öz müqəddəratını təyinetmə hüququnun subyekti yalnız xalq ola bilər**. Azərbaycanın Dağlıq Qarabağ hissəsində yaşayan ermənilər isə xalq deyil, milli-etnik qrupdur. Milli-etnik qrupun isə öz müqəddəratını təyinetmə hüququ yoxdur. Millətin (milli-etnik qrupun) öz müqəddəratını təyinetmə hüququndan yalnız bir halda danışmaq olar. Belə ki, xalq əgər ancaq bir millətdən ibarət olarsa, onda həmin millətin öz müqəddəratını təyinetmə hüququndan söhbət gedə bilər.[2]

---

[1] Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.285.

[2] Старушенко Г.Б. Самоопределение – без сепаратизма // Международная жизнь. 1993, № 11, с.130.

Onikinci, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin əsas və başlıca təyinatı müstəmləkə altında olan ölkələrdə yaşayan xalqların müstəmləkəçiliyə qarşı mübarizə aparmalarına, onların öz müstəqil dövlətlərini yaratmalarına və milli-azadlıq hərəkatlarına təkan verməkdən ibarət olmuşdur. Qeyd etməliyik ki, belə xalqlar müstəmləkə asılılığından azad olaraq, öz müstəqil dövlətlərini yaratmış, müstəmləkəçi imperiyalar dağılmış, bir sözlə, müstəmləkəçilik problemi həll edilmişdir. Bu problemin həllində isə xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi vacib rol oynamışdır. Deməli, belə bir təsəvvür yaranır ki, müstəmləkə rejiminin dağılması səbəbindən xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi öz təyinatını (funksiyasını) yerinə yetirmişdir. Odur ki, həmin prinsip Azərbaycanın Dağlıq Qarabağ hissəsində yaşayan ermənilərə şamil oluna bilməz. Ona görə ki, Azərbaycan Respublikası müstəmləkəçi dövlət, Dağlıq Qarabağda yaşayan ermənilər isə müstəmləkə asılılığında olan xalq sayılmır. Buna görə də, Dağlıq Qarabağda yaşayan ermənilərin xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə tez-tez istinad etmələrinin heç bir hüquqi əsası və mənası yoxdur.

Qeyd etmək lazımdır ki, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi müstəmləkə zülmündən xilas olmaq məqsədinə xidmət etmişdir. Müasir dövrdə həmin prinsip müstəqil və suveren dövlətlərin ayrı-ayrı hissələrə bölünməsinə və ya parçalanmasına gətirib çıxarmamalıdır.

Xalqların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsi, adətən, daxili münaqişələrə, güc tətbiq edilməsinə səbəb olur ki, bunun nəticəsində dəhşətli cinayətlər törədilir. Bu isə, əlbəttə, sülh, təhlükəsizlik, hüquq qaydası və insan hüquqları üçün böyük təhlükədir. Digər tərəfdən, çox vaxt siyasi, seperatçı, milli, kriminal və digər qüvvələr xalqların öz müqəddəratını təyinetmə hüququndan öz məqsədləri üçün istifadə edirlər; nəticədə bir sıra dövlətin (məsələn, Azərbaycan, Gürcüstan, Moldova və s.) ərazi bütövlüyü üçün real təhlükə yaranmışdır.

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi dövlətlərin ərazi bütövlüyünə, onların siyasi vahidliyinə ziyan vurmaqla həyata keçirilməməlidir. Həmin prinsipdən həm də seperatizm məqsədləri üçün istifadə edilməsi yolverilməzdir; əgər bu prinsipin realizasiyası mövcud dövlətin dağılmasına gətirib çıxararsa, onun tətbiqi istisna edilir. 1970-ci il Bəyannaməsi, təsadüfi deyil ki, dövlətin vahidliyinin pozulmasına səbəb ola bilən müqəddəratı təyinetməni yolverilməz hal hesab edir.

6.5.2. Əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi

Barəsində danışacağımız beynəlxalq publik hüququn əsas prinsipi beynəlxalq hüquq dərsliklərində müxtəlif adlar altında nəzərdə tutularaq, eyni terminlə ifadə olunmur: «əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi»,[1] «insan hüquqlarına əməl edilməsi və ona hörmət prinsipi»,[2] «insan hüquqlarına və əsas azadlıqlara hörmət etmək prinsipi»,[3] «insan hüquqlarına və əsas azadlıqlara hamılıqla hörmət etmək prinsipi»,[4] «insan hüquqlarına hamılıqla hörmət etmək və müdafiə etmək prinsipi»,[5] «insanın hüquq və əsas azadlıqlarına hörmət etmək prinsipi»,[6] «insan hüquqlarına hörmət etmək prinsipi»,[7] «insanın

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.44.
[2] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, 2019, 352 s. və b.
[3] Международное публичное право/Отв.ред. К.А.Бекяшев. М.,2009, с.133.
[4] Международное право. Учебник/Под общ. ред. А.Я.Капустина. М., 2008, с.104.
[5] Международное право. Учебник/Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.224.
[6] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.167.
[7] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.42.

hüquqlarına və onun əsas azadlıqlarına hörmət etmək prinsipi»[1] və s.

Qeyd etmək lazımdır ki, hansı terminlə ifadə edilməsi göstərilən prinsipin hüquqi mahiyyətinə və normativ məzmununa qətiyyən təsir göstərmir, onun yerinə yetirdiyi funksiyanı dəyişdirmir. Müxtəlif adlar altında nəzərdə tutulması həmin prinsipinin sosial qiymətini, ictimai dəyərini və beynəlxalq-hüquqi əhəmiyyətini azalda bilməz. Biz, göstərilən prinsipi ifadə etmək üçün, sadəcə olaraq, «**əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi**» kimi termindən istifadə olunmasına üstünlük veririk. Hesab edirik ki, bu, daha lakonik və yığcam termindir.

«Əsas insan hüquq və azadlıqlarına hörmət etmək» prinsipi beynəlxalq publik hüququn **məcburedici prinsiplərindən** biri kimi **BMT Nizamnaməsinin** qəbul olunduğu andan formalaşmağa başlamışdır. Lakin insan hüquqlarına hörmət etmək ideyasının tarixi XVIII əsrin axırlarına təsadüf edir. Belə ki, XVIII əsrin sonlarında qəbul olunmuş iki sənəd məhz həmin ideyadan çıxış edirdi. Söhbət ABŞ-ın müstəqilliyi haqqında Bəyannamədən (1776-cı il), habelə İnsan və vətəndaş hüquqlarına dair Fransa Bəyannaməsindən (1789-cu il) gedir. ABŞ-ın müstəqilliyi haqqında Bəyannamə bir sıra insan hüquqlarını təsbit edirdi. Burada göstərilirdi ki, bütün insanlar bərabər doğulur və müəyyən ayrılmaz hüquqlarla təmin olunurlar. Böyük Fransa İnqilabı zamanı qəbul olunan İnsan və vətəndaş hüquqlarına dair Bəyannamə də həmçinin şəxsiyyətin hüquq və azadlıqları probleminə toxunurdu. Beynəlxalq hüquq ədəbiyyatında göstərilir ki, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi, necə deyərlər, «meydana çıxmasına» və sonradan formalaşmasına görə sözügedən hər iki vacib sənədə «borcludur».[2] Maarifçilik və humanizm ideyalarının təsiri altında qəbul olunan həmin sənədlər buna səbəb oldu ki, «təbəəlik» kimi feodal anlayışı «vətəndaşlıq» kimi anlayışla əvəz olundu, «insan hüquq-

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.97.
[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.97.

ları» adlı yeni termin yarandı, dövlət tərəfindən vətəndaşlara məxsus bir sıra hüquqlar tanındı. Həmin hüquqlar tədricən beynəlxalq birliyin diqqət obyekti və beynəlxalq-hüquqi tənzimetmənin predmeti olmağa başladı. Təsadüfi deyil ki, XIX əsrdə və XX əsrin əvvəllərində qəbul olunan bir sıra beynəlxalq sənəd insan hüquqlarının qorunması ideyasından çıxış edirdi.[1]

Qeyd etməliyik ki, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipinin formalaşmasında BMT Nizamnaməsinin qəbul edilməsi həqiqətən dönüş anı oldu. Böyük beynəlxalq siyasi-hüquqi əhəmiyyətə malik olan bu sənəddə, ilk dəfə olaraq, bütün insanların əsas hüquq və azadlıqlarına hörmət edilməsi beynəlxalq-hüquqi prinsip kimi formulə olunur. Lakin, BMT-nin Nizamnaməsi onu müstəqil şəkildə deyil, ümumi formada, dolayı yolla təsbit edir. Başqa sözlə, BMT-nin Nizamnaməsi insan haqlarına hörmət etmək mövqeyindən çıxış etsə də, onu müstəqil (ayrıca) prinsip kimi ayırmır və nəzərdə tutmur. Bu sənədin 1-ci maddəsinin 3-cü bəndində deyilir ki, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, hamının əsas insan hüquq və azadlıqlarına hörmət olunmasının inkişafı sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirmək BMT-nin məqsədlərindən biridir. Həmin sənədin 55-ci maddəsi BMT-nin üzərinə belə bir vəzifə qoyur ki, o, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, hamının əsas insan hüquq və azadlıqlara hörmət olunmasına, eləcə də onlara riayət edilməsinə kömək etməlidir. BMT Nizamnaməsinin 56-cı maddəsində isə deyilir ki, BMT üzvü olan dövlətlər insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, habelə onlara riayət etmək sahəsində BMT ilə əməkdaşlığa dair birgə və müstəqil hərəkətlər etməlidir. Göründüyü kimi, BMT Nizamnaməsinin 1-ci, 55-ci və 56-cı maddələrində dolayı şəkildə əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi formulə edilmişdir. Lakin, BMT-nin Nizamnaməsi nəzərdən keçirilən prinsipin normativ-hüquqi məzmununu konkretləşdirmir, həm də insan hüquqla-

[1] *Həmin sənədlər barədə daha ətraflı:* Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.224.

rının siyahısını vermir. İnsan hüquqları BMT Nizamnaməsinin imzalanmasından sonra qəbul olunan **bir sıra beynəlxalq sənəddə** sadalanır. Burada onların qəti və dəqiq olmayan siyahısı verilmişdir, çünki dövlətlərarası münasibətlər və insan cəmiyyəti inkişaf etdikcə onların dairəsi genişlənəcəkdir. Həmin sənədlərə aşağıdakılar aiddir:

- İnsan hüquqları haqqında Ümumi Bəyannamə (1948-ci il);
- İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı il);
- Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı il).

Göstərilən beynəlxalq sənədlərin hər üçü BMT Baş Assambleyasının qətnamələri şəklində qəbul olunmuşdur. Belə qətnamələrin, bildiyimiz kimi, məcburi hüquqi qüvvəsi yoxdur və onlar tövsiyə xarakteri daşıyır. Bunu nəzərə alan bəzi müəlliflər göstərirlər ki, yuxarıda adları çəkilən sənədlər beynəlxalq publik hüququn mənbəyi sayılmır.[1] Lakin, buna baxmayaraq, həmin sənədlərin müəyyən etdiyi müddəalar beynəlxalq-hüquqi adətlər kimi tanınır. Odur ki, onları əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipinin hüquqi tənzimetmə mənbəyi hesab etmək olar.[2] Göstərilən sənədlər həm də BMT çərçivəsində həmin prnsipin normativ məzmununu konkretləşdirir.[3]

Əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipinə təkcə BMT deyil, həm də **regional səviyyədə** (AŞ, Aİ, MDB və s.) xüsusi diqqət verilir. Belə ki, regional çərçivədə qəbul olunmuş bir sıra akt (Amerika, Avropa, Afrika və MDB kon-

---

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.97.

[2] V.M.Şumilov, düzgün olaraq, həmin sənədləri barəsində danışdığımız prinsipin mənbələrinə aid edir *(bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.94).

[3] *İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, beynəlxalq nəzarət, beynəlxalq təşkilatlar və digər məsələlər barədə ətraflı bax:* Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007, s.105-171.

vensiyaları) vasitəsi ilə həmin prinsipin hüquqi tənzimlənməsi həyata keçirilir. AŞ təşkilatı çərçivəsində qəbul olunmuş regional aktın, yəni İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının (1950-ci il) əhəmiyyəti, xüsusilə, böyükdür. İnsan hüquqları və əsas azadlıqları barədə MDB Konvensiyası da göstərilən prinsipi konkretləşdirir; insan hüquqlarna hörmət etmək prinsipi MDB-nin Nizamnaməsində (1993-cü il) də təsbit olunmuşdur. Burada deyilir ki, irqindən, etnik mənsubiyyətindən, dilindən, dinindən və digər amillərdən asılı olmayaraq, hamı üçün insan hüquqları və əsas azadlıqlar təmin olunmalıdır.

1970-ci il Bəyannaməsində əsas insan hüquqlarına hörmət olunması beynəlxalq sülhün qorunub saxlanılmasının və möhkəmləndirilməsinin vacib əsaslarından biri kimi müəyyən edilir. Bu isə o deməkdir ki, 1970-ci il Bəyannaməsi dolayı yolla əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipindən çıxış edir;[1] təbii ki, həmin sənəd onu müstəqil hüquqi prinsip kimi nəzərdə tutmur. Belə ki, 1970-ci il Bəyannaməsi insan hüquqlarına hörmət etməyi xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin, habelə dövlətlərin əməkdaşlıq etməsi prinsipinin əsaslarından (elementlərindən) biri kimi müəyyən edir.

Beynəlxalq publik hüquqda əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi, ilk dəfə müstəqil prinsip kimi, **1975-ci il Helsinki Yekun Aktında** formulə edilmişdir. Belə ki, həmin Aktın prinsiplərə dair müvafiq Bəyannaməsində sözügedən prinsipin adı yeddinci yerdə çəkilir və ayrıca prinsip kimi müəyyən olunur; burada nəzərdən keçirdiyimiz prinsipin normativ məzmunu açıqlanır.

[1] Hüquq ədəbiyyatında belə bir fikrə rast gəlinir ki, sözügedən prinsip 1970-ci il Bəyannaməsində ümumiyyətlə təsbit olunmur *(bax:* Международное публичное право / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.134). Lakin, qeyd etmək lazımdır ki, həmin Bəyannamə, dolayı yolla da olsa, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi mövqeyindən çıxış edir.

Qeyd etmək lazımdır ki, çoxsaylı **universal, regional və ikitərəfli beynəlxalq müqavilələr** mövcuddur ki, həmin müqavilələr əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipindən çıxış edir. Bu isə o deməkdir ki, regional xarakterli sənəd olan ATƏM-in Helsinki Yekun Aktında ilk dəfə müstəqil prinsip kimi formulə edilməsinə və Avropa çərçivəsində (regional səviyyədə) tətbiq edilmək üçün nəzərdə tutulmasına baxmayaraq, o, universal səviyyədə hüquqi qüvvəyə malikdir olub, beynəlxalq publik hüququn əsas prinsipi sayılır. Başqa sözlə, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi beynəlxalq publik hüququn universal prinsipi hesab edilir;[1] həm də ona görə ki, sözügedən prinsip bütün qitələrdən olan dövlətlərin beynəlxalq praktikasında geniş səviyyədə tanınır. 1993-cü ildə BMT-nin insan hüquqlarına həsr olunan müvafiq ümumdünya konfransı keçirildi ki, bu konfrans həmin prinsipin universal xarakterə malik olmasını sübut edir və təsdiqləyir.

Beynəlxalq publik hüquq nə üçün əsas insan hüquq və azadlıqlarına hörmət etmək kimi vacib prinsipindən çıxış edir? Axı, insan hüquqları hər bir dövlətin daxili işlərinə aid olan məsələdir. Qeyd etməliyik ki, insan hüquqları bilavasitə dövlətdaxili (milli) qanunvericiliklə tənzimlənir və qorunur. Bununla bərabər, insan hüquqlarına riayət etmək məsələsi beynəlxalq qaydanın əsaslarından biri, beynəlxalq ümumi təhlükəsizlik sisteminin tərkib hissəsidir. Dövlətlərarası beynəlxalq münasibətlər bu məsələdən çox asılıdır. Həmin məsələ beynəlxalq səviyyədə humanitar əməkdaşlıq və dostluq əlaqələri üçün zəruri olub, beynəlxalq sülhün mühüm amili sayılır. Buna görə də, müasir dövrdə insan hüquqları məsələsi təkcə dövlətlərin daxili işi deyil, həm də beynəlxalq işi (beynəlxalq məsələ) sayılır. Heç də sirr deyildir ki, beynəlxalq aləmdə təhlükəsizliyin təmin olunmasında həmin məsələ vacib rol oynayır.[2] Odur

[1] *Bax:* Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.46.

[2] Ильин Ю.Д. Право человека и государства на безопасность в современном мире. М., 2007, с.55-107.

ki, insan hüquqları məsələsi həm də beynəlxalq-hüquqi nizamasalma predmetinə daxildir. Beynəlxalq publik hüquq həmin məsələni tənzimləmək üçün əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipindən çıxış edir.

Əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipinə görə, hansı siyasi-iqtisadi sistemə aid edilməsindən asılı olmayaraq, dünyada mövcud olan dövlətlər öz yurisdiksiyası (hüquqi hakimiyyəti) altında olan bütün şəxslərin əsas insan hüquq və azadlıqlarına irqinə, dininə, dilinə, cinsinə, siyasi əqidəsinə, sosial mənşəyinə, tutduğu vəzifəsinə, əmlak vəziyyətinə və digər amillərə fərq qoymadan və ayrı-seçkiliyə yol vermədən hörmətlə yanaşmalı, həmin hüquqlara riayət etməli, onları qorumalı, pozulduğu hallarda isə müdafiə etməlidir.

Əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi **ümumi xarakterli** prinsipdir. Ona görə ki, göstərilən prinsip, birinci, Yer kürəsində mövcud olan bütün dövlətlərdə onların öz siyasi, iqtisadi və mədəni sistemlərindən asılı olmayaraq, əsas insan hüquq və azadlıqlarına hörmətlə yanaşılmasını, riayət olunmasını, bu hüquq və azadlıqların qorunmasını nəzərdə tutur. Hər bir dövlətin və beynəlxalq birliyin üzərinə insan hüquqlarına hamılıqla hörmət olunmasına yardım etməyə görə məsuliyyət düşür. Bütün dövlətlərin borcudur ki, onlar birgə və müstəqil hərəkətlər etməklə insan hüquqlarına hörmət olunmasına, eləcə də riayət edilməsinə kömək etsinlər.[1]

Barəsində danışdığımız prinsipin ümumi xarakterli prinsip olması, ikinci, həm də bunda ifadə edilir ki, o, dövlətin yurisdiksiyası (hüquqi hakimiyyəti) altında olan bütun şəxslərə heç nədən asılı olmadan, ayrı-seçkiliyə yol verilmədən şamil edilir.[2]

Əsas insan hüquq və azadlıqlarının nə demək olduğuna gəldikdə, qeyd etmək lazımdır ki, belə hüquq və azadlıqlar bey-

[1] Курс международного права. Том 2 / Гл. ред. В.Н.Кудрявцев. М., 1989, с.153.

[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.108.

nəlxalq birlik tərəfindən müasir cəmiyyətdə fiziki şəxslərin normal mövcud olmalarını və yaşamalarını təmin edən zəruri şərtlər kimi tanınır. Yüksək ictimai qiyməti və sosial dəyəri olan əsas insan hüquq və azadlıqları dedikdə bütün fiziki şəxslərin vətəndaşlıq məsələsindən asılı olmadan malik olduqları hüquq və azadlıqlar başa düşülür. Məsələn, yaşamaq hüququ, təhlükəsizlik hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, bərabərlik hüququ, toxunulmazlıq hüququ və s. insan hüquqları sayılır.[1] İnsan hüquqları bəşər sivilizasiyasının gələcəyini şərtləndirən hüquqlardır; belə ki, bəşər (dünya) sivilizasiyasının gələcəyi onların realizasiyasından asılıdır. Buna görə də, insan hüquqları beynəlxalq birliyin diqqət obyektinə çevrilmişdir. BMT-nin Nizamnaməsi imzalandığı, xüsusən də, 1975-ci il Yekun Aktı qəbul olunduğu vaxtdan bu, dünya birliyini və beynəlxalq ictimaiyyəti narahat edən aktual məsələdir. BMT-nin insan hüquqlarına dair 1993-cü ildə müvafiq ümumdünya konfransı keçirməsi deyilənləri təsdiq edə bilər. Ümumdünya Sammitinin yekun sənədində (2005-ci il) deyilir ki, bütün dövlətlər insan hüquqlarını müdafiə etməlidir. Moskva Müşavirəsində qəbul olunan sənəddə (1991-ci il) isə göstərilir ki, insan hüquqlarına riayət etmək beynəlxalq qaydanın əsaslarından biridir.[2] Məhz bu səbəbdən insan hüquq və azadlıqları sahəsində beynəlxalq nəzarət həyata keçirilməlidir. Belə nəzarət, hər şeydən əvvəl, o məqsədlə həyata keçirilir ki, insan hüquq və azadlıqları sahəsində **hamılıqla qəbul olunmuş beynəlxalq standartlara riayət** edilsin; həmin standartları gözləmək dövlətlərin üzərinə düşən öhdəlikdir. Başqa sözlə, bütün dövlətlərin üzərinə insan hüquq və azadlıqları sahəsində hamılıqla qəbul olunmuş beynəlxalq standartlara riayət etmək öhdəliyi (vəzifəsi) qoyulmuşdur.

İnsan hüquq və azadlıqları sahəsində hamılıqla qəbul olunmuş beynəlxalq standartlara gəldikdə isə, qeyd etməliyik ki,

[1] *İnsan hüquqlarının əsas xüsusiyyətləri barədə bax:* Əliyev Ə. İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013, s. 506; Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 6-cı nəşr. Bakı, 2009, s.33-34 və b.

[2] Вестник МИД СССР. 1991, № 20, с.22.

belə standartlar beynəlxalq publik hüquqla müəyyən edilir. Bir sıra xarici müəllif göstərir ki, İnsan hüquqları haqqında Ümumi Bəyannamədə (1948-ci il), habelə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il) nəzərdə tutulan hüquq və azadlıqlar hamılıqla qəbul olunmuş beynəlxalq standartlardır.[1] Dövlətlərin əsas insan hüquq və azadlıqlarına aid daxili (milli) qanunvericiliyi, inzibati və məhkəmə praktikası bu standartlara uyğun olmalıdır. İnsan hüquq və azadlıqları sahəsində dövlətlərarası beynəlxalq əməkdaşlıq da milli qanunvericilikləri unifikasiya etmək üçün deyil, məhz bu məqsədlə (yəni daxili qanunvericilikləri, inzibati və məhkəmə praktikasını beynəlxalq standartlara uyğunlaşdırılmaq məqsədilə) həyata keçirilir.

Əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipinin **normativ-hüquqi məzmunu** kifayət dərəcədə genişdir və buraya bir sıra vacib element daxildir (dövlətlərin beynəlxalq publik hüquq tərəfindən tanınmış insan hüquq və azadlıqlarını təmin etməsi, dövlətlərin insan hüquq və azadlıqlarını qorumaması, insan hüquq və azadlıqları pozulduğu hallarda dövlətlərin onları effektiv müdafiə vasitəsi ilə təmin etməsi və digər elementlər).[2] Bununla bərabər, bəşər cəmiyyəti və dövlətlərarası beynəlxalq münasibətlər inkişaf etdikcə, habelə beynəlxalq publik hüquq tərəfindən tanınan insan hüquq və azadlıqlarının dairəsi genişləndikcə nəzərdən keçirdiyimiz prinsipin normativ məzmunu da inkişaf edir. Bunu nəzərə alan bəzi müəlliflər hesab edirlər ki, guya fiziki şəxs (insan fərdi) tədricən beynəlxalq publik hüququn bilavasitə subyektinə çevrilir.[3] Biz, fiziki şəx-

---

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.97.

[2] *Göstərilən prinsipin normativ məzmununa daxil olan elementlər barədə daha ətraflı:* Карташкин В.А.Права человека в международном и внутригосударственном праве. М., 1995, с.36.

[3] *Məsələn, bax:* Международное право. Учебник / Под ред. В.И.Кузнецова. М., 2001, с.141; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с. 227.

sin (insan fərdinin) beynəlxalq publik hüququn subyekti olması ideyasını qəbul etmirik, çünki onların beynəlxalq publik hüquq subyektliyi yoxdur.[1]

Qeyd etmək lazımdır ki, insan hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi ilə bağlı bir sıra məsələ dövlətin daxili işi deyil, beynəlxalq iş sayılır. Buna görə də, əgər dövlətlər həmin məsələləri pozarlarsa, bu, beynəlxalq publik hüquq pozuntusu hesab ediləcəkdir. Bu kimi hallarda başqa dövlətlər pozulmuş insan hüquq və azadlıqlarını müdafiə edə bilərlər. Belə müdafiə, ümumiyyətlə, beynəlxalq publik hüquq tərəfindən tanınan insan hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi üzərində beynəlxalq nəzarət nə dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinə ziddir, nə də həmin prinsipin pozulması deməkdir. İnsan hüquq və azadlıqları, xüsusilə, kobud və kütləvi şəkildə pozulduğu hallarda onların beynəlxalq səviyyədə müdafiə olunmasına zərurət yaranır. İnsan hüquq və azadlıqlarının kobud və kütləvi şəkildə pozulması göstərilən prinsipin pozulmasına səbəb olan əsas təhlükəli haldır. Lakin beynəlxalq publik hüquq «**insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması»nın** nə demək olduğunu aydınlaşdırmır və buna səbəb olan halları müəyyənləşdirmir. Ancaq beynəlxalq hüquq dərsliklərində həmin suala cavab verilmişdir. Burada göstərilir ki, genosid, aparteid, irqi ayrı-seçkilik, dövlət ərazisinin işğal olunması, təcavüzkarlıq və s. insan hüquqlarının kobud və kütləvi şəkildə pozulmasına gətirib çıxaran əməllər olub, beynəlxalq birlik tərəfindən beynəlxalq cinayət kimi qiymətləndirilir.[2] Odur ki, onlar dövlətlərin daxili səlahiyyətinə aid edilən iş sayıla bilməz. Əgər hər hansı dövlətdə insan hüquqları kobud və kütləvi şəkildə pozularsa, başqa dövlətlər hətta hərbi (silahlı) güc tətbiq etməklə həmin dövlətdə pozulmuş insan hüquqlarını müdafiə etməlidir. Məsələn, keçən yüz-

[1] Bu barədə kitabın «Beynəlxalq publik hüququn subyektləri» fəslinə baxın.

[2] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 136; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с. 227.

illiyin 90-cı illərində Yuqoslaviya dövlətində Kosovo albanlarının insan hüquqları kobud və kütləvi şəkildə pozulurdu. ABŞ dövləti və NATO təşkilatı 1999-cu ildə hərbi (silahlı) gücdən istifadə etməklə Kosovo albanlarının insan hüquq və azadlıqlarını müdafiə etdi. Bu (ona «humanitar müdaxilə» deyilir), nə güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin, nə də dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin pozulması hesab edilir.[1] Amma, qeyd etmək lazımdır ki, bəzi Rusiya alimləri bunu suveren Yuqosloviya dövlətinin daxili işinə silahlı müdaxilə etmək kimi qiymətləndirirlər.[2]

6.6. Beynəlxalq publik hüququn dövlətlər arasında beynəlxalq əməkdaşlığın inkişafını təmin edən əsas prinsipləri

6.6.1. Dövlətlərin əməkdaşlıq etməsi prinsipi

Hər şeydən əvvəl, qeyd edək ki, beynəlxalq publik hüququn **məcburedici prinsiplərindən** biri olan dövlətlərin əməkdaşlıq etməsi prinsipi hüquq ədəbiyyatında müxtəlif terminlərlə ifadə olunur: «əməkdaşlıq prinsipi»[3], «beynəlxalq əməkdaşlıq prinsipi»[4], «dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək vəzifəsi prinsipi»[5], «dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi»[6] və

---

[1] *Kosovo məsələsi barədə daha ətraflı bax: məsələn,* Юсифова С. Односторонняя декларация независимости Косово, или что ждет международное право. Баку, 2010, 364 с.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.97; Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008, с.43.

[3] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.285.

[4] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.207.

[5] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 61.

[6] Hüseynov L.H.Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.44.

s. Biz, qısaca və yığcam olması səbəbindən, **«əməkdaşlıq prinsipi»** terminindən istifadə olunmasına üstünlük veririk.

Dövlətlər arasında beynəlxalq əməkdaşlığın həyata keçirilməsi tarixi qədim dövrlərə təsadüf edir. Belə ki, dövlətlər yarandığı və meydana gəldiyi vaxtdan etibarən onlar həmişə birbiri ilə əməkdaşlıq etmişlər; bunsuz beynəlxalq münasibətlərin inkişafı, məlum məsələdir ki, mümkün ola bilməzdi. Lakin dövlətlərin əməkdaşlığı beynəlxalq-hüquqi prinsip kimi XX əsrin ortalarında, **BMT Nizamnaməsinin** qəbul edilməsi ilə bağlı olaraq formalaşmışdır. Belə ki, beynəlxalq publik hüququn əsas prinsiplərindən biri olan dövlətlərin əməkdaşlıq etməsi prinsipi, ilk dəfə olaraq, BMT-nin Nizamnaməsində təsbit edilmişdir. Düzdür, BMT Nizamnaməsinin 2-ci maddəsində verilən beynəlxalq-hüquqi prinsiplərin siyahısında əməkdaşlıq prinsipinin adı çəkilmir. Lakin, buna baxmayaraq, BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndini təhlil etsək, görərik ki, burada həmin prinsip təsbit olunmuşdur; sözügedən bənddə göstərilir ki, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemləri həll etmək üçün beynəlxalq əməkdaşlığın həyata keçirilməsi BMT-nin məqsədlərindən biridir. BMT Nizamnaməsinin digər maddələrinin də mahiyyətindən əməkdaşlıq prinsipi irəli gəlir. Məsələn, BMT Nizamnaməsinin 11-ci maddəsi BMT-nin Baş Assambleyasını əməkdaşlıq prinsipinə baxmaq səlahiyyəti ilə təmin edir; onun IX fəsli beynəlxalq iqtisadi və sosial əməkdaşlığa həsr olunmuşdur. BMT Nizamnaməsinin bir çox müddəasında həmin prinsipin əks olunması şəksizdir. Bunlar onu göstəriri ki, BMT-nin Nizamnaməsində əməkdaşlıq prinsipi həm dolayı yolla, həm də müstəqil olmayan prinsip kimi formulə edilmişdir.

Müstəqil prinsip kimi sözügedən əməkdaşlıq prinsipi **1970-ci il Bəyannaməsində** formulə edilir. Burada həmin prinsipin həm də normativ məzmunu açıqlanır. 1970-ci il Bəyannaməsi əməkdaşlıq etməyi dövlətlərin üzərinə bir vəzifə (öhdəlik) kimi qoyur.

ATƏM-in 1975-ci il Helsinki Yekun Aktı da dövlətlərin əməkdaşlıq etməsi prinsipini müstəqil prinsip kimi nəzərdə tutur. Bu sənəd həmin prinsipi konkretləşdirərək, daha da inkişaf etdirir. Helsinki Yekun Aktının ayrıca bir hissəsi (IX prinsip – «Dövlətlər arasında əməkdaşlıq» hissəsi) məhz əməkdaşlıq prinsipinin tənzimlənməsinə həsr edilmişdir.

Dövlətlərin əməkdaşlıq etməsi prinsipinə görə, dövlətlərin üzərinə onların siyasi, iqtisadi və sosial sistemlərindəki mövcud olan fərqlərdən asılı olmayaraq, bir-biri ilə beynəlxalq münasibətlərin müxtəlif sahələrində əməkdaşlıq etmək öhdəliyi qoyulmuşdur.

Göstərilən prinsip, ilk növbədə, dövlətlərin bir-biri ilə əməkdaşlıq etmələrini nəzərdə tutur ki, ona **dövlətlərarası beynəlxalq əməkdaşlıq** deyilir. Bununla yanaşı, nəzərdən keçirilən prinsip, eyni zamanda, dövlətlərlə beynəlxalq publik hüququn digər subyektləri (məsələn, dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar və s.) arasında beynəlxalq əməkdaşlığın həyata keçirilməsinə şamil olunur; dövlətlər bir-biri ilə, xüsusən də, BMT ilə əməkdaşlıq etməlidirlər. BMT Nizamnaməsinin 55-ci maddəsinə görə, dövlətlərin üzərinə (söhbət BMT üzvü olan dövlətlərdən gedir) nəinki bir-biri ilə, həmçinin BMT ilə əməkdaşlıq etmək vəzifəsi düşür; xüsusilə də, qloballaşma dövründə beynəlxalq publik hüququn bütün subyektlərinin bir-biri ilə əməkdaşlıq etmələri tələb olunur. Belə ki, dünyanın qloballaşması şəraitində qlobal problemlər əmələ gəlir, beynəlxalq sülh və təhlükəsizliyi təhdid edən yeni təhlükələr yaranır. Belə problemləri həll etmək, təhlükələrə qarşı mübarizə aparmaq və dünyada sabit hüquq qaydasını təmin etmək üçün nəinki dövlətlər, həmçinin beynəlxalq publik hüququn digər subyektləri bir-biri ilə əməkdaşlıq etməlidir.

Dünyada mövcud olan dövlətlər, təbii ki, təklikdə, bir-birindən təcrid olunmuş vəziyyətdə və ayrılıqda fəaliyyət göstərə bilməzlər. Müasir dövrdə günbəgün sayı artan elə problemlər yaranır ki, bu problemləri təkcə bir dövlət həll edə bilməz. Bundan ötrü dövlətlərin öz aralarında beynəlxalq əməkdaşlığı həyata keçirmələri tələb edilir. Təhlil etdiyimiz prinsipin də

əsas təyinatı dövlətlərarası beynəlxalq əməkdaşlığın inkişafını təmin etməkdən ibarətdir.

Dövlətlərarası beynəlxalq əməkdaşlıq dedikdə ümumi əhəmiyyəti olan beynəlxalq problemləri nizama salmaq, öz qarşılıqlı mənafe və maraqlarını təmin etmək məqsədilə dövlətlərin beynəlxalq münasibətlərin ayrı-ayrı sahələrində (siyasi, iqtisadi, sosial, humanitar və digər sferada) birgə hərəkət etmələri, qarşılıqlı surətdə fəaliyyət göstərmələri və həmin fəaliyyətin əlaqələndirilməsi başa düşülür. Belə əməkdaşlıq bu və ya digər **məqsədə** nail olmaq üçün həyata keçirilir ki, həmin məqsədlər 1970-ci il Bəyannaməsində göstərilmişdir. Onlar aşağıdakılardan ibarətdir:

- beynəlxalq sülh və təhlükəsizliyi saxlamaq;
- beynəlxalq iqtisadi sabitliyin və proqresin təmin olunmasına yardım etmək;
- xalqların ümumi rifahını yüksəltmək;
- insan hüquq və azadlıqlarına hörmət olunmasını və onlara riayət edilməsini müəyyənləşdirmək;
- irqi ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaq;
- iqtisadi, sosial və mədəni sahələrdə, habelə elm, texnika, mədəniyyət və təhsil sferasında ümumi prosesə kömək etmək.

Məlum olduğu kimi, hüquq pozuntusu törədən dövlət barəsində BMT Nizamnaməsinin 41-ci maddəsində nəzərdə tutulan iqtisadi xarakterli kollektiv və fərdi tədbirlər görülə bilər. Bu zaman, yəni belə tədbirlər görülən hallarda BMT üzvü olan dövlətlər BMT ilə əməkdaşlıq etməlidirlər. Digər tərəfdən, BMT Nizamnaməsinin 42-ci və 51-ci maddələrinə uyğun olaraq, beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq, təcavüzkarlıq aktının qarşısını almaq üçün hərbi (silahlı) gücdən istifadə edilməsi ilə bağlı olaraq müvafiq tədbirlər görülür. Bu kimi hallarda BMT üzvü olan dövlətlər BMT ilə əməkdaşlıq etməyə borcludurlar.

Dövlətlərarası beynəlxalq əməkdaşlığın **predmeti** həm də beynəlxalq cinayətkarlıqla mübarizə məsələləri ola bilər. Döv-

lətlər, xüsusən də, qloballaşma dövründə transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə aparmaq üçün bir-biri ilə əməkdaşlıq etməlidirlər. Qeyd etməliyik ki, qloballaşma cərəyanı müsbət tendensiyalara səbəb olduğu kimi, həm də mənfi nəticələrə, yəni cinayətkarlığın miqyasca qloballaşmasına gətirib çıxarır. Cinayətkarlığın qloballaşması isə dövlətlərarası beynəlxalq əməkdaşlığın həyata keçirilməsini zəruri edir; dövlətlər beynəlxalq terrorizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi, «çirkli» pulların «yuyulması» və korrupsiya ilə mübarizə sahəsində, xüsusilə, əməkdaşlıq etməlidirlər. Dövlətlərarası beynəlxalq əməkdaşlıq həm də dini fanatizm ilə mübarizə və digər sahələrdə həyata keçirilməlidir.

6.6.2. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi

Beynəlxalq publik hüququn **məcburedici prinsiplərindən** biri kimi beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipinin rolu və əhəmiyyəti haqqında, xüsusilə, danışmaq lazımdır. Belə ki, həmin prinsip beynəlxalq münasibətlər sisteminin əsasını təşkil edir; mübaliğəsiz demək olar ki, onsuz beynəlxalq münasibətlər sistemi öz fəaliyyətini normal şəkildə təmin edə bilməz. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi həm də beynəlxalq publik hüququn özünün əsası hesab edilir. Belə ki, onsuz beynəlxalq publik hüquq nə öz vəzifəsini, nə də funksiyasını həyata keçirə bilər.

Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi təkcə dövlətlərə deyil, həm də beynəlxalq publik hüququn digər subyektlərinə (məsələn, dövlətlərarası beynəlxalq təşkilatlara və s.) şamil olunur; başqa sözlə, göstərilən prinsip beynəlxalq publik hüququn bütün subyektlərinə aiddir. Belə ki, beynəlxalq öhdəlikləri beynəlxalq publik hüququn bütün subyektləri yerinə yetirməlidirlər; bu səbəbdən bəzi müəlliflərin həmin prinsipi «dövlətlərin öz beynəlxalq öhdəliklərini vicdan-

la yerinə yetirməsi prinsipi» adlandırması[1] tam və əhatəli anlayış kimi məqbul deyildir. Bir daha təkrar edərək göstəririk ki, sözügedən prinsip beynəlxalq publik hüququn subyektlərinin hamısının (təkcə dövlətin deyil) üzərinə öz beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirmək vəzifəsini qoyur.

Təhlil etdiyimiz prinsipi ifadə etmək üçün həm də «**pacta sunt servanda**» («müqaviləyə əməl olunmalıdır») kimi terminin işlədilməsi müasir dövrdə uğurlu variant sayılmır[2], çünki onun məna yükü daha da genişlənmişdir. Məsələ burasındadır ki, nəzərdən keçirilən prinsip təkcə beynəlxalq müqavilələrdən deyil, həm də digər beynəlxalq-hüquqi mənbələrdən (məsələn, beynəlxalq-hüquqi adətlərdən, dövlətlərarası/hökumətlərarası beynəlxalq təşkilatların qərarlarından və s.) irəli gələn beynəlxalq öhdəliklərə şamil olunur. Başqa sözlə, göstərilən prinsipə görə, həm beynəlxalq müqavilələrdən, həm beynəlxalq-hüquqi adətlərdən, həm beynəlxalq (dövlətlərarası və ya hökumətlərarası) təşkilatların qərarlarından, həm də digər beynəlxalq-hüquqi mənbələrdən yaranan beynəlxalq öhdəliklər vicdanla yerinə yetirilməlidir. Lakin, unutmaq olmaz ki, beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipinin tarixən əsası «pacta sunt servanda» prinsipi hesab edilir. «Pacta sunt servanda» Roma hüququnun hələ neçə-neçə əsr bundan əvvəl formalaşdırdığı prinsipdir; həmin prinsip sonralar beynəlxalq publik hüquqa daxil edilmişdir.

Roma hüququ dövründə «pacta sunt servanda» prinsipi mülki-hüquqi müqavilələrə aid olunurdu; həmin prinsipə görə, müqavilə üzrə öhdəliklər yerinə yetirilməlidir və əgər yerinə yetirilməzsə, məsələ məhkəmədə həll olunur. Dövlətlərarası münasibətlərin, eləcə də beynəlxalq publik hüququn yaranması və inkişafı «pacta sunt servanda» prinsipinin beynəlxalq-hüquqi adət kimi tanınmasına gətirib çıxardı. Deməli, beynəlxalq

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.95.

[2] Международное право. Учебник / Под ред. Д.Н. Шестакова. М., МГУ, 2005.

publik hüququn əsas prinsiplərindən biri olan beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipinin formalaşması Roma hüququna məlum olan «pacta sunt servanda» prinsipi ilə əlaqəlidir. Belə ki, həmin prinsip öz başlanğıcını və mənbəyini «pacta sunt servanda» prinsipindən götürmüşdür.

Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipinin beynəlxalq publik hüququn əsas prinsiplərindən biri kimi formalaşması **BMT Nizamnaməsinin** qəbul olunması ilə bağlıdır. Düzdür, hələ BMT-nin Nizamnaməsi qəbul olunana qədər Millətlər Liqasının Statutunun preambulasında həmin prinsipin mövcud olmasına işarə edilmişdi; orada deyilirdi ki, Millətlər Liqasının üzvləri beynəlxalq publik hüququn göstərişlərinə – bundan sonra dövlətlərin həqiqi davranış qaydaları kimi tanınan göstərişlərinə ciddi riayət etməlidirlər. Bu, beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipinin ümumi formada təsbit olunmasını ifadə edirdi. Lakin, buna baxmayaraq, həmin prinsip öz beynəlxalq-hüquqi təsbitini, qəti olaraq, BMT-nin Nizamnaməsində tapdı; həmin sənədin 2-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq, BMT-nin bütün üzvləri onun Nizamnaməsi üzrə öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməlidirlər. Lakin, əslində, göstərilən prinsipin məzmunu daha geniş olub, təkcə BMT-nin Nizamnaməsindən irəli gələn öhdəliklə məhdudlaşmır. Təkcə bunu demək kifayətdir ki, təhlil etdiyimiz prinsip həm də **1970-ci il Bəyannaməsində,** habelə **1975-ci il Helsinki Yekun Aktında** formulə olunur və həmin sənədlər onun məzmununun daha geniş olmasını təsdiqləyir.

Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipinə görə, beynəlxalq publik hüququn bütün subyektləri öz üzərlərinə düşən beynəlxalq vəzifələri lazımınca icra etməlidirlər; əgər onlar icra etməzlərsə, bu, beynəlxalq pozuntu hesab edilir və beynəlxalq məsuliyyətə səbəb olur.

Beynəlxalq öhdəliklər beynəlxalq publik hüquq üzrə öhdəliklər deməkdir. **Beynəlxalq öhdəliklər** dedikdə beynəlxalq publik hüququn mənbələrindən (beynəlxalq müqavilələrdən, beynəlxalq-hüquqi adətlərdən və s.) irəli gələn öhdəliklər başa

düşülür. Bu sıraya həm də beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş prinsiplərindən və normalarından irəli gələn öhdəliklər daxildir. Dövlətlərin birtərəfli qaydada öz üzərinə götürdükləri öhdəliklər (birtərəfli öhdəliklər) də beynəlxalq öhdəliklərə aiddir.[1]

Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək dedikdə onların lazımınca icra edilməsi başa düşülür. **Beynəlxalq öhdəliklərin lazımınca icra edilməsinə** görə isə:

- birinci, beynəlxalq öhdəliklər **vaxtında (nəzərdə tutulan müddətdə)** icra edilməlidir;
- ikinci, beynəlxalq öhdəliklər **dəqiq** icra edilməlidir;
- üçüncü, beynəlxalq öhdəliklər **tələb olunan yerdə** icra edilməlidir;
- dördüncü, beynəlxalq öhdəliklər **öz həqiqi və əsl məzmununa uyğun** icra edilməlidir.

Göstərilən prinsipin əhəmiyyətli olduqca böyükdür. Bu prinsip dövlətlər arasında normal və sabit beynəlxalq münasibətlərin mövcud olmasının və inkişaf etdirilməsinin vacib şərtidir; onsuz, qeyd etməliyik ki, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması qeyri-mümkündür.

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.120.

VI MÖVZU ÜZRƏ ƏYANİ SXEM



VI FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Beynəlxalq hüquq. Azərbaycan dilində // Məsul redaktor və tərcüməçi – R.F.Məmmədov. Bakı, 2002 (IV fəsil).
2. Əliyev E.Ə., Hüseynova F.E. Beynəlxalq hüququn prinsipləri: anlayışı və sistemi. Bakı, 2017, 164 s.
3. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007, 488 s.
4. Hüseynov L.H.Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008 (IV fəsil).
5. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 (гл.10).
6. Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл.3, § 2).
7. Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009 (гл. 4).
8. Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015 (гл.6).
9. Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010 (гл. 6).
10. Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011 (гл.3).
11. Международное право. Учебник / Отв. ред. Г. С. Стародубцев. М., 2015 (гл.1, §6).
12. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.4).
13. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл. 6, § 4).
14. Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005 (гл.2, §2).
15. Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008 (гл. 1, § 3).
16. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл. 3).
17. Тимченко Л. Д. Международное право. Учебник. Харьков, 2004 (гл. 4).
18. Федощева Н. Н. Международное право. Учебное пособие. М., 2015 (гл. 3).

VII FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN SUBYEKTLƏRİ

7.1. Beynəlxalq publik hüququn subyektləri anlayışı və onların növləri

7.1.1. Beynəlxalq publik hüququn subyektləri anlayışı

Beynəlxalq publik hüququn əsas və başlıca funksiyası, məlum olduğu kimi, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları arasında yaranan qarşılıqlı əlaqələri tənzimləməkdən ibarətdir. Dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına isə hüquq elmində, beynəlxalq qanunvericilikdə və beynəlxalq məhkəmə sənədlərində beynəlxalq publik hüququn subyektləri deyilir.

Beynəlxalq publik hüququn subyektləri ilə bağlı məsələlər beynəlxalq publik hüququn "beynəlxalq publik hüquq subyektliyi" kimi vacib institutu ilə tənzimlənir və qaydaya salınır.[1] Beynəlxalq publik hüquq subyektliyi, qeyd etməliyik ki, beynəlxalq publik hüququn ən mühüm və əsas institutu sayılır. Ona görə ki, beynəlxalq publik hüquq öz subyektlərinin mənafe və maraqlarının təmin olunması məqsədinə xidmət edir. Unutmaq olmaz ki, beynəlxalq publik hüquq dövlətlər və digər subyektlər arasında yaranan beynəlxalq münasibətləri tənzimləməkdən ötrü formalaşmışdır. Bu məqsədlə də, o, müasir zamanda mövcud olmaqda davam edir. Əgər beynəlxalq publik hüququn subyektləri olmazsa, onda beynəlxalq publik hüququn

[1] Müəlliflərdən K.A.Bekyaşev belə bir fikir söyləyir ki, «beynəlxalq hüquq subyektləri» beynəlxalq publik hüququn müstəqil sahələrindən biridir *(bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.24). Lakin, nəzərə almaq lazımdır ki, beynəlxalq publik hüququn müstəqil sahələri dövlətlərarası beynəlxalq əməkdaşlığın konkret istiqamətləri (dövlətlərarası münasibətlərin konkret növləri) əsasında ayrılır və formalaşır.

özünün mövcudluğundan söhbət belə gedə bilməz. Bəs, beynəlxalq publik hüququn subyektləri dedikdə nə başa düşülür?

Bildiyimiz kimi, beynəlxalq publik hüquqla dövlətlərarası münasibətlər tənzimlənir. Başqa sözlə, beynəlxalq publik hüququn nizamasalma predmetini dövlətlərarası münasibətlər təşkil edir. Dövlətlərarası münasibətlər isə, məlum olduğu kimi, subyektlər olmadan yarana bilməz. Belə ki, istənilən ictimai münasibət, o cümlədən **dövlətlərarası münasibət ən azı iki subyekt arasında yaranır.** Təsadüfi deyil ki, subyekt tərkibi dövlətlərarası münasibətlərin, ümumiyyətlə, bütün ictimai münasibətlərin məcburi (labüd) elementidir. Odur ki, bu element olmadan dövlətlərarası münasibətlərin yaranması qeyri-mümkündür.

Əgər hər hansı qurum dövlətlərarası münasibətlərdə (məsələn, dövlətlərarası müqavilə münasibətlərində, dövlətlərarası iqtisadi münasibətlərdə və s.) iştirak edə bilərsə, o, beynəlxalq publik hüququn subyekti sayılır. Belə münasibətlərin iştirakçısı ola bilməyən qurum isə, əlbəttə, beynəlxalq publik hüququn subyekti hesab olunmur. Deməli, hər hansı qurumun beynəlxalq publik hüququn subyekti kimi tanınması onun dövlətlərarası münasibətlərdə iştirak etmək qabiliyyəti (imkanı) ilə müəyyən olunur. Lakin bu, heç də, o demək deyildir ki, "beynəlxalq publik hüquq subyektləri" və "dövlətlərarası münasibət subyektləri" kimi iki anlayış eynimənalı olub, məzmunca, tam üstüstə düşürlər. Qeyd etməliyik ki, həmin anlayışlar arasında əlaqə "imkan" və "gerçəklik" kimi fəlsəfi kateqoriyalar arasındakı münasibət kimidir. Belə ki, beynəlxalq publik hüququn subyektləri dövlətlərarası beynəlxalq münasibətlərin mümkün, potensial iştirakçılarıdır; dövlətlərarası beynəlxalq münasibətlərin subyektləri isə artıq real (gerçək) iştirakçılardır.

Beynəlxalq publik hüququn subyektləri təkcə dövlətlərarası münasibətlərin, sadəcə olaraq, mümkün iştirakçısı deyillər. Belə ki, onlar dövlətlərarası münasibətlərdə iştirak etdikləri zaman **həm beynəlxalq subyektiv hüquqların, həm də beynəlxalq subyektiv-hüquqi vəzifələrin daşıyıcısı olurlar**. Beynəl-

xalq subyektiv hüquqlar, eləcə də beynəlxalq subyektiv-hüquqi vəzifələr isə beynəlxalq publik hüquq normaları ilə müəyyən olunur.

Beləliklə, bu və ya digər qurumun beynəlxalq publik hüququn subyekti olması üçün o, aşağıda göstərilən tələblərə cavab verməlidir:

- birinci, beynəlxalq publik hüquqla tənzimlənən **dövlətlərarası münasibətlərdə iştirak edə bilməlidir;**
- ikinci, **həm beynəlxalq subyektiv hüquqlara malik olmaq, həm də beynəlxalq subyektiv-hüquqi vəzifələr daşımaq qabiliyyətli** olmalıdır.

Göstərdiyimiz iki cəhəti nəzərə almaqla beynəlxalq publik hüquq subyektlərinə elmi anlayış verə bilərik.

Beynəlxalq publik hüququn subyektləri dedikdə dövlətlərarası beynəlxalq münasibətlərin elə mümkün iştirakçıları başa düşülür ki, onların həm beynəlxalq subyektiv hüquqlara malik olmaq, həm də beynəlxalq subyektiv-hüquqi vəzifələr daşımaq qabiliyyəti vardır.

Beynəlxalq publik hüququn subyektləri sırasına hansı qurumların daxil olması məsələsinə gəldikdə, qeyd etməliyik ki, buraya, ilk növbədə, **dövlətlər** aiddir. Belə ki, əgər beynəlxalq publik hüququn nizamasalma predmetini dövlətlərarası münasibətlər təşkil edirsə, onda belə münasibətlərin subyektləri (iştirakçıları), təbii ki, dövlətlər ola bilərlər. Lakin dövlət beynəlxalq publik hüququn yeganə subyekti deyildir. Başqa sözlə, beynəlxalq publik hüququn subyekti anlayışının əhatə dairəsi təkcə dövlətlə məhdudlaşmır.

Qeyd etməliyik ki, dövlətlərarası münasibətlər məhdud deyil, geniş anlayışdır. Belə ki, bu münasibətlərdə dövlətlərdən başqa, həm də dövlətlərin özlərinin yaratdıqları və onların birlik forması olan **dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilatlar** da iştirak edirlər. Məlum olduğu kimi, keçən yüzilliyin ortalarında dövlətlərarası beynəlxalq təşkilat olan BMT-nin təsis edilməsi yeni tarixi şəraitin başlanğıcını qoydu. Belə

şəraitdə BMT-nin Beynəlxalq Məhkəməsi XX əsrin 50-ci illərində BMT qurumunu beynəlxalq publik hüququn subyekti kimi tanıdı. Bundan sonra bütün dövlətlərarası beynəlxalq təşkilatlar beynəlxalq publik hüququn subyekti hesab edildi.[1]

Elə xalqlar (millətlər) vardır ki, onlar (məsələn, Fələstin xalqı və s.) öz müstəqil dövlətini yaratmaq, öz dövlətçiliyini qurmaq uğrunda mübarizə aparırlar. Bu mübarizəyə həmin xalqları təmsil və onlara rəhbərlik edən ayrı-ayrı milli-siyasi təşkilatlar (məsələn, Fələstin Azadlıq Təşkilatı və s.) rəhbərlik edir. **Öz müstəqil dövlətini qurmaq uğrunda mübarizə aparan xalqların** da dövlətlərarası beynəlxalq münasibətlərin iştirakçısı olması mümkündür. Belə ki, bu kimi xalqların adından onların yaratdıqları milli-siyasi təşkilatlar müxtəlif dövlətlərlə, həmçinin ayrı-ayrı hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlarla münasibətlərə girə bilərlər; həmin münasibətlər də dövlətlərarası münasibətlər anlayışına daxildir. Ona görə ki, bu və ya digər xalqın (millətin) öz müstəqil dövlətini yaratmaq uğrunda mübarizəsinə başçılıq və rəhbərlik edən milli-siyasi təşkilat formalaşmaqda olan dövlət və ya onun rüşeymi deməkdir. Təbii ki, belə təşkilatla hər hansı dövlət və hökumətlərarası beynəlxalq təşkilat arasında yaranan münasibət dövlətlərarası münasibət sayılır. Dövlətlərarası münasibətlərdə iştirak edən qurum isə beynəlxalq publik hüququn subyekti hesab olunur. Buna görə də, öz müstəqil dövlətini yaratmaq uğrunda mübarizə aparan xalqlar da beynəlxalq publik hüququn subyektləri sırasına aiddir.

Elə qurumlar da mövcuddur ki, həmin qurumlar (məsələn, Vatikan) dövlət hesab edilmirlər. Lakin, buna baxmayaraq, onların xüsusi və müstəqil beynəlxalq-hüquqi statusu vardır. Belə qurumlara **dövlətəoxşar qurumlar** deyilir və onlar dünyanın bir sıra dövləti ilə diplomatik münasibətlər saxlayır. Özünün ərazisi, qanunvericiliyi və vətəndaşlığı olan dövlətəoxşar qurumlar beynəlxalq münasibətlərdə fəal surətdə iştirak edir, baş-

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.108.

qa dövlətlərdə daimi nümayəndəliyini yaradır və s.; hətta onların müəyyən suveren hüquqları da vardır. Dövlətəoxşar qurumlar həmçinin beynəlxalq təşkilatlarda, konfranslarda və s. iştirak edirlər. Göründüyü kimi, sözün əsl hüquqi mənasında, dövlət hesab edilməyən dövlətəoxşar qurumlar (kvazidövlət) dövlətəxas bəzi əlamətlərlə xarakterizə olunur. Buna görə də, onlar beynəlxalq publik hüququn subyekti hesab edilir.

Beləliklə, **beynəlxalq publik hüququn subyekti** sırasına aşağıdakılar aiddir:

- dövlətlər;
- dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilatlar;
- öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər);
- dövlətəoxşar qurumlar.

Bununla yanaşı, bəzi müəlliflər beynəlxalq publik hüquq subyektlərinin sırasını bir qədər də genişləndirərək buraya aşağıdakıları da aid edirlər:[1]

- beynəlxalq qeyri-hökumət təşkilatları;
- transmilli korporasiyalar;
- beynəlxalq təsərrüfat birlikləri;
- təsərrüfat subyektləri və digər hüquqi şəxslər;
- fərdlər (fiziki şəxslər).

Qeyd etməliyik ki, sovet dövrünün beynəlxalq publik hüquq doktrinası göstərdiklərimizi uzun müddət beynəlxalq publik hüququn subyekti kimi tanımamış və onların beynəlxalq publik hüquq subyekti sayılmalarına mənfi münasibət bəsləmişdir. Biz, sovet hüquq doktrinasının beynəlxalq publik hüquq sub-

[1] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.110; Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов, М., 2010, с.74; Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 с.15; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.51-53 və s.

yektlərinə dair mövqeyini düzgün hesab edirik. Belə ki, nə beynəlxalq qeyri-hökumət təşkilatlarının, nə transmilli korporasiyaların, nə təsərrüfat birlikləri və hüquqi şəxslərin, nə də fiziki şəxslərin (fərdlərin) beynəlxalq publik hüquq subyekti kimi tanınmasının elə bir hüquqi-məntiqi əsası mövcud deyildir. Nə üçün və hansı arqumentlərə görə, onlar beynəlxalq publik hüququn subyekti sayıla bilməzlər? Zənnimizcə, bunun bir neçə səbəbi vardır.

Birinci səbəb ondan ibarətdir ki, beynəlxalq publik hüququn subyekti yalnız **dövlətlərarası münasibət iştirakçıları ola bilər**.[1] Beynəlxalq qeyri-hökumət təşkilatlarının, transmilli korporasiyaların, fiziki şəxslərin (fərdlərin) və digərlərinin isə, məlum məsələdir ki, belə münasibətlərdə iştirak etmək üçün hüquq qabiliyyəti yoxdur.

İkinci, beynəlxalq publik hüququn subyektləri hökmən **dövlətlərarası sistemə daxil olmalıdır**.[2] Dövlətlərarası sistemə isə ancaq hakimiyyət subyekti (daşıyıcısı) daxil ola bilər. Heç də sirr deyil ki, beynəlxalq qeyri-hökumət təşkilatları, transmilli korporasiyalar, fiziki şəxslər (fərdlər) və s. qurumlar hakimiyyət subyekti (daşıyıcısı) deyildir. Məhz bu səbəbdən onların beynəlxalq publik hüquq subyekti olmaları qeyri-mümkündür.

Üçüncü, beynəlxalq publik hüquq yalnız **subyektlər arasında yaranan hakimiyyətlərarası beynəlxalq münasibətləri** tənzimləyir. Yalnız belə münasibətlərdə iştirak etmək qabiliyyətinə malik olanlar beynəlxalq publik hüququn subyekti kimi status əldə edə bilər. Təbii ki, beynəlxalq qeyri-hökumət təşkilatları, transmilli korporasiyalar, fiziki şəxslər (fərdlər) və digərlərinin belə münasibətlərdə iştirak etmək qabiliyyəti yox-

---

[1] Черниченко С.В. Личность и международное право. М., 1974, с.120; Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.25.

[2] «Dövlətlərarası sistem» anlayışını, ilk dəfə olaraq, sovet dövrünün tanınmış alimlərindən biri olan Q.İ.Tunkin işlətmişdir *(bax:* Тункин Г.И. Право и сила в международной системе. М., 1983,с.10). Bu, şərti deyil, elmi məna və əhəmiyyət kəsb edən anlayışdır.

dur. Məsələ burasındadır ki, onlar hakimiyyət səlahiyyətinə (funksiyasına) malik deyillər. Odur ki, beynəlxalq qeyri-hökumət təşkilatlarının, transmilli korporasiyaların, fiziki şəxslərin (fərdlərin) və s. hakimiyyətlərarası beynəlxalq münasibətlərdə iştirak etmək və beynəlxalq publik hüququn subyekti olmaq qabiliyyəti yoxdur.

Dördüncü, yalnız **beynəlxalq publik hüquq normalarının yaradılmasında iştirak edə bilən qurumlar** beynəlxalq publik hüququn subyekti ola bilərlər. Başqa sözlə, yalnız beynəlxalq publik hüquq normaları yaratmaq qabiliyyətinə malik olanlar beynəlxalq publik hüququn subyekti kimi tanınır.[1] Beynəlxalq publik hüquq normaları yaratmaq qabiliyyətinə isə ancaq dövlətlər, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlar, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) və dövlətəoxşar qurumlar malikdirlər. Nə beynəlxalq qeyri-hökumət təşkilatlarının, nə transmilli korporasiyaların, nə fiziki şəxslərin (fərdlərin) və s. beynəlxalq publik hüquq normaları yaratmaq qabiliyyəti vardır. Buna görə də, onlar beynəlxalq publik hüququn subyekti ola bilməzlər.[2]

Nəhayət, **beşinci,** beynəlxalq publik hüquq subyektləri **beynəlxalq publik hüquq subyektliyi** kimi keyfiyyətə malik olmalıdır. Beynəlxalq qeyri-hökumət təşkilatları, transmilli korporasiyalar, fiziki şəxslər (fərdlər) və s. isə bu keyfiyyətlərdən məhrumdurlar. Bu səbəbdən onların beynəlxalq publik hüququn subyekti olmaları istisna edilir, yəni qeyri-mümkündür.

---

[1] Черниченко С.В. Еще раз о международной правосубьектности индивидов // Московский журнал международного права. 2005, №4, с.11-26.

[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 86; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.73 və b.

7.1.2. Beynəlxalq publik hüquq subyektliyi

Beynəlxalq publik hüquq subyektliyi bu və ya digər qurumun malik olduğu keyfiyyət xüsusiyyətidir.[1] Belə xüsusiyyət əsasında müvafiq qurum beynəlxalq publik hüququn subyekti kimi tanınır. Bəs, beynəlxalq publik hüquq subyektliyi dedikdə nə başa düşülür?

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüquqda beynəlxalq publik hüquq subyektliyinə leqal anlayış verilmir. Ədəbiyyat səhifələrində yalnız onun beynəlxalq hüquqşünas alimlər tərəfindən verilən elmi təriflərinə rast gəlmək mümkündür ki, bu təriflərdə "beynəlxalq publik hüquq subyektliyi" termininin məzmunu açıqlanır; buna görə də, "beynəlxalq publik hüquq subyektliyi" elmi termindir. Bu termin nəinki beynəlxalq publik hüquq doktrinasında, həmçinin bir sıra beynəlxalq-hüquqi aktlarda işlədilir. Məsələn, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində deyilir ki, başqa dövlətlərin hüquq subyektliyinə hörmət etmək hər bir dövlətin borcudur. Göstərilən terminə Dəniz hüququna dair BMT Konvensiyasında (1982-ci il) və digər sənədlərdə də rast gəlmək mümkündür.

Beynəlxalq publik hüquq subyektliyi dedikdə elə bir keyfiyyət xüsusiyyəti başa düşülür ki, həmin xüsusiyyət bu və ya digər quruma beynəlxalq publik hüququn subyekti olmaq, həmçinin beynəlxalq publik hüquqla tənzimlənən dövlətlərarası münasibətlərdə tərəf (subyekt) qismində iştirak etmək qabiliyyəti verir. Əgər hər hansı qurum belə qabiliyyətə malik olarsa, o, beynəlxalq publik hüququn subyekti kimi tanınır.

Beynəlxalq publik hüquq subyektliyi, tərkibcə, müxtəlif **elementlərdən** ibarətdir. Buna görə də, o, ümumiləşdirilmiş anla-

[1] Броунли Я. Международное право. Книга 1. М., 1977, с.106.

yışdır. Belə ki, beynəlxalq publik hüquq subyektliyi anlayışının tərkibinə aşağıda göstərilən üç element daxildir:[1]

– beynəlxalq publik hüquq qabiliyyəti;
– beynəlxalq fəaliyyət qabiliyyəti;
– beynəlxalq delikt qabiliyyəti.

Bəzi müəlliflər tərəfindən (məsələn, Y.L.Zabarçuk) beynəlxalq publik hüquq subyektliyinin tərkibinin yalnız iki elementdən (beynəlxalq publik hüquq qabiliyyəti və beynəlxalq fəaliyyət qabiliyyəti) ibarət olması barədə fikir söylənilir;[2] onlar buraya beynəlxalq delikt qabiliyyəti kimi üçüncü elementi daxil etmirlər. Lakin, qeyd etməliyik ki, yalnız üç element birlikdə beynəlxalq publik hüquq subyektliyinin hüquqi təbiətini, əsasını və həddini müəyyən etməyə imkan verir.

Beynəlxalq publik hüquq qabiliyyəti dedikdə subyektin (beynəlxalq publik hüquq subyektinin) beynəlxalq hüquqlara malik olmaq, habelə beynəlxalq-hüquqi vəzifələr daşımaq qabiliyyəti başa düşülür. Onun **məzmunu** aşağıda göstərilən iki elementdən ibarətdir:

– beynəlxalq hüquqlar;
– beynəlxalq-hüquqi vəzifələr.

Beynəlxalq hüquqlar dedikdə subyektin beynəlxalq publik hüquq normaları ilə müəyyənləşdirilən mümkün davranış ölçüsü başa düşülür. Başqa sözlə, beynəlxalq hüquqlar subyektlərə beynəlxalq publik hüquq normaları ilə verilən hüquqi imkandır. Bu hüquqi imkandan istifadə edərək, onlar konkret beynəlxalq hüquqlara malik olurlar. Bu səbəbdən "beynəlxalq hüquq" və "konkret beynəlxalq hüquq" bir-birinə nə qədər yaxın olsalar da, eynimənalı anlayışlar deyillər. Fəlsəfi nöqteyi-nəzərdən onlar arasında münasibət «imkan» və «gerçəklik» kimi fəlsəfi kateqoriyalar arasında mövcud olan əlaqə kimidir. Belə ki, əgər beynəlxalq hüquq hüquqi imkandırsa, konkret beynəlxalq

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.181.
[2] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.54.

hüquq artıq subyektin gerçək, yəni real olaraq malik olduğu subyektiv hüquqdur. Başqa sözlə, fəlsəfi baxımdan, beynəlxalq hüquq imkan, konkret beynəlxalq hüquq isə gerçəklikdir.

Beynəlxalq-hüquqi vəzifələr dedikdə subyektlərin lazımi və zəruri vəzifə-davranış ölçüsü başa düşülür. Onlar beynəlxalq publik hüquq normaları ilə qadağan edilməyən istənilən vəzifə daşıya bilərlər.

"Beynəlxalq-hüquqi vəzifə" anlayışını «konkret beynəlxalq-hüquqi vəzifə» anlayışından fərqləndirmək lazımdır. Beynəlxalq-hüquqi vəzifə beynəlxalq publik hüquq qabiliyyətinin elə bir elementidir ki, bu elementə görə, subyektlər müəyyən vəzifələr daşıya bilərlər. Konkret beynəlxalq-hüquqi vəzifə isə subyektin artıq daşıdığı real vəzifədir. Onlardan biri imkanı, digəri isə gerçəkliyi ifadə edir.

Beynəlxalq publik hüquq qabiliyyəti, yəni beynəlxalq hüquqlara malik olmaq və beynəlxalq-hüquqi vəzifələr daşımaq qabiliyyəti **beynəlxalq publik hüququn bütün subyektləri üçün bir bərabərdə (eyni dərəcədə) tanınır**. Bu o deməkdir ki, beynəlxalq hüquqlara malik olmaq və beynəlxalq-hüquqi vəzifələr daşımaq məsələsində beynəlxalq publik hüququn bütün subyektlərinə eyni qabiliyyət (bərabər imkan) verilmişdir. Lakin bu, heç də, subyektlərin malik olduqları konkret beynəlxalq hüquqların, eləcə də, daşıdıqları konkret beynəlxalq-hüquqi vəzifələrin eyni və bərabər həcmdə olmasını ifadə etmir.[1] Belə ki, bəzi subyektlər daha çox konkret beynəlxalq hüquqlara malik ola və konkret beynəlxalq-hüquqi vəzifələr daşıya bilərlər.

Beynəlxalq publik hüquq qabiliyyəti subyektin yarandığı və fəaliyyətə başladığı an əmələ gəlir. Məsələn, beynəlxalq publik hüququn subyektləri sırasına daxil olan dövlət və dövlətoxşar qurumlar yarandığı andan beynəlxalq publik hüquq qabiliyyətli olur. Beynəlxalq publik hüququn digər kateqoriya sub-

[1] Y.L.Zabarçuk belə fikir söyləyir ki, beynəlxalq publik hüquq qabiliyyəti hüquq və vəzifələrin həcmini ifadə edir *(bax*: Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.55).

yekti olan dövlətlərarası beynəlxalq təşkilatlar da yarandığı andan beynəlxalq publik hüquq qabiliyyətinə malik olur. Belə ki, təsis sənədi qüvvəyə mindiyi andan dövlətlərarası beynəlxalq təşkilatların beynəlxalq publik hüquq qabiliyyəti əmələ gəlir; təsis sənədinin qüvvəyə mindiyi an isə onların yarandığı vaxt hesab edilir. Öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) kimi beynəlxalq publik hüquq subyektlərinə gəldikdə isə, qeyd etməliyik ki, onların mübarizəsinə bu və ya digər siyasi-milli təşkilatlar rəhbərlik edir; həmin təşkilatlar yarandığı və tanındığı andan bu subyektlər beynəlxalq publik hüquq qabiliyyətli olurlar.

Subyektlərin fəaliyyətinə xitam verildiyi, yəni onların mövcudluğuna son qoyulduğu andan beynəlxalq publik hüquq qabiliyyəti ləğv edilir. Təbii ki, mövcudluğuna son qoyulmuş subyekt hüquq qabiliyyətli ola bilməz. Məsələn, keçən yüzilliyin 90-cı illərinin əvvəllərində SSRİ dövlətinin mövcudluğuna son qoyulması onun beynəlxalq publik hüquq qabiliyyətinin ləğv edilməsinə səbəb oldu.

Beynəlxalq fəaliyyət qabiliyyəti dedikdə beynəlxalq publik hüquq subyektinin öz hərəkətləri ilə beynəlxalq hüquqlar əldə etmək və bu hüquqları həyata keçirmək, özləri üçün beynəlxalq-hüquqi vəzifələr yaratmaq və həmin vəzifələri icra etmək qabiliyyəti başa düşülür. Yarandığı və fəaliyyətə başladığı andan beynəlxalq publik hüquq subyektləri beynəlxalq fəaliyyət qabiliyyətli olur; mövcudluğuna və fəaliyyətinə son qoyulduğu andan onların beynəlxalq fəaliyyət qabiliyyəti ləğv edilir.

Beynəlxalq fəaliyyət qabiliyyətinin **məzmunu** bir neçə elementdən ibarətdir. Həmin elementlərə aşağıdakılar aiddir:[1]

– beynəlxalq publik hüquq subyektinin öz hərəkətləri ilə beynəlxalq hüquqlar əldə etmək qabiliyyəti;

[1] Bəzi müəlliflər beynəlxalq fəaliyyət qabiliyyətinin iki elementə malik olmasını (birinci, subyektin öz hərəkəti ilə hüququnu həyata keçirməsi, ikinci, subyektin öz hərəkəti ilə vəzifəsini icra etməsi) güman edirlər *(bax:* Международное право. Учебник /Под ред. К.К.Гасанова. М., 2008, с.24).

– subyektin öz hərəkətləri ilə əldə etdiyi beynəlxalq hüquqları həyata keçirmək qabiliyyəti;
– beynəlxalq publik hüquq subyektinin öz hərəkətləri ilə özü üçün beynəlxalq-hüquqi vəzifələr yaratmaq qabiliyyəti;
– subyektin özü üçün yaratdığı beynəlxalq-hüquqi vəzifələri icra etmək qabiliyyəti.

Bəzi müəlliflər, qeyd etməliyik ki, subyektin öz hərəkətləri ilə beynəlxalq hüquqlar əldə etmək və özü üçün beynəlxalq-hüquqi vəzifələr yaratmaq kimi elementi beynəlxalq publik hüquq qabiliyyətinin elementi hesab edirlər.[1] Məsələn, müəlliflərdən Q.M.Melkov yazır ki, beynəlxalq publik hüquq qabiliyyəti subyektin həm də öz hərəkətləri ilə özü üçün beynəlxalq hüquqlar və vəzifələr yaratmaq qabiliyyətidir;[2] Y.L.Zaburçuk isə «beynəlxalq publik hüquq qabiliyyəti» və «beynəlxalq fəaliyyət qabiliyyəti» kimi anlayışları eyniləşdirir; onun fikrincə, hüquq qabiliyyəti dedikdə həm də fəaliyyət qabiliyyəti başa düşülür.[3] Lakin, söylənilmiş bu fikirlərlə bağlı qeyd etməliyik ki, zənnimizcə, beynəlxalq publik hüquq qabiliyyəti və beynəlxalq fəaliyyət qabiliyyəti eyni olmayan anlayışlardır. Beynəlxalq publik hüquq qabiliyyəti belə bir suala cavab verir: beynəlxalq publik hüquq subyekti nəyə, yəni **hansı beynəlxalq hüquqlara malik ola və vəzifələr daşıya bilər?** Nəzərə almaq lazımdır ki, beynəlxalq publik hüquq qabiliyyəti beynəlxalq hüquqlara malik olmaq və beynəlxalq-hüquqi vəzifələr daşımaq üçün subyektlərə verilən hüquqi imkandır.

Beynəlxalq fəaliyyət qabiliyyətinə gəldikdə isə, qeyd etmək vacibdir ki, o, belə bir suala cavab verir: subyekt hərəkətləri

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.181.
[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с. 110.
[3] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с. 54.

ilə özü üçün **hansı beynəlxalq hüquqlar əldə edə və beynəlxalq-hüquqi vəzifələr yarada bilər**? Beynəlxalq fəaliyyət qabiliyyəti subyektə hərəkətləri ilə özü üçün beynəlxalq hüquqlar əldə etmək və beynəlxalq-hüquqi vəzifələr yaratmaq üçün verilən hüquqi imkandır; o, bu imkandan istifadə edərək, konkret beynəlxalq hüquqlar əldə edə və özü üçün beynəlxalq-hüquqi vəzifələr yarada bilər. Deyilənlərdən belə çıxır ki, subyektin beynəlxalq hüquq qabiliyyəti onun beynəlxalq hüquqlara malik olmaq və vəzifələr daşımaq, beynəlxalq fəaliyyət qabiliyyəti isə hərəkətləri ilə özü üçün beynəlxalq hüquqlar əldə etmək və beynəlxalq-hüquqi vəzifələr yaratmaq, onları həyata keçirmək və icra etmək imkanıdır.

Bildiyimiz kimi, mülki hüququn subyekti olan fiziki şəxslərin heç də hamısı mülki fəaliyyət qabiliyyətli deyildir. Fiziki şəxslər arasında elələri vardır ki, həmin şəxslər mülki fəaliyyət qabiliyyətli olmur və ya məhdud mülki fəaliyyət qabiliyyətli olur. Məsələn, yeddi yaşına kimi azyaşlıların və yaxud əqli zəiflik və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən şəxslərin mülki fəaliyyət qabiliyyəti yoxdur; 18 yaşınadək «yetkinlik yaşına» çatmayanların mülki fəaliyyət qabiliyyəti natamamdır; spirtli içkilərdən və ya narkotik vasitələrdən sui-istifadə edən, habelə qumara qurşanan şəxslərin mülki fəaliyyət qabiliyyəti məhduddur.[1] Mülki hüquq elmi belə hesab edir ki, fiziki şəxslərin mülki fəaliyyət qabiliyyəti onların, birinci, yaşından, ikinci isə, sağlamlıq (ruhi-psixi) vəziyyətindən asılıdır.

Mülki fəaliyyət qabiliyyəti barədə deyilən sözləri beynəlxalq fəaliyyət qabiliyyəti haqqında söyləmək olmaz. Belə ki, **beynəlxalq publik hüququn bütün subyektləri fəaliyyət qabiliyyətlidir.** Dövlətlərarası münasibətlər sistemi elədir ki, burada fəaliyyət qabiliyyəti olmayan subyekt, sadəcə olaraq, mövcud ola bilməz. Bu səbəbdən beynəlxalq publik hüquqda

[1] *Daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild. Ümumi hissə. III nəşr. Dərslik. Bakı, 2018, s. 364-367.

«fəaliyyət qabiliyyəti olmayan subyekt» anlayışına rast gəlmək qeyri-mümkündür.[1]

Nəzərə almaq lazımdır ki, beynəlxalq fəaliyyət qabiliyyəti beynəlxalq publik hüquq subyektlərinin öz hərəkətləri ilə özləri üçün beynəlxalq subyektiv hüquqlar əldə etmək və beynəlxalq-hüquqi vəzifələr yaratmaq, onları (hüquq və vəzifələri) həyata keçirmək qabiliyyətidir. Belə hərəkətlər içərisində beynəlxalq müqavilə bağlamaq əsas və başlıca yer tutur. Qeyd etmək lazımdır ki, beynəlxalq müqavilə bağlamaq subyektlərin beynəlxalq subyektiv hüquqlar əldə etmələrinin, eləcə də özləri üçün beynəlxalq subyektiv-hüquqi vəzifələr yaratmalarının vacib vasitəsidir. Beynəlxalq müqavilələrdə təsbit olunan beynəlxalq publik hüquq normaları subyektlər üçün beynəlxalq subyektiv hüquqlar müəyyən edir, həmçinin beynəlxalq subyektiv-hüquqi vəzifələr yaradır. Məhz bu səbəbdən **beynəlxalq müqavilə bağlamaq qabiliyyəti** beynəlxalq fəaliyyət qabiliyyətinin vacib elementi sayılır. Həmin elementi, əslində, **beynəlxalq publik hüquq norması yaratmaq qabiliyyəti** adlandırmaq lazımdır. Belə ki, subyektlər üçün müvafiq beynəlxalq hüquq və vəzifələr, əsasən, beynəlxalq publik hüquq normaları vasitəsi ilə müəyyənləşdirilir. Beynəlxalq publik hüquq normaları isə beynəlxalq publik hüquq subyektlərinin **razılığa gəlmələri** ilə yaradılır. Razılığa gəlmə (razılaşma), əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq normaları yaratmağın yeganə üsuludur. Əgər razılıq ifadə olunma şəklində əldə edilərsə, belə razılaşma beynəlxalq müqavilə adlanır. Razılıq susmaq yolu ilə də əldə oluna bilər; belə razılaşmaya isə beynəlxalq adət deyilir. Subyektlər həm beynəlxalq-müqavilə, həm də beynəlxalq-adət hüquq normaları vasitəsi ilə beynəlxalq hüquqlar əldə edə, özləri üçün beynəlxalq-hüquqi vəzifələr yarada bilərlər. Buna görə də, beynəlxalq publik hüquq

[1] *Bu barədə bax:* Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.53; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.111; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.54.

subyektləri **beynəlxalq publik hüquq normaları müəyyənləşdirmək qabiliyyətinə** malik olmalıdırlar. Məhz belə qabiliyyət onların beynəlxalq fəaliyyət qabiliyyətinin **vacib elementi** sayılır. Əgər hər hansı qurum beynəlxalq publik hüquq normaları yaratmaq qabiliyyətinə malik deyilsə, o, beynəlxalq fəaliyyət qabiliyyətli sayılmır və bu səbəbdən beynəlxalq publik hüququn subyekti hesab olunmur. Təsadüfi deyil ki, beynəlxalq publik hüquq subyektlərini xarakterizə edən əsas əlamətlərdən (elementlərdən) biri onların beynəlxalq publik hüquq normalarında təsbit edilən və ya bu normalardan irəli gələn beynəlxalq hüquqlar əldə etmək və beynəlxalq vəzifələr daşımaq qabiliyyətinə malik olmalarıdır.[1] Əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq normaları yaratmaq funksiyasını yerinə yetirən və bu məqsədə xidmət edən hər hansı beynəlxalq qanunvericilik orqanı mövcud deyil; yalnız beynəlxalq publik hüquq subyektlərinin özləri beynəlxalq publik hüquq normaları yaradırlar.

Beynəlxalq publik hüquq subyektliyinin üçüncü elementi **beynəlxalq delikt qabiliyyəti** adlanır. Belə ki, hər hansı qurumun beynəlxalq publik hüquq subyektliyinə malik olması və beynəlxalq publik hüququn subyekti kimi tanınması üçün onun beynəlxalq delikt qabiliyyətli olması tələb edilir. Əgər bu və ya digər qurum beynəlxalq delikt qabiliyyətli olmazsa, onda onun beynəlxalq publik hüquq subyektliyi də yoxdur.[2]

Beynəlxalq delikt qabiliyyəti dedikdə beynəlxalq publik hüquq subyektinin hüquq pozuntusuna görə məsuliyyət daşımaq qabiliyyəti başa düşülür.

Beynəlxalq publik hüquq subyektlərinin üzərinə beynəlxalq publik hüquq normalarını pozmamaq, başqa sözlə, öz üzərlərinə götürdükləri beynəlxalq-hüquqi öhdəlikləri pozmamaq

[1] Бирюков П.Н.Международное право. Учебное пособие. М., 2006, с.103.

[2] Bəzi müəlliflər beynəlxalq delikt qabiliyyətinə beynəlxalq publik hüquq subyektliyinin elementlərindən biri kimi baxmırlar. *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.110; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.54.

vəzifəsi düşür. Əgər onlar öz üzərlərinə götürdükləri beynəlxalq-hüquqi öhdəlikləri pozarlarsa, beynəlxalq publik hüquq pozuntusuna yol vermiş olurlar. Yol verdikləri beynəlxalq publik hüquq pozuntusuna görə beynəlxalq publik hüquq subyektləri beynəlxalq məsuliyyət daşıyırlar. Beynəlxalq delikt qabiliyyəti də subyektlərin beynəlxalq publik hüquq pozuntusuna görə beynəlxalq məsuliyyət daşımaq qabiliyyətidir. Belə ki, beynəlxalq publik hüquq subyektliyi, eyni zamanda, beynəlxalq publik hüquq subyektlərinin beynəlxalq məsuliyyətə cəlb edilmələrinin mümkünlüyünü nəzərdə tutur.[1] Beynəlxalq delikt qabiliyyəti məhz subyektlərin beynəlxalq publik hüquq pozuntusuna görə beynəlxalq məsuliyyətə cəlb olunmaq imkanı deməkdir.

Beynəlxalq delikt qabiliyyəti nəzərdə tutur ki, beynəlxalq publik hüquq subyektləri hüquq pozuntusuna yol verildiyi hallarda bir-birinə pretenziya verə bilərlər; bu yolla onlar öz hüquqlarını müdafiə edirlər və təqsirkar məsuliyyətə cəlb olunur. Deməli, məsuliyyətə cəlb olunmaq qabiliyyəti (beynəlxalq delikt qabiliyyəti) hüquq pozuntularına yol verildiyi hallarda beynəlxalq publik hüquq subyektlərinin pretenziya vermək yolu ilə öz hüquqlarını müdafiə etmək qabiliyyəti deməkdir. Belə ki, 1972-ci ildə Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında Konvensiya qəbul edilmişdir; həmin Konvensiyanın 2-ci maddəsinə əsasən, dövlət öz kosmik obyektinin vurduğu zərərə görə kompensasiya ödəmək formasında məsuliyyət daşıyır. Məsələn, «Kosmos – 954» adlı Sovet peyki (4 kq uran yanacaqlı peyk) 24 yanvar 1978-ci ildə Kanadanın «Novolniçni gölü» rayonuna düşdü və yer səthini radioaktiv maddələrlə çirkləndirdi. Kanada dövlətinin verdiyi pretenziya əsasında keçmiş SSRİ vurulmuş zərərə görə böyük məbləğdə kompensasiya ödəmişdir.

Göstəriləndən başqa, elə digər vacib beynəlxalq müqavilələr imzalanmışdır ki, onlar beynəlxalq publik hüquq subyektləri üçün məsuliyyət nəzərdə tutur. Məsələn, 1952-ci ildə Xarici

[1] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.125.

hava gəmilərinin yer səthindəki üçüncü şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi haqqında Konvensiya qəbul olunmuşdur.[1]

Beynəlxalq publik hüquq subyektliyinin elementləri ilə tanış olduqdan sonra ona elmi anlayış verək:[2]

beynəlxalq publik hüquq subyektliyi dedikdə beynəlxalq publik hüquq subyektlərinin beynəlxalq subyektiv hüquqlara malik olmaq və beynəlxalq subyektiv-hüquqi vəzifələr daşımaq **(beynəlxalq publik hüquq qabiliyyəti)**, öz hərəkətləri ilə beynəlxalq subyektiv hüquqlar əldə etmək və həyata keçirmək, özləri üçün beynəlxalq subyektiv-hüquqi vəzifələr yaratmaq və icra etmək (**beynəlxalq fəaliyyət qabiliyyəti**), habelə törədilmiş hüquq pozuntusuna görə beynəlxalq publik hüquq məsuliyyəti daşımaq qabiliyyəti (**beynəlxalq delikt qabiliyyəti**) başa düşülür. Bununla bağlı müvafiq beynəlxalq publik hüquq normalarının məcmusu **beynəlxalq publik hüquq subyektliyi** institutunu yaradır.

Beynəlxalq publik hüquq subyektliyi nəzərdə tutur ki, beynəlxalq publik hüquq subyektləri müxtəlif dövlətlərarası (hakimiyyətlərarası) münasibətlərdə iştirak edə bilsin. Məhz onlar belə münasibətlərdə iştirak edəndə beynəlxalq subyektiv hüquqlar əldə edir, özləri üçün beynəlxalq subyektiv-hüquqi vəzifələr yaradır. Buna görə də, beynəlxalq hüquq subyektliyi həm də bu və ya digər qurumun dövlətlərarası münasibətlərdə iştirak etmək qabiliyyətidir. Beynəlxalq publik hüquq subyektlərinin **dairəsi** məhz bu qabiliyyətlə müəyyən olunur. Beynəlxalq publik hüququn bütün subyektləri dövlətlərarası münasibətlərdə eyni dərəcədə iştirak etmək qabiliyyətinə malikdirlər. Dövlətlərarası (hakimiyyətlərarası) münasibətlərə gəldikdə,

[1] URL:http://www.icao.int (19.05.2018-ci il).

[2] Yeri gəlmişkən, qeyd edək ki, bəzi müəlliflərin bu barədə verdiyi anlayışlarda beynəlxalq publik hüquq subyektliyinin üç elementi öz əksini tapmır. *Məsələn, bax:* Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.152; Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 77.

qeyd etməliyik ki, belə münasibətlər **beynəlxalq-hüquqi tənzimetmənin predmeti** hesab olunur. Həmin münasibətlər isə siyasət, iqtisadiyyat, ticarət, nəqliyyat, cinayətkarlıqla mübarizə, ekologiya, insan haqlarının qorunması, beynəlxalq kosmos, beynəlxalq dəniz və beynəlxalq hava məkanından istifadə, habelə digər sahələrdə yaranır. Beynəlxalq-hüquqi tənzimetmənin iştirakçıları beynəlxalq publik hüququn subyektləridir; onlara beynəlxalq publik hüquq subyektliyinə malik olan **aktor**[1] deyilir. Aktor dövlətlərarası (hakimiyyətlərarası) münasibətlərdə iştirak etmək qabiliyyətinə malik olan potensial şəxslərdir. Aktor, yəni beynəlxalq publik hüquq subyektləri müstəqil surətdə, başqa subyektlərdən asılı olmadan, kənardan hər hansı müdaxilə edilmədən müxtəlif beynəlxalq (dövlətlərarası) münasibətlərdə iştirak edə bilərlər.

Beynəlxalq publik hüquq subyektləri bir-birinə bilavasitə tabe olmur və onların arasındakı əlaqə subordinasiya münasibəti deyildir. Beynəlxalq publik hüquq subyektləri yalnız beynəlxalq publik hüquq qaydasına tabedirlər ki, bu, onların spesifik xüsusiyyətidir. Bu xüsusiyyəti ilə onlar dövlətdaxili (milli) hüquq subyektlərindən fərqlənir. Belə ki, mülki hüquqdan başqa, dövlətdaxili (milli) hüquq subyektləri (məsələn, maliyyə, konstitusiya, cinayət, mülki-prosessual, cinayət-prosessual və digər hüquq subyektləri) arasında subordinasiya (asılılıq-tabelilik) münasibəti mövcuddur. Məsələn, cinayət hadisəsi baş verdikdə cinayət törətmiş şəxslə dövlət arasında cinayət-hüquq münasibəti yaranır ki, bu münasibətin iştirakçıları (cinayət törətmiş şəxs və dövlət) cinayət hüququnun subyektləridir; onlar arasında subordinasiya münasibəti mövcuddur. Mülki hüquq subyektləri arasında isə subordinasiya münasibəti yaranmır. Məsələ burasındadır ki, mülki qanunvericilik mülki hüquq subyektlərinin bərabərliyi kimi vacib prinsipdən çıxış edir (MM, maddə 6, 1-ci bənd). Bu səbəbdən hətta dövlət ayrı-ayrı şəxslərlə mülki münasibətlərə (məsələn, alqı-satqı, borc və digər

[1] *Aktor (latınca –actor, ayctor, agere) anlayışı barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.27.

münasibətlərə) daxil olanda, o, öz hakimiyyət funksiyasından (səlahiyyətindən) istifadə etmir, həmin şəxslərlə hüquqca bərabərləşir.

Beynəlxalq publik hüquq subyektliyi **kəmiyyət deyil, keyfiyyət kateqoriyasıdır**. Ona görə ki, **birinci**, beynəlxalq publik hüquq subyektliyi dövlətlərarası münasibət iştirakçılarının beynəlxalq hüquq və vəzifələrinin sayından (kəmiyyətindən) asılı deyildir. Belə ki, bəzi iştirakçılar digərlərinə nisbətən daha çox beynəlxalq subyektiv hüquqlar əldə edə və özləri üçün beynəlxalq-hüquqi vəzifələr yarada bilər. Bu, heç də onların beynəlxalq publik hüquq subyektliyinə malik olmasına qətiyyən təsir göstərmir. **İkinci**, bir az əvvəldə göstərdiyimiz kimi, əgər qurumun beynəlxalq publik hüquq subyektliyi yoxdursa, o, beynəlxalq publik hüququn subyekti ola bilməz. Bu səbəbdən, deməli, beynəlxalq publik hüquq subyektliyi dövlətlərarası münasibət iştirakçılarının keyfiyyət xüsusiyyətidir.

Beynəlxalq publik hüquq subyektliyinin **iki əsas növü** vardır:

– universal beynəlxalq publik hüquq subyektliyi;

– məhdud beynəlxalq publik hüquq subyektliyi.

Universal beynəlxalq publik hüquq subyektliyi dedikdə elə qabiliyyət başa düşülür ki, bu qabiliyyət beynəlxalq publik hüquq subyektinə istənilən beynəlxalq hüquqa malik olmaq və beynəlxalq vəzifə daşımaq (özü üçün beynəlxalq-hüquqi vəzifə yaratmaq) imkanı verir. Buna görə də, universal beynəlxalq publik hüquq subyektliyinə malik olan qurum beynəlxalq publik hüquqla tənzimlənən bütün dövlətlərarası (hakimiyyətlərarası) münasibətlərdə iştirak edə bilər. Əgər qurum beynəlxalq publik hüquqla tənzimlənən istənilən növ dövlətlərarası münasibətin iştirakçısı ola bilərsə, deməli, o, universal beynəlxalq publik hüquq subyektliyinə malikdir. Universal beynəlxalq publik hüquq subyektliyinə malik olan quruma misal kimi suveren dövlətləri göstərmək olar. Yalnız suveren dövlətlər universal beynəlxalq publik hüquq subyektliyinə malik ola bi-

lər. Belə ki, dövlətlərə «**suverenlik**» kimi siyasi-hüquqi əlamət xasdır. Məhz suverenliyə görə onlar universal beynəlxalq publik hüquq subyektliyinə malikdirlər; çünki beynəlxalq publik hüquqla dövlətlərarası (hakimiyyətlərarası) münasibətlər tənzimlənir. Təbii ki, belə münasibətlərdə subyekt qismində, adətən, hakimiyyət funksiyasına malik olan dövlətlər iştirak edə bilərlər. Şübhəsiz, dövlətlərarası münasibətlərin bütün sahələrində (siyasi, iqtisadi, ekologiya, cinayətkarlıqla mübarizə, nəqliyyat, ticarət və s.) iştirak etmək üçün dövlətlər universal beynəlxalq publik hüquq subyektliyi ilə təmin olunmalıdır.

Ədəbiyyat səhifələrində universal beynəlxalq publik hüquq subyektliyinə həm də ya «**mütləq beynəlxalq publik hüquq subyektliyi**»[1], ya «**maksimum beynəlxalq publik hüquq subyektliyi**»[2], ya da «**ümumi beynəlxalq publik hüquq subyektliyi»**[3] deyilir. Hesab edirik ki, necə adlanması və hansı terminlə ifadə edilməsi universal beynəlxalq publik hüquq subyektliyinin mahiyyətini dəyişdirmir.

Məhdud beynəlxalq publik hüquq subyektliyi elə bir qabiliyyətdir ki, bu qabiliyyət beynəlxalq publik hüquq subyektliyinə yalnız müəyyən növ beynəlxalq subyektiv hüquq əldə etməyə və özü üçün beynəlxalq-hüquqi vəzifə yaratmağa imkan verir. Belə hüquq və vəzifələr ondan ötrü lazımdır ki, beynəlxalq publik hüquq subyekti öz təsis sənədində (nizamnaməsində) göstərilən məqsədə nail ola və öz funksiyasını yerinə yetirə bilsin. Başqa sözlə, müvafiq beynəlxalq subyektiv hüquqlar ona görə əldə olunur, vəzifələr isə yaradılır ki, subyekt öz nizamnamə məqsədinə çatsın, funksiyasını həyata keçirsin. Buna görə məhdud beynəlxalq publik hüquq subyektliyinə həm də «**funksional beynəlxalq publik hüquq subyektliyi**» və ya «**məqsədli beynəlxalq publik hüquq subyektliyi**», bəzən isə, **«sahəvi beynəlxalq publik hüquq subyektliyi»** deyilir. Məsə-

[1] Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.25.
[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.109.
[3] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.182.

lən, hökumətlərarası beynəlxalq təşkilatlar (BDT, BMAT və s.) məhdud beynəlxalq publik hüquq subyektliyinə malikdir. Ona görə ki, onların beynəlxalq publik hüquq subyektliyi müəyyən sahə ilə məhdudlaşır. Belə ki, hökumətlərarası beynəlxalq təşkilatlar subyekt rolunda dövlətlərarası münasibətlərin yalnız müəyyən sahəsində iştirak edə, hüquq və vəzifələrin daşıyıcılı ola bilərlər ki, həmin hüquq və vəzifələr onların nizamnamə funksiyasının həyata keçirilməsi ilə bağlı olmalıdır. Məsələn, UNESKO yalnız elm, təhsil və mədəniyyət məsələlərinin həlli ilə bağlı beynəlxalq hüquq və vəzifələrin daşıyıcısı ola bilər və sair.

7.2. Beynəlxalq publik hüquq subyektlərinin təsnifatı

7.2.1. Beynəlxalq publik hüquq subyektlərinin təsnifi anlayışı

Beynəlxalq publik hüquq subyektlərinin elmi cəhətdən əsaslandırılmış hüquqi təsnifinin verilməsi beynəlxalq publik hüquq doktrinasının vacib məsələlərindən biridir. Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində həmin məsələyə lazımi diqqət yetirilir, bütün dərsliklərdə və dərs vəsaitlərində subyektlərin hüquqi təsnifinə toxunulur, onun işıqlandırılmasına xüsusi əhəmiyyət verilir.[1]

Beynəlxalq publik hüquq subyektlərinin əsaslandırılmış təsnifinin, hər şeydən əvvəl, elmi-nəzəri əhəmiyyəti vardır. Belə ki, beynəlxalq publik hüquq subyektlərinə dair hüquqi təsnifin verilməsi onlar barədə elmi biliklərin artmasına və nəzəri fikirlərin genişlənməsinə səbəb olur.

Beynəlxalq publik hüquq subyektlərinin hüquqi təsnifinin həm də praktiki əhəmiyyəti vardır. Belə ki, həmin təsnifat vasitəsi ilə dövlətlərarası münasibətlərin bu və ya digər sahəsin-

[1] *Məsələn, bax:* Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.28-29; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.47-48 və s.

də beynəlxalq publik hüquq subyektinin hansı növünün iştirak etməsini müəyyənləşdirmək mümkündür; onun əsasında bəlli olur ki, beynəlxalq publik hüquq subyektinin bu və ya digər növü praktikada hansı beynəlxalq münasibətə daxil ola bilər.

Beynəlxalq publik hüquq subyektlərinin təsnifi dedikdə onların ayrı-ayrı meyarlara görə müxtəlif növlərə bölünməsi başa düşülür. Hüquq ədəbiyyatında cürbəcür təsnifat meyarları göstərilir. Həmin meyarlardan istifadə etməklə müəlliflər beynəlxalq publik hüquq subyektlərinin ayrı-ayrı növlərini müəyyənləşdirirlər.

7.2.2. Beynəlxalq publik hüquq subyektlərinin ayrı-ayrı növləri

Qeyd etmək lazımdır ki, beynəlxalq publik hüquq subyektləri bir-birindən asılı deyillər, daşıdıqları beynəlxalq subyektiv hüquqları və vəzifələri müstəqil surətdə, heç bir qurumdan asılı olmadan həyata keçirirlər. Beynəlxalq publik hüquq subyektləri həmçinin beynəlxalq münasibətlər sistemində bir-birinə münasibətdə müstəqil mövqeyə malik olub, sərbəst yer tuturlar. Ona görə ki, beynəlxalq publik hüquq subyektləri hüquqi cəhətdən bərabərdirlər, yəni hüquq bərabərliyinə malikdirlər. Axı, beynəlxalq publik hüquq subyektlərin «hüquq bərabərliyi» kimi vacib prinsipdən çıxış edir. Bu prinsipə görə, beynəlxalq publik hüquq subyektlərinə beynəlxalq subyektiv hüquqlara malik olmaqda və beynəlxalq-hüquqi vəzifələr daşımaqda eyni (bərabər) imkan verilmişdir. Lakin, beynəlxalq publik hüquq subyektlərinin hüquqca bərabər olmaları heç də onu ifadə etmir ki, onların beynəlxalq-hüquqi statusu eynidir.

Beynəlxalq-hüquqi status dedikdə beynəlxalq publik hüquq subyektlərinin malik olduqları beynəlxalq subyektiv hüquqların və beynəlxalq subyektiv-hüquqi vəzifələrin məcmusu başa düşülür. O, iki əsas **elementdən** ibarətdir:

– beynəlxalq subyektiv hüquq;

– beynəlxalq subyektiv-hüquqi vəzifə.

Təbii ki, beynəlxalq publik hüquq subyektlərinin konkret hüquq və vəzifələrinin həcmi eyni (bərabər) ola bilməz. Belə ki, onların bəziləri daha çox hüquq və vəzifələrin daşıyıcısı olur və s. Buna görə də, beynəlxalq publik hüquq subyektlərinin beynəlxalq-hüquqi statusu eyni deyildir. Bu baxımdan, yəni **özlərinin beynəlxalq-hüquqi statusundan asılı olaraq,** beynəlxalq publik hüquq subyektləri **iki növə** bölünür:

– suveren subyektlər;

– qeyri-suveren subyektlər.

Beynəlxalq publik hüququn suveren subyektləri odur ki, onlara «suverenlik» kimi siyasi-hüquqi xüsusiyyət xasdır və bu səbəbdən suveren subyektlər universal (maksimum) beynəlxalq hüquq subyektliyinə malik olur. Belə ki, onlar qadağan edilməyən istənilən beynəlxalq subyektiv hüquq və vəzifələrin daşıyıcısı ola bilərlər. Suveren subyektlərin beynəlxalq publik hüquq qabiliyyətinin həcmi kifayət dərəcədə geniş və böyük olub, hər hansı şəxsin iradəsindən asılı deyildir. Başqa sözlə, suveren subyektlərin hüquq və vəzifələrinin həcmi, eləcə də həddi bu və ya digər şəxs tərəfindən müəyyən edilmir. Buna görə də, onların beynəlxalq publik hüquq subyektliyi hər hansı şəxsin iradəsindən asılı deyildir.

Beynəlxalq publik hüququn suveren subyektləri dedikdə, hər şeydən əvvəl, dövlət başa düşülür. İkinci, beynəlxalq publik hüququn suveren subyektlərinə həm də öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) aiddir. Suverenlik kimi siyasi-hüquqi keyfiyyət dövləti, habelə öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqları (millətləri) beynəlxalq publik hüquq subyektliyi ilə təmin edir.[1] Belə ki, dövlətə – xüsusi siyasi hakimiyyət təşkilatına **dövlət suverenliyi**, öz

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 102.

müstəqilliyi uğrunda mübarizə aparan millətlərə **milli suverenlik**,[1] xalqlara isə **xalq suverenliyi** kimi keyfiyyət xasdır.

Dövlət suverenliyi dedikdə dövlətin öz ərazisində ali hakimiyyətə malik olması, habelə beynəlxalq münasibətlər sistemində onun müstəqil olması başa düşülür. **Milli suverenlik** mübarizə aparan millətin öz statusunu müəyyənləşdirmək və inkişaf yolunu seçmək məsələsində müstəqil olmasını ifadə edir. **Xalq suverenliyi** də bunu ifadə edir ki, xalq öz statusunu müəyyən etməkdə və inkişaf yolunu seçməkdə müstəqildir. Deməli, beynəlxalq publik hüququn suveren subyektləri müvafiq olaraq, ya dövlət suverenliyinə, ya milli suverenliyə, ya da xalq suverenliyinə malikdir.

Beynəlxalq publik hüququn qeyri-suveren subyektləri odur ki, həmin subyektlər suverenlik kimi siyasi-hüquqi keyfiyyətdən məhrumdur və bu səbəbdən onlar məhdud beynəlxalq publik hüquq subyektliyinə malikdirlər. Qeyri-suveren subyektlər müvafiq beynəlxalq publik hüquq normaları əsasında məhdud beynəlxalq publik hüquq subyektliyi ilə təmin olunurlar ki, həmin normalar onların təsis sənədlərində (məsələn, nizamnamədə və s.) ifadə olunur.

Beynəlxalq publik hüququn qeyri-suveren subyektlərinin malik olduqları beynəlxalq publik hüquq subyektliyinin həcmi, həddi və məzmunu suveren subyektlər (dövlətlər) tərəfindən müəyyən edilir. Buna görə də, onların beynəlxalq hüquq və vəzifələrinin həcmi məhduddur.

Qeyri-suveren subyektlərə aşağıdakılar aiddir:

- hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlar (məsələn, BMT, MDB və s.);
- dövlətəoxşar qurumlar (məsələn, Vatikan).

Beynəlxalq publik hüququn subyekti olması mənbəyindən asılı olaraq, onların iki növü fərqləndirilir:

---

[1] *Daha ətraflı:* Тузмухамедов Р.А.Национальный суверенитет. М., 1963, с.59.

– ilkin subyektlər;

– qeyri-ilkin subyektlər.

Beynəlxalq publik hüququn ilkin subyektləri odur ki, onlar «ipso facto» əsasında, yəni mövcudolma faktının özünə görə beynəlxalq publik hüququn subyekti olurlar. Belə ki, ilkin subyektlərin mövcudolma faktının özü onları beynəlxalq publik hüququn subyekti edir. Başqa sözlə, təkcə mövcudolma faktının özü onların beynəlxalq publik hüququn subyekti kimi tanınması üçün kifayətdir; belə subyektlərə, bəzən, **birinci subyektlər** də deyilir.

Beynəlxalq publik hüququn ilkin subyektlərinə suveren subyektlər, yəni dövlətlər, həmçinin öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) aiddir. Dövlətlərin mövcudolma faktı əsasında müəyyən edilir ki, onlar beynəlxalq publik hüquq subyektliyinə malikdirlər. Öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlara (millətlərə) gəldikdə isə, qeyd etməliyik ki, onlara yaratdıqları bu və ya digər siyasi-milli təşkilat rəhbərlik edir (məsələn, Fələstin ərəb xalqına Fələstin Azadlıq Təşkilatı[1] kimi qurum başçılıq edir). Bu kimi təşkilatlar hakimiyyət səlahiyyətlərinə malik olub, beynəlxalq aləmdə mübarizə aparan xalqları (millətləri) təmsil edir. Məhz belə təşkilatların mövcudolma faktı onların beynəlxalq publik hüququn subyekti kimi tanınması və beynəlxalq publik hüquq subyektliyinə malik olması üçün kifayətdir; onların (siyasi-milli təşkilatların) yaranma faktı ilə öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) beynəlxalq publik hüquq subyektliyi əldə edirlər. Dövlətlərin də yaranma faktı həmçinin onları beynəlxalq publik hüquq subyektliyi ilə təmin edir. Beynəlxalq publik hüquq subyektliyi əldə etmək üçün hər hansı beynəlxalq publik hüquq normasının qəbul edilməsi tələb olunmur. Buna görə də, beynəlxalq publik hüququn ilkin sub-

[1] Məlumat üçün qeyd edək ki, Fələstin Muxtariyyəti 2012-ci ilin noyabrında artıq BMT-də «üzv olmayan müşahidəçi-dövlət» statusu almışdır (URL: http: //www.azerbaijan-news.az – 15.01.2013-cü il).

yektləri hüquqi deyil, faktiki beynəlxalq publik hüquq subyektliyinə malikdirlər. Belə ki, beynəlxalq publik hüquq subyektliyi iki cür olur:

– faktiki beynəlxalq publik hüquq subyektliyi;

– hüquqi beynəlxalq publik hüquq subyektliyi.

İlkin subyektlər **faktiki beynəlxalq publik hüquq subyektliyi** ilə xarakterizə olunur. Belə ki, yaranma və mövcudolma faktı onların beynəlxalq publik hüquq subyektliyi əldə etmələri üçün əsasdır. Bu səbəbdən ilkin subyektlərin beynəlxalq publik hüquq subyektliyi, habelə onun həddi və məzmunu hər hansı şəxsin iradəsindən asılı deyildir.

Beynəlxalq publik hüququn ilkin subyektlərini heç kəs özbaşına olaraq və süni surətdə yaratmır; onların yaranması tarixən ictimai-iqtisadi inkişafın obyektiv reallığıdır, təbii-tarixi prosesin nəticəsidir. Buna görə də, öz təbiətinə görə, mahiyyətcə, ilkin subyektlərin beynəlxalq publik hüquq subyektliyi obyektiv xarakter daşıyır.

Yaranma və mövcudolma faktı ilkin subyektləri həm də suverenlik kimi vacib siyasi-hüquqi keyfiyyətlə təmin edir. Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, dövlət siyasi hakimiyyət təşkilatı kimi dövlət suverenliyinə, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millətlər milli suverenliyə, xalqlar isə xalq suverenliyinə malikdir.

Beynəlxalq publik hüququn qeyri-ilkin subyektləri dedikdə beynəlxalq publik hüququn ilkin subyektləri tərəfindən təsis edilən subyektlər başa düşülür və onlar, bir qayda olaraq, dövlətlərin iradəsi ilə yaradılır. Qeyri-ilkin subyektlər onları yaradan dövlətlərə münasibətdə ikincidir.[1] Odur ki, onları həm də beynəlxalq publik hüququn **ikinci subyektləri** adlandırırlar. Beynəlxalq publik hüququn qeyri-ilkin subyektlərinə aiddir: **hökumətlərarası/dövlətlərarası beynəlxalq təşkilatlar** (məsələn, BMT, MDB, NATO – ŞAMT, UNESKO, İKAO – BMAT

[1] Международное право. Учебное пособие / Ю.В.Трунцевский и др. М., 2010, с.48.

və s.), **dövlətəoxşar qurumlar** (məsələn, Vatikan, əvvəllər azad şəhər adlanan Venesiya, Hamburq, Dansinq və başqaları – onlar azad şəhər tipli dövlətəoxşar qurumlardır).

Beynəlxalq publik hüququn qeyri-ilkin subyektləri. ilk növbədə, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlar faktiki deyil, **de-yure beynəlxalq publik hüquq subyektliyinə** malikdirlər. Belə ki, hüquqi beynəlxalq publik hüquq subyektliyi yaranma və mövcudolma faktı əsasında deyil, beynəlxalq publik hüquq normaları vasitəsi ilə əldə edilir. Belə normalar isə hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların təsis sənədində (nizamnaməsində) müəyyən edilir ki, həmin sənəd öz hüquqi təbiətinə görə xüsusi xarakterli beynəlxalq müqavilədir. Deməli, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlar beynəlxalq müqavilə sayılan öz təsis sənədi əsasında beynəlxalq hüquq subyektliyi əldə edir ki, bu sənəddə həmin təşkilatı təsis edən dövlətlərin iradəsi ifadə olunur. Buna görə də, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların beynəlxalq publik hüquq subyektliyi onları yaradan dövlətlərin iradəsindən asılıdır; dövlətlərin iradəsindən həm də onların beynəlxalq publik hüquq subyektliyinin həddi, həcmi və məzmunu asılıdır. Belə ki, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların beynəlxalq publik hüquq subyektliyinin həcmi, həddi və məzmunu onları yaradan dövlətlər tərəfindən müəyyən olunur.

Beynəlxalq publik hüququn qeyri-ilkin subyektləri istənilən beynəlxalq hüquq və vəzifələrin daşıyıcısı ola bilməzlər və onların, təbii ki, bütün növ dövlətlərarası münasibətlərin iştirakçısı olmaları da mümkün deyildir. Bu baxımdan, beynəlxalq publik hüququn qeyri-ilkin subyektlərinin beynəlxalq publik hüquq subyektliyi məhduddur, yəni onlar **məhdud hüquq subyektliyinə** malikdirlər. Belə ki, qeyri-ilkin subyektlərin beynəlxalq publik hüquq subyektliyi onların təsis sənədi (nizamnaməsi) ilə məhdudlaşır. Təsis sənədi, qeyd etməliyik ki, qeyri-ilkin subyektlərin beynəlxalq hüquq və vəzifələrinin həcmini müəyyənləşdirir.

Qeyri-ilkin subyektlərin beynəlxalq publik hüquq subyektliyi həm də onların nizamnamə məqsədləri ilə məhdudlaşır. Belə ki, qeyri-ilkin subyektlər yalnız öz təsis sənədində (nizamnaməsində) göstərilən məqsədlərə çatmağa xidmət edən beynəlxalq hüquq və vəzifələr daşıya bilər. Buna görə də, onlar **məqsədli beynəlxalq publik hüquq subyektliyinə** malikdir.

Qeyri-ilkin subyektlər, digər tərəfdən, **funksional beynəlxalq publik hüquq subyektliyinə** malikdir.[1] Belə ki, hər bir qeyri-ilkin subyektin özünün yerinə yetirdiyi funksiyası vardır və o, yalnız öz funksiyasına uyğun gələn beynəlxalq hüquq və vəzifələr daşıya bilər. Deməli, qeyri-ilkin subyektlərin beynəlxalq publik hüquq subyektliyi onların təsis sənədi, məqsədi və funksiyası ilə məhdudlaşır.

Beynəlxalq aləmdə oynadığı rol baxımından, beynəlxalq publik hüququn iki növ subyekti mövcuddur. Həmin növlər isə bunlardan ibarətdir:

– əsas subyekt;

– əlavə subyekt.

Beynəlxalq publik hüququn əsas subyekti dedikdə dövlətlər başa düşülür. Məlum olduğu kimi, keçmiş zamanlarda beynəlxalq publik hüquq yalnız dövlətlər tərəfindən yaradılmışdır; XX əsrin ortalarına kimi klassik beynəlxalq publik hüququn yeganə subyekti də dövlətlər sayılırdı. Düzdür, indi dövlətlərdən başqa, müasir beynəlxalq publik hüququn digər subyektləri də mövcuddur. Buna baxmayaraq, hal-hazırda beynəlxalq publik hüquq normaları yaratma prosesində, əvvəlki vaxtlarda olduğu kimi, dövlətlər həlledici rol oynayır. Dövlətlərin rolu beynəlxalq münasibətlərdə də son dərəcə böyükdür; onlar universal beynəlxalq publik hüquq subyektliyinə malikdirlər. Buna görə də, dövlətlər beynəlxalq publik hüququn əsas subyekti kimi tanınır.

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.73.

Beynəlxalq publik hüququn əlavə subyekti dedikdə hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlar başa düşülür. Onlar keçən yüzilliyin ortalarında, II Dünya Müharibəsindən sonra beynəlxalq birliyin və beynəlxalq-hüquqi qaydaların strukturunun daha da mürəkkəbləşdiyi dövrdə yaranmış və dünyada vacib rol oynamağa başlamışdır. Lakin hökumətlərarası beynəlxalq təşkilatlar öz fəaliyyətini effektli şəkildə «beynəlxalq publik hüquq subyektliyi» kimi vacib siyasi-hüquqi keyfiyyətlə təmin olunmadan həyata keçirə bilməzdilər. Qeyd etməliyik ki, 1949-cu ildə BMT-nin Beynəlxalq Məhkəməsi yaradıldı. O, müəyyən etdi ki, öz nizamnaməsinə və səlahiyyətlərinin xarakterinə görə BMT kimi beynəlxalq təşkilat müəyyən dərəcədə beynəlxalq publik hüquq subyektliyinə malikdir. Məhz bundan sonra beynəlxalq təşkilatların beynəlxalq publik hüquq subyektliyi tanınmağa başladı və buna görə də, onlar beynəlxalq publik hüququn subyektləri sırasına əlavə olundu. Bunun da nəticəsində beynəlxalq publik hüququn subyekt dairəsi genişləndi.

Hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatlara beynəlxalq publik hüquq subyektliyi onları yaradan dövlətlər tərəfindən verilir. Başqa sözlə, belə beynəlxalq təşkilatların beynəlxalq publik hüquq subyektliyi onları yaradan dövlətlərin beynəlxalq publik hüquq subyektliyindən törəyir. Buna görə də, onlar **törəmə beynəlxalq publik hüquq subyektliyinə** malikdir,[1] həm də **beynəlxalq publik hüququn törəmə subyekti** sayılır.

Bəzi müəlliflər beynəlxalq publik hüququn törəmə subyekti anlayışına hökumətlərarası beynəlxalq təşkilatlardan başqa, aşağıdakıları da aid edirlər:[2]

– transmilli korporasiyalar (çoxmilli korporasiyalar);

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.73; Международное право. Учебник/ Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.127.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.110.

– qeyri-hökumət beynəlxalq təşkilatları;

– fərdlər (fiziki şəxslər).

Göstərilənlərin hakimiyyət səlahiyyətləri yoxdur və bu səbəbdən də, onlar hakimiyyət subyekti sayılmırlar. Beynəlxalq publik hüquqa obyektiv mənada verdiyimiz anlayışdan da göründüyü kimi, o, yalnız hakimiyyətlərarası (dövlətlərarası) münasibətləri tənzimləyir. Ona görə də, yalnız belə münasibətlərin iştirakçısı ola bilən subyektlər beynəlxalq publik hüququn subyekti kimi tanına bilər. Nə transmilli korporasiyaların, nə qeyri-hökumət beynəlxalq təşkilatların, nə də fərdlərin (fiziki şəxslərin) iştirakı ilə hakimiyyətlərarası (dövlətlərarası) münasibət yaranır; onlar yalnız beynəlxalq xüsusi hüququn subyekti qismində çıxış edə bilərlər. Buna görə də, zənnimizcə, onların beynəlxalq publik hüququn subyekti kimi sayılması üçün elə bir tutarlı elmi zəmin mövcud deyil və bu barədə bəzi müəlliflərin mövqeyi ilə razılaşmaq mümkünsüzdür.[1]

Beynəlxalq publik hüququn əsas subyektlərinə **universal subyektlər** də deyilir. Ona görə ki, onlar universal beynəlxalq publik hüquq subyektliyinə malikdir. Beynəlxalq publik hüququn törəmə subyektlərinə gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq münasibətlər sistemində vacib rol oynasalar da, onlar beynəlxalq publik hüququn əsas və universal subyekti sayılmır. Ona görə ki, məhdud beynəlxalq publik hüquq subyektliyinə malik olan **törəmə subyektlər**, adından da göründüyü kimi, beynəlxalq publik hüququn əsas subyektlərindən törəmiş, onların iradəsi ilə yaranmışdır. Digər tərəfdən, onların beynəlxalq publik hüquq norması yaratma prosesində də rolu məhduddur.

Mövcudolma müddətindən asılı olaraq, beynəlxalq publik hüququn subyektləri iki növə bölünür:

---

[1] *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.197-205; Международное право. Учебник /Под ред. Л.Н.Шестакова. М., 2005, с.16; Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.124 və b.

– daimi subyektlər;

– müvəqqəti subyektlər.

Beynəlxalq publik hüququn daimi subyektləri dedikdə həmişəlik mövcud olan subyektlər başa düşülür; onların mövcud olması vaxt müddəti ilə məhdudlaşmır. Məsələn, dövlətlər beynəlxalq publik hüququn daimi subyekti sayılır. Ona görə ki, beynəlxalq publik hüququn əsas və başlıca funksiyası, əvvəllərdə qeyd etdiyimiz kimi, dövlətlərarası münasibətləri tənzimləməkdən ibarətdir. Təbii ki, əgər dövlətlər mövcud olmazsa, onda beynəlxalq publik hüquq da yaranmazdı.

Bununla yanaşı, elə dövlətlər vardır ki, onlar müəyyən müddət ərzində mövcud olmuşlar (məsələn, keçmiş SSRİ). Lakin bu kimi epizodik hallar heç də dövlətlərin beynəlxalq publik hüququn daimi subyekti kimi tanınmasına təsir göstərmir.

Beynəlxalq publik hüququn müvəqqəti subyektləri dedikdə müəyyən müddət ərzində mövcud olan subyektlər başa düşülür; müəyyən müddətdən sonra belə subyektlərin mövcudluğuna son qoyulur və onların fəaliyyətinə xitam verilir. Məsələn, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) beynəlxalq publik hüququn müvəqqəti subyekti hesab olunur. Belə ki, öz milli dövlətini yaratdıqdan sonra hər hansı millət və xalq bir daha beynəlxalq publik hüququn subyekti kimi tanınmır; beynəlxalq publik hüququn subyekti kimi onların yaratdıqları milli dövlət tanınır.

Beynəlxalq publik hüququn bəzi subyektləri müəyyən məqsədə çatmaq üçün yaradılır və qarşıya qoyulan məqsədə nail olunduqdan sonra onların mövcudluğuna son qoyulur. Buna görə də, belə subyektlər beynəlxalq publik hüququn müvəqqəti subyekti sayılır. Qeyd etməliyik ki, XX əsrdə azad şəhər tipli bir sıra dövlətəoxşar qurumun (məsələn, Dansinq, Qərbi Berlin və s.), habelə bəzi hökumətlərarası beynəlxalq təşkilatların (məsələn, Qarşılıqlı İqtisadi Yardım Şurası, Varşava Müqavilə Təşkilatı və s.) mövcudluğuna son qoyulmuşdur. Deməli, onlar

vaxtilə beynəlxalq publik hüququn müvəqqəti subyekti sayılırdı.

Bəzi müəlliflər **beynəlxalq publik hüquq norması yaratmasından** asılı olaraq, beynəlxalq publik hüquq subyektlərinin iki növünü fərqləndirirlər:[1]

– hüquqyaradıcı subyektlər;

– hüquqtətbiqetmə subyektləri.

Əgər subyekt beynəlxalq publik hüquq norması yaratmaq qabiliyyətinə malik olarsa, ona **beynəlxalq publik hüququn hüquqyaradıcı subyekti** deyilir. Həmin müəlliflər onlara dövlətləri, hökumətlərarası beynəlxalq təşkilatları, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqları (millətləri) və dövlətəoxşar qurumları aid edirlər.

Onların fikrincə, əgər subyektin beynəlxalq publik hüquq norması yaratmaq qabiliyyəti olmazsa, belə subyekt **beynəlxalq publik hüququn hüquqtətbiqetmə subyekti** sayılır. Həmin müəlliflər beynəlxalq publik hüququn hüquqtətbiqetmə subyektlərinə aşağıdakıları aid edirlər:

– fiziki şəxslər (fərdlər);

– təsərrüfat subyektləri və başqa hüquqi şəxslər;

– beynəlxalq təsərrüfat birlikləri;

– qeyri-hökumət təşkilatları;

– qeyri-hökumət beynəlxalq təşkilatlar.

Biz yuxarıda sadalananları beynəlxalq publik hüququn subyekti kimi tanımırıq; bu məsələ barədə inandırıcı və həqiqətə uyğun olan kifayət qədər tutarlı arqumentləri əvvəllər göstərmişik. Buna görə də, zənnimizcə, beynəlxalq publik hüquq subyektlərinin hüquqyaradıcı və hüquqtətbiqetmə subyektlərinə

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.74; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.74 və b.

bölünməsi beynəlxalq-hüquqi təsnif baxımından, hər hansı hüquqi əhəmiyyət kəsb etmir.

Qeyd etdiyimiz təsnifat meyarlarından başqa beynəlxalq publik hüququn subyektlərinin həm də digər əlamətlərə görə təsnifini vermək olar. Məsələn, **sahəvi əlamətə** görə, yəni beynəlxalq publik hüququn ibarət olduğu müstəqil sahələrdən asılı olaraq, beynəlxalq publik hüquq subyektləri aşağıdakı növlərə bölünür:

- xarici publik əlaqələr hüququ (diplomatiya və konsulluq hüququ) subyektləri;
- beynəlxalq publik humanitar hüquq subyektləri;
- beynəlxalq publik ekologiya hüququ subyektləri;
- beynəlxalq publik iqtisadi hüquq subyektləri;
- beynəlxalq publik kosmos hüququ subyektləri və s.

7.3. Dövlətlər – beynəlxalq publik hüququn əsas subyekti kimi

7.3.1. Dövlətlər beynəlxalq publik hüququn əsas və universal subyekti qismində

Beynəlxalq hüquq ədəbiyyatı səhifələrində birmənalı şəkildə və düzgün olaraq göstərilir ki, dövlət beynəlxalq publik hüququn **əsas və başlıca subyektidir**.[1] Bu, aydın məsələdir. Belə ki, qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq dövlətlərarası

[1] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s. 47; Beynəlxalq hüquq. Azərbaycan dilində / Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002, s.94; Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.30; Международное право. Учебное пособие / Авторы: Ю.В.Трунцевский и др. М., 2010, с.47; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.26; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с. 65; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 103; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 119 və b.

münasibətləri tənzimləyir. Dövlətlərarası münasibətlərdə isə subyekt qismində, əsasən, dövlətlər iştirak edir. Dövlətlər həm də ona görə əsas və başlıca subyekt sayılır ki, beynəlxalq publik hüququn digər subyektləri, adətən, onlarla qarşılıqlı münasibətlərdə olurlar. Nəzərə almalıyıq ki, beynəlxalq publik hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq (dövlətlərarası) münasibətlər ya dövlətlərin özləri, ya da dövlətlərlə beynəlxalq publik hüququn digər subyektləri (dövlətlərarası beynəlxalq təşkilatlar, dövlətəoxşar qurumlar və s.) arasında yaranır; həm də, bunu unutmaq olmaz ki, beynəlxalq publik hüquq dövlətlərarası hüquqdur. Məlum məsələdir ki, dövlətlərarası hüququn da ən vacib və mühüm subyekti yalnız dövlətlər ola bilər. Məhz bu səbəbdən dövlətlər beynəlxalq publik hüququn subyektləri arasında birinci yer tutaraq, əsas və başlıca subyekt kimi status əldə edir. Təsadüfi deyildir ki, BMT sənədlərində dövlətlər beynəlxalq publik hüququn əsas və başlıca subyekti kimi xarakterizə olunur.[1]

Dövlətlər, qeyd etdiyimiz kimi, beynəlxalq publik hüququn **universal subyektidir**. Bunun, yəni dövlətlərin beynəlxalq publik hüququn universal subyekti kimi tanınmasının **iki əsas səbəbi** vardır. **Birinci səbəb** ondan ibarətdir ki, dövlətlər, məlum olduğu kimi, dövlət suverenliyinə malikdirlər.

Dövlət suverenliyi dedikdə dövlətin öz ərazisində ali hakimiyyətə malik olması, ölkənin bütün daxili və xarici işlərini (məsələləri) müstəqil surətdə, kənardan hər hansı müdaxilə olmadan həll etməsi, beynəlxalq münasibətlərdə (beynəlxalq işlərdə) heç bir subyektdən asılı olmaması başa düşülür. Dövlət suverenliyi beynəlxalq publik hüququn əsas anlayışlarından biri kimi özündə müvafiq beynəlxalq publik hüquq normalarını birləşdirir ki, onların məcmusu beynəlxalq publik hüquq subyektliyi institutunun tərkibində **dövlət suverenliyi yarımins-titutu** adlanır.

[1] Дипломатический вестник. 1992, № 13-14, с.47.

Dövlət suverenliyi istənilən dövlətin ayrılmaz xüsusiyyətidir. Bütün dövlətlər idarəetmə (prezidentli və ya parlamentli respublika), siyasi-ərazi quruluş (unitar və ya federativ dövlət), habelə siyasi rejim formasından (demokratik və ya antidemokratik) asılı olmayaraq, bu xüsusiyyətə, yəni dövlət suverenliyi kimi siyasi-hüquqi keyfiyyətə malikdir. Belə keyfiyyətlə dövlətlər nə dünya birliyi tərəfindən, nə də beynəlxalq publik hüquq norması əsasında təmin olunur; heç kəs dövlətə suverenlik verə bilməz. Qeyd etməliyik ki, dövlət yarandığı vaxtdan dövlət suverenliyinə malik olur. Başqa sözlə, dövlətin özünün əmələ gəlməsi ilə birlikdə suverenlik də yaranır, yəni suverenlik dövlət yarandığı andan ona xas olan xüsusiyyətdir[1]. Dövlətin mövcudluğuna son qoyulduğu andaca onun malik olduğu suverenlik də, həmişəlik olaraq, itirilir.

Dövlət suverenliyinin iki aspekti vardır: daxili aspekt, beynəlxalq aspekt. **Dövlət suverenliyinin daxili aspekti** dövlətin öz ərazisində ali hakimiyyətə malik olmasını, dövlət hakimiyyətinin ölkə daxilində və ölkədən kənarda siyasi müstəqilliyini, daxili və xarici məsələləri dövlətin heç kəsdən asılı olmadan həll etməsini ifadə edir. Dövlət öz ərazisi daxilində hər hansı xarici hakimiyyətdən asılı deyildir Belə ki, dövlət hakimiyyəti və onun hüquqi aktları ölkə daxilində bütün şəxslərə, o cümlədən xarici şəxslərə də şamil edilir. Dövlət öz daxili və xarici siyasətini müstəqil surətdə, hər hansı hakimiyyətdən asılı olmadan, müdaxiləsiz həyata keçirir.

Dövlət suverenliyinin beynəlxalq aspekti dövlətin beynəlxalq münasibətlərdə müstəqil olmasını, heç kəsdən asılı olmadan beynəlxalq işləri həll etməsini və beynəlxalq sahədə hər hansı subyektə tabe olmamasını ifadə edir. Beynəlxalq münasibətlərdə suverenlik öz ifadəsini bunda tapır ki, dövlətlər həmin münasibətlərdə subyekt qismində müstəqil surətdə iştirak edə bilərlər və bu zaman onlar bir-birinə münasibətdə hüquq bərabərliyinə malik olurlar. Suverenliyə görə, bütün dövlətlər siya-

[1] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.127.

si, iqtisadi, hərbi və s. gücündən, əhalisinin sayından, ərazisinin miqyasından asılı olmayaraq, hüquqi cəhətdən bərabərdirlər. Dövlətlər məhz suverenliyin sayəsində beynəlxalq münasibətlərdə müstəqil olub, beynəlxalq publik hüququn digər subyektlərindən asılı olmur. Belə ki, suverenliyə malik olmağın özü dövlətləri öz aralarında hüquqi cəhətdən bərabərləşdirir, dünya birliyi çərçivəsində onların müstəqilliyini və asılı olmamasını təmin edir.

Suverenlik imkan verir ki, dövlətlər qadağan edilməyən bütün beynəlxalq subyektiv hüquqlara malik olmaqla beynəlxalq-hüquqi vəzifələr daşısın, öz hərəkətləri ilə istənilən beynəlxalq subyektiv hüquq əldə etsin və əldə olunmuş hüququ həyata keçirsin, özləri üçün beynəlxalq subyektiv-hüquqi vəzifələr yaratsın və həmin vəzifələri icra etsin, habelə etdiyi hərəkətlərə görə beynəlxalq-hüquqi məsuliyyət daşısın. Bu isə o deməkdir ki, dövlətlər suverenlik əsasında universal beynəlxalq publik hüquq subyektliyi əldə etmişlər; onlar beynəlxalq publik hüquq subyektliyinin bütün elementlərinə, yəni beynəlxalq hüquq, fəaliyyət və delikt qabiliyyətlərinin hamısına malikdirlər. Dövlətlərin, xüsusən də, beynəlxalq publik hüquq qabiliyyəti onların beynəlxalq fəaliyyət qabiliyyətindən ayrılmazdır. Amma, bəzən, elə vəziyyət yaranır ki, bu vəziyyətdə müəyyən dövlət beynəlxalq publik hüquq qabiliyyətli sayılsa da, tam və ya qismən beynəlxalq fəaliyyətli olmur. Məsələn, keçən yüzilliyin 90-cı illərində İraq tərəfindən işğal olunan Küveyt öz beynəlxalq publik hüquq qabiliyyətini saxlasa da, beynəlxalq fəaliyyət qabiliyyətindən tam məhrum olmuşdu. Başqa bir misalda, II Dünya Müharibəsi dövründə «Hitler Almaniyası» tərəfindən işğal olunan və beynəlxalq publik hüquq qabiliyyətli sayılan dövlətlər isə beynəlxalq fəaliyyət qabiliyyətini qismən itirmişdi; belə ki, mühacirətdə olan hökumət məhdud səviyyədə olsa da, həmin dövlətlərin beynəlxalq fəaliyyət qabiliyyətini həyata keçirmişdi.

Malik olduğu suverenliyə görə bütün dövlətlər beynəlxalq publik hüquqa zidd olmayan və beynəlxalq publik hüquq tərə-

findən qadağan edilməyən istənilən beynəlxalq publik hüquq münasibətinə daxil ola bilər; onlar beynəlxalq publik hüquq münasibətlərində iştirak etmələri ilə bağlı bütün hüquqlara malik olur və onları həyata keçirirlər. Suverenlik həm də onlara, praktiki olaraq, universal xarakterli bütün beynəlxalq (dövlətlərarası) təşkilatlarda və beynəlxalq müqavilələrdə iştirak etmək imkanı verir. Dövlətlər həmçinin beynəlxalq-hüquqi qaydaların yaradılmasında və qorunub saxlanılmasında, beynəlxalq publik hüquq normalarının qəbul edilməsində geniş səviyyədə iştirak edirlər ki, bu, yalnız onların malik olduqları suverenliyin sayəsində mümkün olur.

Dövlətlərin malik olduqları suverenliyi heç kəs məhdudlaşdıra bilməz. Bununla yanaşı, bəzən, dövlətin öz razılığı ilə onun suverenliyi məhdudlaşır. Təsadüfü deyil ki, bəzi müəlliflər düzgün olaraq, beynəlxalq publik hüquq doktrinasında **«məhdudlaşdırılmış suverenlik»** konsepsiyasını irəli sürürlər. Məsələn, «Avropa İttifaqı» kimi inteqrasiya birliyində və beynəlxalq (dövlətlərarası) təşkilatlarda (məsələn, Avropa Şurasında) iştirak edən bir sıra dövlətin suverenliyi qismən məhdudlaşmışdır. Belə ki, onlar süverenliyin bəzi elementlərindən (atributlarından) könüllü surətdə istifadə etmirlər.[1]

Bəzən, dövlətlərin suverenliyi könüllü deyil, məcburi qaydada məhdudlaşır. Məsələn, təcavüzkar dövlətə BMT Təhlükəsizlik Şurasının qərarı ilə müvafiq sanksiyalar tətbiq olunanda həmin dövlətin suverenliyi, təbii ki, məcburi qaydada məhdudlaşdırılır. Müəyyən hallarda bu və ya digər dövlət suverenliyini tam və ya qismən itirir. Məsələn, II Dünya Müharibəsindən sonra Almaniya, İtaliya və Yaponiya dövlət suverenliyindən məhrum edilmişdi.

Bəzən, dövlət özünə xas olan suverenliyi, sadəcə olaraq, həyata keçirə bilmir. Məsələn, dövlətin ərazisi işğal olunan za-

[1] Müəlliflərdən L.D.Timçenko belə bir fikir söyləyir ki, dövlətlərin suverenliyini məhdudlaşdırmaq olmaz; onun fikrincə, suverenliyi məhdudlaşdırmaq suverenliyin olmaması deməkdir *(bax:* Тимченко Л.Д. Международное право. Харьков, 2004, с.27).

man o, suverenliyini tam şəkildə həyata keçirmək imkanını müvəqqəti olaraq itirir. Lakin bu kimi hallar heç də dövlətin öz suverenliyini itirməsinə və ondan məhrum edilməsinə səbəb olmur. Belə məqamlarda dövlət yaranmış vəziyyətə görə öz suverenliyindən müvəqqəti olaraq, istifadə edə bilmir.

Dövlət suverenliyinin hüquqi mahiyyətini dövlətlərin suveren hüquqları təşkil edir.[1] **Dövlətin suveren hüquqlarına** isə aşağıdakılar aiddir:

- iqtisadi, siyasi və mədəni sahələrdə başqa dövlətlərlə əlaqəyə girmək və onlarla əməkdaşlıq etmək hüququ;
- beynəlxalq (dövlətlərarası) təşkilatların üzvü (iştirakçısı) olmaq hüququ;
- çoxtərəfli və universal xarakterli beynəlxalq müqavilələrdə iştirak etmək hüququ;
- özünün maraq və mənafeyinə toxunan beynəlxalq konfranslarda iştirak etmək hüququ;
- başqa dövlətlərlə səfirlik, konsulluq və digər diplomatik nümayəndəlik münasibəti yaratmaq hüququ;
- bitərəf olmaq hüququ və s.

Dövlətlər mütləq (qeyri-məhdud) suverenliyə malik deyillər.[2] Başqa sözlə, dövlət suverenliyi mütləq (qeyri-məhdud) xarakter daşımır. Belə ki, dövlətlər beynəlxalq sahədə suverenliyini yalnız beynəlxalq publik hüquq normaları çərçivəsində həyata keçirə bilər; onlar beynəlxalq münasibətlər sferasında suverenlikdən istifadə edərkən həmin normalara əməl etməlidirlər. Dövlətlər öz suverenliyini yalnız beynəlxalq publik hüquq normalarına riayət etməklə və onları gözləməklə həyata keçirə bilərlər. Digər tərəfdən, dövlət suverenliyi başqa dövlət ərazisində həyata keçirilmir. Belə ki, suverenlik yalnız bu və

[1] Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.27.
[2] Оппенгейм Л. Международное право / Пер. с англ. Том 1. Полутом 2. М., 1948, с.134; Международное право. Учебник /Под ред. А.И. Микульшина. М., 2005, с.66.

ya digər dövlətin öz ərazisində həyata keçirilir. Qeyd edilənlər onu göstərir ki, dövlət suverenliyi mütləq (qeyri-məhdud) anlayış sayılmır. Buna görə də, zənn edirik ki, beynəlxalq publik hüquq doktrinasında bəzi müəlliflərin irəli sürdükləri «**mütləq suverenlik**» konsepsiyası elə bir tutarlı elmi zəminə malik deyildir.

Suverenlik həmçinin onu ifadə etmir ki, dövlətlərə hər şeyi, istək və arzularının hamısını həyata keçirməyə icazə verilmişdir; əksinə, dövlət suverenliyi sərhəd tanımayan anlayış deyil və bu anlayış ciddi çərçivədə müəyyən olunur.

Şübhəsiz, dövlətlərin iqtisadi, hərbi və s. gücü müxtəlifdir; onların siyasi sahədə də «çəkiləri» eyni deyildir. Lakin, suverenlik daşıyıcısı kimi, bütün dövlətlər hüquqi cəhətdən bərabərdirlər.

Dövlət suverenliyi dövlətlərin beynəlxalq publik hüquq subyektliyinin əsasıdır. Əgər dövlət bu kimi vacib xüsusiyyətdən məhrum olarsa, onda o, nəinki öz beynəlxalq publik hüquq subyektliyini, həmçinin öz dövlətçiliyini itirərdi.

«Dövlət suverenliyi» anlayışı, əsasən, beynəlxalq münasibətlər sahəsində əhəmiyyət kəsb edir. Bu baxımdan, o, beynəlxalq-hüquqi kateqoriya sayılır. Məhz belə vacib kateqoriya sayəsində dövlətlər beynəlxalq publik hüququn universal subyekti kimi tanınır.

Dövlətlər həm də digər, **ikinci səbəbə** görə, beynəlxalq publik hüququn universal subyekti hesab edilir. İkinci səbəbin mahiyyəti isə bundan ibarətdir ki, dövlətlər **beynəlxalq münasibətlərlə bağlı bütün məsələləri həll edə bilərlər**. Bax, bu xüsusiyyət onların beynəlxalq publik hüququn universal subyekti kimi tanınmasına imkan verir.

Dövlətlər beynəlxalq publik hüququn nəinki əsas, başlıca və universal, həmçinin **ilkin subyektidir**. Qeyd etdiyimiz kimi, dövlət özünün mövcudolma faktına görə (**«ipso facto»**) beynəlxalq publik hüququn ilkin subyekti olur; həm də ona görə ki, dövlətlər beynəlxalq publik hüququn törəmə subyektlərini (məsələn, hökumətlərarası beynəlxalq təşkilatları) yarada bilərlər. BMT, MDB, BVF, ÜTT, ŞAMT və digər beynəlxalq təşki-

latlar məhz dövlətlər tərəfindən yaradılmışdır və buna görə də, həmin qurumlar beynəlxalq publik hüququn törəmə subyektləri sayılır.

Dövlət beynəlxalq publik hüququn **tipik subyektidir;** ayrı cür ola da bilməz. Unutmaq olmaz ki, beynəlxalq publik hüquq, dəfələrlə qeyd etdiyimiz kimi, dövlətlərarası hüquqdur və tarixən uzun müddət ərzində dövlətlər beynəlxalq publik hüququn tipik subyekti olmuş və bu gün də olmaqda davam edir.

7.3.2. Dövlətin beynəlxalq-hüquqi əlamətləri və onların anlayışı

Beynəlxalq publik hüququn əsas və başlıca universal subyekti kimi dövlətlər beynəlxalq subyektiv hüquq və vəzifələrin daşıyıcısı, beynəlxalq publik hüquq normalarının yaradıcısı, hüquq pozuntusuna yol verdiyi hallarda beynəlxalq-hüquqi məsuliyyətin subyekti, beynəlxalq publik hüquq normalarının təminatçısıdır. Beynəlxalq publik hüquq normaları beynəlxalq publik hüququn digər subyektləri tərəfindən pozulduğu məqamlarda dövlətlər onlara pretenziya verirlər; dövlətlər həm də ölkəni beynəlxalq münasibətlərdə təmsil edirlər. Lakin, beynəlxalq-hüquqi mənada, yəni beynəlxalq publik hüququn subyekti kimi dövlətə beynəlxalq publik hüquq normalarında leqal (normativ) anlayış verilmir. Düzdür, beynəlxalq publik hüquq doktrinasında ayrı-ayrı müəlliflər tərəfindən beynəlxalq publik hüququn subyekti kimi dövlətə dair elmi tərifin formulə edilməsinə təşəbbüs göstərilir.[1] Lakin beynəlxalq publik hüququn subyekti kimi dövlətə dolğun, əhatəli, tam və hərtərəfli anlayış

[1] *Məsələn, bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.293; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 183; Курдюков Г.И. Государства в системе международно-правового регулирования. Казань, 1979, с.102-103; Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.26; Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.112 və b.

verilməsi məsələsi bu gün beynəlxalq publik hüquq doktrinasının üzərinə düşən aktual vəzifələrdən biridir.

Beynəlxalq publik hüququn subyekti qismində dövlətə elmi anlayış vermək üçün, ilk növbədə, onu xarakterizə edən beynəlxalq-hüquqi əlamətləri müəyyən etməliyik.

Beynəlxalq-hüquqi mənada dövlətin əlamətləri, yəni dövlətin beynəlxalq-hüquqi əlamətləri beynəlxalq publik hüquqda göstərilmişdir. Belə ki, 1933-cü ildə Uruqvayın Montovideo şəhərində **Dövlətlərin hüquq və vəzifələri haqqında Konvensiya** qəbul edilmişdir.[1] Konvensiya 19 dövlət (Şimali və Cənubi Amerika dövlətləri) tərəfindən imzalanmışdır (buna görə də, Konvensiyada ABŞ da daxil olmaqla Amerika dövlətləri iştirak edir). Regional əhəmiyyətə malik olan adıçəkilən Konvensiyanın 1-ci maddəsində dövlətin dörd əsas beynəlxalq-hüquqi əlaməti göstərilir ki, beynəlxalq praktikada həmin əlamətlər, mahiyyətcə, qəbul edilmişdir.[2] Beynəlxalq praktikada məhz bu əlamətlər əsasında dövlətin beynəlxalq-hüquqi anlayışı formulə olunmuşdur.

Dövlətin beynəlxalq-hüquqi əlamətləri dedikdə elə elementlər başa düşülür ki, həmin elementlər əsasında o, beynəlxalq publik hüququn subyekti kimi tanınır. Dövlətin beynəlxalq publik hüquq subyekti kimi tanınmasını şərtləndirdiyinə görə, onlar dövlətin **atributiv və ya konstitutiv elementləri** də («konstitutiv» – əsas deməkdir) adlanır;[3] həmin elementlər (əlamətlər) dövlətin özündən ayrılmazdır.

Sözügedən Montevideo Konvensiyasında dövlətə dair göstərilən beynəlxalq-hüquqi **əlamətlər** isə bunlardan ibarətdir:

– daimi əhalinin olması;

[1] URL:http://www.ru.m.wikipedia.org (19.05.2018-ci il)

[2] Konvensiyanın qəbul edilməsindən 15 il sonra Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi (1948-ci il) qəbul edildi ki, o, sözügedən konvensiyanın müddəalarını əks və inkişaf etdirir.

[3] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.111.

– müəyyən əraziyə malik olmaq;

– hökumətin olması;

– başqa dövlətlərlə münasibətlərə daxil olmaq qabiliyyəti.

Beynəlxalq publik hüququn subyekti kimi tanınması üçün dövlətin daimi **əhalisi** olmalıdır. Dövlət tərəfindən əhali idarə edilir və onun üzərində müvafiq nəzarət həyata keçirilir; bu zaman əhalinin sayı əhəmiyyət kəsb etmir. Əgər dövlətin ərazisində daimi əhali yaşamazsa, deməli, o, beynəlxalq publik hüququn subyekti ola bilməz. Nəzərə almaq lazımdır ki, əhali kimi əlamət təkcə dövlətin beynəlxalq publik hüququn subyekti kimi tanınmasını şərtləndirmir; həmin əlamət, ümumiyyətlə, bütün dövlətlərin mövcud olmasının məcburi (labüd) şərtlərindən biridir. Bu, aydın məsələdir. Belə ki, dövlət fiziki şəxslərin (insanların) birliyi deməkdir və o, öz suveren hakimiyyətini məhz onların üzərində həyata keçirir.[1]

Digər tərəfdən, əhali dövlətin, necə deyərlər, fiziki əsasıdır və fiziki əsas olmadan dövlətin mövcudluğu qeyri-mümkündür.

Dövlətin əhalisi bütövlükdə bilavasitə xalq deməkdir. Məsələn, Azərbaycan dövlətinin əhalisi bütövlükdə bilavasitə Azərbaycan xalqının özüdür.[2] Təşkil olunmuş xalq hər bir dövlətin substansiyasıdır. Xalq öz müqəddəratını təyinetmə hüququnun subyektidir. O, bu hüququ həyata keçirərkən müstəqil surətdə öz siyasi statusunu müəyyənləşdirir, iqtisadi, sosial və mədəni inkişafını təmin edir. Lakin xalq özlüyündə beynəlxalq publik hüququn subyekti kimi tanınmır. Bununla yanaşı, əgər o, öz dövlət müstəqilliyi uğrunda mübarizə apararsa, beynəlxalq publik hüquq subyektliyi əldə edir.

Dövlət əhalisi olaraq xalq həmin dövlətin **vətəndaşlarından** ibarətdir. Vətəndaşlar isə dövlətin ərazisində və ondan kənarda yaşaya bilər. Əgər fiziki şəxslər bu və ya digər dövlətə, habelə dövlətin qanunlarına tabe sayılırlarsa, onlar həmin dövlətin və-

[1] Фердросс А. Международное право / Пер. с нем. М., 1959, с.118.

[2] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011, s.20.

təndaşları hesab edilirlər. Dövlət öz suverenliyini (suveren hakimiyyətini) həm dövlət ərazisində, həm də ondan kənarda yaşayan vətəndaşlara münasibətdə həyata keçirir.

Təkcə əhali kimi əlamət (element) beynəlxalq publik hüququn subyekti kimi dövlətin mövcudluğunu təmin etmir. Bunun üçün həm də digər əlamətlərin, o cümlədən **ərazi** kimi əlamətin olması tələb edilir. Ərazi dövlətin mövcud olmasını şərtləndirən əsas elementlərdən (əlamətlərdən) biridir. Məlum məsələdir ki, bu element olmazsa, heç bir dövlət mövcud ola bilməz. Odur ki, **hər bir dövlətin müəyyən ərazisi olmalıdır**; dövlət əraziyə nəzarət edir, ərazinin sahəsi (onun riyazi ölçüsü) əhəmiyyət kəsb etmir. Əgər əhali (xalq) dövlətin fiziki əsasıdırsa, ərazi onun maddi bazası sayılır. Qeyd etməliyik ki, ərazi məkan baxımından, dövlətin əsasıdır.

Ərazi dedikdə Yer kürəsinin elə bir hissəsi başa düşülür ki, bu məkanda dövlət öz suveren hakimiyyətini həyata keçirir. İstənilən dövlətin ərazisi üç sahədən ibarətdir ki, onlara aşağıdakılar aiddir: torpaq (quru) sahəsi, su sahəsi, hava sahəsi.

Dövlət öz ərazisində suveren hakimiyyətini həyata keçirir. Dövlət suverenliyini xarakterizə edən əsas cəhətlərdən biri ondan ibarətdir ki, dövlət öz ərazisində ali hakimiyyətə malikdir. Bu səbəbdən hüquq ədəbiyyatında dövlət suverenliyinə həm də **ərazi suverenliyi** deyilir.[1]

Dövlət ərazisində yalnız onun öz normativ hüquqi aktları (qanunlar və digər aktlar) qüvvədə olur, tətbiq edilir və icra olunur; xarici dövlətlərin normativ hüquqi aktları isə burada hüquqi qüvvəyə malik olmur.

Dövlətin mövcudluğunu şərtləndirən əlamətlərdən (elementlərdən) biri olan ərazinin əhəmiyyəti və rolu həm də bundan ibarətdir ki, dövlətin substansiyası sayılan əhali (xalq) onun malik olduğu ərazidə yaşayır. Təsadüfi deyil ki, dövlət, mahiyyətcə, öz ərazisində yaşayan fiziki şəxslərin (əhalinin) təşkil

[1] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.113.

olunmuş birliyidir. Xüsusi siyasi təşkilat olan dövlətin mövcud olması, fəaliyyət göstərməsi və öz funksiyasını yerinə yetirməsi üçün onun hökmən əraziyə malik olması şəksizdir.

Beynəlxalq-hüquqi mənada dövlətin əsas əlamətlərindən biri ondan ibarətdir ki, onun **hökuməti** olmalıdır. Montovideo Konvensiyasında (1-ci maddə) göstərilir ki, beynəlxalq publik hüququn subyekti kimi dövlət öz hökumətinə malik olmalıdır. Lakin, hesab edirik ki, burada müvafiq əlamət (element) kimi «hökumət» termininin əvəzinə «hakimiyyət» anlayışı formulə edilsəydi daha məqsədəuyğun və uğurlu olardı. Belə ki, hökumət, məsələn Nazirlər Kabineti dövlət hakimiyyət (icra) orqanlarından biridir. Dövlətin mövcud olması və beynəlxalq publik hüququn subyekti kimi tanınması üçün isə təkcə hökumət kifayət etmir. Bundan ötrü hakimiyyət lazımdır – elə bir hakimiyyət ki, ölkə daxilində və ondan kənarda (xaricdə), yəni beynəlxalq aləmdə dövlət müvafiq funksiyaların yerinə yetirilməsini təmin etmək qabiliyyətinə malik olsun, ölkənin idarə olunmasını, hüquq qaydasının gözlənilməsini və qorunub saxlanmasını təmin edə bilsin. Əhalinin idarə olunması və ona, həmçinin əraziyə nəzarət edilməsi məhz hakimiyyət tərəfindən həyata keçirilir.

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq publik hüququn subyekti kimi dövlət hakimiyyətə malik olmalıdır. Təsadüfi deyil ki, bəzi müəlliflər məhz hakimiyyətə malik olmağı beynəlxalq-hüquqi mənada dövlətin əsas əlamətlərindən biri hesab edir.[1] Nəzərə almalıyıq ki, hakimiyyətin yoxluğu dövlətin özünün mövcud olmaması deməkdir. Hakimiyyətin mövcud olması isə müxtəlif dövlət hakimiyyət orqanlarının (Prezident postu, Parlament, Hökumət, Nazirlik və digər mərkəzi icra hakimiyyəti orqanlarının), dövlət idarəetmə aparatının yaradılmasını tələb edir. Məhz hakimiyyət orqanları və idarə aparatı vasitəsi ilə dövlət öz funksiyalarını həm ölkə daxilində, həm də

[1] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.112; Международное публичное право / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.186.

beynəlxalq aləmdə yerinə yetirir. Odur ki, hakimiyyətə malik olmaq dövlətin mövcud olmasını şərtləndirən zəruri elementlərdən biridir. Dövlət öz mərkəzi dövlət hakimiyyət orqanları sistemi sayəsində ölkəni idarə edir, beynəlxalq sahədə öz vəzifələrini yerinə yetirir.

Beynəlxalq-hüquqi mənada dövlət, sadəcə olaraq, hakimiyyətə deyil, siyasi hakimiyyətə malikdir. Məhz **siyasi hakimiyyətə malik olmaq** dövlətin əsas əlamətlərindən (elementlərindən) biri sayılır. Məsələ burasındadır ki, hakimiyyətə malik olsalar da, bəzi qurumlar beynəlxalq publik hüququn subyekti kimi tanınmırlar; ona görə ki, həmin qurumların hakimiyyəti siyasi hakimiyyət deyildir. Məsələn, bələdiyyələr siyasi deyil, ictimai-kütləvi hakimiyyətə malikdir. Bu səbəbdən onlar nə siyasi hakimiyyət təşkilatı, nə də beynəlxalq publik hüququn subyekti sayılır. Dövlət isə, məlum olduğu kimi, siyasi hakimiyyət təşkilatıdır. Yalnız siyasi hakimiyyət daşıyıcısı olan qurumlar beynəlxalq publik hüququn subyekti ola bilər. Dövlət məhz belə qurumdur.

Dövlətin digər beynəlxalq-hüquqi əlaməti (elementi) bundan ibarətdir ki, o, **başqa dövlətlərlə münasibətlərə daxil olmaq qabiliyyətinə malik olmalıdır**. Söhbət dövlətin beynəlxalq (dövlətlərarası) münasibətlərdə iştirak etmək qabiliyyətindən gedir ki, həmin münasibətlər beynəlxalq publik hüquqla tənzimlənir. Əgər dövlət belə münasibətlərə daxil ola bilərsə, o, beynəlxalq publik hüququn subyekti kimi tanınır. Beynəlxalq (dövlətlərarası) münasibətlər isə, əvvəllərdə qeyd etdiyimiz kimi, siyasi, iqtisadi, ekologiya, insan hüquqlarının qorunması, xarici əlaqələr (diplomatiya və konsulluq), cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə yarana bilər. Müstəqil beynəlxalq statusa malik olan dövlət beynəlxalq (dövlətlərarası) münasibətlərdə öz adından çıxış edir. Beynəlxalq (dövlətlərarası) münasibətlərdə çıxış edən dövlətlər müstəqil olub, bir-birinə tabe sayılmır. Beynəlxalq (dövlətlərarası) münasibətlərdə iştirak edən dövlətlər arasında asılılıq yoxdur, çünki onlar müstəqil olaraq, suverendir.

Hər bir dövlət başqa dövlətlərlə əlaqə saxlamalıdır; həm də dövlətlərarası əlaqə (münasibət) beynəlxalq publik hüquq normalarına uyğun olmalıdır.

Dövlət ölkəni beynəlxalq münasibətlərdə təmsil edir. Dövlətin özünü isə beynəlxalq münasibətlərdə müxtəlif hakimiyyət orqanları və vəzifəli şəxslər (Parlament, Hökumət, Prezident, Xarici İşlər Nazirliyi, habelə digər mərkəzi icra hakimiyyəti orqanları və s.) təmsil edir. Bu zaman beynəlxalq publik hüququn subyekti rolunda bütövlükdə dövlətin özü çıxış edir. Beynəlxalq münasibətlərdə iştirak edən hakimiyyət orqanları və vəzifəli şəxslər isə beynəlxalq publik hüququn subyekti sayılmır, çünki onlar beynəlxalq-hüquqi əhəmiyyətli hərəkətləri dövlətin adından edirlər. Buna görə də, dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətləri dövlətin özünün hərəkətlərini ifadə edir.

Dövlətin beynəlxalq-hüquqi əlamətləri arasında barəsində danışdığımız əlamətin xüsusi əhəmiyyəti və rolu vardır. Məhz həmin əlamət sayəsində dövlət beynəlxalq publik hüququn subyekti olur. Belə ki, daxili (milli) hüququn subyekti kimi dövlətin üç əsas əlaməti vardır: əhali, ərazi, siyasi hakimiyyət. Bu əlamətlərin dövlətin beynəlxalq publik hüququn subyekti olmasında da vacib rol oynaması şəksizdir. Lakin dövlətin beynəlxalq publik hüququn subyekti kimi tanınmasında «beynəlxalq münasibətlərə daxil olmaq qabiliyyəti» kimi əlamətin mühüm əhəmiyyət kəsb etməsi heç də şübhə doğura bilməz.

Göstərdiklərimizdən başqa, beynəlxalq hüquq ədəbiyyatında dövlətin digər beynəlxalq-hüquqi əlamətləri də vurğulanır.[1] Məsələn, bəzi müəlliflər suverenliyi beynəlxalq-hüquqi məna-

[1] *Məsələn, bax:* Фердросс А. Международное право / Пер. с нем. М., 1959, с.118-121; Броунли Я. Международное право. Книга 1. М., 1977, с.106-107; Международное публичное право / Отв.ред. К.А.Бекяшев М., 2009, с.184-185; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 104 və s.

da dövlətin ayrıca əlaməti kimi göstərirlər.[1] Hesab edirik ki, suverenliyin beynəlxalq-hüquqi mənada dövlətin əlaməti kimi göstərilməsi artıq bir işdir. Ona görə ki, müəlliflərdən Q.İ.Kurdyukovun düzgün olaraq, göstərdiyi kimi, beynəlxalq-hüquqi mənada dövlət dedikdə hakimiyyət və suverenliyin vahidliyi (birliyi) başa düşülür.[2] Qeyd etməliyik ki, harada dövlət hakimiyyəti həyata keçirilirsə, orada mütləq suverenlik də mövcud olur. Odur ki, müəlliflər düzgün olaraq, çox vaxt «**suveren dövlət hakimiyyəti**» anlayışı işlədirlər. Əgər biz, hakimiyyətə malik olmağı beynəlxalq-hüquqi mənada dövlətin əlaməti hesab ediriksə, onda suverenlik kimi əlamətin əlahiddə şəkildə göstərilməsi vacib deyildir.

Müəlliflərdən P.N.Biryukov «idarəçilik aparatına malik olmağı» dövlətin ayrıca əlaməti kimi göstərir.[3] Güman edirik ki, belə bir əlamətin də ayrılması artıq işdir, çünki dövlət hakimiyyəti həyata keçiriləndə onun hökmən idarəetmə aparatı da yaradılır. Belə ki, dövlət hakimiyyəti məhz idarəetmə aparatı vasitəsi ilə həyata keçirilir.

Fikrimizcə, dövlətə xas olan yuxarıda barəsində danışdığımız beynəlxalq-hüquqi əlamətlər (əhali, ərazi, siyasi hakimiyyət, başqa dövlətlərlə münasibətlərə girmək qabiliyyətinə malik olmaq) ona anlayış verməyimiz üçün kifayət edər və bu əlamətlər dövlətin beynəlxalq-hüquqi mənada xarakterizə olunmasına imkan verir:

beynəlxalq-hüquqi mənada dövlət dedikdə müəyyən əraziyə və orada daimi yaşayan əhaliyə malik olan elə bir suveren siyasi hakimiyyət daşıyıcısı başa düşülür ki, onun başqa dövlətlərlə bu və ya digər sahədə əlaqələrə girmək, yəni beynəlxalq (dövlətlərarası) münasibətlərə daxil olmaq qabiliyyəti vardır.

---

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.184.

[2] Курдюков Г.И. Государства в системе международно-правового регулирования. Казань, 1979, с.117-118.

[3] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 104.

7.3.3. Beynəlxalq publik hüququn subyekti kimi dövlətin hüquq və vəzifələri

Beynəlxalq publik hüququn subyekti kimi tanınması üçün dövlət beynəlxalq subyektiv hüquqların, eləcə də beynəlxalq subyektiv-hüquqi vəzifələrin daşıyıcısı olmalıdır. Başqa sözlə, beynəlxalq publik hüququn subyekti kimi dövlət beynəlxalq publik hüquq normalarından irəli gələn beynəlxalq subyektiv hüquqlara malik olmalı, həmçinin beynəlxalq subyektiv-hüquqi vəzifələr daşıya bilməlidir.

Qeyd etməliyik ki, dövlətin malik olduğu beynəlxalq subyektiv hüquqlar və vəzifələr onun beynəlxalq-hüquqi statusunun əsasını təşkil edir. Beynəlxalq publik hüquq doktrinasında subyektlərin **beynəlxalq-hüquqi statusu üç cür** olur:[1]

- ümumi beynəlxalq-hüquqi status;
- xüsusi beynəlxalq-hüquqi status;
- fərdi beynəlxalq-hüquqi status.

Ümumi beynəlxalq-hüquqi status dedikdə beynəlxalq publik hüququn bütün subyekt növlərinə aid olan beynəlxalq subyektiv hüquqların və vəzifələrin məcmusu başa düşülür; onlara **ümumsubyektiv beynəlxalq hüquq və vəzifələr** deyilir. Belə hüquq və vəzifələrin daşıyıcısı həm dövlətlər, həm beynəlxalq (dövlətlərarası) təşkilatlar, həm də beynəlxalq publik hüququn digər subyektləri ola bilər. Ümumsubyektiv beynəlxalq hüquq və vəzifələr sırasına isə aşağıdakılar aiddir:

- başqa subyektlərlə əlaqəyə girmək və münasibətdə olmaq hüququ;

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с. 103-104.

– beynəlxalq publik hüquq norması yaratmaq hüququ;[1]
– beynəlxalq publik hüquq normasını həyata keçirmək və tətbiq etmək hüququ;
– öz pozulmuş hüquqlarını müdafiə etmək hüququ;
– öz hüquqlarını həyata keçirmək hüququ;
– beynəlxalq publik hüququn digər subyektləri ilə qarşılıqlı fəaliyyət göstərmək hüququ;
– beynəlxalq-hüquqi mübahisələrin dinc vasitələrlə həll olunmasını tələb etmək hüququ;
– beynəlxalq (dövlətlərarası) münasibətlərin iştirakçısı olmaq hüququ;
– başqa subyektlərin statusuna hörmət etmək vəzifəsi;
– beynəlxalq publik hüquq normalarına əməl etmək vəzifəsi;
– beynəlxalq subyektiv-hüquqi vəzifələri beynəlxalq publik hüquqa uyğun olaraq yerinə yetirmək vəzifəsi və s.

Beynəlxalq publik hüququn istənilən subyekti, o cümlədən dövlət göstərilən beynəlxalq hüquq və vəzifələrin daşıyıcısı ola bilər. Bundan ötrü dövlət suverenliyi tələb edilmir. Elə buna görə beynəlxalq publik hüququn qeyri-suveren subyektlərinin də (məsələn, dövlətlərarası beynəlxalq təşkilatlar və s.) həmin hüquq və vəzifələrin daşıyıcısı olmaları mümkündür.

Beynəlxalq publik hüququn bu və ya digər növ subyektinə məxsus olan beynəlxalq subyektiv hüquq və vəzifələrinin məcmusuna **xüsusi beynəlxalq-hüquqi status** deyilir. Məsələn,

[1] Qeyd etmək lazımdır ki, «beynəlxalq publik hüquq norması yaratmaq» hüququ beynəlxalq publik hüququn bütün subyektlərinə məxsusdur; əgər bu və ya digər qurum belə hüquqa malik deyilsə, o, beynəlxalq publik hüququn subyekti ola bilməz. Müəlliflərdən S.V.Çerniçenko isə güman edir ki, beynəlxalq publik hüququn bəzi subyektləri beynəlxalq publik hüquq normaları yarada bilməzlər; onlar yalnız beynəlxalq publik hüquq normalarını tətbiq etmək səlahiyyətinə malikdirlər *(bax:* Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.158).

beynəlxalq (dövlətlərarası) təşkilatlara aid olan beynəlxalq hüquq və vəzifələrin məcmusu onların xüsusi beynəlxalq-hüquqi statusunu təşkil edir; həmçinin dövlətlərə də şamil edilən beynəlxalq hüquq və vəzifələrin məcmusu onun xüsusi beynəlxalq-hüquqi statusu adlanır.

Qeyd etmək lazımdır ki, dövlət özünəxas, spesifik əlamətlərə malikdir. Bu əlamətlərə görə, bəzən, dövlət elə beynəlxalq hüquq və vəzifələrə malik olur ki, həmin hüquq və vəzifələr beynəlxalq publik hüququn digər subyektlərinin beynəlxalq hüquq və vəzifələrindən fərqlənir. Məhz belə hüquq və vəzifələr birləşərək dövlətin xüsusi beynəlxalq-hüquqi statusunu əmələ gətirir; onlara **dövlətin xüsusi beynəlxalq hüquq və vəzifələri** deyilir. Həmin hüquq və vəzifələr aşağıdakılardan ibarətdir:

- başqa dövlətlərlə diplomatik əlaqə yaratmaq və həyata keçirmək hüququ;
- başqa dövlətlərlə konsulluq münasibəti yaratmaq və həyata keçirmək hüququ;
- beynəlxalq (dövlətlərarası) təşkilat yaratmaq və ya təsis etmək hüququ;
- beynəlxalq (dövlətlərarası) təşkilata üzv olmaq və onlarda iştirak etmək hüququ;
- başqa dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndəliyə malik olmaq hüququ;
- xarici ölkələrdə öz vətəndaşlarını müdafiə etmək hüququ;
- suverenlik hüququ;
- müstəqillik hüququ;
- ərazi toxunulmazlığı hüququ;
- özünümüdafiə hüququ (fərdi və kollektiv özünümüdafiə hüququ);
- daxili səlahiyyətlərə aid olan məsələləri müstəqil həll etmək hüququ;

– başqa dövlətlərlə qarşılıqlı münasibətlərdə suveren bərabərlik hüququ;
– hüquqi cəhətdən bərabər olmaq (hüquq bərabərliyi) hüququ;
– dünyada əsas insan hüquq və azadlıqlarının həyata keçirilməsinə kömək etmək hüququ;
– beynəlxalq birliyin digər üzvləri ilə siyasi, iqtisadi, mədəni, insan hüquqlarının qorunması, cinayətkarlıqla mübarizə və digər sahələrdə əməkdaşlıq etmək hüququ;
– beynəlxalq (dövlətlərarası) müqavilələri yerinə yetirmək vəzifəsi;
– başqa dövlətlərin suverenliyinə hörmət etmək vəzifəsi;
– başqa dövlətin daxili səlahiyyətlərinə aid edilən işlərə qarışmamaq vəzifəsi;
– sülhü qorumaq vəzifəsi;
– beynəlxalq təhlükəsizliyi qoruyub saxlamaq və təmin etmək vəzifəsi;
– başqa dövlətlərin ərazi bütövlüyünə və toxunulmazlığına hörmət etmək vəzifəsi;
– güc tətbiq etməkdən və güclə hədələməkdən çəkinmək vəzifəsi;
– başqa dövlətə məxsus olan ərazini ələ keçirməkdən çəkinmək vəzifəsi;
– beynəlxalq mübahisələri, habelə beynəlxalq münaqişə və ixtilafları dinc vasitələrlə həll etmək vəzifəsi;
– öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək vəzifəsi;
– ətraf mühiti (ekologiyanı) qorumaq vəzifəsi;
– insan hüquq və azadlıqlarına hörmət etmək vəzifəsi;
– insan hüquq və azadlıqlarını qorumaq vəzifəsi və s.

Dövlətin malik olduğu beynəlxalq hüquqlara başqa dövlətlərin daşıdığı müvafiq beynəlxalq-hüquqi vəzifələr uyğun gəlir. Məsələn, dövlət öz daxili səlahiyyətlərinə aid edilən işləri müstəqil surətdə həyata keçirmək hüququna malikdir; onun bu hüququna başqa dövlətlərin həmin dövlətin daxili səlahiyyətlərinə aid edilən işlərə qarışmamaq vəzifəsi uyğun gəlir. Digər bir misalda, hər bir dövlətin suverenlik hüququ vardır; başqa dövlətlər həmin dövlətin suverenliyinə hörmət etmək və onun həyata keçirilməsinə mane olmamaq vəzifəsi daşıyır.

Fərdi beynəlxalq-hüquqi status dedikdə hər hansı beynəlxalq publik hüquq subyektinin malik olduğu konkret beynəlxalq hüquqların və daşıdığı beynəlxalq-hüquqi vəzifələrin məcmusu başa düşülür. Belə ki, beynəlxalq publik hüququn subyekti kimi ayrıca götürülmüş hər bir dövlətin öz fərdi beynəlxalq-hüquqi statusu vardır. Hər bir dövlətin fərdi beynəlxalq-hüquqi statusuna daxil edilənlər isə dövlətin **fərdi beynəlxalq hüquq və vəzifələri** adlanır; onlar həm ümumi, həm də xüsusi beynəlxalq-hüquqi statusa aid olunan beynəlxalq hüquq və vəzifələri konkretləşdirir. Fərdi beynəlxalq-hüquqi status ayrıca götürülmüş hər hansı dövlətin konkret beynəlxalq hüquq və vəzifələrinin məcmusudur. Belə hüquq və vəzifələrin sayı kifayət qədər çoxdur və onlar aşağıda göstərilənlərdən irəli gəlir:

- beynəlxalq publik hüququn prinsipləri;
- beynəlxalq publik hüquq normaları;
- dövlətin iştirakçısı olduğu universal beynəlxalq müqavilələr;
- dövlətin iştirakçısı olduğu regional beynəlxalq müqavilələr;
- dövlətin iştirakçısı olduğu lokal beynəlxalq müqavilələr;
- beynəlxalq-hüquqi adət normaları.

Beləliklə, dövlət **üç növ** beynəlxalq hüquq və vəzifələr daşıya bilər:[1]

- **ümumi beynəlxalq subyektiv hüquq və vəzifələr** (onların məcmusu ümumi beynəlxalq-hüquqi status adlanır);
- **xüsusi beynəlxalq subyektiv hüquq və vəzifələr** (onların məcmusuna xüsusi beynəlxalq-hüquqi status deyilir);
- **fərdi beynəlxalq subyektiv hüquq və vəzifələr** (onların məcmusu fərdi beynəlxalq-hüquqi status adlanır).

Göstərilən hər üç növ beynəlxalq hüquq və vəzifələr dövlətin beynəlxalq-hüquqi statusunun əsasını təşkil edir. Başqa sözlə, dövlət məhz onların sayəsində müstəqil beynəlxalq-hüquqi statusa malik olur.

Beynəlxalq hüquq dərsliklərində dövlətin əsas beynəlxalq hüquq və vəzifələri barədə də danışılır.[2] Hətta bəzi müəlliflər dövlətin əsas beynəlxalq hüquq və vəzifələrini bütövlükdə beynəlxalq publik hüquq qaydasının mövcud olmasının ilkin şərti və zəmini hesab edirlər.[3] Bəzi beynəlxalq sənədlərdə «dövlətin əsas hüquq və vəzifələri» anlayışının işlədilməsinə rast gəlirik. Məsələn, 1948-ci ildə Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi qəbul edildi ki, orada «dövlətlərin əsas hüquq və vəzifələri» anlayışına toxunulur. Qeyd etməliyik ki, Rusiya Federasiyasında 1996-cı ildə bir qrup alim tərəfindən qeyri-rəsmi səviyyədə müvafiq sənəd layihəsi hazırlanmışdı. Söhbət Dövlətlərin əsas hüquq və vəzifələri Məcəlləsinə dair layihənin hazırlanmasından gedir; həmin anlayış burada da işlədilir. Bəs, dövlətin əsas hüquq və vəzifələri dedikdə nə anlaşılır, onların sayı və həcmi nə qədərdir, həmin hüquq və vəzifələrin məzmunu nədən ibarətdir?

---

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.80.

[2] *Məsələn. bax:* Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.119.

[3] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 82.

Qeyd etmək vacibdir ki, dövlətin əsas hüquq və vəzifələrinin təbiəti beynəlxalq publik hüquq doktrinasında mübahisə predmetinə çevrilən məsələlərdən biridir və bu barədə alimlər müxtəlif fikirlər söyləyirlər. Beynəlxalq hüquqşünaslar arasında indiyə kimi belə bir yekdil fikir formalaşmamışdır ki, məhz hansılar dövlətin əsas hüquq və vəzifələri sayılır. Doktrinal səviyyədə dövlətin əsas hüquq və vəzifələrinin nə sayı göstərilir, nə onların tam adları sadalanır, nə də məzmunu açıqlanır; rəsmi səviyyədə də analoji vəziyyətlə qarşılaşırıq. Belə ki, beynəlxalq sənədlərdə normativ qaydada dövlətin əsas hüquq və vəzifələri müəyyən edilmir, hamılıqla qəbul edilmiş siyahısı verilmir. Yalnız Amerka Dövlətləri Təşkilatının Nizamnaməsində (1948-ci il) onların qəti və tam olmayan siyahısı verilmişdir.

Qeyd etmək lazımdır ki, dövlətin əsas hüquq və vəzifələrinin böyük əhəmiyyəti vardır. Belə ki, dövlətin əsas hüquq və vəzifələri beynəlxalq publik hüquq subyektliyinin məğzini, mahiyyətini təşkil edir və onun ayrılmaz hissəsi sayılır. Beynəlxalq birliyin öz funksiyasını normal yerinə yetirməsi və dövlətlərin təhlükəsizliyinin təmin olunması məsələsi dövlətlərin əsas hüquqlarının, eləcə də əsas vəzifələrinin pozulmamasından asılıdır. Dövlətlərin əsas hüquq və vəzifələrinin pozulması həm də buna səbəb olur ki, beynəlxalq publik hüququn əsas prinsiplərinin özü pozulur. Ona görə ki, dövlətin əsas hüquq və vəzifələri beynəlxalq publik hüququn əsas prinsiplərindən irəli gəlir.[1] Başqa sözlə, onlar beynəlxalq publik hüququn əsas prinsipləri ilə bağlı olan hüquq və vəzifələrdir.

Dövlətlərin əsas hüquq və vəzifələri dedikdə beynəlxalq publik hüququn əsas prinsiplərindən irəli gələn və onlarla bağlı olan hüquq və vəzifələr başa düşülür.

Qeyd etməliyik ki, dövlətlərin əsas hüquq və vəzifələri beynəlxalq publik hüququn əsas prinsiplərindən irəli gəldiyinə gö-

[1] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.164.

rə onların dairəsi də məhz həmin prinsiplər əsasında müəyyən edilir. Buna müvafiq olaraq, **dövlətin əsas hüquqlarına** aşağıdakıları aid etmək mümkündür:

- **güc tətbiq etməməyi və güclə hədələməməyi tələb etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn güc tətbiq etməmək və ya güclə hədələməmək kimi əsas prinsipindən irəli gəlir);
- **suverenlik hüququ** (bu hüquq beynəlxalq publik hüququn dövlətlərin suveren bərabərliyi kimi əsas prinsipindən irəli gəlir);
- **daxili səlahiyyətlərinə aid olan işləri müstəqil həll etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn dövlətlərin daxili işlərinə qarışmamaq kimi əsas prinsipindən irəli gəlir);
- **beynəlxalq mübahisə və münaqişələri dinc yolla həll etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn beynəlxalq mübahisələri dinc yolla həll etmək kimi əsas prinsipindən irəli gəlir);
- **ərazi toxunulmazlığı hüququ** (bu hüquq beynəlxalq publik hüququn dövlətlərin ərazi bütövlüyü kimi əsas prinsipindən irəli gəlir);
- **sərhədlərin pozulmazlığı hüququ** (bu hüquq beynəlxalq publik hüququn dövlət sərhədlərinin pozulmazlığı kimi əsas prinsipindən irəli gəlir);
- **xalqların hüquq bərabərliyinə və öz müqəddəratını təyinetmə hüququna hörmət etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə kimi əsas prinsipindən irəli gəlir);
- **əməkdaşlıq etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn dövlətlərin əməkdaşlıq etməsi kimi əsas prinsipindən irəli gəlir);

– **beynəlxalq-hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsini tələb etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək kimi əsas prinsipindən irəli gəlir);

– **insan hüquqlarını dünyada qorumaq və onların həyata keçirilməsinə kömək etmək hüququ** (bu hüquq beynəlxalq publik hüququn əsas insan hüquq və azadlıqlarına hörmət etmək kimi əsas prinsipindən irəli gəlir).

Bəzi müəlliflərə (məsələn, İ.İ.Lukaşuk) görə, dövlətin əsas hüquqları suverenliklə bağlıdır. Bu səbəbdən o, dövlətin əsas hüquqlarını suveren hüquqlar adlandırır.[1] Digər müəlliflər də «dövlətin əsas hüquqları» və «dövlətin suveren hüquqları» kimi iki anlayışı eyniləşdirir və onların fikrincə, dövlətin əsas hüquqlarına həm də süveren hüquqlar deyilir.[2]

Güman edirik ki, dövlətin əsas hüquqları ilə onun suveren hüquqlarını beynəlxalq-hüquqi kontekstdə eyniləşdirmək məqsədəuyğun deyil, çünki bir-birinə nə qədər yaxın olsalar da, onlar eyni hüquqlar sayılmır. Belə ki, suverenliyin iki növü vardır: **daxili suverenlik** (ölkə daxilində ali hakimiyyətə malik olmaq), **xarici suverenlik** (beynəlxalq münasibətlərdə və xarici işlərdə müstəqil olmaq, heç kəsdən asılı olmamaq). Buna uyğun olaraq, dövlətin suveren hüquqları da iki yerə bölünür: **daxili suverenliyə aid olan hüquqlar** (əhali üzərində hakimiyyətə, yəni qanunvericilik, icra və məhkəmə hakimiyyətinə malik olmaq hüququ, öz ərazisində və ölkə daxilində hakimiyyəti həyata keçirmək hüququ, öz daxili siyasət kursunu müəyyən etmək hüququ, normativ hüquqi aktlar qəbul etmək hüququ, siyasi quruluşunu və idarəetmə formasını müəyyən etmək hüququ, ölkənin təbii resurslarına sərəncam vermək və onlardan istifadə etmək hüququ və s.), **xarici suverenliyə aid olan hüquqlar** (xarici ölkələrlə beynəlxalq münasibət yaratmaq hüqu-

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с. 295.

[2] Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.27.

qu, beynəlxalq müqavilə bağlamaq hüququ, beynəlxalq təşkilat yaratmaq və ya təsis etmək hüququ, beynəlxalq təşkilata qoşulmaq və ona üzv olmaq hüququ, diplomatik münasibət yaratmaq hüququ, konsulluq əlaqəsi yaratmaq hüququ, bitərəf olmaq hüququ və s.)

Dövlətin suveren hüquqları suverenliklə, başqa sözlə, onun öz suverenlik funksiyasını həyata keçirməsi ilə bağlı olan hüquqlardır. Dövlətin əsas hüquqları isə dövlətin öz suverenlik funksiyasını həyata keçirməsi ilə bağlı ola da, olmaya da bilər. Məsələn, dünyada insan hüquqlarını qorumaq və onların həyata keçirilməsinə kömək etmək hüququ dövlətin əsas hüququ sayılır. Aydın məsələdir ki, bu hüquq dövlətin suveren hüququ sayılmır. Bu sözləri beynəlxalq mübahisə və münaqişələri dinc yolla həll etmək hüququ haqqında da demək olar. Belə ki, həmin hüquq dövlətin əsas hüquqlarından biri olsa da, onun suveren hüququ sayılmır.

Beləliklə, dövlətin elə əsas hüquqları vardır ki, onlar dövlətin suveren hüquqları sırasına daxil olmur; eləcə də, əksinə, dövlət elə suveren hüquqlara malikdir ki, onlar dövlətin əsas hüquqları anlayışına aid edilmir. Odur ki, dövlətin əsas hüquqları bəzi hallarda suverenliklə bağlı olmur.[1]

Dövlətin nəinki əsas hüquqları, həmçinin onun əsas vəzifələri də beynəlxalq publik hüququn əsas prinsiplərindən irəli gəlir. Beynəlxalq publik hüququn əsas prinsiplərinə əsaslanmaqla və onları nəzərə almaqla müəyyən edə bilərik ki, dövlətin üzərinə düşən **əsas vəzifələr** aşağıdakılardan ibarətdir:

– **güc tətbiq etməkdən və güclə hədələməkdən çəkinmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn güc tətbiq etməmək və ya güclə hədələməmək kimi əsas prinsipindən irəli gəlir);

[1] Alimlərdən İ.İ.Lukaşuk belə bir fikir söyləyir ki, dövlətin əsas hüquqları suverenliklə bağlıdır *(bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с. 295).

– **beynəlxalq mübahisə və münaqişələri dinc vasitələrlə həll etmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn beynəlxalq mübahisələri dinc yolla həll etmək kimi əsas prinsipindən irəli gəlir);

– **başqa dövlətlərin suverenliyinə hörmət etmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn dövlətlərin suveren bərabərliyi kimi əsas prinsipindən irəli gəlir);

– **başqa dövlətlərin daxili səlahiyyətlərinə aid olan işlərə qarışmamaq vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn dövlətlərin daxili işlərinə qarışmamaq kimi əsas prinsipindən irəli gəlir);

– **başqa dövlətlərin ərazi bütövlüyünə hörmət etmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn dövlətlərin ərazi bütövlüyü kimi əsas prinsipindən irəli gəlir);

– **başqa dövlətlərə məxsus ərazi sahələrini tutmaqdan və ələ keçirməkdən çəkinmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn dövlət sərhədlərinin pozulmazlığı kimi əsas prinsipindən irəli gəlir);

– **xalqların hüquq bərabərliyinə və öz müqəddəratını təyinetmə hüququna hörmət etmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə kimi əsas prinsipindən irəli gəlir);

– **başqa dövlətlərlə əməkdaşlıq etmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn dövlətlərin əməkdaşlıq etməsi kimi əsas prinsipindən irəli gəlir);

– **beynəlxalq-hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək vəzifəsi** (bu vəzifə beynəlxalq publik hüququn beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək kimi əsas prinsipindən irəli gəlir);

– **insan hüquqlarını dünyada qorumaq və onların həyata keçirilməsinə kömək etmək vəzifəsi** (bu vəzifə beynəl-

xalq publik hüququn əsas insan hüquq və azadlıqlarına hörmət etmək kimi əsas prinsipindən irəli gəlir).

Dövlətlərin əsas hüquq və vəzifələri eynidir. Belə ki, bu hüquq və vəzifələri hər bir dövlət daşıyır. Başqa sözlə, istənilən dövlət belə hüquq və vəzifələrin daşıyıcısıdır. Ona görə ki, bütün dövlətlər beynəlxalq publik hüququn əsas prinsiplərinə (qeyd etdiyimiz kimi, bunlardan dövlətlərin əsas hüquq və vəzifələri irəli gəlir) əməl etməli, onları pozmamalıdırlar və bu, onların üzərinə qoyulan vacib öhdəlik sayılır. Beynəlxalq publik hüququn əsas prinsiplərinə əməl etmək və onları pozmamaq isə dövlətlərin əsas hüquq və vəzifələrin daşıyıcısı olmaları deməkdir.

Digər tərəfdən, dövlətlərin əsas hüquq və vəzifələri, qeyd etdiyimiz kimi, onların beynəlxalq publik hüquq subyektliyinin mahiyyəti sayılır. Bu səbəbdən istənilən dövlət belə hüquq və vəzifələr daşımalıdır.

7.3.4. Dövlətin yurisdiksiyası və immuniteti

7.3.4.1. Dövlətlərin yurisdiksiyası

Beynəlxalq publik hüquq subyektliyi institutunun dövlət suverenliyi yarıminstitutu iki subinstitutdan ibarətdir: dövlət yurisdiksiyası və dövlət immuniteti. Belə ki, dövlət suverenliyi iki anlayışla sıx surətdə bağlıdır. Həmin anlayışlar bunlardan ibarətdir:

– yurisdiksiya;

– immunitet.

Qeyd etməliyik ki, dövlətin yurisdiksiyası onun suverenliyinin vacib təzahürüdür. Dövlətin yurisdiksiyası onun suverenliyinin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Dövlətin yurisdiksiyası dedikdə hüquqla müəyyən olunan suveren dövlət hakimiyyəti (hüquqi hakimiyyət), onun həddi və şamil olunduğu sfera başa düşülür. Bu anlayışa daxil olan bey-

nəlxalq publik hüquq normalarının məcmusu **dövlət yurisdiksiyası subinstitutunu** formalaşdırır.

Dövlət yurisdiksiyasının müxtəlif növləri vardır. Belə ki, **həcm** kimi meyara görə, onun iki növü fərqləndirilir:

– tam yurisdiksiya;

– məhdud yurisdiksiya.

Dövlətin tam yurisdiksiyası dedikdə elə bir hakimiyyət başa düşülür ki, dövlət onun köməyi ilə necə davranmaq barədə göstərişlər (davranış göstərişləri) müəyyənləşdirir və malik olduğu bütün qanuni vasitələrlə öz göstərişlərinin həyata keçirilməsini təmin edir; o, öz ərazisi çərçivəsində məhz yurisdiksiyanın bu növünü həyata keçirir.

Dövlətin məhdud yurisdiksiyası dedikdə elə bir hakimiyyət başa düşülür ki, dövlət onun köməyi ilə necə davranmaq barədə göstərişlər verə bilər. Lakin o, göstərişlərinin yerinə yetirilməsini təmin etmək üçün məhdud vasitələrə (imkanlara) malik olur. Dövlət özünün xaricdəki vətəndaşlarına münasibətdə məhz məhdud yurisdiksiyanı həyata keçirir. Belə ki, dövlət öz hakimiyyətini ərazisindən kənarda olan vətəndaşlarına münasibətdə də müəyyən həcmdə həyata keçirir.

Şamil edilmə sferası kimi meyara görə, dövlət yurisdiksiyasının iki növü fərqləndirilir:

– ərazi yurisdiksiyası;

– eksterritorial yurisdiksiya.

Ərazi yurisdiksiyası dedikdə dövlətin öz ərazisi daxilində bütün şəxslərə şamil olunan və hüquqla müəyyənləşdirilən hakimiyyət başa düşülür. Yurisdiksiyanın bu növü həm həmin dövlətdə daimi yaşayan apatridlərə (vətəndaşlığı olmayan şəxslərə), həm də xarici vətəndaşlara (əcnəbi şəxslərə) şamil edilir. Xarici diplomatlara və immunitet hüququna malik olan digər şəxslərə gəldikdə isə, qeyd etmək lazımdır ki, dövlətin ərazi yurisdiksiyası onlara aid edilmir.

Eksterritorial yurisdiksiya dedikdə elə bir hakimiyyət başa düşülür ki, həmin hakimiyyət dövlət ərazisindən kənarda tətbiq olunur. Məsələn, beynəlxalq ərazilərdə olan vətəndaşlara dövlət yurisdiksiyası şamil edilir. Bundan başqa, dövlətin bayrağı altında üzən və uçan müvafiq nəqliyyat vasitələri (dəniz, hava və kosmik gəmilər) əgər beynəlxalq ərazilərdə olarsa, onlara həmin dövlətin hakimiyyəti şamil olunur. Belə ki, bu kimi hallarda beynəlxalq ərazi dövlət ərazisinin bir hissəsi hesab edilir. Digər tərəfdən, dövlətin ərazi tərkibinə daxil olmayan dəniz sularına da müəyyən dərəcədə həmin dövlətin hakimiyyəti şamil olunur.

Bu və ya digər dövlətin hakimiyyəti müəyyən dərəcədə həm də xaricdəki əcnəbilərə (xarici şəxslərə) şamil olunur. Belə ki, hər hansı əcnəbi həmin dövlətin ərazisindən kənarda onun özünün və ya vətəndaşlarının maraqlarına (təhlükəsizliyinə) zərər vuran hərəkət edir. Belə halda dövlət öz hakimiyyətini zərərvuran əcnəbi şəxs barəsində həyata keçirir. Məhz bu da dövlətin eksterritorial yurisdiksiyası hesab edilir.

Dövlətin yurisdiksiyası həm də müəyyən edir ki, dövlət özünün hüquqi göstəriş və qadağalarının pozulmasına görə hansı həddə məsuliyyət nəzərdə tutur. **Məsuliyyətin xarakterindən** asılı olaraq, dövlət yurisdiksiyası üç növə bölünür:

– mülki yurisdiksiya;

– cinayət yurisdiksiyası;

– inzibati yurisdiksiya.

Mülki yurisdiksiya dedikdə mülki hüquq pozuntusu törədildikdə həyata keçirilən yurisdiksiya başa düşülür. Dövlətin hüquqi göstərişlərinin pozulmasına görə təqsirkar şəxslər mülki-hüquqi məsuliyyətə cəlb olunduğu hallarda, mülki yurisdiksiya həyata keçirilir.

Cinayət yurisdiksiyası odur ki, dövlət onu cinayət törədildikdə tətbiq edir. Dövlətin hüquqi göstərişlərinin pozulmasına görə təqsirkar şəxs cinayət-hüquq məsuliyyətinə cəlb olunduğu hallarda, yurisdiksiyanın bu növü tətbiq edilir.

İnzibati yurisdiksiya dedikdə inzibati hüquq pozuntusu törədildikdə həyata keçirilən yurisdiksiya növü başa düşülür. Belə ki, inzibati hüquq pozuntusu (inzibati xəta) törədilməsinə görə təqsirkar şəxs inzibati-hüquqi məsuliyyətə cəlb olunur. Bu zaman onun barəsində inzibati yurisdiksiya həyata keçirilir.

Şəxslərə aid edilməsi və vətəndaşlıq məsələsi kimi meyara görə, dövlət yurisdiksiyasının dörd növü fərqləndirilir:

- şəxsi yurisdiksiya;
- ümumi yurisdiksiya;
- qoruyucu yurisdiksiya;
- universal yurisdiksiya.

Şəxsi yurisdiksiya dedikdə dövlətin öz vətəndaşlarına onların olduqları yerdən asılı olmayaraq, şamil edilən yurisdiksiya başa düşülür. Yurisdiksiyanın bu növü həm dövlət ərazisində, həm də dövlət ərazisindən kənarda olan öz vətəndaşlarına münasibətdə tətbiq edilir. Şəxsi yurisdiksiya, qeyd etməliyik ki, **vətəndaşlıq prinsipi** əsasında realizə olunur və bu prinsipə görə, dövlət yurisdiksiyanı yalnız öz vətəndaşlarına münasibətdə həyata keçirir. Dövlət yurisdiksiyası, birinci, onun öz ərazisində olan (yaşayan) vətəndaşlara şamil edilir. Dövlət yurisdiksiyası, ikinci, onun ərazisindən kənarda (xaricdə) olan öz vətəndaşları barəsində həyata keçirilir.

Ümumi yurisdiksiya dövlətin hüquqla müəyyən edilən elə bir hakimiyyətidir ki, həmin hakimiyyət dövlət ərazisi daxilində olan bütün şəxslərə şamil edilir. Əgər xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər həmin dövlətin ərazisində daim yaşayarlarsa, yurisdiksiya onlar barəsində də həyata keçirilir. Ona görə ki, ümumi yurisdiksiya vətəndaşlıq deyil, **ərazi prinsipi** ilə bağlıdır. Bu prinsipə görə, hər bir dövlət öz ərazisi və onun daxilində olan bütün şəxslər üzərində yurisdiksiyasını həyata keçirir. Ümumi yurisdiksiya dövlət ərazisində olan və immunitetdən istifadə edən şəxslərə (məsələn, xarici diplomatlara) şamil olunmur.

Qoruyucu yurisdiksiya odur ki, o, bu və ya digər dövlətin ərazisindən kənarda həmin dövlətə mühüm zərər vuran xarici vətəndaşlara (əcnəbi şəxslərə) şamil olunur. Məsələn, xarici vətəndaş müəyyən dövlətin ərazisindən kənarda həmin dövlətin, cəmiyyətin və ya şəxsiyyətin mənafeyi əleyhinə yönələn cinayət törədir. Belə halda cinayət törətmiş xarici vətəndaşa həmin dövlətin yurisdiksiyası şamil olunur.

Qoruyucu yurisdiksiya iki prinsipə uyğun olaraq həyata keçirilir. Bunlardan biri **passiv personal prinsipdir**. Bu prinsipə görə, dövlət yurisdiksiyası (dövlət hakimiyyəti) müəyyən dərəcədə həm də həmin dövlət ərazisindən kənarda olan xarici vətəndaşlara şamil edilir. İkinci prinsip isə **təhlükəsizlik prinsipidir** ki, bu prinsipə görə, dövlət yurisdiksiyanı onun təhlükəsizliyinə zərər vuran xarici vətəndaşlara münasibətdə həyata keçirir.

Universal yurisdiksiya zərərli hərəkətlər edən elə şəxslərə münasibətdə həyata keçirilir ki, bu, həmin şəxslərin vətəndaşlığından, zərərli hərəkətlərin edildiyi yerdən və hansı dövlətə zərər vurulmasından asılı olmur. Məsələn, dəniz piratlarına münasibətdə universal yurisdiksiya həyata keçirilir və istənilən dövlət onlara münasibətdə öz yurisdiksiyasını müəyyənləşdirə və reallaşdıra bilər. Buna görə də, istənilən dövlət öz hərbi gəmisi ilə açıq dənizdə tutduğu piratları məsuliyyətə cəlb edə bilər. Universal yurisdiksiya beynəlxalq müqavilə ilə müəyyən olunur.

Hakimiyyət xarakterindən asılı olaraq, dövlət yurisdiksiyası üç növə bölünür:

- qanunvericilik yurisdiksiyası;
- icra yurisdiksiyası;
- məhkəmə yurisdiksiyası.

Əgər dövlət yurisdiksiyası qanunvericilik hakimiyyəti tərəfindən həyata keçirilərsə, ona **qanunvericilik yurisdiksiyası** deyilir. Yurisdiksiyanın bu növünün mahiyyəti ondan ibarətdir ki, dövlətin qanunvericilik hakimiyyəti tərəfindən qəbul olunan

qanunlar həm onun sərhədləri daxilində, həm də sərhədlərindən kənarda qüvvədə olur. Buna görə də, dövlətin bütün vətəndaşları (həm dövlət ərazisində, həm də onun ərazisindən kənarda olan vətəndaşlar) onun qanunlarına əməl etməlidirlər.

İcra yurisdiksiyası dövlət hakimiyyətinin sahələrindən biri olan icra hakimiyyətinin həyata keçirdiyi yurisdiksiyaya deyilir. Belə ki, icra hakimiyyəti həm dövlət ərazisində, həm də dövlət ərazisindən kənarda qüvvəsi olan normativ hüquqi aktlar, yəni qanunqüvvəli aktlar (Prezident fərmanı, Hökumət qərarı və s.) qəbul etmək səlahiyyətinə malikdir. Məhz belə hakimiyyət səlahiyyəti icra yurisdiksiyası adlanır. Dövlətin vətəndaşları həm də icra hakimiyyətinin normativ aktlarını yerinə yetirməlidir.

Məhkəmə yurisdiksiyası dedikdə məhkəmə hakimiyyəti tərəfindən müəyyən olunan və həyata keçirilən yurisdiksiya başa düşülür. Onu məhkəmə orqanlarının yurisdiksiyasından fərqləndirmək lazımdır. Məhkəmə orqanlarının yurisdiksiyası dedikdə müəyyən kateqoriya işlərə baxmaq səlahiyyəti başa düşülür.

Bunlardan başqa, dövlət yurisdiksiyasının digər növləri də mövcuddur. Məsələn, **məsuliyyət həddi** baxımından, onun aşağıda göstərilən iki növü fərqləndirilir:

– sərəncam yurisdiksiyası;

– icra yurisdiksiyası.

Sərəncam yurisdiksiyası (prescriptive jurisdiction) dövlətin elə bir hakimiyyətidir ki, bu hakimiyyət dövlətin hüquqi göstərişlərinin şəxslər tərəfindən yerinə yetirilmə həddini müəyyən edir. **İcra yurisdiksiyası** (enforcement jurisdiction) isə elə bir hakimiyyətdir ki, bu hakimiyyət dövlətin hüquqi göstərişlərinin şəxslər tərəfindən pozulmasına görə məsuliyyətin həddini müəyyən edir. Məsələn, dövlətin xaricdə olan vətəndaşları həmin dövlətin hüquqi göstərişlərinə (qanunlarına və s.) əməl etməlidirlər; belə halda onların barəsində həyata keçirilən yurisdiksiya sərəncam yurisdiksiyasıdır. Əgər xaricdə həmin vətəndaşlar dövlətin hüquqi göstərişlərini pozarlarsa, məlum məsələdir ki, dövlət onları məsuliyyətə cəlb edə bilməz; amma onlar

öz ölkəsinə qayıdarlarsa, məsuliyyətə cəlb olunur və məcburetmə tədbirləri tətbiq edilir. Belə halda həmin vətəndaşlara münasibətdə artıq icra yurisdiksiyası həyata keçirilir.

Dövlətin yurisdiksiyası müəyyən hallarda beynəlxalq müqavilələr əsasında və onlara uyğun olaraq həyata keçirilir. Məsələn, bir sıra beynəlxalq müqavilədə dəniz ərazilərində dövlətin yurisdiksiyası nəzərdə tutulmuşdur: Ərazi suları və bitişik zonalar haqqında Cenevrə Konvensiyası (1958-ci il), Açıq dənizlər haqqında Cenevrə Konvensiyası (1958-ci il), Kontinental şelf haqqında Cenevrə Konvensiyası (1958-ci il), Dəniz hüququna dair BMT Konvensiyası (1982-ci il) və s.

Çoxtərəfli elə beynəlxalq müqavilələr bağlanmışdır ki, onlar bu və ya digər cinayət növü (onlar beynəlxalq miqyasda ictimai təhlükəli sayılır) ilə mübarizədə dövlətlərin əməkdaşlığına həsr edilmişdir; həmin müqavilələr universal yurisdiksiya nəzərdə tutur.

Dövlət yaranan kimi, eyni zamanda, onun yurisdiksiyası da mövcud olur və həyata keçirilir. Dövlətin mövcudluğuna son qoyulan anda isə, həm də onun yurisdiksiyası ləğv edilir.

Yurisdiksiya **çoxməzmunlu** anlayışdır. O, hüquqla müəyyən olunan hakimiyyətdən (hüquqi hakimiyyətdən) başqa, digər mənalarda da işlədilir: səlahiyyət mənasında, səlahiyyətlərin məcmusu mənasında, səlahiyyətlərin dairəsi mənasında, müəyyən məsələni həll etmək hüququ mənasında və s.

7.3.4.2. Dövlət immuniteti

İmmunitet beynəlxalq publik hüquq subyekti kimi dövlətin vacib xüsusiyyətlərindən biridir. Bildiyimiz kimi, dövlətlərin suveren bərabərliyi beynəlxalq publik hüququn əsas prinsiplərindən biridir və immunitet məhz həmin prinsipdən irəli gəlir. Digər tərəfdən, immunitet dövlətlərin suveren bərabərliyi prinsipinin elementlərindən biridir. İmmunitet həm də yurisdiksiya anlayışı ilə bağlıdır. Belə ki, immunitet digər dövlətlərin yurisdiksiyasına tabe olmamaq deməkdir. Başqa sözlə, immunitet

dedikdə müəyyən dövlətə digər dövlətlərin yurisdiksiyasının şamil olunmaması başa düşülür. Qeyd etməliyik ki, bu və ya digər dövlətə münasibətdə başqa dövlətlərin həm icra, həm də məhkəmə yurisdiksiyası həyata keçirilə bilməz. Bu o deməkdir ki, dövlətə başqa dövlətlərin həm icra, həm də məhkəmə yurisdiksiyası şamil edilmir.

İmmunitet dedikdə dövlətə başqa dövlətlərin icra və məhkəmə yurisdiksiyalarının şamil olunmaması başa düşülür. Əgər hər hansı dövlət digər dövlətlərin icra və məhkəmə yurisdiksiyalarına tabe olmazsa və ona münasibətdə həmin yurisdiksiyalar həyata keçirilməzsə, onda bu, dövlətin immunitetə malik olmasını göstərir. Təsadüfi deyil ki, dövlət immuniteti Qədim Roma hüququna məlum olan **«par in parem non habet imperium»** («bərabər bərabər üzərində hakimiyyətə malik deyil») kimi prinsipdən yaranmışdır. Bu prinsipə görə, müəyyən bir dövlətə digər dövlətin yurisdiksiyası şamil edilmir.

Məlum olduğu kimi, dünya birliyinin üzvü olan və beynəlxalq publik hüququn subyekti kimi tanınan dövlətlər müstəqildirlər, onlar öz suverenliyini həyata keçirərkən bir-birinə münasibətdə tabe və asılı olmurlar. Bu, yəni **müstəqil olmaları** dövlətlərin beynəlxalq-hüquqi statusunu müəyyənləşdirən və xarakterizə edən əsas cəhətlərdən biridir. Təsadüfi deyil ki, hüquqi mənada «immunitet» müstəqil olub, hakimiyyət altında olmamaq deməkdir. Dövlətlərin beynəlxalq-hüquqi statusu həm də belə bir əsas cəhətlə xarakterizə olunur ki, onlar **suveren bərabərliyə** malikdirlər. Dövlətlərin beynəlxalq-hüquqi statusunu xarakterizə edən məhz bu iki əsas cəhət (müstəqil olmaları və suveren bərabərlik) immunitet anlayışının əsasını təşkil edir.

Dövlət immunitetinin **universal səviyyədə** həyata keçirilməsi **Dövlətlərin yurisdiksiya immuniteti haqqında BMT Konvensiyası** ilə tənzimlənir. Bu konvensiyanın layihəsi BMT-nin Beynəlxalq Hüquq Komissiyası tərəfindən hazırlanmışdı ki, o, 1991-ci ildə baxılmaq üçün BMT üzvü olan dövlətlərə verildi; 2004-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən bəyənilən

layihə 17 yanvar 2005-ci il tarixdə Nyu-York şəhərində imzalandı. Lakin sözügedən konvensiya hal-hazıradək qüvvəyə minməmişdir. Məsələ burasındadır ki, konvensiyanın qüvvəyə minməsi üçün onu 30 dövlətin ratifikasiya etməsi tələb olunur və məhz bundan sonra konvensiya qüvvəyə minəcəkdir.

Konvensiyanın əsas cəhətlərindən biri ondan ibarətdir ki, o, təkcə dövlətləri immunitet hüququ ilə təmin etmir. Konvensiyaya görə, həmçinin dövlət əmlakı barədə immunitet tətbiq edilə bilər. Başqa sözlə, adıçəkilən konvensiya dövlət əmlakının immunitetini də tənzimləyir.

Dövlət immunitetinin tənzimlənməsi həm də **regional səviyyədə** həyata keçirilir. Belə ki, 1972-ci ildə AŞ çərçivəsində **Dövlət immuniteti haqqında Avropa Konvensiyası** qəbul edilmişdir; 11 iyun 1976-cı il tarixdə qüvvəyə minən bu Konvensiya 6 fəsil, 41 maddədən ibarətdir.[1] Konvensiyada Avropa dövlətləri iştirak edir: Almaniya, Avstriya, Belçika, Böyük Britaniya, Lüksemburq, İsveçrə, Hollandiya və digər Avropa dövlətləri onun üzvüdür. Azərbaycan Respublikası hələlik bu konvensiyada iştirak etmir.[2]

Sözügedən Avropa Konvensiyası dövlət immuniteti prinsipindən çıxış edir. Bu prinsipə görə, dövlətin immunitet hüququ vardır (Konvensiyanın 15-ci maddəsi). Bununla yanaşı, konvensiya dövlətin immunitetdən istifadə edə bilmədiyi halların dəqiq və qəti siyahısını verir ki, həmin hallar 1–14-cü maddələrdə sadalanır: məsələn, dövlət istehsal, maliyyə və ticarət, vərəsəlik, delikt (zərərin əvəzini ödəmə) və digər məsələlərlə bağlı öhdəliklərdə (mülki xarakterli öhdəlik-hüquq münasibətlərində) iştirak edən zaman immunitetdən istifadə edə bilməz. Konvensiya bu kimi halları sadalamaqla, həmin hallar vasitəsi ilə dövlət immuniteti prinsipini məhdudlaşdırır. Konvensiyada həm də göstərilir ki, əgər dövlət tərəfindən immunitetdən könüllü

[1] *Konvensiyanın tam mətni verilmişdir:* Международное частное право. Книга 1 / Авторы-составители: Н.Ю.Ерпылева, М.Б.Касенова. М., 2008, с.276-288.

[2] URL: http: // www.conventions.coe.int (20.05.2018-ci il).

surətdə imtina olunarsa, onda o, həmin immunitetdən istifadə edə bilməz. Dövlət isə istənilən halda immunitetdən imtina edə bilər. Ona görə ki, immunitetdən istifadə etmək dövlətin vəzifəsi deyil, hüququdur. Hüququn həyata keçirilməsindən və ondan istifadə edilməsindən isə, aydın məsələdir ki, imtina hər bir zaman mümkündür.

Dövlət immunitetinin **üç növü** fərqləndirilir:[1]

– mütləq immunitet;
– funksional immunitet;
– məhdud immunitet.

Mütləq immunitet dedikdə dövlətə başqa dövlətlərin yurisdiksiyasının (hakimiyyətinin) şamil olunmaması başa düşülür. İmmunitetin bu növünə həm də **qeyri-məhdud immunitet** deyilir, çünki dövlətə münasibətdə başqa dövlətlərin yurisdiksiyası (hakimiyyəti) həyata keçirilə bilməz. Başqa sözlə, əgər dövlət xarici dövlətlərin hakimiyyət xarakterli hərəkətlərinə məruz qala bilməzsə, bu o deməkdir ki, həmin dövlət qeyri-məhdud immunitetə malikdir. Buna görə də, ona münasibətdə, yəni immunitetə malik olan dövlətə münasibətdə başqa dövlətlərin məhkəmə və icra hakimiyyət orqanlarının qərarları həyata keçirilə bilməz.

Dövlətlər mütləq (qeyri-məhdud) immunitetə ona görə malikdirlər ki, onlar suverenliyə malik olub, **hüquqi cəhətdən bərabərdirlər və bir-birindən asılı deyillər**. Sovet, eləcə də sosialist sisteminə daxil olan ölkələrin qanunvericiliyi məhz mütləq immunitet prinsipindən çıxış edirdi.

Funksional immunitet odur ki, öz suveren funksiyasını həyata keçirən zaman dövlət immunitetə malik olur. Öz süveren funksiyasını yerinə yetirməklə bağlı olmayan hallarda isə, o, immunitetdən istifadə etmir. Məsələn, dövlət xaricdə diplomatik nümayəndəlik üçün bina tikdirmək məqsədilə hər hansı tikinti şirkəti ilə podrat müqaviləsi bağlayır və belə halda dövlət immunitetə malik olur. Ona görə ki, diplomatik münasibətlər

[1] *Daha ətraflı:* Allahverdiyev S.S.Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, 314-321.

yaratmaq və bu münasibətləri həyata keçirmək dövlətin suveren funksiyası sayılır. Lakin bu zaman dövlət hər hansı xarici təşkilatdan mal (məhsul) aldıqda, sadəcə olaraq, immunitetdən istifadə etmir.

Qeyd etməliyik ki, keçən yüzilliyin 70–80-ci illərində bəzi ölkələrdə (ABŞ, Böyük Britaniya, Cənubi Afrika, Kanada, Sinqapur, Pakistan və Avstraliya) dövlət immunitetinə həsr olunan müvafiq qanunlar qəbul edildi. Həmin qanunlar məhz funksional immunitet prinsipindən çıxış edir ki, onlar bu prinsipin müəyyənləşdirilməsində vacib rol oynamışdır.

Əgər dövlətlərin özlərinin müəyyənləşdirdiyi konkret hallarda onlar immunitetdən istifadə etməzlərsə, buna **məhdud immunitet** deyilir. Məsələn, yuxarıda adını çəkdiyimiz Avropa Konvensiyası (1972-ci il) immuniteti məhdudlaşdıran konkret halları sadalayır. Deməli, o, məhdud immunitet prinsipindən çıxış edir. Məhdud immunitet, adətən, beynəlxalq müqavilələrdə nəzərdə tutulur.[1]

Mütləq (qeyri-məhdud) immunitet tarixən dövlətlər arasında rəsmi münasibətləri qoruyub saxlamaq üçün, bir-birinin ərazisində qarşılıqlı fəaliyyət göstərməkdən ötrü müəyyən edilmişdi. Lakin, XIX əsrin axırlarından etibarən dövlətin kommersiya xarakterli münasibətlərdə iştiraketmə hallarının artdığı və belə münasibətlərin genişləndiyi bir şəraitdə mütləq (qeyri-məhdud) immunitetdən imtina olunmağa, onun məhdudlaşdırılmasına başlandı. Belə ki, mütləq immunitet dövlətlərin iştirak etdikləri kommersiya münasibətlərinin inkişafına mane olurdu. Digər tərəfdən, immunitetin bu növü xarici dövlətlərlə kommersiya münasibətlərinə daxil olan fiziki və hüquqi şəxsləri hüquqi müdafiədən məhrum edirdi. Buna görə də, müasir dövrdə **dövlət**

[1] İ.İ.Lukaşuk məhdud immunitet və funksional immunitetlə bağlı belə bir fikir söyləyir ki, «məhdud immunitet» immunitet haqqında qanunlarda nəzərdə tutulur *(bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.301). Lakin, qeyd etməliyik ki, daxili qanunvericiliklə funksional immunitet müəyyən edilir; məhdud immunitet isə, yalnız beynəlxalq müqavilə bağlamaq yolu ilə müəyyənləşdirilir.

immunitetinin məhdudlaşdırılması konsepsiyası geniş səviyyədə tanınır. Bu konsepsiyaya görə, öz hakimiyyətini həyata keçirmək üçün hərəkətlər edən zaman dövlət suveren hakimiyyət daşıyıcısı və subyekti kimi (jure imperium) immunitetə malik olur; beynəlxalq kommersiya münasibətlərində iştirak edən hallarda isə (jure gestionis) dövlət immunitetdən istifadə etmir.

Beləliklə, qeyd edə bilərik ki, dövlət immuniteti müasir beynəlxalq publik hüququn əsas anlayışlarından biridir. Bu anlayışla bağlı olan beynəlxalq publik hüquq normaları birləşərək dövlət suverenliyi yarıminstitutunun tərkibində **dövlət immuniteti subinstitutunu** yaradır. Belə ki, «beynəlxalq publik hüquq subyektliyi» beynəlxalq publik hüququn ümumi hissəsinin əsas institutlarından biri sayılır və bu institut özündə bir neçə yarıminstitutu birləşdirir: dövlətlərin beynəlxalq publik hüquq subyektliyi yarıminstitutu, dövlətlərarası təşkilatların beynəlxalq publik hüquq subyektliyi yarıminstitutu, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqların (millətlərin) beynəlxalq publik hüquq subyektliyi yarıminstitutu, dövlət suverenliyi yarıminstitutu və s. Dövlət immuniteti «dövlət suverenliyi» kimi yarıminstituta aid olan subinstitutlardan biridir; yurisdiksiya isə digər subinstitut sayılır[1].

7.3.5. Beynəlxalq publik hüquqda dövlətlərin təsnifi

7.3.5.1. Dövlətlərin beynəlxalq-hüquqi təsnifinin əsasları

Beynəlxalq publik hüququn subyekti kimi dövlətlər suverenliyə malikdirlər və suverenlik onların əsas atributu sayılır. Dövlətlər öz suverenliyini həyata keçirərkən müstəqil olub, bir-bir-

[1] İngiltərəli müəllif C.O'Brayen belə bir fikir söyləyir ki, yurisdiksiya və immunitet müasir beynəlxalq publik hüququn əsas sahələrindən hesab olunur *(bax:* O'Brien J.International Law. London, 2001 // В книге: Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.23). Güman edirik ki, onları beynəlxalq publik hüququn ayrıca sahələri hesab etməyin elə bir məntiqi, obyektiv və kifayətedici hüquqi əsası mövcud deyildir; onlar beynəlxalq publik hüququn ümumi hissəsinə aid olan anlayışlardır.

inə tabe deyillər; bu zaman hər hansı məhdudlaşmaya yol verilmir.

Əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüququn subyekti kimi dövlətlər hüquqi cəhətdən bərabərdirlər. Belə ki, beynəlxalq subyektiv hüquqlara malik olmaqda və beynəlxalq subyektiv-hüquqi vəzifələr daşımaqda bütün dövlətlərə istisna müəyyən edilmədən eyni (bərabər) hüquqi imkanlar verilmişdir. Lakin, buna baxmayaraq, ümumi səciyyəvi əlamətlərlə (suverenlik, müstəqillik və suveren bərabərlik) xarakterizə olunsalar da, dövlətlərin **fərdi beynəlxalq-hüquqi statusu** müxtəlifdir, onların beynəlxalq (dövlətlərarası) sistemdə tutduqları yer və mövqe də eyni deyildir. Aydın məsələdir ki, beynəlxalq təhlükəsizlik və sülhün təmin edilməsində də dövlətlər bərabər rol oynamırlar. Belə ki, beynəlxalq təhlükəsizliyin təmin edilməsində, dünyada sülhün qorunub saxlanmasında bəzi dövlətlərin rolu daha böyükdür.

Dövlətlər öz **faktiki elementləri** baxımından da, bir-birindən fərqlənirlər. Bu da, öz növbəsində. onların faktiki cəhətdən bərabər olmamalarına səbəb olur. De-fakto bərabər olmamaq isə, təbii ki, dövlətlərin beynəlxalq publik hüquq üzrə malik olduqları hüquq və daşıdıqları vəzifələrin, yəni beynəlxalq subyektiv hüquq və vəzifələrinin həcmcə fərqlənməsinə gətirib çıxarır. Belə ki, dövlətlərdən biri digərinə nisbətən daha çox beynəlxalq subyektiv hüquq əldə edir və vəzifələr daşıyır və s.

Dövlətlər bir-birindən həm də özlərinin **daxili quruluşuna** görə fərqlənirlər. Belə ki, daxili quruluşa görə onlardan bəziləri sadə, digərləri isə mürəkkəbdir. Dövlətlər həmçinin **iqtisadi inkişaf** baxımından, eyni deyildir. Belə ki, bəzi dövlətlər iqtisadi cəhətdən inkişaf etmiş, digərləri isə hələ inkişaf etməkdədir.

Bəzi dövlətlər **xüsusi hüquqi statusa** malikdirlər (məsələn, hər hansı dövlət bitərəfdir), digərlərinin isə xüsusi hüquqi statusu yoxdur. Dövlətlər **ərazi** və **əhali** baxımından da, bir-birindən fərqlənir. Belə ki, bəzi dövlətlər daha böyük əraziyə malikdir və onların daha çox əhalisi vardır.

Beynəlxalq aləmdə dövlətlərin siyasi nüfuzu və iqtisadi potensialı eyni deyildir və bu nöqteyi-nəzərdən də, dövlətlər bir-birindən fərqlənirlər. Dövlətlərin bir-birindən fərqlənməsinin əsasını həm də digər meyarlar təşkil edə bilər.

Göründüyü kimi, bu və ya digər meyar əsasında dövlətlər fərdi xüsusiyyətlərə malik olur və bu səbəbdən bir-birindən fərqlənir. Bu da, öz növbəsində, dövlətlərin müxtəlif növlərə bölünməsini şərtləndirir.

Dövlətlərin bu və ya digər meyara görə ayrı-ayrı növlərə bölünməsinə **dövlətlərin hüquqi təsnifi** deyilir.

Bildiyimiz kimi, dövlətlərin suveren bərabərliyi beynəlxalq publik hüququn əsas prinsiplərindən biridir. Bu prinsipə görə, dövlətlər hər hansı meyardan (məsələn, dövlətin iqtisadi inkişaf səviyyəsindən, hərbi-siyasi gücündən, beynəlxalq aləmdəki iqtisadi potensialından və siyasi nüfuzundan, əhalisindən, ərazisindən, sadə və ya mürəkkəb daxili quruluşa malik olmasından və digər amillərdən) asılı olmayaraq, hüquqi cəhətdən bərabərdirlər. Məhz bu səbəbdən beynəlxalq publik hüquqda dövlətlərin təsnifinin, onların ayrı-ayrı növlərə bölünməsinin aktual hüquqi əhəmiyyəti olmur. Lakin, eyni zamanda, hüquqi xarakterli elə məsələlər vardır ki, həmin məsələlərin həllində dövlətin növü hüquqi əhəmiyyət kəsb edir. Məsələn, sadə quruluşa malik olan dövlətlər (sadə dövlətlər) beynəlxalq publik hüququn vahid və bölünməz subyektidir; mürəkkəb daxili quruluşa malik olan dövlətlər (mürəkkəb dövlətlər) isə beynəlxalq publik hüququn vahid və bölünməz subyekti sayılmır. Məsələ burasındadır ki, mürəkkəb dövlətlərin tərkib hissələri (məsələn, respublikalar, ştatlar və s.) məhdud olsa da, müəyyən dərəcədə beynəlxalq publik hüquq subyektliyinə malikdirlər. Belə ki, onlar, yəni mürəkkəb dövlətlərin tərkib hissələri subyekt qismində bu və ya digər beynəlxalq (dövlətlərarası) münasibətdə iştirak edə bilər. Qeyd etməliyik ki, beynəlxalq publik hüquq bunu qadağan edən hər hansı göstəriş ifadə etmir. Bu kimi hallar, yəni hüquqi xarakter daşıyan müəyyən məsələlərin həlli göstərir ki, beynəlxalq publik hüquqda ayrı-ayrı məqamlarda

dövlətlərin təsnifinin hüquqi əhəmiyyəti vardır. Həm də ona görə ki, bu və ya digər növ dövlətin beynəlxalq publik hüquq subyektliyinin özünəxas spesifik xüsusiyyətləri vardır. Başqa sözlə, dövlətlərin beynəlxalq publik hüquq subyektliyinin xüsusiyyətləri onların növündən asılı olaraq müəyyən edilir.

7.3.5.2. Böyük və kiçik dövlətlər

Dünyada **beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində oynadıqları rola** görə dövlətlər iki növə (qrupa) bölünür:

– böyük dövlətlər;

– kiçik dövlətlər.

Böyük dövlətlər dedikdə beynəlxalq publik hüquq normalarının yaradılmasında və həmin normalara əməl olunmasının təmin edilməsində vacib rol oynayan, dünyada beynəlxalq sülh, təhlükəsizlik və hüquq qaydasının qorunub saxlanmasına görə xüsusi məsuliyyət daşıyan dövlətlər başa düşülür. Bu növ dövlətlər özlərindən asılı olan hər şeyi etməlidirlər ki, beynəlxalq gərginliyin artmasına səbəb ola bilən vəziyyət və münaqişələr yaranmasın; onlar bütün dövlətlərin sülh və təhlükəsizlik şəraitində yaşamalarına kömək etməlidirlər. Böyük dövlətlər həm də belə bir vəzifə daşıyır ki, dövlətlərin daxili işlərinə kənardan qarışılmasın və müdaxilə edilməsin. Məsələn, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər böyük dövlətlər sırasına aiddir; məlum olduğu kimi, onların sayı beşdir (ABŞ, Böyük Britaniya, Fransa, Çin və Rusiya Federasiyası); BMT-nin Nizamnaməsi həmin dövlətləri xüsusi hüquqla təmin edir. Digər tərəfdən, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi beynəlxalq sülh və təhlükəsizliyin, habelə dünyada qaydaqanunun qorunub saxlanması üçün başlıca məsuliyyət daşıyırlar. Qeyd etdiyimiz kimi, sülh üçün təhlükə yarandığı, sülh pozulduğu və ya təcavüz aktı həyata keçirildiyi hallarda BMT-nin Təhlükəsizlik Şurası güc tətbiq olunması barədə qərar qəbul

edir (BMT Nizamnaməsinin 39 və 42-ci maddələri); qərar isə BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin yekdilliyi (yekdillik prinsipi) əsasında qəbul olunur. Bu səbəbdən, bəzən, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətləri **dünya liderləri** adlandırırlar və müasir beynəlxalq aləmdə bu dövlətlər, xüsusən də, ABŞ dünya lideri kimi tanınır.

Kiçik dövlətlər dedikdə beynəlxalq sülh, təhlükəsizlik və hüquq qaydasının təmin edilməsində böyük rol oynamayan dövlətlər başa düşülür. Onların dünya siyasətinə və beynəlxalq hadisələrə təsiri məhdud olsa da, qeyd etmək lazımdır ki, BMT-də səslərin üçdə iki hissəsi məhz kiçik dövlətlərə məxsusdur. Ancaq beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanmasına görə kiçik dövlətlər heç də böyük və əsas məsuliyyət daşımırlar. Lakin, bu o demək deyildir ki, dünya işlərində və beynəlxalq hadisələrdə kiçik dövlətlər, ümumiyyətlə, heç bir rol oynamırlar. Bu növ dövlətlərin, qeyd etməliyik ki, siyasi-hüquqi fəallığını artırmaqla və öz aralarında, habelə böyük dövlətlərlə əməkdaşlığı inkişaf etdirməklə nüfuzlarını xeyli artırmaq qabiliyyəti vardır. Günün reallığı bundan ibarətdir ki, BMT səviyyəsində qərarlar qəbul edilməsinə və beynəlxalq publik hüququn inkişafına kiçik dövlətlərin təsiri artmaqda davam edir.

7.3.5.3. «Böyük Səkkizliyə» daxil olan və olmayan dövlətlər

Məlum olduğu kimi, beynəlxalq sahədə dövlətlərin iqtisadi potensialı və siyasi nüfuzu eyni deyildir. Bu baxımdan, onlar iki növə (qrupa) ayrılır:

– «Böyük Səkkizliyə» daxil olan dövlətlər;

– «Böyük Səkkizliyə» daxil olmayan dövlətlər.

«Böyük Səkkizliyə» daxil olan dövlətlər dedikdə beynəlxalq sahədə böyük siyasi nüfuza və güclü iqtisadi potensiala malik olan dövlətlər başa düşülür. Həmin dövlətlər bunlardan

ibarətdir: ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Kanada, Yaponiya, Rusiya Federasiyası. Onlar dünyanın ən inkişaf etmiş sənaye ölkələridir. Lakin, əvvəllərdə qeyd etdiyimiz kimi, Rusiya Federasiyası 2014-cü ildə bu klubdan xaric edildikdən sonra həmin qurum «Böyük Yeddilik» (G-7) adlanır. Halhazırda Rusiya Federasiyasının bu kluba yenidən üzv olması məsələsi müzakirə edilir.

«Böyük Səkkizlik» dövlətləri dünyanın qlobal siyasi problemləri barədə qərarlar qəbul edir, beynəlxalq təhlükəsizlik məsələlərini həll edirlər. Bununla yanaşı, onlar dünyadakı iqtisadi və maliyyə problemlərinin həllində də vacib rol oynayırlar. «Böyük Səkkizlik» dövlətləri dünya iqtisadiyyatının əsas məsələlərini tənzim etməklə dünya siyasətinə böyük təsir göstərir və onlar dünya iqtisadiyyatının strukturuna təsir etmək qabiliyyətinə malikdir.

«Böyük Səkkizlik» dövlətləri vaxtaşırı olaraq, yüksək səviyyədə görüşlər (Great-8) keçirir ki, bu görüşlərdə qlobal əhəmiyyətə malik olan beynəlxalq problemlər müzakirə edilir. Lakin həmin görüşlərdə qəbul olunan qərarların məcburi hüquqi qüvvəsi yoxdur və bu səbəbdən həmin qərarlar hüquqi əhəmiyyət kəsb etmir; ona görə ki, «**Böyük Səkkizlik» paratəşkilatdır**.[1]

«Böyük Səkkizliyə» daxil olmayan dövlətlər isə dünyadakı beynəlxalq təhlükəsizlik və iqtisadi-maliyyə problemlərinin həllində vacib rol oynamırlar, beynəlxalq aləmdə böyük siyasi nüfuza malik deyillər. Həmin dövlətlərin dünya iqtisadiyyatının mühüm problemlərini həll etmək imkanı yoxdur və bu səbəbdən də, onlar dünya siyasətinə təsir göstərə bilmirlər. Odur ki, «Böyük Səkkizliyə» daxil olmayan dövlətlər dünya liderləri kimi tanınmırlar. «Böyük Səkkizliyə» daxil olan dövlətlər isə, onlardan fərqli olaraq, dünya liderləri sayılırlar.

[1] *Paratəşkilat barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.97-104.

7.3.5.4. Sadə və mürəkkəb dövlətlər

Dövlətlər həm də öz **dövlət quruluşu formasına** (siyasi-ərazi quruluş formasına) və ya öz ərazi-təşkilati strukturuna görə bir-birindən fərqlənirlər. Bu aspektdən onların aşağıda göstərilən iki növü fərqləndirilir:

– sadə dövlətlər;

– mürəkkəb dövlətlər.

Qeyd etməliyik ki, bu cür bölgünün vacib hüquqi əhəmiyyəti vardır. Belə ki, beynəlxalq publik hüququn subyekti kimi dövlətlər öz siyasi-ərazi quruluşundan asılı olaraq, müəyyən xüsusiyyətlərə malikdir. Başqa sözlə, sadə və mürəkkəb dövlətlərin beynəlxalq publik hüquq subyektliyi özünəxas xüsusiyyətlərlə xarakterizə olunur.

Sadə dövlət tam, vahid və bütöv siyasi hakimiyyət təşkilatıdır. Bu növ dövlətlər hakimiyyət orqanlarının vahid sistemi ilə xarakterizə edilir və onlara **unitar dövlət** də deyilir. Məsələn, Yaponiya, Azərbaycan, İtaliya, Fransa və s. unitar dövlət sayılır.

Sadə (unitar) dövlətlər inzibati-ərazi vahidlərindən (məsələn, rayonlardan, vilayətlərdən və s.) ibarətdir və onlar unitar dövlətin tərkib hissələri sayılır.

Unitar dövlət beynəlxalq publik hüququn vahid və bölünməz subyektidir. Belə ki, beynəlxalq publik hüququn subyekti rolunda unitar dövlətin özü çıxış edir. Başqa sözlə, beynəlxalq münasibətlər sahəsində beynəlxalq publik hüququn vahid subyekti kimi unitar dövlətin özü iştirak edir.

Unitar (sadə) dövlətin tərkib hissələrinə (inzibati-ərazi vahidlərinə) gəldikdə isə, qeyd etməliyik ki, onların beynəlxalq publik hüquq subyektliyi barədə məsələ ortaya çıxmır, belə problem yaranmır. Ona görə ki, sadə (unitar) dövlətlərin tərkib hissələri beynəlxalq publik hüquq subyektliyinə malik deyildir. Nəzərə almalıyıq ki, unitar (sadə) dövlətlərin tərkib hissələrinin beynəlxalq publik hüquq subyektliyi barədə məsələ, ümu-

miyyətlə, mövcud olmur.[1] Öz tərkib hissələrinin beynəlxalq publik hüquq subyektliyi olmaması səbəbindən sadə (unitar) dövlətlər beynəlxalq publik hüququn yeganə subyektidir. Məsələn, Azərbaycan Respublikası sadə (unitar) dövlətdir, onun tərkib hissələrinin (inzibati-ərazi vahidlərinin), yəni rayonların beynəlxalq publik hüquq subyektliyi yoxdur və bu səbəbdən onlar beynəlxalq publik hüququn subyekti ola bilməzlər. Beynəlxalq publik hüququn yeganə (vahid) subyekti məhz Azərbaycan dövlətinin özüdür; beynəlxalq (dövlətlərarası) münasibətlər sistemində beynəlxalq publik hüququn subyekti kimi yalnız Azərbaycan Respublikasının özü çıxış edə bilər.

Bununla yanaşı, müasir dövrdə sadə (unitar) dövlətlərin tərkib hissələrinin beynəlxalq münasibətlərdə iştirak etmək tendensiyası müşahidə olunur. Məsələn, sadə (unitar) dövlət olan Hollandiyanın tərkibinə Aruba adası kimi müxtar qurum daxildir ki, həmin qurumla ABŞ arasında hava daşımaları (əlaqələri) barədə Hollandiya və ABŞ dövlətləri 1986-cı ildə müvafiq saziş bağlamışdır və sazişin bağlanmasında Aruba parlamenti də iştirak etmişdir.[2] Digər bir misalda, 1992-ci ildə Rusiya Federasiyası və Fransa arasında bağlanmış beynəlxalq müqavilədə həmin dövlətlərin inzibati-ərazi vahidlərinin öz aralarında birbaşa əlaqə yaradılmasının vacibliyi göstərilir. Lakin, unitar (sadə) dövlətin tərkib hissələri xarici əlaqələr sahəsində müəyyən hüquqlara malik olsalar da, beynəlxalq hüququn subyekti kimi tanına bilməzlər, çünki onlar beynəlxalq deyil, daxili muxtariyyətə malikdir.

Mürəkkəb dövlət odur ki, onun tərkibi ayrı-ayrı dövlət qurumlarından ibarətdir və məhz həmin qurumlar mürəkkəb dövlətin tərkib hissələri sayılır. Məsələn, Rusiya Federasiyası mürəkkəb dövlət sayılır, çünki onun tərkibinə müxtar respublika statuslu bir neçə dövlət qurumu daxildir (Tatarıstan, Dağıstan, Çeçenistan və digər respublikalar). Mürəkkəb dövlətə **ittifaq dövləti** də deyilir.

[1] Курс международного права. Том 1. М., 1989, с.167.
[2] URL: http: // www.ru.m.wikipedia.org (20.05.2018-ci il).

Mürəkkəb dövlətlərdə hansı qurumun beynəlxalq publik hüququn subyekti olması məsələsinə gəldikdə isə, qeyd edə biləRik ki, bu məsələ mürəkkəb dövlətin siyasi-ərazi quruluş formasından asılı olaraq həll edilir. Dövlət quruluşu forması baxımından, məlum olduğu kimi, mürəkkəb dövlətlərin **iki növü** mövcuddur:

– konfederativ dövlət (konfederasiya);

– federativ dövlət (federasiya).

Konfederativ dövlət (konfederasiya) dedikdə müəyyən məqsədə çatmaq üçün (məsələn, birgə müdafiə olunmaq üçün, xarici əlaqələr sahəsində birgə siyasət yürütmək üçün və s.) suveren dövlətlərin ittifaqı (birliyi) başa düşülür. Konfederativ dövlətin tərkib hissəsi olan suveren dövlətlər öz hakimiyyət orqanlarını saxlayırlar. Bununla yanaşı, konfederativ dövlətdə bəzi ümumi (birgə) hakimiyyət orqanları da yaradılır ki, onlara **konfederativ orqanlar** deyilir. Bu orqanların əsas məqsədi, hər şeydən əvvəl, xarici siyasət və hərbi məsələləri eyni cür həll etməkdən ibarətdir. Konfederativ orqanların səlahiyyətinə digər məsələlərin (maliyyə və s.) həlli də daxil ola bilər. Qalan məsələləri isə konfederasiya üzvü olan suveren dövlətlərin özləri müstəqil surətdə həll edirlər. Konfederasiya üzv-dövlətlərin müvafiq razılığı əsasında yaradılır. Beynəlxalq müqavilə olan həmin razılıq sənədində konfederasiyanın hansı məqsəd üçün yaradılması və s. məsələlər öz əksini tapır. Bir daha təkrar edərək göstəririk ki, konfederasiya, adətən, suveren dövlətlərin aşağıda göstərilən iki sahədə ümumi fəaliyyətini həyata keçirmək üçün yaradılır: 1) xarici siyasət sahəsində, 2) hərbi müdafiə sahəsində.

Müasir dövrdə konfederativ dövlət (konfederasiya), demək olar ki, mövcud deyildir. Lakin, tarixi keçmişin ayrı-ayrı dövrlərində konfederativ dövlət yaradılmış və fəaliyyət göstərmişdir: Hollandiya (1580–1795-ci illər), ABŞ (1778–1787-ci illər), İsveçrə (1815–1848-ci illər), Almaniya (1815–1866-cı illər), özündə vaxtilə Misir və Suriyanı birləşdirən Ərəb Respublikası (1958–1961-ci illər). Hal-hazırda İsveçrə,

formal olaraq, konfederasiya adlanır. Belə ki, o, indiyə kimi öz rəsmi adını saxlamışdır.

Qarşısına qoyduğu məqsədə çatdıqdan sonra konfederasiya ləğv edilir, onun mövcudluğuna son qoyulur. Konfederasiya, eyni zamanda, federativ dövlətə də çevrilə bilər. Məsələn, ABŞ, İsveçrə və Almaniya konfederasiyası vaxtilə federativ dövlətə çevrilmişdir.

Konfederasiyanın beynəlxalq publik hüquq subyektliyinə gəldikdə isə, qeyd etməliyik ki, onun tam beynəlxalq publik hüquq subyektliyi yoxdur. Lakin, məsələ burasındadır ki, konfederasiya üzvü olan suveren dövlətlər öz beynəlxalq publik hüquq subyektliyini (suverenliyini) saxlayırlar və buna görə də, onlar özləri beynəlxalq publik hüququn subyektidir. Eyni zamanda, bununla yanaşı, üzv-dövlətlər beynəlxalq sahədə öz səlahiyyətlərinin bir hissəsini konfederasiyaya verə bilər. Həmin səlahiyyətləri həyata keçirmək üçün konfederasiya beynəlxalq münasibətlərə qismən daxil olur və belə halda, məhdud olsa da, o, beynəlxalq publik hüququn subyekti sayılır. Digər tərəfdən, konfederasiyanın yaradılması barədə saziş onun üzərinə beynəlxalq münasibətlər sahəsində bu və ya digər vəzifə qoya bilər. Həmin vəzifələri icra edərkən konfederasiya beynəlxalq münasibətlərə girir və belə halda da, o, təbii ki, beynəlxalq publik hüququn subyekti olur. Müəlliflərdən L.D.Timçenko çox düzgün olaraq göstərir ki, əgər təsis sazişində təsbit edilərsə, konfederasiyanın özü beynəlxalq publik hüququn subyekti ola bilər.[1] Bütün bunlar onu göstərir ki, konfederasiya özü **məhdud (məqsədli) beynəlxalq publik hüquq subyektliyinə** malikdir.[2]

Federasiya (federativ dövlət) mürəkkəb dövlətlərin klassik forması sayılır və o, ittifaq dövləti hesab olunur. **Federativ dövlət (federasiya)** dedikdə ayrı-ayrı inzibati-ərazi vahidlərindən ibarət olan elə ittifaq dövləti başa düşülür ki, həmin vahid-

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.32.

[2] Bəzi müəlliflər qəti formada göstərirlər ki, konfederasiya beynəlxalq publik hüququn subyekti olmaq xüsusiyyətinə malik deyil *(məsələn, bax:* Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.130).

lər həm siyasi nöqteyi-nəzərdən, həm də hüquqi cəhətdən müəyyən dərəcədə müstəqildirlər. İnzibati-ərazi vahidləri dedikdə aşağıdakılar başa düşülür: respublika, torpaq, kanton,[1] əyalət, ştat və s. Məsələn, Rusiya Federasiyası federativ dövlətdir, çünki o, respublika kimi inzibati-ərazi vahidlərindən ibarətdir. ABŞ da federativ dövlət sayılır və o, özündə ştat kimi inzibati-ərazi vahidlərini birləşdirir. İsveçrə kantonlardan, Almaniya torpaqlardan ibarətdir ki, buna görə İsveçrə də, Almaniya da federativ dövlətdir. Federativ dövlətlərin inzibati-ərazi vahidlərinə **federasiya subyektləri** deyilir (onlar, bəzən, **federasiya üzvləri** də adlanır).

Dünyada mövcud olan federativ dövlətlərin sayı çox da deyildir. Göstərdiklərimizdən başqa, Avstraliya, Avstriya, Argentina, Braziliya, Hindistan, Kanada, Meksika, Pakistan və digər bir neçə dövlət də federativ dövlətlər sırasına daxildir.

Federasiya subyektlərinin öz qanunverici, icra və məhkəmə hakimiyyət orqanları vardır ki, onların səlahiyyətləri, adətən, federativ dövlətin konstitusiyası **(federal konstitusiya)** ilə müəyyən olunur. Federativ dövlətin ərazisində həm də federal dövlət hakimiyyət orqanları (mərkəzi hakimiyyət orqanları) fəaliyyət göstərirlər ki, onlar ümumfederal səlahiyyətlərə malikdir (xarici əlaqələr məhz federal hakimiyyət orqanlarının əlində cəmlənmişdir).

Federativ dövlətin beynəlxalq publik hüququn subyekti olması məsələsinə gəldikdə isə, qeyd etməliyik ki, bu məsələ hər hansı problemin yaranmasına səbəb olmur. Məsələ burasındadır ki, federativ dövlət beynəlxalq publik hüquq subyektliyinə malikdir. Buna görə də, beynəlxalq münasibətlər sahəsində beynəlxalq publik hüququn subyekti qismində federativ dövlətin özü çıxış edir. Odur ki, federativ dövlət beynəlxalq publik hüququn vahid subyekti sayılır. Təsadüfi deyil ki, Dövlətlərin hüquq və vəzifələri haqqında Montevideo Konvensiyasının

[1] *Kanton (fr. canton – federativ quruluş vahidi) anlayışı barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.396.

(1933-cü il) 2-ci maddəsində göstərilir ki, beynəlxalq hüquq qarşısında müstəsna subyekt kimi yalnız federativ dövlətin özü çıxış edə bilər.[1] Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq publik hüquq unitar (sadə) və federativ (mürəkkəb) dövlətlər arasında fərq qoymur.

Federasiya subyektlərinin beynəlxalq publik hüquq subyektliyi məsələsinə toxunduqda isə, qeyd etməliyik ki, beynəlxalq publik hüquqda federasiya subyektlərini beynəlxalq publik hüquq subyektliyi ilə təmin edən norma yoxdur. Beynəlxalq publik hüquqda həmçinin federasiya subyektlərinin beynəlxalq publik hüquq subyektliyinə malik olmasını qadağan edən normaya da rast gəlmirik. Fikrimizcə, federal dövlətin konstitusiyası federasiya üzvlərini məhdud beynəlxalq publik hüquq subyektliyi ilə təmin edə bilər. Keçmiş SSRİ-nin 1977-ci il Konstitusiyasına görə (73-cü və 80-ci maddələr), həm federasiyanın özü (SSRİ), həm də ittifaq dövlətləri beynəlxalq publik hüquq subyektliyinə malik idi. Digər tərəfdən, bir sıra federativ dövlətin (ABŞ, Kanada, Almaniya, İsveçrə və s.) konstitusiyasına görə, federasiya subyektləri bəzi sahələrdə (mədəni, iqtisadi və digər sferalarda) xarici dövlətlərlə federal hökumətin nəzarəti altında beynəlxalq müqavilələr bağlaya bilərlər.

7.3.5.5. Daim bitərəf olan və bitərəf olmayan dövlətlər

Qeyd etmək lazımdır ki, **xüsusi hüquqi statusa malik olmaq** kimi meyara görə, dövlətlər **iki növə** bölünür:

– daim bitərəf olan dövlətlər;

– daim bitərəf olmayan dövlətlər.

Daim bitərəf dövlətlər dedikdə hərbi-siyasi birlik və bloklarda iştirak etməyən, hərbi məsələlər sahəsində beynəlxalq müqavilə bağlamaq hüququ olmayan, öz ərazisində xarici hərbi bazaların və ya xarici silahlı qüvvələrin yerləşdirilməsinə ixti-

[1] URL: http: //www.ru.m.wikipedia.org (20.05.2018-ci il).

yarı çatmayan dövlətlər başa düşülür. Bu növ dövlətlər beynəlxalq müqaviləyə uyğun olaraq və ya birtərəfli qaydada öz üzərinə aşağıdakı **öhdəlikləri** götürür:

- hər hansı hərbi-siyasi birlikdə iştirak etməmək;
- bu və ya digər hərbi bloka qoşulmamaq;
- hərbi məsələlər sahəsində beynəlxalq müqavilələr bağlamamaq;
- digər dövlətlər arasında hərbi münaqişə olduqda bitərəf qalmaq;
- müharibəyə səbəb ola bilən hər hansı hərbi əməliyyatda iştirak etməmək və ondan çəkinmək;
- öz ərazisində xarici hərbi bazaların, eləcə də xarici silahlı qüvvələrin yerləşdirilməsinə icazə verməmək;
- öz ərazisindən xarici silahlı qüvvələrin tranzitinə yol verməmək;
- istənilən dövlətlər arasında müharibə olduqda bitərəf qalmaq.

Əgər hər hansı dövlət sözügedən öhdəlikləri könüllü surətdə öz üzərinə götürürsə, o, daim bitərəf dövlət kimi tanınır; həm də daim bitərəf olmaq dövlətin suveren hüququ sayılır. Qeyd etməliyik ki, Helsinki Yekun Aktı (1975-ci il) bitərəf olmaq hüququnu dövlətlərin suverenliyə xas olan hüquqları sırasına aid edir. Buna görə də, istənilən dövlət bu hüquqdan istifadə edərək bitərəf ola bilər. Hal-hazırda bitərəf dövlətlər aşağıdakılardan ibarətdir: Avstriya, İsveçrə, Kamboca, Laos, Malta, Türkmənistan və s.

Daim bitərəf olan dövlət statusuna malik olmaq heç də dövləti suverenlikdən, eləcə də beynəlxalq publik hüquq subyektliyindən məhrum etmir. Belə ki, daim bitərəf olan dövlətlərə də suverenlik kimi siyasi-hüquqi keyfiyyət xasdır, onlar da beynəlxalq publik hüquq subyektliyinə malikdir. Lakin belə dövlətlərin beynəlxalq publik hüquq subyektliyi bitərəf olmayan dövlətlərin beynəlxalq publik hüquq subyektliyi ilə müqayisədə

nisbətən məhduddur. Ona görə ki, daim bitərəf olan dövlətlər hərbi xarakterli beynəlxalq münasibətlərdə subyekt qismində çıxış edə bilməz. Bir az əvvəldə qeyd etdiyimiz kimi, bu növ dövlətlərin hərbi məsələlər sahəsində beynəlxalq müqavilə bağlamaq hüququ yoxdur.

Bu və ya digər dövlətin **«bitərəflik»** statusunu əldə etməsi beynəlxalq müqavilədə təsbit olunur. Məsələn, ilk bitərəf dövlət olan İsveçrə 1815-ci il tarixli Paris Aktı əsasında «bitərəflik» statusu əldə etmişdir. Dövlətlər «bitərəflik» statusunu həm də öz daxili qanunvericiliyinə, ilk növbədə, daxili konstitusiya aktına uyğun olaraq əldə edə bilərlər. Məsələn, Avstriya 1955-ci ildə qəbul olunmuş Daimi bitərəflik haqqında Federal Konstitusiya Qanunu əsasında bitərəf dövlət kimi tanınmışdır; Türkmənistan 12 dekabr 1995-ci il tarixdə qəbul olunmuş müvafiq Konstitusiya Qanununa görə bitərəf dövlət elan edilmişdir.

Dövlətin daimi bitərəf olması, adətən, başqa dövlətlər tərəfindən təmin edilir. Məsələn, 1815-ci ildə imzalanmış müvafiq beynəlxalq müqavilə kollektiv təminat nəzərdə tutur, yəni həmin müqavilə Rusiya, Böyük Britaniya, Fransa, Avstriya, Portuqaliya, İspaniya, İsveç və Prussiyanın üzərinə İsveçrənin daimi bitərəfliyini təmin etmək öhdəliyi qoyur.

Dövlətin özünü «daim bitərəf olan dövlət» elan etməsi başqa dövlətlər tərəfindən tanınmalıdır. Məsələn, 1955-ci ildə Avstriyanın «daimi bitərəflik» statusu SSRİ, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən tanınmışdır; 1995-ci ildə BMT Baş Assambleyasının müvafiq qətnaməsi ilə Türkmənistanın «daimi bitərəflik» statusu tanınmışdır və s.

Dövlətin «bitərəflik» statusu heç də beynəlxalq publik hüququn subyekti kimi onun hüquqi vəziyyətinə təsir göstərmir. Belə ki, daim bitərəf olan bütün dövlətlər beynəlxalq publik hüququn tamhüquqlu subyektidir; həmçinin onlar heç bir istisna olmadan BMT-nin üzvü kimi qalır. BMT-nin Nizamnaməsinə görə, hətta daim bitərəf olan dövlətlər beynəlxalq sülh və təhlükəsizliyi bərpa etmək üçün BMT-nin Təhlükəsizlik Şurası tə-

rəfindən həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməlidirlər.

Daim bitərəf olan dövlətlərin digər dövlətlər kimi **özünümüdafiə hüququ** vardır. Belə ki, əgər daim bitərəf olan dövlətlərə hücum (basqın) olarsa, onda onlar öz silahlı qüvvələrindən istifadə etməklə güc tətbiq edə və bununla özünümüdafiə hüququnu həyata keçirə bilərlər.

Daim bitərəf olan dövlətləri bitərəf siyasət yürüdən dövlətlərdən fərqləndirmək lazımdır. Bitərəf siyasət yürüdən dövlətlərin üzərinə, qeyd etməliyik ki, yuxarıda sadaladığımız öhdəliklər düşmür.

Daim bitərəf olmayan dövlətlər dedikdə, adətən, hər hansı hərbi-siyasi birliyin, hərbi blokun üzvü olan dövlət başa düşülür. Belə dövlətlər daim bitərəf olan dövlətləri xarakterizə edən əlamətlərdən məhrumdur. Məsələn, ABŞ, Böyük Britaniya, Fransa və digərləri daim bitərəf olmayan dövlətlər sırasına daxildir.

7.4. Beynəlxalq publik hüququn digər subyektləri

7.4.1. Beynəlxalq (dövlətlərarası) təşkilatlar – beynəlxalq publik hüququn subyekti kimi

Əvvəllərdə qeyd etdiyimiz kimi, müasir beynəlxalq publik hüququn subyekt növlərindən biri beynəlxalq (dövlətlərarası) təşkilatlar hesab olunur; həm də beynəlxalq (dövlətlərarası) təşkilatlar beynəlxalq publik hüququn **törəmə (əlavə) subyektlərindən** sayılır. Belə ki, məlum olduğu kimi, onlar beynəlxalq publik hüququn ilkin subyekti olan dövlətlərin iradəsi ilə təsis edilir. Bu səbəbdən onlar həm də beynəlxalq publik hüququn **qeyri-ilkin subyekti** adlanır. Bunlardan əlavə, dövlətlərdən fərqli olaraq, beynəlxalq (dövlətlərarası) təşkilatlar suverenlik kimi siyasi-hüquqi keyfiyyətdən məhrumdur. Buna görə də, onlar beynəlxalq publik hüququn **qeyri-suveren subyektləri** sırasına aid edilir. Beynəlxalq (dövlətlərarası) təşkilatlara misal

olaraq, BMT, MDB, ÜTT, BVF, BMAT və s. qurumlar göstərilə bilər.

Beynəlxalq (dövlətlərarası) təşkilatlar dedikdə, bir qayda olaraq, dövlətlər tərəfindən yaradılan və təsis edilən beynəlxalq qurumlar başa düşülür. Beynəlxalq (dövlətlərarası) təşkilatları təsis edən və ya yaradan dövlətlərə üzv-dövlətlər deyilir. Deməli, beynəlxalq (dövlətlərarası) təşkilatların üzvləri dövlətlərdən ibarətdir. Lakin, qeyd etməliyik ki, beynəlxalq (dövlətlərarası) təşkilatların üzvləri beynəlxalq publik hüququn digər subyektlərindən, o cümlədən başqa dövlətlərarası təşkilatlardan da ibarət ola bilər.

Məlum olduğu kimi, beynəlxalq publik hüquq dövlətlərarası münasibətləri tənzimləyən hüquq kimi yaranmış və inkişaf etmişdir. Buna görə də, XX əsrə qədər dövlətlər beynəlxalq publik hüququn yeganə subyekti olmuşdur. Bildiyimiz kimi, 1919-cu ildə Paris Sülh Konfransı çərçivəsində Millətlər Liqası və Beynəlxalq Əmək Təşkilatı yaradılmışdır. Bu qurumların yaradılması ilə beynəlxalq (dövlətlərarası) təşkilatların təsis edilməsinin başlanğıcı qoyulmuşdur. Ancaq beynəlxalq (dövlətlərarası) təşkilatların müasir beynəlxalq publik hüququn subyekti kimi tanınması və beynəlxalq publik hüquq subyektliyinə malik olması XX əsrin ortalarına, yəni BMT-nin yaradıldığı dövrə təsadüf edir.

Belə ki, 1945-ci ildə yaradılan BMT həmin vaxtdan etibarən müxtəlif xarakterli beynəlxalq münasibətlərdə çıxış etməyə və dövlətlərarası sistemin iştirakçısı olmağa başladı. Lakin, tez bir zamanda BMT-nin həyata keçirdiyi çoxplanlı fəaliyyətdən bəlli oldu ki, əgər dövlətlərarası sistemin yeni iştirakçısı olan beynəlxalq (dövlətlərarası) təşkilatlar beynəlxalq publik hüquq subyektliyi kimi siyasi-hüquqi keyfiyyətə malik olmazlarsa, onda onlar öz beynəlxalq funksiyalarını yerinə yetirə bilməyəcəklər. Belə ki, müvafiq beynəlxalq funksiyaları yerinə yetirmək üçün beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq subyektiv hüquqlara malik olmaq və beynəlxalq subyektiv-hüquqi vəzifələr daşımaq, habelə hərəkətləri ilə beynəlxalq sub-

yektiv hüquqlar əldə etmək və özləri üçün beynəlxalq subyektiv-hüquqi vəzifələr yaratmaq qabiliyyəti olmalıdır. Belə qabiliyyətlə isə, onları, təbii ki, «beynəlxalq publik hüquq subyektliyi» kimi amil təmin edə bilərdi.

Bunu nəzərə alaraq, BMT-nin Beynəlxalq Məhkəməsi 1949-cu ildə BMT kimi dövlətlərarası qurumun beynəlxalq publik hüquq subyektliyinə malik olmasını müəyyənləşdirdi və bunun nəticəsində praktikada beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi tanınmağa başlandı. Məhz həmin dövrdən etibarən dövlətlərin beynəlxalq publik hüququn yeganə subyekti olmaq tendensiyasına son qoyuldu, dövlətlərlə yanaşı və bərabər beynəlxalq (dövlətlərarası) təşkilatlar da beynəlxalq publik hüququn subyektinə çevrildilər və dövlətlərarası sistemin iştirakçısı kimi tanındılar.

Məlum olduğu kimi, beynəlxalq publik hüququn əsas subyekti sayılan dövlətlər universal beynəlxalq publik hüquq subyektliyinə malikdir. Belə ki, onlar beynəlxalq publik hüquqla qadağan edilməyən istənilən beynəlxalq subyektiv hüquq və vəzifələrin daşıyıcısı ola bilərlər. Dövlətlərin həm də hüququ vardır ki, beynəlxalq publik hüquqla tənzimlənən bütün münasibətlərdə subyekt qismində çıxış etsin. Lakin, dövlətlərdən fərqli olaraq, beynəlxalq (dövlətlərarası) təşkilatlar istənilən beynəlxalq subyektiv hüquq və vəzifələrin daşıyıcısı, bütün beynəlxalq münasibətlərin iştirakçısı ola bilməzlər. Buna görə də, beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi məhduddur, yəni onlar **məhdud beynəlxalq publik hüquq subyektliyinə** malikdirlər; həm də ona görə ki, beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi onların təsis sənədi (nizamnamə, statut, konvensiya və s.) ilə məhdudlaşır.

Bildiyimiz kimi, hər bir beynəlxalq (dövlətlərarası) təşkilat müəyyən məqsəd üçün yaradılır və qurumun məqsədi onun təsis sənədində göstərilir. Beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi məhz onların qarşılarına qoyduğu məqsədə nail olmaq üçün lazımdır. Buna görə də,

beynəlxalq (dövlətlərarası) təşkilatlar **məqsədli beynəlxalq publik hüquq subyektliyinə** malikdirlər.

Beynəlxalq (dövlətlərarası) təşkilatlar həm də bu və ya digər funksiyanı yerinə yetirmək üçün yaradılır və bu funksiya onların təsis sənədində göstərilir. Beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi də məhz ondan ötrüdür ki, onlar öz funksiyasını yerinə yetirə bilsin. Bu isə, belə bir fikir söyləməyə əsas verir ki, beynəlxalq (dövlətlərarası) təşkilatlar **funksional beynəlxalq publik hüquq subyektliyinə** malikdir. Deməli, beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi təsis sənədi ilə müəyyənləşdirilən məqsəd və funksiya ilə məhdudlaşır.[1] Buna görə də, onlar öz qarşısına qoyduğu məqsədə çatmağa və yerinə yetirməli olduğu funksiyanın həyata keçirilməsinə xidmət etməyən digər beynəlxalq subyektiv hüquq və vəzifələrin daşıyıcısı ola bilməzlər. Beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyinin əsasını onların təsis sənədi təşkil edir. Üzv-dövlətlər tərəfindən imzalanan və beynəlxalq müqavilə sayılan həmin sənəd beynəlxalq (dövlətlərarası) təşkilatları beynəlxalq publik hüquq subyektliyi ilə təmin edir. Lakin, elə beynəlxalq (dövlətlərarası) təşkilatlar da vardır ki, onlar öz təsis sənədi əsasında beynəlxalq publik hüquq subyektliyi ilə təmin olunmur. Digər tərəfdən, bəzi beynəlxalq (dövlətlərarası) təşkilatların (məsələn, ATƏT-in) vahid təsis sənədi olmur; belə hallarda onların beynəlxalq publik hüquq subyektliyi ilə təmin olunması faktı **beynəlxalq (dövlətlərarası) təşkilatların qaydaları** əsasında müəyyənləşdirilir. Beynəlxalq (dövlətlərarası) təşkilatların qaydalarına gəldikdə isə, qeyd etməliyik ki, onların qərar və qətnamələri, habelə yaranmış praktika qaydalar hesab olunur.[2]

---

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 84.

[2] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с. 137.

Beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi dövlətlərin ümumi (universal) beynəlxalq publik hüquq subyektliyindən mühüm dərəcədə fərqlənərək, xüsusi xarakter daşıyır. Buna görə də, onlar **xüsusi beynəlxalq publik hüquq subyektliyinə** malikdirlər.

Beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyinin həcmi eyni olmayıb, müxtəlifdir. Belə ki, bəzi beynəlxalq (dövlətlərarası) təşkilatların beynəlxalq publik hüquq subyektliyi daha genişdir. Məsələn, mahiyyətcə, ümumdünya miqyasında beynəlxalq təşkilat kimi mövcud olan BMT digər dövlətlərarası təşkilatlarla müqayisədə daha geniş beynəlxalq publik hüquq subyektliyinə malikdir.

Beynəlxalq (dövlətlərarası) təşkilatlar beynəlxalq müqavilə sayılan təsis sənədi əsasında yaradılır. Buna görə də, onlara **beynəlxalq publik hüququn müqavilə subyekti** deyilir.[1]

Bəzi müəlliflər bütün beynəlxalq təşkilatları beynəlxalq publik hüququn subyekti kimi tanıyırlar.[2] Lakin, unutmaq olmaz ki, yalnız dövlətlərarası (hökumətlərarası) beynəlxalq təşkilatlar beynəlxalq publik hüququn subyektidir. Onların digər növü olan qeyri-hökumət beynəlxalq təşkilatlara gəldikdə isə, qeyd etməliyik ki, bu təşkilatların beynəlxalq publik hüquq subyektliyi yoxdur. Buna görə də, onlar beynəlxalq publik hüququn subyekti kimi çıxış edə bilməzlər.

7.4.2. Öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) – beynəlxalq publik hüququn subyekti kimi

Məlum olduğu kimi, hər bir xalq və millətin öz müqəddəratını təyinetmə hüququ vardır. Buna görə də, istənilən xalq və

[1] Международное право. Учебное пособие / Авторы: Ю.В.Трунцевский и др. М., 2010, с.48.

[2] *Məsələn, bax:* Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.56.

millət öz müqəddəratını təyinetmə hüququnun subyektidir. Qeyd etməliyik ki, millətlərin öz müqəddəratını təyinetmə hüququnun əsasını **milli suverenlik** təşkil edir. Milli suverenlik elə bir hüquqdur ki, bu hüquqa əsasən, mübarizə aparan millət öz siyasi statusunu müəyyənləşdirir və müstəqil inkişaf (iqtisadi, sosial və mədəni) yolunu seçir.

Xalqların öz müqəddəratını təyinetmə hüququnun əsasını isə **xalq suverenliyi** təşkil edir. Xalq suverenliyi xalqa verilmiş elə bir hüquqdur ki, o, müstəqil surətdə, heç nədən asılı olmadan öz siyasi statusunu müəyyənləşdirir, eləcə də iqtisadi, sosial və mədəni inkişaf yolunu seçir.

Millət və xalqlar onlara xas olan öz müqəddəratını təyinetmə hüququnu müxtəlif üsullar vasitəsi ilə həyata keçirir, realizə edir. Mübarizə apararaq öz suveren və müstəqil dövlətini yaratmaq həmin üsullardan biri sayılır. Əgər hər hansı xalq və ya millət öz müstəqil (suveren) dövlətini yaratmaq üçün mübarizə apararsa, o, beynəlxalq publik hüququn subyekti kimi çıxış edir. Başqa sözlə, yalnız o millət və xalqlar beynəlxalq publik hüququn subyekti ola bilər ki, onlar öz müstəqil və suveren dövlətini yaratmaq uğrunda mübarizə aparsınlar; həm də aparılan mübarizə **milli-azadlıq hərəkatı səviyyəsində** olmalıdır.[1] Belə ki, aparılan mübarizə milli-azadlıq hərəkatı səviyyəsinə çatdıqda, müvafiq xalq və millət beynəlxalq publik hüququn subyekti sayılır. Digər tərəfdən, milli-azadlıq hərəkatı digər dövlətlər tərəfindən kollektiv şəkildə tanınmalıdır. Məsələn, Fələstin ərəb xalqının apardığı mübarizə milli-azadlıq hərəkatı səviyyəsində olub, əvvəlcə regional xarakterli beynəlxalq təşkilatlar tərəfindən, sonra isə BMT səviyyəsində tanınmışdır. Həmin hərəkat artıq 50 ildən çoxdur ki, İsrail tərəfindən işğal olunmuş Fələstin torpaqlarının azad edilməsinə və müstəqil dövlət yaradılmasına yönəlmişdir.

[1] Bəzi müəlliflərə görə, beynəlxalq publik hüququn subyekti məhz milli-azadlıq hərəkatının özü sayılır *(məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с 119).

Mübarizə aparan xalq və millət yalnız o halda beynəlxalq publik hüququn subyekti ola bilər ki, o, öz daimi milli-siyasi orqanını yaratsın. **Milli-siyasi orqan** dedikdə milli-azadlıq cəbhəsi, müvəqqəti hökumət, azadlıq uğrunda xalq hərəkatı, siyasi partiyanın rəhbərliyi, xalq cəbhəsi, xalq təşkilatı və s. başa düşülür. Xalqın və millətin yaratdığı daimi milli-siyasi orqan milli-azadlıq hərəkatına başçılıq edir, beynəlxalq sahədə xalqı və milləti təmsil edir, beynəlxalq konvensiyalara qoşulur, beynəlxalq müqavilələr imzalayır, başqa dövlətlərlə rəsmi münasibətlər (diplomatik və konsulluq əlaqələri) yaradır, dövlətlərarası təşkilatlarla və dövlətlərlə müvafiq sazişlər bağlayır, beynəlxalq (hökumətlərarası) təşkilatların fəaliyyətində və beynəlxalq konfransların işində iştirak edir, müstəqil və suveren dövlətçilik uğrunda xalqın mübarizəsinə rəhbərliyi həyata keçirir, əhalini idarə edir, əraziyə nəzarəti həyata keçirir. Məsələn, Fələstin ərəb xalqı öz apardığı mübarizəyə rəhbərlik etmək üçün Fələstin Azadlıq Təşkilatı (FAT) kimi siyasi-milli orqan yaratmışdır. Bu təşkilat 1964-cü ildə Fələstin Milli Konqresində ərəb ölkələrinin dövlət və hökumət başçılarının birinci yığıncağının qərarına uyğun olaraq, İsrail tərəfindən tutulmuş Fələstin torpaqlarını azad etmək məqsədi ilə təsis edilmişdir. FAT dünyanın 70-dən çox ölkəsində öz nümayəndəliyini (informasiya bürosu və səfirlik) açmış, 1976-cı ildə Ərəb Dövlətləri Liqasının üzvü olmuş, sonra isə İslam Konfransı Təşkilatına daxil edilmişdir. FAT 1974-cü ildən müşahidəçi statusu, 2012-ci ildən isə müşahidəçi-dövlət statusu ilə BMT-də iştirak edir, həmçinin Dəniz hüququna dair BMT Konvensiyasının (1982-ci il) iştirakçısıdır.

Namibiya xalqının mübarizəsinə Cənub-Qərbi Afrika Təşkilatı, Anqola xalqının mübarizəsinə Anqolanın Azadlığı Uğrunda Xalq Hərəkatı, Əlcəzair xalqının mübarizəsinə isə Milli Azadlıq Cəbhəsi rəhbərlik etmişdir (onlar göstərilən xalqların milli-azadlıq hərəkatına vaxtilə başçılıq edən milli-siyasi orqanlar olmuşdur).

Milli-siyasi orqanlar beynəlxalq sahədə millət və xalqların suveren iradəsini ifadə edərək, onların təmsilçisi (nümayəndə-

si) hesab olunur. Digər tərəfdən, həmin orqanlar daxildə həm qanunvericilik, həm də icra funksiyasını həyata keçirirlər.

Öz müstəqil və suveren dövlətini yaratmaq uğrunda mübarizə aparan və buna görə beynəlxalq publik hüququn subyekti sayılan xalqlar (millətlər) sırasına Fələstin ərəb xalqından başqa, Qərbi Saxara xalqı da aid olunur. Belə ki, ərazisi Mərakeş tərəfindən işğal olunmuş Qərbi Saxara xalqı öz müqəddəratını təyin etmək və suveren (milli) dövlətini yaratmaq uğrunda mübarizə aparır; o, müşahidəçi statusu ilə BMT-də iştirak edir. Qərbi Saxara ərazilərini Mərakeş qoşunlarından azad etmək üçün burada hərbi dəstələr yaradılmışdır ki, həmin dəstələrə Vahid Komandanlıq başçılıq edir. Vahid Komandanlıq həm də Qərbi Saxara xalqına siyasi rəhbərliyi həyata keçirir. Mahiyyətcə, hakimiyyət strukturu olan Vahid Komandanlıq dövlətlərarası münasibətlərdə Qərbi Saxara xalqını təmsil edir. Buna görə də, o, beynəlxalq publik hüququn subyekti sayılır.[1]

Deyilənlər onu göstərir ki, bütün millət və xalqlar öz müqəddəratını təyinetmə hüququnun subyekti sayılır. Lakin istənilən hər bir millət və xalqı beynəlxalq publik hüququn subyekti hesab etmək olmaz. Belə ki, müstəqil (suveren) milli dövlətini yaratmaq məqsədilə, öz azadlığı (müstəqilliyi) uğrunda milli-azadlıq hərəkatı səviyyəsində mübarizə aparmayan xalq və millət beynəlxalq publik hüququn subyekti hesab edilmir. Lakin, buna baxmayaraq, həmin xalq və millət öz müqəddəratını təyinetmə hüququnun subyekti sayılır. Əgər müəyyən xalq və millət müstəqil milli dövlətini yaratmaq məqsədilə, milli-azadlıq hərəkatı səviyyəsində mübarizəyə başlayarsa, artıq o, beynəlxalq publik hüququn subyekti qismində status əldə edir; həm də dərhal qeyd etməliyik ki, yalnız öz milli dövləti olmayan xalqlar və millətlər beynəlxalq publik hüququn subyekti kimi iddialı ola bilər. Məsələn, Fələstin ərəb xalqının,

[1] Международное право. Учебник /Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.167.

Qərbi Saxara xalqının və s. milli dövləti yoxdur.[1] Buna görə də, onlar müstəqil milli dövlətini yaratmaq məqsədilə, öz azadlığı uğrunda mübarizə aparan və beynəlxalq publik hüququn subyekti sayılan xalqlar (millətlər) sırasına aid edilir. Əgər hər hansı xalq və millətin milli dövləti olarsa, təbii ki, o, öz dövlətçiliyi uğrunda mübarizə apara və bu qismdə beynəlxalq publik hüququn subyekti ola bilməz. Məhz bu səbəbdən Azərbaycanın Dağlıq Qarabağ hissəsində yaşayan ermənilərin qondarma dövlət yaratmaq üçün səy göstərmələrinin heç bir məntiqi-hüquqi əsası yoxdur.

Beynəlxalq publik hüququn subyekti olmaq üçün bu və ya digər xalq həm də BMT sistemində öz dövlətçiliyi uğrunda mübarizə aparan xalq (millət) kimi tanınmalıdır; əgər tanınmazsa, həmin xalq və millət beynəlxalq publik hüquq subyektliyinə malik ola bilməz. Azərbaycan dövlətinin Dağlıq Qarabağ hissəsində yaşayan ermənilər nəinki BMT, həmçinin hər hansı regional beynəlxalq təşkilat səviyyəsində indiyə kimi öz dövlətçiyi uğrunda mübarizə aparan xalq kimi tanınmamışdır və tanına da bilməz, çünki erməni xalqının artıq Ermənistan Respublikası kimi müstəqil dövləti mövcuddur.

Beləliklə, bir neçə şərtə əməl olunduqda bu və ya digər xalq (millət) beynəlxalq publik hüququn subyekti kimi tanına bilər. Həmin şərtlər isə, qeyd etdiyimiz kimi, aşağıdakılardan ibarətdir:

– xalq və millət müstəqil (suveren) milli dövlət yaratmaq məqsədilə mübarizə aparmalıdır;

[1] Müəlliflərdən Q.M.Melkov belə bir fikir söyləyir ki, Azərbaycanda yaşayan kürd xalqı guya öz dövlətçiliyi uğrunda mübarizə aparan xalqlar sırasına daxildir *(bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.120-211). Qeyd etməliyik ki, Azərbaycan Respublikasında yaşayan kürdlər Azərbaycan xalqının bir hissəsi hesab edilir və «milli azlıqlar» anlayışına daxildir. Milli azlıqlar isə, nə öz müstəqil dövlətçiliyi uğrunda mübarizə aparmaq, nə də beynəlxalq publik hüququn subyekti kimi tanınmaq hüququna malikdir. Digər tərəfdən, kürd xalqı, ümumiyyətlə, BMT sistemində öz müstəqil dövlətini yaratmaq uğrunda mübarizə aparan xalqlar sırasına aid edilməmişdir.

– aparılan mübarizə milli-azadlıq hərəkatı səviyyəsində olmalıdır;
– xalqın və millətin mübarizəsinə onun yaratdığı milli-siyasi orqan rəhbərlik etməlidir;
– xalq və millətin öz müstəqil (suveren) milli dövləti olmamalıdır;
– xalqın və millətin milli-azadlıq hərəkatı, müstəqil (suveren) dövlət yaratmaq məqsədilə, öz azadlığı (müstəqilliyi) uğrunda mübarizəsi BMT səviyyəsində tanınmalıdır.

Göstərilən şərtlərə cavab verməyən xalq və millətlər beynəlxalq publik hüququn subyekti kimi tanına bilməzlər. Belə xalq və millətlərin apardığı mübarizə separatist hərəkat (separatizm) hesab edilir.

Separatist hərəkat dedikdə elə hüquqazidd siyasi-milli hərəkat başa düşülür ki, bu hərəkat müəyyən xalqın (millətin) yaşadığı dövlətin tərkibindən çıxmasına (ayrılmasına) və müstəqil dövlət yaradılması ideyasına yönəlir. Belə hərəkat dövlətlərin ərazi bütövlüyünə qəsd edir, sülh və təhlükəsizliyin möhkəm qorunub saxlanmasına, xalqların iqtisadi-maddi rifah halının yüksəlməsinə mənfi təsir göstərir. Buna görə də, BMT separatist hərəkatlara neqativ münasibət bəsləyir.

Separatist hərəkat dövlət ərazisinin zorla dəyişdirilməsinə və onun ayrı-ayrı hissələrə bölünməsinə səbəb olur. Odur ki, beynəlxalq publik hüquq belə hərəkatı qadağan edir və onu yolverilməz hal sayır. Təsadüfi deyil ki, beynəlxalq publik hüquq dövlət ərazisinin zorla hissələrə bölünməsini yolverilməz hal hesab edən müvafiq norma nəzərdə tutur və həmin norma dövlətlərə əsas verir ki, onlar separatist hərəkata qarşı mübarizə aparsınlar.

Yuxarıda göstərdiyimiz şərtlərə cavab verməyən xalq və millətlər beynəlxalq publik hüquq subyektliyinə malik deyildir. Əgər beynəlxalq publik hüquq subyektliyinə malik olmayan xalq və millətlər öz azadlığı (müstəqilliyi) uğrunda mübarizə apararsa, belə mübarizə separatist hərəkatı leqallaşdırma for-

ması olmaqdan özgə bir şey deyildir. Buna görə də, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin «mübarizəsi» azadlıq (müstəqillik) uğrunda aparılan mübarizə deyil, hüquqazidd separatist hərəkatdır.[1]

Müstəqil (suveren) dövlətini yaratmaq məqsədilə, öz azadlığı (müstəqilliyi) uğrunda hüquqauyğun mübarizə aparan xalq və millətlər beynəlxalq publik hüququn **suveren subyektləri** sırasına daxildir; ona görə ki, xalq və millət suverenliyə malikdir. Belə ki, qeyd etdiyimiz kimi, xalqlara xalq suverenliyi, millətlərə isə milli suverenlik kimi xüsusiyyət xasdır; nə xalq suverenliyi, nə də milli suverenlik dövlət suverenliyidir. Özünəxas suverenliyə görə və ona əsasən mübarizə aparan xalq və millət «**ipso fakto**» beynəlxalq publik hüquq subyektliyinə malik olur, beynəlxalq subyektiv hüquq və vəzifələrin daşıyıcısı kimi tanınır. Deməli, suverenlik onları beynəlxalq publik hüquq subyektliyi ilə təmin edir.

Öz müstəqil dövlətini yaratmaq uğrunda hüquqauyğun mübarizə aparan xalq və millət, mahiyyətcə, formalaşmaqda olan dövlət rüşeymi deməkdir. Belə ki, onlar öz müqəddəratını təyinetmə hüququnu həyata keçirərək, azadlıq uğrunda mübarizə prosesində dövlətçiliyin müəyyən əlamətlərinə malik olurlar. Məhz yeni dövlət yaratmaq mərhələsində hüquqauyğun mübarizə aparan xalqlar (millətlər) beynəlxalq publik hüquq subyektliyi əldə edirlər.

Müstəqil dövlətini yaratmaq məqsədi ilə, öz azadlığı uğrunda hüquqauyğun mübarizə aparan millətlər beynəlxalq publik hüquq subyektliyinə malik olsalar da, milli azlıqlar (etnik qruplar) bu kimi keyfiyyətdən (beynəlxalq publik hüquq subyektli-

[1] Rusiya alimi Q.M.Melkov Abxaziya, Cənubi Osetiya və Dnestrətrafı xalqların siyasi-milli hərəkatı ilə bağlı yazır ki, onlar guya müstəqil dövlətin bütün atributlarına malikdir. Müəllif həmin xalqların (abxazların, osetinlərin və s.) beynəlxalq publik hüquq subyektliyinin tanınmasının vacibliyini göstərərək güman edir ki, onlar öz azadlığı (müstəqilliyi) uğrunda mübarizə aparan xalqlar sırasına aiddir *(bax:* Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011 с.120-121).

yindən) məhrumdur. Buna görə də, milli azlıqlar (etnik qruplar) beynəlxalq publik hüququn subyekti sayılmır, həm də öz müqəddəratını təyinetmə hüququnun subyekti kimi tanınmır; çünki beynəlxalq publik hüquq milli azlıqları (etnik qruplar) öz müqəddəratını təyinetmə hüququ ilə təmin etmir. Bu səbəbdən Azərbaycan Respublikasının Dağlıq Qarabağ hissəsində yaşayan və milli azlıqlar (etnik qruplar) anlayışına daxil olan ermənilərin Azərbaycan ərazisində öz müqəddəratını təyinetmə hüququnu həyata keçirmək iddiaları beynəlxalq publik hüquqa ziddir.

Beynəlxalq publik hüquq milli azlıqlara (etnik qruplara) özünün subyekti kimi baxmasa da, onların hüquqlarını öz nizamasalma predmetinə daxil edir. Belə ki, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (1966-cı il) 27-ci maddəsi milli azlıqların bir sıra hüququnu tənzimləyir. Həmin hüquqlar aşağıdakılardan ibarətdir: öz mədəniyyətindən bəhrələnmək, öz dininə etiqad bəsləmək, öz doğma dilindən istifadə etmək. Belə hüquqları tənzimləməsi onu ifadə edir ki, beynəlxalq publik hüquq milli azlıqlara (etnik qruplara) özünün **tənzimetmə predmeti (destinatoru)** kimi baxır. Beynəlxalq publik hüquq milli azlıqların hüquqi vəziyyətinin müəyyənləşdirilməsində iştirak edir, milli azlıqları lazımi hüquqlarla təmin edir, milli azlıqların qanuni hüquq və mənafeyini qoruyur. Milli azlıqların öz milli-mədəni xüsusiyyətlərini qoruyub saxlamaq hüququ vardır. Onların həm də hüququ vardır ki, öz yaşadıqları dövlət çərçivəsində milli-mədəni göstəricilərini inkişaf etdirsinlər.

Qeyd etmək lazımdır ki, müstəqil dövlət yaratmaq xalqların və millətlərin öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilmə (realizə olunma) üsullarından biridir. Lakin bu üsulla xalqların öz müqəddəratını təyinetmə hüququndan istifadə etməsi dövlətlərin ərazi bütövlüyünə qəsd etməməlidir. Unutmaq olmaz ki, müasir beynəlxalq publik hüquq dövlətlərin ərazi bütövlüyü prinsipinin xalqların hüquq bərabərliyi və öz müqəddə-

ratını təyinetmə prinsipi üzərində prioritetə malik olması mövqeyindən çıxış edir.[1]

7.4.3. Dövlətəoxşar qurumlar – beynəlxalq publik hüququn subyekti kimi

Beynəlxalq publik hüququn subyektləri sırasına, eyni zamanda, dövlətəoxşar qurumlar aid edilir; həm də onlar beynəlxalq publik hüququn törəmə subyekti sayılır. Digər tərəfdən, dövlətəoxşar qurumlar beynəlxalq hüququn qeyri-suveren subyekti hesab olunur. Belə ki, onların suverenlik hüququ yoxdur.[2] Bunlardan başqa, dövlətəoxşar qurumlar beynəlxalq publik hüququn qeyri-ilkin subyektlərindən sayılır. Ona görə ki, onlar dövlətlərdən törəyirlər, həmçinin dövlətəbənzər qurumların yaranmasının və mövcud olmasının özü də dövlətlərin iradəsindən asılıdır.

Dövlətəoxşar qurumlar dövlət deyildir. Lakin, onlar dövlətə xas olan bir sıra əlamətə malikdir və həmin əlamətlər onları dövlətə bənzədir. «Dövlətəoxşar qurum» adlanmasının səbəbi də onların dövlətə bənzəməsindən ibarətdir; belə qurumlar, bəzən, «kvazidövlət» adlandırılır. Dövlətəoxşar qurumlar dövlətə xas olan aşağıdakı **əlamətlərlə** xarakterizə edilir:

- daimi əhalisi vardır;
- müəyyən əraziyə malikdir;
- müstəqil konstitusion quruluşa malikdir;
- dövlət hakimiyyət orqanları (qanunvericilik orqanı, hökumət, idarəetmə orqanları və s.) mövcuddur;
- özünün vətəndaşlığı vardır;
- normativ hüquqi aktlar qəbul edir;

---

[1] *Müasir beynəlxalq publik hüququn subyekti kimi xalq və millətlər barədə daha ətraflı:* Ушаков Н.А., Иойрыш А.И. Проблемы теории международного права. М., 1988, с.115-125.

[2] Bəzi müəlliflər belə fikir söyləyirlər ki, dövlətəoxşar qurumlar suverenliyə malikdir *(məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.195).

– özünün məhdud silahlı qüvvəsi vardır (onların silahlı qüvvəsi müdafiə funksiyasını yerinə yetirir, sərhədləri və hüquq qaydasını qoruyur);
– öz konstitusiyası vardır;
– dövlətin digər əlamətlərinə malikdir.

Dövlətəoxşar qurumlar **siyasi-ərazi** və ya **siyasi-dini** təsisatdır. Belə qurumlara siyasi-ərazi və ya siyasi-dini vahidlər də deyilir;[1] həm də onlarda daxili özünüidarə sistemi mövcuddur. Başqa sözlə, dövlətəoxşar qurumlar öz-özünü idarə edən təsisatdır. Sadaladığımız bu kimi xüsusiyyətlər dövlətəoxşar qurumlara elmi anlayış verməyimiz üçün kifayət edər:

dövlətəoxşar qurumlar dedikdə elə siyasi-ərazi və ya siyasi-dini təsisatlar başa düşülür ki, onlar daxili özünüidarə sisteminə malik olub, dövlətə xas olan bir sıra əlamətlə xarakterizə edilir.

Qeyd etməliyik ki, tarixin müəyyən dövrlərində dövlətlərin bir-birinə qarşı ərazi iddiası olmuşdur. Beynəlxalq publik hüquq isə, belə iddiaları həmişə tənzimləmək və nizamlamaq iqtidarında olmamışdır. Dövlətlərin bir-birinə olan ərazi iddiasını beynəlxalq publik hüquq çərçivəsində tənzimləməkdən ötrü dövlətəoxşar qurumlar yaradılmışdır. Dövlətəoxşar qurumların formalaşmasının və əmələ gəlməsinin səbəbi də məhz bundan ibarətdir. Dövlətəoxşar qurumlar yaratmaqla ərazi iddiaları «dondurulmuş», hər hansı ərazinin aidiyyəti və məxsusluğu ilə bağlı olaraq beynəlxalq (dövlətlərarası) münasibətlərdə əmələ gələn gərginlik azaldılmışdır. Dövlətəoxşar qurumların yaradılmasının səbəbi təkcə bundan ibarət deyildir. Belə ki, dövlətəoxşar qurumlar dini məqsədlər üçün də yaradıla bilər (məsələn, Vatikan və s.).

Dövlətəoxşar qurumların mövcud olmasının **əsasını** maraqlı dövlətlərin bağladıqları **beynəlxalq müqavilə** təşkil edir; onlar məhz beynəlxalq müqavilə əsasında yaradılır. Maraqlı dövlətlər

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.109.

arasında bağlanmış beynəlxalq müqavilə dövlətəoxşar qurumları beynəlxalq publik hüquq subyektliyi ilə təmin edir. Belə ki, məhz burada dövlətəoxşar qurumlar üçün beynəlxalq hüquq və vəzifələr müəyyənləşdirilir, onların beynəlxalq publik hüquq subyektliyi öz ifadəsini tapır. Dövlətəoxşar qurumların beynəlxalq publik hüquq subyektliyi həm də bunda ifadə edilir ki, onlar beynəlxalq publik hüququn digər subyektlərindən asılı olmadan, daşıdıqları beynəlxalq subyektiv hüquqları və vəzifələri müstəqil surətdə həyata keçirirlər. Bunlara görə, dövlətəoxşar qurumlar beynəlxalq publik hüququn subyekti hesab olunur. Həm də ona görə ki, beynəlxalq münasibətlər sahəsində bəzi hüquq və vəzifələrin daşıyıcısı olan dövlətəoxşar qurumlar beynəlxalq müqavilə bağlamaq və beynəlxalq publik hüquq norması yaratmaq hüququna malikdir. Məsələn, dövlətəoxşar qurum sayılan Vatikanın hüququ vardır ki, maraqlı dövlətlərlə beynəlxalq müqavilə bağlasın.

Azad şəhərlər. Dövlətəoxşar qurumlar dedikdə, ilk növbədə, azad şəhərlər başa düşülür. Azad şəhərlər tarixin müəyyən dövrlərində yaradılmış və bir müddət keçdikdən sonra onların mövcudluğuna son qoyulmuşdur. Odur ki, hal-hazırda azad şəhərlərə rast gəlinmir və təsadüf edilmir.

Azad şəhər dedikdə daxili özünüidarəetmə sisteminə malik olan və beynəlxalq publik hüququn subyekti kimi tanınan dövlətəoxşar qurum başa düşülür. Azad şəhərlər beynəlxalq müqavilə əsasında yaradılır ki, həmin müqavilə onların statusunu müəyyənləşdirir. Burada azad şəhərlərin müəyyən hüquq və vəzifələrlə təmin olunması, eləcə də beynəlxalq publik hüququn subyekti kimi tanınması nəzərdə tutulur. Azad şəhərlər həm də beynəlxalq təşkilatların qərarı əsasında da yaradıla bilər.[1]

Tarixin müəyyən dövrlərində elə şəhərlər mövcud olmuşdur ki, onların hansı dövlətin tərkibində olması məsələsini maraqlı dövlətlər həll edə bilməmişlər. Azad şəhərlərin yaradılması da

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.Б.Черниченко. М., 2008, с.168.

məsələni həll etmək üçün maraqlı dövlətlərin kompromis (qarşılışlı güzəşt) əldə etmələrinin nəticəsi olmuşdur.

Azad şəhərləri yaradan maraqlı dövlətlər onların statusunun gözlənilməsi və ona nəzarət edilməsi məsələlərini də həll edirlər ki, bundan ötrü, bir qayda olaraq, nümayəndəlik yaradılır. Özünün təyin etdiyi nümayəndənin köməyi və vasitəsilə maraqlı dövlətlər həmin məsələni həll edirlər.

Beynəlxalq sahədə azad şəhərlərin mənafeyini ya maraqlı dövlət, ya da beynəlxalq təşkilat təmsil edir. Məsələn, azad şəhərlərdən biri olan Dansiqi (indiki Qdansk şəhərini) xarici əlaqələr sferasında Polşa təmsil etmişdir. Azad şəhərlərdən digəri olan Triyest (Azad Triyest Ərazisi) keçən yüzilliyin ortalarında BMT Təhlükəsizlik Şurasının nəzarəti və müdafiəsi altında olmuşdur.

Azad şəhərlərin öz konstitusiyası və digər xarakterli əsas qanunu olur; onlar öz vətəndaşlığına malikdirlər. Azad şəhərlərdə həm də dövlət hakimiyyət orqanları təşkil olunur. Onlar silahlı qüvvələr də saxlayırlar ki, həmin qüvvələr müdafiə xarakteri daşıyır.

Azad şəhərlərin **statusu** bir sıra xarakterik cəhətlə səciyyələnir. Həmin cəhətlər bunlardan ibarətdir:

- müstəqil olmaq;
- öz-özünü idarə etmək;
- öz statusunu beynəlxalq müqavilə əsasında müəyyənləşdirmək;
- öz statusuna böyük dövlətlərdən və ya beynəlxalq təşkilatlardan təminat almaq;
- hərbsizləşdirilmək və bitərəfsizləşdirilmək;
- hansı dövlətin ərazisində yaradılmışsa, o dövlətlə müqavilə bağlamaq və onun vasitəsilə xarici aləmlə əlaqə saxlamaq və həmin dövlətin kommunikasiyalarından istifadə etmək qaydalarını müəyyənləşdirmək və s.

Tarixən aşağıdakı azad şəhərlər mövcud olmuşdur:

- Krakov (1815-1846-cı illər; 1815-ci ildə Vyana Konqresinin Yekun Aktı əsasında yaradılmışdır);

– Dansiq (1920-1939-cu illər; 1919-cu il tarixli Versal Sülh Müqaviləsi əsasında yaradılmışdır);
– Azad Triyest Ərazisi (1947-ci ildə İtaliya ilə bağlanmış sülh müqaviləsi əsasında yaradılmalı idi; lakin, praktiki olaraq, belə ərazi yaradılmadı və onun hissələri İtaliya və Yuqoslaviyanın tərkibinə daxil oldu).

Azad şəhərlərin beynəlxalq publik hüquq sübeyktliyi məhdud xarakter daşıyırdı. Belə ki, onlar **məhdud beynəlxalq publik hüquq subyektliyinə** malik idilər, çünki azad şəhərlər onların yaradılması barədə beynəlxalq müqavilədə nəzərdə tutulan beynəlxalq münasibətlərə daxil ola bilərdilər. Azad şəhərlərin beynəlxalq publik hüquq subyektliyinin həcminə gəldikdə isə, qeyd etməliyik ki, o, ya beynəlxalq müqavilə, ya da özlərinin konstitusiyası ilə müəyyən olunurdu.

Azad şəhərlər daxilən öz-özünü idarə edirdi. Lakin daxili özünüidarəetmə tam xarakter daşımırdı. Qeyd etməliyik ki, azad şəhərlər müəyyən dövlətin daxili hüququna deyil, yalnız beynəlxalq publik hüquqa tabe sayılırdılar.

Azad şəhərlərin çoxunun hüququ vardı ki, beynəlxalq müqavilə bağlasın; onlar həm də beynəlxalq təşkilatlarda və konfranslarda iştirak etmək hüququna malik idilər.

Qərbi Berlin. Xüsusi beynəlxalq-hüquqi **statusa** malik olan Qərbi Berlin azad şəhərlərdən biri olmuşdur. Belə ki, SSRİ hökumətinin təklifi və Almaniya Demokratik Respublikasının razılığı ilə Qərbi Berlin 1958-ci ildə azad şəhər statusu ilə təmin edilmişdi.

Məlum olduğu kimi, II Dünya Müharibəsi qurtardıqdan sonra vahid Almaniya iki müstəqil dövlətə bölündü: Almaniya Federativ Respublikası (AFR), Almaniya Demokratik Respublikası (ADR). Vahid Almaniyanın bölünməsi həm də onun ərazisində Qərbi Berlin kimi azad şəhərin yaranmasına səbəb oldu.

Qərbi Berlinin öz **konstitusiyası** olmuşdur. 1950-ci ilin oktyabr ayının 1-dən qüvvəyə minən konstitusiya Qərbi Berlini xüsusi xarakterli siyasi-ərazi vahidi kimi müəyyən edirdi.

Konstitusiyada həm də Qərbi Berlinin dövlət-siyasi quruluşu haqqında normalar nəzərdə tutulmuşdu.

Qərbi Berlinin **beynəlxalq-hüquqi vəziyyəti** SSRİ, ABŞ, Böyük Britaniya və Fransa arasında 1971-ci ilin sentyabr ayında bağlanmış müvafiq dördtərəfli beynəlxalq sazişlə müəyyən edilirdi. Həmin saziş Qərbi Berlinin beynəlxalq-hüquqi statusunu tənzimləyən əsas beynəlxalq-hüquqi akt sayılırdı. Göstərilən saziş Qərbi Berlini məhdud beynəlxalq publik hüquq subyektliyi ilə təmin edirdi. Beynəlxalq münasibətlər sahəsində şəhər əhalisinin mənafeyini konsul vəzifəli şəxslər təmsil edirdilər.

Məlum olduğu kimi, 1990-cı il sentyabrın 12-də Almaniyanın qəti olaraq tənzimlənməsi barədə müvafiq beynəlxalq müqavilə bağlandı. Həmin müqaviləyə əsasən, Almaniya birləşdirildi və onun tərkibinə ADR və AFR-ın, habelə bütövlükdə Berlinin ərazisi daxil edildi. Bununla Qərbi Berlin kimi azad şəhərin mövcudluğuna son qoyuldu və onun xüsusi statusu ləğv edildi.

Vatikan. Vatikan dövlətəoxşar qurumlardan biridir. O, İtaliyanın paytaxtı olan Roma şəhərinin xüsusi rayonunda yerləşir. Vatikana, bəzən, şəhər-dövlət də deyilir. Beynəlxalq sənədlərdə Vatikan rəsmi olaraq «Holy See», yəni **«Müqəddəs Taxt-tac»** (rus dilində – «Святейший Престол») adlanır.

Vatikan **siyasi-dini** təsisatdır. O, Katolik kilsəsinin inzibati mərkəzi, Katolik kilsənin başçısı olan Roma Papasının iqamətgahıdır. Katolik kilsəsinə dünya miqyasında müstəqil surətdə rəhbərlik edən mərkəz kimi Vatikanın beynəlxalq rolu kifayət dərəcədə böyükdür. O, dünya siyasətində fəal surətdə iştirak edir. Vatikanın beynəlxalq publik hüquq subyektliyi də məhz onun beynəlxalq aləmdə böyük rol oynamasından, eləcə də dünya siyasətində fəal iştirak etməsindən irəli gəlir. Qeyd etməliyik ki, Vatikanın beynəlxalq publik hüququn subyekti olması dünyada hamılıqla qəbul edilmişdir.

Vatikan beynəlxalq publik hüququn **qeyri-ilkin (törəmə)** subyektlərindən sayılır.[1] Belə ki, o, beynəlxalq publik hüququn

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.46.

ilkin və əsas subyekti sayılan dövlətin iradəsi ilə yaradılmışdır. Məlum olduğu kimi, 1870-ci ilə qədər beynəlxalq publik hüququn subyekti kimi tanınan müstəqil Papa dövləti mövcud olmuşdur. 1870-ci ildə İtaliya dövləti tərəfindən Papa dövlətinin ərazisinin zorla özünə birləşdirilməsi nəticəsində onun müstəqilliyinə son qoyuldu, Roma şəhəri isə İtaliya dövlətinin paytaxtı oldu. Təbii ki, Roma Papası («Müqəddəs Taxt-tac») bununla barışa bilməzdi. Odur ki, 1929-cu ildə İtaliya hökuməti ilə «Müqəddəs Taxt-tac» arasında Lateran Müqaviləsi bağlandı. Müqavilə Roma Papasının nümayəndəsi Qaspori və İtaliya hökumətinin başçısı Mussolini tərəfindən imzalanmışdı. Məhz həmin müqavilə əsasında Vatikan şəhər-dövləti yaradıldı.

Lateran Müqaviləsinə uyğun olaraq, Roma şəhərinin ərazisinin müəyyən böyük olmayan hissəsi «Müqəddəs Taxt-tac»a qaytarıldı və bu ərazidə Vatikan şəhər–dövləti yerləşir. Lateran Müqaviləsi Vatikanın hüquqi vəziyyətini müəyyən edirdi. 1984-cü ildə Vatikan və İtaliya Respublikası arasında yeni müqavilə bağlandı ki, həmin sənəd **«Müqəddəs Taxt-tac»ın statusunu** müəyyənləşdirir; həm də, o, Lateran Müqaviləsinin prinsipial müddəalarını saxlayır; 1984-cü il müqaviləsi hal-hazırda da qüvvədədir. O, bu gün Vatikanın hüquqi statusunu müəyyənləşdirən əsas beynəlxalq sənəd sayılır.

Vatikan dövlətə xas olan bir sıra **əlamətə** malikdir. Belə ki, onun min nəfərdən ibarət olan daimi əhalisi vardır. Vatikan həm də əraziyə malikdir (onun ərazisi 44 kvadrat kilometrdən ibarətdir). Bunlardan əlavə, Vatikanın öz vətəndaşlığı və hakimiyyət orqanları (qanunvericilik orqanları və s.) mövcuddur. Bunlar onu göstərir ki, Vatikan, demək olar ki, dövlətə xas olan bütün atributlarla xarakterizə olunur. Bunlara baxmayaraq, Vatikan, sözün həm siyasi, həm hüquqi, həm də sosial mənasında, dövlət deyildir. O, yalnız dövlətəoxşar dini-siyasi qurumdur.

Dövlətəoxşar qurum kimi Vatikanın **beynəlxalq publik hüquq subyektliyi** beynəlxalq publik hüquq nəzəriyyəsində, ha-

belə beynəlxalq hüquq praktikasında geniş səviyyədə yaranır. Vatikanın beynəlxalq publik hüquq subyektliyi, hər şeydən əvvəl, bunda ifadə olunur ki, o, beynəlxalq publik hüquq normaları yaratmaq qabiliyyətinə malikdir.[1] Şübhə yoxdur ki, Vatikan beynəlxalq publik hüquq normalarının yaradılmasında bilavasitə iştirak edən qurumdur. Digər tərəfdən, Vatikanın beynəlxalq müqavilə bağlamaq hüququ vardır.[2] Vatikan bir sıra çoxtərəfli beynəlxalq müqavilənin, o cümlədən insan hüquqlarına dair beynəlxalq müqavilənin iştirakçısıdır. Maraqlı dövlətlərlə beynəlxalq müqavilələr Vatikan şəhər-dövlətin adından bağlanılır ki, onlara «dünyəvi» beynəlxalq müqavilələr deyilir.[3]

Beynəlxalq müqavilələr Katolik kilsəsinin işləri (dini məsələlər) barədə də bağlana bilər. **Konkordat** adlanan belə müqavilələr Katolik kilsədə dövlət orqanları (dövlət hakimiyyəti) arasındakı qarşılıqlı münasibətləri tənzimləyir. Onları Katolik kilsəsinin başçısı Roma Papası «Müqəddəs Taxt-tac» adından bağlayır. Məsələn, «Azərbaycan Respublikası və Müqəddəs Taxt-tac arasında Katolik kilsənin Azərbaycan Respublikasında hüquqi statusu haqqında» Saziş Müqəddəs Taxt-tac adından imzalanmışdır.[4]

Vatikanın beynəlxalq publik hüquq subyektliyi həm də onun müxtəlif növ beynəlxalq münasibətlərdə iştirak etməsində ifadə olunur. O, hər şeydən əvvəl, diplomatik münasibətlərdə iştirak edir. Vatikan dünyanın 165 ölkəsi ilə diplomatik (rəsmi) münasibət yaratmışdır və bundan ötrü o, həmin ölkələrdə diplomatik nümayəndəliyini (səfirliyini) təsis etmişdir ki, onlara **nunsiya** və ya **internunsiya** (səfir) başçılıq edir.

---

[1] Международное право. Учебное пособие / Авторы: Ю.В.Трунцевский и др. М., 2010, с.48.

[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.126.

[3] Фердросс А. Международное право / Пер. с нем. М., 1959, с.130.

[4] *Bax:* Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 27.05.2011-ci il tarixli 129-IVQ nömrəli Qanunu // AR QT, 2011, № 7, maddə 595.

Vatikan bir sıra beynəlxalq təşkilat və konfransın işində iştirak edir. O, bəzi dövlətlərarası beynəlxalq və regional təşkilatların (MAQATE, ATƏT və digərlərinin) üzvüdür. Vatikan BMT, UNESKO, BƏT və digər beynəlxalq təşkilatlarda daimi müşahidəçi statusu ilə iştirak edir.

Deyilənlər onu göstərir ki, Vatikan beynəlxalq publik hüquq subyektliyinə malikdir. Lakin, onun beynəlxalq publik hüquq subyektliyi tam deyil, **məhdud xarakter** daşıyır.[1]

Konstitusiya Vatikanın **əsas qanunu** sayılır. Burada göstərilir ki, Vatikan şəhər-dövlətini təmsil etmək hüququ Katolik kilsənin başçısı olan Roma Papasına məxsusdur.

Malta Ordeni. Malta Ordeni rəsmi dini təşkilat olub, əsasən, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olur. 1889-cu ildə müstəqil qurum kimi tanınan Malta Ordeni Roma şəhərində yerləşir. Başqa sözlə, onun inzibati mərkəzi Roma şəhərindədir. Malta Ordeninin beynəlxalq publik hüququn subyekti olması hüquq ədəbiyyatında mübahisə doğurur. Zənnimizcə, onu beynəlxalq publik hüququn subyekti hesab etmək olmaz, çünki Malta Ordeninin nə ərazisi, nə də əhalisi vardır; o, siyasi hakimiyyət daşıyıcısı da deyildir. Malta Ordeni suveren qurum kimi tanınsa da, sözün beynəlxalq-hüquqi mənasında, suverenlik kimi siyasi-hüquqi keyfiyyətdən məhrumdur. Düzdür, Malta Ordeni dünyanın bir çox dövləti ilə diplomatik əlaqə saxlayır. Lakin bu, heç də, onun beynəlxalq publik hüququn subyekti kimi tanınmasına əsas vermir.

[1] Hüquq ədəbiyyatında belə bir fikir söylənilir ki, Vatikan tam beynəlxalq publik hüquq subyektliyinə malikdir *(məsələn, bax:* Международное право. Учебное пособие / Авторы: Ю.В.Трунцевский и др. М., 2010, с.48).

VII MÖVZU ÜZRƏ ƏYANİ SXEM



VII FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Beynəlxalq hüquq. Azərbaycan dilində / Məsul redaktor və tərcüməçi – R.F.Məmmədov. Bakı, 2002 (fəsil 5).
2. Hüseynov L.H.Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000 (fəsil 5).
3. Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006 (гл.6).
4. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 (гл.11).
5. Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл. 7).
6. Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009 (гл. 5).
7. Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015 (гл.3).
8. Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010 (гл. 3).
9. Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011 (гл.4).
10. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.5).
11. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл. 7).
12. Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005 (гл.4).
13. Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008 (гл. 2).
14. Международное право. Учебное пособие / Ю.В.Трунцевский и др. М., 2010 (тема 2).
15. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл. 5).
16. Тимченко Л.Д. Международное право. Учебник. Издание третье, стереотипное. Харьков, 2004 (гл.2).
17. Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015 (гл. 4).
18. Шумилов В.М. Международное право. Учебник. М., 2008 (с.119-140).

VIII FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQLA MİLLİ HÜQUQ ARASINDA QARŞILIQLI ƏLAQƏ

8.1. Beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqə barədə konsepsiyalar

8.1.1. Monizm konsepsiyası

Bildiyimiz kimi, dünyada iki hüquq sistemi mövcuddur və həmin hüquq sistemləri aşağıdakılardan ibarətdir:

- beynəlxalq publik hüquq sistemi (sadəcə olaraq – «beynəlxalq publik hüquq»);
- milli hüquq sistemi (sadəcə olaraq – «milli hüquq»).

Beynəlxalq publik hüquq öz subyektləri (dövlətlər, hökumətlərarası beynəlxalq təşkilatlar, dövlətəoxşar qurumlar və s.) arasında yaranan beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir. Qeyd etməliyik ki, beynəlxalq publik hüququn subyektləri dövlətin bu və ya digər əlamətinə malikdir; bu səbəbdən onlar arasında yaranan münasibətlər **dövlətlərarası münasibətlər** hesab edilir. Beynəlxalq publik hüququn da əsas və başlıca funksiyası məhz dövlətlərarası münasibətləri tənzimləməkdir. Dövlətdaxili münasibətlərə gəldikdə isə, nəzərə çatdırmaq istərdik ki, beynəlxalq publik hüquq belə münasibətləri tənzim etmək vəzifəsi daşımır. Dövlətdaxili deyil, dövlətlərarası münasibətləri tənzimləməsi səbəbindən hər bir dövlət özünün ayrıca beynəlxalq publik hüququna malik deyildir, yəni dünyada mövcud olan dövlətlərin ayrıca öz beynəlxalq publik hüququ yoxdur. Odur ki, hər bir dövlətin beynəlxalq publik hüququ (məsələn, Almaniyanın beynəlxalq publik hüququ, Azərbaycanın beynəlxalq publik hüququ, Rusiyanın beynəlxalq publik hüququ, Türkiyənin beynəlxalq publik hüququ və s.) haqqında danışmaq

məntiqsiz olardı. Qeyd etməliyik ki, bütün dövlətlər üçün vahid və ümumi beynəlxalq publik hüquq mövcuddur. Başqa sözlə, dövlətlərin hamısı üçün beynəlxalq publik hüquq vahiddir, ümumidir.

Milli hüquq dedikdə hər bir dövlətin daxili hüququ başa düşülür; ona həm də **dövlətdaxili hüquq** deyilir. Milli hüququn isə əsas və başlıca funksiyası müvafiq dövlətin daxilində yaranan ictimai münasibətləri – **dövlətdaxili münasibətləri** tənzimləməkdən ibarətdir. Buna görə də, hər bir dövlətin özünün ayrıca milli hüququ vardır: məsələn, Almaniyanın milli hüququ, Azərbaycanın milli hüququ, Türkiyənin milli hüququ və s.

Dünyada mövcud olan iki hüquq sistemi, yəni beynəlxalq publik və milli hüquq sistemləri barədə danışdığımız zaman, təbii ki, ortaya belə bir haqlı sual çıxır: beynəlxalq publik hüquqla milli hüquq arasında qarşılıqlı əlaqə mövcuddurmu və bu əlaqənin xarakteri necədir?

Bu suala cavab vermək üçün beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqə məsələsi barədə irəli sürülmüş konsepsiyalarla (nəzəriyyələrlə) tanış olmaq lazımdır. Hər şeydən əvvəl, qeyd edək ki, həmin məsələyə hələ XIX əsrin axırlarında aydınlıq gətirilməyə təşəbbüs göstərilmişdir. O dövrün tanınmış almaniyalı hüquqşünas alimi H.Tripel beynəlxalq publik və milli hüquq arasındakı qarşılıqlı əlaqəni öyrənməyə (tədqiq etməyə) cəhd edən ilk tədqiqatçı sayılır. Alim 1899-cu ildə nəşr olunmuş «Beynəlxalq hüquq və dövlət hüququ» adlı tədqiqat işində məhz həmin məsələyə toxunurdu.[1]

Beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqənin öyrənilməsində klassik dövrün rusiyalı alimlərinin də xidmətləri, xüsusilə, qeyd edilməlidir. Rusiyanın görkəmli alimləri (hüquq üzrə mütəxəssislər, məsələn, F.F.Martens,

[1] Triepel H. Völkerrecth und Landesrecht. Leipzig, 1899 (URL:http: // www. archive.org – 20.05.2018-ci il).

L.A.Kamarovski, P.Y.Kazanski[1] və digərləri) tutarlı dəlillərlə əsaslandırırdılar ki, beynəlxalq publik hüquqla milli hüquq arasında qarşılıqlı əlaqə mövcuddur.

Beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqə barədə irəli sürülmüş konsepsiyalara (nəzəriyyələrə) gəldikdə isə, qeyd etmək lazımdır ki, həmin konsepsiyalar beynəlxalq publik və milli hüquq sistemləri arasındakı qarşılıqlı əlaqənin nəzəri əsası hesab edilir və onlar aşağıdakılardan ibarətdir:

– monizm konsepsiyası;

– dualizm konsepsiyası.

Göstərilən konsepsiyalar tarixən beynəlxalq publik hüquq elmində əsaslandırılmış və tədqiq edilmişdir. Eyni zamanda, onlar dövlətlərin həm hüquqyaratma, həm də hüquqtətbiqetmə praktikasına vacib təsir göstərir. Beynəlxalq publik hüquq doktrinasında irəli sürülən və mövcud olan həmin konsepsiyalar beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqə məsələsinə aydınlıq gətirir.

Monizm konsepsiyasına görə, beynəlxalq publik hüquqla milli hüquq bir-birilə qırılmaz surətdə bağlı olub, vahid hüquq sistemində birləşmişdir. Beynəlxalq publik və milli hüququ bir hüquq sistemində birləşdirmək monizm konsepsiyasını xarakterizə edən əsas cəhət sayılır. Həmin konsepsiya tərəfdarları göstərirlər ki, dünyada bir (vahid) hüquq sistemi mövcuddur və bu sistem bir-biri ilə ayrılmaz vəhdətdə olan iki komponentdən – beynəlxalq publik hüquq və milli hüquqdan təşkil olunmuşdur. Başqa sözlə, monizm nəzəriyyəsinin tərəfdarları beynəlxalq publik və milli hüququn vahid olması prinsipindən çıxış edirlər. Onlar özlərinin haqlı olmalarını və düzgün mövqe tut-

[1] Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. СПб., 1888, с.188; Камаровский Л.А. Основные вопросы международного права. М., 1892, с.9; Казанский П.Е. Введение в курс международного права. Одесса, 1901, с.264 (URL:http: // www. naukaprava.ru – 20.05.2018-ci il).

malarını bununla izah edirlər ki, öz təbiətinə görə vahid olan hüquq, nəticə etibarı ilə, fərdlərə ünvanlanaraq fərdlər arasında yaranan münasibətləri tənzim edir.

Monizm konsepsiyasının əsas müddəası bundan ibarətdir ki, beynəlxalq publik hüquq, prinsip etibarı ilə, həm dövlətdaxili münasibətləri bilavasitə tənzim edə, həm də milli məhkəmələr, digər dövlət orqanları və vəzifəli şəxslər tərəfindən tətbiq oluna bilər. Bundan ötrü, yəni beynəlxalq publik hüququn dövlətdaxili münasibətləri bilavasitə tənzimləməsi və onun milli məhkəmələr, eləcə də digər subyektlər tərəfindən tətbiq olunması üçün aşağıdakılar tələb edilir:[1]

- ya müvafiq beynəlxalq publik hüquq norması yaradıcısının belə niyyəti olmalıdır;
- ya da müəyyən dövlətin milli (daxili) hüququ buna yol verməlidir ki, bu, həmin dövlətin qanunvericiliyində öz əksini tapmalıdır.

Qeyd etməliyik ki, monizm konsepsiyasının aşağıda göstərilən iki forması (variantı) mövcuddur:[2]

- beynəlxalq publik hüququn primatı konsepsiyası;
- milli hüququn primatı konsepsiyası.

Beynəlxalq publik hüququn primatı konsepsiyasının mahiyyəti bundan ibarətdir ki, beynəlxalq publik hüquq milli hüquq qarşısında prioritetə (üstünlüyə) malikdir. Bu səbəbdən həmin konsepsiyaya, bəzən, **beynəlxalq publik hüququn prioriteti konsepsiyası** da deyilir. Beynəlxalq publik hüququn prioriteti konsepsiyasına görə, beynəlxalq publik hüquq milli hüquqdan üstündür və onlar arasında ziddiyyət yaranarsa, beynəlxalq publik hüquq tətbiq edilir. Beynəlxalq publik hüququn primatı (üstünlüyü) konsepsiyasının mahiyyəti də məhz bundan ibarət-

[1] *Bu barədə bax:* Международное право. Учебник/ Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.77.

[2] Международное право. Учебник / Отв ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.234.

dir. Bu konsepsiyaya görə, beynəlxalq publik hüquq dünyada mövcud olan bütün hüquq sistemləri arasında əsas və başlıca rol oynayır.

Beynəlxalq publik hüququn primatı konsepsiyası XVIII əsrdə İngilis-Sakson hüquq məktəbi çərçivəsində yaranmışdır və onun əsasını **Blekstoun doktrinası** təşkil edir. Blekstoun doktrinası isə 1765-ci ildə formulə edilmişdir. Həmin doktrinaya görə, beynəlxalq publik hüquq ümumi (milli) hüquq tərəfindən tam şəkildə qəbul olunur və onun bir hissəsi hesab edilir.[1]

Beynəlxalq publik hüququn primatı konsepsiyasının tərəfdarları belə hesab edirlər ki, milli (dövlətdaxili) hüquq yalnız beynəlxalq publik hüquqla nizamlanmayan məsələləri tənzim edə bilər; dövlət bu kimi hallarda öz ərazisi həddində müvafiq məsələni milli (daxili) hüquq vasitəsi ilə tənzimləmək səlahiyyətinə malik olur. Onlardan bəziləri göstərirlər ki, öz mahiyyətinə görə, milli (dövlətdaxili) hüquqla tənzimlənə bilən məsələlər mövcud deyil; hətta milli (dövlətdaxili) - hüquqi tənzimetmənin beynəlxalq-hüquqi tənzimetmə ilə tam əvəz olunması təklif edilir.

Beynəlxalq publik hüququn primatı konsepsiyasının üstün və çatışmayan cəhətləri də vardır. Həmin konsepsiya beynəlxalq publik hüququn bu və ya digər dövlətin daxilində onun sanksiyası (icazəsi) ilə tətbiq olunmasının mümkünlüyünü nəzərdə tutur; xüsusən də, insan hüquqlarının qorunmasında beynəlxalq publik hüquq vacib rol oynayır. Bunlar beynəlxalq publik hüququn primatı konsepsiyasının üstün cəhəti sayılır. Həmin konsepsiyanın çatışmayan cəhəti isə bundan ibarətdir ki, o, ali hüquq hesab etməklə beynəlxalq publik hüququn rolunu həddən artıq şişirdir və dövlətlərin suveren bərabərliyi prinsipinin əhəmiyyətini azaldaraq heçə endirir.

Monizm konsepsiyasının ikinci formasına (variantına) gəldikdə isə, qeyd etməliyik ki, **milli hüququn primatı konsepsi-**

[1] *Bu barədə bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.158.

yasına görə, milli (dövlətdaxili) hüquq beynəlxalq publik hüquq qarşısında prioritetə malikdir və onlar arasında ziddiyyət yaranarsa, milli (dövlətdaxili) hüquq tətbiq edilməlidir. Bu konsepsiyanın əsas müddəası bundan ibarətdir ki, beynəlxalq publik hüquq dövlətlərin üzərinə beynəlxalq-hüquqi öhdəliklər qoyur. Əgər beynəlxalq-hüquqi öhdəliklər dövlətlərin mənafe və maraqlarına uyğun gəlməzsə,yaxud cavab verməzsə, onda dövlətlərin həmin öhdəlikləri yerinə yetirməmək hüququ vardır. Dövlətlər beynəlxalq publik hüquqa əməl etmək və ya əməl etməmək məsələsini öz mənafe və maraqlarından asılı olaraq sərbəst şəkildə həll edirlər.

Milli hüququn primatı konsepsiyasından, xüsusən, «**Hitler Almaniyası**» keçən yüzilliyin 30–40-cı illərində geniş səviyyədə istifadə etmişdir. Belə ki, Almaniya, məlum olduğu kimi, o vaxtlar beynəlxalq publik hüququ tez-tez pozurdu və bu zaman yol verilən beynəlxalq publik hüquq pozuntularına haqq qazandırmağın nəzəri əsası kimi milli hüququn primatı konsepsiyasına əhəmiyyət verilirdi. Həmin dövlət sözügedən konsepsiyanı əldə əsas tutaraq belə hesab edirdi ki, o, öz mənafe və maraqlarına uyğun gəlmədiyinə görə üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəlikləri istənilən anda poza bilər.

Qeyd etməliyik ki, milli hüququn primatı konsepsiyasından I Dünya Müharibəsi zamanı, habelə ondan sonrakı II Dünya Müharibəsinədək olan dövrlərdə geniş səviyyədə istifadə edilmişdir. Müasir dövrdə isə həmin konsepsiya öz əhəmiyyətini tamamilə itirmişdir və bu gün onun praktikada tətbiqinə, demək olar ki, yol verilmir.

Milli hüququn primatı konsepsiyasının nə vaxt irəli sürülməsinə gəldikdə, qeyd etməliyik ki, o, I Dünya Müharibəsinin başlanması ərəfəsində formulə olunmuşdur. I və II Dünya müharibələri arasındakı dövrdə isə həmin konsepsiya inkişaf etdirilmişdir. Milli hüququn primatı konsepsiyası almaniyalı bəzi alimlər tərəfindən irəli sürülmüşdür ki, onun da əsasını G.V.F.Hegelin fəlsəfi baxışları təşkil edir. Hegelə görə, Yer kürəsində mütləq (qeyri-məhdud) hakimiyyətə malik olan döv-

lət öz iradəsi ilə həm milli (daxili) hüququ, həm də beynəlxalq publik hüququ (xarici dövlət hüququnu) dəyişə bilər.

Milli hüququn primatı konsepsiyası da öz müsbət və mənfi cəhətləri ilə xarakterizə olunur. Göründüyü kimi, həmin konsepsiya beynəlxalq publik hüququn inkişafında dövlətin iradə və mənafeyinin (maraqlarının) vacib rol oynamasını nəzərdə tutur; bu hal onun müsbət cəhətidir. Digər tərəfdən, milli hüququn primatı konsepsiyası, mahiyyətcə, beynəlxalq publik hüququ inkar edərək, onun rolunu, demək olar ki, heçə endirir, həmçinin beynəlxalq münasibətlərdə özbaşınalıq, hərc-mərclik, xaos, anarxiya və qarma-qarışıqlıq kimi neqativ hallara haqq qazandırır, eləcə də beynəlxalq publik hüquq pozuntusuna yol verilməsi üçün nəzəri əsas yaradır; bu isə həmin konsepsiyanın mənfi cəhəti sayılır.

Deyilənlər onu göstərir ki, monizm konsepsiyasına görə, beynəlxalq publik və milli hüquq vahid hüquq sistemində birləşsələr də, onlar, prinsip etibarilə, müxtəlif sahələrdə tətbiq edilir. Həmin konsepsiya beynəlxalq publik hüququn dövlətdaxili münasibətlər sahəsində birbaşa, avtomatik tətbiq olunmasına yol verir və bundan ötrü dövlətin qanunverici orqanının sanksiyası (icazəsi) tələb edilir.

8.1.2. Dualizm konsepsiyası

Beynəlxalq publik hüquq elmində həm də dualizm konsepsiyası əsaslandırılmışdır. Bu konsepsiyanın fəal tərəfdarı tanınmış almaniyalı hüquqşünas H.Tripel hesab edilir.[1] Təsadüfi deyildir ki, o, dualizm məktəbinin əsasını qoyan şəxs sayılır. XIX əsrin sonunda və XX əsrin əvvəllərində Rusiyanın inqilabaqədərki bir sıra müəllifi (F.F.Martens, L.A.Kamarovski, P.Y.Kazanski və b.) dualizm mövqeyində duran alimlər kimi tanınırdılar.

[1] URL:http://www.law.edu.ru (20.05.2018-ci il).

Dualizm konsepsiyası bir neçə **əlamətlə** xarakterizə olunur. **Birinci**, beynəlxalq publik və milli hüquq **müstəqil surətdə mövcud olan** iki hüquq sistemidir. Belə ki, onlardan hər birinin özünəxas tənzimetmə predmeti və subyektləri vardır; onlar bir-birindən hüquqi mənbəyinə görə də fərqlənir. Başqa sözlə, həm beynəlxalq publik, həm də milli hüququn öz ayrıca mənbəyi vardır və ona görə də, beynəlxalq publik və milli hüquq müstəqil iki hüquq sistemi hesab edilir.

İkinci, beynəlxalq publik və milli hüquq **paralel mövcud olan** iki hüquq sistemidir. Bu səbəbdən onlar heç vaxt, necə deyərlər, kəsişmirlər.[1]

Üçüncü, beynəlxalq publik və milli hüquq **bir-birindən fərqlənən və müxtəlif olan** iki hüquq sistemidir. Belə ki, bir az əvvəldə dediyimiz kimi, beynəlxalq publik və milli hüququn həm spesifik (özünəməxsus) tənzimetmə predmeti, həm subyektləri, həm də mənbələri vardır. Bu da, öz növbəsində, onların müxtəlif (bir-birindən fərqli) iki hüquq sistemi kimi tanınmasına səbəb olur.

Dördüncü, beynəlxalq publik və milli hüquq **bir-birindən asılı olmayan** hüquq sistemləri hesab edilir və onlar arasında nə asılılıq, nə də tabeçilik əlaqəsi vardır. Belə ki, beynəlxalq publik hüquq milli hüququn tərkib hissəsi (elementi) hesab edilmir. Milli hüquqa da, eyni zamanda, beynəlxalq publik hüququn tərkib hissəsi (elementi) kimi baxmaq olmaz. Bu səbəbdən nə beynəlxalq publik hüquq milli hüquqa, nə də mili hüquq beynəlxalq publik hüquqa tabe sayılır.

Beşinci, beynəlxalq publik və milli hüquq **öz sahələrində ən yüksək hüquqi qüvvə ilə** təmin olunmuşdur. Belə ki, beynəlxalq publik hüquq dövlətlərarası, milli hüquq isə dövlətdaxili münasibətlərə tətbiq edilir. Dövlətlərarası münasibətlər sahəsində beynəlxalq publik hüquq, dövlətdaxili münasibətlər sferasında isə milli hüquq ən yüksək hüquqi qüvvəyə malikdir.

[1] Международное право. Учебник/ Отв.ред. Г.М. Мелков. М., 2011, с.44.

Altıncı, beynəlxalq publik və milli hüquq **eyni əhəmiyyətə malik olan** iki hüquq sistemidir. Belə ki, onların hər ikisinin də əhəmiyyəti müstəqildir, bərabərdir. Hesab edirik ki, həmin hüquq sistemlərindən hansının daha çox əhəmiyyətə malik olması barədə fikir söyləmək ən azı ədalətsizlik olardı.

Yeddinci, beynəlxalq publik və milli hüquq arasında **qarşılıqlı dialektik əlaqə** mövcuddur. Paralel mövcud olan və müstəqil hesab edilən həmin hüquq sistemləri həmişə bir-birinə istinad etməlidir.

Səkkizinci, qeyd etməliyik ki, **dövlətdaxili münasibətlərin birbaşa beynəlxalq publik hüquqla tənzimlənməsinə** yol verilir. Bundan ötrü dövlət transformasiya aktı qəbul etməlidir. Məhz belə aktın qəbul edilməsi nəticəsində beynəlxalq publik hüquq bilavasitə dövlətdaxili münasibətlərə tətbiq olunur. Transformasiya aktının nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, dövlətdaxili səviyyədə qəbul olunan müvafiq qanun və ya qanunqüvvəli akt **«transformasiya aktı»** adlanır. Belə akt qəbul etməklə dövlət öz daxilində yaranan münasibətlərə bilavasitə beynəlxalq publik hüququn tətbiq olunmasını sanksiyalaşdırır.

Qeyd etməliyik ki, monizm konsepsiyası kimi, dualizm konsepsiyasının da üstün və çatışmayan cəhətləri vardır. Belə ki, dualizm konsepsiyası beynəlxalq publik hüquqla milli hüququn müstəqil hüquq sistemləri sayılmasını və bir-birindən asılı olmamasını tanıyır; bu konsepsiya həm də həmin hüquq sistemlərinin bir-birinə qarşılıqlı təsir göstərmələrini nəzərdə tutur. Dualizm konsepsiyasına görə, müxtəlif, lakin öz aralarında qarşılıqlı dialektik əlaqəyə malik olan beynəlxalq publik və milli hüquq bir-birinin formalaşmasına, inkişafına və öz funksiyasını yerinə yetirməsinə təsir göstərir. Bütün bunlar dualizm konsepsiyasının üstün cəhətləri sayılır.

Qeyd etdiyimiz kimi, dualizm konsepsiyası beynəlxalq publik və milli hüququ bir-birindən fərqləndirərək, onlar arasında həddi qoyur. Bu zaman həmin konsepsiya, necə deyərlər, şişirtməyə yol verir. Bundan, yəni beynəlxalq publik və milli hüquq

arasındakı fərqin (həddqoymanın) şişirdilməsindən isə, dövlətlər beynəlxalq öhdəlikləri yerinə yetirməmək üçün istifadə edə bilərlər. Bu isə, dualizm konsepsiyasının əsas çatışmayan cəhəti hesab edilir. Faktiki olaraq, həmin konsepsiya beynəlxalq publik hüquqa əməl olunmamasına yönəlmişdir.[1]

Dualizm konsepsiyasının da özünün bir neçə forması vardır. **Dialektik dualizm** həmin formalardan biridir; dualizm konsepsiyasının bu formasına həm də **obyektiv dualizm** deyilir. Dialektik (obyektiv) dualizmə görə, beynəlxalq publik və milli (dövlətdaxili) hüquqlar arasında obyektiv sərhədlər mövcuddur və məhz obyektiv sərhədlər onları bir-birindən ayırır. Obyektiv sərhədlər isə nə qanunvericinin iradəsindən, nə də beynəlxalq müqavilə bağlayan tərəflərin niyyətindən asılıdır. Dialektik (obyektiv) dualizm tərəfdarları belə hesab edirlər ki, beynəlxalq publik hüquq dövlətlərarası münasibət iştirakçıları tərəfindən həmin münasibətləri tənzimləməkdən ötrü yaradılır və bu səbəbdən o, obyektiv olaraq, dövlətdaxili münasibətləri nizama sala bilməz; milli (dövlətdaxili) hüquq isə, yalnız dövlətdaxili münasibətləri, eləcə də beynəlxalq qeyri-dövlətlərarası münasibətləri (xarici elementli dövlətdaxili münasibətləri) tənzimləmək qabiliyyətinə malikdir. Bununla yanaşı, beynəlxalq publik hüquq dövlətdaxili münasibətlərə tətbiq edilə bilər. Başqa sözlə, milli (dövlətdaxili) hüququn predmetini təşkil edən münasibətlərin tənzimlənməsində beynəlxalq publik hüququn iştirak etməsi mümkündür. Lakin, bundan ötrü dövlətin öz suverenliyini ifadə edərək sanksiya (icazə) verməsi (yəni transformasiya aktının qəbul edilməsi) tələb olunur.

Sovet dövrünün beynəlxalq publik hüquq doktrinası məhz dialektik (obyektiv) dualizm konsepsiyasını (nəzəriyyəsini) dəstəkləmişdir. Sovet alimlərindən V.N.Durdenevski, D.B.Levin, Q.İ.Tunkin, E.T.Usenko, N.A.Uşakov və digərləri beynəlxalq publik hüquqla milli (dövlətdaxili) hüquq arasındakı qarşılıqlı

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.80.

əlaqəyə məhz dialektik (obyektiv) dualizm konsepsiyası kontekstində yanaşırdılar.

Fikrimizcə, dialektik (obyektiv) dualizm konsepsiyası həqiqətə daha yaxındır və bu səbəbdən, biz də, onu dəstəkləyirik. Belə ki, dünyada beynəlxalq publik və milli (dövlətdaxili) hüquq kimi bir-birindən asılı olmayan, bərabər əhəmiyyətli iki müstəqil hüquq sistemi mövcuddur və onlar öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri tənzimləyir. Lakin müasir dünyada beynəlxalq publik hüquqla milli (dövlətdaxili) hüquq bir-biri ilə qarşılıqlı əlaqədədir. Heç də sirr deyil ki, hər bir ölkənin milli (dövlətdaxili) hüququ başqa ölkələrin milli (dövlətdaxili) hüququ ilə, eləcə də bütün dünya dövlətlərinin hüququ olan beynəlxalq publik hüquqla bağlıdır.

Xarici ölkələrin beynəlxalq publik hüquq doktrinası da məhz dialektik (obyektiv) dualizm konsepsiyasına üstünlük verir. Məsələn, ABŞ-ın beynəlxalq publik hüquq üzrə mütəxəssis alimləri dualizm konsepsiyasını qəbul edərək yazırlar ki, beynəlxalq məhkəmələr beynəlxalq publik hüququ, milli məhkəmələr isə milli (dövlətdaxili) hüququ tətbiq edirlər. Lakin, buna baxmayaraq, onlar beynəlxalq publik hüquqla milli hüquq arasında qarşılıqlı əlaqənin olması ideyasını qəbul edirlər.[1]

Azərbaycan dövlətinin və onun qanunvericiliyinin beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqə məsələsində mövqeyinə gəldikdə isə, qeyd etməliyik ki, Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsində isə deyilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq dövlətlərarası müqavilələr arasında

[1] *Bu barədə bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.160.

ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Deyilənlərdən belə təsəvvür yaranır ki, Azərbaycan Respublikası rəsmi surətdə beynəlxalq publik hüququn primatı (üstünlüyü) formasında monizm konsepsiyasını qəbul edir; lakin, əslində, bu belə deyil. Belə ki, Konstitusiyaya görə, Azərbaycan Respublikasının qanunvericilik sisteminə yalnız beynəlxalq-müqavilə hüquq normaları daxildir. Beynəlxalq publik hüququn digər mənbə növlərində təsbit olunan beynəlxalq publik hüquq normaları (məsələn, beynəlxalq-hüquqi adətlərdə və dövlətlərarası təşkilatların aktlarında təsbit olunan beynəlxalq publik hüquq normaları) isə buraya aid olunmur. Digər tərəfdən, Konstitusiyaya görə, yalnız beynəlxalq-müqavilə hüquq normaları Azərbaycan Respublikasının qanunvericiliyi qarşısında primata (üstünlüyə) malikdir; başqa növ beynəlxaq publik hüquq normalarının isə üstün hüquqi qüvvəsi yoxdur. Bunlar onu göstərir ki, Azərbaycan Respublikasında beynəlxalq publik hüququn qismən primatı mövcuddur. Bu isə monizm konsepsiyası ilə ziddiyyət təşkil edir. Konstitusiyada deyilənlərdən belə çıxır ki, Azərbaycan Respublikasında beynəlxalq publik və milli (daxili) hüquq kimi iki müstəqil hüquq sistemi tanınır və beynəlxalq publik hüquq Azərbaycan Respublikasının daxilində yaranan münasibətlərə (dövlətdaxili münasibətlərə) tətbiq oluna bilər. Deməli, Azərbaycan Respublikası rəsmən dualizm konsepsiyasını dəstəkləyir və ona tərəfdar çıxır.

Bu gün dünyada **müasir dualizm konsepsiyası** geniş yayılaraq, üstünlük təşkil edir və onun əsasını dialektik (obyektiv) dualizm doktrinası təşkil edir. Müasir dualizm konsepsiyası beynəlxalq publik və milli hüquq kimi bərabər əhəmiyyətli iki müstəqil hüquq sisteminin mövcudluğunu, habelə bu sistemlər arasında qarşılıqlı dialektik əlaqənin olmasını tanıyır.[1]

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.157.

Bəzi müəlliflər monizm və dualizm konsepsiyaları haqqında deyil, **inkorporasiya və transformasiya doktrinaları** barədə danışmağa üstünlük verirlər. Həmin müəlliflər hesab edirlər ki, beynəlxalq publik hüquqla milli (dövlətdaxili) hüquq arasındakı qarşılıqlı əlaqə məsələsinin praktiki həlli, ilk növbədə, qanunvericinin iradəsindən, İngilis-Amerikan (ümumi) hüquq ölkələrində isə məhkəmələrdən asılıdır. Onlar monizm və dualizm konsepsiyaları arasında mövcud olan fərqi bunda görürlər ki, qanunverici bu və ya digər dərəcədə beynəlxalq publik hüququ, avtomatik olaraq, milli (dövlətdaxili) hüquqa daxil edir və yaxud bundan ötrü, yəni beynəlxalq publik hüququn milli (dövlətdaxili) hüquqa daxil edilməsi üçün dövlət sanksiyası (transformasiya aktının qəbul edilməsi) tələb olunur. Beləliklə, həmin müəlliflərə görə, beynəlxalq publik hüquqla milli (dövlətdaxili) hüquq arasındakı qarşılıqlı əlaqə qanunvericinin iradəsi ilə müəyyən edilir.

8.2. Beynəlxalq publik hüquqla milli hüquq arasında qarşılıqlı əlaqə mexanizmi

8.2.1. Beynəlxalq publik hüquq və milli hüquq sistemlərinin uyğunlaşdırılmasının hüquqi formaları

Bildiyimiz kimi, beynəlxalq publik hüquq öz subyektləri üçün, ilk növbədə, dövlətlər üçün beynəlxalq subyektiv hüquqlar və vəzifələr müəyyənləşdirir. Məlum məsələdir ki, beynəlxalq publik hüququn şamil olunduğu subyektlər həmin hüquqları həyata keçirməli, üzərinə düşən vəzifələri yerinə yetirməlidir. Başqa sözlə, beynəlxalq publik hüququn onun ünvanlandığı dövlətin ərazisində həyata keçirilməsi təmin edilməlidir və bundan ötrü milli hüquq beynəlxalq publik hüquqa uyğunlaşdırılmalıdır. Beynəlxalq publik və milli hüquqların uyğunlaşdırılması isə müxtəlif hüquqi formalar vasitəsi ilə həyata keçirilir.

Beynəlxalq publik hüquq və milli hüquqların uyğunlaşdırılmasının hüquqi formaları dedikdə elə üsullar başa düşülür

ki, bu üsulların sayəsində beynəlxalq publik hüquq milli hüquq vasitəsi ilə dövlətdaxili münasibətlər sahəsində tətbiq edilir.

Beynəlxalq publik hüquq doktrinasında beynəlxalq publik və milli hüquqların uyğunlaşdırılmasının bir neçə hüquqi forması fərqləndirilir ki, onlar aşağıdakılardan ibarətdir:

- transformasiya;
- inkorporasiya;
- legitimləşmə;
- resepsiya;
- istinad etmə.

8.2.2. Transformasiya və onun növləri

Qeyd etdik ki, transformasiya beynəlxalq publik və milli hüquqları uyğunlaşdırmağın hüquqi formalarından biridir. Burada söhbət, təbii ki, fiziki-texniki deyil, hüquqi transformasiyadan gedir. **Transformasiya** (hüquqi) dedikdə elə bir proses başa düşülür ki, bu proses nəticəsində müvafiq dövlətdaxili aktın qəbul olunması vasitəsilə beynəlxalq publik hüquq milli hüququn malik olduğu hüquqi qüvvə ilə təmin edilir və bu yolla milli hüquq beynəlxalq publik hüquqa uyğunlaşdırılır. Bu cür dövlətdaxili akta **transformasiya aktı** deyilir.

Beynəlxalq hüquq ədəbiyyatında hüquqi transformasiya **iki mənada** işlədilir:

- geniş mənada hüquqi transformasiya ;
- məhdud mənada hüquqi transformasiya.

Geniş mənada hüquqi transformasiya dedikdə beynəlxalq publik və milli hüquqların uyğunlaşdırılmasının yeganə hüquqi forması başa düşülür. Bu mənada transformasiya özündə inkorporasiya, legitimləşmə və istinad etmə kimi növləri birləşdirir.

Müəlliflərdən S.V.Çerniçenko transformasiyanı məhz geniş mənada işlədir.[1]

Beləliklə, hüquqi transformasiya beynəlxalq publik və milli hüquqların uyğunlaşdırılması prosesini ifadə etmək üçün işlədilən termindir; həmin prosesi ifadə edən zaman o, geniş mənada işlədilir; həm də transformasiya (hüquqi) geniş yayılmış termindir. Bununla yanaşı, bəzi müəlliflər göstərirlər ki, «transformasiya» termini deyil, «beynəlxalq publik hüququn implementasiyası» terminindən istifadə edilməsi daha düzgündür. Qeyd etməliyik ki, BMT-nin rəsmi sənədlərində, müxtəlif nəşrlərdə məhz «implementasiya» termini işlədilir (ingiliscə «implementation» – həyata keçirmək).[2] Beynəlxalq publik hüququn implementasiyasının nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq publik hüququn dövlət daxilində həyata keçirilməsinə beynəlxalq publik hüququn implementasiyası deyilir.

Transformasiya hərfi mənada «çevrilmə» deməkdir. Söhbət beynəlxalq publik hüququn milli (dövlətdaxili) hüquqa transformasiya olunmasından gedir. Lakin, sözün əsl hüquqi mənasında, transformasiya sayəsində beynəlxalq publik hüququn milli (dövlətdaxili) hüquqa çevrilmə prosesi baş vermir və bu səbəbdən «transformasiya» termini şərti xarakter daşıyır. Məsələ burasındadır ki, transformasiya nəticəsində beynəlxalq publik hüquq öz hüquqi təbiətini itirmir; əksinə, dövlətlərarası səviyyədə o, öz funksiyasını yerinə yetirməkdə, mövcud və qüvvədə olmaqda davam edir. Transformasiya prosesinin mahiyyəti bundan ibarətdir ki, bu proses zamanı dövlət beynəlxalq publik hüququ milli (dövlətdaxili) hüququn malik olduğu müəyyən hüquqi qüvvə ilə təmin edir. Axı, dövlətin ərazisində beynəlxalq publik hüquq normalarının hüquqi qüvvəsi yoxdur. Ona görə də, bu yolla, yəni hüquqi qüvvə ilə təmin etməklə bey-

[1] Международное право.Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.84.

[2] *«İmplementasiya» anlayışı barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.359.

nəlxalq publik hüquq milli (dövlətdaxili) hüquq sahəsində realizə olunur, həyata keçirilir və milli (dövlətdaxili) hüququn subyektlərinə ünvanlanır. Bu baxımdan, transformasiya beynəlxalq publik hüququn implementasiyasına oxşayır. Lakin, buna baxmayaraq, onlar arasında **fərqli cəhətlər** də mövcuddur.

Bildiyimiz kimi, bu və ya digər dövlət öz üzərinə beynəlxalq-hüquqi öhdəlik götürür. Məlum məsələdir ki, dövlət üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəliyi vaxtında, hərtərəfli və tam yerinə yetirməlidir. Bundan ötrü o, məqsədyönlü təşkilati-hüquqi fəaliyyət həyata keçirir. Məhz belə fəaliyyətə beynəlxalq hüquq ədəbiyyatında beynəlxalq publik hüququn (beynəlxalq publik hüquq normasının) implementasiyası deyilir.[1] Dövlət, öz növbəsində, həmin fəaliyyəti həm fərdi qaydada, həm kollektiv şəkildə, həm də beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirə bilər.

Beləliklə, **beynəlxalq publik hüququn implementasiyası** dedikdə dövlətin beynəlxalq publik hüquqa uyğun olaraq, üzərinə götürdüyü öhdəliyi vaxtında, hərtərəfli və tam yerinə yetirmək məqsədilə, fərdi, kollektiv və ya beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirdiyi təşkilati-hüquqi fəaliyyət başa düşülür.

Anlayışdan görürük ki, beynəlxalq publik hüququn implementasiyası dövlət tərəfindən həyata keçirilən həm **təşkilati,** həm də **hüquqi fəaliyyətdir.** Başqa sözlə, beynəlxalq publik hüququn dövlət daxilində realizə olunması üçün dövlətin həm təşkilati, həm də hüquqi fəaliyyəti lazımdır (hüquqi fəaliyyət dövlət tərəfindən implementasiya aktının qəbul edilməsini nəzərdə tutur). Bu cəhəti ilə implementasiya transformasiyadan fərqlənir ki, bu onun **birinci fərqli cəhətidir**. Belə ki, transformasiya zamanı dövlət yalnız hüquqi fəaliyyəti həyata keçirir, yəni transformasiya aktı (qanun və ya qanünqüvvəli akt) qəbul edir; dövlət tərəfindən təşkilati fəaliyyət isə həyata keçirilmir.

[1] Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.162.

İkinci fərqli cəhət bundan ibarətdir ki, transformasiya zamanı beynəlxalq-müqavilə hüquq normaları realizə olunur. Başqa sözlə, hüquqi transformasiya yalnız beynəlxalq müqavilələrdə təsbit olunan və müəyyən edilən beynəlxalq publik hüquq normaları üçün nəzərdə tutulmuşdur.[1] Beynəlxalq publik hüquq normalarının digər növlərinə (məsələn, beynəlxalq-adət hüquq normaları, beynəlxalq təşkilatların aktlarında nəzərdə tutulan beynəlxalq publik hüquq normaları və s.) gəldikdə isə, qeyd etməliyik ki, transformasiya onların milli (dövlətdaxili) hüquqda realizə olunmasını nəzərdə tutmur. İmplementasiya zamanı isə, hansı növdə olmasından asılı olmayaraq, bütün beynəlxalq publik hüquq normaları milli (dövlətdaxili) hüquq sahəsində realizə olunur.[2]

Transformasiya və implementasiya arasında **üçüncü fərqli cəhət** də mövcuddur. Belə ki, implementasiyanın məqsədi dövlətin öz üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəliyin yerinə yetirilməsini təmin etməkdən ibarətdir. Transformasiya zamanı isə dövlət üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəliyi yerinə yetirməkdən başqa, həm də malik olduğu subyektiv beynəlxalq hüquqları həyata keçirmək məqsədi güdür.

Məhdud mənada hüquqi transformasiya dedikdə beynəlxalq publik və milli hüquqları uyğunlaşdırmağın hüquqi formalarından (üsullarında) biri başa düşülür; bu mənada transformasiya özündə nə inkorporasiyanı, nə legitimləşməni, nə də digər hüquqi formaları (üsulları) birləşdirir. Biz «hüquqi transformasiya» terminini məhz məhdud mənada işlətməyə üstünlük veririk. Belə ki, fikrimizcə, transformasiya beynəlxalq publik və milli hüquqların uyğunlaşdırılmasının hüquqi formalarından (üsullarından) yalnız biridir.

Beynəlxalq publik hüquq elmində hüquqi transformasiyanın bir neçə növü fərqləndirilir. Belə ki, hüquq ədəbiyyatında

[1] Международное право. Учебник /Отв. ред. Г.М.Мелков. М., 2011, с.45.
[2] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.141.

transformasiya ayrı-ayrı əlamətlərə görə müxtəlif növlərə bölünür.

Hüquqi transformasiya **həyata keçirilmə üsulu** əlamətinə görə, aşağıda göstərilən iki növə bölünür:

– avtomatik hüquqi transformasiya;

– qeyri-avtomatik hüquqi transformasiya.

Avtomatik hüquqi transformasiya odur ki, bu və ya digər dövlətin qanunvericiliyində həmin dövlətin bağladığı bütün beynəlxalq müqavilələrin onun daxili hüququnun (milli qanunvericiliyinin) tərkib hissəsi olması nəzərdə tutularsa, onda istənilən beynəlxalq müqavilə norması bu dövlət üçün qüvvəyə mindiyi andan avtomatik surətdə transformasiya olunur. Transformasiyanın bu növü həyata keçirilən zaman, xüsusi olaraq, hər hansı aktın (məsələn, Parlament aktının və s.) qəbul olunması tələb edilmir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsində deyilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyada ifadə olunan bu göstəriş beynəlxalq müqavilə normasının Azərbaycan Respublikası ərazisində avtomatik surətdə qüvvəyə minməsi üçün kifayətdir, bu şərtlə ki, beynəxalq müqavilə Azərbaycan Respublikası üçün qüvvəyə minsin. Portuqaliya Konstitusiyasının 8-ci maddəsində göstərilir ki, ümumi beynəlxalq hüquq norma və prinsipləri Portuqaliya hüququnun tərkib hissəsidir. Tacikistan Respublikası Konstitusiyasının 10-cu maddəsi müəyyən edir ki, Tacikistan tərəfindən tanınan beynəlxalq-hüquqi aktlar respublikanın hüquq sisteminin bir hissəsidir. Avstriya dövlətinin Konstitusiyasına görə (maddə 9-1), beynəlxalq publik hüququn hamılıqla qəbul olunmuş normaları federal hüququn tərkib hissəsi kimi qüvvədə olur və s.

Əgər bu və ya digər dövlətin daxili qanunvericiliyi beynəlxalq müqavilənin həmin dövlət ərazisində qanun kimi qüvvədə olması üçün, xüsusi olaraq, hər hansı aktın (məsələn, Parlament

aktının və s.) qəbul olunmasını tələb edərsə, buna **qeyri-avtomatik hüquqi transformasiya** deyilir. Yalnız xüsusi akt qəbul olunduqda beynəlxalq müqavilə norması daxili hüququn malik olduğu müəyyən hüquqi qüvvə ilə təmin olunur və belə akt beynəlxalq müqavilə normasının dövlətdaxili sferada tətbiq olunmasını və qüvvəyə minməsini təmin edir. Bu cəhət, əsasən, kontinental (Roman-German) hüquq ailəsinə daxil olan ölkələr üçün xarakterikdir; İngilis-Amerikan hüquq ailəsinə aid edilən ölkələrdə isə, beynəlxalq publik hüquq, ənənəvi olaraq, dövlətdaxili (milli) hüquqa daxil olunur.

Forma kimi əlamətə görə, hüquqi transformasiyanın iki növü fərqləndirilir:

– rəsmi transformasiya;

– qeyri-rəsmi transformasiya.

Rəsmi transformasiya dedikdə bu və ya digər dövlətin qanunvericiliyində müəyyənləşdirilmiş qayda əsasında hüquqi cəhətdən rəsmiləşdirilən transformasiya başa düşülür. Belə ki, rəsmi transformasiya hüquqi cəhətdən rəsmiləşdirilməsi tələb edilən transformasiyadır; hüquqi cəhətdən rəsmiləşdirmənin qaydası isə, müvafiq dövlətin milli qanunvericiliyi ilə müəyyən edilir.

Qeyri-rəsmi transformasiya dedikdə hüquqi cəhətdən rəsmiləşdirilməyən transformasiya başa düşülür. Qeyd etməliyik ki, transformasiyanın bu növü dövlətin milli qanunvericiliyi ilə müəyyənləşdirilən qayda əsasında həyata keçirilmir. Belə ki, hər hansı dövlət beynəlxalq publik hüquqa uyğun hərəkət etmək vəzifəsi daşıya bilər; həmin dövlətin daxili (milli) hüququ buna mane olmur. Təbii ki, dövlətin üzərinə müvafiq vəzifə qoyan beynəlxalq publik hüquq onun daxili (milli) hüququna transformasiya olunmalıdır; lakin bu dövlətin qanunvericiliyində nə transformasiyanın hüquqi cəhətdən rəsmiləşdirilmə qaydası, nə də onun həyata keçirilmə mexanizmi nəzərdə tutulmuşdur. Belə halda hər hansı dövlət orqanının istək və mülahizəsi ilə qeyri-rəsmi transformasiya həyata keçirilir. Qeyri-rəsmi

transformasiya birdəfəlik transformasiyadır. Buna görə ona həm də **«ad hoc» transformasiyası** deyilir[1] («ad hoc» yalnız bir dəfədə həyata keçirilən deməkdir).

Hüquqi transformasiya **beynəlxalq müqavilənin dövlətin daxilində bilavasitə qüvvəyə malik olması** kimi əlamətə görə də, müəyyən növlərə bölünür. Sözügedən əlamət baxımından, onun iki növü fərqləndirilir:

– bilavasitə transformasiya;

– vasitəli transformasiya.

Bilavasitə transformasiya dedikdə hər hansı dövlətin bağladığı və onun üçün qüvvəyə mindiyi beynəlxalq müqavilənin həmin dövlətin konstitusiyasına uyğun olaraq, birbaşa milli qanuna «çevrilməsi» (qanun kimi qüvvəyə malik olması) başa düşülür. Bu səbəbdən ona həm də **birbaşa transformasiya** deyilir.[2] Əgər dövlət tərəfindən bağlanan və qüvvəyə minən beynəlxalq müqavilə həmin dövlət ərazisində bilavasitə milli qanun qüvvəsi alarsa, buna birbaşa (bilavasitə) transformasiya deyilir. Beynəlxalq müqavilənin dövlət ərazisində bilavasitə (birbaşa) qanun kimi qüvvəyə malik olmasının səbəbinə gəldikdə isə, qeyd etməliyik ki, dövlətin konstitusiyası elə bunun səbəbi sayılır.[3] Dövlətin əsas qanunu olan Konstitusiya elan edir ki, beynəlxalq publik hüquq (beynəlxalq müqavilə) onun milli hüququnun (daxili qanunvericilik sisteminin) bir hissəsi sayılır. Bu səbəbdən beynəlxalq publik hüquq (beynəlxalq müqavilə) həmin dövlət ərazisində bilavasitə (birbaşa), necə deyərlər, av-

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.161.

[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с.45.

[3] Müəlliflərdən İ.İ.Lukaşuk bunun səbəbini ratifikasiya aktının qəbul edilməsində görür. Lakin, nəzərə almaq lazımdır ki, ratifikasiya aktının qəbul edilməsi beynəlxalq müqavilənin bilavasitə qanun qüvvəsi almasına deyil, onun qüvvəyə minməsinə səbəb olur *(bax:* Лукашук И.И. Нормы международного права в правой системе России. М., 1997, с.12).

tomatik surətdə qüvvəyə malik olur.[1] Məsələn, Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsinin 4-cü hissəsində göstərilir ki, beynəlxalq publik hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, eləcə də beynəlxalq müqavilələr Rusiya Federasiyasının hüquq sisteminin tərkib hissəsidir; AFR-in Konstitusiyasının 25-ci maddəsinə görə, beynəlxalq publik hüququn hamılıqla qəbul edilmiş normaları federal hüququn bir hissəsi sayılır.

Bəzi dövlətlərin konstitusiyaları beynəlxalq müqavilələrin həmin dövlətlərin hüququnun bir hissəsi olmasını (qanun qüvvəsi almasını) deyil, qüvvəcə milli qanundan yüksək olmasını elan edir. Məsələn, Fransa Konstitusiyasının 55-ci maddəsinə görə, beynəlxalq müqavilələr daxili qanunlardan yüksək qüvvəyə malikdir.

Elə dövlətlər vardır ki, onların konstitusiyaları deyil, digər hər hansı aktı beynəlxalq müqavilələrin (beynəlxalq publik hüququn) həmin dövlətlərin ərazisində qüvvədə olmasını göstərir. Məsələn, ABŞ-ın müvafiq qanunvericilik aktı müəyyən edir ki, beynəlxalq müqavilələr ABŞ-ın daxili hüququnun bir hissəsidir.[2]

Vasitəli transformasiya dedikdə dövlətin qanunvericilik orqanı tərəfindən xüsusi aktın qəbul edilməsi nəticəsində beynəlxalq müqavilənin (beynəlxalq publik hüquq normasının) daxili qanun kimi həmin dövlət ərazisində qüvvədə olması başa düşülür. Həmin aktın, yəni daxili normativ aktın köməyi və vasitəsi ilə beynəlxalq müqavilə dövlət ərazisində qanun qüvvəsini alır; belə akt olmadan beynəlxalq müqavilə dövlətdaxili (milli) hüquqa transformasiya olunmur. Məsələn, beynəlxalq publik hüququn Qırğızıstan Respublikasının qanunvericiliyinin tərkib hissəsi olması üçün qanunvericilik orqanı ratifikasiya aktı

[1] Тихомиров Ю.А. Курс сравнительного правоведения. М., 1996, с. 235 (URL:http://www.twirpx.com – 20.05.2018-ci il).
[2] URL:http://www.knigi-uchebniki.com (20.05.2018-ci il).

qəbul etməlidir (Qırğızıstan Respublikası Konstitusiyasının 74-cü maddəsi).[1]

Qeyd etməliyik ki, hüquqi transformasiya müəyyən bir proses deməkdir. İstənilən proses kimi onun da öz əhatə dairəsi vardır. **Malik olduğu əhatə dairəsi (prosesin miqyası)** kimi əlamət baxımından, hüquqi transformasiya üç növə bölünür:

– ümumi transformasiya;

– fərdi transformasiya;

– qismən transformasiya.

Əgər dövlətin öz milli hüququnda nəzərdə tutduğu ümumi hüquq norması beynəlxalq publik hüququ dövlətdaxili hüququn malik olduğu qüvvə ilə təmin edərsə, buna **ümumi transformasiya** deyilir. Başqa sözlə, əgər dövlətin milli hüququnda beynəlxalq publik hüququn onun daxili hüququnun (qanunvericiliyinin) tərkib hissəsi olması barədə ümumi hüquq norması müəyyənləşdirilərsə, belə hüquqi transformasiya ümumi transformasiya adlanır. Məsələn, İspaniya Konstitusiyasının 96-cı maddəsində deyilir ki, müəyyənləşdirilmiş tələblərə uyğun olaraq bağlanmış beynəlxalq müqavilələr dərc olduqdan sonra İspaniya qanunvericiliyinin tərkib hissəsi olur; Portuqaliya Konstitusiyasının 8-ci maddəsində ifadə olunan ümumi normanın mövcudluğu da ümumi transformasiya deməkdir (həmin maddədə göstərilir ki, ümumi beynəlxalq hüququn norma və prinsipləri Portuqaliya hüququnun tərkib hissəsidir).

Hüquq ədəbiyyatı səhifələrində ümumi transformasiyaya **baş transformasiya** da deyilir.[2] Əgər dövlətin öz daxili hüququnda müəyyənləşdirdiyi ümumi hüquq norması beynəlxalq publik hüquq normalarına dövlətdaxili qüvvə verərsə, buna baş transformasiya deyilir; həmin norma əsasında baş transformasiya həyata keçirilir.

---

[1] URL:http:// www.rb.ru (20.05.2018-ci il).

[2] Усенко Е.Т. Соотношение и взаимодействие международного и национального права и Российская Конституция // МЖМП. 1995, № 2, с. 16 (URL:http://www.evolutio.info – 21.05.2018-ci il).

Bəzən, dövlətin öz milli hüququnda müəyyənləşdirdiyi hüquq normasında nəzərdə tutulur ki, konkret beynəlxalq müqavilənin həmin dövlət üçün qüvvəyə mindiyi hər bir halda Parlament tərəfindən xüsusi akt qəbul edilməlidir. Belə norma əsasında həyata keçirilən transformasiyaya **fərdi transformasiya** deyilir. Hər bir konkret halda Parlament tərəfindən qəbul olunan xüsusi akt beynəlxalq müqaviləni dövlətdaxili qüvvə ilə təmin edir; əgər belə akt qəbul olunmazsa, beynəlxalq müqavilənin dövlət daxilində həyata keçirilməsi mümkün olmur.

Qismən transformasiyaya gəldikdə isə, qeyd etməliyik ki, dövlətin hər hansı sahədə (məsələn, mülki, ailə-nigah, müəlliflik, vergi və s.) qəbul etdiyi qanunda (onlara sahəvi qanunlar deyilir) müəyyənləşdirdiyi hüquq norması beynəlxalq müqavilə normalarını ayrı-ayrı sahəvi qanunlarda nəzərdə tutulan normalara münasibətdə üstün hüquqi qüvvə ilə təmin edir. Məhz həmin hüquq norması əsasında həyata keçirilən transformasiya **qismən transformasiya** adlanır.[1] Məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 3-cü maddəsinin 2-ci hissəsində deyilir ki, əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir. Göründüyü kimi, burada ifadə olunan milli hüquq norması beynəlxalq müqavilə normalarını üstün hüquqi qüvvə ilə təmin edir. Bu səbəbdən həmin norma əsasında həyata keçirilən transformasiya qismən transformasiya hesab edilir.

Qismən transformasiya həm də Azərbaycan Respublikasının digər qanunları ilə həyata keçirilir. Məsələn, Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanununda təsbit olunmuşdur ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyənləşdirilmiş qaydalar Azərbaycan Respublikasının yol hərəkəti qanunvericiliyində nəzərdə tutulanlardan fərqli olduqda, beynəlxalq müqavilələr tətbiq edilir (maddə

[1] Международное право. Учебник / Отв.ред. В.И.Кузнецов. М., 2001, с.159.

86). Həmçinin Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (maddə 335), Azərbaycan Respublikasının Vergilər Məcəlləsində (maddə 2.5) və digər normativ hüquqi aktlarda analoji müddəalar nəzərdə tutulmuşdur.

8.2.3. Beynəlxalq publik hüququn milli hüquqa uyğunlaşdırılmasının digər hüquqi formaları

Milli hüquq sistemləri və beynəlxalq publik hüquq bir-birinə həm də inkorporasiya kimi hüquqi forma vasitəsi ilə uyğunlaşdırılır. Belə ki, inkorporasiya beynəlxalq publik hüquq və milli hüquq sistemlərini uyğunlaşdırmağın hüquqi formalarından (üsullarından) biri hesab edilir.

Bununla yanaşı, bəzi müəlliflər inkorporasiyaya müstəqil hüquqi forma kimi deyil, transformasiyanın bir növü kimi yanaşırlar. Məsələn, S.V.Çerniçenko hüquqi-texniki baxımdan, transformasiyanı bir neçə növə bölür; inkorporasiya həmin növlərdən biri hesab edilir.[1] Müəlliflərdən İ.İ.Lukaşuk da inkorporasiyaya transformasiyanın növlərindən biri kimi baxır.[2]

Hesab edirik ki, inkorporasiya və transformasiya arasında oxşar cəhətlər kifayət qədərdir; bu cəhətlər inkorporasiyanı transformasiyaya yaxınlaşdırır, ona bənzədir. Lakin, qeyd etməliyik ki, inkorporasiyaya transformasiyanın növü kimi deyil, müstəqil hüquqi forma kimi baxmaq məsələyə daha düzgün yanaşmadır.

Bəzən, dövlət hüquqyaratma prosesini rasionallaşdırmaq üçün tərəfdar çıxdığı beynəlxalq müqavilənin mətninin tam qəbul edilməsini məqsədəuyğun sayır. Bu yolla beynəlxalq müqavilənin mətni tam şəkildə, olduğu kimi dövlətin milli hüququna daxil edilir. Məhz bu prosesə hüquq ədəbiyyatı

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.86.

[2] Лукашук И.И. Нормы международного права в правовой системе России. М.,1997, с.12.

səhifələrində inkorporasiya deyilir. Belə halda inkorporasiya transformasiyanın həyata keçirilmə üsulu kimi çıxış edir.[1]

İnkorporasiya dedikdə beynəlxalq publik hüquq və milli hüquq sistemlərinin uyğunlaşdırılmasının elə bir hüquqi forması başa düşülür ki, bu formaya görə, dövlət tərəfindən özünün tərəfdar çıxdığı (iştirak etdiyi) beynəlxalq müqavilənin mətni tam qəbul olunaraq, onun milli hüququna daxil edilir.

İnkorporasiya zamanı dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilənin mətni onun milli hüququna (qanunvericiliyinə) daxil olunur. Bununla dövlət beynəlxalq müqavilənin mətnini qəbul edir. Dövlət, mahiyyətcə, yeni qanun (və ya qanunqüvvəli akt) qəbul etmiş olur ki, bu qanun zahirən beynəlxalq müqavilənin eyni olub, onun adını, quruluşunu, formullarını və digər elementlərini təkrarlayır. Amma beynəlxalq müqavilə dövlətlərarası müqavilə kimi qalmaqda davam edərək, öz hüquqi qüvvəsini, mənasını və əhəmiyyətini itirmir, əksinə, saxlayır. Göstərilən halda dövlətin qəbul etdiyi qanunun mətni (formulları) beynəlxalq müqavilənin mətni ilə üst-üstə düşür. Əgər dövlətin qəbul etdiyi qanunun mətni həmin dövlətin iştirak etdiyi beynəlxalq müqavilənin mətninə uyğun gələrsə, onunla üst-üstə düşərsə, bu prosesə inkorporasiya deyilir. Məsələn, Hindistanda 1996-cı ildə Arbitraj və barışdırıcı prosedurlar haqqında Qanun qəbul edilmişdir ki, həmin Qanunun mətni müvafiq beynəlxalq müqavilələrin mətni ilə üst-üstə düşür (Arbitraj qeydşərtləri haqqında 1923-cü il Cenevrə Protokolu, Xarici arbitraj qərarlarının icrası haqqında 1927-ci il Cenevrə Konvensiyası, Xarici arbitraj qərarlarının tanınması və icraya yönəldilməsi haqqında 1958-ci il Nyu-York Konvensiyası). Digər bir misalda, 1985-ci ildə Malaziyada qəbul edilmiş müvafiq qanun Xarici arbitraj qərarlarının tanınması və icraya yönəldilməsi haqqında 1958-ci il Nyu-York Konvensiyasının mətnini, demək olar ki, təkrarlayır.[2]

---

[1] Тихомиров Ю.А. Курс сравнительного правоведения. М., 1996, с. 235 (URL:http:// www.twirpx.com – 20.05.2018-ci il).

[2] URL:http: // www.uncitral.org (21.05.2018-ci il).

Beynəlxalq publik hüquq və milli hüquq sistemlərinin uyğunlaşdırılmasının müstəqil hüquqi formalarından biri legitimləşmə sayılır. Bəzi müəlliflər onu transformasiyanın bir növü kimi fərqləndirirlər.[1]

Hər bir dövlət beynəlxalq publik hüquq normalarının yerinə yetirilməsini təmin etməlidir. Bu, dövlətlərin üzərinə düşən əsas vəzifələrdən biridir. Məlum olduğu kimi, beynəlxalq-hüquqi aktlar fərdi qaydada qəbul edilir ki, dövlət belə aktların yerinə yetirilməsini təmin etməlidir. Dövlət həm beynəlxalq publik hüquq normalarının, həm də fərdi beynəlxalq-hüquqi aktların yerinə yetirilməsini təmin etmək üçün xüsusi daxili akt qəbul edir ki, bu, legitimləşmə adlanır. Legitimləşmə isə hamılıqla qəbul olunmuş termin sayılmır.

Legitimləşmə dedikdə dövlətin beynəlxalq publik hüquq normalarının və ya fərdi beynəlxalq-hüquqi aktların yerinə yetirilməsini təmin etmək məqsədilə daxili akt qəbul etməsi başa düşülür.

Dövlətin qəbul etdiyi daxili akta legitimləşmə aktı (və ya legitimləşmə qaydasında qəbul olunmuş akt) deyilir. Legitimləşmə aktı isə bu və ya digər səviyyədə (qanun səviyyəsində, qanunqüvvəli akt səviyyəsində) qəbul oluna bilər. Dövlətin qəbul etdiyi legitimləşmə aktı ya normativ, ya da fərdi xarakter daşıyır. Belə aktın köməyi ilə dövlət tərəfindən beynəlxalq publik hüquq milli (daxili) hüquqa transformasiya olunur. Bu cəhəti ilə legitimləşmə transformasiyaya oxşayır və ona yaxınlaşır. Lakin legitimləşmə və transformasiya bir-birindən fərqlənən ayrı-ayrı müxtəlif hüquqi proseslərdir.

Legitimləşmə prosesini inkorporasiyadan da fərqləndirmək lazımdır. Onlar arasında mövcud olan bəzi cəhətlər həmin prosesləri bir-birindən fərqləndirməyə imkan verir. Hər şeydən əvvəl, qeyd edək ki, inkorporasiya prosesi nəticəsində, adətən, beynəlxalq müqavilə normaları qəbul olunaraq, dövlətin milli

[1] *Məsələn, bax:* Черниченко С.В. Международное право. Современные теоретические проблемы. М., 1993, с.133.

hüququna daxil edilir. Beynəlxalq publik hüquq normalarının digər növlərinə (məsələn, beynəlxalq-adət hüquq normalarına və s.) gəldikdə isə, demək lazımdır ki, onlar inkorporasiya formasında dövlətdaxili hüquq tərəfindən qəbul edilmir.[1] Legitimləşmə prosesi nəticəsində isə istənilən növ beynəlxalq publik hüquq normasının yerinə yetirilməsi təmin olunur.

Digər tərəfdən, inkorporasiya zamanı beynəlxalq müqavilənin tam mətni qəbul olunaraq, dövlətin milli hüququna daxil edilir. Legitimləşmə prosesi isə, göründüyü kimi, bu cür xüsusiyyətə malik deyil, həm də legitimləşmə aktı müvafiq beynəlxalq-hüquqi aktın bütün zahiri əlamətlərini təkrarlamır.

Müstəqil hüquqi formalardan biri də istinad etmə hesab olunur ki, bu formanın köməyi ilə milli hüququn beynəlxalq publik hüquqa uyğunlaşdırılması təmin edilir. Belə ki, bəzən, dövlətdaxili münasibətləri tənzimləməkdən ötrü tələb edilən müvafiq qayda mövcud olmur. Belə qayda ya beynəlxalq müqavilələrdə, ya da beynəlxalq-hüquqi adətlərdə nəzərdə tutulur, müəyyən edilir. Dövlətdaxili münasibətləri tənzimləmək üçün beynəlxalq müqavilələrdə və ya beynəlxalq-hüquqi adətlərdə nəzərdə tutulan həmin qaydadan istifadə olunur. Belə istifadə beynəlxalq publik hüquqda «istinad etmə» adlanır. Bu kimi üsulun köməyi ilə dövlət öz milli (daxili) hüququnu beynəlxalq publik hüquqa uyğunlaşdırır, yəni beynəlxalq publik hüquq normalarını (əsasən də, beynəlxalq-müqavilə hüquq normalarını) öz qanunvericiliyinə daxil edir.

İstinad etmə dedikdə milli hüququ beynəlxalq publik hüquqa uyğunlaşdırmağın elə bir hüquqi forması başa düşülür ki, bu formaya görə, dövlətdaxili münasibətləri tənzimləməkdən ötrü beynəlxalq müqavilələrdə və ya beynəlxalq-hüquqi adətlərdə nəzərdə tutulan qaydadan istifadə olunur.

---

[1] Müəlliflərdən Y.A.Tixomirov belə hesab edir ki, inkorporasiya zamanı istənilən beynəlxalq publik hüquq norması dövlətin milli hüququna daxil olunur *(bax:* Тихомиров Ю.А. Курс сравнительного правоведения. М., 1996, с.235 (URL:http://www.twirpx.com – 21.05.2018-ci il).

İstinad etmə prosesi zamanı beynəlxalq müqavilələrdə və ya beynəlxalq-hüquqi adətlərdə nəzərdə tutulan qaydalar (hüquq normaları) dövlətdaxili (milli) hüququn bir hissəsi olur. Məhz bu prosesin köməyi ilə dövlətdaxili hüququn tərkibində yeni normalar yaranır. Lakin, buna baxmayaraq, dövlətdaxili hüquq dəyişməz qalır. Məsələn, İsveçrənin beynəlxalq xüsusi hüquq haqqında müvafiq qanununda (1987-ci il) göstərilmişdir ki, yolnəqliyyat hadisələrindən irəli gələn tələblərlə bağlı yaranan münasibətlərə 4 may 1971-ci il tarixli Haaqa Konvensiyası tətbiq edilir (maddə 30)[1].

Beynəlxalq publik hüquq və milli hüquq sistemlərininin uyğunlaşdırılması həm də resepsiya formasında həyata keçirilir. Qeyd etməliyik ki, resepsiya beynəlxalq publik hüquq və milli hüquq sistemlərini uyğunlaşdırmağın müstəqil hüquqi formalarından (üsullarından) biri sayılır.

Resepsiya dedikdə beynəlxalq-hüquqi sənədlərin dövlətdaxili aktda əks olunması başa düşülür.

Əgər dövlətdaxili akt beynəlxalq-hüquqi aktın məzmun və formullarını özündə əks etdirərsə, buna resepsiya deyilir. Daxili aktın və beynəlxalq-hüquqi sənədin mətnlərinin, az da olsa, bir-birindən fərqlənməsi məsələnin mahiyyətini dəyişdirmir. Belə ki, onların mətnlərində bəzi, lakin mühüm sayılmayan fərqlərin mövcud olmasının heç bir hüquqi əhəmiyyəti yoxdur. Məsələn, İngiltərədə müqavilələrə tətbiq olunan hüquq barədə müvafiq qanun (1990-cı il)[2] Roma Konvensiyasına (1980-ci il) əsaslanır və onu əks etdirir. Məlum olduğu kimi, həmin Konvensiya müqavilə öhdəliklərinə tətbiq olunan hüquq barədə olub, Avropa İqtisadi Birliyinin üzvü olan dövlətlər tərəfindən qəbul edilmişdir. Yuxarıda adını çəkdiyimiz İngiltərə qanunu Roma Konvensiyasının məzmununu və formullarını bəzi fərqlərə baxmayaraq, özündə əks etdirir. Buna görə də, bu halda söhbət ancaq resepsiyadan gedə bilər.

[1] URL:http:// www.eulaw.edu.ru (21.05.2018-ci il).
[2] URL:http://www.lawtoday.ru (21.05.2018-ci il).

8.3. Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqə

8.3.1. Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqənin xarakteri

Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqə aktual məsələ sayılır. Bu məsələnin həllinin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Digər tərəfdən, həmin məsələyə aydınlıq gətirmədən beynəlxalq publik hüququn nə mahiyyətini, nə də məzmununu hərtərəfli təhlil etmək mümkündür.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqə hüquq doktrinasında xüsusi maraq doğuran məsələlərdən biri sayılır. Uzun müddətdir ki, həmin məsələ ilə bağlı alimlər arasında gedən elmi diskussiya bu gün də davam edir və öz qəti həllini tapmamışdır. Nəzərə almalıyıq ki, müasir dövrdə beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqə ən çox müzakirə olunan məsələlərdən biri sayılır. Kifayət qədər elmi maraq doğurması səbəbindən hüquq doktrinasında həmin məsələyə dair **bir neçə konsepsiya** mövcuddur.

Birinci konsepsiyaya görə, beynəlxalq xüsusi hüquq beynəlxalq publik hüququn bir hissəsidir. Belə ki, həmin konsepsiya beynəlxalq publik hüququ iki hissəyə bölür:

- beynəlxalq ümumi hüquq;
- beynəlxalq xüsusi hüquq.

Beynəlxalq xüsusi hüquqa beynəlxalq publik hüququn bir hissəsi kimi baxmaq konsepsiyasının əsas tərəfdarı sovet dövrünün alimi S.B.Krılov sayılır.[1] Alimin fikrincə, beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq beynəlxalq hüququn

[1] *Məsələn, bax:* Крылов С.Б. Международное частное право. Пособие к лекциям. Л., 1930, с.31.

iki hissəsi (yarımsahəsi) hesab edilir; analoji mövqedən V.M.Şurşalov da çıxış edir.[1]

Göstərilən konsepsiya tərəfdarlarının əsas arqumenti bundan ibarətdir ki, öz ilkin inkişaf dövründə beynəlxalq publik hüquq vahid olmuş, sonradan isə o, tədricən iki hissəyə ayrılmışdır (beynəlxalq ümumi hüquq, beynəlxalq xüsusi hüquq).

İkinci konsepsiyaya görə (ona «yarımsistemli kompleks» konsepsiyası deyilir), beynəlxalq xüsusi hüquq müəyyən qurum kimi hüquq normalarının kompleksidir və bu normaların bir hissəsi müxtəlif dövlətlərin milli (daxili) hüququna, digər hissəsi isə beynəlxalq publik hüquqa aiddir. Göstərilən konsepsiyanın əsası, faktiki olaraq, rusiyalı alim A.N.Makarov[2] tərəfindən qoyulmuşdur. Keçən yüzilliyin 80-ci illərində isə həmin konsepsiya sovet alimi R.A.Müllerson tərəfindən inkişaf etdirilmişdir.[3] Müəllif beynəlxalq xüsusi hüququ nə beynəlxalq publik, nə də milli (daxili) hüquqa aid edir; bununla o, bir növ aralıq mövqedə durur.

Beynəlxalq (ümumi) hüquqla beynəlxalq xüsusi hüquq arasındakı əlaqə məsələsi barədə **üçüncü konsepsiya** da mövcuddur. Həmin konsepsiyaya görə, beynəlxalq xüsusi hüquq ayrıca olaraq, hər bir dövlətin daxili (milli) hüququna aid edilir. Üçüncü konsepsiya tərəfdarları belə hesab edirlər ki, beynəlxalq xüsusi hüquqla tənzimlənən münasibətlər öz xarakterinə görə dövlətdaxili münasibətlərdir; onlar bunu əldə əsas tutaraq, beynəlxalq xüsusi hüququ dövlətlərin daxili (milli) hüququnun bir hissəsi hesab edirlər. Keçmiş sovet dövrünün bəzi alimləri (İ.S.Pereterski, L.A.Luns, Y.Q.Matveyev, E.T.Usenko, A.A.Rubanov, A.P.Movçan, M.Q.Rozenberq, S.N.Lebedev və b.) məhz beynəlxalq xüsusi hüququ dövlətdaxili (milli) hüququn bir his-

[1] Шуршалов В.М. Международные правоотношения. М., 1971, «Международные отношения», с.41.

[2] Макаров А.Н. Основные начала международного частного права. М., «Книгодел», 2005, с.32.

[3] Мюллерсон Р.А. Соотношение международного и национального права. М., «Международные отношения», 1982, с.15.

səsi kimi tanımaq konsepsiyasından çıxış edirlər. Müasir müəlliflərdən olan M.M.Boquslavski, V.P.Zvekov və digərləri də həmin konsepsiyanı dəstəkləyir və beynəlxalq xüsusi hüquqa dövlətdaxili (milli) hüququn müstəqil sahəsi kimi baxırlar.

Fikrimizcə, üçüncü konsepsiya tərəfdarlarının mövqeyi həqiqətə daha yaxındır. Doğrudan da, **beynəlxalq xüsusi hüquq dövlətdaxili (milli) hüquqa aid olunmalı, onun bir hissəsi hesab edilməlidir**. Ona görə ki, beynəlxalq xüsusi hüququn nizamasalma predmetinə daxil olan münasibətlər, beynəlxalq xarakterdə olsalar da, dövlətdaxili münasibətlərdir. Dövlətdaxili münasibətlər isə, əlbəttə, hər bir dövlətin öz milli (daxili) hüququ ilə tənzimlənməlidir. Beynəlxalq publik hüquqla, sözsüz, dövlətlərarası münasibətlər qaydaya salınır. Odur ki, beynəlxalq xüsusi hüquq beynəlxalq publik hüququn deyil, dövlətdaxili (milli) hüququn bir hissəsi sayılmalıdır. Lakin, biz, beynəlxalq xüsusi hüquqa dövlətdaxili (milli) hüququn müstəqil hüquq sahəsi kimi baxmaq fikrini qəbul etmirik. Məsələ burasındadır ki, beynəlxalq xüsusi hüquqla tənzimlənən münasibətlər öz xarakterinə görə, əsasən və başlıca olaraq, mülki münasibətlərdir; beynəlxalq xüsusi hüququn ibarət olduğu normalar isə mülki-hüquqi xarakterə malikdir. Digər tərəfdən, beynəlxalq xüsusi hüquq normaları şərh olunarkən mülki hüquq kateqoriyalarından (anlayışlarından) istifadə olunur. Məhz bunlara görə, beynəlxalq xüsusi hüquq dövlətdaxili (milli) hüququn müstəqil sahələrindən biri sayılan mülki hüququn tərkibinə aid olunmaqla, onun bir hissəsi hesab edilməlidir. Başqa sözlə, **beynəlxalq xüsusi hüquqa mülki hüququn yarımsahələrindən biri kimi baxılmalıdır**. Ona görə ki, bir az əvvəldə göstərdiyimiz kimi, beynəlxalq xüsusi hüquqla, əsasən, mülki münasibətlər (mülkiyyət, müqavilə, vərəsəlik, ailə-nigah və s.) tənzimlənir. Mülki münasibətlər isə, məlum olduğu kimi, milli hüququn müstəqil sahələrindən biri olan mülki hüququn nizamasalma predmetinə daxildir. Mülki hüquq mövcud olan yerdə, mülki münasibətləri tənzimləməkdən ötrü hər hansı yeni müstəqil hüquq sahəsinin ayrılmasına heç bir ehtiyac və zərurət görmürük. Bey-

nəlxalq xarakterli mülki münasibətləri nizamlamaq və qaydaya salmaq üçün mülki hüquq öz tərkibində ayrıca struktur hissə ayırır; «beynəlxalq xüsusi hüquq» adlanan həmin hissə mülki hüququn yarımsahəsi hesab edilir. Məhz onun köməyi və vasitəsi ilə mülki hüquq beynəlxalq xarakterli mülki münasibətləri tənzimləyir.[1] Təsadüfi deyil ki, bir sıra müəllif (məsələn, M.M.Aqarkov, M.İ.Braginski, A.L.Makovski, Y.A.Suxanov və b.) beynəlxalq xüsusi hüququ, düzgün olaraq, mülki hüququn bir hissəsi (yarımsahəsi) hesab edirlər.[2]

8.3.2. Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasında fərqləndirici cəhətlər

Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasında həm oxşar, həm də fərqli cəhətlər vardır. Oxşar cəhət bundan ibarətdir ki, onların hər ikisi beynəlxalq münasibətləri tənzimləyir. Beynəlxalq münasibətlərin nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, bir dövlətin sərhədləri çərçivəsindən kənara çıxan bütün ictimai münasibətlər **beynəlxalq münasibətlər** adlanır; həm beynəlxalq publik hüquq, həm də beynəlxalq xüsusi hüquq beynəlxalq münasibətləri tənzimləyir.

Bununla yanaşı, beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasında fərqli cəhətlər də mövcuddur və onlar özünü bir neçə əlamət üzrə göstərir.

Birinci, onlar **nizamasalma (tənzimetmə) predmeti** əlamətinə görə bir-birindən fərqlənir. Belə ki, beynəlxalq publik hüququn nizamasalma (tənzimetmə) predmetini **dövlətlərarası**

---

[1] *Beynəlxalq xüsusi hüququn mülki hüququn bir hissəsi (yarımsahəsi) olması barədə bax: məsələn,* Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s. 31-54.

[2] *Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqə barədə daha ətraflı bax: məsələn,* Ануфриева Л.П. Соотношение международного публичного и международного частного права: правовые категории. М., 2002.

münasibətlər təşkil edir. Qeyd etməliyik ki, dövlətlərarası münasibətlər beynəlxalq əlaqələrin növlərindən (qruplarından) biri sayılır və onlar hakimiyyət xarakterli münasibətlərdir, çünki bu növ münasibətlər hakimiyyət daşıyıcısı olan dövlətlər və digər subyektlər arasında yaranır. Bu səbəbdən onlara **hakimiyyətlərarası münasibətlər** də deyilir.

Beynəlxalq xüsusi hüququn nizamasalma (tənzimetmə) predmetinə gəldikdə, deməliyik ki, o, **qeyri-dövlətlərarası münasibətlərdən** ibarətdir; qeyri-dövlətlərarası münasibətlər isə beynəlxalq münasibətlərin digər növü (qrupu) sayılır ki, onlar ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri arasında əmələ gəlir. Bu baxımdan, yəni hakimiyyət daşıyıcısı olmayan fiziki və hüquqi şəxslər arasında əmələ gəlməsi səbəbindən qeyri-dövlətlərarası münasibətlər hakimiyyət xarakterinə malik deyildir; onlara həm də **qeyri-hakimiyyətlərarası münasibətlər** deyilir. Qeyri-hakimiyyətlərarası münasibətlər dedikdə ayrı-ayrı dövlətlərə məxsus fiziki və hüquqi şəxslərin iştirakı ilə yaranan beynəlxalq xüsusi (mülki) münasibətlər (xarici elementli mülki münasibətlər) başa düşülür.

İkinci, beynəlxalq publik hüquq həm də **subyekt** əlamətinə görə beynəlxalq xüsusi hüquqdan fərqlənir. Belə ki, beynəlxalq publik hüququn subyekti qismində dövlətlər, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millətlər (xalqlar), dövlətəoxşar qurumlar və dövlətlərarası beynəlxalq təşkilatlar çıxış edir. Beynəlxalq xüsusi hüququn subyekti isə ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri hesab edilir; dövlət də beynəlxalq xüsusi hüququn subyekti sayılır, bu şərtlə ki, beynəlxalq xüsusi hüquqla tənzimlənən münasibətlərdə subyekt qismində çıxış edən zaman dövlətin qarşı tərəfində ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri iştirak etsin. Dövlət xarici dövlətlə münasibətə daxil olarkən isə, o, beynəlxalq xüsusi hüququn deyil, beynəlxalq publik hüququn subyekti sayılır.

Üçüncü, beynəlxalq publik hüquq **mənbə** əlamətinə görə beynəlxalq xüsusi hüquqdan fərqlənir. Beynəlxalq xüsusi hüququn əsas və başlıca mənbəyi ayrı-ayrı ölkələrin daxili (milli)

qanunvericiliyidir. Beynəlxalq publik hüququn mənbəyinə gəldikdə isə, qeyd etməliyik ki, daxili qanunvericilik heç bir halda beynəlxalq publik hüququn mənbəyi ola bilməz. Ona görə ki, beynəlxalq hüquqla dövlətlərarası münasibətlər tənzimlənir. Daxili qanunvericilik isə dövlətlərarası deyil, necə deyərlər, dövlətdaxili münasibətləri tənzimləməyə qadirdir.

Dördüncü, onlar bir-birindən **hüquq sistemində tutduqları yerə** görə fərqlənir. Belə ki, qeyd etdiyimiz kimi, dünyada bir-birindən asılı olmayan iki müstəqil və paralel hüquq sistemi mövcuddur: beynəlxalq publik hüquq sistemi, milli (dövlətdaxili) hüquq sistemi. Beynəlxalq publik hüquq beynəlxalq (ümumi) hüquq sisteminə, beynəlxalq xüsusi hüquq isə milli (dövlətdaxili) hüquq sisteminə daxildir. Bütün dünya dövlətləri üçün beynəlxalq publik hüquq vahiddir. Bu isə o deməkdir ki, dünya dövlətlərinin hamısı üçün bircə (vahid) beynəlxalq (ümumi, publik) hüquq mövcuddur. Beynəlxalq xüsusi hüquqa gəldikdə isə, qeyd etməliyik ki, hər bir dövlətin ayrıca olaraq öz beynəlxalq xüsusi hüququ vardır. Bu səbəbdən beynəlxalq xüsusi hüququn sayı dünyada mövcud olan dövlətlərin sayına bərabərdir. Belə ki, dünayda nə qədər dövlət mövcuddursa, bir o qədər də beynəlxalq xüsusi hüquq vardır (məsələn, Almaniyanın, Fransanın, Azərbaycanın, Türkiyənin və digər dövlətlərin beynəlxalq xüsusi hüququ).

Qeyd etdik ki, beynəlxalq xüsusi hüquq dövlətdaxili (milli) hüquq sisteminə aiddir. Bu səbəbdən, fəlsəfi planda beynəlxalq hüquqa tam, beynəlxalq (ümumi) hüquqla beynəlxalq xüsusi hüquqa isə tamın hissələri kimi baxmaq olmaz; çünki, beynəlxalq hüquq və dövlətdaxili (milli) hüquq sistemləri bir-birinə paralel olub, heç bir halda kəsişmirlər və bu da məntiqəuyğun cəhətdir.

8.4. Formalaşma, inkişaf və realizasiya prosesində beynəlxalq publik hüquqla milli hüququn bir-birinə təsiri

8.4.1. Beynəlxalq publik hüququn formalaşmasına milli hüququn göstərdiyi əsas təsir istiqamətləri

Müstəqil və bir-birindən asılı olmayan iki hüquq sistemi, yəni beynəlxalq publik hüquq və milli (dövlətdaxili) hüquq sistemləri arasında sıx dialektik əlaqə mövcuddur və onlar bir-birinə qarşılıqlı surətdə təsir göstərir. Bir-birinə qarşılıqlı surətdə təsir göstərmək isə beynəlxalq publik hüquqla milli hüquq arasında mövcud olan əlaqənin təzahür (ifadə) formalarından biridir. Belə ki, ayrı-ayrı dövlətlərin milli (daxili) hüququ beynəlxalq publik hüququn müvafiq norma və prinsiplərinin bir tərəfdən yaranmasına, digər tərəfdən isə onların inkişafına təsir göstərir. Beynəlxalq publik hüquq da, öz növbəsində, ayrı-ayrı dövlətlərin milli (daxili) hüququna təsir edir. Bu yolla dünyada hamılıqla tanınan iki paralel hüquq sistemi, faktiki olaraq, öz aralarındakı qarşılıqlı münasibəti həyata keçirir; həm də beynəlxalq publik hüquq və milli hüquq sistemlərinin qarşılıqlı əlaqə prosesində milli hüququn beynəlxalq publik hüquqa təsir göstərməsi ilkindir, birincidir.[1] Buna **milli hüququn ilkinliyi (birinciliyi) prinsipi** deyilir. Bu prinsipin mahiyyəti isə bundan ibarətdir ki, milli hüquq tarixən beynəlxalq publik hüquqa obyektiv olaraq, birinci təsir göstərmişdir. Bu onunla izah edilir ki, dövlətin daxili siyasəti onun xarici siyasətinə münasibətdə həlledici rol oynayır. Belə ki, istənilən dövlətin xarici siyasəti onun daxili siyasəti ilə şərtlənir və müəyyən edilir. Deməli, daxili siyasət xarici siyasətə münasibətdə ilkindir. Bu isə, öz növbəsində, hüquqi kontekstdə milli hüququn ilkinliyinə səbəb olur. Odur ki, milli hüququn ilkinliyi prinsipi milli hüququn beynəlxalq publik hüquq üzərində primatı (üstünlüyü) kimi

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.162.

başa düşülməlidir.[1] Milli hüquq o mənada ilkindir ki, istənilən dövlətin daxili və xarici siyasətinin əsas prinsipləri milli hüquqda (hər şeydən əvvəl, dövlətin əsas qanunu olan konstitusiyada) təsbit olunur. Digər tərəfdən, beynəlxalq publik hüquq normalarını dövlətlərin özləri yaradır; şübhəsiz, dövlətləri isə, beynəlxalq publik hüquq normaları yaratmaq imkanı ilə onların öz milli (daxili) hüququ təmin edir.

Milli hüquq bir neçə istiqamətdə beynəlxalq publik hüquqa təsir göstərir. **Birinci istiqamət** bundan ibarətdir ki, **milli hüquq yeni beynəlxalq-hüquqi normaların formalaşması prosesində beynəlxalq publik hüquqa təsir göstərir**. Aydın məsələdir ki, beynəlxalq publik hüququn bir sıra yeni hüquq norması məhz milli hüququn təsiri altında müəyyən edilmişdir. Məsələn, 1951-ci ildə SSRİ-də müharibənin təbliğ olunmasını qadağan edən Sülhün müdafiəsi haqqında Qanun[2] qəbul edildi; bu qanun Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (1966-cı il) 20-ci maddəsində ifadə edilən belə bir yeni beynəlxalq-hüquqi normanın yaranmasına səbəb oldu ki, hər cür müharibə təbliğatı qanunla qadağan edilir. Başqa bir misalda, keçən yüzilliyin 60-cı illərində inkişaf etməkdə olan ölkələrin milli hüququnda belə bir norma müəyyənləşdirildi ki, dövlət öz ərazisindəki təbii resurslara və ehtiyatlar üzərində ayrılmaz suverenlik hüququna malikdir. Milli hüququn bu normasının təsiri nəticəsində sonralar bir sıra beynəlxalq-hüquqi sənəddə (məsələn, İnsan hüquqları haqqında Beynəlxalq Paktda – 1966-cı il, Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiyada – 1974-cü il, Dəniz hüququna dair BMT Konvensiyasında – 1982-ci il və s.) yeni beynəlxalq publik hüquq norması yarandı: məsələn, Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyasının (1974-cü il) 2-ci maddəsinin 1-ci bəndində deyilir ki, hər bir dövlətin öz təbii resurs və sərvətləri üzərində tam və daimi suverenliyini həyata keçirmək hüququ vardır.

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.167.

[2] URL:http://www.dic.academic.ru (20.05.2018-ci il).

Milli hüquq həm də **beynəlxalq publik hüququn prinsiplərinin formalaşmasına** təsir göstərir; bu, milli hüququn beynəlxalq publik hüquqa əsas **təsir istiqamətlərindən ikincisidir.** ABŞ-ın müstəqilliyi haqqında Bəyannamə (1776-cı il) və Hüquqlar haqqında Bill (1791-ci il)[1], Fransada qəbul edilən İnsan və vətəndaş hüquqları barədə Bəyannamə (1789-cu il)[2] və Rusiya xalqlarının hüquqları Bəyannaməsi (1917-ci il)[3] kimi milli hüquqi sənədlər beynəlxalq publik hüququn aşağıda göstərilən üç əsas prinsipinin formalaşmasında vacib rol oynamışdır: dövlətlərin suveren barəbərliyi prinsipi, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi, əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi. Bu prinsiplər BMT Nizamnaməsinin (1945-ci il) 1-ci maddəsinin 2-ci bəndində təsbit olunmuşdur ki, onun da əsasını yuxarıda adını çəkdiyimiz milli-hüquqi sənədlər təşkil edir.

Bundan başqa, beynəlxalq publik hüquq dövlət sərhədlərinin pozulmazlığı və dövlətlərin ərazi bütövlüyü kimi iki əsas prinsipdən çıxış edir. Şübhəsiz, həmin prinsiplərin formalaşmasında və müəyyən edilməsində dövlətlər tərəfindən sərhədlərə dair qəbul edilən milli qanunların böyük əhəmiyyəti olmuşdur. Sözsüz, həmin prinsiplər belə milli qanunların təsiri altında formalaşaraq yaranmışdır. Adlarını çəkdiyimiz prinsiplərə görə, dövlət özbaşına, birtərəfli qaydada sərhəd xətlərinin vəziyyətini dəyişə bilməz. Sərhəd barədə milli qanunlar öz əksini həm də sərhəd rejiminə dair ikitərəfli sazişlərdə tapır; bu rejim isə dövlətlərin sərhədlərinin pozulmazlığını (toxunulmazlığını) təmin edir.

Milli hüququn təsiri nəticəsində **beynəlxalq publik hüquqda yeni institutlar yaranır**. Bu, milli hüququn beynəlxalq publik hüquqa göstərdiyi **üçüncü təsir istiqaməti** sayılır. Məsələn, beynəlxalq publik hüquqa sərhədləri yoxlamaq kimi xüsusi institut məlumdur və bu instituta görə, sərhədlər birgə ko-

[1] URL:http:// www.ru.m.wikipedia.org (21.05.2018-ci il).
[2] URL:http://www.dic.academic.ru (20.05.2018-ci il).
[3] URL:http://www.hist.msu.ru (22.05.2018-ci il).

missiyalar və komissarlar (sərhəd müvəkkilləri) tərəfindən yoxlanılır. Həmin institut məhz sərhəd dövlətlərinin milli hüquqları və onlar arasında bağlanan müvafiq beynəlxalq saziş əsasında yaradılır.

Milli hüquq həm də **beynəlxalq publik hüquqdan köhnəlmiş institutların çıxarılması prosesinə** təsir göstərir. Belə ki, zaman keçdikcə şəraitin dəyişməsi nəticəsində beynəlxalq publik hüququn bəzi institutları köhnəlir, öz aktuallığını və əhəmiyyətini itirir. Təbii ki, beynəlxalq publik hüquq köhnəlmiş, öz rolunu və təyinatını itirmiş institutlardan azad olunmalıdır. Bu proses məhz milli hüququn təsiri şəraitində həyata keçirilir. Milli hüquq beynəlxalq publik hüquqa həm də elə bir istiqamətdə təsir göstərir ki, onun (milli hüququn) köməyi ilə artıq mövcud olan **beynəlxalq publik hüquq normalarının məzmunu** dəyişir, dərinləşir və inkişaf edir, habelə onların təsir sferası genişlənir. Digər tərəfdən, milli hüququn təsiri nəticəsində mövcud beynəlxalq publik hüquq normalarının effektliliyi artır. Bunlar milli hüququn beynəlxalq publik hüquqa göstərdiyi **dördüncü təsir istiqaməti** hesab edilir. Milli hüququn təsiri ilə həm də köhnəlmiş və öz aktuallığını itirmiş beynəlxalq publik hüquq normaları, başqa sözlə, nihilizm təzahürləri normativ-tənzimetmə dövriyyəsindən çıxarılır.

Beşinci, milli hüquq beynəlxalq publik hüquqa həm də belə bir istiqamətdə təsir göstərir ki, milli hüquq vasitəsi ilə **beynəlxalq publik hüquq normalarının həyata keçirilməsi** təmin olunur. Başqa sözlə, milli hüquq beynəlxalq publik hüquq normalarının praktiki realizasiyasına təsir göstərir. Bildiyimiz kimi, beynəlxalq publik hüquq normaları dövlətlərarası (beynəlxalq) münasibətləri tənzimləyir. Bununla yanaşı, beynəlxalq publik hüquq normaları müəyyən hallarda dövlətdaxili sferada tətbiq olunaraq həyata keçirilə bilər və bundan ötrü onları məcburi hüquqi qüvvə ilə təmin etmək lazımdır. Axı, dövlət ərazisində beynəlxalq publik hüquq normalarının məcburi hüquqi qüvvəsi yoxdur. Onlar dövlətin daxilində yalnız milli hüququn köməyi və vasitəsi sayəsində məcburi hüquqi qüvvə

ilə təmin oluna bilər. Məcburi hüquqi qüvvə ilə təmin edildikdən sonra beynəlxalq publik hüquq normaları dövlətdaxili sferada tətbiq olunur və həyata keçirilir. Deməli, milli hüququn beynəlxalq publik hüquqa təsiri özünü beynəlxalq publik hüquq normalarının realizasiyası prosesində də büruzə verir.

Altıncı, beynəlxalq publik hüquq normaları, əsasən, dövlətlərin qarşılıqlı sərbəst iradə ifadəsi ilə yaradılır. Təbii ki, bu prosesdə, yəni beynəlxalq publik hüquq normaları yaratmaq prosesində dövlətin özü deyil, onun müvafiq səlahiyyətli orqanları iştirak edir. Beynəlxalq publik hüquq normalarının yaradılması prosesində **dövlətin adından hansı orqanın çıxış etməsi məsələsi** isə milli hüququn köməyi ilə müəyyən edilir. Bu, milli hüququn beynəlxalq publik hüquqa göstərdiyi təsirin əsas istiqamətlərindən biridir. Beynəlxalq publik hüquq yaradıcılığı prosesində dövlətin adından onun hansı orqanının çıxış etməli olduğunu milli hüquq müəyyən edir; milli hüquq həm də beynəlxalq publik hüquq yaradıcılığı prosesində iştirak edən dövlət orqanının malik olduğu səlahiyyətləri müəyyənləşdirir.

Yeddinci, beynəlxalq publik hüquq normaları, əsasən, beynəlxalq müqavilələrdə nəzərdə tutulur və müəyyən olunur. Bu səbəbdən beynəlxalq müqavilələr beynəlxalq publik hüququn başlıca mənbəyi sayılır. **Beynəlxalq müqavilələrin bağlanma qaydaları isə hər bir dövlətin milli hüququ ilə müəyyən edilir;** bu yolla milli hüquq tərəfindən beynəlxalq publik hüquqa təsir göstərilir. Nəzərə almalıyıq ki, istənilən dövlətdə beynəlxalq müqavilələrin bağlanma qaydasını müəyyənləşdirən ayrıca (xüsusi) qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikasında da, 1995-ci ildən belə qanun qüvvədədir;[1] həmin qanun Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv olunması ilə bağlı münasibətləri tənzimləyir.

[1] URL:http://www.genprosecutor.gov.az (20.05.2018-ci il).

Bildiyimiz kimi, dövlət öz qarşısında duran vəzifələri (funksiyaları) yerinə yetirmək üçün müxtəlif sahələrdə çoxcəhətli fəaliyyət göstərir; beynəlxalq münasibətlər sferası həmin sahələrdən biridir. **Dövlətin beynəlxalq münasibətlər sahəsindəki fəaliyyəti** isə onun milli (daxili) hüququ ilə müəyyən edilir. Bu, milli hüququn beynəlxalq publik hüquqa göstərdiyi **səkkizinci təsir istiqaməti** sayılır. Milli hüququn beynəlxalq publik hüquqa təsiri özünü həm də bunda göstərir ki, diplomatik immunitet kimi vacib məsələ dövlətin milli hüququ ilə müəyyən edilir. Demək olar ki, hər bir dövlətlə **diplomatik immunitetə aid qanun** qəbul olunmuşdur. Diplomatik immunitet isə beynəlxalq publik hüququn xarici əlaqələr hüququ kimi müstəqil sahəsinin əsas institutlarından biri sayılır.

Aydındır ki, beynəlxalq publik hüquq da, milli hüquq kimi, bir neçə müstəqil hüquq sahəsindən ibarətdir (məsələn, xarici əlaqələr hüququ, beynəlxalq publik müqavilələr hüququ, beynəlxalq publik iqtisadi hüquq və s.). Şübhəsiz, milli hüququn sahəvi strukturu nəzərə alınmaqla və onun təsiri altında beynəlxaq publik hüquq ayrı-ayrı müstəqil hüquq sahələrinə bölünmüşdür; belə bölgünün zəminində milli hüququn sahəvi strukturu dayanır. Deməli, **milli hüquq beynəlxalq publik hüququn müstəqil hüquq sahələrinə bölünməsi məsələsində** də ona təsir göstərir; bu, **doqquzuncu təsir istiqamətidir**.

Milli hüquq beynəlxalq publik hüquqa həm də, **onuncu**, belə bir istiqamətdə təsir göstərir ki, milli hüquq vasitəsi ilə **beynəlxalq publik hüquq normaları dövlətdaxili sferada təmin olunur və müdafiə edilir**. Belə ki, beynəlxalq publik hüququn xeyli normaları dövlətlərin daxilində realizə olunmaq üçün qəbul edilir. Təbii ki, beynəlxalq publik hüquq normaları dövlətdaxili sferada həyata keçirilən zaman onlar müvafiq qaydada təmin edilməli və müdafiə olunmalıdır. Qeyd etməliyik ki, beynəlxalq publik hüquq normaları dövlət orqanlarının (icra hakimiyyəti orqanlarının, məhkəmələrin, prokurorluğun və digər hüquq-mühafizə orqanlarının) fəaliyyətinin hüquqi əsasını

təşkil edir.[1] Beynəlxalq publik hüquq normalarının həyata keçirilməsində, təmin və müdafiə olunmasında milli məhkəmələr, xüsusilə, vacib rol oynayır.[2]

8.4.2. Milli hüquqa beynəlxalq publik hüququn göstərdiyi təsir formaları

Dünyada mövcud olan iki paralel və müstəqil hüquq sisteminin – beynəlxalq publik hüquq və milli hüquq sistemlərinin qarşılıqlı əlaqəsi həm də bunda nəzərə çarpır ki, beynəlxalq publik hüquq ayrı-ayrı dövlətlərin milli (daxili) hüquq sistemlərinə təsir göstərir. Beynəlxalq publik hüququn milli hüquqa göstərdiyi təsir özünü, ilk növbədə, **milli hüququn formalaşmasında** büruzə verir, nəzərə çarpdırır. Sözsüz, beynəlxalq publik hüquq milli hüquqa onun formalaşması istiqamətində təsir edir. Belə ki, milli hüquqa aid edilən bir sıra dövlətdaxili hüquq norması beynəlxalq publik hüquq normalarının bilavasitə təsiri altında formulə edilmişdir; xüsusən də, **insan hüquq və azadlıqlarına aid milli (dövlətdaxili) hüquq normalarının yaradılmasında** beynəlxalq publik hüquq vacib rol oynamışdır. Belə ki, bir sıra beynəlxalq-hüquqi sənəddə (məsələn, İnsan hüquqları haqqında Ümumi Bəyannamədə – 1948-ci il, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda – 1966-cı il və s.) insan hüquq və azadlıqlarının qorunmasına, eləcə də onların həyata keçirilməsinə aid müəyyən beynəlxalq publik hüquq normaları nəzərdə tutulmuşdur; həmin normalar ayrı-ayrı dövlətlərdə müvafiq milli (daxili) hüquq normalarının qəbul edilməsi üçün əsas olmuşdur.

---

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.225.

[2] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.257.

Qeyd etməliyik ki, **insan hüquqları standartları** beynəlxalq publik hüquqda istifadə olunan əsas anlayışlardan sayılır[1]. Bu anlayış insan hüquqlarına dair milli (daxili) hüquq normaları yaradılan zaman nəzərə alınır; həmin anlayışdan həm də hüquqtətbiqetmə fəaliyyətində istifadə olunur.

Əvvəllər insan hüquq və azadlıqlarının qorunması və tənzimlənməsi hər bir ayrıca dövlətin, müstəsna olaraq, daxili işi hesab edilirdi və yalnız dövlətin milli (daxili) hüququ vasitəsi ilə müdafiə olunurdu. Müasir dövrdə isə insan hüquqları həm də beynəlxalq publik hüquqla tənzimlənir. Əvvəllər ancaq milli (dövlətdaxili) - hüquqi tənzimetmə sferasına aid edilən insan hüquqları bu gün beynəlxalq-hüquqi nizamasalmanın predmeti, dövlətlərarası (beynəlxalq) əməkdaşlığın obyekti sayılır. Beynəlxalq publik hüququn insan hüquqlarına dair müəyyənləşdirdiyi hüquq normaları isə milli (dövlətdaxili) hüquq yaradıcılığı zamanı nəzərə alınır.

Beynəlxalq publik hüquq mili hüquqa həm də belə bir istiqamətdə təsir göstərir ki, **bir sıra beynəlxalq konvensiyanın müddəalarının effektiv həyata keçirilməsi üçün ayrı-ayrı dövlətlər müvafiq milli (daxili) qanunlar qəbul edir.** Belə ki, beynəlxalq publik hüquq çərçivəsi və səviyyəsində çoxsaylı konvensiya qəbul edilmişdir; həmin konvensiyalar iştirakçı-dövlətlərin daxili (milli) hüquq sahələrinə aiddir. Məsələn, cinayət hüququ sahəsində bir neçə konvensiya imzalanmışdır: Pul nişanlarının saxtalaşdırılması ilə mübarizə haqqında Beynəlxalq Konvensiya (1929-cu il), Hava gəmilərinin qanunsuz zəbt edilməsinə qarşı mübarizə haqqında Konvensiya (1970-ci il), İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya (1950-ci il)[2] və s. Qəbul edilmiş bu kimi konvensiyalar həm də iştirakçı-dövlətlərin milli (dövlətdaxili) hüququnun digər sahələrinə (məsələn, mülki, ekologiya, əmək və s.) aiddir. Həmin konvensyaların müddəalarını həyata keçirmək üçün iştirakçı-dövlətlər öz üzə-

[1] Əliyev Ə. İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənilmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, 2019, 352 s.
[2] URL:http://www.un.org (22.05.2018-ci il).

rinə götürdüyü öhdəliyi yerinə yetirmək üçün müvafiq milli qanunlar qəbul etmişdir.

Dövlətdaxili elə sahələr vardır ki, həmin sahələr beynəlxalq publik hüququn bilavasitə təsirinə məruz qalır. Sözügedən sahələr isə bunlardan ibarədir:

- beynəlxalq müqavilələrin bağlanması, icra olunması və ləğv edilməsi;
- bu və ya digər dövlətin xarici əlaqələr orqanının (məsələn, Xarici İşlər Nazirliyinin) fəaliyyətinin dövlətdaxili tənzimlənməsi;
- dövlətin xarici əlaqələrinin təmin edilməsi;
- diplomatik nümayəndəlik;
- beynəlxalq təşkilatlarda nümayəndəlik və s.

Göstərilən məsələlər, məlum məsələdir ki, dövlətdaxili (milli) hüquqla tənzimlənir. Amma bu prosesə beynəlxalq publik hüququn təsir göstərməsi şəksizdir; onlar elə məsələlərdir ki, həmişə **beynəlxalq publik hüququn təsirinə məruz qalır**. Bu, beynəlxalq publik hüququn milli (dövlətdaxili) hüquqa göstərdiyi təsirin əsas istiqamətlərindən biri sayılır.[1]

Məlum olduğu kimi, dövlət həyatının bu və ya digər sahəsi milli (daxili) hüquq vasitəsi ilə tənzimlənir. Lakin, bununla yanaşı, beynəlxalq publik hüquq **dövlət həyatının milli-hüquqi tənzimetmə prosesinə** müəyyən təsir göstərir. Söhbət, ilk növbədə, **dövlət həyatının xarici siyasət kimi vacib və mühüm sahəsinin** milli-hüquqi tənzimetmə prosesinin beynəlxalq publik hüququn təsirinə məruz qalmasından gedir. Şübhəsiz, istənilən dövlətin xarici siyasətinin milli-hüquqi tənzimlənməsi beynəlxalq publik hüququn təsiri altında həyata keçirilir. Bu sahədə beynəlxalq publik hüququn əsas və hamılıqla qəbul edilmiş **prinsiplərinin** böyük rol oynaması şəksizdir. Məlum məsələdir ki, istənilən dövlətin yürütdüyü xarici siyasətin əsasını

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.167.

hamılıqla qəbul edilmiş beynəlxalq publik hüquq normalarında nəzərdə tutulan prinsiplər təşkil edir. Dövlət həmin prinsiplərə uyğun xarici siyasət yürüdür; həmçinin dövlətin digər dövlətlərlə münasibətlərinin (beynəlxalq münasibətlərin) əsasında bu prinsiplər durur. Bu barədə dövlətlərin əsas qanunu sayılan konstitusiyada birbaşa göstəriş ifadə edilmişdir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsi hamılıqla qəbul edilmiş beynəlxalq publik hüquq normalarında nəzərdə tutulan prinsipləri beynəlxalq münasibətlərin prinsipləri kimi tanıyır. Həmin maddədə deyilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Beynəlxalq münasibətlərin necə və hansı qaydada qurulması məsələsi isə hər bir dövlətin daxili işi sayılır və bu səbəbdən onun milli hüququ ilə tənzimlənir.

Beynəlxalq publik hüququn ayrı-ayrı dövlətlərin milli (daxili) hüququna təsir göstərməsi həmin **dövlətlərin milli hüququnun beynəlxalq publik hüquqa olan münasibəti** ilə şərtlənir və müəyyən olunur. Dövlətlərin milli hüququnun beynəlxalq publik hüquqa olan münasibəti isə, bir qayda olaraq, onların əsas qanunu sayılan konstitusiyada ifadə edilmişdir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsində deyilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir; Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsinin 4-cü hissəsində göstərilir ki, beynəlxalq publik hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, habelə Rusiya Federasiyasının bağladığı beynəlxalq müqavilələr onun daxili hüquq sisteminin tərkib hissəsidir; Almaniya Konstitusiyasının 25-ci maddəsinə görə, beynəlxalq publik hüququn hamılıqla qəbul edilmiş normaları onun daxili hüququnun bir hissəsi sayılır; İtaliya Konstitusiyasının 10-cu maddəsində nəzərdə tutulmuşdur ki, İtaliyanın hüququ beynəlxalq publik hüququn hamılıqla qəbul edilmiş normalarına uyğundur; Ukrayna Respublikası Konstitusiyasının

9-cu maddəsi beynəlxalq publik hüquq normalarının vicdanla icra edilməsi prinsipindən çıxış edir; Fransanın, ABŞ-ın və digər ölkələrin də milli (daxili) hüququ, necə deyərlər, beynəlxalq publik hüquqa «əməl edən» hüquq sayılır.[1]

Doğrudan da, bütün dövlətlərin daxili (milli) hüququ beynəlxalq publik hüquqa «əməl etməlidir». Belə ki, dünyada mövcud olan hər bir dövlətin öz milli (daxili) hüququ vardır; buna görə də, dövlətlərin milli hüququnun sayı kifayət qədər çoxdur. Məlum məsələdir ki, dövlətlərin daxili hüququ onların milli maraqlarını təmin edir və bu səbəbdən onlar bir-birindən fərqlənir.

Bununla yanaşı, dövlətlər minlərlə çoxsaylı universal, regional və ikitərəfli beynəlxalq müqavilələrin iştirakçısıdır. Dövlətlərin bir-birindən fərqli hüquq sistemlərinin və onlar tərəfindən çoxsaylı beynəlxalq müqavilələrin bağlanması, təbii ki, beynəlxalq publik hüquq və milli (dövlətdaxili) hüquq sistemləri arasında kolliziyanın (ziddiyyətin) yaranmasına səbəb olur; digər tərəfdən, bu, həm də dövlətlər arasında münasibətlərdə gərginliyə gətirib çıxarır. Bu kimi arzuolunmaz halların qarşısını almaq və onlara yol verməmək üçün **dövlətlərin milli (daxili) hüquq sistemləri beynəlxalq publik hüquqa uyğunlaşdırılmalıdır;** bunu isə, göstərdiyimiz halların qarşısının alınması, necə deyərlər, təkidlə tələb edir.

Beynəlxalq publik hüququn **beynəlxalq təşkilatlar hüququ kimi sahəsinin dövlətlərin milli hüquq sistemlərinə göstərdiyi təsir** haqqında ayrıca danışmaq lazımdır. Qeyd etməliyik ki, həmin sahənin əsas və başlıca mənbəyi beynəlxalq (dövlətlərarası) təşkilatların aktları hesab olunur. Beynəlxalq (dövlətlərarası) təşkilatların aktları isə dövlətlərin milli hüquq sistemlərinə vacib təsir göstərir. **Birləşmiş Millətlər Təkilatı** kimi beynəlxalq (dövlətlərarası) təşkilatın qəbul etdiyi aktların milli hüquqa təsiri, xüsusilə, böyükdür. Belə ki, BMT orqanları

[1] Международное право. Учебник / Вольфганг Г.В. и др. Перевод с немецкого. Москва-Берлин, 2011, с.136-138.

öz səlahiyyətləri çərçivəsində müvafiq qərarlar qəbul etmək hüququna malikdir; həmin qərarlar iştirakçı (üzv) - dövlətlərin üzərinə onların daxili sferada realizə olunmasını təmin etmək vəzifəsi qoya bilər. Bundan ötrü dövlətlərin hakimiyyət xarakterli aktlarının köməyindən istifadə olunması tələb edilir. Məsələn, **Təhlükəsizlik Şurası** dövlətlər üçün hüquqi cəhətdən məcburi olan qərarlar qəbul etmək hüququna malik olan BMT orqanlarından biridir. Dövlətlər həmin qərarların icra olunması üçün həm də qanunvericilik vasitəsindən istifadə edir. Qanunvericilik vasitəsindən istifadə edilməsi dedikdə müvafiq hüquqi aktların qəbul edilməsi başa düşülür. Dövlətlərin daxili sahədə qəbul etdiyi hüquqi aktlar çox vaxt BMT Təhlükəsizlik Şurasının qərarlarının ayrılmaz hissəsi olur. Bunun nəticəsində BMT-nin üzvü olan dövlətlərin milli hüququ dəyişir. Məsələn, BMT Təhlükəsizlik Şurasının iqtisadi sanksiyalar (embarqo) tətbiq olunması barədə qəbul etdiyi qərarlar (məsələn, 1990-cı ildə Küveytə qarşı təcavüzə yol verdiyinə görə İraq dövlətinə tətbiq edilən sanksiyalar barədə qərar və s.) dövlətlərin daxili yurisdiksiyasına toxunur, onu dəyişdirir. Bu isə o deməkdir ki, beynəlxalq publik hüquq dövlətdaxili tənzimetməyə təsir göstərir.[1]

BMT-nin əsas orqanlarından biri olan **Baş Assambleyanın** aktları da dövlətlərin milli hüquq sistemlərinə müəyyən təsir göstərir. Belə ki, onun qəbul etdiyi aktlar çox vaxt dövlətdaxili sahədə həyata keçirilir. Məsələn, ötən yüzilliyin 70-ci illərində BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNKTAD) çərçivəsində məhdudlaşdırıcı işgüzar praktikaya nəzarət etməyin qayda və prinsipləri barədə müvafiq sənəd işlənib hazırlanmışdı. Həmin sənəd 1980-ci ildə BMT Baş Assambleyasının müvafiq qərarı ilə qəbul edildi[2] və dövlətlərin hökumətləri tərəfindən dövlətdaxili fəaliyyətin həyata keçirilməsində rəhbər tutuldu.

---

[1] *Bu barədə bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.271.

[2] URL:http://www.lib 4all.ru (22.05.2018-ci il).

Dövlətlərin milli hüquq sistemlərinə təkcə beynəlxalq təşkilatların aktları təsir göstərmir. Dövlətlərin milli hüquq sistemləri həm də **beynəlxalq məhkəmə orqanları** tərəfindən verilən qərarların təsirinə məruz qalır. Söhbət, ilk növbədə, BMT Beynəlxalq Məhkəməsinin, Avropa İnsan Hüquqları Məhkəməsinin, habelə Avropa İttifaqı Məhkəməsinin qərarlarından gedir. Belə ki, dövlətlər həmin məhkəmələrin çıxardıqları qərarları yerinə yetirməyə borcludurlar; onlar məhkəmə qərarlarını icra edən zaman, adətən, öz daxili qanunvericiliyinə dəyişiklik edirlər. Bu isə onu ifadə edir ki, dövlətlərin daxili (milli) hüquq sistemlərinin vəziyyətinə və inkişafına həm də beynəlxalq məhkəmə orqanlarının qərarları təsir göstərir.

VIII MÖVZU ÜZRƏ ƏYANİ SXEM



VIII FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Ануфриева Л.П. Соотношение международного публичного и международного частного права: правовые категории. М., 2002, 415 с.
2. Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006 (гл.8).
3. Международное право. Учебник / Вольфганг Г.В. и др. Перевод с немецкого. Москва-Берлин, 2011 (раздел 2).
4. Международное право. Учебник/ Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл. 5).
5. Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009 (гл.1, § 2).
6. Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015 (гл.7).
7. Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010 (гл. 7, 8, 9).
8. Международное право. Учебник/ Отв.ред. Г.М. Мелков. М., 2011 (гл. 1, § 8, § 9).
9. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.1, § 4, § 6).
10. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл. 10).
11. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл. 4).
12. Мюллерсон Р.А. Соотношение международного и национального права. М., 1982, 136 с.

IX FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQDA MƏSULİYYƏT

9.1. Beynəlxalq-hüquqi məsuliyyətin anlayışı, yaranması və inkişafı

9.1.1. Beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq publik hüququn əsas institutlarından biri kimi

Beynəlxalq publik hüquqda məsuliyyət əsas anlayışlardan biridir; o, hüquq ədəbiyyatı səhifələrində ən çox işlədilən terminlərdən sayılır. Belə ki, beynəlxalq publik hüquq subyektləri bəzi hallarda beynəlxalq publik hüquq normalarını pozur, öz üzərinə düşən beynəlxalq-hüquqi öhdəlikləri yerinə yetirmir və ya lazımınca yerinə yetirmirlər. Buna görə də, onlar beynəlxalq publik hüquqa uyğun məsuliyyət daşıyırlar;[1] belə məsuliyyət anlayışı «**beynəlxalq-hüquqi məsuliyyət**» termini ilə əhatə olunur. Dünyada mövcud olan beynəlxalq publik hüquq sistemi, praktiki olaraq, beynəlxalq publik hüquq normalarını və öz beynəlxalq-hüquqi öhdəliklərini pozan subyektlərin beynəlxalq-hüquqi məsuliyyət daşımasını qəbul edir, tanıyır. Bəs, beynəlxalq-hüquqi məsuliyyət dedikdə nə başa düşülür?

Qeyd etməliyik ki, beynəlxalq-hüquqi məsuliyyət geniş anlayışdır. Beynəlxalq publik hüquqda o, **üç əsas mənada** işlədilir:

– hüquqi vasitə mənasında;

– tədbir mənasında;

– institut mənasında.

Məlum olduğu kimi, beynəlxalq publik hüququn qarşısında müəyyən vəzifələr durur. Heç də sirr deyil ki, xüsusi olaraq, nəzərdə tutulan müəyyən hüquqi vasitənin köməyi olmadan beynəlxalq publik hüquq həmin vəzifələri lazımınca yerinə ye-

[1] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. Москва-Берлин, 2011, с.737.

tirə bilməz. Belə ki, xüsusilə, nəzərdə tutulan hüquqi konstruksiya vasitəsi ilə beynəlxalq publik hüquq normalarına əməl olunması təmin edilir, pozulmuş beynəlxalq publik hüquq münasibətləri bərpa olunur. Bu kimi vasitəyə beynəlxalq-hüquqi məsuliyyət deyilir.[1]

Hüquqi vasitə mənasında beynəlxalq-hüquqi məsuliyyət dedikdə elə bir hüquqi vasitə başa düşülür ki, onun köməyi ilə beynəlxalq publik hüquq normalarına əməl olunması təmin edilir və pozulmuş beynəlxalq publik hüquq münasibətləri bərpa olunur. Təsadüfi deyildir ki, bəzi müəlliflər beynəlxalq-hüquqi məsuliyyətə məhz hüquqi vasitə mənasında anlayış verirlər.[2]

Tədbir mənasında beynəlxalq-hüquqi məsuliyyət dedikdə beynəlxalq publik hüquq pozuntusu törədən subyektə qarşı tətbiq olunan sanksiya başa düşülür. Sanksiya beynəlxalq publik hüquqa uyğun tətbiq edilir; bu səbəbdən ona beynəlxalq-hüquqi sanksiya deyilir.

İnstitut mənasında beynəlxalq-hüquqi məsuliyyət dedikdə beynəlxalq publik hüquq subyektlərinin hüquqazidd davranışı nəticəsində zərər vurulması ilə bağlı yaranan məsuliyyət münasibətlərini tənzimləyən beynəlxalq publik hüquq normalarının sistemi (məcmusu) başa düşülür. Belə ki, beynəlxalq publik hüquq subyekti özünün hüquqazidd davranışı ilə beynəlxalq-hüquqi öhdəlikləri pozur, yəni beynəlxalq publik hüquq pozuntusu törədir və bunun nəticəsində beynəlxalq publik hüququn digər subyektlərinə zərər vurulur. Bu zaman beynəlxalq publik hüquq pozuntusu törədən (beynəlxalq-hüquqi öhdəlikləri pozan) subyektlə hüququ pozulmuş (zərərə düşmüş) subyekt arasında məsuliyyət münasibəti yaranır. Həmin münasibətə görə, bir tərəfin – beynəlxalq publik hüquq pozuntusu törədən və zərər vuran subyektin üzərinə beynəlxalq-hüquqi məsuliyyət daşımaq vəzifəsi düşür; digər tərəf (hüququ pozulmuş və zərə-

[1] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с. 98.

[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.293.

rə düşmüş) isə – ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olur.[1] Yaranmış məsuliyyət münasibətləri, məlum məsələdir ki, beynəlxalq publik hüquq normaları ilə tənzimlənir. Məhz həmin normaların sisteminə institut mənasında beynəlxalq-hüquqi məsuliyyət deyilir. İnstitut mənasında beynəlxalq-hüquqi məsuliyyət isə, sadəcə olaraq, «beynəlxalq-hüquqi məsuliyyət institutu» və ya «beynəlxalq məsuliyyət hüquq institutu» termini ilə əhatə olunur. Beynəlxalq publik hüquqda məsuliyyət məsələlərinə aid olan beynəlxalq publik hüquq normaları sistem halında birləşərək beynəlxalq-hüquqi məsuliyyət institutunu yaradır.

Beynəlxalq-hüquqi məsuliyyət institutunun **əsas funksiyası** beynəlxalq publik hüquqda məsuliyyət münasibətlərini tənzim etməkdən ibarətdir; bu cür münasibətlər isə beynəlxalq münasibətlərin xüsusi xarakterə malik olan növüdür. Təsadüfi deyildir ki, beynəlxalq-hüquqi məsuliyyət institutu beynəlxalq münasibətləri tənzimetmənin xüsusi aləti sayılır.[2]

Beynəlxalq-hüquqi məsuliyyət institutu təkcə **tənzimetmə funksiyasını** yerinə yetirmir; bu institut üçün həm də **təminat funksiyası** xarakterikdir. Belə ki, beynəlxalq-hüquqi məsuliyyət institutu beynəlxalq publik hüququn öz vəzifəsini (funksiyasını) yerinə yetirməsini təmin edir. Bu kimi cəhətləri ilə institut mənasında beynəlxalq-hüquqi məsuliyyət həm hüquqi vasitə, həm də tədbir mənasında beynəlxalq-hüquqi məsuliyyətdən fərqlənir. Belə ki, hüquqi vasitə kimi beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq qanunçuluğu və beynəlxalq publik hüquq qaydasının qorunub saxlanılmasını təmin edir. Tədbir mənasında beynəlxalq-hüquqi məsuliyyətin isə əsas təyinatı (məqsədi) beynəlxalq publik hüquq pozuntusu törətmiş subyektlərə qarşı beynəlxalq-hüquqi sanksiyaların tətbiq olunmasını təmin etməkdən ibarətdir.

---

[1] Аречага Э.Х. Современное международное право / Пер. с исп. М., 1983, с.403.

[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с. 98.

Beynəlxalq məsuliyyət hüquq institutu, necə deyərlər, «ən qocaman» institutlardan biridir;[1] hüquq ədəbiyyatı səhifələrində o, beynəlxalq publik hüququn «ən qədim» institutlarından biri kimi xarakterizə olunur.[2] Belə ki, beynəlxalq-hüquqi məsuliyyət institutu beynəlxalq publik hüquqa qədim dövrlərdən məlumdur; beynəlxalq publik hüquq tarixən həmin institutu keçmiş zamanlardan tanıyır. Beynəlxalq publik hüququn tarixi oçerki təsdiqləyir ki, beynəlxalq-hüquqi məsuliyyət institutu həmişə dövlətlərarası praktikada tətbiq olunmuş, ondan daim istifadə edilmişdir. Uzunmüddətli dövlətlərarası praktika nəticəsində beynəlxalq publik hüquq subyektlərinin, hər şeydən əvvəl, dövlətlərin beynəlxalq publik hüquq məsuliyyəti barədə normalar işlənib hazırlanmış, formulə edilmişdir; həm də məsuliyyətə dair beynəlxalq publik hüquq normaları, əsasən, beynəlxalq-adət hüquq normalarından ibarət olmuşdur[3] və bu gün də üstünlük təşkil edir. Belə ki, müasir dövrdə məsuliyyət barədə beynəlxalq publik hüquq normaları dedikdə, əsasən, beynəlxalq-adət hüquq normaları başa düşülür. Məsuliyyət barədə beynəlxalq publik hüquq normalarının digər hissəsini isə ayrı-ayrı beynəlxalq müqavilələrdə nəzərdə tutulan hüquq normaları (beynəlxalq-müqavilə hüquq normaları) təşkil edir.

Beləliklə, məsuliyyət barədə beynəlxalq publik hüquq normaları **iki hissəyə** bölünür ki, həmin hissələr aşağıdakılardan ibarətdir:

– beynəlxalq-adət hüquq normaları;
– beynəlxalq-müqavilə hüquq normaları.

Beynəlxalq-adət və beynəlxalq-müqavilə hüquq normaları məcmu halında birləşərək beynəlxalq-hüquqi məsuliyyət institutunu əmələ gətirir; həmin instituta, eyni zamanda, **beynəlxalq məsuliyyət hüququ** deyilir. Bəzi müəlliflər məhz «bey-

[1] URL:http://www.studentu-vuza.ru (21.05.2018-ci il).
[2] *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.288.
[3] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.355.

nəlxalq məsuliyyət hüququ» terminindən istifadə olunmasına üstünlük verirlər.[1]

Beynəlxalq məsuliyyət hüququnun beynəlxalq publik hüquqda tutduğu yer məsələsinə gəldikdə isə, qeyd etməliyik ki, müəlliflərin beynəlxalq məsuliyyət hüququnun beynəlxalq publik hüquqa hansı statusla daxil olması fikrinə dair münasibəti birmənalı deyildir. Belə ki, bu məsələ barədə hüquq ədəbiyyatı səhifələrində bir-birindən fərqli iki müxtəlif fikir söylənilir. Bir sıra müəllif belə hesab edir ki, beynəlxalq məsuliyyət hüququ müasir beynəlxalq publik hüququn sahələrindən biri sayılır. Alimlərdən C.Obrayen (İngiltərə),[2] D.B.Levin[3] və digərləri[4] beynəlxalq məsuliyyət hüququna beynəlxalq publik hüququn sahələrindən biri kimi baxırlar; P.N.Biryukov[5] və V.M.Şumilov da analoji mövqe tutur.[6]

Digər müəlliflər isə, bunlardan fərqli olaraq, beynəlxalq məsuliyyət hüququnu beynəlxalq publik hüququn institutu hesab edirlər; həm də bu fikir ədəbiyyat səhifələrində geniş yayılmışdır. Müəlliflərin, demək olar ki, əksəriyyəti bu fikri dəstəkləyirlər.[7]

Zənnimizcə, beynəlxalq məsuliyyət hüququna beynəlxalq publik hüququn institutu kimi baxmaq fikri həqiqətə daha yaxındır. Belə ki, beynəlxalq məsuliyyət hüququnu beynəlxalq

---

[1] Лукашук И.И. Право международной ответственности. М., 2004.

[2] O'Brien J. International Law. London, 2001 (URL:http://www.amazon.com – 21.05.2018-ci il).

[3] Левин Д.Б. Основные проблемы современного международного права. М., 1958, с.74.

[4] Международное право. Учебник /Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.503.

[5] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006,с.207.

[6] Шумилов В.М. Международное право. Учебник. М., 2008, с.202.

[7] *Məsələn, bax:* Международное право. Учебник / Отв.ред. Г.М.Мелков. М., 2011, с.680; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.216; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.354; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.293 və b.

publik hüququn sahəsi hesab etmək həm məntiqə, həm də hüquqa uyğun gəlmir. Beynəlxalq hüquq nəzəriyyəsindən məlum olduğu kimi, beynəlxalq publik hüquq dövlətlərarası əməkdaşlığın istiqamətindən, daha dəqiq söyləsək, dövlətlərarası münasibətlərin növündən asılı olaraq, müvafiq sahələrə bölünür[1] ki, həmin növlər özünəxas keyfiyyət əlamətləri ilə xarakterizə olunur. Dövlətlərarası münasibətin (əməkdaşlığın) növləri (sahələri) isə kifayət qədərdir. Məsələn, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq kosmos münasibətləri, beynəlxalq dəniz münasibətləri və s. Dövlətlərarası münasibətin (əməkdaşlığın) bu kimi növlərindən asılı olaraq, beynəlxalq publik hüquqda beynəlxalq iqtisadi hüquq, beynəlxalq kosmos hüqüqu, beynəlxalq dəniz hüququ və digər sahələr ayrılır. Heç də sirr deyil ki, beynəlxalq məsuliyyət münasibəti isə nə dövlətlərarası əməkdaşlıq sahəsidir, nə də dövlətlərarası münasibət növüdür. Buna görə də, beynəlxalq məsuliyyət hüququnu beynəlxalq publik hüququn sahəsi hesab etmək fikri inandırıcı olmayıb, necə deyərlər, ağlabatan deyildir. Bu səbəbdən biz beynəlxalq məsuliyyət hüququnu beynəlxalq publik hüququn institutu kimi tanımaq fikrini qəbul edərək, ona üstünlük veririk. Belə ki, beynəlxalq məsuliyyət hüququ dövlətlərarası münasibətlərin (əməkdaşlığın) bütün sferalarında hüquq qaydasının qorunmasını təmin etmək məqsədinə xidmət edir. Belə məqsəd güdən hüquqi qurumun özünü isə, təbii ki, məntiqlə beynəlxalq publik hüququn ümumi hissəsinə aid olan institut hesab etmək olar.

Beynəlxalq publik hüquqda məsuliyyətə aid hüquq normaları yalnız institut halında birləşir. Məhz həmin normaların məcmu halında sisteminə beynəlxalq məsuliyyət hüququ deyilir ki, o, beynəlxalq publik hüququn spesifik institutu hesab edilir; həm də sözügedən institut **beynəlxalq-adət hüquq normaları əsasında formalaşmışdır**. Beynəlxalq məsuliyyət hüququ, eyni zamanda, **ümumi xarakterli institut** sayılır. Ona görə ki, beynəlxalq məsuliyyət hüququ beynəlxalq publik hüququn müs-

[1] Фельдман Д.И. Система международного права. Казань, 1983, с.47.

təqil sahələri ilə tənzimlənən dövlətlərarası münasibətlərin hamısında tətbiq edilir. Bu səbəbdən o, beynəlxalq publik hüququn ümumi hissəsinə aiddir.

Beynəlxalq məsuliyyət hüququ dedikdə beynəlxalq publik hüququn ümumi hissəsinin elə bir spesifik (xüsusi) institutu başa düşülür ki, həmin institutun özü beynəlxalq publik hüquq subyektlərinin məsuliyyət daşımaları ilə bağlı yaranan münasibətləri – beynəlxalq məsuliyyət münasibətlərini tənzimləyir.

Məsuliyyət münasibətləri beynəlxalq məsuliyyət hüququna daxil olan müvafiq beynəlxalq publik hüquq normaları ilə tənzimləndikdə həmin münasibətlər hüquqi forma alır. Belə forma **beynəlxalq-məsuliyyət hüquq münasibətləri** adlanır ki, həmin münasibətlər beynəlxalq publik hüquq məsuliyyətinin mahiyyətini təşkil edir.[1]

9.1.2. Beynəlxalq-hüquqi məsuliyyət institutunun kodifikasiyası və inkişafı

Qeyd etməliyik ki, dövlətdaxili (milli) hüquq sistemlərində mövcud məsuliyyət institutu kifayət qədər inkişaf etmişdir; həm də dövlətdaxili hüquq sistemlərində o, aydın olan institut sayılır. Beynəlxalq publik hüquqda məsuliyyət institutuna gəldikdə isə, qeyd etməliyik ki, o, dövlətdaxili (milli) hüquq sistemlərindəki məsuliyyət institutu ilə müqayisədə nə tam aydınlıq səviyyəsinə çatmış, nə də kifayət dərəcədə inkişaf etmişdir. Başqa sözlə, beynəlxalq publik hüquqda məsuliyyət institutu hələ ki, səlist, aydın və lazımi inkişaf səviyyəsinə yüksəlməmişdir. Belə ki, indiyə kimi beynəlxalq məsuliyyət hüququnun lazımınca kodifikasiya olunması (məcəllələşdirilməsi, sistemləşdirilməsi, sistem halına salınması) həyata keçirilməmişdir. Kodifikasiyanın həyata keçirilməməsi dedikdə beynəlxalq məsuliyyət haqqında ümumi **çoxtərəfli beynəlxalq müqavilənin**

[1] Мазов В.А. Ответственность в международном праве. М., 1979, с.19.

qəbul edilməməsi başa düşülür. Düzdür, beynəlxalq münasibətlərin ayrı-ayrı sferalarında beynəlxalq məsuliyyət məsələsinə həsr olunan bəzi beynəlxalq müqavilələr imzalanmışdır. Lakin, həqiqət və real fakt bundan ibarətdir ki, hazırki dövrədək beynəlxalq məsuliyyət haqqında ümumi beynəlxalq müqavilə qəbul edilməmişdir. Bu isə o deməkdir ki, beynəlxalq məsuliyyət hüquq institutu hələlik kodifikasiya olunmamışdır. Nəzərdən qaçırmaq olmaz ki, həmin institutun kodifikasiya olunması işi beynəlxalq publik hüququn digər institut və sahələrinin kodifikasiyasından xeyli geridə qalır. Beynəlxalq məsuliyyət hüququnun məcəllələşdirilməsi işi, demək olar ki, özünün başlanğıc mərhələsindədir; lakin bu işi başa çatdırmaq lazımdır. Ona görə ki, BMT Beynəlxalq Hüquq Komissiyasının (BHK) qeyd etdiyi kimi, beynəlxalq məsuliyyət hüququnun kodifikasiyası xüsusi vacib rol oynayan məsələlərdən biri sayılır.[1] Bunu nəzərə alaraq, BMT-nin Baş Assambleyası hələ 1953-cü ildə dövlətlərin məsuliyyətini müəyyənləşdirən beynəlxalq publik hüquq norma və prinsiplərinin kodifikasiyası işinə başlamaq barədə təkliflə BHK orqanına müraciət etdi.[2] BHK 1955-ci ildən həmin məsələnin həlli ilə məşğul olmağa başladı; qarşıda **Dövlətlərin beynəlxalq-hüquqazidd hərəkətlərə görə məsuliyyəti haqqında Maddələrin** layihəsini hazırlamaq kimi gərgin işi görmək vəzifəsi dururdu; layihə, demək olar ki, 50 ilə hazırlandı. Belə ki, 2001-ci ildə BHK layihənin müzakirəsini başa çatdırdı.

12 dekabr 2001-ci ildə BMT-nin Baş Assambleyası həmin Komissiyanın təqdim etdiyi[3] Dövlətlərin beynəlxalq-hüquqazidd hərəkətlərə görə məsuliyyəti haqqında Maddələrin layihəsini

[1] *Daha ətraflı:* Лукашук И.И. Право международной ответственности. М., 2004, с.63.
[2] URL:http://www.un.org (22.05.2018-ci il).
[3] *Bax:* Beynəlxalq Hüquq Komissiyasının onun 53-cü sessiyasının işi haqqında məruzənin IV fəsli // untreaty.un.org/ ilc/reports/2001/russian/chp4.pdf (22.05.2018-ci il).

müzakirəyə qəbul etmiş[1], 2 yanvar 2004-cü ildə bu sahədə bir sıra təşkilati tədbirlər keçirərək, 62-ci sessiyanın (2007-ci il) gündəliyinə bu sənədin müzakirəsi barədə bənd salınmasını qərara almışdır[2]. Aydındır ki, Komissiya hələlik öz işini tamamlamamışdır və nəzərdən keçirilən sənəd hazırda beynəlxalq publik hüququn mənbəyi sayılmır, lakin orada açıqlanan əksər normalar məsuliyyət sahəsində ümumi praktikaya uyğun gəlir. Belə bir faktı da nəzərə almaq lazımdır ki, 1986-cı ildə BMT-nin Beynəlxalq Məhkəməsi sözügedən sənədin ilk redaktələrinin birindən (layihədən) «Nikaraqua işində» istifadə etmişdir (doğrudur, müstəqil sənəd kimi deyil, yalnız adi normaların mətn şəklində əksi kimi).[3]

Dövlətlərin beynəlxalq-hüquqazidd hərəkətlərə görə məsuliyyəti haqqında Maddələrin layihəsi özündə aşağıda göstərilən dörd hissəni ehtiva edir:

I hissə – «Dövlətlərin beynəlxalq-hüquqazidd əməlləri»;

II hissə – «Beynəlxalq məsuliyyətin məzmunu»;

III hissə – «Dövlətlərin beynəlxalq məsuliyyətinin implementasiyası»;

IV hissə – «Ümumi müddəalar».

Dövlətlərin məsuliyyəti barədə sözügedən sənəd layihəsi üç əsas məsələni tənzimləyir. **Birinci** məsələ **beynəlxalq məsuliyyətin yaranma və əmələgəlmə əsaslarından** ibarətdir. Burada belə bir suala cavab verilir ki, beynəlxalq məsuliyyət nədən yaranır və əmələ gəlir.

---

[1] *Bax:* Резолюция Генеральной Ассамблеи ООН A/RES/56/83 (URL:http://www.un.org) - 22.05.2018-ci il.

[2] *Bax:* Резолюция Генеральной Ассамблеи ООН A/RES/59/35 (URL:http://www.un.org) - 22.05.2018-ci il.

[3] Military and paramilitary activities in and against Nicaragua (Nicaragua v. United States of America). Judgment of 27 june 1986. URL:http://www.icj-cij.org/icjwww/icases/inus/inus_ijudgment/inus_ijudgment_19860627.pdf (22.05.2018-ci il).

İkinci, dövlətlərin məsuliyyəti barədə göstərilən sənəd layihəsi **beynəlxalq məsuliyyətin məzmun, forma və dərəcəsini** müəyyənləşdirir. Belə ki, burada həm beynəlxalq məsuliyyətin məzmunu açıqlanır, həm beynəlxalq məsuliyyətin formaları göstərilir, həm də beynəlxalq məsuliyyətin dərəcələri müəyyənləşdirilir.

Üçüncü, dövlətlərin məsuliyyəti barədə toxunulan sənəd layihəsi **beynəlxalq (dövlətlərarası) mübahisələrin həll olunması** kimi vacib məsələni tənzimləyir. Maddələr layihəsində bir sıra müddəa məhz bu məsələnin nizamlanmasına həsr edilmişdir.

Dövlətlərin beynəlxalq-hüquqazidd hərəkətlərə görə məsuliyyəti haqqında Maddələrin layihəsi mühüm əhəmiyyətə malik olan sənəddir. Belə ki, onu beynəlxalq məsuliyyət hüquq institutunun kodifikasiya olunması işində irəliyə doğru atılan addım və vacib mərhələ hesab etmək olar. Sənəd mövcud beynəlxalq-adət hüquq normalarını kodifikasiya edir (sistem halına salır), onların məzmununu dəqiqləşdirir. Bunu nəzərə alaraq, BMT-nin Baş Assambleyası qeyd etmişdir ki, göstərilən sənəd beynəlxalq məsuliyyət hüquq institutunun kodifikasiya olunmasında vacib mərhələdir; sənəd həm də beynəlxalq publik hüququn proqressiv inkişafını nümayiş etdirir. Burada beynəlxalq publik hüququn proqressiv inkişafına dair xeyli elementlərə rast gəlinir.[1]

Qeyd etməliyik ki, bu gün beynəlxalq məsuliyyət hüquq institutunun kodifikasiya prosesi başa çatmamışdır; bu proses indi də davam edir. Belə ki, BHK hazırda Dövlətlərin beynəlxalq hüququn qadağan etmədiyi hərəkətlərin neqativ nəticələrinə görə məsuliyyəti haqqında Maddələr layihəsini[2] və Beynəlxalq təşkilatların məsuliyyəti haqqında Maddələr layihəsini işləyib

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.294.

[2] *Bax:* Beynəlxalq Hüquq Komissiyasının onun 53-cü sessiyasının işi haqqında məruzənin V fəsli // un.org/ ilc/reports/ 2001/russian/chp5.pdf (22.05.2018-ci il).

hazırlamaqdadır;[1] adıçəkilən Komissiya bu məsələlər üzərində də işləyir.

9.1.3. Beynəlxalq-hüquqi məsuliyyət institutunun funksiyaları

Beynəlxalq publik hüququn hər bir institutu müəyyən funksiya yerinə yetirir. Bu sözləri beynəlxalq məsuliyyət hüquq institutu barədə də söyləmək olar. Belə ki, beynəlxalq-hüquqi məsuliyyət institutu da özünəxas funksiya yerinə yetirir və həmin institutun sosial-hüquqi mahiyyəti məhz onun yerinə yetirdiyi funksiyalarda ifadə olunur, təzahür edir.

Beynəlxalq məsuliyyət hüquq institutu aşağıda göstərilən **dörd əsas funksiyanı** yerinə yetirir: kompensasiya funksiyası, restitusiya funksiyası, təminat funksiyası, preventiv funksiya.

Şübhəsiz, beynəlxalq publik hüquq normasını və beynəlxalq-hüquqi öhdəliyi pozan subyekt öz beynəlxalq-hüquqazidd əməli ilə digər subyektə zərər vurur. Vurulmuş zərəri, adətən, pulla qiymətləndirmək (hesablamaq) mümkün olur və buna maddi (əmlak) zərər deyilir. Zərərçəkmiş subyektin hüququ vardır ki, ona vurulmuş maddi zərərin kompensasiya olunmasını, yəni əvəzinin ödənilməsini beynəlxalq-hüquqazidd əməl törədən subyektdən tələb etsin. Beynəlxalq-hüquqi məsuliyyət institutunun **kompensasiya funksiyasının** mahiyyəti də məhz bundan ibarətdir. Həmin institut öz kompensasiya funksiyasını o halda yerinə yetirir ki, beynəlxalq publik hüquq subyektinə digər subyekt tərəfindən maddi (əmlak) zərər vurulsun; vurulmuş maddi (əmlak) zərərin əvəzi ödənilməlidir. Bu isə maddi (əmlak) zərərin kompensasiya olunması deməkdir.

---

[1] *Bax:* Beynəlxalq Hüquq Komissiyasının onun 57-ci sessiyasının işi haqqında məruzənin V fəsli // un.org/ ilc/reports/ 2005/russian/chp5.pdf (27.05.2018-ci il).

Beynəlxalq-hüquqi məsuliyyət institutunun **restitusiya funksiyası** bunu ifadə edir ki, beynəlxalq-hüquqazidd əməl törədiləndə kimi mövcud olan vəziyyət bərpa olunur. Məsələn, dövlət qanunsuz yolla ələ keçirdiyi əmlakı, ərazini və s. əşyanı digər dövlətə qaytarır. Dövlətin digər dövlətin qanunsuz tutduğu və saxladığı şəxsini azad etməsi də restitusiya sayılır. Beynəlxalq-hüquqi məsuliyyət institutu restitusiya funksiyasını, adətən, o zaman yerinə yetirir ki, beynəlxalq publik hüquq subyektinə qeyri-maddi (qeyri-əmlak) xarakterli zərər vurulsun. Qeyri-maddi xarakterli zərəri isə pulla qiymətləndirmək (hesablamaq) mümkün olmur. Əgər subyektə maddi zərər vurularsa, onda beynəlxalq məsuliyyət hüquq institutunun kompensasiya funksiyası, necə deyərlər, «işə düşür». Belə ki, kompensasiya vurulmuş zərərin əvəzinin pulla ödənilməsidir və o, zərərin əvəzinin restitusiya ilə ödənilə bilmədiyi hallarda tətbiq edilir. Kompensasiyadan həm də o halda istifadə olunur ki, restitusiyanı, ümumiyyətlə, tətbiq etmək mümkün olmasın.

Beynəlxalq-hüquqi məsuliyyət institutunun **təminat funksiyasının** mahiyyəti bundan ibarətdir ki, həmin institut beynəlxalq-hüquqazidd əməl törədən subyektin öz vəzifəsini lazımi qaydada yerinə yetirməsini təmin edir. Sözügedən institut beynəlxalq publik hüquq subyektlərinin lazımınca davranmaları üçün onlarda meyil (stimul) yaradır, həvəs oyadır.

Beynəlxalq-hüquqi məsuliyyət institutu, məlum məsələdir ki, beynəlxalq-hüquqazidd əməl törədən, yəni beynəlxalq publik hüquq pozuntusuna yol verən subyektlər barəsində də tətbiq edilir. Bunun nəticəsində həm beynəlxalq publik hüquq pozuntusuna yol verən subyekt, həm də başqa subyektlər tərəfindən yeni beynəlxalq-hüquqazidd əməllərin törədilməsinin qarşısı alınır. Beynəlxalq-hüquqi məsuliyyət institutunun **preventiv funksiyasının** mahiyyəti də məhz bundan ibarətdir. Beynəlxalq publik hüquq pozuntusu törədən subyektlərə beynəlxalq məsuliyyət hüquq institutunun tətbiq edilməsi həmin subyektlərə çəkindirici təsir göstərir, onları beynəlxalq publik hüquq normalarına əməl etmək, eləcə də öz üzərinə götürdük-

ləri beynəlxalq-hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək ruhunda tərbiyələndirir. Bu səbəbədən preventiv funksiyaya **qabaqlayıcı-tərbiyəvi funksiya** [1] da deyilir.

Göstərilənlərdən başqa, beynəlxalq-hüquqi məsuliyyət institutu daha **iki funksiyanı** yerinə yetirir: qoruyucu funksiya, repressiv funksiya.

Beynəlxalq-hüquqi məsuliyyət institutunun **qoruyucu funksiyası** bunda ifadə olunur ki, beynəlxalq publik hüquq normalarını pozan subyektlər beynəlxalq-hüquqi məsuliyyətə cəlb edilir və onlar üçün arzuolunmaz mənfi hüquqi nəticələr yaranır. Bu yolla beynəlxalq-hüquqi məsuliyyət institutu beynəlxalq publik hüquq normalarını qoruyur, mühafizə edir.

Beynəlxalq-hüquqi məsuliyyət institutunun **repressiv funksiyasının** mahiyyəti bundan ibarətdir ki, beynəlxalq-hüquqazidd əməllər törədən subyektlərə qarşı beynəlxalq-hüquqi sanksiyalar tətbiq edilir. Bununla da onlar cəzalandırılır, yəni subyektlərə, necə deyərlər, «cəza» təyin olunur.

9.1.4. Tədbir mənasında beynəlxalq-hüquqi məsuliyyət

Beynəlxalq publik hüquq subyektləri, bəzən, hüquqazidd əməl törədərək beynəlxalq publik hüquq pozuntusuna yol verirlər. Buna cavab olaraq, həmin subyektlərə qarşı müvafiq məcburiyyət tədbirləri tətbiq olunur və onlar beynəlxalq-hüquqi məsuliyyətə cəlb edilirlər. Deməli, beynəlxalq publik hüquq məsuliyyətinə cəlb olunma beynəlxalq publik hüquq pozuntusu törədənlərə qarşı müvafiq məcburiyyət tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur. Bu isə o deməkdir ki, beynəlxalq-

[1] Bir sıra dərslikdə beynəlxalq-hüquqi məsuliyyət institutuna dair mövzu işıqlandırılır *(məsələn, bax:* Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.505; Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.263-280; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008, s.189-196 və b.).

hüquqi məsuliyyət nəinki hüquqi vasitə və institut, həmçinin tədbir mənasında işlədilir.

Tədbir mənasında beynəlxalq-hüquqi məsuliyyət dedikdə beynəlxalq publik hüquq pozuntusu törədən subyektlərə qarşı beynəlxalq-hüquqi sanksiyaların tətbiq edilməsi başa düşülür. Belə sanksiyaların tətbiq edilməsi isə bunlara səbəb olur ki, birinci, **beynəlxalq publik hüquq pozuntusu dayandırılır;** ikinci, beynəlxalq publik hüquq subyektinin **hüquqları müdafiə edilir**; üçüncü, beynəlxalq publik hüquq subyektinin **hüquqları bərpa edilir**; dördüncü, beynəlxalq publik hüquq pozuntusu törədən subyektin daşıdığı **beynəlxalq-hüquqi məsuliyyət realizə edilir**.

Beynəlxalq-hüquqi sanksiyaların nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, həm müasir beynəlxalq-hüquqi praktika, həm də onu əks etdirən beynəlxalq publik hüquq elmi həmin suala kifayət qədər aydın şəkildə cavab vermişdir. Belə ki, **beynəlxalq-hüquqi sanksiyalar** dedikdə beynəlxalq publik hüquq pozuntusuna cavab olaraq, görülən hüquqauyğun məcburiyyət tədbirləri başa düşülür.[1] Belə tədbirlər görülərkən beynəlxalq publik hüquq pozuntusu törədən subyektə məcburedici təsir göstərilir. Bu yolla beynəlxalq publik hüquq qaydasının qorunması təmin edilir. Beynəlxalq-hüquqi sanksiyaların da əsas funksiyası məhz beynəlxalq publik hüquq qaydasını qorumaqdan ibarətdir.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq pozuntusu törədən subyektə qarşı beynəlxalq-hüquqi sanksiyaların tətbiq edilməsi onun üçün arzuolunmaz mənfi nəticələrə səbəb olur. Məsələn, beynəlxalq publik hüquq pozuntusu törədən dövlət pul formasında zərərin əvəzini ödəyir və s. Bu baxımdan, yəni sanksiya (tədbir) mənasında beynəlxalq-hüquqi məsuliyyət dedikdə beynəlxalq publik hüquq pozuntusu törədən subyekt üçün arzuolunmaz mənfi nəticələrin yaranması başa düşülür.

---

[1] *Daha ətraflı:* Василенко В.А. Международно-правовые санкции. Киев, 1982, 232 с.

Beynəlxalq-hüquqi sanksiya hüquqazidd əmələ görə beynəlxalq publik hüquq məsuliyyəti daşıyan subyektə tətbiq edilir. Bu isə o deməkdir ki, beynəlxalq-hüquqi sanksiya beynəlxalq publik hüquq məsuliyyətinin realizə olunma formasıdır. Belə halda, o, **beynəlxalq publik hüquq məsuliyyəti tədbiri** hesab edilir. Lakin beynəlxalq-hüquqi sanksiya təkcə beynəlxalq-hüquqi məsuliyyət tədbiri sayılmır. Məsələ burasındadır ki, beynəlxalq-hüquqi sanksiyalar arasında elələri vardır ki, onlar beynəlxalq-hüquqi məsuliyyət tədbiri deyil, beynəlxalq-hüquqi müdafiə tədbiri sayılır. Məsələn, dövlətlər tərəfindən özünəyardım qaydasında həyata keçirilən beynəlxalq-hüquqi sanksiyalar (retorsiya, özünümüdafiə, diplomatik və konsulluq əlaqələrinin kəsilməsi, embarqo, boykot, repressaliya və s.)[1] beynəlxalq-hüquqi müdafiə tədbirləridir; lakin onlar beynəlxalq-hüquqi məsuliyyət tədbirləri sayılmır. Ona görə ki, beynəlxalq-hüquqi müdafiə tədbirlərinin tətbiqi beynəlxalq-hüquqi məsuliyyətlə bağlı deyil. Məsələn, beynəlxalq-hüquqi müdafiə tədbiri olan «iqtisadi boykot» zərərçəkən dövlətin ərazisində hüquq pozuntusu törədən dövlətdə istehsal olunan malların satışının qadağan olunmasını nəzərdə tutur.

Beləliklə, geniş anlayış olan beynəlxalq-hüquqi sanksiyalar **iki yerə** bölünür:

– beynəlxalq-hüquqi məsuliyyət tədbirləri;

– beynəlxalq-hüquqi müdafiə tədbirləri.

Beynəlxalq-hüquqi məsuliyyət tədbirləri beynəlxalq publik hüquq pozuntusu törətdiyinə görə beynəlxalq-hüquqi məsuliyyət daşıyan subyektə tətbiq olunur. **Beynəlxalq-hüquqi müdafiə tədbirləri** isə beynəlxalq publik hüquq məsuliyyətinə cəlb olunmayan subyektlərə qarşı tətbiq edilir. Başqa sözlə, beynəlxalq-hüquqi məsuliyyət tədbirlərinin tətbiqinə beynəlxalq publik hüquq pozuntusu səbəb olur. Bu sözləri beynəlxalq-hüquqi müdafiə (məcburiyyət) tədbirlərinin tətbiqi haqqın-

[1] *Bu barədə bax:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s.221-228.

da söyləmək olmaz. Belə ki, beynəlxalq-hüquqi müdafiə tədbirlərindən, adətən, xarici dövlət, sadəcə olaraq, hüquqazidd əməl törətdiyi və ya qeyri-dostluq aktı həyata keçirdiyi hallarda istifadə edilir. Məsələn, dövlət cavab tədbiri kimi, qeyri-dostluq aktı həyata keçirən və yaxud da, sadəcə olaraq, hüquqazidd əməl törədən dövlətdən gətirilən malların idxalını məhdudlaşdırır. Bu, retorsiya formasında beynəlxalq-hüquqi müdafiə (məcburiyyət) tədbiridir.

9.2. Beynəlxalq məsuliyyət hüququnun mənbələri

9.2.1. Beynəlxalq məsuliyyət hüququnun mənbələri anlayışı

Beynəlxalq publik hüquq subyektləri, xüsusən də, dövlətlər öz üzərinə düşən vəzifə və beynəlxalq-hüquqi öhdəlikləri vicdanla yerinə yetirməli, hüquqazidd davranışa yol verməməli, beynəlxalq publik hüququn digər subyektlərinin hüquq və mənafelərinə zərər vurmaqdan çəkinməlidirlər. Əgər beynəlxalq publik hüquq subyektləri həmin vəzifələri lazımınca yerinə yetirməzsə və ya ümumiyyətlə yerinə yetirməzsə, onlar beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunurlar. Bu zaman beynəlxalq publik hüquq subyektləri (dövlətlər, dövlətlərarası beynəlxalq təşkilatlar və s.) arasında müəyyən ictimai münasibətlər əmələ gəlir ki, onlara beynəlxalq məsuliyyət münasibətləri deyilir.

Beynəlxalq məsuliyyət münasibətləri dedikdə beynəlxalq-hüquqi öhdəlikləri pozan beynəlxalq publik hüquq subyekti ilə zərərçəkən beynəlxalq publik hüquq subyekti arasında əmələ gələn sosial əlaqələr başa düşülür.

İstənilən ictimai münasibət kimi, beynəlxalq məsuliyyət münasibətləri də hüquqi tənzimetmənin obyektidir. Belə ki, həmin münasibətlər müvafiq beynəlxalq publik hüquq normaları vasitəsi ilə tənzimlənir. Beynəlxalq məsuliyyət münasibətlərini tənzimləyən beynəlxalq publik hüquq normaları isə müəyyən

hüquqi formalarda ifadə edilir, mövcud olur. Məhz həmin formalar beynəlxalq məsuliyyət hüququnun mənbələri adlanır.

Beynəlxalq məsuliyyət hüququnun mənbələri dedikdə beynəlxalq məsuliyyət münasibətlərini tənzimləyən beynəlxalq publik hüquq normalarının ifadəedilmə və mövcudolma formaları başa düşülür; həmin normalar isə beynəlxalq-məsuliyyət hüquq normaları adlanır.

9.2.2. Beynəlxalq məsuliyyət hüququnun mənbə növləri

Məsuliyyət barədə beynəlxalq publik hüquq normaları, bir qayda olaraq, **iki hüquqi formada** ifadələnərək mövcud olur. Həmin formalar isə aşağıdakılardan ibarətdir:

- beynəlxalq-hüquqi adət;
- beynəlxalq müqavilə.

Qeyd etməliyik ki, göstərilən hüquqi formalar beynəlxalq məsuliyyət hüququnun mənbə növləri sayılır. **Beynəlxalq-hüquqi adət** beynəlxalq məsuliyyət hüququnun əsas mənbə növü sayılır. Belə ki, beynəlxalq məsuliyyət münasibətlərini tənzimləyən beynəlxalq publik hüquq normaları, əsasən, beynəlxalq-hüquqi adətlərdə ifadə edilir, mövcud olur. Başqa sözlə, məsuliyyət barədə beynəlxalq publik hüquq normaları, başlıca olaraq, beynəlxalq-adət hüquq normalarından idarətdir. Bu səbəbdən beynəlxalq-hüquqi məsuliyyət institutunu təşkil edən normalar, yəni beynəlxalq məsuliyyət münasibətlərini tənzimləyən beynəlxalq publik hüquq normaları, əsasən, beynəlxalq-adət xarakterinə malikdir.[1] Bu, aydın və məlum məsələdir. Nəzərdən qaçırmaq olmaz ki, həmin institut məhz beynəlxalq-adət hüquq normaları bazasında (əsasında) formalaşmışdır. Beynəlxalq-adət hüquq normaları mövcud olmasaydı, onda, təbii ki, beynəlxalq-məsuliyyət hüquq institutu da yaranmazdı. Həm də belə bir faktı inkar edə bilmərik ki, beynəlxalq məsuliyyət mü-

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.263.

nasibətləri, əsasən, beynəlxalq-adət hüquq normaları vasitəsi ilə tənzimlənir.[1]

Beynəlxalq məsuliyyət münasibətləri təkcə beynəlxalq-adət hüquq normaları ilə nizamlanmır. Beynəlxalq məsuliyyət münasibətləri həm də müqavilə hüququ, yəni beynəlxalq-müqavilə hüquq normaları ilə qaydaya salınır, tənzimlənir. Başqa sözlə, məsuliyyət barədə beynəlxalq publik hüquq normaları həm də beynəlxalq müqavilələrdə ifadə edilir, mövcud olur. Odur ki, beynəlxalq müqavilə beynəlxalq məsuliyyət hüququnun digər mənbə növü sayılır. Söhbət beynəlxalq-hüquqi öhdəlikləri pozmağa və onları yerinə yetirməməyə görə birbaşa məsuliyyət nəzərdə tutan beynəlxalq müqavilələrdən gedir.

Bəzi beynəlxalq müqavilələr **vurulmuş zərərin əvəzinin ödənilməsinə** həsr edilmişdir; bu müqavilələr ətraf mühitin (dəniz, hava və kosmik məkanın, heyvanlar və bitkilər aləminin, Antarktidanın və s.) qorunmasına və yüksək təhlükə mənbələrindən (məsələn, kosmik obyektlərdən, uçuş aparatlarından, nüvə enerji daşıyıcılarına malik olan gəmilərdən və s. texniki vasitələrdən) istifadə edilməsinin tənzimlənməsinə həsr olunmuşdur. Məsələn, 1952-ci ildə qəbul olunmuş müvafiq konvensiya xarici hava gəmilərinin yer səthindəki üçüncü şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi məsələsini tənzimləyir;[2] 1972-ci ildə qəbul edilmiş müvafiq konvensiya kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət nəzərdə tutur.[3]

Beynəlxalq müqavilələr həm də **beynəlxalq xarakterli cinayətlər barədə** qəbul edilmişdir. Məsələn, 1948-ci ildə qəbul olunmuş müvafiq konvensiya genosid cinayətlərinin qarşısının alınmasına və həmin cinayətə görə cəza təyin edilməsinə həsr edilmişdir; bəzi konvensiyalar aparteid, irqi ayrı-seçkilik və digər cinayətlərlə mübarizəyə yönəlmişdir.

---

[1] Международное право. Учебник / Под ред. А.И. Микульшина. М., 2005, с.83.

[2] URL:http://www.dic.academic.ru (22.05.2018-ci il).

[3] URL:http://www.zonazakona.ru (23.05.2018-ci il).

Elə beynəlxalq müqavilələr də vardır ki, onlar beynəlxalq məsuliyyət haqqında ümumi xarakterli beynəlxalq publik hüquq normaları nəzərdə tutur. Məsələn, BMT-nin Nizamnaməsi belə beynəlxalq müqavilələrdən sayılır; onun 39, 41 və 42-ci maddələri beynəlxalq sülh və təhlükəsizlik əleyhinə törədilən beynəlxalq əməllərə görə məsuliyyətin realizasiyası qaydalarını müəyyənləşdirir. Beynəlxalq məsuliyyət barədə ümumi xarakterli müvafiq normalar həm də digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuşdur.

Beynəlxalq məsuliyyət münasibətlərinin tənzimlənməsində BMT Baş Assambleyasının qəbul etdiyi sənədlər də vacib rol oynayır. Söhbət, ilk növbədə, BMT Baş Assambleyasının təcavüzün anlayışını formulə edən müvafiq qətnaməsindən (1974-cü il) gedir.[1] Burada müəyyən edilir ki, təcavüzkar müharibə beynəlxalq sülh əleyhinə törədilən cinayətdir və təcavüzkarlıq beynəlxalq məsuliyyətə səbəb olur.

Beləliklə, beynəlxalq publik hüquqda məsuliyyət beynəlxalq-hüquqi adət və müqavilə-hüquq normalarına əsaslanır[2] və həmin normaların köməyi ilə beynəlxalq məsuliyyət realizə olunur.

9.3. Beynəlxalq məsuliyyət hüququnun subyektləri

9.3.1. Beynəlxalq məsuliyyət hüququnun subyektləri anlayışı

Subyekt beynəlxalq-məsuliyyət hüquq münasibətlərinin məcburi və labüd elementi sayılır. Belə ki, subyekt olmadan həmin münasibətlərin özü yarana bilməz; onlar məhz subyektlər arasında əmələ gəlir.

Bildiyimiz kimi, beynəlxalq publik hüquqla tənzimlənən münasibətlərin, yəni beynəlxalq dövlətlərarası münasibətlərin

[1] URL:http://www.un.org (22.05.2018-ci il).
[2] Международное право. Учебное пособие /Ю.В.Трунцевский и др. М., 2010, с.307.

iştirakıçıları olmaları üçün bu və ya digər qurum (məsələn, dövlət, dövlətlərarası beynəlxalq təşkilat və s.) beynəlxalq publik hüquq subyektliyinə malik olmalıdır. Beynəlxalq publik hüquq subyektliyi isə ümumiləşdirilmiş və geniş anlayış olub, bir neçə elementdən ibarətdir; xatırlamaq lazımdır ki, beynəlxalq delikt qabiliyyəti həmin elementlərdən biri sayılır. **Beynəlxalq delikt qabiliyyəti** dedikdə, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq subyektinin öz törətdiyi beynəlxalq publik hüquq pozuntusuna görə beynəlxalq-hüquqi məsuliyyət daşımaq qabiliyyəti başa düşülür. Əgər hər hansı qurum beynəlxalq delikt qabiliyyətinə malik olarsa, o, beynəlxalq publik hüquq məsuliyyətinin subyekti sayılır.

Beynəlxalq məsuliyyət hüququnun subyektləri odur ki, onlar beynəlxalq delikt qabiliyyətinə, yəni öz törətdikləri beynəlxalq-hüquqi pozuntuya görə beynəlxalq-hüquqi məsuliyyət daşımaq qabiliyyətinə malikdirlər. Təbii ki, əgər bu və ya digər qurum belə qabiliyyətə malik olmazsa, o, beynəlxalq məsuliyyət hüququnun subyekti hesab edilmir.

Beynəlxalq delik qabiliyyətinə malik olması subyektə imkan verir ki, o, beynəlxalq-hüquqi öhdəlikləri pozduqda beynəlxalq publik hüquq məsuliyyətinə cəlb olunsun. Beynəlxalq publik hüquq məsuliyyətinə cəlb oluna bilməsi isə o deməkdir ki, beynəlxalq-hüquqi öhdəlikləri pozanlar beynəlxalq məsuliyyət hüququnun subyekti hesab olunurlar.

9.3.2. Beynəlxalq məsuliyyət hüquq subyektlərinin növləri

Qeyd etməliyik ki, istənilən beynəlxalq publik hüquq subyekti həm beynəlxalq hüquq, həm də beynəlxalq fəaliyyət qabiliyyətinə malikdir. Beynəlxalq publik hüququn hər hansı subyektinin həmçinin beynəlxalq delikt qabiliyyəti vardır.[1] Deməli, beynəlxalq delikt qabiliyyətinə malik olması səbəbindən istənilən beynəlxalq publik hüquq subyekti beynəlxalq mə-

[1] Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.24.

suliyyət hüququnun subyekti sayılır. Belə ki, sözügedən bütün subyektlər həm beynəlxalq hüquq, həm beynəlxalq fəaliyyət, həm də beynəlxalq delikt qabiliyyətinə malikdirlər. Bu səbəbdən hüquq ədəbiyyatı səhifələrində hamılıqla qəbul edilmiş belə bir nəzəri fikir geniş yayılmışdır ki, beynəlxalq məsuliyyət hüququnun subyektləri beynəlxalq publik hüququn subyektlərindən ibarətdir.[1] Başqa sözlə, **beynəlxalq publik hüququn subyektləri həm də beynəlxalq-hüquqi məsuliyyətin subyektləri** sayılır. Təsadüfi deyil ki, beynəlxalq publik hüquqda məsuliyyət dedikdə hüquq pozuntusu törədən beynəlxalq publik hüquq subyektləri üçün arzuolunmaz mənfi hüquqi nəticələrin yaranması başa düşülür. Əgər beynəlxalq publik hüquq subyekti beynəlxalq-hüquqi öhdəlikləri pozub, hüquqazidd əməl törədərsə, o, eyni zamanda, beynəlxalq məsuliyyət hüququnun subyekti kimi tanınır. Unutmaq olmaz ki, beynəlxalq publik hüquq subyektinin törətdiyi hər bir hüquqazidd əməl beynəlxalq-hüquqi məsuliyyətin yaranmasına səbəb olur. Belə halda isə beynəlxalq publik hüquq subyekti beynəlxalq məsuliyyət hüququnun subyekti rolunda çıxış edir.

Beynəlxalq məsuliyyət hüququnun əsas subyekti **dövlətdir**. Bu, aydın məsələdir. Belə ki, dövlət beynəlxalq publik hüququn başlıca subyekti sayılır. Dövlət beynəlxalq-hüquqi öhdəlikləri pozmağa görə beynəlxalq publik hüquqa uyğun məsuliyyət daşıyır.[2]

Qeyd etməliyik ki, dövlət tərəfindən istənilən öhdəliyin pozulması onun mənbəyindən asılı olmayaraq, beynəlxalq məsuliyyətin yaranmasına səbəb olur.[3] Belə halda isə dövlət beynəlxalq məsuliyyət hüququnun subyekti sayılır; həm də dövlət yalnız öz istənilən orqanının hərəkətinə görə, onun hansı funk-

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.83.
[2] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. М., 2011, с.738.
[3] Доклад Комиссии Международного Права. Нью-Йорк, 2001, с.53.

siya yerinə yetirməsindən asılı olmayaraq, məsuliyyət daşıyır.[1] Hüquq pozuntusu törətdikdə dövlət vurduğu zərərin əvəzini ödəməli və ya digər yolla hüquq pozuntusunun nəticələrini aradan qaldırmalıdır.[2]

Beynəlxalq məsuliyyət hüququnun subyekti həm də **beynəlxalq (dövlətlərarası) təşkilatlar** sayılır. Belə ki, onlar beynəlxalq publik hüququn subyekti sayılır. Beynəlxalq publik hüquq subyektliyinə malik olması səbəbindən beynəlxalq (dövlətlərarası) təşkilatlar beynəlxalq məsuliyyət hüququnun da subyekti kimi tanınırlar.

Beynəlxalq məsuliyyət hüququnun subyektləri sırasına həm də **öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər)** aid olunur. Belə ki, həmin xalqlar (millətlər) öz üzərlərinə beynəlxalq-hüquqi öhdəliklər götürürlər. Əgər onlar öz üzərlərinə düşən beynəlxalq-hüquqi öhdəlikləri pozarlarsa, onda beynəlxalq publik hüquq məsuliyyəti yaranır. Belə halda öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) beynəlxalq publik hüquq məsuliyyətinin subyekti qismində çıxış edir.

Dövlətəoxşar qurumlar da beynəlxalq məsuliyyət hüququnun subyekti sayılır (məsələn, Vatikan və s.). Qeyd etməliyik ki, dövlətəoxşar qurumlar beynəlxalq publik hüququn xüsusi subyekti sayılmasına görə onların beynəlxalq publik hüquq məsuliyyəti fərdi xarakter daşıyır və praktiki cəhətdən realizə olunmur.[3] Məsələn, Vatikan son dövrlərdə (03.04.2012-ci il) inkvizisiyaya[4] görə təqsirli olduğunu etiraf etmişdir.[5]

---

[1] Аречага Х.Современное международное право. М., 1983, с.416.

[2] Тункин Г.И. Теория международного права. М., 2000, с.339.

[3] Международное право. Учебное пособие / Ю.В.Трунцевский и др. М., 2010, с.307.

[4] *İnkvizisiya (orta əsrlərdə Katolik kilsənin istintaq və cəza orqanı, məhkəmə təsisatı və s.) barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.367.

[5] URL:http://www.logoslovo.ru (22.5.2018-ci il).

Hüquqi şəxslərə gəldikdə isə, qeyd etməliyik ki, onların beynəlxalq publik hüquq subyektliyi yoxdur. Bu səbəbdən onlar beynəlxalq publik hüququn subyekti hesab edilmirlər.[1] Nəzərdən qaçırmaq olmaz ki, yalnız beynəlxalq publik hüququn subyektləri beynəlxalq məsuliyyət hüququnun subyektləri ola bilərlər. Məhz buna görə, hüquqi şəxslərin beynəlxalq məsuliyyət hüququnun subyekti kimi tanınması qeyri-mümkündür. Doğrudur, son zamanlar hüquqi şəxs statusuna malik olan TMK-lar üçün onların inkişaf etməkdə olan ölkələrdəki fəaliyyətinin nəticələrinə görə beynəlxalq-hüquqi məsuliyyət tədbirlərinin müəyyənləşdirilməsi barədə ayrı-ayrı müəlliflər tərəfindən fikir irəli sürülür. Lakin, hesab edirik ki, TMK-lar beynəlxalq publik hüququn deyil, dövlətdaxili (milli) hüququn, daha konkret söyləsək, beynəlxalq xüsusi hüququn subyekti sayılır. Odur ki, onlar beynəlxalq publik hüquqa deyil, beynəlxalq xüsusi hüquqa uyğun məsuliyyət daşıyırlar; həm də TMK-lar beynəlxalq deyil, mülki-hüquqi məsuliyyət daşıyırlar.

Fiziki şəxslərin beynəlxalq məsuliyyət hüququnun subyekti olub-olmaması barədə, xüsusilə, danışmaq lazımdır. Yeri gəlmişkən, qeyd edək ki, bu, hüquq ədəbiyyatı səhifələrində elmi mübahisəyə səbəb olan və diskussiya doğuran məsələdir. Belə ki, bəzi müəlliflərə görə, beynəlxalq-hüquqazidd əməl törədən fiziki şəxslər beynəlxalq məsuliyyət hüququnun subyekti sayılır. Onlar belə hesab edirlər ki, fiziki şəxslər (fərdlər) ayrı-ayrı beynəlxalq cinayətlərin [məsələn, müharibə (hərbi) cinayətlərinin, insanlıq əleyhinə cinayətlərin, genosid, təcavüzetmə və digər kriminal əməllərin] törədilməsinə görə birbaşa (bilavasitə) beynəlxalq publik hüquq normaları əsasında məsuliyyətə (beynəlxalq cinayət məsuliyyətinə) cəlb oluna bilərlər.[2] Bunu əldə əsas tutaraq, həmin müəlliflər hesab edirlər ki, fiziki şəxslər (fərdlər) beynəlxalq publik hüququn (o cümlədən beynəlxalq məsuliyyət hüququnun) subyekti kimi çıxış edirlər.

---

[1] Beynəlxalq hüquq. Dərslik / Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002, s.340.

[2] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.52.

Digər müəlliflər isə, bunun əksi olan mövqedə duraraq, göstərirlər ki, fiziki şəxslər beynəlxalq məsuliyyət hüququnun subyekti sayılmır.[1] Biz, məhz bu cür fikir söyləyən müəllifləri dəstəkləyərək, onlara tərəfdar çıxırıq. Düzdür, müasir beynəlxalq publik hüquq hərbi (müharibə), habelə insanlıq əleyhinə cinayətlərə görə fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasını nəzərdə tutur. Təsadüfi deyil ki, Beynəlxalq Cinayət Məhkəməsinin Statutu fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının mümkünlüyü barədə norma müəyyənləşdirir.[2]

Qeyd etməliyik ki, dövlətlər hərbi (müharibə) və insanlıq əleyhinə cinayətlər, habelə digər beynəlxalq cinayətlər törədilməsinə görə fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb olunmaları barədə bir sıra beynəlxalq müqavilə imzalamışdır. Bununla onlar öz üzərlərinə fiziki şəxslərin beynəlxalq cinayətlərə görə dövlətdaxili qaydada məsuliyyətə cəlb olunmasına dair beynəlxalq öhdəlik götürmüşdür. Lakin, fiziki şəxslər həmin cinayətlərə görə yalnız o halda cinayət məsuliyyətinə cəlb oluna bilərlər ki, dövlətlər öz beynəlxalq öhdəliyini yerinə yetirərək daxili (milli) cinayət hüququnda müvafiq normalar müəyyənləşdirsin.[3] Bu kimi hallarda fiziki şəxslər beynəlxalq cinayətlərə görə birbaşa (bilavasitə) beynəlxalq-müqavilə hüquq normaları əsasında məsuliyyətə cəlb olunurlar. Lakin, fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb olunmaları, həmin şəxslər barədə cinayət işinin qaldırılması, onlara cəza verilməsi və digər məsələlər dövlətlərin milli cinayət qanunvericiliyi çərçivəsində həll olunur. Belə ki, sülh və insanlıq əleyhinə cinayətlərə, eləcə də müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan normalar, bir qayda olaraq, dövlətlərin cinayət qanununa daxil edilmişdir. Məsələn, Azərbaycan Respublikasında hal-

---

[1] *Məsələn, bax:* Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.218.

[2] *Bax:* Статут Международного уголовного суда, принятый на конференции в Риме в июле 1998 г. // Международное право. Сборник документов. М., 2000, с.179-199; URL:http://www.ru.m.wikipedia.org (23.05.2018-ci il).

[3] Ушаков Н.А. Проблемы теории международного права. М., 1988, с.143.

hazırda qüvvədə olan CM-in 16-cı fəsli (100–113-cü maddələr) sülh və insanlıq əleyhinə cinayətlərə görə məsuliyyət müəyyən edir; onun 17-ci fəsli (114–119-cu maddələr) isə müharibə cinayətlərinə qarşı mübarizəyə həsr olunmuşdur. Belə müddəalara Rusiya Federasiyasının və digər xarici ölkələrin cinayət qanunvericiliyində də rast gəlinir. Əgər bu və ya digər dövlətlərin fiziki şəxsi sülh və insanlıq əleyhinə, müharibə cinayətləri və digər beynəlxalq cinayətlər törədərsə, onun cinayət məsuliyyətinə cəlb olunması məsələsi müvafiq dövlətin cinayət qanunu ilə həll edilir.

Deyilənlər onu göstərir ki, fiziki şəxslər (fərdlər) beynəlxalq məsuliyyət hüququnun subyekti ola bilməzlər. Hətta fiziki şəxs dövlətin vəzifəli şəxsi qismində və ya dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının tərkibinə daxil olan şəxs kimi beynəlxalq-hüquqazidd əməl törətdiyi halda da, o, beynəlxalq məsuliyyət hüququnun subyekti hesab edilmir. Bəzi müəlliflərin, çox düzgün olaraq, göstərdikləri kimi, nə hüquqi şəxslər, nə də fiziki şəxslər beynəlxalq məsuliyyət hüququnun subyekti sayılır;[1] ən azı ona görə ki, onlar beynəlxalq-hüquqi məsuliyyət daşımırlar.[2]

Dövlətlərin beynəlxalq birliyi də beynəlxalq məsuliyyət hüququnun subyekti sayılmır. Düzdür, dövlətlərin beynəlxalq birliyi beynəlxalq publik hüquq pozuntularının aradan qaldırılmasına həmişə səy göstərmişdir; sözügedən birlik beynəlxalq-hüquqazidd əməllərin törədilməsinə yol verilməməsinin marağındadır. Lakin, buna baxmayaraq, dövlətlərin beynəlxalq birliyi beynəlxalq məsuliyyət münasibətlərində subyekt qismində iştirak etmir.

Beləliklə, beynəlxalq məsuliyyət hüququnun **subyektləri** bunlardan ibarətdir:

---

[1] Международное право. Учебник /Под ред. А.И.Микульшина. М., 2005, с.83.

[2] Международное право. Учебник /Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.506.

– dövlətlər;
– dövlətlərarası beynəlxalq təşkilatlar;
– öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər);
– dövlətəoxşar qurumlar.

Şübhəsiz, sadalanan subyektlər sırasında dövlətlərin və dövlətlərarası beynəlxalq təşkilatların məsuliyyət məsələsi diqqəti daha çox cəlb edir. Belə ki, beynəlxalq qanunçuluğun təmin edilməsində, beynəlxalq publik hüquq qaydasının qorunub saxlanılmasında, beynəlxalq publik hüquq normalarına əməl edilməsində, dövlətlərarası sistemin normal fəaliyyət göstərməsində və beynəlxalq publik hüququn öz funksiyalarını yerinə yetirməsində həm dövlətlər, həm də dövlətlərarası təşkilatlar vacib rol oynayır.

9.4. Beynəlxalq-hüquqi məsuliyyətin əsası və şərtləri

9.4.1. Beynəlxalq-hüquqi məsuliyyətin əsası

Beynəlxalq publik hüquq məsuliyyətinin yaranması üçün müvafiq əsas olmalıdır. Məhz əsas mövcud olduqda beynəlxalq-hüquqi məsuliyyət yaranır. Məlum məsələdir ki, tələb olunan əsas olmazsa, onda beynəlxalq publik hüquq məsuliyyəti də əmələ gəlmir. Odur ki, beynəlxalq publik hüquq elmində, bir qayda olaraq, «beynəlxalq publik hüquq məsuliyyətinin yaranma əsası» kimi termindən istifadə olunur. Belə terminin işlədilməsi isə məntiqə uyğundur və o, aşağıdakı suala cavab verir: **beynəlxalq publik hüquq məsuliyyəti nəyin əsasında və nəyə görə yaranır**? Bu baxımdan, beynəlxalq publik hüquq məsuliyyətinin iki cür əsası fərqləndirilir. Həmin əsaslar bunlardan ibarətdir:[1]

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s. 313; Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.295.

– beynəlxalq publik hüquq məsuliyyətinin faktiki əsası;

– beynəlxalq publik hüquq məsuliyyətinin hüquqi əsası.

Beynəlxalq-hüquqi məsuliyyətin yaranması, yəni subyektin beynəlxalq publik hüquq məsuliyyətinə cəlb edilməsi üçün həm faktiki, həm də hüquqi əsasın mövcud olması tələb edilir; həm də onlar arasında qarşılıqlı dialektik əlaqə və bağlılıq mövcuddur. Əgər onlardan hər hansı biri olmazsa, onda beynəlxalq publik hüquq məsuliyyəti də yaranmır.

Beynəlxalq publik hüquq məsuliyyətinin faktiki əsası dedikdə beynəlxalq publik hüququn subyekti tərəfindən digər subyektə zərər vurulması faktı başa düşülür. Belə ki, beynəlxalq publik hüquq subyekti beynəlxalq publik hüququn başqa subyektinə zərər vuran hərəkət edir və ya hərəkətsizliyə yol verir. Bu zaman vurulmuş zərər isə iki cür (növ) ola bilər:

– əmlak zərəri;

– qeyri-əmlak zərəri.

Əmlak zərəri dedikdə maddi ziyan başa düşülür; buna görə, ona çox vaxt **maddi zərər** deyilir. Maddi zərər subyektə vurulmuş elə bir ziyandır ki, həmin ziyanı pulla qiymətləndirmək mümkündür; həm də zərərin bu növü beynəlxalq publik hüquqda maddi məsuliyyətin yaranmasına səbəb olur.

Qeyri-əmlak zərəri dedikdə beynəlxalq publik hüquq subyektinə vurulan və pulla qiymətləndirilməsi mümkün olmayan qeyri-maddi ziyan başa düşülür; bu səbəbdən zərərin bu növünə həm də **qeyri-maddi zərər** deyilir. Qeyri-maddi zərər isə beynəlxalq publik hüquqda qeyri-maddi məsuliyyətin yaranmasına səbəb olur. Məsələn, 1979-cu ildə silahlı kütlə tərəfindən ABŞ-ın İrandakı səfirliyinin binasının tutulması qeyri-maddi zərər vurulmasına səbəb oldu; hər hansı dövlət tərəfindən başqa dövlətin ərazisinin bir hissəsinin işğal olunması da qeyri-maddi zərər vurulmasını ifadə edir və s.

Beynəlxalq publik hüquq subyektinin beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunması üçün təkcə faktiki əsasın mövcudluğu kifayət etmir. Bundan ötrü həm də hüquqi əsasın mövcud ol-

ması tələb edilir. Əgər hüquqi əsas yoxdursa, onda beynəlxalq publik hüquq subyektinin məsuliyyətə cəlb edilməsi mümkün olmur, istisna edilir.

Beynəlxalq publik hüquq məsuliyyətinin hüquqi əsası dedikdə hüquqi cəhətdən məcburi olan beynəlxalq-hüquqi aktların elə məcmusu başa düşülür ki, bu aktlara əsasən, öz beynəlxalq-hüquqi öhdəliklərini pozan beynəlxalq publik hüquq subyekti üçün beynəlxalq-hüquqi məsuliyyət yaranır. Beynəlxalq-hüquqi öhdəliklər beynəlxalq publik hüquq subyektlərinin üzərinə məhz beynəlxalq-hüquqi aktlar vasitəsi ilə qoyulur. Əgər subyektlər beynəlxalq-hüquqi aktların onların üzərinə qoyduğu beynəlxalq-hüquqi öhdəlikləri pozarlarsa, bunun nəticəsində, aydın məsələdir ki, digər subyektə zərər vurulur; zərər vurulması faktı isə, öz növbəsində, beynəlxalq-hüquqi məsuliyyətin yaranmasına səbəb olur. Deməli, beynəlxalq publik hüquq məsuliyyətinin yaranması üçün həm beynəlxalq publik hüquq subyektlərinin üzərinə beynəlxalq-hüquqi öhdəliklər qoyan beynəlxalq-hüquqi aktlar mövcud olmalıdır (hüquqi əsas), həm də həmin subyektlərin öz üzərinə düşən beynəlxalq-hüquqi öhdəlikləri pozmaları nəticəsində başqalarına zərər vurulmalıdır (faktiki əsas).

Beynəlxalq-hüquqi aktların nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, onlar **üç cür** olur:

– beynəlxalq normativ-hüquqi aktlar;

– beynəlxalq hüquqtətbiqetmə aktları;

– birtərəfli aktlar.

Beynəlxalq normativ-hüquqi aktlar dedikdə beynəlxalq publik hüququn mənbəyi olan hüquqi aktlar başa düşülür. Söhbət beynəlxalq müqavilələrdən, beynəlxalq (dövlətlərarası) təşkilatların normativ-məcburi qərarlarından, beynəlxalq məhkəmə orqanlarının aktlarından, beynəlxalq konfrans və yığıncaqların bəzi normativ xarakterli qərarlarından gedir. Adıçəkilən aktlarda beynəlxalq publik hüquq subyektlərinin üzərinə beynəlxalq məcburi davranış qaydalarına əməl etmək vəzifəsi –

beynəlxalq-hüquqi öhdəlik qoyulur. Əgər subyektlər onların üzərinə qoyulmuş beynəlxalq-hüquqi öhdəlikləri pozarlarsa, belə halda onların beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunmaları üçün hüquqi əsas yaranır, mövcud olur.

Beynəlxalq-hüquqi öhdəlik subyektlərin üzərinə həm də beynəlxalq-hüquqi adətlərlə qoyula bilər. Belə ki, beynəlxalq-hüquqi adətlər beynəlxalq publik hüququn mənbə növlərindən biri sayılır və onlar subyektlər üçün məcburi davranış qaydaları müəyyənləşdirir. Əgər subyektlər belə qaydalara əməl etmək öhdəliyini pozarlarsa, bu, beynəlxalq-hüquqi məsuliyyətin yaranması üçün hüquqi əsas sayılır.

Beynəlxalq (dövlətlərarası) təşkilatların aktları o vaxt beynəlxalq-hüquqi məsuliyyətin hüquqi əsası sayıla bilər ki, onlar məcburi xarakter daşısın. Əgər beynəlxalq (dövlətlərarası) təşkilatların qərar, qətnamə, bəyannamə və s. formada qəbul etdiyi normativ xarakterli sənədlər məcburi olarsa, belə sənədlər beynəlxalq-hüquqi məsuliyyətin hüquqi əsası kimi çıxış edir.

Beynəlxalq hüquqtətbiqetmə aktları dedikdə normativ xarakterə malik olmayan aktlar başa düşülür; belə akt yeni beynəlxalq publik hüquq normaları yaratmır. Məsələn, BMT Təhlükəsizlik Şurasının sülhün qorunub saxlanılması və təhlükəsizlik məsələlərinə dair qəbul etdiyi qətnamələr belə aktlara misal ola bilər. BMT Təhlükəsizlik Şurasının məcburiyyət tədbirləri (sanksiyalar) barədə qəbul etdiyi qətnamələr də hüquqtətbiqetmə aktları sayılır. Bu kimi qətnamələr dövlətlərin üzərinə beynəlxalq-hüquqi öhdəlik qoyur. Bundan başqa, beynəlxalq məhkəmə, arbitraj və tribunallar dövlətlər üçün məcburi davranış qaydaları müəyyənləşdirə bilər ki, onlar da hüquqtətbiqetmə aktları sayılır. Əgər dövlətlər həmin qaydalara əməl etmək öhdəliyini pozarsa, həmin aktlar onlar üçün yaranan beynəlxalq-hüquqi məsuliyyətin hüquqi əsası sayılır.

Birtərəfli aktlar dedikdə elə aktlar başa düşülür ki, bununla dövlət öz üzərinə birtərəfli qaydada beynəlxalq-hüquqi öhdəlik götürür. Başqa sözlə, dövlətin birtərəfli aktı onun üçün hüquqi cəhətdən məcburi davranış qaydası müəyyənləşdirir. Əgər döv-

lət həmin qaydaya əməl etmək öhdəliyini (beynəlxalq-hüquqi öhdəliyi) pozarsa, o, beynəlxalq publik hüquq məsuliyyətinə cəlb edilir; məsuliyyətin hüquqi əsası isə dövlətin birtərəfli aktı sayılır. Məsələn, dövlət dəniz iqtisadi zonasında xarici gəmilərə balıq tutmağa icazə verilməsi barədə birtərəfli akt qəbul edir; digər bir misalda, dövlət öz ərazisindən tranzit daşımaları həyata keçirən xarici yük avtomobillərinin sərbəst keçib getməsi barədə birtərəfli akt qəbul edir və s.

Dövlət birtərəfli aktla öz üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəliyi pozmamalıdır; əgər pozarsa, bu onun beynəlxalq-hüquqi məsuliyyətə cəlb edilməsinə səbəb olur. Məsuliyyətin hüquqi əsası rolunda isə dövlətin birtərəfli aktı çıxış edir. Ona görə ki, 1974-cü ildə BMT Beynəlxalq Məhkəməsinin göstərdiyi kimi, birtərəfli akt dövlətin üzərinə beynəlxalq-hüquqi öhdəlik qoyur. Dövlət həmin öhdəliyi pozarsa, belə halda, məlum məsələdir ki, onun beynəlxalq publik hüquq məsuliyyətinə cəlb olunması üçün hüquqi əsas yaranır.

Dövlətin birtərəfli aktının hansı formada qəbul edilməsinə gəldikdə isə, qeyd etməliyik ki, bu formalar müxtəlifdir. Belə ki, dövlət bəyanat, nota, deklarasiya və digər formalarda birtərəfli akt qəbul edə bilər. Ən əsası bundan ibarətdir ki, birtərəfli akt həmin dövlət üçün hüquqi cəhətdən məcburi olan beynəlxalq davranış qaydaları müəyyənləşdirsin.[1]

Beynəlxalq publik hüquq məsuliyyətinin hüquqi əsası, yəni beynəlxalq-hüquqi öhdəliklərin pozulması barədə danışdığımız zaman ortaya belə bir qanunauyğun sual çıxır: beynəlxalq-hüquqi öhdəliklərin pozulması nəyin əsasında müəyyən edilir?

Qeyd etməliyik ki, beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq publik hüquq normaları ilə bilavasitə bağlıdır.Belə ki, beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq publik hüquq normalarında nəzərdə tutulmalıdır. Başqa sözə, subyektlərin beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunmaları müvafiq beynəlxalq publik

[1] Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.113.

hüquq normaları ilə müəyyən edilməlidir. Əgər beynəlxalq publik hüquq subyektlərinin məsuliyyəti beynəlxalq publik hüquq normaları ilə müəyyən edilməzsə, belə halda söhbət beynəlxalq-hüquqi məsuliyyətdən deyil, ancaq beynəlxalq məsuliyyətdən gedə bilər. Ona görə ki, beynəlxalq məsuliyyət deyil, yalnız beynəlxalq-hüquqi məsuliyyət pozuntu törədən subyekt üçün mənfi hüquqi nəticəyə səbəb olur. Təsadüfi deyil ki, beynəlxalq-hüquqi məsuliyyət **beynəlxalq publik hüquq normaları əsasında realizə olunur**.[1] Nəzərdən qaçırmaq olmaz ki, bu, beynəlxalq-hüquqi məsuliyyəti xarakterizə edən əlamətlərdən biri hesab edilir. Əsl reallıq bundan ibarətdir ki, beynəlxalq-hüquqi öhdəliklər subyektin üzərinə beynəlxalq-hüquqi aktlarda təsbit edilən və ifadə olunan beynəlxalq publik hüquq normaları vasitəsilə qoyulur (bu, hüquqi əsas sayılır).[2] Beynəlxalq-hüquqi öhdəliklərin pozulması ilə zərər vurulması isə beynəlxalq publik hüquq məsuliyyətinin faktiki əsası sayılır. Buna görə beynəlxalq-hüquqi öhdəliklərin pozulması beynəlxalq publik hüquq normaları əsasında müəyyən edilir.[3] Belə ki, beynəlxalq publik hüquq normalarının pozulması elə bu normalarla subyektlərin üzərinə qoyulmuş beynəlxalq-hüquqi öhdəliklərin pozulmasının özü deməkdir.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq normaları ilə subyektlərin üzərinə qoyulan öhdəlik **beynəlxalq-hüquqi öhdəlik** adlanır. Beynəlxalq publik hüquq normaları ilə subyektlərin üzərinə qoyulmayan öhdəlik isə, sadəcə olaraq, beynəlxalq öhdəlik adlanır. Beynəlxalq öhdəliyin (məsələn, beynəlxalq siyasi öhdəliyin, beynəlxalq mənəvi öhdəliyin və s.) pozulması isə beynəlxalq-hüquqi məsuliyyətin hüquqi əsası sayılmır. Beynəlxalq öhdəlik ancaq beynəlxalq məsuliyyətin (məsələn,

[1] Тимченко Л.Д.Международное право. Учебник. Харьков, 2004, с.263.
[2] Bəzi müəlliflərin fikrincə, subyektlərin üzərinə beynəlxalq-hüquqi öhdəlik beynəlxalq publik hüquq normaları vasitəsi ilə qoyulmaya da bilər *(bax:* Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.84).
[3] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. М., 2011, с.740.

beynəlxalq siyasi və ya mənəvi məsuliyyətin) əsası ola bilər. Yalnız beynəlxalq-hüquqi öhdəliklərin pozulması beynəlxalq publik hüquq məsuliyyətinin hüquqi əsası hesab olunur və həmin öhdəliklər subyektlərin üzərinə beynəlxalq-hüquqi normaların vasitəsi ilə qoyulur.

9.4.2. Beynəlxalq-hüquqi məsuliyyətin şərtləri

9.4.2.1. Beynəlxalq-hüquqi məsuliyyətin şərtləri anlayışı

Beynəlxalq-hüquqi məsuliyyətin yaranması üçün təkcə əsasın (həm faktiki, həm də hüquqi əsasın) mövcud olması kifayət etmir. Belə ki, yalnız əsas özlüyündə subyektləri beynəlxalq publik hüquq məsuliyyətinə cəlb etmək üçün yetərli deyildir. Bunun üçün, yəni beynəlxalq-hüquqi məsuliyyətin yaranmasından ötrü həm də müəyyən zəruri tələblər mövcud olmalı və onlara əməl edilməlidir. Beynəlxalq-hüquqi aktlarda, yəni beynəlxalq publik hüquq normalarında müəyyən edilən həmin tələblər «beynəlxalq publik hüquq məsuliyyətinin şərtləri» adlanır.

Beynəlxalq publik hüquq məsuliyyətinin şərtləri dedikdə beynəlxalq-hüquqi aktlarda (beynəlxalq-hüquqi normalarda) nəzərdə tutulan elə zəruri tələblər başa düşülür ki, həmin tələblər mövcud olduqda beynəlxalq-hüquqi məsuliyyət yaranır; bu səbəbdən həmin tələblərə beynəlxalq publik hüquq məsuliyyətinin yaranma şərtləri deyilir. Belə ki, qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq məsuliyyətinin yaranması üçün təkcə zərər vurulması faktı özlüyündə kifayət etmir. Məsələ burasındadır ki, zərər vurulması faktı, sadəcə olaraq, beynəlxalq pozuntu sayılır. Beynəlxalq pozuntu isə hüquqi anlayış hesab edilmir. Yalnız beynəlxalq publik hüquq pozuntusu mövcud olduqda beynəlxalq-hüquqi məsuliyyət yaranır, çünki «beynəlxalq pozuntu»dan fərqli olaraq, «beynəlxalq publik hüquq pozuntusu» hüquqi anlayış sayılır. Beynəlxalq publik hüquq pozuntusunun mövcud olması isə bununla müəyyən edilir ki, bey-

nəlxalq publik hüquq məsuliyyətinin əsası olan zərər vurmaq faktına (beynəlxalq pozuntuya) beynəlxalq məsuliyyətin şərtləri baxımından hüquqi qiymət verilir. Əgər zərərvurma faktı (beynəlxalq pozuntu) həmin şərtlərə uyğun gələrsə və onlara cavab verərsə, o, beynəlxalq publik hüquq pozuntusu kimi tövsif olunur; əksinə, zərər vurulması faktında (beynəlxalq pozuntuda) beynəlxalq məsuliyyətin şərtlərindən, heç olmazsa, biri mövcud olmadıqda, onda zərərvurma faktı (beynəlxalq pozuntu) beynəlxalq publik hüquq pozuntusu kimi tövsif olunmur. Beynəlxalq publik hüquq pozuntusu törətməyən subyekt isə, təbii ki, beynəlxalq-hüquqi məsuliyyətə cəlb oluna bilməz.

Beləliklə, beynəlxalq publik hüquq məsuliyyətinin şərtləri beynəlxalq-hüquqi məsuliyyətin əsasına, yəni zərər vurmaq faktına (beynəlxalq pozuntuya) hüquqi qiymət vermək və onu beynəlxalq publik hüquq pozuntusu kimi tövsif etmək üçündür. Həm beynəlxalq-hüquqi məsuliyyətin yaranması, həm də onun praktikada realizə olunması üçün aşağıdakılar tələb edilir:[1]

– beynəlxalq publik hüquq məsuliyyətinin əsası;

– beynəlxalq publik hüquq məsuliyyətinin şərtləri.

Beynəlxalq publik hüquq məsuliyyətinin yaranma şərtlərinin hansı elementlərdən ibarət olmasına gəldikdə isə, qeyd etməliyik ki, bu suala hüquq nəzəriyyəsinə əsasən və ona uyğun olaraq, cavab verilməlidir. Belə ki, beynəlxalq-hüquqi məsuliyyətin (ümumiyyətlə, hüquqi məsuliyyətin istənilən növünün) **yaranma şərtlərinə** bunlar daxildir:[2]

– beynəlxalq-hüquqazidd əməl;

– təqsir;

---

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.259.

[2] Bəzi müəlliflər zərər vurulması faktını beynəlxalq publik hüquq məsuliyyətinin yaranma şərtlərindən biri hesab edirlər (məsələn, bax: Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов.М., 2010, с.301). Lakin, nəzərə almaq lazımdır ki, zərər vurulması faktı beynəlxalq-hüquqi məsuliyyətin əsası sayılır.

– səbəbiyyət əlaqəsi.

Əgər zərər (beynəlxalq pozuntu) beynəlxalq publik hüquq subyektinin təqsirli beynəlxalq-hüquqazidd əməli ilə vurularsa və vurulmuş zərərlə (nəticə) həmin əməl arasında səbəbiyyət əlaqəsi olarsa, onda vurulmuş zərər beynəlxalq publik hüquq pozuntusu kimi tövsif olunur. Beynəlxalq publik hüquq pozuntusuna görə isə, beynəlxalq publik hüquq subyekti beynəlxalq-hüquqi məsuliyyətə cəlb edilməlidir.

9.4.2.2. Beynəlxalq publik hüquq məsuliyyətinin ayrı-ayrı yaranma şərtləri

Beynəlxalq-hüquqazidd əməl beynəlxalq publik hüquq məsuliyyətinin şərtlərindən biridir. Belə ki, beynəlxalq publik hüquq məsuliyyətinin yaranması üçün subyektin (dövlətin və digər subyektin) özünün beynəlxalq-hüquqazidd əməl törətməsi tələb edilir; məhz belə əməl nəticəsində başqa subyektə zərər vurulur.

Beynəlxalq-hüquqazidd əməl dedikdə beynəlxalq publik hüquq subyektinin beynəlxalq (dövlətlərarası) münasibətləri pozan və onlara qəsd edən davranışı başa düşülür. Məsələn, dövlət başqa dövlətin ərazi bütövlüyünə qəsd edir, müxtəlif təcavüzkarlıq aktı həyata keçirir, xarici dövlətin suverenliyini məhdudlaşdırır və s.

Qeyd etməliyik ki, beynəlxalq-hüquqazidd əməllər beynəlxalq publik hüquq subyektlərinin öz üzərinə götürdüyü beynəlxalq-hüquqi öhdəliklərə zidd olan əməllərdir. Onlar məhz beynəlxalq-hüquqazidd əməllər törətməklə öz beynəlxalq-hüquqi öhdəliklərini pozurlar.

Beynəlxalq-hüquqazidd əməllərin aşağıda göstərilən iki forması vardır:

– beynəlxalq-hüquqi hərəkət;
– beynəlxalq-hüquqi hərəkətsizlik.

Beynəlxalq-hüquqi hərəkət dedikdə beynəlxalq publik hüquq subyektlərinin aktiv davranışı başa düşülür; həm də subyektin aktiv davranışı hüquqazidd olmalıdır. Yalnız belə olarsa, subyektin etdiyi beynəlxalq-hüquqi hərəkət beynəlxalq-hüquqazidd əməlin forması sayılır. Qeyd etməliyik ki, beynəlxalq-hüquqazidd əməllər, əsasən və başlıca olaraq, hərəkət formasında törədilir. Başqa sözlə, subyektlər beynəlxalq-hüquqazidd əməllərin əksəriyyətini hərəkət formasında törədirlər. Məsələn, dövlət digər dövlətin ərazisini işğal edir; başqa bir misalda, dövlət xarici dövlətin ərazisinin bir hissəsini ələ keçirir, yaxud dövlət bu və ya digər formada təcavüzkarlıq aktı həyata keçirir və s.

Beynəlxalq-hüquqi hərəkətsizlik dedikdə beynəlxalq publik hüquq subyektlərinin passiv davranışı başa düşülür. Belə ki, beynəlxalq publik hüquq subyektləri öz üzərinə düşən vəzifələri yerinə yetirməli olduğu halda, passiv davranış nümayiş etdirərək həmin vəzifələri yerinə yetirmirlər və bununla beynəlxalq-hüquqi hərəkətsizliyə yol verirlər. Məsələn, hər bir dövlətin üzərinə öz ərazisində yerləşən xarici dövlətin səfirliyinin yerləşdiyi binanı qorumaq və mühafizə etmək vəzifəsi düşür; o, bu vəzifəni passiv davranış nümayiş etdirərək yerinə yetirmir və nəticədə silahlanmış dəstə xarici səfirliyin binasına basqın edərək onun toxunulmazlığını pozur. Bu kimi halda dövlət hərəkətsizlik formasında beynəlxalq-hüquqazidd əməl törədir.

Təqsir beynəlxalq publik hüquq məsuliyyətinin yaranma şərtlərindən digəridir. Belə ki, beynəlxalq-hüquqazidd əməl əgər subyektin təqsiri üzündən törədilməyibsə, onun üçün beynəlxalq publik hüquq məsuliyyəti də yaranmır.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq məsuliyyətinin şərtlərindən biri olan təqsir məsələsinə müəlliflərin münasibəti birmənalı deyil. Belə ki, təqsir beynəlxalq publik hüquq elmində mübahisə doğuran məsələlərdən biri sayılır.

Fikrimizcə, təqsir beynəlxalq publik hüquq məsuliyyətinin məcburi (labüd) şərtidir. Bununla yanaşı, müəyyən hallarda

dövlətlər təqsirdən asılı olmayaraq, beynəlxalq publik hüquq məsuliyyəti daşıyırlar. Belə məsuliyyət təqsirsiz məsuliyyət və ya obyektiv (mütləq) məsuliyyət adlanır. Məsələn, elə yüksək təhlükə mənbələri (kosmik obyektlər, uçan aparatlar və s.) vardır ki, onlardan istifadə edilməsini beynəlxalq publik hüquq qadağan etmir. Lakin belə mənbələr zərər vurarsa, dövlət təqsirdən asılı olmayaraq, beynəlxalq-hüquqi məsuliyyət daşıyır. Təqsirsiz məsuliyyət (mütləq məsuliyyət) kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq hüquq məsuliyyəti haqqında (1972-ci il), uçan aparatların yerə düşməsi nəticəsində zərərə görə beynəlxalq məsuliyyət barədə Roma (1952-ci il) və digər müvafiq konvensiyalarda nəzərdə tutulmuşdur. Misala müraciət edək: 24 yanvar 1978-ci il tarixdə Sovet kosmik obyektinin («Kosmos-954») Böyük Nevolniçi gölü rayonunda (Kanada) yerə düşməsi nəticəsində onun yer səthini çirkləndirməsinə görə SSRİ dövləti təqsirdən asılı olmayaraq, 1972-ci Konvensiyasına uyğun şəkildə vurulmuş zərərin əvəzini ödəmişdir; 3 iyun 1973-cü il tarixdə «TU-144» təyyarəsinin Le Burje rayonuna (Fransa), MİQ-23M-in 4 iyul 1989-cu ildə Belçikaya düşməsi nəticəsində vurulmuş zərərin əvəzi təqsirdən asılı olmayaraq, Roma Konvensiyasına (1952-ci il) uyğun formada ödənilmişdir.[1]

Beynəlxalq publik hüquqda təqsir dedikdə beynəlxalq-hüquqazidd əməl törədən beynəlxalq publik hüquq subyektinin öz törətdiyi əmələ və onun nəticəsinə olan münasibəti başa düşülür. Bu zaman psixoloji münasibətdən söhbət gedə bilməz. Ona görə ki, beynəlxalq publik hüquq subyektləri (dövlətlər və digər subyektlər) psixi deyil, sosial-siyasi varlıq sayılır; yalnız psixi varlığın öz törətdiyi əmələ və onun nəticəsinə psixoloji münasibəti ola bilər. Buna görə, beynəlxalq publik hüquqda təqsir **sosial-siyasi anlayış** kimi başa düşülməlidir.[2] Dövlətdaxili (milli) hüququn müstəqil sahələrindən biri olan cinayət hü-

[1] URL:http:// www.ru.m.wikipedia.org (23.05.2018-ci il).

[2] Международное право. Учебное пособие / Ю.В.Трунцевский и др.М., 2010, с. 308.

qunda və digər hüquq sahələrində isə təqsir psixoloji (psixi) anlayış sayılır.

Beynəlxalq publik hüquqda təqsir aşağıda göstərilən **iki formada** mövcud olur:

– qəsd;

– ehtiyatsızlıq.

Lakin, milli (dövlətdaxili) cinayət hüququndan fərqli olaraq, beynəlxalq publik hüquqda qəsd birbaşa və dolayı qəsd formalarına bölünmür; beynəlxalq publik hüquq həmçinin ehtiyatsızlığı da özünəgüvənmə və etinasızlıq kimi iki növə ayırmır.

Beynəlxalq publik hüquq öz subyektlərinin, xüsusən də, dövlətlərin **təqsir prezumpsiyası prinsipindən** çıxış edir. Bu prinsipə görə, əksi sübut olunana kimi, dövlət beynəlxalq-hüquqazidd əməl törətməkdə təqsirli bilinir. Başqa sözlə, əksi sübut olunmayıbsa, dövlət beynəlxalq-hüquqazidd əməl törətməkdə təqsirli sayılır. Amma dövlətin təqsiri sübut olunmalıdır; bu vəzifə (sübutetmə yükü) isə zərərçəkən tərəfin üzərinə düşür. Məhz zərərçəkən tərəf dövlətin təqsirini sübut etməlidir. Əlbəttə, dövlət də özünün təqsirsiz olmasını sübut etmək hüququna malikdir.

Sual olunur: dövlətin təqsiri nədə ifadə olunur? Bu suala cavab verərək göstəririk ki, dövlət öz fəaliyyətini (funksiyasını) müvafiq orqanlar vasitəsi ilə həyata keçirir. Əgər dövlət orqanları dövlətin fəaliyyətini (funksiyasını) həyata keçirən zaman təqsirli əməllər törədərsə (hərəkət və ya hərəkətsizliyə yol verərsə), həmin əməllərə görə dövlət beynəlxalq publik hüquq məsuliyyəti daşıyır. Ona görə ki, dövlətin istənilən orqanının təqsirli əməli həmin dövlətin özünün təqsirli əməli hesab edilir. Deməli, beynəlxalq-hüquqazidd əməl törədildikdə dövlətin təqsiri onun öz orqanlarının təqsirində ifadə olunur. Odur ki, dövlətin beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunması məsələsini qaldırmamışdan əvvəl dövlət orqanlarının təqsirli əməllərinin elə dövlətin özünün təqsirli əməli hesab edilməsini müəyyənləşdirmək lazımdır. Dövlət orqanları isə həm qanunverici-

lik, həm icra, həm də məhkəmə hakimiyyətinə aid ola bilər. Başqa sözlə, dövlət öz istənilən orqanının təqsirli əməlinə görə həmin orqanın hansı hakimiyyət qoluna (qanunvericilik, icra və məhkəmə hakimiyyəti sahəsinə) mənsub olmasından və onun yerinə yetirdiyi funksiyadan asılı olmayaraq, beynəlxalq-hüquqi məsuliyyət daşıyır. Dövlətin yerinə yetirdiyi funksiyanın daxili və ya beynəlxalq xarakterə malik olması da əhəmiyyət kəsb etmir. Bunlardan əlavə, dövlət orqanı dövlət aparatında həm yuxarı, həm də aşağı yer tuta bilər.

Beynəlxalq publik hüquq məsuliyyətinin şərtlərindən biri olan **səbəbiyyət əlaqəsinə** gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq-hüquqi məsuliyyətin yaranması üçün beynəlxalq publik hüquq subyektinin beynəlxalq-hüquqazidd əməli və vurulmuş zərər arasında səbəbli əlaqənin olması vacibdir. Səbəbiyyət əlaqəsi bunda ifadə olunur ki, zərər vurulmasının səbəbi beynəlxalq-hüquqazidd əməldir. Başqa sözlə, subyektin törətdiyi beynəlxalq-hüquqazidd əməl digər subyektə vurulan zərərin səbəbidir; hansı subyektə zərər vurulmuşdursa, ona zərərçəkən tərəf deyilir.

Göstərdiyimiz hər üç şərt, yəni beynəlxalq-hüquqazidd əməl, təqsir və səbəbiyyət əlaqəsi mövcud olduqda zərərvurma faktına həmin şərtlər nöqteyi-nəzərindən, hüquqi qiymət verilir. Zərərvurma faktı sözügedən şərtlərə uyğun olarsa, o, beynəlxalq publik hüquq pozuntusu kimi tövsif edilir. Beynəlxalq publik hüquq pozuntusu isə beynəlxalq-hüquqi məsuliyyətə səbəb olur.

9.5. Beynəlxalq publik hüquq pozuntusu

9.5.1. Beynəlxalq publik hüquq pozuntusunun anlayışı və elementləri

Beynəlxalq publik hüquq pozuntusu belə bir əlamətlə xarakterizə olunur ki, o, beynəlxalq publik hüquqla qorunan ictimai münasibətlərə zərər vurmaq xüsusiyyətinə malikdir. Bu sə-

bəbdən beynəlxalq publik hüquq pozuntusu **ictimai cəhətdən təhlükəlidir.**

Beynəlxalq publik hüquq pozuntusu **cəzalandırılmalı olan əməldir.** Belə ki, beynəlxalq publik hüquq pozuntusuna görə cəza müəyyən edilir. Bu onunla izah edilir ki, beynəlxalq-hüquqi məsuliyyət institutu həm də repressiv funksiya yerinə yetirir.[1] Məlum olduğu kimi, beynəlxalq publik hüquq pozuntusu törədən subyekt arzuolunmaz mənfi hüquqi nəticələrə məruz qalır; hər şeydən əvvəl, o, vurduğu zərərin əvəzini ödəyir və ya başqa yollarla beynəlxalq publik hüquq pozuntusunun nəticələrini aradan qaldırır.[2] Bu isə, özlüyündə beynəlxalq publik hüquq pozuntusu törədən subyektin cəzalandırılması deməkdir.

Beynəlxalq publik hüquq pozuntusu dedikdə beynəlxalq publik hüquq subyektinin törətdiyi elə hüquqazidd və beynəlxalq-hüquqi məsuliyyətə səbəb olan əməl başa düşülür ki, belə əməl beynəlxalq publik hüquq normalarını və subyektin öz beynəlxalq-hüquqi öhdəliklərini pozur, başqa subyektlərə maddi və ya qeyri-maddi xarakterli zərər vurur.

Beynəlxalq publik hüquq pozuntusu müəyyən tərkibə malikdir. Bu səbəbdən hüquq ədəbiyyatında «beynəlxalq publik hüquq pozuntusunun tərkibi» anlayışı işlədilir ki, həmin anlayış özündə aşağıda göstərilən **dörd elementi** birləşdirir: obyekt, obyektiv tərəf, subyekt, subyektiv tərəf.

Beynəlxalq publik hüquq pozuntusu hansı ictimai münasibətlərə qəsd edirsə, bu münasibətlər **beynəlxalq publik hüquq pozuntusunun obyekti** sayılır. Başqa sözlə, beynəlxalq publik hüquq pozuntusunun qəsd etdiyi beynəlxalq (dövlətlərarası) münasibətlərə beynəlxalq publik hüquq pozuntusunun obyekti deyilir. Aşağıda göstərilən **üç növ belə obyekt** fərqləndirilir: ümumi obyekt, xüsusi obyekt, bilavasitə obyekt.

---

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.82.

[2] Тункин Г.И. Теория международного права. М., 2000, с.339.

Beynəlxalq publik hüquq pozuntusunun ümumi obyekti dedikdə beynəlxalq (dövlətlərarası) münasibətlər sistemi başa düşülür. Qeyd etməliyik ki, dünyada formalaşmış beynəlxalq (dövlətlərarası) münasibətlər sistemi mövcuddur. Əgər beynəlxalq (dövlətlərarası) münasibətlərin mövcud sisteminə qəsd olunarsa, həmin sistem beynəlxalq publik hüquq pozuntusunun ümumi obyekti qismində çıxış edir.

Beynəlxalq (dövlətlərarası) münasibətlər, məlum olduğu kimi, məzmun baxımından, müxtəlif növlərə bölünür. Məsələn, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq hava münasibətləri, beynəlxalq dəniz münasibətləri və s. Əgər beynəlxalq (dövlətlərarası) münasibətlərin ayrı-ayrı növlərinə qəsd olunarsa, bunlar beynəlxalq publik hüquq pozuntusunun xüsusi obyekti sayılır. Deməli, **beynəlxalq publik hüquq pozuntusunun xüsusi obyekti** dedikdə beynəlxalq (dövlətlərarası) münasibətlərin qəsd olunan bu və ya digər növü başa düşülür. Qeyd etməliyik ki, beynəlxalq publik hüquq pozuntusunun bir deyil, bir neçə xüsusi obyekti mövcuddur; bu onunla izah edilir ki, beynəlxalq (dövlətlərarası) münasibətlərin bir neçə növü fərqləndirilir. Buna görə də, beynəlxalq publik hüquq pozuntusunun xüsusi obyektlərinin sayı beynəlxalq (dövlətlərarası) münasibət növlərinin sayı ilə müəyyən olunur. Bu cəhəti ilə beynəlxalq publik hüquq pozuntusunun xüsusi obyekti onun ümumi obyektindən fərqlənir. Nəzərdən qaçırmaq olmaz ki, beynəlxalq publik hüquq pozuntusunun bir neçə deyil, yalnız bircə (təkcə) ümumi obyekti vardır.

Beynəlxalq publik hüquq pozuntusunun bilavasitə obyekti dedikdə beynəlxalq publik hüququn hər hansı subyektinin törətdiyi beynəlxalq-hüquqazidd əməlin qəsd etdiyi konkret beynəlxalq (dövlətlərarası) münasibət başa düşülür; bu səbəbdən ona, bəzən, **beynəlxalq publik hüquq pozuntusunun konkret obyekti** deyilir.

Qeyd etdiyimiz kimi, beynəlxalq publik hüquq subyektinin törətdiyi beynəlxalq-hüquqazidd əməl beynəlxalq hüquq normalarına zidd olub, onun öz üzərinə götürdüyü beynəlxalq-hü-

quqi öhdəlikləri pozur; bu da, əlbəttə, beynəlxalq publik hüquq məsuliyyətinə səbəb olur. Başqa sözlə, subyekt hərəkət və ya hərəkətsizlik formasında hər hansı beynəlxalq-hüquqazidd əməl törətdikdə, o, beynəlxalq publik hüquq normalarını pozmuş olur. Bu isə, beynəlxalq-hüquqi öhdəliklərin pozulması deməkdir.[1] Subyektin hərəkət və ya hərəkətsizlik formasında törətdiyi beynəlxalq-hüquqazidd əməl **beynəlxalq publik hüquq pozuntusunun obyektiv tərəfi** hesab edilir. **Hərəkət** beynəlxalq publik hüquq pozuntusu törədən subyektin aktiv davranışıdır. Subyektin hər hansı hərəkəti etmək vəzifəsini yerinə yetirməməsi (passiv davranış) isə **hərəkətsizlik** adlanır.

Beynəlxalq publik hüquq pozuntusunun subyektləri dedikdə beynəlxalq-hüquqazidd əməl törədən dövlət və ya beynəlxalq publik hüququn digər subyekti başa düşülür. Başqa sözlə, beynəlxalq publik hüququn hansı subyekti beynəlxalq-hüquqazidd əməl törədərsə, o, beynəlxalq publik hüquq pozuntusunun subyekti sayılır. Şübhəsiz, beynəlxalq publik hüququn subyekti və cəmiyyətin siyasi təşkilatı kimi dövlətin özü heç vaxt beynəlxalq publik hüquq pozuntusu törətmir. Məsələ burasındadır ki, dövlətin fəaliyyəti (funksiyası), qeyd etdiyimiz kimi, onun orqanları və vəzifəli şəxsləri tərəfindən həyata keçirilir. Bu zaman, yəni dövlət fəaliyyəti həyata keçirilərkən dövlət orqanları və vəzifəli şəxslər beynəlxalq-hüquqazidd əməl törədə bilərlər. Belə halda, dövlət orqanları və onların vəzifəli şəxsləri beynəlxalq publik hüquq pozuntusunun subyektinə çevrilir; törədilən beynəlxalq-hüquqazidd əmələ görə onlar deyil, dövlətin özü beynəlxalq-hüquqi məsuliyyət daşıyır. Deməli, dövlət orqanları və vəzifəli şəxslər beynəlxalq publik hüquq pozuntusunun subyekti olsalar da, onlar beynəlxalq publik hüquq məsuliyyətinin subyekti hesab edilmir.

Dövlət yalnız onun adından çıxış edən və fəaliyyətini (funksiyasını) həyata keçirən dövlət orqanlarının (vəzifəli şəxslərin) törətdikləri beynəlxalq-hüquqazidd əmələ görə məsuliyyət da-

[1] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер.с нем. М., 2011, с.738.

şıyır. Dövlət orqanlarının və vəzifəli şəxslərin dövlət adından çıxış etmək, habelə dövlətin fəaliyyətini (funksiyasını) həyata keçirmək hüququna malik olmaları isə, həmin dövlətin milli qanunvericiliyi (daxili hüququ) ilə müəyyən edilir. Dövlətin milli qanunvericiliyinə əsasən, onlar (dövlət orqanları və vəzifəli şəxslər) rəsmi hakimiyyət statusuna malik olur və dövlət səlahiyyətləri ilə təmin edilirlər. Məhz belə olduqda dövlət orqanlarının və vəzifəli şəxslərinin törətdikləri beynəlxalq-hüquqazidd əməl dövlətə şamil olunur.[1] Təbii ki, dövlət də, məhz buna görə, beynəlxalq-hüquqi məsuliyyət daşımalıdır. Dövlət orqanları və onların vəzifəli şəxsləri isə həm qanunvericilik, həm məhkəmə, həm də icra hakimiyyətinə aid ola bilər.

Rəsmi (hakimiyyət) statusu olmayan, müvafiq dövlət səlahiyyətləri ilə təmin edilməyən və dövlətin fəaliyyətinin (funksiyasının) həyata keçirilməsində iştirak etməyən hər hansı orqanın və vəzifəli şəxsin əməli dövlətə aid edilə bilməz; məhz bu səbəbdən dövlət həmin əmələ görə beynəlxalq-hüquqi məsuliyyət daşımır. Dövlət həmçinin təsərrüfat subyektlərinin, siyasi təşkilatların, ictimai birliklərin və dövlət orqanı sayılmayan digər qurumların törətdikləri əməllərə görə də məsuliyyət daşımır;[2] bunun səbəbi odur ki, onlar dövlətin adından çıxış etmirlər.

Beynəlxalq publik hüquq məsuliyyəti, adətən, yalnız zərərçəkən subyektə münasibətdə yaranır.[3] Qeyd etmək vacibdir ki, bəzən, ayrı-ayrı fiziki şəxslər (fərdlər) də beynəlxalq publik hüquq pozuntusunun subyekti, yəni beynəlxalq hüquq pozuntusunun bilavasitə icraçısı ola bilər. Belə ki, əgər ayrı-ayrı fiziki şəxslərin (fərdlərin) törətdiyi əməl dövlətin fəaliyyəti (məsələn, dövlətin cinayətkar fəaliyyəti) ilə bağlı olarsa, belə halda

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.84.
[2] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.299.
[3] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. М., 2011, с.739.

həmin şəxslər beynəlxalq publik hüquq pozuntusunun subyekti kimi tanınırlar. Bunun üçün fiziki şəxsin (və ya şəxslərin), faktiki olaraq, dövlət adından hərəkət etməsi müəyyən olunmalı və sübut edilməlidir. Bu zaman fiziki şəxslərin törətdiyi beynəlxalq-hüquqazidd əməl dövlətin əməli hesab edilir. Məsələn, dövlətin tapşırığı ilə bir neçə fiziki şəxs xarici dövlətin ərazisində cinayət törətmək və ya hüquq-pozuntu fəaliyyəti ilə məşğul olmaq üçün silahlı dəstə yaradır; başqa bir misalda, dövlət tapşırıq verir ki, ayrı-ayrı fiziki şəxslər xarici dövlət ərazisində hər hansı əməli yerinə yetirsinlər və s.

Bu kimi hallarda dövlət beynəlxalq cinayət məsuliyyəti daşımır. Ona görə ki, cəmiyyətin siyasi təşkilatı olan dövlətin özü beynəlxalq cinayət əməli törədə bilməz. Buna görə də, dövlətin beynəlxalq cinayət məsuliyyətinə cəlb olunması və ona cinayət-hüquq normaları tətbiq edilməsi imkan xaricində olub, qeyri-mümkündür.[1] Beynəlxalq publik hüquq elmi məsələyə məhz bu cür yanaşaraq, dövlətin özünün cinayət məsuliyyətinin subyekti olması ideyasını qəbul etmir.[2]

Cinayəti, o cümlədən beynəlxalq cinayəti yalnız konkret fiziki şəxs törədə bilər. Buna görə də, cinayət məsuliyyətinə konkret fiziki şəxslər cəlb oluna bilər. Dövlətə gəldikdə isə, qeyd etməliyik ki, o, ayrı-ayrı fiziki şəxslərin törətdikləri beynəlxalq cinayətə görə yalnız **siyasi və maddi məsuliyyət** daşıyır, bu şərtlə ki, həmin şəxslərin törətdikləri cinayət əməli dövlətin cinayətkar fəaliyyəti ilə bağlı olsun.

Bəzən, ayrı-ayrı fiziki şəxslərin törətdiyi əməl dövlətin fəaliyyəti ilə bağlı olmur. Belə ki, onlar dövlətin tapşırığı və göstərişi olmadan öz cinayətkar istəklərinə uyğun hər hansı xarici dövlətin beynəlxalq publik hüquqla qorunan mənafelərinə qəsd edir (məsələn, fiziki şəxs xarici dövlətin əmlakını oğurlayır,

[1] Müəlliflərdən Y.A.Reşetov belə bir fikir söyləyir ki, dövlət beynəlxalq cinayətləri özü törədə bilər *(bax:* Решетов Ю.А. Понятие международной борьбы с преступностью // В учебнике: Шестаков Л.Н. Международное право. М., 2005, с.482).

[2] Международное право. Учебник/ Отв.ред. Г.М. Мелков. М., 2011, с.678.

xarici dövlət ərazisində silahlı dəstə yaradır, yaxud xarici dövlətin hakimiyyət nümayəndəsinin həyatına qəsd edir, ictimai asayişi pozma fəaliyyəti ilə məşğul olur və s.).

Belə hallarda dövlət ayrı-ayrı fiziki şəxslərin əməllərinə görə beynəlxalq-hüquqi məsuliyyət daşımır. Ona görə ki, bir az əvvəldə qeyd etdiyimiz kimi, həmin şəxslər dövlətin fəaliyyəti ilə bağlı olmayan əməl törədirlər. Lakin, dövlət bu kimi əməllərin törədilməsinin qarşısını almalı, əgər əməl törədilibsə, o, təqsirkar şəxsləri cəzalandırmalıdır. Əks halda, dövlət öz orqanlarının hərəkətsizliyinə görə beynəlxalq-hüquqi məsuliyyət daşıyır, çünki dövlət öz vətəndaşlarının (fiziki şəxslərin) beynəlxalq publik hüquq pozuntusu törətmələri əleyhinə lazımi və zəruri tədbirlər görməlidir; belə tədbirlərin görülməməsinə görə də, o, beynəlxalq məsuliyyət daşımalıdır.

Beynəlxalq publik hüquq pozuntusunun subyektiv tərəfi dedikdə təqsir başa düşülür. Təqsirin isə iki forması vardır: qəsd, ehtiyatsızlıq. Beynəlxalq publik hüquq pozuntusunun subyektiv tərəfi həm qəsd, həm də ehtiyatsızlıq formasında ifadə oluna bilər.

9.5.2. Beynəlxalq publik hüquq pozuntusunun növləri

Beynəlxalq publik hüquq pozuntuları beynəlxalq münasibətlərə eyni dərəcədə qəsd etmir. Bu səbəbdən onların ictimai təhlükəlilik dərəcəsi müxtəlif olur. Aydın məsələdir ki, bəzi beynəlxalq publik hüquq pozuntuları beynəlxalq münasibətlərə daha çox ictimai zərər vurur; elə beynəlxalq publik hüquq pozuntuları da törədilir ki, onlar beynəlxalq münasibətlərə az ictimai zərər yetirir. Beynəlxalq publik hüquq pozuntuları bir-birindən həm də öz miqyasına görə fərqlənir; onların doğurduğu nəticələr də eyni deyildir. Bu baxımdan, müasir beynəlxalq

publik hüquqda beynəlxalq-hüquqi pozuntuların **üç növü (qrupu)** fərqləndirilir:[1]

- beynəlxalq cinayətlər;
- beynəlxalq xarakterli cinayətlər;
- beynəlxalq deliktlər.

Beynəlxalq publik hüquq pozuntusunun göstərilən növləri bir-birindən, hər şeydən əvvəl, **hüquqazidd əməlin ağırlıq dərəcəsi** ilə fərqlənir. İlk növbədə, məhz hüquqazidd əməlin ağırlıq dərəcəsi onları bir-birindən ayırmağa və fərqləndirməyə imkan verən əsas meyar hesab edilir. Məsələn, beynəlxalq cinayətlərin ağırlıq dərəcəsi daha yüksəkdir.

Beynəlxalq cinayətlər dedikdə dövlətin mövcudolma əsaslarına və onların həyati mənafelərinə qəsd edən, beynəlxalq publik hüququn vacib prinsiplərini pozan, beynəlxalq sülh və təhlükəsizlik üçün xətərli olan, xüsusilə, təhlükəli beynəlxalq publik hüquq pozuntuları başa düşülür. Beynəlxalq publik hüquq onların qəti və dəqiq olmayan siyahısını verir: təcavuz etmək, genosid, irqi ayrı-seçkilik, aparteid, kölələlik, güc tətbiq etməklə müstəmləkə hökmranlığı müəyyənləşdirmək və ya onu saxlamaq, atmosferi və ya dənizi kütləvi şəkildə çirkləndirmək, ekosid, biosid və s.

Beynəlxalq xarakterli cinayətlər dedikdə beynəlxalq cinayətlərə aid edilməyən ictimai təhlükəli elə beynəlxalq publik hüquq pozuntuları başa düşülür ki, həmin pozuntular dövlətlər arasındakı mövcud normal münasibətlərə qəsd edir, müxtəlif sahələrdə (iqtisadi, sosial, mədəni və s.) həyata keçirilən beynəlxalq dinc əməkdaşlığa, habelə fiziki və hüquqi şəxslərə zərər vurur; belə cinayətlər dövlətlərarası münasibətləri pozur, beynəlxalq publik hüquq qaydalarına qəsd edir, bir neçə və ya bütün dövlətlərin maraqlarına toxunur.[2] Həmçinin qeyd etmə-

[1] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.100.

[2] *Daha ətraflı:* Карпец И.И. Преступления международного характера. М., 1982, с.47.

liyik ki, beynəlxalq xarakterli cinayətlər barədə, xüsusi olaraq, ayrıca beynəlxalq sazişlər qəbul edilmişdir və yaxud həmin cinayətlərin beynəlxalq-hüquqi tənzimlənməsi daha ümumi xarakterli başqa müvafiq beynəlxalq konvensiyalar vasitəsi ilə həyata keçirilir. Bu səbəbdən beynəlxalq xarakterli cinayətlərə, eyni zamanda, **konvension cinayətlər** deyilir.[1] Həm də ona görə ki, beynəlxalq xarakterli cinayətləri törədən şəxslər, adətən, beynəlxalq konvensiyalarda (sazişlərdə) nəzərdə tutulan və müəyyən edilən hüquq normalarına əsasən cəzalandırılır, ya da həmin konvensiyalara (sazişlərə) müvafiq olaraq, belə şəxslərə milli cinayət qanunvericiliyində nəzərdə tutulan normalar əsasında cəza təyin olunur.

Beynəlxalq xarakterli cinayətlərə aşağıdakılar aiddir: beynəlxalq müdafiədən istifadə edən şəxslərə qəsd etmək, hava gəmisini qanunsuz olaraq zəbt etmək, dəniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə yönələn qeyri-qanuni aktlar həyata keçirmək, dəniz quldurluğu, adamları girov götürmək, qanunsuz olaraq nüvə materiallarını ələ keçirmək və onlardan istifadə etmək, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul hazırlamaq (pul nişanlarını saxtalaşdırmaq), mədəni sərvətlərlə qanunsuz əməliyyatlar aparmaq, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması («çirkli» pulların yuyulması), üçüncü şəxslər tərəfindən fahişəliyə cəlb olunma, pornoqrafik materialları qanunsuz yayma, beynəlxalq terrorizm və s.

Beynəlxalq deliktlər dedikdə beynəlxalq cinayətlərə, habelə beynəlxalq xarakterli (konvension) cinayətlərə aid edilməyən elə beynəlxalq publik hüquq pozuntuları başa düşülür ki, həmin pozuntular, adətən, iki və ya daha çox dövlətin maraqlarına toxunur; onlar bütövlükdə beynəlxalq birliyin mənafeyinə toxunmaq və ona ziyan vurmaq xüsusiyyətinə malik deyil. Beynəlxalq deliktlər elə hüquqazidd əməllərdir ki, onlar ayrı-ayrı dövlətlərə və ya beynəlxalq publik hüququn məhdud dairədə digər

[1] Современные проблемы и стратегия борьбы с преступностью / Науч. ред. В.Н.Бурлаков, Б.В.Волженкин. СПб., 2005, с.183.

subyektlərinə zərər yetirir. Onlar həmçinin olduqca az əhəmiyyətli hüquq pozuntusu olub, dövlətlərin mövcudolma əsaslarına qəsd etmir. Məsələn, xarici ölkədəki diplomatik nümayəndəliyin yerləşdiyi binanın şüşələrinin bir neçə şəxs tərəfindən sındırılması, xarici dövlətin bayrağının yandırılması və s.

Beynəlxalq deliktlər törədildikdə beynəlxalq publik hüquq pozuntusu törədən dövlətlə bilavasitə zərərçəkən dövlət arasında məsuliyyət münasibəti yaranır. Bu münasibətə görə, hüquq pozuntusu törədən (məsuliyyət daşıyan) dövlət vurulmuş zərərin əvəzini ödəməlidir.

Beynəlxalq deliktlər, bir qayda olaraq, beynəlxalq-müqavilə və adət-hüquq normalarını pozur. Məsələn, dövlət beynəlxalq müqavilədə nəzərdə tutulan hər hansı əmlak öhdəliyini yerinə yetirmir və s.; digər misalda, dövlət ərazi dənizləri, iqtisadi zona və kontinental şelf haqqında üzərinə düşən müvafiq öhdəlikləri yerinə yetirməyərək onlar barədə mövcud olan rejimi pozur. Qeyd etməliyik ki, beynəlxalq deliktlər cinayət sayılmayan hüquq pozuntularıdır. Buna görə də, onlar cinayət kimi ictimai təhlükəli əməl sayılmır.

Beynəlxalq deliktlərə yol verilən hallarda hüquq pozuntusu törədən dövlət öz təqsirsizliyini sübut etmək hüququna malikdir; əgər bunu sübut edə bilsə, o, beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunmur. Məsələn, dövlət fors-major, qarşısıalınmaz qüvvə və ya bədbəxt hadisə kimi hallara əsaslanmaqla öz təqsirsizliyini sübut edə bilər.

Beynəlxalq deliktlərin beynəlxalq publik hüquq pozuntularının digər iki növü (beynəlxalq cinayətlər və beynəlxalq xarakterli cinayətlər) ilə müqayisədə ictimai təhlükəliliyi azdır. Bu səbəbdən onları, bəzən, «sadə beynəlxalq publik hüquq pozuntuları» adlandırırlar.[1] Buna görə də, beynəlxalq deliktlər daha ağır beynəlxalq-hüquqi sanksiyaların tətbiq edilməsinə səbəb olmur.

Beynəlxalq publik hüquq pozuntularının növlərə bölünməsinin (təsnifinin) vacib hüquqi əhəmiyyəti və mənası vardır. Bu,

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.269.

hər şeydən əvvəl, birinci, **beynəlxalq publik hüquq məsuliyyəti subyektlərinin dairəsini müəyyənləşdirməyə** imkan verir. İkinci, beynəlxalq publik hüquq pozuntularının ayrı-ayrı növlərə bölünməsi **beynəlxalq-hüquqi məsuliyyətin formalarını müəyyən etmək** baxımından əhəmiyyətlidir. Belə ki, bunun əsasında beynəlxalq-hüquqi məsuliyyətin formalarını müəyyənləşdirmək mümkün olur. Üçüncü, beynəlxalq publik hüquq pozuntularının növlərə bölünməsi **beynəlxalq-hüquqi məsuliyyət institutunun daha effektiv realizə olunmasını** təmin edir. Nəhayət, dördüncü, beynəlxalq publik hüquq pozuntularının növlərə bölünməsi **beynəlxalq münasibətlərin daha effektiv inkişafını** təmin edir. Odur ki, beynəlxalq publik hüquq pozuntularının dəqiq və düzgün təsnifləşdirilməsi, növlərə ayrılması labüddür. Lakin, bəzi müəlliflər tərəfindən beynəlxalq publik hüquq pozuntularının beynəlxalq cinayətlər və beynəlxalq deliktlər kimi iki növü fərqləndirilir.[1]

9.6. Beynəlxalq publik hüquq məsuliyyətinin növü və formaları

9.6.1. Beynəlxalq publik hüquq məsuliyyətinin növləri

Qeyd etdik ki, beynəlxalq publik hüquq məsuliyyətinin yaranmasının faktiki əsası beynəlxalq publik hüququn hər hansı subyekti (xüsusən də, dövlət) tərəfindən digər subyektə zərər vurulması faktı hesab edilir. Beynəlxalq publik hüquq subyekti digər subyektə vurduğu zərərin əvəzini ödəməlidir; bu, onun üzərinə düşən vəzifədir. Beynəlxalq-hüquqi məsuliyyətin mahiyyəti də məhz bundan ibarətdir ki, beynəlxalq publik hüquq subyekti öz üzərinə düşən həmin vəzifəni yerinə yetirməlidir, yəni vurduğu zərərin əvəzini ödəməlidir. Bununla beynəlxalq

[1] *Məsələn, bax:* Международное право. Учебник/ Под ред. К.К.Гасанова. М., 2008, с.117; Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.86; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.210.

publik hüquq məsuliyyəti institutu öz məqsədinə nail olur. Unutmaq olmaz ki, zərərçəkən dövlətə vurulmuş zərərin əvəzinin tam və ədalətli ödənilməsini təmin etmək həmin institutun məqsədi sayılır.

Beynəlxalq publik hüquq subyektinin digər subyektə vurduğu zərər isə müxtəlif xarakterə malik olur. Belə ki, beynəlxalq publik hüquq subyektinin digərinə vurduğu zərər həm maddi, həm də qeyri-maddi xarakterdə ola bilər. Bu baxımdan, müasir beynəlxalq publik hüquqda və dövlətlərarası praktikada beynəlxalq publik hüquq məsuliyyətinin **iki növü** fərqləndirilir ki, beynəlxalq-hüquqi məsuliyyət həmin növlər vasitəsi ilə realizə olunur:[1]

– maddi məsuliyyət;

– qeyri-maddi məsuliyyət.

Maddi məsuliyyət dedikdə beynəlxalq-hüquqi öhdəliyi yerinə yetirməyən və beynəlxalq publik hüquq normalarını pozan dövlətin, eləcə də beynəlxalq publik hüququn digər subyektlərinin öz beynəlxalq-hüquqazidd əməli ilə başqa dövlətə (və digər subyektlərə) vurduğu əmlak zərərinin əvəzinin ödənilməsini nəzərdə tutan məsuliyyət növü başa düşülür. Məsuliyyətin bu növü o halda yaranır ki, dövlət və ya beynəlxalq publik hüququn digər subyekti başqasına əmlak (maddi) zərər vursun. Məhz əmlak (maddi) zərərin vurulması maddi məsuliyyətin yaranmasına səbəb olur. Əmlak (maddi) zərər isə pulla qiymətləndirilməsi mümkün olan ziyan deməkdir. Maddi (əmlak) zərər, adətən, dövlətin əmlakına və ya əmlak mənafeyinə, habelə onun şəxslərinə vurulur.[2] Məsələn, hər hansı dövlət təcavüzkarlıq aktı həyata keçirərək digər dövlətin ərazisinin bir hissəsini işğal edir və oradan müxtəlif əmlak növlərini daşıyıb aparır. Bununla zərərçəkən dövlətə maddi (əmlak) ziyan vuru-

[1] Международное право. Учебник /Отв. ред .Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010, с.308.

[2] Шумилов В.М.Международное право. Учебник. М., 2008, с.206.

lur. Bu isə, öz növbəsində, maddi məsuliyyətin yaranmasına səbəb olur.

Maddi məsuliyyət beynəlxalq-hüquqazidd əməl törədən subyekt üçün maddi (əmlak) xarakterli hüquqi nəticələr yaradır. Bu, məsuliyyətin göstərilən növünü xarakterizə edən əsas cəhətlərdən biridir. Məhz bu cəhət maddi məsuliyyəti qeyri-maddi məsuliyyətdən fəqləndirməyə imkan verir.

Qeyri-maddi məsuliyyət dedikdə məsuliyyətin elə bir növü başa düşülür ki, bu növ məsuliyyət öz beynəlxalq-hüquqi öhdəliyini yerinə yetirməyən, beynəlxalq-hüquqazidd əməl törədən və beynəlxalq publik hüquq normalarını pozan dövlət və beynəlxalq publik hüququn digər subyektləri üçün qeyri-maddi xarakterli hüquqi nəticələrin yaranmasına səbəb olur. Məsuliyyətin bu növü o halda yaranır ki, dövlətə və digər subyektlərə qeyri-maddi zərər vurulsun. Qeyri-maddi zərər (qeyri-əmlak zərəri) isə pulla qiymətləndirilməsi mümkün olmayan ziyandır. Zərərin bu növü, bir qayda olaraq, dövlətin qeyri-maddi (qeyri-əmlak) mənafeyinə vurulur. Məsələn, Böyük Britaniyaya məxsus hərbi-dəniz donanması Albaniyanın ərazi sularını (Korfu boğazı) onun razılığı olmadan minalamışdı. BMT-nin Beynəlxalq Məhkəməsi bunu Albaniya dövlətinin suverenliyini pozan əməl kimi qiymətləndirmişdir.[1] Belə ki, həmin halda Albaniya dövlətinə maddi deyil, qeyri-maddi zərər vurulmuş və buna görə Böyük Britaniya dövləti qeyri-maddi məsuliyyət daşımışdır.

Dövlət suverenliyinin pozulması halından başqa, dövlətin nüfuzuna qəsd olunması da qeyri-maddi zərər vurulmasını ifadə edir. Qeyri-maddi zərər vurulması digər əməllərdə də öz əksini tapa bilər.

Qeyri-maddi zərər vurulmasına görə dövlət və digər subyektlər siyasi, mənəvi və ya siyasi-mənəvi məsuliyyət daşıyır. Bu səbəbdən beynəlxalq publik hüquq elmində qeyri-maddi

[1] URL:http://www.pravo.vuzlib. net (23.05.2018-ci il).

məsuliyyətə həm də siyasi, mənəvi və ya siyasi-mənəvi məsuliyyət deyilir.[1]

Qeyd etməliyik ki, beynəlxalq-hüquqi məsuliyyətin növlərə ayrılmasının dəqiq meyarı mövcud deyildir. Beynəlxalq-hüquqi məsuliyyətin hansı növdə olması məsələsi, nəzərə almalıyıq ki, hər şeydən əvvəl, törədilmiş beynəlxalq-hüquqazidd əməlin xarakterindən asılıdır; həm də çox vaxt beynəlxalq-hüquqi məsuliyyətin hər iki növü bir-birini tamamlayır. Belə ki, maddi zərərin əvəzinin ödənilməsi, bəzən, eyni zamanda, qeyri-maddi məsuliyyətin yaranmasına səbəb olur. Bəzi hallar olur ki, hər hansı dövlətə qeyri-maddi xarakterli zərər vurulduğu zaman həm qeyri-maddi xarakterli zərər aradan qaldırılır, həm də maddi kompensasiyanın ödənilməsi həyata keçirilir. Başqa sözlə, maddi və qeyri-maddi məsuliyyət eyni bir hüquq pozuntusunun nəticəsi kimi eyni vaxtda yarana bilər.[2] Təsadüfi deyil ki, bəzi hüquq pozuntularına görə beynəlxalq-hüquqi məsuliyyətin hər iki növü məhz eyni vaxtda tətbiq edilir. Məsələ burasındadır ki, vurulmuş maddi zərər qeyri-maddi məsuliyyətə də səbəb ola bilər. Hətta maddi məsuliyyətlə qeyri-maddi məsuliyyət arasında o qədər sıx, qarşılıqlı bağlılıq və əlaqə mövcuddur ki, praktikada onları bir-birindən dəqiq ayırmaq və fərqləndirmək problemə çevrilir. Buna baxmayaraq, beynəlxalq-hüquqi məsuliyyət növlərini bir-birindən ayırmaq, onların arasında hədd qoymaq lazımdır. Ona görə ki, beynəlxalq-hüquqi məsuliyyətin növləri, ilk növbədə, məsuliyyətin həcmini müəyyənləşdirməyə imkan verir. Digər tərəfdən, beynəlxalq-hüquqi məsuliyyət növləri məsuliyyətin formalarının dəqiq müəyyənləşdirilməsi üçün əsasdır.

[1] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.270; Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 1999, с.289.

[2] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.515.

9.6.2. Beynəlxalq publik hüquq məsuliyyətinin formaları

Beynəlxalq publik hüquq məsuliyyətinin hər bir növünə müvafiq tipik forma uyğun gəlir. Başqa sözlə, beynəlxalq publik hüquq məsuliyyətinin növlərindən hər biri öz formaları vasitəsi ilə realizə olunur; onlar beynəlxalq-hüquqi məsuliyyətin formaları adlanır.

Beynəlxalq-hüquqi məsuliyyətin formaları dedikdə elə bir üsul başa düşülür ki, həmin üsul vasitəsi ilə beynəlxalq publik hüquq pozuntusu törədən dövlət və beynəlxalq publik hüququn digər subyektləri üçün arzuolunmaz konkret nəticələr yaranır; həm maddi, həm də qeyri-maddi məsuliyyət çərçivəsində ayrı-ayrı müxtəlif formalardan istifadə olunur.

Beləliklə, beynəlxalq publik hüquq məsuliyyətinin növlərinə müvafiq olaraq, onun aşağıda göstərilən formaları fərqləndirilir:

– qeyri-maddi məsuliyyət formaları;

– maddi məsuliyyət formaları.

9.6.2.1. Qeyri-maddi məsuliyyət formaları

Beynəlxalq publik hüquq doktrinasında göstərilir ki, qeyri-maddi məsuliyyət növü bir neçə üsulla realizə edilir; onlar qeyri-maddi məsuliyyətin formaları adlanır. Həmin formalar aşağıdakılardan ibarətdir:

– retorsiya, repressaliya, satisfaksiya, sanksiya.

Retorsiya dedikdə hər hansı zərərçəkən dövlətin elə bir hüquqauyğun məcburi hərəkəti başa düşülür ki, həmin hərəkət bu və ya digər xarici dövlət tərəfindən zərərçəkən dövlətin qanuni hüquq və mənafelərini pozan, həmin dövlətin vəzifəli, fiziki və hüquqi şəxslərini ayrı-seçkiliyə məruz qoyan qeyri-səmimi aktların həyata keçirilməsi əleyhinə cavab olaraq edilir. Retorsiya kimi istifadə olunan tədbirin məqsədi zərərçəkən dövlətin xarici dövlətin qeyri-səmimi aktı ilə pozulmuş hüquq və mənafelə-

rini müdafiə, eləcə də onları bərpa etməkdən ibarətdir. Bu kimi tədbir ona yönəlir ki, zərərçəkən dövlətlə qeyri-səmimi aktı həyata keçirən xarici dövlət arasında qarşılıqlı olmaq prinsipi bərpa edilsin.

Retorsiya zərərçəkən dövlətin qeyri-səmimi akta yol verən xarici dövlət əleyhinə yönələn cavab tədbiridir. Buna görə də, o, hüquqauyğun olub, özlüyündə beynəlxalq publik hüquq normalarının pozulması sayılmır. Həm də deməliyik ki, retorsiya zərərçəkən dövlətin qeyri-səmimi aktı həyata keçirən xarici dövlətə qarşı cavab olaraq etdiyi fərdi hərəkətdir. Məsələn, zərəçəkən dövlət qeyri-səmimi akta yol verən xarici dövlətdən öz səfirini geri çağırır; başqa bir misalda, zərərçəkən dövlət qeyri-səmimi akta yol verən xarici dövlətdən fiziki şəxslərin həmin dövlətə gəlməsini qadağan edir; həm də belə bir misal çəkə bilərik ki, zərərçəkən dövlət qeyri-səmimi akta yol verən xarici dövlətin rəsmi hökumət nümayəndələrinin səfərini ləğv edir.

Xarici dövlətin qeyri-səmimi aktı ilə, adətən, bu və ya digər növ mal ticarətində diskriminasiya xarakterli hərəkət edilir. Məsələn, xarici dövlət ayrı-ayrı malların idxalına məhdudiyyət qoyur və ya onlar üçün daha yüksək kömrük rüsumu müəyyənləşdirir və s. Bu kimi hallarda zərərçəkən dövlət diskriminasiya xarakterli hərəkətə yol verən xarici dövlətlə, ümumiyyətlə, ticarət münasibətlərini kəsə və dayandıra bilər. Zərərçəkən dövlətin belə hərəkəti, əlbəttə, retorsiya hesab edilir. Zərərçəkən dövlətin diskriminasiya xarakterli hərəkətə yol verən xarici dövlətin mallarına görə yüksək gömrük rüsumu müəyyənləşdirməsi, habelə idxalın məhdudlaşdırılması da retorsiya hesab edilir.

Qeyd etməliyik ki, zərərçəkən dövlətin retorsiyadan istifadə etməsinə xarici dövlətin qeyri-səmimi aktı səbəb olur. Təbii ki, xarici dövlət həyata keçirdiyi qeyri-səmimi aktı dayandırdıqda zərərçəkən dövlət də retorsiya kimi cavab tədbirinin tətbiqindən imtina edir. Başqa sözlə, əvvəlki vəziyyət bərpa olunduğu andan retorsiya kimi istifadə olunan tədbir də ləğv edilir. Qeyd etməliyik ki, hərbi güc tətbiq olunmasından retorsiya kimi isti-

fadə oluna bilməz. Belə ki, beynəlxalq publik hüquq xarici dövlətin qeyri-səmimi aktına qarşı zərərçəkən dövlətin retorsiya kimi hərbi güc tətbiq etməsinə yol vermir.

Retorsiya kimi istifadə olunan tədbir xarici dövlətin qeyri-səmimi aktına uyğun (münasib) olmalıdır. Bu səbəbdən zərərçəkən dövlətin xarici dövlətin qeyri-səmimi aktının xarakterinə açıq-aşkar uyğun gəlməyən (münasib olmayan) hərəkəti retorsiya hesab edilə bilməz.

Bəzən, zərərçəkən dövlət bu və ya digər hərəkəti xarici dövlətin qeyri-səmimi aktı əleyhinə deyil, onun hüquqazidd əməlinə qarşı cavab olaraq edir. Zərərçəkən dövlətin bu cür hərəkətinə beynəlxalq publik hüquqda repressaliya deyilir; həmin hərəkət repressiv xarakterə malikdir.

Repressaliya dedikdə hər hansı zərərçəkən dövlətin xarici dövlətin törətdiyi hüquqazidd əmələ görə cavab olaraq, etdiyi repressiv xarakterli elə bir hüquqauyğun hərəkəti başa düşülür ki, həmin hərəkət zərərçəkən dövlətin pozulmuş hüquqlarını bərpa etmək, hüquqazidd əməli aradan qaldırmaq, yaxud dayandırmaq və vurulmuş ziyana görə təminat almaq məqsədi güdür. Repressaliyaya misal kimi aşağıdakıları göstərmək olar: iqtisadi-ticarət münasibətlərini pozmaq (əlaqələri kəsmək), hüquqazidd əməl törədən xarici dövlətdən mal gətirilməsinə (idxal olunan mallara) embarqo qoymaq, hüquqazidd əməl törədən xarici dövlətdən gətirilən malları boykot etmək, iqtisadi xarakterli beynəlxalq müqavilənin şərtlərini dəfələrlə mühüm dərəcədə pozan xarici dövlətin bu kimi əməlinə cavab olaraq, zərərçəkən dövlətin həmin müqaviləni ləğv etməsi və s. Göründüyü kimi, repressaliya, adətən, iqtisadi xarakter daşıyır.[1] Bununla yanaşı, repressaliya iqtisadi xarakterə malik olmaya da bilər. Məsələn, zərərçəkən dövlət ona qarşı hüquqazidd əmələ yol verdiyinə görə hər hansı xarici dövlətlə öz diplomatik münasibətlərini pozur və kəsir; digər bir misalda, xarici dövlət

[1] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с. 689.

müharibə zamanı zərərçəkən dövlətin diplomatlarının vətənə qayıtmalarına mane olur, həmçinin zərərçəkən dövlət də xarici dövlətin diplomatlarının vətənə qayıtmalarına icazə vermir.

Repressaliya özlüyündə, necə deyərlər, adi şəraitdə öz məzmununa görə hüquqazidd hərəkət (beynəlxalq-hüquqi normaların pozulması) sayılır. Lakin, o, zərərçəkən dövlət tərəfindən xarici dövlətin törətdiyi hüquqazidd əmələ görə tətbiq olunduqda hüquqauyğun hərəkət, yəni beynəlxalq publik hüquq normalarının pozulmaması hesab edilir. Məsələn, xarici dövlətin gəmisi zərərçəkən dövlətə məxsus olan dənizdə qanunsuz balıq ovu edir və bununla o, hüquqazidd əmələ yol verir; buna cavab olaraq, zərərçəkən dövlət xarici dövlətin gəmisini tutub saxlayır. Bu cür hərəkət cavab tədbiri olduğu üçün hüquqauyğun hərəkət sayılır və beynəlxalq publik hüquq normalarının pozulması hesab edilmir. Adi şəraitdə isə xarici dövlətin gəmisini tutub saxlamaq hüquqazidd hərəkətdir.

Müasir beynəlxalq publik hüquq tələb edir ki, zərərçəkən dövlətin repressaliya kimi istifadə etdiyi hərəkət xarici dövlətin törətdiyi hüquqazidd əmələin xarakterinə uyğun gəlməlidir. Məsələn, xarici dövlət balıqçılıq (balıqtutma) qaydalarını pozur; əgər zərərçəkən dövlət xarici dövlətin balıq tutan gəmisinə həbs qoyarsa, bu, balıqtutma qaydalarını pozma əməlinin xarakterinə uyğun gələrdi.

Müasir beynəlxalq publik hüquq yalnız qeyri-hərbi (qeyri-silahlı) repressaliyanın tətbiqinə yol verir. Mübahisə və ixtilafları həll etmək vasitəsi kimi hərbi (silahlı) repressaliyanın tətbiqinə gəldikdə isə, qeyd etməliyik ki, müasir beynəlxalq publik hüquq belə repressaliyadan istifadə olunmasını qadağan edir. Başqa sözlə, müasir beynəlxalq publik hüquqa görə, hərbi gücün repressaliya kimi tətbiqinə yol verilmir (BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndi).

Repressaliyanı retorsiyadan fərqləndirmək lazımdır. Retorsiya, qeyd etdiyimiz kimi, dövlətin xarici dövlətin qeyri-səmimi aktına cavab olaraq, etdiyi hərəkətdir. Məsələn, hər hansı xarici dövlət bu və ya digər dövlətin ünvanına qeyri-səmimi

bəyanat yayır; buna cavab olaraq, dövlət xarici dövlətdə olan səfirini müvəqqəti geri çağırır. Bu, retorsiyadır. Lakin, əgər dövlət cavab hərəkətini xarici dövlətin hüquqazidd hərəkəti ilə bağlı olaraq edərsə, bu, repressaliya hesab edilir. Məsələn, dövlət əsassız olaraq xarici dövlətin bank avuarlarına[1] həbs qoymaqla hüquqazidd hərəkətə yol verir; buna cavab olaraq, xarici dövlət həmin dövlətə məxsus bank avuarlarını dondurur. Bu, repressaliyadır.

Belə təsəvvür yaranır ki, retorsiya və repressaliyanı bir-birindən fərqləndirməyin əsas meyarı dövlətin qeyri-səmimi akt həyata keçirməsi hesab edilir. **Qeyri-səmimi akt** dedikdə dövlətin elə bir davranışı başa düşülür ki, belə davranış başqa dövlətə zərər vursa da, beynəlxalq publik hüquq normalarının pozulmasına səbəb olmur. Qeyri-səmimi akt odur ki, o, beynəlxalq publik hüquq pozuntusu sayılmır. Məsələn, xarici dövlətə məxsus şəxslərin hüquqlarının başqa dövlət tərəfindən öz ərazisində məhdudlaşdırılması, idxal olunan mallara görə gömrük rüsumunun artırılması, idxalın məhdudlaşdırılması, xarici mülkiyyətin milliləşdirilməsi, ölkəyə gəlməyin qadağan olunması, diplomatların ölkədən çıxarılması və s. əməllər qeyri-səmimi akt sayılır. Qeyri-səmimi aktlar, bir qayda olaraq, dövlətin beynəlxalq publik hüquqla qorunmayan maraq və mənafelərinə toxunur.

Qeyri-maddi məsuliyyətin digər forması satisfaksiya adlanır. **Satisfaksiya** dedikdə elə beynəlxalq-hüquqi məsuliyyət forması başa düşülür ki, bu formaya görə, hüquq pozuntusu törədən dövlət zərərçəkən dövlətə vurduğu qeyri-maddi zərəri təmin edir; bu səbəbdən onu hüquq ədəbiyyatında, bəzən, «tə-

[1] *Avuarlar (pul vəsaitləri, çeklər, vekseller, köçürmələr, akkreditivlər və s.) barədə bax: məsələn,* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.33.

minetmə» adlandırırlar.[1] Satisfaksiya, nəzərə almalıyıq ki, mahiyyətcə, vurduğu qeyri-maddi ziyana görə məsuliyyət daşıyan cavabdeh dövlətin zərərçəkən dövləti təmin etməsidir. Beynəlxalq-hüquqi məsuliyyətin göstərilən forması, adətən, qeyri-maddi ziyan vurulduğu hallarda tətbiq olunur. Əvvəllərdə qeyd etdiyimiz kimi, qeyri-maddi ziyan pul və digər maddi qiyməti olmayan zərərdir və mahiyyət etibarı ilə, maddi kompensasiya olunma (əvəzödəmə) ilə bağlı deyildir. Məsələn, dövlətin diplomatik nümayəndəsini (dövlət başçısını) kobud surətdə təhqir etmək, dövlətin bayrağını yandırmaq, çırmaq, ayaq altında tapdalamaq və digər təhqiredici hərəkətlərə yol verməmək, dövlətin suverenliyini pozmaq, dövlətin siyasi maraqlarına və nüfuzuna toxunmaq və digər əməllər qeyri-maddi zərər (ziyan) vurulmasını ifadə edir. Bu kimi hallarda satisfaksiya kimi məsuliyyət forması tətbiq olunur və bunun nəticəsində zərərçəkən dövlətin qeyri-maddi xarakterli tələbi təmin olunur. Satisfikasiya müxtəlif formalarda ifadə edilə bilər. Həmin formalar bunlardan ibarətdir:

- peşmançılığını səmimi bəyan etmək;
- rəsmi üzr istəmək;
- təqsirini boynuna almaq;
- edilən hərəkətin hüquqazidd olmasını etiraf etmək;
- narahatçılığını rəsmən bildirmək;
- beynəlxalq publik hüquq pozuntusu törədən şəxsləri (vətəndaşları) cəzalandırmaq;
- törədilmiş əməli beynəlxalq publik hüquq pozuntusu kimi tanımaq;
- qeyri-maddi tələbi təmin etmək üçün xüsusi normativ akt qəbul etmək;

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.87; Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с 103.

– rəsmən üzrxahlıq etmək və s.

Məsələn, hər hansı dövlətin rəsmi nümayəndəsi xarici dövlətin başçısını kobud surətdə təhqir edir; buna görə dövlət xarici dövlətdən rəsmi surətdə üzr istəyir. Bu, satisfaksiyanın tətbiq olunması deməkdir.

Satisfaksiya tətbiq olunanda tələb edilən müəyyən şərtlərə əməl olunmalıdır.[1] Birinci, satisfaksiya beynəlxalq publik hüquq pozuntusu törədən dövlət tərəfindən zərərçəkən dövlətə vurulan **qeyri-maddi ziyana uyğun** olmalıdır. İkinci, satisfaksiya pozuntu **törədən dövləti alçatmaq formasında** olmamalıdır. Üçüncü, satisfaksiya pozuntu törədən dövlətin **nüfuzuna zərər vurmamalıdır**. Dördüncü, satisfaksiya pozuntu törədən **dövlətin suverenliyinə qəsd etməməli** və onunla bir araya sığmalıdır.

Bəzən, fövqəladə satisfaksiya tətbiq edilir. Bu, satisfaksiyanın xüsusi xarakterli növü hesab edilir. **Fövqəladə satisfaksiya** dedikdə dövlətin suverenliyinin və hüquq qabiliyyətinin müvəqqəti məhdudlaşdırılması başa düşülür.[2] Məsələn, dövlət hakimiyyət orqanlarının (qanunverici, icra və məhkəmə orqanlarının) fəaliyətinin dayandırılması və onların əvəzinə hakimiyyətin başqa xarici dövlətlərin orqanları tərəfindən həyata keçirilməsi fövqəladə satisfaksiyaya misal ola bilər. Almaniyanın məğlub olması haqqında 5 iyun 1945-ci il tarixli Bəyannaməyə uyğun olaraq, «Hitler Almaniyası»nda dövlət hakimiyyətinin qalib gəlmiş müttəfiq dövlətlər (Nəzarət Şurası) tərəfindən həyata keçirilməsi məhz fövqəladə satisfaksiyasının tətbiq edilməsi demək idi.[3]

Fövqəladə satisfaksiya aşağıda göstərilən digər formalarda da tətbiq oluna bilər:

---

[1] Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.16.

[2] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010. с.309.

[3] URL:http://www.bibliotekar.ru (23.05.2018-ci il).

– dövlətin siyasi sisteminin yenidən təşkil olunması;
– silahlı qüvvələrin hərbsizləşdirilməsi və ya ixtisar olunması;
– ayrı-ayrı siyasi və iqtisadi institutların ləğv edilməsi (məsələn, cinayətkar siyasi partiyaların ləğv olunması və s.);
– dövlət ərazisinin bir hissəsinin və ya hamısının işğal olunması (tutulması, zəbt edilməsi);
– dövlətin elmi və sənaye potensialından istifadə olunmasının yasaq edilməsi;
– beynəlxalq cinayət törədən şəxsləri cəzalandırmaq üçün ədalət mühakiməsinin həyata keçirilməsi.[1]

Satisfaksiya kimi beynəlxalq məsuliyyət forması, adətən, siyasi xarakterə malik olur. Buna görə də, hüquq ədəbiyyatı səhifələrində **siyasi satisfaksiya** anlayışı işlədilir.[2]

Qeyri-maddi məsuliyyət formalarından biri də sanksiyadır. **Sanksiya** dedikdə fərdi qaydada və ya kollektiv surətdə tətbiq olunan elə hüquqauyğun məcburi tədbir başa düşülür ki, belə tədbir pozuntu törədən dövlətin beynəlxalq-hüquqazidd əməlini dayandırmaq və ya həmin əmələ görə onu cəzalandırmaq məqsədi güdür. Qeyd etməliyik ki, sanksiya ən geniş səviyyədə tətbiq olunan qeyri-maddi məsuliyyət forması hesab edilir. Məsuliyyətin bu forması pozuntu törədən dövlətə qarşı tətbiq olunur.

Sanksiyanın özü **iki növə** bölünür:[3]

– fərdi sanksiya;
– kollektiv sanksiya.

Fərdi sanksiya odur ki, o, ayrı-ayrı zərərçəkən dövlət tərəfindən pozuntu törədən dövlətə qarşı tətbiq edilir. Hüquq ədə-

[1] *Bu formalar barədə bax:* Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008, с.122.
[2] Международное право. Учебник /Отв.ред. Г.М.Мелков. М., 2011, с.690.
[3] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.271.

biyyatında o, bəzən, **özünəyardım** da adlanır. Bu, aydın məsələdir. Belə ki, zərərçəkən dövlət fərdi sanksiya tətbiq etməklə özünə yardım etmiş olur.

Fərdi sanksiya müxtəlif formalarda həyata keçirilir. Həmin formalara aşağıdakılar aiddir:

– iqtisadi-ticarət əlaqələrini kəsmək;
– diplomatik və konsulluq münasibətlərini kəsmək;
– nəqliyyat əlaqələrini dayandırmaq;
– mədəni-idman əlaqələrini kəsmək və s.

Fərdi sanksiyanın tətbiq edilməsi, bir qayda olaraq, hərbi gücdən istifadə olunmasını nəzərdə tutmur. Bununla yanaşı, özünü müdafiə etmək üçün dövlət fərdi qaydada hərbi gücdən istifadə edə bilər.

Qeyd etməliyik ki, «özünümüdafiə» sanksiyanın xüsusi növü sayılır. BMT Nizamnaməsinin 51-ci maddəsində məhz sanksiyanın həmin növü nəzərdə tutulmuşdur. Bu maddəyə görə, hər bir dövlət təcavüzkardan həm fərdi, həm də kollektiv özünümüdafiə hüququna malikdir. Başqa sözlə, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, dövlətin fərdi özünümüdafiə hüququ yalnız hərbi hücum (silahlı basqın) olduğu hallarda həyata keçirilə bilər. Məsələn, 1982-ci ildə Böyük Britaniya fərdi özünümüdafiə hüququnu həyata keçirərək, Malvin (Folklend) adasını işğal etmiş Argentinanın silahlı qüvvələrinə qarşı hərbi gücdən istifadə etmişdir.[1]

Kollektiv sanksiya dedikdə dövlətlərarası beynəlxalq təşkilatlar çərçivəsində tətbiq olunan kollektiv məcburi tədbirlər başa düşülür. Bu növ sanksiya həm universal, həm də regional beynəlxalq (dövlətlərarası) təşkilatlar çərçivəsində tətbiq oluna bilər.

Kollektiv sanksiya bir neçə formada tətbiq olunur. Birinci, **iqtisadi münasibətlərin**, nəqliyyat, poçt və digər əlaqələrin

[1] URL:http://www.ru.m.wikipedia.org (22.05.2018-ci il).

kəsilməsi formasında; bu forma BMT Nizamnaməsinin 41-ci maddəsində nəzərdə tutulmuşdur.

İkinci, **diplomatik münasibətlərin kəsilməsi** formasında; bu forma da BMT Nizamnaməsinin 41-ci maddəsində təsbit edilmişdir.

Üçüncü, kollektiv surətdə **hərbi gücdən istifadə edilməsi** formasında; bu formada kollektiv sanksiyanın tətbiq olunmasında əsas və başlıca rolu BMT-nin Təhlükəsizlik Şurası oynayır. Əgər iqtisadi, diplomatik və digər əlaqələrin kəsilməsi kimi kollektiv sanksiya yetərli olmazsa və kifayət etməzsə, onda BMT-nin Təhlükəsizlik Şurası beynəlxalq sülhün, eləcə də təhlükəsizliyin qorunub saxlanılması və ya bərpa olunması məqsədi ilə, hərbi (silahlı) gücdən istifadə olunmasına dair sanksiya haqqında qərar qəbul edə bilər (BMT Nizamnaməsinin 42-ci maddəsi).

Hərbi gücdən istifadə olunmasını nəzərdə tutan kollektiv sanksiya o halda tətbiq oluna bilər ki, beynəlxalq publik hüquq qaydasına, xüsusilə, təhlükəli qəsd edilsin. Belə sanksiyalar yalnız BMT Təhlükəsizlik Şurasının qərarı əsasında BMT-nin Nizamnaməsi çərçivəsində həyata keçirilə bilər.

Dördüncü, dövlətin **beynəlxalq (dövlətlərarası) təşkilatın üzvü olmasından imtina edilməsi** formasında. Belə ki, müvafiq pozuntu törədən hər hansı dövlətin beynəlxalq (dövlətlərarası) təşkilatın tərkibinə daxil olunmasına icazə verilmir. Bu, ona qarşı tətbiq edilən kollektiv sanksiya deməkdir.

Beşinci, beynəlxalq (dövlətlərarası) təşkilatın üzvü olmasından irəli gələn **hüquq və imtiyazların dayandırılması** formasında. Məsələn, müvafiq pozuntu törədən dövlət beynəlxalq təşkilatda səsvermə hüququndan məhrum edilir və ya o, yardım almaq imtiyazını itirir və s.

Altıncı, dövlətin **beynəlxalq (dövlətlərarası) təşkilatın tərkibindən çıxarılması** formasında; müvafiq pozuntu törədən hər hansı dövlət tərkibinə daxil olduğu bu və ya digər beynəlxalq təşkilatın üzvlüyündən məhrum edilir. Bu, həmin dövlətə qarşı

tətbiq edilən kollektiv sanksiyadır. Məsələn, beynəlxalq təhlükəsizliyi və sülhü pozduğuna görə, 2012-ci ilin avqust ayında Suriya dövlətinin İslam Konfransı Təşkilatının tərkibindən çıxarılması[1] bu formada tətbiq olunan kollektiv sanksiyaya misal ola bilər.

Kollektiv sanksiyadan, adətən, o halda istifadə edilir ki, sülh üçün təhlükə yaransın, sülh pozulsun və ya təcavüzkarlıq aktı həyata keçirilsin. Bu zaman BMT Təhlükəsizlik Şurasının qərar qəbul etməsi tələb olunur (BMT Nizamnaməsinin 39-cu maddəsi).

9.6.2.2. Maddi məsuliyyət formaları

Beynəlxalq-hüquqi məsuliyyət növlərindən biri olan **maddi məsuliyyət** də, özünəxas formalarda həyata keçirilir, realizə olunur. Həmin növ məsuliyyətin **forması** qismində aşağıdakılar çıxış edir:

- restitusiya;
- kompensasiya;
- substitusiya.

Restitusiya dedikdə maddi məsuliyyətin elə bir forması başa düşülür ki, bu formaya görə, beynəlxalq-hüquqazidd əməl törədilənə kimi mövcud olan vəziyyət bərpa edilir; buna görə də, ona həm də, **bərpaetmə forması** deyilir. Restitusiya aşağıda göstərilən müxtəlif hərəkətlərdə ifadə oluna bilər:

- dövlətin başqa dövlətdən qanunsuz ələ keçirdiyi əmlakı geri qaytarmasında (nəqliyyat vasitələri, avadanlıq, mədəni sərvətlər və s.);
- dövlətin başqa dövlətə məxsus olan ərazi hissəsini qaytarmasında;
- dövlətin başqa dövlətin vətəndaşlarını qaytarmasında;

[1] URL:http://www.news.rambler.ru (23.05.2018-ci il).

– dövlətin qəbul etdiyi hər hansı normativ aktı ləğv etməsində və s.

Qeyd etməliyk ki, restitusiyanın predmeti qismində müharibə vaxtı qanunsuz ələ keçirilmiş və aparılmış əmlakın qaytarılması çıxış edir; əmlak həm müharibə aparan, həm də hər hansı üçüncü dövlətin sahibliyi və nəzarəti altında ola bilər. Qeyd etməliyik ki, həm dövlət, həm də fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlak restitusiya olunmalıdır; əgər həmin əmlak növlərinə münasibətdə hər hansı əqd bağlanarsa, o, etibarsız hesab ediləcəkdir.

Bunlarla bərabər, restitusiyanın predmetini həm də dinc vaxtlarda qanunsuz ələ keçirilmiş əmlakın qaytarılması təşkil edə bilər. Belə ki, dinc vaxtlarda dövlət başqa dövlətin əmlakını qanunsuz yolla, yəni beynəlxalq-hüquqazidd şəkildə ələ keçirə bilər; həmin əmlak, əlbəttə, restitusiya olunmalıdır.

Dinc vaxtlarda qanunsuz saxlanılan əmlakın qaytarılması da, həmçinin restitusiyanın predmeti ola bilər. Məsələn, dinc vaxtlarda dövlət heç bir qanuni əsas olmadan başqa dövlətə məxsus avia-gəmini saxlayır; belə əmlak, şübhəsiz, restitusiya olunmalıdır. Dinc vaxtların nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, belə vaxtlar müharibə şəraiti, döyüş vəziyyəti və hərbi əməliyyatların aparılması ilə bağlı deyildir.

Restitusiyanın aşağıda göstərilən **iki növü** fərqləndirilir:[1]

– maddi restitusiya;

– hüquqi restitusiya.

Maddi restitusiya dedikdə qanunsuz ələ keçirilən və ya saxlanan əmlakın naturada qaytarılması başa düşülür. Başqa sözlə, beynəlxalq-hüquqazidd əməl törədilənə kimi mövcud olan vəziyyət maddi cəhətdən bərpa edilərsə, bu, maddi restitusiya adlanır. Məsələn, dəniz gəmisinin, digər nəqliyyat vasitəsinin qaytarılması və s. maddi restitusiyadır.

[1] Международное право.Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.87.

Hüquqi restitusiya dedikdə beynəlxalq-hüquqazidd əməli ifadə edən normativ aktın, habelə hüquqi hərəkətlərin (məsələn, bağlanmış əqd, kontrakt və s.) ləğv edilməsi başa düşülür. Məsələn, dövlət beynəlxalq publik hüquq normalarının pozulmasına səbəb olan hər hansı qanun qəbul edir; əgər o, həmin qanunu ləğv edərsə və ya dəyişərsə, bu, hüquqi restitusiya sayılır. Başqa bir misalda, xarici şəxslərə və ya onların əmlakına münasibətdə dövlət qanunsuz olaraq, inzibati və ya hüquqi tədbirlər həyata keçirir; o, əgər həmin tədbirləri ləğv edərsə, bu, hüquqi restitusiya hesab olunur.

Restitusiya həm də natura restitusiyası və restorasiya kimi iki növə bölünür. **Natura restitusiyası** beynəlxalq-hüquqazidd əməl törədilənə kimi mövcud olan vəziyyətin maddi formada bərpa olunmasını nəzərdə tutur. Başqa sözlə, restitusiyanın bu növünə görə, qanunsuz olaraq götürülmüş, ələ keçirilmiş və aparılmış əmlak natura şəklində geri qaytarılır. Beynəlxalq publik hüquq praktikasına natura restitusiyasının (maddi bərpaetmənin) həm də belə bir halı məlumdur ki, xarici dövlət tərəfindən qanunsuz tutulub saxlanılmış şəxslər azad olunurlar.

Restorasiya dedikdə qeyri-maddi tələblərin bərpa olunması başa düşülür. Məsələn, qanunsuz işğalın dayandırılması və ona son qoyulması barədə qeyri-maddi tələb bərpa olunur; başqa bir misalda, qanunverici, icra, inzibati və məhkəmə aktları ləğv edilir və s.

Bəzən, əmlakı restitusiya etmək mümkün olmur. Məsələn, restitusiya obyekti olan əmlak fiziki cəhətdən məhv edildikdə, yandıqda və digər hallarda onu naturada qaytarmaq, məlum məsələdir ki, qeyri-mümkündür. Bu kimi məqamlarda beynəlxalq-hüquqazidd pozuntu törədən dövlət zərərçəkən dövlətə vurduğu zərərin əvəzini ödəyir, yəni məhv olmuş əmlakın dəyərini kompensasiya edir. Kompensasiya etmə isə maddi məsuliyyətin formalarından biri hesab edilir. Maddi məsuliyyətin bu forması iki halda tətbiq olunur:

– birinci, zərərin əvəzinin restitusiya vasitəsi ilə ödənilməsi mümkün olmadığı halda;

– ikinci, restitusiya, ümumiyyətlə, mümkün olmadığı halda.

Maddi məsuliyyətin «kompensasiya etmə» formasından, adətən, əvvəlki vəziyyətin, yəni beynəlxalq-hüquqazidd əməl törədilənə kimi mövcud olan vəziyyətin bərpa edilməsi mümkün olmadıqda istifadə edilir.

Kompensasiya etmə dedikdə dövlətin başqa bir dövlətə vurduğu maddi (əmlak) zərərin əvəzini ödəməsi başa düşülür. Vurulmuş maddi zərərin əvəzi pulla, qiymətli şeylərlə (metallarla), sənaye malları, xidmət, avadanlıq və digər əmlak növləri ilə ödənilə bilər. Qeyd etməliyik ki, beynəlxalq publik hüquq **maddi (əmlak) zərərin tam kompensasiya olunması, yəni zərərin əvəzinin tam ödənilməsi prinsipindən** çıxış edir. Belə ki, maddi (əmlak) zərər iki cür olur, yəni iki hissədən ibarətdir:[1]

– birbaşa maddi zərər;

– dolayı maddi zərər.

Birbaşa maddi zərər dağıntı törədilməsində, əmlakın zədələnməsində, məhv edilməsində, korlanmasında və xarab edilməsində, maddi bərpaolunma işlərinə xərc çəkilməsində və s. ifadə edilir. Məsələn, müharibə vaxtı dövlət başqa dövlətin əmlakını məhv edir, zədələyir və s.; başqa bir misalda, dövlət korlanmış və xarab edilmiş hər hansı maddi obyektin əvvəlki vəziyyətinin bərpa olunması üçün xərc çəkir.

Dolayı maddi zərər dedikdə əldən çıxmış fayda başa düşülür (elə bir fayda ki, əgər birbaşa maddi zərər vurulmasaydı, o, əldə oluna bilərdi).

Beynəlxalq publik hüquq pozuntusu törədən dövlət həm birbaşa, həm də dolayı maddi zərərin əvəzini ödəməlidir. Bir az öncə barəsində danışdığımız tam kompensasiya etmə prinsipinin mahiyyəti də, məhz bundan ibarətdir. Həmin prinsipə gö-

[1] Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.369.

rə, kompensasiya bütün zərəri (zərərin hər iki hissəsini) örtməli və əhatə etməlidir.[1]

Kompensasiya, adətən, **pul formasında** ödənilir. Belə ki, beynəlxalq-hüquqi pozuntu törədən dövlət zərərçəkən dövlətə müəyyən məbləğdə pul ödəyir. Kompensasiya həm də **natura formasında** ödənilə bilər; belə kompensasiya vurulmuş zərərin əvəzinin mallarla (sənaye malları) və xidmətlərlə ödənilməsidir. Bunlardan əlavə, kompensasiya etmə **pul qiyməti olan digər maddi formalarda** da həyata keçirilə bilər. Məsələn, təcavüzkar dövlət müharibə vaxtı başqa dövlətə məxsus maddi obyektlərin bərpa olunması üçün xərc çəkir və s. Beləliklə, kompensasiya həm pulla, həm mallarla, həm xidmətlərlə, həm də digər formalarda ödənilə bilər.[2]

Kompensasiya maddi məsuliyyətin müstəqil formasıdır. Belə halda o, maddi məsuliyyətin digər hər hansı formasına əlavə edilmir. Bu kimi məqamlarda kompensasiya zərərin əvəzinin ödənilməsinin müstəqil forması kimi çıxış edir. Bununla yanaşı, müəyyən hallarda kompensasiya restitusiyaya əlavə olunur.

Hüquq ədəbiyyatında kompensasiya anlayışına mənaca bərabər tutulan «reparasiya» kimi termin də işlədilir.[3] **Reparasiya** dedikdə maddi zərərin əvəzinin ödənilməsi başa düşülür; reparasiyanın həcmi və növü müharibə qurtardıqdan sonra bağlanmış sülh müqavilələrinə əsasən müəyyən olunur. Qeyd etməliyik ki, dövlət müharibə etməsi nəticəsində vurulmuş zərərin əvəzini örtmək üçün reparasiya ödəyir. Məsələn, II Dünya Müharibəsindən sonra Almaniya, İtaliya və Yaponiya onlara qarşı müharibədə iştirak edən müttəfiq dövlətlərə reparasiya ödəmiş-

---

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.231.

[2] Международное право. Учебник / Под ред А.И.Микульшина. М., 2005, с.87.

[3] Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004, с.271; Reparasiya (lat. reparatio – bərpa olunma; *ing. reparation) anlayışı barədə ətraflı bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.753.

dir; Krım Konfransının (1945-ci il) qərarına əsasən, Almaniya tərəfindən SSRİ-yə 20 milyard dollar həcmində reparasiya ödənilmişdir.[1]

Tarixən reparasiyaya qədər «kontribusiya» termini işlədilmişdir. **Kontribusiya** dedikdə müharibə qurtardıqdan sonra məğlub olmuş dövlətin qalib gəlmiş dövlətə müəyyən məbləğdə pul ödəməsi başa düşülür.

Bəzən, beynəlxalq-hüquqazidd əməl törədən dövlətin öz maddi resurslarına sərəncam vermək səlahiyyətləri məhdudlaşdırılır. Belə məhdudlaşdırma **fövqəladə reparasiya** adlanır. Fövqəladə reparasiyaya görə, həm maddi zərərin əvəzi ödənilir, həm də yeni beynəlxalq cinayətlərin törədilməsinə səbəb olan amillər aradan qaldırılır.

Maddi məsuliyyətin digər forması substitusiya sayılır. **Substitusiya** dedikdə qanunsuz yolla ələ keçirilmiş, zədələnmiş və ya məhv edilmiş istənilən növ əmlakın qiymətcə bərabər olan başqa əmlakla əvəz olunması başa düşülür. Bununla əvvəlki mövcud vəziyyət restitusiya olunur, yəni bərpa edilir. Bu səbəbdən substitusiya restitusiyanın növü hesab edilir.[2]

9.6.3. Dövlətlərin beynəlxalq-hüquqi məsuliyyətini istisna edən hallar

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq öz subyektlərinin, xüsusən də, dövlətlərin beynəlxalq publik hüquq pozuntusuna görə **beynəlxalq-hüquqi məsuliyyət daşımaları prinsipindən** çıxış edir. İmperativ xarakterə malik olan bu prinsip hamılıqla qəbul edilmişdir. Həmin prinsip bütövlükdə beynəlxalq publik hüququn vacib və zəruri prinsipi olub, onun hüquqi təbiətindən irəli gəlir.[3] Digər tərəfdən, beynəlxalq-hüquqi mə-

[1] URL:http://www.ru.m.wikipedia.org (22.05.2018-ci il).
[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.102.
[3] Лукашук И.И. Право международной ответственности. М., 2004, с.65.

suliyyət daşımaq prinsipi beynəlxalq publik hüququn mühüm institutlarından biri sayılan beynəlxalq məsuliyyət hüququnun əsası sayılır.

Beynəlxalq-hüquqi məsuliyyət daşımaq prinsipinə görə, dövlətlərin hər bir hüquqazidd əməli onların beynəlxalq publik hüquq məsuliyyəti daşımasına səbəb olur. Lakin, real həyatda mövcud olan bəzi hallarda həmin prinsipin tətbiqi istisna edilir, mümkün olmur. Məsələ burasındadır ki, gerçəklikdə mövcud olan müəyyən hallar dövlətlərin öz öhdəliklərini yerinə yetirməsinə və ya vaxtında lazımınca yerinə yetirməsinə mane olur; məhz bu kimi hallar dövlətlərin beynəlxalq publik hüquq məsuliyyəti daşımasını istisna edir. Bu səbəbdən onlara dövlətlərin məsuliyyətini istisna edən hallar deyilir.[1] Bu kimi hallarda dövlətlər beynəlxalq publik hüquq məsuliyyəti daşımaqdan azad olunur.

Dövlətlərin beynəlxalq-hüquqi məsuliyyətini istisna edən hallar dedikdə elə məqamlar başa düşülür ki, belə məqamlarda dövlətlərin adi şəraitdə hüquq pozuntusu kimi tanınan davranışı (əməli) hüquqauyğun sayılır və beynəlxalq publik hüquq məsuliyyətinə səbəb olmur. Bu kimi hallara aiddir: razılıq, sanksiya, zəruri müdafiə (özünümüdafiə), son zərurət, fors-major, fəlakət və s.

Razılıq kimi məsuliyyəti istisna edən halın mahiyyəti bundan ibarətdir ki, hər hansı dövlətin razılığı ilə xarici dövlət tərəfindən edilən hərəkət, əvvəllər həmin dövlətlərin qəbul etdikləri öhdəliklərə və ya müvafiq beynəlxalq publik hüquq normalarına zidd olsa da, hüquqazidd sayılmır və bu səbəbdən xarici dövlətin beynəlxalq publik hüquq məsuliyyəti daşımasına səbəb olmur. Məsələn, hər hansı dövlət öz ərazisində olan terrorçularla mübarizə aparmaq üçün razılıq verir ki, xarici dövlətin qoşunları onun ərazisinə daxil olsun; xarici dövlətin bu əməli beynəlxalq-hüquqazidd əməl sayılmır və məsuliyyətə sə-

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.267.

bəb olmur. Lakin dövlətin verdiyi razılıq bir neçə şərtə cavab verməlidir:

- razılıq hüquqauyğun olmalıdır;
- razılıq aydın şəkildə ifadə edilməlidir;
- razılıq xarici dövlətin etdiyi hərəkətdən əvvəl verilməlidir;
- razılıq beynəlxalq publik hüququn imperativ normalarına zidd olmamalıdır.

Sanksiya dedikdə zərərçəkən dövlətin məcburi xarakterli cavab tədbiri başa düşülür; ona **əks-tədbir** də deyilir. Dövlət sanksiyanı o halda tətbiq edir ki, hər hansı xarici dövlət ona qarşı beynəlxalq-hüquqazidd hərəkətə yol versin. Bu, yəni sanksiya tətbiq edilməsi beynəlxalq publik hüquq nöqteyi-nəzərindən hüquqauyğun sayılır, çünki cavab tədbiridir. Buna görə də, hüquq pozuntusu törədən xarici dövlətə qarşı sanksiyanı tətbiq edən dövlət beynəlxalq publik hüquq məsuliyyətinə cəlb olunmur.

Özünümüdafiə (zəruri müdafiə) dedikdə dövlətin elə bir hüququ başa düşülür ki, bu hüquqdan istifadə edərək o, xarici dövlətin silahlı (hərbi) hücumuna cavab olaraq güc tətbiq edir. Bu, yəni belə halda dövlətin hərbi güc tətbiq etməsi hüquqazidd əməl hesab edilmir və onun beynəlxalq publik hüquq məsuliyyəti daşımasına səbəb olmur.

Dövlətin özünümüdafiə hüququ BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuşdur. Bu maddədə özünümüdafiə hüququnun hüquqauyğun olmasını şərtləndirən əlamətlər göstərilmişdir:

- dövlətə xarici dövlət tərəfindən hərbi hücum (silahlı basqın) olmalıdır;
- dövlət tərəfindən təcavüzkar dövlətə qarşı hərbi güc tətbiq edilməsi barədə BMT-nin Təhlükəsizlik Şurasına məlumat verilməlidir;

– dövlət özünümüdafiə hüququnu BMT-nin Təhlükəsizlik Şurası tərəfindən müvafiq tədbir görülənə kimi həyata keçirməlidir.

Son zərurət elə bir vəziyyətdir ki, bu vəziyyətdə dövlətin öz mühüm mənafelərini bilavasitə qəflətən qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün etdiyi hərəkət, əgər həmin vəziyyətdə bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyilsə, beynəlxalq publik hüquq pozuntusu sayılmır və məsuliyyətə səbəb olmur. Bundan ötrü iki şərtə əməl olunmalıdır:

– birinci, dövlətin etdiyi hərəkət təhlükəni aradan qaldırmağın yeganə vasitəsi olmalıdır;

– dövlətin hərəkəti başqa dövlətə ciddi zərər vurmamalıdır.

Fors-major dedikdə qarşısıalınmaz və qabaqcadan görünməsi mümkün olmayan elə hallar başa düşülür ki, belə hallarda dövlətin törətdiyi əməl beynəlxalq publik hüquq pozuntusu sayılmır və məsuliyyətə səbəb olmur. Belə hallarda dövlət vəziyyəti dəyişdirmək, baş verənlərin qarşısını almaq, öz iradəsini ifadə etmək, vurulan ziyanı aradan qaldırmaq və s. imkanlarından mütləq şəkildə məhrum olur. Həmin hallara aiddir: zəlzələ, yer sürüşməsi, müharibə, hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, üsyan, vətəndaş müharibəsi və s. Məsələn, hər hansı dövlətin ərazisində yerləşən və xarici dövlətin mülkiyyəti sayılan obyektlər zəlzələ nəticəsində məhv olur, dağılır; belə halda dövlət beynəlxalq-hüquqi məsuliyyətdən azad edilir. Başqa bir misalda, dövlət hərbi əməliyyat aparılması nəticəsində neftlə çirkləndirilməklə başqa dövlətə ziyan vurur; bu kimi halda da dövlət məsuliyyətdən azad edilir.

Fəlakət dedikdə dövlətlərin məsuliyyətini istisna edən elə bir hal başa düşülür ki, bu halda təbiət qüvvələrinin təsiri və ya baş verən qəza dövlətə öz beynəlxalq öhdəliklərini yerinə yetirməyə imkan vermir. Qeyri-adi xarakter daşıyan belə fövqəladə (ekstremal) hallarda dövlət faciəli nəticələr baş verməsindən qaçmaq üçün müvafiq beynəlxalq publik hüquq norma-

larını pozur. Lakin, bu, beynəlxalq publik hüquq pozuntusu sayılmır və beynəlxalq məsuliyyətə səbəb olmur. Məsələn, dövlətə məxsus olan gəmi dənizdə insan həyatını xilas etmək üçün dənizə tullantılar və digər materiallar atmaqla onu çirkləndirir; belə halda dövlət məsuliyyətdən azad edilir.

IX MÖVZU ÜZRƏ ƏYANİ SXEM



IX FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Beynəlxalq hüquq. Dərslik / Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002 (fəsil XXI).
2. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000 (fəsil XXIII).
3. Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006 (гл.11).
4. Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008 (лекция 5).
5. Международное право. Учебник / Вольфганг Г.В. и др. Перевод с немецкого. Москва-Берлин, 2011 (раздел 7).
6. Международное право. Учебник/ Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл. 10).
7. Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009 (гл.16).
8. Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015 (гл.10).
9. Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2010 (гл. 10).
10. Международное право. Учебник/ Отв.ред. Г.М. Мелков. М., 2011 (гл. 22).
11. Международное право. Учебник / Отв. ред. Г. С. Стародубцев. М., 2015 (гл.22).
12. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.11).
13. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл. 13).
14. Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005 (гл.5).
15. Международное право. Учебник / Под ред. К.К.Гасанова. М., 2008 (гл.6).

16. Международное право. Учебное пособие / Ю.В.Трунцевский и др. М., 2010 (тема 10).
17. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл. 7).
18. Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004 (гл.11).
19. Федощева Н.Н.Международное право. Учебное пособие. М., 2015 (гл.7).
20. Шумилов В.М. Международное право. Учебник. М., 2008 (гл.4).

X FƏSİL.
BEYNƏLXALQ PUBLİK MÜBAHİSƏLƏRİ DİNC VASİTƏLƏRLƏ HƏLLETMƏ HÜQUQU

10.1. Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ əsas institutlardan biri kimi

10.1.1. Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ anlayışı

Qeyd etməliyik ki, dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında normal dostluq münasibətləri mövcud olmalıdır. Onlar, hər şeydən əvvəl, öz aralarındakı qarşılıqlı münasibətlərin pisləşməsinə səbəb ola biləcək hər cür hərəkətdən çəkinməli, mövcud vəziyyəti böhran səviyyəsinə çatdırmamalı, xoşagəlməz yersiz ixtilaflardan uzaq olmalı, arzuolunmaz mübahisə və münaqişələrə yol verməməlidirlər. Amma, təəssüflər olsun ki, həmişə bu cür olmur. Belə ki, ayrı-ayrı dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri, bəzən, başqalarının həm hüquqları, həm də qanuni mənafeləri üçün təhlükə törədən əməllərə yol verirlər; hətta müəyyən hallarda beynəlxalq vəziyyət gərginləşdirilərək sülh və təhlükəsizlik üçün qorxulu olan həddə çatdırılır. Dövlətlər arasında beynəlxalq mübahisə, ixtilaf və münaqişələr yaranır ki, onlar beynəlxalq sülh, təhlükəsizlik və ədaləti təhlükəyə məruz qoymadan beynəlxalq publik hüququn müvafiq institutu vasitəsi ilə həll edilir. Həmin institut beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ adlanır.

Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ dedikdə dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında yaranan mübahisələrin hərbi güc və ya hər hansı formada məcburiyyət tədbiri tətbiq olunmadan tənzimlənməsi ilə əlaqədar yaranan münasibətləri nizama salan hüquq normalarının sistemi başa düşülür; həmin normalar döv-

lətlər və beynəlxalq publik hüququn digər subyektləri arasında yaranan mübahisələrin həllolunma üsullarını və onların növlərini, vasitələrini, qayda və prosedurlarını müəyyən edir.

Beynəlxalq publik hüquq, bildiyimiz kimi, **beynəlxalq mübahisələri dinc yolla həll etmək kimi vacib prinsipdən** çıxış edir; o, müasir beynəlxalq publik hüququn əsas prinsipləri sırasına daxildir və ilk dəfə BMT-nin Nizamnaməsində (1945-ci il) təsbit olunmuşdur. Məhz həmin andan o, müasir beynəlxalq publik hüququn ümumi, hamılıqla qəbul olunmuş və universal imperativ prinsipi kimi tanınmağa başlamışdır. Sonralar Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə (1970-ci il), ATƏT-in Helsinski Yekun Aktında (1975-ci il) və digər sənədlərdə sözügedən prinsip inkişaf etdirilmişdir. Beynəlxalq mübahisələrin dinc vasitələrlə həlli institutunun əsasını da məhz bu prinsip təşkil edir.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək barədə beynəlxalq publik hüququn əsas, ümumi və hamılıqla qəbul edilmiş müvafiq prinsipi tanınana qədər, tarixən dövlətlər arasında yaranan ixtilaflar (mübahisələr) güc tətbiqi yolu ilə həll olunurdu və yaxud da, ümumiyyətlə, tənzimlənməmiş qalırdı. XX əsrin ortalarına, yəni beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi BMT-nin Nizamnaməsində təsbit edilənə kimi, praktiki olaraq, beynəlxalq münasibətlərdə güc tətbiq edilməsi qanuni (hüquqauyğun) hal sayılırdı. Lakin, müharibədən imtina barədə 1928-ci il tarixli Paris Müqaviləsi (Brian-Kelloq Paktı), ilk dəfə olaraq, beynəlxalq mübahisələrin dinc vasitələrlə həll edilməsi barədə müvafiq beynəlxalq publik hüquq norması nəzərdə tuturdu.

Sonralar sözügedən Paris Müqaviləsi (1928-ci il) əsasında beynəlxalq təşkilatlar çərçivəsində bir sıra beynəlxalq sənəd qəbul edildi ki, həmin sənədlərdə beynəlxalq mübahisələrin dinc vasitələrlə həll olunması ideyası inkişaf etdirildi. Söhbət, ilk növbədə, Millətlər Liqası Assambleyasının 1928-ci il tarixində qəbul etdiyi müvafiq qətnamədən gedir; həmin qətnamə beynəlxalq mübahisələrin dinc vasitələrlə həll olunması, hü-

cum etməmək və qarşılıqlı yardım göstərmək kimi vacib məsələlərə həsr olunmuşdu. 1933-cü ildə Amerikaarası Təşkilat çərçivəsində müharibə əleyhinə beynəlxalq müqavilə imzalandı ki, o, hücum etməməyə və barışıq prosedurlarına həsr edilmişdi.

Göstərilən bu və digər sənədlər beynəlxalq mübahisələrin dinc vasitələrlə həll olunmasını müasir beynəlxalq publik hüququn əsas vacib prinsiplərindən biri kimi BMT-nin Nizamnaməsində təsbit edilməsi üçün zəmin yaratdı. BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndində deyilir ki, BMT-nin bütün üzvləri öz aralarında yaranan beynəlxalq mübahisələri beynəlxalq sülhü, təhlükəsizliyi və ədaləti təhlükəyə məruz qoymayan qaydada dinc vasitələrlə həll edirlər. Burada məhz beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi formulə edilərək təsbit olunmuşdur. Həmin prinsip isə, məlum olduğu kimi, beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun, necə deyərlər, mərkəzi, «ana» xətti sayılır. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi həmçinin beynəlxalq publik hüququn universal imperativ norması olub, beynəlxalq qanunçuluğun vacib meyarıdır.

10.1.2. Beynəlxalq publik hüquq sistemində beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququnun tutduğu yer

Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ beynəlxalq publik hüquq sistemində özünəməxsus yer tutur. Qeyd etməliyik ki, bu, beynəlxalq publik hüquq elmində mübahisəyə səbəb olan və diskussiya doğuran məsələlərdən biri sayılır. Belə ki, beynəlxalq publik hüquq sistemində beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququnun hansı yeri tutması sualına müəlliflər eyni cür cavab vermirlər. Bu məsələyə münasibətdə bir-birindən fərqli iki müxtəlif yanaşma mövcuddur. Bəzi müəlliflər belə hesab edirlər ki, beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ

müasir beynəlxalq publik hüququn sahələrindən biridir. Müəlliflərdən D.B.Levin,[1] C.Obrayen[2] və digərləri[3] məsələyə məhz bu cür yanaşırlar; məsələn, Q.M.Melkov yazır ki, beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ beynəlxalq publik hüququn müstəqil sahəsidir.

Digər müəlliflər isə beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququna beynəlxalq publik hüququn institutu kimi baxırlar; məsələn, P.N.Biryukov,[4] N.N.Fedoşyeva[5] və s. onu beynəlxalq publik hüququn institutu kimi tanıyırlar.

Lakin, yuxarıda göstərdiyimiz kimi, beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ beynəlxalq publik hüquq sisteminə institut statusu ilə daxil olur; onun beynəlxalq publik hüququn müstəqil sahəsi hesab edilməsi barədə söylənilən fikir isə, ağlabatan və inandırıcı olmayıb, həqiqətə uyğun gəlmir. Ona görə ki, sovet dövrünün alimi D.İ.Feldmanın dediyi kimi, beynəlxalq publik hüquq sahəsi beynəlxalq münasibətlərin müəyyən növünü az və ya çox, müstəqil surətdə tənzimləyən hüquq normalarının məcmusudur.[6] Belə təsəvvür yaranır ki, beynəlxalq münasibətlərin bu və digər növü beynəlxalq publik hüququn tərkibində hər hansı hüquq sahəsinin ayrılmasını şərtləndirən əsas meyar hesab edilir və məhz həmin növ beynəlxalq münasibətlər beynəlxalq publik hüquq sahəsinin nizamasalma predmetini təşkil edir. Fikrimizi həm də bu şəkildə ifadə edə bilərik ki, beynəlxalq publik hüququn tərkibində hər hansı hüquq sahəsi dövlətlərarası əməkdaşlığın bu və ya digər istiqaməti kimi əlamətə (meyara) əsasən ayrılır. Beynəlxalq mübahisələrin dinc vasitələrlə həlli ilə bağlı əlaqələr

[1] Левин Д.Б. Основные проблемы современного международного права. М., 1958, с.74.
[2] O'Brien J. International Law. London, 2001.
[3] Международное право. Учебник / Отв.ред. Г.М.Мелков. М., 2011, с.146.
[4] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.191.
[5] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2010, с.134.
[6] Фельдман Д.И. Система международного права. Казань, 1983, с.47.

nə beynəlxalq münasibətlərin növü, nə də dövlətlərarası əməkdaşlığın müstəqil sahəsi hesab edilir.

Digər tərəfdən, beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüququnun ibarət olduğu hüquq normaları beynəlxalq publik hüququn ayrı-ayrı sahələrinə (məsələn, beynəlxalq təhlükəsizlik hüququna, beynəlxalq təşkilatlar hüququna, beynəlxalq humanitar hüquqa, beynəlxalq iqtisadi hüquqa və s.) aiddir. Bu normalar vasitəsi ilə beynəlxalq publik hüququn ayrı-ayrı sahələrinin nizamasalma predmetinə daxil olan müvafiq beynəlxalq (dövlətlərarası) münasibətlərdən yaranan mübahisələr tənzimlənir. Məhz bu səbəbdən onlar ümumi xarakterə malikdir. Odur ki, beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüququnun ibarət olduğu hüquq normaları beynəlxalq publik hüququn istənilən sahəsində tətbiq oluna bilər və olunur da. Buna görə də, beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ institut statusu ilə **beynəlxalq publik hüququn ümumi hissəsinə** daxildir. Başqa sözlə, beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüququ beynəlxalq publik hüququn ümumi hissəsinin institutu sayılır; onun beynəlxalq publik hüquq sistemində tutduğu yeri məhz bu cür müəyyən etmək məntiqəuyğundur. Unutmaq olmaz ki, yalnız tələb olunan şərtlərə (əlamətlərə) cavab verdikdə beynəlxalq publik hüquq tərkibində bu və ya digər müstəqil hüquq sahəsi ayrılır. Beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüququ isə beynəlxalq publik hüququn müstəqil sahələrini şərtləndirən əlamətlərə cavab vermir.

Beləliklə, beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququnun məna yükü altında beynəlxalq publik hüququn ümumi hissəsinin institutlarından biri ehtiva olunur. Buna görə onu həm də «beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutu» adlandırsaq, yanılmarıq.

10.1.3. Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun mənbələri

Məlum olduğu kimi, beynəlxalq publik hüququn istənilən institutu müxtəlif məzmunlu hüquq normalarından ibarət olub, onlardan təşkil edilmişdir. Bu sözləri beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutu haqqında da söyləmək olar.

Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun ibarət olduğu hüquq normaları müəyyən formalarda mövcud olur, ifadə edilir. Məhz həmin formalar beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun **mənbələri** adlanır.

Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun əsas və başlıca mənbəyi **beynəlxalq müqavilə** saylıır. Söhbət, ilk növbədə, Beynəlxalq toqquşmaların dinc yolla həll edilməsi haqqında Haaqa Konvensiyasından gedir (Konvensiya 1899-cu ildə Birinci Haaqa Sülh Kofransında qəbul edilmişdir); həmin Konvensiya 1907-ci ildə İkinci Haaqa Sülh Konfransında, məzmunca, dəqiqləşdirilmiş, ona əlavələr edilmişdir.[1] Konvensiya sözügedən institutun əsas mənbələrindən biri, mübahisələrin dinc yolla həllinə həsr olunan ilk universal beynəlxalq-hüquqi akt hesab edilir.[2] Burada göstərilir ki, silaha əl atmazdan əvvəl dövlətlər mümkün dərəcədə dinc vasitələrdən istifadə etməli, güc tətbiq etməkdən çəkinməlidir (Konvensiyanın 2-ci maddəsi).

Sözügedən institutun mənbəyi olan beynəlxalq müqavilələr sırasında **Paris Müqaviləsi** vacib rol oynayır. Beynəlxalq mübahisələrin dinc həlli haqqında **«Ümumi Akt»** adlanan həmin müqavilə **(Brian-Kelloq Paktı)** 1928-ci ildə Millətlər Liqası tərəfindən qəbul edilmişdir. Burada milli siyasət vasitəsi kimi

[1] URL:http://www.dic.academic.ru (23.05.2018-ci il).
[2] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.303

müharibədən imtina olunması, istənilən beynəlxalq mübahisənin dinc vasitələrlə həll edilməsi nəzərdə tutulur, habelə ixtilafları tənzimləmək üçün güc tətbiq olunması qadağan edilir. Qeyd etməliyik ki, adıçəkilən Paris Müqaviləsi sonralar 1949-cu ildə BMT Baş Assambleyasının müvafiq qətnaməsi ilə təsdiq edilmişdir.

Barəsində danışdığımız institutun mənbəyi olan beynəlxalq müqavilələr arasında **BMT-nin Nizamnaməsi** (1945-ci il) xüsusi yer tutur. Belə ki, BMT-nin Nizamnaməsi beynəlxalq mübahisələri dinc yolla həll etmək kimi vacib və əsas prinsipdən çıxış edir (2-ci maddənin 3-cü bəndi). Digər tərəfdən, BMT-nin Nizamnaməsi beynəlxalq mübahisələri həll etmək üçün istifadə olunan dinc vasitələrin qəti və dəqiq olmayan siyahısını verir (33-cü maddə). Təsadüfi deyildir ki, BMT Nizamnaməsinin VI fəsli «Mübahisələrin dinc yolla həll olunması» adlanır.

Beynəlxalq mübahisələrin dinc vasitələrlə həllinə aid BMT Nizamnaməsinin müddəaları BMT-nin Baş Assambleyası tərəfindən inkişaf etdirilmişdir. Məsələn, 1982-ci ildə BMT-nin Baş Assambleyası **Beynəlxalq mübahisələrin dinc həlli haqqında Manila Bəyannaməsini** qəbul etmişdir.[1]

Nəzərdən keçirdiyimiz institutun mənbəyi qismində həm də **regional beynəlxalq müqavilələr** çıxış edir. Bu sırada aşağıdakı sənədləri göstərə bilərik:

- Mübahisələrin dinc həlli haqqında Amerika Dövlətlərarası Müqaviləsi (Boqotin Paktı, 1948-ci il);
- Mübahisələrin dinc həlli haqqında Avropa Konvensiyası (1957-ci il);
- ATƏT çərçivəsində qəbul olunmuş Barışdırma və arbitraja dair Konvensiya (Stokholm, 1992-ci il) və s.

Beynəlxalq regional təşkilatların nizamnamələri də beynəlxalq publik mübahisələri dinc yolla həlletmə hüquq institutunun mənbələri sırasına aiddir. Belə ki, beynəlxalq təşkilatla-

[1] URL:http://www.un.org (23.05.2018-ci il).

rın, o cümlədən regional beynəlxalq təşkilatların fəaliyyətinin hüquqi əsası və normativ bazası olan müvafiq nizamnamələr müqavilə formasında qəbul edilir. Deməli, belə nizamnamələr regional beynəlxalq müqavilələr anlayışına daxildir. Məsələn, Amerika Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Ərəb Dövlətləri Liqası və s. bu kimi regional qurumların nizamnamələrində mübahisələrin dinc vasitələrlə həllinə aid müvafiq hüquq normaları nəzərdə tutulmuşdur.

Beynəlxalq-hüquqi adətlər də beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun mənbə növü sayılır; hətta onlar həmin institutun əsas mənbələrindən biri kimi xarakterizə olunur.[1] Şübhəsiz, beynəlxalq mübahisələrin dinc vasitələrlə həllində beynəlxalq-hüquqi adətlər vacib rol oynayır.

10.2. Dinc vasitələr – beynəlxalq mübahisələrin həll edilməsinin yeganə hüquqauyğun üsulu kimi

10.2.1. Dinc vasitələrin anlayışı

«Beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə» anlayışı hüquq institutundan başqa, həm də metod (prosedur) mənasında işlədilir. **Metod (prosedur) mənasında beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə** dedikdə elə beynəlxalq-hüquqi üsulların tətbiq olunması başa düşülür ki, bu üsulların köməyi ilə dövlətlər və beynəlxalq publik hüququn digər subyektləri öz aralarında yaranan beynəlxalq mübahisələri hərbi güc və hər hansı formada məcburiyyət tədbiri tətbiq olunmadan tənzimləyərək həll edirlər.

Beynəlxalq publik hüquq müəyyən edir ki, dövlətlər və digər subyektlər öz aralarında yaranan beynəlxalq mübahisələri dinc vasitələrlə həll etməyə borcludurlar. Başqa sözlə, beynəlxalq publik hüququn qüvvədə olan mövcud normalarına uyğun

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.191.

olaraq, beynəlxalq mübahisələr yalnız dinc vasitələrin köməyi ilə tənzimlənməlidir. Nəzərə almaq lazımdır ki, beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə mübahisə edən tərəflərin mübahisəni zorakılıq metodları ilə tənzimləməkdən imtina etmələrini ifadə edir.[1]

Beynəlxalq mübahisələrin həll edilməsinə dair dinc vasitələrin özünün anlayışı və məna yükü ilə bağlı qeyd etməliyik ki, beynəlxalq publik hüquq normalarında həmin suala cavab verilməsinə rast gəlmirik. Başqa sözlə, beynəlxalq publik hüquq beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinə leqal (normativ) anlayış vermir; onlara yalnız beynəlxalq publik hüquq doktrinasında elmi anlayış verilməsinə təsadüf olunur.[2]

Beynəlxalq mübahisələrin həll edilməsinin dinc vasitələri dedikdə elə beynəlxalq-hüquqi üsullar başa düşülür ki, bu üsulların köməyi ilə dövlətlər və digər subyektlər öz aralarında yaranmış beynəlxalq mübahisələri hərbi güc və ya hər hansı formada məcburiyyət tədbiri tətbiq etmədən tənzimləyirlər. Belə üsulları ifadə etmək üçün hüquq ədəbiyyatında «metod» və ya «prosedur» kimi terminlərdən də istifadə olunur; əlbəttə, öz məzmununa görə onlar müxtəlif terminlərdir. Lakin, həmin terminlər beynəlxalq-hüquqi mahiyyət baxımından, eyni məna kəsb edir. Buna görə də, «beynəlxalq mübahisələri həll etməyin dinc vasitələri», «beynəlxalq mübahisələri həll etməyin dinc metodları» və «beynəlxalq mübahisələri həll etməyin dinc prosedurları» kimi üç anlayış, prinsip etibarı ilə, üst-üstə düşür; çünki «vasitə», «metod» və «prosedur» haqqında danışarkən söhbət beynəlxalq mübahisələrin həlli zamanı istifadə olunan müxtəlif hərəkət üsullarından gedir.

Qeyd etmək vacibdir ki, beynəlxalq mübahisələri həll etmək üçün tarixən dövlətlərarası (beynəlxalq) münasibətlər praktika-

[1] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. Москва-Берлин, 2011, с.779.
[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 618.

sında müxtəlif vasitələrdən istifadə edilmişdir. Həmin vasitələr aşağıda göstərilən **iki yerə** bölünür:

– qeyri-dinc vasitələr;

– dinc vasitələr.

Beynəlxalq mübahisələri həll etməyin qeyri-dinc vasitələri gücdən, o cümlədən hərbi gücdən istifadəni nəzərdə tutur. Buna görə də, onlara həm də beynəlxalq mübahisələri həll etməyin hərbi vasitələri deyilir. Beynəlxalq publik hüquq uzun müddət hərbi güc tətbiq etməyi və müharibə aparılmasını beynəlxalq mübahisələri həll etməyin əsas qanuni (hüquqayğun) vasitəsi hesab etmişdir. Hətta hərbi güc tətbiq etmək və müharibə aparmaq dövlətin təbii funksiyası, onun ayrılmaz hüququ sayılmışdır.

Beynəlxalq mübahisələri həll etməyin dinc vasitələri isə, bundan fərqli olaraq, hərbi güc tətbiq olunmasını və müharibədən istifadə edilməsini nəzərdə tutmur. Beynəlxalq publik hüquq belə vasitələri özünün yarandığı andan tanıyır. Başqa sözlə, yarandığı andan beynəlxalq publik hüquqa beynəlxalq mübahisələri həll etməyin müxtəlif dinc vasitələri məlumdur. Lakin, beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinin beynəlxalq publik hüquq tərəfindən çoxdan bəri tanınmasına baxmayaraq, «beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə» anlayışı öz başlanğıcını müvafiq Haaqa sülh konfranslarından (1899-cu və 1907-ci illər) götürmüşdür. Bu anlayış məhz həmin konfranslardan başlayaraq, beynəlxalq normativ dövriyyəyə (materiala) daxil edilmişdir.

Beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinə hansı üsulların (metodların, prosedurların) aid edilməsinə gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinə daxil olan üsulların siyahısı BMT Nizamnaməsinin 33-cü maddəsində verilmişdir. Həmin maddədə beynəlxalq mübahisələri həll etməyin bu kimi dinc vasitələri sadalanır: danışıqlar aparmaq, müayinə etmək (araşdırma, təhqiqat), vasitəçilik etmək, barışdırma, arbitraj, məhkəmə, regional or-

qanlara və regional sazişlərə müraciət etmək, digər dinc vasitələr.

Göründüyü kimi, BMT Nizamnaməsinin 33-cü maddəsi beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinin məhdud (numerus clausus) siyahısını, yəni qəti və dəqiq olmayan siyahısını verir. Məsələ burasındadır ki, beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinin tam və bütöv mütləq siyahısı mövcud deyil. Buna görə də, BMT Nizamnaməsinin 33-cü maddəsi dinc vasitələrin siyahısını açıq saxlamışdır, yəni dinc vasitələrin təxmini siyahısını vermişdir. BMT Nizamnaməsinin 33-cü maddəsi müəyyən edir ki, mübahisə edən tərəflər siyahıda göstərilməyən digər dinc vasitələrdən də istifadə edə bilərlər, bu şərtlə ki, həmin vasitələrdən istifadə güc tətbiqi ilə bağlı olmasın: məsələn, xoşməramlı xidmət, BMT orqanlarının köməyindən istifadə edilməsi, xüsusi sazişlərdə nəzərdə tutulan metodun tətbiq olunması və s.

Mübahisə edən tərəflər sərbəst şəkildə, müstəqil surətdə öz istədikləri dinc vasitədən istifadə etmək hüququna malikdirlər. Bu, yəni hansı dinc vasitənin seçilməsi məsələsi hər bir konkret haldan asılı olaraq həll edilir; seçilmiş dinc vasitə həm də həmin hala uyğun gəlməlidir.

Beynəlxalq mübahisələri həll etməyə dair vasitələrdən hansının üstün olmasına gəldikdə, qeyd etməliyik ki, beynəlxalq publik hüquq bunu müəyyən etmir. Buna görə də, dinc vasitələrdən bu və ya digəri başqaları qarşısında üstünlüyə malik deyildir; əks halda bu, dövlətlərin suveren bərabərliyi prinsipinə zidd olub, onu pozardı. Əsas və başlıca məsələ bundan ibarətdir ki, öz aralarındakı beynəlxalq mübahisəni həll etmək üçün tərəflər sərbəst şəkildə onlara sərf edən, münasib, əlverişli, uyğun və effektiv dinc vasitə seçməlidir. Elə dinc vasitə seçilməlidir ki, onun köməyi ilə beynəlxalq məsələ lazımınca tənzimlənə bilsin.[1]

[1] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. Москва-Берлин, 2011, с.781.

Beləliklə, müasir beynəlxalq publik hüquq dinc vasitələri beynəlxalq mübahisələri həll etməyin yeganə qanuni (hüquqa-uyğun) üsulu kimi müəyyən edir. Belə ki, müasir beynəlxalq publik hüquqa beynəlxalq mübahisələri dinc yolla həll etmək kimi mühüm əhəmiyyətə malik olan fundamental prinsip məlumdur. Bu prinsip dövlətlərin üzərinə öz aralarında yaranmış beynəlxalq mübahisələri yalnız dinc vasitələrlə həll etmək vəzifəsi qoyur. Məhz belə bir vacib vəzifənin qoyulması və tanınması ilə **beynəlxalq mübahisələri həll etməyin dinc vasitələrinin sistemi** formalaşmışdır. Bu sistem isə, bir az əvvəldə göstərdiyimiz kimi, öz hüquqi təsbitini BMT Nizamnaməsinin 33-cü maddəsində tapmışdır.

10.2.2. Dinc vasitələrin növləri

Beynəlxalq mübahisələr öz məzmununa görə müxtəlif olub, bir-birindən fərqlənir. Başqa sözlə, beynəlxalq mübahisələr müxtəlif xarakterə malik olur. Təbii ki, bu da, öz növbəsində, beynəlxalq mübahisələri həll etməkdən ötrü müxtəlif dinc vasitələrdən istifadə olunmasını şərtləndirir. Nəzərə almaq lazımdır ki, beynəlxalq mübahisələri həll etməyin dinc vasitələri xarakterə eyni olmayıb, bir-birindən fərqlənir. Bu baxımdan, beynəlxalq mübahisələrin həll edilməsinin dinc vasitələri aşağıda göstərilən **üç növə** bölünür:[1]

- siyasi-diplomatik vasitələr;
- məhkəmə (hüquqi) vasitələri;
- xüsusi vasitələr.

Beynəlxalq mübahisələri həll etməyin **siyasi-diplomatik vasitələri** beynəlxalq mübahisələri tənzimləməyin ənənəvi üsullarıdır. Müasir dövrdə belə vasitələr geniş yayılaraq, beynəl-

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.358.

xalq münasibətlər praktikasında daha çox tətbiq edilir. Həmin vasitələrə aşağıdakılar daxildir:

- danışıqlar aparmaq;
- məsləhətləşmə;
- vasitəçilik;
- istintaq və razılaşdırıcı (barışdırıcı) komissiyalar;
- xoşməramlı (xeyirxah) xidmət;
- beynəlxalq təşkilatlar çərçivəsində tənzimetmə.

Beynəlxalq mübahisələri həll etməyin **məhkəmə vasitələri** dedikdə elə üsullar başa düşülür ki, bu üsullar beynəlxalq mübahisələrin məhkəmədə və arbitrajda baxılıb həll edilməsini nəzərdə tutur. Həmin vasitələrə bunlar aiddir:

- beynəlxalq məhkəmə;
- beynəlxalq arbitraj.

Beynəlxalq mübahisələri həll etməyin məhkəmə vasitələri beynəlxalq mübahisələri hüquqi cəhətdən tənzimləyir. Buna görə də, onlara həm də beynəlxalq mübahisələri həll etməyin hüquqi vasitələri deyilir.

Beynəlxalq mübahisələri həll etməyin **xüsusi vasitələri** dedikdə elə üsullar başa düşülür ki, bu üsulların köməyi ilə xüsusi xarakterli beynəlxalq mübahisələr tənzimlənir. Məsələn, dövlətlər arasında sərhədlərin müəyyən edilməsi, aviasiya, dəniz sularının statusu və digər məsələlər barədə xüsusi xarakterli beynəlxalq mübahisə yarana bilər. Belə mübahisələr məhz xüsusi vasitələrin köməyi ilə həll olunur.

10.2.3. Beynəlxalq mübahisə anlayışı

Barəsində danışdığımız dinc vasitələr ondan ötrüdür ki, onların köməyi ilə beynəlxalq mübahisələr həll edilsin. Təbii ki, beynəlxalq mübahisələr yaranmazsa, onda dinc vasitələrdən istifadə edilməsinə zərurət və ehtiyac olmazdı. Deməli, dinc va-

sitələr "beynəlxalq mübahisələr" anlayışı ilə bilavasitə bağlıdır. Məhz bu səbəbdən «beynəlxalq mübahisələri həll etməyin dinc vasitələri» termini işlədilir. Bəs, beynəlxalq mübahisə dedikdə nə başa düşülür?

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq subyektlərinin, xüsusən də, dövlətlərin maraq və mənafeləri həmişə üst-üstə düşmür, bir-birlərinə uyğun gəlmir; bəzən, elə olur ki, dövlətlərin maraq və mənafeləri toqquşur. Belə hallar dövlətlər arasında beynəlxalq münaqişə yaranması adlanır.

Beynəlxalq münaqişə dedikdə dövlətlərin maraq və mənafelərinin toqquşması başa düşülür. Hüquq ədəbiyyatı səhifələrində onların, yəni beynəlxalq münaqişələrin aşağıda göstərilən **iki növü** fərqləndirilir:[1]

– mübahisə (beynəlxalq mübahisə);

– vəziyyət (beynəlxalq münaqişəli vəziyyət).

Beynəlxalq münaqişələrin göstərilən növləri BMT-nin Nizamnaməsində nəzərdə tutulmuşdur. Belə ki, BMT-nin Nizamnaməsi beynəlxalq münaqişə münasibətlərini ifadə və tövsif etmək üçün «mübahisə» və «vəziyyət» anlayışlarından istifadə edir. Bu isə o deməkdir ki, BMT-nin Nizamnaməsi beynəlxalq münaqişələri «mübahisə» və «vəziyyət» kimi iki növə bölür. Lakin «mübahisə» və «vəziyyət» anlayışlarını işlətsə də, BMT-nin Nizamnaməsi onlara tərif vermir, həmçinin həmin anlayışları bir-birindən fərqləndirməyə imkan verən əlamətləri (meyarları) də müəyyənləşdirmir. Halbuki mübahisə və vəziyyət anlayışları bir-birindən müəyyən əlamətlər (meyarlar) vasitəsi ilə fərqləndirilir. Belə əlamətlər (meyarlar) beynəlxalq publik hüquq elmində, habelə BMT Təhlükəsizlik Şurasının və BMT Beynəlxalq Məhkəməsinin praktikasında müəyyən edilmişdir və onların əsasında həm mübahisəyə, həm də beynəlxalq münaqişəli vəziyyətə tərif verilməsi mümkün olur.

[1] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.226; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.191.

Mübahisə (beynəlxalq mübahisə) dedikdə bu və ya digər məsələ barəsində dövlətlər arasında elə fikir ayrılığının yaranması başa düşülür ki, bu zaman onlar bir-birinə qarşılıqlı tələblər irəli sürür, öz iddialarını bildirirlər. Təsadüfi deyil ki, «beynəlxalq mübahisə» anlayışı, adətən, dövlətlər arasında qarşılıqlı tələbləri (iddiaları) ifadə etmək üçün işlədilir.[1] Bəzən, dövlətlərin maraq və mənafeləri toqquşur; bu da, öz növbəsində, onlar arasında hər hansı məsələ barədə fikir ayrılığının yaranmasına səbəb olur; bu zaman dövlətlər qarşılıqlı surətdə bir-birinə qarşı tələblər (iddialar) irəli sürürlər. Belə halda deyilir ki, dövlətlər arasında beynəlxalq mübahisə yaranmışdır. Əgər dövlətlərin maraq və mənafelərinin toqquşması onların bir-birinə qarşılıqlı surətdə tələblər (iddialar) irəli sürmələri ilə müşayiət olunarsa, bu, dövlətlər arasında beynəlxalq mübahisənin yaranması deməkdir. Məsələn, beynəlxalq müqavilənin təfsiri (izahı, şərhi) zamanı dövlətlərin maraq və mənafelərinin toqquşması onlar arasında fikir ayrılığının yaranmasına səbəb olur və dövlətlər bir-birinə qarşılıqlı surətdə tələblər (iddialar) irəli sürürlər. Bu isə onlar arasında beynəlxalq mübahisənin yaranmasını ifadə edir.

Vəziyyət (beynəlxalq münaqişəli vəziyyət) dedikdə dövlətlərin maraq və mənafelərinin elə toqquşması başa düşülür ki, bu zaman onlar bir-birinə qarşılıqlı tələblər (iddialar) irəli sürmürlər. Əgər dövlətlərin maraq və mənafelərinin toqquşması onların bir-birinə qarşılıqlı surətdə tələblər (iddialar) irəli sürmələri ilə müşayiət olunmazsa, belə hala beynəlxalq münaqişəli vəziyyət deyilir. Lakin beynəlxalq münaqişəli vəziyyət mövcud olan zaman dövlətlər arasında **çəkişmə, ixtilaf** (rus. трение) yaranır.

Qeyd etməliyik ki, beynəlxalq münaqişəli vəziyyət hər hansı konkret mübahisə predmeti ilə bağlı deyildir. Bu səbəbdən beynəlxalq münaqişəli vəziyyət halında beynəlxalq mübahisə hələ-

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.727; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.397.

lik mövcud olmur. Lakin beynəlxalq münaqişəli vəziyyət beynəlxalq mübahisənin əmələ gəlməsi üçün zəmin yaradır. Odur ki, beynəlxalq vəziyyət potensial beynəlxalq mübahisə halıdır; beynəlxalq münaqişəli vəziyyət beynəlxalq mübahisənin yaranmasına səbəb olmaya da bilər.

Beynəlxalq mübahisə və beynəlxalq münaqişəli vəziyyət anlayışları bir-birindən fərqlənsələr də, onlar arasında ümumi cəhətlər də vardır. Həm beynəlxalq mübahisəni, həm də beynəlxalq münaqişəli vəziyyəti belə bir ümumi cəhət xarakterizə edir ki, onlar dövlətlərin maraq və mənafelərinin toqquşmasıdır.

Beynəlxalq mübahisə və beynəlxalq münaqişəli vəziyyət halları bir-birindən dəqiq olaraq ayrılmalı, fərqləndirilməli, necə deyərlər, onlar arasında hədd qoyulmalıdır. Bunun vacib hüquqi-praktiki əhəmiyyəti vardır. Hər şeydən əvvəl, qeyd edək ki, beynəlxalq mübahisə və beynəlxalq münaqişəli vəziyyət kimi iki münaqişə növünün səbəb olduğu hüquqi nəticələr eyni deyildir. Belə ki, onlar müxtəlif hüquqi nəticələr doğurur.

Birinci, yalnız beynəlxalq mübahisələr baxılıb həll edilmək üçün BMT-nin Beynəlxalq Məhkəməsinə verilir. Beynəlxalq münaqişəli vəziyyətə gəldikdə isə, qeyd etməliyik ki, o, BMT-nin Beynəlxalq Məhkəməsində baxış və araşdırma predmeti olmur.

İkinci, əgər beynəlxalq mübahisə edən tərəf qismində BMT Təhlükəsizlik Şurasının daimi üzvü çıxış edərsə, o, səsvermə zamanı bitərəf qalmalıdır; bu qayda beynəlxalq münaqişəli vəziyyətə aid deyildir.

Üçüncü, BMT Nizamnaməsinin 37-ci və 38-ci maddələrinə uyğun olaraq, Təhlükəsizlik Şurası tərəflərə beynəlxalq mübahisəni həll etməyin şərtlərini tövsiyə edə bilər; bu qayda beynəlxalq münaqişəli vəziyyətə şamil olunmur.

BMT-nin Nizamnaməsi beynəlxalq mübahisə və beynəlxalq münaqişəli vəziyyətin aşağıda göstərilən **iki növünü** fərqləndirir:

1) davam etməsi beynəlxalq sülh və təhlükəsizliyi hədələyən mübahisə və münaqişəli vəziyyət;
2) davam etməsi beynəlxalq sülh və təhlükəsizliyi hədələməyən mübahisə və münaqişəli vəziyyət.

Qeyd etməliyik ki, BMT-nin məqsədi birinci növ beynəlxalq mübahisə və münaqişəli vəziyyətləri yoluna qoymaqdır. Ona görə ki, belə mübahisə və münaqişəli vəziyyətlərin davam etməsi beynəlxalq sülh və təhlükəsizliyi təhdid edir. BMT-nin məqsədlərindən biri məhz beynəlxalq sülh və təhlükəsizliyi təmin etməkdən ibarətdir. BMT Nizamnaməsinin 36-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq, Təhlükəsizlik Şurası davam etməsi beynəlxalq sülh və təhlükəsizliyi hədələyən həm mübahisələri, həm də münaqişəli vəziyyətləri həll etmək üçün müxtəlif metod, prosedur və vasitələr tövsiyə edə bilər.

İkinci növ beynəlxalq mübahisə və münaqişəli vəziyyətlərə gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq sülh və təhlükəsizliyi hədələməsə də, onlar hər halda beynəlxalq ixtilafa (çəkişməyə, qalmaqala) səbəb olur, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa mənfi təsir göstərir. Odur ki, davam etməsi beynəlxalq sülh və təhlükəsizliyi hədələyən mübahisə və münaqişəli vəziyyətlər də həll edilməli, tənzimlənməli və nizama salınmalıdır; əks halda, beynəlxalq ixtilaflar (çəkişmələr) mövcud olmaqda davam edər, dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlıq qorunub saxlanılmaz. Təsadüfi deyildir ki, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi həm də beynəlxalq münaqişəli vəziyyətlərə şamil olunur.

10.2.4. Beynəlxalq mübahisələrin növləri

Dövlətlərarası praktikada müxtəlif cür beynəlxalq mübahisələr yaranır. Şübhəsiz, onların xarakteri eyni deyildir. Nəzərə almalıyıq ki, beynəlxalq mübahisələrin müxtəlif növləri vardır. Belə ki, beynəlxalq publik hüquq elmində beynəlxalq mübahi-

sələr müxtəlif meyarlar əsasında təsnif edilərək ayrı-ayrı növlərə bölünür.

Beynəlxalq mübahisələrdə işirak edən tərəflərin sayına görə onların iki növü fərqləndirilir:

– ikitərəfli beynəlxalq mübahisələr;

– çoxtərəfli beynəlxalq mübahisələr.

İkitərəfli beynəlxalq mübahisələr odur ki, onlar iki dövlət arasında yaranır. Başqa sözlə, beynəlxalq mübahisələrdə tərəf qismində iki dövlət iştirak edərsə, belə mübahisələr ikitərəfli beynəlxalq mübahisələr hesab edilir.

Çoxtərəfli beynəlxalq mübahisələrdə isə tərəf qismində üç və daha çox dövlət iştirak edir. Bu növ beynəlxalq mübahisələr iki və daha artıq dövlət arasında yaranır.

Coğrafiyasına görə beynəlxalq mübahisələr üç növə bölünür:

– lokal beynəlxalq mübahisələr;

– regional beynəlxalq mübahisələr;

– qlobal beynəlxalq mübahisələr.

Əgər yaranmış beynəlxalq mübahisə konkret hər hansı yerlə bağlı olarsa, ona **lokal beynəlxalq mübahisə** deyilir. Bu növ beynəlxalq mübahisənin yayılma coğrafiyası hər hansı müəyyən ərazini əhatə edir. Məsələn, iki dövlət arasında müəyyən ərazi hissəsinin məxsusluğu barədə mübahisə yaranır və s.

Regional beynəlxalq mübahisələr odur ki, onların yayılma coğrafiyası bu və ya digər bölgəni əhatə edir. Beynəlxalq mübahisələrin bu növü, adətən, hər hansı regiona aid olan dövlətlər arasında yaranır.

Qlobal beynəlxalq mübahisələr dedikdə yayılma coğrafiyası dünyanı və ya onun çox hissəsini əhatə edən mübahisələr başa düşülür. Bu növ beynəlxalq mübahisələrin tənzimlənməsi və həll edilməsi bütün dövlətlərin maraq və mənafelərinə uyğundur.

Təhlükəlilik dərəcəsinə görə beynəlxalq mübahisələrin iki növü vardır:

– təhlükəli beynəlxalq mubahisələr;

– təhlükəli olmayan beynəlxalq mübahisələr.

Təhlükəli beynəlxalq mübahisələr odur ki, onlar beynəlxalq sülh və təhlükəsizliyi hədələyir, təhdid edir. Bu növ beynəlxalq mübahisələrin davam etməsi beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanmasına olduqca mənfi təsir göstərir. Təhlükəli beynəlxalq mübahisələr BMT Nizamnaməsinin 33-cü maddəsində nəzərdə tutulmuşdur.

Təhlükəli olmayan beynəlxalq mübahisələr dedikdə beynəlxalq sülh və təhlükəsizliyi hədələməyən, lakin beynəlxalq ixtilafa (çəkişməyə) səbəb olan mübahisələr başa düşülür. Beynəlxalq sülh və təhlükəsizliyi hədələmədiyinə görə BMT-nin Təhlükəsizlik Şurası onların həllinə diqqət yetirmir. Aydın məsələdir ki, BMT-nin Təhlükəsizlik Şurası öz diqqət mərkəzində, əsasən, təhlükəli beynəlxalq mübahisələrin həllini və tənzimlənməsini saxlayır.

Predmetinə (obyektinə) görə beynəlxalq mübahisələr iki növə bölünür:

– beynəlxalq-hüquqi mübahisələr;

– beynəlxalq-siyasi mübahisələr.

Beynəlxalq-hüquqi mübahisələr odur ki, onlar məhkəmə (hüquqi) vasitələrinin köməyi ilə həll olunur. Beynəlxalq mübahisələrin bu növü BMT Nizamnaməsinin 36-cı maddəsinin 3-cü bəndində nəzərdə tutulmuşdur; həmin bəndə əsasən, beynəlxalq-hüquqi mübahisələri ümumi qayda kimi, tərəflər baxılmaq üçün BMT-nin Beynəlxalq Məhkəməsinə verməlidirlər. Deməli, beynəlxalq-hüquqi mübahisələr BMT Beynəlxalq Məhkəməsinin yurisdiksiyasında olan mübahisələrdir.

Beynəlxalq-hüquqi mübahisələrin predmetini (obyektini) hüquqi xarakterli məsələlər təşkil edir. Hüquqi xarakterli məsələlərin nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, hə-

min məsələlərə BMT Beynəlxalq Məhkəməsinin Statutu aşağıdakıları aid edir (Statutun 36-cı madəsinin 2-ci bəndi):

- beynəlxalq müqavilənin təfsiri;
- beynəlxalq öhdəliyin pozulmasını ifadə edən faktın mövcud olması;
- beynəlxalq öhdəliyin pozulmasına görə zərərin əvəzini ödəmənin xarakteri və həcmi;
- beynəlxalq publik hüququn istənilən məsələsi.

Hüquqi xarakterli məsələlər (hüquqi mübahisələr) həm də regional beynəlxalq sazişlərdə müəyyən edilmişdir. Söhbət, ilk növbədə, Mübahisələrin dinc həlli haqqında Avropa Konvensiyasından (1957-ci il) gedir; konvensiya yuxarıda sadalanan məsələləri olduğu kimi təkrarlayır.

Beynəlxalq-siyasi mübahisələr odur ki, onların predmetini (obyektini) siyasi məsələlər təşkil edir və bu növ mübahisələrdə dövlətlər iştirak edir. Başqa sözlə, beynəlxalq-siyasi mübahisələr cəmiyyətin siyasi təşkilatı olan dövlətlər arasında yaranır; bu səbəbdən onlar siyasi xarakterə malik olur.

Beynəlxalq-siyasi mübahisələr siyasi səbəblər əsasında yaranır; onlar həm də ciddi siyasi nəticələrə səbəb ola bilər. Buna görə də, beynəlxalq-siyasi mübahisələr (məsələn, sərhədlərin müəyyən edilməsi, ərazi problemləri və s.) siyasi müstəvidə həll olunur. Söhbət siyasi mübahisələrin siyasi-diplomatik vasitələrdən (məsələn, danışıqlar aparmaq, məsləhətləşmə və s.) istifadə etməklə həllindən gedir. Belə mübahisələrə hüquqi qiymət verilməsi tələb edilmir; onlar həm də hüquqi müstəvidə həll olunmur. Hüquqi müstəvidə, adətən, beynəlxalq-hüquqi mübahisələr həll edilir.

Beynəlxalq-siyasi mübahisələr hüquqi (məhkəmə) vasitələrin, yəni məhkəmə prosedurunun köməyi ilə həll edilmir və onlar heç vaxt məhkəmə (arbitraj) araşdırmasının predmeti olmur. Beynəlxalq-siyasi mübahisələri tənzimləməkdən və həll etməkdən ötrü yalnız siyasi-diplomatik vasitələr (məsələn, danışıqlar) tətbiq edilir. Lakin, buna baxmayaraq, istənilən bey-

nəlxalq-siyasi mübahisədə beynəlxalq-hüquqi aspektlərə rast gəlmək mümkündür. Digər tərəfdən, istənilən beynəlxalq-hüquqi mübahisə siyasi əhəmiyyətə malikdir.

Hüquqi mübahisələrdən fərqli olaraq, BMT-nin Nizamnaməsi beynəlxalq-siyasi mübahisələrin adını çəkmir; burada nə siyasi mübahisə anlayışı işlədilir, nə də ona tərif verilir. Bu da, öz növbəsində, beynəlxalq-siyasi mübahisələr ətrafında elmi polemikanın yaranmasına səbəb olur. Yeri gəlmişkən, qeyd edək ki, xarici ölkələrin beynəlxalq publik hüquq doktrinasında beynəlxalq mübahisələrin hüquqi və siyasi mübahisələrə bölünməsi barədə diskussiya gedir.[1] Bəzi alimlər belə bölgünü qəbul etmirlər. Bizim bu məsələdə qəti mövqeyimiz bundan ibarətdir ki, dövlətlərarası praktikada həmişə beynəlxalq-hüquqi və beynəlxalq-siyasi mübahisələr mövcud olmuşdur; belə mübahisələrə müasir praktikada da rast gəlinir və təsadüf olunur. Həm də nəzərdən qaçırmaq olmaz ki, beynəlxalq mübahisələrin bu kimi iki növə, yəni hüquqi və siyasi mübahisələrə bölünməsinin vacib praktiki-hüquqi əhəmiyyəti vardır. Belə ki, beynəlxalq mübahisələri həll etməkdən ötrü istifadə olunan və tətbiq edilən dinc vasitələr, hüquqi və siyasi mübahisələrdən hansının yaranmasından asılı olaraq, seçilir. Həmçinin unutmaq olmaz ki, onlar beynəlxalq mübahisələrin əsas növü kimi xarakterizə olunur.

BMT-nin Nizamnaməsində daha **iki növ** beynəlxalq mübahisənin adı çəkilir:

– istənilən mübahisə;

– yerli mübahisə.

İstənilən mübahisə dedikdə elə mübahisə başa düşülür ki, o, beynəlxalq sülh və təhlükəsizliyin qorunmasını hədələməyə də bilər (bu növ beynəlxalq mübahisə BMT Nizamnaməsinin 38-ci maddəsində nəzərdə tutulmuşdur).

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.355.

Yerli mübahisə odur ki, o, regional sazişlərin və ya regional orqanların və yaxud mübahisə edən maraqlı dövlətlərin təşəbbüsü ilə həll edilir (beynəlxalq mübahisələrin bu növü BMT Nizamnaməsinin 2-ci və 3-cü bəndlərində nəzərdə tutulmuşdur).

Hüquq ədəbiyyatı səhifələrində beynəlxalq mübahisələrin həm də ərazi mübahisələri kimi növü fərqləndirilir.[1] **Ərazi mübahisələri** dedikdə bu və ya digər ərazi sahəsinin hansı dövlətə məxsus olması barədə mübahisələr başa düşülür. Çox vaxt bu növ mübahisələr silahlı (hərbi) toqquşmaya səbəb olur və siyasi böhrana gətirib çıxarır.

10.3. Beynəlxalq mübahisələri siyasi-diplomatik üsulla həlletmə vasitələri

10.3.1. Danışıqlar aparmaq

Məlum olduğu kimi, beynəlxalq mübahisələrin dinc üsullarla həll edilməsi növlərindən biri də siyasi-diplomatik vasitələr sayılır. Siyasi-diplomatik vasitələr sırasında «danışıqlar» kimi tənzimetmə üsulu əsas yer tutur və vacib rol oynayır. Təsadüfi deyil ki, öz aralarında yaranmış beynəlxalq mübahisələri həll etmək üçün dövlətlər çox vaxt bu üsuldan istifadə edirlər. Bu da, bir həqiqətdir ki, tarixən beynəlxalq mübahisələrin əksəriyyəti danışıqlar vasitəsilə və ya onların köməyi ilə həll edilmişdir. Bunu nə ilə izah etmək olar?

Hər şeydən əvvəl, qeyd edək ki, birinci, danışıqlar beynəlxalq mübahisələri həll etməyin **ən effektli vasitəsidir**. Ona görə ki, mübahisə edən tərəflərin öz aralarında danışıqlar aparması çox vaxt müsbət nəticə ilə yekunlaşır. Tərəflər arasında ya-

[1] *Bax: məsələn,* Beynəlxalq hüquq. Dərslik / Məsul red. və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002, s.354; Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.399; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.729 və b.

ranan beynəlxalq mübahisə əksər hallarda, mahiyyətcə, danışıqlar aparılması nəticəsində ya bilavasitə həll olunur (tənzimlənir), ya da danışıqlar aparmağın effekti bunda ifadə olunur ki, mübahisə edən tərəflər beynəlxalq mübahisəni həll etməyin başqa vasitəsindən istifadə olunması barədə razılıq əldə edə bilirlər.

İkinci, danışıqlar beynəlxalq mübahisələri həll etməyin **hamıya müyəssər olan vasitəsidir.** Belə ki, bütün subyektlər öz aralarında yaranmış beynəlxalq mübahisələri danışıqlar yolu ilə tənzimləmək imkanına malikdirlər. Başqa sözlə, beynəlxalq mübahisələrin beynəlxalq publik hüququn bütün subyektləri, xüsusən də, dövlətlər tərəfindən daşınıqlar yolu ilə həll edilməsi mümkün olan işdir. Şübhəsiz, onlar danışıqlar kimi vasitədən istifadə etməklə beynəlxalq mübahisələri tənzimləyə bilər. Nəzərə almalıyıq ki, danışıqlar yolunu seçmək beynəlxalq publik hüququn hər bir subyekti, xüsusilə də, dövlətlər üçün əlçatmaz məsələ sayılmır. Bu, məlum məsələdir.

Üçüncü, danışıqlar beynəlxalq mübahisələri həll etməyin **ən asan və sadə yoludur**. Heç də sirr deyildir ki, bu yol mübahisə edən tərəflərə bilavasitə əlaqədə, münasibətdə olmağa imkan verir. Bu da, öz növbəsində, mübahisə edən tərəflərin birbirinin mövqeyini aydın şəkildə başa düşmələrini və onların hər ikisini qane edən sərfəli qərar qəbul etmələrini təmin edir.

Dördüncü, danışıqlar beynəlxalq mübahisələri həll etməyin **ən rahat və münasib yoludur.** Ona görə ki, danışıqlar yolu tərəflərə mübahisəli məsələ barədə, mahiyyətcə, bilavasitə razılığa gəlmələrinə imkan verir.

Beşinci, danışıqlar beynəlxalq mübahisələri həll etməyin **operativ-çevik yoludur.** Belə ki, danışıqlar yolu ilə beynəlxalq mübahisələri tez bir zamanda həll etmək mümkün olur. Aydın məsələdir ki, danışıqların hər hansı formal prosedurda aparılması tələb edilmir. Bu da, təbii ki, beynəlxalq mübahisənin operativ həll edilməsinə imkan verir. Digər tərəfdən, danışıqlar yolu mübahisə edən tərəflərə imkan verir ki, tərəflər mübahisənin bütün təfərrüatlarını nəzərdən keçirsinlər və mübahisəyə

geniş kontekstdə baxsınlar; danışıqlar həm də manevr etmək üçün geniş imkanlar verir.

Altıncı, danışıqlar beynəlxalq mübahisələri həll etməyin **konfidensial yoludur**. Aydın bir həqiqətdir ki, danışıqların aparılmasında, adətən, mübahisə edən tərəflərin özləri iştirak edir. Üçüncü şəxslərə (dövlətlərə) gəldikdə isə, qeyd etməliyik ki, onlar danışıqlar prosesində iştirak etmirlər; üçüncü şəxslərin (dövlətlərin) həm də danışıqlar prosesinə hər hansı formada müdaxilə etmələri və ya təzyiq göstərmələri mümkün olmur. Bu da, öz növbəsində, danışıqların konfidensiallığının (məxfiliyinin) saxlanmasını təmin edir. Nəticədə mübahisə edən tərəflərin qanuni mənafe və maraqları təmin olunur.

Bu kimi üstünlüklərə malik olması səbəbindən danışıqlar aparmaq praktikasından beynəlxalq mübahisələri həll etmək üçün hələ qədim zamanlardan bəri istifadə olunmağa başlanmışdır; bu cür praktikanı beynəlxalq publik hüquq özünün yarandığı andan tanıyır. Odur ki, danışıqlar aparmaq praktikası beynəlxalq mübahisələri tənzimetmənin ən qədim vasitələrindən biri kimi tanınır. O, müasir dövrdə olduqca geniş yayılmış tənzimetmə vasitəsi sayılır.

Danışıqlar (bilavasitə danışıqlar) dedikdə beynəlxalq mübahisələri tənzimetmənin elə bir vasitəsi başa düşülür ki, həmin vasitə mübahisə edən maraqlı tərəflərə bilavasitə əlaqədə olmalarına, mübahisəli məsələni müzakirə etmələrinə və həmin məsələnin, mahiyyətcə, həll olunması üçün müvafiq sərfəli qərar çıxarmalarına imkan verir. Danışıqlar (bilavasitə danışıqlar) zamanı mübahisə edən tərəflər arasında bilavasitə şəxsi əlaqə yaranır. Belə əlaqə isə, təbii ki, danışıqların predmeti olan mübahisəli məsələnin müsbət həll olunmasına kömək edir və imkan verir.

Danışıqlar ayrı-ayrı əlamətlərə (meyarlara) görə müxtəlif növlərə bölünür. **Formasına** görə, danışıqların iki növü fərqləndirilir:

– şifahi danışıqlar;

– yazılı danışıqlar.

Şifahi danışıqlar dedikdə bilavasitə əlaqə yaratmaq yolu ilə aparılan danışıqlar başa düşülür. **Yazılı danışıqlar** nota, məktub və yazılı formada tərtib edilən digər sənədlər vasitəsi ilə aparılan danışıqlara deyilir.

İştirakçıların sayına görə, danışıqların iki növü fərqləndirilir:

– ikitərəfli danışıqlar;

– çoxtərəfli danışıqlar.

İkitərəfli danışıqlar dedikdə mübahisə edən iki tərəf arasında aparılan danışıqlar başa düşülür. Bu zaman mübahisəli məsələ ikitərəfli qaydada müzakirə olunur. Əgər mübahisəli beynəlxalq məsələnin müzakirə olunmasında ikidən artıq dövlət (tərəf) iştirak edərsə, buna **çoxtərəfli danışıqlar** deyilir. Bu növ danışıqlar vasitəsi ilə, bir qayda olaraq, çoxtərəfli beynəlxalq mübahisələr həll olunur.

Beynəlxalq mübahisənin predmetinə görə, danışıqlar bir neçə növdə aparılır:

– siyasi məsələlər barədə danışıqlar;

– iqtisadi məsələlər barədə danışıqlar;

– sülh danışıqları;

– ərazi məsələlərinə dair danışıqlar;

– digər məsələlər barədə danışıqlar.

Səviyyəsinə görə, danışıqların üç növü fərqləndirilir:

– yüksək səviyyəli danışıqlar;

– diplomatik səviyyəli danışıqlar;

– xüsusi səviyyəli danışıqlar.

Yüksək səviyyəli danışıqlar dedikdə mübahisə edən tərəflərin yüksək dövlət vəzifəli şəxslərinin (dövlət və hökumət başçılarının, parlament sədrlərinin və s.) iştirak etdikləri danışıqlar başa düşülür. Məsələn, dövlət başçılarının, parlament

sədrlərinin, hökumət rəhbərlərinin və xarici işlər nazirlərinin apardığı danışıqlar. Bu növ danışıqlar beynəlxalq mübahisələrin tənzimlənməsində həlledici rol oynayır. Yüksək səviyyəli danışıqlar zamanı dövlətlərarası qarşılıqlı münasibətlərin əsas məsələləri, beynəlxalq həyatın vacib problemləri müzakirə edilir. Dövlət başçıları, hökumət rəhbərləri və s. şəxslər hər hansı əlavə səlahiyyət almadan öz tutduqları vəzifəyə görə danışıqlar apara bilərlər. Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasının (1969-cu il) 7-ci maddəsində deyilir ki, dövlətin yüksək vəzifəli şəxsləri həm də istənilən mübahisənin və ya münaqişəli vəziyyətin tənzimlənməsinə dair beynəlxalq müqavilə bağlaya bilər; onlar həm birbaşa (bilavasitə) əlaqəyə girməklə şəxsi görüşlər zamanı, həm də telefon vasitəsi ilə danışıqar apara bilərlər.

Diplomatik səviyyəli danışıqlar dedikdə diplomatik nümayəndəlik başçılarının iştirakı ilə aparılan danışıqlar başa düşülür. Bu növ danışıqlar diplomatik nümayəndəliyin başçıları (səfirlər) səviyyəsində aparılır. Bu səbəbdən hüquq ədəbiyyatında danışıqların həmin növünə həm də diplomatik danışıqlar deyilir;[1] diplomatik danışıqlar adi diplomatik kanallarla aparılan danışıqlardır.

Diplomatik danışıqlar beynəlxalq mübahisələri həlletmənin digər vasitələri qarşısında bir sıra üstünlüyə malikdir. İlk növbədə, qeyd etməliyik ki, diplomatik danışıqlar, necə deyərlər, «bağlı qapılar» arxasında keçirilir; bu da, əlbəttə, danışıqlara xaricdən müdaxilə olunmasını istisna edir, aradan qaldırır. Diplomatik danışıqlarda üçüncü şəxslər iştirak etmir; o şəxslər ki, onlar diplomatik danışıqların məzmununa və gedişinə təsir göstərə bilərlər. Buna görə də, diplomatik danışıqlar klassik tənzimetmə metodu (vasitəsi) kimi tanınır.[2]

---

[1] Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005, с.262.

[2] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. Москва-Берлин, 2011, с.782.

Diplomatik danışıqların üstünlüyü həm də bundan ibarətdir ki, belə danışıqlar, praktiki olaraq, beynəlxalq mübahisələri həlletmənin digər vasitələrinin elementi kimi çıxış edir. Unutmaq olmaz ki, beynəlxalq mübahisələri həlletmənin bütün vasitələri bu və ya digər dərəcədə danışıqlar aparılması metodu ilə bağlıdır. Heç də sirr deyil ki, diplomatik danışıqlar aparılmadan beynəlxalq mübahisələri, mahiyyətcə, həll etmək qeyri-mümkündür; əslində, danışıqlar beynəlxalq mübahisələrin həll edilməsinin təmiz diplomatik metodu və vasitəsidir.

Xüsusi səviyyəli danışıqlar dedikdə xüsusi səlahiyyət almış şəxslərin iştirakı ilə aparılan danışıqlar başa düşülür. Danışıqlar, adətən, dövlətin rəsmi nümayəndələri, yəni dövlətin yüksək vəzifəli şəxsləri və diplomatik nümayəndələr (səfirlər) tərəfindən aparılır. Bununla yanaşı, danışıqlar ayrı-ayrı şəxslər tərəfindən də aparıla bilər; bunun üçün, yəni danışıqların aparılması üçün həmin şəxslərin xüsusi səlahiyyət almaları tələb edilir ki, onlar aldıqları səlahiyyət çərçivəsində danışıqlar aparırlar; bu cür şəxslərə xüsusi səlahiyyətli şəxslər, həmin şəxslərin apardıqları danışıqlara isə xüsusi səviyyəli danışıqlar deyilir. Məsələn, hər hansı beynəlxalq mübahisəni həll etməkdən ötrü danışıqlar aparmaq üçün dövlətin rəsmi nümayəndələri sırasına daxil olmayan bu və ya digər vəzifəli şəxsə, xüsusi olaraq, səlahiyyət verilir.

İştirakçı vəzifəli şəxslərin statusuna görə, danışıqlar bir neçə növə bölünür:

- dövlətlərarası danışıqlar;
- hökumətlərarası danışıqlar;
- idarələrarası danışıqlar;
- səfirlərarası danışıqlar;
- xüsusi səlahiyyətli şəxslər arasında danışıqlar.

Dövlətlərarası danışıqlarda mübahisə edən tərəflərin dövlət başçıları iştirak edir. Əgər aparılan danışıqlarda mübahisə edən tərəflərin hökumət başçıları iştirak edərlərsə, belə danı-

şıqlara **hökumətlərarası danışıqlar** deyilir. **İdarələrarası danışıqlar** dedikdə mübahisə edən tərəflərin nazirləri (məsələn, xarici işlər nazirləri) səviyyəsində aparılan danışıqlar başa düşülür. **Səfirlərarası danışıqlarda** diplomatik nümayəndələr, yəni diplomatik nümayəndəliklərin (səfirliklərin) başçıları iştirak edirlər. Əgər danışıqların aparılmasında, xüsusi olaraq, səlahiyyət verilmiş şəxslər iştirak edərlərsə, bu cür danışıqlara **xüsusi səlahiyyətli şəxslər arasında danışıqlar** deyilir.

Bəzən, danışıqlar aparmaq məqsədi ilə xüsusi beynəlxalq konfrans çağrılır. Bu zaman mübahisəli məsələni həll etmək üçün tərəflər beynəlxalq konfrans çərçivəsində danışıqlar aparırlar; belə danışıqlara **beynəlxalq konfrans çərçivəsində aparılan danışıqlar** deyilir; bu, danışıq növlərindən biri sayılır.[1] Beynəlxalq konfrans, xüsusi olaraq, danışıqlar aparılması üçün deyil, başqa məqsədlə də cağırıla bilər. Bu zaman mübahisə edən tərəflərin hüququ vardır ki, yaranmış imkandan istifadə edərək öz aralarındakı mübahisəli məsələni müzakirə etsinlər.

Danışıqlar həm də rəsmi və qeyri-rəsmi ola bilər. **Rəsmi danışıqlar** rəsmi surətdə aparılan danışıqlara deyilir. Mübahisə edən tərəflər arasında danışıqlar həm də rəsmi olmayan formada aparıla bilər; belə danışıqlara isə **qeyri-rəsmi danışıqlar** deyilir. Məsələn, Dünya İqtisadi Forumunda iştirak etmək üçün xarici ölkəyə gələn iki dövlət başçısı qeyri-rəsmi surətdə mübahisəli ərazi məsələsini müzakirə edirlər və s.

Beynəlxalq publik hüquq danışıqların hansı vahid formal qaydada aparılmasını müəyyən etmir. Lakin, beynəlxalq praktikada danışıqların aparılma qaydası müəyyən edilmişdir ki, həmin qaydaya görə, danışıqlar bir neçə mərhələni əhatə edir.[2]

Birinci mərhələdə danışıqlar aparılmasına təşəbbüs göstərilir. **İkinci mərhələdə** danışıqların vaxtı, yeri və digər məsələ-

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.305.

[2] Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015, с.136-137.

lər barədə razılıq əldə olunur. **Üçüncü mərhələdə** danışıqların aparılması prosedurları müəyyən edilir. **Dördüncü mərhələdə** mübahisə edən tərəflər birbaşa (bilavasitə) görüşərək və öz aralarında əlaqə yaradaraq məsələni müzakirə edir, danışıqları həyata keçirirlər. **Beşinci mərhələdə** danışıqların nəticəsini ifadə edən müvafiq hüquqi sənəd qəbul edilir.

Qeyd etməliyik ki, beynəlxalq publik hüquq mübahisələri həll etməyin dinc vasitəsi kimi «danışıqları» hələ qədim dövrlərdən tanıyır. Tənzimetmənin göstərilən vasitəsi hətta H.Qrotsi, E.de Vattel və digər tanınmış hüquqşünasların əsərlərində müfəssəl şəkildə şərh olunmuşdu. Sonralar danışıqlar bir sıra beynəlxalq sənəddə təsbit edildi:

- Beynəlxalq toqquşmaların dinc həlli haqqında Haaqa konvensiyaları (1899-cu və 1907-ci illər);
- Beynəlxalq mübahisələrin dinc həlli haqqında Ümumi Akt (1928-ci il);
- Mübahisələrin dinc həlli haqqında Manila Bəyannaməsi (1982-ci il);
- digər beynəlxalq sənədlər.[1]

Danışıqlar tənzimetmə vasitəsi kimi BMT Nizamnaməsinin 33-cü maddəsində də nəzərdə tutulmuşdur; burada danışıqların adı mübahisələri həlletmənin dinc vasitələri siyahısında birinci çəkilir. Bu o deməkdir ki, danışıqlara mübahisələri həlletmənin dinc vasitələri arasında ilkin yer verilir. Bu səbəbdən beynəlxalq dövlətlərarası praktikada danışıqlardan daha tez-tez hallarda istifadə olunur. Hətta danışıqlar diplomatik prosedurlar arasında birinci yer tutur.[2] Danışıqlar, özündə həm də beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipini, sözün həqiqi mənasında, əks etdirir.

[1] URL:http://www.works.tarefer.ru (24.05.2018-ci il).
[2] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. Москва-Берлин, 2011, с.781.

10.3.2. Dövlətlərarası məsləhətləşmə

Beynəlxalq praktikada mübahisələri həlletmə vasitəsi kimi həm də dövlətlərarası məsləhətləşmədən istifadə edilir. Amma dövlətlərarası məsləhətləşmə beynəlxalq mübahisələri həlletmənin müstəqil vasitəsi sayılmır. Məsələ burasındadır ki, hüquq ədəbiyyatında dövlətlərarası məsləhətləşmə danışıqların bir növü kimi xarakterizə olunur.[1] Təsadüfi deyil ki, BMT Nizamnaməsinin 3-cü maddəsi beynəlxalq mübahisələri həll etməyin dinc vasitələri arasında dövlətlərarası məsləhətləşmənin adını çəkmir.

Biz dövlətlərarası məsləhətləşməni danışıqların xüsusi növü hesab edirik. Ona görə ki, dövlətlərarası məsləhətləşmə danışıqlara son dərəcə, olduqca yaxın olan tənzimetmə vasitəsidir. Hətta dövlətlərarası məsləhətləşmədə danışıqların bəzi elementlərinə rast gəlmək mümkündür; həm də deməliyik ki, dövlətlərarası məsləhətləşmə danışıqlar prosesinin ilkin (birinci) mərhələsidir. Belə ki, danışıqlar prosesinin ilkin mərhələsində tərəflər qeyri-rəsmi surətdə danışıqlar aparırlar. Diplomatik praktikada belə danışıqlara məhz dövlətlərarası məsləhətləşmə deyilir. Bu səbəbdən dövlətlərarası məsləhətləşmə, mahiyyətcə, ilkin danışıqlar deməkdir. Belə ki, adətən, əvvəlcə dövlətlərarası məsləhətləşmə həyata keçirilir, bundan sonra danışıqlar aparılır. Buna görə də, dövlətlərarası məsləhətləşməni danışıqların növü hesab edə bilərik.[2]

Dövlətlərarası məsləhətləşmə dedikdə tərəflərin öz aralarında elə danışıqlar aparmaları başa düşülür ki, həmin danışıqlar beynəlxalq mübahisələri həll etmək, mümkün beynəlxalq mübahisələrin (beynəlxalq təhlükəli vəziyyətlərin) qarşısını almaq və digər tənzimetmə vasitələri tətbiq etmək üçün razılıq əldə olunması məqsədini güdür.

---

[1] Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.194.
[2] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.734.

Dövlətlərarası məsləhətləşmə yeni tənzimetmə vasitəsi sayılır. Belə ki, bu tənzimetmə vasitəsi XX əsrdə yaranmışdır. Mübahisələri tənzimetmə vasitəsi kimi o, II Dünya Müharibəsindən sonra tətbiq olunmağa başlamışdır. Dövlətlərarası məsləhətləşmə həmçinin bir sıra beynəlxalq sazişdə öz beynəlxalq-hüquqi ifadəsini tapmışdır.

Dövlətlərarası məsləhətləşmələrin hüquq ədəbiyyatında iki növü fərqləndirilir:[1]

– fakultativ məsləhətləşmə;

– məcburi məsləhətləşmə.

Fakultativ məsləhətləşmə dedikdə mübahisə edən tərəflərin öz istək və mülahizəsi ilə həyata keçirilən məsləhətləşmə başa düşülür. Bu növ məsləhətləşmənin aparılması tərəflər üçün məcburi deyildir və onlar məsləhətləşmə aparmaya da bilərlər. Tərəflərin öz aralarında məsləhətləşmə aparması məsələsi onların qarşılıqlı razılığı ilə həll olunur.

Məcburi məsləhətləşmə dedikdə beynəlxalq müqavilədə birbaşa nəzərdə tutulan məsləhətləşmə başa düşülür. Beynəlxalq müqavilədə nəzərdə tutulduğuna görə, ona həm də **müqavilə məsləhətləşməsi** deyilir.[2] Məhz beynəlxalq müqavilə tərəflərin üzərinə məsləhətləşmə aparılmasını məcburi vəzifə kimi qoyur. Buna görə də, onlar həmin vəzifəni məcburi surətdə yerinə yetirməlidirlər.

Bir sıra beynəlxalq müqavilə məcburi məsləhətləşmədən istifadə olunmasını nəzərdə tutur:

– Xidmətlərlə Ticarət üzrə Baş Saziş (1994-cü il);

– Dəniz hüququna dair BMT Konvensiyası (1982-ci il);

– Kosmos haqqında Müqavilə (1967-ci il);

---

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.229.

[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с. 156.

– Bakterialoji (bioloji) silahın qadağan olunması haqqında Konvensiya (1972-ci il);
– Kimyəvi silahın qadağan olunması haqqında Konvensiya (1993-cü il) və s. sənədlər.[1]

Dövlətlərarası məsləhətləşmə həm yazılı, həm də şifahi formada aparıla bilər. Lazım gəldikdə mübahisə edən tərəflərin dövlət başçıları birbaşa telefon əlaqəsi vasitəsilə məsləhətləşirlər; bu zaman qlobal peyk rabitə sistemindən istifadə olunur. Dövlətlərarası məsləhətləşmə həmçinin, bir qayda olaraq, diplomatik kanallarla aparılır. Dövlətlərarası məsləhətləşmə diplomatik nümayəndəliyin (səfirliyin) başçıları səviyyəsində də həyata keçirilə bilər.

10.3.3. Xoşməramlı xidmət

Xoşməramlı (xeyirxah) xidmət beynəlxalq mübahisələri həll etməyin siyasi-diplomatik vasitələrindən biri sayılır. Qeyd etdiyimiz kimi, BMT Nizamnaməsinin 33-cü maddəsində «xoşməramlı xidmət» kimi tənzimetmə vasitəsinin adı çəkilmir. Lakin hüquq ədəbiyyatında xoşməramlı xidmət beynəlxalq mübahisələri həlletmənin dinc vasitələrindən biri kimi hesab edilir.[2]

Xoşməramlı (xeyirxah) xidmət dedikdə beynəlxalq mübahisədə maraqlı olmayan üçüncü tərəfin etdiyi elə bir hərəkət başa düşülür ki, bu hərəkət nəticəsində beynəlxalq mübahisəni həll etmək məqsədilə lazım olan danışıqların aparılması üçün mübahisə edən tərəflər arasında əlaqə yaratmaq mümkün olur.

Üçüncü tərəf rolunda **aşağıdakılar** çıxış edə bilər:
– dövlət (dövlətlər qrupu);
– beynəlxalq dövlətlərarası təşkilat;

[1] URL:http://www.ru.m.wikipedia.org (23.05.2018-ci il).
[2] *Məsələn, bax:* Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.327; Beynəlxalq hüquq. Dərslik / Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002, s 361.

– beynəlxalq orqan;

– tanınmış və görkəmli siyasi, ictimai və ya din xadimləri.

Məsələn, üçüncü dövlət öz ərazisində mübahisə edən tərəflərə görüşmək və birbaşa əlaqə yaratmaq üçün müvafiq yer verir ki, onlar beynəlxalq mübahisəni həll etmək üçün bilavasitə danışıqlar aparsınlar. Başqa bir misalda, BMT-nin Baş katibi BMT-nin iqamətgahında mübahisə edən tərəflərin dövlət başçılarına görüşmək və mübahisəni həll etmək üçün danışıqlar aparmalarına şərait yaradır. Yeri gəlmişkən, qeyd edək ki, BMT-nin Baş katibi beynəlxalq mübahisələrin tənzimlənməsi üçün xoşməramlı xidmətlər göstərilməsində xüsusi fəallıq göstərir; onun xeyirxah xidmətlər göstərilməsində böyük rol oynaması şəksizdir.

Dövlətlərarası beynəlxalq praktikada mübahisələri dinc vasitələrlə tənzimetmə üsulu kimi xoşməramlı (xeyirxah) xidmətlərdən həmişə istifadə edilmişdir. Misal qismində bir neçə xoşməramlı xidmətin adını çəkə bilərik. Məsələn, 1966-cı ildə keçmiş SSRİ dövləti xoşməramlı xidmət göstərərək aralarında Kəşmir vilayəti barədə mübahisə yaranan (1965-ci il) Hindistan və Pakistanın rəsmi nümayəndələrini Daşkənd şəhərində görüşdürdü. Bunun nəticəsində mübahisənin tənzimlənməsi barədə müvafiq Daşkənd Bəyannaməsi qəbul edildi; Rusiya dövləti xoşməramlı xidmət göstərərək Moskvada məlum «Qarabağ» məsələsini müzakirə etmək üçün dəfələrlə Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etmişdir.

Xoşməramlı xidmət göstərən üçüncü tərəf mübahisədə iştirak etməyən tərəfdir; onun həm də mübahisədə heç bir marağı yoxdur. Xoşməramlı xidmət göstərən üçüncü tərəf həmçinin mübahisəni həll etmək üçün aparılan danışıqlarda da iştirak etmir; o, sadəcə olaraq, mübahisə edən tərəflərin danışıqlar aparmalarına kömək edir və onlar arasında əlaqə yaradır. Bu zaman üçüncü tərəf mübahisəni tənzimləmək üçün hər hansı konkret təklif (mübahisəni həlletmə variantı) vermir; onun həm də hüququ çatmır ki, danışıqların gedişinə və məzmununa təsir gös-

tərsin; onun bilavasitə danışıqlara müdaxilə etmək səlahiyyəti də yoxdur.

Xoşməramlı (xeyirxah) xidmət **aşağıdakı hallarda** göstərilir:

- üçüncü tərəfin təşəbbüsü ilə;
- mübahisə edən tərəflərdən birinin xahişi ilə;
- mübahisə edən tərəflərin xahişi ilə.

Göstərilən xoşməramlı (xeyirxah) xidmətlərin əsas məqsədi və vəzifəsi mübahisə edən tərəflər arasında dialoq müəyyən etməkdən və ya dialoqu bərpa etməkdən ibarətdir ki, tərəflər mübahisəni həll etməyin bu və ya digər vasitələrini seçə bilsinlər.

10.3.4. Vasitəçilik

Vasitəçilik beynəlxalq mübahisələri həll etməyin siyasi-diplomatik üsuluna aiddir. BMT Nizamnaməsinin 33-cü maddəsində o, rəsmi surətdə beynəlxalq mübahisələri tənzimetmənin dinc vasitələrindən biri kimi təsbit edilmişdir; Haaqa konvensiyalarında da (1899 və 1907-ci illər) həmin vasitə nəzərdə tutulur.

Vasitəçilik dedikdə beynəlxalq mübahisədə maraqlı olmayan vasitəçinin elə bir hərəkəti başa düşülür ki, bu hərəkət nəticəsində mübahisə edən tərəflər arasında birbaşa əlaqə yaradılması, mübahisənin tənzimlənməsi üzrə danışıqlarda vasitəçinin bilavasitə fəal iştirak etməsi və mübahisənin həlli barədə təklif (variant) verilməsi mümkün olur. Vasitəçi rolunda üçüncü tərəf çıxış edir (dövlət, dövlətlərarası beynəlxalq təşkilat, tanınmış siyasi, ictimai və ya din xadimləri və s.).

Qeyd etməliyik ki, vasitəçilik xeyirxah xidmət göstərməyə həddən ziyadə yaxın olan tənzimetmə üsülüdür; həmin tənzimetmə vasitələri arasında onları bir-birinə yaxınlaşdırmağa imkan verən **oxşar cəhətlər** mövcuddur. Hər şeydən əvvəl, qeyd

edək ki, həm vasitəçilik, həm də xoşməramlı xidmət göstərilməsi zamanı mübahisədə maraqlı olmayan üçüncü tərəf iştirak edir. Vasitəçilik və xoşməramlı xidmət əsasında beynəlxalq mübahisələrin tənzimlənməsi məhz üçüncü tərəfin köməyi ilə həyata keçirilir. Deməli, vasitəçilik və xoşməramlı xidmət üçüncü tərəfin iştirakını nəzərdə tutan tənzimetmə vasitələridir.

Digər tərəfdən, vasitəçilik və xoşməramlı xidməti belə bir ümumi cəhət xarakterizə edir ki, onlar beynəlxalq mübahisələrin həlli üzrə danışıqlar aparılmasını müşayiət edir.[1] Belə ki, həm vasitəçilik, həm də xeyirxah xidmət göstərilməsi zamanı mübahisə edən tərəflər arasında birbaşa əlaqə yaradılır ki, bunun nəticəsində onlar beynəlxalq mübahisəni tənzimləmək üçün öz aralarında bilavasitə danışıqlar aparırlar.

Bununla yanaşı, vasitəçilik və xeyirxah xidmətgöstərmə arasında **fərqli cəhətlər** də vardır. Belə ki, bir sıra əlamətə görə onlar bir-birindən fərqlənir. **Birinci**, xoşməramlı xidmət göstərən üçüncü tərəf beynəlxalq mübahisənin həlli üzrə danışıqlarda iştirak etmir. Vasitəçilik zamanı isə üçüncü tərəf (vasitəçi) beynəlxalq mübahisənin həlli üzrə aparılan danışıqlarda fəal surətdə bilavasitə işirak edir.

İkinci, xoşməramlı xidmət göstərilən zaman üçüncü tərəf mübahisənin həlli üçün öz variantlarını təklif etmir. Vasitəçilik göstərilən hallarda isə üçüncü tərəf (vasitəçi) beynəlxalq mübahisəni tənzimetmənin variantlarını mübahisə edən tərəflərə təklif edir. Lakin təqdim (təklif) olunan variantlar mübahisə edən tərəflər üçün məcburi deyildir. Belə ki, məsləhət xarakterinə malik olduğuna görə onların məcburi hüquqi qüvvəsi yoxdur. Bu səbəbdən mübahisə edən tərəflər təklif olunmuş tənzimetmə variantlarını qəbul etməyə də bilərlər. Bu, mübahisə edən tərəflərin hüququdur.

Üçüncü, xoşməramlı xidmət və vasitəçilik bir-birindən məqsədinə görə fərqlənir. Xoşməramlı xidmət göstərməyin

[1] Международное право. Учебник / Вольфганг Г.В. и др. Пер. с нем. Москва-Берлин, 2011, с.783.

məqsədi bundan ibarətdir ki, mübahisə aparan tərəflər arasında əlaqə yaradılsın və mübahisənin həlli üzrə danışıqlar aparılması təşkil edilsin. Vasitəçilik isə nəinki mübahisə edən tərəflər arasında əlaqə yaradılması, həmçinin mübahisəni tənzimetmə variantları barədə təkliflər verilməsi məqsədinə xidmət edir.

Dördüncü, xoşməramlı xidmət göstərən üçüncü tərəf beynəlxalq mübahisənin həlli üzrə danışıqların gedişinə və məzmununa təsir göstərmir. Əgər üçüncü tərəf danışqların gedişinə və məzmununa təsir göstərərsə, bu, vasitəçilik hesab edilir. Buna görə də, xoşməramlı xidmət və vasitəçilik arasında sərhədlər olduqca şərtidir. Belə ki, əgər xoşməramlı xidmət göstərən üçüncü tərəf tənzimetmə variantları barədə təklif verərsə, bu cür hərəkət artıq xoşməramlı xidmətgöstərmə deyil, vasitəçilik hesab edilir. Təsadüfi deyildir ki, çox vaxt xeyirxah (xoşməramlı) xidmətgöstərmə üsulu tədricən inkişaf edərək vasitəçilik kimi tənzimetmə vasitəsinə çevrilir.

10.3.5. İstintaq proseduru

İstintaq proseduru beynəlxalq istintaq komissiyasının yaradılmasını nəzərdə tutur. Beynəlxalq istintaq komissiyası yaratmaq praktikasının başlanğıcı isə iki məlum Haaqa konvensiyalarının (1899 və 1907-ci illər) qəbul olunmasından sonra qoyulmuşdur. BMT Nizamnaməsinin 33-cü maddəsində həmin tənzimetmə vasitəsi «müayinə» (rus. – «обследование») adı altında nəzərdə tutulur.

Beynəlxalq istintaq komissiyasının **əsas və başlıca vəzifəsi** beynəlxalq mübahisənin faktiki tərəflərini müəyyən etmək məqsədi ilə təhqiqat aparmaqdan ibarətdir; onun fəaliyyəti beynəlxalq mübahisə ilə bağlı olan faktların, dəqiq olaraq, müəyyən edilməsinə yönəldilmişdir. Beynəlxalq istintaq kosmissiyası həm də mübahisə edən tərəflər arasında yaranan ixtilafın (münaqişənin, fikir ayrılığının) səbəblərini müəyyən edir.

Beynəlxalq istintaq komissiyalarının fəaliyyət qaydası yuxarıda adını çəkdtytmiz Haaqa Konvensiyası ilə tənzimlənir. Həmin qayda sözügedən konvensiyanın 17 – 36-cı maddələrində nəzərdə tutulmuşdur.

Beynəlxalq istintaq komissiyası mübahisə edən tərəflərin xüsusi sazişi əsasında yaradılır və sazişdə **aşağıdakılar** müəyyən edilir:

- təhqiq edilən və araşdırılmalı olan fakt;
- komissiya üzvləri;
- beynəlxalq istintaq komissiyasının səlahiyyətləri;
- beynəlxalq istintaq komissiyasının olduğu yer;
- beynəlxalq istintaq komissiyasının fəaliyyət müddəti və s.

Tərəflər müəyyən edilmiş müddətlərdə komissiyaya faktlar barədə müvafiq məlumat verir, vacib və zəruri sənədlər təqdim edirlər. Onlar komissiyaya həm də şahidlərin və ekspertlərin siyahısını təqdim etməlidirlər. Lazım gəldikdə komissiya tərəflərdən əlavə materialların təqdim olunmasını tələb edə bilər.

Təhqiqat və arışdırma-müayinə prosesində şahidlər dindirilir və bu zaman müvafiq protokol tərtib edilir. Tərəflərin hüququ vardır ki, öz fikirlərini (dəlilləri) izah etsinlər, sübutlar təqdim etsinlər və s. Tərəflər dəlil və sübutlar təqdim etdikdən, bütün şahidlər dinlənildikdən sonra araşdırma (təhqiqat) başa çatır. Bundan sonra komissiya məruzə hazırlayır və o, bütün komissiya üzvləri tərəfindən imzalanır. Məruzədə yalnız faktlar müəyyən edilir; tövsiyyə xarakterli sənəd olması səbəbindən onun məhkəmə (arbitraj) qərarı kimi məcburi hüquqi qüvvəsi yoxdur. Odur ki, məruzənin nəticələri mübahisə edən tərəflər üçün məcburi deyildir.

Beynəlxalq istintaq komissiyası mübahisə edən tərəflərin paritet əsasında yaratdıqları orqandır. Bəzən, bu orqanın işinə üçüncü tərəf də cəlb (dəvət) olunur.

Beynəlxalq istintaq komissiyası öz fəaliyyətini iclas formasında həyata keçirir. İclaslar «bağlı qapılar arxasında» gizli (məxfi) qaydada keçirilir.

Beynəlxalq istintaq komissiyası yaratmaq könüllüdür. Lakin, bəzən, onun yaradılması məcburi xarakter daşıyır. Belə ki, bir sıra beynəlxalq sənəddə (müqavilədə) beynəlxalq istintaq komissiyasının, məcburi olaraq, yaradılması nəzərdə tutulmuşdur.

10.3.6. Barışdırma proseduru

Barışdırma proseduru beynəlxalq barışdırma komissiyasının yaradılmasını nəzərdə tutur. Beynəlxalq barışdırma komissiyası yaratmaq isə beynəlxalq mübahisələri tənzimetmə vasitələrindən biri hesab edilir. Belə komissiyanın təsis edilməsi beynəlxalq mübahisələri diplomatik metodla tənzimetmənin ən müasir vasitələrindən biri sayılır.

Beynəlxalq barışdırma komissiyası dedikdə elə bir orqan başa düşülür ki, bu orqan mübahisə edən tərəflərə mübahisənin həlli şərtlərini təklif edir; bundan ötrü o, mübahisənin bütün aspektlərini öyrənməlidir. Bu, komissiyanın üzərinə düşən vəzifə sayılır.

Beynəlxalq barışdırma komissiyasının yaradılması öz hüquqi ifadəsini **aşağıda göstərilən** bir sıra sənəddə tapmışdır:

- Millətlər Liqası Assambleyasının Tövsiyəsi (1922-ci il);
- Beynəlxalq mübahisələrin dinc həlli haqqında Ümumi Akt (1928-ci il);
- Mübahisələrin dinc həlli haqqında Avropa Konvensiyası (1957-ci il);
- Barışdırma və arbitraja dair Stokholm Konvensiyası (1992-ci il) və s.[1]

Sözügedən tənzimetmə vasitəsi BMT-nin Nizamnaməsində də nəzərdə tutulmuşdur; onun 33-cü maddəsi həmin tənzimetmə vasitəsini ifadə etmək üçün «barışdırma» termini işlədir. Başqa sözlə, BMT Nizamnaməsinin 33-cü maddəsində beynəl-

[1] URL:http://www.works.tarefer.ru (24.05.2018-ci il).

xalq barışdırma komissiyası yaratmaq kimi tənzimetmə vasitəsi «barışdırma» adı altında nəzərdə tutulur.

Beynəlxalq barışdırma komissiyasını beynəlxalq istintaq komissiyasından fərqləndirmək lazımdır. Onlar, hər şeydən əvvəl, öz vəzifələrinə görə bir-birindən fərqlənir. Qeyd etdiyimiz kimi, beynəlxalq istintaq komissiyasının vəzifəsi beynəlxalq mübahisə ilə bağlı olan faktları (mübahisənin faktiki tərəflərini) dəqiq olaraq müəyyənləşdirməkdən ibarətdir. Beynəlxalq barışdırma komissiyasına gəldikdə isə, qeyd etməliyik ki, bu orqan təkcə mübahisənin faktiki tərəflərini (beynəlxalq mübahisə ilə bağlı olan faktları) müəyyən etmək vəzifəsi daşımır; onun üzərinə həm də aşağıda göstərilən daha **iki vəzifə** düşür:

- hüquqi məsələləri (mübahisənin hüquqi tərəflərini) müəyyən etmək;
- mübahisənin tənzimetmə variantları barədə təkliflər vermək.

Qeyd etməliyik ki, beynəlxalq barışdırma komissiyasını mübahisə edən tərəflərin özləri paritet əsasında yaradırlar; bəzən, beynəlxalq barışdırma komissiyasının işinə üçüncü şəxslər də cəlb olunur.

Beynəlxalq barışdırma komissiyasının nəticələri tövsiyə (fakultativ) xarakterlidir. Buna görə də, həmin nəticələrin mübahisə edən tərəflər üçün məcburi hüquqi qüvvəsi yoxdur. Bu səbəbdən beynəlxalq barışdırma komissiyasının nəticələri mübahisə edən tərəflər üçün məcburi deyildir. Odur ki, mübahisə edən tərəflər onları qəbul edə və ya etməyə də bilərlər. Lakin, bəzi beynəlxalq sənədlər (məsələn, Dunayda gəmiçiliyin rejimi haqqında 1948-ci il Konvensiyası və s.)[1] beynəlxalq barışdırma komissiyasının nəticələrini məcburi hüquqi qüvvə ilə təmin edir. Belə hallarda, əlbəttə, beynəlxalq barışdırma komissiyasının nəticələri mübahisə edən tərəflər üçün məcburidir.

Beynəlxalq barışdırma komissiyasının yaradılması və fəaliyyəti bir sıra beynəlxalq sənədlə tənzimlənir ki, onların arasında

[1] URL:http://www.law.edu.ru (24.05.2018-ci il).

Beynəlxalq mübahisələrin dinc həlli haqqında Ümumi Aktın (1928-ci il) adını, xüsusilə, çəkmək lazımdır. Bu sənəddə beynəlxalq barışdırma komissiyalarının yaradılmasını və onların funksiyalarının həyata keçirilməsini müfəssəl şəkildə tənzimləyən normalar nəzərdə tutulmuşdur. İndiyə kimi o, sözügedən sahədə əsas beynəlxalq-hüquqi sənəd sayılır.[1]

10.4. Beynəlxalq mübahisələrin həllinin hüquqi vasitələri

10.4.1. Beynəlxalq mübahisələrin həllinin hüquqi vasitələri anlayışı

Beynəlxalq mübahisələr təkcə siyasi-diplomatik vasitələrin köməyi ilə həll olunmur. Beynəlxalq mübahisələr həm də hüquqi vasitələr sayəsində tənzimlənir.

Beynəlxalq mübahisələrin həllinin hüquqi vasitələri dedikdə məhkəmə yolu başa düşülür. Beynəlxalq praktikaya beynəlxalq mübahisələri dinc yolla həll etməyin iki cür hüquqi vasitəsi məlumdur:

– beynəlxalq arbitraj yolu;

– beynəlxalq məhkəmə yolu.

Beynəlxalq arbitraj və beynəlxalq məhkəmə müstəqil və asılı olmayan üçüncü tərəfdir. Başqa sözlə, onlar mübahisədə iştirak edən tərəflərdən asılı deyildir və bitərəf mövqedə dururlar. Bu da, təbii ki, arbitraj və məhkəmənin beynəlxalq mübahisənin həlli üçün obyektiv və ədalətli qərar çıxarmasını təmin edir.

Digər tərəfdən, arbitraj və məhkəmənin beynəlxalq mübahisənin həllinə dair çıxardığı qərarın məcburi hüquqi qüvvəsi vardır. Buna görə də, o, mübahisə edən tərəflər üçün məcburidir.

---

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.363.

10.4.2. Beynəlxalq arbitraj

Beynəlxalq arbitraj dedikdə aralarında yaranmış beynəlxalq mübahisəni tənzimləmək üçün mübahisə edən tərəflərin (dövlətlərin) qarşılıqlı razılığı ilə yaradılan elə bir müstəqil orqan başa düşülür ki, bu orqan mübahisəyə baxıb, tərəflər üçün məcburi hüquqi qüvvəsi olan müvafiq qərar qəbul edir. Bu orqanın tərkibi ya bir, ya da bir neçə hakimdən (hakimlər kollegiyasından) ibarət olur; hakimə həm də arbitr deyilir; bəzən, beynəlxalq arbitraj «**münsiflər məhkəməsi**» adlandırılır. Haaqa Konvensiyasında (1899-cu il) məhz «münsiflər məhkəməsi» termini işlədilir; II Haaqa Konfransında (1907-ci il) həmin Konvensiyaya yenidən baxılmışdır. Bu günə kimi o, yəni növbəti II Haaqa Konvensiyası (1907-ci il) olduğu kimi qüvvədədir. Konvensiyanın ayrıca bir bölməsi (IV bölmə) arbitraj prosesinin tənzimlənməsinə həsr edilmişdir və həmin bölmə üç fəsildən ibarətdir.

BMT-nin Nizamnaməsi arbitrajı beynəlxalq mübahisələri tənzimetmənin dinc vasitələri sırasına (sisteminə) daxil edir. Belə ki, onun 33-cü maddəsi bu vasitələr arasında arbitrajın da adını çəkir.

Beynəlxalq arbitraj mübahisələri tənzimetmə vasitəsi kimi mürəkkəb proses olub, özündə qarşılıqlı surətdə bağlı olan bir neçə mərhələni birləşdirir. Birinci mərhələdə mübahisə edən tərəflər özlərinin istəyinə uyğun olaraq, mübahisəni baxılıb həll edilməsi üçün arbitraja verirlər. İkinci mərhələdə mübahisə edən tərəflər hakimləri (arbitrləri) seçirlər və bununla arbitrajın tərkibini müəyyənləşdirirlər. Arbitraj üzvü olan hakimlər təcrübəli və səriştəli olmalıdırlar; onlar həmçinin mübahisə edən tərəflərdən asılı olmamalıdırlar. Üçüncü mərhələdə hakimlər mübahisəyə baxırlar ki, bu zaman tərəflər öz mövqelərini bildirir, dəlillər gətirilir, sübutlar təqdim olunur, şahidlər dindirilir və s. Dördüncü mərhələdə baxılan beynəlxalq mübahisənin mahiyyəti barədə qərar qəbul olunur.

Beynəlxalq praktikada arbitrajın **iki növü** fərqləndirilir:

– «ad hoc» arbitrajı;

– institusional arbitraj.

«Ad hoc» arbitrajı dedikdə konkret mübahisəyə baxmaq məqsədilə yaradılan arbitraj başa düşülür. Başqa sözlə, bu növ arbitraj konkret işə baxmaq üçün yaradılır. «Ad hoc» daimi fəaliyyətdə olmur və o, müvəqqəti yaradılan orqandır. Belə ki, «ad hoc» birdəfəlik işə baxmaq üçün yaradılan orqandır; buna görə də, onu, bəzən, «birdəfəlik arbitraj» da adlındırırlar.

İnstitusional arbitraj dedikdə daimi fəaliyyətdə olan arbitraj başa düşülür. Bu növ arbitraj daimi xarakterə malikdir və buna görə ona həm də daimi arbitraj deyilir. Daimi arbitraj birdəfəlik deyil, həmişəlik arbitraj orqanıdır;[1] o, həm də institusional (təşkilati) struktura malikdir.

10.4.3. Beynəlxalq məhkəmə

Beynəlxalq məhkəmə proseduru beynəlxalq mübahisələri tənzimləməyin hüquqi vasitələrindən biridir. Qeyd etməliyik ki, o, beynəlxalq mübahisələri həll etməyin müstəqil vasitəsi kimi tanınır. BMT Nizamnaməsinin 33-cü maddəsi onu arbitrajla yanaşı, müstəqil tənzimetmə vasitəsi kimi nəzərdə tutur.

Beynəlxalq məhkəmə proseduru dedikdə beynəlxalq mübahisələri həlletmənin elə hüquqi vasitəsi başa düşülür ki, bu vasitə daimi fəaliyyətdə olan beynəlxalq məhkəmə orqanı tərəfindən beynəlxalq mübahisələrə baxılaraq, mübahisə edən tərəflər üçün məcburi hüquqi qüvvəsi olan müvafiq qərar qəbul edilməsini nəzərdə tutur.

Məhkəmə proseduru beynəlxalq məhkəmə orqanları tərəfindən həyata keçirilir. Bu orqanlar sistem halında birləşmişdir və belə birləşməyə beynəlxalq məhkəmə orqanlarının sistemi de-

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.311.

yilir. Beynəlxalq məhkəmə orqanlarının **sisteminə** aşağıdakılar daxildir:[1]

- BMT-nin Beynəlxalq Məhkəməsi;
- İnsan Hüquqlarına dair Avropa Məhkəməsi;
- Amerika İnsan Hüquqları Məhkəməsi;
- Avropa İttifaqı Məhkəməsi;
- Dəniz hüququ üzrə Beynəlxalq Tribunal;
- Beynəlxalq Cinayət Məhkəməsi;
- MDB-nin İqtisad Məhkəməsi və s.

Birinci beynəlxalq məhkəmə 1922-ci ildə Millətlər Liqası çərçivəsində yaradılmışdır. O, «Beynəlxalq Ədalət Mühakiməsi Daimi Palatası» adlanırdı, daimi fəaliyyətdə olan məhkəmə orqanı idi və onun fəaliyyətinin əsasını statut təşkil edirdi. Statut 1920-ci ildə Millətlər Liqasının Assambleyası tərəfindən qəbul edilmişdi. Daimi Palata 1946-cı ilə kimi fəaliyyət göstərmişdir; 1946-cı ildə onun mövcudluğuna son qoyuldu. Bu, BMT-nin yaradılması və onun strukturunda Beynəlxalq Məhkəmənin təsis edilməsi ilə bağlı idi. BMT-nin Beynəlxalq Məhkəməsi məhz Beynəlxalq Ədalət Mühakiməsi Daimi Palatasının hüquqi varisi oldu. Beynəlxalq Məhkəmə müasir dövrdə beynəlxalq birliyin əsas və başlıca orqanı sayılır.

BMT-nin Beynəlxalq Məhkəməsi öz statutu əsasında fəaliyyət göstərir; statut BMT Nizamnaməsinin ayrılmaz hissəsidir. BMT-nin Beynəlxalq Məhkəməsi Haaqa şəhərində (Hollandiya) yerləşir.

Beynəlxalq məhkəmə orqanlarının sistemi milli məhkəmə orqanlarının sistemindən fərqlənir. **Birinci**, beynəlxalq məhkəmə orqanlarının qəbul etdikləri qərarlar, bir qayda olaraq, deklarativ xarakter daşıyır. Məsələ burasındadır ki, həmin qərarların icrası dövlətlərin özlərinə həvalə olunur. **İkinci,** beynəlxalq

[1] URL:http://www.ru.m.wikipedia.org (24.05.2018-ci il).

məhkəmə orqanlarının səlahiyyəti avtomatik xarakter daşımır. Belə ki, onların səlahiyyəti yalnız mübahisə edən dövlətlər tərəfindən tanındıqdan sonra hüquqi əhəmiyyətə (mənaya) malik olur. **Üçüncü**, beynəlxalq məhkəmə orqanlarının sistemi iyerarxiya prinsipinə əsaslanmır. Belə ki, bu sistemə daxil olan beynəlxalq məhkəmə orqanları tam müstəqil olub, bir-birindən asılı deyildir. Milli məhkəmə orqanlarının sistemi isə iyerarxiya prinsipinə əsaslanır və bu prinsipə görə, aşağı instansiya məhkəmə orqanları yuxarı instansiya məhkəmə orqanlarına tabe olur.

X MÖVZU ÜZRƏ ƏYANİ SXEM



X FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

1. Beynəlxalq hüquq. Dərslik / Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002 (fəsil XII).
2. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008 (fəsil XXIV).
3. Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006 (гл.10).
4. Ильин Ю.Д. Международное публичное право. Лекции. М., 2008 (лекция 6).
5. Международное право. Учебник / Вольфганг Г.В. и др. Перевод с немецкого. Москва-Берлин, 2011 (раздел 7).
6. Международное право. Учебник/ Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл. 23).
7. Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009 (гл.15).
8. Международное право. Учебник / Отв. ред. Б.Р.Тузмухамедов. М., 2015 (гл.11).
9. Международное право. Учебник/Отв.ред. Г.М.Мелков. М., 2011 (гл.5).
10. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл.12).
11. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008 (гл. 18).
12. Международное право. Учебник / Под ред. А.И.Микульшина. М., 2005 (гл.2, раздел 6).
13. Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 (гл. VI).
14. Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004 (гл.20).
15. Федощева Н.Н. Международное право. Учебное пособие. М., 2015 (гл.9).

İXTİSARLAR

AATA – Avropa Azad Ticarət Assosiasiyası
ABŞ – Amerika Birləşmiş Ştatları
ADT – Amerika Dövlətləri Təşkilatı
Aİ – Avropa İttifaqı
AİB – Avropa İqtisadi Birliyi
AİK – Avropa İqtisadi Komissiyası
AR QK – Azərbaycan Respublikasının Qanunlar Külliyatı
AR QT – Azərbaycan Respublikasının Qanunvericilik Toplusu
ASEAN – Cənub-Şərqi Asiya ölkələri Assosiasiyası
AŞ – Avropa Şurası
AŞPA – Avropa Şurasının Parlament Assambleyası
ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi
ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
AYİB – Avropa Yenidənqurma və İnkişaf Bankı
BDT – Beynəlxalq Dəniz Təşkilatı – İMO
BDYS – Beynəlxalq dəmir yolu ilə yük əlaqələri haqqında Saziş
BƏT – Beynəlxalq Əmək Təşkilatı
BHB – Beynəlxalq Hesablaşmalar Bankı
BHK – BMT çərçivəsində Beynəlxalq Hüquq Komissiyası
BHNA – Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası – İATA
BİH – Beynəlxalq İqtisadi Hüquq
BMAT – Beynəlxalq Mülki Aviasiya Təşkilatı – İCAO
BMK – BMT-nin Beynəlxalq Maliyyə Korporasiyası
BMT – Birləşmiş Millətlər Təşkilatı
BST – Beynəlxalq Standartlaşdırma Təşkilatı
BTM – UNKTAD ÜTT-nin Beynəlxalq Ticarət Mərkəzi – İTC
BTP – Beynəlxalq Ticarət Palatası

BVF – Beynəlxalq Valyuta Fondu – İMF

BYD Konvensiyası – BYD kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında Gömrük Konvensiyası (TİR Konvensiyası)

BYİB – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – Ümumdünya Bankı

CM – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

EKOSOS – BMT-nin İqtisadi və Sosial Şurası

ƏKTT – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı – FAO

FAT – Fələstin Azadlıq Təşkilatı

FATF – Çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə Beynəlxalq İşçi Qrup – Maliyyə Komissiyası

GƏT – Gömrük Əməkdaşlıq Təşkilatı

GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat

XBH – Xüsusi Borcalma Hüququ – SDR

XTBS – Xidmətlərlə Ticarət üzrə Baş Saziş – QATS

İƏİT – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı

İNTERPOL – Beynəlxalq Cinayət Polis Təşkilatı

KOTİF – Bern Konvensiyaları (Əlavə Sazişlə) – Convention Concerning International Carriage by Rail

KTMT – Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatı

QİYŞ – Qarşılıqlı İqtisadi Yardım Şurası

LAİ – Latın Amerikası İnteqrasiya Assosiasiyası

MAQATE – Atom Enerjisi üzrə Beynəlxalq Agentlik

MDB – Müstəqil Dövlətlər Birliyi

MERKOSUR – Cənubi Amerika Ümumi Bazarı

MM – Azərbaycan Respublikasının Mülki Məcəlləsi

MONEYVAL – Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi

NAFTA – Şimali Amerika Azad Ticarət Zonası

OAPEK – Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı

OPEK – Neft İxrac Edən Ölkələrin Təşkilatı

PKM – Patent Kooperasiyası barədə Vaşinqton Müqaviləsi – PCT

ŞAMT – Şimali Atlantika Müqavilə Təşkilatı – NATO

TDT – Türk Dövlətləri Təşkilatı

TMK – Transmilli Korporasiya

TRİMS – İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş

TRİPS – Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş

TTBS – Tariflər və Ticarət üzrə Baş Saziş – QATT

UNEP – BMT-nin Ətraf Mühit üzrə Proqramı

UNESKO – BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı

UNİDO – BMT-nin Sənaye İnkişafı üzrə Təşkilatı

UNKTAD – BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı

UNSİTRAL – BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası

ÜƏMT – Ümumdünya Əqli Mülkiyyət Təşkilatı

ÜGT – Ümumdünya Gömrük Təşkilatı

ÜPİ – Ümumdünya Poçt İttifaqı

ÜST – Ümumdünya Səhiyyə Təşkilatı

ÜTT – Ümumdünya Ticarət Təşkilatı – WTO

1970-ci il Bəyannaməsi – «BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququn prinsipləri haqqında» Bəyannamə (1970-ci il)

1975-ci il Bəyannaməsi – ATƏM-in Helsinki Yekun Aktının I hissəsi: «İştirakçı dövlətlərin öz qarşılıqlı münasibətlərində rəhbər tutmalı olduqları prinsiplər haqqında» Bəyannamə (1975-ci il)

MÜNDƏRİCAT

ÖN SÖZ.....**5**

I BÖLMƏ.
ÜMUMİ HİSSƏ.

BEYNƏLXALQ PUBLİK HÜQUQA DAİR ÜMUMİ MÜDDƏALAR

I FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN HÜQUQİ MƏKANDA YERİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

1.1. Beynəlxalq publik hüququn anlayışı və predmeti..... **11**
1.1.1. Beynəlxalq publik hüquq müstəqil hüquq sistemi kimi..... **11**
1.1.2. Beynəlxalq publik hüquq dövlətlərarası hüquqdur..... **15**
1.1.3. Beynəlxalq publik hüququn doktrinal (elmi) anlayışı..... **21**
1.1.4. Beynəlxalq publik hüququn nizamasalma predmeti..... **26**
1.2. Beynəlxalq publik hüququn funksiyaları, əhəmiyyəti və əsas xüsusiyyətləri..... **32**
1.2.1. Beynəlxalq publik hüququn funksiyaları..... **32**
1.2.2. Beynəlxalq publik hüququn rolu və əhəmiyyəti..... **37**
1.2.3. Beynəlxalq publik hüququn əsas xüsusiyyətləri..... **40**
1.3. Beynəlxalq publik hüququn sistemi..... **43**
1.3.1. Beynəlxalq publik hüququn sistemi anlayışı..... **43**
1.3.2. Beynəlxalq publik hüququn ümumi hissəsi..... **47**
1.3.3. Beynəlxalq publik hüququn xüsusi hissəsi..... **51**
1.4. Beynəlxalq publik hüququn nizamasalma metodu..... **67**
1.4.1. Beynəlxalq publik hüququn nizamasalma metodu anlayışı.... **67**
1.4.2. Beynəlxalq publik hüququn nizamasalma metodunun növləri..... **69**
I FƏSİL ÜZRƏ ƏYANİ SXEM..... **79**
I FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT..... **80**

II FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQ – ELMİ MƏNADA VƏ TƏDRİS KURSU KİMİ

2.1. Elmi mənada beynəlxalq publik hüququn anlayışı, predmeti və sistemi..... **81**
2.1.1. Elmi mənada beynəlxalq publik hüququn anlayışı.....**81**
2.1.2. Beynəlxalq publik hüquq elminin tədqiqetmə (öyrənmə) predmeti və onun əsas vəzifələri.....**86**
2.1.3. Beynəlxalq publik hüquq elminin sistemi.....**90**
2.2. Tədris kursu mənasında beynəlxalq publik hüquq – beynəlxalq publik hüquq fənni.....**92**
2.2.1. Beynəlxalq publik hüquq fənninin anlayışı.....**92**
2.2.2. Beynəlxalq publik hüquq fənninin sistemi.....**94**
II FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....**97**
II FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT.....**98**

III FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN OÇERKİ

3.1. Beynəlxalq publik hüqunun təşəkkül tapması və onun tarixi inkişaf mərhələləri.....**99**
3.1.1. Beynəlxalq publik hüququn yaranması.....**99**
3.1.2. Beynəlxalq publik hüququn tarixi inkişaf dövrləri.....**104**
3.2. Beynəlxalq publik hüququn ayrı-ayrı tarixi inkişaf mərhələlərinin qısa xarakteristikası.....**111**
3.2.1. Qədim dünyanın beynəlxalq publik hüququ.....**111**
3.2.2. Orta əsrlərin beynəlxalq publik hüququ.....**120**
3.2.3. Klassik beynəlxalq publik hüquq.....**135**
3.2.4. Klassik beynəlxalq publik hüquqdan müasir beynəlxalq publik hüquqa keçid dövrü.....**147**
3.2.5. Müasir beynəlxalq publik hüquq.....**152**
III FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....**159**
III FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT.....**160**

IV FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQ NORMALARI VƏ DÖVLƏTLƏRARASI BEYNƏLXALQ HÜQUQ MÜNASİBƏTLƏRİ

4.1. Beynəlxalq publik hüquq normalarının anlayışı və hüquqi təbiəti.....**161**
4.1.1. Beynəlxalq publik hüquq normaları anlayışı.....**161**
4.1.2. Beynəlxalq publik hüquq normalarının daxili strukturu.....**167**
4.1.3. Beynəlxalq publik hüquq normasının məzmunu.....**171**
4.1.4. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətləri.....**173**
4.1.5. Dövlətlərarası beynəlxalq publik hüquq münasibətlərinin növləri.....**184**
4.2. Beynəlxalq publik hüquq normalarının yaradılma qaydası və xüsusiyyətləri.....**191**
4.2.1. Beynəlxalq hüquq-yaradıcılıq prosesi anlayışı.....**191**
4.2.2. Beynəlxalq-müqavilə hüquq normalarının yaradılmasının xüsusiyyətləri.....**194**
4.2.3. Beynəlxalq-adət hüquq normalarının yaradılmasının xüsusiyyətləri.....**199**
4.2.4. Beynəlxalq dövlətlərarası təşkilatlar tərəfindən beynəlxalq publik hüquq normaları yaradılmasının xüsusiyyətləri.....**204**
4.3. Beynəlxalq publik hüquq normalarının növləri.....**206**
4.3.1. Beynəlxalq publik hüquq normalarının elmi-hüquqi təsnifinin əhəmiyyəti.....**206**
4.3.2. Beynəlxalq publik hüquq normalarının xarakteristikası.....**208**
4.3.3. Beynəlxalq publik hüquq normalarının iyerarxiyası.....**222**
IV FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....**224**
IV FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT.....**225**

V FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN MƏNBƏLƏRİ

5.1. Beynəlxalq publik hüququn mənbələrinin anlayışı, ümumi xarakteristikası və növləri.....**226**

5.1.1. Beynəlxalq publik hüququn mənbələrinin anlayışı və əhəmiyyəti....**226**
5.1.2. Beynəlxalq publik hüququn mənbə növləri....**229**
5.2. Beynəlxalq publik hüququn əsas mənbələri....**236**
5.2.1. Beynəlxalq müqavilə beynəlxalq publik hüququn əsas mənbəyi kimi....**236**
5.2.2. Beynəlxalq-hüquqi adətlər beynəlxalq publik hüququn əsas mənbəyi kimi....**247**
5.2.3. Beynəlxalq müqavilələr və beynəlxalq-hüquqi adətlər arasında qarşılıqlı əlaqə....**262**
5.2.4. Hüququn ümumi prinsipləri beynəlxalq publik hüququn mənbəyi kimi....**267**
5.3. Beynəlxalq publik hüququn törəmə mənbələri....**271**
5.3.1. Beynəlxalq təşkilatların normativ qərarları beynəlxalq publik hüququn mənbəyi kimi....**271**
5.3.2. Dövlətlərarası beynəlxalq konfransların qərarları beynəlxalq publik hüququn mənbəyi kimi....**280**
5.3.3. «Mülayim hüquq»....**283**
5.4. Beynəlxalq publik hüququn yardımçı (əlavə) mənbələri....**285**
5.4.1. Məhkəmə qərarları (aktları)....**285**
5.4.2. Beynəlxalq publik hüquq doktrinası....**290**
5.4.3. Dövlətlərin birtərəfli aktları beynəlxalq publik hüququn mənbəyi kimi....**296**
5.5. Beynəlxalq publik hüququn kodifikasiyası və inkişafı....**301**
5.5.1. Beynəlxalq publik hüququn kodifikasiyası....**301**
5.5.2. Beynəlxalq publik hüququn proqressiv inkişafı....**305**
V FƏSİL ÜZRƏ ƏYANİ SXEM....**307**
V FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT....**308**

VI FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN PRİNSİPLƏRİ

6.1. Beynəlxalq publik hüququn prinsiplərinin anlayışı və sistemi **309**
6.1.1. Beynəlxalq publik hüququn prinsipləri anlayışı....**309**
6.1.2. Beynəlxalq publik hüququn prinsiplərinin sistemi....**312**

6.2. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin anlayışı və xüsusiyyətləri.....**317**
6.2.1. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsipləri anlayışı.....**317**
6.2.2. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin əhəmiyyəti..... **322**
6.2.3. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin xüsusiyyətləri.....**324**
6.2.4. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin formalaşma və inkişaf tarixi..... **331**
6.2.5. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin sistemi.....**341**
6.2.6. Beynəlxalq publik hüququn əsas (ümumi) prinsiplərinin təsnifi..... **343**
6.3. Beynəlxalq publik hüququn beynəlxalq sülh və təhlükəsizliyi təmin edən əsas prinsipləri.....**346**
6.3.1.Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi.....**346**
6.3.2. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi.....**364**
6.3.3. Dövlət sərhədlərinin pozulmazlığı prinsipi.....**379**
6.3.4. Dövlətlərin ərazi bütövlüyü prinsipi.....**392**
6.4. Beynəlxalq publik hüququn dövlətlərin müstəqil surətdə mövcud olmasını təmin edən əsas prinsipləri.....**405**
6.4.1. Dövlətlərin suveren bərabərliyi prinsipi.....**405**
6.4.2. Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi.....**413**
6.5. Beynəlxalq publik hüququn xalqların, millətlərin və insan hüquqlarının müdafiəsini təmin edən əsas prinsipləri.....**429**
6.5.1. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi.....**429**
6.5.2. Əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi.....**443**
6.6. Beynəlxalq publik hüququn dövlətlər arasında beynəlxalq əməkdaşlığın inkişafını təmin edən əsas prinsipləri.....**453**
6.6.1. Dövlətlərin əməkdaşlıq etməsi prinsipi.....**453**
6.6.2. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi.....**457**
VI FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....**461**
VI FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT.....**462**

VII FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQUN SUBYEKTLƏRİ

7.1. Beynəlxalq publik hüququn subyektləri anlayışı və onların növləri..... **463**
7.1.1. Beynəlxalq publik hüququn subyektləri anlayışı.....**463**
7.1.2. Beynəlxalq publik hüquq subyektliyi.....**470**
7.2. Beynəlxalq publik hüquq subyektlərinin təsnifatı.....**483**
7.2.1. Beynəlxalq publik hüquq subyektlərinin təsnifi anlayışı.....**483**
7.2.2. Beynəlxalq publik hüquq subyektlərinin ayrı-ayrı növləri.... **484**
7.3. Dövlətlər – beynəlxalq publik hüququn əsas subyekti kimi.....**495**
7.3.1. Dövlətlər beynəlxalq publik hüququn əsas və universal subyekti qismində..... **495**
7.3.2. Dövlətin beynəlxalq-hüquqi əlamətləri və onların anlayışı.....**502**
7.3.3. Beynəlxalq publik hüququn subyekti kimi dövlətin hüquq və vəzifələri..... **510**
7.3.4. Dövlətin yurisdiksiyası və immuniteti.....**521**
7.3.4.1. Dövlətlərin yurisdiksiyası.....**521**
7.3.4.2. Dövlət immuniteti.....**527**
7.3.5. Beynəlxalq publik hüquqda dövlətlərin təsnifi.....**532**
7.3.5.1. Dövlətlərin beynəlxalq-hüquqi təsnifinin əsasları.....**532**
7.3.5.2. Böyük və kiçik dövlətlər.....**535**
7.3.5.3. «Böyük Səkkizliyə» daxil olan və olmayan dövlətlər.....**536**
7.3.5.4. Sadə və mürəkkəb dövlətlər.....**538**
7.3.5.5. Daim bitərəf olan və bitərəf olmayan dövlətlər.....**543**
7.4. Beynəlxalq publik hüququn digər subyektləri..... **546**
7.4.1. Beynəlxalq (dövlətlərarası) təşkilatlar – beynəlxalq publik hüququn subyekti kimi.....**546**
7.4.2. Öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) – beynəlxalq publik hüququn subyekti kimi.....**550**
7.4.3. Dövlətəoxşar qurumlar – beynəlxalq publik hüququn subyekti kimi.....**558**
VII FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....**567**
VII FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT.....**568**

VIII FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQLA MİLLİ HÜQUQ ARASINDA QARŞILIQLI ƏLAQƏ

8.1. Beynəlxalq publik hüquqla milli hüquq arasındakı qarşılıqlı əlaqə barədə konsepsiyalar....**569**
8.1.1. Monizm konsepsiyası....**569**
8.1.2. Dualizm konsepsiyası....**575**
8.2. Beynəlxalq publik hüquqla milli hüquq arasında qarşılıqlı əlaqə mexanizmi....**581**
8.2.1. Beynəlxalq publik hüquq və milli hüquq sistemlərinin uyğunlaşdırılmasının hüquqi formaları....**581**
8.2.2.Transformasiya və onun növləri....**582**
8.2.3. Beynəlxalq publik hüququn milli hüquqa uyğunlaşdırılmasının digər hüquqi formaları....**592**
8.3. Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqə.... **597**
8.3.1. Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasındakı qarşılıqlı əlaqənin xarakteri.... **597**
8.3.2. Beynəlxalq publik hüquqla beynəlxalq xüsusi hüquq arasında fərqləndirici cəhətlər....**600**
8.4. Formalaşma, inkişaf və realizasiya prosesində beynəlxalq publik hüquqla milli hüququn bir-birinə təsiri.... **603**
8.4.1. Beynəlxalq publik hüququn formalaşmasına milli hüququn göstərdiyi əsas təsir istiqamətləri....**603**
8.4.2. Milli hüquqa beynəlxalq publik hüququn göstərdiyi təsir formaları.... **609**
VIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM....**616**
VIII FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT....**617**

IX FƏSİL.
BEYNƏLXALQ PUBLİK HÜQUQDA MƏSULİYYƏT

9.1. Beynəlxalq-hüquqi məsuliyyətin anlayışı, yaranması və inkişafı....**618**
9.1.1. Beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq publik hüququn əsas institutlarından biri kimi....**618**

9.1.2. Beynəlxalq-hüquqi məsuliyyət institutunun kodifikasiyası və inkişafı.....**624**
9.1.3. Beynəlxalq-hüquqi məsuliyyət institutunun funksiyaları.....**628**
9.1.4. Tədbir mənasında beynəlxalq-hüquqi məsuliyyət.....**630**
9.2. Beynəlxalq məsuliyyət hüququnun mənbələri.....**633**
9.2.1. Beynəlxalq məsuliyyət hüququnun mənbələri anlayışı.....**633**
9.2.2. Beynəlxalq məsuliyyət hüququnun mənbə növləri.....**634**
9.3. Beynəlxalq məsuliyyət hüququnun subyektləri.....**636**
9.3.1. Beynəlxalq məsuliyyət hüququnun subyektləri anlayışı.....**636**
9.3.2. Beynəlxalq məsuliyyət hüquq subyektlərinin növləri.....**637**
9.4. Beynəlxalq-hüquqi məsuliyyətin əsası və şərtləri.....**643**
9.4.1. Beynəlxalq-hüquqi məsuliyyətin əsası.....**643**
9.4.2. Beynəlxalq-hüquqi məsuliyyətin şərtləri..... **649**
9.4.2.1. Beynəlxalq-hüquqi məsuliyyətin şərtləri anlayışı.....**649**
9.4.2.2. Beynəlxalq publik hüquq məsuliyyətinin ayrı-ayrı yaranma şərtləri..... **651**
9.5. Beynəlxalq publik hüquq pozuntusu.....**655**
9.5.1. Beynəlxalq publik hüquq pozuntusunun anlayışı və elementləri..... **655**
9.5.2. Beynəlxalq publik hüquq pozuntusunun növləri..... **661**
9.6. Beynəlxalq publik hüquq məsuliyyətinin növü və formaları....**665**
9.6.1. Beynəlxalq publik hüquq məsuliyyətinin növləri..... **665**
9.6.2. Beynəlxalq publik hüquq məsuliyyətinin formaları.....**669**
9.6.2.1. Qeyri-maddi məsuliyyət formaları.....**669**
9.6.2.2. Maddi məsuliyyət formaları.....**679**
9.6.3. Dövlətlərin beynəlxalq-hüquqi məsuliyyətini istisna edən hallar.....**684**
IX FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....**689**
IX FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT.....**690**

X FƏSİL.
BEYNƏLXALQ PUBLİK MÜBAHİSƏLƏRİ DİNC VASİTƏLƏRLƏ HƏLLETMƏ HÜQUQU

10.1. Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ əsas institutlardan biri kimi.....**692**

10.1.1. Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququ anlayışı....**692**
10.1.2. Beynəlxalq publik hüquq sistemində beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüququnun tutduğu yer....**694**
10.1.3. Beynəlxalq publik mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutunun mənbələri....**697**
10.2. Dinc vasitələr – beynəlxalq mübahisələrin həll edilməsinin yeganə hüquqauyğun üsulu kimi....**699**
10.2.1. Dinc vasitələrin anlayışı....**699**
10.2.2. Dinc vasitələrin növləri....**703**
10.2.3. Beynəlxalq mübahisə anlayışı....**704**
10.2.4. Beynəlxalq mübahisələrin növləri....**708**
10.3. Beynəlxalq mübahisələri siyasi-diplomatik üsulla həlletmə vasitələri....**713**
10.3.1. Danışıqlar aparmaq....**713**
10.3.2. Dövlətlərarası məsləhətləşmə....**721**
10.3.3. Xoşməramlı xidmət....**723**
10.3.4. Vasitəçilik....**725**
10.3.5. İstintaq proseduru....**727**
10.3.6. Barışdırma proseduru....**729**
10.4. Beynəlxalq mübahisələrin həllinin hüquqi vasitələri....**731**
10.4.1. Beynəlxalq mübahisələrin həllinin hüquqi vasitələri anlayışı....**731**
10.4.2. Beynəlxalq arbitraj....**732**
10.4.3. Beynəlxalq məhkəmə....**733**
X FƏSİL ÜZRƏ ƏYANİ SXEM....**736**
X FƏSİL ÜZRƏ TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT....**737**
İXTISARLAR....**738**

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
HÜQUQ FAKÜLTƏSİ

BEYNƏLXALQ PUBLİK HÜQUQ KURSU

D Ə R S L İ K

I CİLD
ÜMUMİ HİSSƏ

Z.H.Əliyevin ümumi redaktəsi ilə

REDAKSİYA QRUPU

Məsul redaktor:

Əliyev Etibar Əli oğlu,
Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, professor, hüquq üzrə elmlər doktoru.

Texniki redaktor:

Pənalıyeva Zümrüd Turabxan qızı,
«Hüquqi müstəvi» elmi-nəzəri, təcrübi jurnalın texniki redaktoru.

Redaktor:

Hüseynov Məzahir Hazarxan oğlu,
hüquqşünas, polis polkovniki.

Çapa imzalanmışdır: 15.12.2022
"Bakı Universiteti" nəşriyyatında
ofset üsulu ilə çap edilmişdir.
Formatı 84×108 1/16.
Şərti çap vərəqi 47. Tirajı 100.
İşarə sayı: 1.114.816
Qiyməti razılaşma yolu ilə